**HƏSƏN QƏNİYEV**

# AZƏRBAYCAN TARİXİ

## (ƏN QƏDİM ZAMANLARDAN – XXI ƏSRİN İLK ONİLLİKLƏRİNƏDƏK)

*Ali məktəblər üçün dərslik*

**Bakı - 2019**

Bakı İslam Universitetinin Elmi Şurasının 7 may 2018-ci il tarixli qərarı ilə (protokol № 4) çapa tövsiyə olunmuşdur.

**Elmi redaktor:** **Anar Camal oğlu İsgəndərov**
*tarix üzrə elmlər doktoru, professor*

**Redaktor:** **Elvin Bəhruz oğlu Talışınski**
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** **Qasım Hacıyev**
*tarix üzrə elmlər doktoru, dosent*

**Lətifə Əliyeva**
*tarix üzrə elmlər doktoru*

**Əzizağa Ələkbərov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Dilavər Əzimli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**Qəniyev H.Q.** Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. Bakı, 2019, "Elm və Təhsil" nəşriyyatı, 499 səh.

Tarix üzrə fəlsəfə doktoru Həsən Qərib oğlu Qəniyevin təqdim etdiyi "Azərbaycan tarixi" dərsliyi Azərbaycan tarixinin ən qədim zamanlardan XXI yüzilliyin ilk onilliklərinə qədərki dövrünün başlıca məsələləri yığcam və real şəkildə araşdırılarq işıqlandırılmış, Azərbaycan tarixinin qədim, orta əsrlər, yeni və ən yeni dövrləri ilə yanaşı, Müstəqil Azərbaycan Respublikasının tarixinə xüsusi yer ayrılmışdır.

Bu dərslik Bakı İslam Universitetinin və digər ali məktəblərin müəllim və tələbələri üçün nəzərdə tutulmuşdur.

© ***H.Qəniyev, 2019***

**“Tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik”.**

**Ulu Öndər Heydər Əliyev**

# MÜNDƏRİCAT

Ön söz ........ 9

FƏSİL 1. AZƏRBAYCAN TARİXİ FƏNNİNİN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ, QAYNAQLARI

§ 1. "Azərbaycan tarixi" fənninin predmeti, metodları, vəzifələri, tarixi biliklər sistemində yeri və öyrənilməsinin əhəmiyyəti ........ 10

§ 2. Azərbaycan adının mənşəyi haqqında ........ 11

§ 3. Azərbaycanın ərazisi, əhalisi və təbii və coğrafi şəraiti ........ 13

§ 4. Azərbaycan tarixinin qaynaqları ........ 15

FƏSİL 2. AZƏRBAYCAN ƏRAZİSİNDƏ İBTİDAİ İCMA CƏMİYYƏTİ

§ 1. Azərbaycan ərazisində ilk insan məskənləri. Qədim və Orta daş dövrü ........ 21

§ 2. İstehsal təsərrüfatının yaranması, Neolit, Eneolit dövrləri ........ 25

§ 3. Azərbaycan Tunc və ilkin dəmir dövründə ........ 28

§ 4. Əhalinin məşğuliyyəti, ictimai həyatı və dünyagörüşü ........ 34

§ 5. İbtidai icma cəmiyyətinin dağılması ........ 36

FƏSİL 3. AZƏRBAYCAN ƏRAZİSİNDƏ QƏDİM DÖVLƏTLƏR

§ 1. Azərbaycanda qədim tayfa ittifaqları və ilkin dövlət qurumları. (Aratta, Lullubi, Kuti) ........ 38

§ 2. Manna dövləti ........ 42

§ 3. Azərbaycan Midiya və Əhəmənilər imperiyasının tərkibində ........ 45

§ 4. Atropatena dövləti ........ 48

§ 5. Albaniya dövləti antik dövrdə ........ 51

FƏSİL 4. AZƏRBAYCAN III – IX ƏSRLƏRDƏ, AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİ TƏRKİBİNDƏ

§ 1. Azərbaycanda feodal münasibətlərinin meydana gəlməsi və inkişafı ........ 55

§ 2. Sasanilərin Azərbaycanı işğal etməsi və ona qarşı mübarizə ........ 58

§ 3. Azərbaycan xalqının təşəkkülü prosesi ........ 64

§ 4. Azərbaycan Ərəb xilafəti tərkibində. İslam dininin Azərbaycanda yayılması ........ 67

§ 5. Ərəblərə qarşı milli-azadlıq mübarizəsi. Xürrəmilik. Babək ........ 74

FƏSİL 5. AZƏRBAYCAN IX-XII ƏSRLƏRDƏ

§ 1. IX-XI əsrlərdə Azərbaycanda müstəqil feodal. Dövlətlərinin yaranması ........ 81

§ 2. Azərbaycan Səlcuq imperiyası tərkibində ........ 86

§ 3 Şirvanşahlar dövləti ........................................................................................ 89
§ 4 Azərbaycan Atabəylər dövləti (1136-1225) ............................................................. 91
§ 5 Azərbaycan İntibah mədəniyyəti dövründə (IX-XII əsrlər) .......................................

FƏSİL 6. AZƏRBAYCAN MOĞOL AĞALIĞI ÇAĞINDA
§ 1. Moğolların mənşəyi və həyat tərzi haqqında məlumat............................................ 99
§ 2. Moğolların Azərbaycana birinci yürüşü. Azərbaycan Xarəzmşah Cəlaləddinin hakimiyyəti altında.......................................................................................................... 101
§ 3. Moğolların Azərbaycana ikinci yürüşü və Azərbaycanda moğol ağalığı.................. 106
§ 4. Hülakülərin Azərbaycanda hakimiyyəti. Moğolların süqutu....................................
§ 5 Moğolların idarəçilik sistemi..................................................................................... 110

FƏSİL 7. AZƏRBAYCAN XIV ƏSRİN İKİNCİ YARISI – XV ƏSRDƏ
§ 1. Azərbaycan XIV əsrin ikinci yarısı. XV əsrin başlanğıcında. Azərbaycanda siyasi vəziyyət. Şirvanşahlar dövləti.............................................................................................. 117
§ 2. Azərbaycan Qaraqoyunlu dövləti ............................................................................ 123
§ 3. Azərbaycan Ağqoyunlu dövləti................................................................................ 126
§ 4. XV əsr Azərbaycan dövlətlərinin sosial-iqtisadi həyatı .......................................... 132
§ 5. XIII – XV əsrlərdə Azərbaycan mədəniyyəti ........................................................... 135

FƏSİL 8. AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (1501-1736)
§ 1. Səfəvilərin Ərdəbil hakimliyi ................................................................................... 139
§ 2. Azərbaycan Səfəvilər dövlətinin yaranması. Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi ................................................................................................ 143
§ 3. Azərbaycan Səfəvilər dövlətinin xarici siyasəti. Səfəvi Osmanlı müharibələri. Azərbaycan Səfəvilər dövləti XVI yüzilliyin 30-50-ci illərində. I şah Təhmasib…........... 154

FƏSİL 9. AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ XVI YÜZİLLİYİN SONU XVII YÜZİLLİKDƏ
§ 1. XVI yüzilin sonu XVII yüzilin əvvəllərində daxili vəziyyət və xarici siyasət........... 168
§ 2. XVII yüzilliyin 20-30-cu illərində Səfəvi-Osmanlı münasibətləri............................ 176
§ 3. Dövlət quruluşu və ordu ........................................................................................... 180
§ 4. XVI-XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyat və mədəniyyət ..................... 183

FƏSİL 10. AZƏRBAYCAN XVIII ƏSRİN BİRİNCİ YARISINDA
§ 1. XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin siyasi və sosial-iqtisadi həyatı, xalq hərəkatı və üsyanlar........................................................................... 197

§ 2. I Pyotrun Azərbaycana işğalçılıq yürüşü və onun ağır nəticələri ............................. 198
§ 3. Səfəvi imperiyasının süqutu, Əfşarlar imperiyasının meydan gəlməsi ...................... 201
§ 4 Azərbaycan Nadir şah Əfşarın dövründə (1736-1747-ci illər) .................................. 203

FƏSİL 11. AZƏRBAYCAN XANLIQLAR DÖVRÜNDƏ
§ 1. Azərbaycanda xanlıqların meydana gəlməsinin səbəbləri və xüsusiyyətləri............. 208
§ 2. Azərbaycanın Cənub xanlıqları ........................................................................ 209
§ 3. Azərbaycanın Şimal xanlıqları ......................................................................... 212
3.1. Şəki xanlığı ................................................................................................. 212
3.2. Quba xanlığı................................................................................................. 214
3.3. Qarabağ xanlığı............................................................................................ 217
§ 4. XVIII Əsr Azərbaycan-Rusiya Münasibətləri ..................................................... 219
4.1. Xanlıqların Rusiya ilə münasibətləri................................................................. 219
4.2. Ağa Məhəmməd Qacar şahın Azərbaycana yürüşləri ............................................. .
4.3. XVIII əsrin 90-cı illərində Azərbaycan-Rusiya münasibətləri................................. 223
4.4. Xanlıqların ictimai-iqtisadi, siyasi quruluşu və mədəni həyatı.
Xanlıqların ictimai-siyasi quruluşu və iqtisadi həyatı.................................................... 224
FƏSİL 12. AZƏRBAYCAN TORPAQLARININ RUSİYA VƏ İRAN QACARLAR ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ
§ 1. XVIII əsrin sonu XIX əsrin əvvəllərində Azərbaycanın beynəlxalq vəziyyəti.
Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən istilasının başlanması............................
§ 2. Birinci Rusiya-Qacar müharibəsi (1804-1813). Gülüstan sülh müqaviləsi.......................
§ 3. İkinci Rusiya-Qacar müharibəsi. Türkmənçay sülh müqaviləsi. İstilanın başa çatması 5

FƏSİL 13. ŞİMALİ AZƏRBAYCAN XIX ƏSRİN 30-40-CI İLLƏRİNDƏ
§ 1. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın..................................................... 254
sosial-iqtisadi və siyasi vəziyyəti............................................................................. 254
§ 2. Çar Rusiyasının köçürmə siyasəti və onun nəticələri ............................................. 261
§ 3.Çarizmin müstəmləkə zülmünə qarşı üsyanlar......................................................... 265
§ 4. XIX əsrin 40-cı illərində keçirilmiş islahatlar ......................................................... 272
§ 5.XIX əsrin I yarısında Azərbaycan mədəniyyəti......................................................... 273

FƏSİL 14. ŞİMALİ AZƏRBAYCANDA ??? ƏSRİN İKİNCİ YARISINDA KAPİTALİST MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI
§ 1. XIX əsrin 60-70-ci illərdə inzibati sistemdə dəyişikliklər və burjua islahatları ......... 275
§ 2. Kənd təsərrüfatında kapitalizmin inkişafı................................................................ 278
§ 3. Sənayedə kapitalist münasibətlərinin inkişafı ......................................................... 284

§ 4. Cənubi Azərbaycan XIX əsrdə ........ 291
§ 5. ??? əsrin ikinci yarısında mədəniyyət ........ 296
FƏSİL 15. ŞİMALİ AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ (1900-1918-CI İL)
§ 1. XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi vəziyyət ........ 302
§ 2. Azərbaycanda milli təfəkkürün formalaşması ........ 307
§ 3. Azərbaycan I Dünya müharibəsi illərində ( 1914- 1918) ........ 318
§ 4. Cənubi Azərbaycan 1905-1911-ci illərdə Məşrutə inqilabı dövründə. Səttarxan ........ 324
§ 5. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti ........ 326

FƏSİL 16. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
(MAY 1918 – APREL 1920-CI İLLƏR)
§ 1. Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyət ........ 331
§ 2.Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması. Milli hökümətin daxili siyasəti ........ 338
§ 3.Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Paris sülh konfransı ........ 347
§ 4. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun tarixdə yeri ........ 357
§ 5. 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı.
Ş.M.Xiyabani ........ 367

FƏSİL 17. SOVET AZƏRBAYCANI 1920-1930-CU İLLƏRDƏ
§ 1.1920-ci illərin əvvəllərində Azərbaycanda siyasi və sosial-iqtisa vəziyyət. Sovet milli dövlət quruculuğu ........ 381
§ 2. Azərbaycan SSR yeni iqtisadi siyasətə keçid və bərpa dövründə ........ 390
§ 3.Azərbaycanda sənayeləşmə və kollektivləşdirmənin həyata keçirilməsi ........ 391
§ 4. Cənubi Azərbaycan 1920-1930-cu illərdə ........ 401

FƏSİL 18. AZƏRBAYCAN SSR II DÜNYA MÜHARİBƏSİ VƏ ONDAN SONRAKI İLLƏRDƏ
§ 1. Azərbaycan İkinci Dünya Müharibəsi illərində ........ 406
§ 2. Azərbaycan döyüşçüləri, müharibə cəbhələri və müqavimət hərəkatında ........ 409
§ 3. Cənubi Azərbaycan II Dünya müharibəsi dövründə ........ 411
§ 4. Azərbaycan II Dünya müharibəsindən sonrakı illərdə (1945-1960) ........ 412
§ 5. Müharibədən sonra Azərbaycan-Ermənistan münasibətləri. Azərbaycanlıların öz doğma yurdlarından – Qərbi Azərbaycandan deportasiyası ........ 416
§ 6. Cənubi Azərbaycanda milli azadlıq hərəkatı (1945-1946). S.C.Pişəvəri ........ 418
§ 7. 1970-1980-cı illərdə sosial-iqtisadi və aqrar sahədə həyata keçirilən tədbirlər ........ 436
§ 8. Azərbaycanda mədəni quruculuğun inkişafında yeni mərhələ ........ 440
§ 9. Cənubi Azərbaycan İran İslam inqilabı və ondan sonrakı dövrdə ........ 443

FƏSİL 19. MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI
§ 1. SSRİ-nin dağılması. Azərbaycan yeni siyasi sistemə keçid dövründə. Azərbaycanın Dövlət müstəqilliyinin bərpası ........ 447
§ 2. Ermənistanın Azərbaycana təcavüzü, onun nəticələri ........ 450
§ 3. Azərbaycanda siyasi sabitliyin bərpası. Sosial-iqtisadi,mədəni sahədə 1993-cü ildən sonra ........ 453
§ 4.Müasir dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri ...... 455
§ 5. Azərbaycan Respublikası üçüncü minilliyin başlanğıcında: siyasi və iqtisadi inkişaf, milli-demokratik dəyərlərin daha da möhkəmlənməsi. ........ 463

Əlavələr ........ 478
İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT ........ 493

# ÖN SÖZ

Dünyanın mədəni xalqları içərisində öz qədimliyi ilə seçilən Azərbaycan xalqı çox zəngin tarixə malikdir. Tarix hər bir xalqın, o cümlədən Azərbaycan xalqının da milli özünüdərkinin əsas sütunlarından birini təşkil edir. Tarix bəşəriyyətin, o cümlədən ayrı-ayrı xalqların həyatında qədim zamanlardan bu günə qədər baş vermiş ən mühüm hadisələri öyrənən elm hesab olunur. Azərbaycanda yetişməkdə olan gənc nəslin tarixi yaddaşının möhkəmləndirilməsində, onlarda vətənə, torpağa, vətənpərvərlik hisslərinin tərbiyyəsində, həmçinin Azərbaycanı sevən, onu hər an müdafiə etməyə hazır olan bir vətəndaş kimi formalaşmasında “Azərbaycan tarixi” fənninin rolu əvəzsizdir. Mövcud maddi və mənəvi dəyərlər sübut edir ki, Azərbaycan xalqı qədim və zəngin tarixə malikdir. Dünyanın ilk sivilizasiyalarının yarandığı məkanlardan biri də Azərbaycan olmuşdur.

“Azərbaycan tarixi” kursunun mövzusu çox genişdir, çünki o, ölkəmizin ən qədim çağlarından bu günümüzədək mövcud olan sosial-iqtisadi, siyasi, etnik, mədəni tarixini əks etdirir.

1991-ci ildə 18 oktyabrda müstıqilliyini bərpa etdikdən sonra gənc Azərbaycan Respublikası Ulu öndərimiz Heydər Əliyevin müdrik rəhbərliyi ilə inamla gələcəyini qurmağa başladı. Sosial-iqtisadi, siyasi, mədəni sahələrdə, o cümlədən elm sahəsində xalqımızın fəaliyyəti üçün geniş imkanlar açıldı. Azərbaycanın tarixçi alimlərinin son illərdə apardığı elmi araşdırmalar nəticəsində “Azərbaycan tarixi”nin qaranlıq qalan səhifələri işıqlandırılmış, xalqımızın real tarixinin ölkə ictimaiyyətinə və beynəlxalq aləmə çatdırılması istiqamətində mühüm işlər görülmüşdür.

Ulu öndərimiz Heydər Əliyev “Azərbaycan tarixi”nin elmin son nailiyyətləri əsasında tam obyektiv şəkildə yenidən yazılmasını və öyrənilməsini vacib bir vəzifə kimi qarşıya qoymuşdur.

Son illərdə Azərbaycan tarixinə aid bir sıra dərsliklər və dərs vəsaitləri nəşr olunmuşdur. Təqdim olunan dərslik ali məktəblərdə tədris olunan “Azərbaycan tarixi” fənninin proqramına uyğun olaraq tərtib olunmuşdur.

“Azərbaycan tarixi” adlı dərslik ali məktəb müəllimləri, bakalavr və magistr pilləsində bütün ixtisaslar üzrə təhsil alan tələbələr üçün, o cümlədən Azərbaycan tarixini öyrənən və maraqlanan bütün oxucular üçün nəzərdə tutulmuşdur. “Azərbaycan tarixi” dərsliyi mətnlərinin kompüter yığımında mənə köməklik edən Gülnarə Əsədullayevaya öz dərin təşəkkürümü bildirirəm.

***Müəllifdən***

# FƏSİL 1. AZƏRBAYCAN TARİXİ FƏNNİNİN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ, QAYNAQLARI

*§ 1. "Azərbaycan tarixi" fənninin predmeti, metodları, vəzifələri, tarixi biliklər sistemində yeri və öyrənilməsinin əhəmiyyəti.*
*§ 2. Azərbaycan adının mənşəyi haqqında.*
*§ 3. Azərbaycanın ərazisi, əhalisi və təbii və coğrafi şəraiti*
*§ 4. Azərbaycan tarixinin qaynaqları.*

## *§ 1. "Azərbaycan tarixi" fənninin predmeti, metodları, vəzifələri, tarixi biliklər sistemində yeri və öyrənilməsinin əhəmiyyəti*

Tarix elminin məzmununu tarixi proses təşkil edir. Tarix elminin bünövrəsində faktların toplanması, sistemləşdirilməsi və ümumiləşdirilməsi durur. Azərbaycan tarixi dünya tarixinin ayrılmaz hissəsidir. "Azərbaycan tarixi" fənninin **predmeti** Azərbaycan tarixinə dair bilikləri ümumiləşdirərək tarixi məkan, tarixi zaman, dövlət, şəxsiyyət, iqtisadiyyat və mədəniyyət məzmun xətləri üzrə qruplaşdırıb gənc nəslə çatdırmaqdan ibarətdir.

Azərbaycan tarixinin tədrisinin ən ümdə **vəzifələri** tələbə-gənclərə Vətənimizin tarixi keçmişi haqqında dərin biliklər vermək, onlara tariximizin mürəkkəb və ziddiyyətli dövrlərindən baş açmağı öyrətmək, onlarda tarixi təfəkkürü formalaşdırmaq, cəmiyyətdə baş verən hadisələri obyektiv qiymətləndirmək bacarığı aşılamaqdan ibarətdir.

Azərbaycan tarixinin öyrənilməsinin əhəmiyyəti ondan ibarətdir ki, tələbə-gənclərə Vətənimizin tarixinin ən qədim zamanlardan bugünədək keçdiyi tarixi yolu izləməyə imkan verir, tariximizdəki qaranlıq səhifələrin işıqlandırılmasında, onlarda dövlətçilik məfkurəsinin, keçmişə hörmət, gələcəyə inam hisslərinin formalaşmasında, gənclərdə vətənpərvərlik ruhunun tərbiyə edilməsində, onlarda analitik düşüncə qabiliyyətinin inkişafında böyük rol oynayır.

Bu gün Azərbaycanın iqtisadi-siyasi, mədəni təsir diapazonunun daha da genişləndiyi bir şəraitdə ölkəmizin tarixinin tədrisinin daha da təkmilləşdirilməsi və milli-mənəvi dəyərlərimizin gənc nəslə daha dərindən aşılanması tələb olunur.

Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Vətənin bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin getdiyi bir zamanda xalqın vətəni qorumağa qadir, mərd, sadiq gənclərə böyük ehtiyacı var. Buna görə də "Azərbaycan tarixi" fənninin tədrisində əsas vəzifələrdən biri yeniyetmə və gəncləri Vətənimizin qədim tarixi və zəngin mədəni irsi ilə yaxından tanış etmək, gənclərin Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı biliklərinin və dünyagörüşlə-

rinin hərtərəfli inkişafına nail olmaq, onlarda vətənpərvərik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsidir.

**“Azərbaycan tarixi” fənninin metodları.** Azərbaycan dilindəki “metod” sözü yunan sözü “metodos”dan yaranmışdır və tərcümədə “tədqiqat yolu”, “tədqiqat üsulu” mənasını verir. Eyni məzmunlu metodların toplusu **yanaşma** adlanır. Metodlar yaranır, dəyişir, yəni daim inkişaf edir. Metodların öyrənilməsi və hazırlanmasına yönəlmiş elmi dərketmə fəaliyyətinin nəzəriyyəsi **metodologiya** adlanır. Tarixin metodologiyası tarixi biliklər və tarixi tədqiqat metodlarının xüsusiyyətinə uyğun olaraq formalaşmışdır. Əgər tarixi keçmiş haqqında biliklər zəruridirsə, onlar bütün nəsillər tərəfindən öyrənilməlidir. Müasir tarix elmində “tarixi metod” dedikdə tarixi reallığı öyrənən bütün metodlar nəzərdə tutulur. Ancaq tarixi tədqiqat zamanı əsasən dörd klassik metoddan – tarixi-genetik, tarixi-müqayisəli, tarixi-tipoloji və tarixi-sistemli metodlardan istifadə edilir.

**Tarixi-genetik metod** tarixi tədqiqatlarda ən geniş istifadə olunan metoddur. **Bu metod** tədqiq olunan obyektiv tarixi reallığın xüsusiyyətlərinin, funksiyalarının və dəyişikliklərinin tarixi dinamikada araşdırılmasını nəzərdə tutur. Elmi təfəkkürün ən geniş yayılmış tətbiqi metodlarından biri **tarixi-müqayisəli** metoddur. Bu metoddan demək olar ki, bütün tarixi tədqiqatlarda istifadə olunur. İctimai-tarixi inkişafın təkrarlanması və daxilən müəyyənləşmiş qanunauyğun proses olması **tarixi-müqayisəli metodun əsasını** təşkil edir. Tədqiq edilən tarixi obyekt haqqında bütün məlumatların toplanması və bu məlumatların sistemləşdirilməsi tarixi-müqayisəli metodun tətbiqinə şərait yaradır. **Tarixi-tipoloji metodun** obyektiv əsasını ictimai-tarixi inkişafda bir-biri ilə qarşılıqlı əlaqədə olan tək, xüsusi və ümumi cəhətlərin mövcudluğu təşkil edir. Çox zaman tədqiqatçılar bütün tarixi proses və hadisələrin daxili mahiyyətini şərtləndirən ümumi xüsusiyyətlərin aşkarlanmasına daha çox üstünlük verirlər. **Tarixi-sistemli** metod tədqiq edilən ob-yektiv tarixi reallığın nisbətən tam əhatə olunmasına, onun daxili fəaliyyət mexanizminin araşdırılmasına imkan verir və onun əsasını tarixi inkişafda vahid, xüsusi və ümuminin birliyi prinsipi təşkil edir.

“Azərbaycan tarixi” fənninin öyrənilməsi zamanı həmçinin, riyazi metodlardan, ekstrapolyasiya, ümumiləşdirmə və sair metodlardan da istifadə edilir.

## *§ 2. Azərbaycan adının mənşəyi haqqında*

Hansısa bir ölkənin ona ən qədim zamanlardan verilən adı bugünümüzədək qoruyub saxlaya bilməsi nadir hadisələrindəndir. Azərbaycan ərazilərində mövcud olan dövlətlərin adları müxtəlif amillər əsasında yaranırdı. Bu amillər sırasında etnosun və ya şəxsin adı, ərazinin coğrafi xüsusiyyəti kimi amillər daha çox rol oynamışdır. Məsələn, Azərbaycan ərazisində - Urmiya gölünün cənub və cənub-şərqində e.ə.III minilliyin birinci yarısında Aratta dövləti mövcud olmuşdur. “Aratta” ölkəsinin adı sadəcə “dağ”, “dağlıq ölkə” mənasını verirdi və göründüyü kimi, ölkənin adı ərazisinin coğrafi xüsusiyyəti – dağlıq olması ilə bağlı idi.

E.ə.III minilliyin ikinci yarısına aid Şumer–Akkad mənbələrində Urmiya gölünün cənubunda Lullubinin və gölün qərb ətrafında Kutium dövlətlərinin adı çəkilmişdir. Heç şübhəsiz Cənubi Azərbaycan ərazilərində mövcud olan bu dövlətlərin adı etnik amillə, yəni bu dövlətləri yaradan tayfaların adı ilə bağlı olmuşdur. E.ə.II minillikdə də Azərbaycan ərazilərində mövcud olan ölkələrin adları tayfa adları ilə əlaqəli olmuşdur. Belə ki, Urmiyadan cənub və cənub-şərq torpaqlar (keçmiş – Aratta) turukki tayfalarının adından Turukkum adlanırdı.

E.ə.I minillikdə Azərbaycan torpaqları haqqında ən qiymətli məlumatlara Assuriya mixi yazılarında rast gəlinir. Assuriya mənbələrində Urmiya gölündən şimal və şimal-şərq ərazilər "mannalıların ölkəsi" və yaxud "Manna" adlandırılır. Urmiyadan cənub və cənub-şərq ərazilər – Alateye ölkəsi kimi verilir. Manna Midiyanın əsarətinə düşdükdən sonra "Manna" adına tarixi mənbələrdə rast gəlinmir və keçmiş Manna əraziləri "Şimali Midiya" və yaxud "Kiçik Midiya" kimi göstərilir ki, bu da əvvəlcə Midiya, daha sonra Əhəməni çarlarının apardığı işğalçılıq siyasətinin nəticəsi idi.

E.ə.II əsrdən Polibi Azərbaycanın cənub hissəsini "Artabazanın vilayəti" adlandırmışdır ki, bu da şübhəsiz hökmdarın adı ilə bağlı idi. Lakin bu ad geniş yayılmadı, tarixdən silindi. Nəhayət, e.ə.I əsrdə yunan coğrafiyaçısı Strabon Plininin "Artabazan ölkəsi" adlandırdığı əraziləri Atropatena kimi adlandırmışdır. Erkən orta əsrlərdə indiki Cənubi Azərbaycan əraziləri Suriya və Bizans mənbələrində - Adorbiqan, Adarbaqan, fars mənbələrində - Aturpatakan, Adurbadaqan, Azərbayqan; ərəb mənbələrində - Adirbican, Azərbican və nəhayət Azərbaycan kimi formalarda göstərilmişdir.

Beləliklə, bu gün "Azərbaycan" adının mənşəyi barədə əsas iki baxış mövcuddur. Bəzi müəlliflər "Azərbaycan" adının mənşəyini sərkərdə Atropatın adı ilə, yəni şəxsi amillə bağlayır; bəziləri isə "Azərbaycan" adının coğrafi amillə, yəni yerin xüsusiyyətləri ilə bağlılığını təsbit etməyə çalışırlar.

Strabonun xalq rəvayətinə əsaslanan məlumatına görə Əhəmənilər dövründə Atropat adlı canişin "Kiçik Midiya" vilayətini (keçmiş Manna ərazisini) idarə etmiş, e.ə. 331-ci ilin Qavqamel döyüşündə III Daranın qoşunlarında Makedoniyalı İskəndərə qarşı vuruşmuş, əsir düşmüş və İskəndər tərəfindən bağışlanaraq Şimali Midiya satraplığının canişini təyin olunmuşdur. E.ə. 323-cü ildə İskəndərin ölümündən sonra idarə etdiyi ərazilərdə müstəqil dövlət qurmuş və bu dövlət Atropatın adı ilə Atropatena adlanmışdır. Atropatena adından isə Azərbaycan adı yaranmışdır.

Başqa bir yanaşmaya görə isə "Azərbaycan" adının etimologiyası türk toponimikasında "yüksəklik", "təpəlik, təpəli dağ ətəyi, dağ silsiləsi" mənasını verən "adır" sözü ilə bağlıdır. Məlumdur ki, Cənubi Azərbaycanın böyük bir hissəsini dağlıq ərazilər təşkil edir. Təsadüfi deyil ki, hələ qədim dövlətlərin – Arattanın, Alateyenın adları "dağ", "dağlıq ölkə" məfhumu ilə bağlı olmuşdur. E.ə. XIII-VII əsrlərə aid mixi yazılarda, Manna ilə Midiyanın sərhəd hissəsində, Qızıl Üzən çayının cənub-qərb mənbəyində Andarpatian adlı vilayət mövcud olmuşdur ki, o da Mannanın tərkibinə daxil idi. Andarpatian adını Azərbaycan adının sonrakı Adər-

badqan, Azərbayqan, Adirbican, Azirbican və Azərbaycan formalarının başlanğıcı hesab etmək olar.

Beləliklə, mixi mənbələrdəki Andarpatian və yaxud Adərpayqan vilayət adını "Azərbaycan" adının ən qədim və ilkin forması kimi qəbul etmək olar. Mannanın bir vilayətinə şamil edilən bu ad tədricən eyni coğrafi mənzərəni əks etdirən şimal ərazilərə də şamil edilmiş böyük bir ərazini bildirən ölkə adına çevrilmişdir. Sonralar, Atropatın dövründə ölkənin adı onun adına uyğunlaşdırılaraq antik yazılı mənbələrə Atropatena kimi düşmüşdür.

Məlumdur ki, coğrafi adın tətbiqi zamanı onun arealının genişlənməsi baş verə bilər. Belə ki, bugünkü İranın mərkəzi ərazilərində yaranan Midiya dövlətinin adı sonralar onun tərkibinə qatılmış başqa ərazilərə də şamil olunmuşdur və yaxud Albaniyanın kiçik bir vilayəti olan Girdimanın adı sonralar bütöv bir dövlətə aid edilmişdir.

Zaman keçdikcə "Azərbaycan" məfhumunun da həm coğrafi, həm də siyasi tətbiq dairəsi genişlənmiş və artıq erkən orta əsrlərdə (V əsrdən başlayaraq) Azərbaycan deyəndə yalnız Arazdan cənuba deyil, həmçinin Arazdan şimala Dərbəndə qədər ərazilər nəzərdə tutulurdu. Belə ki, ərəb müəllifi Əbu Cəfər Məhəmməd ibn-Cərir ət-Təbəri "Tarix ər-Rüsul vəl-müluk" ("Peyğəmbərlərin və hökmdarların tarixi") əsərində yazır ki, Sasani hökmdarı I Xosrov Ən-Nuşirəvanın (531-579-cu illər) zamanında Sasanilər imperiyası dörd canişinliyə bölünmüşdü və onların dördüncüsü Azərbaycan (Adurbadağan) canişinliyi "Xəzərlərin ölkəsinə" qədər uzanırdı. Xəzər xaqanlığı Dərbənddən şimalda yerləşirdi və Təbərinin yazdığından görünür ki, Dərbəndə qədər ərazilər VI əsrin əvvəllərindən artıq Azərbaycan adlanırdı. Dərbəndin qala divarlarına sasanilərin Azərbaycandakı mərzbanı tərəfindən 553-cü ildə pəhləvi dialektində həkk etdirilmiş "Adurbadağanın vergi toplayanı Bərzinş" yazısından da məlum olur ki, o vaxt Azərbaycanın şimal sərhəddi Dərbəndə çatırdı. Eləcə də X əsr fars tarixçisi Əbu-Əli Məhəmməd ibn Əbülfəzl Məhəmməd əl-Bələmi özünün "Tərcümeyi tarix-i Təbəri" əsərində aydın surətdə yazır: "Azərbaycannın hüdudunun başlanğıcını Əbhər və Zəncan daxil olmaqla Həmədan, axırını isə xəzərlərin Dərbəndindən götürürlər və bu aralıqda olan bütün on-on iki şəhəri Azərbaycan adlandırırlar". Beləliklə, erkən orta əsrlərdə Azərbaycan şimalda Dərbəndə, cənubda Qəzvin, Zəncana və Həmədana kimi, qərbdə İrəvan, Göycə mahalı və Tiflisə qədərki ərazilər daxil olmaqla geniş bir ərazini əhatə edirdi.

### *§ 3. Azərbaycanın ərazisi, əhalisi və təbii və coğrafi şəraiti*

Azərbaycan ölkəsinin tarixi əraziləri Cənubi Qafqazın şərq və cənubi-qərb hissəsini və indiki İran dövlətinin şimali-qərbini əhatə edir. Ümumi sahəsi 410 min $km^2$, əhalisinin sayı 60 milyondan artıq olan bu ölkənin şimal hüdudları Dərbəndə, cənub hüdudları isə Həmədana qədər uzanır. Şərqdə Xəzər dənizi və Qazvin şəhəri, qərbdə isə indiki Gürcüstan və Türkiyə ilə həmsərhəddir.

1813-1828-ci illərdə Çar Rusiyası ilə İran Qacarlar dövləti arasında baş vermiş müharibələr nəticəsində Araz çayından şimaldakı Azərbaycan torpaqları (130 min kv. km) Rusiya tərəfindən işğal edildi. İşğal nəticəsində təxminən 410 min kv. km olan ərazimiz iki hissəyə bölündü.

Hazırda bu tarixi ərazinin yalnız 86,6 min $km^2$ hissəsində müstəqil Azərbaycan Respublikası fəaliyyət göstərir ki, onun da əhalisinin sayı artıq 9,8 milyonu keçmişdir. Yerdə qalan Azərbaycan torpaqlarının böyük bir hissəsi - Cənubi Azərbaycan indiki İran İslam Respublikasının tərkibindədir ki, onun da ərazisi 280 min $km^2$ və əhalisi - 35 milyondan artıqdır. Bundan savayı 28 min $km^2$ Azərbaycan torpaqları indiki Ermənistan, 8 min $km^2$ - Gürcüstan və 7 min $km^2$-dən artıq ərazilərimiz Rusiya Federasiyasının Dağıstan Respublikasının tərkibində qalmaqdadır. İraqın şimalında Kərkük və Türkiyənin şərqində bir neçə vilayət də tarixən Azərbaycan türklərinin yaşadığı ərazilərdir. Araz çayı Azərbaycan ərazilərini iki hissəyə bölür.

Arazdan başqa şimaldan Kür, cənubdan isə Qızıl Üzən (farslar ona Səfidrud deyirlər) Azərbaycanın ən böyük çaylarıdır. Bundan əlavə, ölkədə 200-dən artıq çay vardır ki, onların hamısı başlanğıcını dağlardan götürür. Azərbaycanın cənubunda şor sulu Urmiya gölü yerləşir. Onun sahəsi 5900 kvadrat kilometr, uzunluğu 140 km, maksimal eni 40 kilometrdir. Gölün sutoplayıcı hövzəsinin ümumi sahəsi 50 min kvadrat kilometrdir. Maksimal dərinliyi 15 metr olan bu gölün səviyyəsi yalnız yağmurlu payız və yaz aylarında qalxır. Yayda isə su səthinin intensiv buxarlanması nəticəsində gölün su səviyyəsi kəskin azalır. Son zamanlar İran dövlətinin bu bölgədə apardığı ekoloji siyasət Urmiya gölünü tam qurumaq təhlükəsi qarşısında qoymuşdur.

Azərbaycan relyefinə görə dağlıq ölkədir. Azərbaycanın ərazisinə daxil olan Böyük Qafqaz dağlarının şərq qolu sonra cənub istiqamətində uzanır və Kiçik Qafqaz dağ silsiləsini təşkil edir. Silsilə cənuba doğru uzanaraq indiki İran və İraqın sərhəddini təşkil edən Zaqros dağları ilə bitir. Azərbaycan ölkəsinin cənub-qərb sərhədləri Zaqros dağlarından keçir. Azərbaycanda Şahdağ, Qarabağ yaylası, Murovdağ, Talış, Qaradağ, Savalan, Səhənd və sair dağlar, Kür-Araz, Lənkəran, Ərdəbil, həmçinin Urmiya gölü hövzəsi dərinliyi, Sulduz, Miyanə, Zəncanrud vadiləri və sairə kimi böyük ovalıqlar vardır. Dağlar arasında yerləşən çay vadiləri yararlı torpaqlara malikdirlər və bu ərazilərdə hələ qədim zamanlardan əkinçilik və maldarlığın inkişafı üçün əlverişli şərait mövcud olmuşdur. Azərbaycanın dağlıq relyefə malik olması səbəbindən tarixən geniş miqyasda suvarma sisteminin yaradılması mümkün olmamış, ayrı-ayrı vadi və ovalıqlarda yerli əhəmiyyətə malik olan xırda suvarma şəbəkələri mövcud olmuşdur. Bu səbəbdən, Azərbaycan ərazisində yaranmış ilk qədim dövlətlərin siyasi təsir dairəsi ayrı-ayrı regionların sərhəddindən kənara çıxaraq bütün Azərbaycan ərazilərini əhatə edə bilməmişdir.

Müasir Azərbaycan iqlimi 4-5 min il öncəki iqlimdən fərqlidir. İndiki dövrdə Azərbaycana daha çox kontenental iqlim xasdırsa, ən qədim zamanlarda ölkəmizdə əsasən rütubətli, isti iqlim mövcud olmuşdur. Azərbaycan ərazisində

qışı yumşaq keçən subtropik regionlarda hələ yanvar-fevral aylarından torpaq göy otla örtülürdü ki, bu da hələ Mezolit dövründən erkən maldarlığın yaranmasına və inkişafına imkan vermişdir.

Tarixən Azərbaycan iqtisadiyyatının inkişafını dağ ilə aranın qarşılıqlı əlaqəsi, mal mübadiləsi təmin etmiş, dağlarda yerləşən otlaqlar, yaylaqlar köçəri və yarım köçəri maldarlığı əhalinin bir qisminin ənənəvi təsərrüfat formasına çevirmişdir.

Azərbaycanın zəngin flora (heyvanat) və fauna (bitki) aləmi vardır. Meşələri, xüsusilə dağ meşələri ov heyvanları ilə zəngin olmuşdur ki, bu da qədim insanların bu ərazilərdə erkən məskunlaşmasına şərait yaratmışdır. Meşələrdə bitən qarağac, dəmirağac, dağdağan və başqa nadir ağaclardan qədim zamanlardan başlayaraq qab-qacaq, nəqliyyat vasitələri, qoşqu ləvazimatı, bəzi silahların, tikinti materiallarının hazırlanmasında istifadə olunurdu.

Azərbaycan faydalı qazıntılarla zəngin ölkədir. Hələ qədim mixi yazı abidələrində ölkədə dəmir, mis, qurğuşun, sink, arsen, qiymətli metallardan qızıl, gümüş, minerallardan müxtəlif rəngli çaxmaq daşı, yəşəm daşı, mərmər, daş və duz yataqları və sairənin olması haqqında məlumatlar verilir. Azərbaycan ərazisində hasil edilən qızıl, gümüş, qurğuşun, müxtəlif mineral daşlar və rənglər (duz, ametist, arsen, civə, oxra) laciverd, mərmər, tikinti daşları qonşu ölkələrə ixrac edilirdi. Zəngin təbii sərvətlərə məxsus Azərbaycan daim işğalçı qüvvələrin diqqətini çəkmişdir.

Beləliklə, Azərbaycanın təbii-coğrafi şəraiti - iqlimi, yer quruluşu, yeraltı və yerüstü təbii sərvətləri, yerləşdiyi coğrafi mövqeyi onun keçdiyi tarixi yola mühüm təsir etmiş və etməkdədir.

## *§ 4. Azərbaycan tarixinin qaynaqları*

**Azərbaycan tarixinin ən qədim və antik dövrə aid mənbələri.** Azərbaycan tarixi üzrə qaynaqlar iki hissəyə – **arxeoloji və yazılı qaynaqlara** bölünür. Arxeoloji qaynaqlara qazıntılar zamanı yeraltı mədəni təbəqələrdən, qəbir abidələrindən, qədim yaşayış məskənlərindən aşkar edilmiş müxtəlif əmək alətləri, sadə silah növləri, məişət və bəzək-düzək əşyaları, dini təsəvvürləri ifadə edən heykəlciklər, göz muncuqları və s. əşyalar aiddir. Arxeoloji qazıntılar zamanı ən qədim və qədim dövrün mədəniyyətinin, yaşayış tikililərinin formasının, dəfnetmə mərasimlərinin, qədim insanların antropoloji görkəminin, qədim istehkamların inşası xüsusiyyətlərinin tədqiq edilməsi üçün çox qiymətli abidələr və abidə qalıqları üzə çıxarılır. Azərbaycanın ən qədim və qədim tarixinin öyrənilməsində **arxeoloji tədqiqatların** əvəzolunmaz rolu olmuşdur və ildən-ilə əldə edilən arxeoloji materiallar tariximizin qaranlıq qalan səhifələrinin öyrənilməsində müstəsna rol oynayır.

Azərbaycan tarixinin qalıqları sırasında əsas yeri **yazılı mənbələr** tutur. Məlumdur ki, yazı hələ eramızdan əvvəl V minillikdə yaranmışdır. Ən qədim yazı növləri **piktoqrafiya və mixi yazı** növləridir. **Piktoqrafiya** - şəkil, qrafos - yazı,

yəni "şəkli işarələrlə yazı" mənası verir və bu yazı növündən qədim İkiçayarasında (Mesopotamiyada) istifadə olunmuşdur.

**Mixi yazılarda** işarələr mismara bənzədiyindən onu başqa cür mismarı yazı adlandırırlar. Mixi yazılardan daha çox Ön Asiyanın və Orta Şərqin ən qədim dövlətlərində - Şumerdə, Akkadda, Misirdə, Babilistanda və s. istifadə olunmuşdur. Məhz həmin ölkələrin mixi yazılarında Azərbaycan tarixinin ən qədim dövrü haqqında müəyyən məlumatlar verilir. Bu baxımdan ən önəmli qaynaqlar e.ə. III-I minilliklərdə mövcud olmuş Şumer-Akkad, Assuriya (Aşşur) və Urartu dövlətlərinə aid mixi yazılardır.

Şumer, Akkad və Assuriya İkiçayarasında ardıcıl mövcud olmuş dövlətlərdir və coğrafi baxımdan onlar hamısı Azərbaycan ərazilərinin (Cənubi Azərbaycanın Urmiya gölü hövzəsi) qonşuluğunda mövcud olduğundan qədim Azərbaycanda yaşayan tayfalarla sıx iqtisadi-ticarət, siyasi və mədəni əlaqələrdə olmuşlar. Bütün bu əlaqələr haqında qədim **Şumer, Akkad və Assuriya qaynaqlarında** məlumatlar əks olunub. Ümumiyyətlə, mixi yazıları nəinki Cənubi Azərbaycan ərazisində mövcud olmuş Aratta, Lullubi, Kuti və Manna dövlətləri barədə təsəvvür yaratmağa imkan verir, həmçinin bu yazılarda əks olunan yer, məkan, şəxs adlarının elmi təhlili əhalinin etnik tərkibi və mənsubiyyəti haqqında müəyyən nəticələrə gəlməkdə əhəmiyyətə malikdir.

Eramızdan əvvəl V əsrdən - eramızın IV əsrinə qədərki dövr qədim dövr hesab olunur və bu dövrə aid Azərbaycan tarixi barədə ən qiymətli məlumatlar antik yunan və latın yazılı mənbələrində saxlanılmışdır.

**Qədim Yunan müəllifləri** qonşuluqda yerləşən Şərq aləmi ilə dərindən maraqlanmış və bu regionda mövcud olan dövlətlər, tayfalar haqqında müxtəlif məlumatlar toplamış və kitablarında əks etdirmişlər. Azərbaycanın ərazisi, əhalisi, coğrafi mövqeyi, siyasi vəziyyəti haqqında ən geniş məlumatlar e.ə.V əsrdə yaşamış qədim yunan tarixçisi Heradotun "Tarix" əsərində verilmişdir. Şübhəsiz, Heradotun dövründə Şərqdə yerləşən dövlətlərin, tayfa birliklərinin tarixinə maraq əsrlərlə davam edən yunan - İran qarşıdurmasından irəli gəlmişdir: müharibələr yunan cəmiyyətində öz rəqibləri haqqında daha ətraflı məlumata malik olmaq zərurəti yaratmışdır.

E.ə.IV əsrin 30-cu illərində Makedoniyalı İskəndərin Şərqə uğurlu yürüşlərindən sonra bu regionun dərindən öyrənilməsinə maraq daha da artdı və bu proses sonrakı əsrlərdə də davam etmişdir. Antik dövrdə qədim yunan, Roma tarixçiləri, coğrafiyaçıları Strabon, Ptolemey, Pekini, Arrian, Kursi Ruf, Ammian Marselin, Tassit, Yuli Solin, Ksenofont və başqaları Şərq aləminə həsr etdikləri əsərlərdə qədim Azərbaycanın coğrafiyası, əhalisi, əhalinin məşğuliyyəti, etnik tərkibi, burada baş verən siyasi hadisələr və s. barədə məlumatlar vermişlər.

**Orta əsr yazılı qaynaqları (IV-XVIII əsrlər).** Erkən orta əsrlərdə (IV-X əsrlər) Azərbaycan tarixinin yazılı mənbələri daha da genişlənmişdir. Bu dövrdə Azərbaycan tarixinə aid müfəssəl məlumatlar Bizans, qədim Alban, erməni və ərəb mənbələrində verilir.

**Bizanslı müəlliflərin əsərlərində** (Menandr, Prokopiy, Aqafi, Simokatta, İordan və başqaları) erkən orta əsrlərdə baş verən ictimai-siyasi hadisələr haqqında məlumatlar verilir. Xüsusən, hunların və sair türk mənşəli tayfaların Cənubi Qafqazda məskunlaşması, onların məşğuliyyəti, dini, inancları, dili və etnik adları haqqında məlumatlar bu mənbələrdə geniş yer almışdır.

Qədim Alban mənbələrindən ən qiymətlisi alban tarixçisi Musa Kalankatlının "Alban tarixi" əsəridir. Musa Kalankatlı VII əsrin sonu – VIII əsrin əvvəllərində yaşamış, "Alban tarixi"nin I və II kitablarını yazmışdır. Əsərin III və IV kitabları isə onun tələbələri tərəfindən kitaba əlavə edilmişdir. "Alban tarixi"ndə Azərbaycan ərazilərində İncil tarixindən X əsrin sonuna qədərki dövrdə baş verən hadisələr haqqında məlumatlar verilir.

**Ərəb qaynaqlarında** Azərbaycan haqqında verilən məlumatlar xronoloji baxımdan VII əsrdən başlayır. Ərəb müəlliflərinin əsərlərini (Bəlazuri, İbn Xordadbeh, İbn Havgəl, Təbəri, Müqəddəsi, Yaqut Həməvi, Məsudi və başqaları) fərqləndirən başlıca cəhət onlarda Azərbaycan haqqında daha müfəssəl məlumatların əks olunmasıdır. Bu mənbələrdə Azərbaycanın şəhərləri, əhalisi, əhalinin dili, dini, etnik mənsubiyyəti, siyasi hadisələr və sairə haqqında çox geniş bilgilər verilir. Həmin mənbələrdə Azərbaycan adının mənşəyi barədə mövcud mülahizələr əks olunmuş, Azərbaycanın tarixən qədim zamanlardan türklər ölkəsi olduğu göstərilmişdir.

**Orta əsr yazılı qaynaqları (XI-XVIII əsrlər).** Bu dövrün ərəb, fars və türkdilli qaynaqlarında Azərbaycan tarixinə aid qiymətli məlumatlar əks olunmuşdur. Ərəb müəlliflərindən İbn Əl-Əsir Azərbaycan ərazisi və tarixi barədə müxtəlif məlumatlar qeydə almışdır. Həmdullah Qəzvini orta əsr Azərbaycan şəhərləri, dağları, çayları və təbii sərvətləri, əhalisinin etnik tərkibi, məşğuliyyəti barədə məlumat verir. Fəzlullah Rəşidəddin də əsərlərində, Hülakilər dövləti dövründə Azərbaycanın iqtisadi, siyasi, demoqrafiq məsələlərini işıqlandırmışdır. Sədrəddin Hüseyninin əsəri isə Səlcuq sülaləsinə, səlcuqların Azərbaycana yürüşləri və bu bölgədə möhkəmlənməsinə həsr olunmuşdur. Əslən Bakıdan olan Rəşid Əl-Bakuvinin əsərlərində Azərbaycanın coğrafi şəraiti və əhalisi haqqında qiymətli məlumatlar verilir.

Orta əsrlərdə yazıb yaratmış Cuveyni, Məhəmməd Naxçıvani, Həsənbəy Rumlu, Ən-Nəsəvi, Xondəmir (Qiyasəddin Hüseynli), Mir Yəhya Qəzvini, Şərəfxan Bitlisi, İskəndər Münşi, Hüseyn Bürhan, Mirzəbəy Həsən Hüseynli, Məhəmməd Tahir, Əylisli Zəkəriyyə, Mustafa Əfəndi, Övliya Çələbi və sair müəlliflərin yazdığı əsərlərdə də Azərbaycan tarixinin müxtəlif məsələlərinə dair fraqmentar məlumatlar verilmişdir.

Orta əsr yazılı mənbələrinin bir qismini **avropalı müəlliflərin əsərləri** təşkil edir. Azərbaycana gələn Avropa səyyahları Adam Oleari, Peter de Valli, Yan Şardın, Kempfer, J.Lerx, Tomas Herbert, Jan Batist Tavernye, Rafael dü Man və başqalarının əsərlərində Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatına dair müxtəlif məlumatlar yer almışdır.

**Yeni və ən yeni dövrün qaynaqları.** XIX əsr Azərbaycan tarixinin öyrənilməsində "Qarabağnamələr"in böyük əhəmiyyəti vardır. Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" (1847), Əhməd bəy Cavanşirin "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair", Mirzə yusif Qarabağinin "Tarixi – Safi", Mirmehdi Xəzaninin "Kitabi – tarixi Qarabağ", Mirzə Rəhim Fənanın "Tarixi-cədidi Qarabağ", Məhəmməd Baharlının "Əhvalati – Qarabağ", Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi" əsərləri Qarabağ və ümumən Azərbaycan tarixinin öyrənilməsində çox qiymətli mənbələrdir.

Kərim ağa Fateh və Hacı Seyid Əbdul Həmid Şəki xanlığının tarixinə dair əsərlər yaratmışlar. A.A.Bakıxanov "Gülistani-İrəm" əsərində Azərbaycan və Dağıstanın qədim zamanlardan öz dövrünə kimi baş vermiş tarixi hadisələrini şərh etmişdir. 1866-1917-ci illərdə Tiflisdə çap olunan 12 cildlik "Qafqaz Arxeoqrafiya komissiyasının sənədləri" adlı topluda yer alan əhəmiyyətli materiallardan Azərbaycan tarixinin müxtəlif məsələlərinin tədqiqində istifadə olunur.

Azərbaycan tarixinin işıqlandırılması üçün o dövrün qəzet və jurnal materiallarının böyük əhəmiyyəti var. «Закавказские вести», «Каспий», «Кавказ», «Неделя», «Кавказское сельское хозяйство», "Kəşkül", "Əkinçi", "Açıq söz" və sair mətbu orqanlarda da Azərbaycan tarixinin yeni dövrünə dair qiymətli məlumatlar çap olunmuşdur.

Azərbaycan tarixinin ən yeni dövrü 1918-ci ildən bu günümüzə qədərki dövrü əhatə edir. Bu dövrün öyrənilməsində ən qiymətli mənbələr arxiv sənədləridir. Azərbaycanın yeni tarixinə aid ən əhəmiyyətli sənədlər Azərbaycanda və qonşu ölkələrin – Türkiyənin, Rusiyanın, Gürcüstanın, İranın, Ermənistanın və sair ölkələrin arxivlərində saxlanılır. Azərbaycanın ən yeni tarixinin öyrənilməsində, həmçinin müxtəlif siyasi partiyaların arxivlərində saxlanılan sənədlərdən, statistik toplulardan, qəzet və jurnal materiallarından, epistolyar materiallardan və sair nəşr olunmuş mənbələrdən istifadə olunmuşdur.

**Azərbaycan tarixinin öyrənilməsində yardımçı elmlərin rolu.** Azərbaycan tarixinin öyrənilməsində bir sıra **yardımçı elmlər** böyük əhəmiyyət kəsb edir. Onlar aşağıdakılardır:

- **Arxeologiya** (yunanca "arxoyos" – qədim, "loqos" elm) qədim dövr haqqında elm deməkdir. Bəşər tarixi arxeoloji qazıntılar zamanı tapılan maddi mənbələr (bina qalıqları, qab-qacaq qırıqları, əşyalar, insan və heyvan sümükləri və sairə) əsasında öyrənilir;
- **Antropologiya** (yunanca "artropos"- insan, "loqos" elm) insan haqqında elm deməkdir. Ən qədim insan skeletləri əsasında insanların fiziki quruluşunu, onların qadın və ya kişi olduğunu və yaxud hansı irqə, etnosa mənsub olduğunu öyrənir;
- **Etnoqrafiya** (yunanca "etnos" – xalq, "qrafo"- yazmaq) müxtəlif xalqların həyatını və mənşəyini öyrənən elmdir;
- **Poleoqrafiya** (yunanca "paleo" – qədim, "qrafo" yazıram) qədim yazıları öyrənən elmdir;

- **Linqvistika** (latınca "lingua"- dil deməkdir) qədim insanların dil problemini öyrənən elmdir;
- **Fizika və kimya elmləri.** Fiziki aşınmalar və kimyəvi reaksiyalar vasitəsilə qədim dövrə aid tapıntıların yaşı təyin edilir;
- **Xronologiya** (yunanca "xronos" – zaman, "loqos"- elm) zaman haqqında elmdir, tarixdə baş vermiş hadisələri zaman ardıcıllığı ilə öyrənir.

**Azərbaycan tarixinin xronologiyası və dövrlərə bölünməsi.** Qeyd edildiyi kimi, xronologiya fənni tarixi hadisələrin vaxtını müəyyənləşdirir və onların ardıcıl izahını təmin edir.

Tarix elminin əsas prinsiplərindən biri xronoloji-ardıcıllıq prinsipidir. Yəni, tarix elmi hadisələrin baş verdiyi vaxtın mümkün qədər dəqiq və ardıcıllıqla verilməsini tələb edir. Əks halda tarix eklektik faktlar yığımına çevrilər, tarixi biliklərin əldə edilməsi çətinləşərdi.

Müxtəlif dövrlərdə, müxtəlif cəmiyyətlərdə tarixin hesablanması adətən müəyyən başlanğıc nöqtəsindən aparılmışdır. Bu cür başlanğıc nöqtəsinə "era" adı verilmişdir. Ən qədim zamanlardan onlarla "eralar" mövcud olmuş, lakin heç biri kütləvi olaraq insan cəmiyyəti tərəfindən qəbul edilməmişdir. Adətən era həqiqi və qeyri-həqiqi tarixi hadisə ilə bağlanılırdı. Məsələn, qədim yunanlar öz tarixlərini e.ə.776-cı ildən, yəni birinci Olimpiya oyunlarının başlanmasından, qədim romalılar isə e.ə.773-cü ildən, yəni Roma şəhərinin salınmasından hesablayırdılar.

Hal-hazırda dünya xalqlarının böyük əksəriyyətinin işlətdiyi təqvim üçün eranın başlanğıcı kimi tarixi şəxsiyyət olmayan və xristian dininin banisi İsa peyğəmbərin doğulduğu il götürülmüşdür.

Era xristian din xadimlərinin təbliği və rəsmiləşdirilməsi nəticəsində vaxtilə Avropada işlədilmiş, sonra isə başqa ölkələrdə yayılmışdır. Eranın başlanğıcı İsusun (İsanın) təvəllüdü, yəni doğum günü kimi qeyd edilir. Həmin gün, həmçinin, "milad" (anadanolma) kimi də adlandırılır. Günəş ili hesabına əsaslanan Miladi təqvimə görə bir il 365 gün 6 saatdan ibarətdir.

Müasir dünyamızda tarixi hesablama eradan (miladdan), yəni başlanğıc nöqtəsindən müasir dövrə doğru hesablanır. Bu başlanğıc nöqtəsindən qabaq baş vermiş hadisələr "bizim eradan əvvəl" və yaxud "miladdan öncə" anlayışları ilə qeyd edilir. Ən qədim və qədim dövrlərin hadisələri xronoloji ardıcıllıqla eramızın başlanğıcına doğru hesablanır və başlanğıca yaxınlaşdıqca say kiçilir. Əksinə, bizim eranın başlanğıcından sonra baş verən hadisələr müasir dövrə yaxınlaşdıqca say böyüyür. Azərbaycan tarixinin hadisələri də bu xronologiya üzrə aparılır.

Müasir dövrdə Azərbaycanda Miladi təqvimdən istifadə edilir. Ancaq orta əsrlərdə uzun müddət bizim ölkəmizin tarixi də bəzi İslam ölkələrində indi də istifadə olunan Hicri təqvimə görə hesablanmışdır.

Hicri təqvimin başlanğıcı kimi Miladi təqvimin 622-ci ilində Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə köçməsi, yəni "hicrət etməsi" götürülür. Hicri təqvimdə Ay ili əsas götürülür ki, o da 354 gündən ibarətdir. Miladi təqvimdə baş

verən hadisənin Hicri təqvimin neçənci ilində baş verməsini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar: Hicri = Miladi–622+(Miladi – 622):33. Məsələn, Azərbaycan Respublikasının dövlət müstəqilliyi Miladi təqvimlə 1991-ci ildə bərpa edilmişdir. Hicri təqvimi ilə bu hadisə neçənci ildə baş vermişdir? 1991 – 622 +(1991 – 622) :33=1411. Deməli, Azərbaycan Respublikasının dövlət müstəqilliyi Hicri təqvimi ilə 1411-ci ildə bərpa edilmişdir.

Bəzi hallarda Azərbaycan tarixinin qədim dövrlərə aid hadisələrinin xronoloji vaxtını, yəni hadisələrin illərini dəqiq vermək mümkün olmur. Çox hallarda bu illər təxmini göstərilir. Məsələn, qədim Azərbaycanda mövcud olmuş Kuti və Lullubi dövlətlərinin hakimiyyəti dövründəki yazılı məlumatların müqayisəsi, həmçinin Manna dövlətinin hökmdarı İranzunun, Uallinin hakimiyyəti illəri, Mannanın süqutu ilə təxmini müəyyənləşdirilmişdir. III-V əsrlərdə Albaniyanı idarə etmiş hökmdarların da hakimiyyət illəri bəzən mübahisə doğurur və bu dövrə aid hadisələrin də tarixi müxtəlif qaynaqların məlumatlarına uyğun olaraq dəqiqləşdirilmişdir.

Müasir dövrdə hər hansı ölkənin tarixinin dövrlərə bölünməsində sosial-iqtisadi formasiyalar, sivilizasiya, industrial, post-industrial cəmiyyətlər və s. yanaşmalar tətbiq edilir. Azərbaycan tarixinin dövrləşdirilməsində əsas meyar kimi sosial-iqtisadi münasibətlər və istehsal vasitələri götürülmüşdür. Digər təlimlərdən fərqli olaraq, bəşəriyyət tarixinin ictimai-iqtisadi formasiyalara bölünməsi tarixi prosesin qanunauyğun inkişafına daha uyğun gəlir. İctimai-iqtisadi quruluşa daxil olan hadisələr də müxtəlif dövrlərə bölünür.

Dərslikdə Azərbaycan tarixi xronoloji ardıcıllıq prinsipi ilə əsrlər üzrə dövrləşdirilmiş, bu zaman bütün tarixi Azərbaycan ərazilərində gedən tarixi proseslər sistemli şəkildə, bir-biri ilə sıx əlaqədə baxılmışdır.

# FƏSİL 2. AZƏRBAYCAN ƏRAZİSİNDƏ İBTİDAİ İCMA CƏMİYYƏTİ

*§ 1. Azərbaycan ərazisində ilk insan məskənləri. Qədim və Orta daş dövrü*
*§ 2. İstehsal təsərrüfatının yaranması, neolit, eneolit dövrləri*
*§ 3. Azərbaycan Tunc və ilkin dəmir dövründə*
*§ 4. Əhalinin məşğuliyyəti, ictimai həyatı və dünyagörüşü*
*§ 5. İbtidai icma cəmiyyətinin dağılması*

## *§ 1. Azərbaycan ərazisində ilk insan məskənləri. Qədim və Orta daş dövrü*

Azərbaycan ərazisi dünyanın ən qədim mədəni ocaqlarından biridir. Əlverişli təbii-coğrafi şəraitə, zəngin flora və fauna aləminə, mülayim iqlimə malik olan Azərbaycan yer kürəsində İbtidai insanın formalaşdığı rayonlar sırasına daxildir. Aparılmış tədqiqatlarla müəyyən olunmuşdur ki, hələ 12 milyon il əvvəl Azərbaycan ərazisində ən qədim insanlar yaşamışdır. 1939-cu ildə Qərbi Azərbaycanla Şərqi Gürcüstanın sərhədində Qarayazının qərbində Ceyrançöl və Eldar düzənliyinin mərkəzi hissəsində, Udabno adlı yerdə ən qədim insanının (dişlərinin) tapılması buna sübutdur. Həmin dövr geoloji bölgədə üçüncü dövrlə uyğun gəlir. Beləliklə üçüncü geoloji dövrdə Zaqafqaziya, o cümlədən Azərbaycan ərazisində insanın təşəkkülü üçün əlverişli şərait olmuşdur. İnsanın təşəkkülü və formalaşması dördüncü geoloji dövrlə bağlıdır ki, bu dövrün də 4 milyon ildən artıq olması müəyyənləşdirilmişdir.

Bəşər cəmiyyətinin ilkin inkişaf mərhələsi İbtidai icma cəmiyyəti adlanır. İbtidai-icma cəmiyyəti başqa dövrlərə nisbətən uzun müddət davam etmişdir. İbtidai icma cəmiyyəti ilk insanların yaranması ilə başlamış və uzun inkişaf yolu keçmişdir. İbtidai-icma cəmiyyətinin inkişafı və dağılması hər bir ölkənin təbii-coğrafi şəraiti, təbii ehtiyatları və başqa amillərlə bağlı olmuşdur.

İbtidai-icma cəmiyyəti şərti olaraq üç dövrə ayrılır: Daş dövrü, Tunc dövrü, Dəmir dövrü.

Əlverişli təbii-coğrafi mühit olan yerlərdə (şirin su qaynaqlarının, bitki və heyvanlar aləmi zəngin olan, təbii mülayim iqlim və sığınacaqların olduğu yerlər) qədim insanlar məskən salaraq həyat sürmüşlər.

Azərbaycan belə ərazilərdən biri olmuşdur.

Dünyada ən qədim insan tiplərinin qalıqları Şərqi Afrikada (Keniya, Tanzaniya) tapılmışdır. Alimlər bu qalıqlara əsasən belə müəyyən etmişlər ki, ən qədim insanlar 2,5 milyon il bundan əvvəl yaşamışlar.

Azərbaycanda isə ilk insanlar 2,1 - 2,4 milyon il bundan əvvəl yaşamışlar. Arxeoloqlar Azərbaycan ərazisində - Qarabağ (Azıx, Tağlar, Zar) Naxzıvan (Qazma), Qazax (Daşsalahlı, Damcılı), Lerikdə (Buzeyir) qədim insanların yaşadığı məskənləri öyrənmişlər.

Daş dövrü bir neçə mərhələdən ibarət olmuşdur. Qədim daş dövrü – paleolit, orta daş dövrü – mezolit, yeni daş dövrü – neolit, mis daş dövrü – eneolit adlanır.

İbtidai icma cəmiyyətinin ilkin pilləsi olan Paleolit dövrü üç mərhələyə bölünür: Alt Paleolit, Orta Paleolit və Üst Paleolit.

**Alt Paleolit** ilk insan tipinin yaranmasından başlayaraq 100 min il bundan əvvələ qədər davam etmişdir. Azərbaycan ərazisində alt paleolit mərhələsi Qarabağda Quruçay vadisində yerləşən Azıx mağarası əsasında öyrənilmişdir.

**Azıx mağarası və Azıx adamı.** Quruçay dərəsində ilk vaxtlar açıq düşərgələrdə yaşayan qədim insanlar iqlim şəraitinin dəyişməsi ilə bağlı yaxınlıqdakı Azıx mağarasına köçmüşlər. Alimlər müəyyən etmişlər ki, qədim insanlar Azıx mağarasına 2,1 - 2,4 milyon il əvvəl köçmüşlər. Bunu çay daşı mədəniyyəti sübut etmişdir. Bu qədim insanların yaratdığı mədəniyyət «Quruçay» mədəniyyəti adlanır.

Mağaranın ən qədim dövrə aid təbəqələrində İbtidai insanların işlətdikləri kobud daş alətlər tapılmışdır. Bu alətlər adi çay daşlarından hazırlanmışdır. İbtidai insanlar bu alətlərdən ovladıqları heyvanları kəsmək, doğramaq işlərində istifadə etmişlər.

Min illər keçdikcə İbtidai insanlar fiziki və əqli cəhətdən xeyli inkişaf etmişlər. Əmək alətləri təkmilləşdirilmişdir. İlk vaxtlar insanlar çox işlərə yarayan kobud əl çapacaqları, sonralar isə ərsin-qaşov, sıyırğac və s. daş alətlər hazırlamışlar. Belə müxtəlif növ alətlər Azıx mağarasının alt təbəqələrindən tapılmışdır. Azıx mağarası – Dağlıq Qarabağda, Füzuli şəhərindən 17 km Şimal-Şərqdə, Quruçay dərəsinin sol yamacında yerləşir. Mağara 1960-cı ildə prof. arxeoloq Məmmədəli Hüseynov tərəfindən qeydə alınmışdır. Azıx mağarası dəniz səthindən 1000 m yüksəkdə yerləşir. Qafqazın ən iri karst mağaralarından olub, içinin uzunluğu 230 m-dir. Mağara altı böyük salondan ibarətdir. Eyni zamanda mağaranın giriş və çıxışı vardır. Mağaradan əmək alətləri ilə yanaşı, nəsli kəsilmiş müxtəlif vəhşi heyvanların sümükləri də tapılmışdır. Bu sümüklərə əsasən, qədim insanların ovladığı vəhşi heyvanların növləri müəyyənləşdirilmişdir. Ov ilk vaxtlar sadə üsullarla edilirdi. İbtidai insanlar, əsasən, xırda heyvanları və iri heyvanların balalarını ovlayırdılar. Onlar ovçuluqla yanaşı, yeməli yabanı bitkiləri və giləmeyvələri də yığırdılar. İnsanlar təbiətin hazır məhsullarını mənimsəyirdilər.

İbtidai insanlar kiçik qruplar, dəstələr halında yaşayırdılar. Belə kiçik kollektivlər İbtidai insan «sürüsü» və ya ulu icma adlanır. Ulu icma kortəbii şəkildə, təbiət hadisələri qarşısında aciz qalmamaq məcburiyyətindən yaranmışdır. Belə kollektivlər daimi deyildi. Onlar tez-tez dağılır, sonra yeniləri yaranırdı. Ulu icma İbtidai icma quruluşunun ilk pilləsində meydana gəlmiş və qəbilə icması formalaşanadək davam etmişdi.

Azıx mağarasında aşkar olunmuş ən qədim ocaq qalığının 700 min ilə yaxın yaşı var.

Qədim insanların oddan istifadə etməsi onların həyatında çox mühüm hadisə olmuşdur. İlk vaxtlar ildırım çaxması və ya üzvi maddələrin öz-özünə yanması nəticəsində əmələ gəlmiş təbii oddan istifadə edilmişdir. Sonralar insanlar quru ağac

parçalarını, çaxmaqdaşını bir-birinə vurmaqla od əldə etməyi öyrənmişlər. Od, ocaq insanların həyatında böyük rol oynamışdır. Ocaqdan isinmək, yemək hazırlamaq və vəhşi heyvanlardan qorunmaq üçün istifadə olunurdu.

Azıx mağarasında 1968-ci ildə arxeoloq M. Hüseynov tərəfindən İbtidai insanın alt çənə sümüyünün qalığı tapılmışdır. Bu, dünyada ən qədim belə tapıntılardan biri – dördüncüsüdür. Antropoloqlar həmin İbtidai insanı Azıxantrop, yəni «Azıx adamı» adlandırmışdır. Azıxantroplar 350-400 min il bundan əvvəl yaşamışlar. Azıx çənə sümüyü Azərbaycanın qədim insanının formalaşdığı ərazilərdən biri olduğunu sübut edir.

Azıx mağarasında tikili qalığının tapılması qədim insanların tədricən tikinti vərdişlərinə də yiyələnməsini göstərir. Zaman keçdikcə Azıx adamları tədricən ətraf mühiti dərk etmiş, İbtidai dini təsəvvürlər yaranmış və onlar sadə incəsənətlə məşğul olmuşlar. Azıx mağarasında tapılmış ayı kəllələrindən bəzilərinin üzərində müəyyən işarələr cızılmışdır. Bu, sadə dini ayinlərin və totemlərin (heyvanlara inam) yaranması ilə bağlıdır.

Alt Paleolit dövrünün sonunda əmək alətlərinin yeni növləri meydana gəlmişdir. Alətlər daha çox çaxmaqdaşından, bazalt və obsidiandan (vulkanik şüşədəvəgüzü) hazırlanırdı. Çünki insanlar onları asanlıqla qəlpələyir və ucu iti, dişli-kəzli, oymalı kəsici alətlər hazırlayırdılar.

**Orta Paleolit** təxminən 100 min il bundan əvvəl başlanmış, e.ə. 40-cı minilliyə qədər davam etmişdir. Bu dövr Mustye mədəniyyəti (Mustye-Fransada yer adıdır. Bu dövrdə insanların fiziki və zehni inkişafı səviyyəsi artmış, əmək alətləri və əmək vərdişləri təkmilləşdirilmişdi.

Orta Paleolit dövründə yeni insan tipi yaranmışdır. Həmin insanlar neandertal adamı adlanır (Neandertal – Almaniyada yer adıdır. Burada İbtidai insanın kəllə sümüyü tapılmışdır). Onlar əsasən ovçuluqla – Qafqaz maralı, mağara ayısı, boz ayı, tur, dağkeçisi, vəhşi at (gur) və s. ovlamaqla, həmçinin yem toplamaqla (yığıcılıqla) məşğul olmuşlar.

Azərbaycanda bu dövr Azıx mağarasının müəyyən təbəqəsi, Tağlar, Daşsalahlı, Qazma, Zar, Qədirdərə, Marallı kimi yaşayış düşərgələri əsasında öyrənilmişdi.

Orta Paleolit dövründə qədim insanların ətraf mühitə münasibətində, dini görüşlərində dəyişikliklər yaranmışdır.

Axirət dünyasına inam ilk dəfə bu dövrdə yaranmışdı. Ovsun, heyvanlara (totemlərə), təbiət qüvvələrinə inamla bağlı dini təsəvvür formaları meydana gəlmişdir.

Orta Paleolit dövründən başlayaraq ulu icma yavaş-yavaş sıradan çıxmış, qəbilə icması yaranmağa başlamışdır.

**Üst paleolit.** Ağıllı insan. Paleolitin son mərhələsi üst paleolitdir. Üst paleolit təxminən 40 min il bundan əvvəl başlanmış, e.ə. 12-ci minilliyə qədər davam etmişdir. Bu dövrdə iqlim mülayimləşmiş, bitki və heyvanat aləmində, habelə ictimai həyatda çoxsaylı dəyişikliklər baş vermişdir.

Azərbaycanın bir sıra bölgələrində Üst Paleolit dövrünün mağara düşərgələri öyrənilmişdir. İbtidai insanlar bu mağaralarda yaşamış və özlərini təbiətin təhlü-

kəli hadisələrindən və vəhşi heyvanların hücumlarından qorumuşlar. Bu dövrün maddi qalıqlarına Qarabağ və Qazax bölgələrinin Paleolit düşərgələrində daha çox rast gəlinmişdir.

Üst Paleolit dövründə bir sıra heyvanların, xüsusilə nəhəng maralın, mağara ayısının və s. nəsli kəsilmişdir. İnsanlar Qafqaz maralı, ceyran, cüyür, dağkeçisi və s. ovlamışlar. İnsanların istifadə etdikləri uclu qaşovlar, biz, dairəvi, yarımdairəvi və uzun qaşovlar, gəzli (yəni kənara dişəkli) və üçbucaq əmək alətləri geniş yayılmışdır.

Üst Paleolit dövründə Azərbaycan ərazisində müasir insan tipinin, yəni ağıllı insanın («Homo Sapiyens») yaranması başa çatmışdı. İnsan fiziki və əqli inkişafın yüksək mərhələsinə çatmışdır. Təfəkkür və nitq inkişaf tapmışdır. İbtidai cəmiyyətin bu mərhələsində ilk vaxtlar insanlar bir-birini adi hərəkətlərlə (kinetik dillə-əl, dodaq hərəkətləri və s. hərəkətlərlə) başa salırdılar. Lakin onlar bu üsulla uzaq məsafədə və qaranlıqda ünsiyyət yarada bilmirdilər. Əmək fəaliyyətinin artması şüurun, düşüncənin inkişafı tədricən səsli nitqin yaranmasına səbəb olmuşdu.

Səsli nitq ilk vaxtlar İbtidai insanların yaratdığı və tələffüz etdiyi ilk sözlərdən, təsərrüfat həyatı ilə bağlı tək-tək sadə ifadələrdən ibarət olmuşdur.

Tədricən ayrı-ayrı ifadələrin birləşməsindən (iki-üç və s. sözdən) nisbətən mürəkkəb fikri ifadə edən səsli nitq – danışıq ünsiyyət vasitəsi yaranmışdır. Bu dövrdə ulu icma nəsli-qəbilə icması ilə əvəz olunmuşdur. Nəsli-qəbilə icmasının əsasını qan qohumluğu ilə bağlı olan insanların birliyi təşkil edirdi. Belə quruluş nəsli-qəbilə quruluşu adlanır.

Nəsil qəbilə dövründə insanlar ana xətti ilə qohumluq əsasında birləşmişdilər. Qəbilənin həyatında qadın mühüm rol oynayırdı. Uşaqların qayğısına qalmaq, giləmeyvə və yabanı bitkilər toplamaq, odu qoruyub saxlamaq, yemək hazırlamaq və s. qadınların işi idi. Buna görə də nəsli qəbilə icması Anaxaqanlığı (matriarxat) adlanır.

**Mezolit dövrü.** Ox və kamanın kəşfi. Mezolit - Orta Daş dövrü Azərbaycan ərazisində e.ə. 12-ci minillikdən e.ə. 8-ci minilliyə qədər bir dövrü əhatə edir.

Mezolit dövründə yaşayış üçün daha əlverişli iqlim şəraiti olmuşdur. Qəbilələr halında birləşmiş insanların həyatında, dünyagörüşündə, ətraf aləmə münasibətlərində xeyli dəyişikliklər baş vermişdir. Yeni əmək alətləri yaratmış insanlar əsasən ovçuluq, yığıcılıq və balıqçılıqla məşğul olmuşlar.

Mezolit dövründə ox və kaman ixtira edilmişdir. Bu silahın köməyi ilə insanlar heyvanları daha uzaq məsafədən ovlaya bilirdilər. Onlar qida ehtiyatını artırmağa nail olmuş və tədricən heyvanları əhilləşdirməyə başlamışlar. İlk vaxtlar heyvanların balalarını qida ehtiyatı kimi saxlayırdılar. Beləliklə, İbtidai maldarlığın əsası qoyulurdu. Lakin heyvanların əhilləşdirilməsi çox uzun dövr ərzində mümkün olmuşdur.

Mezolit dövründə ilk əkinçilik vərdişləri də yaranırdı. Ət ehtiyatının artması insanların ərzağa olan tələbatını qismən ödədiyinə görə, toplanmış yabanı bitki toxumlarının da bir hissəsini ehtiyat üçün saxlayırdılar. Bu isə İbtidai əkinçiliyin

meydana gəlməsinə şərait yaradırdı. Toxumun yerə tökülərək yenidən cücərdiyini müşahidə edən insanlar onu təkrar edərək yenidən məhsul əldə edirdilər.

Beləliklə, Mezolit dövründə mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin əsası qoyulmuşdu. Lakin istehsal təsərrüfatının formalaşması bir qədər gec – Yeni Daş dövründə başa çatmışdır.

Azərbaycanda Mezolit dövrü əhalisinin yaşayışı, məşğuliyyəti Qobustan abidələri («Öküzlər», «Ana Zağa», «Firuz» və s.) əsasında öyrənilmişdir. Burada insanlar təxminən e.ə. 12-ci minillikdən yaşamışlar. Qobustanda insanlar ovçuluq, balıqçılıq və yığıcılıqla, zaman keçdikcə isə maldarlıq və əkinçiliklə məşğul olmuşlar. Qədim Qobustanlılar mikrolif (kiçik ölçülü) lövhələrdən iti uclu, gəzli, bıçaqvari, qaşov tipli kəsici alətlər hazırlamışlar. Alətlərin çoxusu həndəsi formalıdır (üçbucaqlı, dördbucaqlı və s.). Sümükdən biz, ox ucu, balıq torunun toxunulmasında istifadə olunan alətlər hazırlamışlar.

Mezolit dövründə İbtidai incəsənət xeyli inkişaf etmişdir. Qobustan qayaları üzərində həkk olunmuş qayaüstü rəsmlər İbtidai insanların dini görüşlərini, ətraf aləmə münasibətlərini əks etdirir. O dövrün bitki və heyvanat aləmi haqqında məlumat verir. Bu rəsmlər əsasında mezolit dövrü insanlarının ovsun-totem (heyvanlara inam) inamlarını, dini ayinləri ilə tanış olmaq mümkündür.

Mezolit dövründə insanlar axirət dünyasına inanmış, dəfn zamanı ölülərin yanına əmək alətləri, bəzək əşyaları qoymuşlar. Qobustanda «Firuz» düşərgəsindəki qəbirlərindən belə əşyalar tapılmışdır.

### *§ 2. İstehsal təsərrüfatının yaranması, Neolit, Eneolit dövrləri*

Eramızdan əvvəl VIII-VII minillikləri əhatə edən **yeni daş dövrü – Neolit dövrü adlanır.** Bu dövrdə insanlar daha hər şeyi təbiətdən hazır şəkildə almır, özləri yenisini istehsal edirdilər. Yəni insanlar təbiətdən asılılıqdan azad olmuş, özlərinə lazım olan məhsulların istehsalına başlamışlar. İnsanların məşğuliyyət sahələri içərisində maldarlıq və əkinçilik əsas yer tuturdu. Azərbaycanda bu iki təsərrüfat sahəsinin inkişafı üçün hər cür şərait var idi.

Neolit dövründə insanlar saxsı qablar hazırlamış, daş alətləri cilalamağı və deşməyi öyrənmiş, toxuculuqla məşğul olmuşlar.

Bəşər tarixindəki bu yeniliklər Neolit inqilabı adlandırılmışdır.

Cənubi Qafqazda və Azərbaycan ərazisində neolit (yeni daş) dövrü e.ə.VIII-VII minillikləri əhatə edir. Bu mədəniyyətin formalaşması iki mərhələdən keçmişdir. Birinci mərhələ saxsı qabların yaranmasına qədər olan, əkinçiliyin, maldarlığın, toxuculuğun təşəkkülü dövrünü-təxminən e.ə.VIII minilliyi əhatə edir və erkən neolit adlanır. İkinci mərhələ ibtidai icma quruluşu insanlarının təfəkkürünün və istehsal sahələrin inkişafı, təsərrüfat həyatında köklü dəyişikliklərin yaranması, gil qabların hazırlanması və ümumilikdə yeni mədəniyyətin meydana çıxması ilə fərqlənir. Bu dövr e.ə.VII minilliyi əhatə edir.

Qafqaz regionu coğrafi cəhətdən neolit mədəniyyətinin yaranması və inkişafı üçün əlverişli olmuşdur. Təbii ki, bu dövrdə əhalinin sayı artmışdır. İstehsal təsərrüfatının formalaşması əkinçilik, maldarlıq sahələrinin inkişafına, dağətəyi və aran zonalarda yeni yaşayış yerlərinin yaranmasına səbəb olmuşdur. Söz yox ki, neolit dövrünün insanları oturaq həyat tərzi keçirmişdir.

Tədqiqatçılar dağlıq və dağlıqətəyi bölgələrdə neolit yaşayış yerlərinin yaran-masını son dərəcə intensiv gedən ovçu və yığıcı tayfaların yerləşmə prosesi ilə bağlayırlar.

Azərbaycan ərazisində bu dövrə aid Gəncə yaxınlığında Gillidağ, Qazaxda Damcılı mağarası, Qobustanda "Ovçular zağası", "Anazağa" və "Firuz" düşərgələri kimi abidələr öyrənilmişdir. Təbriz yaxınlığında yerləşən Yanıqtəpə (kiçik təpə) və Urmiya gölünün cənubundakı Hacı Firuz abidələrinin alt təbəqələri də neolit dövrünə aiddir.

Bu dövrün abidələrindən biri də Naxçıvan şəhərindən 8 km şimal-şərqdə, Babək rayonunun eyni adlı kəndi ərazisində tədqiq olunmuş I Kültəpədir. Ərazinin təbii şəraiti I Kültəpə sakinlərinin fəaliyyəti üçün hərtərəfli imkan yaratmışdır. Abidə dağətəyi ərazidə, dağlıq zonadan 10-15 km məsafədə salınmışdır.

Ümumiyyətlə, ərazisinin 72% dağlıq olan Zaqafqaziyanın qədim əkinçilik mədəniyyəti iqtisadi-mədəni əlaqələr zəminində Ön Asiya abidələrinin təsirindən yaranmışdır. Bunu I Kültəpənin neolit dövrü təbəqəsindən tapılmış Xalaf nişanəli boyalı qablar da sübut edir. Naxçıvanın ərazi cəhətdən Ön Asiyaya yaxın olması burada müxtəlif mədəniyyətlərin Zaqafqaziyanın digər regionlarına nisbətən daha tez formalaşmasına səbəb olmuşdur.

Neolit dövründən başlayaraq əhali oturaq həyata keçmiş, əkinçilik və maldarlıqla yanaşı, ovçuluqla, balıqçılıqla da məşğul olmuşlar. Əmək alətləri, əsasən, çaxmaqdaşından və obsidiandan (vulkanik şüşə – dəvəgüzü) hazırlanırdı. Əkinçilik yeni əkin və biçin alətlərinin yaranmasına səbəb olmuşdur. Daş toxalar, oraq dişi hazırlanırdı. Daş baltalar, çəkiclər də bu dövrdə yaranmışdır.

Naxçıvanda, Gəncə ətrafında, Təbriz yaxınlığında, Qobustanda, Qazax bölgəsində Neolit dövrü abidələrindən daş toxalar, oraq dişləri, çəkic, balta və lövhələrdən ibarət əmək alətləri tapılmışdır. Gəncə yaxınlığındakı neolit düşərgəsinin əmək alətləri müxtəlifliyi ilə seçilir. Bunlar çaxmaqdaşından düzəldilmiş bıçaqvari lövhələrdən, qaşovlardan, dəvəgüzündən hazırlanmış əmək alətlərindən ibarətdir. Bu alətlərdən əkin, biçin, doğrama, kəsmə işlərində istifadə edilmişdir. Toxuculuq və saxsı qablar istehsalı insanların həyatında mühüm yenilik idi. Onların yaradıcıları qadınlar idi. Bu dövrdə «ana xaqanlığı» hökm sürürdü.

E.ə. Y1 minillikdən Azərbaycanda **eneolit (mis-daş dövrü) başlanmışdır.** Bu dövr e.ə. 1Y minilliyə qədər davam etmişdir. Bu dövr daş dövrünün başqa mərhələlərindən fərqlənir. Çünki qədim insanlar bu dövrdə daş məmulatı ilə yanaşı metaldan da istifadə etmişlər. ilk vaxtlar misdən soyuq düymə üsulu ilə müxtəlif əşyalar hazırlayırdılar. Zaman keçdikcə əmək vərdişləri artır, təkmilləşir və qə-

dim insanlar mis külçələrini əvvəlcə ocaqda qızdırmaq, sonra isə əritməklə İbtidai metalişləmənin sirrlərinə bələd oldular.

Azərbaycanda mis filizi ehtiyatları Gədəbəy, Daşkəsən, Qarabağın dağlıq zonasında, Naxçıvanda mövcuddur. Lakin Eneolit dövründə metaldan istifadə hələ geniş yayılmamışdı. Daş alətlər təsərrüfatda, məişətdə üstün yer tutmuşdur. Eneolit dövründə Azərbaycanda əhali artmış, insanlar daha geniş ərazilərdə məskunlaşmışlar. Azərbaycanda bu dövrün yaşayış məskənləri Gəncə-Qazax, Mil-Qarabağ, Muğan-Naxçıvan bölgələrində, Urmiya gölü ətrafında və Təbriz yaxınlığında öyrənilmişdir.

Azərbaycanda eneolit dövrü əkinçi-maldar tayfaları kiçik kəndlərdə, qəbilə icmaları halında yaşamışlar. Yaşayış məskənləri çay kənarında, əkinçilik və maldarlıq üçün əlverişli yerlərdə salınırdı. Yaşayış binaları və təsərrüfat tikintiləri çiy kərpic və möhrədən dairəvi planda inşa olunmuşdur. Evlər kiçik həcmdə olmuşdur. Mənzilləri qızdırmaq, eləcə də yemək hazırlamaq üçün evin ortasında və ya divarın yanında ocaq qurulmuşdur. Belə evlərdə qoşa nigaha əsaslanan ailələr yaşamışlar. İcma torpağında birgə çalışan bu ailələr ümumi məhsul bölgüsündən aldıqları pay hesabına dolanırdılar.

Eneolit dövrünün əhalisi əkinçilik, maldarlıq, balıqçılıqla yanaşı, dulusçuluq, daşişləmə, sümükişləmə, toxuculuq və s. peşələrlə məşğul olmuşlar.

Torpağı toxa ilə şumlayırdılar. Buna görə də həmin dövr əkinçiliyi «toxa əkinçiliyi» adlanır. Taxıl, daş lövhələrdən hazırlanmış oraqla biçilirdi. Taxıl ehtiyatı iri saxsı küplərdə və quyu anbarlarda saxlanırdı.

Azərbaycanın Eneolit dövrü abidələrində çoxlu əkinçilik alətləri və taxıl qalıqları tapılmışdır. Qədim əkinçilər bir neçə buğda və arpa növü əkib becərirdilər.

Maldarlıq təsərrüfatı da xeyli inkişaf etmişdi. Qaramal və davar saxlayırdılar. Eneolit dövründə bizə məlum olan ev heyvanlarının, demək olar, hamısı əhliləşdirilmişdir. E.ə. Y minilliyin axırlarında Azərbaycanda ilk dəfə atın əhliləşdirilməsinə başlanmışdır. Cəlilabad rayonunda qədim Əliköməktəpə yaşayış yerindən əhliləşdirilmiş at sümükləri tapılmışdır.

Ovçuluq və balıqçılıq getdikcə əhalinin ikinci dərəcəli məşğuliyyət sahəsinə çevrilmişdir.

Eneolit dövrü əhalisinin məşğuliyyətində sənətkarlıq mühüm yer tutmuşdur. Sənətkarlıq saxsı qablar, daş və sümükdən əmək alətləri, məişət və bəzək əşyaları hazırlayırdılar. Eneolit dövrü abidələrindən tapılmış iy ucluqları əhalinin toxuculuqla məşğul olduğunu göstərir. Misdən müxtəlif əmək alətləri və bəzək əşyaları hazırlanmışdır.

Bu dövrdə ictimai həyatda ana hüququ və ümumiyyətlə, qadınların mövqeyi hələ möhkəm idi. Qadın nəslin yaşadıcısı, qəbilə və ailə ocağını qoruyub saxlayan, bərəkət, əmin-amanlıq və firavanlıq yaradan müqəddəs varlıq hesab edilmişdir. Azərbaycanın bu dövr mədəniyyət abidələri arasında qadın heykəlləri də tapılmışdır. Eneolit dövründə anaxaqanlığı nəslinin cəmiyyətdəki çoxminillik hakim

mövqeyi tədricən sona çatmışdır. Cəmiyyətin həyatında icma ağsaqqalları şurası mühüm rol oynamışdır.

Əhalinin dünyagörüşündə və dinə inamlarında müəyyən dəyişikliklər baş vermişdir. Bu dövrün özünəməxsus dəfn mərasimi olmuşdur. Ölülər yaşayış məskənində, binaların arasında və evlərin içərisində, döşəmə altında basdırılırdı.

Ölülərin üzərinə qan rəmzi sayılan qırmızı boya çəkir, yaxud oxra səpirdilər.

Azərbaycanın Eneolit dövrü əhalisinin həyatında müxtəlif dini ayinlər, ovsun və mərasimləri də müəyyən yer tutmuşdur. Arxeoloji qazıntılar zamanı dini mərasimlərə dair materiallar tapılmışdır. Qobustandakı qayaüstü rəsmlərin bəziləri ovsun və dini mərasimləri əks etdirir.

Eneolitin son mərhələsində (e.ə.1Y minilliyin birinci yarısı) metalişləmənin inkişafının yeni dövrü başlamışdır. Tunc dövrünə keçidin əsası qoyulmuşdur.

## *§ 3. Azərbaycan Tunc və ilkin dəmir dövründə*

Eramızdan əvvəl 1Y minilliyin sonlarından başlayaraq Eneolit dövrü Tunc dövrü ilə əvəz olunmuşdur. Azərbaycanda bu dövr e.ə. II minilliyin sonlarına qədər davam etmişdir. Tuncun meydana gəlməsi İbtidai cəmiyyətin tələbatından doğmuşdu. Azərbaycanda mis yataqlarının olması, Azərbaycanda metalişləmə və metallurgiyanın inkişafına şərait yaratmışdı. Təmiz misdən hazırlanan alətlər kövrək olduğu üçün davamsız idi və tez xarab olurdu. Ona görə də qədim sənətkarlar misin tərkibinə müxtəlif qatışıqlar, məsələn, mərgümüş, sürmə, nikel, daha sonralar qalay qataraq daha möhkəm metal-tunc əldə etdilər.

Əmək alətlərinin, silahların, məişət və bəzək əşyalarının çoxu tuncdan hazırlandığından bu dövr Tunc dövrü adlanır.

Tunc dövrü İbtidai icma quruluşunun inkişaf tarixində çox mühüm yer tutur. Cəmiyyətin həyatının bütün sahələrində böyük dəyişikliklər baş vermiş, ağır zəhmət tələb edən kişi əməyi(xış əkinçiliyi, maldarlıqla, metalişləmə ilə məşğul olmaq) irəli keçmiş, anaxaqanlığı ataxaqanlığı (patriarxat) ilə əvəz olunmuşdur. Təsərrüfatın yeni sahələri meydana gəlmiş, əmək bərabərsizliyi və sosial bərabərsizlik yaranmışdır. Tunc dövründə Azərbaycanda böyük mədəni-etnik birliklər – böyük tayfalar və tayfa birləşmələri meydana gəlmişdir.

Azərbaycanda Tunc dövrü bir neçə mərhələyə erkən, orta və tunc dövrü mərhələlərinə bölünür.

**Erkən Tunc dövrü** e.ə. 1Y minilliyin ikinci yarısıfndan III minilliyin sonuna qədər davam etmişdir. Bu dövr üçün Azərbaycanda Kür-Araz mədəniyyəti səciyəvidir. Çünki həmin mərhələyə aid olan abidələr ilk dəfə Kür-Araz ovalığında öyrənilmişdir.

Bu dövrdə Azərbaycanda əhalinin sayı artmışdır. Düzən ərazidə yaşayan əhali Erkən Tunc dövründə dağətəyi və dağlıq zonalarda da məskənlər salmışlar. Yaşayış məskənlərində bir neçə qəbilənin birləşdiyi tayfalar yaşayırdı. Yaşayış məskənlərinin sahəsi bəzən 3-5 hektara çatırdı. Yaşayış məskənləri həmişə suya yaxın yerlərdə, çox zaman çay kənarlarında, düşməndən müdafiə olunmaq üçün

əlverişli yerlərdə salınırdı. Bəzən yaşayış məskənlərinin ətrafına müdafiə divarı çəkilirdi. Belə abidələr Füzuli rayonunda, Təbriz yaxınlığında, Urmiya gölü ətrafında öyrənilmişdir. Erkən Tunc dövrü yaşayış evləri dairəvi planda olur, bünövrəsi daşdan, divarları çiy kərpicdən tikilirdi. Bəzi bölgələrdə çubuqdan hörülüb suvanmış daxmalarda və yarımqazma evlərdə də yaşamışlar.

Dini ayinlərin icrası üçün ibadətgahlar tikilmişdir. Xaçmaz rayonundakı Sərkərtərə yaşayış məskənində dairəvi planlı böyük ibadət evi aşkar edilmişdir. Bina səliqə ilə suvanaraq, əhənglə ağardılmışdır. Divarın qarşısında ibadət mehrabı qurulmuşdur. Belə ibadət evləri Qazax rayonunda Babadərviş və Naxçıvan yaxınlığında Kültəpə yaşayış yerlərində də vardır.

**Xış əkinçiliyi.** Tunc dövrünün ilk mərhələsindən başlayaraq əkinçilik və maldarlıq, habelə sənətkarlıq sahələrində xeyli inkişaf olmuşdur. Toxa əkinçiliyi xış əkinçiliyi ilə əvəz edilmişdir. Əkin sahələri daha da genişlənmiş, süni suvarma yaranmışdır. Torpağın xışla şumlanması məhsuldarlığı artırmışdır. Şumlama zamanı qoşqu heyvanlarından istifadə edilirdi. Taxılın biçilməsi, döyülməsi və üyüdülməsində daha mükəmməl alətlər tətbiq olunurdu. Taxılın biçilməsində daş lövhələrdən quraşdırılmış oraqlarla yanaşı, tuncdan hazırlanmış bütöv oraqlardan da istifadə edilirdi. Taxıl xüsusi quyularda və böyük təsərrüfat küplərində saxlanılır, həvəngdəstələr, dən daşları (kirkirə) və sürtkəclərin köməyi ilə üyüdülürdü.

**Maldarlığın əkinçilikdən ayrılması.** Maldarlığın inkişafında mühüm irəliləyiş var idi. Ev heyvanlarının növü və sayı qat-qat artmışdı. Davarların (qoyun, keçi) sayının artması, habelə atdan istifadə nəticəsində maldarlığın yeni sahəsi – köçmə (yaylaq) maldarlığı meydana gəlmişdi. Mal-qara yaz-yay aylarında dağ çəmənlərində otarılır, payızda soyuqlar düşəndə isə qışlaqlara qaytarılırdı. Əkinçilik və maldarlığın belə sürətli inkişafı nəticəsində təsərrüfatın bu sahələri bir-birindən ayrılmışdır. Tarixdə birinci böyük ictimai-əmək bölgüsü baş vermişdi. Maldar və əkinçi tayfalar daha çox öz sahələri ilə məşğul olmağa başlamışlar. Maldar tayfalar əkinçilərə nisbətən daha əlverişli şəraitə malik olduğundan tez varlanmışlar. Maldarlığın sürətlə inkişafı şəxsi tələbatdan artıq məhsul istehsal etməyə imkan vermişdir. Artıq qalan məhsul alış-verişin genişlənməsinə imkan yaratmışdır. Maldarlıqla məşğul olan tayfaların daxilində əmlak bərabərsizliyi meydana gəlmişdir.

**Sənətkarlıq.** Azərbaycanın Erkən tunc dövrü əhalisi sənətkarlığın dul-usçuluq, metalişləmə, toxuculuq və s. sahələri ilə məşğul olmuşdur. Dulusçuluq daha çox inkişaf etmişdir. Müxtəlif saxsı qab nümunələri hazırlanmış, onların forma və bədii tərtibatına xüsusi diqqət verilmişdir. Onların bir qismi xörək və mətbəx qabları olmuşdur. Ərzaq ehtiyatı və ağartı xüsusi qablarda saxlanırdı. Tuncdan hazırlanan alətlərin, əşyaların keyfiyyəti yaxşılaşmışdır. Arxeoloji qazıntılar zamanı Erkən Tunc dövrünə aid abidələrdən metal ərintisini tökmək üçün qəliblər və metalişləmə sənətkarlığı ilə bağlı tunc əşyalar aşkar olunmuşdur. Tuncdan əmək alətləri, silahlar, habelə bəzək şeyləri (muncuq, qolbaq və s.) və məişət əşyaları (biz, iynə, bıçaq və s.) hazırlanmışdır. Bəzi sənətkarlar qızıl əşyalar da hazırlamışlar.

Tuncun kəşfinə baxmayaraq, məişət və təsərrüfatda daş, sümük alətlərdən hələ də istifadə olunurdu. Qoyunçuluğun inkişafı toxuculuğu genişləndirmişdir.

Erkən Tunc dövründə əhalinin dünyagörüşündə, dini inam və mərasimlərində də yeniliklər olmuşdur. Axirət dünyasına inam vardı. Qəbir abidələrinin quruluşu və dəfn alətləri bunu sübut edir. Tunc dövründə ölülər yaşayış məskənindən kənarda dəfn edilmiş, bəzi qəbirlərin üzərində kurqanlar (torpaq təpələr) qurulmuşdur. Ölüyandırma və kollektiv dəfnetmə adəti meydana gəlmişdir.

Əkinçiliyin, maldarlıq və sənətkarlığın inkişafı cəmiyyətin ictimai həyatına da təsir göstərmişdir. Tunc dövrünün əvvəllərindən ailədə, təsərrüfatda və ictimai həyatda kişilərin rolu artmağa başlamışdı. Çünki xış əkinçiliyi, maldarlıq güc və dözüm tələb edirdi. Qadınlar bu işin öhdəsindən gələ bilməmişlər. Nəticədə anaxaqanlığı (matriarxat) süqut etmiş, ataxaqanlığı (patriarxat) yaranmışdır. Ailəyə və tayfaya kişilər başçılıq etməyə başlamışlar.

**Orta Tunc dövrü.** E.ə. III minilliyin axırı və II minilliyin əvvəllərində Orta Tunc dövrü başlanmışdır. Bu mərhələ e.ə. II minilliyin ortalarına qədər davam etmişdir. Orta Tunc dövründə sosial və əmlak bərabərsizliyi artmış, tayfalar arasında əlaqələr genişlənmiş, iri yaşayış məskənləri yaranmışdı.

Azərbaycanın bir çox bölgələrindəki Orta Tunc dövrü yaşayış məskənləri, kurqanlar, torpaq və daş qutu qəbirlər, qalalar və qayaüstü təsvirlər öyrənilmişdir. Bu mərhələdə kənd tipli yaşayış məskənləri ilə yanaşı ilkin şəhər mərkəzləri də yaranmışdır.

Naxçıvan və Urmiya bölgəsindəki bəzi yaşayış məskənləri Qədim Şərqin ilkin şəhər mərkəzləri səviyyəsinə qədər yüksəlmişdir. Belə mərkəzlər mühüm ticarət yolları üzərində yaranmış, əlverişli yerlərdə – əsasən təbii təpələr üzərində, dərin yarğanlı çay kənarlarında salınmış və möhtəşəm müdafiə divarları ilə əhatə olunmuşdur. Naxçıvandakı İkinci Kültəpə, Oğlanqala, Urmiya sahilindəki Göytəpə, Qarabağdakı Üzərliktəpə belə şəhər tipli yaşayış məskənləridir. Qədim Naxçıvan şəhəri Orta tunc dövründə yaranmış, 3500 il bundan əvvəl tanınmışdır. Bu, Azərbaycanda (indiki Naxçıvan MR ərazisində) ilkin şəhər dövlətlərindən birinin mərkəzi olmuşdur.

İlkin şəhər yerlərinin möhtəşəm müdafiə divarları, iki-üç otaqlı evləri cəmiyyətdə baş verən təbəqələşməni göstərir. Böyük binalar varlı ailələrə məxsus olmuşdur.

Azərbaycanda Orta Tunc dövründə əhalinin iqtisadi-ictimai və mədəni həyatında mühüm dəyişikliklər baş vermişdir.

Əhali əkinçilik, maldarlıq, sənətkarlığın müxtəlif sahələri ilə məşğul olmuşdur. Bağçılıq və bostançılıq kimi yeni təsərrüfat sahələri yaranmışdır. Əmək alətləri xeyli təkmilləşmiş, xış əkinçiliyi genişlənmişdir. Süni suvarma kanalları yaradılmışdır. Bütün bunlar əmək məhsuldarlığını artırmışdır. Taxılın biçilməsi və döyülməsi xeyli asanlaşmışdır. Taxılın döyülməsində öküz və ya at qoşulmuş daş vəllərdən istifadə edilmişdir.

Taxıl və un ehtiyatı saxsı küplərdə, quyularda saxlanırdı. İkinci Kültəpə (Naxçıvan), Üzərliktəpə (Ağdam) yaşayış məskənlərində təsərrüfat quyularında və küplərdə arpa, buğda və darı qalıqları tapılmışdır. Orta Tunc dövründə üzümçülük və şərabçılıq meydana gəlmişdir.

Maldarlıq təsərrüfatın mühüm sahələrindən biri olmuşdur. Əsasən, buynuzlu xırda heyvan (qoyun, keçi) bəsləmişlər. Atçılıq da mühüm yer tutmuşdur. Atdan minik vasitəsi də qoşqu qüvvəsi kimi istifadə edilmişdir. Maldarlığın inkişafı əhalinin ət və süd məhsullarına olan tələbatını ödəməklə yanaşı, tayfalararası ticarətin artmasına şərait yaratmışdır. Maldar əhali ət, süd məhsullarını, yun və dərini taxıla, sənətkarlıq məmulatına dəyişirdi.

Qoyunçuluğun inkişafı yun parça toxuculuğunu gücləndirmişdir.

Azərbaycanda sənətkarlığın müxtəlif növləri ayrıca peşə sahəsinə çevrilmişdir. Sənətkarlıq məhsullarına olan tələbat artmışdır.

Sənətkarlığın müstəqil sahəyə çevrilməsi nəticəsində İbtidai icma quruluşu dövründəki ikinci böyük ictimai əmək bölgüsü baş vermişdi, yəni sənətkarlıq başqa istehsal sahələrindən ayrılmışdır.

İlkin şəhər məskənlərindən – Naxçıvan yaxınlığındakı II Kültəpədən dulusçuluq məhəlləsi və dulus sobaları tapılmışdır. Dulusçular yaraşıqlı və davamlı saxsı qablar hazırlamışlar. Onları müxtəlif naxışlarla bəzəmişlər. Bu məqsədlə müxtəlif rəngli boyalardan istifadə edilmişdir. Azərbaycan boyalı qablar mədəniyyəti ilə Yaxın Şərqdə tanınmışdır. Ona görə də Azərbaycanda Orta tunc dövrü mədəniyyəti Boyalı qablar mədəniyyəti adlanır.

Filizçıxarma işi geniş inkişaf etmişdir.

Metalişləmə sahəsində xeyli irəliləyişlər olmuşdur. Metalişləmə sobaları xeyli təkmilləşdirilmişdir. Yaxşı keyfiyyətli, davamlı tunc əşyalar hazırlanmışdır.

Əridilmiş metalı xüsusi qəliblərə tökərək müxtəlif əmək alətləri, silah, bəzək əşyaları hazırlayırdılar. Döymə və lehimləmə üsullarından istifadə olunmuşdur. Bu dövrün abidələrindən tunc məişət avadanlığı (qazan), əmək alətləri biz, iskənə, balta, oraq və s.), silah (xəncər, toppuz, ox və nizə ucluqları, döyüş baltası), bəzək şeyləri, qızıl və gümüş əşyalar tapılmışdır.

Toxuculuq, sümükişləmə, gön-dəri işləmə və daşişləmə sənət sahələri də inkişaf etmişdir. Sadə toxuculuq dəzgahında toxunan parça əhalinin tələbatını ödəyirdi. Arxeoloji işlər zamanı toxuculuğa aid çoxlu əmək alətləri (sümükdən əyircəklər, daraqvari əşyalar, iynə, biz və s.) tapılmışdır.

Dəvəgüzü və çaxmaqdaşından quraşdırmaq oraq dişləri, ox ucluqları, mərmərdən toppuz və baltalar düzəldilmişdir. Həmçinin daşdan dənəzənlər, sürtkəclər, həvəngdəstə, qablar və s. hazırlanmışdır.

Ovçuluq və balıqçılıq köməkçi məşğuliyyət sahələri idi. Əhali maral, ceyran, çöldonuzu, qulan ovlayır, balıq tuturdu. Ovçuluqda yay, ox, nizə, sapand və tələdən də istifadə olunmuşdur.

Orta Tunc dövründə Azərbaycan ərazisində yaşamış qəbilə və tayfalar böyük tayfa ittifaqlarında birləşmişlər. Soykökü etibarilə bir-birinə yaxın olan kiçik

tayfalar varlı və güclü tayfaların ətrafında birləşməyə məcbur olmuşlar. Torpaqlar və yaylaq otlaqları uğrunda tayfalar arasında gedən toqquşmalar, eləcə də qonşu yaxın şərq dövlətlərinin hücum təhlükələri tayfa ittifaqlarının yaranmasını daha da zəruri etmişdir. İri tayfa ittifaqlarının vahid mərkəzləri var idi. Tayfa ittifaqlarına böyük nüfuza malik olan varlı, nüfuzlu adamlar başçılıq etmişlər.

İctimai və əmək bərabərsizliyi dərinləşmişdi. Tayfanın varlı üzvləri və tayfa başçıları icmaya məxsus əmlakın çox hissəsini mənimsəyirdilər. Belə varlı adamlar öləndə zəngin ev əşyaları və silahları ilə birlikdə dəfn olunurdular. Yoxsul tayfa üzvlərinin qəbirlərinə az miqdarda avadanlıq qoyulurdu.

İctimai-iqtisadi sahədəki dəyişikliklər adamların dünyagörüşünə və ətraf aləmin münasibətinə təsir göstərmişdir.

Əhalinin dini inamları, mərasim və ayinləri qəbir abidələrinin quruluşunda (daş qutular, kurqanlar), dəfn alətlərində (ölülərin yandırılması, onların üzərinə qırmızı boya çəkilməsi və s.) əks olunmuşdur. Qaya təsvirlərinin bir çoxu İbtidai ovsunla bağlı olmuşdur. İbtidai incəsənət xeyli inkişaf etmişdir. Qayalar üzərində müxtəlif məzmunlu rəsmlər həkk edilmişdir. Saxsı qabların, metal əşyaların və bəzək şeylərinin üzəri həndəsi naxışlar, heyvan və bitki rəsmləri ilə bəzədilmişdir.

**Son Tunc və İlkin Dəmir dövrü.** Azərbaycanda Tunc dövrünün son mərhələsində İbtidai icma quruluşu dağılmağa başlayır. Bu dövr e.ə. X1Y-XII əsrləri əhatə edir. Son Tunc dövründə cəmiyyətin həyatında yaranmış mühüm yeniliklər Erkən Dəmir dövründə daha güclü şəkildə inkişaf etmişdir. Erkən (İlk) Dəmir dövrü e.ə. X1-YIII əsrləri əhatə edir.

Azərbaycanda Son Tunc və Erkən Dəmir dövrünün yaşayış məskənləri, qəbir abidələri (kurqanlar, daş qutular, torpaq qəbirlər) və müdafiə tikililəri, siklopik qalalar tədqiq edilmişdir. Bu abidələrdən məişət əşyaları, əmək alətləri, silahlar və bəzək nümunələri tapılmışdır. Əhali şəhər və kəndlərdə yaşamışdır.

İbtidai icma quruluşunun sonunda daha davamlı yaşayış və təsərrüfat binaları tikilmişdir. Binaların bünövrəsi çay daşları və ya qaya parçalarından qoyulur, divarları çiy kərpicdən hörülürdü. Düşmən basqınlarından qorunmaq üçün yaşayış məskənlərinin ətrafına qalın müdafiə divarları çəkirdilər. Ətrafı hasarlı yaşayış yerləri və qalalar Azərbaycanın bir çox rayonlarında aşkar edilmişdir. Bu möhkəm tikililər e.ə. II minilliyin axırında Azərbaycanda memarlığın inkişaf etdiyini göstərir.

Son Tunc və Erkən Dəmir dövründə təsərrüfatın ayrı-ayrı sahələri və sənətkarlıq yüksək inkişaf etmiş, qonşu ölkələrlə mübadilə və ticarət əlaqələri genişlənmişdir.

Təsərrüfatda yarımköçəri yaylaq maldarlığı üstün yer tutmuşdur. Maldar tayfalar dağlıq zonalarda məskunlaşmış, dağətəyi bölgələrdə ətrafı möhkəmləndirmiş yaşayış məskənlərində, düzənliklərin mövsümi qışlaqlarında yaşamışlar. Bu ərazilərdə kurqan abidələri geniş yayılmışdır. Maldar tayfalar (qoyun, keçi və qaramal bəsləyir, öz ehtiyaclarından artıq qalan məhsulu əkinçlər və sənətkarlarla taxıla, əmək alətlərinə, silah və zinət şeylərinə dəyişirdilər.

Maldarlığın inkişafında atçılığın böyük rolu olmuşdur. Son Tunc dövründə atdan minik və qoşqu vasitəsi kimi geniş istifadə edilmişdir. Bu dövrün abidələ-

rindən çoxlu at skeletləri və əsləhələri (gəm, qantarğa və s.) tapılmışdır. At insanların həyatında böyük rol oynadığı üçün ona sitayiş ayini meydana gəlmişdir. Bu dövrdə dəvəçilik də geniş yayılmışdır. Dəvədən minik vasitəsi kimi və yük daşınmasında istifadə olunurdu. Bundan əlavə, onun yunundan, südündən və ətindən istifadə edilmişdir.

Metal alətlərin tətbiqi, suvarma kanallarının çəkilməsi əkinçiliyin inkişafına, məhsuldarlığın artmasına təkan vermişdi. Torpaq qoşqu heyvanlarının (öküz, at) köməyi ilə şumlanmış, əkin sahələri xeyli genişlənmişdi.

Əkinçilikdə buğda, arpa, darı və s. bitkilərin bir neçə növü becərilirdi. Taxıl tuncdan və dəmirdən hazırlanmış oraqlarla biçilir, taxta və daş vəllərlə döyülür, dən daşları ilə üyüdülürdü. Taxıl ehtiyatını iri küplərdə və quyularda saxlayırdılar. Qazax rayonundakı Sarıtəpə və Babadərviş yaşayış məskənlərində təsərrüfat quyularının və küplərin içərisində taxıl və un qalığı aşkar edilmişdir.

Süni suvarma (Naxçıvan və Qarabağda qədim süni suvarma şəbəkələrinin izləri qalmışdır) sayəsində bağçılıq və bostançılıq da genişlənmişdir. Üzümçülük və şərabçılıq inkişaf etmişdir. Arxeoloji qazıntılar zamanı gilas, şaftalı, badam çəyirdəkləri, nar və üzüm toxumları və bərkiyib daşlaşmış şərab qalığı tapılmışdır.

**Son Tunc və İlk Dəmir dövründə** Azərbaycanda sənətkarlıq sahələri içərisində dulusçuluq xüsusi yer tuturdu. Saxsı qabların istehsalında ayaqla hərəkətə gətirilən dulus çarxından istifadə olunurdu. Məişətdə ərzaq ehtiyatı, süd məhsulları saxlamaq və emal etmək üçün müxtəlif çeşidli saxsı qablar hazırlanırdı. Bu qablar dulusçuluq sobalarında bişirilirdi. Metalişləmə sənətkarlığı böyük rol oynamışdır. Ustalar zərbetmə, oyma, lehimləmə, həkketmə ilə tunc, qızıl və gümüşdən zinət əşyaları hazırlamışlar.

Toxuculuq, sümükişləmə, daşişləmə, ağacişləmə, gön-dəri emalı və başqa sənət sahələri də mühüm əhəmiyyət daşımışdır.

E.ə. II minilliyin axırı – 1 minilliyin əvvəllərində dəmirdən müxtəlif əşyalar hazırlanmışdır.

E.ə. XII əsrdən başlayaraq dəmirdən istifadə geniş xarakter almışdır.

Müxtəlif sənət sahələrinin inkişafı ilə əlaqədar, sənətkarların içərisindən sənətkar-tacirlər qrupu ayrılmışdır. Onlar əsasən, hazır məhsulun satışı ilə məşğul olmuş, sonralar peşəkar tacirlərə çevrilmişlər. Beləliklə, tacirlər sənətkarlardan ayrılmışlar. Ovçuluq və balıqçılıq köməkçi məşğuliyyət sahəsi kimi qalırdı. Yaşayış yerlərindən maral, ceyran, çöldonuzu, quş, balıq sümükləri və balıqçılıq alətləri aşkar olunmuşdur.

Tayfa başçısının hakimiyyətinin qüvvətlənməsi, dini və hərbi rəhbərliyin onların əlində toplanması bu şəxslərin ilahiləşdirilməsinə gətirib çıxarırdı. Belə tayfa başçılarına öləndən sonra da sitayiş olunur, onların xatirəsini əbədiləşdirmək üçün kurqanlar ucaldılırdı.

Bəzən tayfa başçısının arvadını, kənizlərini və qulluqçularını öldürüb onunla birlikdə dəfn edir, sahibi ilə birlikdə atlarını basdırırdılar. Atları öldürərək yüyən-

li-cilovlu, müxtəlif əşyalarla bəzədilmiş halda qəbirə qoyurdular. Bu dəfn adəti axirət dünyasına inamla bağlıdır.

Bu dövrün dini etiqadları və mərasimləri içərisində oda sitayiş, suya, dağa, meşələrə, müxtəlif ağac növlərinə və heyvanlara inam geniş yer tuturdu. Səma cisimlərinə (Aya, ulduzlara, Günəşə) inam dərin kök salmışdı.

İbtidai icma quruluşunun sonunda Azərbaycan tayfaları qonşu ölkələrlə xammal və hazır məhsulla ticarət aparmışlar. Azərbaycanın zəngin filiz yataqları, cins at növləri, saysız-hesabsız heyvan sürüləri, yüksək keyfiyyətli sənətkarlıq nümunələri ticarətdə, alış-verişdə böyük rol oynamışdır. Belə iqtisadi-mədəni əlaqə vasitəsilə həmin ölkələrdən Azərbaycana müxtəlif şeylər, bəzək əşyaları, silah və s. gətirilmişdir. Dəmir dövründə Azərbaycan Qədim Şərqin ən qüdrətli dövləti olan Assuriya ilə geniş ticarət əlaqələri saxlayırdı. Azərbaycanın müxtəlif abidələrindən Assuriyada istehsal olunmuş şirli gil qablar, silindrik möhürlər, silahlar, bəzək şeyləri tapılmışdır. Onlardan biri də Xocalıda tapılan, üzərində mixi xətlə Assuriya padşahının (Adadnirari) adı yazılmış muncuqdur.

Ön Asiya və Yaxın Şərq ölkələri ilə quru və su yolları vasitəsilə ticarət əlaqələri aparılırdı. Su yolları ilə ticarət əlaqələri çay (Kür-Araz) və dəniz (Xəzər) vasitəsilə yaradılırdı.

Qobustan qayaları üzərində həkk edilmiş müxtəlif tipli gəmi təsvirləri bunu əyani sübut edir.

### *§ 4. Əhalinin məşğuliyyəti, ictimai həyatı və dünyagörüşü*

Azərbaycanan münbit torpaqları, dağətəyi və dağlıq zonaları, su mənbələri hələ neolit dövründən burada təsərrüfatın müxtəlif sahələrinin, xüsusilə əkinçilik və maldarlığın inkişafı üçün zəmin yaratmışdır. Qeyd edək ki, bu günə qədər Cənubi Qafqaz ərazisində öyrənilmiş qədim əkinçi-maldar tayfaların təsərrüfat həyatını əks etdirən abidələrin sayı iki yüzü ötmüşdür.

Əkinçilik mədəniyyətinin formalaşması iki mərhələ keçmişdir. Birinci mərhələ neolit dövrünü əhatə edir ki, bu dövrdə əkinçilik ilkin yaranma mərhələsində olur. Onunla bərabər maldarlıq, sənətkarlığın dulusçuluq və toxuculuq kimi sahələri də formalaşmağa başlayır. İkinci mərhələ eneolit dövrünü əhatə edir. Artıq bu zaman təsərrüfat yüksələn xətlə inkişaf etməyə başlayır. Yığıcılıq və ovçuluq nəzərə çarpacaq dərəcədə formalaşır. Məhsuldar qüvvələrin inkişafı istehsalın yeni sahəsinin-metallurgiyanın yaranmasına gətirib çıxarır.

Abidələrdən tapılmış quraşdırma oraq dişləri, dən daşı və sürtgəclər, daş toxalar artıq bu dövrdə əkinçiliyin intensiv xarakter daşıdığına işarədir. Əkinçiliyin inkişafı yalnız təbii şəraitlə deyil, həmçinin burada yabanı taxıl bitkilərinin olması ilə bağlı olmuşdur. Azərbaycanda yumşaq və bərk buğda, çoxcərgəli butulkaşəkilli arpa və digər taxıl növlərinə rast gəlinmişdir. I Kültəpədən noxud və darı dənləri də aşkar olunmuşdur.

İbtidai-icma cəmiyyətində yeni yaranan əsas təsərrüfat sahələrindən biri də maldarlıq olmuşdur. Bu dövrdə heyvan sürüləri artmışdır. Xırdabuynuzlu heyvanlar əsasən keçi və qoyundan ibarət olmuşdur. Ev heyvanları sırasına iti də aid etmək olar. Vəhşi heyvan sümükləri sırasına maral, ceyran, ayı, qurd, tülkü, quş və s. daxildir.

Abidələrdən maldarlığın inkişafını sübut edən osteoloji qalıqlar və heyvan fiqurları əldə edilmişdir. Osteoloji qalıqlar içərisində öküz sümükləri üstünlük təşkil edir. Tapıntılar arasında qoyun, keçi, donuz, it, dəvə və at sümükləri də vardır.

Yaşayış yerlərinin topoqrafiyasına və bir neçə abidədə mədəni təbəqənin az yığılmasına əsasən söyləmək olar ki, yarımköçəri yaylaq maldarlığı Azərbaycanda artıq Kür-Araz mədəniyyətinin orta inkişaf mərhələsində mövcud olmuşdur. Ehtimal ki, bu, e.ə. IV və III minilliklərin ayrıcına düşür.

Osteoloji materialın təhlili Kür-Araz mədəniyyəti tayfalarının həyatında ovçuluğun müəyyən yer tutduğunu göstərir. Başlıca olaraq, ceyran, maral, ayı, pişik və b. heyvanlar ovlanmışdır. Vəhşi heyvanlara aid osteoloji qalıqların az olması (10%) onların təsərrüfatda ikinci dərəcəli yer tutduğunu göstərir.

Maldarlığın inkişafı təkərli nəqliyyatın və əkinçiliyin inkişafına təkan vermişdir. İribuynuzlu heyvanlardan taxıl döyümündə istifadə edilməsi, əmək məhsuldarlığını və cəmiyyətin inkişafı üçün zəruri olan izafi məhsul istehsalını artırmışdır.

Orta Tunc dövründə xırdabuynuzlu heyvanlar sayca artmış, yarımköçəri yaylaq maldarlığı inkişaf etmişdir. Azərbaycanın yüksək dağlıq zonalarında və dağ ətəklərində yerləşən abidələrin meydana çıxması bununla bağlıdır. Bu tip yaşayış yerləri yarımköçəri maldar tayfaların həyat tərzi ilə bağlı olmuşdur. Gəmiqayada, Xaçbulağın (Daşkəsən) yüksək dağlıq zonasında və Kəlbəcərdə aparılan tədqiqatlar bu dövrdə Azərbaycanda məskunlaşan tayfaların bir qisminin postoral həyat tərzi keçirdiyini göstərir. Dağlıq zonalarda əhalinin məskunlaşması orta və Son Tunc dövründə baş vermişdir. Bu dövrdə Araz çayı ətrafında, Mil-Qarabağ düzündə, Muğanda, Cənub-Şərqi Azərbaycanda güclü maldar tayfalar yaşamışdır. Maldarlığın inkişafı əkinçiliyə nisbətən daha çox izafi məhsul əldə edilməsinə, sərvətin müəyyən qrup adamların əlində toplanmasına imkan yaratmışdır. Bu, son nəticədə əmlak bərabərsizliyinə gətirib çıxarmışdır. Belə ki, maldar tayfaların əlində tez bir zamanda çoxlu var-dövlət yığılmağa başlayır ki, bu da mal-qaranın saxlanması üçün əlavə işçi qüvvəsi cəlb etmək arzusu doğurur. Bu zamandan etibarən müharibələr nəticəsində ələ keçirilmiş əsirlərin əməyindən qul kimi istifadə etməyə başlayırlar. Bu isə sinifli cəmiyyətin ilk rüşeymlərinin meydana çıxmasına səbəb olur. Tayfa başçılarına aid zəngin qəbirlərin meydana çıxması da, şübhəsiz ki, yuxarıda göstərilənlərlə bağlıdır.

Bu dövrdə heyvandarlığın müəyyən sahəsini də atçılıq təşkil etmişdir. Muğanda Əlikköməkçi təpəsindən aşkar olunan at sümükləri atın hələ eneolit dövründə əhilləşdirildiyini göstərir.

Neolit və Eneolit dövründə meydana çıxan ibtidai sənətkarlıq Tunc dövründə inkişaf edərək, daha da təkmilləşmişdir. Arxeoloji qazıntılardan əldə edilən müxtəlif əmək alətləri, təsərrüfat əşyaları o dövrdə sənətkarlığın müxtəlif qolları-

nın metallurgiya və metalişləmə, dulusçuluq, daşişləmə, sümükişləmə, dəri və gönişləmə, toxuculuq və s. müxtəlif mərhələlərdə dinamik şəkildə inkişaf etdiyini göstərir. Neolit dövründə dulusçuluq və toxuculuq, Eneolit dövründə bunlarla bərabər metallurgiyanın meydana çıxması, Tunc dövründə isə yuxarıda sadalananlar arasında metallurgiya və metalişləmənin aparıcı yerlərdən birini tutmasına səbəb olmuşdur.

Məlum olduğu kimi, Azərbaycanda və bütün Cənubi Qafqazda məskunlaşan tayfaların metalla ilk tanışlığı hələ eneolit dövründə olmuşdur. Bu dövrə aid abidələrdən xırda metal əşyalar, o cümlədən bəzək üçün muncuqlar tapılmışdır.

Leylatəpədən aşkar olunan maddi-mədəniyyət qalıqlarının ən qiymətlilərindən biri də metallurgiyaya aiddir . Buradan nəinki müxtəlif metal əşyalar, həm də onların bilavasitə yaşayış məskənlərində hazırlanmasını göstərən maddi qalıqlar tapılmışdır.

## *§ 5. İbtidai icma cəmiyyətinin dağılması*

E.ə. II minilliyin axırı – 1 minilliyin əvvəllərində əhalinin yoxsullara və varlılara ayrılması daha da artmış, İbtidai-icma quruluşunun dağılması sürətlənmişdir.

Bu dövrdə Azərbaycanın cənub ərazisində dövlət qurumları, şimal hissəsində iri tayfa ittifaqları mövcud olmuşdur. Bu birliklərə nüfuzlu tayfa başçıları rəhbərlik edirdilər. Daha güclü tayfa ittifaqları əlverişli təbii şəraiti, münbit torpağı olan ərazilərə yiyələnmişlər.

Tayfalar daxilində də təbəqələşmə gedirdi. Güclü ailələr, tayfa başçıları və ağsaqqalları, icma şurası üzvləri, nüfuzlu hərbçilər, kahinlər çoxlu var-dövlətə sahib olurdular.

İcmanın daha münbit əkin sahələrini, əsas otlaqlarını, mal-qarasını, at ilxılarını varlı ailələr ələ keçirirdilər. Gəncə yaxınlığında, Qarabağda və s. ərazilərdə belə ailələrin yaşayış binalarının qalıqları aşkar edilmişdir. Həmin binalar bir neçə otaqdan ibarət olub, həyətyanı sahə ilə başqalarından ayrılırdı.

Azərbaycanda əhalinin belə təbəqələşməsi yoxsul və varlı adamlara məxsus qəbirlərdə (kurqanlar, daş qutular) yaxşı izlənilir. Yoxsul qəbirlərində ölünün yanına az əşya qoyulmuşdur. Varlı adamların dəfn olunduğu kurqanlar həmçinin böyüklüyü, quruluşu və qəbirə qoyulmuş əşyaların zənginliyi ilə fərqlənir.

Tunc dövründə əhalinin məişətində və dünyagörüşündə əsaslı dəyişikliklər olmuşdur. Onlar tikinti işində məişət avadanlıqlarının çoxnövlü və yüksək bədii zövqlə hazırlanmasında görünür. Dini təsəvvürlərdə də dəyişikliklər baş vermişdi. Axirət dünyasına inamla bağlı dəfn mərasimlərində də bunlar izlənmişdir. Sitayişlə bağlı bütlər yaranırdı. Səma cisimlərinə, suya, ağaca, ayrı-ayrı heyvanlara və s. sitayiş edilirdi.

İncəsənət yüksək inkişaf tapmışdır. Məişət əşyaları, bəzək əşyaları həndəsi naxışlarla, insan, heyvan və quş təsvirləri ilə bəzədilirdi. Bu dövrə aid qayaüstü rəsmlər təsviri incəsənətin gözəl nümunələri sayıla bilər.

Varlı ailələr çoxsaylı mal-qara sürülərinə baxmaq, başqa təsərrüfat sahələrində çalışmaq üçün əlavə işçi qüvvəsindən istifadə edirdilər. Belə işçi qüvvəsi, əsasən var-yoxdan çıxmış icma üzvləri, tayfalar arasında gedən müharibələr zamanı əsir düşmüş adamlar hesabına yaranırdı. Bu dövrdə qullar da olmuşdur. Sahibkarın qullarını da onunla birlikdə dəfn edirdilər.

Qəbirlərdən çoxlu silah-nizə, ox ucluqları, xəncər, qılınc, döyüş baltası, paltar zirehləri, toppuz və s. tapılması həmin dövrdə cəmiyyətin həyatında hərb işinin mühüm yer tutduğunu göstərir.

Əhali qəfil hücumlardan qorunmaq üçün daha təhlükəsiz yerlərdə məskən salmışlar. Belə yaşayış məskəninin ətrafına möhkəm müdafiə divarı çəkilmiş, dağlıq yerlərdə qalaçalar və müvəqqəti sığınacaqlar tikilmişdir. Bəzi yaşayış məskənləri tayfalar arasında gedən müharibələr zamanı dağıdılıb yandırılmışdır. Qalib tayfa məğlub tayfanı öz tərkibinə qatır və onun var-dövlətini mənimsəyirdi. Hərbi qənimətlərin və əsirlərin çox hissəsi qalib tayfanın başçısının və nüfuzlu hərbçilərin əlinə keçirdi.

Beləliklə, iri tayfa ittifaqlarının yaranması, hakimiyyətin ayrı-ayrı nüfuzlu şəxslərin əlində cəmlənməsi, cəmiyyətin yoxsullara və varlılara parçalanması və s. amillər e.ə. Azərbaycanda e.ə. II minilliyin sonlarında İbtidai icma cəmiyyətinin dağılması və sinifli cəmiyyətə keçid prosesini sürətləndirdi.

Xüsusi mülkiyyət və əmlak bərabərsizliyinin meydana çıxması nəticəsində ibtidai icma quruluşu dağıldı, ilk sinifi cəmiyyətlər və dövlət qurumları yarandı. Keçmiş tayfa başçıları döyüşçü dəstələri yaradır, ətraf əraziləri özünə tabe edərək hökmdarlara çevrilirdilər.

Artıq e.ə. III minillikdə Azərbaycanın cənubunda ilkin dövlət qurumları yarandı. Azərbaycanın Yaxın Şərqin mədəniyyət ocaqları ilə sıx əlaqədə olan cənub ərazilərində ilk quldar dövlət qurumları daha tez meydana çıxmışdı. İri tayfa ittifaqlarının yaranması, hakimiyyətin nüfuzlu şəxslərin əlində cəmləşməsi və cəmiyyətin yoxsullara və varlılara parçalanması e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Azərbaycanın Şimalında ibtidai icma cəmiyyətinin dağılmasını sürətləndirdi.

# FƏSİL 3. AZƏRBAYCAN ƏRAZİSİNDƏ QƏDİM DÖVLƏTLƏR

*§ 1. Azərbaycanda qədim tayfa ittifaqları və ilkin dövlət qurumları (Aratta, Lullubi, Kuti)*
*§ 2. Manna dövləti.*
*§ 3. Azərbaycan Midiya və Əhəmənilər dövlətinin tərkibində.*
*§ 4. Atropatena dövləti.*
*§ 5. Albaniya dövləti antik dövrdə.*

## *§ 1. Azərbaycanda qədim tayfa ittifaqları və ilkin dövlət qurumları (Aratta, Lullubi, Kuti)*

Eramızdan əvvəl IV minillikdə qədim Azərbaycanda maldarlıq, əkinçilik və sənətkarlıq inkişaf etmiş, əkinçi-maldar təsərrüfatı meydana gəlmişdi. Azərbaycanda da İkiçayarasında meydana gəlmiş Hələf, xüsusilə Ubeyd yaxud protoşumer, ilkin şumer mədəniyyətinə oxşar əlamətlər təmsil olunmuşdur. Azərbaycanda ilkin şumer mədəniyyətinə oxşar arxeoloji mədəniyyət abidələrinin (dairəvi evlərin və naxışlı qab-qacağın) yayılması eramızdan əvvəl IV minilikdə burada protoşumer etnik qruplarının məskunlaşdığını, Azərbaycan əhalisi ilə yaxın təmasda olduğunu söyləməyə imkan verir. İlkin şumer mədəniyyətinə oxşar abidələr Ağdam rayonu ərazisində Leylatəpə yaşayış məntəqəsində və Urmiya gölü hövzəsində aşkara çıxarılmışdır. Azərbaycanın cənubunda sinifli cəmiyyətin yaranması prosesi eramızdan əvvəl IV minilliyin sonu—III miniliyin əvvəlində başlamışdı. Cənubi Azərbaycanda eramızdan əvvəl III minilliyin I yarısında İkiçayarası Şumer dövlətləri ilə ünsiyyətdə olan qədim dövlət quruluşu mövcud idi. Şimali Azərbaycan qədim İkiçayarası sivilizasiyasından xeyli kənarda yerləşmişdi. Buna görə də burada sinifli cəmiyyətin ruşeymləri gec yaranmışdır. Şimali Azərbaycanda dövlət hakimiyyətinin ruşeymi Tunc dövrünün sonu-dəmir dövrünün əvvəllərində meydana gəlmişdi. Şumer-Akkad mixi yazılarında Cənubi Azərbaycanda yerləşən Aratta ölkəsi, kuti, lullubi tayfaları yad edilir. Aratta ölkəsi ilə əlaqədər eramızdan əvvəl III minilliyin I yarısı hadisələr bir neçə şumer dastanında (“En Merkar və Aratta”, “En Merkar və Luqalbanda”, “En Merkar və Sukurşiranna” təsvir olunurdu.

***Aratta ölkəsi.*** Urmiya gölünün cənub şərq hissəsini əhatə edirdi. Aratta dövləti İkiçayarasın Şumer şəhəri dövlətləri ilə iqtisadi, siyasi və mədəni əlaqələrə girmişdi. Aratta ölkəsi haqqında eramızdan əvvəl XXVIII-XXVII əsrlərdə Şumerin Uruk şəhər dövlətinin hökmdarı Merkarın adına yazılmış dastanda ilk məlumatlar verilmişdi. Arattada mövcud olan siyasi və ideoloji şərait şumer məfhumları vasitəsilə əks olunmuşdur. Ölkəni ensi rütbəsi daşıyan hökmdar idarə edirdi. Əsilzadə təbəqəsinə daxil olan maşmaş (kahin, vəzir), sukkal (elçi), uqula ( rəis) və b. dövlət idarəsinin qulluqçuları olmuşlar. Eramızdan əvvəl III minilliyin I yarısında Arattada artıq dövlətə məxsus idarə orqanları və vəzifəli şəxsləri meydana gəlmişdi. Şumer hökmdarı Merkar bu dövləti özünə tabe etmək, əhalisini və sə-

nətkarlarını Şumer məbəd tikintisində işlətmək niyyətində idi. Arattada çox allahlılıq mövcud olmuşdur. Mənbələrdə Aratta hökmdarı En-Sukuşsiranna ilə Şumer hökmdarı En-Merkar arasında münaqişə olduğu qeyd edilir. En-Merkar Arattanı özünə tabe etməyə cəhd göstərmişdir. Lakin bu münaqişə dinc yolla həll edilir və Aratta dövləti öz müstəqilliyini saxladı. Şumer dövləti ilə Aratta ölkəsi arasında iqtisadi əlaqələr davam edirdi. Arattadan İkiçay arasına qızıl, gümüş, tikinti materialları, Şumerdən Arattaya isə əsasən taxıl və meyvə gətirilirdi. Aratta ölkəsinin əhalisi qızıl, gümüş, tikinti, mis, dağdaşı və s. hasil edirdi. Aratta əhalisinin həyatında əkinçilik müəyyən yer tuturdu. Burada dəmyə əkinçiliyi geniş yayılmışdı. Şumer qaynaqlarında yad edilən Aratta, eyni adı saxlamış Aratta çayı və Alateye Azərbaycanda Urmiya gölünün cənub və cənub-şərq dağlıq ərazisini göstərir. Urartu mənbələrində Aratta ölkəsinin yerləşdiyi ərazi Alateye adlanır. Aratta və Alateye eyni dağlıq ərazinin müxtəlif dialekt adlarıdır, hər iki adı əmələ gətirən söz "dağ" mənasını daşıyır. Arattanın sərhədləri cənubi şərqdə Zənçana, cənubi qərbdə isə Zəribər gölünə (Sənəndəçin şimalı) kimi çatırmış. Aratta qədim Azərbaycan ərazisinə verilən ilk məlum addır.

***Lullubum (Lullubi) dövləti.*** Eramızdan əvvəl III minilliyin II yarısında İki çayarası Şumer şəhər dövlətləri süquta uğradı. İkiçayarası Akkad dövlətinin hakimiyyəti (eramızdan əvvəl XXIV-XXII əsrlər) altında birləşdirildi. Bu zaman Aratta bir dövlət kimi artıq siyasi səhnədən çıxmışdı. Urmiya gölünün cənubunda, keçmiş Aratta dövlətinin qərb torpaqlarında lullubi tayfalarının ittifaqı yaranmışdı. Lullubi tayfa ittifaqına su və turukki tayfalarının daxil olması güman edilir. Eramızdan əvvəl XXIII əsrdə Urmiya gölünün cənubunda lullubi tayfaları dövləti yarandı. Lullubi dövləti (Lullubum) Cənubi Azərbaycan ərazisində yaranmış ikinci erkən dövlət quruluşu idi. Lullubi hökmdarı Satuninin (e.ə.2230-2200) eramızdan əvvəl III minilliyin III əsrinin 20-ci illərində Akkad hökmdarı Naram-Suenə (e.ə. 2236-2201) qarşı müharibə apardığı Akkad mənbələrində qeyd olunmuşdur. Bu müharibədə Lullubi hökmdarı məğlub olmuşdur. Lullubi padşahlığında xırda hökmdarların hakimyyəti mövcud imiş. Lullubi hökmdarı İmmaşqun (eramızdan əvvəl 2200-2170-ci illər) xırda hakimləri mərkəzi Lullubi dövlətinə tabe etdi. Bu dövlətin qüdrəti hökmdar Anubaninin (e.ə. 2170-e.ə.2150) dövründə daha da artır. Lullubi dövlətinin sərhədləri cənubda Diyala çayına, şimalda isə Urmiya gölünə çatırdı. Lullubi dövləti İkiçayarası ilə iqtisadi əlaqələrə girmişdi. Lullubilər də Aratta dövründə olduğu kimi İkiçayarası mədəniyyətinin təsirinə məruz qalmışdılar. Onlar da mixi yazı sistemi ilə tanış idilər. Eramızdan əvvəl II minilikdə vahid Lullubi dövləti parçalanır və yerində xırda hakimyyətlər yaranır.

***Kuti dövləti.*** Eramızdan əvvəl III minillikdə Urmiya gölünün qərb və cənubi qərb hissəsində kuti tayfa birləşmələri mövcud idi. Həmin minilliyin II yarısında Kutilərin dövlət halında birləşməsi başlanmışdı. Kutilər şumerlərlə sıx əlaqə yaratmışdılar. Onlar Akkad hökmdarlarının işğalçılıq siyasətinə qarşı çıxırdılar.

Akkad hökmdarı Naram-Suen Urmiya gölü hövzəsində yaşayan tayfalara qarşı təcavüz siyasəti yeridirdi. Lakin kutilər və digər tayfalar Naram-Suenin hü-

cumunun qarşısını aldılar. Eyni zamanda kutilər özləri də İkiçayarasına tez-tez hücumlar edirdilər. E.ə. XXIII yüzillinin sonunda kutilər Enrıdavazir (e.ə. 2225- e.ə. 2205) başda olmaqla İkiçayarasına hərbi yürüşə başlayıb, Akkad çarının qoşunlarını darmadağın etdilər e.ə.2201-ci ildə Naranı Suen döyüşdə öldürüldü. Akkadlar üzərindəki uğur İkiçayarasındakı kuti ağalığının başlanğıcını qoydu. Sonrakı Akkad çarı Şarkalişarri (e.ə. 2201-e.ə. 2177) kuti başçıları İmta, İnqeşuşşu, Sarlaqab və Yarlaqaşın ardıcıl hücumlarınıdəf etməli olmuşdu. Elulumeşi (e.ə. 2178-2173) İkiçayarasında kutilərin siyasi hökmranlığını qorumağı başa çatdırdı. Kutilərin zərbələrinə davam gətirməyən Akkad padşahlığı süqut etdi. Hətta kuti hökmdarı Elulumeş İkiçayarasında yaranmış daxili hərcmərclikdən istifadə edərək eramızdan əvvəl 2175-ci ildə burada hakimyyəti öz əlinə almışdı. Eramızdan əvvəl III miniliyin II yarısında Kutium dövləti Urmiya gölünün qərb və cənub-qərb torpaqlarında meydana gəlmişdi. Kutilər İkiçayarasını zəbt etməmişdən əvvəl dövlət qurumu yaratmışdılar. Kutilərin hakimyyəti illərində İkiçayarasının iqtisadiyyatı və ticarəti yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Kutilər İkiçayarası mədəniyyəti dairəsinə cəlb olunmuşdular. Kuti hökmdarlarının qısa mətnli kitabələri mixi yazılar ilə tərtib olunmuşdur. Onlar da aya, bərəkət və məhəbbət ilahəsinə sitayiş edirdilər. Kuti hökmdarı Tirikanın vaxtında o, cəmi 40 gün hakimiyyətdə qalmışdır. İkiçayarasında onun hakimyyətinə qarşı eramızdan əvvəl 2104-cı ildə qiyam baş vermişdir və kutilərin İkiçayarasında hakimiyyətinə son qoyulmuşdur, çünki kutilər İkiçayarasında böyük hərbi qüvvə saxlamırdılar. İkiçayarasında kutilərin ağalağına son qoyulduqdan sonra Kutiumun özündə də dövlət süquta uğrayır, xırda hakimiyyətlər yaranır. Eramızdan əvvəl III minilliyin sonunda Kuti, eləcə də Lullubi dövlətləri süquta uğrayaraq xırda hakimiyyətli vilayətlərə parçalanırlar. Bu hal eramızdan əvvəl I minilliyin əvvəlinə kimi davam edir. Azərbaycanın ilkin dövlətlərini türk mənşəli sülalələr idarə edirdilər.

***Eramızdan əvvəl II minillikdə Azərbaycanın siyasi vəziyyəti.*** Eramızdan əvvəl II minilliyin əvvəlində Urmiya gölü hövzəsində yaşayan turukki və su tayfalarının siyasi fəaliyyəti başlayır. Onlar əvvəlki dövrlərdə Aratta, sonra isə Kutium və Lullubi dövlətlərinin tərkibinə daxil idilər. Bu dövlət qurumları süquta uğradıqdan sonra turukki və su tayfaları İkiçayarası hadisələrinə müstəqil surətdə qarışmağa imkan tapdılar. Onların bu hücumları İkiçayarasının şimalında yaranmış Assur dövlətinin sərhədlərində təhlükə yaradırdı. Assur hökmdarı I Şamşi-Adad (eramızdan əvvəl 1813-1781) turikkilərə qarşı hərbi yürüş təşkil edir. Lakin bu tayfaların müdaxiləsinin qarşısını ala bilmir. Turikkilər Assurların nəzarəti altında olan Şumer vilayətində yerləşdilər. Turukkilərin bir hissəsi Assurlarla sülh bağlayır.

Eramızdan əvvəl II miniliyin əvvəlində Azərbaycan tayfalarını ayrı-ayrı başçılar, yaxud xırda hökmdarlar təmsil edirdilər. Turikkilərin bir neçə, lullibilərin isə çox hökmdarı var idi. Erkən Azərbaycan dövlətləri artıq parçalanmışdılar, ayrı-ayrı xırda hökmdarların hakimiyyəti bərqərar olmuşdu. Bu dövrdə güman ki, turikki, lullubi, kuti və b. tayfaların ittifaqı mövcud idi. Bu tayfaların fasiləsiz təzyiqi Assuriya dövlətinin zəifləməsinə və Babilistan hökmdarı Hammurapinin (era-

mızdan əvvəl 1792-1750) Şimali İkiçayarası hadisələrinə müdaxilə etməsinə şərait yaratdı. O, turikki və kuti tayfalarının hücümlarını dəf etdi. Eramızdan əvvəl XIV əsrin sonunda Assuriya yenidən qüvvətlənir və onun qədim Azərbaycan torpaqlarına hücumları güclənir. Assuriya lullubilərin yaşadığı ərazini ələ keçirmişdi. Lakin Assuriyanın Azərbaycan ərazisində hökmranlığı müvəqqəti xarakter daşıyırdı. Qədim Azərbaycan tayfaları üsyan qaldırır, Assur əsarətindən xilas olmağa çalışırdılar. Qədim Azərbaycanın xırda hökmdarları çox zaman birləşməyə macal tapmır, təkbətək döyüşə girir və ya uğursuz müdafiə olunurdular. Qədim Azərbaycan tayfaları eramızdan əvvəl II miniliyin sonu-I minilliyin əvvəlində yeni dövlət qurumlarının meydana gəlməsi ərəfəsində idi. Qədim Azərbaycan tayfaları ilə qonşuluqda hind-avropalılar, şumerlər, samilər, kassilər, elamlar və s. yaşayırdılar.

***Cənubi Azərbaycanda Sinifli Cəmiyyət və Şəhər Dövlətlərinin meydana gəlməsi.*** Manna dövləti yarananadək Urmiya gölü zonasındakı ərazilərdə yaşayan tayfalar ibtidai-icma quruluşu şəraitində yaşayırdılar. Assuriya mənbələrdə Manna qurulanadək Cənubi Azərbaycan ərazisində assuriyalarla mübarizə aparan müxtəlif çarlıqların adına rast gəlirik.

Assuriya mənbələrinin verdiyi məlumatlardan görünür ki, eradan əvvəl I-minilliyin əvvəlinədək - e.ə. VIII əsrlərədək olan dövrdə ayrı-ayrı çarlıqların birləşməsi prosesi getmiş və bunun nəticəsində onlar assuriyalara ciddi müqavimət göstərə bilirlər.

Urmiya gölünün cənubunadək ərazi uzun müddət Zamua adı ilə tanınmışdır. İlk dəfə olaraq bu ada II Adadnearinin (911) salnaməsində rast gəlirik. Zamua ilk birləşmiş torpağı e.ə. 881-ci ildə qeydə alınmışdır. Bu zaman onun başında Daqara ölkəsinin rəhbəri Nur-adad dururdu.

Zamiyalılar II Aşşurnasirapalin e.ə. (883-ci illər) qoşunlarına qarşı müdafiə divarını tikmişlər. Ancaq onlar Assuriyalıların hücumlarına davam gətirə bil-mişlər. Assuriyalıların qonşu vilayətlərə hücumundan istifadə edən Nur-azad yenidən öz mövqelərini möhkəmlədir. Ancaq assuriyalılar yeni hücum zamanı da Birutu qalasını dağıdırlar. Növbəti e.ə. 880-ci ildə Zamiya əhalisi yenidən II Aşşurnasirpala qarşı mübarizə aparırlar. Zamiyalıların başında car Ameka dururdu. O, Assuriyalılara ciddi müqavimət göstərmişdir. Assuriyalılar Amekanı məğlub edə bilməmişlər. O, Sabua dağında möhkəmlənmişdir. Yazılı mənbələrin məhdud və ziddiyyətli olmasına baxmayaraq Manna dövləti ərazisində istehsalın səviyyəsi və təsərrüfatın formaları haqqında təsəvvür əldə etmək mümkündür. Tarixi araşdırmalar sübut edir ki, Urmiya gölü ətrafında yaşayan qədim tayfaların əsas peşəsi oturaq əkinçilik və maldarlıq olmuşdur. Torpağın münbüt məhsuldar olması, su ehtiyatının çoxluğu geniş otlaqlar mülayim iqlim burada əkinçilik və maldarlıq təsərrüfatının geniş miqyas almasına imkan vermişdir. Azərbaycanın hakim dairələrinin yerli əhalinin üzərinə qoyulan verginin taxıl, mal-qara, metal, metal məlumatlardan toplamaları burda əkinçiliyin və maldarlığın inkişaf etdiyini, metal ehtiyatının çoxluğunu və metaldan cürbəcür əşyalar, istehsal alətləri və s. hazırlayan vahid ustaların olduğunu sübut edir.

Aşkar edilən maddi-mədəniyyət abidələri göstərir ki, burada qədimdən kənd təsərrüfat texnikası yüksək olmuşdur. Dəmir mədəniyyəti xalqın məişətində geniş yer tutmuşdur. Torpağın şumlanmasında xışdan, dəmir toxadan taxılın biçilməsindən dəmirdən hazırlanmış oraq və başqa istehsal alətlərindən taxılın daşınmasında isə ikitəkərli və dörd təkərli arabalardan istifadə edilmişdir. Mannalıların buğda arpa, darı, vələmir və s. dənli bitkilər yetişdirmiş və onları xüsusi anbarlarda saxlamışlar. Ölkədə yüksək texnikaya malik olan süni suvarma sistemi geniş yer tutmuşdur. Suvarma sistemində saxsıdan hazırlanmış xüsusi biçimli borulardan istifadə edilirdi.

Mannalılar üzümçülk, bağçılıq və bostançılıq təsərrüfatlarına, onların sirlərinə də bələd olmuşlar. Mənbələr Manna ərazisindəki şəhərlərin hər birində şərab anbarlarının olmasını xəbər verirlər. Şərab saxsı küplərdə saxlanılırdı. Ölkədə əkinçilikdən sonra ikinci aparıcı peşə maldarlıq olmuşdur.

Şəhər qalaların və paytaxt şəhəri Zamrinin mövcud olması sənətkarlıq istehsalının yüksək səviyyəsi Assuriya kimi güclü düşmənə müqavimət göstərməsi göstərir ki, Ameka çarlığı artıq dövlət idi. Uzun müdddət Zamiya torpaqlarında yerləşən Aşşurnasirpal bu torpaqların xeyli hissəsini tabe etmişdir və burada Dur-Apmur qalaçığı tikdirmişdir. Bu torpaqları Assuriyalılar sonralar Zamiya və ya Mizamiya adlandırmışlar. Ərazinin qalan hissəsi isə Daxili Zamiya adlanmışdır. Daxili Zamiyada e.ə. 856-ci ildə Assuriyalılar Nikdilo və Nikdlara hakimlərə ilə mübarizə aparmışlar. Onlarla III Salmanasarın (er.ev. 868-825) qoşunları arasında müharibə baş vermiş və salmanasarlar onları məğlubiyyətə uğratmışdır.

Urmiya gölünün qərb sahillərində müstəqil Gilzan vilayəti mövcud idi. E.ə. 856-cı ildə III Salmanasara qarşı mübarizə aparan gilzanlılar məğlubiyyətə uğramış və ona vergi verməyə məcbur olmuşlar. Bir sıra vilayətlərin assuriyalılara qarşı birgə çıxışları onların uzun müddətli müqaviməti göstərir ki, er.əv. I miniliyin əvvələrində Urmiya ətrafı vilayətlərdə birləşmiş birliklərin yaranması məhkum xarakterli kəsb etmişdir, müstəqil hərbi-siyasi qurum idi. Bu vilayətlərdə güclü qala şəhərlərin aşkara çıxarılması burada ilk dəfə dövlət birliklərin meydana çıxdığını söyləməyə əsas verir. Urmiya gölü ətrafı rayonlarda möhkəmlənmiş qalaların mövcud olması arxeoloji qazıntılarla da sübut edilir.

### *§ 2. Manna dövləti*

Müasir Cənubi Azərbaycanın ərazisi e.ə. II miniliyin sonu və xüsusilə e.e.I minilikdə Assuriya və Urartu çarlarının yürüşlərində adı çəkilən qədim dövlətlərin ərazisini əhatə edir. Urmiya gölünün ətrafında və ondan cənub və Şərqə doğru ərazidə yerləşən bu kiçik dövlətlər—Zamua, Gilzan, Allabria, Messi, Manna, Parsua, Uişdiş, Qızılbunda, Andia, Zikertu, Sanqibutu, Puluadi və b. qədim Şərq Dövlətləri—Assuriya və Urartunun daimi ekspansiya obyekti olmuşdur. E.ə. IX əsrin ortalarında bu ölkələr içərisində Manna seçilməyə başlayır. Er.əv. VIII əsrin əvvəllərində Manna böyük dövlət birləşməsinə çevrilir, qonşu vilayətləri zəbt edərək, As-

suriya çarlarına fəal müqavimət göstərir, Urartu ilə mübarizə aparır. Mannanın sərhədləri Cənubda Diyala və Kiçik Zab çaylarının yuxarılarına, Şərqdə təqribən Xəzər dənizinə, şimalda Araz çayına, qərbdə isə Urmiya gölü sahilinədək uzanırdı. Təəsüf ki, Manna çarlarının özlərinin yazılı məlumatları bizə gəlib çatmamışdır. Cənubi Azərbaycan ərazisində olan müxtəlif dövlət birlikləri barədə məlumatları biz Assuriya və Urartu mənbələrindən və bu ərazidə tapılan qayaüstü yazılardan götürürük. Ölkə haqqında yazılı mənbələrin kəsirini arxeoloji qazıntılar zamanı aşkara çıxarılan maddi mədəniyyət abidələri doldurur.

Cənubi Azərbaycanın əlverişli coğrafi mövqeyi bu ərazidə yaşayan tayfaların iqtisadi və mədəni inkişafına təkan verdi. Ərazinin zənginliyi qonşu dövlətlərin daima diqqətini cəlb edirdi. Urmiya ətrafı ərazi hələ III miniliyin ikinci yarısından yazılı mənbələrdə yer tutur. Bu ərazidə yaşayan ən qədim etnik qrup kutilər hesab olunur. E.ə III minilliyin sonunda Akkad mənbələri Urmiya gölünün cənub-şərqində yerləşən ərazidə Lullubi tayfası barədə məlumat verir, görünür onlar çox güclü olmuş və Assurya çarları ilə daimi mübarizə aparmışlar.

E.ə. I minilliyin əvvəlində lullubilərin yerləşdiyi ərazi Zamua adı ilə məşhurlaşmış, sonra isə bu ərazinin bir hissəsində mannalılar yüksəlir. Bu ad altında görünür bir neçə qohum tayfalar birləşir. Ancaq sonrakı dövrlərdə də, Manna dövlətinin çiçəkləndiyi dövrdə, bu ərazi "Lullume" adlanmaqda davam edir. E.ə. I minilliyin əvvəlindən Cənubi Azərbaycan ərazisində dövlətin formalaşması prosesi gedir. E.ə. IX əsrin ortasından burada Manna çarlığı fərqlənməyə başlayır. Urmiya ətrafı hövzədə e.ə. IX əsrin ortalarından başlayaraq Midiya dövlətinin yaranmasına kimi əsas siyasi qüvvə yerli əhalini birləşdirən Manna dövləti olmuşdur.

Bir qrup alimlər onu hurrit dilinə aid edir. Manna dövləti meydana gələnə kimi onun yerləşdiyi ərazidə bir neçə "çarlıqlar" mövcud olmuşdur. Urmiya gölündən cənubdakı ərazidə uzun müddət Zamuanın da adı çəkilir. Urmiya gölünün qərb sahilində Gilzan vilayəti müstəqil çıxış edir. İlk dəfə Gilzan adına Assuriya çarı II Turikilti-Ninutının salnamələrində rast gəlinir. E.ə. 890-884-illərdə Gilzan ölkəsi Assuriyaya tabe olsa da burada görünür çar hakimyyəti saxlanılmışdır və ölkə vergi vermişdir. Bu dövlət birlikləri Assuriya kimi qüdrətli dövlətə qarşı daimi mübarizə aparmışlar. Bu isə onların qüdrətli dövlət birləşmələri olduğunu sübut edir. Bu dövlət birləşmələrinin ərazisində nəhəng möhkəmləndirilmiş qalalar olmuşdur.

Artıq e.ə. I miniliyin əvvəlində Urmiya gölü ətrafı ərazidə şəhər-qalaların olması və ayrı-ayrı vilayətlərin birliyi üçün şərtlər Manna dövlətinin yaranması üçün şərait yaratdı. Mannanılar adı ilk dəfə e.ə. 843-ci ildə III Salmanasar dövründə "Minni" formasında çəkilir. Öz hökmranlığının 16-cı ilində e.ə. 843-ci ildə III Salmanasar yürüşlərini təsvir edərək məlumat verir ki, daxili Zamuada yaşayış məskənini tutaraq o, Manna ölkəsinə çatır. Ancaq burada Mannanı tutması barədə heç bir məlumat verilmir. Təkçə 14-ildən sonra, e.ə. 829-cu ildə Mannanın adı III Salmanasarın qarət etdiyi ölkələr içərisində çəkilir. Ancaq Mannanın Assuriyaya tabe edilməsi barədə məlumat verilmir, görünür III Salmanasar vergi almaqla kifa-

yətlənmişdir. III Salmanasar dövründən mənbələr Manna çarları və ölkənin paytaxtı Zirtu sonralar İzirtu barədə məlumat verir.

Çar Udakidən sonra Manna çarı İranzunun adı e.ə. 718-ci ildə Assuriya mənbələrində xatırlanır. Bu vaxtdan başlayaraq II Sarqonun məlumatlarından görünür ki, Mannadə çar hakimyyəti nəsillikcə keçmişdir. Aza və Ullusunu İranzunun oğlanları olmuşlar. Ahşeridən sonra Mannanı onun oğlu Uallı idarə etmişdir. Mannada dövlətin başında vərəsəlik hüququna malik çar dururdu. Dövlətin ərazisi vilayətlərə bölünür, onların başında isə çarın təyin etdiyi adamlar - canişin dururdu. Mannada çarın hakimyyəti görünür ki, ağsaqqallar şurası olmasına baxmayaraq qeyri-məhdud olmuşdur. Bu çarın tərəfdarları və əleyhidarları arasında daimi mübarizəyə səbəb olurdu.

Çar hakimyyətinin möhkəmləndirilməsi, iqtisadiyyatın inkişafı Mannaya Yaxın Şərqdə ən güclü dövlətlərdən biri olmağa imkan verir. Manna ilə qonşu olan vilayətlər ona tabe olur və ya asılı vəziyyətə düşürlər. Manna çarı Ullusunun dövründə Urmiya gölünün cənub-şərqində yerləşən Missi vilayəti Mannaya birləşdirilir və onun sərhədlərində Sirdakka, Zirdiakka qalası tikilir. Manna çarı Ahşerinin dövründə isə Allabriya vilayəti şumerlər ilə birlikdə işğal olunur. Mannanın şərq sərhədlərində Qızılbund vilayəti yerləşirdi. Bu vilayət Mannanı Midiyalılardan ayırırdı. Müasir Manna-Ərdəbil şəhərləri rayonunda Zikirtu vilayəti yerləşirdi. Bu vilayət Mannadan asılı olmuşdur. Vilayətin Parda adlı çar şəhəri olmuşdur.

Mannanın şərq sərhədlərində ən ucqar vilayət Andia olmuşdur. Manna dövləti özünün güclü vaxtı Andianı Assuriyalılardan almış və özünə tabe etmişdi. Mannaya tabe olan vilayətlər içərisində Uişdiş vilayətinin də adı çəkilir. Bu vilayət müasir Marağa rayonu ərazisində yerləşmişdir.

Mannanın şimal sərhədlərində Subi və Sanqibutu vilayətləri yerləşmişdi. Mannanın cənub-şərq torpaqları Midiyalıların torpaqları ilə həmsərhəd idi. Midiya tayfa ittifaqlarının adı ilk dəfə e.ə. 834-cu ildə III Salmanasar tərəfindən çəkilir. Mannanın qərbində qorxulu düşmən Urartu yerləşmişdi. Çar Minuadan başlayaraq er.əv. təqribən 810-781-ci illər Urartu çarları Manna barədə danışırlar. Minuanın oğlu I Arkişti er.əv. təqribən 786-764-ci illər və II Sardur e.ə. təqribən 760-730-ci illər dövründə Urartu çarlarının Manna vilayətlərinə qarşı yürüşləri ardıcıl xarakter daşıyır. Eyni zamanda Manna dövləti də Urartuya qarşı tez-tez çıxış edirdi. Manna dövlətinin öz qonşuları ilə daimi mübarizə etməsi onu zəiflədirdi. Ancaq buna baxmayaraq Manna güclü qonşuların bir-biri ilə vuruşmasından istifadə edərək öz ərazisini genişləndirməyə nail olurdu. Manna dövləti özünün çiçəklənmə dövrü çar İranzunun (e.ə. 740-719) hakimyyətinin əvvəlində və ondan əvvəlki çarlar dövründə keçirmişdir. Təqribən e.ə. 719-cu ildə İranzunun ölümündən sonra onların oğlanları arasında mübarizə başlanır. Onun böyük oğlu Aza taxta çıxır və atasının Assuriyapərəst siyasətini davam etdirir. Ancaq o tezliklə öldürülür və Urartunun köməyi ilə onun qardaşı Ullusunu taxta çıxır. Assuriya isə bununla barışmayaraq Mannaya hücuma keçir və ölkəni qarət edir. Ullusunu Assuriya tərəfə keçməyə məcbur olur və Assuriyanı Urartu ilə müharibədə müdafiə edir. Mannalı-

lar Assuriya ordusunu taxıl məhsulları ilə, at, iri və xırda buynuzlu mal-qara ilə təmin edirdilər.

Assuriyanın müharibədə Urartunu məğlub etməsi Mannaya öz sərhədlərini genişləndirməyə imkan verir. Mannanın möhkəmlənməsi ona hətta II Sarqonun varisləri dövründə Assuriyanın bəzi vilayətlərini tutmağa imkan verir. Ahşerinin dövründə Mannalılar skiflərlə birlikdə Assuriyaya qarşı çıxırlar və ona qələbə çalırlar. Ahşerinin adına biz Assuriya hökmdarı Asarxaddonun (E. ə. 680-669-cu illər) məlumatlarında rast gəlirik. Assuriya ilə mübarizədə Ahşeri kimmerlər və skiflərin köməyindən istifadə etmişdir. Ahşerinin dövründə Manna Assuriya hökmdarı Aşurbanipalın e. ə. 669-627-ci illər hücumuna məruz qalır. Daxili ziddiyyətlər nəticəsində zəifləyən (e. ə. 660-659-cu ildə) Manna məğlubiyyətə məruz qalır və assuriyalılar mannalıların tutduğu Allabria vilayətini və Assuriya ilə qonşu olan digər əraziləri geri qaytarırlar. Bu məğlubiyyətdən sonra mannalılar Ahşeriyə qarşı çıxış edirlər və onu öldürürlər. Taxta onun oğlu Ualli çıxır və o, Assuriyanın qələbəsini tanıyır və ona xərac verir. Manna dövləti Assuriyanın e.ə. 616-cı ilə kimi müttəfiqi olaraq qalır və Assuriya-Babil müharibələrində Assuriyanın tərəfində vuruşur. Assuriyanı həlledici məğlubiyyətə uğradan Midiyalılar Yaxın Şərqdə güclü dövlət yaradırlar. Onlar təqribən e.ə. 615-610-cu illər arasında Manna dövlətini də özlərinə tabe edirlər. Manna dövlətinin son dəfə adı çəkilən yazılı mənbə Bibliyadır. Kitabda er.əv. 593-cu ildə Midiyalılarla birlikdə Urartu, Manna və skiflər Babilistana qarşı çıxış etməyə çağrılır. Yazılı mənbələr və arxeoloji materiallar (Həsənli, Ziviya, Göytəpə və s.) Mannanın iqtisadi cəhətdən yüksək inkişafını sübut edir. Təsərrüfatın əsas növləri əkinçilik və maldarlıq olmuşdur.

Atçılıq mühüm yer tuturdu. Geniş süni suvarma şəbəkəsi bağçılıq və üzümçülüklə məşğul olmağa şərait yaradırdı. Mannada sənətkarlıq, metalişləmə geniş inkişaf etmişdi. Ziviya dəfinəsi, Həsənlidəki qızıl, gümüş və tunc əşyalar, dulusçuluq qara rəngli şirələnmiş keramika və şəhərsalma texnikasında Assuriya relyefləri və həsənluda aşkar olunmuş saray kompleksi yüksək ustalığa nail olmuşdur. Mannada çoxlu şəhər müdafiə qalaları mövcud olmuşdur. Ehtimal ki, Mannada Assuriya mixi yazısına bənzəyən yazıdan istifadə olunmuşdur.

Mannalıların formalaşmasında qədim yerli əhali kuti və lullubi tayfaları əsas rol oynamışlar. E.ə. I miniliyin əvvəllərində Mannanın tərkibində huri elementləri gücləndi. Sonralar bu əraziyə köçmüş irandilli tayfalar Mannaya qüvvətli təsir göstərir. Mannanılar təbiət qüvvələrinə sitayiş edir və allahlara qurban verirdilər. Mannada allahlar panteonu mövcud olmuşdur. Etiqadlarında həyat şəcərəsinə sitayiş də mühüm yer tuturdu. Mannalılar azərbaycanlıların əcdadlarından biri olmuşlar.

### *§ 3. Azərbaycan Midiya və Əhəmənilər imperiyasının tərkibində*

Midiya tarixi haqqında ilk məlumat verən Herodot olmuşdur. Antik müəlliflərdən Herodotla yanaşı Diodor, Plutarx, Strabon, Ammion Martselin və bir çox başqa tarixçilər və coğrafiyaşünaslar Midiya tarixinə dair maraqlı məlumat qoyub

getmişlər. Herodot göstərir ki, midiyalılar 6 tayfadan – buslar, paretagenlər, struxatlar, arizantlar, budilər və maqlardan ibarət idi. O, hər bir tayfanın sakin olduğu yeri də göstərməyə səy göstərmişdir. Bu ölkənin öyrənilməsində Assuriya daşüstü yazıları və Assuriya-Babil mənbələri də əhəmiyyətli məlumat verirlər, Midiya ərazisində artıq e.ə. II miniliyin başlanğıcında xüsusi sahibkar təsərrüfatı var idi. Qabaq Asiyanın bütün başqa ölkələrində olduğu kimi, Midiya ərazisində 3 təsərrüfat vahidi-xüsusi, icma və car təsərrüfatı vahidləri olmuşdur. Sonuncu təsərrüfat sahəsində toxuculuq, dəmirçilik, silah istehsalı, əkinçilik alətləri hazırlamaq, dərzilik, dülgərlik və s. kimi peşələr geniş yer tuturdu. Çar sənətkarlıq təsərrüfatındakı emalatxanalarda çalışan işçi qüvvəsi qullardan, qul halına gətirilmiş hərbi əsirlərdən, ayrıca kəndlərdə yaşayan müxtəlif ixtisaslı azad sənətkarlardan ibarət idi. Midiya dövləti iqtisadi vəhdəti olmayan hərbi-inzibati təşkilat olmuşdur. İqtisadi əlaqələrə əsaslanmayan təsisatlar, heç vaxt daxilən möhkəm olmamışdır. Bu hal özünü e.ə. VII əsrin əvvələrində, Midiya dövlətinin özünü müdafiə edən siyasi təşkilatdan başqalarının torpaqlarını tutmaq yoluna qədəm qoyan dövlətə çevrildiyi andan etibarən daha aydın göstərməyə başladı. Midiyalılar e.ə. IX-VII əsr Aşşur mənbələrinə görə İran yaylasının Xəzər dənizindən cənubda, həmçinin şərqə və cənub-şərqə doğru uzanan rayonlarda məskunlaşmışlar. Midiyalılar haqqında ilk məlumat e.ə. IX əsrin 30-cu illərinə aiddir. Müxtəlif dövr mənbələrində onlar amaday, maday, matay, medoy və s. adları ilə məlumdurlar. Midiya tayfaları İran yaylasına e.ə. II minilliyin sonu – I minilliyin əvvələrindən gec olmayaraq köçüb gəlmişlər. E. ə. III əsrdə yaşamış Eratosfenə istinad edən Strabon göstərir ki, “Ariona, Fars və Midiyanın bir hissəsinə, həmçinin Baktriya və Soqdiananın şimal hissəsinə aid edilir. Və bu ərazilərin sakinləri demək olar ki, e. ə. I miniliyin əvvəllərində hərbi demokratiyadan erkən quldarlıq cəmiyyətinə keçid dövründə yaşamışlar. E. ə. IX-VIII əsrlərdə Midiyalılar ərazilərinin bir hissəsini işğal etmiş Aşşur dövləti ilə amansız mübarizə aparırdılar. Antik mənbələr Midiya dövlətinin təşəkkülünü er.əv.VIII əsrin sonlarına və ya e.ə. VII əsrin əvvəlinə aid edir və çar Deyokun adı ilə bağlayır. Aşşur mənbələrinə görə Midiya çarlıgı e.ə. VII əsrin 70-ci illərində Aşşur əleyhinə yönəlmiş, Kaştaritinin başçılıq etdiyi və digər Midiyalı hakimlər, həmçinin mannalılar, kimmerlər və skiflər tərəfindən də müdafiə edilən güclü xalq hərəkatı nəticəsində təşəkkül tapmışdı. Sonralar Midiya işğalçılıq müharibələri dövrünə qədəm qoydu. Tayfa yığma qoşun dəstələrindən nizami qoşun yaradan və Aşşur dövləti ilə mübarizəni davam etdirən Kiaksarın (E.ə. 625-585) hakimyyəti dövrü Midiya tarixində dönüş nöqtəsi oldu. Midiya kiçik bir çarlıqdan Qədim Şərqin iri dövlətinə çevrildi. Midiyalılar Babilistana, ehtimal ki, həm də skiflərlə ittifaqda Aşşur dövlətini darmadağın edib onun şimal-şərq və şimal torpaqlarını ələ keçirdilər. Midiya hökmdarı Astiaq (e.ə. 584-550-ci illər) zadəganların və mannalıların nüfuzunu məhdudlaşdırmağa çalışırdı. Bütün bunlar Midiyada daxili siyasi vəziyyəti mürəkkəbləşdirdi. E. ə. 550-ci ildə Midiya farslar tərəfindən işğal edildi və satraplıq kimi Əhəmənilər dövlətinin tərkibinə qatıldı. Midiyalılar hakim xalq kimi öz mövqelərini itirdilər. Lakin Midiya hərbi dəstələri bütün Əhəmənilər dövründə farsların ordusunda mühüm rol oynayırdı. Midiya dövləti

cəmi 50-60-il (e.ə. VII əsrin sonu—VI əsrin I yarısı) mövcud olmuşdur. İşğalçılıq müharibələri nəticəsində yaradılmış Midiya imperiyası qədim dövrün vahid iqtisadi bazası olmayan bu və ya hərbi sərkərdənin qələbə və məğlubiyyətindən asılı olaraq yaranan və dağılan qeyri-sabit hərbi inzibati birləşmələrdən biri idi. Lakin Midiya dövləti çox geniş əraziyə malik güclü bir imperiya idi. Son zamanlar Babağantəpə, Təpə, Nuş-i can və s. yerlərdə aşkar edilmiş məbədlər, möhkəmləndirilmiş "qalalar", sütunlu zal Midiya dövrünün monumental abidələrindəndir. Midiya dövlətinin başında irsi hakimyyətə malik olan çar dururdu. Hakimyyət şərq istibdadı olmaq ilə icma torpaq mülkiyyətinə əsaslanırdı. Midiyalılar öz dövrünə görə yüksək inkişaf etmiş mədəniyyətə malik olmuşlar. Onların mədəniyyəti qonşu xalqların mədəniyyətinin inkişafında müsbət rol oynamışlar. Midiya dövləti erkən quldar dövləti idi. Midiya quldarlıq dövlətinin süqutunu sürətləndirən başlıca amillərdən biri Qaumatanın hərəkatı olmuşdur. Əhəmənilərin padşahı Kirin oğlu Bardiya öz qardaşı Kambiz tərəfindən e.ə. 526-cı ildə öldürülür. Xalq içərisində böyük nüfuza malik Bardiyanın ölümü böyük narazılığa səbəb olur. Zahiri görünüşcə Bardiyə oxşayan maq Qaumat bu əlamətdən istifadə edərək e.ə. 526-ci ildə üsyan edib hakimyyəti öz əlinə aldı. Ölkədə cərəyan edən siyasi hadisələri midiyalıların xeyrinə istiqamətləndirmək və onların axınına midiyalılıq donu geydirmək, nəticə etibarı ilə Midiyanın itirilmiş əvvəlki hüquqlarını bərpa etmək üçün paytaxtı Ekbatana keçirdi. Qaumata özünü yalançı çar elan etdi. E. ə. 526-522-cı illərdə ölkənin hakimi oldu. Qaumata hakimiyyətə gələn kimi Əhəmənilərin tabeliyində olan midiyalılara göndərdiyi sərəncamında bildirdi ki, midiyalılar 3 il müddətində vergidən və hərbi mükəllifiyyətdən azad olurlar. Məhz bu cəhət xalqın Qaumatanın çağırışına tərəf çıxması və əhəmənilərin hökmranlığına qarşı çevrilmiş üsyanda fəal iştirak etməsi üçün əsas olmuşdur.Qaumatının başçılıq etdiyi üsyan Əhəmənilərin Midiyadakı hökmranlığına güclü zərbə vurdu və onun dayaqlarını zəiflətdi. Qaumata hərəkatı məğlub olsa da, onun dayaqlarını zəiflətdi. Qaumata hərəkatı məğlub olsa da, onun köləliklə əlaqədar baş qaldıran xalq hərəkatına təsiri böyük olmuşdur. Qaumata hərəkatı mahiyyətinə görə, midiyalıların İran hökmranlığına qarşı azadlıq hərəkatı idi. Bu hərəkatda irandilli olmayan bütün tayfalar iştirak etmişdir. Midiya dövləti icma münasibətlərinin qorunub saxlanması səbəbində quldarlığın tam sürətdə istehsal qüvvəsinə çevrilmədiyi erkən quldar dövlət idi. E. ə. VII əsrin 70-ci illərində təşəkkül tapan Midiya dövləti Azərbaycanın qədim ərazisində deyil, onun cənub şərq qonşuluğunda meydana gəlmişdir. Midiya dövləti çar Kiaksarın dövründə (e.ə. 625-584-cu illər) Urartu padşahlığının süquta uğramasında. Skif padşahlığının məhv edilməsində həledici rol oynadı. E.ə. VII əsrin sonralarından etibarən Midiya dövləti başqa torpaqların zəbt edilməsi hesabına öz ərazisini genişləndirdi. E.ə. 615-ci ildə Midiya dövləti Manna torpağını işğal etdi. E.ə. 610-590-cı illərdə Manna ilə yanaşı Skif və Urartu çarlığı bir müddət (70 ilə yaxın) müstəqil hökmranlığını qoruyub saxlamışdır. E. ə. 593-cü ildən etibarən isə onların adı artıq çəkilmir. E.ə. 550-ci ildə Midiya dövləti süqut etdi. Onun ərazisi Əhəmənilər dövlətinin tərkibinə daxil edildi. Əhəmənilər imperiyası e. ə. IV əsrin ortalarından başlayaraq daxili sosial ziddiyyətlərin təsiri

nəticəsində zəifləməyə başladı. 336-323-cü illərdə Makedoniyalı İskəndərin vurduğu zərbə bu prosesi daha da sürətləndirdi.

Əhəmənilər dövləti süqut etdi. Əhəmənilər imperiyası tərəfindən işğal edilən Midiya cəmiyyəti iki müstəqil dövlət—Atropatena və ya kiçik Midiya və böyük Midiya dövləti təşəkkül etdi. Midiya cəmiyyəti ərazisində ideologiyanın bir növü olan sehr, cadu geniş yayılan ideologiya idi. Sehrbazlar günəş, ulduzların hərəkətini öyrənməyə xüsusi maraq göstərmişdir. Midiyalılar torpağı, suyu və odu müqəddəs hesab etmişlər. Onlar bu üç müqəddəs varlığın paklığını qoruyub saxlamaq üçün öz ölülərini basdırırdılar.

Əhəmənilər dövləti. E.ə. 558-ci ildə Kir İran tayfaları ittifaqına başçılıq etmiş və bu ittifaqı Midiya hökmranlığa qarşı üsyan qaldırmışdı. (e.ə. 553) Midiyanı ələ keçirdikdən sonra (e.ə. 550) sonrakı üç ildə Midiya dövləti tərkibində olan ölkələr, er. əv. 546-cı ildə Midiya və kiçik Asiyadakı yunan şəhərləri tutulmuşdu. Kiçik Asiyanın xeyli hissəsi, Babilistan, Misir, Egey dənizi adaları, Frakiya, Makedoniya və Hindistanın şimal-qərb hissəsi işğal edilmişdi. Dövlət I Daranın dövründə (e.ə. 522-486) yaradılan çox mürəkkəb burokratik sistemin köməyi ilə idarə olunurdu. Onun hakimiyyət illəri Əhəmənilər dövlətinin ən qüvvətli dövrü idi. Daranın inzibati islahatları işğal olunmuş ölkələrdə idarəçiliyi və nəzarəti təkmiləşdirdi. Persepolla, Babil, Suz və Ekbatana şəhərləri də Əhəmənilər dövlətinin paytaxtı olmuşdur. Əhəmənilər dövləti 20 hərbi-inzibati mahala bölünmüşdü. Hər satraplığa xüsusi məmurlar-satraplar başçılıq edirdi. Etnik cəhətdən və sosial ukladına görə Əhəmənilər dövlətinin tərkibi çox müxtəlif idi. Kiçik Asiya, Babilistan, Finikiya və Misir şəhərlərində kənd təsərrüfatında və sənətkarlıqda qul əməyində geniş istifadə olunurdu. Bununla birlikdə Frakiyanın, Makedoniyanın geridə qalan vilayətlərinin əhalisi köçəri ərəb və skif tayfaları qəbilə quruluşunun dağılması mərhələsində idilər. İran inzibati orqanları işğal edilmiş ölkələrdə qədim yerli qanunları, dini, pul sitemini, əlifba və dili saxlamışdılar. İranlıların özləri vergilərdən və icbari əməkdən azad idilər. İran hökmdarlarının, onların qohumlarının, satrapların və əyanların qul əməyinə əsaslanan böyük təsərrüfatları var idi. Əhəmənilər dövlətinin sabit iqtisadi bazası olmadığı üçün zəif hərbi inzibati birlikdən ibarət idi və müxtəlif xalqları yalnız silah gücünə dövlətin tərkibində saxlaya bilirdi. Hərbi qüdrətinin zəifləməsi nəticəsində əhəmənilər dövləti tənəzzülə uğramağa başladı. E.ə. 500-449-cu illərdə Yunanıstan—İran müharibələri İran ordusunun döyüş qabiliyyətinin zəiflədiyini göstərdi. Misir, Babilistan, Midiya, Kiçik Asiya və s. vilayətlərdə dəfələrlə baş vermiş üsyanlar e.ə. V əsrin sonundan sonra satraplar arasındakı daimi müharibələr Əhəmənilər dövlətinin tənəzzülünü daha da sürətləndirdi.

### *§ 4. Atropatena dövləti*

Atropatena e.ə. IV əsrin son rübündə Cənubi Azərbaycan, İran Kürdüstanı və Şimali Azərbaycanın müəyyən hissəsində meydana gəlmiş çarlığın yunanca adıdır. Atropatena zəngin və qüdrətli bir dövlət olmuşdur. Atropatena yüksək mədəniyyəti, inkişaf etmiş əkinçilik və maldarlıq, sənətkarlıq və ticarəti, iri şəhərləri

olan zəngin ölkə idi. E.ə IV əsrin 50-ci illərin əvvəllərində Əhəmənilərin İran dövləti tənəzzülə doğru gedirdi.

E.ə. 334-cü ilin yazında Makedoniyalı İskəndər Kiçik Asiyaya soxuldu. E.ə. 334-cü ilin mayında Qranik çayı sahilində birinci döyüş olur. İskəndərin İran ordusu ilə ikinci döyüşü e.ə. 333-cü ildə İss şəhəri yaxınlığında oldu. Farslar məğlub olurlar və III Dara döyüş meydanından qaçdı. Kiçik Asiya İskəndərin hakimiyyəti altına keçdi. 3-cü vuruşma e.ə. 331- ci il oktyabrın 1-də Qavqamel kəndi yaxınlığında baş verdi. III Daranın ordusu darmadağın edildi. Ancaq III Dara məğlub olmaq istəmirdi. O, Midiyaya qaçdı və orada ordu toplamağa başladı. Midiyanın satratı Atropat idi və o, Qavqamel döyüşündə iştirak etmişdi. İskəndər Atropatı satraplıqdan azad edir (III Daranı müdafiə etdiyinə görə) və Midiyaya yeni satrap təyin edir. Ancaq tezliklə vəziyyət dəyişir. Aydın olur ki, Atropatın müttəfiqləri olan kadusilər və skiflər III Daranı müdafiə etmirlər. Belə şəraitdə Atropat da III Daranı müdafiə etmir. Buna görə də III Dara Həmədana qaçır və orada ölür. Atropat da öz siyasətini dəyişir və İskəndərin tərəfinə keçir. Buna görə də o, e.ə. 328-ci ildə öz əvvəlki (Midiya satrapı) vəzifəsinə bərpa edilir.

III Daranın ölümündən sonra İskəndər Asiyanın çarı olur. Əhəmənilər imperiyası süquta uğrayır. Əhəmənilər imperiyası Zaqafqaziya xalqlarının həyatında mühüm rol oynadı. Atropatın adı tarixi mənbələrdə ilk dəfə e.ə. 331-ci ildə baş verən Qavqamel döyüşündə çəkilir. O, bu döyüşdə atlı kəşfiyyat dəstəsinə rəhbərlik etmişdir. Əhəmənilər imperiyasının zəiflədiyi dövrdə Atropat Bütün Cənubi Azərbaycan ərazisinin, həmçinin Şimali Azərbaycan torpaqlarının xeyli hissəsini özünə tabə etmişdi. İskəndər başqa torpaqları işğal etməklə məşğul olan zaman Atropat öz hakimiyyətini möhkəmləndirir. Ümumiyyətlə, İskəndər Atropatın idarə etdiyi əraziyə daxil olmamışdır. Atropat makedoniyalılarla qohum olur. O öz qızını İskəndərin yaxın sərkərdələrdən birinə Perdikaya verir. Ümumiyyətlə İskəndər yerli İran aristokratiyası ilə qohumluğa əhəmiyyət verirdi. İskəndər özü 2 İran şahzadə qızına evlənmiş, onun ənənəsini özünün 80 dostu davam etdirmişdi. Həmçinin Suz təntənələrində 10 min döyüşçü Asiyalı qadınlarla evlənmişdi. E.ə. 324-cü il yayın sonunda Midiyada vəziyyət kəskinləşir. Bariaks adlı bir nəfər özünü İran və Midiyanın çarı elan edərək Makedoniya işğalçılarına qarşı mübarizəyə qalxır. Atropat öz qüvvəsi ilə üsyanı yatırır və Bariaksı tutaraq makedoniyalılara verir və onlar da onu edam edirlər. Bundan sonra Atropatın makedoniyalılarla münasibəti daha da yaxşılaşır. E.ə. 323-cü ilin iyununda İskəndər ölür. İskəndərdən sonra onun varisi Atropatın yeznəsi Perdika olur. E.ə. 321-ci ildə Perdikanın ölümündən sonra satraplıqlar ikinci dəfə bölüşdürülür. Atropatın satraplığı bu bölgüyə daxil olmur. Görünür bu dövrdən kiçik Midiya müstəqil dövlət olur.

Kiçik Midiya Şərqdə makedoniya əsarətindən azad olan ilk müstəqil dövlət oldu. Strabon özünün "Coğrafiya" əsərində yazırdı – Midiya 2 hissəyə bölünür bir hissə Böyük Midiya adlanır. İkinci Atropat Midiyasıdır. Öz adını o, hərbi rəis Atropatdan götürmüşdür. O, bu ölkənin Böyük Midiya kimi makedoniyalılara tabe olmasına imkan vermədi. Strabonun məlumatına görə Atropatena 10 min süvari

və 40 min piyada qoşun çıxara bilərdi. Manna dövlətinin süqutundan sonra Azərbaycanda ilk müstəqil dövlət meydana gəldi. Bu dövlətin yaranmasının bir neçə şərtləri var idi. Ən mühüm şərtlərdən biri dövlətin meydana gəldiyi regionun yüksək iqtisadi – sosial, mədəni və siyasi inkişaf yüksəlişinə malik olması idi. İkinci mühüm cəhət o dövrün siyasi şəraiti idi. İskəndərin ölümündən sonra onun sərkərdələrinin başının hakimiyyət uğrunda mübarizəyə qarışması yeni dövlətin yaranmasına şərait yaratdı. Həmçinin burada Atropatın şəxsi keyfiyyətləri və onun qohumluq əlaqələri mühüm rol oynadı. Azərbaycan ərazisində döyüşən kadusi və skif tayfalarının olması da Atropata öz dövlətinin müstəqilliyini qorumağa imkan verdi. İskəndərin ölümündən sonra taxta onun ögey qardaşı Arridey III Filipp adı ilə çıxdı. İskəndərin oğlu İskəndər həddi-buluğa çatandan sonra taxta sahib olmalı idi. Əslində dövlətə qoşun başçısı xəzinədar Perdikka başçılıq edirdi. E.ə. IV əsrin sonunda selevkilər dövlətinin yaranmasının əsası qoyuldu. Selevk (e.ə. 305-280) və onun oğlu Antioxun (e.ə.280-261) səylərinə baxmayaraq e.ə. III əsrin ortalarına yaxın selevkilər dövləti tənəzzül qarşısında idi. Baktriya, Soqdiana və Parfiya ondan ayrılır. Tezliklə Parfiya müstəqil dövlətə çevrilir. Atropatena dövlətinin adına bizim e.ə. III əsrin 20-ci illərində rast gəlirik. Polibinin verdiyi məlumata görə Artabazanın çarlığı xəzər dənizindən Rion çayının yuxarılarına kimi davam edirdi və Ermənistan və İberiya və onun tərkibinə daxil idi. Selevki çarı III Antioxun dövründə (e.ə..223-187) Selevkilər Atropatena dövlətinin daxili işlərinə qarışmağa cəhd edir. III Antioxun Artabazanla müharibəsi sülh yolu ilə başa çatır. Atropatena bir müddət Selevkilərin ali hakimiyyətini tanımağa məcbur olur. Er.əv.III əsrin sonu Selevkilər dövlətinin qüdrətli dövrü idi. Ancaq e.ə. 190-cı ildə III Antiox romalılarla müharibədə məğlub olandan sonra selevkilər dövlətinin tənəzzülü dövrü başlayır. Artıq e.ə. II əsrin 60-cı illərində Atropatena tam müstəqil dövlət olur. Selevkilərin tərkibinə daxil olan bir sıra ərazilər ondan ayrılır və müstəqil dövlətə çevrilir. E.ə. II əsrin 50-ci illərində parfiyalılar həlledici siyasi qüvvəyə çevrilir. Təqribən er.əv.148-147-ci ildə Parfiya çarı I Mitridat Midiyanı tutur. Selevkilərin İranda hakimiyyətinə son qoyulur. E.ə. 130-cu ildə Selevkilərin öz hakimiyyətlərini bərpa etmək cəhdləri məğlubiyyətə uğrayır.

E.ə. II əsrin sonu I əsrin əvvəllərində Parfiya dövləti ən qüdrətli dövlətə çevrilir. Parfiya dövlətinin Atropatenaya da təsiri güclənir. Ancaq Parfiyanın Atropatenanı işğal etməsi barədə fakt yoxdur. E.ə. I əsrdə Atropatena Roma işğalçılarına qarşı müharibədə iştirak etmişdir. E.ə. I əsrin ortalarında dünya xəritəsi Parfiya və Roma arasında bölünmüşdür. E.ə. 53-cü ildə Parfiya Romalıları ciddi məğlubiyyətə uğradır. Bu döyüşdə Atropatena Parfiyalıların müttəfiqi olmuşdur. E. ə. 36-cı ildə Roma dövlətinin başçısı Antoninin də Atropatena və Parfiyaya qarşı yürüşü məğlubiyyətlə başa çatır. Ancaq tezliklə Atropatena ilə Parfiya arasında narazılıq başlayır. Atropatenanın köməyinə arxalanan Antoni e.ə. 34-cü ildə Ermәni dövlətinə hücum edərək onu özünə tabe edir. Ancaq onun Parfiyaya qarşı hücumu təxirə salınır. Belə ki, Antoni ilə 2-ci triumviratın üzvü Oktavian arasında başlanan hakimiyyət uğrunda mübarizə buna mane olur. Romalılar tərəfə keçmiş Atropatena tezliklə Roma qoşunla-

rının ölkədən çıxıb getməsi ilə əlaqədar olaraq Parfiya tərəfindən tutulur. Ancaq bu uzun çəkmir. Eramızın təqribən 20-ci ilində Atropatilər sülaləsinin Atropatenada hakimiyyətinə son qoyulur. Atropatenada hakimiyyəti Parfiyalıların kiçik qolu olan Arşakilərin əlinə keçir. Atropatenanın tarixində Roma təmayülünə son qoyulur və beləliklə Atropatena yenidən Parfiyanın təsiri altına keçir.

### *§ 5. Albaniya dövləti antik dövrdə*

E.ə. IV əsrin sonu—III əsrin əvvəllərində Azərbaycanın şimalı və indiki Dağıstanın cənub bölgələrində daha bir qədim Azərbaycan dövləti Albaniya dövləti təşəkkül tapmışdı. Albaniya şimalda Sarmatiya qərbdə İberiya, cənub-qərbdə Ərməniyyə, cənubda isə Atrapotena ilə həmsərhəd idi. Şərqdə onun hüdudları Xəzər dənizinə söykənirdi. İndiki coğrafi şərait baxımından qədim Albaniya Azərbaycan Respublikasının, Ermənistan və Gürcüstan respublikasının isə bir hissəsini, Dərbəndi və Cənubi Dağıstanı əhatə edirdi. Bu dövlətin paytaxtı əvvəl Qəbələ, sonra isə Bərdə şəhəri oldu. Herodot, Pompey, Ptolomey, Strabon, Troq, Yuli Solin, Arrian və b. Albaniya əhalisinin etnik cəhətdən rəngarəng olduğunu qeyd etmişlər. “26 dildə danışan əhaliyə” malik Albaniyada alban, sakasen, mük, uti, qarqar, sövde, kaspi, qel, leh, mard, silv, sodi, lupen, və s. tayfalar məskunlaşmışdılar. Hazırda antik Albaniya əhalisinin etnik və dil mənsubiyyəti ətrafındakı elmi araşdırmalar onu göstərir ki, bu ölkənin qədim əhalisi etnik və dil baxımından müxtəlif olsa da, onların içərisində türk dillərində danışanlar aparıcı rol oynamışlar. Onlarla yanaşı Albaniyada həm Qafqaz, həm də İran mənşəli dillərdə danışan tayfalar da yaşamışlar. Bəzi alban adının hələlik izahsız qaldığını iddia etsələr də Azərbaycan türkmən, qazax və b. türk dillərində “alban”. “alpan” adlarının qalması həmin adın türk mənşəli olduğunu göstərir. Kökləri qədim türk dilindəki alp-alb sözünə söykənən Albaniya “igidlər, cəsurlar, ərənlər ölkəsi” mənasını verir. Albaniyanın mərkəzi, xüsusən də Aran rayonları əsasən türk etnoslarının, Dağıstana yaxın rayonları isə Qafqaz-İberdilli tayfaların məskəni olmuşdur. Çoxdillilik əsasən sonuncu bölgəyə xas xüsusiyyət idi. Albaniya ərazisində ilkin tayfa ittifaqları hələ e.ə. II miniliyin sonu-I miniliyin başlanığıcında meydana çıxmışdır. E.ə. VI-IV əsrlərdə Əhəmənilər təsir dairəsinə düşmüş Albaniyada artıq e.ə. IV əsrin sonlarından etibarən dövlətin bəzi əlamətləri açıqca seçilirdi. Məsələn, məlumdur ki, cəsur alban, kaspi və sakasenlərdən ibarət qoşunlar Qavqamela döyüşündə III Daranın ətrafındakı mövqelərin bu hissələrə etibar olunması onların yüksək hərbi keyfiyyətlərindən xəbər verirdi.

Bəzi antik müəlliflər Albaniya adını İskəndərin işğal etdiyi ölkələr sırasında çəksələr də, bu Makedoniya hökmdarının vəfatından sonra Albaniya artıq müstəqil dövlət kimi fəaliyyət göstərməyə başlamışlar. Görünür ki, ayrı-ayrı xırda vilayət başçılarının mərkəzi hakimyyətə tabe olunması prosesi hələ Əhəmənilər dövründə başlamış və İskəndərin dövründə başa çatmışdır. Albaniya artıq e.ə. I əsrdə Şərqi Anadoluda, Van gölü hövzəsində müvcud olan Ərməniyə adlı kiçik dövlətin hü-

cumlarına məruz qalmışdır. Balkanlardan köçüb gəlmiş ermənilər öz torpaqlarını Atropatena, İberiya və Albaniya ərazilərilə təcavüzkarlıq yolu ilə genişləndirməyə cəhd edirdilər. Göyçə gölünün hövzəsindəki Albaniya çarlıqları, Kaspiana, indiki Naxçıvan bölgələri və b. torpaqlarımız tez-tez erməni istilalarına məruz qalırdı.

I Artaşes (e.ə. 189-160) və II Tiqran (e.ə. 95-55) kimi erməni çarlarının qısa müddətli işğallarına əsaslanan bir sıra orta əsrlər və çağdaş erməni müəllifləri dünya tarixşünaslığına "Dənizlərdən dənizlərə uzanan böyük Ermənistan" əfsanəsini yerləşdirməyə, qonşu xalqların, ilk növbədə Azərbaycan türklərinin əzəl torpaqlarını erməni çarlıqları elan etməyə başlamışdılar. Onların bəziləri Qafqaz Albaniyasını Kürün ancaq sol sahilində yerləşdirir, Sağsahil Albaniyasını isə Armeniya "Şərq torpaqları", Armeniya "Ağvan qismi" adlandırırlar. Lakin istər antik yazılı tarixi qaynaqlar, istərsə də linqvistik, etnoqrafik, toponomik və s. materiallar sübut edir ki, tarixi Qafqaz Albaniyası Kürün hər iki sahilini, indiki Azərbaycan Respublikasını, Ermənistan, Gürcüstan və Dağıstan respublikalarının bir hissəsini əhatə etmişdir. Romalılar Albaniyanı işğal etmək niyyətindən əl çəkmirdilər. Artıq yuxarıda qeyd edildiyi kimi, II Pont hökmdarı VI Mitridat Yevpator və onun müttəfiqi II Tiqranın Roma imperiyasının Kiçik Asiya mülklərinə həmlələri onların özü üçün acı nəticələrə gətirib çıxarırdı. VI Mitridatı darmadağın edən, II Tiqranı əzən Lusi Lisini Lukullun bəzi qətiyyəsiz addımlarından sonra Roma senatı onun yerinə Qney Pompeyi şərq əyalətlərinin canişini təyin etdi. E.ə 66-cı ildı Pompeyin başçılığı ilə II Tiqranı yenidən diz çökdürən romalılar elə həmin il VI Mitridatı izləyərək Cənubi Qafqaza yeridirlər. İlk Alban hökmdarı Oroys Kür sahilində 40 minlik ordu ilə romalılara hücum etdi. Oroys hücum üçün yaxşı vaxt seçsə də qəfil hücüm alınmadı. Vaxtında hücumdan xəbər tutmuş Pompey döyüşü uddu və Oroysu müqavilə bağlamağa vadar etdi. Pompey bundan sonra İberiyaya üz tutsa da albanlar ona rahatlıq vermir, romalılar tələfata məruz qoyur, qiyamlar qaldırırdılar. Qəzəblənmiş Pompey geriyə qayıdaraq Kürü keçdi və e.ə. 65-ci ilin əvvəllərində Alazan sahilində Oroysun qardaşı Kozisin başçılıq etdiyi 72 min nəfərlik alban qoşunu ilə üz-üzə gəldi. Roma sərkərdəsi hərbi hiylə işlədərək albanları tələyə saldı. Qanlı döyüşün gedişində Kozis qılıncı ilə özünə yol açaraq Pompeyin dayandığı düşərgəyə soxulub zaman Roma sərkərdəsini nizə ilə vurdu. Pompey isə nizə zərbəsi ilə Kozisi ölümcül yaraladı. Alban qadınlarının da iştirak etdikləri bu döyüş də romalıların qələbəsi ilə bitdi. Dağlara çəkilən Oroys yenidən Pompeylə sülh bağlamalı oldu. Lakin albanların sonrakı müqaviməti Pompeyə Xəzər sahillərinə çıxmağa imkan vermədi. Roma sərkərdəsi Antoninin məşhur (e.ə. 36-cı il) ekspediyası zamanı Ərməniyyəni tutmuş romalılar sərkərdə Kanidi Krassın başçılığı ilə Albaniyaya da soxulmuşdular. Onlar albanlara qalib gəlmiş və alban hökmdarı Zoberi özlərinə tabe olmağa məcbur etmişdilər. Eramızın I-II əsrlərində Albaniyanın tarixi haqqında məlumatlarımız azdır. Roma, Parfiya və b. qonşunların tez-tezAlbaniyaya yürüşlərinə baxmayaraq, albanlar öz müstəqilliklərini qoruyub saxlaya bilirdilər. Eramızın 80-90-cı illərində romalılar Xəzər sahillərinədək gəlib çıxsalar da burada möhkəmlənə bilməmişlər. Məşhur Roma imperatoru Trayanın (96-117) şərq yürüşü zamanı ərazisinin toxunulmaz-

lığını qoruyub saxlamış albanlarla imperator Adrian (117-138) da dostluq əlaqələri saxlamışdır. Bəzi məlumatlara görə, 20-ci illərdən Albaniyada taxta Arşakilərin nümayəndələri çıxmışdılar. Alban Arşakiləri də ölkənin müstəqiliyyini qoruyub saxlamağa nail olmuşdular.

***İqtisadi həyat.*** Albaniyada və Atropatenada quldarlıq klassik quldarlıq səviyyəsinə qalxmamış, qul əməyindən əsasən məbəd təsərrüfatında və ev işlərində istifadə olunmuşdur. Antik müəlliflər Albaniyada ölkənin qərbindəki "müqəddəs vilayətin" məbəd qullarının əməyindən istifadə edilməsi barədə məlumat verirlər. Quldarlıq quruluşu dövründə də Azərbaycan əhalisinin başlıça məşğuliyyəti əkinçilik, maldarlıq və sənətkarlıq idi. Strabon yazırdı ki, Alban düzənliyi " Babilistan və Misirdəkindən daha yaxşı suvarılır". A.Marselli isə Atropatenada əkinçiliyin geniş inkişaf etməsi barəsində ətraflı məlumat verir. Arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış xış, kirkirə, sürtgəc, vəl və s. kənd təssərüfatı alətlərinin qalıqları əkinçiliyi ən gəlirli sahələrdən birinə çevirmişdir. Sıx suvarma şəbəksinə malik olan Albaniyada bəzi torpaqlar ildə 2-3 dəfə məhsul verirdi. Əkinçilikdə başlıca sahələr taxılçılıq və bağçılıq idi. Alban əhalisinin məşğuliyyətində balıqçılıq da geniş yer tuturdu. Əlverişli və geniş yem ehtiyatlarına malik olan otlaqların mövcudluğu birsıra maldarlıq sahəsinin inkişafı üçün gözəl şərait yaradırdı. Azərbaycanın qədim sakinləri qoyun, keçi, at, dəvə və s. saxlayırdılar.

***Sənətkarlıq və ticarət.*** Arxeoloji materiallar sübut edir ki, Albaniyada metalişləmə, zərgərlik, dulusçuluq, toxuculuq, əmək alətlərinin hazırlanması və s. bu kimi sənətkarlıq sahləri inkişaf edirdi. Strateji cəhətdən çox mühüm müvqedə yerləşən qədim Azərbaycan dövlətləri həm də ticarət mərkəzləri, tranzit krvan ticarət yollarının kəsişdiyi və keçdiyi məntəqələr rolunu oynamışdılar. Burada həm ölkələri əlaqələndirən yerli və beynəlxalq karvan ticarəti yolları keçirdi.

Qazaka, Kabalaka, Vera, Aynian, Anariak və b. Azərbaycan şəhərləri antik dünyanın Yunan , Makedoniya, Roma, Parfiya və digər dövlətləri ilə ticarət əlaqələri saxlayırdılar. Ölkəmizin ərazisindən tapılmış xarici sikkələr, digər əşyalar deyilənləri təsdiq edir.

***Dini görüşlər.*** Antik dövrdə Azərbaycan əhalisi içərisində müxtəlif dini təsəvvürlər mövcud olmuşlar. Ulu babalarımızın dini görüşləri içərisində totemizm və fetişizm, ölkənin cənubunda isə atəşpərəstlik kimi dini politeist dinləri geniş yayılmışdır.

Təxminən e.ə. VI əsrin sonundan etibarən atəşpərəstlik əsasında formalaşan zərdüştlik dini, onun müqəddəs kitabı "Avesta" nın Yasna, Yaşt, Videvdat hissələrində öz əksini tapmış dini müddəalar Atropatena əhalisinin mənəvi-dini həyatında mühüm rol oynamışdır. Orta Asiya, İran, Əfqanıstan və Cənubi Azərbaycanda yayılmış bu dinin banisi Zərdüşt rəvayətə görə e.ə. VII əsrdə yaşamışdır. Onun vətəninin İran, Azərbaycan və ya Orta Asiya olması ətrafında mübahisələrdə hələlik heç bir mülahizə üstünlük qazanmamışdır. Zərdüştlik dini təlimi dünyanın iki qüvvəsinin---xeyir və şərin, bu qüvvələri təmsil edən Ahuraməzda və Əhrimənin mübarizəsi kimi qələmə verir. Atropatena ilə yanaşı "avesta" təliminin Quzey Azərbaycanın bəzi cənub bölgələrində də yayıldığı güman edilir. Lakin Quzey

Azərbaycan, Albaniya əhalisi içərisində səma cisimlərinə, “Helios, Zevs, xüsusən də Selenaya” sitayiş daha geniş yayılmışdı. Bir sıra müəlliflər bu halı ilk növbədə yunan panteonunun geniş yayilması ilə izah etməyə çalışsalar da, unutmaq olmaz ki, qədim türk etnosları içərisində Göy tanrıçılığa etiqad əsas rol oynamış, səma cisimlərinə, Günəşə, Aya, bütövlükdə səmaya sitayiş geniş yayılmışdır. Azərbaycanda habelə məhsuldarlıq, Ay ilahəsi kimi sayılan Anahit ilahəsinin kultu da möhkəm mövqelərə malik idi. İstər zərdüştlik kahinlər-maqlar, istərsə də alban məbədlərinin başçıları, xüsusən də Ay ilahəsi məbədinin baş kahini ölkənin ictimai-siyasi həyatında güclü nüfuza malik idi. Azərbaycan qədim dövlətlərdən etibarən əkinçiliklə məşğul olan bir xalq olmuşdur. Azərbaycanda zərdüşt dininin geniş sürətdə yayılması və onun ehkamlarında əkinçilik və maldarlığın inkişaf səviyyəsinə təsir göstərən amillərdən biri olmuşdur. Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti burada əkinçiliyin inkişafı üçün gözəl şərait yaradırdı.Qədimdə Azərbaycanın şimal hissəsi antik mənbələrdə Albaniya, Ərəblərdə Alran, xalq arasında Aran, cənubi isə Atropateniya adlanırdı. Mənbələrdə Misir və yaxud Assuriyada olmuş quldarlıq sisteminə Atrapotenada təsadüf edilmir. Bu ərazidə olmuş quldarlıq sistemi haqqında mənbələrdə qul termini əvəzinə “bəndək” və “ənməhrik” sözləri işlədilmişdir. Sasanilər dövründə dövlət özünə qüvvətli ictimai dayaq yaratmaq məqsədilə dövlət idarələrində, orduda xidmət edən şəxslərə və habelə ruhanilərə ehtiyaclarını ödəmək məqsədi ilə torpaq ayırırdı. Torpaq sahibləri əsas etibarı ilə qul əməyindən istifadə edirdilər. Lakin artıq III əsrdən etibarən quldarlıq sistemi get-gedə zəifləyib dağılmağa başlamışdı.

# FƏSİL 4. AZƏRBAYCAN III – IX ƏSRLƏRDƏ, AZƏRBAYCAN ƏRƏB XİLAFƏTİ TƏRKİBİNDƏ

*§ 1.* Azərbaycanda feodal münasibətlərinin meydana gəlməsi və inkişafı.
*§2.* Sasanilərin Azərbaycanı işğal etməsi və ona qarşı mübarizə.
*§ 3.* Azərbaycan xalqının təşəkkül prosesi.
*§ 4.* Azərbaycan Ərəb xilafəti tərkibində. İslam dininin Azərbaycanda yayılması.
*§ 5.* Ərəblərə qarşı milli-azadlıq mübarizəsi. Xürrəmilik. Babək.

## *§ 1. Azərbaycanda feodal münasibətlərinin meydana gəlməsi və inkişafı*

Eramızın III-IV əsrlərində Azərbaycanın istimai-iqtisadi həyatında əhəmiyyətli dəyişikliklər baş vermiş, məhsuldar qüvvələrin inkişafında əsaslı irəliləyişlər olmuşdur. Arxeoloji qazıntılar nəticəsində tapılmış əmək alətləri, məişət əşyaları və kənd təsərrüfatı məhsullarının qalıqları təsərrüfatın (əkinçiliyin, maldarlığın, sənətkarlığın) daha da inkişafını göstərir. Tapılan gavahınlar, dəryazlar, oraqlar, bellər və kərkilər, metaləritmə və metal emalı alətləri, dulusçuluq və parça toxumaq üçün dəzgah bu inkişaf səviyyəsini müəyyən edir. Tapılmış yivli və oyma möhürlər bu dövrdə Azərbaycanda xüsusi mülkiyyətin də inkişaf etdiyinə dəlalət edirdi.

Köhnə istehsal münasibətləri yeni-feodal münasibətləri ilə əvəz olunurdur. Getdikcə maddi marağı söndürən isma torpaq sahibliyi dağılır, o torpaqlar baş mülkiyyətçinin ixtiyarından xüsusi şəxslərin əlinə keçirdi. Baş mülkiyyətçilər kəndlilərin istifadəsində olan torpaqlardan gəlir götürmək hüququ olan orduda və dövlət aparatında xidmət edən şəxslərə ver deyilirdi. Xüsusi şəxslərin əlinə keçən torpaq mülkiyyəti feod və ya len adlanırdı.

Feodallaşma prosesi torpaq mülkiyyətinin xarakterini dəyişdirdi. Əgər feodalizmdən əvvəlki dövrdə torpaq dövlətin və əyyanların mülkiyyəti idisə, feodalizm dövründə torpaqların bir hissəsi feodalların əlinə keçmişdi. Bu torpaqlar xidmətinə görə baxışlanmışdı. Feodalizmin ilkin dövründə (təqribən III-V əsrlərdə) torpaq mülkiyyətinin dövlət (hökmdarın simasında) forması üstün idi. Xüsusi feodal torpaq mülkiyyəti isə öz növbəsində iki yolla formalaşırdı.

1) Feodalın şəxsi mülkü olan torpaq üzərində irsi mülkiyyət (dastakert-fars dilində termindir). Torpaq mülkiyyətinin bu forması torpaq üzərində mülkiyyət formasının pozulması, habelə icma torpaqların hakim sinfin nümayəndələrinə votçina hüququ əsasında mülk kimi baxışlanması yolu ilə meydana gəlmişdir;

2) Şərti torpaq mülkiyyəti xostak (bu da fars dilində termindir). Bu forma isə hakim sinfin nümayəndələrinə vassal xidməti müddətində dövlət tərəfindən müvəqqəti istifadə üçün torpaq verilməsi yolu ilə yaranmışdır. Qeyd etmək lazımdır ki, «xostak» kimi müvəqqəti istifadə üçün verilmiş torpaqların «dastakert», yəni şəxsi mülkiyyətə çevrilməsi ənənəsi də mövcud idi.

Dastakertlərin sahibləri – çarın sarayı, feodallaşan zadəgan nəsilləri, yeni yaranmış feodal əsilzadə hökmdar sarayında qulluq etməklə irəli çəkilmiş varlı kəndli təbəqəsinin bir hissəsi idi. Xostak sahibləri isə hərbiçilər və kiçik dövlət vəzifələrində olan zadəganlar (azatlar) və kilsə xadimləri idi.

Feodal münasibətləri cəmiyyətin sosial tərkibini dəyişdirdi. Feodalizm cəmiyyətində iki sinif feodallar və asılı kəndlilər sinfi meydana gəldi. Feodallar iki qrupa 1) dünyavi, 2) ruhani feodallar bölünürdü. Dünyavi feodallar da öz növbəsində iri və xırda feodallar bölünürdülər. Roma – Biznas mənbələrində iri feodallara patriklər, xırda feodallara isə azatlar deyilirdi. Ruhani feodallar təbəqəsini Atropatenada zərdüşt kahinləri Albaniyada isə əvvəllər bütpərəstlik dini kahinləri sonralar isə xristian kilsəsi xadimləri təmsil edirdilər.

Feodal sahibkarlığı şəraitində iri torpaq mülkiyyətçiləri iri feodallar meydana çıxırdı. Onlar feodal asılı kəndliləri istismar edir, onları məhsul və pul ödəməyə, mükəlləfiyyətlər yerinə yetirməyə məcbur edirdilər. Feodalizm cəmiyyətində əsas yeri natural təsərrüfat tuturdu. Natural təsərrüfat sistemində istehsal əsasən istehsalçının özünün və feodalın tələbini ödəyirdi. Cüzi ərzaq mübadiləsi tasirlər vasitəsilə həyata keçirilirdi.

Beləliklə, məhsuldar qüvvələrin inkişafı nəticəsində Azərbaycanda feodal münasibətləri formalaşırdı. Quldarlıq quruluşundan sonra yaradılan feodal istehsal üsulu ölkənin məhsuldar qüvvələrinin daha da inkişaf etməsinə imkan yaradırdı. Feodal münasibətlərinin əsasını feodalın torpaq üzərində tam və istehsalçı-feodal asılı kəndli üzərində tam olmayan mülkiyyətini təşkil edirdi.

Feodal münasibətlərinin formalaşması prosesi Azərbaycanda bərabər sürətlə getmirdi. Belə ki, bəzi yerlərdə hələ də quldarlıq münasibətləri qalmaqda idi. Əyan feodallar təkcə asılı kəndlilərin deyil, qulların da əməyindən istifadə edirdilər.

Buna baxmayaraq istimai münasibətlər sistemində əsas yeri durmadan inkişaf edib, möhkəmlənən feodal münasibətləri tuturdu. Azərbaycanda feodalizm quruluşunun özünəməxsus xüsusiyyətləri var idi. Əvvəla, burada feodalların özlərinin çox az təsərrüfatları olmuş və ya heç olmamışdır. Çünki, süni suvarma şəraitində böyük xərc tələb edən təsərrüfat düzəltmək əlverişli deyildi.

İkincisi, feodallar əsasən öz xüsusi təsərrüfatlarında məşğul olan kəndlilərindən məhsul və pul rentası almaqla kifayətlənirdilər.

Üçüncüsü-bütün Şərqdə olduğu kimi Azərbaycanda da orta əsrlər boyu məhsul rentası üstün yer tutmuşdur

Dördünsüsü-Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da təhkimçilik hüququ tərtib edilməmişdir. Bu da feodalların xüsusi təsərrüfatlarının zəif inkişaf və ya heç olmaması ilə əlaqədar idi. Azərbaycanda olan feodal dövlətlərindən biri Albaniya idi. Albaniyada feodal münasibətləri mənbələrə görə IV əsrdə formalaşmışdır. Bu dövrdə əhalinin sosial tərkibini hakimlər, azatlar, ruhanilər, vergi verən kəndlilər və sənətkarlar təşkil edirdi.

Alban feodal dövləti III-V əsrlərdə bir sıra vilayətlərə bölünürdü. Onlardan Çola (Çori), Şəki, Linina, Girdman, Uti və Paytakaranı (Beyləqan) göstərmək

olar. Onlar bir-birindən dağlar, çaylar və başqa təbii sərhədlərlə təcrid olunmuş ərazi idilər. Çola indiki Dərbənddən Beşbarmaq dağına qədər Kaspi dənizi boyunca uzanan ərazini tuturdu. Bura Alban qapıları adlanırdı. Vilayətlərdə üzümçülük, meyvəçilik və taxılçılıqla məşxul olurdular. Albaniyanın şimal-şərqində dağlıq Şəki vilayəti, Çola ilə Şəki arasında Lipina yerləşirdi. Albaniyanın paytaxtı Qəbələ şəhərində yerləşirdi. Girdiman vilayəti metal məmulatlar istehsal edir. Mərkəzi Bərdə olan Uti vilayəti əkinçilik, maldarlıq, toxuculuqla məşğul olurdu. Albaniyanın Paytakaran vilayəti Mil düzünün və Muğanın bir hissəsini əhatə edirdi.

Din feodal hakimiyyətinin möhkəmləndirilməsində mühüm rol oynamışdı. Alban feodallarının başında knyaz Urnayır olmaqla IV əsrin əvvəllərində xristianlığı qəbul etməkdə də bu məqsədi güdmüşdülər. Onlar bu dini zorla əhali arasında yaymağa və kilsələr tikməyə başlamışlar. Hətta hökmdar Urnayır kilsələr üçün torpaq sahələri də ayırmışdı. Kilsələrin nəfinə kəndlilərdən məhsulun 10/1-i qədər – kilsə onda biri adlanan vergi qoyulmuşdu. Xristianlıq mənbələrə görə Albaniyanın qərb hissəsində daha güclü idi. Arsaq vilayətində xristianlığın təsiri artmışdı.

V-VI əsrlərdə sasanilərin hakimiyyəti zamanında Azərbaycanda feodal münasibətlərinin inkişafı prosesi güclənmişdi. Atropatenada kəndlilərin əksəriyyəti isma torpaqlarını ələ keçirmiş feodallardan asılı olmuşdur.

İri torpaq sahiblərinin nəzarət dairəsi günü-gündən genişlənir və ixtiyarında olan sahələrdən vergi toplamalı idilər. Bu səbəbə görə dövlət özü də müəyyən dərəcədə vergilərin toplanmasında feodallardan asılı vəziyyətə düşürdü. Dövlətin isə feodalların nüfuzunu aradan qaldırmaq cəhdi çox vaxt müvəffəqiyyətsizliklə nəticələnirdi. Feodalların vəziyyəti elə bir dərəcəyə gəlib çatdı ki, şah maliyyə və ordu cəhəddən onlardan asılı vəziyyətə düşdü.

Böyük torpaq sahələri məhdud müəssisə şəklini almaqla onların əksər hissəsi icarəyə verilirdi. Kəndlilərə natural formada əmək haqqı verilirdi: vergilər də natural formada toplanırdı. Mülkədarlar şəhərlərdə deyil, kəndlərdə öz malikənələrində möhkəmləndirilmiş yerlərdə yaşayırdılar. Kənd yerlərində sikkə tədavülü olduqca azalmışdı. Bu zaman imperiyada sabit bir iqtisadi formasiya yaranmış oldu.

Bu sabit iqtisadi formasiya şübhəsiz ki, feodalizm quruluşu olmuşdur. Bu dövrdə kəndlilərin vəziyyəti getdikcə ağırlaşırdı.

I Xosrovun keçirmiş olduğu islahat nəinki zəhmətkeşlərin vəziyyətini yüngülləşdirirdi, əksinə, onu daha da çətinləşdirirdi. Bu islahat başdan-başa dövlət və əyanların mənafeyini müdafiə edirdi.

Öz vasallarına torpaq paylayan I Xosrov Anuşirəvanın (531-579) siyasəti nəticəsində feodalların mövqeyi daha da möhkəmlənmişdi. Şah özünü məzdəkilər hərəkatı zamanı sahib olmuş torpaqların bilavasitə varisi elan etdi. O, bu torpaqların çox hissəsini sərkərdələr arasında bölüşdürərkən özünə mötəbər dayaq yaratmış oldu. I Xosrovun zamanında Azərbaycanda da şərti torpaq mülkiyyəti qəti olaraq bərqərar oldu. Öz xidmətlərinə görə torpaq alan azatların sayı artırdı. Onlar da kahinlər kimi böyük imtiyazlara malik idilər. Dini idarələrin də torpaq mülkiyyəti genişlənirdi.

Əvvəllər azad ismaçı mənasını verən dehqan sözünün özü belə artıq torpaq sahibi mənasında işlədilirdi. Onlar Sasani qoşunlarında mühüm rol oynayırdılar. Ölkədə sürətlə təbəqələşmə gedirdi. III-IV əsrlərdə səmiyyəedə 3 silk – kahinlər, hərbçilər, torpaq sahibləri, VI əsrdə 4 silk – kahinlər, hərbçilər, mirzələr (yazıçı, şair və s.) qulluq göstərənlər var idi.

Sasani hakimi I Qubadın başladığı və I Xosrovun başa çatdırdığı vergi siyasəti Atropatenada feodal münasibətlərini möhkəmləndirdi. Əvvəlki vergi sistemi (torpağın münbitliyinə görə 3/1, 5/1 və 6/1 həcmində vergi, natural vergi sistemi) dəyişdirildi. Torpaqların, meyvə ağaclarının, vergi verəcək «baş»ların ciddi hesabı aparılırdı. Natural vergi pulla əvəz olunurdu. Əhali əmlak vəziyyətindən asılı olaraq 12, 8, 6 və 4 dirhəm can vergisi verməli idi. Adlı-sanlı kahinlər, məmurlar və mirzələr san vergisindən azad edilirdilər.

Sasanilər dövründə alınan torpaq vergisinə xərac (məhsulun 5/1 hissəsi), can vergisinə gezit, sənətkarların və tacirlərin xəzinə üçün verdikləri vergiyə bas vergisi deyilirdi. Bunlar ildə 3 dəfə toplanırdı.

Albaniyada feodal münasibətləri inkişaf edir, torpaq mülkiyyətinin xarakteri dəyişirdi. Torpaq üzərində iri feodal mülkiyyəti yaranırdı. Sonralar qismən ömürlük mülkiyyətə çevrilmiş şərti torpaq sahibliyi də meydana çıxmışdır. Albaniyada torpaq sahibləri əyanlar idilər. Feodallaşma prosesi digər zümrələrin, torpaqsız adamların çoxalmasına səbəb olurdu. Feodal münasibətlərinin inkişafı əhalinin öz dövləti, eləcə də Sasani İran mülki və ruhani feodallar tərəfindən istismarı vergi zülmünün artmasına gətirib çıxarır və bu da əhalinin etirazına səbəb olurdu. Kilsə feodal aristokrasiyasının nümayəndəsi olan Musa Kalankatlı şübhəsiz Albaniyada mövcud olan sinfi mübarizə və sosial hərəkatlar haqqında heç nə demir. K.B.Trever alban müəllifinin məlumatlarında bu hadisələrin əks-sədasını görə bilmişdir. 498-ci il Aquen kilsə məclisinin çağrılmasının səbəbini izah edən Kalankatlı yazır ki, «camaatla ruhanilər, azadlarla rəiyyət arasında narazılıq baş verdi: onda hökmdar yığıncax böyük məclis çağırmağı arzu etdi». Feodal münasibətlərinin hüquq normaları dünyavi və ruhani feodalları Aquen kilsə yığıncaxında təsbit edilmişdir. Bu hüquq normalarında vergi verən kəndli təbəqəsi 3 qrupa bölünürdü.

- Kifayət qədər əmlakı olanlar
- Yoxsullar
- Əkini, üzümlüyü olmayan kəndlilər

### *§ 2. Sasanilərin Azərbaycanı işğal etməsi və ona qarşı mübarizə*

Eramızın 224-cü ilində İranda parfiyalıların hakimiyyəti devrildi və Sasanilər sülaləsinin idarə etdiyi dövlət yaradıldı. Bu dövlətin əsasını Sasan sülaləsindən olan I Ərdəşir qoymuşdu (224-241). Sasanilər dövlətinin paytaxtı Kteston (Mədain) idi. Yaradılmış olan bu dövlət işğalçılıq siyasətinə başlamış. Orta Asiyanın bir hissəsini, Atropatenanı, Mesopatamiyanı və Suriyanı tutmuşdular. Zəngin təbii sərvəti olan əlverişli mövqedə yerləşən, mərkəzi şəhəri, Təbriz olan Atropatenanın

işğal (227-si il) edilməsi Sasanilər üçün daha əhəmiyyətli idi. Atropatena sasanilərin ən mühüm əyalətlərindən birinə çevrilmişdi. Atropatenada hakim mövqe tutan Zərdüşt dinini sasanilər dövlət dini elan etmişdir. Zərdüşt və ya baş allah Ahuramazdanın (Hörmüz) adı ilə adlandırıldığı kimi məzdəizm hakim feodalların tələbatına uyğunlaşdırılmışdı. Şahənşah I Sapur (241-272) itaət altına alınmış vilayətlərdə zərdüşt dinini zorla yaymaq əmrini vermişdi. Atropatenanın Qazaka şəhərindəki atəşpərəstlik məbədi yenə də baş məbəd hesab olunurdu. Şahənşahlar taxta çıxdıqdan sonra dövlətin mərkəzindən bura piyada ziyarətə getməli idilər. Sasanilər Atropatenanı tutduqdan sonra Albaniyaya, Armeniyaya, İberiyaya hücum etmişdir. Uzunmüddətli müharibələrdən sonra qəsbkarlar 262-si ildə Albaniyanı da işğal etmişdilər. Sonra da Armeniya və İberiya ərazisi də işğal olundu. Azərbaycan üç əsrdən artıq Sasanilər hakimiyyəti altında qalmışdır. Bu Azərbaycanın inkişafını ləngitsə də onun iki hissəsinin – Atropatena və Albaniyanın iqtisadi və mədəni cəhəddən yaxınlaşmasına şərait yaratmışdı.

Bu dövrdə Albaniyanı, Armeniyanı, İberiyanı Roma imperiyası da işğal etməyə can atırdı. Şimali Qafqazdan köçəri tayfalar tez-tez basqınlar edirdilər. Azərbaycan bu Şimal canişinliyində mühüm strateji mövqe tutaraq, imperiyaya gedən yolları həm şimalda xəzərlərdən, həm də qərbdə Bizansdan qoruyurdu. Xəzərlər Arran və Azərbaycana başqalarına nisbətən tez-tez basqınlar edirdilər, buna görə də Sasani şahları öz sərhədlərini möhkəmləndirməyə son dərəcə əhəmiyyət verirdilər. Alban tarixində Sasani şahlarından II Şapurun (309-379) hökmranlığı zamanı xəzərlərin təqribən 350-ci ildə Arrana basqını haqda məlumat vardır. «Külli miqdarda» xəzər Çoqay qapısından keçib, bizim ölkəyə girmişdi. Şapur Assuriya, Xorasan və Xarəzmdən saysız-hesabsız ordu, Atropatena əyalətindən çoxlu qoçaqlar, albanları və Qafqaz dağlarının vəhşi xalqlarından 12 tayfa toplayıb bu böyük qüvvə ilə yürüşə başlayaraq onların qarşısına çıxdı.

Lakin xəzərlərə qarşı ciddi tədbir görən İran şahı I Qubad idi: onun sərkərdələrindən biri Dinavərədək gəlib çıxan xəzərləri təqib edərək, Surzan (Gürcüstan) və Arranı onlardan geri aldı. O, Arran ölkəsinə daxil oldu və Ər-Ras (Araz) adı ilə məhşur çayla Şirvan arasında olan bütün torpaqları tutması haqda Bəlazuri məlumat verir.

IV əsrdə Roma imperiyası ilə sasanilər arasında Albaniya, Ermənistan və İberiyanı işğal etmək uğrunda uzun sürən müharibələr baş verir. Roma imperiyası və köçəri xalqlarla birləşən ermənilər sasanilərə qarşı müqavimət göstərirdilər. Atropatena isə bu müharibələrin meydanına çevrilirdi. Sasani hökmdarı II Şapur Armeniya üzərinə hücum edərkən şahin bacısına evlənmiş, alban hökmdarı Urnayır onunla birlikdə bu yürüşdə iştirak etmişdir.

İran ilə Roma imperiyası arasında uzun sürən müharibəyə 390-cı ildə son qoyuldu. Sülh müqaviləsinə görə Armeniyanın, Gürcüstanın şərq vilayətləri, Albaniya sasanilərin hakimiyyəti altına keçdi. Bu vəziyyət təqribən VII əsrə kimi davam etmişdir.

Strateji əhəmiyyətə malik olan Albaniyaya sasanilər xüsusi əhəmiyyət verirdilər. Çünki şimaldan gözlənilən köçəri tayfaların hücumlarının qarşısını almaq üçün bir sədd idi. Albaniyada Dərbənd istehkamlarını tikmək buna misaldır. Dərbənd torpaq istehkamı II Yezdəgirdin (438-457) dövründə tikilmişdir. VI əsrdə daş divarlarla əvəz edilmişdir. Albaniyanın əhalisinin gücü və dövlətin vəsaiti hesabına inşa edilən istehkam Xəzər dənizinin içərilərinə doğru irəliləyirdi. Aqvan tarixinin müəllifi yazır ki, Dərbənd istehkamları və qalasını tikmək üçün Iran şahları ölkəmizi Arrani taqətdən saldılar: bu qəribə binanı tikmək üçün memarları səfərbərliyə alan və çoxlu müxtəlif material axtarıb tapan Iran şahları həmin tikinti vasitəsilə Qafqaz dağı ilə Şərq (Xəzər) dənizi arasındakı keçidləri qapalı saxlayırdılar.

Şimaldan gələn hücumları dəf etmək üçün və albanların sasanilərə qarşı çıxışlarının qarşısını almaq üçün bir dayaq nöqtəsi olaraq sasanilər Azərbaycanda çoxlu qalalar tikdirmişlər. «Torpaqqala» (Samurda) ondan sənubda «Gilgilçay istehkamı», Beşbarmaq dağına qədər uzanan divarları, Zaqatalada daş hörgülərini, Bərdədə, Şəmkirdə, Şamaxıda və başqa yerlərdə tikilmiş qaları buna misal göstərmək olar.

Sasanilərin ağır vergi, mükəlləfiyyət və qəsbkarlıq siyasətinə qarşı Azərbaycan əhalisi arasında olan böyük narazılığı dərinləşdirdi.

Əvvəllər əsas vergi olan tüstü vergisi kəndli həyətlərinin sayı ilə bağlı idi. Artıq vergidən can qurtarmaq üçün kəndli ailələri böyüyəndə də bir-birindən ayırmırdılar. İndi isə tüstü (ailə) töycüsünü can vergisi ilə (adam başına vergi) əvəz etdilər. Vergi toplanmasının yeni sistemi mütəşəkkil soyğunçuluq xarakteri daşıyırdı. Əhalidən alınan vergiləri 2 dəfə artıran II Yezdəgird zamanı bu narazılıq daha da artmışdır.

Sasanilərin işğalçılıq məqsədilə yerli əhalidən atlılar toplamaq və Albaniyada zərdüşt dinini zorla yaymaq siyasəti bu narazılığı daha da gücləndirmiş, xalqların səbr kasasını doldurmuşdur. Bununda nəticəsində Sasani zülmünə qarşı üsyanlar baş verdi.

450-ci ildə Zaqafqaziyada sasanilərə qarşı qüdrətli üsyan başlamışdı. Üsyana Vardan Mamikanyan başçılıq etmişdi. Üsyan ilk növbədə qələbə çalsa da sonra məğlubiyyətə uğradı.

Yeni üsyan dalğası 457-ci ildə Albaniyada alban hökmdarı II Vaçenin başçılığı ilə olmuşdu. Üsyançılar Dərbənd qalasını ələ keçirmiş, Dağıstanda yaşayan tayfalarla ittifaqa girmişdilər. Hunlardan muzdlu qoşun toplayan düz bir il çəkən üsyan amansızlıqla yatırıldı. 463-cü ildə Albaniyada dövlət quruluşu ləğv olundu və ölkəni İran canişini – mərzban idarə etməyə başladı. Albaniyada bu rejim 30 il davam etdi. Evtalitlərlə uğursuz müharibə, albanlara qarşı cəza tədbirləri, vergilərin artması Nahararların irsi imtiyazlarının məhdudlaşdırılması, dini təqiblər yeni üsyan üçün zəmin yaradırdı. Üsyan Albaniyada təqribən 484-cü ilədək davam etdi. Üsyan etmiş erməni, iber və albanlarla uzun müddətdən bəri vuruşan iranlılar eyni zamanda evtalitlər tərəfindən məğlubiyyətə uğradılar. Peroz öldürüldü və 484-cü ildə evtalitlər İran torpaqlarına soxuldular. Bütün bunlar onsuz da əldən

düşmüş İran ordusunu Ermənistan, İberiya və Albaniyadan çəkilib getməyə məcbur elədi.

484-cü ildə Balaş (Sasani) hakimiyyətə gəldi (484-488). İranda yaranmış ağır siyasi və iqtisadi vəziyyət, müharibələrdə dağıdılmış kənd təsərrüfatını bərpa etmək cəhdləri Balaşı Zaqafqaziyada ata-babalarının yürütdüyü siyasətə-dini təqiblərə son qoymağa və burada yaşayan xalqlarla sülh bağlamağa məcbur etdi.

Nvarsak kəndində üsyançıların təqdim etdikləri şərtlər əsasında müqavilə bağlandı. Nvarsak sülhünün şərtlərinə görə İran hökuməti Albaniya, Ermənistan və İberiyaya mühüm güzəştlərə getdi. Albaniyada Arşaki çarlarının hakimiyyəti bərpa edildi və çara ölkənin daxili məsələlərinin müstəqil həll etmək ixtiyarı verildi, alban zadəganlarının imtiyazları bərpa olundu. Ölkənin baş hakimi və nahararların süzereni yalnız alban hökmdarı ola bilərdi. Zərdüşt dininin tərəfdarları təqib edilməyə başladı. Yeni xristian kilsələri tikilir, kahinlərin əhali üzərində təsirinin güclənməsində III Vaçaqanın Aquen kəndində (Ağdam rayonu) ali rütbəli ruhanilərin və ən iri feodal sahibkarlarının məclisinin toplanması mühüm rol oynamışdır. Məclis xristian kilsəsinin vəziyyətini möhkəmləndirmək və onun dövlət işlərində rolunu artırmaq barədə bir sıra qərarlar qəbul etdi. Aquen məclisi mülkü cinayət işlərini ruhanilərin idarəsinə verilməsini lazım bildi və başqa bütpərəstlik ənənələrini qadağan etdi.

Albaniyada xristianlığın və yazının yayılması alban tayfalarının birləşmiş və tayfalararası dilin yaranmasına kömək etdi. Albaniyada tayfalararası aran dili təşəkkül tapdı. Bizans və ərəb mənbələri Albaniyada xüsusi dilin (aran) olduğunu göstərmişlər.

Sasanilərin hakimiyyətinin ilk dövrlərində İranda Orta Asiyada və qonşu ölkələrdə rəsmi zərdüşt dininə qarşı geniş dini təlim və hərəkat yayılmışdı. Bu təlim öz banisi Maninin (216-17-276) adı ilə Manixeyçilik adlanmışdı. Bu təlimə görə manixeyçilik ümumi bir din olmalı və bütün mövcud dinləri əvəz etməlidir. Manixeyçilikdə onların hamısının ünsürləri var idi. İlk dövrlərdə hakim zümrəyə qarşı çevrilməyən bu təlim sonradan hakim təbəqə əleyhinə narazılığı əks etdirir, eyni zamanda adamları zahidliyə, nigahsızlığa, fədakar həyata dəvət edirdi. Bu təlim xüsusilə şəhərlərdə sürətlə yayılırdı. Mani 276-cı ildə edam olundu. Manixeyçilik V əsrdə meydana çıxan məzdəkilər hərəkatına böyük təsir göstərmişdi.

V əsrin 80-sı illərində başlanmış məzdəkilər hərəkatı feodal istismarına qarşı çevrilmişdir. Bu hərəkatın başında Məzdək dururdu. Orta əsrlərdəki kəndli hərəkatları kimi məzdəkilər hərəkatı da dini pərdə altında baş vermişdi.

Hərəkatın başçısı Məzdək öz fikirlərini Həmədanda yaymağa başlamışdır. Məzdək Maniliyin radikal cərəyanı – Bundos təlimini, həmçinin zərdüştlüyün ictimai ideyalarını ön plana çəkməklə inkişaf etdirmişdi. O, həyat nemətlərini bərabər bölüşdürməyi təbliğ edirdi. Sasani hökmdarı I Qubadın zamanında Məzdək atəşpərəstlik məbədlərinin birinin kahini, sonra isə İranın baş kahini olmuş, Möbədən-möbəd (yaxşıdan-yaxşı) adlandırılmış onun tərəfdarları isə mühüm dövlət vəzifələrinə təyin olunmuşlar. Kahinlərin və əyanların iqtisadi-siyasi hökmdarlığına son

qoyduqdan sonra I Qubad Məzdəklə ittifaqdan imtina etmişdir. I Qubadın oğlu Xosrovun əmri ilə Məzdək və onun yaxın adamları edam edilmiş, onun məsləkdaşları Azərbaycanın şimalına, Orta Asiyaya və başqa ölkələrə dağılmışlar.

Məzdəkilər hərəkatı V əsrin 80-ci illəri VI əsrin 20-ci illərində Sasanilər dövlətində əyanlar və kahinlərdən ibarət varlı təbəqələr əleyhinə şəhər yoxsullarının və kəndlilərin hərəkatı idi. Bu hərəkat İranda iqtisadi və siyasi böhranın kəskinləşdiyi şəraitdə, şah hakimiyyətinin zəifləməsi, əyyanların və zərdüşt kahinlərinin qüdrətinin artması, əhali istismarının güclənməsi, ictimai və mülki bərabərsizliyin dərinləşməsi, xalq kütlələrinin var-yoxdan çıxması və müflisləşməsi, xarici siyasətdə müvəffəqiyyətsizliklər nəticəsində başlamışdı.

Hərəkətverici qüvvəsi kəndlilər olan bu hərəkat İran, Mesopatomiya və Cənubi Qafqazın bir sıra əyalətlərinə yayılmışdı. I Qubad əyan və kahinlərin mövqeyini zəifləmək məqsədilə Məzdəkilər hərəkatına qoşuldu. Lakin 496-cı ildə əyanlar və kahinlər I Qubadın hakimiyyətini devirdilər. 499-su ildə I Qubad eftalitlərin, Orta Asiya hunları hökmdarlarının köməyi ilə hakimiyyəti yenidən ələ aldı. Bundan sonra məzdəkilər hərəkatı daha da genişləndi. Məzdəkilər hərəkatının tərəfdarları mühüm dövlət vəzifələri tuturdular. İctimai tələblər və şüarlar irəli sürən məzdəkilər ictimai və əmlak bərabərliyi haqda məzdəklilik təliminə əsaslanaraq əyanların əmlakını ələ keçirib yoxsullara paylayır, sadə adamları yüksək dövlət vəzifələrinə təyin edir, hərəmxanaları ləğv edirdilər.

Məzdəkilər hərəkatının sonrakı inkişafı siyasi qüvvələrin qruplaşmasına səbəb oldu. I Qubad hakimiyyətini möhkəmləndirdikdən sonra zəifləmiş əyanlarla barışığa meyl etdi. 529-cu ildə I Qubadın oğlu Xosrov məzdəkilər hərəkatına son qoydu. Məzdəkin fikri belə idi ki, «Allah öz nemətlərini ondan ötəri yaratmışdır ki, insanlar onu öz aralarında bərabər surətdə bölüşdürsünlər. Lakin insanlar bir-birinə qarşı ədalətsizlik edirdilər. Buna görə əmlak varlıların əlindən alınıb yoxsullar arasında bölüşdürülməlidir. Onlar geriyə ibtidai-icma bərabərliyinə qayıtmaq istəyirdilər. Məzdəkilərin ideyaları xürrəmilərə böyük təsir göstərmişdir. Ümumilikdə, İran və Azərbaycan xalqlarının azadlıq mübarizəsinin gedişinə böyük təsir göstərmişdir. VI əsrin sonlarında Sasanilər siyasi və iqtisadi hakimiyyəti möhkəmləndirmək üçün hərbi-inzibati islahatlar keçirdilər. Bu islahata görə dövlətin bütün ərazisi dörd canişinliyə – Atropaten, Albaniya, Armeniya və İberiya vilayətlərinə bölündü və Şimal canişinliyinə tabe edildi. Canişinliyin baş şəhəri Atropatenda Qazaka idi.

VI əsrin ortalarında hakimiyyət Albaniya hökmdarlarının əlindən çıxmışdı. Atropatena və Albaniya şahların yaxın qohumu olan canişin – Mərzbanlar tərəfindən idarə olunurdular.

Sasanilərin vergi islahatları xalq kütlələrinin vəziyyətini olduqca ağırlaşdırmışdı. Sasanilər Azərbaycanda vergi almaq qaydasında imperiya əhalisi və torpaq mülklərini xüsusi olaraq siyahıya almaqla dəqiqlik yaratmışdılar. I Xosrov Ənuşiravan tərəfindən siyahıya alınma Sasanilər xəzinəsinin istər Azərbaycanın hər iki hissəsində, istərsə bütün imperiya əhalisindən vergi alınmasına imkan vermişdi. I

Xosrovadək torpaq vergisi, kənd təsərrüfatı məhsullarının gəliri nəzərə alınaraq, götürülən hasilatın 1/3; ¼; 1/5; 1/6 hissəsi miqdarında əsasən məhsulla alınırdısa, I Xosrov dövründə vergi torpağın becərilməsi və suvarılmasından və məhsulun miqdarından asılı idi. Can vergisi əyanlardan, ruhanilərdən və hərbi adamlardan başqa, 20-dən 50 yaşadək bütün əhalidən alınırdı. Can vergisinin miqdarı qəti müəyyən edilməmişdi və ildə 4 dirhəmdən tutmuş 12 dirhəmədək alınırdı.

Artmaqda olan vergilərə, ağır zülmə qarşı 571-572-si ildə Albaniya və Ermənistanda üsyan qalxmışdı. Üsyan böyük qəddarlıqla yatırılmışdı.

IV-VI əsrlərdə şimaldan Dərbənd keçidindən keçən tayfalar Azərbaycana hücumlarını genişləndirmişdilər. 395-396-sı illərdə türk xalqları olan hunların, xəzərlərin Azərbaycana hücumları olmuşdur. Belə hücumlar Bəhram Gurun (420-438) və 454-455-si illərdə II Yezdəgerdin dövrlərində də olmuşldur. 486-cı ildə Hunlar, Sabirlərin 522-si ildə isə digər köçəri tayfaların Azərbaycana yürüşləri olmuşdur.

558-ci il üçün Albaniyada türk dilli xalqların sayı daha da artmışdı. 590-cı ildə Sasanilər Araz vadisində bizanslılarla döyüşdə məğlub olmuşdular.

İran – Bizans müharibələri seriyasında 628-si illədək uzanan son müharibə 603-cü ildə II Xosrovun yürüşü ilə başlamışdı. Bizansa qarşı müharibə İranlılar üçün əvvəlcə əlverişli keçirdi və onlar bir neçə il ərzində çoxlu vilayətlər tutmağa və imperiyanın paytaxtı Konstantinopolun özünə yaxınlaşmışdılar.

610-su ildə İrakli Bizansda hakimiyyətə gəldi. O, II Xosrov ilə sülh bağlamağa cəhd etsə də, Xosrov nəinki imtina etdi, hətta digər vilayətləri də onun əlindən aldı. İranlılar 622-ci illədək Pont sahilindən şərqdəki bütün Roma torpaqlarını tutdular.

İranlıların müvəffəqiyyətləri 623-cü illədək davam etdi. Həmin il İrakli iranlılar üçün əlverişli olan bir barışıq bağlamağa II Xosrovun razılıq vermədiyini gördükdə böyük bir ordu toplayıb dolama yolla Kolxida və Iiberiyadan keçərək İran üzərinə hərəkət etdi.

Bizans ordusu Dvini tutdu, Azərbaycana soxuldu və Naxçıvanı işğal etdikdən sonra Arazı keçdi. Sonra Cənubi Azərbaycanın paytaxtı Qazaka tutuldu və atəşpərəstlərin bu şəhərdəki baş məbədi bizanslılar tərəfindən dağıdıldı.

İrakli Sasanilərə qarşı müharibədə 626-cı ildə Xəzərlilərlə ittifaqa girmişdi. 628-ci ildə İraklinin və xəzərlərin qoşunları Tiflisi yandırmışdılar. Nəticədə 629-cu ildə Bizansla Sasanilər arasında sülh müqaviləsi imzalanır. Sülhə görə Armeniya Bizansın, Albaniya İranın ixtiyarında qalır, İberiya müstəqil dövlətə çevrilir.

Sasanilərin uzun sürən müharibələrdə zəifləməsi ucqarlarda olduğu kimi Albaniyada da müstəqillik meylini gücləndirir. VI-VII əsrin əvvəllərində Mehranilər sülaləsinin idarə etdiyi Girdiman dövləti yarandı. Onun yaradıcısı II Xosrovun qohumu Mehran idi. O, Albaniyanın dağlıq hissəsində Mehranabad şəhərini saldı. Varaz Qriqorinin vaxtında Mehranilər xristianlığı qəbul etdilər. Mehranilər Bərdəni tutmuş, sonra isə özlərinin paytaxtına çevirmişdilər. Mehranilərin iqamətgahlarından biri Musa Kalankatlının «Aqvan hökmdarlarının qış mənzili» adlandırdığı Xalxal qalası idi. Öz atası IV Hörmüzün (579-590 qatillərinə divan tutan Xosrovun intiqamından canın qurtarmağa çalışan Mehran qaçıb Albaniyaya getmiş və

özü ilə 30000-ə yaxın ailə aparmışdı. O, Uti vilayətinə gəlib böyük Partov şəhərinin yaxınlığında dayanmaq istəyirdi Xəzərlərin torpağına gedib bu düşmənlərlə İranın düşmənlərinə qoşulsun.

Xosrov isə başa düşmürmüş ki, Mehran xəzərlərlə birləşsə, böyük bir təhlükə yaranacaq, ona görə də Xosrov İranın adlı-sanlı əyanlarının təzyiqi ilə Mehrana aşağıdakı məzmunda bir məktub göndərir: «Qardaşım mənim sadiq qardaşım (Həzarət) düşmən olub məndən uzaqlaşma. Əgər mənimlə bir yerdə yaşamaqdan xoşun gəlmirsə, bu məktub sənə çatanda nə qədər yol getmişsənsə, ölkədə (Albaniyada) yaşamaq üçün bir o qədər torpaq götür».

Musa Kalankatlının dediyinə görə, Xosrovun qasidi elə bir yerdə Mehrana çatmışdı ki, orada Mehrabad şəhəri salmışdı. Sonra Mehran Girdman vilayətindən şimala getdi, onun 12 hakimini hiylə ilə öz yanına çağırdı və qılıncdan keçirib ölkəyə sahib oldu. Bərdəni tutan Mehranilər onu özlərinə paytaxt etmişdilər.

Mehranilər sülaləsinin ən görkəmli nümayəndəsi Varaz Qriqorun ikinci oğlu Knyaz Cavanşir idi. (637/8-681) onun hökmranlığı dövründə ərəblər Arranı istila etməyə başladılar. Cavanşirin nəsli arran şahlar adlandırılmışdı. Bu dövrdə ərazisi Kaspi dənizi sahilindən Axsu çayına qədər uzanan ərazidə Şirvanşahlar dövləti də yaranmışdı.

### *§ 3. Azərbaycan xalqının təşəkkülü prosesi*

Azərbaycan xalqının təşəkkülü tariximizin ən vacib mübahisəli problemlərindəndir. Bu problem hələ də öyrənməlidir. Bu məsələ barədə müxtəlif fikirlər mövcuddur.

1-ci ondan ibarətdir ki, e.ə. IV əsrdən XI-XII əsrə kimi İran Azərbaycanı (Cənubi Azərbaycan) ərazisində X əsr ərəb mənbələrində göstərilən «azəri» dili kimi dilli olan irandilli Atropaten xalqı olmuşdur. Guya ona kimi həmin yerlərdə etnik mənsubiyyəti məlum olmayan əhali güman ki, qafqazdilli və irandilli əhali yaşamışdır. Şimali Azərbaycanda əsasən qafqazdilli tayfalar, erkən orta əsrlər albanları da qafqazdilli olmuşlar. (ərəb mənbələrində arran dilli adlanır)

Yalnız sonralar XI-XII əsrlərdə səlcuq oğuzları tərəfindən Ön Asiyanın və Zaqafqaziyanın fəthindən sonra cənubda irandilli və şimalda qafqazdilli əhalinin aissimlasiyası (türkdilli xalqlar içərisində ərimməsi) nəticəsində Atropatendə və Albaniyada müasir azərbaycan türk dili meydana çıxmışdır.

Buradan belə nəticə çıxır ki, əvvəla oğuzlara qədər Atropatendə əhali irandilli olmuş (Dyakonov, I. Əliyev, Tranovski);

İkinci – bu dövrə qədər Albaniyada qafqazdilli əhali yaşamışdır. (Dyakonov, Əliyev, Trever);

Üçüncü – Azərbaycanın hər iki hissəsində azərbaycanlıların formalaşmasında XII-XIII əsrlərdə oğuzların və qıpçaqların həlledici rolu olmuşdur.

Bu konsepsiya sovet tarixşünaslığında, SSRİ tarixi, o cümlədən Azərbaycan tarixi kitablarında öz əksini tapmışdır.

Bu konsepsiyaya görə Azərbaycan xalqının və onun dilinin formalaşması XI-XII və XI-XIII əsrlərdən sonra baş vermişdir. Bəzi tədqiqatçıların qeyd etdiyi kimi türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisində kənardan gəlmə bir ünsür hesab etməkdə səhvdir, çünki orada yerli böyük və çox yığcam türk tayfa məskənlərinin varlığına göz yumulur.

2-ci XX əsrin 60-70-ci illərdə irəli sürülən və indii də bir çox alimlər tərəfindən (Z. Bünyadov, Y. Yusifov, K. Əliyev və b.) müdafiə olunan konsepsiyaya görə Azərbaycanın hər iki hissəsində cənub və şimali Azərbaycanda (Manna, Midiya, Atropaten, Albaniya) hələ qədimdən türk dilli tayfalar yaşamışdır. Onlar əhalinin əksəriyyətini təşkil etmişlər. Türkdilli qaynaqların da zəminində III-VII əsrlərdə qədim azərbaycan dili və azərbaycan xalqı formalaşmışdır.

3-cü III konsepsiya tərəfdarları bildirirlər ki, Manna, Midiya, Atropaten və Albaniyada olan türk etnonimlərinin Orta Asiya, Qazaxıstan, Sibir və Altay etnonim və toponimlərinə uyğun gəlməsi qədimdə də bu yerlərdə türk dilli tayfaların yayıldığını sübut edir. (bolqar, qarqar, başqırd, kazax, türkmən, peçeneq və başqa etnonimləri buna aid etmək olar).

Bu konsepsiyaya görə də Azərbaycan xalqının və onun dilinin formalaşması qədim türkdilli tayfalar zəminində baş vermişdir. O, III-VII əsrlərdə başlamış və X əsr üçün başa çatmışdır. XI-XIII əsrlərdən sonra (səlcuqların və oğuzların gəlişindən sonra) daha da təkmilləşmişdir.

Bu konsepsiya tərəfdarları «azəri» dilinin talış, tat, kürd dillərinin sələfi hesab edirlər.

Akademik Z. Bünyadov da bu fikirdədir. O, «Azərbaycan VII-IX əsrlərdə) kitabında yazmışdır: «Türkləşmə prosesi yalnız türk abrogenlərin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gətirən türkdilli Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi.

İndiki Azərbaycan ərazisində türk tayfa təşəkküllərini, varlığını orta əsr mənbələrinin bilavasitə və dolayı yolla verdiyi məlumat əsasında aydınlaşdırmaq olar. 576-cı ildə külli miqdarda sabir hunları Gəncə (Sakaşen) sahəsinə köçürülmüşdür. Beləliklə də, Kür və Araz çayları arasındakı yerlərdə hunlar ölkəsi əmələ gəlmişdi. Ərəb müəllifləri bu hun başçılarını «tarxan» adlandırırdılar.

Hələ V əsrdə indiki Azərbaycan ərazisində məskən salan çox böyük türk tayfa təşəkküllərindən biri Muğanda yerləşmiş hunlar olmuşdur ki, müasirləri olan tarixçilər onları türk adlandırır. Rəvayətə görə bu hunlar Muğanın cənubunda Ağhun şəhərini salmışdır.

4-cü IV konsepsiyanın tərəfdarları (Ə. Sümbitzadə və b.) I və II konsepsiya tərəfdarları arasında orta mövqe tuturlar. Onlar Azərbaycan xalqının və onun dilinin IV əsrdən başlayıb XII-XV əsrlərdə başa çatması fikrini irəli sürmüşlər.

Fikrimizə ən düzgün II və III konsepsiyalardır. Yəni Azərbaycan xalqının və onun dilinin formalaşmasında bütün Azərbaycan (cənub və şimal) ərazisində hələ

qədimdən yaşayan türkdilli tayfaların, skiflərin, hunların, xəzərlərin, qarqarların, utilərin və başqalarının müstəsna rolu olmuşdur. Bu proses IV-VII əsrlərdə başlamış və XI-XIII əsrlərdə tamamilə başa çatmışdır. Xenogeniz sinifli cəmiyyətdə müxtəlif etnik komponentlər (ünsürlər) zəminində xalqın (etnosun) təşəkkülü prosesidir. Başqa sözlə etnogenez hər bir xalqın etnik tarixinin mərhələlərini özündə əks etdirir.

Xenogeniz iki mərhələdən ibarətdir.

I mərhələ etnik birliklərdə – tayfa və xalqlarda zaman daxilində aramsız dəyişikliklər baş verməsi mərhələsidir.

II mərhələ mövcud etnik birlikdə millətin təşəkkülü mərhələsidir. Bu mərhələdə tayfalardan xalqlar, xalqlardan isə millətlər yaranır. Xalqın formalaşmasının sonu üçün ümumi danışıq dili və mədəniyyət birliyi yazı, ənənə birlikləri yaranır.

Bəzən bir xalqın adı birləşdirici rolunu oynayır. Məsələn: Manna, Midiya, Albaniya, Atropaten nəticə Azərbaycan.

Etnik proses üç formada özünü biruzə verir: konsolidasiyası (birləşmə), assimilyasiya, etnikarası mərkəzləşmə.

Konsalidasiya iki şəraitdə baş verir birinci müxtəlif tayfaların vahid birlikdə toplaşmasıdır. Burada tayfa fərqlərin üstü vurulmur. Ikinci dil və mədəniyyət cəhətdən qohum olan bir çox tayfaların birləşməsidir.

Assimilyasiya müxtəlif dilli tayfaların başqa dilli digər xalq içərisində əriməsi prostsidir. Bu proses iki şəraitdə gedir. Birinci halda gəlmə tayfalar yerli xalq arasında, ikinci halda yerli tayfalar gələn xalqın içərisində assimilyasiyaya uğrayır.

Yuxarıda dediyimiz kimi Azərbaycan xalqının təşəkkülü prosesi e.ə. IV-III əsrlərdən eramızın X-XII əsrlərinə kimi olan dövrü əhatə edir. O, aşağıdakı mərhələlərdən keçmişdir:

1) e.ə. IV-III əsrlərdən eranın III-V əsrlərinə qədər olan dövr. Bu dövrdə cənubda Atropaten şimalda Albaniya birləşməsi yaranmışdır. Atropatendə yazı dili fars və atropaten (arran) dili, Albaniyada alban dili olmuşdur.

2) Eranın III əsrlərdən VII əsrə kimi olan mərhələdir. Bu mərhələdə Azərbaycan xalqının və onun Azərbaycan-türk dilinin təşəkkülü prosesi başlamışdır. Bu mərhələdə (III-IV əsrlərdə) alban türk xalqı yaranır. IV əsrdə Albaniya xristianlığı qəbul edir. IV-VII əsrlərdə alban kilsəsi dağılır, alban xalqı 2 yerə – alban xristianlara və alban müsəlmanlara parçalanır. V əsrdə alban əlifbası yaranır. Eranın ilk əsrlərindən VII-VIII əsrlərə kimi Atropatena hun, suvar, bolqar, xəzər, peçeneq və başqa türk tayfalarının gəlməsi Azərbaycan türk xalqının formalaşmasında həlledici rol oynayır.

3) VII-IX əsrlər mərhələsidir. Bu mərhələdə bütpərəst türk tayfalarının və xristian albanların islam dinini qəbul etməsi Azərbaycan türk xalqının formalaşmasında mühüm rol oynamışdır.

4) X-XII əsrlər mərhələsi. Bu mərhələdə Azərbaycan xalqı və Azərbaycan dili tamamilə formalaşıb, təkmilləşmişdir. Oğuzların, qıpçaqların gəlişi bunu sürətləndirdi. Bu mərhələdə müasir Azərbaycan dili yaradılmışdır.

Bu dövrdə Azərbaycanın təsərrüfat həyatında da dəyişikliklər baş vermişdi. O zamandan xəbər verən maddi-mədəniyyət tapıntıları kənd təsərrüfatının, ticarətin, sənətkarlığın, mədəniyyətin inkişaf etdiyini göstərir. Bu mənbələr Azərbaycanda buğda, arpa, pambıq əkildiyini, zeytun, meyvə becərildiyindən, neft, qızıl, gümüş, mis çıxarılmasından xəbər verir.

Girdimanda dəmir əridilir, Abşeronda neft çıxarılırdı. Sənətkarlığın və ticarətin inkişaf etdiyi barədə məlumat verilir. Bu dövrdə Azərbaycanın Dərbənd, Şabran, Şamaxı, Qəbələ, Şəki, Şəmkir, Gəncə, Bərdə, Beyləqan, Təbriz, Naxçıvan və s. şəhərləri var idi. Azərbaycanın xarici ölkələrlə əlaqələri var idi. Azərbaycanda Bizans pullarının yayılması bunu sübut edir.

Mədəniyyət də inkişaf etmişdi. V əsrin əvvəllərində 52 hərfdən ibarət alban əlifbası mövcud idi. Alban kilsələrinin yanında məktəblər açılmışdı. Dini kitablar alban dilinə tərcümə edilmişdi.

VII əsrdə ölkənin tarixinin tərtibinə başlanmışdır. Bu zaman Bərdə yaxınlığındakı Kalankatlı kəndində anadan olmuş Musa Kalankatlı «Aqvan (Alban) tarixi» əsərini yazmışdır. Əsər 3 hissədən ibarətdir. Bizə erməni dilində çatmış bu salnamə Azərbaycan tarixinin IV-VII əsrlərinə dair qiymətli məlumatlar verilir.

VI əsrin ortalarında Azərbaycan habelə Arran (Albaniya) Sasanilər imperiyasının tərkibinə daxil idi. O, Bizans ilə Sasanilər arasında dəfələrlə bölüşdürülmüşdü. İran ilə Bizans arasında son müharibə 25 il çəkmişdi. (603-628). Xəzərlər də şimaldan tez-tez Azərbaycana basqınlar edirdilər. Sasanilər Azərbaycana qorunmaq üçün bir sipər kimi baxırdılar. İran şahı xəzərlərə qarşı Beyləqan, Bərdə, Qəbələ, Dərbənd və Şəki şəhərlərini möhkəmləndirmişdi.

627-ci ildə İrana qarşı Bizansla ittifaqa girən xəzərlər Albaniya üzərinə hücuma keçmiş və ərazini qarət etmişlər. Azərbaycanın cənub hissəsi Sasanilər

İmperiyasının tərkibində qalırdı. Şimal (Albaniya, Arran) Xəzərlərin hücumuna məruz qalsa da Sasani canişinlərinə tabe idi.

## *§ 4. Azərbaycan Ərəb xilafəti tərkibində.<br>İslam dininin Azərbaycanda yayılması*

Ərəblərin hücumu ərəfəsində Azərbaycanın sosial iqtisadi vəziyyəti də ağır idi. Sasanilər imperiyasına daxil olan xalqları, o cümlədən Azərbaycan xalqlarını siyasi istiqlaliyyətdən məhrum etmişdilər. Bütün inzibati məhkəmə və hərbi hakimiyyət onların əlində idi.

Azərbaycanda da torpaq sahibliyi, torpaqdan istifadə, vergi sistemi və s. Sasanilərin qanunları əsasında müəyyən edilmişdi. Lakin təkcə Arranın özünəməxsus təsərrüfat sistemi var idi. İrandan fərqli olaraq Arranda başlıca rolu xristi-

an kilsəsi oynayırdı. Bu dövrdə Arranda hakim sinflər feodallardan (knyazlardan) və ruhanilərdən ibarət idi. Hökmdar özü də knyazlar knyazı idi.

Böyük knyazdan sonra çox böyük torpaq sahibi Alban kilsəsi idi. Ərəblərin Arrana hücumu ərəfəsində, bəxşiş və nəzirlərdən varlanan kilsə, torpaq tutub öz əlində saxlamaq üçün feodal və knyazlarla «hərbi adamlarla» açıq mübarizəyə girişir, hətta silahlı vuruşmaya başlamışdı.

Katalikos və ruhanilər başa düşürdülər ki, kilsənin nüfuzu və gücü torpaq mülkünün böyüklüyündən asılıdır. Buna görə də torpaq əldə etmək üçün hər fürsətdən istifadə edirdilər.

Bu dövrdə kilsələrə «bəxşiş» vermə sistemi də mövcud idi. Kilsələrə kənd və vilayətlər bəxşiş verilirdi.

Musa Kalankatlı bu «bəxşişlər» üçün demək olar ki, standart bir ifadə olaraq əhalisi ilə birlikdə «kəndlilər» və «balığı çox olan çaylar» sözlərini təkrar edir bu cəhət isə kilsə və feodalların mülkləri özləri istismar etdiklərindən, yaxud icarəyə verdiklərindən asılı olmayaraq, kilsə və feodal hakimiyyətinin iqtisadi xarakterini qeyd edir, habelə kilsə və feodalların əsas gəlir mənbəyi olan kənd əhalisinə onların münasibətini göstərir. Kilsə və feodallara edilən bəxşişlər çox vaxt kəmər, qolbaq, paltar, mirvari, qızıl, parça, az tapılan heyvan, quş və s. ibarət idi.

Arran xalqı başlıca olaraq kənd əhalisindən ibarət idi: onların çox hissəsi mülki və ruhani knyazların feodal asılılığında idi. Bu dövrdə Arranda azad olub bir qədər sıxışdırılan kəndlilər var idi. Bu kəndlilər çox vaxt öz hüquqlarını açıq müdafiə etməyə qalxırdılar.

Bunlardan başqa Arranda «əsilzadələr» (azad mərdlər) «hərbi adamlar» və «atlılar» kimi əhali təbəqələri də mövcud idi.

Həmin «əsilzadələr» və «hərbi adamlar» cənubda ölkənin padşahı ilə ya da şimalda knyazla hərbi qulluq təzahürü ilə bağlı idilər və mülk olaraq onlara verilmiş torpaqlarda yaşayan kəndliləri feodal kimi istismar etməklə öz rifahlarını təmin edirdilər. Onlar kiçik zadəgan olub yeni əmələ gələn feodallar sinfini təşkil edirdilər, əyanlara nisbətən hökmdardan və ya knyazdan çox asılı idilər.

Ərəb istilaları ərəfəsində Sasanilər xəzinəsinin xeyrinə mərzbanlar həmin ölkələrdən xərac (torpaq vergisi) gezit (can vergisi cizyə) və bac alırdılar. Bu vergilərin, can vergisi və bacların Arranda pul və ya məhsulla alındığını söyləmək çətindir.

Sasanilər dövründə ölkədə olan daimi və səyyar sikkəxanalar ölkənin hər iki hissəsi üçün pul kəsirdi: bu isə göstərir ki,ərəblərin istismarı zamanından ölkədən vergi həm məhsulla, həm də pulla alınırdı.

Azərbaycan VII əsrin ortalarında ərəblərin hücumlarına məruz qaldı. Ərəblərin yaşadığı ərazinin çox hissəsi quru düzənliklərindən ibarət idi. Yalnız cənubda tropik zona Yəmən ərazisi idi. Ölkənin qərb vilayəti Hicaz vasitəsilə Qırmızı dəniz boyunca Bizansdan Yəmənə gedən karvan yolu keçirdi. Hicazın əsas ticarət şəhərləri Məkkə və Mədinə idi. Qabaq Asiya quldarlıq quruluşunun böhranlı və-

ziyyətə düşməsi ərəblərdə feodal münasibətlərinin meydana çıxması ərəb cəmiyyəti üçün mütərəqqi əhəmiyyətə malik idi.

VII əsrin I yarısında Məkkə sakini Məhəmməd Peyğəmbər tərəfindən İslam dini təliminin əsası qoyulmuşdur. Yeni meydana çıxmış olan İslam dini feodal münasibətlərinin bərqərar olunmasına və möhkəmlənməsinə kömək etməli idi. Məhəmməd Peyğəmbər öləndən sonra (632) onun varisləri xəlifə yəni «peyğəmbərin varisi» dövlət isə xilafət adlandırılırdı. Ərəb dövlətinin yaranması onun İran və Bizans əleyhinə yürüşləri deməк olar ki, eyni zamanda başlanmışdı. Xəlifə Ömərin(634-644) dövründə ərəblər İrana hücuma başladılar. Bu təhlükə Azərbaycanı da əhatə edirdi. Cavanşir başda olmaqla Sasanilərlə birlikdə mübarizə aparılırdı. 636-cı ildə baş vermiş Kadusiyə döyüşündə İran ordusu məğlub edildi. Sasanilərin mərkəzi şəhəri olan Mədan dağıdıldı.

638-ci ildə Qadsiyyə döyüşündə Sasanilər məğlub oldular. Məğlub olub geri qayıdan İran feodalları Bərdəni işğal etdilər. 639-cu ildə Cavanşir İran feodallarından Bərdəni azad etdi. Suriyanı, Mesapotomiyanı məğlub edən ərəblər sonradan İranı məğlub etdilər.

642-ci ildə Nahavənd döyüşündə Sasanilər məğlub oldular. Məğlubiyyətin nəticəsi o idi ki, ayrı-ayrı müstəqil vilayətlərdən ibarət olan İran vahid və birləşmiş dövlət deyildi. Yerli hökmdarlar güclü olub şahdan asılı olmadıqlarına görə III Yezdəgirdin çağırışına gəlmirdilər gələndə isə aralarında köhnə ixtilaflar başlanırdı, nəticədə onlar öz qoşunlarını aparıb gedirdilər. İranın ayrı-ayrı hökmdarlarının əhval-ruhiyyəsi Sasani imperiyasının dağılmasına son dərəcə kömək edir və bir-birindən ayrılmış hissələrinin ərəblər tərəfindən işğal edilməsini asanlaşdırırdı.

İranın ayrı-ayrı vilayətlərinin, o cümlədən Azərbaycanın hökmdarları, mərkəzi hakimiyyətin mövcud olmadığını nəzərə alaraq, ərəb qoşunu qarşısında təslim olmaq qərarına ayrılıqda gəlirdilər. Çünki, bilirdilər ki, faydasız müqavimət ancaq qırğına səbəb olar. Buna görə onlar təslim olub onlarla sülh müqavilələri bağlayırdılar, beləliklə də bac verməк şərtilə şəhərləri, şəxsi əmlakı və öz təbəələrinin həyatlarını salamat saxlayırdılar.

Daxili çəkişmələr və müharibələrdən zəifləmiş Sasani imperiyası bədəvi ərəb qoşunlarının təzyiqi altında dağılmağa başladı.

Zahirən qüdrətli görünən bir dövlətin məhv olub getməsi ərəblər üçün bir qədər təəcüblü və gözlənilməz oldu. Çünki Təbərinin dediyinə görə ərəblər öz istilalarını daha da davam etdirmək fikrində deyildilər və əsas məqsədləri məlum olduğu kimi hələ o zaman ərəblərin yaşadığı və onların həyatı üçün zəruri olan Mesopotomiyanı tutmaq idi. Xəlifə Ömər ibn Əl Xəttab (634-644) öz qoşunlarını təhlükəyə salmaq istəmirdi və görünür ərəblərə məlum olmayan digər ölkələrdə Xilafət ordularının başına nələr gələcəyindən ehtiyat etdiyinə görə qoşun komandanı Sədə belə bir əmr verdi: Öz yerində dayan və onları (düşmənləri) təqib etmə. Lakin ərəb qoşunları məğlub olub qaçan Sasani ordusu üzərində asanlıqla qazanılan qələbədən və əldə edilmiş zəngin qənimətlərdən həvəsə gələrək daha da şimala doğru hərəkət etməyə başladılar. Xəlifələr adətən öz komandanlarının bu «özbaşı-

nalığına» fikir vermədilər, xüsusilə ona görə ki, qələbə ilə qurtaran hər bir döyüş xəlifənin xəzinəsinə və qoşuna böyük gəlir gətirirdi.

Ərəblər yeni vilayət və ölkələri tutanda əvvəllər həmin yerləri öz idarə anlayışları əsasında idarə etməyə başladılar. Bu idarə üsulu həmin ölkələrdə yalnız mümkün olduğu qədər çox vergi və natural mükələfiyyəttlər əldə etməkdən, habelə başqa dinə mənsub olub itaət altına alınanlar arasında islam dinini yaymaqdan ibarət idi.

Azərbaycanı, Türkmənistanı tabe etmək üçün Xəlifə Osman 654-cü ilə Salman ibn Rəbiənin başçılığı altında ordu göndərdi.

Ərəblər Təbrizi, Naxçıvanı zəbt etdilər. Arrana daxil oldular. Btyləqan tutuldu. Bərdə mühasirəyə alındı. Xilafətin qoşunları Azərbaycanın bir hissəsini tutdular müqavimətə rast gəldikləri üçün ölkəni tabe edə bilmədilər.

Xəlifə Əlinin (656-661) dövründə hakimiyyət uğrunda mübarizənin genişlənməsindən istifadə edən Azərbaycan, Türkmənistan və Gürcüstanın işğal olunmuş vilayətlərinin əhalisi vergi verməkdən boyun qaçırırdılar. Girdiman hökmdarı Cavanşir ərəblərə qarşı mübarizə aparmaq üçün Bizans imptratoru II Konstantinlə müqavilə bağladı. Bu dövrdə 662-ci ildə xəzərlər Bələncər yaxınlığında ərəbləri məğlub edərək yenidən qənimət və qarət üçün Azərbaycan ərazisinə soxuldular. Bu döyüşdə Kürü keçərək Cavanşir xəzərlər üzərində qələbə qazandı.

664-65-ci illərdə Xəzərlər yenidən Arran hücuma başladılar. Kürün keçilməsilə Araz sahillərinədək gəlib çatdılar.

Təkcə albanlar deyil eyni zamanda Arran və Sunik vilayətlərinin əhalisini və qışlaqlara gətirdiyi qoyun və mal-qara sürüləri ilə birlikdə toplayıb ordugahlarına apardılar. Cavanşir sülh bağladı nəticədə Arran xəzərlərdən asılı vəziyyətdə qaldı. Çünki, xəzərlərin 120 000 baş qoyunu 7000 atı və öküzü əsir alınmış kişilərdən azı 1200 nəfəri qaytarmasını başqa cür izah etmək olmaz. Xəzər xaqanının qızı ilə evlənməsi Cavanşirin xaqanlıqdan bir vassal kimi asılı olduğunu qəbul etmək şərtlərdən biri idi.

Xilafətin qoşunlarının hücumu təhlükəsi qarşısında Cavanşir bu nəticəyə gəldi ki, Bizansla manevr etmək bir natıcə verməyəcək.

Bu vaxt Suriya hakimi Müaviyə hakimiyyətə gəldi. Əməvilər sülaləsinin hakimiyyətinin əsasını qoydu. (661-750)

Siyasi mülahizə Cavanşirə göstərdi ki, o, Xilafət ilə qarşılıqlı münasibətlərdə öz nöqteyi-nəzərini dəyişdirməlidir. Çünki, siyasət sahəsində Xilafət Bizansdan güclü çıxmışdı. Bundan əlavə, ərəb orduları Türkmənistanı işğal etdikdən sonra Arran həqiqətdə öz müttəfiqi Bizansdan ayrı düşmüş oldu. Arran üçün məsuliyyətli olan bu dövrdə «şərqin böyük knyazı Cavanşir öz ölkəsi haqqında böyük qayğı çəkirdi. O, hiss etmişdi ki, cənubdan gələn quldur qoşun onun ölkəsini tutub tapdaq altına sala bilər. O, türküstanlıların (xəzərilərin) saysız-htsabsız qoşunlarını öz köməyinə çağıra bilərdi, lakin Cavanşir buna baxmayaraq, yenə də bu qərara gəldi ki, cənub hökmdarlarının vassalı boyunduruğuna tabe olsun».

Cavanşir iki dəfə xəlifə Müaviyyənin görüşünə getdi. Birinci dəfə 667-ci ildə getməkdə məqsədi Xilafətdən bir vassal kimi asılılığı qəbul etməklə Arranı ərəblərin qarətindən qorumaq məqsədi idi. Bu səfərdən sonra 3 ildə Albaniya əhalisi hər hansı xarici hücumlardan azad oldu.

Üç ildən sonra Xəlifə yenidən (670) Cavanşiri Dəməşqə dəvət etdi. Cavanşir Xəlifə ilə Bizans arasında vasitəçi rolunu oynadı. Xəlifə Cavanşirə hədiyyələr verərək Sünik knyazlığını ona tabe etdi və onu məcbur edirdi ki, Atropatenanın hakimliyini də öhdəsinə götürsün. Lakin Cavanşir bu təklifi rədd etdi, ölkəsi üzərinə qoyulmuş verginin azaldılmasını xahiş etdi, vergi yükü 1/3 dəfə yüngülləşdirildi. 681-ci ildə sui-qəsd nəticəsində Cavanşir öldürüldü. Nəticədə ara mühariöələri genişlənərək ölkəni zəiflətdi. Albaniyada hakimiyyətə Cavanşirin qardaşı oğlu Varaz Tridat gəldi (681-699). Ara müharibələrinin genişlənməsi ərəblərin, xəzərlərin, bizanslıların ölkəyə hücumlarını genişləndirdi.

VII əsrin 80-cı illərində Xilafətdə daxili müharibələrin qızışdığı bir dövrdə Albaniyada feodallar xilafətə vergi verməkdən boyun qaçırırdılar. 684-cü ildə birləşmiş alban, erməni və gürcü qüvvələri Azərbaycana soxulmuş xəzərləri məğlub etdilər və 685-ci ildə Xəzər xaqanlığı ilə sülh müqaviləsi bağlandı. Ərəb işğalçılarının yenidən gücləndirilməsilə 705-ci ildə ərəblər Albaniyada Mehranilər sülaləsinin hakimiyyətinə son qoydular. Işğaldan sonra qeyd etdiyimiz kimi ərəblər yerli inzibati və idarə etmə sisteminə toxunmadılar.

Canişinlik sistemindən istifadə etdilər. Canişinlər əmir, canişinlik isə əmirliklər adlanırdı. Əmir xəlifənin fərmanı və orduya arxalanmaqla idarəçiliyini yerinə yetirirdi. Əməvilərin hakimiyyəti dövründə 9-5, Abbasilərin zamanında isə 14 canişinlik (əmirlik) yaradılmışdı. 14 viləyətdə birləşən 83 qura (əyalət) daha da kiçik inzibati vahid olan nahiyələrə (mahallara) bölünürdü. Nahiyə 12 rustakdan (rayondan) ibarət olub, hər birinə 12 kənd daxil idi. Hər bir əmirlik fəth olunmuş bir sıra ölkələrin torpaqlarını əhatə edir, bu birlik əyalət adlanırdı. Azərbaycan, Arran, Türkmənistan, Kiçik Asiyanın gündoğar hissəsi Əl-Cəzirə adlanan dördüncü canişinliyinə daxil idi. Əl-Cəzirə əmirliyinin mərkəzi Dvin, Abbasilər zamanında isə Bərdə paytaxt oldu. Əmirlər orduya rəhbərlik edirdi. Xüsusi tapşırıqlar üzrə məmur vergi yığma, məhkəmə idarələrinin rəisləri, amil və qazı əmirin rəhbərliyi altında çalışırdı.

Hər bir vilayətin başında xilafətin canişini olan əmir dururdu ki, bu da öz vilayətində qoşunların komandanı idi. O, eyni zamanda vilayətin inzibati idarəsinə başçılıq edirdi. Beləliklə, bütün mülki və hərbi hakimiyyət əmirin əlində idi. Xilafətin tərkibində az-çox federasiya əmələ gətirən hər bir vilayət, əmirin rəhbərlik etdiyi və vilayətin baş şəhərində yerləşən divan tərəfindən idarə olunurdu. Əmirin rəhbərliyi altında xüsusi tapşırıqları icra edən məmurlar – amil (mülki hakim, vergi toplanışına baxan) və qazı (məhkəmə idarəsinin rəisi), yəni dini məhkəmə hakimi dururdu, qazı vəqf işlərinə nəzarət edir və amilin hərəkətlərindən narazı olan şəxslərin işlərini ayırd edirdi.

Xilafətdəki poçt yolları Xilafətin coğrafi şəraiti haqqında ətraflı məlumat tələb edirdi. Xilafətin mərkəzi ilə vilayətlər arasında rabitə yaratmaq üçün bərid adlanan poçt yaradılmışdı. Mənbələrdə göstərilir ki, bərid I Müaviyyənin (661-680) hökmranlığı dövründə əmələ gəlmişdi, xəlifə Əbdül – Malik (685-705) isə béridin işini yaxşılaşdıran bir sıra tədbir gördü, poçt işində hətta göyərçindən istifadə etməyə başladılar. Əl – Kəlkəsəndinin verdiyi məlumata görə «yeni düzəldilmiş şeylərdən ən yaxşısı Xilafətin hər yerində yaradılan bərid idi. Bərid göndərmələri (pulu) yaxşı qoruyurdu, xəbərləri tez çatdırırdı və vəziyyəti bərpa edirdi».

Xilafətin idarəçilik sistemində rabitə əhəmiyyətli rol oynayırdı. Müəyyən məntəqələrdə poçt stansiyaları və əvəzetmə vasitələri var idi, bunların yardımı ilə qasidlər xilafətin mərkəzi ilə uzqarları arasında nisbətən tez rabitə yarada bilirdilər. Sonralar xəlifənin və vilayət hakimlərinin əmrləri çox böyük sürətlə göndərilirdi və mərkəzi hakimiyyətin yerlərə gedən rəsmi nümayəndələri xəlifə ilə çevik şəkildə əlaqə saxlaya bilirdilər.

Xilafət mübarizəni təkcə döyüşən ordu ilə aparmırdı. Işğalın gedişində köçürmə siyasəti mühüm yer tuturdu. Öz hərbi-siyasi ağalığını möhkəmlətmək üçün Azərbaycan ərazisinə ərəb ailələri köçürülməyə başlamışdı. Bu köçürülmələr zamanı üsyanlar başlamış oldu. Bəlazuriyə görə ərəb qoşun başçısı Əl-Əşəs azərbaycanlıları bağlanmış müqavilə üzrə «itaətə» gətirdi sonra təqaüd alan və divan hesabında sayılan ərəbləri oraya köçürdü və onlara əmr etdi ki, əhalini islama dəvət etsinlər. Xilafət zəbt etdiyi yerlərdə islam dinini yayırdılar. Onlar hələ yeni dini tamam kamal mənimsəmədiklərindən əvvəllər Azərbaycan əhalisinin islamı qəbul etməyə məcbur etmirdilər. Əlbəttə yeni dini qəbul etmək istəməyənlərə mane olmurdular. Bu xüsusi ilə Arrana aid idi, çünki onun əhalisi xristian «Kitab-əhli» idi.

Azərbaycan dehqan-feodalları əvvəllər öz ata-babalarının dinini müdafiə etməyə cəhd etmiş olsalar da, çox keçmədən yəqin etdilər ki, öz əvvəlki imtiyazlarını saxlamaq üçün onlara ancaq ölkədə hakimiyyəti ələ keçirmiş ərəblərlə əməkdaşlıq etmək qalır. Buna görə də Azərbaycanın feodal aristokratiyasının (kəndli kütlələri hələ bir yana dursun) islam dinini qəbul etməsi prosesi çox tez başa çatdı, belə ki, cəmi yüz il ərzində, Abbasilərin hakimiyyət başına keçməsi ilə islam dini zərdüştliyi tamami ilə sıxışdırdı.

Dərbənd şəhərinə 24 min əsgər köçürülmüş sonradan onların ailələri də köçürüldü və əhalinin hesabına yaşamağa başladı. Bərdə, Beyləqan və Şirvanın kənd yerlərində on minlərlə ərəbləri yerləşdirilərdi. Köçürülmə siyasətinin başlıca məqsədi strateji əhəmiyyəti olan Xilafət hakimiyyətinə dayaq yaratmaq, xəzərlilərə qarşı qüvvələri birləşdirmək, yerli əhalini itaətdə saxlayıb, vergilərin aramsız toplanmasını və islamın yayılmasını təmin etməkdən ibarət idi. Harun ər-Rəşidin dövründə köçürülmə dayandırıldı. Lakin köçürülənlər üzərinə qoyulan bir vəzifə yerinə yetirilmədi. Ərəb dilinin nəsildən-nəsilə keçirilməsi təmin edilmədi. Işğalçı köçkünlər Ərəbistanın mədəniyyət mərkəzlərindən ayrı düşdülər. Quzey Azərbaycanına köçürülən ərəblər oturaq həyata keçərək əkinçilik mədəniyyətinə yiyələndilər. Yerli mədəni inkişaf ənənələrini mənimsəməklə assimilyasiyaya uğradılar.

Ərəblər vergi sistemində də öz sələflərinin Sasani və Bizans dövlətlərinin yolu ilə keçirdilər. Ilkin dövrlərdə vergi ayrı-ayrı adamlardan deyil, ölkə və vilayətlər üzrə toplanırdı. Vergi siyasətində Əməvilər hakimiyyətə gəldikdən sonra əsaslı dəyişikliklər baş verdi. Xəlifə Əbdül-Məlikin fərmanına əsasən kəndli vergi siyahısına alındığı kəndi tərk edə bilməzdi. Təsərrüfatlar, bağlar, üzümlüklər siyahıya alındı. Müsəlman olmayanlardan müntəzəm olaraq can vergisi cizy ilə yanaşı xarac torpaq vergisi alınırdı. Müsəlmanlar isə onda bir vergi üşr və ayrıca vergi olan xüms ödəyirdilər. Xüms yeni əmlakdan qızıl, gümüş, neft, duz mədənlərindən dəniz nemətlərindən ödənilirdi.

Zəkat adlanan vergi ehtiyac içində yaşayan müsəlmanların xeyrinə məhsulun və əmlakın onda birindən az yığılırdı. (10-14 baş dəvə üçün iki quzu, 30-39 qara maldan bir dana, 40-120 qoyundan bir quzu və s.)

VIII əsrin 20-ci illərində Əməvilər hətta xristian rahiblər və monastr torpaqları üzərinə də vergi qoydular. Xəlifə Hişamın göstərişi ilə 725/26-cı ildə Azərbaycanda əhalinin, torpağın, mal-qaranın və hər bir çeşidin, mülkiyyətin sayımı keçirildi. Xilafətin torpaq siyasəti vergi sistemi ilk növbədə xərac bu böyük imperiyanın varlığı üçün bir bünövrə idi. Imperiyanın bütün torpaqlarının mülkiyyətçisi mərkəzi hakimiyyət daha doğrusu dövlətin başçısı xəlifə idi.

Sosial –iqtisadi baxımdan torpaqlar beş çeşidə bölünürdü.

1) Sultan (xəlifə) mülkləri
2) İqta torpaqları
3) Mülk torpaqları
4) Vəqf torpaqları
5) İcma torpaqları

Sultan torpaqları Əməvilərdən Abbasilərə keçmişdir. Bu torpaqlar alqı yolu ilə ya da ölən, yaxud vəzifəsindən kənar edilən məmurları mülklərini müsadirə etmək yolu ilə tədricən artırdı. Çox geniş olub böyük gəlir verən Sultan torpaqlarını idarə etmək üçün bir neçə divan yaradılmışdı.

İqta torpaqları. Becərilən torpaqların əksəriyyəti bu torpaqlara daxil idi. Xarəzm (997-ci ildə ölüb) iqta haqda belə yazırdı. Xəlifə adama torpaq verir torpaq üzərində nəzarəti ona tapşırırdı, yəni torpaq iqta sahibinin mülkü olurdu. Lakin sahiblik hüququna həmişə riayət olunmurdu, qeyd edildiyi kimi iqta geri alınıb divanın ixtiyarına verilirdi. Iqta sahibləri hərbi mükəlləfiyyət daşımırdılar. Bunun əvəzinə vergi ödəyirdilər. Onlar öz torpaqlarında olan kanal, yol və körpüləri təmir etdirməyi öz öhdələrinə götürürdülər. Iqta torpaqları nəzəri cəhətdən iki kateqoriyaya bölünürdü ki, bu da iqta torpağına hansı hüquqa görə sahib olmaqdan asılı idi.

Bağışlanan iqta (təmlik) şəxsin tam sahibliyinə çevirilirdi və irs olaraq keçirdi. Bu iqta sahibi üşr verir. Bu növ iqta adətən becərilməyən torpaqlardan və ya sahibi ölmüş, vərəsəsi olmayan torpaqlardan verilirdi.

İcarə edilən iqta irsi keçmirdi. Adətən hərbiçilərə verilirdi. Xərac torpaqları da bunların sırasında idi.

Mülki iqta çox geniş yayılmışdı və maaşlarından asılı olaraq məmurlara verilirdi. Məsələn birisi yüksək bir vəzifəyə təyin olunurdusa ona iqta verilirdi, lakin o işdən çıxarılanda, iqta geri alınır, onun yerinə keçən adama verilirdi.

Xüsusi iqta şairlərdən başqa xüsusi bir xidməti və ya xüsusi istedadı olan şəxslərə verilirdi. Onun sahibləri torpağın tam sahibi olub onu irs olaraq verə bilərdi. Abbasilər xilafətində bütün vilayətlərin bağışlandığı müşahidə olunmuşdur. Məsələn Babək üsyanı dağıdıldıqdan sonra xəlifə Mötəsim belə bir iqta adı ilə Azərbaycan, Arran və Ermənistanı Afşinə vermişdi. Xəlifə Mütəvvəkkil 851-ci ildə Məhəmməd ibn Xalid ibn Yəzid ibn Məzyədə belə bir iqta bəxş etmişdi.

Hərbi iqta başqa torpaq növləri-xass iqta, xəlifə malikanələri və xəzinə torpaqları hesabına verilirdi. Qoşuna vəqf torpaqlarından iqta verilirdi. Hərbi iqta irsən, həmişəlik verilmirdi bu iqta sahibinin mülkiyyəti deyildi.

Mülk torpaqları. Sahibləri torpağı alıb sata, irsi olaraq verə bilərdilər. Bu torpaq sahibləri əlavə olaraq vergi verməli və ərazidən keçən kanalları bərpa etmək üçün xərc ödəməli idilər.

Vəqf torpaqları. Bu torpaqlar mülkiyyətin əsas növlərindən biridir. Vəqf dedikdə dini təsisatlara təhkim olunmuş torpaq mülkləri nəzərdə tutulur. Bu torpaqlar müqəddəs yerlər (Məkkə, Mədinə) üçün, qazilər (din uğrunda mübarizlər) məscid və qalalar tikmək başqa ehtiyaclar üçün ayrılırdı.

İcma torpaqları. Kəndlərdə əhaliyə məxsus torpaqlar, biçənəklər, mal-qara, otarılan, yanacaq toplanan yerlər, qəbirstanlıq və i. icma torpaqları idi.

### *§ 5. Ərəblərə qarşı milli-azadlıq mübarizəsi. Xürrəmilik. Babək*

VIII əsrin ortalarında xalq kütlələrinin xilafətə qarşı etirazları açıq üsyanlar şəklini almışdır. Daxili böhranın kəskinləşməsinə yuxarıların hakimiyyət uğrunda mübarizə aparmasına şərait yaradırdı. 748-ci ildə yerli hakim İbn Səfvanın başçılığı ilə Beyləqanda üsyan baş verdi. Üsyan Ərdəbilə və başqa yerlərə yayıldı. Bərdəyə doğru hərəkət edən üsyançılar ərəb qarnizonunu dağıtdılar. Bərdədə oturan canişin Asim ibn Yəzid öldürüldü.

VIII əsrin 40-50-ci illərin azadlıq mübarizəsi, Orta Asiyada Əbu Musanın üsyanı, Gürcüstanda baş verən üsyanlar silsilə xarakteri almışdı. Sülalə çevrilişi baş verdikdən sonra qalib gələn Abbasilər Beyləqan üsyanını amansızlıqla yatırırdılar.

752-ci ildə Şəmkirdə üsyan başladı, lakin üsyan amansızlıqla dağıdıldı.

Abbasilərə qarşı yönəlmiş Xürrəmilik Azərbaycanda və onun qonşu ölkələrində yayılmışdı.

IX əsrin əvvəllərində ərəb zülmünə qarşı artmaqda olan qəzəb xürrəmilər hərəkatı adı altında xalq hərəkatına çevrildi. Bu hərəkatın 778/779-cu ildə başlandığı göstərilir.

«Xürrəm» adının mənşəyi haqda müxtəlif rəvayətlər vardır. Bunlardan ən qədimi IX-X əsrlər müəlliflərinin söylədiyi rəvayətdir: onların dediyinə görə, bu

söz Ərdəbil yaxınlığında olan Xürrəm yaşayış məskəninin adından götürülmüşdür. Bu fikri Məsudi, Yaqut və Sadıq əl-İsfahani davam etdirmişlər.

Başqa bir rəvayətə görə kef çəkən və əyyaşlıq edən adamlara «xürrəm» deyilirdi. Bu halda «xürrəm» sözü «şən», «şad», «şəhvətpərəst» və s. mənasında başa düşülürdü. Bu mənada «xürrəm»lərin dini əqidəsi onların istədiklərini və ya arzu etdikləri hər işi görməkləri ilə ölçülürdü.

Tarixi mənbələrdə «xürrəmilərin» vaxtı ilə padşah Qubadın dövründə meydana çıxan, qadağan edilən hər işə yol verildiyi əqidədə olan məzdəkilərin davamçıları olduqları göstərilir.

«Xürrəm» termininin mənşəyi haqda ənənəvi üçüncü rəvayət bu termini Məzdəkin arvadının adı ilə əlaqədar edir. Bu təsəvvür anonim «Mücməl-ət-təvarix va-l-qisas» müəllifində öz əksini tapır. Nizam ül-Mülk də bu təsəvvürü belə əks etdirmişdir. Məzdəkin arvadı və Fadənin qızı Xürrəmə iki adamla Mədaindən qaçıb Rey mahalına gəlmişdir və orada adamları öz ərinin dini təliminə dəvət etmiş və müxtəlif adamlar bu dini təlimi qəbul etməklə xürrəmdinli adlandırılmışlar.

XII əsrin anonim müəllifi qeyd etmişdir ki, xürrəmilərin əsası I Qubadın vaxtında, doğrusu isə «Məzdəkin zamanında» qoyulmuşdur. Yenə həmin müəllif qeyd edir ki, I Xosrov Ənuşirəvan məzdəkləri dağıtdıqdan sonra, Məzdəkin arvadı Reyin şimal-qərb rayonunda (Azərbaycanda) gizlənərək cəzadan xilas olub xalqı məzdək dininə dəvət edirdi. Bundan sonra onları xürrəmdinlilər və ya xürrəmi adlandırmağa başladılar.

Deyilənlərdən, belə çıxır ki, xürrəmilər məzdəkilərə oxşayırlar. Onlar yeni məzdəkilər və ya islamdan sonrakı məzdəkilər idi.

Akademik Z. Bünyadovun fikrincə «xürrəm» termini «od» anlayışından götürülmüşdür. Farsca «xür» («xür», «xvar» )«günəş»-«od» mənasını verir.

Xürrəmilərin təlimi yalnız Azərbaycanda deyil. Orta Asiya və İranda da bir çox xalq hərəkatı üçün ideoloji don olmuşdur. Xürrəmilərin əsas məqsədi yadelli işğalçıları ölkədən qovmaqdan ibarət idi. Onlar yerli ayinlərini islam və onun ehkamlarına qarşı qoyurdular. Vahid allahı inkar edən xürrəmlər belə hesab edirdilər ki, dünya daim mövcuddur: dünyada iki qüvvə, xeyir (ilahi) və şər(şeytan) arasında mübarizə gedir. Onlar inanırdılar ki, bir-birinə əks olan qüvvələrin mübarizəsində xeyir, mərhəmətli ruh qalib gələcəkdir.

Yeni təlim bütün ədalətsizliklərin kökünü torpaq üzərində xüsusi mülkiyyət və ictimai bərabərsizlikdə görürdü. Xürrəmilərin şüarı torpaqları ümuminin ixtiyarına, azad kənd icmalarına verməkdən ibarət idi.

Xürrəmilərin ikinci böyük çıxışı 807-808-ci illərdə Harun-ər-Rəşid (786-809) dövründə Azərbaycanda- Ərdəbil, Savalan dağlarında, Qarabağda, Muğanda baş vermişdi. Üsyana Bəzz qalasının sahibi xırda feodal Cavidan rəhbərlik edirdi.

Bəzz qalasında yaşayan xırda feodal Cavidanın böyük qoyun sürüləri var idi və qoyunları Zəncan bazarında satardı. Bir dəfə mal-qara satıb Bəzə qayıdarkən havanın pis olduğundan təsadüfən Bilabad kəndində Babəkin anasının evində qalır. Babəkin bacarıqlı, işgüzar olduğunu görür. Ona görə də Babəkin ona oğulluğa

verilməsini anasına bildirdi və onun müqabilində ona hər ay pul ödəyəcəyini dedi. Babəkin anası Bərdumənd bununla razılaşır. Babək Cavidanın yanında Bəzz qalasında onun xidmətində olur. Az sonra Cavidan öz daimi rəqibi olan Əbu-İmranla vuruşmada yaralanır və ölür. Qeyd etmək lazımdır ki, xürrəmilər hələ xəlifə Mehdinin (775-785) hökmranlığı zamanında Xilafəti ciddi surətdə narahat etməyə başlamışdır.

816-cı ildə Cavidanın ölümündən sonra xürrəmilər hərəkatına Babək rəhbərlik etmişdir. Bəzi məlumatlara görə Babək guya bir vaxt İslamı qəbul etmiş və onun müsəlman adı Həsən imiş. Lakin mənbələr göstərir ki, Babək ərəblərə onların dininə nifrət bəsləmişdir. Cavidanın ölümündən sonra xürrəmilər hərəkatı xilafət üçün dəhşətli bir qüvvəyə çevrilmişdir.

Babək hərəkatının mərkəzi Bəzz qalası olmuşdur. Onun harada yerləşməsi barədə müxtəlif fikirlər var. lakin akademik Z. Bünyadovun dəqiqləşdirdiyinə görə o, Ərdəbildin şimal-qərbində (145 km-də) Qaradağda yerləşmişdir.

Xürrəmilər hərəkatı tezliklə genişlənib gücləndi. O, bütün Azərbaycanı əhatə etmişdi. Onun məqsədi Azərbaycanda, sonra da digər ölkələrdə ərəb hakimiyyətini məhv etmək idi.

Babək xürrəmilər qarşısında ərəbləri Azərbaycandan qovmaq vəzifəsini qoyduqdan sonra öz ardıcıllarına bildirdi ki, bu vəzifəni yerinə yetirməyi Cavidan ona vəsiyyət etmişdir: guya Cavidan demişdir: «Babək sizin üçün elə yüksəkliyə çatacaqdır ki, ona qədər heç kəs buna çatmamış, ondan sonra da çatmayacaq. O torpaqları ələ keçirəcək və zalımı məhv edəcəkdir. Həqarət çəkənlər ona hörmət edəcək və əsilzadə olmayanlar onu yüksəldəcəklər».

İlk dövrlərdə xilafətin bəzi görkəmli xadimləri və əmirləri də özlərinə tabe olanlarla birlikdə ərəblərə qarşı üsyanlarda iştirak edirdilər. Babəkin sərkərdələri arasında Müaviyə, Abdulla, (Babəkin qardaşları idi) Tərxan, Adin, Rüstəm, Isma əl-Kürdi və başqaları var idi. Rəvayətə görə Babəki məğlub edən Afşin də çox vaxt ona tərəfdar çıxmışdır.

Başlanmış olan xalq hərəkatı tezliklə Cibal, Xorasan və digər əraziləri də əhatə etmişdi. Həmədan, Isfahan, Təbəristan, Astrabad əyalətləri, Deyləm əyalətinin çox hissəsi üsyana qoşulmuşdu. Xəlifə Məmun (813-833) Babəkə qarşı ilk nizami ordunu 819-cu ildə Yəhya ibn Müazin başçılığı ilə göndərmişdi.

Xəlifə Isa ibn Məhəmmədi 820-ci ildə ordu başçısı təyin etməklə, Azərbaycanın idarə olunmasını ona tapşırdı. 821-822-ci illərdə üsyançılar Isa ibn Məhəmmədin ordusunu məğlub etdilər. Sərkərdə Bağdada qaçdı. Bərdə yaxınlığındakı döyüşdə də üsyançılar ərəb ordusunu məğlub etdilər. 823-824-cü ildə Züreyq ibn Əli ərəb ordusunun başçısı təyin olundu və Əhməd ibn Əl-Cüneydin başçılığı ilə ordu ona köməyə göndərildi. Ordu məğlub edildi.

Üsyançılar Bərdə, Ərdəbil, Naxçıvan, Beylaqan və Şirvanı ərəblərdən təmizlədilər. Ərəb qonşularına xilafətin məhşur sərkələrindən olan Məhəmməd ibn Hübeyd rəhbər təyin edildi. 827-ci ildə Həşdatsər dərəsindəki vuruşmada ərəblər Babəkin bilavasitə rəhbərlik etdiyi üsyançı dəstələrin zərbələrinə tab gətirmədi.

829-cu il Həşdatsər döyüşündə ərəblər üsyançılarını paytaxtı olan Bəzz qalasını tutmağı qarşılarına məqsəd qoymuşdular. Lakin Babəkin seçdiyi döyüş taktikası nətiəcsində 150 minlik ərəb ordusunun 30 min nəfəri məhv edildi.

Üsyan İranın bəzi vilayətlərini və Gürcüstanı əhatə etmiş, xürrəmilərlə əlaqə yaradılmışdı. Qarabağ, Beyləqanda və Sünikdə ərəb sərkərdəsi Sevadın hücumu zamanı əhali və feodal hökmdarlar Əbdül Əsəd və Vasaq Babəkdən kömək istədilər. Babəkin köməyi nəticəsində Beyləqanda və Sünikdə ərəb sərkərdəsi Sevad məğlub edildi. Beləliklə, üsyançılar bütün Azərbaycan ərazisində bəzi qalalar istisna olunmaqla ərəblərdən təmizləndi.

830-cu ildə üsyançılar İbrahim ibn Leysin başçılıq etdiyi ordunu məğlub edərək Həmədanı ələ keçirdilər və xilafətinin bütün şərq torpaqlarından ayrılması təhlükəsini yarandı.

Həmin ildə ərəb sərkərdəsi Əli ibn Hişam Azərbaycan, Cibal və İsfahanın hakimi təyin edildi. Lakin Babəklə vuruşmaqdan imtina etdiyi üçün 831-ci Bağdadda edam edildi.

830-833-cü illərdə Babəkin rəhbərliyi altında olan üsyan özünün ən yüksək mərhələsinə çatdı və xilafətin mövcudluğunu təhlükə altına aldı. Dövrünün müəllifləri, xüsusən də ərəb müəllifləri etiraf etmişdilər ki, Babəkin rəhbərlik etdiyi bu hərəkat olduqca böyümüş onun təsiri xeyli artmışdı ki, az qalmışdı Abbasilər hakimiyyətini məhv etsin.

833-cü ildə Məmunun ölümündən sonra qardaşı Mötəsim (833-842) üsyançılara qarşı ciddi tədbirlər görməyə başladı. Ishaq ibn Ibrahimin komandanlığı ilə göndərilən ordu ilə üsyançılar arasında Həmədan yaxınlığında baş verən döyüşdə üsyançılar mərdliklə müqavimət göstərsə də ərəblər ağır itgi verərək qalib gəldilər. Xilafətin üsyançılara qarşı mübarizə aparmaq üçün həyata keçirdiyi tədbirlər, Babəkin qardaşı Müaviyənin məğlub olması yerli feodallar arasında qorxu yaratmış, Babəkin müttəfiqi olan Səhl Sumbat, Əbu Musa və ibn Bəis tədricən Babəkdən uzaqlaşdılar. Babək böyük hərbi qüvvəyə, maddi və insan ehtiyatına malik olan bir dövlətə qarşı mübarizə aparırdı. Uzun sürən müharibələr nəticəsində Azərbaycan var-yoxdan çıxmışdı, üsyançıların sayı getdikcə azalırdı. Xilafət ordusu isə aramsız olaraq kömək alır maddi təminatı genişlənirdi.

Bizansla müharibələrdə şöhrət qazanmış sərkərdə Afşin Heydər ibn Kavus xürrəmilərlə vuruşan orduya 835-ci ildə baş komandan təyin olundu. Öz qərargahını xürrəmilərə yaxın yerə Bərzəndə köçürmüş, hərbi casusluq fəaliyyətini genişləndirməklə, hətta Babəkin kəşfiyyatçılarını da öz tərəfinə çəkməyə cəhd göstərmişdir.

Ərəb ordusunun təchizinə mane olan üsyançılara zərbə vurmaq üçün Afşin ordunu üç hissəyə ayırdı. 835-ci ildə Arsaq yaxınlığındakı vuruşmada ərəb süvariləri xürrəmiləri məğlub etdi. İtgi verən Babək Bəzz qalasına çəkildi. Üsyançılar yenə də mərdliklə mübarizə aparırdı. Xəlifənin xürrəmilərə qarşı Bəzz qalasında apardığı əməliyyatlar həlqələri getdikcə daha da sıxlaşırdı.

Buğa Əl Kəbirin başçılığı ilə Afşinə köməyə gələn ordu Həşdatsərdə möhkəmlənməli idi. Lakin Buğa Afşinin əmrini gözləmədən Babəki məğlub etmək

üçün döyüşə başladı. Üsyançılar ərəblərə ağır zərbə endirməklə xeyli pul və silah əldə etdilər. Bu məğlubiyyətdən sonra Afşin qışlamaq üçün Bərzəndə çəkildi.

837-ci ildə sərkərdə Cəfər Xəyyam və Təbbax başda olmaqla Afişinə kömək üçün iki ordu 30 milyon dirhəm məbləğində pul göndərildi. Afşin isə döyüş taktikasını tamamilə dəyişdi. Xəlifə isə müharibəni qalibiyyətlə başa çatdıra biləcəyinə inanmayaraq Afşinə bir-birinə zidd göstərişlər verirdi. Afşinin isə bunlara əməl etməməsinə görə orduda ona qarşı narazılıq yaranmışdı. Afşinə hərbi yürüşlərə başlamağa icazə verilmirdi. Bəzzə yol çəkilirdi. Afşinin Babəklə belə münasibətləri orduda və sərkərdələrdə xüsusilə də Cəfər Xəyyamda şübhə doğururdu. Afşin ordusunun azlığını bəhanə edərək Babəklə müharibəni uzadırdı. Afşinin xəlifəni devirmək üçün Təbəristan hakimi Məzyard və Babəklə gizli danışıqlar aparmışdı. Lakin danışııqlar baş tutmadıqda Afşin 837-ci ilin avqustunda Bəzz qalasına yaxınlaşaraq oranı mühasirəyə aldı. Afşin Babəkə onun bağışlanması üçün fərman alacağına söz verməklə sülh bağlamağı təklif etdi. Danışıqlar vasitəsilə müharibəni dayandırmağa çalışan ərəblər, Bəbəkin istedadlı sərkərdə olunduğunu bilərəkdən ondan Bizansa qarşı müharibədə istifadə etməyə çalışırdılar. Lakin Babək Afşinin təklifini rədd etdi. Ərəblər qalaya od vurdular və sayca çox olan düşmənlər qalaya soxuldular. Hər iki tərəf böyük tələfat verdi. Bəzzdəki qırğının qarşısını almaq üçün Babək xəlifədən aman istəməyə razılıq verdi. Afşin Azini və bir neçə sərkərdəni girov götürmək şərti ilə Babəkin təklifini qəbul etdi.

Ərəblərə qarşı mübarizə aparmaq, onların bir hissəsini Azərbaycandan çıxarmaq üçün hələ 834 və 836-cı illərdə Bizans imperatoru Feofil ilə xilafətə qarşı ittifaq təklif edib, müqavilə bağlamışdır. Lakin bu Azərbaycanda müharibənin kedişinə təsir göstərə bilmədi. 837-ci ilin avqustunda ərəblər Bəzz qalasını tutdular. Ailələri ilə birlikdə 7600 nəfər və Babəkin bir neçə oğlu əsir alındı. Bəzz qalası uğrunda vuruşmada təxminən 80 min xürrəmi və 100 mindən çox ərəb əsgəri məhv olmuş çoxlu tikililər dağılmışdı.

Nəticədə müttəfiqlərin xəyanəti xürrəmiləri zəiflətdi və ərəblərə hərəkatı yatırmağı kömək etdi.

Mühasirədən çıxan Babək Araza doğru çəkildi. Xəlifə belə bir əmr vermişdi ki, Babəki diri gətirənə 2 milyon, başını gətirənə 1 milyon dirhəm pul veriləcək.

Afşin Babəki axtardığı bir zamanda Xəlifə Mötəsimin göndərdiyi məktubda Babəkə aman bəxş edirdi. Afşin əsir edilən Babəkin böyük oğlunu yanına çağırıb dedi: «Mən bunu Əmirəlmöminindən heç gizlətmirdim və onun (Babəkin) indiki vəziyyətində aman haqqında ona şəxsən özüm bir şey yazmaq fikrində deyiləm». Lakin oğlu məktubu atasına göndrməkdən imtina edir. Əsir düşmüş iki xürrəmi xəlifənin amanını qəbul edib həyatını saxlasın. Babək oğluna yazdığı məktubda bildirirdi ki, «… qırx gün alçaq kölə kimi ömür sürməkdənsə, bir gün rəhbər kimi yaşamaq yaxşıdır».

Azuqəsi qurtarana qədər Babək «Azərbaycandan Ermənistana gedən dərədə gizlənirdi». Babəklə birlikdə onun iki qardaşı Müaviyə və Abdullah, anası, Ibnət əl-Kələndaniyyə adlı sonuncu arvadı və bir neçə xidmətçisi ilə qaçıb qurtarır. On-

lar Arranın Şəki vilayətinə gəlirlər və Şəkinin hökmdarı, Babəkin keçimiş müttəfiqi Səhl ibn Sumbatın qalasında gizlənirlər.

Səhl Afşinə xəbər göndərir və bir neçə gündən sonra təşkil edilmiş ov zamanı Babək tutulur.

837-ci il 15 sentyabrda dağıdılmış və yandırılmış Bəzz qalasına baxdıqdan sonra Babək Bərzəndə Afşinin yanına gətirildi.

838-ci il yanvarın 4-də Xilafətin paytaxtı Samirə şəhərinə gətirildi, amansızlıqla edam olundu. Babəkə qarşı mübarizədə erməni nahararları da öz qoşunları ilə iştirak etmişdirlər.

Babək hərəkatının müvəffəqiyyətsizliklə nəticələnməsinə baxmayaraq 20 il davam etmiş bu hərəkat bütün xilafəti lərzəyə salmışdı. Bu azadlıq hərəkatı Azərbaycan tarixinin parlaq səhifələrindən birini təşkil edir. Babək hərəkatı dövründə xürrəmilərin 225500 nəfər əsgər və çoxlu ərəb sərkərdəsini məhv etdiyi orta əsr mənbələrində öz əksini tapmışdır.

Xilafətin əsasını sarsıdan və onun dağılmasını xeyli sürətləndirən Babək hərəkatı qonşu xalqların azadlıq mübarizəsini xeyli asanlaşdırdı. Xürrəmilərin və Babəkin edamı Azərbaycanda, eləcə də xilafətin digər vilayətlərində ərəblərə qarşı mübarizəni dayandırmadı.

838-839-cu illərdə Təbəristanda Məzyardın başçılığı ilə üsyan başlandı. Üsyançılar xürrəmilərin şüarları ilə çıxış edirdilər. Babək hərəkatının məğlubiyyətindən sonra Arranda Əbu Musanın başçılığı ilə xilafət əleyhinə yeni üsyanlar baş verdi. Beləliklə, amansızcasına yatırılmasına baxmayaraq bu hərəkatın əks-sədası əsrlərlə davam etdi.

Xürrəmilər hərəkatının zəif cəhətləri də var idi. Hərəkatın ən zəif cəhəti ondan ibarət idi ki, ərəb zülmünə son qoymaq xatirinə xürrəmilər özlərinin ilk şüarlarının ziddinə olaraq iri erməni feodalları ilə ittifaq bağlayırdılar. Bu əyanlar isə Babəklə ittifaqdan istifadə edərək Xəlifənin məmurlarını qovur və öz torpaqlarını yeni sahələr hesabına genişləndirirdilər. Üsyanın qələbəsindən qorxaraq onlar üsyana xəyanət etdilər. Əlverişli şərtlərlə xilafətə tərəf keçdilər. Müvəqqəti mütəffiqlərin, yerli feodalların xəyanəti xürrəmiləri zəiflətdi və ərəblərə də dönüş yaratmağa kömək etdi.

Bütün işğalçı dövlətlər kimi Ərəblər də Azərbaycanda, sənətkarlığın, ticarətin, şəhərlərin və ümumiyyətlə məhsuldar qüvvələrin əlaqəli inkişafını xeyli ləngitsə də onun qarşısını ala bilmədi. Azərbaycan və Arran ərəblər tərəfindən işğal edilməzdən əvvəl, eləcə də ərəblər dövründə bu ölkələrdən keçən ticarət yolları birinci dərəcəli əhəmiyyətə malik idi. Bu ərazinin ərəblər tərəfindən işğalı və Ön Asiyada çox geniş sahənin Xilafət ərazisində birləşdirilməsi ticarətin inkişafı üçün son dərəcə əlverişli şərait yaratdı, tacirlər üçün quru yolu ilə və Xəzər dənizi ilə şimala (bulqarlar, slavyanlar) və Avropanın şimal-şərqinə gedən ticarət yollarını açdı. Avropa, Asiya və Afrikanın müxtəlif rayonlarında tapılan çoxlu sikkə dəfinələri əsasında fikir söyləmək olar ki, Xilafətin hökmranlığı dövründə ticarət nə qədər genişlənmişdi və o zaman məlum olan təqribən bütün ölkələrlə Zaqafqaziya ölkə-

lərinin ticarət əlaqələri nə qədər uzaqlara çatırdı. Dünya ticarətində Bizans və Ermənistanın rolu tənəzzülə uğramaqla Xilafətin ticarət sistemində Azərbaycan və Arran şəhərlərinin rəhbər vəziyyəti daha da gücləndi.

Azərbaycanın paytaxtı Bərdəyə köçürüldükdən sonra ticarət mərkəzi olmaq etibarı ilə Dvinin əhəmiyyəti aşağı düşdü. Bərdə, Gəncə, Şəmkir, Dərbənd, Ərdəbil, Şabran və digər şəhərlər beynəlxalq ticarət həyatında daha əhəmiyyətli rol oynayırdı.

Yeni şəhərlərin meydana gəlməsi, Bərdənin surətli inkişafının səbəbi, əsasən bunda idi ki, Şimali Qafqaz , Volqa və Don çayları hövzəsinin xalqları ilə tcarət əlaqələri sürətlə inkişaf etmişdir: bu cəhət isə Azərbaycan və Arranda əmtəə münasibətlərinin inkişafında başlıca amillərdən biri olmuşdur. Şəhərlərin inkişafı nəticəsində orta əsrlərdə məlum olan bütün sənətlər, dulusçuluq, dərzilik və dəmirçilik, çəkməçilik, dabbaqlıq var idi, metal qablar, qızıl və gümüş məmulatı və müxtəlif parçalar və s. hazırlanırdı.

VII əsrlərin sonu VIII əsrin əvvəllərində xəlifə Əbdül-Malikin hökmranlığı dövründə Xilafətdə böyük sikkə islahatı keçirildi, qızıl dinar və gümüş dirhəm Sasani dirhəmi və Bizans miliarisini sıxışdırıb aradan çıxartdı.

Xəzərin cənub hissəsində ticarətə Bağdad, Buxara və Səmərqənd bazarlarının yaxınlığı böyük təkan verirdi, çünki bunların inkişaf etmiş sənətkarlıq mərkəzi olan Asiya ölkələri ilə geniş əlaqələri var idi. Xəzər sahilindəki limanlarda (Abaskun və Astrabaddan Dərbəndədək) fəal ticarət dənizçiliyi inkişaf edirdi.

# FƏSİL 5. AZƏRBAYCAN IX-XII ƏSRLƏRDƏ

*§ 1. IX-XI əsrlərdə Azərbaycanda müstəqil feodal dövlətlərinin yaranması.*
*§ 2. Azərbaycan Səlcuq imperiyası tərkibində*
*§ 3. Şirvanşahlar dövləti (XII əsrlər)*
*§ 4. Azərbaycan Atabəylər dövləti (1136-1225)*
*§ 5 Azərbaycan İntibah mədəniyyəti dövründə (IX-XII əsrlər)*

## *§ 1. IX-XI əsrlərdə Azərbaycanda müstəqil feodal dövlətlərinin yaranması*

IX əsrdə ərəb dövləti zəifləmişdi. Abbasilər imperiyasına qarşı xalq azadlıq hərəkatlarının başlıca mərkəzlərindən biri olan Azərbaycanda müstəqillik meyli daha güclü idi. Iri feodalların Abbasilərdən asılılığı getdikcə formal xarakter daşıyırdı. Azərbaycan ayrı-ayrı vilayətlərini faktiki olaraq müxtəlif feodal sülalələri idarə edirdilər. Təbriz, Mərənd, Miyanə, Urmiyə, Muğan, Şirvan, Beyləqan, Şəki, Sakariyə, Qəbələ, Dərbənd ayrı-ayrı feodal nəsilləri tərəfindən idarə olunurdu. Bu feodalların bəziləri ərəb mənşəli olsalar da, onlar artıq yerli əhali ilə qaynayıb qarışmışdılar.

Şirvanşahlar dövləti (861-1027) Abbasilərin zəifləməsi dövründə Azərbaycanda yaranmış müstəqil və nisbətən güclü Şirvanşahlar idi. Şirvan əvvəllər Azərbaycanın şimal-şərqində kiçik bir vilayət idi. Dərbənddən Kür çayına doğru Xəzər dəniz sahillərini Azərbaycan torpaqlarını əhatə edirdi. Şirvanın mərkəzi Xəzər sahilində - Şamaxı-Dərbənd ticarət yolunun üstündə yerləşən Şirvan şəhəri idi. Bu dövləti Məzyədilər sülaləsi idarə edirdi. Bu sülalə bəzən Şeybanilər və ya Yezidlər sülaləsi də adlanır.

Məzyədilər mənşəcə Rəbiə adlı ərəb tayfasındandır. Əvvəllər xəlifə Osmanın (644-656) dövründə Aranın işğalını həyata keçirən Salman ibn Rəbiə də bu tayfadandır. Şeybanilər nəslindən olan Məzyədilər Azərbaycanda hələ o zamandan möhkəmlənməyə başlamışdılar. Məzyədilərin görkəmli nümayəndəsi olan Yezidi ibn Məzyəd xəlifə Narun ər-Rəşid (786-809) zamanı Cənubi qafqaz (Zaqafqaziya) vilayətlərinin, o cümlədən Şirvanın hakimi idi. Yezid ibn Məzyəd ərəblərin Cənubi Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənməsində mühüm rol oynamışdı. O, Azərbaycanda xilafətə dayaq yaratmaq məqsədilə buraya Rəbiə tayfasından, həmçinin Misirdən və Suriyadan çoxlu ərəb köçürülmüşdü. Ərəblər əsasən Aran ibn Məzyədin də burada çoxlu torpaq mülkləri vardı.

Məzyədilər ilk dəfə Arranda paytaxtı Bərdə olan yarımmüstəqil feodal dövləti əmirlik yaratmışdılar. O zaman Bərdə, bütün cənubi Qafqazda ərəb idarəçiliyinin mərkəzi idi. Arran, Şirvan, Dərbənd, həmçinin Ermənistan ərazisini idarə edən ərəb canişini Yezid Məzyədin iqamətgahı da Bərdədə idi. Yezid ibn Məzyəd 801-ci ildə Bərdədə olmuş və onun oğulları Əsəd, Xalid və Məhəmməd Cənubi Qafqaz valisi təyin edilmişdilər.

859-cu ilə Məhəmməd ibn Yezid Gəncəni bərpa edərək oranı özünə iqamətgah seçdi. Zaman keçdikcə ərəb məzyədilər nəsli yerli əhali ilə qaynayıb qarışdı. IX əsrin sonunda Aran, o cümlədən Bərdə Sacilərin əlinə keçdiyindən məzyədilərin buradakı nümayəndəliyi də Şirvana köçdü. Azərbaycanda türk xalqının formalaşması prosesindən bir çox ərəb nəsilləri kimi məzyədilər sülaləsi də özünün ərəb mənşəyini itirdi.

861-ci ildə məzyədilər sülaləsindən olan Heysəm ibn Xalid Şirvani müstəqil elan etdi. Şirvanşah titulunu qəbul etdi. 917-ci ildə qonşu Lahicanşahlıq Şirvana birləşdirildt. Şirvanşah Əbu Tahir (917-946) 918-ci ildə Şamaxını bərpa etdirib paytaxt Şirvan şəhərindən bura köçürdü. Bundan sonra Şirvanşahlar dövlətinin paytaxtı Yezidiyyə adlandı. Şirvanşahın qoşunları Qəbələ (981-982), Bərdə (982) və Şabranı (983) ələ keçirdi.

Xilafətin zəiflədiyi dövrdə - Qafqaz dağları ilə Xəzər dənizi arasındakı keçiddə yaranmış və ərəb mənşəli feoldal nəsli haşimilər tərəfdən idarə olunan Dərbənd əmirliyi də Şirvanlara birləşdirildi (988). Çünki “Dəmir qapı” adlandırılan Dərbənd Azərbaycan qədim vilayətlərindən idi. Xursan və Təbərsaran da Şirvanşahlar dövlətinə qatıldı. Ayrı vaxtlarda Şəki və Sənariyə hakimləri də Şirvanşahlardan asılı vəziyyətə salınmışlar. Şirvanşahların dövləti şimaldan hücum edən alanlar, sərirlər, slavyanların qarşısını alırdı.

Sacilər dövləti-ərəb xilayətinin zəifləməsi Azərbaycanda daha bir güclü feodal dövlətinin yaranmasına səbəb oldu. Azərbaycan Sacilər dövləti türk sülaləsi olan Sacilər (879-941) yaratmışdılar. Bu sülalənin nümayəndələri bir qayda olaraq Afşin ləqəbi daşıyırdılar. Sacilər Orta Asiyanın Əşrüsən vilayətinin qədim türk nəsillərindən törəmişlər. Ərəb ordusunun bir çox məşhur sərkərdələri həmçinin Afşin Heydər ibn Kavus bu nəsildəndir.

Kiçik Asiyanın şərq hissəsi (Şərqi Anadolu) İran və Cənubi Qafqaz, o cümlədən Azərbaycan xilayətin əlinə keçdikdən sonra keçmişdən bu yerdə yaşayan və islam dinini qəbul etmiş, türk tayfalarının mövqeyi daha da möhkəmləndi. Xilafətlə Bizans arasında uzun sürən müharibələr dövründə ərəb xəlifələri Mehdi (775-785), Harun ər Rəşid (786-809), Mömin (813-833), Mötəsim (833-842) xüsusilə Mütəfəkkilin (847-861) hakimiyyəti illərində xilafət Bizans sərhədlərini möhkəmləndirmək məqsədilə Orta Asiyadan Azərbaycana və Şərqi Anadoluya yeni-yeni türk tayfaları köçürüldü. Türk döyüşçüləri xilafət ordusunda mühüm qüvvəyə çevrildi. Azərbaycan torpağını ələ keçirməyə çalışan erməni və gürcü feodallarından ibarət vahid xristian blokuna qarşı mübarizədə islamtürk birliyi, o cümlədən Azərbaycan türkləri mühüm rol oynadı.

Sacilər sülaləsinin banisi Əbu Sac Divdadda xilafət qoşunlarında xidmət edən məşhur türk sərkərdələrindən biri idi. Xilafətdə bir sıra mühüm vəzifələr tutmuşdu. Dövlət qarşısında xidmətlərinə görə xilafətin ən böyük və zəngin əyalətlərindən biri olan Azərbaycan mülk olaraq sacilərə verilmişdi. Azərbaycan müstəqil idarə edən sacilər xilafət xəzinəsinə ildə 120 min dinar bac göndərirdilər.

Sacilərin hakimiyyəti dövründə (879-941) Azərbaycanın cənub rayonları müstəqil dövlətə çevrilmişdi. Sacilər Abbasilər xilafətinin dağıldığı dövrdə Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan erməni və gürcü hakimlərini də dəfələrlə ağır məğlubiyyətə uğratmış, özündən asılı vəziyyətə salmışdı. Xilafətin tabeliyindən çıxmış sacilərin öz pulları da vardı.

Məhəmməd ibn Əbu Sacın ölümündən sonra onun qardaşı Yusif ibn Əbu Sacın dövründə Sacilər dövləti daha da qüdrətləndi. 912 ildən etibarən xilafət xəzinəsinə bac göndərilməsi tamamilə dayandırıldı. Yusif ibn Əbu Sac erməni və gürcü hakimlərinin qoşunlarını dəfələrlə ağır məğlubiyyətə uğratdı. Sacilər erməni və gürcüləri, hətta şirvanşahlar da özündən asılı salmışdılar.

Beləliklə, Azərbaycan Sacilər dövləti X əsrdə Zəncandan Dərbəndə qədər bütün Azərbaycan torpaqlarını əhatə edirdi. Sacilərin şərq sərhədləri Xəzər dənizi sahilindən başlanır qərb sərhədləri Anı və Dəbil şəhərlərinə qədər uzanıb gedirdi.

Yusif ibn Əbu Sacın adından Bərdə, Marağa və Ərdəbildə pullar kəsilməsi o zaman Azərbaycanın müstəqil olduğuna daha bir sübutdur.

Sacilərin paytaxtı əvvəl Marağa, sonra Ərdəbil idi. IX əsrin 80-cı illərindən X əsrin 40-cı illərinədək yarım əsrdən çox bir tarix dövr ərzində bütün Azərbaycan torpağının vahid Azərbaycan türk dövlətinin - Sacilər dövlətinin tərkibində olması bütün ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxmasına, vahid Azərbaycan türk xalqının formalaşdırılması prosesinin sürətlənməsinə müsbət təsir göstərdi.

Salarilər dövləti(941-981) - Sacilərin zəifləməsindən sonra Yaxın və Orta Şərqdə yaranmış siyasi vəziyyətin qarışmasından iştirak edən Deylan (Gilan) hakimi Mərzban ibn Məhəmməd 941 ilə axırıncı saci hökmdarı Deysəmə qalib gəlib ölkənin paytaxtı Ərdəbili ələ keçirdi. Mərzban ibn Məhəmməd (941-957) salarilər sülaləsindən olduğu üçün bu dövlət salarilər adlandı. Paytaxtı Ərdəbil oldu.

Tezliklə güclənən Salarilər Azərbaycan şimal-qərb torpaqlarını və Şirvanşahları özlərindən asılı sala bildilər. Ermənistan və Dərbənd ələ keçirildi. Şərqi Gürcüstan salarilərdən asılı hala düşdü.

Ümumilikdə salarilərin ərazisi Şimalda Dərbənd keçidindən başlayaraq, cənubda Dəclə və Fərat çaylarının yuxarılarına qədər, şərqdə Gilan da daxil olmaqla Xəzər sahillərinə, qərbdə Ermənistan və Şərqi Gürcüstan da daxil olmaqla geniş ərazini əhatə edirdi. Salarilər dövründə bütün Azərbaycan vahid dövlət şəklində birləşdi. Azərbaycanın bütün yaxın və orta şərqdə iqtisadi və hərbi siyasi rolu artdı. Lakin Mərzban ibn Məhəmmədin ölümündən sonra ara müharibələri nəticəsində dövlət zəiflədi. Xəzər sahili Azərbaycan vilayətləri tez-tez slavyanların basqınına məruz qalırdı.

Rəvvadilər dövləti (981-1065)- Azərbaycan feodallarından biri - Təbriz, Marağa və Əhər hakimi Əbulhica 981-ci ildə axırıncı salari hökmdarı İbrahim ibn Mərzbanı (962-981) hakimiyyətdən salıb, Rəvvadilər dövləti yaratdı.

Rəvvadilər Azərbaycanda ərəb əsarətinə qarşı mübarizə aparan və müstəqilliyə can atan feodal nəsli - Marağa, Təbriz, Əhər hakimləri idilər.

Hələ xilafətin işğalları zamanı Azərbaycanın cənub bölgələrinə xeyli ərəb köçürülmüşdür. Təbriz, Marağa, Qarabağ və Əhər bölgələrində məskunlaşmışdılar. Bunlardan biri də əzdilər nəsli idi. Bu nəslin banisi əslən yəmənli olan ər Rəvvab əl Əzdi idi.

Hələ VII əsrin sonlarında Azərbaycanın cənubunda yarım müstəqil feodal dövlətinə çevrilmiş Rəvvadi əmrliyi getdikcə müstəqilləşirdi. Rəvvadilər salariləri məğlub etdikdən sonra Azərbaycanın cənub torpaqlarını qəti olaraq öz hakimiyyətləri altında birləşdirdilər. Rəvvadilər Muğanı da asılı hala saldılar.

Bu dövrdə Azərbaycanda oğuz türklərinin mövqeyi daha da möhkəmləndi.

1028-ci ildə Mahmud Qəznəvinin Xorasan oğuzlarına vurduğu ağır zərbədən sonra 200 oğuz ailəsi Azərbaycana köçdü və rəvadi hakimiyyəti Vəhsudanın (1020-1059) icazəsi ilə burada məskən saldı. Sonra oğuzların Azərbaycana yeni axınları oldu.

Ölkənin paytaxtını Rəvvadilər Ərdəbildən Təbrizə köçürtdülər. Müxtəlif şərq ölkələrini Aralıq dənizi və Qara dəniz sahilləri ilə həmçinin Dərbənd keçidi vasitəsilə Volqaboyu və şərqi Avropa ilə birləşdirən beynəlxalq karvan yollarının qovşağında yerləşən Təbriz Azərbaycan torpaqlarının iqtisadi, siyasi və mədəni baxımdan birləşdirmək üçün çox əlverişli idi.

Şəddadilər dövləti (971-1088)- X əsrin 70-ci illərində Azərbaycanın şimalında yeni bir dövlət - şəddadilər meydana gəldi. Azərbaycan feodal olan şəddadilər əvvəllər Səlarilər dövlətinin tərkibində olan Dəbil şəhərində yaşayırdılar.

Salarilər zəiflədikdən sonra Məhəmməd ibn Səddad 951 ildə əmirlik yaratmışdı. Mənşəcə kürd olan Azərbaycan hökmdarı Məhəmməd ibn Səddad Şəddadilər dövlətini yaratmışdı.

Şəddadilər 971-ci ildə Gəncəni ələ keçirərək Şəddadilər dövlətinin əsasını qoydular. Sonra Bərdə, Şəmkir və Azərbaycan torpaqlarında möhkəmləndilər. Ermənistanın şərqini tutdular.

Şəddadilər Fəzl ibn Məhəmmədin (985-1030) hakimiyyəti dövründə daha da qüvvətləndi. Məhəmməd xəzərlərə və gürcü feodallarına qarşı inadla mübarizə aparırdı. Onun hakimiyyəti illərində hərbi məqsədilə Araz çayı üzərində salınan Xüdafərin körpüsü (1027) Azərbaycanın şimal və cənub rayonları arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynadı.

Onun hakimiyyəti dövründə Şəddadilər və Şirvanşahlar arasında yaxınlıq yaranmışdı. XI əsrin 30-cu illərində Arazdan şimalda Azərbaycan torpaqlarında yeni oğuz tayfalarının məskən salması şəddadilərin hərbi qüdrətini daha da artırdı. Dəbili ələ keçirməyə çalışan Bizans - erməni qoşunlarına ağır zərbə vuruldu (1037).

Əbüləsuvar Şavur dövründə (1049-1067) şəddadilər qüvvətləndi. O Gürcüstan və onun müttəfiqi Şirvanşahlar ilə müharibələr aparırdı. Şəddadilərin qüvvətlənməsini istəməyən və bu zaman cəfərlər sülaləsinin idarə etdiyi Tiflis müsəlman əmirliyini tutmağa çalışan gürcü çarı IV Baqrat alanlarla ittifaq bağladı və 1062 alanların Dəryaz keçidindən keçib Gürcüstan vasitəsilə Azərbaycana hücum etmə-

sinə şərait yaratdı. Bu zaman Şavur Gəncəni yadellilərə qarşı müdafiəsini möhkəmləndirdi. Bu məqsədlə şəhəri möhkəmləndirən - qarı düzəltdi (1063). Kiçik Asiyanın şərqində Bizans və erməni feodallarının birləşmiş hərbi qüvvələrinə qarşı şəddadi qoşunlarının zərbə qüvvəsi oğuz türkləri idi. Bu mübarizədə şəddadilərin daha qüdrətli müttəfiqi Səlcud türkləri oldu.

Azərbaycan qərb torpağını ələ keçirməyə çalışan erməni və gürcü feodalları Bizans imperiyasına qarşı şəddadilər isə səlcuq türkləri ilə əlbir hərəkət etdilər.

Slavyanların Azərbaycana basqınları.

IX əsrin sonlarından başlayaraq Azərbaycan yeni xarici basqınlara məruz qalmağa başladı. Əvvəllər Don-Volqa-Xəzər vasitəsilə Azərbaycanda və Azərbaycanın torpaqlarından keçərək xilafətə, o cümlədən Bağdadla ticarət əlaqələri yaradan slavyanlar çox keçmədən Xəzərsahili vilayətlərə soyğunçuluq yürüşləri təşkil etməyə başladılar. Xəzər sahillərinə və Azərbaycana yürüşlər edən slavyan mənbələrində Kiyev Rus dövlətinin hərbi drujinaları vahid adla - "ruslar" adlanırdı. Kiyev Rus dövləti hərbi qüvvələrinin xeyli hissəsi əvvəllər muzdla tutulmuş skandinaviya mənşəli varyadlardan ibarət olurdu.

İlk vaxtlar slavyanlar qarətçiliklə məşğul olurdular. Slavyanların Xəzərsahili Azərbaycan torpaqlarına IX əsrin II yarısından başlayan basqınları X əsrin əvvəllərində daha da genişlənməyə və aramsız xarakter almağa başladı. 909-cu ildə onlar 16 gəmi ilə Xəzərə daxil oldular. Xəzərin cənubundan Abaskun adasını ələ keçirdilər və sahil məntəqələrini qarət etməyə başladılar. Əhali slavyanları məğlub etdi. 910-cu ildə slavyanlar yenidən bu yerlərə basqın etdilər. Sara adasında qarətlər törətdilər. Sonra Xəzərin İran sahillərinə hücum etməsi hakim sülalənin hərbi qüvvələri ilə boqquşmada məğlub oldular.

Qədim Rus dövlətinin Xəzərsahili ölkələrə, o cümlədən Azərbaycana marağı artmaqda idi; slavyan tacirləri bu zaman Xəzər xaqanına "onda bir" vergisi verib, bu dövlətin ərazisindən keçərək Xəzər sahillərinə ticarətə gedirdilər. Onlar Azərbaycanda keçən ticarət qoşularaq şərqin başqa ticarət mərkəzlərinə, hətta Bağdada gəlib çıxırdılar.

914-cü ildə slavyanların Xəzər sahillərinə daha qorxulu yürüşü oldu. Bu yürüş daha mütəşəkkil təşkil olunmuşdu. Hər birində 100 nəfər döyüşçü olan 500 gəmi Xəzərə daxil oldu. Xəzər xaqanlığının ərazilərindən keçib gəldikləri üçün onlar Xəzər sahillərindən ələ keçiriləcək qənimətin yarısını Xəzər xaqanına vəd etdilər. Slavyan drujinaları Bakı sakinlərinə qalib çıxdılar. Onlar edilən Bakı ətrafında və Xəzərin Azərbaycan sahillərində olan Pirallahı, Sahilan, Zirə, Kiçik Zirə, Böyük Zirə, Sarı adalarında möhkəmləndilər və buradan sahil məntəqələrinə basqın etməyə başladılar.

914 yürüşü zamanı Azərbaycanın Xəzər sahili qarət olundu. Dinc əhaliyə divan tutdular. Lakin Xəzərin şimal sahillərində 1500 nəfər Müsəlman-türk qoşunları ilə qarətdən qayıdan slavyan drujinaları arasında vuruşma oldu. Üç gün davam edən döyüşdə slavyan drujinası darmadağın edildi. Bu vuruşmadan uzun müddət sonra Xəzər sahillərinə - Azərbaycana yürüşləri təkrar olunmadı.

944 ildə slavyan drujinaları yenidən Xəzər sahillərində göründülər. Bu yürüşdə onların məqsədi “Arranın baş şəhəri” Bərdəni tutmaq və Azərbaycanda həmişəlik möhkəmlənmək üçün gəlmişdilər. Kiyev knyazı Iqorun (912-945) drujinaları və muzdlu qoşunlarından ibarət olan slavyanlar həmlələrlə Kürün mənsəbinə yetişib buradan Bərdə istiqamətində hərəkətə başladılar. Slavyanlar Bərdəni tutaraq əhalini qılıncdan keçirdilər. Ərəb tarixçisi ibn Miskaveyin məlumatına görə slavyanlar Bərdə əhalisindən tələb etdilər ki, 3 gün ərzində şəhəri tərk etsinlər. Bərdəlilər bu tələblə razılaşmadıqlarından əhali yenidən qılıncdan keçirildi. Bərdəni müdafiə etmək üçün salari hökmdarı Mərzban ibn Məhəmməd şəhəri mühasirəyə aldı. Şəhəri tuta bilmədi. Salarilərin mühasirəsi zamanı slavyanlar tələfat verdilər və şəhərdən qaçdılar. Oradan Kür sahilində Mübarəki adlı yerlə onları gözləyən gəmilərə minib Xəzərə çıxıb Rusiyaya qayıtdılar. Bu basqın Bərdəyə çox böyük ziyan vurdu. Yarım ildən çox slavyanların əlində qalan şəhər dəhşətli qarətə və dağıntıya məruz qaldı. Məşhur Bərdə əvvəlki əhəmiyyətini itirdi. Şəhərdə pul kəsilməsi dayandırıldı. Sonralar isə Şəddadilərin Gəncəni paytaxt seçməsi Bərdənin əhəmiyyətini daha da azaltdı.

Slavyanların Azərbaycana basqınları davam etdi. Məsələn 38 gəmidə yenidən Xəzər sahillərinə hücum edən slavyan drujinaları Bakı yaxınlığında və Kürlə Arazın qovuşduğu yerdə Şirvanşahın qoşunlarını məğlub etdikdən sonra Gəncə istiqamətində Arazla yuxarı qalxmağa başladılar. Bu zaman şəddadi hökmdarı Musa qardaşı tərəfindən qaldırılmış qiyamı yatırtmaq üçün slavyanları köməyə çağırdı. Kömək aldıqdan sonra slavyanlara çoxlu hədiyyə verərək onları geri göndərdi.

1032-1033 Şirvana alanlar, sərirlər və onlarla ittifaqda olan slavyanlar Yezdiyyəni tutub orada dəhşətli qırğınlar törətdilər. Dərbənd hakimi əmir Mansur ibn Maymun Şirvanı talan edib qayıdan alanlar, sərirlər və slavyanları məğlubiyyətə uğratdı.

Ümumilikdə 600 ilə qədər davam edən Sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin - Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin yaranması Azərbaycanın qədim dövlətçilik ənənələrinin dirçəlməsi baxımından əhəmiyyətli idi. Bütün bu dövlətlərin hamısında islam dininin rəsmi din olması Azərbaycan xalqının etnik təkamülündə, vahid dilin və mədəniyyətin tərəqqisində mühüm rol oynadı.

IX-XI əsrlər Azərbaycan yeni müstəqil feodal dövlətlərindən heç birinin uzun müddət bütün ölkənin ərazisini əhatə edən vahid və qüdrətli dövlətinə çevrilə bilmədi.

### *§ 2. Azərbaycan Səlcuq imperiyası tərkibində*

XI əsrin II yarısında Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər əraziləri əhatə edən Böyük səlcuq imperatorluğu yarandı. Səlcuqlar oğuz-türkləri idilər. Səlcuq türklərinin adı məşhur türk sərkərdəsi Səlcuqun adından əmələ gəlmişdir. Səlcuq özü əvvəllər oğuz-türk tayfalarından

biri olan qınıq tayfasının başçısı olmuş, X əsrdə islam dinini qəbul etdikdən sonra oğuz-səlcuq tayfalarına başçılıq etmişdir. Səlcuqlar Sır-Dərya boyundakı torpaqlarda yaşayırdılar. Lakin burada Qaraxanilər və Qəznəvilər tərəfindən sıxışdırıldıqları üçün qərbə doğru axınmağa başladılar. Onların əsas hücum hədəfi Bizans torpaqları oldu. Səlcuq türklərinin tayfa başçısı Toğrul bəyin göstərişi ilə onun qardaşı Çağı bəy 1015 ildə Bizansa qarşı ilk kəşfiyyat səfərinə çıxdı. Onlar İran və Azərbaycan torpaqlarını aşaraq Bizans ərazisinə daxil oldular. Çağı bəy Bizans qoşunlarına qalib gələrək Van gölü hövzəsini ələ keçirdi. Naxçıvan və onun ətrafındakı Azərbaycan torpaqlarını nəzarət altına aldı. Bizansa qarşı hərbi əməliyyatını davam etdirə bilməyən Çağı bəy 1021 Mavərannəhrə dönüb səfəri barədə qardaşı Toğrul bəyə məlumat verdi. O, Qaraxanilər və Qəznəvilər kimi qüdrətli qonşularla toqquşmaqdansa xilafətin tənəzzülündən sonra siyasi dağınıqlıq dövrü yaşayan İran, cənubi Qafqaz, o cümlədən Azərbaycan istiqamətində və Bizansa qarşı hücuma keçmək təklifini irəli sürdü. Sonra səlcuq türklərinin qərbə doğru kütləvi axınları başladı.

XI əsrin əvvəllərində Qəznəvilərin hakimiyyəti altında olan Xorasanda məskən saldılar. Elə burada da 1038 ildə paytaxt Nişapur şəhəri olan ilk Səlcuq dövləti meydana gəldi. Səlcuqun nəvəsi Toğrul bəy (1038-1063) sultan elan edildi. Onun dövründə daha da möhkəmləndilər. 1040 il mayın 23-də Dəndənəkan vuruşmasında Qəznəvilər dövlətinin qüvvələri darmadağın edildi. Bu qələbədən sonra Mərv şəhərində toplanan Böyük Qurultayda şərqdə və qərbdə yeni işğallara başlamaq qət olundu. Dövlətin paytaxtı Nişapurdan Reyə köçürüldü (1043). Səlcuq qoşunları burada 3 istiqamətdə - Həmədan-Isfahan, Gilan və Azərbaycana doğru yürüşə çıxdılar. Həmədan - Isfahan istiqamətində hücuma keçən səlcuq qoşunlarına İbrahim Yinal, Gilan üzərinə yürüş edən qüvvələrə Kutalmış Azərbaycanın cənub rayonlarına doğru hərəkət edən qoşunlara isə Həsən və Yaquti başçılıq edirdilər. Bundan əvvəl Azərbaycan, İran, Cənubi Qafqaz və şərqi Anadoluda möhkəmlənmiş oğuz-türk tayfaları da səlcuq yürüşlərində iştirak edirdilər. Çox keçmədən Həmədan və İsfahan da daxil olmaqla bütün Qərbi İranı ələ keçirən İbrahim Yınalın başçılıq etdiyi səlcuq qoşunları Dəclə sahillərinə çıxdı. Gilan da daxil olmaqla Xəzər cənubundan torpaqları ələ keçirən Kübarəveş isə Arazı adlayıb Arana daxil oldu. Azərbaycanın şimalında möhkəmlənən səlcuqlar şəddadilərin hərbi qüvvələri ilə birləşərək Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrinə ağır zərbələr vurdular. Azərbaycanın cənub rayonları isə səlcuq sərkərdəsi Həsənin nəzarəti altında keçdi. Bundan sonra Şərqi Anadoluda hərbi əməliyyata başlayan səlcuq - Azərbaycan qoşunları 1048 sentyabrda 18 Bizans, erməni və gürcü feodallarının birləşmiş qüvvələrini darmadağın etdilər. Bizans səlcuqlarla sülh bağlamağa məcbur oldu. Beləliklə, sultan Toğrulun hakimiyyətinin ilk illərində bütün Xorasan (1038-1044), Xarəzm (1043), Qərbi İran (1042-1051) səlcuq türklərinin əlinə keçdi. 1055-də Bağdad da daxil olmaqla Iraq işğal olundu. Abbasilər Xilafəti səlcuq türklərindən asılı vəziyyətə düşdü. Abbasilər sultan Toğrulu bütün "Şərqin və Qərbin hökmdarı" kimi tanımağa başladı.

Sultan Alp Arslanın (1063-1072) və Məlik şahın (1072-1092) hakimiyyəti illərində səlcuq türkləri daha geniş əraziyə yayıldılar. Malazgird vuruşmasında (1071, 25 avqust) Bizans imperiyasının hərbi qüvvələrini darmadağın edən və imperator Roman Diojeni əsir alan Alp Arslan demək olar ki, bütün Kiçik Asiyanı işğal etdi. Sonradan Suriya, Fələstin, Ermənistan və Gürcüstan əraziləri Orta Asiyada isə Mavəraunnəhr - Amu Dərya ilə Sır dərya çayları arasından torpaqlar səlcuq türklərindən asılı vəziyyətə düşdü. Nəticədə Yaxın və Orta Şərqin siyasi xəritəsində Böyük səlcuq imperatorluğu kimi qüdrətli dövlət yarandı. XI əsrin II yarısında bütün Orta Asiya, İran, Cənubi Qafqaz, Iraq, Suriya, Kiçik Asiya və Ərəbistan yarımadası səlcuq türklərinin əlində idi. Səlcuqlar Azərbaycanı asanlıqla tutdular. Azərbaycan türkləri, o cümlədən burada yaşayan müxtəlif oğuz tayfaları səlcuq türklərinin soydaşları idilər. Bir-biriləri ilə yola getməyən Rəvvadilər, Şəddadilər və Şirvanşahlar dövlətini səlcuq qoşunlarına qarşı birləşərək müqavimət göstərə bilmədilər. 1054 ildə sultan Toğrulun hərbi qüvvələri Təbrizə yaxınlaşdı. Rəvadi hökmdarı Vəhsudan səlcuqlara tabeliyini bildirdi. Toğrul Təbrizdən sonra Gəncəyə hücum etdi. Şəddadi hökmdarı Əbuləlsvar Şavur da müqavimət göstərmədən səlcuqlara tabeliyini bildirdi. Bu zaman səlcuq sultanı ilə Şəddadi hökmdarı arasında bir anlaşma bağlandı ki, iki hökmdar öz aralarında belə bir razılığa gəldilər ki, onlar Bizans imperatoruna və onun təhriki ilə tez-tez Azərbaycanın torpaqlarına hücum edən erməni-gürcü feodallarına qarşı əlbir hərəkət edəcəkdir.

1066 ildə səlcuqlar Qarabəkinin başçılığı ilə Şirvana hücum etdilər. Şirvanşah səlcuqlara şiddətli müqavimət göstərdi. Lakin bu heç bir nəticə vermədi. Şirvanşah I Fəriburz səlcuq sultanı Məlik şaha tabe oldu. Şirvan hökmdarları "şirvanşah" ləqəbi daşımaqdan məhrum edildilər. Bütün Azərbaycan səlcuqlara tabe oldu.

Hələ səlcuq türklərinin axınlarından və Böyük səlcuq imperiyasının meydana gəlməsindən çox əvvəl Azərbaycan qədim türk tayfalarının, o cümlədən oğuz türklərinin yaşadığı ümumi əraziyə daxil edilmişdi. Sasani və ərəb xilafətinin hökmdarlıq etdiyi təqribən 600 illik bir tarixi dövr ərzində bütün bu tayfaların, habelə qeyri-türk tayfalarının vahid halında qaynayıb-qarışması prosesi getmişdi.

Xilafətin zəiflədiyi dövrdə Azərbaycanda islam türk etnik siyasi amili daha da güclənmişdi. Çünki, bu zaman Bizans imperiyası və erməni-gürcü feodallarından ibarət vahid xristian blokuna qarşı mübarizənin taleyi Azərbaycan cəbhəsində həll olunurdu. Azərbaycan Anadolunun işğalına başlamış müxtəlif türk tayfaları üçün uzun bir tarixi dövr ərzində arxa cəbhə rolunu oynamışdı. Islamın qəbulu Azərbaycanda yaşayan müxtəlif türk tayfalarının, həmçinin qeyri-türk etnik qruplarının vahid xalq halında formalaşmasında mühüm rol oynamışdı. Səlcuq axınları zamanı türk tayfalarının yeni dəstələri Azərbaycanda məskən saldılar. Eyni kökdən olan və islamı qəbul etmiş, oğuz səlcuq türkləri ilə Azərbaycan türkləri tez bir zamanda qaynayıb qarışdılar. Azərbaycan turk xalqının təşəkkülü prosesi başa çatdı.

Cənubi Qafqazda və Ön Asiyada başlıca etnik siyasi amil olan səlcuqlar Yaxın və Orta şərqin bütün sonrakı tarixində mühüm rol oynadı. Avropa feodalları-

nın şərq torpaqlarını işğal etmək məqsədilə təşkil etdikləri soyğunçuluq müharibələri - Xaç yürüşləri zamanı səlibçilərə sarsıdıcı zərbələr endirən səlcuq türkləri o zaman Yaxın və Orta Şərqin siyasi xəritəsinin qərbi Avropa feodal dövlətinin xeyrinə dəyişməsinə imkan vermədilər.

Bu imperiya da uzun zaman yaşamadı. Türk imperiyası natural təsərrüfatın hökmranlığı şəraitində yaranmışdı. Əmtəə- pul münasibətləri hələ başlıca iqtisadi əlaqə forması deyildi. Ölkənin iri sənətkarlıq və ticarət mərkəzləri arasında əlaqələrin xeyli geniş olmasına və imperiyanın ərazisindən çox mühüm beynəlxalq karvan yolları keçməsinə baxmayaraq, Böyük səlcuq imperatorluğunun əhatə etdiyi çox geniş ərazilərin və xalqların vahid iqtisadi və siyasi mərkəz ətrafında sıx birləşməsinə imkan olmadı. Əsarət altına salınmış ölkələrin, xalqların azadlıq mübarizəsi genişlənməkdə idi.

Bundan başqa Birinci Xaç müharibəsi (1096-1099) dövründə Qərbi Avropa səlibçilərinin kütləvi yürüşlərinə qarşı mübarizə, Aralıq dənizinin Kiçik Asiya, Suriya və Fələstin sahillərində çox mühüm ərazilərinin itirilməsi də Böyük səlcuq imperatorluğunun tənəzzülünə müəyyən təsir göstərdi. Sultan Məlik şah və onun vəziri, məşhur "Siyasətnamə" əsərinin müəllifi Nizamül Mülkün mərkəzi hakimiyyəti qüvvətləndirmək təşəbbüsləri də nəticəsiz qaldı. Məlik Şahın oğulları sultan Mahmud (1092-1094) sultan Bərgüyarıq (1094-1104), sultan II Məlik şah (1104-1105) və sultan Məhəmmədin (1105-1118) hakimiyyəti illərində imperatorluğunun tənəzzülü daha da dərinləşdi. Sonuncu səlcuq hökmdarı sultan Səncərin (1118-1157) hakimiyyəti demək olar ki, formal xarakter daşıyırdı. Imperiya faktiki olaraq, ayrı-ayrı müstəqil dövlətlərə parçalanmışdı. Bu dövlətləri səlcuq sultanlarının vəliəhdlərinin tərbiyəçiləri- atabəyləri idarə edirdilər.

### *§ 3 Şirvanşahlar dövləti*

Səlcuqlar dövləti zəiflədikcə Şirvanşahlar dövləti yenidən dirçəlirdi. Şirvanşah I Fəriburz (1063-1096) səlcuq sultanlarına tabe olsa da, Şirvanşahların hakimiyyətinə tamamilə son qoyulmamışdı. Məlik şahın hakimiyyətinin sonuna yaxın Şirvanşahlar yenidən qüvvətlənməyə başladılar. I Fəriburzdan sonra oğlanları I Mənuçöhr və I Afridun ölkəni müstəqil idarə edirdilər.

Səlcuq türklərinə qarşı mübarizədə gürcü çarları şirvanşahlarla yaxınlaşmağa çalışırdılar. Gürcü çarı Qurucu David və ya IV David (1089-1125) bu məqsədlə qızı Tamarı şirvanşah Afridunun oğlu III Mənuşöhrə ərə vermişdi. (1111). Şirvanşahlarla qohumluğun digər bir səbəbi də gürcü feodallarının Azərbaycanın qərb torpaqlarını ələ keçirmək niyyəti ilə bağlı idi. Geniş xarici siyasət planlarına malik olan gürcü çarı digər qızını Bizans imperatoru Aleksey Kominin oğluna ərə vermişdi. (1116). Çar IV David özü isə səlcuqlara qarşı güclü müttəfiq qazanmaq məqsədilə qıpçaq türklərinin hökmdarı Abrakın qızına evlənmişdi. O, səlcuq türklərinə qarşı Qafqazın şimalından Gürcüstana ailələri ilə birlikdə 45000 nəfərdən çox seçmə qıpçaq-türk döyüşçüsü köçürmüşdü. Bundan əlavə gürcü və erməni hakimiyyəti Bizans

imperiyasının vasitəçiliyi ilə səlcuq türklərinə qarşı Qərbi Avropa səlibçiləri ilə də əlaqə yaratmışdılar. Gürcü və erməni feodalları Bizans imperiyasına, həmçinin Qərbi Avropa səlibçilərinə arxalanaraq türk-müsəlman amilini Qafqazdan sıxışdırıb çıxarmağa, Azərbaycan torpaqlarını öz aralarında bölüşdürməyə çalışırdılar. Şirvanşahlar isə səlcuqlarla münasibətləri pozmamağa çalışırdılar. Belə olanda qıpçaq-türk döyüşçüləri hesabına çox gücləndirmiş gürcü çarı Şirvanşahların səlcuq türkləri əleyhinə onunla ittifaqa girmədiyini bəhanə edərək Azərbaycanın qərb torpaqlarını işğal etmək planlarını həyata keçirməyə başladı. 1117-də IV Davudun oğlu Demetre də Şirvana hücum etdi. O, Şirvanşahın qoşunlarını məğlubiyyətə uğradıb çoxlu qənimət və əsirlərlə Gürcüstana döndü. 1120-də IV Davudun özü qüvvətli ordu ilə 2 dəfə Şirvana basqın etdi. Şirvanşahların qoşunları yenə də məğlubiyyətə uğradı. Gürcü çarı Qəbələni talan edərək geri qayıtdı.

IV Davud 1121 ildə Tiflis yaxınlığında Didqori vuruşmasında daha mühüm qələbə qazandı - gürcülər, qıpçaq, türklər, osetinlər və Qərbi Avropa səlibçilərinin birləşmiş qüvvələri səlcuq qoşunlarına qalib gəldilər. 1122-ci ildə Tiflis müsəlman əmirliyi ləğv edildi. Tiflis Gürcüstanın əlinə keçdi.

Gürcüstanın qüvvələnməsi Şirvanşahların mövqeyinə təsir göstərdi. Şirvanşah III Mənuçöhrün (1120-1160) zamanında Şirvanşah - Gürcüstan münasibətlərində dönüş yarandı. Bu dövrdə Şirvan - Gürcüstan əlaqələrinin yaxınlaşmasında Böyük səlcuq imperatorluğunun zəifləməsi ilə yanaşı Mənuçöhrün arvadı Tamara və onun gürcü əhatəsi də mühüm rol oynamışdı. Gürcü çarı ilə ittifaqa bel bağlayan və onun Azərbaycanla əlaqədar siyasətinin mahiyyətini düzgün qiymətləndirməyən III Mənuçöhr Şirvanşahlar dövlətinin ənənəvi siyasətini pozaraq səlcuq türklərindən üz döndərdi. Nəticədə Şirvanlar dövləti Böyük səlcuq imperatorluğu ilə ittifaqdan çıxdı və 40000 dinar illik bac verməkdən imtina etdi. Buna cavab olaraq 1123-də səlcuq hökmdarı sultan Mahmud Şirvana hücum etdi. Lakin Şirvanşah IV Davudun və onunla əlbir hərəkət edən qıpçaq türklərinin birləşmiş qüvvələrinə qalib gələ bilməyən sultan Mahmud çox keçmədən Azərbaycanı tərk etdi.

Səlcuq qoşunlarının geri çəkilməsi və Şirvanşahla Böyük səlcuq imperatorluğu arasında münasibətlərinin qəti olaraq pozulması Azərbaycan üçün ağır nəticələr verdi. Qərbi Azərbaycan və Şirvan torpaqlarını işğal etmək üçün fürsət gözləyən gürcü çarından ötrü əlverişli şərait yarandı. IV Davud yaranmış fürsətdən istifadə edərək dərhal Şirvan torpaqlarını Gürcüstana birləşdirmək qərarına gəldi və 1123-1124-cü illərdə dəfələrlə Azərbaycana yürüş etdi. Gülüstan və Buğurd qalalarını, Şamaxını ələ keçirdi. Geri qayıdandan sonra burada saxladıqları qarnizonlar da Şirvanda çox qala bilmədilər. IV Davudun ölümündən (1125) sonra onlar Şirvanı tərk etməyə məcbur oldular. Çürcü çarının Şirvanı işğal etmək planı baş tutmadı. Şirvanşahlarda yenə də III Mənuçöhr hakimiyyətə gəldi.

III Mənuçöhr və I Demetrenin (1125-1156) hakimiyyəti illərində Şirvanşahlarla Gürcüstan arasında hərbi münaqişə baş vermədi. XII əsrin 30-60-cı illərində Şirvanşahlar dövləti özünün ən qüdrətli çağını yaşayırdı. Azərbaycan Şirvanşahlar dövləti bütün Cənubi Qafqazda ən qüdrətli siyasi amilə çevrilmişdi.

1160-cı il III Mənuçöhrün ölümü ilə Şirvanda vəziyyət yenidən mürəkkəbləşdi. Şirvanşahların oğulları arasında taxt-tac mübarizəsi başlandı. Hələ III Mənuçöhrün sağlığında saray çevriliş etməyə cəhd göstərmiş Şirvan əyanları yenidən fəallaşdılar. Sarayda yaranmış qarışıqlıqdan istifadə edən Tamar kiçik oğlu və bir qrup gürcüpərəst əyanla birlikdə qıpçaq türklərinə arxalanaraq Şirvanı Gürcüstana birləşdirməyə cəhd göstərdi. Lakin digər Azərbaycan dövlətinin - Eldənizlər dövlətinin isə qarışması ilə bu məkrli plan pozuldu. Atabəy Şəmsəddin Eldənizin hərbi qüvvələrinin köməyi ilə III Mənuçöhrün böyük oğlu I Axsitan (1160-1196) hakimiyyəti ələ keçirdi. Azərbaycanın şimal-qərb torpağını və Şirvanı Gürcüstana qatmaq planları bu dəfə də puça çıxdı. Tamar özünün gürcü əhalisi ilə birlikdə Azərbaycandan qaçdı və rahibliyə qapılaraq ömrünü monastırda başa vurdu.

I Axsitanın hakimiyyəti illərində Şirvanşaholar dövləti daha da qüvvətləndi. O atası III Mənuçöhrün səhvini düzəldərək səlcuq türkləri ilə dostluq münasibətlərini bərpa etdi. I Axsitan hakimiyyəti illərində Gürcüstan çarlığı ilə dostluq münasibətləri davam etdirildi. O Şirvan-Gürcüstan qohumluq əlaqələrini davam etdirərək gürcü çarı III Georginin bacısı ilə evləndi. 1173 ildə Şirvanşahın hərbi qüvvələri Şəki ərazisindən keçərək Gürcüstana hücum etdi və mərkəzi hakimiyyətə qarşı qalxmış qiyamı yatırmaqda arvad qohumu olan III Georgiyə köməklik göstərdi. Bundan başqa I Axsitanın hakimiyyəti illərində Dərbənd hakimliyi yenidən Şirvanşahdan asılı vəziyyətə salındı. Atası III Mənuçöhr kimi I Axsitan və onun varisləri də Şirvanşahlar dövlətinin müdafiə qüdrətini artırdılar. Ölkənin ərazisində çoxlu müdafiə qurğuları - qalalar, qüllələr və s. bərpa etdilər.

1175 ildə Şirvanşahlar dövləti yenidən xarici təcavüzə məruz qaldı. 73 gəmidən ibarət slavyan donanması Azərbaycana hücum etdi. Yadellilər Kürün mənsəbinə daxil olaraq Ləmbərana qədər hərəkət etdilər. Elə bu zaman şimaldan hücuma keçən qıpçaq türkləri Dərbəndi və Şəbranı ələ keçirdilər. Şirvanşahın hərbi qüvvələri slavyan donanmasını məhv etdi. Şabran və Dərbəndi qıpçaqlardan geri aldı. Hər 2 cəbhədə çar III Georginin başçılıq etdiyi gürcü qoşunları Şirvanşaha kömək göstərdilər.

I Axsitanın hakimiyyətinin sonuna yaxın güclü zəlzələ (1192) nəticəsində Şamaxı dağıldı. Şəhər əhalisinin xeyli hissəsi tələf oldu. Şirvanın paytaxtı Bakıya köçürüldü.

### *§ 4 Azərbaycan Atabəylər dövləti (1136-1225)*

XII əsrin 30-cu illərində Azərbaycanda tarixi hadisə baş verdi- Azərbaycan Atabəylər dövləti meydana gəldi. Yaxın və Orta Şərqin əzəmətli dövlətlərindən olan Azərbaycan Atabəylər dövlətinin yaradıcısı zəmanəsinin ağıllı diplomatı və üzaqgörən dövlət xadimi Şəmsəddin Eldəniz idi.O, təkcə dövlətin deyil adı ilə adlanan Eldənizlər(1136-1225) sülaləsinin də banisi idi. Onun uşaqlığı son dərəcə məşəqqətli keçmişdi. Valideynlərini çox erkən itirib yetim qalmış,özgə qapılarında zillət çəkmiş,kömək və qayğıdan məhrum olmuş, qul bazarlarında satılaraq əl-

dən-ələ keçmişdi. Sonradan taleyi üzünə güldü və onu Sultan II Toğrulun sarayına gətirib çıxardı. Sultan Mahmuddan sonra II Toğrulun hakimiyyəti illərində (1132-1135) Eldəniz sultanın şəxsi məmlükləri sırasına keçirildi və vəzifədən vəzifəyə keçməyə başladı. Sultan Eldənizə əmir rütbəsi verdi. Sonra isə II Toğrul azyaşlı oğlu Arslan şaha Eldənizi atabəy təyin etdi.

Sultan Məsud dövründə isə (1135-1152) Eldənizi II Toğrulun dul qadını Möminə xatuna evləndirdi. 1136-da Məsud Aranı Eldənizə iqta torpağı verdi. Burada möhkəmlənərkən Eldəniz sultan asılılığından çıxdı. Yavaş-yavaş Azərbaycana yiyələndi.

1160 ildə atabəy Eldəniz 20 minlik ordu ilə Arslan şahla Həmədana gəldi. Burada Arslan şaha tac qoyuldu. Eldəniz Böyük Atabəy adlandı və Eldənizin böyük oğlu Pəvləvan əmir-hacib, Qızıl Arslan isə sultan ordularının baş komandanı oldu. Dövlətdə əsas işləri Eldəniz görürdü. Arslan şah formal olaraq dövlətin başında dayanmışdı. Lakin nə xəlifə, nə də başqa əmirlər (Rey hakimi Inanc) sultanı qəbul etmək istəmədilər. Buna görə də 1161-də Eldəniz Reyi tutdu və oranı oğlu Cahan Pəhləvana verdi. Inanc qızı Ihanc xatunu Cahan pəhləvana ərə verdi və vassal asılılığını qəbul etdi. Başqa bütün düşmənlərinə qalib gəldi.

Beləliklə, atabəy Eldəniz Qafqaz dağlarından İran körfəzinə qədər uzanan nəhəng bir ərazini öz hakimiyyətinə tabe etdirdi. Eldənizin hakimiyyətində olan ərazi Tiflis qapılarından Məkranədək uzanırdı. O Azərbaycan, Arran, Şirvan, Cibəl, Həmədan, Gilan, Mazandaran, Isfahan və Reyə yiyələnmişdi. Mosul, Kirman və Pars atabəyləri, Şirvan, Xuzistan, Xilab, ərzurum və Marağa hakimləri Eldənizin adına pul kəsdilər, xübə oxutdururdular. Əmrləri o verir, torpaqlarını paylayır, dövlət xəzinəsinə nəzarət edirdi, sultan Arslan şahın isə adı vardı.

Eldənizin rəqibi moğol işğallarına qədər gürcüstan idi. 1161 ildə gürcü qoşunları çar III Georginin (1156-1184) başçılığı altında Azərbaycana hücum edib Arranın Ani şəhərini tutdu. Bir qədər sonra gürcü qoşunu hücum edib Dəbili tutdu. Sonra yenə də hücum edərək Gəncəyə soxuldular. Gəncədən çoxlu qənimət ələ etdilər.

1163-cü ilin yanvarında Eldənizin 50 minlik qoşunu Gürcüstana hücuma keçdi. 1163 ilin iyulunda növbəti hərbi əməliyyatlar oldu. Eldəniz yandırılmış Dəbili gürcülərdən geri aldı və III Georgini məğlub etdi. Bu məğlubiyyətə baxmayaraq 1164-cü il apreldə gürcülər yenə də Ani şəhərinə hücum etdilər. Belə hücumlar sonrakı illərdə də çox oldu. Hər dəfə Eldəniz yenidən hücum edərək torpaqları yenidən bərpa edirdi. 1175-ci ildə Eldəniz, sultan Arslan şah, xilaf Makbəni şah və Diyarbərk hakimiyytəinin qoşunu Cahan Pəhləvanın başçılığı ilə gürcülərə qarşı qoşun çıxartdılar. Gürcülərə qalib gəldilər.

Şərq sərhəddində isə Eldəniz Xarəzmşahlarla qarşılaşmaqdan çəkinirdi. Nəhayət, 1174 ilin noyabrında Eldəniz vəfat etdi. Arslan şah da bir ay sonra vəfat etdi ölkənin idarəsini Cahan Pəhləvana tapşırdı. Beləliklə, atabəy Cahan pəhləvan sultan taxtına Arslan şahın 7 yaşlı oğlu III Toğrulu çıxarır, eyni zamanda onun atabəyi olur.

Qardaşı Qızıl Arslanı Azərbaycan və Arranın canişini təyin edir. Atabəy Cahan Pəhləvan müvəffəqiyyətli xarici siyasət aparır, xarəzmşahlar və xəlifə ilə yaxşı dolanırdı. Onun əsas uğurlarından biri də Təbrizin onun hakimiyyətinə birləşdirilməsi olmuşdur. Təbriz Marağa hakimiyyətinin əlində idi. Cahan Pəhləvan Təbrizə sahib olur və Təbrizi iqta adı ilə qardaşına verir.

Cahan Pəhləvanın qərb sərhədləri sabit deyildi və Atabəylər üçün tez-tez təhlükələr törədirdi. Həmin vilayətlərdə (əl-Cəzirə və Şərqi Anatomiya) Misir və Suriyanın hakimi Səlahəddin Yusif (1169-1193) fəaliyyət göstərirdi. Lakin Yusiflə məsələlər həll olunmamış Cahan Pəhləvan vəfat edir (1186). Böyük bir dövlətin idarə olunmasına təkbaşına nəzarət edən Cahan Pəhləvanın ölümü çaşqınlığa səbəb oldu.

Cahan Pəhləvandan sonra hakimiyyətə qardaşı qızıl Arslan gəldi. Ümumiyyətlə, XII əsrin 80-cı ilinin sonu - 90-cı illəri - atabəy qızıl Arslan və səlcuq sultanı III Toğrulun hakimiyyəti dövrüdür.

Pəhləvanın 4 oğlu, 1 qızı vardı. Onun ölümündən sonra Xarəzmşah və xəlifə ən-Nasir sultanlığın torpaqlarını ələ keçirməyə can atırlar. Lakin buna nail ola bilmirlər. III Toğrul Qızıl Arslanı da tam hakim tanımağa məcbur olur. Arslan Azərbaycanın, Arranın, Həmədanın, Isfahanın, Reyin hakimi olur. lakin Arslan şah çox vaxtını kef məclislərində keçirdiyindən ona qarşı qurulan tələlərdən, narazılıqdan xəbəri yox idi. Pəhləvanın dul arvadı Inanc xatun da Qızıl Arslanın və III Toğrulun ölümünə tərəfdar idi. Belləiklə, 1191 ildə Arslan sui-qəsd nəticəsində ölür. Cahan Pəhləvanın dul arvadı Qüteydə Qızıl Arslanın barmağından sultan ünvanı və nişanı olan üzüyü çıxarıb oğlu Əbu Bəkrə verir. Əbu Bəkr Azərbaycanı və Aranı tutur. Həmədan və ətraf vilayətlərdə hakimiyyət Inanc xatunun oğlanları Fəxrəddin Qutluq İnanc Mahmud və Əmir Əmiran Öməri cəlb edir. Inanc xatun özü Reyddə qalıır. Beləliklə, Atabəylər dövləti bölünür. Bu vaxt III Toğrul həbsxanada idi.

III Toğrul 1192 ildə həbsxanadan çıxır və beş yüz suvari ilə Təbrizə hücum edir. Əbu Bəkr Təbrizin köməyinə gəlir və Toğrul geri çəkilərək Iraqa gedir. 1192 ildə Qəzvin yaxınlığında Toğrul və Qutluq Inanc Mahmud arasında döyüş olur. Toğrul qalib gələrək Həmədana daxil olur və sultan taxtına yiyələnir. Qutluq İnanc Reyə - anasının yanına qaçır. Buradan xarəzmşah Təkişə xəbər göndərir. İnanc xatun III Toğrulu ələ almaq üçün onunla evlənməyi təklif edir. Toğrul bu təklifə razı olur. Lakin sonra İnanc xatunun hiyləgərliyini öyrənərək ona hazırlanmış zəhəri arvadına içizdirir. İnanc xatun ölür. Bu hadisədən sonra Qutluq İnanc Azərbaycana, qardaşı Əmir Əmiran Ömərin yanına gəlir. İki qardaş birləşərək ögey qardaşları Əbu Bəkrə qarşı çıxırlar. Əbu Bəkr tərəfindən məğlub edildikdən sonra Qutluq İnanc Zəncana, Ömər isə Şirvana qaçır. Beləliklə, Qutluq İnanca Xarəzmşahlar yer verməklə həm də III Toğrula qarşı birləşməyə başlayırlar. 1194-cü il martın 4-də Xarəzmşahlar (Qutluq İnanc da qoşunlara başçılıq edirdi) və III Toğrul arasıında döyüş olur. Toğrul məğlub olaraq öldürülür. Toğrulun ölümü ilə səlcuq səltənəti həmişəlik məhv oldu. Döyüşdən sonra 1194 ildə iyul ayında Xarəzmşah Təxkiş Həmədan və Fars İraqı şəhərinin bir hissəsini tutur. İsfahanı Qut-

luq İnanca verir. Xəlifəyə isə heç bir torpaq verilmədiyindən xəlifə İran Iraqının işğalına başlayır. Xarəzmşahda xəlifənin hərəkətlərindən narazı qaldığını bildirir. İnanc xəlifəyə qarşı çıxanda ona qarşı xəlifənin vəziri Ibn əl-Qəssab hücum edir. İnanc qaçaraq canını qurtarır. 1196 ildə Xarəzmşah Təkiş, xəlifənin qoşununu məğlubiyyətə uğradır. 1196 ildə Qutluq Inanc III Toğrulun qızının hiyləsi nəticəsində öldürülür.

Azərbaycan - 1192 il qardaşlar arasındakı o döyüşdən sonra yuxarıda qeyd etdiyimiz kimi Qutluq Inanc Xarəzmşahın yanına, Ömər isə Şirvana qaçmışdı. Onu Axsitan (1160-1196) qarşılayır. Hətta öz qızını ona verir, onu qoşunla təmin edir. Həmin qoşunla Ömər gürcü ordusu ilə də birləşməyə çalışır. Çariça Tamara Əbu Bəkrə qarşı mübarizədə özünə müttəfiq taparaq, Arran və Azərbaycana hücum etmək üçün qoşun topladı. Şirvanşah I Axsitana məktub göndərdi. Bu vaxt I Axsitan gürcülərin tabeliyində idi və onlara xərac verirdt. Birləşmiş gürcü - Şirvan qoşunları 1194 il iyunun 1-də Şamxor ətrafındakı vuruşda atabəy Əbu Bəkr məğlub olur. Şam və ətraf şəhər və qalalar Əmir Əmiran Ömərin hakimiyyətinə tabe edilir. Onlar arasındakı növbəti Beyləqan vuruşmasında Əbu Bəkr yenə də məğlub olur. Gəncə tutulur. Sonra isə gürcülərin Dvini tutduğunu bilən və onların ölkənin içərilərinə soxulacağından qorxan Əbu Bəkr Naxçıvandan Təbrizə yola düşür. Burada Xarəzmşah Təbrizin Iraqı tərk edərək, ölkənin idarə olunmasını Əbu Bəkrə tapşırmaq qərarı haqqında məktubunu ona çatdırırlar. İran Iraqında Cahan Pəhləvanın ölümündən qabaq ölkənin vilayətlərini iqta sifəti ilə paylanmış məmlükləri hakimiyyət sürürdü və xarəzmşah Əbu Bəkri onlara qarşı yönəltmək istəyirdi. Lakin Əbu Bəkr qardaşı Özbəyi onun yanına göndərir. Özbək Həmədana gəlir. Xarəzmşah Təkiş onu böyük hörmətlə qəbul edib, hakimiyyəti ona tapşırır.

1195 ildə Təkiş Xarəzm şah devrildikdən sonra Cahan Pəhləvanın məmlükləri ilə Iraq əmirlərinin bəziləri saziş bağlayır və Xarəzmşahla mübarizəyə girişmək qərarına gəlirlər. Məmlüklər Reyi və ətrafları tutduqdan sonra xəlifə əl Nazirin qoşunları da məqsədi xarəzmləri bu ərazidən çıxartmaq olduğundan hər ikisi birləşərək İran İraqın bütövlükdə ələ keçirirlər. Rey, Səva, Qum, Kəşan, Isfahan, Həmədan, Zəncan və Qəzvin xəlifənin hakimiyyəti altına keçir.

Xəlifə əl Nazir Özbək və onun atasının keçmiş qulamı Gögçə arasındakı münasibətlərin gərginliyindən istifadə edərək, Özbəyi güzəştlər hesabına da olsa öz tərəfinə çəkmək qərarına gəlir. Bu zaman Təkiş ölür və xarəzmşahlar taxtına Ələddin Məhəmməd (1200-1220) çıxır. Yeni xarəzmşah ölkənin daxili işləri ilə məşğul olmasından istifadə edən Iraq əmirləri xarəzm qoşun dəstələri üzərinə hücum edir, onları ölkədən qovurlar. Bu işdə Özbək və Gögçə xüsusi fəallıq göstərirlər. Sonra Azərbaycandan bura Əbu Bəkr də gəlir. O Həmədanı Özbəyə, Isfahanı isə öz ərazisinə qatır. Reyi nahiyələri ilə birlikdə Gögçəyə verir və beləliklə İran İraqının torpaqlarının rəsmi paylanmasını müəyyənləşdirir. (Gögçə məmlük olur). Bir müddətdən sonra Gögçə daha da güclənərək atabəy Əbu Bəkrin dövlətə rəhbərlikdə zəifliyindən istifadə edərək Əbu Bəkri Həmədandan Isfahana köçürür və Gögçə Həmədana daxil olur. Sonra isə ümumiyyətlə Əbu Bəkr Azərbaycana

çəkilir. Bu dövrdə hakimiyyət uğrunda mübarizədə daha bir məmlük əmiri Aydoğmuş qoşulur. Aydoğmuş tərəfindən Göğçə öldürüldü. 1204-1205 illərdə gürcülər yenidən Azərbaycana soxuldular. 1206 ildə gürcülərin yeni başqanı oldu.

1210 -1211-ci illərdə gürcülər Azərbaycana ən böyük yürüş edirlər. Birinci Naxçıvana basqın edir, oranı tuta bilməyib Culfaya tərəf üz tutur və Dərədüz dərəsi ilə Mərəndə yanaşırlar. Mərəndi qarət etdikdən sonra Təbrizi mühasirəyə alırlar. Təbrizi Cahan Pəhləvanın arvadı Zahirə xanım çoxlu pul verməklə əhalini qarətdən qurtarır. Sonra gürcülər Zəncana və daha başqa ərazilərə basqınlar edir, çoxlu qarətlər törətdilər. Bu basqınların heç birinə Əbu Bəkr cavab vermədi. Lakin Xarəzmşah Təkişin oğlu Tacəddin Əli şahın hücumu zamanı Əli şah Əbu Bəkr tərəfindən öldürüldü.

Atabəy Əbu Bəkrin 25 aprel 1210-cu il ölümündən sonra ona tabe olan torpaqlar qardaşı Müzəfərəddin Özbəyin ixtiyarına keçir.

Özbəyin dövründə ölkə xarəzmlərdən asılı vəziyyətə düşür. Gürcülərin basqını Özbəyi Xarəzmşaha bildirmək məcburiyyətində qoyur. Gürcülər geri oturdular.

### *§ 5 Azərbaycan İntibah mədəniyyəti dövründə (IX-XII əsrlər)*

IX əsrdən başlayaraq Azərbaycan mədəniyyəti tərəqqi dövrünü keçirdi. Azərbaycan 600 ilə qədər Sasani və Xilafət imperiyalarının tərkibində qaldığından Yaxın və Orta Şərqin mədəniyyət mərkəzi ilə sıx qarşılıqlı münasibətlərdə olduğundan mədəniyyəti inkişaf edirdi. Azərbaycan mütəfəkkirləri də "müsəlman intibahının" yaradılmasında yaxından iştirak etmişlər.

Azərbaycan əvvəl Sasani və Ərəb işğalçılarına qarşı mübarizədə, sonra müstəqil feodallıqlar dövründə türk və qeyri-türk tayfalarının qaynayıb-qarışma prosesi gedirdi. Xilafətin zəifləməsindən və Azərbaycan dövlətləri arasındakı çəkişmələrdən istifadə edən yağılar Bizans imperiyasına arxalanırdılar. Erməni-gürcü feodalları və onlara havadarlıq edən Bizans imperiyasından ibarət vahid Xristian blokunun təcavüzü, slavyanların Dərbənd və Volqa-Xəzər yolu ilə Azərbaycan torpaqlarına ardı-arası kəsilməyən basqınları, yadellilərin türk-islam amilini bütün Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq siyasəti baş tutmadı.

"Kitabi-Dədə Qorqud" - Bu əsər Dəmirqapı Dərbənddən Diyarbəkr ətraflarına və Mardinə, Xəzərdən Qara dəniz sahillərindəki Abxaz elinə və Trabzon qədər bir ərazidə yayılmışdır. VII-IX əsrlərdə ozanların Oğuz yurdunu oba-oba gəzərək yaydıqları "boylar" - hər şeydən qabaq türk dilli qalan-Azərbaycan xalqının mövcudluğunun istifadəsi idi.

Dastanın ayrı-ayrı boylarının yaranması və yayılması bir çox oğuz tayfaları ilə yanaşı ağqoyunlu tayfaları da mühüm rol oynamışlar. VI əsrin sonu - VII əsrin əvvəllərində Dərbənd keçidindən və Böyük Qafqaz sıra dağlarının ətəklərindən Araz çayına doğru torpaqlarda, Göyçə gölü və onun ətraflarında, Naxçıvanda, daha sonra Azərbaycanın cənub bölgələrində yaşayan ağqoyunlular, həmçinin qara-

qoyunlular öz siyasi rəqiblərinə, o cümlədən erməni, gürcü və Bizans feodallarına qalib gələrək Trabzon və Suriya sərhədlərinə qədər gedib çıxmışdılar.

Elm və məktəb. Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər sülalələrindən olan Azərbaycan hökmdarları elmin, maarifin inkişafına fikir verir, dövrün qabaqcıl adamlarını saraya toplayırdılar. Azərbaycanın bütün şərqdə məşhur olan Gəncə, Bərdə , Marağa, Şamaxı, Dərbənd, Təbriz, Ərdəbil və b. şəhərlərdə mədrəsələr vardı. Məscidlərin yanında fəaliyyət göstərən ibtidai məktəblərdə şagirdlərə Quran öyrədilir, müxtəlif bilik sahələrinə dair ilkin məlumatlar verilirdi.

Azərbaycan şimalla Cənubi, şərqlə qərbi əlaqələrini beynəlxalq karvan yollarının qovşağında yerləşməsi, sasanilər və xitafət dövründə bu əlaqələrin daha da genişlənməsi mədəniyyətin inkişafına müsbət təsir göstərmişdi.

Ədəbiyyat. IX-XII əsrlər ədəbiyyatda da güclü oyanış baş verdi. Ədəbiyyatda iki cərəyan nəzərə çarpırdı: şifahi xalq yaradıcılığı; peşəkar yazıçıların qələmindən çıxan klassik ədəbi nümunələr.

Bu dövrdə fars dili özünün inkişafı və təkmilləşdirilməsi dövrünü keçirirdi. Fars dilinin Azərbaycan hökmdarlarının, Şirvanşahdan başqa, ana dili olmamasına baxmayaraq, Azərbaycan poetik məktəbinin Nizamidən başqa bütün nümayəndələri səlcuq sultanlarının və Azərbaycan Atabəylərinin saray şairləri olmuşdu. Səlcuq hökmdarları özünün türk dilli olmasına baxmayaraq fars dilinin Xorasandan tutmuş Kiçik Asiyaya qədər yayılmasına bütün sultanların savadsızlığı səbəb olmuşdu. Dövlət yazışmalarına vergi siyahısının tərkibinə və başqa işlərə farslar rəhbərlik edirdilər. Türk əmirləri yalnız hərbi yürüşlərə başçılıq edirdilər.

Yalnız Şirvan hakimləri fars dilli olduqlarından fars dili sarayda hakim dil idi. Bu dövrdə Azərbaycan poetik məktəbinin Şirvan dəstəsini təmin edən bir çox böyük şairlər yetişirdi.

XI-XII əsrlərdə böyük Nizami zirvəsinə yüksələn Azərbaycan ədəbiyyatının Ömər Gəncəvi, Fələki Şirvani, Izzət Şirvani, Mücirəddin Beyləqani, Givami Gəncəvi, Qətran Təbrizi, Xətib Təbrizi, Məhsəti Gəncəvi, Xaqani Şirvani və başqaları kimi görkəmli sənətkarlar nəsli yetişdi.

Bu dövrdə tanınmış dilçi və ədəbiyyatşünası olan Ömər Gəncəvi Azərbaycandan başqa Bağdadda, Nişapurda, Hamədanda, Mərzdə - bütün Yaxın və Orta Şərqdə tanınmışdı. XII əsrin görkəmli filosof şairlərindən biri də Eynəqüzzad Münayənaçı (990-1131) olmuşdur.

Əbüllüla Gəncəvi də öz dövrünün görkəmli şairlərindən idi. Şairə "Məlikşüarə" rütbəsi verilmişdi.

Bu dövr mütəfəkkirlərindən biri də Eldənizlər sarayında xidmət etmiş Mücirəddin Beyləqanidir. Məhdiyyələrini Cahan Rəhlibana və Qızıl Arslana həsr etmişdir.

Givami Gəncəvi dövrün bir çox şairləri kimi Şirvanşahlara deyil, Atabəylərə rəğbət bəsləmişdir.

Qətran Təbrizi (1012-1086) Təbrizdə anadan olmuşdur. Öz əsərlərini Təbriz və Gəncə saraylarında yaratmışdır. Təbrizi lirik şer divanından başqa farsca "Ətta-

fasir" adlı izahlı lüğətində müəllifidir. 1042 il Təbriz zəlzələsinə həsr etdiyi qəsidə. XI əsr tariximizi öyrənmək üçün qiymətli məlumatlar verir.

Məhsəti Gəncəvi Azərbaycan intibahının görkəmli nümayəndələrindən biridir. İndiyədək 200-dən çox rübaisi araşdırılmışdır.

Xaqani Şirvani (1126-1199) Şamaxıda dünyaya gəlmişdi. Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə poema yazmış bu böyük sənətkar qəsidə janrını yüksək sənətkarlıq zirvəsinə qaldırmışdır. Şirvanşahlar sarayına dəvət alandan sonra Xaqani təxəllüsünü götürmüşdür (xaqanlara məxsus olan). Xaqaninin 17 min beytlik lirik şer divanı, "Töhfətül-Iraqeyn" poeması və nəsrlə yazdığı məktublar qalmışdır. Şirvanşah Mənuçöhrə, Axsitana, Eldəniz hökmdarı Qızıl Arslana, habelə yaşadığı dövrün mühüm hadisələrinə, yadellilər üzərində qələbələrə bir sıra şer yazmışdı.

Nizami şərq və dünya poeziyasına güclü təkan verdi. Nizami xilafətin süqutundan sonra siyasi və iqtisadi dirçəliş dövrünü yaşayan Azərbaycan ümumi tərəqqi mühiti yetirmişdi. Bu mühit Sasani və Xilafət imperiyalarının süqutundan sonralar da uzun müddət Yaxın və Orta şərq ölkələri ilə - Orta Asiya, İran, Iraq, Misir və Suriyanın mədəni mərkəzləri ilə sıx əlaqədə idi. Gəncə dünyanın hər tərəfindən ən nadir sənət inciləri, əlyazmaları Gəncəyə toplanmışdı. Gəncə ədəbi mühitində Əbulüla Gəncəvi, Məhsəti Gəncəvi kimi qadir sənətkarlar yetişmişdi.

Xəmsə "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İskəndərnamə"dən ibarət idi.

Nizaminin müasirləri və yaşıdları Mxitor Qos (1130-1213) onun şagirdi Vanakan və onun şagirdləri Gəncəli Kirakos (1200-1271) və Vardan olmuşdur. Mxitor Qos "Qanunnamə" əsərinin müəllifidir. "Qanunnamə"yə heç bir sistem gözlənilmədən şərqi Roma imperiyasının qanunları ilə yanaşı, Alban kilsəsinin qanunları "Musa qanunları" kilsə qanunları daxil edilmişdir. Qos Albaniyada (Aranda) Iraq Səlcuqilərinin 1130-1162 hakimiyyəti dövründə cərəyan edən hadisələrin təsvirini verən "Alban salnaməsi" əsərinin də müəllifidir.

Gəncəli Kirakos Zaqafqaziya moğol işğalı ərəfəsində və həmin dövrdə baş verən hadisələri izah edən "Tarix" adlı əsərin müəllifidir.

XII əsrin son rübündə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmaqla inkişaf edir və Azərbaycanın baş şəhəri olur. Azərbaycan Atabəylərinin paytaxtlarından biri olmuş Naxçıvanda XII-XIII əsrlərdə şəhərsalma prosesi genişlənmişdi.

Naxçıvan Atabəylərin inzibati mərkəzi idi və onun içərisində Atabəylər ansamblı tikilmişdi. Atabəylər memarlıq toplusu Naxçıvan beynəlxalq əhəmiyyətli böyük şəhərə çevriləndə XII əsrin II yarısında yaranmışdı. Üzü Araza tərəf və möhkəm daş divarlı qala içində salınan bu iri kompleksin tərkibində şah sarayı, dövlətxana (hökumət evi), məscid, mədrəsə, türbə, yaşayış evləri və başqa yardımçı binalar vardı.

Atabəylər kompleksinin baş tikililərindən biri - giriş, başlağı, Came məscidi və Möminə xatun türbəsi idi. Ansanblın dominantı iri biçimlərlə həll edilmiş samş məscidi idi. Möminə xatun türbəsinin uca tutumu məsciddən 50 sajen aralı olan

giriş başbağunu incə minarəli məscidin manumental günbəzi ilə tam harmoniya idi. Bu ansambldan indiyə qədər yalnız Möminə xatun türbəsi qalmışdır.

Gəncə Şəddadilərin paytaxtı olduqdan sonra səlcuq əmirləri ilə Azərbaycan Atabəylərin iqamətgahları olması ilə seçilir. Hələ Şəddadilər dövründə gəncə ətrafına möhkəm qala divarları çəkilmişdir. Keçmiş Gəncə qalasının salınma yerindən bilirik ki, Gəncənin müdafiə sistemi həmişə möhkəm olmuşdur. 1122-ci il zəlzələsi Gəncəni darmadağın etdi. Zəlzələdən sonra yekun olaraq Gəncə qalasının divarları möhkəmləndirilmişdir. Gəncə şəhər qalası XII əsrdə gəncə çayının kəsib keçdiyi 2 qabarlı hissədən ibarət idi.

XI-XII əsrlərdə Şirvan şəhərinin bir çoxu böyüyüb inkişaf etmiş vəzilərinin müdafiə tikililəri yenidən qurulmuşdu. 1045 ci- ildə Şirvanşah Qubad (1043-1049) Şamaxıya yonulmuş daşdan möhkəm qala divarları çəkdirmiş, dəmir qapılar qoydurmuşdur. (Bala qala) Bu dövrdə Şamaxı Ic qalasında Şirvanşahların yeni saray kompleksi tikilmişdi. Şamaxının 2 qalası Şulistan qalasıdır.

XI əsrdə Şirvanşahların paytaxtı Bakı olmuşdur. Bakının qala divarlarını III Mönuşöhr (1120-1160) tikdirmişdir.

Tikintisi 1230 ildə başa çatmış Bayıl qəsri Bakı körfəzində kiçik bir adada uzanırdı və bu qala limanının həmin dövrdə Bakının müdafiə sistemində oynadığı rol Şamaxıda Gülüstan qalasına bənzəyirdi.

# FƏSİL 6. AZƏRBAYCAN MOĞOL AĞALIĞI ÇAĞINDA

*§ 1. Moğolların mənşəyi və həyat tərzi haqqında məlumat*
*§ 2. Moğolların Azərbaycana birinci yürüşü. Azərbaycan Xarəzmşah Cəlaləddinin hakimiyyəti altında.*
*§ 3. Moğolların Azərbaycana ikinci yürüşü və Azərbaycanda moğol ağalığı*
*§ 4. Hülakülər dövləti. Moğol əsarətinin sonu*
*§ 5. Moğolların idarəçilik sistemi*

## *§ 1. Moğolların mənşəyi və həyat tərzi haqqında məlumat*

Moğolların ulu babaları türklərlə qohumdilli olub, bir kökdən üç qola bölünmüşdür: türk, moğol və tunquz-mancur.

XII əsrdə moğollar Kulun-Bugir gölündən Altay dağlarına, şimalda Baykal gölünə, cənubda Qobi səhrasının o tayında, Böyük Çin səddi yaxınlığında yaşayırdılar. Onların əsas hissəsi çöllərdə maldarlıqla məşğul olurdu. Moğolların sərvəti böyük at ilxılarından, qoyun sürülərindən və qaramal naxırlarından ibvrət idi. Moğol tayfalarının içərisində sayca və hərbi qüvvəcə fərqlənənlər var idi ki, bunlar da tatarlar, naymanlar, kereitlərdən ibarət idi. Şimalda-tayqalarda «meşə», düzən yerlərdə isə «çöl» moğolları tayfalar halında yaşayırdılar.

XII əsrdə moğollarda qan qohumluğu əlaqəsi çox güclü idi. Lakin qəbilə münasibətlərində tədricən dağılma prosesi gedirdi. Onun yerini feodal münasibətləri tuturdu. Qəbilələr dağıldıqca birləşmələr və ya ordalar meydana gəlir, müxtəlif qəbilələrdən olanlar hissələri bu birləşmələrə daxil olurdu. Həmin birləşmələrin başında ən iri maldarlardan seçilən hərbi rəislər – xanlar, noyonlar və bahadırlar dururdu. Onların öz atlı dəstələri var idi. «Moğolların nəsli haqqında qiymətli rəvayət»də deyildiyi kimi, bu dəstələr rəislərin köməkçisi və əlaltısı olur, yaxşı ox atır, atın yüyənindən tutur, qolu üstündə quş saxlayır və ov itlərini tərk qayışlarına bağlayıb aparırdılar. Ağalar həlak olduqda nökərləri də ölməli idi.

Moğolların ilk siyasi birləşmələri bir qədər əvvələ təsadüf etsə də, XIII əsrin əvvəllərində bu proses daha da güclənir. Bu birləşmələrin mərkəzi Kerulen və Onon çaylarının vadiləri, vahid moğol dövlətinin yaradıcısı isə məşhur sərkərdə Temuçin olur.

Rəşid-əd-din öz əsərində aşağıdakı 40-dan artıq moğol tayfasının adını qeyd edir: - kerait, konqait, mərkit, tayciut, tatar, nayman, kətəkin, səlciut, durban, cəcirat, kunqirat, ikiras, kuralas, alçı-tatar, çaqan-tatar, onqut, cəlair, sünit, xuşin, manqut, olkunut, konkotan, sulduz, baarin, barulas, hədərkin, üryənküt, qiyat, ürüt, bəyaut, ərulət, yoin, siciut, kingit, nukuz, uxar-mərkit, tanqut, nuyagin, nirun, dərləkin və s. O, göstərir ki, Çingiz xanın 5-ci babasının adı Bəysunqur, 4-cü Tümbinə xan, 3-cü Kabul xan, 2-ci Bartan Bahadur, Çingiz xanın atası isə Yesugey Bahadur olmuşdur. Çingiz xanın anası Selun əkə idi. Çingizin qardaşlarından

birinin adı Cuçi-Kasar («Kasar» - yırtıcı, vəhşi deməkdir) olub və onun 40-a yaxın övladı var idi.

1155-ci ildə doğulmuş Temuçin Baykal ətrafında yaşayan kereitlər tayfasının xanı Toğrul ilə ittifaq bağlayaraq öz tayfa düşmənləri olan tatarları darmadağın etmiş və qonşu tayfaların birləşdirilməsi üçün müvəffəqiyyətli müharibələr aparmışdır. Tumuçinin moğol tayfaları içərisindən çıxmış Camuqa adlı digər bir rəqibi də var idi. Hər iki xan arasında şiddətli müharibə Temuçinlə Toğrulun arasındakı münasibətlər pozulduqdan sonra başlayır. Toğrulla birlikdə Camuqa 1203-cü ildə Temuçinə qarşı mü-haribəyə başlayırlar. Döyüş nəticəsində kareitlər tayfası tamamilə darmadağın eldilir, Toğrul və Camuqa öldürülür. Beləliklə, Temuçin tatarların yeganə hökmdarı olur.

1206-cı ildə Onon çayı sahilində moğol noyonlarının qurultayı Temuçini moğol tayfalarının böyük xanı (xaqanı) elan edir. Çin adətinə görə yeni seçilən hakim öz adını dəyişməli idi. Odur ki, Temuçin yeni ad – Çingiz xan (türkcə tengiz-dəniz, okean) adı ilə tanınmağa başlayır.

Rəşid-əd-din qeyd edir ki, Çingiz xanın 500-ə yaxın arvadı və kənizi olmuşdur. Çingiz xan onlardan 5-ni sevimli qadın adlandırırdı. Onun hər tayfadan evləndiyi qadın var idi. Lakin onların içərisində ən böyüyü və fəxrisi sayılan kunqirat tayfasından olan Börtə-Fucin idi. «Fucin» çin dilində «qadın» deməkdir. Çingiz xanın bu qadından 4 oğlu və 5 qızı olmuşdur. Oğlanları – Cuçi, Çağatay, Ugedey, Tuluy, qızları – Fucin bəyi, Ciciğan, Alaqay bəyi, Tüməlün, Altəlün.

Onun ikinci arvadı Kulan-Xatundan Kulkan adlı, üçüncü arvadı, tatar tayfasından olan Yesukətdən Caur adlı oğlanları olmuşdu. Dördüncü arvadı-Çin hakiminin qızı Kuncu-Xatun və beşinci arvadı tatar tayfasından olan Yesukətin bacısı Yesülünün övladları haqqında Rəşid-əd-din heç bir məlumat vermir.

Çingiz xan gələcəkdə moğol hakimiyyətində ara müharibələri olmasın deyə göstərmişdi ki, mənim ölumümdən sonra hakimiyyətə ancaq Börtə-Fucindən olan oğlanlarım-Cuçi, Çağatay, Ugedey və Tuluy yiyələnə bilər. Çingiz xan və Cuçi hər ikisi 1227-ci ildə vəfat etdiyindən böyük xan vəzifəsinə Çingiz xanın üçüncü oğlu Ugedey seçilmişdir. Cuçinin ölümündən sonra isə ona məxsus olan torpaqlar oğlu Batı xanın ixtiyarına keçmişdir. Çingiz xanın dövründə təşkil edilmiş moğol dövlətinin paytaxtı Orxon çayının sahilində yerləşən Qaraqorum şəhəri idi.

Moğol tayfalarını birləşdirmək və mərkəzi hakimiyyəti möhkəmlətmək siyasəti yeridən Çingiz xan hələ 1206-cı ildə noyonların aratlar (kəndlilər) üzərində ağalığını təsbit edən Böyük Yasa (qanunlar məcəlləsi) elan etmiş, moğol tayfalarını hərbi-inzibati vahidlərə-minliklərə (bu vahidlər xanın tələbi ilə 1000 süvari əsgər verməli idilər) bölmüş, dövlətdə baş verə biləcək iğtişaşları yatırmaq üçün 10 minlik şəxsi qvardiya (keşik) yaratmışdı. Çingiz xan dəqiq bölgü-onluq, yüzlük, minlik, tümən (on minlik) və iri mərkəzləşdirilmiş idarə sisteminə malik güclü ordu yaratmış, müharibə aparılması və hərbi xidmətin təşkil olunması qaydalarını işləyib hazırlamışdı.

Dəqiq kəşfiyyat məlumatlar toplamaq, düşmənin qüvvələrini parçalamaq, çoxsaylı süvari qüvvələri ilə qəflətən hücuma keçmək Çingiz xan strategiya və taktikasının səciyyəvi xüsusiyyətləri idi.

Moğol dövləti az bir zamanda mərkəzləşərək böyük imperiyaya çevrilir və moğolların böyük işğalları başlayır.

1211-ci ilədək Cuçi Sibirdə yaşayan xalqları Çingiz xana tabe etdirir. Yuxarı Yenisey tərəflərdə yaşayan qırğızlar və başqa tayfalar, Baykal ətrafında yaşayan buryatlar və yakutlar itaət altına alınırlar. Şimal qərbdə Sibir torpağına qədər, yəni Tobol çayının İrtış çayına töküldüyü yerə qədər olan ərazilər moğol imperiyasının tərkibinə qatılır. Mərkəzi Asiyada, Çinin şimalında yaşayan uyğur türkləri də Çingiz xana tabe olurlar.

Moğollar 1211-ci ildə Çinin şimal əyalətlərinə girərək soxulurlar və 1215-ci ildə Pekini tuturlar. Çingiz xanın hakimiyyətinin sonuna kimi Pekin şəhəri də daxil olmaqla, Şimali Çin ərazisi moğol dövlətinə tabe edilir. Bundan sonra Şərqi Türkustan işğala məruz qalır.

1219-cu ildə Orta Asiyaya hücum başlayır. Həmin ilin payızında moğol qoşunları Otrar şəhərini mühasirəyə alırlar. Çingiz xan öz oğullarını burada qoyub, 1220-ci ilin fevralında Buxaraya yaxınlaşır. Qarnizon rəisi şəhəri başlı başına qoyub qaçır. Buxara təslim olur. Mart ayında Səmərqənd təslim olur. Əhalinin əksəriyyəti qılıncdan keçirilir. Altı ay müqavimətdən sonra Otrar da süqut edir. Xarəzmşah Məhəmməd qaçıb Xəzər dənizində bir adada gizlənir, çox keçmədən burada vəfat etir.

Məhəmmədin ölümündən sonra oğlu Cəlaləddin Xarəzmşah elan edilir. Lakin hərbi rəislərin ona qarşı qəsd hazırladığını bilən kimi, o, Xarəzmdən çıxıb getməyə məcbur oldu. Elə həmin ildə bir-birinin ardınca Ürgənc və Mərv şəhərləri də moğollara təslim olur.

Beləliklə, moğollar qısa müddət içərisində bütün Orta Asiyaya sahib olurlar.

Xarəzmşah Məhəmməd qaçan zaman Çingiz xan onun arxasınca Cəbə noyon və Sübutay bahadurun başçılığı altında otuz minlik qoşun göndərir. Həmin qoşunun məqsədi həm də Yaxın Şərq və Şərqi Avropa ölkələrinə kəşfiyyatdan ibarət olmuşdu.

### *§ 2. Moğolların Azərbaycana birinci yürüşü. Azərbaycan Xarəzmşah Cəlaləddinin hakimiyyəti altında*

Cəbə və Sübutayın qoşunları bütün Xorasan və Fars İraqının ərazisindən keçərək, yurdları dağıda-dağıda, əllərinə keçəni qarət edə-edə 1220-ci ilin payızında Azərbaycana soxulurlar. Ölkənin bir sıra yaşayış məskənlərini viran edib Təbrizə yaxınlaşırlar. O zaman Atabəy Özbək Təbrizdə otururdu və mənbələrin verdiyi məlumata görə o, gecə və gündüz sərxoşluqla məşğul idi.

Özbək öz elçisini sülh xahişi ilə moğolların yanına göndərir. Moğollar Özbəkdən Xarəzmşah Məhəmməd tərəfindən burada saxlanılan xarəzmlilərin qarni-

zonunun onlara verilməsini tələb edir. Özbək xarəzmlilərin bir hissəsini qırdırır və bir hissəsini isə moğollara təslim edir. Bundan əlavə Özbək moğollara pul, paltar və mal-qara göndərir.

O zaman Azərbaycanda dövlət rəhbərliyinin zəifliyi bir-birinin ardınca şəhərlərimizin işğalına səbəb oldu. Bu dövrdə hər şəhərin öz qornizonu-döyüşçüsü olduğu halda, onlar birləşib vahid şəkildə düşmənə cavab vermədikləri üçün, moğollar şəhərləri bir-bir talan edərək öz istəklərinə nail oldular.

Moğollar Muğandan keçərək Təbrizdən Arrana, oradan da Gürcüstana yönəlirlər. 1221-ci ildə 20 minlik moğol ordusu Tiflis yaxınlığında 10 minlik gürcü ordusunu darmadağın edir. Bu məğlubiyyətdən sonra Atabəy Özbək və gürcü çarı Georgi moğollara qarşı saziş bağlayırlar. Özbəyin Arrandakı canişini Nəsirəddin Ağquş xain çıxıb bu barədə moğollara xəbər verir və özü də qoşunu ilə birləkdə moğolların tərəfinə keçir. Bu vəziyyəti görən gürcü çarı 60 minlik atlı ilə Kotman-Girdıman yaxınlığında moğollara qarşı çıxır və bu döyüşdə də darmadağın edilirlər.

Moğollar Gürcüstandan ikinci dəfə Təbrizə qayıdırlar. Təbrizi müdafiə edən şəhər rəisi Şəmsəddin ət-Tuğrayi moğollara təzminat verməklə əhalini qırğından xilas edir. 1221-ci ilin martında moğol qoşunları Marağaya hücum edərək şəhəri ələ keçirir və əhalini vəhşicəsinə qılıncla doğrayırlar.

Moğollar tək Azərbaycanı deyil, bütün Zaqafqaziya və Ön Asiya ərazisində öz planlarını həyata keçirirdilər. Ona görə də Marağadan Suriya boyunca hərəkət edib Həmədana qayıdan moğollar şəhəri dağıdıb, oradan Ərdəbilə hücum edirlər. Ərdəbil əhalisini dəhşətli şəkildə qırdıqdan sonra üçüncü dəfə Təbrizə yürüş edirlər. Moğolların yenidən qayıtması xəbərini eşidən Özbək hərəmxanasını və uşaqlarını Xoya göndərir, özü isə tələsik şəhəri tərk edərək Naxçıvana, Əlincə qalasına yollanır. Əlacsız və müdafiəsiz qalan Şəmsəddin ət-Tuğrayi moğollara yenidən təzminat verərək şəhəri bu dəfə də qırğından xilas edir. Qırğınlardan və topladıqları var-dövlətdən gözləri doymayan moğollar Sərab istiqamətində yürüş edib, oranı dağıdırlar.

1221-ci ilin yazında Naxçıvan əhalisi moğolların qurbanı olur. Onlar şəhəri dağıdıb əhaliyə divan tutmağa başlayırlar. Rəşid əd-din yazır ki, Naxçıvan hakimi Xamuş öz günahını boynuna alıb moğolların yanına gələnə kimi qırğın davam edirdi.

Moğollar heç bir yerdə qalmaq, dayanmaq istəmirdilər. Onları ancaq yeni qarətlər, təzminat toplamaq və s. düşündürürdü. Odur ki, moğol dəstələri Naxçıvandan Beyləqana hərəkət edirlər. 1221-ci ilin oktyabr ayında Beyləqan mühasirəyə alınır. İbn əl-Əsir yazır ki, şəhər əhalisi sülh bağlamaq üçün moğollardan elsi tələb etdilər. Elçi gələn kimi onu şəhərdə öldürdülər. Qəzəblənən moğollar hücuma keçib Beyləqanı tutdular. Onların qılıncı elə işləyirdi ki, şəhərdə bir nəfər də olsun qoca, qadın və uşaq qalmadı. Moğollar elə həddə çatmışdılar ki, hamilə qadınların qarnını parçalayır, hətta əvvəlcə onları zorlayır, sonra öldürürdülər.

Moğollar Beyləqandan sonra onlar Gəncəyə yaxınlaşırlar Gəncənin qala divarları ilə möhkəm olduğunu, əhalinin mərdliyini nəzərə alan moğollar orada qo-

şun itirməmək üçün yalnız təzminat alıb buradan 3-cü dəfə Gürcüstana yönəlirlər. Döyüşə yaxşı hazırlaşmalarına baxmayaraq gürcülər 30 min əsgər itirərək məğlub olurlar.

Gürcüstandan dönən moğollar 1222-ci ildə Şirvanın paytaxtı Şamaxını mühasirəyə alırlar. Şamaxılılar şəhərin müdafiəsinə yaxşı hazırlaşmışdılar. Qala divarlarının ətrafında xəndəklər qazılmış və su ilə doldurulmuşdu. Lakin bunlara baxmayaraq, moğollar çoxlu mal-qara öldürüb xəndəklərə doldururlar. Üç gün gərgin döyüşlər davam etsə də, xəndəklədə doldurulan cəsədlər çürüyüb aşağı yatdığından şəhərə hücum zəifləyir. Lakin özlərində güc toplayan moğollar daha güclü hücumla şəhəri alıb çoxlu adam qırırlar.

Moğol qoşunları buradan şimal istiqamətində yönələrək Dərbənddən keçərək geri qayıtmağı qərara alırlar. Onlar bilirdilər ki, Dərbənd çox güclü müdafiə olunur, Odur ki, onlar hiyləyə əl atırlar. Belə ki, Şirvanşaha xəbər göndərib, onunla sülh bağlamaq niyyətində olduqlarını bildirirlər. Təklifi qəbul edən Şirvanşah on nəfərlik elçi heyəti göndərir. Onlar elçilərdən birini öldürür, doqquzunu isə məcbur edirlər ki, Dərbənddən keçən gizli yolu onlara göstərsin. Beləliklə, Dərbənd keçidindən şimala keçən moğolların Azərbaycana birinci yürüşü sona çatır. Onlar 1223-cü ildə Kalka çayı sahilində qıpçaq qoşunlarını əzib, oradan Krıma soxulurlar. Krımdan isə Volqa bulqarlarının üzərinə hücum edirlər. Yaxşı möhkəmləndirilmiş bulqar şəhərlərini tuta bilməyən moğollar Volqanın aşağı axarlarından keçərək Orta Asiyaya qayıdırlar.

Moğolların birinci yürüşü haqqında o dövrü öz gözləri ilə görərək qələmə almış İbn əl-Əsir bu barədə belə yazır: «Bu hadisə çox ağır və iyrənc olduğu üçün mən bir neçə il bunu yazmaqdan çəkindim...Kaş anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım. Bütün xalqların, xüsusilə müsəlmanların düçar olduğu bu müsibət elə bir müsibətdir ki, gecələr və gündüzlər onun mislini doğmamışdır. Bunlar bir nəfəri də salamat qoymadılar: arvadları da, kişiləri də, uşaqları da-hamısını öldürdülər. Hamilə arvadların qarnını yarıb, çağalarını da çıxarıb öldürdülər».

İbn əl-Əsir sözünə davam edir: «Bunların dininə gəldikdə Günəş doğarkən ona səcdə edərlər, heç bir şeyi haram saymazlar, bütün dördayaqlı heyvanları, hətta iti, donuzu və qeyrilərini yeyərlərdi. Nigah tanımazdılar, arvad bir neçə kişinin əlindən keçdikdən sonra alardılar. Anadan olan uşaq atasının kim olduğunu bilməzdi».

Yaqut əl Həməvi yazır ki, «Mən Ərdəbili tərk etdikdən sonra tatarlar şəhərə basqın etmiş və əhalini qırmışlar...Tatarlar şəhəri ələ keçirib...gözə görünən bir kimsəni salamat buraxmadılar...Şəhəri köklü şəkildə dağıtdıqdan sonra tatarlar çıxıb getdilər. Şəhər isə uzun illər dəhşətli bir dağıntı içində qalmışdı və əhalisi yox idi. Ancaq indi şəhər özünün qabaqkı görünüşünə qayıtmış, hətta bir az daha yaxşı olmuşdur. İndi o tatarların əlindədir».

Moğollar Azərbaycanı tərk etdikdən sonra 1223-cü ildə şimaldan 50 minlik qıpçaq ordusu Şirvana hücum edir. Qıpçaqları Şirvanda darmadağın edən gürcülər Azərbaycana basqın edirlər. Bu dəfə gürcülərin törətdiyi qırğın moğollardan artıq

idi. Onlar onsuz da dağılmış Azərbaycanı talayıb geri qayıdırlar. Gürcülər 1225-ci ildə yenidən Azərbaycana hücum edirlər. Lakin bu dəfə məğlub olub geri çəkilirlər. Gürcülərin bir daha yürüşə hazırlıq vaxtı Xarəzmşah Cəlaləddinin qoşunları Azərbaycan sərhədlərinə toplanmışdı.

Orta Asiyanı işğal etdikdən sonra Xarəzmşah Məhəmmədin oğlanları cənuba və qərbə doğru hərəkət etməyə başlayırlar. Məhəmmədin oğlu Qiyasəddin Pirşah Fars İraqını tutub, 1224-cü ildə Azərbaycana yürüş edir. Atabəy Özbək Pirşahın hüzuruna bir neçə elçi göndərib sülh bağlamağı xahiş edir. Pirşah sülh şərtlərini qəbul edərək, Atabəyin bacısı, Naxçıvan hakimi Cəlaliyyə ilə evlənir. Pirşah buradan Reyə çəkilir.

Bu zaman Hindistandan gəlmiş Məhəmmədin o biri oğlu Cəlaləddin Manqburnu xəlifə Ən-Nəsiri xəbərdar edərək öz qoşunlarını Bağdada tərəf yönəldir. Çünki, Cəlaləddinə xəbər vermişdilər ki, Xarəzmşahlarla müharibə etmək üçün xilafət moğolları köməyə çağırıb.

Cəlaləddinin qoşunları İraqa doğru irəliləyir. Qoşunun bir hissəsi Bəsrəyə çatır. Bəsrənin iki aylıq mühasirəsindən sonra Cəlaləddin qoşununu geri çəkir və xəlifə qoşunları ilə üz-üzə gələrək, onları məğlub edir. 12 gün Bağdad ətrafında qalan Cəlaləddin oradan Azərbaycana gəlir.

1225-ci ilin may ayında Cəlaləddinin qoşunları Marağanı tutur. O. Marağadan Təbrizə-Özbəyin Təbrizdəki canişini rəis Şəmsəddin ət-Tuğrayiyə məktub yazaraq öz qoşunlarının Təbrizə girməsinə və azuqə toplamasına icazə istəyir. Bunun ardınca o, Təbrizə hücum edir. 7 günlük mübarizədən sonra 1225-ci ilin iyul ayının 15-də Təbriz Cəlaləddin tərəfindən tutulur. Bu zaman şəhərin müdafiəsinə Şəmsəddinin qardaşı oğlu Nizaməddin ət-Tuğrayi başçılıq edirdi. Atabəy Özbək özü Gəncəyə qaçmışdı.

Cəlaləddinin Azərbaycanı işğal etməsi, həm də qisas almaq kimi qiymətləndirilməlidir. Çünki moğolların birinci yürüşü zamanı Özbək xarəzmlilərin qornizonunun bir hissəsini onlara vermişdi. Təbrizdə olarkən Cəlaləddin rəis Şəmsəddin ət-Tuğrayini şəhərin başçısı təyin edir, özü isə Atabəy Özbəyin arvadı Məlikə-Xatunla evlənir. Cəlaləddin oradan gürcülərə qarşı döyüşə çıxır. Dvini tutduqdan sonra o, Qarnidə gürcü qoşunları ilə üz-üzə gəlir. 60 minlik gürcü ordusu ilə döyüşdə o, qalıb. Gürcülər 20 min döyüşçü itirirlər və ağır məğlubiyyətə düçar olurlar.

Təbrizdə qalan Cəlaləddinin vəziri Şərəf əl-Mülk Təbriz əhalisinin Tuğrayi nəslinə olan hörmətini qəbul edə bilməyib onları sultanın gözündən salmaq üçün şər ataraq bildirir ki, onlar təbrizliləri xarəzmlilərin üzərinə qaldırmaq istəyirlər. Tezliklə Nizaməddin ət-Tuğrayi edam olunur. Şəmsəddin ət-Tuğrayi isə həbsə atılır. Yalnız 1228-ci ildə sultan peşiman olub Şəmsəddini yenidən Təbrizə canişin təyin edir.

Atabəy Özbək Gəncədən Naxçıvana gələrək Əlincə qalasında gizlənmişdi. O, burada arvadı Məlikə-Xatunun Cəlaləddinə ərə getdiyini eşidib, 1225-ci ildə bir neçə gündən sonra ölür. Bununla da Azərbaycan Atabəyləri dövləti süqut edir.

Atabəylərin hakimiyyəti altında olan ərazilər-Azərbaycan, Arran, Şirvan Cəlaləddinin hakimiyyəti altına keçir. Cəlaləddin, həmçinin, Atabəyin bacısı Cəlaliyyə ilə də evlənərək, onun torpaqlarına toxunmur.

1228-ci ildə 50 minlik qıpçaq qoşunları ilə birlikdə Cəlaləddin Dərbəndi mühasirəyə alır. Lakin bir müddətdən sonra bunun mənasız olduğunu görərək o, oradan ikinci dəfə Gürcüstana yürüş edir. Gürcü kraliçası Rusudana onlara qarşı qoşun çıxarır. Lakin onlar məğlub olurlar. Gürcüstan ikinci dəfə dağıdılır. Cəlaləddin buradan Xilat qalasına hücum edib onu mühasirəyə alır. İl yarımlıq mühasirədən sonra 1230-cu il aprelin 14-də qala təslim olur. Xilatın alınması Cəlaləddinin son qələbəsi idi.

Bu qələbədən qorxuya düşən Konya, Dəməşq, Hims, Hələb, Bənyəs və s. Sultanları Cəlaləddinə qarşı vuruşmaq üçün müqavilə bağlayırlar. 1230-cu ilin avqustun 10-da döyüşdə Xarəzmşahın ordusu darmadağın edilir. Cəlaləddin Xilatda gizlənir, sonra qalan ordusu ilə Azərbaycana qayıdır.

Yassı-Çəməndə Cəlaləddinin məğlub olması xəbərini ismaililərin başçısı Əlaəddin Azərbaycan sərhədlərinə toplanmış moğollara çatdırır. Moğollar 1231-ci ilin oktyabrında Azərbaycana soxulurlar.

Cəlaləddin bir neçə min döyüşçü toplayaraq moğollarla döyüşmək üçün Ağdam yaxınlığında Qarqarçay sahilində məskən salır. Moğol elçisi Cəlaləddinə təslim olmaq təklif edir. Cəlaləddin isə onun öldürülməsi əmrini verir və Gəncəyə çəkilir. Bu zaman Gəncədə xarəzmlilərə qarşı üsyan qalxmışdı ki, ona da sənətkar Bəndər başçılıq edirdi. Sultan bir neçə gün onlara təslim olmaq təklifi göndərir, amma bunun nəticəsi olmur. Gəncəlilər qaladan çıxaraq sultanın qoşunları üzərinə hücum çəkirlər. Qüvvələrin qeyri-bərabərliyi sultanın qələbəsi ilə nəticələnir. Bəndər başda olmaqla 30 nəfər həbs edilir. Onların hamısının boynu vurulur. Bəndərin isə bədəni tikə-tikə doğranır.

Cəlaləddin 17 gün Gəncədə qalır. Heç kəsin ona kömək etmədiyini görüb Kiçik Asiyaya yollanır. Yolda moğollar sultan qoşunloarını mühasirəyə alırlar. Sultan yoldaşlarından ayrı düşərək dağlara qaçır. Kürdüstanda – Məyəffəriq əyalətinin Əyinbər kəndi yaxınlığında kürdlər Sultanı ələ keçirirlər. Əvvəl onu öldürmək istəmirlər. Lakin, qardaşı xarəzmlilər tərəfindən öldürülən bir kürd Cəlaləddini nizə ilə öldürür.

İbn əl-Əsir belə yazır: «Cəlaləddin çirkin rəftarlı adam idi, ölkəni pis idarə edirdi. Onun düşmənçilik etmədiyi, torpağına basqın etmədiyi bir qonşu hakim qalmamışdı. Hamı üçün arzuedilməz qonşu idi. Buna görə də onlar hamısı onu tərk etdilər və kömək əli uzatmadılar».

İbn əl-Əsirdən 50 il sonra yaşamış İbn Vasil yazır ki, «Allah Cəlaləddini öz günahlarına görə cəzalandırdı və ona möhlət vermədi, onu kökləri ilə bərabər çıxartdı. Bununla belə onun həlakı müsəlmanların moğollar tərəfindən məhv edilməsinə bais oldu...››

### *§ 3. Moğolların Azərbaycana ikinci yürüşü və Azərbaycanda moğol ağalığı*

1231-ci ilin oktyabr ayında moğol qoşunları ikinci dəfə Azərbaycana soxulurlar. Bu zaman onlara Çormoqon noyon başçılıq edirdi. 90000-lik moğol ordusu Marağaya soxulur. Marağada nisbətən az qırğın edərək Təbrizə yollanırlar. Onlar Təbrizə yaxınlaşan zaman Şəmsəddin ət-Tuğrayi qəfildən ölür. Şəhərin müdafiəsini təşkil edən olmadığı üçün Təbriz şəhəri müqavimətsiz moğollara təslim olur.

Təbrizin alınması bir birinin ardınca Azərbaycan şəhərlərinin işğalına səbəb olur. Həm də artıq o dövrdə Azərbaycanda moğollara qarşı çıxa biləcək heç bir mərkəzləşmiş qüvvə yox idi.

1232/1233-cü illərdə moğollar Naxçıvana yürüş edib şəhəri dağıdırlar. Moğolların hücumundan bir neçə il sonra Naxçıvanda olmuş Vilhelm de Rubruk gözü ilə gördüyü həmin mənzərə haqqında yazır: «Moğollar şəhəri demək olar boş səhraya çevirdilər». Məhəmməd Naxçıvani yazır ki, Naxçıvan şəhərinin altıda beş hissəsi demək olar ki, tamamilə boşalmış və dağıdılmışdır. Orta əsr müəlliflərinin dili ilə desək moğol qoşunları Naxçıvanı dağıdıb, xarabazara çevirmiş və onun əvvəlki «Nəqşi-cahan»ını pozmuşdular.

Moğollar hərəkət edərək 1235-ci ildə Gəncəni mühasirəyə alırlar. Gəncəli Kirakos bu hücumu belə təsəvvür edir: «Birdən birə tatar qoşunları şəhərə basqın etdilər. Onlar şəhəri hər tərəfdən mühasirəyə aldılar, onlar döyüşə başladıqda çoxlu daş atıb dağıdan qurğulardan istifadə edirdilər... Sonra... şəhər divarları hər yandan uçuruldu. Ancaq yağılardan heç kəs şəhərə girmədi, onlar bir həftə ərzində yaraq altında şəhəri mühasirədə saxladılar... Hər kəs öz evinə qapanıb özləri ilə birlikdə evlərini yandırdılar ki, barı yağıların əlinə düşməsinlər... Bunu görən yağılar daha çox qəzəblənərək qılınclarını işə salıb, hamını doğradılar, qadınları da, kişiləri də, uşaqları da. Onlardan heç kəs canını qurtara bilmədi... Dörd il şəhər adamsız və dağıdılmış bir vəziyyətdə qaldı...

Gəncəni aldıqdan sonra moğollar Şəmkiri mühasirəyə alırlar. Uzun müddətli mühasirədən sonra şəhər alınır. Onlar şəhəri yandırıb, əhalini qılıcdan keçirirlər. Bunun ardınca Tovuz və Bakı şəhərləri də təslim olur. 1239-cu ildə Dərbənd alınmaqla moğollar Azərbaycanı başdan başa işğal edirlər.

Rəşid-əd-din yazır ki, Çingizin sərkərdələri... şəhər əhalisini 5-10 gün çölə qovurdular. Şəhərin talanması başa çatdırıldıqdan sonra işğalçılar həmin şəhərliləri cəzalandırırdılar. Onlar əvvəlcə hərbi adamları ayırıb öldürür, onların ailələrini isə kölə edirdilər.

Moğol işğalı nəticəsində Şərqi Avropada yeni böyük dövlət yaranır ki, rus məxəzlərində bu dövlət «Qızıl Orda», Şərq məxəzlərində isə «Cuçi ulusu», «Dəşti Qıpçaq» və ya «Göy Orda» adı ilə məlumdur.

Çingiz xanın ölümündən (1227) sonra moğollara tabe olan torpaqlar onun 4 böyük oğlu arasında bölüşdürülür. Beləliklə, dörd ulus yaranır. Hər ulusun öz müstəqil hakimi olur. Sonralar Azərbaycan, Ermənistan və Gürcüstan Qızıl Orda ulusuna daxil edilir. Bu ulusda Cuçilər sülaləsi hökmranlıq edirdi.

Böyük moğol xanı Ugedeyin dövründə (1229-1241-ci illər) böyük imperatorluq katibliyinin «rəisi» olmuş Yelüy Çutsayın dövlətçilik və idarəçilik islahatları haqqında məcmuə yazılmışdı.

1239-cu ildən sonra Azərbaycan, Ermənistan və Gürcüstana iri moğol feodalı Arqun ağa moğol xaqanının canişini təyin edilir.

Mənbələrdən göründüyü kimi Arqun ağa(1239-1256) bu üç ölkəyə hülakülərin hücumunadək ağalıq etmişdir.

### *§ 4. Hülakülərin Azərbaycanda hakimiyyəti. Moğolların süqutu*

1253-cü ildə moğol xaqanı — Çingiz xanın nəvəsi, Tuluy xaqanın oğlu Münkə Qabaq Asiyada istilaları davam etdirmək üçün 120000 böyük ordu göndərir. Yürüşə onun qardaşı Hülakü xan başçılıq edirdi. Hülakü xan 1256-cı ildə Azərbaycanı tutur.

1257-ci ildə Münkə xaqan vəfat edir. Bütün hakimiyyət onun qardaşı Hülakü xanın əlinə keçir. Onun qoşunları 1258-cı ildə Bağdadı alırlar. Döyüşə Hülakü xan özü və onun sərkərdəsi Baqu rəhbərlik edirdi. Müasirlərin yazdığına görə Bağdadda qırğın 40 gün davam edir. 508 il davam edən Abbasilər sülaləsinin son nümayəndəsi əl-Müstəsim öldürülür. Beləliklə, İraq-i ərəb, İraq-i əcəm, Gürcüstan, Ermənistan, Azərbaycan, Fars, Kiçik Asiya, Rum, Kürdüstan, Kirman, Xorasan, Xuzistan və digər ölkələr daxil olmaqla Hülakülər dövləti yaranır. Amu-Dəryadan Aralıq dənizinə, Dərbənddən İran körfəzinə qədər olan ərazidə yeni — 5-ci ulus yaradılır. Bu dövlətin hökmdarları Elxan rütbəsi daşıyırdı.

Hülakü xan (1256-1265-cı illər) 1260-cı ildə Azərbaycanda məskən tutur. Ölkənin paytaxtı Marağa, Təbriz və XIV əsrdə Sultaniyyə şəhərləri olur.

Hülakilər Cuçilər dövlətinin qanunlarının onların tutduqları ərazilərə aid olmadıqlarını bildirdikləri üçün tez-tez Qızıl Orda xanları ilə Hülakülər arasında qanlı toqquşmalar baş verirdi ki, Azərbaycan məhz bu toqquşmalarda ən çox zərər çəkən ölkələrdən olmuşdu. Qızıl Ordalılar 1262, 1265, 1288, 1290, 1318 və b. illərdə Azərbaycana basqınlar etmişdilər.

Hülakü xanın və onun oğlu Abaqa xanın (1265-1282-ci illər) hakimiyyəti dövrlərində dövlətin iqtisadi, hərbi, siyasi və inzibati qüdrəti kifayət qədər möhkəm olduğundan köçəri feodallar Elxana qarşı çıxmağa cürət etmirdilər. XIII əsrin 60-cı illərində Gürcüstan və Azərbaycanda moğollar əleyhinə Elxana xidmət etməkdən boyun qaçıran feodalların başçılığı altında üsyanlar baş versə də, Hülakü xan böyük qoşun göndərib bu üsyanları qan dəryasında boğurdu.

Sara Aşurbəyli «Şirvanşahlar dövləti» əsərində yazır ki, Şirvanşahlar dövləti Elxanilərdən vassal asılı dövlət idi. Lakin Hülakü xanın hakimiyyəti illərində Şirvan xüsusi nəzarət altında saxlanılırdı. Şirvanşah II Axsitan 1260-cı ildə Hülakü xanın əmri ilə öldürülür.

Hülakü xan II Fərruxzadı Şirvana hakim təyin edir. Göründüyü kimi, Hülakü xanın və qismən də Abaqa xanın dövründə Şirvanşahlar dövləti vassal dövlət kimi yox, heç bir hüququ olmayan dövlət kimi fəaliyyət göstərirdi.

Abaqa xanın ölümündən sonra feodallar arasında ziddiyyətlər kəskinləşir və qardaşı Tekudar Əhməd (1282-1284-cü illər) dövründən başlayaraq şahzadələr hakimiyyət uğrunda mübarizəyə başlayırlar. Bu mübarizələrdə dövlətin hərbi qüvvələrinə başçılıq edən baş əmirlər və idarə sistemində yüksək vəzifələr tutan dövlət əyanları əsas rol oynayırdılar. Feodal ara müharibələri nəticəsində Abaqa xanın oğlanları Arqun xanın (1284-1291-ci illər), Göyxatu xanın (1291-1295-cü illər) və Hülakü xanın nəvəsi Tarağayın oğlu Baydu xanın (1295) dövründə dövlətin daxili və xarici vəziyyəti daha da gərginləşir.

Arqun xanın oğlu Qazan xan (1295-1304-cü illər) hakimiyyəti dövründə vəziyyəti nizama salmaq məqsədilə bir sıra islahatlar, o cümlədən müsəlman ruhaniləri və yerli feodallarla yaxınlaşmaq üçün dini islahat həyata keçirir, islam dinini qəbul edir. Qazan xanın islahatları Hülakülər dövlətinin müvəqqəti möhkəmlənməsinə səbəb olur. Bu vəziyyət Qazan xanın varisi Məhəmməd Ölcaytunun (1304-1316-cı illər) hakimiyyəti dövründə də davam edir. O, Qazan xanın bütün qanunlarının qüvvədə qaldığı barədə yarlıq verir. Əmir əl-Üməra vəzifəsinə Qutluqşah, onun ölümündən sonra isə Çoban təyin edilir. Məhəmməd Ölcaytu vassalları üzərində hakimiyyətini möhkəmlədə bilir. Gilan, Herat və s. ərazilər yenidən Elxanilər dövlətinə qatılır. Onun ölümündən sonra isə vəziyyət kəskin sürətdə dəyişir.

Göyxatu xanın nəvəsi, Xudabəndənin oğlu 12 yaşlı Əbu-Səidin hakimiyyət (1317-1335-ci illər) başına gəlməsi bir çox feodalların mərkəzdənqaçma və müstəqilliyə can atmalarına səbəb olur.

Əbu-Səidin hakimiyyətinin ilk illərində dövlətin bütün işləri Sulduz tayfasından olan Çobanın əlində cəmləşir. O. Hülakülər dövlətinin faktiki hakiminə çevrilir. Əbu-Səid tamamilə Çobandan asılı vəziyyətə düşür. Dövlətdə bütün vəzifə başında oturanlar Çobani əmirləri olurlar. Hakimiyyətin Çobanın əlində cəmləşməsi bir sıra feodalları narahat etməyə başlayır. Mərkəzi hakimiyyətə qarşı mübarizə güclənir. 1320-ci ildə Gürcüstanda Qazan oğlan, 1322-də Rumda Dəmir-Daş padşah elan olunurlar. Həmin üsyanların yatırılmasına baxmayaraq, ölkədə vəziyyət sakitləşmir.

Çobani əmirlərinin yüksəlməsindən narahat olmağa başlayan Əbu-Səid onlara qarşı mübarizəyə başlayır və 1328-ci ildə Çobanı öldürtdürür.

1329-cu ildə Xorasanda Narın Toğayın, 1334-cü ildə Sultaniyyədə bir qrup feodalın başçılığı ilə üsyan qalxır. 1335-ci ildə Qızıl Orda xanı Özbək Azərbaycana hücum edir. Onlara şarşı döyüşmək üçün Əbu-Səid Qarabağa gəlir və burada zəhərləndirilərək (01 dekabr 1335-ci il) öldürülür.

Əbu-Səidin ölümündən sonra ölkədə qoşa və çoxpadşahlıq meydana gəlir. 1336-1344-cü illərdə dövlətin müxtəlif vilayətlərində 8 şahzadə padşah elan olunur. Həmin ildə Şeyx Həsən Cəlairinin (ona Şeyx Həsən Bozorq–«Böyük» deyir-

dilər) 1340-cı ilin sonunda Cahan Teymuru taxtdan salıb Bağdadda müstəqil Cəlairlər dövləti yaratması buna misaldır.

Əbu-Səidin ölümündən sonra Rumda Qala Hasar qalasında olan çobanilər Şeyx Həsən Çobaninin başçılığı ilə mübarizəyə qalxıb Azərbaycanda hakimiyyəti ələ keçirə bilirlər. Şeyx Həsən Çobani Hülakülər dövlətinin mühafizəsinin əsas tutur, şəhzadələrdən Satıbəy Xatunu (1339-1340-cı illər) və Süleyman xanı (1340-1344-cü illər) padşah elan edərək Azərbaycan, İraq-i Əcəm, Həmədan, Kəşan, Rey, Gürcüstan faktiki hakimiyyət sürürdülər. Onların əsas rəqibləri Cəlairilər və Xorasan əmirləri idi.

Hülakülər səltənətini mühafizə etmək bəhanəsi ilə aparılan mübarizələrdə Çobanilərin, Cəlairilərin və Xorasan əmirlərinin başçılıq etdikləri feodal qrupları daha fəal iştirak edirlər.

Ara müharibələri nəticəsində Hülakülər dövləti müxtəlif hissələrə parçalanır. Cəlairilər-Bağdadda, Xorasan əmirləri-Xorasanda, Çobanilər isə Azərbaycanda möhkəmlənirlər. Lakin Çobanilər Cəlairilərdən fərqli olaraq müstəqil dövlət-Çobanilər dövləti təsis edə bilmirlər.

Əbu-Səiddən sonra altı ay hakimiyyətdə olmuş Arpa xan (1335-1336-cı illər), dörd ay hakimiyyət sürmüş Musa xan (1336-cı il), iki il padşah olmuş Məhəmməd xan (1337-1338-ci illər), Satıbəy (1339-1340-cı illər), Süleyman xan (1340-1344-cü illər) faktiki hakim olsalar da, ölkəni Çobani əmirləri idarə edirdilər. Lakin Şeyx Həsən Çobani və qardaşı Məlik Əşrəf (1344-1357-ci illər) öz hakimiyyətlərini hüquqi cəhətdən Hülakü şahzadələrinin adı ilə qanuni şəklə salmalı olurdular.

1339-1340-cı illərdə Elxanilər dövlətinin ərazisi müxtəlif feodal qruplarının mübarizəsi nəticəsində parçalanır. Azərbaycan və qonşu vilayətlər Satibəy xatunun, İraq-i Ərəb Cəlairi Şeyx Həsənin, Xorasan Toğa Teymurun, Rum Əmir Ərtinayın, Mosul və Diyarbəkr İbrahim şah bin- Sənitənin, Şiraz, İsfahan və Fars əyalətləri sultan Əbu İshaqın, Yəzd və Kirman vilayətləri Məhəmməd şah bin Müzəffərin əlinə keçir.

Cəlairi Şeyx Həsən 1340-cı ildə Cahan Teymuru hakimiyyətdən kənar edib müstəqil Cəlairilər dövlətinin əsasını qoyur. 1343-cü ildə Şeyx Həsən Çobani öldürüldükdən sonra Azərbaycanda daxili vəziyyət daha da gərginləşir. 1344-1355-ci illərdə Ənuşirəvan hökmdar elan edilir. Ölkəni faktiki olaraq Məlik Əşrəf idarə edirdi. O, 1356-cı ildə Ənuşirəvanı Həsən xanla əvəz edir (1356-1357-ci illər).

Məlik Əşrəf 1357-ci ildə Azərbaycana hücum etmiş Qızıl Orda xanı Canibəy tərəfindən öldürülür. Ölkədə hakimiyyət Cani bəyin oğlu Qızıl Ordalı Bərdi bəyin əlinə keçir. Əbu Bəkr əl-Qütbi əl-Əhəri yazır: «Onun hakimiyyəti iki aya çatmadı. Onun nəsəbi Bərdi bəy bin Canı bəy, bin Özbək, bin Toğrulca, bin Menku Temir, bin Noqay, bin Batu, bin Cuçi bin Çingiz xandır».

Beləliklə 1357-ci ildə Elxanilər dövləti tam süqut edir. Azərbaycan müvəqqəti olaraq Qızıl Orda dövlətinin tərkibinə daxil olur.

## *§ 5 Moğolların idarəçilik sistemi*

Hülakülər dövləti Yaxın və Orta Şərqdə geniş ərazini əhatə edirdi. Bu dövlətin sərhədləri Misirdən Amu-Dərya çayına, Hörmüz körfəzindən Dərbəndə (Bab əl-Əbvaba) qədər uzanırdı. Hülakülər dövlətinin tərkibinə Azərbaycan, İraq-i ərəb, İraq-i əcəm, Kirman, Gürcüstan, Kiçik Asiya (Rum), Ermənіyə, Kürdüstan, Fars, Xuzistan, Xorasan və s. vilayətlər daxil idi.

XIII əsrin ortalarında Hülakülər dövlətinin təsisi Ön Qafqazda vilayətlər arası sərhədlərin sabitləşməsinə, nisbətən dəqiq sərhəd zonalarının müəyyənləşməsinə səbəb olur və kiçik təbəddülata baxmayaraq, bu vəziyyət Qaraqoyunlular dövlətinin təsisinə kimi davam edir. Azərbaycan Hülakülər-Elxanilər dövlətinin mərkəzi vilayəti, Marağa və Təbriz isə həmin dövlətin müxtəlif dövrlərdə paytaxtı olmuşdu.

Moğol, türk tayfalarının Azərbaycanda məskunlaşması və Hülakülər dövlətinin təsisi ölkənin ictimai-iqtisadi və siyasi həyatı ilə yanaşı, onun idarə sisteminə və dövlət quruluşuna da təsir göstərmişdi. Azərbaycanda iki dövlət quruluşunun—yerlilərə və köçərilərə məxsus dövlət quruluşlarının çuğlaşması və qarşılıqlı təsiri nəticəsində yeni, nisbətən inkişaf etmiş, təkmilləşmiş dövlət quruluşu və idarə sistemi yaranır. Yeni sistem özündə hər iki dövlət quruluşunda olan ən yaxşı müsbət cəhətləri cəmləşdirirdi. Dövrün kamil idarə sistemlərindən sayılan həmin sistem ölkənin siyasi, ictimai, mənəvi həyatı və təsərrüfatının bütün sahələrinin idarəsini özündə birləşdirirdi.

Təsərrüfatın idarəsi «Divan sistemi» üzrə təşkil edilmişdi. Mərkəzi dövlət divanına vəzir və onun naibi başçılıq edirdi. Buraya iyirmidən artıq sahə üzrə divanlar tabe idi. Maliyyə sisteminə mustovfi baxırdı. Mühasibat işləri yeddi dəftər əsasında aparılırdı. Bu dəftərlərdə maliyyə sahəsində baş vermiş gündəlik hadisələr, təsərrüfatın müxtəlif sahələri üzrə hesabatlar, mərkəzi divana aid xərclər, vilayət və şəhərlər üzrə qeydlər, ölkənin qanun toplusu və s. cəmləşmişdi. Təbrizə aid dəftər başqa şəhərlər üçün ölçü, nümunə rolunu oynayırdı.

Hülakülər dövlətində hərbi idarə sisteminə, təsərrüfata nisbətən üstünlük verilirdi. Dövlətin hərbi qüvvələri baş əmirin ixtiyarında idi. Baş əmir dövlətin dörd yüksək rütbəli əmiri arasında seçilir və Elxan tərəfindən təsdiq edilirdi. Qalan 3 əmir «qol əmirləri» adlanırdı. Dövlət fərmanlarında hökmdardan sonra bu dörd əmirin adı, sonra isə vəzirin adı yazılırdı. Baş əmirlər Hülakülər dövlətinin idarəsində həlledici rol oynamış və bəzən də dövlətin faktiki hakimi kimi fəaliyyət göstərmişlər.

Hülakülərin ədliyyə sistemi iki böyük hissəyə ayrılırdı. Şahzadələrə, köçəri feodallara, hərbi hissələrə aid mübahisələr Çingiz xanın "Yasa"sına əsaslanan "yarğu" məhkəmələrində, yerli əhaliyə aid mübahisələr isə qəza məhkəmələrində, şəriət qanunları əsasında aparılırdı. Yarğunun şəriət məhkəmələrinin işinə müdaxilə etməsi qanunla qadağan edilirdi.

Hülakülər dövlətinin başında səlahiyyəti məhdudlaşdırılmayan hərbi feodal mütləqiyyəti üsul-idarəsindən ibarət «Elxan» və ya «Sultan» dururdu. Səltənətə

Hülakü xanın nəslindən olan şahzadələr yiyələnə bilərdilər. İlk vaxtlarda şahzadələr Çingiz xanın "Yasa"sına əsasən qurultayda seçilir və Ali moğol xaqanlığı tərəfindən təsdiq olunurdular. Lakin bu proses XIII əsrin son rübündə formal xarakter alır və tədricən aradan çıxır. XIV əsrin ikinci rübündə Hülakülər səltənətinə feodal ara müharibələrində qələbə çalan feodalların irəli çəkdiyi şahzadələr sahib dururlar. Onlar tamamilə asılı vəziyyətdə olub, yalnız Azərbaycanda Hülakülər dövlətinin mövcud olduğunu nümayiş etdirirdilər.

Ölkənin baş qazısı dini işlərin idarəsinə cavabdeh idi. Onun sərəncamında «Qazılar dördlüyü», vilayət və şəhər qazıları işləyirdilər. Baş qazı şəriət qanunları əsasında mühakimələr aparır, dini baxışların genişlənməsi, gəlirlərin artırılması, xəzinənin və vəqf əmlakının mühafizəsi ilə məşğul olurdu. İctimai-iqtisadi və mədəni həyatın bir çox sahələri—zəkat və cizyə toplanması əhali arasında nizam intizamın qorunması, ticarətdə, pul dövriyyəsində əyintilərə yol verilməməsi, karvan yollarında əmin-amanlığın təmini, məscid, mədrəsə və tibb sahələrinin idarəsi dini idarələrin öhdəsinə düşürdü.

«Əmarət» (əmirlik) adlı təşkilatda dövlətin hərbi və inzibati idarələri cəmləşirdi. Qoşun tümənlərə (on minliklərə), minliklərə, yüzlüklərə və onluqlara bölünürdü. Və bunlar müvafiq əmirlər tərəfindən idarə olunurdu. Orduda inaq, bukaul, yasaul, yurdçu, bəlarğuçi, bəxşi və s. məmurların xidməti vəzifə səlahiyyətlərini yerinə yetirirdilər. Belə ki, inaqlar hərbi məsləhətçi idilər. Bukaullar divandan ayrılmış ixracatı və yürüşlərdən əldə olunan gəlirləri hərbi hissələr arasında bölməli, ordu hissələrinin təminatı ilə məşğul olmalı idilər. Yasaullar qoşun hissələrini döyüş meydanlarına aparıb onları döyüşə hazır vəziyyətdə saxlamalı idilər. Düşərgədə, yaylaq və qışlaqlarda padşahın və hərbi hissələrin yerləşdiyi məskənlər—yurdlar yurdçular tərəfindən salınırdı. Bəlarğüçi öz dəstəsi ilə qoşun hissələri çəkildikdən sonra döyüş meydanlarında, yurdlarda qalıb itkin düşmüş, azmış adamları, mal-qaranı və əşyaları toplayıb sahiblərinə çatdırmalı idi. Hərbi kargüzarlıq bəxşişlər tərəfindən aparılırdı.

İstifadəsiz torpaqların becərilməsi, tikintinin, ticarətin, sənətkarlığın, rabitənin və s. sahələrin idarəsi ilə məşğul olan xüsusi orqanlar—«Divan»lar Azərbaycanda fəaliyyət göstərirdi.

Hülakülər dövlətinin ərazisi vilayətlərə, onlar isə tümənlərə bölünmüşdü. «Tümən» hərbi və inzibati bölgü baxımından eyni ərazini əhatə edirdi. Azərbaycan müstəqil vilayət kimi doqquz tümənə bölünmüşdü və onların hər biri Azərbaycanın iri şəhərlərindən birinin adı ilə (məsələn: Təbriz tüməni, Ərdəbil tüməni və s.) adlanırdı. Vilayətlər iki nəfər tərəfindən idarə olunurdu. Vilayət hakimlərinin vəzifəsi mərkəzi hökumətin mənafeyini müdafiə etmək və göstərişləri yerinə yetirmək, sərhədləri qorumaq, təsərrüfatı idarə etmək, xalq hərəkatını və sinfi mübarizəni boğmaq idi.

Moğol uluslarında iki siyasi axın bir-biri ilə qarşılaşırdı. Bu axınlar hərbçi moğol əyanlarının mənafeyi ilə bağlı idi və çöl örüş davranışını sürdürüb davam etdirmək məramında dayanırdı. Birinci siyasi axının tərəfdarları kəndlilərin, sənət-

karların və başqa zəhmət adamlarının amansız istismarı ilə var-yoxdan çıxarılmasına, daimi təqib və terror altında saxlanılmasına çalışırdı. Bunlar oturaq təsərrüfata qayğı göstərmir, onun dirçəlməsini düşünmür, əksinə bir vaxt yüksək inkişaf yolu keçmiş əkinçilik yerlərini öz sürüləri üçün örüş və otlaqlara çevirməyə çalışırdı. Məhz bu qrupun inadlı tələbi ilə Çingiz xan köçəri moğolların oturaq həyata keçməsini ayrıca bir buyruqla qadağan etmişdi. Bu hərbçi mürtəce əyanlar əslində moğol dövlətinin də mənafeyinə düşmən idilər. Çünki dövlət şəhər və kənd əhalisinin əməyi ilə yaşayırdı. Bu axını təmsil edənlərin sırasında Çingiz xanın oğlu Cağatay, həmçinin, Cəbə, Subutay, Xubilay, Celme kimi sərkərdələr var idi.

İkinci axının mövqeyi üçün güclü mərkəzi idarəçiliyin, xan hakimiyyətinin yaranması, hərbi-köçəri əyanların mərkəzdən qaçma meylinin dəf edilib aradan götürülməsi başlıca yer tuturdu. Bu məqsədə nail olmaq üçün tabe edilmiş ölkələrin oturaq yerli əsilzadələri və şəhərlərin yüksək zümrə və təbəqələri ilə yaxınlaşmaq zəruri idi. Yalnız «örüş» siyasətini rədd etmək, şəhər və kənd təsərrüfatına münasibəti kökündən dəyişmək yolu ilə bu məqsədə yetişmək olardı. Çingiz xanın böyük oğlu Cuçi xan və o biri oğlu Ugedey öz atalarının qırğın siyasətini, tabe edilmiş ölkələrin tarmar və talan edilməsini pisləyirdilər. Cuçi narazılıqla söyləyirdi: "Çingiz xan bir çox xalqları məhv etməklə və bu qədər dövlətləri dağıtmaqla ağlını çaşmışdır. Mənə belə gəlir, atamı ovda öldürüb (Xarəzmşah) Sultan Məhəmmədlə yaxınlaşmaq, bu dövləti abad vəziyyətə gətirərək müsəlman xalqlarına kömək əli uzatmaq məqsədyönlü bir iş olardı».

Beləliklə, Hülakilər dövlətində XIII yüzilin 90-cı illərində «örüş siyasəti»nin həyata keçirilməsi moğol hakimiyyətinin özünü təhlükə qarşısında qoymuşdu. Odur ki, ümumi qanunvericilikdə islahatlar keçirilməsi zəruri idi.

Qazan xanın islahatlarından sonra Hülakülər-Elxanilər dövlətində idarəçilik və hüquq sistemi.

İslahat ideyasının meydana çıxmasının başlıca səbəbi bütün Orta və Yaxın Şərqdə Hülakü imperatorluğunun özülünün sarsılması idi. Həmçinin, yeni xəttin başbiləni Fəzlullah Rəşid-əd-din olmuşdu. O, keçiriləcək islahatların fəlsəfi özülünü qoymağa çalışır, rəiyyətə, əslində xərac ödəyəsi olan bütün kənd və şəhər əhalisinə qarşı «ədalətli» siyasət yeritmək fikrini düzgün müdafiə edirdi. Rəşid-əd-dinin fikrincə hər hansı bir dövlətin mədaxil xəzinəsi («Xəzineyi daxil») rəiyyət özüdür, onun halal zəhməti və çalışqanlığıdır. Rəiyyət soyulub vardan çıxarılarsa, hökmdarlara və xəzinəyə heç bir qazanc qalmaz. O, yazırdı: «Və işin kökünə baxsan, hər bir səltənətin özülü ədalətdir, çünki...dövləti ordu qazanır,—dövlətin ordudan başqa gəlir ağacı yoxdur, ordunu isə vergi (mal) hesabına saxlamaq olar,—vergisiz qoşun yoxdur, vergi isə rəiyyətdən alınır. Rəiyyətdən başqa vergi verən yoxdur, rəiyyəti isə ədalət hesabına saxlamaq olar. Ədalət yoxdursa rəiyyət də yoxdur».

Artıq dinc əhaliyə, xüsusilə rəiyyətə qarşı dövlət siyasətini kökündən dəyişdirmək zərurətini moğol hakim dairələrinin düşünən nümayəndələri də anlayırdılar. Yeddinci hülakü hökmdarı Qazan xan (1295-1304) öz sahibi-divanı Rəşid-əd-

dinlə bir mövqedən çıxış edirdi. Onun fikrincə, bütün işlər, gəlir və firəvanlıq rəiyyətin çalışqanlıq və əməyindən, əkinçilik və ticarət işlərindən asılıdır. Bununla o, hər hansı bir cəmiyyətin yaşayıb irəli getməsi üçün başlıca dayaq olan 3 sosial təbəqənin (rəiyyətin, sənətkarların və tacirlərin), kənd və şəhərlərin iş adamlarının əməyinə qayğı ilə yanaşmağı tələb edirdi. Onlara qarşı davranışın «Örüş siyasəti» üzərinə deyil, bir «müdrik», yumşaq siyasət üzərinə keçirilməsinə tərəf çıxırdı. Öz acgöz, hərbçi əmirlərinə üz tutaraq o söyləyirdi: «Əgər onların (kəndlilərin, bütün vergi ödəynlərin) hamısının ucdantutma talan edilməsi ağıllı bir iş sayılırsa, gəlin edək... Ancaq gələcəkdə rəiyyətdən taxıl (tağar) və süfrəniz üçün azüqə (aş) yığmaq gümanında olsanız və bunun üçün mənə müraciət etsəniz mən sizinlə amansız davranacağam. Siz gərək ağıllı başlı düşünəsiniz. Bir halda siz rəiyyəti incidərək onun qoşqu heyvanlarını və toxumunu əlindən alırsınız, çörək zəmisini tapdayıb yox edirsiniz, bəs onda gələcəkdə nə ilə dolanacaqsınız. Siz onların arvad və uşaqlarını döyüb işkəncə verirsiniz, bu barədə də gərək düşünəsiniz».

Qazan xanın Rəşid-əd-dinlə birlikdə keçirdiyi başlıca islahatlardan biri hərbi iqta torpaqları haqda 1303-cü il qanunudur. Bu qanuna görə qoşunda hərbi xidmətdə olan bütün moğol kişilərinə irsən atadan oğula keçən iqta verilirdi. Sosial hüququ baxımdan iqta torpaqlarını alan döyüşçülər kiçik torpaq sahiblərinə çevrilirdilər. İlkin elxanlar çağında iqta çox az adamlara, başlıca olaraq yüksək rütbəli qoşun başçılarına verilirdi.

Sıravi döyüşçü kütləsinə torpaq paylanmırdı. Bu kütlə bir qismi natural vergi ilə, bir qismi isə pul ilə ödənilən dolanışıq xərci hesabına yaşayırdı. Belə ödəniş daimi, aramsız səciyyə daşımırdı. Ancaq onun bu naqis cəhətləri yürüşlər zamanı yeni-yeni ölkə və vilayətlərdə ələ keçirilən qənimət hesabına ört-basdır edildiyindən açılmırdı. Qazan xanın hakimiyyətə gəldiyi XIII əsrin 90-cı illərində saysız qənimət və qazanc verən yürüşlər artıq kəsilmişdi. Buna görə döyüşçülər və bütün ordu içərisində böyük narazılıq yaranmağa başlamışdı. Ordunun narazılığı Hülakü dövlətinin bütün varlığını təhlükə qarşısında qoyurdu. Çünki boş xəzinə orduya aylıq vermək gücündə deyildi.

Torpaq almaqla kiçik feodallara çevrilən döyüşçülər kütləsinə 1303-cü il qanunu ilə böyük üstünlük və imtiyazlar verilirdi. Birincisi, yeni iqta sahibinə əvvəllər dövlət xəzinəsi xeyrinə ödənilən renta ilə yanaşı bütün vergiləri kəndlilərdən toplamaq hüququ verilirdi. İkincisi, ikta nəsil torpaq sahəsinə çevrilirdi bir şərtlə ki, atanın yalnız ordu xidmətində onun yerini tutub qulluq çəkən oğluna çatırdı. Üçüncüsü, əkin yeri suvarma qurğuları və s. ilə birlikdə həmin torpaqla bağlı olub, onu əkib becərən rəiyyətlər də torpaq sahibinin ixtiyarına keçirdi.

1303-cü il yarlığında ayrıca göstərilirdi ki, keçmiş incu və divan torpaqlarında kopçur və başqa vergilər ödəyən rəiyyətlər indi bu mükəlləfiyyətləri öz yeni ağalarına ödəməlidirlər. Yarlıqda yazılmışdır ki, moğol döyüşçülərinə paylanılan iqta torpaqlarının keçmiş rəiyyətləri başqa torpaqlara qaçıb dağılmışsa və bu qaçqınlıqdan 30 ildən çox vaxt keçməyibsə indi yeni sahiblərinə qaytarılmalıdırlar.

Döyüşçülərə səxavətlə paylanılan torpaq öz-özlüyündə onları dolandıra bilməzdi. Gəlir götürmək üçün torpağı becərən gərəkdir, əkib-biçən olmalıdır. «Örüş siyasəti» kəndlini torpağı atıb qaçmağa məcbur etdiyi üçün «Yeni siyasət» onları bir biri ilə yenidən birləşdirməyi nəzərdə tuturdu. Başqa yolla ordunu daimi gəlir mənbəyi ilə təmin etmək, onun təhlükəli narazılığını aradan götürmək olmazdı.

Beləliklə, iqta torpaqları haqqında verilən yarlıq güzəştli fərman idi. Qazan xan dövlət hərbi maşını qarşısında güzəştə gedirdi. Çünki yalnız onun gücü ilə mərkəzi hakimiyyəti parçalamağa çalışan mürtəce «Örüş siyasəti» tərəfdarlarının qarşıdurmasını yox edə bilər, həm də ordunu xarici siyasət məsələlərinin həlli üçün öz ardınca apara bilərdi. Xarici siyasət sahəsində isə başlıca məsələ Qızıl Orda ilə müharibələrin davam etdirilməsi idi. Bu isə güclü ordu olmadan mümkün deyildi.

Ölüm qorxusu altında dövlətin verdiyi iqta torpağını satmaq, bağışlamaq və cehiz vermək ona qadağan olunurdu. Əgər iqtadar aldığı torpağın becərilib dirçəlişi üçün qayğı göstərmir, onu yaxşı saxlamırdısa, torpağın geri alınması nəzərdə tutulurdu. İqta sahiblərinin özbaşınalığı üzərinə nəzarət qoyulur rəiyyəti qula çevirib onlarla əsir kimi davranmaq yasaq edilirdi. Başlıca mükəlləfiyyət öhdəlikləri, yəni biyar ilə bağlı olmayan işlərin onların üzərinə qoyulması da yasaq idi. Vergilər müəyyən olunmuş bir vaxtda yığıla bilərdi, natura ilə, pul və biyarda ödəniləcək mükəlləfiyyətlərin müddəti dəqiq göstərilirdi. Rəiyyət üzərində sonsuz və amansız soyğunçuluq vasitəsinə çevirilmiş olan müqatiə sistemi (vergi yığımının icarəyə verilməsi) ləğv edilirdi. Bütün bu yeniliklər rəiyyəti «Örüş siyasəti» üçün xas olan özbaşınalıqdan, qanunsuzluqdan qorumağa, rəiyyətin öz təsərrüfat işlərini arxayınçılıqla yerinə yetirməsi üçün şərait yaratmağa yönəlmişdi. Nəhayət yarlıq, yeni torpaq sahiblərinə başqalarının torpağını, arx, kəhriz və su hövzələrini tutub ələ keçirməyi, o sıradan başqalarının gəlir və qazancına tamah salıb ortaq çıxmağı qadağan etmişdi.

Rəiyyət və bütün kəndlilər üçün bu yeniliklərin əhəmiyyəti də az deyildi. Dövlət divanı xeyrinə torpaq vergisinin (xəracın) və başqa vergilərin toplanma qaydasının dəyişdirilməsi onlar üçün tutarlı yenilik idi. Bu iş yeni torpaq sahibinin (iqtadarın) öz ixtiyarına verilsə də, qayda-qanun gözlənilirdi. Vergilərin qədəri, və ödəniş vaxtı dəqiq bildirilirdi. Taxıl vergisi əkinçilərdən yalnız ildə iki dəfə:-21 mart-11 aprel və 22 sentyabr-12 oktyabr arasında və ya ildə bir dəfə (20 gün içərisində) yığıla bilərdi. Göstərilən zaman xaricində, və ya artıq vergi tələb etmək ağır cəzalarla qadağan edilmişdi. Taxıl vergiləri kəndlilərin öz yük heyvanları ilə dövlət ambarlarına daşınmalı idi. Hər bir kənddə metal və ya taxtadan lövhə vurulmalı, ödəniləcək verginin miqdarı buraya yazılıb, göstərilməli idi.

Elxanilər ilk zamanlar 3,072 qramlıq gümüş dirhəm tətbiq edirdilər. Bunun altı misli bir gümüş dinar, dinarın isə 10.000 dənəsi bir tümən idi. Alış-veriş, bazar hesabları dirhəmlə gedirdi. Kəsilən pulların mədən tərkibi qarışıq olduğundan çətinliklər yaranırdı. Qazan xan bu işə də qatıldı. Onun məsləhətı ilə dirhəmin gü-

müş dəyəri kiçildildi. Bir dirhəm 2,304 qram saf gümüşə bərabər tutuldu. Dinar isə bunun altı misli ölçüsündə 13,827 qram saf gümüşə bərabər sayıldı.

Vergi sisteminə başqa mühüm yeniliklər də gətirilmişdi. Qoşunların və dövlət xəzinəsinin hərbi qulluqçulara, məmurlara və təqaüdçülərə borclu olduğu məbləğin kəndlilər üzərinə bir mükəlləfiyyət kimi qoyulması da ləğv edildi. Yam və poçt mükəlləfiyyətləri kəndlinin üzərindən götürüldü. Vahid rabitə sistemi yaradıldı. Başlıca yollarda üç fərsəxdən (21 km) bir yam (rabitə dayanacaqları) açıldı. Yam əmirlərinin ixtiyarına istənilən sayda qulluqçu və atlar verildi. Ezam olunan dövlət elçiləri yol xərcini rəiyyətdən deyil, divandan almalı, karvansaralarda gecələməli, lazımi məntəqəyə getmək üçün yalnız yam xidmətindən istifadə etməli idilər.

Kəndli icmaları dövlətə məxsus işlənməmiş və ya sahibi tərəfindən tərk edilib başlı-başına buraxılmış torpaqları tutub onları becərmək hüququ almış oldular. Belə torpaq yararsız hala gəlmiş olduğundan ilk becərmə ili vergidən tam azad edilirdi. İkinci il taxıl vergisinin 2/6-si ödənilirdi. Üçüncü ildə çoxpilləli ödəniş sisteminə keçilirdi. Yaxşı torpaq verginin 3/4, orta torpaq 2/3,qeyri münbit torpaq isə yarısı qədərində ödəməli idi. Yalnız dördüncü ildə verginin tam ödənilməsi buyurulmuşdu.

Dövlətin bütün bölgələri, əyalət və qəzaları daxil olmaqla hər çeşit ərazi və mülklərin yerini, ölçüsünü, hüdud və dəyərini qeydə alan kadastr cədvəlləri (dəfatiri-qanun) tutulurdu. Xüsusi katiblər bütün mülk, xassə əmlakı və xeyrət vəqflərini kadastr dəftərlərinə alırdılar. Əmlak sənədinin tərtibi üçün yarım dinardan artıq rüsum alana ölüm cəzası qoyulmuşdu.

Təsərrüfatı canlandırmaq üçün əkinçilərə toxum, alət, iş heyvanı verilirdi. Əlcəzairdən, Farsdan və başqa yerlərdən mal vergisi hesabına 20 000 baş öküz və başqa iş heyvanı toplanmış, bunların yem təchizatı Anadolu, Azərbaycan, və Quzey İraq üzərinə yüklənmişdi.

Bütün bunlar ilə bağlı təsərrüfatda gözə çarpacaq bir irəliləyiş başlamış, Elxani dövlətinin vergi varidatı 17-dən 21 milyon dinara yüksəlmişdi.

Xalq kütlələri ilə yaxınlaşmaq üçün başlıca islahatlardan biri də dövlətin islam dininə münasibətinin dəyişməsi idi. Say sırası ilə əslində birinci olacaq din islahatı keçirilmişdi. Qazan xan əyanları və ordusu ilə birlikdə islamı qəbul etdi. Öz türk adına müsəlman adı əlavə edərək Qazan Mahmud oldu. İslam 5-ci ulusun dövlət dininə çevrildi. Qazan xanın göstərişi ilə bütpərəst məbədləri, hətta atasının tikdirdiyi məbədlər də dağıdılır, yerinə məscidlər tikilirdi. Görünür bu islahatla bağlı olaraq o, Moğolustanda oturmaqda olan xaqan hakimiyyətini tanımaqdan imtina etdi. Bu, yerli torpaq sahibləri və ruhanilər ilə yaxınlaşmaq siyasətinə keçid idi. Bunsuz «yeni» siyasətin prinsiplərinə inam qazandırmaq mümkün deyildi. 1297-ci ildə Qazan xan Şirvana, Bakıya gəldi. Ola bilsin, bu gəliş onun Şirvan dövləti ərazisində tanınmış müsəlman ocaqlarından biri olan Bibi Heybət türbəsinin ziyarəti ilə bağlı idi.

Qazan xanın varisi Ölcaytu xanın hakimiyyəti illərində (1304-1316) də yerli feodalların hüquqlarının bərpa edilməsi, Şirvanşah hakimiyyətinin get-gedə dirçə-

lişi baş verirdi. Dövlətin baş vəziri Rəşid-əd-din də bu iki islahatçı Elxandan geri qalmırdı. O, yeni siyasətə uyğun olaraq, Şirvanşah Keykavus ilə qohumluğa girib onun qızını öz oğullarından birinə almışdı.

Beləliklə, aparılmış islahatlar ölkənin iqtisadi, mənəvi həyatında mühüm rol oynamış, hakim təbəqə ilə yerli xalqın yaxınlaşması istiqamətində irəliyə doğru atılmış addım olmuş və Hülakülər dövlətinin labüd tənəzzülü bir neçə onillik müddətində təxirə düşdü.

*§ 1. Azərbaycan XIV əsrin ikinci yarısı. XV əsrin başlanğıcında Azərbaycanda siyasi vəziyyət. Şirvanşahlar dövləti.*
*§ 2. Azərbaycan Qaraqoyunlu dövləti.*
*§ 3. Azərbaycan Ağqoyunlu dövləti.*
*§ 4. XV əsr Azərbaycan dövlətlərinin sosial-iqtisadi həyatı.*
*§ 5. XIII – XV əsrlərdə Azərbaycan mədəniyyəti.*

## *§ 1. Azərbaycan XIV əsrin ikinci yarısı. XV əsrin başlanğıcında Azərbaycanda siyasi vəziyyət. Şirvanşahlar dövləti.*

1357-ci ildə Qızıl Ordu xanı Canı bəy sui-qəsd nəticəsində öldürüldü və bundan sonra onun oğlu Bərdi bəy Təbrizi tərk edərək, təcili Qızıl Orduya qayıtdı. Boşluqdan istifadə edən Çobani nəslinin nümayəndəsi Əmir Əxicuq hakimiyyəti ələ aldı, lakin cəmi bir il hakimiyyətdə qala bildi: 1358-ci ildə cəlairi Şeyx Üveys (1354-1374) Təbrizi tutdu və paytaxtını Bağdaddan bura köçürdü. Beləliklə, Cənubi Azərbaycan torpaqları Cəlairi dövlətinə qatılmış oldu.

Cəlairilər Cənubi Azərbaycanı tutduqdan sonra bir müddət Şirvanşahlar müstəqil oldular. Hətta Şirvanşah Kavus (1345-1372) iki dəfə Təbrizə hücum edib onu Cəlairilərdən azad etməyə cəhd göstərdi. Əksinə 1362-ci ildə Şeyx Üveys hücum edib Şirvanı da tutdu. Daxili idarəçilik sistemi saxlanılmaqla Şirvanşahlar da Cəlairi dövlətindən asılı vəziyyətə salındı.

Şeyx Üveysin dövründə Cəlairi dövləti həm siyasi, həm də iqtisadi cəhətdən inkişaf etmişdi. 1360-1370-ci illərdə onun apardığı islahatlar mərkəzi hakimiyyətin güclənməsinə, kənd təsərrüfatının, sənətkarlığın və ticarətin canlanmasına şərait yaratdı. Lakin Şeyx Üveysin ölümündən sonra ölkə daxilində feodal çəkişmələri başladı. Şeyx Üveysi əvəz edən oğlu Sultan Hüseynin (1374-1382) dövründə feodal çəkişmələrinə sülalədaxili mübarizə də əlavə olundu. Belə ki, müxtəlif feodal qruplarından dəstək alan Sultan Hüseynin qardaşı Sultan Əhməd taxt-tac uğrunda mübarizə aparırdı. 1382-ci ildə Sultan Hüseyn qardaşı Sultan Əhməd tərəfindən öldürüldü. Hakimiyyəti qanunsuz ələ keçirən Sultan Əhmədin dövründə ara müharibələri daha da qızışdı. Vəziyyəti mürəkkəbləşdirən amillərdən biri də qonşu dövlətlərin Cəlairi dövlətində gedən proseslərə müdaxilə etməsi idi.

Bu dövrdə həm Teymurilər, həm Şirvanşahlar, həm də Qaraqoyunlu tayfa ittifaqı Cəlairidə gedən proseslərdən bəhrələnməyə çalışır, imkan düşdükcə bu dövlətə qarşı diplomatik, hərbi tədbirlər gürürdülər. Cəlairidən asılılığı qəbul edən Şirvanşah Kavus 1372-ci ildə vəfat etdi və hakimiyyətə onun oğlu Hüşəng (1372-1382) gəldi. Hüşəng Şirvanın Cəlairi asılılığından azad olması üçün heç bir cəhd etmədi, Cəlairilərə ödənilən xərac isə xalqı dilənçi halına salmışdı. Hüşəngdən narazı kütlələr 1382-ci ildə, yəni Cəlairidə çevriliş baş verən ili üsyan edib Hüşəngi

öldürdülər. Hakimiyyətə Hüşəngin əmisi oğlu İbrahim gətirildi. Hüşəngin təqibindən qaçıb Şəkidə xırda torpaq sahibi kimi fəaliyyət göstərən İbrahimin babaları Dərbənd hakimi olduğu üçün o, I İbrahim Dərbəndli adı ilə taxta çıxdı (1382-1417). Beləliklə, Şirvanşahlar tarixində 3-cü sülalənin-dərbəndlilərin(1382-1538) hakimiyyəti başlandı.

I İbrahim uzaqgörən, müdrik dövlət xadimi idi. O, hakimiyyətə gələn kimi yerli feodal əyanlarının özbaşınalığına son qoydu, mərkəzi hakimiyyəti gücləndirdi. Cəlairi sarayındakı ara müharibələrindən yararlanaraq yenidən Şirvanın tam müstəqilliyini bərpa etdi və bununla kifayətlənməyərək bütün Azərbaycanın müstəqilliyi və bütövlüyü uğrunda Cəlairilərə qarşı mübarizəyə başladı.

Cəlairilərə qarşı ən fəal çıxış edənlərdən biri də Qaraqoyunlular idi. Qaraqoyunlular türklərin oğuz qoluna aid idi. Hələ VII əsrdə Mərkəzi Asiyadan Azərbaycana – öz qədim dədə-baba torpaqlarına qayıdan qaraqoyunluların sayı artmış və coğrafi arealı xeyli genişlənmişdi. XIV əsrin ortalarında qaraqoyunlular artıq Van gölü ətrafı ərazilərdə Ərzincan, Sivas və Cənub-Şərqi Anadoluda yaşayırdılar. Erkən orta əsrlərdə Yaxın və Orta Şərqin tarixində mühüm rol oynayan qaraqoyunlular XIV əsrin ikinci yarısında yenə tarixin səhnəsinə çıxdılar. XIV əsrin 80-ci illərində artıq Qaraqoyunlu tayfa ittifaqı yarandı. İttifaqa Baharlı nəsli başçılıq edirdi.

Qaraqoyunlu sülaləsinin banisi oğuzların Baharlı tayfasının Barani sülaləsindən olan Bayram Xoca olmuşdur. Bayram Xoca Cəlairilərlə mübarizə aparırdı. Bu mübarizədə uğur qazana bilməyən Qaraqoyunlu tayfa ittifaqı dağılma ərəfəsində idi. Lakin Bayram Xocanın oğlu Qara Məhəmməd (1380-1389) yenidən tayfa ittifaqını möhkəmləndirdi, Cəlairilərlə münasibətləri nizama saldı, onlarla qohum olaraq qızını Sultan Əhmədə verdi. Van şəhərini özünə paytaxt seçən Qara Məhəmməd hətta adına pul da kəsdirmişdi. Qüvvə topladıqdan sonra o, 1382-ci ildə hücum edib Təbrizi ələ keçirdi, 1383-cü ildə Suriya hakimi Səlimi, 1384-cü ildə Mardin hakimi Məcdəddin İsanı məğlub etdi. 1385-ci ildə Əmir Teymur Azərbaycana qarşı hərbi yürüşə başladı. Bu dövrdə Qaraqoyunlulara qarşı Ağqoyunlu tayfa ittifaqı çıxış etməyə başladı. Qara Məhəmməd Teymurilərdən çox çəkinirdi və Əmir Teymurun yürüşə çıxdığını biləndə Misir sultanından icazə alaraq 1385-ci ildə Suriyaya köçdü.

Əmir Teymur (1370-1405) Mərkəzi Asiyada mərkəzləşmiş dövlət yaratdıqdan sonra işğalçılıq müharibələrinə başladı. 1385-ci ildə Sultaniyyə yaxınlığında Cəlairi Sultan Əhmədin qoşunları məğlubiyyətə uğradılsa da, Səmərqənddə baş verən üsyan Əmir Teymuru geri qayıtmağa məcbur etdi. Beləliklə, 1385-ci ildə Cəlairi Sultan Əhməd basılmış, Qara Məhəmməd Suriyaya qaçmış və Əmir Teymur geri Asiyaya qayıtmışdı. Belə bir şəraitdə Qızıl Ordu xanı Toxtamış fürsəti əldən verməyərək Dərbənddən Azərbaycana soxuldu, Təbrizi 8 gün mühasirədə saxladı. Şəhər müdafiəçilərinə toxunmayacaqlarına söz verərək hiylə vasitəsilə şəhərə daxil oldu və şəhər talan edildi. Bu vaxt Əmir Teymur Qızıl Orduya hucum etdi və bu hadisə Toxtamışı məcbur etdi ki, təcili öz ölkəsinə qayıtsın. Toxtamışın

yürüşü zamanı Marağa, Təbriz, Bərdə, Gəncə, Şirvan və Dərbənd kimi Azərbaycan şəhərləri qarət edildi.

Əmir Teymur Azərbaycana yarımçıq qalan birinci yürüşünü 1386-cı ildə davam etdirdi. Üçillik yürüş zamanı Təbriz ələ keçirildi, məşhur sənətkarlar, ustalar ailələri ilə birlikdə Səmərqəndə göndərildilər. Cəlairi əmirlərinin bəziləri Bağdada qaçdı, bir qismi isə Əlincə qalasında gizləndi. 1387-ci ildə Teymur Naxçıvana hücum etdi. Əlincə qalasını mühasirəyə aldı və bu qəhrəman qala 13 il, yəni 1399-cu ilə qədər Teymurilərə təslim olmamışdı. 1387-ci ildə Naxçıvan ərazisində Əmir Teymurun qoşunları ilə qaraqoyunlu qoşunları üz-üzə gəldilər. Çapaqçur adlanan yerdə baş verən bu döyüşdə Qara Məhəmməd Teymurun qüvvələrini məğlub etdi. 1387-ci ildə Teymur Azərbaycanı tərk etdi və buranın idarəçiliyini oğlu Miranşaha həvalə etdi. Bu qələbədən ruhlanan və Teymurun Səmərqəndə qayıtdığını bilən Qara Məhəmməd 1388-ci ildə hücum edərək Təbrizi Cəlairi əmirlərindən aldı. 1389-cu ildə başqa bir qaraqoyunlu əmiri Qara Pirhəsən Qara Məhəmmədi və onun oğlu Bayramı qətlə yetirdi ki, Qaraqoyunlu tayfa ittifaqına özü başçılıq etsin. Lakin Qara Pirhəsən buna nail ola bilmədi. O, Qara Məhəmmədin digər oğlu Qara Yusif tərəfindən məğlub edildi. Azərbaycanın feodal əyanları arasında birlik yox idi. Onların hər biri təklikdə işğalçılara-Teymurilərə qarşı mübarizə aparsalar da, öz aralarında da ara müharibələrini davam etdirirdilər. Əsas mübarizə obyekti Cəlairi dövlətinin paytaxtı Təbriz şəhəri idi. 1387-1392-ci illərdə bu şəhər müxtəlif qüvvələrin 17 dəfə hücumuna məruz qalmışdı. 14 hücum Təbrizin bu və ya digər feodal qruplaşması tərəfindən tutulması ilə başa çatmışdı.

1392-ci ildə Təbriz qaraqoyunlular tərəfindən ələ keçirildi. Bunu eşidən Əmir Teymur 1392-ci ildə Azərbaycana qarşı ikinci yürüşə başladı. Həmin il Təbriz Teymurilər tərəfindən ələ keçirildi. Bundan sonra Əmir Teymur qaraqoyunluların mərkəzi şəhəri Vanı tutdu.

Teymur tərəfindən məğlub edilən cəlairi Sultan Əhməd və qaraqoyunlu Qara Yusif ittifaq bağladı. 1394-cü ildə Bağdad döyüşündə Cəlairi-Qaraqoyunlu birləşmiş qüvvələri Əmir Teymur tərəfindən darmadağın edildi. Bu məğlubiyyətdən sonra Qaraqoyunlu tayfa ittifaqı dağılsa da, 1395-ci ildə Qara Yusif onu bərpa etdi. Teymur tərəfindən təqib olunan Sultan Əhməd və Qara Yusif Misir sultanı Berqoqun yanına qaçdılar. Cəlairi dövlətinin başçısı Sultan Əhməd Misirə qaçsa da, onun oğlu Məlik Tahir Əlincə qalasında teymurilərlə savaşmaqda davam edirdi. Onun ən yaxşı silahdaşları Xacə Kövhər və Əmir Altun idi. Cəlairi dövlətinin xəzinəsi də bu qalada gizlədilmişdi. Qalanın müdafiəsinə Gürcüstandan və Şəkidən mütəmadi canlı qüvvə, silah-sursat və ərzaq göndərilirdi. Qalaya teymurilər 4 dəfə genişmiqyaslı yürüştəşkil etsələr də, onu ala bilməmişdilər. 1399-cu ildə Əmir Teymurun Azərbaycana 3-cü yürüşü zamanı yenidən Əlincə qalasına qarşı böyük hərbi qüvvələr göndərildi. 13 illik mühasirədən sonra müdafiəçilərin sayı seyrəlmişdi, ərzaq, silah tükənirdi. Xüsusilə, 1395-ci ildə, Şəkinin teymurilər tərəfindən işğalından sonra kənardan gələn yardımlar azaldı, qalada daxili çəkişmələr başladı. Məlik Tahirin cəlairi xəzinəsini götürüb xəlvəti Bağdada qaçmasından

sonra qala müdafiəçiləri ruhdan düşdülər və 1399-cu ildə Əlincə qalası Əmir Teymura təslim oldu.

**Hürufilik təlimi.** Azərbaycanda ictimai-siyasi vəziyyətin durmadan kəskinləşməsi nəticəsində Teymurilərin zülmünə qarşı narazılıq durmadan artırdı. Belə bir şəraitdə hələ XIV əsrin sonlarında Azərbaycanda islam dini ehkamlarına və sonralar Teymurilər hökmranlığına qarşı yönəldilmiş dini-siyasi hərəkat-hürufilik yayılmağa başladı. Hürufilik (hərflər sözündəndir) şiəlikdə bir təriqətdir. Azərbaycanda yaranmış bu hərəkat İranda, Osmanlı dövləti ərazisində və Mərkəzi Asiyada da yayılmışdı. Bu təlimin banisi görkəmli Azərbaycan filosofu Şeyx Fəzlullah Cəlaləddin Nəimi olmuşdur və onun əsas ideyaları "Cavidannamə" əsərində əks olunmuşdur. Hürufilik Allahın təbiətdə, əşyada, sözdə, xüsusən insanda təcəssümünü əsas götürürdü. Bu nəzəriyyənin dərin sosial kökü vardı. Hürufilər deyirdilər ki, hökmdarlar qan içəndirlər, din-şəriət xadimləri isə riyakardırlar. İnsanları ədalətə qovuşdurmaq üçün yeni tipli hökmdar, kamil insan lazımdır. Belə insan isə Nəimidir.

Hürufiliyə görə Allah eyni zamanda söz, kəlam şəkilində təcəssüm edir, sözlər isə hərflərlə ifadə olunur. Deməli Allah sözlərdə təcəssüm etdiyi üçün eyni zamanda hərflərdə əyan olur, hərflər isə kamala çatmış insanın üzündə əks olunur. Fəzlullah Nəimi farsın 32 hərfini əsas götürmüşdür. Onun "Cavidannamə" ("Əbədiyyət kitabı") əsərində 32 hərfdən bəhs edilir. Hürufilər başqa rəqəmlərlə də hərflərdən ibarət rəmzlər yaradır, ərəb əlifbası hərflərinin müqəddəs olduğunu, onun vasitəsilə dünyanın sirlərini açmağın mümkün olduğunu qeyd edirdilər. Hürufilərə görə, Allahın yaratdığı dünya daim dövr edir və bu görünən dəyişikliklərin səbəbidir. Allah iki yolla – Allahın özünəbənzər yaratdığı insanda və Allahın nitqində, yəni Quranda və əşyaların adında təzahür edir. Bu təlimə görə canlı aləmin mərkəzində duran insan kamilləşərək Allah səviyyəsinə yüksələ bilər. Hürufilər Nəimini belə insan hesab edirdilər.

Hürufilik tərəfdarları istilaçılar tərəfindən amansızcasına təqib olunaraq cəzalandırılırdılar. Miranşah atası Əmir Teymurun əmri ilə 1394-cü ildə Naxçıvanda Nəimini edam etdirdi. Hürufiliyin digər görkəmli nümayəndələri – məşhur hürufi şairi İmadəddin Nəsimi (əsl adı Seyid Əli idi), Əbdülhəsən Əli ül Əla və başqaları idi. Bunların başçılığı ilə hürufilər Türkiyə ərazisində fəaliyyət göstərmiş və türk dilində geniş ədəbiyyat yaratmışlar. Hürufiləri daim təqib edən islam dininin müridləri 1417-ci ildə Suriyanın Hələb şəhərində Nəsiminin diri-diri dərisini soymuşlar. Dahi Azərbaycan şairi M.Füzulinin əsərlərində də hürufilik motivləri vardır.

Hürufilik, əslində həm xalqa zülm edən yerli feodallara, həm də yadelli işğalçılara qarşı yönəlmiş dini pərdə altında gedən sosial və milli-azadlıq hərəkatının təcəssümü idi. Şirvanşah I İbrahim gizlincə hürufilərə rəğbət bəsləyir, onlardan teymurilərə qarşı mübarizədə istifadə etməyi düşünürdü.

**Şəki hakimliyinin bərpası.** XIV əsrin ortalarından Hülakilər dövləti zəifləyirdi və fürsətdən istifadə edərək Şəki yenidən müstəqilliyini bərpa etdi. Şəki hakimliyinin ərazisi indiki Azərbaycan Respublikasının şimal-qərbini, Gürcüstanın

şimal-şərqini və Dağıstanın qərbdən cənub ərazilərini əhatə etmişdir. Əraziləri qərbdə Tiflis şəhəri hüdudlarınadək, şərqdə Qəbələ şəhəri yaxınlığınadək, cənubda Kür çayı və şimalda Böyük Qafqaz sıra dağlarına qədər uzanırdı. Hətta bəzi mənbələrdə Şəki dövlətinin ərazilərinin Dərbənd şəhəri yaxınlığına qədər uzandığı göstərilir.

Əvvəl Şəki hakimliyini türk mənşəli oyrat sülaləsinin nümayəndələri – Seyid Əli Oyrat (təxminən 1393-1399) və onun oğlu Seyid Əhməd Oyrat (1399-1424) idarə etmişlər. Oyratlardan sonra sülaləsinin adı məlum olmayan hökmdar Əli İnaq (təxminən 1435-1444-cü illər) Şəkini idarə etmişdir.

Sonrakı dövrdə Şəkini islamı qəbul etmiş Qara Keşiş oğlu və onun nəsli idarə etmişdir. Qaraqoyunlu qüvvələri tez-tez Şəkiyə basqınlar edirdilər. Bu səbəbdən Şəki camaatı ağıllı və tədbirli Candar Qara Keşiş oğlunu 1444-cü ildə Şəki hökmdarı seçdilər və o, islam dinini qəbul edib Əlican adını götürdü. Ondan sonra hakimiyyət itirilsə də, XVI əsrin əvvəllərindən Şəkidə yenə Qara Keşiş nəslinin hakimiyyəti bərpa edildi. Həsən Sultan 1519-1524 və onun oğlu Dərviş Məhəmməd 1524-1551-ci illərdə Şəki dövlətini idarə etmişlər. 1551-ci ildə Şəki Səfəvilər tərəfindən işğal edilir və Şəkinin müstəqilliyi ləğv olunur. 1551-ci ildən 1736-cı ilədək Şəki Səfəvilərin təyin etdiyi hakimlər tərəfindən idarə olunmuşdur.

**Teymurilərin Azərbaycandan qovulması.** İran, Azərbaycan, Əcəmi İraqı, Şərqi Anadolu işğal olunduqdan sonra Əmir Teymurun qoşunları Osmanlı dövlətinin hüdudlarına çıxdılar. Misir Berqoq tərəfindən idarə olunsa da, Osmanlı dövlətinin vassalı idi və buna görə Əmir Teymur məktub yazaraq sultan İldırım II Bəyaziddən Misirdə gizlənən Sultan Əhmədi və Qara Yusifi təslim etməyi tələb etdi. Təbii ki, II Bəyazid Əmir Teymurun tələbini yerinə yetirməkdə borclu olmadığını bəyan etdi. 1402-ci ildə iki böyük türk dövləti - Teymurilərlə Osmanlılar arasında Ankara yaxınlığında baş verən döyüş Teymurun qələbəsi ilə başa çatdı. Lakin Əmir Teymur Sultan Əhmədi və Qara Yusifi ələ keçirə bilmədi. 1405-də Əmir Teymur vəfat etdi, Qara Yusif və Sultan Əhməd dərhal Misirdən Azərbaycana qayıtmağı qərara aldılar.

Teymurun ölümündən sonra, 1406-1410-cu illərdə Azərbaycan ərazisi Teymurilər, Cəlairilər və Qaraqoyunlular arasında mübarizə meydanına çevrildi. Bu mübarizədə tez-tez müttəfiqlər düşmənə, düşmənlər isə müttəfiqlərə çevrilirdi. Bu zaman Azərbaycanın şimalında Şirvanşahlar dövləti mövcud idi, ölkənin cənub vilayətlərini isə Teymurun oğlu Miranşah idarə edirdi. Teymurun ölümündən sonra onun yaratdığı böyük imperiya dağılmağa başladı. Varislər arasında hakimiyyət uğrunda mübarizə başladı. Bir-biri ilə ədavət edən Miranşah və onun oğlu Ömər Mirzə Azərbaycanın cənub hissəsinə yiyələnmək istəyirdilər. Belə bir şəraitdə Gəncə, Şəki, Qarabağ, Təbriz, Ərdəbil, Marağa kimi şəhərlərdə Teymurilərə qarşı xalq üsyanları geniş vüsət aldı. Eyni zamanda Gürcüstanda da Teymurilərə qarşı üsyan başladı.

**Şirvanşah I İbrahimin Azərbaycan torpaqlarını birləşdirmək cəhdi.** Şirvanşah I İbrahim isə yaranmış vəziyyətdən istifadə edərək teymurilərə qarşı yeni

siyasi xətt yeritdi və Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizəyə başladı. Gəncə, Şəki, Qarabağ, Təbriz, Ərdəbil, Marağa və başqa yerlərdə teymurilərə qarşı başlanmış xalq hərəkatından istifadə edən Şirvanşah I İbrahim Kür çayını keçdi, Gəncə və Qarabağı tutdu.

Şirvanşah I İbrahim Teymurilərə qarşı mübarizə aparan qüvvələri birləşdirməyə çalışaraq, gürcü çarı Konstantin, Şəki hakimi Seydi Əhməd, Ərdəbil hakimi Bəstam Cəyir, Qaraman tayfasından Yarəli ilə ittifaq bağladı. Şirvanşah I İbrahim öz qüvvələrini Kür sahilinə toplayıb Təbrizə hücuma hazırlaşırdı. Bunu eşidən teymuri Mirzə Ömər Qarabağa hücum etdi, lakin Kür sahilində baş verən döyüşdə birləşmiş qoşun Ömər Mirzənin qoşunlarına qalib gəldi.

1405-ci ilin yayında Ömər Mirzə cənuba doğru çəkildi və Təbrizə gələrək əhalidən xərac toplamağa başladı. Qəzəblənmiş xalq ayağa qalxaraq üsyan etdi və Ömərin qoşununu şəhərə buraxmadılar. 1406-cı ilin yazında Ömərin böyük qardaşı Əbu Bəkr Təbrizə hücum edərək əhalidən 100 min qızıl tələb etdi. Narazı olan xalq yenidən üsyan edərək I İbrahimi köməyə çağırdılar. 1406-cı ilin mayında I İbrahim Arazı keçərək Təbrizə daxil oldu. Əhali I İbrahimi mehribanlıqla qarşıladı və onu öz hakimi kimi tanıdı. Şirvanşah I İbrahim əhalidən alınan vergiləri ədalətli qaydaya saldı.

Beləliklə, qısa müddətə də olsa, Şirvanşah I İbrahim Azərbaycanın böyük bir hissəsini öz hakimiyyəti altında birləşdirə bildi. Lakin o, Təbrizdə möhkəmlənə bilmədi. Çünki cəlairli Sultan Əhməd və onunla ittifaqda olan qaraqoyunlu hərbi birləşmələrinin başçısı Qara Yusif vaxt itirmədən Misirdən Azərbaycana, Təbrizə doğru hərəkət edirdilər. Onların yaxınlaşdığını eşidən Şirvanşah I İbrahim məcburiyyət qarşısında qalaraq Təbrizi tərk edib Şirvana qayıtdı və onun Azərbaycan torpaqlarını birləşdirmək cəhdi baş tutmadı.

Hələ Misirdə olarkən Sultan Əhməd və Qara Yusif razılığa gəlmişdilər ki, Bağdad Sultan Əhmədə, Təbriz isə Qara Yusifə çatacaq. Lakin bu razılaşmanı pozan Sultan Əhməd 1406-cı ildə Təbrizi ələ keçirdi. Təbrizdə möhkəmlənən Sultan Əhməd ilk olaraq Əlincə qalasının bərpası və vergiləri azaltmaq haqqında fərman verdi.

Qara Yusif və Sultan Əhməd arasında Misir razılaşmasının məzmunundan xəbərsiz olan I İbrahim Sultan Əhmədi Təbrizdə hökmdar kimi tanıdığını bildirdi. Tezliklə, I İbrahimə rəğbət bəsləyən Cənubi Azərbaycan feodalları Sultan Əhmədin tərəfinə keçdilər. Qara Yusif sözünə dönük çıxan Sultan Əhmədə düşmən kəsildi. I İbrahimlə də münasibətləri pozulan Qara Yusif yarımköçəri kurd tayfaları ilə ittifaqa girdi, hətta onlarla qohumluq münasibətləri qurdu.

Sultan Əhməd Təbriz camaatının güzəranının yaxşılaşması üçün heç bir tədbirlər görmədi. Ona görə də teymuri Əbu Bəkrin qoşunu Təbrizə hücum edərkən xalq Sultan Əhmədi müdafiə etmədi və Əbu Bəkr Təbrizi tutdu, Sultan Əhməd Bağdada qaçdı. Bu zaman Qara Yusif böyük qoşunla Təbriz üzərinə yeridi. 1406-cı ildə Qara Yusif I Şənbi Qazan döyüşündə Əbu Bəkri məlub etdi və öldürdü. Bundan sonra Təbrizdə Qara Yusifin nüfuzu artmağa başladı. Miranşah Qara Yusifə

qarşı yeni qoşun göndərdi. 1408-ci ilin aprelin 21-də Təbriz yaxınlığında Acıçay (Sərdrud) döyüşündə oğlu Əbu Bəkrin qisasını almağa gələn Miranşahın qoşunu Qara Yusif tərəfindən darmadağın edildi və özü də öldürüldü. Teymuri qoşununun qalıqları Azərbaycanı tərk etdilər.

### *§ 2. Azərbaycan Qaraqoyunlu dövləti*

Tarixdə qaraqoyunlu adı ilə tanınan tayfalar mənşəcə oğuz toplumlarından biri olmuşdur. Osmanlı tarixçisi Mövlanə Şükrullah qaraqoyunluların Oğuz xanın oğlu Dəniz xanın törəmələri olduğunu yazmışdır. Başqa türk tayfalarını da özündə birləşdirən Dəniz xanın törəmələri artıq VII əsrdə Azərbaycanda məskunlaşmışdılar. Moğol basqınları zamanı onlar Anadoluya köçdülər və o vaxtdan "qaraqoyunlu" adlanmağa başladılar. Onların adlarını, guya ki, bayraqlarında olan qara qoç rəsminə görə adlandırılması həqiqətə uyğun deyil, belə ki, orta əsrlərə aid tarixi mənbələrdə onların bayrağında qara qoç rəsminin olması haqqında məlumata rast gəlinməmişdir. "Qaraqoyunlu" adı Qaraca qoyunlu oymağının adından götürülmüşdür. Qaraqoyunlular özləri aşağıdakı oymaqlara bölünürdülər: Qaraca qoyunlu, Şadlı (sad-saat çuxuru), Baharlı-Duharlu, Qaramanlı, Alpavut, Ayınlu, Hacılu, Ağacəri, Çakırlu, Bayramlu, Dügər.

Qaraqoyunlu dövləti dağıldıqdan sonra onların əksəriyyəti Ağqoyunlulara tabe olmaq istəməyərək indiki Pakistan, Şimali Hindistan, bir qismi isə Xorasan ərazilərinə köçmüşdülər. Qalanlar isə həm Cənubi, həm də Şimali Azərbaycan ərazilərində, Şərqi Anadoluda, Kərkükdə və sair yerlərdə yaşamışlar və həmin ərazilərdə yaşamaqda davam edirdilər. XV-XVI əsrlərdə qaraqoyunluların ən sıx məskunlaşdığı ərazilərə Göyçə mahalı, Maku nahiyəsi, Gəncəbasar, Xoy və Marağa aralığındakı ərazilər, Saatlı-Şahsevən əraziləri aid idi. Sonralar "saatlı" adında kəndlər və obalar meydana gəldi. Sədlu-saat çuxurunun adından Çuxur – Səd bəylərbəyliyi, qaramanlı oymağının adından isə Qaramanlı hakimliyi meydana gəldi. Şah I İsmayılın ən yaxın silahdaşı Bayram bəy Qaramanlı məhz bu oymağın nümayəndəsi idi. Qaraqoyunluların ən mühüm qollarından sayılan Alpavutlar Çuxur – Səd və Şirvan bəylərbəyliklərində yaşayırdılar. Osmanlı sultanı Sultan III Əhmədin 1728-ci ilə aid Gəncə vilayətinin vergi dəftərində dörd alpavut kəndi qeydə alınmışdır.

Azərbaycanda qaraqoyunlularla bağlı Qaraqoyunlu, Qaraqoyunlu Salvar, Qarayusifli, Qaraovçular, Yusifli, Mirzəxan Qaraqoyunlu, Xan Qaraqoyunlu, Tap Qaraqoyunlu, Çay Qaraqoyunlu, Dilağarda (bu adı qaraqoyunluların bir ailəsinə axırıncı qaraqoyunlu padşahı Cahan şah vermişdir) və s. adda yaşayış məskənləri mövcuddur.

**Qaraqoyunlu dövlətinin yaranması.** Sultan Əhməd 1410-cu ildə Qara Yusifin əsas qüvvələrinin birləşmiş ağqoyunlu tayfalarının başçısı və Şimali Mesopotamiyada yerləşən Amid qalasının hakimi Osman Qara Yuluc ilə müharibə etməsindən istifadə edərək Təbriz qalasına hücum etməklə onu şəhərdən çıxarmaq

istəyir. Bu zaman Cəlair Əhməd Orbelian nəslindən İvannenin oğlu,Sunik vilayətinin erməni knyazı Smbatdan yardım haqqında söz alır və Şirvanşah İbrahimdən kömək istəyir. Şirvanşah İbrahim Cəlair Əhmədə kömək etməyə razı olur və oğlu Kəyumərsin sərkərdəliyi altında Şirvan qoşununu Cənubi zərbaycana göndərir.

Qara Yusif hadisələrdən xəbər tutan kimi surətlə Cənubi Azərbaycana hərəkət edir və Şirvanın qoşunundan qabaq oraya çatır.Təbriz yaxınlığında, Şənbi-Qazan ətrafında 1410-cu il avqust ayının 30-da Qara Yusiflə Sultan Əhmədin qoşunları arasında döyüş başlayır. Cəlairilərin qoşunu bu döyüşdə məğlub edilir və qaçıb dağılır. Qara Yusif əsir düşəndən köhnə müttəfiqini hakimiyyətin yeni sulaləyə keçməsi haqqında fərman verməyə məcbur edir. Ertəsi gün avqust ayının 31-də sultan Əhmədi boğub, meyidini çarmıxa çəkirlər. Beləliklə, Cəlairilər dövləti süqut edir və onun yerində başda Baharlı tayfasının Barani sülaləsi Qaraqoyunlu dövləti yaranır. 1410-cu ildə elan edilən Qaraqoyunlu dövləti öz mövcudluğunu qorumaq üçün qızğın siyasi fəaliyyətə başladı. XV əsrin əvvəllərində Qaraqoyunlunun ən ciddi rəqibləri bütün Azərbaycanı birləşdirmək iddiası ilə çıxış edən Şirvanşah I İbrahim və Teymuri Şahrux idi.

1410-cu ildə II Şənbi Qazan döyüşü zamanı I İbrahimin Sulta Əhmədə kömək etməsi Şirvan-Qaraqoyunlu münasibətlərindəki ziddiyyətləri daha da kəskinləşdirmişdi. Döyüşdən qalib çıxan Qara Yusif I İbrahimə məktub yazaraq onu Qaraqoyunluya tabe olmağa dəvət etdi. Qara Yusifin məktubunu gətirən oğlu Kəyumərsi edam etdirən I İbrahim rədd cavabı verdi və Şəki hakimi Əhməd, Kaxetiya çarı II Konstantinlə ittifaq bağlayaraq Qara Yusifə qarşı müharibəyə hazırlaşmağa başladı. Təbrizdən qarabağa gələn Qara Yusif I İbrahimə barış təklif etdi. Bu təklifi düzgün anlamayan rəqilbləri ürəklənib ona qarşı gəldilər. Döyüş Kür çayı üzərində 1412-ci ilin dekabrında oldu. Döyüş Qara Yusifin qələbəsi ilə başa çatdı. 60 yaşlı Şirvanşah I İbrahim, 7 oğlu, qardaşı, müşavirləri, habelə onun müttəfiqi gürcü çarı Konstantin əsir alındılar. Qara Yusif Konstantini, onun qardaşlarını və 130 gürcü aznavurunu (feodalını) edam etdirdi. Şirvanşah I İbrahimi isə yaxın adamları ilə Təbrizə apardı. Qara Yusifin qoşun başçıları Bistam Çakirlu, Babaxacə Şəmsəddin, Qaraman və başqalarının, habelə Təbriz tacirlərinin xahişi ilə Qara Yusif I İbrahimi başbahası ödənilmək şərti ilə azad etməyə razı oldu.

Qara Yusif əsir düşmüş sıravi Şirvan döyüşçülərini əvəzsiz azad etdi. I İbrahimi azad etmək üçün 1200 İraq tüməni xərac aldı. Şirvanşah I İbrahim Qara Yusifin vassallığını qəbul edib, 1413-cü ildə Şirvana qayıtdı. Qara Yusif Şirvandan daha bir milyon baş malqara apardı.

**Qaraqoyunlu-teymuri münasibətləri.** 1417-ci ildə Şirvanşah I İbrahim öldü. Hakimiyyətə keçən oğlu Şirvanşah I Xəlilullah (1417-1462) Qara Yusifin hakimiyyətini tanımadı. O, öz siyasətində Orta asiya hökmdarı Teymurun ikinci oğlu Sultan Şahruxla (1405-1447) yaxınlaşıb ittifaq bağladı, həm də Qaraqoyunlu siyasi hakimiyyətini didən iç çəkişmələrdən bacarıqla istifadə etməyə başladı.

Qaraqoyunlu dövlətinin hərbi qüdrəti ilbəil artırdı və bu Şahruxu çox narahat edirdi. Şahrux bütün Azərbaycanı deyil, yalnız Qəzvin və Sultaniyyə şəhərləri-

ni geri istəyirdi. Bunun qarşılığında Azərbaycan və Ərəb İraqını Rum və Şama kimi Qaraqoyunlu dövlətinə buraxacağını Qara Yusifə təklif edirdi. Qara Yusif isə güzəştsiz savaş yolunu seçdi, xəstəliyinə baxmayıb ordusu ilə yürüşə çıxdı.

1420-ci il noyabrın 17-də Təbriz yaxınlığında baş verən döyüşdə Qara Yusif yaralandı və Ucan adlı yerdə dünyasını dəyişdi. Bundan sonra onun ailə üzvləri, ordu əmirləri arasında Qara Yusifin var-dövlətini bölüşmək üstündə çəkişmələr başladı. Yalnız ölümündən 3 gün sonra Təbriz əyanı Məhəmməd Keçəli tərəfindən onun nəşi paytaxta gətirildi və müsəlman qaydası ilə Erçişdə torpağa tapşırıldı.

Qara Yusifin ölümündən dərhal sonra Şahrux Qaraqoyunluya qarşı hərbi yürüşə çıxdı. 1421-ci ilin qışında Qarabağa çatan Şahrux Şirvanşah I İbrahimin oğlu I Xəlilullah ilə (1405-1462) görüşdü və onunla ittifaq bağladı. I Xəlilullahın Şahruxun nəvəsi ilə evlənməsi bu ittifaqda Teymurilərin söz sahibi olduğunu göstərdi. Qara Yusifdən sonra hakimiyyətə gələn Qara İskəndər (1420-1435) qardaşı Qara İsfəndiyarın qüvvələri ilə birlikdə Təbriz yaxınlığında Alaşkerd vadisində 1421-ci ilin avqustunda döyüşə girdilər. Qaraqoyunlular bu döyüşdə məğlub oldular və Şahrux Azərbaycanı işğal etdi. Lakin Qara İskəndər qüvvə topladı və 1422-ci ildə hücum edib Təbrizi ələ keçirdi. Qara İskəndərin vəziyyəti ilbəil mürəkkəbləşirdi. O, eyni zamanda həm teymurilərlə, həm Şirvanşah I Xəlilullahla, həm də Teymurilərlə ittifaqa girən qardaşı Cahanşahla mübarizə aparırdı. Şərqi Anadoluda isə güclənməkdə olan Ağqoyunlu tayfa ittifaqı Qaraqoyunlularla rəqabətini davam etdirirdi.

1427-ci ildə Qara İskəndər Teymurilərin müttəfiqi Şirvana hücum etdi. Cavab olaraq Şahrux yenə Azərbaycana hücum edib Salmasda qaraqoyunlulara qalib gəlib Təbrizi ələ keçirdi. 1429-cu ildə Şahrux Qara Yusifin başqa oğlunu – Əbu Səidi (1429-1431) Azərbaycana hakim təyin etdi. Lakin Teymurilər 1431-ci ildə Azərbaycanı tərk edən kimi, Qara İskəndər qardaşı Əbu səidi öldürüb yenə hakimiyyətini bərpa etdi.

1434-cü ildə Qara İskəndər yenə Şirvana yürüş etdi. Şirvanşah I Xəlilullahın və Şahruxun birləşmiş qoşunları 1435-ci ilin yayında Qara İskəndəri məğlub edib Təbrizə daxil oldu, İskəndər Kiçik Asiyaya qaçsa da, ələ keçirildi və Əlincə qalasına salındı. Həmin ilin sonunda Şahrux Qara Yusifin kiçik oğlu Cahanşahı Qaraqoyunlu hakimiyyətinə gətirdi. Əlincə qalasına salınan Qara İskəndər orada gecələrin birində öz oğlu tərəfindən öldürüldü.

Cahanşah, atasından və qardaşı Qara İskəndərdən fərqli olaraq, yaxşı təhsil görmüş, bilikli bir adam idi. O, hakimiyyətin möhkəmlənməsi məqsədilə bir sıra tədbirlər həyata keçirdi: yarımköçəri əyanlara qarşı mübarizəni gücləndirdi; daha çox oturaq əyanlara və iri tacirlərə arxalandı; ordunu qüvvətləndirdi, nizam-intizamı güləndirdi. O, Şahruxun ölümündən sonra (1447) teymuri asılılığını qətiyyətlə rədd etdi. Şirvan dövləti ilə kəskin hərbi rəqabəti yumşaltdı. Onların arasında savaş və çəkişmələrin arası kəsildi. Yalnız Ağqoyunlu feodal hakimliyi ilə rəqabət qalmaqda idi.

Ağqoyunlularla Qaraqoyunlular arasında ərazi üstündə mübarizə gedirdi. Cahanşah XV əsrin 50-ci illərində Şərqi Anadolunun çox hissəsini, Qərbi Azərbaycanı Ağqoyunlulara güzəştə getməyə məcbur oldu. Lakin onun şərqdə teymurilərə qarşı apardığı mübarizə daha müvəffəqiyyətli olmuşdur. 1453-cü ildə İraq Əcəmini, bütün Qərbi İranı, bir qədər sonra isə Şərqi İranın bir hissəsini ələ keçirdi. Cahanşah 1457-ci ildə Gürcan və Xorasanı tutdu, 1459-cu ildə isə teymurilərin paytaxtı Heratı tutdu, teymuri Əbu Səidlə barışıq müqaviləsi bağladı və təzminat alaraq Azərbaycana qayıtdı. 1466-1467-ci illərdə köçəri feodallar Cahanşahın oğlu Həsənəlinin, Bağdadda Pirbudağın başçılığı ilə üsyan qaldırdılar. Cahanşah Bağdadı bir il yarım mühasirədə saxladı və Pirbudağı təslim olmağa məcbur etdi. Təslim olan Pirbudaq öldürüldü. Beləliklə, Cahanşah fəal xarici siyasət yeritdi, müdaxilə və ara müharibələrinə son qoydu. Lakin onun mərkəzi hakimiyyəti möhkəmləndirmək cəhdləri bir nəticə vermədi. Cahanşahın hakimiyyətinin sonlarında daxili çəkişmələr, feodal ara müharibələri, feodal özbaşınalığı, hakimiyyət uğrunda gedən mübarizə Qaraqoyunlu dövlətinin qüdrətinin zəifləməsinə səbəb oldu. Bundan istifadə edən Ağqoyunlular onların ərazilərini ələ keçirməyə başladılar.

1467-ci ilin may ayında Cahanşah böyük qüvvə ilə Ağqoyunlu Uzun Həsənə qarşı hərəkətə başladı və Van gölü ətrafı ərazilərdə möhkəmləndi. Burada əyləncə toplantıları təşkil edərək vaxtını şeir məclisləri və sərxoşluqla keçirirdi. Vaxtını gecələr əyləncə məclislərində keçirən və gündüzlər yatan Cahanşaha Sultan Mehmet "yarasa" ləqəbi vermişdi. Uzun Həsən casusu vasitəsilə Cahanşahın ətrafında nələrin baş verdiyi haqqında mütəmadi məlumatlandırılırdı. Qaraqoyunlu ordusunda nizam-intizamın pozulduğunu yəqinləşdirən Uzun Həsən cəmi 6 minlik seçmə döyüşçülərlə Cahanşahın düşərgəsinə hücum etdi. 1467-ci ilin noyabrın 11-də Muş düzündə baş vermiş döyüşdə qaraqoyunlular məğlub oldular. Cahanşah Ağqoyunlular tərəfindən yaxalandı və öldürüldü. Bundan sonra Qaraqoyunlu dövlətinin süqutu sürətləndi. Cahanşahın oğlanları Həsənəli və Hüseynəli arasında taxt-tac uğrunda mübarizə başladı və Həsənəli Hüseynəlini öldürərək hakimiyyəti ələ keçirdi. Həsənəli 1468-ci ildə Mərənd döyüşündə ağqoyunlulara məğlub oldu və teymuri Əbu Səidin yanına qaçdı. Beləliklə, 1468-ci ildə Qaraqoyunlu dövləti süqut etdi, onun ərazisində Ağqoyunlu dövləti yarandı.

## *§ 3. Azərbaycan Ağqoyunlu dövləti*

**Ağqoyunlu tayfalarının mənşəyi barədə.** Oğuz tayfa birliyinə aid olan ağqoyunluların erkən orta əsrlərdə ilk məskunlaşdığı ərazi Qafqaz dağları ilə Araz çayı arasındakı ərazilər o cümlədən Qarabağ, Göycə gölü ətrafı torpaqlar, Alagöz yaylaqları olmuşdur. Tədricən ağqoyunlular Azərbaycanın cənub bölgələrinə, Şərqi Anadoluya, Qərbi İrana, Dəclə və Fərat (İraq) vadiləri də daxil olmaqla çox geniş əraziyə yayılmışlar.

Ağqoyunluların əcdadları moğolların yürüşündən sonra Cənub-Şərqi Anadoluya köçmüş və Diyarbəkir vilayəti onların irsi hakimiyyətinə çevrilmişdi. XIV

əsrin ortalarında ağqoyunlulara Tur Əli bəy (1363-cü ildə vəfat etmişdir) başçılıq etmişdir. Qaynaqların məlumatlarına görə o, Uzun Həsənin babasının babası idi. Tur Əli bəydən əvvəl yaşayan tayfa başçıları tarixi şəxsiyyət olmadığından onların adları bəlli deyil. Qaraqoyunlu kimi Ağqoyunlu adı XIV əsrdə meydana gəlmişdir və guya ki, bu bayraqlarında ağ qoyunun rəsminin olması ilə bağlıdır. Ancaq bu yanlış fikirdir. Ağqoyunlunun bayrağında ağ qoyun əks olunmamışdır.

Ağqoyunlu sülaləsinin (tayfa ittifaqının) əsasını Bayandur tayfasından olan Pəhləvan bəy (1370-1388) qoymuşdu. Ondan sonra Ağqoyunlu tayfa ittifaqı zəifləmişdi. Lakin Qara Yuluq Osman (1394-1434) Ağqoyunlu qüvvələrini birləşdirdi, Sivası Qaraqoyunlulardan alıb Diyarbəkirdə möhkəmləndi. Ərzincan və Mardini isə özündən asılı vəziyyətə saldı. Beləliklə, Ağqoyunlu bəyliyinin əsasını qoydu. Diyarbəkiri mərkəz seçdi və adına pul kəsdirdi. Bəylərbəyliyinin ərazisi Sivasdan Diyarbəkirə, Ərzincandan Mardinə qədər əraziləri əhatə edirdi.

Qara Yuluq Osman bəy 1434-cü ildə Qaraqoyunlularla döyüşdə öldürüldü. Ağqoyunlu bəylərbəyliyində ara müharibələri dövrü başladı (1434-1444-cü illər). Ara müharibələrində 1444-cü ildə Cahangir Mirzə qalib gəldi və Ağqoyunluları yenidən birləşdirdi.1453-cü ildə Qara Yuluq Osmannın qardaşı oğlu Uzun Həsən (1453-1478) Cahangir Mirzəni hakimiyyətdən salıb Ağqoyunlu bəylərbəyliyinə başçılığı ələ keçirdi. 1450-ci illərdə Gürcüstanın şərqini ələ keçirən Uzun Həsənin nüfuzu daha da artdı.

1467-ci ildə Uzun Həsən Muş döyüşündə Qaraqoyunluları məğlub edib onun süqutunu tezləşdirdi. 1468-ci il Mərənd döyüşündə Həsənəlini məğlub edib Təbrizi ələ keçirdi və Ağqoyunlu dövlətini yaratdı.

1468-ci ildə Uzun Həsən tərəfindən əsası qoyulan və paytaxtı Təbriz olan Azərbaycan feodal dövlətində yeni sülalənin hakimiyyətə gəlməsi ölkənin siyasi qüvvələri içərisində narazılıqdan daha çox rəğbətlə qarşılandı. Ancaq xaricdə durum başqa idi. Xorasanda hökmranlıq edən Teymuri Əbu Səid Cahanşahın oğlanlarını müdafiə etmək bəhanəsi ilə Azərbaycana 27 minlik qoşunla yürüşə çıxdı. Güclü rəqiblə yeni savaşa girmək istəməyən Uzun Həsən, anası Sara Xatunun başçılığı ilə elçilərini Əbu Səidin yanına göndərərək ona qiymətli bəxşişlər və sülh təklif etdi. Ancaq Sara Xatun Əbu Səidi niyyətindən döndərə bilmədi. O, elçiləri hörmətlə qarşılayıb Uzun Həsənə tac və qızıl kəmərli qılınc göndərsə də, yürüşü dayandırmaq istəmədi. Nəzərə almaq lazımdır ki, Sara Xatun oğlu Uzun Həsənin siyasi çarpışmalarında ilk illərdən fəal iştirak edirdi. Onun işə qarışması və bacarığı ilə hələ 1435-ci ildə Anadoluda Mardin qalası uğrunda gedən mübarizədə on bir yaşlı Uzun Həsənə üstünlük qazandıra bilmişdi. Sara Xatun Misir Məmlük dövləti ilə də danışıq aparmışdı. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm"əsərində onu "mahir diplomat qadın" adlandırır.

Güclü diplomat olan Sara Xatun Əbu Səidi öz fikrindən döndərə bilməsə də xeyli gecikdirdi. Əbu Səid Ağqoyunluya qarşı savaşda Teymurilərin ənənəvi müttəfiqi olan Şirvanşahların köməyinə ümid edirdi. Şirvana daha yaxın olmaq üçün Əbu Səid Şimali Azərbaycana-Muğana yürüşə başladı. Ancaq XV əsrin 60-ci illə-

rinin sonunda Azərbaycanda siyasi qüvvələrin mövqeyi və nisbəti dəyişmişdi. Təbrizlə yanaşı, Şamaxı da, Ərdəbil də ölkənin müstəqilliyi uğrunda döyüşmək əzmində idi.

Yaranmış siyasi vəziyyətdən istifadə edərək Uzun Həsən Şivanşah Fərrux Yasarı və Ərdəbil şeyxi Heydəri öz tərəfinə çəkdi. 1468-ci ilin payızında Əbu Səid Araz çayını keçərək Qarabağa gəldi, sonra isə Muğana çəkildi. Müttəfiqlər onu iqtisadi blokadaya aldılar. Qış şəraitində ərzağın və heyvanlar üçün yemin çatışmaması qoşunun dağılmasına gətirib çıxardı. Əbu Səid sülh bağlamağı təklif etdi. Lakin Uzun Həsən razılıq vermədi və onun üzərinə hücüm etdi. 1469-cu ildə Teymuru Əbu Səidin qoşunları darmadağın edildi, özü isə əsir götürüldü. Uzun Həsən diplomatik hərəkət edərək Əbu Səidi özü cəzalandırmadı və onu Xorasan şahzadəsi Məhəmməd Yadigara göndərdi. Bir vaxt Əbu Səid onun anasını öldürtdüyü üçün, o da intiqamını alıb Əbu Səidi edam etdi.

**Ağqoyunlu dövlətinin xarici siyasəti.** Avropa dövlətləri ilə yaxınlaşmaqla Uzun Həsən aşağıdakı məsələlərin həllinə nail olmaq istəyidi: 1) hərbi qüdrəti ilbəil artan qonşu Osmanlı imperiyasına qarşı xristian ölkələrin simasında müttəfiqlər qazanmaq; 2) ticarət əlaqələrini genişləndirmək, xüsusilə, Avropa üçün çox vacib olan ipək ixracını təmin etmək, Avropa ölkələri ilə Şərq ölkələri arasında ticarətdə vasitəçiyə çevrilmək və bu missiyanı Osmanlının əlindən almaq; 3) Avropalı hərb mütəxəssislərinin köməyilə ordunu qabaqcıl silahlarla təmin etmək və silah istehsalına başlamaq. Xüsusən, avropalı toptökən ustaların Ağqoyunlu dövlətinə gətirilməsinə daha çox diqqət verilirdi.

Ağqoyunlu ilə Osmanlının maraqlarının kəsişdiyi məsələlərdən biri Trabzon məsələsi idi. Yunanlar hələ Bizans imperiyası dövründə Trabzonu ələ keçirmiş, burada kütləvi məskunlaşmış və imperatorluq yaratmışdılar (1204-1462). 1453-cü ildə II Mehmet İstanbulu fəth etdikdən sonra bir çox Avropa ölkələri də türklərin əlinə keçdi. Cənubi-Şərqi Anadolunun böyük hissəsi Osmanlılar tərəfindən tutulduqdan sonra Trabzon imperatorluğu türk əraziləri arasında bir adaya bənzəyirdi. Trabzon imperatorluğu ilə Ağqoyunlu arasında bir adaya bənzəyirdi. Trabzon imperatorluğu ilə Ağqoyunlu arasında hələ XIV əsrdən dostluq münasibətləri qurulmuşdu. Uzun Həsən imperator İoann Komninin qızı Teodora (Dəspinə xatun) ilə evlənmişdi. Trabzon Ağqoyunlunun Qara dəniz vasitəsilə Avropaya çıxışında mühüm rol oynayırdı. Təbii ki, Trabzon imperatorluğunun Ağqoyunlu ilə yaxınlaşmasında öz maraqları vardı. Belə ki, Ağqoyunlu dövləti Trabzonun Genuya tərəfindən ələ keçirilməsinin qarşısını almışdı.

Uzun Həsən II Mehmeti Trabzonu tutmaq fikrindən daşındırmaq üçün anası Sara Xatunun başçılığı ilə onun yanına böyük elçi heyəti göndədi. Sara Xatunun qarşısına iki vəzifə qoyulmuşdu: 1) Sultanın Ağqoyunlu ərazisinə girməsinin qarşısını almaq; 2) onu Tabzon səfərindən daşındırmaq. Sara Xatun II Mehmet tərəfindən Bulqar dağının ətəyində, hərbi düşərgədə yaxşı qarşılanmış, danışıqlar çox səmimi olmuş, onlar bir-birinə “ana-oğul” deyə müraciət etmişlər. Sara Xatun sul-

tanın Ağqoyunlu dövləti ərazisinə girməyəcəyi barədə razılığını alsa da, Trabzon üzərinə hücumdan çəkindirə bilməmişdi.

II Mehmetin göndərdiyi və Həmzə bəyin başçılıq etdiyi qoşunlar Trabzon üzərinə hücum edib 1461-ci il avqustun 15-də şəhəri ələ keçirdi. Bu Osmanlı dövləti ilə Ağqoyunlu arasında uzun çəkişmələrin başlanğıcı oldu. Sara Xatun gəlininin varislik hüququnu əsas gətirərək Trabzon xəzinəsini sultanla böldü. 1461-ci ildə Uzun Həsən və II Mehmet arasında Yassıçəmən müqaviləsi bağlandı. Trabzon tutulduqdan sonra, ağqoyunlular Qara dənizdə Avropaya yeganə çıxış yolunu itirdilər. Bu, Osmanlı-Ağqoyunlu münasibətlərinin pisləşməsinə səbəb oldu.

Uzun Həsən diplomat kimi davranaraq elçilərlə hədiyyələr göndərib Trabzonun alınması ilə Fatehi təbrik etdi, ürəyində isə təcavüz və qisas hissini söndürə bilməyib Avropanın xaçpərəst ölkələrinə üz tutdu. 1463-cü ildən Osmanlının ən qatı düşməni olan Venetsiya respublikası ilə Ağqoyunlu arasında anlaşma yarandı. İki dövlət arasındakı münasibətlərin sıxlaşmasında Venetsiyanın Hələbdəki konsulluğu böyük rol oynayırdı. Avropa səyyahları və elçiləri bir-birinin ardınca Uzun Həsənin sarayına gəlməyə başladılar.

Osmanlı dövlətinin zəifləməsində daha çox maraqlı olan Venetsiya respublikası Katerino Zeno (1471-1473), Yosafat Barbaro (1473-1478), Ambroko Kontarini (1474-1476) kimi diplomatlarını Ağqoyunlu sarayına göndərmişdi. Ağqoyunlu səfirləri İsaq, Hacı Məhəmməd, Mirak, Həsən Əzən, Murad bəy, Xoca Avropa dövlətlərində olmuşdular. Aparılan danışıqlar nəticəsində Osmanlı dövlətinə qarşı ittifaq yaradıldı. Bu ittifaqa Roma Papası, Venetsiya respublikası, Genuya respublikası, Neapol krallığı, Macarıstan krallığı, Kipr krallığı, Rodos feodal dövləti, Qaraman bəyliyi və Ağqoyunlu dövləti daxil idilər. Venetsiya Uzun Həsəni hərbi sursatla təchiz etməyi öz üzərinə götürmüşdü.

Avropa ölkələri ilə əlaqələrdə Kiçik Asiyanın cənubunda yerləşən Qaraman bəyliyi böyük əhəmiyyət kəsb edirdi. Buna görə də Uzun Həsən bu bəyliyin müstəqilliyinin qorunub saxlanmasına çox diqqət yetirirdi.

1472-ci ildə Ağqoyunlu dövləti ilə Venetsiya arasında ittifaq bağlandı və tərəflər qərbdən və şərqdən Osmanlı dövlətinə zərbə vurmağı planlaşdırdı. Bu plan türkləri zəiflətməyə çalışan Avropa dövlətləri üçün də sərfəli idi. Tərəflərin razılığına uyğun olaraq 1472-ci ildə Uzun Həsən Qaraman bəyliyi vasitəsilə Aralıq dənizi sahillərinə çıxdı: burada o, Venetsiyanın vəd etdiyi hərbi mütəxəssisləri və silah-sursat almalı idi. 1473-cü ilin martında 200 döyüşçüdən, top və barıtdan ibarət 4 Venetsiya gəmisi Kipr adasına yan aldı. Lakin onları Uzun Həsənə çatdırmaq mümkün olmadı. Çünki Venetsiya ikili siyasət yeridir, Osmanlının ağır daxili vəziyyətindən istifadə edərək onunla gizli danışıqlar aparır, ticarətdə güzəştlər qoparmağa çalışırdı. Ağqoyunlular Osmanlı dövlətinə qarşı Avropa dövlətləri ilə vahid cəbhə təşkil edə bilmədi. Uzun Həsənə qarşı 60 min Osmanlı qoşunu göndərildi. Osmanlılar Ağqoyunluları Kiçik Asiyanın qərbində, Beyşehir yaxınlığında məğlub etdilər. Sonra isə II Mehmet və Uzun Həsənin qoşunları Fərat çayı yaxınlığında üz-üzə dayandılar.

İlk döyüş 1473-cü il avqustun biri Malatya yaxınlığında oldu. Murad paşanın başçılığı altında Osmanlı qoşununun ön cərgəsi Ağqoyunlu sərkərdəsi Uğurlu Məhəmmədin yalançı geriləməsinə aldanıb pusquya düşdü. Osmanlı qoşununun çoxu qırıldı, Murad paşa özü Fərat çayında boğuldu.

Uzun Həsən, oğlu Uğurlu Məhəmmədin hücumu davam etdirmək təklifini qəbul etməyərək, qələbədən sonra yeni hücuma keçmədi. Öz qüvvələrini toplayıb nizamlamaq imkanı alan Fateh, avqustun 11-də Tərcan yaxınlığında Otluqbeli döyüşündə qəti uğur qazandı. Ağqoyunlu ordusu böyük itkilər verdi. İlkin döyüşlərdə Yusif Mirzə və daha iki oğlunu itirən Uzun Həsən bu dəfə oğlu Zeynal Mirzəni şəhid verdi.

Ağqoyunlular məğlub oldu. Ağqoyunluların məğlubiyyətinin bir sıra səbəbləri var idi: Ağqoyunlu dövlətinin ərazisi nə qədər geniş olsa da, onun Osmanlı dövləti kimi monolit birliyi yox idi. Ağqoyunlu süvarisi Osmanlının nizam-intizamlı yeniçərlərindən zəif idi. Osmanlı ordusu odlu silah cəhətdən xeyli üstün idi.

**Ağqoyunlu dövlətinin süqutu.** Osmanlılarla müharibənin uğursuz qurtarması ölkə daxilində Uzun Həsənə qarşı narazılıq yaratdı. Mərkəzi hakimiyyətə qarşı daim düşmən münasibətlərini gizlədən kürd feodalları açıq-açığına hərəkətə başladılar. Onlar 1474-cü ildə Venetsiya və Ağqoyunlu elçilərinə hücum edərək onları qarət etdilər. Atasının siyasətindən narazı olan Uğurlu Məhəmməd hakimi olduğu Şirvanda üsyan qaldırdı. Lakin Uzun Həsən üsyanı yatırdı. Uğurlu Məhəmməd Osmanlı sultanının yanına qaçdı. Sultanın qızı ilə evləndi və Sivasa, Osmanlı-Ağqoyunlu sərhəddinə hakim təyin olundu. Lakin Uzun Həsən onu ələ keçirib öldürdü.

Yaranmış vəziyyət Uzun Həsəni ehtiyatlı siyasət aparmağa vadar edirdi. 1475-ci ildə italyan səyyahı Marko Rosso Moskoviya dövləti adından Təbrizdə olmuş, Rusiya çarı III İvanın tapşırığı ilə Uzun Həsənlə Qızıl Orduya qarşı birgə mübarizə aparmaq barədə danışıq aparmışdı. Lakin Qızıl Ordu xanı ondan əvvəl elçi göndərmiş və Uzun Həsəndən dövlətinin cənub sərhəddini pozmayacağına təminat almışdı.

Gürcü feodalları da Uzun Həsəndən uzaqlaşmağa başladılar. Onlar Osmanlılara qarşı Ağqoyunlularla birgə mübarizədən imtina etdilər. Ona görə də, Uzun Həsən 1474-1477-ci illərdə Gürcüstana hərbi yürüş etdi və ölkənin çox hissəsini tutdu. 1477-ci ildə VI Baqratla bağlanan sülhə görə Tiflis də daxil olmaqla, Şərqi Gürcüstan Ağqoyunlu dövlətinə qatıldı.

1478-ci il yanvarın 5-də ömrünün ən yetkin çağında – 54 yaşında Uzun Həsən qəflətən vəfat etdi və Təbrizin “Nəsriyyə” məscidində dəfn edildi. Uzun Həsənin ölümündən sonra hakimiyyətə onun oğlu Yaqub Mirzə (1478-1490) gəldi. O, atasının siyasətini davam etdirərək Şirvanşahlarla dostluq münasibətlərini saxladı. Fərrux Yasarın qızı ilə evləndi. O, Səfəvi şeyxlərini Ağqoyunlu üçün ən böyük təhlükə sayırdı və onları 1488-ci ildə həbs etdirib Şiraz qalasına saldırmışdı. Anasının hazırladığı zəhəri səhvən içən Sultan Yaqub 1490-cı ildə öldü. Onun ölümündən sonra hakimiyyətə onun oğlu Baysunqur (1490-1492) gəldi. Onun təcrü-

bəsizliyindən istifadə edən Sufi Xəlil faktiki olaraq dövləti idarə edirdi. Hakimiyyətə iddialı feodallardan biri də Diyarbəkir hakimi Süleyman Bicanoğlu idi. O, 1491-ci ildə Sufi Xəlili döyüşdə öldürdü. Baysunqurun adından dövləti idarə etməyə başladı. Vəziyyətinin mürəkkəbləşməsi Uzun Həsənin başqa bir nəvəsinin – Rüstəm Mirzənin mübarizəyə qoşulmasına gətirdi. 1492-ci ildə Rüstəm Mirzə Diyarbəkirdə Süleyman Bicanoğlunu məğlub etdi və öldürdü. Baysunqur Şirvana, dayısı Fərrux Yasarın yanına qaçdı. Hakimiyyət Rüstəm Mirzənin (1492-1497) əlinə keçdi. Ancaq Baysunqur mübarizədən əl çəkməmişdi. Bu qarşıdurmada Rüstəm Mirzə Səfəvilərlə, Baysunqur isə Şirvanşahlarla ittifaqda idi. Bundan savayı, Rüstəm Mirzə yerli feodalları öz tərəfinə çəkmək üçün dövlət torpaqlarını soyurqal kimi paylamağa başladı. Onun dövründə hakimiyyət dairəsində Əbih Sultanın çox böyük nüfuzu vardı.

Rüstəm Mirzə 1492-ci ildə Bərdə döyüşündə Şirvandan kömək alan Baysunquru məğlub etdi. Şeyx Heydərin övladlarını İstəxr qalasından buraxdırdı, səfəvilərlə ittifaq bağladı. 1493-cü ildə Əhər döyüşündə Əbih Sultan və səfəvi şeyxi Sultanəli tərəfindən Baysunqur məğlub edildi və öldürüldü. Bu qələbədən narahat olan Rüstəm Mirzə 1494-cü ildə baş vermiş Şəməsi döyüşündə səfəvi Sultanəlini məğlub etdi və öldürüldü, ancaq İsmayılı ələ keçirə bilmədi. Səfəvi sülaləsinə başçılıq yeddi yaşlı İsmayıla keçdi.

Rüstəm Mirzənin apardığı siyasət mərkəzi hakimiyyəti zəiflədirdi. İş o yerə çatmışdı ki, hər Ağqoyunlu şahzadəsi öz adından fərman verir, soyurqal (moğolca "bəxşiş", "hədiyyə" deməkdir) paylayırdı. Nəticədə ölkədə həm siyasi, həm də iqtisadi böhran yetişdi. Feodal özbaşnalığı gücləndi. Bundan istifadə edən Uğurlu Məhəmmədin oğlu Gödək Əhməd Əbih Sultanla birləşərək və Osmanlı dövlətindən kömək alaraq, 1496-cı ildə Sultaniyyə döyüşündə Rüstəm Mirzəni məğlub edib əsir götürdü.

Uğurlu Məhəmmədin Osmanlı sultanının qızından olan oğlu Gödək Əhməd Osmanlı dövlətinin köməyi ilə Ağqoyunluya qarşı yürüşə başladı və 1496-cı ilin yayında Sultaniyyə yaxınlığında Ağqoyunlu qüvvələrini məğlub etdi. Həmin ilin sonunda Rüstəm Mirzəni döyüşlərin birində əsir aldı. Gödək Əhməd 1497-ci ilin mayın 3-də Təbrizə daxil oldu və özünü hökmdar elan etdi.

Gödək Əhməd vergi islahatı keçirdi, şəriətdə göstərilməyən 20-ə qədər vergini ləğv etdi. Lakin onun bu islahatı Fars və İraq feodal əyanlarını narazı saldı. Onlar birləşərək 1497-ci il dekabrın 13-də İsfahan döyüşündə Gödək Əhmədi məğlub edib öldürdülər. Bundan istifadə edən Əbih Sultan Uzun Həsənin nəvəsi Muradı (1497-1498) Qum şəhərində Ağqoyunlu hökmdarı elan etdi.

Lakin onun əmisi oğlu Əlvənd Mirzə də taxt-tac iddiasında olduğunu bildirdi və 1499-cu ildə Təbrizi ələ keçirdi. 1500-ci ildə Baba Xeyrulla adlı bir dərvişin vasitəçiliyi ilə Əhər şəhərində Əlvəndlə Murad arasında sülh bağlandı. Müqaviləyə əsasən Kürdən Qızıl Üzən çayına, Diyarbəkirə, Dəbilə qədər Azərbaycan torpaqları Əlvənd Mirzəyə, Ərəb İraqı, Fars, Kirman isə Murad Mirzəyə çatdı.

Beləliklə, Ağqoyunlu dövləti iki hissəyə parçalandı. 1501-ci ildə Əlvənd Mirzə, 1503-cü ildə isə Murad Mirzə Səfəvilər tərəfindən məğlub edildilər və Ağqoyunlu dövlətinə son qoyuldu. Buna baxmayaraq Ağqoyunlu Azərbaycan dövləti kimi nəinki yaxın Şərq, həmçinin Avropa tarixində dərin iz qoydu. Oğuz türklərinin yaratdığı Ağqoyunlu imperiyası özündən sonra yaranan Səfəvilər dövlətinin də tarixinə müsbət təsir göstərdi, ağqoyunlu oymaqları Səfəvilər dövlətinin formalaşmasında və inkişafında böyük rol oynadılar.

### *§ 4. XV əsr Azərbaycan dövlətlərinin sosial-iqtisadi həyatı*

**Azərbaycan dövlətlərinin ictimai quruluşu.** XV əsrdə Azərbaycan ərazisində üç dövlət – Şirvanşahlar, Qaraqoyunlular və Ağqoyunlular fəaliyyət göstərmişdi. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri Azərbaycanın Kürdən cənubda olan torpaqlarını əhatə etmişdi. Hər üç dövlətin ictimai quruluşunda elə bir əsaslı fərq yox idi.

Qaraqoyunlu dövlətində Baharlı, Ağqoyunluda isə Bayandur feodal əyanları rəhbər rol oynamışdılar. Oğuz türklərindən olan hər iki dövlətin hökmdarları padşah titulu daşıyırdılar. Padşahdan sonra dövlətdə ikinci əsas şəxs Əmir-əl-üməra (əmirlər-əmiri) idi ki, o da bütün hərbi qüvvələrə rəhbərlik edirdi. Sədrəzəm ruhanilərə başçılıq edir, vəqf vergilərini toplayır, məhkəmə işlərini qaydaya salırdı. Dövlət aparatındakı növbəti vacib şəxs Baş vəzir idi. Onu sahibi-divan da adlandırırdılar. O, şahın möhürünü saxlayır, dövlətin daxili və xarici işlərinə nəzarət edirdi. Ölkə əyalətlərə bölünmüşdü və əyalətlər padşahın varisləri və sülalə üzvlərindən təyin olunurdular. Əyalət divanının hər birində 300 mirzə çalışırdı. Tümən və nahiyə hakimləri tümən və nahiyyələri idarə edirdilər və canişin tərəfindən təyin edilirdilər.

Bayandur nəslinə aid köçəri feodallar tərəfindən idarə olunan Ağqoyunlu dövlətinin də ictimai quruluşu eynilə Qaraqoyunluda olduğu kimi idi. Yalnız bir kiçik fərq var idi ki, Ağqoyunlu padşahları bəzən Osmanlı və yaxud Teymurilərdə olduğu kimi özlərinə "sultan" titulu da götürürdülər.

Şirvanşahlar dövlətinin erkən orta əsrlərdən formalaşan ictimai quruluşu XV əsrdə də elə bir əsaslı dəyişikliyə uğramamışdır. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərindən fərqli olaraq Şirvanşahlar dövlətində ölkə başçısı şah titulu daşıyırdı. Dövlətin tarixi coğrafiyasında da dəyişiklik yox idi. Şirvanşahlar Kürdən şimala Dərbəndə və qərbdə Şəki hakimliyinə qədər əraziləri əhatə edirdi. Şirvanın ən etibarlı müttəfiqi əvvəlki dövrlərdə olduğu kimi, Şəki hakimliyi idi. Şirvanşahlarda hakimiyyət oturaq feodal əyanlara məxsus idi.

Azərbaycan dövlətlərində ordu quruculuğuna xüsusi diqqət verilirdi. Şirvanşahların ordusunda 60 min, Qaraqoyunlu və Ağqoyunlu ordularının hər birində 100 minə yaxın döyüşçü var idi. Ordu iki hissədən ibarət olurdu: əyalətlərdə canişin orduları saxlanılırdı. Seçmə döyüşçülər padşahın xüsusi qvardiyasında xidmət edirdilər. Orduda ən ali rütbəli şəxs Əmir idi.

**Sosial-iqtisadi həyat.** Yaxın Şərq ölkələrində olduğu kimi, XV əsrdə Azərbaycanda da ənənəvi "torpaq beşliyi" – çeşidli torpaq sahibliyi qalmaqda idi bunlar divan, xassə, mülk, vəqf və soyurqal torpaq sahibliyi idi.

Dövlət torpaqları dövlət xəzinəsinə aid torpaqlar idi və iki hissəyə bölünürdü: divan və xassə torpaqları. Bunların arasında yalnız bir fərq var idi ki, divan torpaqlarından yığılan vergilər dövlət xərclərinə yönəldilir, xassə torpaqlarından alınan gəlir padşah ailəsinin və bütünlükdə sarayın saxlanılmasına xərclənirdi. Vəqf torpaqları da 2 yerə ayrılırdı – dini müəssisələrə aid torpaqlar vəqfi-xeyri, ruhanilərin özlərinə aid olan torpaqlar isə vəqfi-əhli adlanırdı. Oturaq əyanların irsi torpaqları mülk adlanırdı. Bu torpaqlar sözsüz olaraq atadan oğula və ya başqa hüquqi varisə keçə bilir, alqı-satqıya qoyulur, istənilən zaman bu və ya başqa bir şəxsə bəxş edilə və hətta hərraca qoyula bilirdi. Aydındır ki, bu torpaqlarda oturub, onu becərən kəndlilər mülk sahiblərindən tam asılı idilər. Mülk torpaqlarının böyük hissəsi kənd icmasına verilirdi və onları bəzən səhv olaraq "icma torpaqları" adlandırılırdılar. Mülklərin ikinci hissəsi sahələr şəklində ayrı-ayrı kəndlilərə icarəyə verilirdi. İcma torpaqlarına görə vergi elliklə ödənilirdisə, icarəyə görə hər bir kəndli özü ayrı-ayrılıqda vergi ödəyirdi. Torpaq sahibliyinin sonuncu-5-ci forması "soyurqal" moğol ağalığı dövründə formalaşmışdı və "bəxşiş" mənasını verir. Soyurqal hərbi-köçəri əyanlara xidmət müqabilində verilirdi və irsən nəsildənnəslə ötürülürdü. Azərbaycanda xidmətə görə verilən ilkin soyurqal kimi Səfəvi ordeninin başçısı Şeyx İbrahim Şeyxşaha Ərdəbil mahalının bəxşiş edilməsini göstərə bilərik. Şeyxşahdan sonra gələn səfəvilər isə buranın tam hüquqlu hakimləri olmuşlar.

**Vergilər.** XV əsrdə Azərbaycan əhalisi 40-a yaxın vergi və mükəlləfiyyətlər yerinə yetirirdilər. Kəndlilər əkdikləri torpağa görə **malcəhət** ödəyirdilər ki, bu da məhsulun 20%-ni təşkil edirdi. İstər kənd, istərsə də şəhər əhalisi sudan istifadəyə görə **bəhər** vergisi ödəyirdi. Maldarlıq yarımköçəri xarakter daşıyırdı. Maldarlardan **çobanbəyi** vergisi toplanılırdı. Sənətkarlardan **tamğa**, tacirlərdən isə **bac** vergisi alınırdı. Müsəlman olmayanlardan **cizyə** adlanan can vergisi alınırdı.

Hülakilər dövləti dağıldıqdan sonra Azərbaycanda gedən siyasi mübarizələr, müharibələr, yadellilərin yürüşləri ölkənin iqtisadi həyatına dağıdıcı təsir göstərdi. Şəhər həyatı, sənətkarlıq, ticarət tənəzzülə uğradı. Azərbaycanın Teymur tərəfindən istila edilməsi və onun zülmü ölkənin təsərrüfat həyatına sarsıdıcı təsir göstərdi, xalqı aclığa məhkum etdi. Dövrün müasirlərindən biri yazırdı: "Teymur gedəndən sonra ölkəmizdə dəhşətli aclıq yarandı, aclıq hər yeri bürüdü... gözlərimizlə görüb, qulaqlarımızla eşitdiklərimizin hamısını, insan nəslinin necə qırıldığını söyləməyə gücümüz çatmır".

Qaraqoyunlu dövründə kənd təsərrüfatı, sənətkarlıq düşdüyü ağır vəziyyətdən qurtula bilmədi. Yalnız Ağqoyunlu dövründə, Uzun Həsənin apardığı islahatlar nəticəsində iqtisadiyyatda inkişaf başladı. XV əsrdə Azərbaycanda olmuş Avropa diplomat və səyyahlarının gündəliklərində Şimali Azərbaycan torpaqlarının dirçəlib inkişaf etməyə başladığı göstərilir. Ambroko Kontariniyə görə, bura (Şir-

van) “gözəl və bərəkətli düzənlik görünüşünə malikdir və Uzun Həsənin vilayətlərinə (Cənubi Azərbaycan) nisbətən daha yaxşı, daha varlıdır”.

Suvarma arxlarının və kəhrizlərin çox olması, sıradan çıxanların bərpa olunub istifadəyə qaytarılması istər Cənubi Azərbaycanda, istər də Şimali Azərbaycan torpaqlarında əkiçiliyin, ipəkçiliyin, pambıqçılığın, üzümçülüyün, bağ və bostanların inkişafına yol açdı. Azərbaycan ipəkçiliyi onu nəinki Yaxın və Orta Şərq şəhərləri, həm də Cənubi Avropa dövlətləri ilə sıx bağlayırdı. Şirvanşahlar dövlətində istehsal olunan ipək Venetsiyada, Bursada, Dəməşqdə və bir sıra başqa şəhərlərdə satılır, burada ondan gözəl parçalar və məxmər toxunurdu. O zaman ipək, Azərbaycanı “Böyük ipək yolu”na bağlayan bir vasitə, ölkə ixracının başlıca göstəricisi idi. Azərbaycan ipəyi Rusiyada da satılır, bu dövlət ərazisinə çıxarılan mallar içərisində görkəmli yer tuturdu. Azərbaycanın ipək təsərrüfatı beynəlxalq ticarətdə və ölkələrarası əmək bölgüsündə mühüm iqtisadi amilə çevrilmişdi.

XV əsrdə Şamaxı mühüm ipəkçilik mərkəzinə çevrilmişdi. Kontariniyə görə, Şamaxı ipəyi Venetsiyada Talaman ipəyi adı ilə tanınırdı. Şamaxıda çeşidli ipək parçalar istehsal edilirdi. Şirvanşahlar dövlətinin paytaxtı həm də beynəlxalq ipək ticarəti mərkəzlərindən biri olmuşdu. Adı çəkilən Kontarini öz gündəliyində yazmışdır: “Şamaxı Təbriz kimi böyük deyil. Ancaq mənim fikrimcə, hər baxımdan ondan daha yaxşı, yaşayış üçün zəruri olan hər şeylə doludur”. Şamaxı şəhristanı təqribən 100-200 hektar sahə tuturdu. Tarixən yaranmış olan əhali sıxlığı nəzərə alınarsa, burada beş-on min ev və ya otuz-altmış min əhali yerləşirdi.

Ölkənin başqa qədim şəhəri olan Təbriz isə bütün Yaxın və Orta Şərqin böyük sənət və ticarət mərkəzlərindən biri idi. XV yüzilin başında ispan səyyahı Klavixo Təbrizdə 200 min ailə yaşadığını yazmışdır. Həmin yüzilin sonunda isə tarixi qaynaqlarda Təbriz şəhərində 200-300 min adamın yaşaması göstərilir. Başqa bir avropalının müşahidəsinə görə, Miranşahın Təbriz şəhərindən topladığı gəlir Fransa kralının öz dövlətindən götürdüyü gəlirdən çox idi.

Ötən yüzillərdə olduğu kimi, Təbriz bütün Yaxın Şərqin həyatında öz iqtisadi yerini saxlayırdı. 1395-ci ildə Həştərxanın, 1400-cü ildə isə Bağdadın Teymurun qoşunları tərəfindən dağıdılması tarixçilərin fikrincə Təbrizin dəyərini daha da böyük etmişdi. Bakuvinin yazdığına görə: “Təbrizin güclü divarları və heyrət ediləcək binaları var. Bu, Azərbaycan ölkəsinin paytaxtıdır. Orada çaylar çoxdur, şəhər bağlar əhatəsindədir”. Kontarini isə yazmışdır: “Burada hər cür ərzaq malları var. Ərzağın qiyməti bahadır. Şəhərə bir neçə bazar vardır. Buraya çoxlu ipək gətirilir. Sonralar ipək karvan vasitəsilə Hələb şəhərinə aparılır”. İpək və ipəkçiliklə yanaşı, Təbrizdə pambıq və yundan toxunmuş parçalar, şal, gəbə, zərgər malları, silah və bəzək şeyləri istehsal olunurdu. “Dərai-yi qəssab” adlanan dörd rəngli Təbriz ipək parçası o zaman bütün Azərbaycan sənətkarlığının göstəricisi sayılırdı.

Təbriz və Şamaxı ilə yanaşı, Sultaniyyə şəhəri də alış-veriş mərkəzi kimi tanınırdı. Klavixonun yazdığına görə, xristian ölkələrindən, Kafa (Krım) və Trabzondan, Türkiyə, Suriya və Bağdaddan tacirlər “Hər il bura ticarətə gəlirlər”. Təbriz,

Şamaxı, Sultaniyyə, Marağa, Ərdəbil, Gəncə, Beyləqan və başqa şəhərlərdə pulkəsəsn zərbxanalar vardı. Bu, sənətkarlığın mühüm göstəricilərindən biri sayılırdı.

XV əsrdə Azərbaycan dövlətləri təkcə Şərq və Avropa dövlətləri ilə deyil, həmçinin güclənməkdə olan Rus dövləti ilə də ticarət əlaqələri qurmuşdular. Şirvan tacirləri Volqaboyu və Moskva bazarlarına ipək parça, pambıq və pambıqdan hazırlanan parçalar, xalça, zinət əşyaları, çərəz məhsulları, qab-qacaq, neft və sairə ixrac edir, əvəzinə Azərbaycana xəz-dəri, mum, bal, kətan parça və sair rus məhsulları gətirirdilər. Ticarətdə Xəzər dənizindən istifadə artmışdı. XV yüzillikdə Xəzər dənizi üzərində başlıca liman kimi Bakı şəhərinin rolu artmış, Dərbənd isə öz əhəmiyyətini itirməyə başlamışdı.

XV əsr Azərbaycan dövlətləri mahiyyət etibarı ilə feodal dövlətləri idi və kəndlilərin, sənətkarların istismarı üzərində fəaliyyət göstərirdilər. Feodal istismarının artması xalq çıxışlarına, üsyanlara səbəb olurdu. Bu dövrdə baş verən ən böyük üsyanlardan biri 1484-cü ildə Maku yaxınlığındakı Sofi kəndində baş verən üsyandır.

Üsyana Qaraqoyunlu sülaləsindən olan Topal Əhməd başçılıq edirdi. Səfəvi Şeyx Heydər Ağqoyunlulara qarşı mübarizədə bu üsyandan yararlanmağa çalışdı və gizlicə üsyana dəstək verdi. Lakin 1484-cü ildə Sultan Yaqub Mirzənin qoşunları Qarabulaq kəndi yaxınlığında üsyançıları darmadağın etdi. Feodallara qarşı üsyanlar, həmçinin Təbrizdə, Astarada, Şirvanda da baş vermişdi.

### *§ 5. XIII – XV əsrlərdə Azərbaycan mədəniyyəti*

XIII – XV əsrlərdə Azərbaycanda baş verən tarixi hadisələr – moğol ağalığı, XIV əsrin ikinci yarısında siyasi çəkişmələr, XV əsrin müharibələri və s. Azərbaycanda mədəniyyətə böyük ziyan vurmuş, elmin, ədəbiyyatın və incəsənətin inkişafını xeyli ləngitmişdi. Lakin buna baxmayaraq, Azərbaycan xalqı öz mədəniyyətini inkişaf etdirirdi.

**Maarif.** XIII – XV əsrlərdə təhsil sisteminin əsasını məktəb və mədrəsələr təşkil edirdi. Məktəblər əsasən ibtidai təhsil verir, burada şəriətin əsasına, dini ehkamlara, Quran oxunmasına xüsusi diqqət yetirilirdi. Yetim uşaqlar üçün "Dar ülitam" (Yetimlər evi) və "Beyt ülitam" (Təlim evi) yaradılmışdı. Bu məktəblərdə 10 uşağa 1 tərbiyəçi – atabəy düşürdü. Məzhər təhsil forması da var idi (şagirdlər müstəqil hazırlaşır və arada müəllimlərdən məsləhət alırdılar). Mədrəsələr isə orta təhsil verirdi. Mədrəsədə dini təlimdən savayı tarix, dil, ədəbiyyat, riyaziyyat, coğrafiya, astronomiya və sair dünyəvi elmlər tədris olunurdu. Mədrəsədə iki müdərris çalışırdı. Biri dini, o biri dünyəvi fənlərdən dərs keçirdi. Mədrəsədə təhsil şəxsi hesabdan və yaxud vəqf gəlirlərindən ödənilirdi.

Azərbaycan maarifinin və elminin inkişafında Təbrizin **"Rəb-i Rəşidi"** məhəlləsində yerləşən mədrəsə Bağdadın **"Nizamiyyə"** mədrəsəsindən sonra Şərqdə ali təhsil verən ikinci, Azərbaycanda isə birinci ali təhsil ocağı idi. Bu mədrəsəni **Fəzlullah Rəşidəddin** təsis etmişdi. Burada 500 müəllim 7000 tələbənin təlim və

tərbiyəsi ilə məşğul olurdu. Tələbələrin 6 min nəfəri müxtəlif ölkələrdən idi. Dövlət hesabına fəaliyyət göstərən bu mədrəsədə ilahiyyat, astronomiya, təbiətşünaslıq, təbabət, tarix, məntiq və sair fənlər öyrədilirdi. Bu darülfünunun (universitetin) kitabxanasında 60 min kitab var idi.

**Elm.** XIII-XV əsrlərdə Azərbaycanda elm sahəsində böyük irəliləyiş olmuşdu. Görkəmli astronom-alim Nəsrəddin Tusi 1259-cu ildə **Marağa rəsədxanasının** əsasını qoydu. Burada dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlər çalışırdılar. Başqa bir **rəsədxana** Təbrizin Şam-Qazan məhəlləsində fəaliyyət göstərirdi. Nəsrəddin Tusi (1201-1274) müxtəlif elm sahələrinə aid bir çox əsərin müəllifidir. Bunlardan **"Zic elxani", "Əxlaqi-Nasir"** və başqaları xüsusi əhəmiyyət kəsb edir. Şəmsəddin Übeyd Təbrizi hesab kitabının müəllifi idi. Filosof Mahmud Şəbüstəri "Sirlər gülşəni", "Şəhadətnamə" əsərlərini yazmışdı.

Tibb elmi sahəsində xeyli uğurlar qazanılmışdı. F.Rəşidəddin dövrünün tanınmış həkimlərindən idi. Görkəmli alim Əhməd Naxçıvanı ibn Sinanın əsərlərinə bir sıra şərhlər yazmışdır. Vəqf gəliri hesabına fəaliyyət göstərən **dar ül-şəfalar** (şəfa evləri) – müalicəxanalar yaradılmışdı. Rəb-i Rəşidi məhəlləsində yerləşən dar ül-şəfa daha məşhur olmuş, burada dünyanın müxtəlif ölkələrindən gəlmiş həkimlər çalşırdılar. Dərmanların hazırlanması və satışı üçün daruxanalar (apteklər) təşkil olunmuşdu.

Bu dövrdə elxanilərin tarixini əks etdirən bir sıra qiymətli əsərlər yazılmışdır. Tarix elmi üzrə Fəzlullah Rəşidəddin 14 əsər yaradaraq tarixlər toplusu yaratmışdı. Bu əsərlər içərisində "Cami ət-təvarix" ("Salnamələr məcmuəsi") xüsusi yer tutur. XIV əsrdə yaşamış Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur əl-katib" ("Qanun-qaydalar kitabı") əsəri Azərbaycanın ictimai-siyasi quruluşunu öyrənməkdə mühüm rol oynayır. Nizaməddin Şami Teymurun yürüşləri haqqında, gəncəli Kirakos isə XIII əsr hadisələri və albanlar haqqında qiymətli məlumtlar vermişlər.

Dövrün tanınmış coğrafiyaşünaslarından Həmdullah Qəzvinini, Əbdürəşid Bakuvini, dilçi – alimlərdən **İbn Müqənnəni,** Hinduşah Naxçıvanini, onun oğlu Məhəmməd Naxçıvanini göstərmək olar. Bu dövrdə Azərbaycan **dilçiliyi** sahəsində müəyyən işlər görüldü və dilçilik elmində "Azərbaycan dili" ifadəsi meydana gəldi. Alim **İbn Müqənnə** Azərbaycan sözlərinin lüğətini tərtib etmiş, **Məhəmməd Naxçıvani "Silah əl-əcəm"** adlı türkcə-farsca lüğət hazırlamışdı. Əsirəddin Əndəlüsinin "Türk dilini dərk etmə kitabı"nın və Azərbaycanca - ərəbcə lüğətin nəşr olunması Azərbaycan türkcəsinin inkişafına təkan verdi.

Bu dövrdə tarix elminə də aid qiymətli əsərlər yaradılmışdır. Elxanilərin tarixini əks etdirən bir sıra tarixi əsərlər yazılmışdı. Bunların içərisində Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix" ("Salnamələr məcmuəsi") əsəri xüsusi yer tutur. XIV əsrdə yaşamış Məhəmməd Naxçıvaninin "Dəstur əl-katib" ("Qanun-qaydalar kitabı") əsəri Azərbaycanın ictimai-siyasi quruluşunu öyrənməkdə mühüm rol oynayır. Məhəmməd Naxçıvani Azərbaycanda dövlət quruluşu və idarə sistemi haqqında məlumat verir.

XV əsrdə Azərbaycanda riyaziyyat, tarix, məntiq və sair elmlərlə yanaşı, fəlsəfə də inkişaf edirdi. O dövrün ən görkəmli filosofu İmadəddin Nəsimi idi. O, sufizmi təbliğ edir, dini ehkamlara qarşı çıxır, panteist bir filosof kimi Allahın məkan və zaman xaricində olması iddiasına qarşı çıxır, Allahın hər bir insanın daxilində olduğunu iddia edirdi. Nəsiminin davamçısı Əbülhəsən Əli ül-Əla "Bəşarətnamə" əsərində hürufiliyin nəzəri əsaslarını işləyib hazırladı. Seyid Yəhya Bakuvi görkəmli filosof olmaqla yanaşı dövrünün tanınmış tarixçisi və münəccimi idi.

**Dil və Ədəbiyyat.** Moğol işğalları Azərbaycan ədəbiyyatına da mənfi təsir göstərmişdi. Lakin buna baxmayaraq bu sahədə müəyyən işlər görülmüşdü. XIII əsrin əvvəllərində şair Şəmsəddin Təbrizi "Kəlilə və Dimnə" üslubunda "Fərid əs-süluk" adlı əsər yazmışdır. Azərbaycan-türk dilində ədəbiyyat daha çox inkişaf etmişdi. İzzəddin Həsənoğlu Azərbaycan türk və fars dillərində divan yaratmışdı. Azərbaycan dilində klassik poeziyanın ilk nümunələri yaradılmışdı. 1233-cü ildə şair Əli Azərbaycan dilində "Yusif və Züleyxa" adlı əsər yazmışdır. "Mürşidi-kamil" ləqəbli Şəms Təbrizi "Məqamat" əsəri ilə bütün Şərqdə məşhurdur. Əhvədi Marağayinin (1274-1338) "Dəhnamə", "Cami-cam" əsərləri elmi-fəlsəfi, əxlaqi və dini mövzudadır. XIV əsrdə ədəbiyyat xeyli inkişaf etmişdi. Şirvanşahlar sarayında yaşamış Arif Ərdəbilinin 1369-cu ildə yazdığı "Fərhadnamə" poemasının qəhrəmanı İran şahı Xosrov deyil, memar Fərhaddır. Əsərdə Şamaxı və Bakı abidələrinin təsvirinə daha çox yer verilmişdir. Dövrünün tanınmış şairlərindən olan Əssar Təbrizi (1323-1390) "Mehr və Müştəri", "Saqinamə" kimi poemaların müəllifidir. Onun qəhrəmanları bütün əzab və əziyyətlərə dözərək öz arzularına çatırlar. Hürufilik təliminin banisi Fəzlullah Nəimi "Cavidannamə", "Novruznamə", "Məhəbbətnamə", "Vəsiyyətnamə" kimi əsərlər yaratmışdır.

XV əsrdən başlayaraq Azərbaycan ədəbiyyatında fars dilində yazılan əsərlərin sayı azalır, ana dili – Azərbaycan türkcəsində yazan şairlərin sayı artırdı. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində dövlət dili Azərbaycan dili idi və hökmdarlar ana dilində yazılan əsərlərə üstünlük verirdilər. Azərbaycan dilində yazıb yaradan şairlərdən Kişvərini, Həbibini, Nəsimini, Cahanşah Həqiqini, Şah Qasım Ənvarı göstərmək olar. Kişvəri və Həbibi Ağqoyunlu Sultan Yaqub Mirzənin sarayında ən hörmətli şairlər idilər.

XV əsr ədəbiyyatının ən görkəmli nümayəndəsi İmadəddin Nəsimidir. Nəsiminin yaradıcılığında insan problemi mərkəzi yer tutur. Azərbaycan, fars və ərəb dillərində yazıb yaradan Nəsimi əsərlərinin böyük hissəsini, o cümlədən 12 min misradan ibarət divanını öz ana dilində - Azərbaycan türkcəsində yazmışdır.

Qaraqoyunlu hökmdarı Cahanşah "Həqiqi" təxəllüsü ilə şeirlər yazırdı. Hürufilik hərəkatının iştirakçısı Şah Qasım Ənvar (1355-1435) həm fars, həm Azərbaycan dilində yazıb yaratmışdır.

**Memarlıq və incəsənət.** XIII-XIV əsrlərdə memarlıq xeyli inkişaf etmişdi. Moğolların dağıtdığı bir çox şəhərlər yenidən bərpa olunmuşdu. 1239-cu ildə Gəncənin bərpasına başlandı. Qazan xan Muğanda Mahmudabad şəhərini saldırdı. Hülakilərin paytaxtı olan Təbriz böyüyür və genişlənirdi. Burada "Arquniyyə",

“Qazaniyyə”, “Rəb-i Rəşidi” kimi yeni məhəllələr salındı. Elxani vəziri Tacəddin Əlişahın Təbrizdə tikdirdiyi “Əlişah məscidi” sonralar “Ərk qalası” adı ilə müdafiə qalasına çevrilmişdi. Abşeronda Mərdəkan, Nardaran, Ramanı qalaları dövrün memarlıq abidələri idi. Bu dövrdə türbələrin tikintisinə geniş yer verilmişdi. Naxçıvanda Cuğa kəndində Gülüstan türbəsi, Sultaniyədə Şərq türbələrinin incilərindən sayılan Olcaytu Xudabəndə türbəsi (1305-1313), 1322-ci ildə Bərdə türbəsi, Qarabağlar kəndində (Naxçıvan) Hülaki xanın arvadı Quti xatunun şərəfinə tikilmiş türbə gözəl memarlıq nümunələridir. XIV əsr memarlıq abidələrindən biri də Bərdə körpüsüdür. 16 gözdən ibarət olan bu körpünün uzunluğu 170, eni isə 5 metrdir.

XV əsrdə də bir sıra görkəmli memarlıq abidələri yaradılmışdır. Bunlardan Bakıda Şirvanşahlar Saray kompleksinin binalarından birini – divanxananı, “Bayıl daşları”nı, Mərdəkan qalasının kitabəsini, Qaraqoyunlu Cahanşah tərəfindən Təbrizdə inşa etdirilən “Göy məscidi” (1465), Ağqoyunlu Sultan Yaqub Mirzənin əmri ilə tikilən “Həşt behişt” (1483) saray kompleksini, “Həsən padşanın camesi”ni, “Nəsriyyə” və “Məqsudiyyə” mədrəsələrini göstərmək olar.

**Dekorativ tətbiqi sənət** sahəsində bir sıra uğurlar olmuşdu. Dekorativ tətbiqi sənətin gözəl nümunələri olan Azərbaycan xalçaları dünya şöhrəti qazanmışdı. Təbriz və başqa şəhərlərdə metalişləmə sənəti inkişaf etmişdi. Təbriz ustalarından Yusif ibn Əhmədin 1319-cu ildə hazırladığı bədii kasa (hazırda Londonda Viktoria və Albert muzeyində saxlanılır), 1399-cu ildə Əmir Teymurun sifarişi ilə Əbdüləziz ibn Şərafəddin tərəfindən hazırlanmış 2 ton ağırlığında tiyan (hazırda Sankt-Peterburqda Ermitajda saxlanılır) yüksək zövqlə hazırlanmış bədii sənət əsərləridir. Minatür sənətinin nümunələrindən kitabların tərtibatında, tikilən memarlıq abidələrində geniş istifadə edilmişdir.

Görkəmli musiqişünas Səfiyəddin Urmavi (1230-1294) “Kitab əl-ədvar” (“Musiqi dövrləri haqqında kitab”) kitabını yazmışdır. XV əsrdə Azərbaycanda yetişmiş ən mahir musiqiçilərdən Əbdülqadir Marağaini (1353-1445) göstərmək olar. Onun yaratdığı mahnılar, muğamlar, rəqs melodiyaları Yaxın və Orta Şərq mədəniyyətinə böyük təsir göstərmişdir. Əbdülqadir Marağai ilk dəfə 12 əsas muğamdan törəmə 24 şöbə sistemini elmi cəhətdən əsaslandırmış, musiqi mətnləri və Azərbaycan dilində şeirlər yazmışdır.

Dövrün tanınmış rəssamı Əmir Dövlətyar rəssamlıq məktəbi yaratmış, onlarla rəssam yetişdirmişdi.

*§ 1. Səfəvilərin Ərdəbil hakimliyi.*

*§ 2. Səfəvilər dövlətinin yaranması. Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi.*

*§ 3.Səfəvilər dövlətinin xarici siyasəti. Səfəvi Osmanlı müharibələri.*

## *§ 1. Səfəvilərin Ərdəbil hakimliyi*

Səfəvilər sülaləsinin tarixinin araşdırıcısı Petruşevski onların tarixini 4 dövrə bölmüşdür:

I dövr – XIII əsrin ikinci yarısından 1447-ci ilə qədər;

II dövr – 1447-ci ildən 1501-ci ilədək;

III dövr – 1501 – 1576-cı illər;

IV dövr – 1576-1736-cı illər.

Bu dövrlər bir-birindən baş verən proseslərin məzmununa və miqyasına görə fərqlənir.

I dövr – Səfəvilər ordeninin yaranması, təşəkkülü dövrüdür. Bu dövrdə Səfəvilər hərbi qüvvəyə və əhali dəstəyinə malik olmadıqlarından ordenin bütün fəaliyyəti səfəvilər təriqətinin mövqeyinin möhkəmlənməsinə yönəlmişdi.

Səfəvilər təriqətinin və Səfəvilər sülaləsinin əsasını Şeyx Səfiəddin Musəvi qoymuşdur (1252-1334) və təriqət də öz adını "Səfiəddin" adından götürmüşdür. Səfiəddinin ata-babaları Səlcuqlu sultanlarının soyundan və Qınıq boyundan olmuşlar. Səlcuqlar dönəmində yaşamış səfəvilərin əcdadı "şah" ləqəbli Firuz Zərrinkulah olmuşdur. Səfəvilərin sülalə aşirəti, doğma el-obası Şeyxavəndlər idi. Səfəvi dövrünün tanınmış tarixçisi İskəndər bəy Münşi Şeyxavəndləri ayrıca el kimi qeyd etmiş və o zaman "taçik" adlandırılan farslardan və kürd qəbilələrindən tam fərqli olduğunu göstərmişdir. Səfəvilər Səlcuqlu soyundan gəldiyini gizlətməli olmuşlar. Sultan Səncərdən sonra Böyük Səlcuqlu dövləti dağılmışdı və Əmir Firuzun davamçıları əllərində olan mülklərini və ümumiyyətlə öz canlarını qorumaq üçün səlcuqlulara mənsubluğu gizlətməli olmuşlar. Lakin bəzi mənbələrdə onların öz türk mənşəyini vurğuladığı üzə çıxır. Belə ki, XIV əsrdə Səfəvi dərviş təriqətinin banisi Şeyx Səfiəddin İshaqın (1252-1334) tərcümeyi-halını yazmış Səfəvi dərvişlərindən biri olan Təvəkkül ibn İsmayıl ibn Hacı əl-Ərdəbili (ləqəbi İbn Bəzzaz) məşhur "Səfvət əs-Səfa" əsərində belə bir məlumat verir: "İbn Bəzzaz belə yazır: "Şeyx Səfiəddin bu ləfz ilə buyurdu: "Ey xülafə camaatı, Xacə Sədrəddinə dua edin ki, rəhmətlik Şeyx Zahidin və mən türkzadənin (türk oğlunun) taxtını aparmışdır". (Bax: "Səfvət əs-Səfa". Leninqrad nüsxəsi. Səh.524).

Səfəvi dövləti yarandıqdan sonra isə "səlcuqluyam" demək türk boyları içərisində mərkəzdənqaçma meyllərini gücləndirə bilərdi. Daha sonrakı dövrdə isə

səfəvilərin şəcərisini Məhəmməd peyğəmbərə bağladılar və beləliklə Səlcuqlu mənsubiyyətinə ehtiyac qalmadı.

Səfəvilərin Əmir Firuzdan Şeyx Səfiəddinə qədər olan nümayəndələri hərblə məşğul olublar. Sülalənin dini işlərə meyllənməsi Şeyx Səfiəddindən başlamışdır.

Dövlət qulluğuna görə İbrahim Şeyxşahın dövründə Ərdəbil şəhəri onlara daimi iqtaya verilmişdi. Beləliklə, Səfəvi şeyxləri malik olduqları Ərdəbil şəhərində dini təşkilat – Səfəvi ordeni yaratdılar. Ordendə şagirdlər (müridlər) rəhbərlərindən (mürşidlərdən) dərs alırdılar. Səfəvi ordenində şiəlik təbliğ edilirdi.

Səfəvi təriqətinin təbliğ olunub yayılması, sufiliyin başqa qollarının tarixində olduğu kimi, şiəlik bidəti ilə çuğlaşaraq kəndli çıxışlarının bir növ idialoji əsasını təşkil etmişdir. XIII yüzilin sonunda Şirvanşah Axsitanın Səfəvilər təşkilatını ittiham etməsi, kəndliləri öz mükəlləfiyyətlərini yerinə yetirməkdən çəkindirməkdə günahlandırması təsadüfi deyildi. Hərəkatın o çağında Səfəvi müridləri içərisində çox sayda əkinçi-kəndlilər vardı. Müridlər hökmdarı göyün elçisi kimi tanımayaraq, onun öldürülməsini məqbul sayırdılar.

XIV yüzilin ikinci yarısında Səfəvi təriqət qurumunun ictimai siması dəyişikliyə uğradı, təriqət başçısı şeyx böyük torpaq sahibinə çevrildi. Şeyx Səfiəddinin oğlu Şeyx Sədrəddin (1392-ci ildə ölmüşdür) böyük torpaq sahiblərindən idi.

Səfəvilərin bir təriqət kimi genişlənməsinin və gələcəkdə siyasi iddialara düşəcək qədər iri miqyas almasının arxasında Əmir Teymurun Ərdəbil ocağına göstərdiyi diqqət və qayğının da böyük rolu olmuşdur. Teymur Şeyx Səfi ocağının piri ilə Ərdəbildə hörmət-izzətlə görüşmüş, onun xahişi ilə Anadoludan əsir götürdüyü türklərin hamısını azad etmiş, təmənnası olmamasına rəğmən mürşüdə xeyli pul və yeni ərazilər bağışlamışdı. Sonradan "rumilər" adlanan və ətraf qəsəbələrdə, şəhərlərdə məskunlaşan həmin Anadolu türkləri və Teymurun bağışladığı ərazilərin gəlirləri Səfəvilərin sosial və iqtisadi dayaqlarını daha da artırmışdı.

XV yüzilin birinci yarısının sonuna yaxın təriqətin başçısı Şeyx İbrahim Şeyxşah (1447-ci ildə ölmüşdür) Ərdəbil vilayətinin artıq irsi feodal hakimi kimi çıxış edirdi. Bu zamandan təriqətin hərbi-siyasi təşkilat olan Səfəvi ordeni bir ruhani dövlətə çevrilməyə başladı. Yəni, bu təriqət qurumu öz ideologiyasını yaymaqla yanaşı, ölkənin ayrıca bir vilayətində - Ərdəbildə siyasi hakimiyyəti ələ aldı, ruhani və dünyəvi hakimiyyət onun əlində birləşdi. Ərdəbil şeyxləri təriqət üçün mürid və qazilər toplayaraq onlardan əsgəri birləşmələr yaradır, onları Səfəvi ordeninin dayağına çevirirdilər. Səfəvilər xalqın ağır vəziyyətindən istifadə edərək bütün bunların günahını sünnü hökmdarlarda görürdülər və bu yolla sadə kəndlilərin, sənərkarların, tacirlərin şüuruna yeridilirdilər ki, müsəlman, əslində bir növ vergi – sədəqə ödəməlidir və əgər şiələr hakimiyyətə gələrsə, xalq yalnız şəriətə uyğun olaraq sədəqə vergisi ödəyəcəkdir.

Orta əsrlərdə kəndli hərəkatının ideologiyası mistika və təriqətçilik olmuşdur. Azərbaycanda da mövcud hökmdarların zülmünə qarşı sosial narazılıq təriqətçilik və bidətçi cərəyanların mübarizəsi kimi ortaya çıxırdı. Şiəlik, əslində, bidətçi cərəyan olduğundan yoxsul kütlələr arasında sürətlə yayılırdı. Bəzən yoxsul-

lar bu cərəyanın dini ehkamlarını o qədər də başa düşmür və mahiyyətinə varmırdılar. Hökmdarlara qarşı qəzəb dini forma alır, sünnülərə nifrət kimi ortaya çıxırdı. Səfəvi şeyxləri bu amildən məharətlə istifadə edirdilər. Səfəvi ordeninin təbliğatı ildən-ilə güclənirdi və Kiçik Asiyanın, Farsın, İraqın, Gilanın, Talışın məzlum əhalisi arasında artıq onların minlərlə tərəfdarı var idi.

Tərəfdarlarının artması XV əsrin ortalarından səfəvilərə siyasi hakimiyyət uğrunda mübarizə aparmağa imkan verdi və bu vaxtdan onların tarixinin II dövrü (1447-1501) başlayır. İlk dəfə açıq-açığına siyasi hakimiyyət uğrunda mübarizəyə başlayan Şeyx Cüneyd (1447-1460) olmuşdur. Səfəvilərin nüfuzunun artmasına görə Qaraqoyunlu hökmdarı Cahanşah özü sufizmə meyl etmiş, hətta şiəliyi dövlət səviyyəsində dəstəkləməyə başlamışdı. Ancaq Şeyx Cüneydə dini təəssübkeşlik lazım deyildi. Onu maraqlandıran siyasi hakimiyyət idi. Səfəvilərin siyasi fəallığı Cahanşahı narahat etməyə başladı və Cahanşah Şeyx Cüneydin Ərdəbildən çıxmasını tələb etdi. 1449-cu ildə Şeyx Cüneyd tərəfdarları ilə bir müddət Suriyada fəaliyyət göstərdi və 1456-cı ildə Diyarbəkirə, Qaraqoyunlunun düşməni Uzun Həsənin yanına gəldi. Öz çıxışlarında daim sünnülərə nifrət ifadə edən Şeyx Cüneyd bu dəfə sünnü hökmdara sığınmaqdan çəkinmədi. Hətta Uzun Həsənin bacısı Xədicə Bəyimlə evləndi. 1459-cu ildə Şeyx Cüneyd Ərdəbilə qayıtmağa cəhd etdi, amma Şeyx İbrahimin oğlu Şeyx Cəfər tərəfindən Ərdəbilə buraxılmadı.

Fəal siyasət yeritmək və söz sahibi olmaq üçün səfəvilərə hərbi qüvvə və maliyyə vəsaiti lazım idi. Şeyx Cüneyd Cənubi-Şərqi Anadoluda öz sıralarını türk mənşəli varsaq və zülqədər tayfaları hesabına gücləndirdi. Maliyyə vəsaiti əldə etməyin ən tez yolunun qarət olduğunu yəqin edən səfəvilər "çərkəzlər arasında din yaymaq" pərdəsi altında Azərbaycanın şimal bölgələrinə və Dağıstana yürüşlərə başladılar. "Qəzavət" bayrağı altında təşkil olunan bu yürüşlər Şirvanşah II Xəlilullahın razılığı ilə həyata keçirilirdi. Əslində Şeyx Cüneydin əsas məqsədi səfəvilərin əzəli Şirvanı ələ keçirmək idi. Səfəvilər nəinki bütpərəst əhalini, həmçinin yerli sünnüləri qarət edir, müqavimət göstərənləri qılıncdan keçirirdilər. Şeyx Cüneydin yürüşünün əsas məqsədini başa düşən II Xəlilullah ona qarşı qoşunla çıxdı və 1460-cı il 3 mart tarixində Samur çayı yaxınlığında baş verən döyüşdə səfəviləri məğlub etdi və Şeyx Cüneydi öldürdü.

Şeyx Heydər (1460-1488) atası Şeyx Cüneydin siyasətini davam etdirirdi. O, təriqətin əsgəri gücünü böyütdü. Azərbaycan, Anadolu və Şamda yaşayan Əfşar, Qacar, Zülqədər, Təkəli, Ustaclı, Şamlı, Rumlu kimi türk tayfalarına arxalanmağa başladı.

Əsgəri təşkilat baxımından güclənmiş olan Şeyx Heydər tarixə ayrıca bir təriqət atributu gətirdi. "Qazi" və "sufi" dəstələrini "qızılbaş" adı altında birləşdirdi. (12 imamın şərəfinə başlarına 12 zolaqdan ibarət çalma bağladıqlarından avropalılar tərəfindən bütün Səfəvi təriqət adamları "qızılbaşlar", təriqətin sonra yaratdığı dövlət isə bəzi hallarda "Qızılbaş dövləti" adlandırılmışlar).

Şeyx Heydər ilk növbədə Ağqoyunlu dövləti ilə münasibətləri yaxşılaşdırdı, dayısı Uzun Həsənin qızı Marta (Aləmşah bəyim) ilə evləndi. 1470-ci ildə Şeyx

Heydər Uzun Həsənlə birlikdə Ərdəbilə qayıtdı və Uzun Həsən onu Səfəvi təriqətinin başçısı təyin etdi. Şeyx Heydər də ata-babalarının siyasətini davam etdirərək Şimali Qafqaza yürüşlər təşkil etdi. Bu yürüşlər, təbii ki, Ağqoyunlu hökmdarı Sultan Yaqub Mirzənin icazəsi ilə həyata keçirilirdi. Səfəvi dəstələrinin Şirvandan keçirilməsi isə Şirvanşah Fərrux Yasarla razılaşdırıldı. Şeyx Heydər 1483-1487-ci illərdə Dərbənddən Kabardaya qədər ərazilərə yürüş etdi və çoxlu qənimətlə geri döndü. Bu yürüşlər Fərrux Yasarda narahatlıq yaratdı. Sultan Yaqub da hərbi gücü artan Şeyx Heydərə təhlükə mənbəyi kimi baxırdı. 1488-ci ildə Şeyx Heydər yenə anası Xədicə bəyimi işə qatıb Sultan Yaqubdan 3-cü yürüşə icazə aldı. Bu dəfə Şeyx Heydər Şimali Qafqaz ərazisinə deyil, Qarabağa hücum edib Çiləbird (indiki-Ağdərə) nahiyəsində yaşayan zimmiləri (cizyə ödəyən xaçpərəst albanları) qarət etdi. Ağqoyunlu dövlətinin təbəələrinə qarşı bu hərəkətlər Təbrizdə narazılığa səbəb oldu. Qarabağdan sonra Şeyx Heydərin əsgərləri Şamaxıya hücum edib yerli əhalini qılıncdan keçirdilər.

Şeyx Heydərin hərərkətlərini Fərrux Yasarla Sultan Yaqub qiyam, təcavüz və quldurluq kimi qarşıladılar. Süleyman bəy Bicanoğlunun başçılığı altında göndərilən 4 minlik Ağqoyunlu atlı qoşunu ilə Şeyx Heydərin qoşunu arasında 9 iyul 1488-ci ildə qanlı toqquşma oldu. Tabasaranda baş verən bu döyüşdə (Şahdağ döyüşü) Ağqoyunlu tərəfində Şirvan qoşunları da iştirak edirdilər. Boğazından oxla vurulan Şeyx Heydər öldürüldü, başı kəsilib Sultan Yaquba, sonra isə anası Xədicə bəyimə göndərildi.

Səfəvilərin bu uğursuzluğundan sonra Sultan Yaqub Ərdəbili tutdu, Şirvandan canını qurtarıb qayıdan təriqət qazilərinin qalıqlarını dağıdıb məhv etdi. Şeyx Heydərin oğlanları – Sultanəli, İbrahim və İsmayılı həbs etdirib Şirazda İstəxr qalasına saldırdı.

1490-ci ildə Sultan Yaqub öldü, hakimiyyətə oğlu Baysunqur gəldi. 1490-1492-ci illərdə hakimiyyətdə olan Baysunqur da səfəvilərə qarşı sərt mövqe tutmuşdu. Uzun Həsənin başqa bir nəvəsi Rüstəm Mirzə 1492-ci ildə Baysunquru yıxaraq hakimiyyətə gəldi və Səfəvi şeyxlərini həbsdən azad etdi ki, Baysunqurla mübarizədə onlardan istifadə etsin. Rüstəm Mirzə Ərdəbil hakimliyini səfəvilərə qaytardı, hətta Sultanəlini "padşah" adlandırmağa başladı. Sultanəli Rüstəm Mirzə ilə ittifaq qurdu və Baysunqura qarşı mübarizəyə qoşuldu.

Fərrux Yasar bacısı oğlu Baysunquru Rüstəm Mirzə ilə mübarizədə dəstəkləyirdi. 1493-cü ildə Sultanəlinin və Ağqoyunlu Əmir Əbih Sultanın birləşmiş qoşunları Əhər-Meşkin yaxınlığında baş verən döyüşdə Baysunqurun qoşunlarını darmadağın edib özünü də öldürdülər. Öz əli ilə siyasət meydanına çıxardığı Sultanəlinin nüfuzunun artması Rüstəm Mirzəni narahat etməyə başladı. Sultanəli bu təhlükəni hiss edərək 1494-cü ildə, müridlərin Sarıqamış yığıncağında azyaşlı İsmayılı Səfəvi təriqətinin başçısı elan etdi və Ərdəbilə göndərdi. Özü isə Ağqoyunlu ilə döyüşə hazırlaşmağa başladı. 1494-cü ildə Ərdəbil yaxınlığında, Şəməsi döyüşündə Sultanəlinin dəstələri Rüstəm Mirzənin qoşunları ilə üz-üzə gəldi və Sul-

tanəli döyüşdə öldürüldü. Rüstəm Mirzə Ərdəbili ələ keçirdi, İsmayılın axtarışını elan etdi. Bundan sonra səfəvi ailəsi yenə gizlənməyə məcbur oldu.

Müridlər İsmayılı bir müddət Ərdəbildə gizlətsələr də, sonra daha etibarlı yerə - Gilanın (Lahican) Biyəriş vilayətinin hakimi Mirzə Əlinin yanına apardılar.

Beləliklə, 1447-1500-cü illərdə Səfəvilər üç dəfə siyasi hakimiyyət uğrunda mübarizəyə qoşuldular və hamısı uğursuzluqla başa çatdı.

## *§ 2. Azərbaycan Səfəvilər dövlətinin yaranması. Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi*

**Şeyx Heydər oğullarının Ərdəbil və Gilanda gizlədilməsi. İsmayılın Ərzincan səfəri.** Ağqoyunlu Rüstəm padşah (1493-1497) qızılbaşların əsgəri qüvvəsindən istifadə edib hakimiyyətini möhkəmləndirdikdən sonra onların başçısı Soltanəlidən ehtiyat etdiyinə görə onu da aradan götürməyə fürsət axtarırdı. 1494-cü ildə Ərdəbil yaxınlığında, Şəmsi kəndində Ağqoyunlu sərkərdəsi Ayba soltanla Soltanəli arasında savaş baş verdi. Soltanəli məğlub edildi. Bu döyüşdə Sultan Əli də həlak oldu. Şeyx Heydərin qalan iki oğlu İsmayıl və İbrahim Ərdəbildə gizlədildi. Ancaq Ağqoyunlular Ərdəbili tutduqdan sonra İsmayıl və İbrahimi müridləri Gilana qaçırıb Biyepiş valisi Gərgiyə Mirzə Əlinin sarayında gizlətdilər. Rüstəm Mirzə dəfələrlə Gərgiyə Mirzənin sarayına elçi göndərib İsmayılı tələb etsə də, o müxtəlif bəhanələrlə elçiləri geri qaytarmışdı. Səfəvilərin tərəfdarı olan Lahicanda hakim Gərgiyə Mirzə Əli İsmayıl və qardaşına qayğı ilə yanaşır, onlara fars və ərəb dillərini öyrətmək üçün Şəmsəddin Gilani adlı birisini də müəllim tutur.

XV yüzilliyin son illərində Bayandur şahzadələri arasındakı çəkişmələrdən, savaşlardan əziyyət çəkən və nəticədə mərkəzləşdirilmiş dövlətə böyük ehtiyac hiss edən Azərbaycan xalqının Səfəviyyə cəmiyyətinin irsi şeyxi olan İsmayıla rəğbəti gündən-günə artırdı. Səfəvilərin Azərbaycan və onun xaricindəki tərəfdarları ağqoyunluların hakimiyyətinə qarşı baş qaldırmaq üçün fürsət axtarırdılar. Artıq bu zaman Bayandur şahzadələrindən Əlvənd Mirzə ilə Murad Mirzə arasında hakimiyyət uğrunda gedən müharibə Baba Xeyrulla başda olmaqla bir qrup ağsaqqalın işə qarışması ilə dayandırılmış və 1500-cü ildə Əbhər barışında dövlətin ərazisi adıgedən şahzadələr arasında iki yerə bölünmüşdür. Bu barışda İrəvan, Diyarbəkr, Qarabağ da daxil olmaqla Kür çayından "Qızıl üzən" çayına qədər Azərbaycan torpaqları Əlvənd Mirzənin, İraq, Fars Kirman isə Murad Mirzənin hakimiyyəti altında olması qərarlaşdırılmışdır. Azərbaycanın Şirvan bölgəsi isə Dərbəndi sülaləsinin hakimiyyəti altında idi. Azərbaycanın ayrı-ayrı hakimlər arasında bölünməsi, vilayətlər arasında təsərrüfat əlaqələrinin zəifləməsi, məhsuldar qüvvələrin inkişafının ləngiməsi ilə əlaqədar olaraq, artıq xalqın qüvvətli dövlət hakimiyyətinin yaranmasına ehtiyac hissi artırdı. Belə bir vaxtda Ismayılın bayrağı altında Azərbaycanı yenidən birləşdirmək uğrunda böyük bir siyasi hərəkat başlandı.

Hələ 1499-cu ilin avqustunda 13 yaşlı Ismayıl Lahicanı yeddi nəfər türk-qızılbaş qazisi ilə tərk etmişdi. Az bir vaxt içərisində Rumdan, Qaracadağdan, Əhər-

dən gələn qızılbaş müridləri də onlara qoşuldular. Xalxala yaxınlaşarkən Ismayılın başına toplaşan qızılbaş döyüşçülərinin sayı artıq 1500-ə çatdı. Ismayıl öz atlıları ilə birlikdə qışı Astara yaxınlığındakı Ərcivanda keçirdi. Bu, Güney Azərbaycan vilayətlərindən Səfəvi tərəfdarlarının gəlib çatmasına imkan verdi. 1500-cü ilin yazında Anadoludakı tərəfdarlarına qovuşmaq üçün buradan Ərzincana getmək qərara alındı. Ancaq qızılbaşlar oraya birbaşa deyil, Arazın quzeyinə keçərək Göyçə mahalından yollandılar. Ərəşli və Zülqədərli tayfaları da qızılbaşlara qoşuldu. Göyçə dağlarında Cahanşah Qoraqoyunlunun nəvəsi Soltan Hüseyn Baranlı da qızılbaşlara qoşulmaq istədiyini bildirdi. Ancaq onun sui-qəsd hazırlığında olduğunu bilən qızılbaş bəyləri çevik tərpəndilər. Gecə ilə oranı tərk edib Çuxur-Sədə (Irəvan), oradan da Şürəkələ vardılar. Burada Qaraca Ilyas Bayburtlu Anadolu qızılbaşlarının böyük bir dəstəsi ilə Ismayılın tərəfinə keçdi. Ərzincana çatdıqdan sonra Ismayılın artıq 7000 qazisi var idi. Bunlar Ustaclı, Şamlı, Rumlu, Təkəli, Afşar, Qacar, Varsaq tayfalarından olan gənclər, habelə «Qaradağ (Qaracadağ) sufiləri» idilər.

**Fərrux Yasərə qarşı yürüş.** Qızılbaş bəyləri arasında hərəkatın sonrakı gedişi barədə bir fikir yox idi. Onların bir qismi Ərzicanda daha çox qoşun yığıb yazda Ağqoyunlular üzərinə yürüş keçirməyi, başqaları isə Gürcüstan üzərinə cihad keçirməyi təklif edirdilər. Ancaq qışı gözləmədən dərhal Şirvanşah Fərrux Yasərə qarşı yürüş keçirmək istəyənlər üstünlük qazandılar. Siyasi qüvvələrin durumu yürüş üçün çox əlverişli idi. Ağqoyunlu dövləti ötən il iki yerə parçalanmışdı. Şirvan dövləti meydanda tək qalmışdı. Şiəlik bayrağı altında çıxış edən qızılbaş hərəkatı təkcə Azərbaycanda deyil, Anadoluda, Əcəm və Ərəb Iraqında yayılıb güclənmiş, bu məmləkətlərdə yaşayan türk toplumları Səfəvi sülaləsinə güc və qoşun verən bir arxaya çevrilmişdilər.

Yürüşə 14 yaşlı Ismayıl özü başçılıq edirdi. O, Kür çayının «Qoyun ölümü» adlanan çətin keçidini at üzərində ilkin olaraq özü keçdi. Bununla o, tərəddüd edənləri ruhlandırdı. Qızılbaşların 7 minlik qoşununun yaxınlaşmasını eşidən Şirvanşah Fərrux Yasər Qəbələdə əsgəri hazırlıq işinə girişdi. Qızılbaşlar Şamaxını tutub Şirvanşaha Gülüstan qalasına girməyə macal verməyib Cabanıdə onun 20 min atlı və 6 min piyadadan ibarət olan qoşununu darmadağın etdilər. Buğurd qalasına qaçıb gizlənmək istəyən Fərrux Yasər qızılbaş döyüşçülərinin əlinə keçib öldürüldü. Bir neçə gün Ismayıl döyüş yerində qaldı. Şamaxıya qayıtdıqda şəhər varlıları onu qarşılamağa çıxdı, tabeçilik bildirdilər.

**Bakının tutulması**. Muğanda Mahmudabad yaxınlığındakı qışlağa gedən Ismayıl, Məhəmməd bəy Ustaclu və Ilyas bəy Xunuslu başda olmaqla Bakını tutmaq üçün qoşun göndərdi. Şirvanşahların ikinci paytaxtı sayılan Bakı qalası qızılbaş elçilərinə xərac verməkdən boyun qaçırdı. Güclü qala divarları, ərzaq və döyüş ehtiyatı yaratmaq üçün qabaqcadan hazırlıq görülməsi Bakı əhalisinin dirəniş güvənini artırmışdı. Bakıda güclü müqavimət göstərilməsi Ismayılı başlıca qoşunla birlikdə 1501-ci ilin yazında Muğandan buraya yürüməyə məcbur etdi. O, qalanın qapıları, divar və bürcləri ilə tanış olub danışıq yolu ilə qalanın təslim edilmə-

sinə çalışdı. Bakı qalabəyisi Fərrux Yasərin oğlu Qazı bəy idi. O, əlçatmaz dağ qalalarını döyüşlərə hazırlamaq üçün göndərildiyindən Bakının müdafiəsinə onun arvadı başçılıq edirdi. Bu qadın, Ismayılın əmri ilə qalanın təslim olunması barədə tələb gətirən elçini öldürtdü. Onu bu işdən çəkindirməyə çalışan Bakı darğası Əbdülfəttah bəyi də edam etdirdi.

Bakıda kəskin müqavimətlə bağlı Ismayılı artıq bacarıqlı bir qoşun başçısı kimi tanınan, Xadim bəy Xüləfanı birbaşa oraya göndərməli oldu. Sonra özü də gəlib qoşun başçılarına qoşuldu. Onun əmri ilə qala bürclərinin birinin altından böyük lağım atıldı. Bürc uçsa da, yerli döyüşçülər yenə də müqavimət göstərirdilər. Nəhayət qızılbaşlar onların müqavimətini qırıb şəhərə soxuldular. Bakı əyanlarından 70 nəfəri əllərində Quran Ismayılın ayağına gəldikdən sonra şəhərdə qətl və qarətə son qoyulması haqda əmr verildi. Qala qapıları isə dişarıda dayanan qızılbaş qoşununun üzünə açıldı. Bütün şəhər əhalisinə aman verməsi ilə bağlı Ismayıl 1000 tümən «qan bahası» ödəməyi tələb etdi. Şirvanşahların Bakı sarayında saxlanılan zəngin xəzinəsi ələ keçirildi. Burada olan qızılların, daş-qaşların, başqa pulların, qiymətli geyim və əşyaların bir hissəsi qızılbaş döyüşçülərinə paylanıldı.

**Əlvənd Mirzənin məğlub edilməsi.** Ismayılın hakimiyyətə gəlməsi. Qızılbaşlar buradan ikinci başlıca dirəniş yuvası olan Gülüstan qalasını mühasirə edənlərin köməyinə yollandılar. Silahı yerə qoymayan Şirvan dövlət qoşunları burada idi. Bu qala ərzaq və yaraq ehtiyatı baxımından çox güclü olduğu üçün qızılbaşlar mühasirəni dayandırmalı oldular. Bunun başlıca səbəbi Təbrizdə oturan Ağqoyunlu padşahı Əlvənd Mirzənin böyük qoşunla quzeyə doğru yürüşə çıxması olmuşdu. Ismayılın başçılığı ilə qızılbaş döyüşçülərinin Quzey Azərbaycandakı əsgəri uğurları Ağqoyunlu sarayını qorxuya salmışdı. Ağqoyunlu yürüşünün başlanması barədə xəbər yetişən kimi Ismayıl hərbi müşavirəyə çağırdı. Orta çağ Azərbaycan tarixçiləri Həsən bəy Rumlu və Iskəndər bəy Münşinin yazdıqlarına görə, Ismayıl qızılbaşlara üz tutub sordu: «Sizin istəyiniz nədir? Azərbaycan, yoxsa Gülüstan qalası?» Onlar söylədilər: «Istədiyimiz Azərbaycandır». Bu cavab Şirvandakı əməliyyatların dayandırılması və Ağqoyunlu yürüşünün qarşısının alınması barədə hökm verilməsi demək idi. Belə də oldu. Şirvanın tabe edilməsi işini yarımçıq buraxan qızılbaş sərkərdələri qoşunlarının Şirvanda hələ çökdürülməmiş qalalarda yerləşmiş əsgəri qüvvələrlə birləşməsinə yol verə bilməzdi.

Sürətlə Kürü keçən qızılbaş qoşunu, Naxçıvana çatmış Əlvənd Mirzəyə qarşı yönəldi. Əlvənd Mirzənin qızılbaşların çayı keçməsinə mane olmaq, habelə, Qarabağ, Ərdəbil və Qaradağ əhalisini Ismayıla qarşı qaldırmaq cəhdi baş tutmadı. Qızılbaşların irəliləməsini dayandırmaq üçün mosullu Osman bəyin başçılığı ilə göndərilən Ağqoyunlu dəstəsi qızılbaş avanqardı tərəfindən əzildi. Qızılbaşlar itki vermədən Naxçıvan yaxınlığında Arazın quzeyinə keçdilər. Bu zaman Ismayılın qızılbaşlarının sayı 7000, Ağqoyunlu qoşunu isə 30.000 nəfərdən ibarət idi. Həlledici döyüş 1501-ci ilin yayında Şərur düzündə oldu. Ağqoyunlu ordusu basıldı. Əlvənd Mirzənin dörd sərkərdəsi döyüşdə öldürüldü. Ağır itkilərin təsiri altında ordu qaçıb dağıldı. Əlvənd Mirzə özü də Ərzincana qaçdı. Böyük qənimət

ələ keçirən qızılbaşlar Təbrizə yol aldılar. Ağqoyunlu şahzadələri arasındakı qovğadan faydalanan Şeyx Ismayıl Ustaclı, Şamlı, Rumlu, Əfşar, Qacar, Təkəli, Qaradağlı, Zülqədər, Qaramanlı, Bayburtlu, Çəpəni, Varsaq adlı türk tayfa qazilərini ətrafına toplayıb, Qarabağı, Şirvanı aldıqdan, Ağqoyunlu Əlvənd Mirzəni məğlub etdikdən sonra 1501-ci ilin payızında təntənə ilə Təbrizə gəlib özünü şah elan etdi. On iki imamın adına xütbə oxutdurub, sikkə kəsdirdi. Beləliklə, Azərbaycan Səfəvi dövləti yaranıb, rəsmən bərqərar oldu. Azərbaycan Şahlıq sülaləsinin yaradıcısı Ismayıl hakimiyyətə Ağqoyunlu hökmdar irsinin davamçısı kimi gəldi. O, parlaq zəka sahibi, istedadlı hökmdar və söz sahibi olmuşdur. Onun hakimiyyəti Azərbaycan türk xalqının tarixi dövlətçilik ənənəsinə söykənirdi. Elə buna görə də, əhalinin müxtəlif kateqoriyalarından olan sufilərin hərbi-siyasi mücahidələrində qurulmuş Azərbaycan Səfəvi dövləti beynəlxalq aləmdə iki yüzillik bir vaxt ərzində nüfuzunu qoruyub saxlaya bilmişdir. Səfəvi sülaləsinin hakimiyyəti dövründə, daha doğrusu I Şah İsmayılın hakimiyyətinin ilk günlərindən Azərbaycan türk dili dövlət, diplomatiya dili statusunu qazanmışdı.

Azərbaycan Səfəvi dövlət quruluşunun formasına uyğun olaraq, mərkəzlə yerli idarəetmə aparatı arasında qarşılıqlı münasibətlər milli deyil, ərazi-inzibati bölgü prinsiplərinə dayanırdı. Ölkə daxilində əmtəə-pul münasibətləri başlıca iqtisadi əlaqə forması olub, vilayətlər vahid iqtisadi-siyasi mərkəz ətrafında birləşirdi.

Beləliklə, Səfəvi dövlətinin qurulması bir sıra daxili amillər, o sıradan Azərbaycan və bəzi qonşu ölkələri bürümüş qızılbaş hərəkatı sayəsində yaranmışdı. Bu hərəkat ideoloжi baxımdan, şahlıq uğrunda mübarizə üçün uyğunlaşdırılmış şiəlik bidətçiliyi bayrağı altında çıxış etmişdi.

Qızılbaş hərəkatının uğurları və bunun nəticəsi olaraq, Səfəvi dövlətinin yaranması geniş sosial özül üzərində qazanılmışdı. Burada yalnız Ərdəbil şeyxlərinin yürüşləri üçün müridlər verən və adları yuxarıda çəkilən «qızılbaş tayfaları» (Ustaclu, Afşar, Rumlu və s.) nəzərdə tutulmur. Sözün əsl mənasında, bu dövlətin yaranmasına arxa olmuş sosial zümrələr çox idi. XV yüzilin sonlarında pərakəndəliklə səciyyəvi olan ara müharibələrində ölkə miqyasında iqtisadi həyata vurduğu dağıdıcı zərbələrdən bütün xalq kütləsi, xüsusilə mülk sahibləri, rəiyyət, sənətkar, tacir əziyyət çəkmiş, müflisləşmiş və elə buna görə də onların çoxu mərkəzləşmiş dövlət yaratmaq uğrundakı siyasi mübarizədə Ismayılı dəstəkləyərək, Səfəviyyə hərəkatına qoşulmuşdular.

Şeyx Səfiəddin çağından bəri Səfəvi müridləri içərisində «əxi» adı daşıyan bir çox iş adamları bəllidir. Bunların sıralarında zərgərlər, toxucular, sabun bişirənlər, başmaqçılar, bəzzazlar, xərratlar və başqaları vardı. Şah Ismayıl hakimiyyətə gəldikdən sonra ayrıca bir fərmanla təriqət qarşısında böyük iş görmüş oldu. Bu fərmanla bütün dərvişlər müxtəlif sənətkar biliklərinə təhkim edildi. Bunun nəticəsində əxi sənətkar icmalları ilə sufi-dərviş (abdal-qələndər və b.) zümrəsi yaxınlaşıb bir-birinə qovuşdu. XVI yüzilliyin başlanğıcında sufi-dərviş zümrəsinin Səfəvi dövlətində yüksək «status»u ilə bağlı bu qovuşma prosesi görünür başa çatdı. Əski əxi icmalarının azlıqda olan yuxarı təbəqəsi feodallaşaraq ayrı-ayrı

hallarda qızılbaş hərbçi əyanların, xidmət bəylərinin sırasına keçdi. Beləliklə, Səfəvi dövlətinin yaranmasında ona dayaq duran başlıca sosial zümrədən biri şəhər sənətkarlarını və oturaq əkinçiləri təmsil edən, sonralar isə sufi-dərviş zümrəsinə qovuşan əxilər olmuşdu.

Gənc dövlətə dirək olan digər zümrə qazilər adlanırdı. «Qazi» anlayışı hərfən «qəzvaya çıxan kişi», «kafirlərə qarşı savaş döyüşçüsü» mənasını bildirir. Türk xalqları yaşayan ölkələrdə – Azərbaycan, Anadolu, Iraq və Xarəzmdə «ğazi» və ya «alp ğazi» islam işinin, «islam hüdudunun» qoruyucusu olan əsgəri qulluq adamlarına deyilirdi. Türklərdəki «ər, ərən», «alp ərən» əsgəri ad daşıyan döyüşçülər xilafət çağından «alp-ğazi», «ğazi-ərən» ünvanı alaraq sonralar «ğaziləşmə» yolu keçmişdilər.

Sosial tərkib baxımından qazilər ilə əxilər arasında keçilməz ayrılıq yox idi. Əxi birliklərindən gələn sənətkar və əkinçi gənclər «ğaziyani Şah Səfi» zümrəsinə qovuşur, yəni təriqət döyüşçüsünə çevrilərək əsgəri qulluq adamı olurdular.

Yeni dövlətin dirəklərindən olan abdallar isə Qafqaza və Ön Asiyaya gələn əski türk boylarından biri olmuşdur. Orta çağlarda, Yaxın və Orta Şərq ölkələrində həm də abdal adlı sufi-dərviş icması yarandı. XVI yüzilin coşğun hadisələrlə dolu ilk onilliklərində abdal-qələndər zümrəsi Səfəvi səltənətinin yaranması yolunda gedən gərgin çarpışmalarda böyük rol oynamışdı.

**Səfəvi İmperatorluğunun yaradılması. Şirvan və Şəkinin tam tabe edilməsi.** Ağqoyunlu Əlvənd Mirzə ilə sonuncu savaş, Ağqoyunlu Muradın məğlub edilməsi. Diyarbəkirə qaçmış Əlvənd Mirzə Ərzicanda İsmayıla qarşı yeni savaş üçün əsgər toplayırdı. O, eyni zamanda Təbrizlə Şərqi Anadolu arasındakı köç və ziyarət yolunu da qapamışdı. I Şah İsmayıl 1502-ci ilin baharında bu təhlükəni aradan qaldırmaq üçün Ərzincana yola düşdükdə Əlvənd Təbrizə doğru hərəkət etdi. I Şah İsmayıl bunu eşidincə geri dönüb 1502-ci ilin avqustunda Təbrizə gəldi. Bu vaxt Ucanda olan Əlvənd Mirzə Həmədan yolu ilə Bağdada qaçdı. Əlvənd Mirzə tərəfindən baş verə biləcək qorxu tam aradan götürüldükdən sonra, I Şah İsmayıl İraq-i Əcəmlə, İraq-i Ərəbin sahibi olan Ağqoyunlu Sultan Muradın yanına 1503-cü ildə müridlərindən Qənbər bəyi göndərib ona tabe olmasını təklif etdi. Şah Ağqoyunlu Muradla savaşmaq fikrində deyildi. Ancaq Ağqoyunlu Murad şahın təklifini qəbul etmədi. Belə olduqda I şah İsmayıl 12 minlik qoşunla Həmədana doğru hərəkət etdi. Murad şahın yürüşünü eşidərək 70 min nəfərlik bir qoşun hazırladı.

I Şah İsmayıl 21 iyun 1503-cü ildə Həmədan yaxınlığında Alma Qulağı deyilən yerdə Ağqoyunlu Sultan Murad üzərində qələbə qazandı. Adlı-sanlı əmirləri döyüş meydanında qalan Murad özü qaça bildi. İsfahan, Qum, Kirman, Şiraz tutuldu. 1504-cü ildə Firuzguh və Gülxəndan qələbələrindən sonra Yəzdi də tutdular. I Şah İsmayılın Bayandur Sultan Murad üzərində qələbəsindən sonra Osmanlı hökmdarı II Sultan Bəyazid 1504-cü ildə Məhəmməd Çavuş Balban adlı elçisini qiymətli hədiyyələrlə Təbrizə göndərib Şah İsmayılı hakimiyyətə keçməsi və İraqi

Əcəmi tutması münasibətilə təbrik edir. Beləliklə, Osmanlı Sultanı Şah İsmayılı Azərbaycanın dövlət başçısı kimi rəsmən tanıdı.

Zülqədər oğulları ilə çəkişmələr. Xorasan uğrunda savaş. Zülqədər oğulları bəyliyi (1339-1521) ilə I Şah İsmayıl arasında çəkişmələr müharibəyə doğru gedirdi. I Şah İsmayılın elçisi Ustaclı Ümmət Zülqədər oğlu Əlaüddövlə tərəfindən həbs olunmuşdu. Bunu bəhanə edən I Şah İsmayıl 1508-ci ildə bəyliyin üzərinə yürüdü. Əlaüddövlə bəy Əlvənd Mirzə ölümündən (1505-1506) sonra Diyarbəkirə qoşun göndərmiş, Amid, Mardin və bir çox başqa yerlər tutulmuşdu. I Şah İsmayıl Əlaüddövlənin Diyarbəkirdə olan marağına son qoymaqla, burada öz hakimiyyətini möhkəmləndirmək fikrində idi. O bu məqsədlə Osmanlı hökmdarından torpaqlarından keçmək üçün razılıq alıb Ərzurum və Ərzincan yolu ilə Əlbistana gəldi. I Şah İsmayıl Xarputu tutdu. Diyarbəkir bölgəsi də Onunun idarəsi altına girdi. Şah Diyarbəkirə Ustaclı Məhəmməd xanı hakim təyin etdi. O, çox cəsur və dəyanətli bir hərbiçi idi. 1510-cu il, I Şah İsmayıl Bağdadı tutan zaman Ustaclı Məhəmməd xan Zülqədərlərini ikinci bir ordusunu da məğlub etmişdi. I Şah İsmayıl 1509-cu ilə qədər İraq-i Ərəblə Diyarbəkiri tutub Əlbistana qədər gəldi.

Qərbdə böyük uğurlar əldə edən I Şah İsmayıl 1508-ci ilə qədər bütün Farsı da fəth etdikdən sonra Türküstan və Xorasan hökmdarı Özbək Məhəmməd Şeybani xanın dövlətin Şərq sərhəddində yaratdığı təhlükənin aradan götürülməsini qərara alır. Ancaq bu təhlükə bütün Xorasanın fəthi, Məşhəddə, Mərvdə, Heratda, Bəlxdə güclü qarnizonların yerləşdirilməsi ilə aradan qaldırıla bilərdi. Tezliklə, Ismayılın ordusu Xorasana daxil olur və tərəflər arasında baş döyüş 1510-cu ildə Mərv yaxınlığında oldu. Təkəli əmirlərindən Burun soltanın əsgərlərinin hücumu ilə Şeybani xan və yanındakı döyüşçülərin bir çoxu öldürüldü. Alınan əsirlər arasında Babur şahın qızı və bacısı da vardı. I Şah İsmayıl Baburun qızı və bacısına ehtiramla yanaşıb onları Babura qaytardı. Bu hadisə Baburlarla yaxşı münasibətlər qurulmasında vasitə oldu. O cümlədən, özbək Übeydulla xan da I Şah Ismayılın yanına qiymətli hədiyyələrlə elçi göndərib ona itaət etdiyini bildirdi.

Bu səfərlə bütün Xorasan Amu Dəryaya qədər Azərbaycan Səfəvi ölkəsinə qatıldı. I Şah Ismayıl bu sürətlə tutduğu ölkələrdə siyasi birlik qurmaqla, böyük bir imperatorluq yaratmağa müvəffəq oldu. Imperatorluq Fəratdan Qəndəhara, Qafqazdan Hind okeanına qədər 2.800.000 km$^2$ ibarət geniş bir ərazini əhatə edirdi.

**Çaldıran döyüşü.** I Şah İsmayıl imperatorluq hüdudlarından kənarda və xüsusilə, Şərqi Anadoludakı müridləri ilə əlaqələrini nəinki saxlayır və daha da gücləndirirdi. Bu, daha çox dövlətin qərb bölgələrində türk oymaqlarından olan qızılbaşların sayını artırmaqla, dövlətin yerli dayaqlarını möhkəmləndirmək üçün lazım idi. Amma, bu əlaqələr və təbliğat Osmanlı dövləti daxilində gərginliklər yaradır, eyni zamanda iki ölkə arasında ciddi narazılıqlara da səbəb olurdu.

Osmanlı hökmdarı II Bəyazid (1481-1512) təbəələrinin ölkəni tərk etməsinin qarşısını almaq üçün tədbirlər görürdü. I Şah Ismayıl II Bəyazidə göndərdiyi bir məktubda təriqət mənsublarının ziyarətinə mane olunmamasını xahiş edirdi. II Bəyazid isə I Şah İsmayıla göndərdiyi məktubda ziyarəti yerinə yetirdikdən sonra

geri dönməyə söz verənlərə mane olmayacağını yazmışdı. Əslində, II Bəyazid I Şah Ismayılın könlünə dəyməmək üçün ona belə bir cavab göndərmişdi. I Şah İsmayıl isə Osmanlılarla aranı qırmamaq üçün çox ehtiyatlı davranır və Bəyazidə «ata» deyə xitab edirdi.

I Şah İsmayılın ehtiyatlı davranışlarına baxmayaraq, 1510-cu ildə Anadoluda Şahqulu Baba üsyanı baş verdi.

Şahqulu Şeyx Heydərin Anadoluda təriqət yayan və Təklə elindən olan Həsən adlı xəlifəsinin oğlu idi. O, son dərəcə fəal və cəsarətli bir adam idi. Osmanlı dövlətinin idarəsində bir qədər zəifləməsindən istifadə edərək hərəkətə başlamışdı. Tərəfdarları Şahquluya «baba» deyirdilər. Təklə elinin yoxsul və varlılarından ibarət saysız-hesabsız tərəfdarları vardı. Şahqulu Osmanlı ordusunu bir neçə dəfə məğlubiyyətə uğratdı. Sonuncu savaşda çox ağır yaralanmış Şahqulu çox keçmədi ki, öldü. Ancaq onun tərəfdarları Səfəvi ölkəsinə gedə bildilər. Onların sayı 15.000 idi. Şahqulu güvəndiyi adamlardan birini özünə vəzir təyin etmişdi. Ətraf bölgələrə bəylərbəyi, sancaqbəyilər də göndərmiş və Osmanlı elindəki xəlifələrinə məktublar yazaraq, hərəkətə başlamalarını bildirmişdi.

Bütün bunlara baxmayaraq, onun məqsədi Osmanlı dövlətini devirmək yox, Şərqi Anadoluda tərəfdarlarının sayını artırıb Səfəvi hakimiyyətini möhkəmləndirmək idi. Şahqulu bacarığı ilə elə bir təsirə malik idi ki, hətta II Bəyazidin Qaraman valisi olan oğlu Şehinşah da onun təbliğatına uymuş və qızılbaş olmuşdu.

1512-ci ildə Osmanlı taxtına I Sultan Səlimin (1512-1520) keçdiyini xəbər alan Şah Ismayıl Nurəli xəlifə Rumlunu Anadoluya göndərərdi. Nurəli xəlifə Qarahasarda ikən Sivas, Amasiya, Toqat bölgəsi türklərindən 3-4 min evlik bir toplumu özünə birləşdirirdi. Bu vaxt I Sultan Səlimlə qardaşı Soltan Əhməd arasındakı savaşa hazırlıq qızılbaşları daha da ayaqlandırdı. Hətta, Soltan Əhmədin Amasiyadakı oğlu Soltan Murad qızılbaşlığı qəbul etdi. Toqat yaxınlığında Osmanlı sərkərdəsi Faiq bəy məğlub edildi. Şəhər əhalisi Nurəli xəlifəni qarşılayıb I Şah Ismayılın adına xütbə oxudu.

Qızılbaşların Anadoludakı hərəkətləri Osmanlı dövləti ilə Səfəvilər arasında münasibətləri pozdu. I Sultan Səlim Qardaşları ilə bağlı təhlükəni aradan qaldırdıqdan sonra Anadoluda 40.000 nəfər qızılbaş öldürtdü. Təkə elində həbs etdirdiyi qızılbaşları isə Aralıq dənizində yeni fəth olunan adalara sürgün etdi. Bununla, Səfəvilərə qarşı müharibəyə hazırlaşan I Soltan Səlim yürüşü zamanı arxasında baş qaldıra biləcək təhlükəni aradan qaldırıb özbək Übeydulla xanın da köməyinə arxalanaraq hərbi əməliyyata başlamağı qərara alır.

I Şah İsmayılla I Sultan Səlimin aralarındakı qırıcı məktublardan sonra 23 avqust 1514-cü ildə Xoy şəhərinin şimali-cənubunda eyni adlı şəhərdən 20 fərsəh məsafədə olan Çaldıranda bir qandan olub, bir dildə danışan qüvvələr qarşılaşdı.

I Şah Ismayıl ordusundakı düzülüşə görə ortadakı qüvvəyə Nizaməddin Əbdülbaqi, Məhəmməd Kəmunə, Şərəfəddin Əli, sağ cinaha Durmuş xan Şamlı, sol cinaha Məhəmməd xan Ustaclı, öncüllərə qorçubaşı Sarı Piri və Yusif bəy Varsaq

başçılıq edirdi. I Şah Ismayıl özü seçmə döyüşçülərdən yaradılmış qüvvə ilə sağ cinahda dayanırdı.

I Sultan Səlimin sayı 200 minə çatan ordusunun sol cinahına Rumeli bəylərbəyi Həsən paşa, sağ cinaha Anadolu bəylərbəyi Sinan paşa başçılıq edirdi. Ortada 300 top və onların önündə xüsusi dəstə və arxasında isə tüfəngli yeniçərilər dururdu. I Soltan Səlim isə şəxsi qvardiyası ilə yeniçərilərin arxasında idi. Ən geridə isə Şadi bəyin dəstəsi yerləşdirilmişdi. Onlar arxadan ediləcək yürüşlərin qarşısını almalı idilər. Hər iki ordunun əsgərləri, «Allah», «Allah» deyə döyüşə daxil olub çox igidliklə vuruşurdular. Səfəvilərin öncülləri olan qorçular Sarı Piri Ustaclının başçılığı ilə döyüşə girib osmanlıların xeyli döyüşçüsünü öldürdülər. Ancaq qızılbaş süvarilərinin qarşısı top və tüfəng atəşi ilə alındı. Döyüşün qızğın vaxtında fars bəylərbəyi Xəlil sultan Zülqədər isə özbaşına savaş meydanından dəstəsi ilə qaçdı. O cümlədən I Şah Ismayılın ordusunun sayı Sultan Səlimin ordusundan az olub, odlu silahı da yox idi. Döyüşdə 3 min qızılbaş, 2 min nəfər osmanlı əsgəri və hər iki tərəfdən bir çox adlı-sanlı əmirlər də öldürüldü. I Sultan Səlim bu qələbədən sonra 1514-cü ilin sentyabr ayının 5-də döyüşsüz Təbrizə daxil olur, ancaq yeniçərilərin müsəlman qırğınına etirazının getdikcə güclənməsindən ehtiyat edərək, həmin ayın 13-də şəhəri tərk edib, Şərqi Anadoluya yola düşür.

Çaldıran savaşından qabaq Səfəvi – Osmanlı sərhəddi Sivasa bağlı Su şəhərindən keçirdi. Kemax qalası Xarput, Urfa Səfəvilərin hüdud şəhərlərindən idi. Çaldırandan geri dönən I Səlim 1514-1515-ci ildə Amasiyada qışlayıb, sonra Istanbula qayıdarkən Anadolunun açarı Kemax qalasını tutdu. Qala rəisi Məhəmməd bəy 300 Varsaqla təslim olmadan, ölüncəyə qədər vuruşmuşdu. I Səlim Şərqi Anadolunun tutulmasını Ağqoyunlu Bıyıklı Məhəmmədə tapşırdı. O, 1515-ci ildə Təkir yaylağında Nurəli xəlifəni məğlub etdi. Nurəli xəlifə, bir çox başqa cəsur bəylər döyüşdə öldürüldü.

I Şah İsmayıl Çaldıranda Məhəmməd xan Ustaclı öldükdən sonra Diyarbəkirin idarəsini onun qardaşı Qara bəyə tapşırıb, ona xan titulu da vermişdi. Şahın bacısı ilə evli olan Qara xan, qardaşları Ulaş və Süleyman Diyarbəkirdə möhkəmlənmək üçün əllərindən gələni etdilər. Ancaq Mardin yaxınlığında, Dədə Qarkin düzündə Bıyıklı Məhəmməd paşa ilə savaşda məğlub oldu və özü də öldürüldü. Cənub-Şərqi Anadolu Osmanlı idarəsi altına düşdü. Amma şah Ismayıl Azərbaycan Səfəvi imperatorluğunu qoruyub saxlaya bildi.

**I Şah İsmayılın Gürcüstan yürüşləri**. Böyük coğrafi axtarışlarla şərqə okean və dənizlərdən keçən yollar açılmışdı. Buna baxmayaraq şərqi Avropa ilə bağlayan karvan yolları hələ öz əhəmiyyətini itirməmişdi. Təbrizdən-Dərbəndə və oradan isə Avropaya uzanan çöl karvan yollarında, Volqa-Xəzər su yollarında dünyanın bir çox ölkələrinin yenə də gözü vardı. Bu yollarla quzeydən tacirlər, elçilər, missionerlərlə yanaşı, bir müstəmləkə dalğasının da gəlişi gözlənilirdi. Səfəvi dövləti elə buna görə də Qafqazda möhkəm yerli dayaq yaradıb, oranı qorumağa çalışırdı. Qafqazda Osmanlı dövlətinin də marağı vardı. Quzeydə baş verə biləcək qorxuya qarşı Qafqazın qorunmasında, buradan keçən ticarət yollarının tutub

əldə saxlanılmasında Osmanlı dövləti Səfəvilərdən az maraqlı deyildi. Osmanlı dövləti Qafqazın ələ keçirilməsində Gürcüstandan bir dayaq kimi istifadə etməyə də çalışırdı. Bu vaxt Gürcüstan xırda çarlıqlara bölünmüşdü. Hakimiyyətlərini qoruyub saxlamağa çalışan Gürcü çarları öz xarici siyasətlərində tez-tez dönüklük edirdilər. Səfəvilərin Gürcüstana ilk yürüşü 1516-cı ildə oldu. Mesxiya çarı IV Kvarkvare (1516-1535) Başı Açıq (Imeretiya) çarı Mənuçöhrlə savaşda yenildikdə, I Şah Ismayıldan kömək istədi. Şah Ismayıl Div Sultan Rumlunun başçılığı ilə ona kömək göndərdi. Mənuçöhrü məğlub edən Div Sultan IV Kvarkvareni ynə də öz ölkəsində hakimiyyətə gətirdi. Növbəti il Osmanlı dövlətindən kömək alan Mənuçöhr Divin vuruşunda da məğlub oldu.

1521-ci ildə Şəki hakimi Həsən bəy Kaxetiya çarı Ləvəndin torpaqlarına etdiyi yürüşün qarşısını almaq üçün Naxçıvanda qışlayan I Şah İsmayıldan kömək istədi. I Şah İsmayılın əmiri Div soltan Rumlu Alazan və Iori çaylarını keçib Zəyəm qalasına yaxınlaşdı. Bu vaxt günahlarını boynuna alan Ləvənd, IV Kvarkvare, Davud bəy və Mənuçöhr Div sultanın yanına gəldilər. Div sultanla I Şah İsmayılın qışladığı Naxçıvana yola düşdülər. Gürcü çarları asılılığı qəbul edib, hər il vergi ödəyəcəklərinə söz verdikdən sonra, ölkələrinə qayıtdılar.

Kaxetiya çarı Ləvənd xan 1524-cü ildə Səfəvilərin tabeçiliyində olan Şəkiyə yenidən yürüş etdi. Baş verən döyüşdə Həsən bəy öldürüldü. Bu dönüklüyünə görə, Şah Ləvəndi cəzalandırmağa hazırlaşdığı zaman vəfa etdi.

Şirvan üzərində dövlət nəzarətinin gücləndirilməsi. 1500-cü ildə Cəbani vuruşunda Fərrux Yasər öldürüldükdən sonra, Şirvanda hakimiyyəti oğlu Bəhram bəy ələ aldı. O, bir ildən sonra vəfat etdi, hakimiyyətə qardaşı Qazi bəy keçdi. O da bir neçə aydan sonra oğlu Soltan Mahmud tərəfindən öldürülür. Cəbani döyüşündən sonra Gilana qaçmış Şeyxşah (Fərrux Yasarın oğlu) 1502-ci ildə II Ibrahim adı ilə Şirvanşahlar taxtında oturdu. Soltan Mahmud isə kömək almaq üçün Səfəvilər sarayına gəldi. Qızılbaş qoşunu ilə Şirvana qayıdan (1505-1506) Soltan Mahmud məğlub oldu və öz xidmətçisi tərəfindən öldürüldü.

Yerli sülalə üzvləri arasında hakimiyyət uğrunda gedən dartışma Şirvanşahları zəiflədir və onların Səfəvi dövlətindən asılılığını möhkəmləndirirdi. Əslində, Fərrux Yasərın ölümündən (1500) sonra, Şirvan öz müstəqilliyini itirməklə Səfəvi dövlətinin tabeliyində idi. Ancaq yerli sülalənin daxili müstəqilliyi saxlanılmışdı.

I Ismayıl tərbiyəçisi Hüseyn bəy lələ Şamlını bura canişin təyin etmişdi. Hüseyn bəy lələ isə Şirvanda olmayanda yerinə xidmətçisi Şahgəldi ağanı qoyurdu. Şeyxşah Ibrahim isə Şirvanda hakimiyyəti ələ keçirdikdən sonra Ismayıla hədiyyələr göndərib, vergi verəcəyi və ona sədaqətli olacağını bildirmişdir.

Lakin Şeyxşah Ibrahim sonrakı illərdə, xüsusilə Şah Ismayıl Xorasan səfərinə hazırlaşdığı vaxt, bundan istifadə edərək, xərac vermədi. Elə buna görə də, 1509-cu ilin sonunda I Şah Ismayıl Şirvana ordu göndərdi. Şeyxşah tab gətirə bilməyib Buğurd qalasında gizlənir. Şah Ismayıl ikinci dəfə Şirvanı ələ keçirib, yenə də Hüseyn bəy ləlæni Şirvana canişin qoydu. Günahlarına baxmayaraq, Fərrux Yasarın oğlu Şeyxşah hakimiyyətdə saxlanıldı. Şah Ismayılın göstərişi ilə 1517-ci il-

də sədr Mir Cəmaləddin Məhəmməd və Mirzə Şahhüseyn Şirvana gəlib, Şeyxşaha bir daha dönüklük etməyəcəyinə and içdirirlər. Şeyxşah böyük oğlu Sultan Xəlili girov olaraq Təbrizə göndərdi. I Şah Ismayıl qızlarından Pərixan xanımı ona ərə verdi. Şeyxşah özü də 1521-ci ildə Marağaya gəlib, şahla görüşdü və sədaqətlə xidmət edəcəyinə bir daha and içdi.

Göründüyü kimi, I şah Ismayıl nə birinci və nə də ikinci yürüş zamanı Şirvanşahların irsi idarə hüquqlarına toxunmamış, lakin o, Şirvanşahları nəzarət altında saxlayırdı.

Ikinci səfərdən sonra Səfəvilərin Şirvanda hakimiyyətini möhkəmləndirməsindən bəhs edən Abbasqulu ağa Bakıxanov yazır: «Şah Ismayıl yeni hökumətə dayaq olmaq və onu möhkəm saxlamaq üçün Iraqda yaşayan Bayat türklərindən bir dəstəsini siyahı üzrə köçürüb Dərbənd və Şabranda yerləşdirdi».

I Şah Ismayılın ölümü, I Şah Təhmasibin hakimiyyətə keçməsi, daxili vəziyyət. I Sultan Səlimin 1520-ci ildə vəfatı ilə I Şah Ismayılın qurduğu imperatorluğun başı üzərini almış təhlükə sovuşdu. Bütün Səfəvi imperatorluğu siyasi və dini əqidə birliyində I Şah Ismayıla borclu idi. Kiçik yaşlarından hər tərəfdə təhlükələrlə qarşılaşmasına baxmayaraq, Azərbaycanı birləşdirib, bir çox qonşu ölkələri tutub güclü bir dövlət qurması, onun böyük tarixi şəxsiyyət olduğunu göstərir. Özü çox cəsur, intizam sevən olduğu kimi, həm də təşkilatçı və təhsilli bir hökmdar idi. O, böyük uğurlar əldə edən türk tayfa rəislərinə imperatorluğun mərkəzi və yerli idarələrində vəzifələr və geniş səlahiyyətlər vermişdi. Ustaclılar-Əcəm Iraqında, Kirmanda, Şamlılar Xorasanda, Təkəlilər Əcəm Iraqının Isfahan və Həmədan bölgələrində, Zülqədərlər Farsda, Mosullular Bağdadda yerləşdirilmişdi. Adları çəkilən türk tayfalarının bəylərinə bu bölgələrdə geniş torpaqlar və vəzifələr verilmişdi. Azərbaycan Səfəvi imperatorluğunun qurucusu olan I Şah Ismayıl 22 may 1524-cü ildə, 37 yaşında Sərab şəhəri yaxınlığında xəstələnib vəfat etdi. O, Ərdəbildə, Şeyx Səfiəddin türbəsində dəfn olundu.

Şah Ismayılın - Təhmasib Mirzə, Cam Mirzə, Bəhram Mirzə, Əlqas Mirzə adlı dörd oğlu vardı.

Yerinə 1514-cü ildə anadan olmuş böyük oğlu, Təhmasib keçdi. Şah Ismayıl ömrünün son günlərində əmirlərinə əmir əl-üməra, həm də mülki və dini məsələlər üzrə müavini, yəni vəkili olan Div sultan Rumluya itaət etmələrini və onun sözündən çıxmamalarını vəsiyyət etmişdi. Div Sultan Rumlu yeni Şahın atabəyi kimi, onun azyaşlı olmasından istifadə edərək dövlət işlərinə nəzarəti ələ alsa da, tayfa əmirləri arasında gedən çəkişməyə son qoya bilmədi. Bu arada mərkəzi idarə bir qədər sarsıldı. Əvvəllər mürşidlərinə bağlı olan tayfa rəislərinin də indi sərvət və şöhrət meyli artmışdı. Hər biri öz bölgəsində özbaşına hərəkət edir və yenildikdə isə bir çoxu Osmanlı ölkəsinə baş götürüb gedirdi. Bu isə iki ölkə arasında münasibətləri pozurdu.

Ustaclı Mustafa sultan çox keçmədi ki, əmir əl-ümərahlıqda Div sultan Rumlunun ortağı oldu. Ancaq bundan Div Sultan Rumlu razı qalmadı. O, dərhal Zülqədər və Təkəli əmirləri ilə birləşib Mustafa sultana qarşı çıxdı. Savaşda bir çox

Təkəli əmirləri ölsə də, Ustaclı əmirləri idarə işlərindən uzaqlaşdırıldılar. Ancaq bu hadisədən sonra Təkəlilərdən Çohə sultan əmir əl-ümaralıqda Div sultanın ortağı oldu (1525). 1526-cı ildə Ustaclı bəyləri Mustafa sultanın başçılığı altında yenidən toplanıb Div sultanı Rumlu və Çohə sultan Təkəliylə Sultaniyyə (1526), Ərdəbil (1527) və Naxçıvanda (1527) savaşır, ancaq axırıncı döyüşdə Mustafa öldürülür. 1527-ci ildə Təkəli bəyləri Div sultan Rumlunu da öldürüb iqtidarı ələ aldılar. Çohə sultan rəqibsiz əmir əl-üməra və həm də vəkil oldu. Boş qalan vəzifələrə Təkəli bəyləri gətirildi. Ancaq bu, başqa qızılbaş tayfalarının qısqanclığını artırdı. Eyni zamanda, bu çəkişmələrdə bişmiş Şah da artıq iqtidara tam sahib olmaq istəyirdi. Şahın göstərişi ilə Herat valisi Hüseyn xan Şamlının dəstəsi Qəzvində Çohə sultanın evinə hücum etdilər. Çohə sultan qaça bilsə də 1531-ci ildə öldürüldü.

Bu zaman Azərbaycan hakimi Üləma sultan Təkəli vəkil olmaq üçün hərəkətə keçdi. Ancaq o, məqsədinə çatmadığına görə 1531-1532-ci illərdə Şahın Xorasana getməsindən istifadə edib, Təbrizi qarət etdi. Amma üzərinə gələn qüvvədən ehtiyatlanıb Vana və oradan da Istanbula getdi. Hüseyn xan Şamlu vəkil təyin olundu (1531). Ancaq o da 1534-cü ildə Şaha xəyanətdə günahlandırıb aradan götürüldü. Vəkil olmaq və dövlət işlərini ələ almaq üstündə qızılbaş əmirləri arasında 1524-1534-cü illərdə baş vermiş bu çəkişmələr dövləti xeyli sarsıtmışdı. Artıq bu çəkişmələrdə böyük təcrübə qazanmış I Şah Təhmasib 1534-cü ildən hakimiyyətə nəzarəti ələ alır.

**Şirvan və Şəkinin qəti tabe edilməsi.** 1524-cü ildə Şeyxşah II Ibrahim vəfat etdi. Onun Məhəmməd Mirzə, Müzəffər Mirzə və Soltan Xəlil adlı üç oğlu vardı. Yerinə I Şah Ismayılın qızı Pərixan xanımın əri Sultan Xəlil II Xəlilullah adı ilə hakimiyyətə gəldi. Onun hakimiyyətinin llk illərində Şirvanda mərkəzdən qaçma hallarına təsadüf olunmasa da, Şirvanın mərkəzə tam tabe edilməsi artıq gündəmdə idi. Belə bir vaxtda II vəlilullah I Şah Təhmasibin mərkəzləşdirmə siyasətinə qarşı çıxmış Biye Pas (Rəşt) hakimi Əmir Dibaca sığınacaq vermiş və hətta onu Şirvana göndərilən Səfəvi elçisinə verməkdən boyun qaçırmışdı. Digər tərəfdən o, 1534-cü ildə Təbrizi tutmuş Osmanlı sərdarı Ibrahim paşaya qiymətli hədiyyələr göndərib onunla gizli əlaqə də saxlayırdı. Bu xəbərlər şaha çatsa da, ancaq o, Osmanlı dövləti ilə müharibə getdiyinə görə II Xəlilullahı cəzalandırmaq üçün Şirvana qoşun göndərə bilmədi. II Xəlilullah 1535-ci ildə öz əcəli ilə vəfat edir və yerinə qardaşı oğlu Şahrux, Şirvanda hakimiyyətə keçir. Şah Təhmasib dərhal Çuxur-Səd hakimi Məhəmməd bəy Ustaclı ilə Şirvanın yeni hakiminə fərman və xələt göndərdi. Ancaq bu zaman Şirvanı Şahrux deyil, onun vəkili Hüseyn bəy və bir qrup başı pozuq yerli əmir idarə edirdi. Elə buna görə də, Şirvanda daxili çəkişmələr getdikcə artırdı.

Şirvandakı bu çəkişmələr zamanı Mahmudabad və Salyanda bir nəfər qələndərin başçılığı ilə (1537-38) yerli hakimiyyətə qarşı çıxış oldu. Onun dəstəsi Şamaxıya yaxınlaşdı. Onlara qarşı qüvvə çıxara bilməyən Şahrux və yerli əmirlər Buqurd qalasına çəkildilər. Qələndərin dəstəsi Şamaxını tutdu. Amma məqsədləri aydın olmadığına görə, onlar bir müddətdən sonra şəhəri tərk edib Səlyana doğru

yola düşdülər. Onları Şahruxun dəstəsi izləyirdi. Salyan yaxınlığında baş verən savaşda Qələndərin dəstəsi dağıdıldı.

Bu hadisədən sonra qorçubaşı Padar Şirvandakı çəkişmələr və hakimiyyətsizlik barədə şaha Pərixan xanımın sifarişini çatdırdı. Şahruxun kiçik yaşlı olmasından istifadə edib Şirvanda yerli hakimiyyətə nəzarəti ələ keçirmiş Hüseyn bəy və bir neçə nəfər başıpozuq əsilzadə arasındakı çəkişmələr Şirvanı gücdən salmışdı. Daxili sarsıntı keçirən Şirvan əmirləri içərisində mərkəzdənqaçma meylləri də baş qaldırmışdı. I Şah Təhmasib qardaşı Əlqas Mirzə, Müntəşa sultan və Qarabağdakı Qacar əmirlərinin başçılıq etdiyi 20 minlik hərbi dəstəni 1538-ci ildə Şirvana yolladı. Onlar Şamaxı, Surxab, Qəbələ, Gülüstanı tutdular. Şahruxun vəkili başda olmaqla, bir çox Şirvan əyanı öldürüldü. Şirvanda şahlıq ləğv edilib, bura vilayət statusu verildi. Şirvan vilayətinin birinci valisi I Şah Təhmasibin qardaşı Əlqas Mirzə oldu.

Şəki hakimi Həsən bəyin oğlu Dərviş Məhəmməd (1524-1551) dövründə Şəki ilə Səfəvilərin arası da getdikcə pisləşirdi. 1538-ci ildə Səfəvi qoşunu Şirvanda Buqurd qalasını mühasirə edən zaman Dərviş Məhəmməd Şahruxa kömək edirdi. Ancaq Şirvan tutulduqdan sonra, Şəki hakimi Dərviş Məhəmməd xanın Səfəvilərlə əlaqələrini yenidən yaxşılaşdırıb Şəkinin daxili sərbəstliyini qoruyub saxlamaq istəyirdi. O, hətta I Şah Təhmasibin dul bacısı Pərixan xanımla evləndi. Lakin, Pərixan xanım öldükdən sonra onun Səfəvilərlə münasibətləri yenidən pozuldu. Dərviş Məhəmməd I Şah Təhmasibin Şirvan valisi olan və şahlıq həvəsi ilə yaşayan qardaşı Əlqas Mirzə ilə yaxınlaşdı.

Hətta o, Sultan Süleyman Qanunin (1520-1566) tərəfindən Təhmasibə qarşı savaşan Əlqas Mirzəyə qardaşı Şahnəzərin başçılığı ilə kömək də göndərmişdi. I Şah Təhmasib 1548-ci ildə Sevindik bəy Əfşarın başçılığı ilə 2500 nəfər qorçu dəstəsini Şəkiyə, Dərviş Məhəmmədi cəzalandırmağa göndərdi. O, Kiş qalasına çəkilib qoruna bildi. 1551-ci ildə I Təhmasib onunla birdəfəlik hesablaşmaq üçün Ərəşə gəldi. Burada vassalı Kaxetiya çarı Ləvənd də onunla birləşdi. Dərviş Məhəmməd xan şahı qarşılamağa gəlmədi. Şəki əyanları və əhali Kiş, Gələsən-görəsən qalaları və Sığnağa çəkildilər.

Top atəşi ilə Kişin qala divarları dağıdıldı. Qalanın kutvalı Mahmud bəy savaşı davam etdirməyin mənasız olduğunu görüb, qapıların açarını şaha verdi. Sığnaq döyüşçüləri də döyüşü dayandırdılar. Dərviş Məhəmməd gecə ikən 400 nəfərlik dəstə ilə Gələsən-Görəsəndən çıxıb qaçmağa çalışdı. Amma qaça bilmədi və öldürüldü. Beləliklə, Şəkinin sərbəstliyinə son qoyuldu. Şah Toygün bəy Qacarı Şəkiyə yeni hakim təyin etdi.

### *§ 3. Azərbaycan Səfəvilər dövlətinin xarici siyasəti. Səfəvi Osmanlı müharibələri. Azərbaycan Səfəvilər dövləti XVI yüzilliyin 30-50-ci illərində*

**Səfəvi-Osmanlı savaşları.** Hindistan və Çini Avropa ölkələri ilə bağlayan qədim karvan yolları Azərbaycandan keçir, Aralıq dənizi, Qara dənizə çatır və

Dərbənd keçidi ilə Rusiyaya doğru da uzanırdı. XV yüzildə Hindistana qədər okeanlardan keçən yeni ticarət yolları açıldı. Böyük coğrafi kəşflərdən sonra Ispaniya, Portuqaliya, Hollandiya, Ingiltərə Hind okeanı sahillərində əlverişli satış bazarları və xammalla dolu müstəmləkələr axtarışına başladılar. Avropalıların Hindistan və Ərəb sahillərinə müstəmləkə bayraqlarını sancmaları Osmanlı və Səfəvi imperatorluqlarını rahatsız etməyə bilməzdi. Dünya ölkələri arasındakı ticarət əlaqələrinin okean yollarına keçməsi hər iki imperatorluğun iqtisadiyyatını sarsıtdı. Müstəmləkə və yeni ticarət yolları üstündə dünya ölkələri arasındakı çəkişmədə Osmanlı dövləti də vardı. Qərbdə böyük uğurları olan Osmanlı dövlətini Şərqdə Ərəb Iraqı daha çox maraqlandırırdı. Buranı tutmaqla, İran körfəzinə yaxınlaşıb Avropadan gələn təhlükənin qarşısını almaq və həm də Hind okeanına çıxmaq istəyirdi. Buna görə də Iraqda Səfəvilərə qarşı baş verən çıxışlarda da Osmanlı sarayının əli vardı. 1528-ci ildə Luristanda Zülfüqar xan Səfəvilərə qarşı çıxdı. O, Bağdada hücum edib Ərəb Iraqını tutdu. Döyüşdə Iraq hakimi Ibrahim xan Mosullu öldürüldü. Ərəb Iraqını tutan Zülfüqar xan Osmanlı dövlətinə tabe olduğunu bildirdi. I Şah Təhmasib növbəti il Bağdadı çox çətinliklə tutub bura Məhəmməd xan Təkəlini bəylərbəyi təyin etdi.

1531-1532-ci ildə Ülamə bəy Təkəli Diyarbəkr hakimi Fil paşanın qoşunu ilə Bidlisə yürüş etdi. Bidlisdən qovulan yerli hakim Şərəf xan Səfəvilərdən kömək istədi. Təhmasib elçisi Həbil bəyi Sultan sarayına göndərib Üləma bəyi təslim etməsini xahiş etdi. Şahın təklifini rədd edən Soltan həm də şahdan Şərəf xanı da istədi. Şah vəkil Hüseyn xan Şamlunun başçılığı ilə yeni elçilərini Soltan sarayına göndərdi. Amma Sultan barışığa razı olmadı. Belə olduqda şah yürüş edib Bidlisi geri qaytardı. 1533-cü ildə şah Xorasanda Ubeydulla xanla savaşan zaman yenidən Bidlisi Üləma bəy tutdu və Şərəf xanı da öldürdü.

Üləma bəy Təkəli I Sultan Süleyman Qanunini (1520-1566) Səfəvi imperatorluğuna qarşı müharibəyə yönəldə bildi. Bu vaxt şah Təhmasib özbəklərlə müharibə aparırdı. Osmanlıların baş vəziri Ibrahim paşanın 90 minlik ordusu, öndə isə Üləma bəyin 10 minlik qoşunu olmaqla, 1534-cü ildə Azərbaycana daxil oldular.

Ülamə bəylə bağlı olan bir çox Səfəvi əmiri osmanlıların tərəfinə keçdilər. Təbriz tutulduqdan sonra İbrahim paşa Üləma bəyi Ərdəbilə, Xosrov paşanı isə Əlincə qalasına göndərdi. Təbriz daxil olmaqla, tutulan Azərbaycan torpaqlarının bəylərbəyi Üləma Təkəli oldu. Həmin ilin iyul ayında bir bölük qoşunla I Sultan Süleyman Qanuni özü də Təbrizə gəldi. Bu xəbəri eşidən Şah Təhmasib qardaşı Sam Mirzəni, Heratda qoyub özü geri qayıtdı. Sultan Süleyman I Şah Təhmasibə yazdığı məktubda onu qorxaqlıqda günahlandırıb savaşa çağırırdı. Ancaq I Təhmasib I Sultan Süleymana göndərdiyi cavab məktubunda özünün döyüş taktikasını ona anladaraq bir qızılbaş döyüşçüsünə qarşı on osmanlı döyüşçüsü durduğu halda, meydan savaşına girməyin yersiz olduğunu bildirmişdir.

Osmanlı ordusu Əcəm Iraqına daxil oldu. Bu zaman qızılbaşlar onların keçəcəyi yollarda otlaqları məhv etmiş və əhalini köçürmüşdülər. Osmanlı ordusu çox çətinliklərlə irəli gedirdi. Müharibəyə əlverişli vaxtda girmək istəyən I Şah

Təhmasib isə Əbhərə çəkildi. Havalar getdikcə soyuyurdu. Osmanlı ordusu qışlamaq üçün Bağdada dönməyə məcbur oldu. 1534-cü ildə Bağdad valisi Şərafəddin oğlu Məhəmməd xan Təkəli şahın göstərişi ilə Bəsrəyə çəkildi.

1534-1535-ci illərdə Bağdadda qışlayan I Sultan Süleyman 1535-ci ilin yazında yenə Təbrizə doğru döndü. Şah Təbriz və onun ətrafındakı əhalini köçürüb, bütün ərzağı, heyvanları, başqa yerlərə daşıtdırdı. Özü isə Sultaniyyəyə çəkildi. Ibrahim paşa Təbrizə daxil oldu. Şah iki dəfə barışıq istədi, ancaq rədd cavabı aldı. Dərcəzeyndə boş yollarla hərəkət edən osmanlılar Əmir sultan Rumlu və Çıraq soltan Ustaclının qızılbaş ordusu ilə qarşılaşdılar. Bu savaşda xeyli itki verib geri çəkildilər. Bidlisə qədər osmanlıları izləyən I Şah Təhmasibin sərdarı Bəhrəm mirzə Van və Ərcişi də tutdu. 1534-1535-ci il savaşları hər iki tərəfin saysız-hesabsız insan itkisi hesabına başa çatdı.

**Şirvanda Əlqas Mirzə və Burhan Mirzənin qiyamları.** Osmanlıların Azərbaycana yeni yürüş təhlükəsi yarandığı bir vaxtda Şirvan bəylərbəyi Əlqas Mirzə Şirvanda müstəqil dövlət qurmaq istəyirdi. Hələ 1546-cı ildə Şirvandan Qəzvinə qaçıb gəlmiş Oruc ağa Rumlu bu barədə Şaha xəbər vermişdi. Şah 1546-cı ildə Urgənc oğlunu danışıq üçün Əlqas Mirzənin yanına göndərdi. O, tabe olmayacağını bildirsə də, Şahın qoşunla Şirvana gəldiyini eşidən kimi anası Xanbəyi xanımı bağışlanması üçün onun yanına göndərdi. Xanbəyi xanımın xahişi ilə şah onu bağışladı. Əlqas Mirzə Cavadda şahlığa sədaqətli qalacağına and içdi. Hətta şahın Gürcüstan və Çərkəzistana 1547-ci il yürüşlərində də iştirak etdi.

1547-ci ildə Şah Təhmasib geri döndükdən sonra Əlqas Mirzə yenə də öz müstəqilliyini elan edib adına xütbə oxutdurdu və sikkə zərb etdirdi. Bu vaxt Yevlaxda olan şah Ibrahim xan Zülqədər, Hüseyn Sultan Rumlunu 5 min əsgərlə Şamaxıya göndərdi. Əlqas Mirzənin ailəsi sığındığı Gülüstan qalası mühasirə edildi. Döyüşlərdə ordusunu itirən Əlqas Mirzə Dağıstandan Azova, oradan Kəffəyə və Kəffədən isə Istanbula getdi. Şirvan qalaları tutulub onun bütün tərəfdarları öldürüldü. 1547-ci ildə Şah oğlu Ismayıl Mirzəni Şirvana bəylərbəyi qoyub Təbrizə qayıtdı.

Şirvanda yerli əmirlərin də arasında mərkəzdənqaçma meylində olanlar vardı. Hələ 1544-cü ildə Qaytaqdan Şirvana gələn Burhan Mirzəni Əlqas Mirzə bir neçə dəfə məğlub etmişdi. Bir çox mənbələrdə Burxan Mirzənin Xəlilullahın oğlu olduğu göstərilmişdir. 1548-ci ildə o, yenidən Qaytaqdan Şirvana gəldi və yerli əmirlərin bir çoxu onun ətrafına toPlandılar. Burxan Mirzə Şirvanda yeni qiyamı baş qaldırdı. Ancaq o, 1549-cu ildə Buğurd dərəsində öz əcəli ilə öldü. Qiyamçıların Şirvan taxtına namizədliyini irəli sürdükləri Mehrab və 1550-ci ildə Qurbanəli də aradan götürüldü.

I Sultan Süleyman ordusunun yeni yürüşləri. I Şah Təhmasibin barış təkliflərini qəbul etməyən I Sultan Süleyman Qanuninin ordusu 1548-ci ildə yenə Səfəvi imperatorluğuna yürüş etdi. Əvvəlki döyüşlərdə olduğu kimi I şah Təhmasib yenə də odlu silahla təchiz olan osmanlılara qarşı öz süvarisini açıq çöllərdə döyüşə çıxarmadı. Yolboyu ərzaq quyularda gizlədilir, əhali köçürülür, süvari ordu isə

tez-tez yerlərini dəyişirdi. O, ağıllı, taktiki hərəkətlərlə Osmanlı ordusuna zərbələr vururdu. Bilirdi ki, itki verən və səbri tükənən soltan geri dönməyə məcbur olacaqdır. Osmanlı Sultanın yanında olan Əlqas Mirzənin köməyinə qızılbaş əmirlərindən heç biri gəlmədi və əksinə, onlar şahın qulluğuna getdilər. Əlqas Mirzənin Həmədan tərəfdən hücum edən qoşunu məğlub edilərək, özü də əsir götürülüb Qəhqəhə qalasında ömürlük həbs cəzasına məhkum olundu. Soltan isə Təbrizi tutsa da, burada dörd gündən artıq qala bilmədi. Geriyə qayıdarkən Vanı ələ keçirdi. Vanın tutulması Təhmasibə çox pis təsir etdi. O, oğlu Ismayıl Mirzəni Kars qalasının təmiri ilə məşğul olan osmanlılar üzərinə yola saldı. Təhmasib özü isə Ərciş və Əhləti tutdu. Ismayıl Mirzə Karsı tutduqdan sonra Ərcişdə atası ilə birləşdi. Təhmasib Trabzon ətrafına qədər hərəkət etdi.

I Şah Təhmasib 1551-1554-cü illərdə Ərciş, Adilcivaz, Əhlət qalalarını alaraq Muşa qədər yürüş etdi. Oğlu Ismayıl Mirzə isə Ərzurum bəylərbəyi Iskəndər paşanı məğlub etdi. Bununla şah Təhmasib Şərqi Anadoluda möhkəmlənmək və Osmanlı hökmdarını müqavilə bağlamağa məcbur etmək istəyirdi. Səfəvi hökmdarı dəfələrlə Sultana barışmağı təklif etmişdi. Bu barışın I Şah Təhmasib üçün həm maddi və həm də mənəvi əhəmiyyəti vardı. O, Səfəvi dövlətinin varlığını təhlükədən qurtarmaq istəyirdi.

Ancaq I Şah Təhmasib 1554-cü ildə, dördüncü dəfə Şərq səfərinə çıxıb Irəvan, Qarabağ, Naxçıvana hücum etdi. Yol boyu I Şah Təhmasibin qüvvələri otlaqları, tarlaları məhv edib, əhalini köçürmüşdü. Şah Bazarçaya doğru geri çəkildi. Naxçıvanda Şahın süvariləri qəfil həmlələrlə osmanlıların üzərinə yürüşlər edirdilər. Ciddi çətinliklərlə qarşılaşan Osmanlı ordusu Ərzuruma qayıtdı. Osmanlı ordularının ardınca Anadoluya daxil olan qızılbaşlar döyüşlərin birində Sultanın ən yaxın adamlarından olan Sinan bəyi əsir götürdülər. Yürüşlərdən yorulmuş Osmanlı ordusu içərisində narazılıqlar yaranmışdı. Sultan ordudakı bu narazılıqlar və Azərbaycana son yürüşdəki uğursuzluqlarla hesablaşmağa məcbur oldu.

Sonuncu yürüş zamanı Sultan Şirvanşahlar nəslindən olan Qasımı yeniçərilər və topçularla birlikdə Kəfədən Dağıstana doğru yola salmışdı. Soltanın göstərişi ilə Kumuq və Qaytaq qoşunları da onlarla birləşdi. Qasımın başçılıq etdiyi «qoşun» Dərbənddən Şirvana girdi. Şirvanın yerli əmirlərinin çoxu Abdulla xan Ustaclının xidmətindən çıxıb Qasımla birləşdilər. Tabasaranda Təngə döyüşündə Abdulla xan güclü qarşıdurmaya rast gəldi və Şamaxıya döndü. Qasımın hərbi dəstəsi onun ardınca Buğurdu keçdi və Gülüstana yaxınlaşdı. Gülüstan döyüşünə Abdulla xan Ustaclı 2 min nəfər qızılbaşla girsə də, qələbə çaldı. Qasımın dəstəsindən sağ qalanlar Tabasarana qaçdılar. Qasımın isə nə öldüyü, nə də sağ qaldığı məlum olmadı. Bu qələbə Səfəvilərin Şirvanda hakimiyyətini daha da möhkəmləndirdi.

I Sultan Süleyman Azərbaycana dördüncü yürüşündə ciddi müqavimətlə qarşılaşaraq qələbənin mümkün olmadığını görüncə barışığa razı olmuşdu. Onun göstərişi ilə baş vəzir Məhəmməd paşa Səfəvilərə məktub yazıb, Sinan bəyin azad olunması və danışıq üçün elçi göndərilməsini xahiş etdi. Sinan bəy Qacar Şahqulu

bəylə Istanbula yola salındı. O qayıtdıqdan sonra isə Fərruxzad bəy Qaradağlının başçılığı ilə danışıq üçün elçilik göndərildi.

Amasiyada may 1555-ci ildə iki ölkə arasında barış andına imza atıldı. Bu barışa görə Şəhrizor və Van ətrafı, Imeretiya, Menqreli, Quriya osmanlılara verildi. Mesxiya, Kartili və Kaxetiya Səfəvi hakimiyyəti altında qaldı. Bu barış I Şah Təhmasibin ən böyük uğurlarından oldu. O, Səfəvi dövlətinin varlığını qoruyub saxlaya bildi. Bununla o özünün çox bacarıqlı bir dövlət başçısı olduğunu göstərdi. I Şah Təhmasib bir sıra iqtisadi, siyasi və hərbi-stratejı səbəblərlə bağlı olaraq 1555-ci ildə paytaxtı da rəsmi olaraq Təbrizdən Qəzvin şəhərinə köçürüldü. Paytaxtın Təbrizdən Qəzvinə köçürülməsi Təbrizin tez-tez Osmanlı hücumlarına məruz qalması, Azərbaycanın sərhəd şəhəri olan Qəzvinin coğrafi baxımdan imperatorluğun mərkəzində yerləşməsi, beynəlxalq karvan yolu üstündə olmaqla imperatorluğun həm şimal-qərb, həm də cənub-şərq şəhərləri ilə sıx iqtisadi əlaqəsi və eyni zamanda əlverişli qışlaq yeri olması ilə əlaqədar idi. Ancaq burada dövlətxana binası 1557-ci ildə tikilib qurtararaq istifadəyə verilmişdir.

1558-ci ildə I Sultan Süleymanın oğlu Bəyazidin I şah Təhmasibə sığınması iki ölkə arasında yeni çəkişmə yarada bilərdi. 1562-ci ildə Səfəvi sarayına Van hakimi Xosrov paşanın başçılığı ilə elçilər gəldi. Məqsədləri Bəyazidi geri almaq idi. Bəyazidin I Sultan Süleymanın Qanuninin adamlarına verilməsi iki dövlət arasında baş verə biləcək yeni çəkişməni aradan qaldırdı.

I Sultan Süleymanın ölümündən (1566) sonra da iki ölkə arasında yaxşı münasibətlər davam etmişdir. I Şah Təhmasib II Səlim (1566-1574) və III Muradı (1574-1595) təbrik etmək üçün 1567-ci ildə Şahqulu xan Ustaclını qiymətli hədiyyələrlə Ədirnəyə və 1575-ci ildə Toxmaq xan Ustaclını isə İstanbula göndərmişdi.

**Səfəvi-Şeybani çəkişmələri.** Şeybanilərlə Səfəvilər arasındakı çəkişmələr daha çox Xorasanla bağlı idi. XVI yüzilin 30-cu illərində Bəlx Şeybanilərin, Xorasanın qalan üç vilayəti – Herat, Məşhəd və Mərv isə Səfəvilərin əlində idi. Şeybani xanın oğlu Ubeydulla Xorasanı tutmaq üçün bir-birinin ardınca bura yürüşlər edirdi. 1524-cü ildə Herata qoşun yeritmişdi. Ancaq Herat bəylərbəyi Durmuş xan Şamlı onu məğlub edib geri qaytarır. Ubeydulla xan 1526-cı ildə Durmuş xan Şamlının ölümündən istifadə edib Tusu, növbəti il Astrabadı tutdu. 1527-1528-ci illərdə isə Heratı da mühasirəyə aldı. Mühasirənin yeddinci ayı I Şah Təhmasibin yaxınlaşdığını eşidib Heratdan geri çəkildi. Ubeydulla xanla ən böyük döyüş Cam şəhəri yaxınlığında oldu. Təhmasib də savaş meydanında idi. Savaş qızılbaşların qələbəsi ilə qurtardı. Ancaq I Şah Təhmasibin 1529-cu ildə Ərəb Iraqına getməsindən istifadə edən Ubeydulla xan Məşhədi, sonra isə Heratı tutdu. 1529-1530-cu ildə I Təhmasib yenə də Xorasana qayıtdı.Ubeydulla xan savaşla Heratdan qovuldu. Şah qardaşı Bəhram Mirzəni Herata hakim qoydu. 1531-1532-ci illərdə də Xorasandakı döyüşçülər Ubeydullaya uğur gətirmədi. 1534-cü ildən I Soltan Süleyman Qanuninin Azərbaycana yürüşləri Ubeydulla xanın əl-qolunu yenidən açdı. Bu zaman iki cəbhədə savaşmaq Səfəvilər üçün asan deyildi. Amma buna baxmayaraq, 1535-1536-cı illərdə Ubeydulla xan Heratı yenidən tutsa da burada qala

bilmədi. I Şah Təhmasibin Xorasana dördüncü gəlişi zamanı özbəklərə ağır zərbə vuruldu. Ubeydulla xan Buxaraya qayıtdı. O, 1539-1540-cı illərdə Xorasana sonuncu yürüşündə yolda xəstələnib öldü. Ubeydullanın ölümündən sonra da XVI yüzilin axırlarına qədər özbəklər arabir Xorasana uğursuz yürüşlər etmiş, lakin bu yürüşlər Səfəvi imperatorluğu üçün o qədər də qorxulu olmamışdı. Amma Səfəviləri Xorasanda müəyyən qədər qüvvə saxlamağa vadar edirdi.

**Səfəvi imperatorluğu və Moğol dövləti.** Səfəvi imperatorluğu cənub-şərqdən Böyük Moğol dövləti ilə həmsərhəd idi. Ispaniya, Portuqaliya, Hollandiya, Ingiltərənin Hind okeanı sahillərində müstəmləkəçilik addımları və Ubeydulla xanın Xorasanla yanaşı, Əfqanıstana olan yürüşləri Səfəvilərlə Moğolları bir-birinə yaxınlaşdırırdı. Bu iki dövlətin mənafe birliyi və xarici siyasətlərindəki oxşarlıqlarına baxmayaraq, onların arasında da Qəndəhar məsələsi vardı. Bu şəhər Səfəvi ölkəsindən Hindistana açılan qapı olmaqla hər iki ölkə üçün hərbi strateжi baxımdan çox dəyərli idi. Hindistandan Səfəvi ölkəsinə doğru uzanan karvan yolu da Qəndəhardan keçirdi.

1537-ci ildə I Şah Təhmasib Qəndəhara yaxınlaşdı. Qalanın kutvalı Qəndəharın qapılarını Şahın üzünə savaşsız açdı. Şah Budaq xan Qacarı Qəndəhara hakim qoyub özü Herata döndü. Növbəti il Moğol hökmdarı Humayunun qardaşı Kamran Mirzə Qəndəhardan Budaq xan Qacarı sıxışdırıb çıxardı.

Çəkişmələrə baxmayaraq, I Şah Təhmasib şərqdəki türk Babur imperatorluğunun durumuna qayğı ilə yanaşırdı. Bu arada Əfqan Şir xanla savaşda yenilən Dehli hökmdarı Humayunu qardaşları da tərk etmişdi. 1544-cü ildə çox ağır günləri başlanan Humayun ailəsi, uşaqları, qulluqçuları ilə Səfəvi sarayına sığınmışdı. Baxmayaraq ki, artıq Humayun hakimiyyətdə yox idi, ancaq I Şah Təhmasib onu Moğol hökmdarına layiq ehtiramla qarşılayıb, ona hakimiyyətini geri qaytarmaq üçün Budaq xan Qacar və Şahverdi bəy Ustaclının başçılığı ilə 12 minlik qorçu verdi.

Humayun Hindistana döndü. Şahın ona verdiyi qorçular Şir xanın qüvvəsini dağıtdılar. O, I Şah Təhmasibin köməyi ilə yenidən taxtında oturdu. Bu köməyə görə, Qəndəhardan əl çəkdi və hər il Səfəvilərə 40 min tümən göndərəcəyinə söz verdi.

I Şah Təhmasibin Baburlara yardımı obyektiv olaraq şərqdəki hər üç imperatorluğun varlığının qorunması üçün gərəkli idi. Çünki Qərbin müstəmləkə dövlətlərinin ayaqlandıqları bir vaxtda bu dövlətlərin birinin məhvi şərqdə çox böyük fəlakətlərə səbəb ola bilərdi.

**Azərbaycan Səfəvilər dövləti XVI yüzilin ikinci yarısında. XVI yüzilin ortalarında və ikinci yarısında Azərbaycan Səfəvi dövlətinin qərb dövlətləri ilə münasibətləri.** Böyük coğrafi kəşflərlə Hindistana dəniz yollarının açılması Azərbaycandan keçib Qara dəniz və Aralıq dənizinə gedən əski karvan yollarının əhəmiyyətini azaltdı. XVI yüzilin əvvəllərindən okeanlardan keçib Ərəb sahilləri və Hindistana gedən ticarət yollarına Portuqaliya müstəmləkəçiləri nəzarət edirdi-

lər. Onlar İran körfəzinə də daxil olub körfəzdəki hərbi-strateжi və iqtisadi əhəmiyyətli məntəqələri, o cümlədən Hörmüzü də (1515) ələ keçirmişdilər.

Aralıq dənizi və Qara dənizdən keçib Avropa ölkələrinə doğru yan alan qədim karvan yollarına isə Osmanlı dövləti nəzarət edirdi. Bu yollar artıq Səfəvi tacirlərinin də hərəkətini çətinləşdirmişdi. Hörmüz tutulduqdan sonra isə Səfəvi tacir və elçilərinin Hind okeanına çıxmaq imkanlarına da son qoyulmuşdu.

Şərq ölkələrinə Avropadan əvvəlcə tacirlər, sonra elçilər və onların ardınca isə bir qayda olaraq, toplu-tüfəngli müstəmləkə qoşunu gəlirdi. Portuqaliyadan başlamış Fransaya qədər bütün Avropa dövlətlərindən şərqə gələn tacirləri, elçiləri, missionerləri öz dövlətlərindən aldıqları xüsusi tapşırıq üzrə Şərq dövlətlərinin arasını mümkün qədər vurmağa çalışırdılar.

Bu zaman Osmanlı dövləti ilə düşmənçiliyi olan Portuqaliya daha çox Səfəvi dövlətinə yaxınlıq göstərirdi. Portuqaliyanın gerçək məqsədi Səfəvi dövləti ilə Osmanlı dövləti arasında müharibə törədib, onların hər ikisinin də qüvvəsini tükəndirib, Fərat və Dəclə boyunca mühüm iqtisadi, hərbi-strateжi əhəmiyyəti olan yerləri tutmaq idi. XVI yüzilin 30-50-ci illərində Osmanlı-Səfəvi savaşları zamanı portuqallar şərqdə müstəmləkəçilik Planlarını həyata keçirmək üçün Səfəvilərə top-tüfənglə kömək edirdilər.

Portuqaliya kralı III Juanın (1502-1557) Azərbaycana göndərdiyi elçilər 1551-ci ildə Qəzvində çox yaxşı qarşılandılar. Amma 1574-1575-ci ildə ikinci dəfə Portuqaliyadan gələn elçiləri şah qəbul etməmişdi. Ona görə ki, portuqallar İran körfəzindəki məntəqələrdə müsəlmanları sıxışdırırdılar. Həm də portuqallarla danışıqlar Osmanlı dövləti ilə 1555-ci ildə bağlanmış Amasiya müqaviləsini poza bilərdi.

XVI yüzilin 60-cı illərində Azərbaycana İngiltərədən altı ekspedisiya gəlmişdi. Ingiltərə kraliçası Yelizaveta Tüdoru (1558-1603) Azərbaycanın xan ipəyi, zər-zibası ilə yanaşı, daha çox buradan Hindistana gedən karvan yolları maraqlandırırdı. Ingiltərə irəliləməkdə olan qərb dövləti olsa da, Hindistana gedən dəniz yollarına nəzarət edən qüdrətli Portuqaliya ilə qarşılaşmaqdan çəkinirdi. Elə buna görə də 1553-cü ildə yaradılmış və Böyük Britaniyanın xarici siyasət kursunu yeridən ingilis «Moskva şirkəti» Xəzər və onun sahillərindən keçən karvan yolları ilə Hindistana çıxmaq fikrində idi. «Moskva şirkəti»nin təmsilçisi Entoni Cenkinson 1561-1563-cü illərdə Volqa-Xəzər yolu ilə Azərbaycana gəlmiş, Şamaxı bəylərbəyi Abdulla xan Ustaclı və Qəzvində I Təhmasiblə danışıqlar aparmışdı. Yelizaveta Tüdorun I Təhmasibə göndərdiyi məktubdan aydın olur ki, bu danışıqlar Ingiltərə ilə Azərbaycan arasında ticarət əlaqəsi yaratmaq ətrafında getmişdir. Ancaq Ingiltərədən göndərilən ticarət ekspedisiyalarının və onların təmsilçilərinin apardıqları danışıqların arxasında bir müstəmləkəçilik marağı da dayanırdı. I Şah Təhmasib Entoni Cenkinson da müqavilə bağlamadı. Ona görə ki, Aralıq dənizi və sahillərində Osmanlı dövlətinə qarşı duran Ingiltərə ilə I Şah Təhmasib Amasiya barışığından sonra heç cür müqavilə bağlaya bilməzdi. Qəzvin səfəri uğursuz olan Entoni Cenkinson Şirvana qayıtdı və burada 1563-cü ildə Abdulla xanla tica-

rət müqaviləsi bağladı. Ingiltərə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin bünövrəsi qoyuldu.

1571-ci ildə Venetsiya öz elçisi Vinçentso Alessandirini Azərbaycana göndərdi. V.Alessandri I Şah Təhmasibə Osmanlı dövlətinə qarşı müqavilə bağlamağı təklif edir. Növbəti il Roma papası I Şah Təhmasibə yazdığı məktubda xristian müttəfiqləri ilə birgə Osmanlı dövlətinə qarşı savaşa başlamağın əlverişli vaxtı çatdığını bildirirdi. Papa başda olmaqla xristian monarxları I Şah Təhmasibi Osmanlı dövlətinə qarşı savaşa çəkməyə çalışırdılar. Papa XIII Qriqori (1572-1585) şaha top, tüfəng, pul göndərəcəyini vəd edirdi. Səfəvilərə müttəfiq gözü ilə baxan xristian dövlətlərinin başçıları Osmanlı dövləti ilə savaşmaqdan qorxurdular. Elə buna görə də, onlar müxtəlif hiylələr, vədlərlə Səfəvilərin əli ilə Osmanlı dövlətinə zərbə vurmaq istəyirdilər.

1578-ci ildə Osmanlı-Səfəvi savaşı zamanı Məhəmməd Xudabəndə Portuqaliyaya elçi göndərib xristian dövlətlərindən kömək istəmiş, ancaq nə Venetsiya, nə Portuqaliya, nə də Ispaniya Osmanlı dövlətinə qarşı savaşa başlamamışdılar. Əslində bu dövlətlər Osmanlı dövləti ilə yanaşı, Səfəvi imperatorluğun da gücdən düşməsini istəyirdilər.

XVI yüzilin ortalarında Kazan və Həştərxanı tutduqdan sonra Xəzərin şimal sahillərində müstəmləkələrini tədricən genişləndirən Rusiya Səfəvi dövləti ilə diplomatik və ticarət əlaqələrinə xüsusi fikir verir, Yaxın və Orta Şərq bazarlarına can atırdı. 1561-ci ildə I şah Təhmasib, 1563-ci ildə isə Şirvan bəylərbəyi Abdulla xan Moskvaya elçilər göndərmişdi. Rusiya çarı IV Ivan (1547-1584) isə 1569-cu ildə Aleksey Xoznikovun başçılığı altında Qəzvinə elçilər göndərdi. Onlar Şah Təhmasibə 100 top və 500 tüfəng gətirmişdilər. Rusiya bir tərəfdən Səfəvilərlə əlaqələrini gücləndirir, digər tərəfdən isə yavaş-yavaş Xəzərə doğru yeni torpaqlar işğal edirdi. Rusiyanın Xəzər istiqamətində yürüşlərinin qarşısı alınmazsa, onun zərbəsi gec-tez Səfəvi imperatorluğuna dəyə bilərdi. Osmanlı dövlətinin 1578-ci ildə Qafqaza daxil olması da əslində Rusiyanın Xəzərə doğru yürüşlərinin qarşısını almaq məqsədini güdürdü.

**II Şah Ismayıl.** Təhmasib 15 may 1576-cı ildə vəfat etdi. Hakimiyyət uğrunda xələfləri və əmirlər arasında çəkişmə başlandı. Hələ 1574-cü ildə I Şah Təhmasib ağır xəstə yatdığı zaman hakimiyyət məsələsi əmirlər arasında çox ciddi mübahisəyə səbəb olmuşdu. Ustaclı əmirləri dərhal Şahın sevimli oğlu Heydər Mirzənin namizədliyini irəli sürmüşdülər. Heydər Mirzəni ana tərəf qohumlarından islamı qəbul etmiş milliyyətcə gürcü olan əmirlər və qardaşı Mustafa Mirzə də müdafiə etmişdi.

Bu zaman Rumlu, Əfşar, Təkəli əmirləri, xəlifət əl-xüla Hüseynqulu xan Rumlu, Şahın qızı Pərixan xanımla dayısı Çərkəz Şamxal soltan isə şahın həbsdəki oğlu Ismayıl Mirzənin tərəfdarı idilər. Ismayıl Mirzənin anası Türkman Isa bəyin qızı idi. Türkmanlardan da onu istəyən az olmamışdı. Amma tezliklə sağalan Şah nə Heydər Mirzəni yanından uzaqlaşdırmadı, nə də həbsdə olan Ismayıl Mirzəni azad etmədi. Vəliəhdin kim olacağı haqqında da açıq bir söz demədi. Şah

ölən kimi iki tərəf arasında çəkişmələr yenidən qızışdı. Ismayıl Mirzənin tərəfində duranlar qələbə çaldılar. Iyirmi il Qəhqəhə həbsxanasında yatan Ismayıl Mirzə azad edildi. Ismayıl Mirzə cəsur olub qızılbaşlar tərəfindən sevilirdi. Şahın bir çox yaxın adamları isə ondan ehtiyat edirdilər. Elə buna görə də onu yalandan şaha qarşı qəsddə günahlandırıb həbs etdirmişdilər. Qaradağdakı Qəhqəhə qalasından çıxan Ismayıl Mirzə Qəzvinə gəldi. O, 22 avqust 1576-cı ildə II Şah Ismayıl ünvanı ilə hakimiyyətə keçdi. Ilk günlər Heydər Mirzənin tərəfdarlarına sevgi ilə yanaşırdı. Ancaq hakimiyyəti ona qarşı dura biləcək qüvvələrin nazı ilə oynamaqla möhkəmləndirmək, əldə saxlamaq mümkün deyildi. Elə buna görə də sülalə üzvlərindən çoxunu öldürtdü. Dövlətin idarə olunmasında bütün maniələri aradan qaldırmağa cəhd edən II Ismayıl tərəfdarlarından Rumlu xəlifət əl-xülafa Hüseynqulu xanı, Ustaclı bəylərindən öndə gedənləri, hətta qardaşı Mustafa Mirzəni də öldürtdü. II Ismayıl dövlətin yerli dayaqlarının möhkəmləndirilməsinə ciddi fikir verirdi. Xüsusilə Azərbaycan hüdudlarından kənardakı vilayətlərdə yerli hakimiyyətin möhkəmləndirilməsi onun daxili siyasətində baş xətt idi. Reydə Təkəliləri, Məşhəd, Qum və Savədə Türkmanları yerləşdirib onların bəylərinə bu vilayətlərdə vəzifələr də verdi. II Ismayıl Səfəvi dövlətini möhkəmləndirməklə yanaşı, Osmanlı dövləti ilə münasibətləri də yaxşılaşdırmaq istəyirdi. Onun yarımçıq qalan, yəni həyata keçirə bilmədiyi dini islahatı da bu məqsədə qulluq edirdi. O, şiəliyi mötədil bir hala gətirməklə sünniliyin sıxışdırılmasına qarşı idi. Əsərində II Şah Ismayılın dini islahatlarının mahiyyətini doğru şərh edə bilməyən Oruc bəy Bayatın fikrinə görə guya şah xalqa elan etmişdir ki, şiəlikdən əl çəkib sünnülüyü qəbul etsinlər. Əslində o, özü şafiliyə meyilli olsa da, hər iki məzhəbə qulluq edənlərin bir yerdə bərabər hüquqlarla yaşamasını istəyirdi. Həzrəti Ayişənin lənətlənməsinin əleyhinə idi. Onun haqqındakı düşüncələrini dini məclisdə bəzən açıq, bəzən də qapalı bildirirdi. Bu məclislərin birində xəlifət əl-xülafa qoyduğu Bolqar xəlifədən Həzrəti Ayişənin lənətlənməsi ilə bağlı düşüncələrini sormuşdu: o da «küfr etmək haramdır, amma lənət etmək, işi Allaha həvalə etməkdir…» cavabını vermişdi. «Sən saf bir türksən, sənə bunu kim öyrətdi?» deyə soran şaha: «Mərhum şah Təhmasib zamanında üləmadan duydum» demişdi. Elə buna görə şah onu tutduğu vəzifədən azad edib, yerinə Dədə Ustaclını xəlifə təyin etmişdi. II Şah Ismayıl Həzrəti Ayişənin lənətlənməsini və üç xəlifənin pislənməsini qadağan etmişdi. O, məscidlərin divar və qapılarına yazılmış aşiqanə şerləri sildirdi. Ismayılın bu hərəkətləri xalq arasında narazılıqla qarşılandı. Onun sünniliyə meylli olduğuna şübhə oyandı. Amma ağıllı din xadimləri və əmirlər buna o qədər də ciddi bir iş kimi baxmır, bilirdilər ki, II Ismayıl iki məzhəb tərəfdarlarını bir-birinə yaxınlaşdırmaq, aralarındakı ixtilaflara son qoymaq istəyir. Ancaq bir çox Türkman və Təkəli əmirləri bundan istifadə edib, Şahın qardaşı Həsən Mirzəni onun yerinə gətirmək cəhdi göstərdilər. Onların bu cəhdi baş tutmadı. Həsən Mirzəni Şahın tərəfdarı olan Ustaclılar aradan götürdülər. Çox keçmədi ki, II Şah Ismayıl 1577-ci ildə müəmmalı şəkildə öldü.

**Məhəmməd Xudabəndə. Daxili çəkişmələr.** II Şah Ismayıl vəfat etdikdən sonra qızılbaş əmirlərinin böyük bir toplantısı oldu. Bu toplantıda tayfa ağsaqqalları dövlətin ümumi mənafeyi üçün II Şah Ismayılın hakimiyyətinin ilk günlərindəki qan davasını xatırlayıb yeni çəkişmələrə yol verməyəcəklərinə and içdilər. Bundan sonra taxta kimin çıxacağını müzakirə etdilər. II Ismayılın səkkiz aylıq oğlu Şahşücanın namizədliyi onun atabəyi tərəfindən irəli sürülsə də, buna heç kim razılıq vermədi. Sonra I Şah Təhmasibin böyük oğlu Məhəmməd Xudabəndinin hakimiyyətə gətirilməsi məsələsi ortaya atıldı. Toplantıda hamı buna razı oldu.

1578-ci il fevralın 13-də Şah seçilən Məhəmməd Xudabəndi gözləri zəif görməklə yanaşı, həm də iradəcə möhkəm adam deyildi. Onun razılığı ilə toplantıdakı əmirlərin hər birinin öz tayfasının ağsaqqalı olması qərarlaşdırıldı.

Məhəmməd Xudabəndə dövründə də imperatorluğun siyasi və əsgəri təşkilatı yenə də türk tayfa bəylərinin əlində idi. O da türk tayfa bəylərindən möhkəm yerli dayaqlar yaratmaq kimi mühüm daxili siyasəti davam etdirirdi.

Ancaq 1577-ci il toplantısındakı andlara baxmayaraq, oymaqlar arasındakı narazılıqlara tam son qoyulmamışdı. Məhəmməd Xudabəndinin zəifliyindən istifadə edən bir sıra əmirlərin dövlətin siyasi və əsgəri təşkilatında yüksək vəzifələri ələ keçirmək cəhdləri ilə əlaqədar olaraq oymaqlararası çəkişmələr yenə də qalırdı.

**XVI yüzilliyin 70-ci illərində səfəvi-osmanli savaşlari.** Ölkə daxilində tayfalararası bu çəkişmələr Osmanlı dövləti üçün də çox əlverişli oldu. III Murad (1574-1585) bəhanələrlə 1578-ci ildə Amasiya barışığını pozub, Qars qalasının bərpa olunması haqqında göstəriş verdi. Osmanlı dövləti Zaqafqaziyaya ordu yeridib, Xəzərin qərb sahillərindəki liman məntəqələrini tutmaq və Volqa-Xəzər beynəlxalq karvan yolu üzərində nəzarəti ələ almaq istəyirdi. Osmanlı dövlətinin əsas ordusu Güney Qafqaza daxil olmalı və qısa müddətdə nəzərdə tutulmuş bölgə fəth olunmalı idi. Əsas hərbi əməliyyatdan Səfəvi dövlətinin diqqətini yayındırmaq üçün Xoy, Salmas və Urmiyaya hücumla başladılar. Burada gedən döyüşlərdə Osmanlı ordusu qələbə çalıb Şahın ərəb atları cinsindən olan 10 mindən çox ilxısını da ələ keçirdilər. Azərbaycan bəylərbəyi Əmir xanın tutulmuş torpaqları geri almaq cəhdləri boşa çıxdı.

Osmanlı dövlətinin vəziri Qara Lələ Mustafa paşa III Sultan Muradın əmrinə görə Gürcüstan, Şirvan və Azərbaycanı tutmalı idi. Vəzir Lələ Mustafa paşanın ordusu avqust 1578-ci ildə Ərdəhan tərəfdən hücuma keçdi. Osmanlı hücumunun qarşısını Çuxur Səd bəylərbəyi Ustaclı Məhəmməd Toxmaq xan və Qarabağ bəylərbəyi Qacar Imamqulu xan almalı, eyni zamanda Azərbaycan bəylərbəyi Əmir xan və vəliəhd Həmzə Mirzə də onlara köməyə gəlməli idilər. Ancaq Əmir xan dövlətin qərb sərhəddində Osmanlılarla bağlı təhlükə qaldığına görə, onlara vaxtında kömək edə bilmədi.

Ustaclı Məhəmməd Toxmaq xanla Qacar Imamqulu xan 15 minlik qoşunla ordusunun sayı onlardan qat-qat çox olan Lələ Mustafa paşa ilə qarşılaşdılar. Çıldırda avqust 1578-ci ildə baş verən döyüşdə Səfəvi bəylərbəyiləri məğlub oldular. Osmanlılar Gürcüstanın xeyli torpaqlarını tutub Şirvana doğru irəlilədilər.

Qanıq (Alazan) çayı sahilində Osmanlılar Türkman Əmir xan və Qacar Imamqulu xanın qüvvələri ilə qarşılaşdılar (sentyabr 1578). Səfəvi ordusu ilk döyüşdə qələbə çalsa da, Əmir xan oğlu Sultan Murad xanın səhvi nəticəsində baş verən ikinci döyüşdə xeyli itki verdi. Türkman Əmir xan bu uğursuzluqdan sonra Təbrizə dönməyə məcbur oldu. Şirvan bəylərbəyi Rumlu Araz xan təkbaşına osmanlılara qarşı döyüşə bilməyəcəyini gördükdə Kür sahilinə çəkildi. Vəzir Qara Lələ Mustafa paşa Dərbəndə qədər Şirvan torpaqlarını tutub, Özdəmir oğlu Osman paşanı bu bölgəyə hakim təyin edib, özü Ərzruma döndü. Gürcüstanın bir qismi ilə Şirvan Osmanlı hakimiyyəti altına düşdü. Mustafa paşa geriyə qayıdan kimi Araz xan Rumlu Təkəli Ərdoğdu xəlifə və başqa əmirlərlə birləşib Osmanlı qüvvələrinə qarşı hərəkət etdi. Qarabağ bəylərbəyi Qacar Imamqulu xan isə Qaytas paşanın üstünə getdi. Ərəş qalası ətrafında Qacar Imamqulu xan qələbə çaldı. Qaytas paşanın əsgərlərinin çoxu öldürüldü. Rumlu Araz xan Şamaxını boşaldıb Özdəmir oğlu Osman paşanın xeyli qüvvəsini məhv etdi. Bu vaxt Krımdan Adil Gərayın köməyə gələn qüvvəsi ilə birləşən osmanlılar Araz xanı məğlub etdilər. Araz xan əsir götürüldü. Araz xanın oğulları, Ərdoğdu xəlifə qalan qüvvə ilə Salyana çəkildi. Amma qızılbaşların ardınca gedən, onları izləyən Adil Gəray onları dağıdıb çoxlu qənimət ələ keçirdi. Rumlu Araz xan da öldürüldü. Bu vaxt Səfəvilərin baş vəziri Salmanın ordusu Şirvana daxil oldu. Mollahəsəndə gedən döyüşlərdə (noyabr 1578) Krım qüvvələri dağıdıldı və ələ keçirdikləri qənimətlər geri alındı. Adil Gəray əsir götürüldü. Özdəmir oğlu Osman paşa Dərbəndə çəkildi. Mollahəsən qələbəsindən sonra qızılbaş əmirləri Şah qərargahından Osman paşanın təqib olunması, Dərbəndin tutulması barədə əmr alsalar da, ona əməl etməyib Qarabağa döndülər. Qızılbaşların bu səhvindən Osman paşa istifadə edib, Dərbənddə möhkəmlənərək Şirvana nəzarəti öz əlində saxlaya bildi.

**Məleykə ilə bağlı çəkişmələr.** Bu arada ölkə daxilində baş qaldıran yeni çəkişmələr dövləti xeyli zəiflətdi. Səfəvi şahı Məhəmməd Xudabəndinin özü əlil, uşaqları isə kiçik yaşlı idilər. Qızılbaş əmirlərin razılığı ilə 11 yaşlı böyük oğlu Həmzə Mirzə vəliəhd seçilmişdi. Şahın arvadı dövlət işlərinə qarışır və böyük söz sahibi olmuşdu. Keçmiş Mazandaran əmirlərindən Abdullahın qızı olan Məhdi – Ülya ağıllı, cəsur və olduqca sərt idi. Xeyrannisə adlı bu bəyim Məhdi -Ülya Səfəvi ordusu Adil Gərayı məğlub edib geri dönərkən onları çox acı sözlərlə tənqid etmişdi. Dövlət işlərinə qarışan bu bəyimin bəzi yaxınlarını vəzifələrə çəkməsi qızılbaş əmirlərinin narazılıqlarını artırmışdı. Xeyrannisə bəyin təsirli əmirləri aradan götürməklə bütün dövlət işlərini öz əlinə almaq istəyirdi. Məleykə atasının ölümündə suçladığı Mazandaran hakimi Mirzə xanı öldürtdü. Əsir alınmış Adil Gəray da Məleykə ilə bağlı çəkişmələrin qurbanı oldu. Bu hadisələr dövlət işlərini ələ almağa çalışan Məleykəyə qarşı qızılbaş əmirləri arasında ciddi narazılıq yaradır. Məleykə şahzadələri də mərkəzdə özünün nəzarəti altında saxlamağa çalışır və onların qızılbaş əmirləri ilə əlaqəsindən çox ehtiyat edirdi. Bu vaxt Şah Məhəmmədin kiçik yaşlı oğlu Abbas Mirzə Herat valisi Əliqulu xan Şamlının yanında idi. Mələkə 1578-ci ildə oğlunun Qəzvinə göndərilməsini tələb etdi. Amma

Əliqulu xan Şamlı Xorasanın bir çox əmirlərinə arxalanıb Məleykənin tələbini yerinə yetirmədi. Məleykənin mazandaranlıları yüksək vəzifələrə göndərməsi, qızılbaş əmirlərini isə sıxışdırması sonuncuların narazılıqlarını daha da artırdı.

Nəhayət, qızılbaş türk əmirləri Türkman Məhəmməd xanın çağırışı ilə Məleykəyə qarşı hərəkətə başladılar. Məleykə sərt hərəkətləri ilə əsgərləri, sufiləri şahsevən adı ilə onlara qarşı yönəltməyə çalışdı. Amma bu çağırışa başçılıq edə biləcək bir qızılbaş əmiri tapmadı. Şah işin belə qızışdığını görüncə Məleykəni Mazandarana göndərməyi qərara aldı. Amma qızılbaş əmirləri buna da razılıq vermədilər. Onlar sarayın hərəm otağına girib şahın yanında Məleykəni öldürdülər (26 iyul 1579). Məleykənin qətlindən sonra paytaxtdakı mazandaranlı əyanlar da öldürülüb, əmlakları qarət edildi. Məleykənin faciəli aqibəti göstərdi ki, Səfəvi imperatorluğunun qurucuları olan türk qızılbaş əmirlərini nə mərkəzi, nə də yerli idarələrdən sıxışdırıb uzaqlaşdırmaq mümkün deyildir. Ancaq Məleykənin faciəli aqibəti daxili çəkişmələri aradan qaldırmadı. Əksəriyyəti Ustaclı və Şamlı boylarından olan Xorasan əmirləri Əliqulu xanı xanlar-xanı ünvanı ilə özlərinə başçı seçib Abbas Mirzəni də şah elan etdilər (1581). Daxili çəkişmələr dövləti getdikcə gücdən salırdı.

**Krım tatar qoşunun Şirvan və Qarabağ yürüşü.** Qafqazda Osmanlı qüvvələrinin belə bir zamanda yeni yürüşləri başlandı. Krım xanı Məhəmməd Gəray 1579-cu ildə tatar qoşunu ilə Şirvana hücum etdi. Şirvan bəylərbəyi Məhəmməd xəlifə Zülqədər geri çəkilməyi özünə sıxışdırmayıb savaşa girdi, ancaq məğlub oldu. Bəylərbəyi özü də döyüşdə öldürüldü. Tatar süvariləri Şirvan və Qarabağı yağmaladılar. Məhəmməd Gəray xan qardaşı Qazi Gərayı Osman paşanın yanında qoyub, özü Krıma qayıtdı. Əmir xan Türkman ilə Möhürdar Şahqulu xan arasında baş verən silahlı çarpışmaya qədər qalxan çəkişmə Şirvana girən Səfəvi ordusunun uğurlarına əngəl oldu. Başqa bir tərəfdən isə Azərbaycan, Şirvan və Qarabağda çox dəhşətli qıtlıq başlanmışdı. Səfəvi ordusu Təbrizə dönməyə məcbur oldu. Osmanlı ordusunun baş komandanı Mustafa paşa 1579-cu ilin yazında Kars qalasını təmir etdirdi və Gürcüstana sursat, ərzaq göndərdi.

Xorasanda Abbas Mirzənin şah elan edilməsi ilə bağlı baş verən hadisələr Məhəmməd Xudabəndini bura qoşun göndərmək məcburiyyəti qarşısında qoymuşdu. Xorasanda çox ciddi çəkişmələrin davam etdiyi bir vaxtda bundan istifadə edən Qazi Gəray 1580-ci ildə Şirvanda hərbi əməliyyatı genişləndirdi. Baş verən döyüşdə Şirvan bəylərbəyi Salman xan Ustaclı məğlub oldu. Onun bir çox adlı-sanlı əmirləri öldürüldü. Bu hücumun əvəzini çıxmaq üçün vəzir Mirzə Salman, əmir əl-üməra Əmir xan Türkman qoşunla Şirvana gəldilər. Osmanlı qüvvələri Səfəvilərin qarşısından Dəmirqapıya çəkildilər. Ancaq Bakıya qədər gedən Səfəvi ordusu Osmanlıları izləməkdən əl çəkib Qarabağa döndülər. Şirvanın osmanlıların yeni hücumlarından qorunmasını gücləndirmək üçün bura Ziyadoğlularından Peykər bəy xan ünvanı ilə bəylərbəyi göndərildi. Qarabağdan otuz iki və bir çox başqa oymaqlarda xeyli əhali Şirvana köçürülüb yerləşdirildi.

1580-ci ildə tərəflər arasında diplomatik danışıqlar başlandı. Məhəmməd Xudabəndənin 1586-cı ildə Hacı Maqsud bəy Zülqədəri İstanbula yola salıb, onunla göndərdiyi məktubda Sultana elçilərin həbs edilməsi, dinc müsəlman qadın və uşaqlarının əsir alınmasına öz narazılıqlarını bildirmişdi. 1580-ci soltan Sultan III Muradın Osmanlı ordusuna Qafqaz cəbhəsinə sərkərdə təyin etdiyi Sinan paşa Ömər ağa adlı elçisini Şirvana göndərir. O, burada Osmanlı ordusu tərəfindən tutulmuş torpaqların sərhəddini qarşı tərəfin nümayəndələri ilə birlikdə müəyyənləşdirməli və qış aylarında tərəflərin müharibəni dayandırması məsələsini də müzakirə etməli idi. Osmanlı elçisi Ömər ağa Şirvandakı vəziyyətlə tanış olduqdan sonra Səfəvi elçisi Şahqulu sultan Zülqədərlə Ərzruma - Mustafa paşanı əvəz etmiş baş komandan Sinan paşanın yanına döndü. Bir qədər sonra Məhəmməd Xudabəndə Sinan paşanın tövsiyəsi ilə Ibrahim xan Türkmanın başçılığı ilə Osmanlı dövlətinə yeni elçilər göndərdi. Diplomatik danışıqların, dövlət başçılarının bir-birinə göndərdikləri məktubların mehriban ruhuna baxmayaraq, tərəflər arasında barış baş tutmadı.

**Yalançı İsmayıllar hərəkatı.** 1580-ci ildə Kuh-Giluyədə Lurlar arasında bir qələndər çıxaraq özünün II Şah Ismayıl olduğunu bildirdi. Guya 1577-ci ildə öldürülən o, yox, ona bənzəyən bir kölə imiş. Özünü II Şah Ismayıl adlandıran bu yalançı ətrafına Lurlardan xeyli qüvvə toplaya bildi. O, başına topladığı qüvvə ilə birlikdə bu bölgənin başçıları olan Əfşarlarla savaşdı. Əfşar Xəlil xanı əvəz edən Rüstəm bəy Əfşar döyüşlərin birində məğlub oldu və özü də öldürüldü. Bu hadisəni eşidib şahın razılığı ilə Kuh-Giluyəyə gələn Xəlil xan da təsadüf nəticəsində Lurlar tərəfindən öldürüldü. Qardaşı oğlu Isgəndər bəy Kuh-Giluyəyə bəylərbəyi göndərildi. 1581-ci ildə Isgəndər xan fars valisi Ümmət Zülqədərlə birləşib yalançı şah Ismayılı məğlub edərək öldürdülər. I yalançı Şah Ismayılın öldürülməsinə baxmayaraq, yeni yalançı ismayılların baş qaldırmasının qabağını almaq mümkün olmadı. Çox keçmədi, Luristanda ikinci bir yalançı Ismayıl peyda oldu. Ikinci yalançını Hüseyn sultan Təkəli yaxalayıb Qəzvinə göndərmişdi. Üçüncü yalançı Ismayıl isə Fərah bəylərbəyiliyində Əfşarlara qarşı çox çətinliklər yaratsa da, özünün yaxın adamları tərəfindən öldürülmüşdü. Yalançıların heç biri türk deyildi. Bu hərəkatlar Səfəvi imperatorluğunun çox çətin günlərində başlanmışdı. Yalançı ismayıllar imperatorluğa tabe xalqların mərkəzdənqaçma meyllərini özündə əks etdirirdi.

**Osmanlıların yeni yürüşləri Təbrizin tutulması**. Qızılbaş əmirləri arasında düşmənçilik yaradan vəzir Mirzə Salmanın qızılbaşlar tərəfindən öldürülməsindən (1583) iki il sonra. Həmzə Mirzə Azərbaycan bəylərbəyi Əmir xan Türkmanı 1585-ci ildə Qəhqəhə həbsxanasına saldırıb elə həmin ildə öldürtdüyünə görə Türkman əmirlərinin çoxu Azərbaycanı tərk etdilər. Əmir xan Türkmanın öldürülməsi və Türkman əmirlərinin başqa vilayətlərə köçməsi, Azərbaycan bəylərbəyiliyini xeyli zəiflətdi. Bundan istifadə edən Osmanlı qoşunu baş vəzir Osman paşanın başçılığı ilə 1585-ci ildə Təbrizi tutdu. Yeni qalalar tikildi və köhnələri bərpa olundu. Osman paşa xadim Cəfər paşanı Təbrizə hakim təyin etdikdən sonra, bu-

ranı tərk etdi. Təbrizin tutulmasından bir qədər sonra Osman paşa özü də öldü. Həmzə Mirzə bundan istifadə edib Təbrizə qoşun yeritdi. Amma bu yürüş boşa çıxdı. Bu vaxt Həmzə Mirzənin tərəfdarları olan Ustaclı, Şamlı əmirləri ilə Təkəli, Türkman əmirləri arasında yeni çəkişmələr başlanmışdı. Təkəli, Türkman əmirləri bu çəkişmədə Təhmasib Mirzəni ələ keçirib, onu Qəzvində şah elan etdilər. Həmzə Mirzə Qəzvinə doğru hərbi yürüş etdi. Iki tərəf arasındakı savaşda Həmzə Mirzənin qüvvəsi qələbə çaldı. Bu uğurlu qələbədən sonra daxili çəkişmələri qismən aradan götürən Həmzə Mirzə 15000 nəfərlik qoşunla Təbrizə yaxınlaşdı. Bu vaxt Osmanlı Fərhad paşa da Təbrizə doğru gəlirdi. Səfəvilərin mahalları, şəhərləri bir-birinin ardınca əldən gedirdi. Elə buna görə də o, Fərhad paşanın barış təklifini qəbul etdi. Danışıqlara hazırlıq üçün Qəzvinə dönən vaxt Həmzə Mirzə 1586-cı ildə sui-qəsd nəticəsində öldürüldü. Həmzə Mirzənin öldürülməsi əmirlər arasında çox güclü çəkişmələrə səbəb oldu. Və bundan istifadə edən III Sultan Muradın ordusu 1589-cu ilə qədər Şirvan, Gürcüstan, Çuxur-Səd, Qarabağ və Azərbaycan vilayətlərini tamamilə ələ keçirdilər.

# FƏSİL 9. AZƏRBAYCAN SƏFƏVİLƏR DÖVLƏTİ XVI YÜZİLLİYİN SONU XVII YÜZİLLİKDƏ

*§ 1. XVI yüzilin sonu XVII yüzilin əvvəllərində daxili vəziyyət və xarici siyasət*
*§ 2. XVII yüzilliyin 20-30-cu illərində Səfəvi-Osmanlı münasibətləri*
*§ 3. Dövlət quruluşu və ordu*
*§ 4. XVI –XVII əsrlərdə Azərbaycanın social-iqtisadi həyatı və mədəniyyəti.*

## *§ 1. XVI yüzilin sonu XVII yüzilin əvvəllərində daxili vəziyyət və xarici siyasət*

**I Şah Abbasın hakimiyyətə gəlməsi, osmanlılarla 1590-cı il barışığı.** Xarici yürüşlərin, daxili çəkişmələri Azərbaycan Səfəvi dövlətini sarsıtdığı bir vaxtda Abbas Mirzə Mürşüdqulu xan başda olmaqla, türk-qızılbaş əmirlərinin köməyi sayəsində şahlıq taxtına oturdu (1587). I Şah Abbasın (1587-1629) hakimiyyətinin ilk günlərində dövlətin həm daxili, həm də xarici vəziyyəti çox ağır idi. Hələ 1568-ci ildə I Şah Təhmasib Gilanda Bişi Əmir Dibacın oğlu Cəmşid xana qaytarmaq istədikdə Biye Piş hakimi Əhməd xan şaha qarşı çıxmışdı. Əhməd xanı məğlub etmiş və onun özünü də ələ keçirib Istəhr həbsxanasına salmışdılar. Şah oğlu Mahmud Mirzəni Gilana yerli hakim təyin edib bu vilayəti isə türk əmirləri arasında mahallara bölmüşdü. Şah Məhəmməd Xudabəndə dövründə həbsdən azad edilən Əhməd xan 1590-cı ildə Səfəvi dövlətinin daxili və xarici durumundan istifadə edərək, açıq şəkildə şahlıqdan ayrıldığını elan etmiş, Osmanlı Sultanı ilə danışıqlara başlamışdı. Gilan, Luristan, Mazandaran, Astrabad, Kaşanda baş qaldırmış separatizm mərkəzləşmə siyasətinin qarşısında ciddi çətinliklər yaradırdı. Elə buna görə də I Şah Abbas bu bölgələrə qoşun yeridib məhəlli əmirliklərini, yerli sülalələri devirib Gilan (1592) və Mazandaranı (1596) xassə əmlakına çevirdi. Şah separatizmin qarşısını aldıqdan sonra gələcək mərkəzdənqaçma hərəkatlarının qarşısını almaq üçün Gilan, Luristan, Mazandaran, Astrabad, Kaşanın məhəlli əsilzadələrinə hakimiyyətdə yer versə də, bu vilayətlərin hamısına yeni hakimlər türk-qızılbaş əmirləri arasından təyin olundular.

Mürşüdqulu xan Ustaclı və Əliqulu xan Şamlının Abbas Mirzə ilə Xorasandan Qəzvinə getməsindən Özbək Abdullah xan istifadə edib, 1587-ci ildə Heratı, ardınca da Məşhədi tutmuşdu. Bu xəbəri alan I Şah Abbas Xorasana hərəkət edir. Bundan istifadə edən Fərhad Paşa Gəncəni (1588), Bağdaddakı Osmanlı valisi Cığılzadə Sinan Paşa isə Nihavəndi (1588) ələ keçirir. Səfəvi dövlətini şərqdən Özbək, qərbdən isə Osmanlı ordusu sıxışdırırdı. Daxildə isə əmirlər arasında çəkişmələr hələ də gedirdi. I Şah Abbas ölkə daxilindəki çəkişmələri aradan qaldırmaq üçün Osmanlı hökuməti ilə barışmağa məcbur oldu. Eyni zamanda Osmanlı dövləti üçün də müharibəni davam etdirməyin bir çox çətinlikləri var idi. Bir tərəfdən uzun sürən müharibələr Osmanlı dövlətində maliyyə çətinlikləri yaratmışdı və digər tərəfdən tutulan torpaqları əldə saxlamaq üçün çoxlu güc tələb olunurdu. Hər

iki tərəfin barışığa çox ehtiyacı var idi. Ilk addımı I şah Abbas atdı. O, 1590-cı ildə Həmzə Mirzənin oğlu Heydər Mirzəni Istanbula göndərdi. 1590-cı ildə tərəflər arasında müqavilə imzalandı. Barışığa əsasən məzhəb ayrılığına görə insanlar incidilməməli, Peyğəmbərin xələflərinə qarşı hər cür Pis hərəkətə yol verilməməli, 22 mart 1590-cı ilə qədər hər iki tərəfin əllərindəki torpaqlar özlərində qalmalı, sülh əhdnaməsinə ciddi əməl olunmalı idi. Belə ki, Təbriz, Qərbi Azərbaycanın bir sıra bölgələri, Çuxur-Səd, Şirvan, Gürcüstan, Qarabağ və Luristan, Nihavənd, Şəhrizor Osmanlı dövlətinə verildi.

**Daxili çəkişmələrə son qoyulması, I Şah Abbasın islahatları.** I Şah Abbas dövlətə qarşı baş qaldıran əmirləri sakitləşdirib, Osmanlı dövləti ilə barışıb, özbəkləri Xorasandan uzaqlaşdırdıqdan sonra ölkəni sabitliyə qovuşdurdu. Dövlətin mərkəzini Qəzvindən daha qorxusuz yer olan İsfahana (1598)köçürdü. Yeni Paytaxtın və onun ətraf bölgələrinin əhalisinin xeyli hissəsini hələ vaxtı ilə I Şah Ismayıl tərəfindən burada dayaq yaratmaq məqsədi ilə köçürülüb yerləşdirilmiş Təkəli türkləri təşkil edirdi. I Şah Abbas da bura Təbrizdən xeyli əhali gətirib, onlara Zayəndərud çayının sahilində Təbrizabad (Abbasabad) adlı məhəllə saldırıb, orada məskunlaşdırdı. O cümlədən, I Şah Abbas zamanı Təbrizdən Isfahana 200 sənətkar ailəsi də köçürülmüşdü. Beləliklə, dövlətin yeni mərkəzində türk-qızılbaşlardan özünə güclü dayaq yaradan I Şah Abbas Avropa və Şərq ölkələri ilə əlaqələri artırmaqla, daxildə iqtisadi islahatlar keçirib, ölkədəki geriliyi yavaş-yavaş aradan qaldırdı. O, məmləkətlə yanaşı, onun ordusunu da sağlamlaşdırmağa başladı. Şah Abbas Səfəvi imperatorluğunu möhkəmləndirməklə Osmanlılar tərəfindən tutulan torpaqları geri qaytarmaq fikrində idi. O, eyni zamanda Bəsrə körfəzindən yavaş-yavaş ölkənin içərilərinə doğru irəliləyən Qərb dövlətlərinin işğalçılıq siyasətinin mahiyyətini başa düşür, Səfəvi imperatorluğunu onlara qarşı dura biləcək bir duruma gətirməyə çalışırdı.

Dövləti möhkəmləndirmək üçün imperiya ərazisindəki mərkəzdənqaçma hərəkatlarının qarşısını almaqla, paralel əmirlər arasında davam edən çəkişmələr də aradan qaldırılmalı idi. I Şah Abbas hakimiyyətə gəldiyi gündən idarəçiliyə yeni əmirlər gətirdi. Ancaq onlar da özlərindən əvvəlkilərin yolu ilə getməyə başladılar. Elə buna görə də, onların da çoxu hakimiyyətdən uzaqlaşdırıldı. I Şah Abbas hakimiyyətə keçməsində Mürşüdqulu xana borclu idi. Ancaq 1589-cu idlə yorulmaz, qeyrətli şəxsiyyət olan Mürşüdqulu xan öldürüldü. I Şah Abbas nüfuzlu əmirləri aradan götürməklə həm ara çəkişmələrini azaltdı və həm də hakimiyyətini möhkəmləndirdi. Onların yerinə isə daha gənc və az tanınan əmirləri gətirdi. Şah bu gənc əmirlərdə qüsur gördükdə onları da aradan götürdürdü. Ancaq I Şah Abbas həyata keçirdiyi bu cəza tədbirləri ilə hakimiyyətinin möhkəmləndirilməsinə tam müvəffəq ola bilmədi. Ona görə ki, bu zaman Gilanda, Astrabad, Kaşan, Luristanda baş qaldırmış separatizm dövlətin möhkəmləndirilməsi qarşısında ciddi çətinliklər yaradırdı. Elə buna görə də, I Şah Abbas əhalisinin çoxu türk olmayan bu vilayətlərdə məhəlli sülalələri və bir çox zadəgan mülklərində hakimlərin irsi hüquqlarını ləğv etdi. Hakimiyyətə imperatorluğun tərkibindəki başqa xalqların

əsilzadələri, eyni zamanda kiçik yaşından saraya gətirilib burada böyüdülən çərkəz, gürcü qulları da cəlb olundu. Onların idarəçiliyə gətirilməsi qızılbaşların hakimiyyətdəki mövqeyini azaltmaq məqsədini güdmürdü. Şah Abbas bununla imperatorluğun tərkibindəki başqa xalqların mərkəzdənqaçma meyllərinin qarşısını aldırdı. Yeni əsilzadələrin hakimiyyətə gətirilməsi dövlətin milli mahiyyətini dəyişə bilməzdi. Ona görə ki, I Şah Abbas öz daxili siyasətində dövlətin milli mahiyyətini dəyişmək fikrində olmamış və əslində onun möhkəmləndirilməsi tədbirlərini həyata keçirmişdir. Bu dövləti quran da, yaşadan da türklər idi. Belə ki, 1628-ci ildə dövlət quruluşunda müxtəlif vəzifələrdə olan 92 əmirdən 54 nəfəri türk, 15 nəfəri türklüyü qəbul etmiş və türk dilindən savayı ayrı dil bilməyən qulam və qalanı isə qeyri-türklərdən ibarət olmuşdur.

I Şah Abbas hərbi islahatında Osmanlı dövlətinin yeniçəri hərbi institutunu örnək olaraq qəbul edərək, qulam, tüfəngçi nizami alaylarını yaratmış və bir qədər sonra isə topçu alayını da təşkil edib, əsgəri təşkilatı təkmilləşdirərək, dövləti hərbi-siyasi baxımdan gücləndirməyə müvəffəq olmuşdur. 44 minlik daimi ordu yarada bilmişdi.

Beləliklə, I Şah Abbas islahatları və daxili siyasətindəki uğurları sayəsində bir tərəfdən bürokratik dövlət aparatını genişləndirmiş, digər tərəfdən mərkəzi hakimiyyəti möhkəmləndirməyə müvəffəq olmuş və onun türk əmirlərindən ibarət olan mərkəzi və yerli idarələrə qeyri-türk elementlərini də qismən cəlb etməsi dövlətin cənub, cənub-şərq bölgələrindəki mərkəzdənqaçma hərəkatlarının qarşısının alınması işinə xidmət etmişdir. Ölkə miqyasında mərkəzdənqaçma hallarının, əmirlər arasındakı çəkişmələrin qismən aradan qaldırılması iqtisadiyyatın təkamülünə, məhsuldar qüvvələrin inkişafına müsbət təsirlər göstərmişdir. Daxili və xarici ticarətin inkişafında Şahın karvan yollarını abadlaşdırması, yolboyu karvansaralar inşa etdirməsi, yollardakı təhlükəsizlik tədbirləri də az rol oynamamışdır.

I Şah Abbasın vergi islahatı, yəni ayrı-ayrı bölgələr, şəhərlər üzrə vergilərin azaldılması, yaxud müəyyən müddət ərzində ləğvi ölkənin iqtisadi həyatındakı geriliyin aradan qaldırılması və dövlət büdcəsinin gəlir qaynaqlarının bərpası ilə bağlı olub, itirilmiş torpaqların geri qaytarılması, mərkəzləşdirmə siyasətinin uğurla həyata keçirilməsi, dövlətin hərbi-siyasi qüdrətinin artırılması işinə xidmət edirdi. Şahın fərmanı ilə 1598-1599-cu ildə Əcəm İraqında heyvandarlıq təsərrüfatından alınan çobanbəyi vergisi ləğv edilərək, bəzi vergilər isə azaldıldı və bəziləri də ləğv olundu. Isfahan şəhəri və mahalı qeyd olunan fərman əsasında bir il müddətində və 1613-cü ildə isə üç il ərzində bütün vergilərdən azad edilmişdir. Artıq burada göstərilən zaman kəsiklərində divan və xassə torpaqlarındakı icarədarlar da icarə haqqını ödəməkdən azad idilər. Ölkənin şimal-qərb torpaqları osmanlılardan geri alındıqdan sonra vergi imunitetləri bu bölgələrə də aid edilir. Belə ki, Ordubad, Dərbənd və 1615-ci ildə Təbriz şəhər əhalisi mal-xərac vergisindən azad olundular. Bu, zaman Təbrizdə garuğəgi və ehdas vergisi də ləğv edilir. I Şah Abbasın vergi islahatına uyğun olaraq bu həyata keçirilən tədbirlərin bütün

ölkə miqyasında həyata keçirilməsi az vaxtda iqtisadiyyatın bərpasına qismən də olsa, zəmin yarada bilmişdi.

I Şah Abbasın dövründə sikkələr qızıl, gümüş, misdən ibarət olub, ancaq qızıl sikkə yeni Şah hakimiyyətə keçdikdə zərb edilir və bu sikkələr dövriyyəyə az buraxılır, alqı-satqıda ondan çox nadir hallarda istifadə olunurdu. I Şah Abbas dövründə qızıldan zərb olunmuş sikkələrin çəkisi də dəqiq məlum deyil. Bu zaman dövriyyədə I Şah Abbasın sikkə islahatı və fərmanı əsasında abbası adı ilə gümüşdən zərb edilən sikkələr üstünlük təşkil edirdi. Abbasinin rəsmi çəkisi bir misqal, yəni 4,64 qram idi. Sikkələrin dinarla dəyərinə gəldikdə isə 1 abbasi 200, I şahı 50, I bisti 20, I kasbeki 5 dinar olub, I tümən isə 100000 dinara, yaxud 50 Abbasiyə bərabər idi.

**Səfəvi-Osmanlı savaşı (1603-1612).** I Şah Abbas daxili çəkişmələrə son qoyub dövlət hakimiyyətini möhkəmləndirdikdən sonra, əvvəlcə Xorasanın özbək xanlarından geri qaytarılmasını qərara aldı. Ona görə ki, Xorasanda Abdullah xan tərəfindən tutulan torpaqların geri qaytarılması və burada dövlətin sərhədlərinin qəti möhkəmləndirilməsi üçün əlverişli vəziyyət yaranmışdı. Belə ki, Xorasanda, Mavərəünnəhrdə, Xarəzmdə özbək tayfa başçıları arasında çəkişmələrin genişlənməsi, bu zaman Abdullah xanın və onun vəlihədi Əbdülmömin xanın ölümündən bacarıqla istifadə edən I Şah Abbas 1598-ci ildə Herat savaşında Div Məhəmməd xanı məğlub etdi. Bu savaşda 4000 nəfərdən çox özbək döyüşçüsü və Div Məhəmməd xan da öldürüldü. Nəticədə Nişapur, Məşhəd, Herat, Mərv daxil olmaqla, bütün Xorasan özbəklərdən geri alındı. Səfəvi imperatorluğunun sərhədləri yenə Ceyhun çayına çatdı. Beləliklə, I Şah Abbas dövlətin şərq sərhədlərinin təhlükəsizliyini gücləndirib, Osmanlı dövlətinə qarşı müharibədə itirilmiş torpaqları geri almaq üçün ciddi şəkildə hazırlaşmaq imkanı əldə edir.

I Şah Abbas ciddi hərbi hazırlıqdan sonra Osmanlılar tərəfindən tutulmuş torpaqları geri qaytarmaq üçün 14 sentyabr 1603-cü ildə Təbrizə doğru hərəkət etdi. Yolda Əmirgünə xan Qacarın Qəzvin və Zülfüqar xan Qaramanlının Ərdəbil alayları da onunla birləşdilər. Onlar on dörd günə Təbriz qala qapılarına çatdılar. Qızılbaş ordusunun yaxınlaşdığını görən Təbriz və onun ətraf əhalisi osmanlılara qarşı çıxışlara başladılar. 21 oktyabr 1603-cü ildə I Şah Abbas Təbrizi tutdu. Təbriz tutulduqdan sonra Qərbə doğru hərəkət edən I Şah Abbas Əli Paşanın başçılıq etdiyi Təbriz qarnizonunu dağıtdı. Əli Paşa əsir götürüldü.

Bu qələbədən sonra Şah Zülfüqar xan Qaramanlını Azərbaycana bəylərbəyi təyin etdi. Amma bir qədər sonra Şah Abbas Azərbaycanın qorunmasını türkmanlara tapşırdı. Onların başçısı Pirbudaq xan Pornaq da Zülfüqar xanı əvəz etdi.

Culfa və Naxçıvan asanlıqla tutuldu. Şəhərdəki osmanlı qarnizonu döyüşsüz təslim oldular. Maku hakimi Mustafa bəy şahın düşərgəsinə gəlib ona sədaqətlə xidmət edəcəyini bildirdi.

Qızılbaş ordusunun gəlişini gözləyən Ordubad əhalisi də osmanlılara qarşı çıxdılar. Elə buna görə də şəhər dağıdıldı. Ordubad şəhərinin əhalisinə və iqtisadi

həyatına çox ciddi zərər dəydiyi üçün baş vəzir Hatəm bəy Ordubadinin təklifi ilə şah orbudlıların bütün dövlət vergilərindən azad olunmaları barədə fərman verdi.

Qızılbaşlar Irəvanda çox böyük müqavimətlə qarşılandılar.Irəvanda toplu, tüfəngli 10 min nəfər osmanlı qüvvəsi vardı. 1603-cü ilin sonunda başlanan savaş 8 iyun 1604-cü ilə qədər getdi. Çox çətinliklə Irəvan da tutuldu. Osmanlı ordu başçılarından Şərif Paşa və Xızır Paşa da əsir alındı. Şah onların hər ikisini sərbəst buraxdı. Xızır Paşa öz ölkəsinə getdi. Çuxur-Sədə Əmirgünə xan Qacar bəylərbəyi qoyuldu.

I Şah Abbas Qarabağı tutmamışdan ora Ziyadoğlulardan Hüseyn xan Qacarı bəylərbəyi təyin etmişdi. Hüseyn xanın qoşunu Araz çayına tökülən Qozluçay üzərində düşərgə salmışdılar. Davud Paşanın osmanlı dəstəsi Hüseyn xanı məğlub edib düşərgəsini dağıtdı. Bunu eşidən şah qorçubaşı Allahqulu bəyin başçılığı altında Gəncəyə beş minlik dəstə göndərdi.

Cığaloğlu Sinan Paşanın başçılığı altında osmanlı ordusunun yaxınlaşdığını (1604) eşidən Şah ənənəvi döyüş taktikasına əl atdı. Osmanlı sərhədlərində tutduğu qalaları dağıtdırdı. Əmirgünə xan Çuxur-Səddən yerli əhalini ölkənin içəri bölgələrinə köçürdü. O bilirdi ki, qış vaxtı ağır silahlı Osmanlı ordusu yürüşlər edə bilməyəcəkdir. Yaz, yay hücumlarını Pozmaq üçün isə Osmanlı ordusunun keçəcəyi yollar kənarındakı otlaqları, tarlaları dağıtdırdı. Nəticədə, Təbrizə doğru hərəkət edən iki Osmanlı ordusundan heç biri uğur əldə edə bilmədi. Əksinə, itki də verərək geri çəkildilər. I Şah Abbas dağıtdığı qalaları bərpa etdirib buraya tüfəngçi və topçular yerləşdirdi. Şah Abbas 1604-1605-ci ilin qışını Təbrizdə keçirdi.

Qoşun toplanması üçün yeni fərmanlar verdi. Bu vaxt Şirvanda savaş davam edirdi. Şamaxı, Bakı və Dərbənddən başqa, Şirvanın qalan yerləri ger alınmışdı.

I Şah Abbas Vandan Cığaloğlunun yeni yürürşlərinin qarşısını almaq üçün Təbrizi möhkəmləndirirdi. Yeni tikdirdiyi qalada iki-üç illik taxıl, sursat yerləşdirdi. Sonra Allahverdi xanın başçılığı altında Vana 30.000 qoşun göndərildi. Vanda 1605-ci ildə savaşda Cığal oğlunun qüvvəsi məğlub oldu. O, özü çox çətinliklə qaça bildi.

Çox keçmədi ki, güclü hərbi qüvvə ilə Cığal oğlu Azərbaycana daxil olub Urmiyaya doğru hərəkət etdi. Yenə də I Şah Abbas yolboyu bütün ərzağı başqa yerlərdə daşıtdırıb, əhalini isə başqa yerlərə köçürdükdən sonra Mərəndə çəkilmişdi.

I Şah Abbas çox ustalıqla döyüşə hazırlıq gördü. Həlledici savaş 7 noyabr 1605-ci ildə Ərdəbillə Sərab arasında oldu. I Şah Abbas qələbə çaldı. Cığal oğlunun xeyli döyüş texnikası, ərzaq, sursatı ələ keçirildi. Şah geri çəkilən osmanlıları izləmədi.

Bu qələbədən sonra 1605-1606-cı ilin sərt qışına baxmayaraq, I Şah Abbas Qarabağa keçdi və Gəncə mühasirə olundu. Kömək gələcəyini gözləyən osmanlılar Gəncənin verilməsi təklifinə razı olmadılar. Gəncənin mühasirəsi dörd ay davam etdi. Gəncə 5 iyul 1606-cı ildə geri alındı, Qarabağa Məhəmməd xan Ziyadoğlu Qacar bəylərbəyi təyin olundu.

I Şah Abbas Dərbəndi tezliklə tutub Qafqazda müharibənin taleyini həll etmək istəyirdi. Bu zaman Şamaxıdakı osmanlı qarnizonu Dərbəndə çəkilməyə hazırlaşırdı. Onlar Krım xanından yardım alıb burada möhkəmlənmək istəyirdilər. Elə bu vaxt Kəffədən Şəmsəddin Paşanın başçılığı ilə Şirvandakı osmalılara kömək göndərildi. Şəmsəddin Paşa bildirdi ki, 1607-ci ilin yayında Qafqaza da yeni Osmanlı qoşunu yeridiləcək. Eyni zamanda Krım xanın da qoşunu şimaldan Şirvana daxil olacaqdır. Elə buna görə də, Osmanlı qarnizonu Şamaxıdan çıxmadı. Şirvana daxil olan şah ordusu 1607-ci ilin yanvarında Şamaxıya çatdılar. Bu vaxt Bakı və Dərbənddə osmanlılara qarşı çıxışlar oldu. Bu çıxışlar Şirvanın geri qaytarılmasını asanlaşdırdı. Şamaxıda 1607-ci il döyüşləri hər iki tərəf üçün ağır oldu. Şah ordusu 27 iyun 1607-ci ildə Şamaxını tutdu. Şahın fərmanı ilə Zülfüqar xan Qaramnalı Şirvan bəylərbəyi oldu. Şamaxı döyüşü ilə savaşın taleyi həll olundu. Bütün Qafqaz yenə də Səfəvilərin hakimiyyəti altına düşdü. Şah Osmanlı dövləti ilə danışıqlara başlamaq üçün Təbrizə qayıtdı. Şah Osmanlı dövləti ilə sülh danışıqlarında Krım xanı Qazi Gərayın köməyinə çox ümid bağlayırdı. Şah Qazi Gərayın yaxın dostu, Osmanlı sərdarlarından olan Xəndan ağanı həbsdən azad etdi. Onunla birlikdə elçisi Əbülqasım bəy Evoğlunu Qazi Gərayın yanına göndərdi. Ancaq Xəndan ağa yolda öldürüldü və Əbülqasım bəy Evoğlunu isə çərkəzlər əsir götürdülər. Bu vaxt Qazi Gəray da vəfat etdi. Şah Sultanla danışıqlara başlaya bilmədi.

Osmanlı dövləti 1607-1611-ci illərdə Azərbaycana yenə də qoşun yeritdi. Osmanlı ordusuna baş vəzir Murad Paşa başçılıq edirdi. Murad Paşanın ordusu Təbriz şəhərini tutub beş gün burada qala bildi. Amma o, I Şah Abbasın yürüşündən ehtiyat edib Vana döndü. Şah Abbas yenə də köhnə ənənəvi savaş qaydalarından istifadə etməyə başladı. Murad Paşa isə Azərbaycana bu uğursuz səfərindən sonra Səfəvilərlə danışıqlara başlamağa razılıq verdi. Ancaq Murad Paşa 6 avqust 1611-ci ildə öldü. Iki imperiya arasında sərhəddin danışıqlarla müəyyən olunması ləngidi.

1612-ci ilin yazında I Şah Abbasın əsas qüvvəsi yerləşdiyi Ucana danışıqlar üçün Osmanlı dövlətindən elçi gəldi. Səfəvilər tərəfindən İstanbula ali ruhani idarəsinin başçısı Qazi xan Sədr əl-Həsən göndərildi. I Sultan Əhməd (1603-1617) Səfəvi elçisini 17 oktyabr 1612-ci ildə çox hörmətlə qarşıladı.

Sultan I Şah Abbasın 1555-ci il Amasiya barışığı əsasında müqavilə bağlamaq təklifini bəyəndi. 1612-ci ildə Istanbulda müqavilə imzalandı. Müqavilə əsasında Sultanın irəli sürdüyü yeni şərtləri şah qəbul etdi. Sultanın irəli sürdüyü əsas şərtində göstərilirdi ki, onun rusların tikdiyi Terek qalasının dağıdılması haqqındakı fərmanına Səfəvi qoşunu mane olmamalıdır. Bu şərt Osmanlı dövlətinin Xəzərə doğru Qafqazdan keçən yürüşləri və bu zaman Səfəvilərlə də baş verən savaşların əsil mahiyyətini aydınlaşdırır. Eyni zamanda Səfəvi dövləti Osmanlı dövlətinə müharibədə dəymiş zərərin qarşılığını ödəmək üçün hər il 200 xarvar (xarvar-300 kq) xam ipək verməyi öhdəsinə götürmüşdü.

Qafqaza qoşun yeritməkdə Osmanlı dövlətinin əsas məqsədi yeni torpaqlar tutmaqdan çox, şimaldan yaxınlaşan və bütün şərq xalqları üçün qorxulu olan təhlükənin qarşısını almaq olmuşdu.

Qərb və Şimali-Qərbdə dövlət sərhədlərinin müəyyən olunması işi Çuxur-Səd bəylərbəyili Əmirgünə xan Qacara, Osmanlı dövləti tərəfdən isə Van hakimi Məhəmməd Paşaya tapşırıldı. Tərəflərin nümayəndələri Salmasa gəlib burada iki ay içində sərhədləri müəyyən etdilər və bu barədə hazırlanan sənədi imzaladılar.

**XVII yüzilliyin 20-30-cu illərində Qərbi Avropa dövlətləri ilə münasibətlər. İran körfəzi uğrunda savaşlar.** Fəal xarici siyasət yürüdən I Şah Abbasın qarşısında duran əsas vəzifələrdən biri İran körfəzində Portuqaliya ağalığına son qoyub Hind okeanına çıxmaq idi. Avropa monarxları ilə əlaqələrini gücləndirən I Şah Abbas onların aralarındakı dəyintilərdən faydalanaraq İran körfəzi məsələsini həll etməyə çalışırdı. Avropa dövlətləri isə şahdan daha çox Osmanlı dövlətinə qarşı istifadə etmək istəyirdilər. Roma Papası VIII Klement 30 sentyabr 1592-ci ildə I Şah Abbasa yazdığı məktubda Osmanlı dövlətini ümumi düşmən adlandırırdı və şahla müqavilə bağlayıb onu Osmanlı dövlətinə qarşı savaşa qaldırmaq istəyirdi. Eyni zamanda Səfəvilərə odlu silahlar göndərəcəyini də vəd edirdi. Əslində Qafqaz, Xorasan və İran körfəzinin geri alınması üçün savaşa hazırlaşan I Şah Abbasın həm müttəfiqə və həm də odlu silaha böyük ehtiyacı vardı.

XVI yüzilin sonlarında İngiltərədən Səfəvi ölkəsinə Antoni və Robert Şerli qardaşlarının başçılıq etdikləri bir dəstə gəldi. I Şah Abbas 1599-cu ildə Antoni ilə birlikdə Oruc bəy Bayat və Hüseynəli bəy Bayatın başçılıq etdiyi elçilərini Almaniya, Ingiltərə, Fransa, Ispaniya, Şotlandiya, Polşa, Italiya monarxları ilə danışıqlar aparmaları üçün Avropaya göndərdi. I Şah Abbas xristian tacirlərinə Səfəvi ölkəsində gömrük ödəmədən ticarət aparmaq hüquqları verib, Avropa dövlətləri ilə Osmanlı dövlətinə qarşı müqavilə bağlamaq fikrində olsa da, qərb dövlətləri arasındakı münasibətləri də aydınlaşdırmaq istəyirdi. Ona görə ki, Şah Ispaniyaya qarşı da savaşa hazırlaşırdı. O, bu savaşda Qərb dövlətlərinin aralarındakı çəkişmələrdən Ispaniya və Portuqaliyaya qarşı istifadə etmək fikrində idi.

Ancaq Avropa ölkələri ilə Səfəvi elçilərinin diplomatik danışıqları uğursuz oldu. Səfəvi elçisi Iffət bəyin 1600-cü ildə Venesiyada apardığı danışıqlar da baş tutmadı. Ancaq I Şah Abbas diplomatik axtarışlarla Qərb dövlətləri arasındakı münasibətləri aydınlaşdıra bildi.

Avropa Kralları Səfəvi və Osmanlı dövlətlərini savaşdırıb gücdən salmaqla Şərqdə asanlıqla yeni torpaqlar tuta bilərdilər. Bu işdə onlar xristianlığı yayan missionerlərinə daha çox ümid bağlayırdılar. 1603-cü ildə Isfahana Ispan missionerlərindən Ceranimo de Kruz, Kristefor de Spiritu, Antonio de Qovea gəldilər. Missionerlər I Şah Abbasa bildirdilər ki, katolik məzhəbinin yayılmasına imkan versə, İspan kralı Osmanlı dövlətinə qarşı müharibədə ona kömək edəcəkdir. Şah həmin ildə Allahverdi bəy Türkmanı kömək almaq üçün İspaniyaya göndərdi.

1603-cü ildə Səfəvi dövlətinə Almaniyadan II Rudolfun elçisi Georq Tektandr göndərilmişdi. Ancaq o, yolda Lənkəranda öldü və onun səlahiyyətini elçili-

yin başqa bir üzvü Stefan Kakaş öz üzərinə götürdü. O, 1603-cü ildə I Şah Abbasla Təbrizdə görüşdü. Şah 1604-cü ildə onlarla birlikdə öz elçisi Mehdiqulu bəyi Almaniyaya göndərdi. 1603-cü ildə şahın Fəthi bəy adlı elçisi Venesiyada idi. O, Venetsiya doжu ilə danışıqlardan sonra xeyli silah aldı. Ancaq Səfəvi ölkəsinə göndərilən silahları Suriyada Osmanlı dövləti ələ keçirdi. Səfəvi elçisi 1609-cu ildə isə Venetsiya, Florensiya və Romada danışıqlar apardı. Ancaq dönük xarici siyasət aparan Qərb dövlətləri ilə danışıqlar Səfəvi dövlətinə uğur gətirmirdi. İspan-Portuqaliya siyasətçiləri Şərqin iki imperatorluğu arasında gedən savaşı qızışdırmaqla Bəhreyni tutmaq, özləri bitərəf qalmaqla Osmanlı dövlətinə qarşı hərbi blok yaratmaq istəyirdilər.

1612-ci ildə Osmanlı Səfəvi barışığından sonra I Şah Abbas Hörmüz məsələsini həll etməyi qəti qərara aldı. Bu Səfəvilərlə İspaniya arasındakı durumu pozdu. Hələ 1601-ci ildə İspanlar Bəhreyndən qovulmuşdular. 1614-cü ildə isə fars bəylərbəyi İmamqulu xan ispanları Hambrundan çıxardı. I Şah Abbas fars körfəzi limanlarını başqa ölkələrin üzünə qapayır, onların Səfəvilərlə iqtisadi-diplomatik əlaqələrini nəzarət altında saxlayan Portoqallarla artıq hesablaşmırdı. I Şah Abbas Avropa dövlətləri arasındakı çəkişmələrdən də bacarıqla istifadə edirdi. Onların Səfəvilərə qarşı birləşməsinin mümkün qədər qarşısını alırdı. İspan-Portuqaliya ilə İngiltərə arasındakı dartışmalar I Şah Abbasın diplomatik uğurları ilə daha da dərinləşmişdi. Şah İran körfəzini tutmağa tələsmirdi. Çünki onun hərbi donanması yox idi. İspaniya Səfəvilərə qarşı başqa Avropa dövlətləri ilə birləşə bilərdi. Əksinə, I Şah Abbas İspaniyaya 1615-ci ildə Robert Şerlinin başçılığı ilə elçi göndərdi. Şah III Filippi arxayın edib Fars körfəzini geri qaytarmaq üçün müharibəyə hazırlaşırdı. Robert Şerli Londonda da oldu. O, İngiltərə ilə Səfəvilər arasında diplomatik-iqtisadi əlaqə yaratmalı idi. Amma o, bu məsələlərdə çox iş görə bilmədi.

Robert Şerlinin səfərindən bir qədər əvvəl, yəni 1614-cü ildə Səfəvi ölkəsinə İspaniyadan Don Qarsiya de Silva göndərildi. O, şahla barışığa gəlib Bəhrəyin və Hambrunu geri almalı idi. O, Səfəvi ölkəsindən digər Avropa tacirlərinin çıxarılması haqqında III Filippin tələbini 1619-ci ildə Qəzvində Şaha çatdırdı. Ancaq onun şahla apardığı danışıqlar uğursuz oldu.

1621-ci ildə İngiltərə ilə Səfəvi dövləti arasında müqavilə bağlandı. 1622-ci ildə İngilis Ost-Hind kompaniyasının nümayəndələri Hörmüz və Kişin geri alınmasında I Şah Abbasa kömək edəcəklərinə söz verdilər. Bunun müqabilində ingilis tacirləri gömrükdən azad olunmalı və körfəzdə gömrükdən götürülən gəlirin yarısı da Ost-Hind kompaniyasına verilməli idi. 1622-ci ildə İngiltərə donanmasının köməyi ilə İmamqulu xan Portuqal qarnizonlarını məğlub edib Kiş və Hörmüzü geri aldı. İran körfəzindəki bu qələbələr I Şah Abbasın diplomatik fəaliyyətinin uğurlu nəticəsi idi. I Şah Abbas xarici siyasəti sahəsindəki uğurları ilə Azərbaycan Səfəvi dövlətini beynəlxalq əlaqələr sisteminə qovuşdurub onun dünyanın fəal dövlətləri sırasında nüfuzunu xeyli gücləndirmişdi.

## *§ 2. XVII yüzilliyin 20-30-cu illərində Səfəvi-Osmanlı münasibətləri*

Osmanlı dövləti ilə yeni savaş. I Şah Abbas 1613-cü ildə Gürcüstana qoşun yeritdi. Azərbaycan bəylərbəyi Pirbudaq xan Türkman, Qarabağ əmirlərindən Dəli Məhəmməd Şəmsəddinli, Şirvan bəylərbəyi Yusif xanın alayları Gürcüstanda sakitlik yaratmalı idilər. I Şah Abbasın ordusu Gürcüstanı asanlıqla tutdular. Gürcüstanın xeyli xristian əhalisinə islam dini qəbul etdirildi.

I Şah Abbasın Quzey Qafqazdakı bu uğurları Osmanlı I Sultanı Əhmədin narazılığına səbəb oldu. O, 1612-ci il müqaviləsini Pozub Qafqazı yenidən tutmağı qərara aldı. Osmanlı ordusu 1616-cı ildə Ərzurumdan Təbrizə doğru hərəkət edir. Quzeyə dönüb Çuxur-Sədə daxil olan yüz minlik Osmanlı qüvvələri Irəvanı mühasirəyə aldılar.

Irəvana qorçular və tüfəngçilərdən ibarət könüllü dəstələr göndərildi. Şah 1616-1617-ci ilin qışında Ərzuruma dönən Osmanlı ordusunun qabağını kəsmək üçün bura əlavə qoşun da yeritdi. O, osmanlılara ərzaq, sursat gətirilməsinin qarşısını alıb onları mühasirədə saxlamaqla məğlub etmək istəyirdi. Qırx minə yaxın döyüşçü itirən Osmanlı ordusu dərhal geri çəkilməyə başladı.

I Şah Abbas osmanlıların gələcək yürüşlərini pozmaq üçün yenə də köhnə tədbirlərinə əl atdı. Səfəvi ordusu Qarçıqay xanın başçılığı altında Ərzurum və Vana keçib bu bölgələri boşaltdı. Azərbaycana yürüşə hazırlaşan Xəlil Paşanın Osmanlı qüvvəsi qışlamaq üçün Diyarbəkirə çəkilməyə məcbur oldu.

Bu vaxt, yəni 1617-ci ildə Osmanlı dövlətində hakimiyyətə gələn Sultan Mustafa həbsxanada olan Səfəvi elçisi Qasım bəyi azad edib Azərbaycana göndərdi. Sultan Mustafanın Qasım bəyə verdiyi tapşırığa görə savaş dayandırılmalı və iki ölkə arasında 1612-ci il müqaviləsinə əməl edilməli idi. Ancaq Sultan Mustafa hakimiyyətdən kənar edildi, yerinə şahzadə Osman (1617-1622) gətirildi. Danışıqlar baş tutmadı.

Baş vəzir Xəlil Paşanın ordusu 1618-ci ildə yenidən Təbrizə doğru yola düşdü. Qarçıqay xan Təbrizi, I Şah Abbas özü isə Ərdəbili boşaltdı. Osmanlı ordusu boşaldılmış Təbriz şəhərinə döyüşsüz daxil oldu.

I Şah Abbasın dəfələrlə barış barədə təklifləri cavabsız qaldı. Xəlil Paşa I Şah Abbasın əsas qüvvəsi ilə həlledici savaşa girmək istəyirdi. Ancaq savaş qaydalarını gözəl bilən I Şah Abbas Osmanlı ordusunu boşaldılmış bölgələrdəki çətin yollarla arxasınca aparıb yorurdu. Xəlil Paşanın yollarda yorğun düşmüş 50 minlik qüvvəsi Ərəşdabanla Saqamsaray arasındakı Sınıq körpüdə I Şah Abbasın qoşunu ilə qarşılaşdılar. Savaşda Həsən Paşa öldürüldü, Krım xanı Canıbəy Gəray qaça bildi və onun vəziri Mirzə bəy, Van bəylərbəyi Məhəmməd Paşa əsir alındı. Osmanlı ordusu 15 min nəfərə yaxın itki verdi.

Bu uğursuz savaşdan sonra Xəlil Paşanın I Şah Abbasa barışıq təklifi ilə onlar arasında Mərənddə 1618-ci ildə 1612-ci il Istanbul müqaviləsinin şərtləri əsasında müqavilə bağlandı. Ancaq bu müqavilədə Səfəvi dövlətinin Osmanlı dövlə-

tinə 1612-ci il müqaviləsinə görə ildə ödəməli olduğu 200 xarvar xam ipək yarıbayarı azaldıldı. Müqaviləni Osmanlı hökuməti 1619-cu ildə təsdiq etdi.

Barışıqdan xeyli sonra Osmanlı ölkəsində daxili çəkişmələr başlandı. Bundan istifadə edən I Şah Abbas 1622-1623-cü illərdə Ərəb Iraqına qoşun yeridib Bağdad, Kərbəla, Nəcəfi tutdu. Eyni zamanda Çuxur-Səd bəylərbəyi Əmirgünə xan Qacar Osmanlı tabeliyində olan Axiskanı ələ keçirdi.

Səfəvilərin bu uğurları ilə barışmayan Sultan Diyarbəkr hakimi Hafiz Əhməd Paşaya tutulan torpaqların geri alınmasını tapşırdı. Diyarbəkr hakimi savaşa hazırlaşdığı zaman Gürcüstanda Səfəvilərə qarşı Georgi Sakadzenin (Murov bəy) başçılığı altında hərəkat başlandı. Bu vaxt (1623-24) Kaxetiya hakimi Peykər xan vilayətin əsilzadələrinin şah hakimiyyətinə qarşı hazırlanmış qəsd barədə I Abbasa xəbər göndərdi. Şah Gürcüstandakı bu mərkəzdənqaçma meyllərinin qarşısını alıb sakitlik yaratmaq üçün bura əmir əl-üməra Qarçıqay xanın başçılığı altında qoşun və ardınca qorçubaşı Isgəndər xanın qorçu alaylarını göndərdi. 30 iyul 1625-ci ildə Gümüşlü döyüşündə məğlub olan Georgi Sakadze qaçmaqla canını qurtardı. Azərbaycanın Cənub-Qərbində kürd çıxışları da (1624-1626) yatırıldı. I Şah Abbas savaşlardakı uğurları ilə yanaşı asılı bölgələrdəki mərkəzdənqaçma hərəkatlarının qarşısını da alıb Səfəvi imperatorluğunu daha da möhkəmləndirdi. I Şah Abbas 1629-cu ildə vəfat etdi. Səfi Mirzənin (I Şah Abbasın oğlu) oğlu Sam Mirzə I Səfi Mirzə (1629-42) adı ilə şah oldu.

Osmanlı dövləti Anadoludan İran körfəzinə çıxan karvan yolu üzərindəki Bağdadın itirilməsi ilə heç cür hesablaşmaq istəmirdi. I Şah Abbas vəfat etdikdən sonra Bağdadın geri qaytarılması yenə də ön plana çəkildi. Xosrov Paşanın ordusu Bağdada doğru yan aldı. Azərbaycan və Çuxur-Səd bəylərbəyiliklərinin bir çox mahallarına Osmanlı qüvvələri zərbə endirdilər. Bu vaxt Çuxur-Səd bəylərbəyi Əmirgünə xan Qacarın oğlu Təhmasibqulu xan 10 minlik qoşunla Ihlat və Adilcivaza qədər hərəkət edib çoxlu əsir, hərbi sursat ələ keçirdi.

Rüstəm xanın başçılıq etdiyi Səfəvi ordusu isə Vanı mühasirəyə aldılar. Diyarbəkr hakimi Murtuz Paşa və Ərzurum hakimi Xəlil Paşanın qüvvələrinin Vana doğru yürüşünü eşidən Rüstəm xan geri çəkildi.

Osmanlı Sultanı IV Murad (1623-1640) 1634-cü ildə yeni səfərbərlik keçirib güclü ordu yaratmışdı. Bu xəbəri eşidən şah əsas qüvvəni Təbriz şəhərinə topladı. IV Murad 1634-cü ildə Çuxur-Səd sərhəddini keçib Irəvanı mühasirəyə aldı. Şəhər 10 günlük mühasirədən sonra tutuldu. IV Murad Irəvanı tutduqdan sonra Təbrizə doğru yola düşdü. Bu vaxt Təbrizin yeni bəylərbəyi Rüstəm xan şəhəri tamamilə boşaltdırdı. IV Murad Təbrizə savaşsız daxil oldu. Ancaq boşaldılmış şəhərdə ərzaq, sursat yox idi, qış yaxınlaşırdı, Səfəvilər hücum edə bilərdilər. Elə buna görə, 26 sentyabr 1635-ci ildə osmanlılar şəhərdən çıxıb geri döndülər. Səfəvi ordusu 11 aprel 1635-ci ildə Irəvan şəhərini də geri aldı. Bağdad şəhərini isə osmanlılar yenidən tutdular. Tərəflər arasında yenidən danışıqlar başlandı və 1639-cu il mayın 17-də Qəsri-şirində iyirmi yeddi maddədən ibarət sülh müqaviləsi bağlandı. Iki dövlət arasındakı əhdnamədə göstərilirdi: «... Birinci maddə

odur ki, hər iki tərəfdən vurğunçu, yağmaçı və talançı olmasın. Ələ keçirildikdə hər iki tərəfə uyğun ədalətli hökm verilə… Ikinci maddə: əsgər çəkilib gərənay, nəfir ilə top və tüfəng atılıb ölkə basılmaya…» Müqaviləni Səfəvilər tərəfindən Sarı xan, Osmanlı dövləti tərəfindən isə Mustafa Paşa imzaladılar. Müqaviləyə görə dövlət sərhədləri dəyişdirilmədi. Maku, Van, Axiska Osmanlı dövlətinə qaldı. Səfəvilər Arazın sağ sahilindəki Maku, Qotur, Mağazburd qala divarını dağıtmalı idilər. Beləliklə, iki qonşu dövlət bir-birindən asanlıqla qopara biləcəkləri bir şeyin olmadığını anlayınca, aralarında diplomatik münasibətlər güclənməklə sərhədləri sabit bir sakitliyə qovuşdu.

Müqavilə imzalandıqdan az sonra, 1639-cu ildə Səfəvi dövləti Osmanlı sarayına Məhəmmədqulu xan Ciğatayı göndərmiş və o, 1640-cı ildə geri döndükdə, elə həmin il Sultan İbrahim (1640-1648) də 1639-cu il andlaşmasının şərtlərinə uyğun olaraq qarşılıqlı münasibətləri möhkəmləndirmək üçün İsfahana elçi göndərir. I Şah Səfi də Osmanlı elçisi ilə Maqsud sultan adlı elçisini Sultan İbrahimi hakimiyyətə keçməsi münasibəti ilə təbrik etmək üçün İstanbula yola salır. 1642-ci ildə Sultanın Yusif ağa adlı elçisi diplomatik danışıqlar və II Şah Abbası təbrik etmək üçün Səfəvi dövlətinə gəlir. Yusif ağa ilə II Şah Abbas Qəzvində görüşmüş və iki ölkə arasında dostluq, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etmişdilər.

XVII yüzilin ikinci yarısında daxili və xarici vəziyyət. Şah Səfidən sonra hakimiyyətə onun kiçik oğlu II Şah Abbas (1642-1666) keçir. Yeni Şahın yaşı az olduğuna görə dövləti təxminən 1648-ci ilə qədər baş vəzir Mirzə Tağı idarə etmişdi. II Şah Abbasın dövründə Səfəvi dövlətinin iqtisadiyyatı inkişaf edərək beynəlxalq aləmdə nüfuzu güclənmiş, Avropa və Şərq dövlətləri ilə qarşılıqlı diplomatik əlaqələri də genişlənmişdi. O, mülayim təbiətli və sülhpərvər olub, qonşu dövlətlərlə qarşılıqlı «dostluq içində» münasibətlərini qoruyub saxlamağa çalışmışdı. Osmanlı dövləti ilə 1639-cu ildə müqavilə bağlandıqdan və qarşılıqlı anlaşma əsasında hüdudlar müəyyənləşdirildikdən sonra tərəflər arasında müharibə təhlükəsi aradan götürülmüş, Səfəvi dövlətinin sərhədlərinin təhlükəsizliyi təmin olunmuşdu.

Bu iki dövlət arasında elçilik mübadiləsi ilə münasibətlərin güclər diyi bir zamanda Osmanlı əyanlarından kökcə kürd olan Ibşir Paşanın öyrətməsi ilə Pinyaniş kürdləri dəfələrlə Səfəvi sərhədini pozub qarət və qətillər törədirlər. Nəticədə, Urmiya xanı top və tüfənglə təchiz olunmuş 20 minlik qoşunla Osmanlı sərhədini keçib Pinyaniş kürdlərini cəzalandıraraq, onların 40 min qoyununu da sürüb gətirdi. Tərəflərdən biri digərinin sərhədini top və tüfəngli qoşunla pozması 1639-cu il əhdnaməsinə zidd olduğuna görə, Osmanlı dövləti dərhal Səfəvi dövlətinə etirazını bildirib, Vanda hərbi hazırlıq işlərinə başlayır. Ancaq bu hadisə ilə bağlı 1654-cü ildə IV Sultan Mehmed (1648-1687) tərəfindən Azərbaycana göndərilən Evliya Çələbi iki dövlət arasındakı anlaşılmazlığı aradan qaldırıb dostluq münasibətlərini bərpa edə bilmişdir. Ancaq Səfəvi dövlətinin quzeydə Rusiya ilə «dostluq münasibətləri» tərəflərin ticarət maraqlarına əsaslansa da, onların arasında siyasi münaqi-

şələr də vardı. Belə ki, Rusiya Kazan (1552) və Həştərxanı (1556) işğal etdikdən sonra Volqa-Xəzər karvan yolunun böyük bir hissəsi üzərində nəzarəti ələ keçirməklə kifayətlənməyib XVII yüzilliyin ortalarında Səfəvi-Rusiya sərhəddi boyunca qalalar, istehkamlar tikdirirdi. Digər tərəfdən isə Yaik Don kazaklarının Xəzəryanı yaşayış məntəqələrinə qarətçi yürüşlərinin ardı-arası kəsilmirdi. Yaik kazakları 1632-ci ildə Bakıya hücum etmiş, Don kazakları isə 1647-ci ildə Bakı yaxınlığında dənizdə Fərəhabad tacirini yağmalamışdı.

Səfəvi dövlətinin quzey sərhədlərinə yaxın məsafələrdə Rusiyanın qalalar inşa etməsindən və Rusiya təbəələri olan kazakların Xəzəryanı vilayətlərə qarətçi yürüşlərindən ehtiyat edən II Şah Abbas Astrabaddan Dərbəndə qədər bütün vilayətlərin hakimlərinə hərbi istehkamların möhkəmləndirilməsini, yeni qarovul məntəqələrinin qurulmasını, onlarda tüfəngçilərin yerləşdirilməsini əmr edir. Aleksey Mixayloviç (1645-1676) isə Terek çayı üzərində yeni qala inşa etdirdi. Elə bu zaman, yəni 1642-ci ildə Kaxetiya hakimi Teymuraz Aleksey Mixayloviçin sarayına xüsusi nümayəndə göndərib Səfəvi dövlətinə qarşı mübarizədə kömək istədi və Şimali Qafqazdan Göysuda qala inşa olunması barədə məsələ qaldırdı. Bu qala çərkəzlərin Səfəvi dövləti ilə əlaqəsini pozmalı və həm də Rusi-yanın Gürcüstana yardımını asanlaşdırmalı idi. Bu zaman Gürcüstanın Səfəvi dövlətinə aid olan bölgələrini Rüstəm xan adı ilə məşhur olan Xosrov Mirzə idarə edirdi. O, Teymuraz və onun tərəfdarlarını Gürcüstandan 1653-cü ildə əsgəri güclə çıxarmağa müvəffəq olsa da, Teymuraz elə həmin ildə Rusiyanın təsiri ilə yenidən Gürcüstana daxil oldu ki, bu zaman Şirvana da ciddi zərər toxundu. Ancaq o, məğlub oldu və özü də əsir götürülüb Isfahana göndərildi. Bu hadisə Rusiyanın gizli də olsa, Gürcüstanı iddia etdiyini və Səfəvi dövləti ilə aralarında münaqişənin olmasını bir daha təsdiq edir.

1650-ci ildə Rusiyanın sərhəd məntəqəsində yenə bir qrup Səfəvi taciri qarət edilir və bu hadisədə Kuban kazaklarını günahlandıran şah Şirvan bəylərbəyi Xosrov xana Sunжen qalasına hücum etmək barədə göstəriş verir. 1653-cü ildə Şirvan, Qarabağ, Çuxur-Səd bəylərbəylərinin qoşunları Sunжen qalasını tutub yandırdılar. Şirvan bəylərbəyi Xosrov xan şaha müracət edib, Terek qalasına hücum etmək üçün ondan icazə istəsə də, şah buna razılıq vermədi və Səfəvi qoşunu geri döndü. Ancaq Rusiya ilə Səfəvi dövləti arasında münaqişə 1662-ci ilə qədər davam etmiş və nəhayət qarşılıqlı diplomatik danışıqlarla aradan qaldırılmışdı.

II Şah Abbas 1649-cu ildə Qəndəharı tutub, buradakı hindliləri öz vətən-lərinə yola salıb, Şah Cahana (1627-1658) dostluq məktubu yazdı və onunla əlaqələri nizama salaraq dövlətin doğu sərhədlərini möhkəmləndirdi.

1666-cı ildə II Şah Abbas vəfat etdikdən sonra onun böyük oğlu Səfi Mirzə Şah Süleyman (1666-1694) adı ilə hakimiyyətə gəldi. Onun dövründə ölkənin Şərq sərhədləri zəifləmiş, özbək xanları isə Xorasana tez-tez hücumlar edir və heç bir ciddi müqavimətlə qarşılaşmışdılar. XVII yüzilin 70-ci illərində Xəzəryanı vilayətlər də kazak hücumlarına məruz qalmışdı. Belə ki, Stepan Razinin başçılıq etdiyi kazaklar 1668-ci ildə Xəzər dənizi ilə Gilana yan aldığı zaman şah hökumə-

ti onlara qarşı güclü qoşun çıxardıqda, taktiki məqsədlə bildirdilər ki, Səfəvi dövlətinin təbəəliyinə keçmək üçün bura üz tutmuşlar. Hətta onlar danışıqlar üçün şahın nümayəndəsini gözləyərək Rəştdə xeyli dayandılar. Ancaq 1669-cu ildə şahın onlara qarşı göndərdiyi qoşunu məğlub edib Xəzəryanı vilayətləri qarət edərək geri döndülər. Kazaklar Səfəvi dövlətinin çox mühüm vilayətlərinin iqtisadiyyatına, Rusiya dövləti ilə ticarət əlaqələrinə ağır zərbələr vurdular.

Artıq XVII yüzilin 70-ci illərində Səfəvi dövlətində iqtisadi və siyasi böhranın ilk əlamətləri özünü açıq şəkildə büruzə verirdi. Bu vaxt İran körfəzinin mühüm liman məntəqələri yenidən Qərb dövlətlərinin nəzarəti altına düşmüşdü. Okeanlardan keçən beynəlxalq ticarət yolu ticarət gəmiləri olmayan Səfəvi dövlətinin üzünə qapanmış, Volqa-Xəzər yolunun əsas hissəsinə Rusiya nəzarət edir, Avropa mallarını ölkəyə qərbli tacirlər, Mərkəzi Asiya, Hind, Çin mallarını isə hindli tacirlər gətirirdi. Səfəvi dövlətinin mal ixracı da əcnəbi tacirlərin əlində idi. Səfəvi dövlətinə mal idxalı artmış və mal ixracı isə öz növbəsində şəhərlərdə bəzi istehsal sahələrinin ləğvi və iqtisadi durğunluğa səbəb olurdu. Dövlət hakimiyyətinin zəifləməsindən mərkəzi və yerli bürokratik aparatın məmurları sui-istifadə edir, vergi və mükəlləfiyyətlər artılır, nəticədə ölkə daxilində narazılıqlar genişlənir, asılı xalqların mərkəzdənqaçma hərəkatları güclənir və siyasi böhran da getdikcə dərinləşirdi.

### *§ 3. Dövlət quruluşu və ordu*

**Dövlət quruluşu.** Şah Ismayılın idarə qurumları Qaraqoyunlular və Ağqoyunluların dövlətçilik ənənələri özülündə yaradılmışdı. I Şah Abbasın islahatları ilə Səfəvi dövlətinin siyasi quruluşu və idarəçiliyi daha da möhkəmləndi. Səfəvi dövlətinin başçısı «şah» adlanırdı. Şah hakimiyyəti irsi idi. Səfəvi şahları Ərdəbil ordeninin irsi başçıları olmaqla dini hakimiyyəti də özlərində saxlayırdılar.

Şah qeyri-məhdud hökmdar idi. Dövlətin Ali məclisi yalnız məşvərətçi rol oynayırdı. I Təhmasib dövründə Ali məclisin 12 üzvü vardı. Şah mühüm məsələlərin həllində Ali məclisi çağırır, yüksək dövlət xadimlərinin təkliflərini dinləyir, ancaq son qərarı özü verirdi.

Dövlət quruluşunda şahdan sonra baş vəzir (vəziri-əzəm) əsas yer tuturdu. Baş vəzir və digər dövlət məmurlarına bəzən əlavə mənsəb kimi vəkillik verilirdi. Vəkil olan məmur dövlətdə daha böyuk nüfuz qazanmış olurdu. Şah Təhmasib dövründə bu mənsəb uğrunda güclü çəkişmə başlandı. Buna görə vəkil mənsəbi sonralar aradan götürüldü.

I Şah Abbasın hakimiyyətinin ilk illərində baş vəzirin hüquqları daha da genişləndi. Dövlətin vilayət və mahallarında mülki-maliyyə idarələrinə baş vəzir başçılıq edirdi.

Rəsmi sənədləri baş vəzir təsdiq edirdi. Yüksək vəzifələrə məmurlar təyin edilməsinə,tiyul və soyurqalların verilməsinə dair sənədlər onun möhürü olmadıqda etibarsız sayılırdı. O, dövlətin mədaxil və məxaricinə, bütün maliyyə işlərinə,

xarici əlaqələr məsələlərinə baxırdı. Baş vəzir həm də dövlətin xarici siyasət xəttini müəyyənləşdirir, əcnəbi qonaq və diplomatları qəbul edirdi.

Şahın saray münşisi (katibi) vaqiənəvis adlanırdı. O, şah məktublarını, əmrlərini və buna bənzər fərmanları yazır, dövlət mədaxili və borclarının hesabını aparırdı. Vaqiənəvisin əli altında 40 nəfər katib işləyirdi. Vaqiənəvis dövlət dəftərxanasının rəisi idi. Həm də baş verən gündəlik hadisələri qələmə alaraq sonralar tarix yazırdı.

Səfəvi dövlətinin idarə olunmasında ruhanilərin rolu böyük idi. Ali dini idarəyə sədr başçılıq edirdi. Divan əs-sədarədə iki sədr fəaliyyət göstərirdi. Biri sədri-xassə, digəri isə sədri-ammə (və ya sədr əl-moqufat) adlanırdı. Adam Oleari sədr haqqında yazmış ki, katolik kilsəsinə Papa rəhbərlik etdiyi kimi, Səfəvi dövlətində ruhani idarəsinə sədr başçılıq edir, onu şah özü seçir.

Sədr şəriət və dünyəvi qanunları yaxşı biməli və bu barədə hamıdan bilikli olmalı idi. Təkcə din xadimləri yox, dövlətdə hər bir kimsə çətin məsələlərin həllində ona müraciət etdikdə ondan doğru və qəti cavab almalı idilər. Çünki onun rəyindən asılı olaraq dövlətin adından hökm verilirdi. Bir sıra hökm və qərarları isə sədr özü verirdi. Belə hökm kağıza yazıldıqdan sonra sədr ona möhürünü vurub şahın təsdiqinə göndərirdi. Bağ-bağat, ev, dəyirman, dükan, tarla və sair əmlakın girov qoyulması haqqında sədr hökm verirdi.Girov saxlayan şəxs həmin əmlakdan istifadə edə bilərdi. Borc alan şəxs təyin edilmiş müddətdə borcunu verib, girov qoyduğu əmlak və malı geri götürməsəydi, girov qoyulmuş əmlak borc verənin şəxsi əmlakına çevrilirdi. Sədr həm də şəriət qanunlarına nəzarət edirdi. Vəqflərin idarə olunması ona tapşırılırdı.

İnzibati-ərazi bölgüsü əsasında dövlətin geniş ərazisi təbii sərhədləri ilə birbirindən ayrılan 4 valilik və 13 vilayətə (bəylərbəyiliyə) bölünmüşdü. Vilayətləri Şah tərəfindən təyin olunan hakimlər idarə edirdi. Vilayətə hakim xan, soltan titulu əmir əl-üməra, yaxud bəylərbəyi rütbəsi ilə təyin olunurdu. I Şah Təhmasibin hakimiyyətinin ilk illərinə qədər bəylərbəyinə nisbətən, daha çox əmir əl-ümərа termini işlənirdi. Əmir əl-ümərа I Şah Ismayılın dövründə fərdi qaydada sırf hərbi rütbə kimi də verilirdi. Ancaq əsilzadə hər hansı bir vilayətə əmir əl-ümərа rütbəsi ilə hakim təyin edildikdə, burada əmir əl-ümərа rütbəsi bəylərbəyi ünvanına sinonim olub, mülki-inzibati və hərbi mahiyyət kəsb edirdi. Vilayətə hakim təyin olunan şəxsin vəzifəyə göndərildiyi vilayətdəki türk tayfalarından birinin ağsaqqalı olması əsas şərt idi. Tayfa ağsaqqalı həm də tayfanın irsi idarə hüququna malik əmiri hesab olunurdu. Vilayət hakimlərinə XVI yüzilin 30-cu illərinə kimi soltan və bu zamandan sonra isə xan titulu verilirdi.

Vilayətlərdə bəylərbəyidən sonra əsas yeri əyalət vəziri tuturdu. O, vilayətdə maliyyə məsələləri ilə məşğul olur, vergilərin toplanılması və qaydaya salınmasına nəzarət edirdi. Vəzir və ya onun nümayəndəsi yerli məhkəmə işlərində də iştirak edirdi.

Vilayət vəzirləri bəylərbəyinin təqdimatı və şahın fərmanı ilə işə qəbul olunur və işdən götürülürdü. Şah tərəfindən təyin olunmasına baxmayaraq, vilayət vəziri öz işində bütünlüklə bəylərbəyinə tabe idi.

Bəylərbəyiliklər mahallara bölünürdü. Mahalları şah tərəfindən təyin olunan mahal hakimləri (sultan və məliklər) idarə edirdilər. Bu hakimlərə hərbi-inzibati və Polis funksiyası verilirdi. Mahal hakimi daxili sakitliyi təmin etməli, kiçik qoşun dəstəsi saxlamalı, vergi və mükəlləfiyyətləri vaxtında toplamalı, müharibə olduqda öhdəsində olan qoşunla tabe olduğu bəylərbəyinin xidmətinə gəlməli, Şahın illik Peşkəş və hədiyyələrini vaxtında göndərməli idi. Mahal hakimi müstəqil və geniş ixtiyarata sahib olsa da, mühüm məsələlər barədə bəylərbəyi ilə məsləhətləşməklə birbaşa ona tabe idi.

Vilayətlərin idarə olunmasında bəylərbəyi müavini (canişin), eşikağasıbaşı, divanbəyi, mehmandar da mühüm rola malik idilər.

Bəylərbəyi müavininin vilayət daxilində çox geniş hüququ var idi. Bəylərbəyi vilayətdə olmadıqda bütün işlər onun öhdəsində qalırdı. O, sarayla da müntəzəm əlaqə saxlayırdı. Lakin əslində, vəzirlərin timsalında olduğu kimi, o da çox vaxt bəylərbəyinin yaxın qohumlarından biri kimi vəzifə tuturdu: birbaşa bəylərbəyiyə tabe idi. Səfəvilər dövründə canişin və naib əl-hökumə sinonim kimi işlənmişdir. Bu adı daşıyan məmuru bir qayda olaraq bəylərbəyi özü təyin edirdi. Vilayət canişinlərinə şah tərəfindən heç bir rəsmi titul verilmirdi. Yalnız vilayət hakimi (bəylərbəyi) kiçik yaşlı şahzadə olduqda, canişini şah təyin edirdi.

Səfəvi dövləti sistemində başlıca idarəçilik qurumları iki inzibati bölmədən ibarət idi: bəylərbəylik (vilayət) və soltan-məliklik (mahal). Lakin başlıca siyasi-hərbi və inzibati vahid olmaqla bəylərbəylik idarəçiliyi bu dövlətin tarixində müstəsna rol oynamışdır. Bəylərbəylik mərkəzi şah hökumətini təmsil etməklə yanaşı, yerlərdəki idarəçilik sisteminin özülü idi, bir növ şah hökumətinin idarəsini soltan və məliklər vasitəsilə yerlərdə (şəhər və kəndlərdə), əslində bütün əhali üzərində bərqərar etmişdi. Bəylərbəyliklərdə mövcud olan vilayət vəziri türbəsi ayrıca yer tuturdu: vilayət vəziri bir tərəfdən şah hökuməti adından bəylərbəylik fəaliyyətinə nəzarət edir, o biri tərəfdən isə bəylərbəyi nəslini təmsil edən yüksək sosial zümrənin nümayəndəsi kimi, şah hökumətinin bəylərbəyi ilə «yaxşı» münasibətdə olmasına təminat verirdi.

Yerli idarəçilik sistemi bütövlükdə Səfəvi dövlətinin ikili və ziddiyyətli xarakterini: mərkəzləşdirmə meylini və bu siyasətin həyata keçirilməsində gözə çarpan tərəddüd və qətiyyətsizliyi əks etdirirdi.

**Ordu.** Azərbaycan dövlətinin XV əsrdəki əsgəri təşkilatı XVI-XVII yüzillərdə də az dəyişikliklə qalırdı. Səfəvilər dövründə ordu dövlət (vilayət hakimlərinin qoşunu, qorçu) və Şah (tüfəngçi, qulamlar, topçu) qoşununa bölünür, yəni iki kateqoriyadan ibarət idi.

Hər bir vilayət hakiminə tabe nizami alay vardı və onların sayı bir qayda olaraq 2-3 min nəfərdən çox olmurdu. Ancaq müharibə zamanı Şahın buyruğu olduqda hər bir vilayət hakimi idarə etdiyi vilayətin ərazisində məskun olan və xü-

susi imtiyazla yaşayan türk tayfalarından 8-10 min sayında qeyri-nizami qoşun səfərbər edirdi. Ancaq «Təzkirət əl-müluk»da göstərildiyi kimi vilayətlər üzrə daimi qoşunun sayı 59. 49 min nəfərdən çox deyildi. Dövlət qoşunun digər növü türk tayfa süvarilərindən ibarət qorçu adlı olay olub, dövləti içəridən və dişarıdan onlar qoruy urdular. Qorçuların sayı bir qayda olaraq 20-30 min nəfər olurdu.

I Şah Abbas fundamental hərbi islahatları ilə tayfalar üzrə səfərbər olunan qeyri-nizami qoşunun sayını azaldıb, 44 min nəfərdən ibarət tüfəngçi, qulam, topçu adlı nizami Şah qoşununu yaratdı. Qeyd olunan bu ikinci qoşun növünə daxil olan 3 hərbi hissədən əlavə, 200 nəfər sufi cangüdən və 600 nəfərdən ibarət cəzair adlı xüsusi qarovul dəstəsi də Şah qoşunu tərkibinə daxil idi.

Qeyd olunan iki qoşun növü üzrə xidmət heyətləri, saray gözətçiləri istisna olmaqla, I Şah Abbas dövründə nizami qoşunun ümumi sayı 120000 və XVII əsrin ortalarında isə 144 000 nəfərdən ibarət olmuşdur.

Orduda qoşun növləri üzrə başçılar əmiri-əzəm rütbəsi daşıyır və qorçubaşı qorçuların, qullarağası qulamların, tüfəngçibaşı tüfəngçilərin, topçubaşı topçuların, bəylərbəyi isə vilayətdəki qoşunun komandiri idi. Ordunun baş komandanı isə sipahsalar hərbi rütbəsinə malik olub, bu hərbi vəzifəyə Azərbaycan bəylərbəyi, ya da qorçubaşı təyin olunurdu. Ancaq bu hərbi vəzifə müharibə dövrü üçün nəzərdə tutulur və müharibə qurtardıqda o, vəzifədən dərhal istefa verirdi.

### *§ 4. XVI-XVII əsrlərdə Azərbaycanın sosial-iqtisadi həyat və mədəniyyət*

**Kənd təsərrüfatı.** XVI yüzilin başlanğıcında Azərbaycan torpaqlarının birləşdirilməsi, möhkəm dövlət idarəçiliyin yaradılması ilə ölkənin həyatında dirçəliş başlandı.

XVI-XVII yüzillərdə kənd təsərrüfatında yenə əkinçilik üstün yer tuturdu. Kənd əhalisinin çoxu əkinçiliklə məşğul olurdu. Əkinçi təsərrüfatı başlıca olaraq suvarma özülündə qurulurdu. Çaylardan arxlar çəkilir, dağətəyi yerlərdəki yeraltı sular kəhrizlərlə üzə çıxarılırdı. Təbii su hövzələrindən aralı yerlərdə isə su quyu-ları qazılır və onlardan əkinləri suvarmaq üçün istifadə olunurdu. Həmdullah Qəzvini, Evliya Çələbi Təbriz və onun ətrafında 900 kəhriz, bir çox su arxlarının olduğunu bildirirlər. 1647-ci ildə Azərbaycana gələn sonuncu müəllif yazır ki, başlanğıcını Səhənd dağından alan 6 kiçik çay Təbrizə doğru axır. Şəhərin özündə 9 kəhriz, 7000 su quyusu, 40000 səbilxana var. «Gözəl binalar olan səbilxanalarda suyu yığıb saxlayır və Pul almadan əhaliyə Paylayırlar». Fransız səyyahı Jan Batist Tavernye də burada əkinlərə su verən çoxlu kəhrizlər, su quyuları olduğunu bildirir. Ancaq sözünə davam edərək yazır ki, savaşlar və baxımsızlıq ucundan kəhrizlərin çoxu dağılmışdır. Onun Azərbaycanın maliyyə naziri Mirzə İbrahimlə söhbəti zamanı aydın olur ki, 80 il ərzində Təbriz ətrafında 400 su arxı dağılmışdır.

Azərbaycanın demək olar ki, bütün bölgələrində dənli bitkilərdən buğda, arpa, düyü, paxla, darı, mərci, noxud, küncüd əkirdilər. Evliya Çələbi Təbrizdə 7 növ buğda yetişdirildiyini yazırdı.

XVI-XVII yüzillərdə Azərbaycan öz ipəyi ilə dünya şöhrəti qazanmışdı. Ölkənin məhsuldar torpaqlarında ipək qurdu bəsləmək üçün tut ağacları əkib becərirdilər.

1561-1563-cü illərdə Azərbaycanda olan ingiltərəli Entoni Cenkinson Şirvan haqqında yazmışdır: «...Ölkənin əsas və ən varlı ticarət şəhəri Ərəş adlanır... Onun ətrafında hər yerdən çox barama istehsal olunur: türklər, suriyalılar və başqa əcnəbilər ticarət üçün bura axışıb gəlirlər. Bu dövlətdən bir çox yaxşı keyfiyyətli və zəruri mallar almaq olar. Qoz və fındıq, pambıq parçası, zəy, bu ölkənin təbii məhsulu olan barama, ədviyyat və ətir-boya mallarının demək olar bütün növlərini və nisbətən az miqdarda Şərqi Hindistandan gətirilən bir sıra başqa malları almaq olar. Ancaq buranın başlıca ticarət malı, burada bol istehsal edilən çox çeşidli baramadır». Ingilis taciri Artur Edvards 1566-cı ildə ingilis ticarət kompaniyasına yazdığı məktubda Şirvandan 11 tay ipək aldığını bidirirdi. Onun məktubundan aydın olur ki, iri şəhərlərdə alış-verişi olan kənd varlıları ipəyi özləri şəhər bazarlarına çıxarıb satırdılar. IPək ticarəti Azərbaycan kəndindəki qapalılığı Pozur, alış-veriş yolu ilə onu bazarlara qoşurdu.

Holşteyn elçiliyinin katibi Adam Oleari yazır ki, təsərrüfatın bu sahəsi ilə məşğul olanların çoxu varlı adamlardır. Səyyaha görə XVII yüzilin 30-cu illərində Səfəvi dövlətində ildə 10-12 min tay ipək istehsal ounurdu. Onun 3 min tayı Şirvanın, 2 min tayı Qarabağın Payına düşürdü.

Azərbaycanın təsərrüfat həyatında Pambıqçılıq da mühüm yer tuturdu. Həmdullah Qəzvini Naxçıvan, Beyləqan, Marağa, Mərənddə Pambıq əkilib-becərildiyini yazmışdır. 1568-ci ildə Azərbaycanda olmuş Riçard Uels burada «Pambıq ağacı» yetişdirildiyini bildirərək yazırdı: «Səfəvilər dövlətində Pambıq olduqca çoxdur, özü də lap yaxşısındandır... Bu ağacın toxumu noxud boydadır... ölkənin bir çox vilayətlərində bitir». Evliya Çələbi isə Naxçıvanda zaği, munlayi, zəfəranı, ləli, xas, bəyaz adlı yeddi çeşid Pambıq becərildiyini göstərmişdir. Səyyaha görə Təbriz, Marağa, Gəncə, Xoyla yanaşı, Abşeronda da Pambıq əkilirdi.

Bağçılıq və bostançılıq çox geniş yayılmışdı. Münbit torpaqlarda dadlı meyvələr yetişdirilirdi. Mərənd, Xoy meyvə bağlarından bəhs edən Alessandri yazır ki, dünyanın başqa ölkələrində Azərbaycandakı kimi dadlı meyvələr yoxdur. Adam Oleari isə təbrizi, kəsəyi adlanan üzüm növlərinin Təbriz və Ordubadda yetişdirilməsi haqqında yazır ki, bu növ üzümlərə dünyanın başqa yerlərində rast gəlmək olmaz. Evliya Çələbi Təbrizdə xarda, raziki, mələki, təbərzə, armudu-zənanə adlanan üzüm və meyvələrin yetişdirildiyini bildirmişdir.

Üzümlə yanaşı, alma, nar, armud, ərik, əncir, qoz, şaftalı, gavalı da ölkənin demək olar bütün bölgələrində əkilib becərilirdi. Adam Oleari, xarici görünüşünə görə limona oxşayan dadlı məleykə armudunu ayrıca qeyd edirdi. Bu növlə yanaşı, Azərbaycanda nəcmi-xələf, Peyğəmbəri, meylan adlanan armudlar da yetişdirilirdi. Isgəndər bəy Münşi yazır ki, Araz çayı boyunca ucu-bucağı görünməyən bağlardan dərilən üzüm, nar və başqa meyvələr Şirvan, Aran, Gürcüstanda satılır.

Azərbaycan Şərqdə heyvandarlığın çox inkişaf etdiyi ölkələrdən biri idi. XVI-XVII yüzillərdə ölkə iqtisadiyyatında heyvandarlıq başlıca yer tuturdu. Ölkə-

də yaylaq-qışlaq heyvandarlıq təsərrüfatı, yəni köçmə maldarlıq üstün idi. Qarabağ, Mil, Muğan, Şirvan çölləri qışlaqlar, Savalan, Kiçik Qafqaz, Qarabağ, Talış dağları isə yaylalar idi. Elatdan yığılan çərik (qoşun) dövlətin dayağı olduğu üçün onlara xüsusi imtiyazlar verilirdi. Onlardan çobanbəyidən başqa vergi alınmırdı. Elata verilən üstünlüklərlə yanaşı, daxili və xarici ehtiyaclar heyvandarlığın inkişafında az rol oynamırdı. Tavernye yazır: «Azərbaycanın qoyun sürülərini görüb təəccüblənməmək olmaz. Tacirlər qoyunları alır və Istanbula qədər aparıb satırlar. Başqa ölkələrə satılan qoyunlar hesabına ölkəyə xeyli Pul gəlir». Səyyaha görə Azərbaycandan qoyun dərisi Hollandiya və Yaponiyaya satılırdı.

Davarla yanaşı, qaramal, at və dəvə də saxlayırdılar. Adam Oleari Ərəş mahalında Şahın ilxısı haqqında yazır ki, bu atlar gözəl başı, boynu, sağrısı, enli köksü ilə seçilir, onlar qiymətdə ərəb cinsli atlardan bahadır. Ərdəbil və Qarabağda da şahın at ilxıları vardı.

XVI-XVII yüzillərdə Azərbaycan kəndlərində natural təsərrüfat üstün yer tuturdu. Buna baxmayaraq, iri şəhərlərə yaxın olan kəndlər alış-veriş münasibətlərinə qovuşurdular. Bir tərəfdən kəndlilərdən məhsul vergisi ilə yanaşı Pul vergisi də alınırdı. Digər tərəfdən isə kəndlərdə istehsal olunan ipək həm daxili bazarlara çıxarılır, həm də başqa ölkələrə ixrac olunurdu. Bununla yeni iqtisadi münasibətlər kəndlərə yol açırdı.

İri şəhərləri taxıl, bağ və bostan bitkiləri ilə kəndlər təmin edirdi. Natural təsərrüfat Pozulur, kəndlərin daxili bazarlarla bağlılığı güclənirdi.

**Sənətkarlıq və ticarət**. Azərbaycanın yaxşı təbii-coğrafi şəraiti, xammal bolluğu, ipəyə, yuna, pambığa, sənət məhsullarına daxili ehtiyacın və beynəlxalq bazar tələbatının artması ölkədə şəhərlərin canlanmasına, sənətkarlıq və ticarətin irəliləyişinə müsbət təsirlər göstərmişdi. XVI-XVII əsrlərdə ölkə miqyasında əmək bölgüsünün dərinləşməsi, ticarətin və sənətkarlığın təkamülü mövcud şəhərlərin inkişaf Prosesini sürətləndirmiş, bir çox kiçik yaşayış məskənlərinin şəhərlərə çevrilməsində başlıca amil rolunu oynamışdır. Ancaq Təbriz, Gəncə, Ərdəbil, Marağa, Şamaxı, Ərəş, Bərdə, Naxçıvan, Dərbənd, Culfa ölkənin əsas sənətkarlıq və ticarət mərkəzləri idilər. Ölkənin sosial-iqtisadi həyatında əsas yeri bu şəhərlər tuturdular. XVI-XVII əsrlərdə şəhərlərə bir çox iqtisadi və hərbi-siyasi mahiyyət kəsb edən amillər də öz təsirlərini göstərmişdi. XVI-XVII əsrlərdə fasilələrlə davam edən Osmanlı-Səfəvi müharibələri bəzi şəhərlərə ciddi zərbələr vursa da, ancaq onların iqtisadi təkamülünün qarşısını tam ala bilməmişdir. Belə ki, müharibələr başa çatan kimi dövlət səviyyəsində tikinti-təmir işləri aparılmış, dağıntıya məruz qalan şəhərlərin əhalisi müəyyən müddətdə vergilərdən azad edilmiş və nəticədə iqtisadi mərkəzlərdə inkişafa əlverişli şərait yaradılmışdır.

Azərbaycan şəhərlərində, hətta bir çox kənd və qəsəbələrdə toxucu, başmaqçı, dərzi, misgər, dəmirçi, dulusçu, dabbaq, bənna kimi 44-dən çox peşə-sənət sahəsi vardı.

Səfəvi dövlətinin iqtisadi siyasəti sənətkarlığın inkişafına təkan verdi. I Şah Təhmasib sənətkarlardan istehsala görə «mali möhtərifə», satışa görə isə «tamğa» adı ilə alınan vergiləri 1565-ci il fərmanı ilə ləğv etdi. Bu, sənətkarlıq və ticarəti

canlandırdı. Azərbaycan şəhərlərində sənətkarlar peşələr üzrə emalatxanalarda, emalatxanalar isə peşələr üzrə həmkarlarda birləşirdilər. Sənətkarlara məxsus xüsusi emalatxanalarda sahibkarın özü və şəhər yoxsulları işləyirdi. Feodal emalatxanalarında isə əsasən kəndlilər çalışırdı. I Şah Abbasın iqtisadi siyasətinə uyğun olaraq emalatxana tipində dövlət karxanaları da yaradılmış və bu karxanalarda xalça, tafta, ipək parça, silah istehsal olunurdu.

XVI-XVII yüzildə sənətkarlığın irəliləyişi daxili və xarici bazarlardakı ehtiyacla bağlı idi. Alış-veriş arttdıqca istehsal da genişlənir, istehsal texnikası yeniləşirdi. Məhsuldar qüvvələr canlandıqca sənətin yeni sahələri yaranırdı.

Azərbaycanın ipək və pambıq parçaları dünya şöhrəti qazanmışdı. pambıqdan, iəpkdən toxunan diba, zərbaft, məxmər, pərniyan, tafta, dalğalı ipək, atlas, səndəl, dəstar, şale kəmər adlı zərif Parçaları çox məharətlə boyayır, müxtəlif naxışlar vururdular. I Şah Abbasın dövründə onun həyata keçirdiyi islahatlar ölkə iqtisadiyyatının, xüsusilə toxuculuğun inkişafına ciddi təsirlər göstərmişdir. Təbriz və bir çox şəhərlərdə ipək parça istehsal edən iri karxanalar açılmışdır. Bu dövrdə Azərbaycan Səfəvi dövləti ərazisində ildə istehsal olunan 20-22000 tay ipəyin 1000 tayı ölkə daxilindəki karxanalarda istifadə edilir, qalanı isə Avropa dövlətlərinə ixrac olunurdu. Xam ipəyin «Şirvani» («Ardeş» - Ərəş), «Xərvari» («Lejiya»), «Xodpəsənd», «Şərbaf» adlı dörd çeşidi vardı ki, onlardan axırıncı ikisindən daha yüksək keyfiyyətli ipək Parçalar toxunurdu. Toxuculuqda pambıq, qoyun və dəvə yunundan da geniş şəkildə istifadə olunurdu.

Azərbaycanda xalça toxuculuğu da öz təkamül dövrünü keçirirdi. Bu dövrdə Azərbaycan xalı-xalçaları Avropada öz ünvanı, yəni «türk xalçaları» adı ilə şöhrət qazanmışdı. Ərdəbildə Şeyx Səfi məscidi üçün 1539-cu ildi toxunmuş «Şeyx Səfi» xalısının 32 milyon ilməsi olub, ölçüsü 56, 12 kvadrat metr idi.

Evliya Çələbi Təbriz sənətkarları barədə yazır: «Heç bir ölkədə buradakı kimi sənətkar-nəqqaş, rəssam, zərgər, dərzi yoxdur. Burada hər iş üçün çox mahir ustalar var. Xüsusilə burada Təbriz Parçaları kimi tanınan Pambıq və yun Parçaları, ipək, məxmər, darayı istehsal olunur və onlar çox məşhurdurlar».

Daşkəsəndə filiz, Sərab və Miyanədə isə qızıl və gümüş mədənləri, Mosul və Gəncə dağlarında dəmir yataqları vardı. Qızıldan, gümüşdən bəzək və zinyət şeyləri, dəmirdən isə qab-qacaq, silah hazırlayırdılar. Artıq I Şah Təhmasib və I Şah Abbasın dövründə mis toplar istehsal edilirdi. II Şah Abbas 1654-cü ildə Qum şəhərində toptökmə karxanası tikdirmiş və burada isə topdaşıyan arabalar da hazırlanmışdı.

XVI-XVII yüzillərdə Avropa ilə Şərq arasındakı ticarətdə Azərbaycandan keçən karvan yollarının əhəmiyyəti böyük idi. Hindistan və Çindən başlanan beynəlxalq karvan yolları Azərbaycandan keçir, Aralıq dənizi və Qara dəniz sahillərinə, oradan isə Avropaya doğru uzanırdı. Azərbaycan və İranı Avropa ilə Volqa-Xəzər su yolu da bağlayırdı.

Avropadan Hindistana dəniz yollarının açılması Azərbaycandan keçən karvan yollarının əhəmiyyətini azaltdı. Portogəz və Ispan dövlətləri Hind okeanında ağalıq edərək İran körfəzindəki mühüm ticarət məntəqələrini də tutmuşdular.

Azərbaycandan keçən yollarla Avropaya daşınan Hindistan ədviyyatı Portagəz dənizçilərinin əlinə keçmişdi.

Başqa Qərb dövlətləri, xüsusilə Ingiltərə də xammal və satış bazarları ardınca müxtəlif yollarla Şərqə can atırdılar. Azərbaycan ipəyi bu dövrdə onları çox maraqlandırırdı. Səfəvi şahları da Azərbaycan ipəyinin alıcıları olan Avropa ölkələri ilə əlaqələr yaratmağa çalışırdılar.

Təbriz bu dövrdə Azərbaycanın ən böyük ticarət şəhəri idi. Oruc bəy Bayat Təbrizi «Şərqin paytaxtı» adlandırmışdı. Başqa bölgələrdən Təbrizə taxıl, xam ipək, davar, müxtəlif sənətkarlıq məhsulları gətirilirdi. Daxili bazarın yarandığı bir vaxtda Təbriz ən mühüm iqtisadi əhəmiyyəti olan mərkəzə çevrilirdi. Alessandri yazır: «Bu ticarət şəhəridir, ölkənin hər tərəfindən karvanlar bura məhsul gətirir». Səfəvi-Osmanlı savaşları şəhərin iqtisadi həyatına zərbə vurdu. Ancaq XVII yüzildə Təbriz yenə də ölkənin ən mühüm ticarət mərkəzi oldu. Evliya Çələbi Təbrizdə 700 dükan, 200-ə qədər karvansara, 70-ə qədər qonaq evi olduğunu göstərir. Şarden isə Təbrizdə 15 min dükan olduğunu, Şərqdə ən məşhur bazarın da Təbrizdə yerləşdiyini yazmışdır.

Şamaxı ətrafında xam ipəyin bolluğu şəhərin iqtisadi əhəmiyyətini artırmışdı. Təbriz kimi Şamaxının da zəngin bazarı vardı. XVI yüzildəki savaşlar şəhərin iqtisadiyyatına zərbə vursa da, onun sonrakı irəliləyişinin qarşısını ala bilməmişdi. Əmin Əhməd Razinin verdiyi məlumata görə, hər il Şamaxıda 100 min pud barama satılırdı. Adam Oleari şəhərdə böyük ticarət mərkəzinin olduğunu yazmışdır. Şəhərin örtülü bazarında müxtəlif mallarla dolu mağazalar yerləşirdi. İpək, qızıl və gümüşlə işlənmiş zərxaralar, kaman, ox kimi əl işi malları çox idi. Şamaxıda çoxlu karvansaralar vardı. Bu karvansaralarda yadelli tacirlər mallarını topdan satırdılar. Adam Oleari Şamaxıda «Şah karvansarası»nı ayrıca qeyd edir. Bu karvansaralarda dünyanın bir çox yerlərindən gələn tacirlər qalırdılar. Rusiya tacirləri burada qalay, mis, dəri, xəz satır, yerli tacirlərlə geniş alış-veriş aparırdılar. Şirvanın mühüm ticarət şəhərlərindən biri də Ərəş idi.

Xüsusi statusa malik olan Ərdəbil şəhərinin də ölkənin iqtisadi-ticarət həyatında rolu az deyildi. Şəhər ölkənin güney və quzey bölgələrini əlaqələndirən ticarət yolunun üstündə yerləşirdi. Ərdəbil tacirləri dünyanın bir çox ölkələri ilə ticarət aparırdılar. Ərdəbildə uzunluğu 300, eni isə 150 addım olan bazar meydanında hər iki tərəfdən sıra ilə dükanlar tikilmişdi. Şəhərin ticarət mərkəzi karvansaralar idi. Şəhərin Qeysəriyyə adlı dördkünc örtülü bazarı vardı. Adam Oleari onu «ticarət birjası» adlandırır. Səyyah Ərdəbildə türk, tatar, hindlilərlə yanaşı, çini qablar satan çinli tacir haqqında məlumat vermişdir.

XVI-XVII yüzillərdə daxili və xarici ticarətdə karvansaralar böyük rol oynayırdı. Şəhərlərlə yanaşı, karvan yolları üzərində də karvansaralar vardı. Bu karvansaralarda səyyahlar, tacirlər gecələyir, miniklərini tövlələrdə, mallarını isə xüsusi anbarlarda yerləşdirirdilər. Ən məşhur karvansaralardan biri Şamaxı-Dərbənd yolu üzərində Beşbarmaqda idi. 1636-cı ildə Başbarmaq karvansarasında ilk gün

gecələyən Adam Oleari yazır: «Bu karvansara kvadrat şəkilli böyük daşlardan tikilən çox qədim binadır. O, dördkünc olub, hər divarının uzunluğu 42 addımdır».

XVI-XVII yüzilliklərdə daxili və xarici ticarətin artması ilə daxili bazar yarandı. Şəhərlərin iqtisadi əhəmiyyəti artdı. Şəhərlərlə kəndlər arasında iqtisadi əlaqələr yarandı, həftədə bir gün şəhərlərdə keçirilən alqı-satqı bu əlaqəyə ardıcıl, sistemli bir görünüş verdi.

Şəhərlərdə iri torpaq sahibləri, hətta ruhanilər də ticarətlə bağlı idilər. Onlar karvan ticarətindən külli gəlir götürürdülər. Xam ipək satışı qazanclı olduğundan, Şah Abbas ipək ticarəti üzərində dövlət xəzinəsinin inhisarını yaratdı. Ancaq bu inhisarı I Şah Səfi (1629-1642) ləğv etdi. Özəl ipək ticarəti yenidən genişləndi. I Şah Səfiyə qədər torpaq sahibləri və rəiyyətdən xam ipəyi yalnız dövlət ala bilərdi. I Şah Səfi dövlətin ipək ticarəti üstündəki inhisar hüququnu ləğv etməklə yanaşı, həm də dövlət məmurlarının xam ipək alqı-satqısına qarışmasını qadağan etdi. Bu qadağa ölkədə barama istehsalını artırdı.

Dövlət xəzinəsi ticarətdən çox qazanc götürürdü. Tacir və sıravi satıcılardan gömrük nəzarətçiləri tərəfindən yollarda «rahdarı» adlı yol gömrüyü (rüsum), şəhərlərin giriş qapısı və bazarlarda isə bac (ticarət rüsumu) alınırdı. Təhmasibin aradan götürdüyü bir çox gömrüyü Şah Abbas bərpa etmişdi. Şah Səfi isə ipək ticarətində dövlət inhisarını ləğv etsə də, gömrüyü artırmışdı. Ancaq dövlətin gömrük siyasəti daxili və xarici ticarətin genişlənməsinə mane olmurdu, çünki gömrük rüsumları ağır deyildi. Istər daxili, istərsə də yadelli tacirlərin alqı-satqı hüququna toxunulmurdu. Əksinə, dövlət onları qoruyurdu. Adam Oleari yazır: «Azərbaycan Rusiya kimi qapalı ölkə deyildir. Yerlilər və yadellilər dövlətə tələb olunan gömrüyü verməklə ölkəyə sərbəst gəlib-gedə bilərlər. Həm də ticarət və sənətkarlıqla da məşğul ola bilərlər».

Hələ XV yüzildən Genuya, Venesiya, Rusiya və başqa ölkələr ilə Azərbaycan arasında möhkəm ticarət əlaqəsi vardı. XVI yüzildən isə Qərb ölkələrində yeni kapitalist münasibətlərinin yaranması ilə onların Şərqdəki xammala və satış bazarlarına ehtiyacları daha da artmışdı. Bu zaman Hind okeanından keçən yollara Portuqaliya, Aralıq və Qara dəniz yollarına isə Osmanlı dövləti nəzarət edirdi. Ingiltərə, başqa Qərb dövlətləri Şərqə çıxmaq üçün yeni yollar axtarışına başladılar. Ingilis tacirləri dolayı yollarla Azərbaycana çıxmaq, buradan Hindistana doğru hərəkət edib ədviyyat ticarətini ələ keçirmək fikrində idilər. Onlar üçün Azərbaycanın xam ipəyi, qazanclı satış bazarları ayrıca bir maraq mövzusu yaradırdı. 1561-1563-cü illərdə ingilislərin «Moskva» ticarət şirkətinin təmsilçisi Entoni Cenkinsonun Azərbaycana gəlişi bununla bağlı idi. Ancaq o, kraliça Yelizaveta hökumətinin rəsmi ticarət əlaqəsi yaratmaq tapşırığını uğurla həyata keçirə bilmədi. Soltan Süleyman Qanuni ilə münasibətləri pozmağın əleyhinə olan I Təhmasib ingilislərlə ticarət müqaviləsi bağlamadı. Geriyə dönərkən Cenkinsonun Şirvan bəylərbəyi Abdulla xan Ustaclu ilə danışıqları uğurlu oldu.

Abdulla xan Şirvanda Ingiltərə ticarəti haqqında ayrıca bir buyruq verdi (buyruğun öz mətnində o, «imtiyazlı fərman» adlandırılır). Burada deyilir: «Biz, Abdul-

la xan, göyü və yeri yaradan Allahın kəraməti ilə Şirvan və Hirkanda təyinatla indi hökmranlıq edən hökmdar, (mətndə «kral» red.) yalnız öz təşəbbüsümüz və böyük xeyirxahlığımız ilə, nəzakətli və bizim sevimli elçi Entoni Cenkinsonun israrlı təvəqqəsini və xahişini nəzərə alaraq, Ingiltərənin London şəhərindən olan çox hörmətli ser Uilyam Herrey ser Uilyam Cestora, ser Tomas Loca, cənab Riçard Melleriyə və cənab Riçard Çemberlenə onların bütün ticarət şirkəti ilə birlikdə tam sərbəstlik, (sərhəd və gömrüklərdən) maneəsiz keçib bizim tacirlərimiz və başqa adamlar ilə nəqd Pulla və ya dəyişmə yolu ilə alqı-satqı aparmaq, bizim ölkəmizdə istədikləri qədər qalıb yaşamaq, özlərinə və mallarına yubandırma, çətinlik və maneə göstərilmədən istədikləri vaxt çıxıb getmək icazəsi verdik və bağışladıq».

Bu, ingiltərəlilər ilə ticarət müqaviləsi deyil, «Şirvan və Hirkan kralının öz təşəbbüsü və xeyirxahlığı ilə» verilən birtərəfli dövlət fərmanı idi. Fərman ilə Ingiltərə tacirləri yalnız Azərbaycanda aldıqları mallar üçün deyil, buraya Avropadan satışa gətirdikləri mallar üçün də heç bir gömrük və ya vergi ödəməli deyildilər. Onları buna məcbur edən gömrük yığanlar və başqa dövlət qulluqçularının işdən çıxarılması, «bütün Pullar və malların» isə sahiblərinə qaytarılması fərmanda əmr edilirdi.

Belə bir rəsmi dövlət sənədinin verilməsində bəylərbəyi Abdulla xan Ustaclunun bir kral, yəni hökmdar kimi davranması, artıq XVI yüzildə mərkəzi Şah hökuməti qarşısında Şirvanın müəyyən ölçüdə avtonom siyasi vahid olduğunu göstərir.

Entoni Cenkinson Şirvanda qazanclı alış-veriş aparıb, buradan aldığı ipək, daş-qaş və sairə ilə vətəninə yola düşdü. Onun ardınca Azərbaycana Volqa-Xəzər yolu ilə bir çox ingilis tacirləri gəldi. Tomas Olkok, Corc Reni və Riçard Çenin ticarət birliyi 1563-1565-ci ildə Azərbaycanda oldu. Onlar Azərbaycandan aldıqları xam ipəyi Rusiya vasitəsi ilə Ingiltərəyə göndərdilər. 1565-1567-ci illərdə Azərbaycanda olmuş Artur Edvards I Təhmasiblə uğurlu danışıqlardan sonra şahın özündən ingilis tacirləri üçün toxunulmazlıq məktubu aldı. O, Şirvandan vətəninə göndərdiyi birinci məktubunda yazırdı: «Hazırda buradan Ingiltərəyə göndərmək üçün 11 tay xam ipək almışıq. Buranın ipəyi zərif və yüksək keyfiyyətlidir».

1568-1569-cu illərdə Volqa-Xəzər yolu ilə Artur Edvards, Con SParka, Lorens Çepmen, Xristofor Dovset başda olmaqla yeni Ingiltərə ticarət nümayəndəliyi Azərbaycana gəldi. Şah Təhmasib onlara da fərmanla ticarət imtiyazları verdi. Əslində bu, Artur Edvardsa öncə verilmiş fərmanın təkrarı idi. Bu fərmanda Ingiltərə ticarət adamlarına öz pulları ilə karvansaralarda yer tutmaq, ev kirələmək, azuqə almaq ixtiyarı verilirdi. 1569-1574-cü illərdə Ingiltərədən Azərbaycana Tomas Benister və Ceffri Deketin başçılığı ilə beşinci, 1680-ci ildə isə Xristofor Berrounun başçılığı ilə altıncı ticarət nümayəndəliyi gəldi. Sonuncu hər iki gəliş uğursuz oldu. Tomas Benister ilə Ceffri Deket geriyə dönərkən Volqada kazaklar tərəfindən qarət olundular. Xristofor Berrou Şirvanda savaş getdiyinə görə alış-veriş edə bilmədi.

XVI yüzilin 80-ci illərindən Volqa-Xəzər yolu ilə ingilislərin Azərbaycanda ticarət aparması xeyli çətinləşdi. 1572-ci ildən Rusiya, Ingiltərə tacirlərinin malları üzə-

rinə çox ağır gömrük qoymuşdu. Digər tərəfdən isə Qafqazda yeni savaşlar başlanmışdı. Bu iki səbəb üzündən bu yolla ingilislərin Şirvana çıxışı mümkün olmurdu.

XVII yüzilin əvvəllərində Osmanlı dövləti ilə barışıqdan sonra Azərbaycanın Şərq və Qərb ölkələri ilə ticarət əlaqələri yenidən gücləndi. Osmanlı dövləti Azərbaycan tacirlərinə Aralıq dənizi limanlarına çıxıb Qərbi Avropanın Genuya, Venesiya kimi ticarət mərkəzləri ilə alış-veriş aparmalarına razılıq vermişdi. 1635-ci ildə I Şah Səfinin Venesiya dojuna göndərdiyi məktubdan aydın olur ki, Osmanlı dövlətinə göndərilmiş elçi Ağarza İsfahani özü ilə apardığı ipəyi Venesiyaya göndərmişdi. İpək orada satılıb pulu Venesiya bankına qoyulmuşdu. Həmin ildə Venesiyaya göndərilən Mirzə Əli Təbrizi və Baba Əli Ərdəbili I Şah Səfinin məktubunu doжa verib, banka qoyulmuş pulu ayna, gözlük, tüfəng və mirvari ilə birlikdə götürdülər. Göründüyü kimi, ipək nəqd Pula satılmaqla yanaşı, onun bir qismi başqa mallara dəyişdirilmişdi.

Osmanlı dövləti ilə Azərbaycan arasında möhkəm ticarət əlaqəsi yaranmışdı. XVII yüzilin 30-cu illərindən Azərbaycan tacirləri Qərb ölkələrinə Osmanlı torpağından keçib gedir, Osmanlı dövlətinin özü ilə də ticarət aparırdılar. Osmanlı dövlətinə daha çox cins at, dəvə, xam ipək, rəng, Parça satılırdı. Şarden orada satılan cins atın hər birinin qiymətinin 1000 frank olduğunu bildirmişdir.

XVII yüzildə Rusiya tacirləri Azərbaycan şəhərləri ilə ticarət aparır, Azərbaycan tacirləri də Rusiya şəhərlərində mallarını satırdılar. Həştərxan şəhərinin iqtisadi əhəmiyyəti çox artmışdı. Qərbi Avropadan, Azərbaycan və başqa Şərq ölkələrindən Həştərxana tacirlər gələrək mallarını dəyişir, yaxud nəqd Pula satırdılar. Azərbaycan tacirləri Rusiyada və rus tacirləri Azərbaycanda dövlət səviyyəsində qorunurdu. 1618-ci ildə Şah I Abbasın sarayına göndərilən Rusiya elçisi M.M.Baryatinski Şirvan bəylərbəyi ilə görüşü haqqında yazır: «Yusif xan söhbət zamanı bildirdi ki, sizin böyük hökmdarın ticarət adamları bizim Şah Abbasın vilayətinə gələrkən birinci Şamaxıya daxil olurlar. Sizin ticarət adamlarınızı da şahınki kimi qoruyuram. Bütün təbəələrimə əmr edirəm ki, ticarət adamlarınızı incitməsinlər».

Rusiya ilə Azərbaycan arasında alış-veriş Volqa-Xəzər su yolu və Dərbənddən keçən qədim quru karvan yolu ilə aparılırdı. Dərbənd-Şabran-Muğan çölü, Cavad-Ərdəbil-Xalxal-Zəncan-Sultaniyyə-Əhər başlıca ticarət yolu idi. Şamaxı, Ərəş, Təbriz, Marağa şəhərləri də bu karvan yolu ilə bağlı idilər. Volqa çayı ilə gələn gəmilər isə Xəzərin Dərbənd, Niyazabad, Bakı limanlarına yan alırdılar. Tacirlər bu limanlardan yenə də quru karvan yoluna çıxıb mallarını istədikləri şəhərlərə aparırdılar.

1680-cı ildə Hollandiya elçisi öz ölkəsinin tacirlərinə Rusiyadan Azərbaycana gedən karvan yollarından istifadə etməyə icazə verilməsi barədə Rusiya dövləti qarşısında məsələ qaldırmışdı, Hollandiya tacirlərindən gömrük alınmamalı idi. Bunun müqabilində onlar Rusiya xəzinəsinə hər il 15 min manat verməyi öhdələrinə götürdülər. Ancaq rus tacirlərinin təzyiqi ilə çar Fyodor Alekseyeviç (1676-1682) bu təklifi rədd etdi.

Buna baxmayaraq, Hollandiya tacirləri Səfəvi dövlətində xam ipəyin əsas alıcıları idilər. Hələ I Şah Abbas 1623-cü ildə Hollandiya Ost-Hind şirkətinə Bəndər-Abbasda ticarət faktoriyası açmağa icazə vermişdi. Daxili və xarici ticarəti inkişaf etdirərək dövlət büdcəsini başlıca gəlir qaynağına çevirməyə çalışan I Şah Abbasın İngilis Ost-Hind şirkəti ilə yanaşı Holland Ost-Hind şirkətinə də Səfəvi dövləti ticarətində böyük imtiyazlar verməkdə əsas məqsədi onları qarşı-qarşıya qoyaraq siyasi məqsədlərindən yayındırıb, diqqətlərini daha çox Səfəvi dövləti ilə iqtisadi əlaqə uğrunda mübarizəyə yönəldib, bundan daha çox fayda götürməkdən ibarət idi. I Şah Abbasın daxili siyasətinə sadiq olan I Şah Səfi də 1645-ci ildə Holland şirkətinə bütün Səfəvi dövləti ərazisindən ipək almaq və ona gömrük ödəmədən ixrac etmək hüququ vermişdi. Nəticədə XVII yüzilin ortalarında Səfəvi dövlətinin ipək ticarətində birinci yeri tutdular. Onlar okeanlardan keçən karvan yolları ilə ticarət aparırdılar. Şardenə görə Hollandiya tacirləri hər il şahın adamlarından 600 tay ipək alırdılar. Səfəvi imperatorluğu bazarlarından hollandları sıxışdırmağa çalışan ingilislər XVII yüzilin ortalarında hollandlardan sonra Azərbaycan ipəyinin əsas alıcıları idi.

XVII yüzilin ikinci yarısında Qərbi Avropa ticarət kapitalı Rusiya kapıtalının rəqabəti ilə də qarşılaşdı. 1667-ci ildə Rusiya hökuməti Culfa ticarət şirkəti ilə müqavilə bağladı. Müqaviləyə görə şirkət xam ipəyi Rusiyaya satmalı, yaxud Avropaya Rusiya vasitəsi ilə ixrac etməli idi. 1672-ci ildə Şah Süleyman (1666-1694) çar Aleksey Mixayloviçə (1645-1676) yazdığı məktubda Culfa şirkətinin bağladığı müqavilə ilə razılaşdığını bildirirdi.

Rus tacirlərinə Azərbaycanda gömrüksüz ticarət etmək, karvansara və ticarət evlərindən Pulsuz istifadə etmək hüquqları verilmişdi. Amma buna baxmayaraq, Rusiya tacirləri Şərq bazarlarında Qərbin ticarət adamlarını sıxışdıra bilmir və hollandlar əvvəlki üstünlüklərini qoruyub saxlayırdı.

XVII yüzilin sonlarında ölkə miqyasında xam ipəyin keyfiyyətinin aşağı düşməsi, xam ipək və ipək parça istehsalının azalması Azərbaycan Səfəvi dövlətinin iqtisadi inkişafına mənfi təsirlər göstərmiş, dövlətin xarici ticarət əlaqələrini də zəiflətmişdi. XVII yüzilliyin 70-80-ci illərində zərli ipək Parçaların Osmanlı dövləti və Hindistanda istifadə edilməsi qadağan edilmişdi. Ölkədə gümüş böhranı ilə yanaşı, tədavülə qəlp sikkələrin daxil olması pulun alıcılıq qabiliyyətini aşağı düşürmüşdü. Bu zaman sərhəd gömrük məntəqələrində qanunlara əməl edilmir və tacirlərdən əlavə rüsumlar tələb olunurdu. İqtisadi böhran dərinləşdikcə ölkə miqyasında iqtisadi çətinliklərdən istifadə edən hindli tacirlər yerli bazarlarını tutmağa başlamışdılar. Və bu tacirlər bazarlara gətirdikləri mallarla üstünlüyü ələ alaraq artıq 4-5 min manat və ondan bir qədər çox ticarət əməliyyatı icra edirdilər. Səfəvi-Hindistan ticarətində balans passivləşməklə Səfəvi dövlətinin gümüş və qızıl sikkələri, habelə qızıl, gümüş məmulatları Hindistana axıb gedirdi.

Ölkə miqyasında sənətkarlıq məhsulu istehsalının azalması da iqtisadi tənəzzüllə səciyyəvi olub, karxanaların təkamülünə əylədici təsirlər göstərərək, onların manufakturaya çevrilməsinin qarşısını almışdı.

**Torpaq sahibliyi.** Səfəvilərin hakimiyyətə gəlişi torpaq münasibətlərinə də dəyişiklik gətirdi. Torpaq münasibətlərinin məzmunu başlıca olaraq iri torpaq sahibliyi ilə yanaşı xırda kəndli təsərrüfatlarının varlığı ilə bağlı idi.

Dövlət torpaqları əraziyi-divani, şah və onun ailə üzvlərinin torpaqları isə xassə ərazisi (əraziyi-xasseyi-şərifə) adlanırdı. Bu ikisi geniş torpaq sahələrini özündə birləşdirirdi. I Şah İsmayıldan başlayaraq, xüsusilə I Şah Abbas zamanı Səfəvi şahları tutduqları yerlərdə torpaqları əvvəlki sahiblərinin əlindən alaraq divan, yaxud xassə əmlakına qatırdılar. Azərbaycanla yanaşı, Fars, Gilan, Xorasan, Isfahan və Heratda münbit torpaqların çoxu əraziyi-xassə idi. Hər iki əmlakın idarə olunmasına Şah özü başçılıq edirdi. Əraziyi-divaninin maliyyə işləri ilə sərkari-divan, xassəninki ilə sərkari-xassə məşğul olurdu. Divan torpaqlarından yığılan vergilər dövlət aparatı və qoşunun saxlanmasına xərclənirdi. Xassənin gəliri isə saray və şah ailəsinə sərf olunurdu.

Mülki və hərbi qulluqçulara xidmətlərinə görə, dövlət torpaqlarından soyurqal, tiyul (çox nadir hallarda iqta) adı ilə ömürlük, yaxud irsi mülklər verilirdi. Soyurqal əslində iqtanın davamı idi. O da iqta kimi irsi olub nəsildən-nəslə keçirdi. Ancaq hakimiyyətə gələn hər bir yeni şah soyurqal sahibinin torpaq üzərində sahibkarlıq hüququnu fərmanla təsdiq etməli idi. Soyurqal sahibi inzibati-hərbi xidmətdə olmaqla, istənilən anda şah ordusuna müəyyən sayda atlı və Piyada döyüşçü verməli idi. Soyurqal sahiblərinə maafi, yəni vergi imtiyazı verilirdi. Bu imtiyaz soyurqal sahibini dövlət vergisindən azad etmirdi. Ancaq soyurqal ərazisində bütün vergilərin toplanmasını onun ixtiyarına verir, soyurqalın maliyyə işlərinə dövlətin qarışması üzərinə yasaq qoyurdu.

Soyurqal ərazisi iqtadan geniş olurdu. Soyurqal sahibinə məhkmə-inzibati hüquqlar da verilirdi. Soyurqal sahibi ona verilən ərazinin mülki, məhkəmə-inzibati, hərbi idarələrinə başçılıq edirdi.

XV əsrdən fərqli olaraq XVI əsrdə I Şah Ismayıl, xüsusilə I Şah Təhmasib dövründə soyurqal hərbi əsilzadələrə deyil, seyidlərə, ruhanilərə, alimlərə, şairlərə verilirdi. Şah Ismayıl hakimiyyətə gəldikdən sonra Qaracadağ sufilərinə başçılıq edən Ənsarilərin Qaradağdakı soyurqal hüquqlarının saxlanması barədə fərman verdi. I Təhmasib Təbriz yaxınlığındakı Üskuyə kəndinin seyidlərinə soyurqallar Payladı.

Bununla yanaşı, Səfəvi şahları dövlət hakimiyyətinin mərkəzləşdirilməsinə uyğun gələn yeni torpaq siyasəti yeritməyə çalışırdılar. Soyurqalı xidmətə görə verilən şərti mülklərlə əvəz etməyə başladılar. Başlıca məram xidmət müqabilində şərti torpaqlar alan əsilzadələrdən dövlət üçün yeni dayaq yaradılması idi.

Yeni sahibkarların torpaq üzərində irsi mülkiyyətçilik hüquqları azaldılıb kəsilir, bununla da əyanların mərkəzdənqaçma meyllərinin qarşısı alınırdı. XVI-XVII yüzillərdə soyurqal torpaq sahibliyi sıxışdırılır, onun əvəzinə tiyullar Paylanırdı.Tiyul şərti mülk idi, dövlət qulluqçularına müvəqqəti, yaxud ömürlük verilirdi. Şahın fərmanı əsasında tiyul ərazisindən toplanılan verginin bir hissəsi yaxud hamısı tiyuldara çatırdı. Tiyul ərazisində tiyuldarın idarə hüququ yox idi. XVI yüzildə divan və xassədən bütöv bir mahal, yaxud yalnız bir kənd də tiyul kimi

verilə bilirdi. Bəzən bir yer eyni vaxtda iki əsilzadəyə tiyul verilirdi. Təbii, tiyuldarlar belə tiyulda yaşamırdılar. Tiyuldan sonra çatası vəsaiti dövlətin maliyyə məmurları toplayıb verirdilər. Tiyuldara tiyulu idarə etmək hüququ çox nadir halda nəsib olurdu.

XVII yüzilin əvvəllərində dövlətin ixtiyarında olan torpaqlardan mərkəzi idarədəki dövlət məmurlarına, hərbçilərə yeksale və həmesale adlı tiyullar verilirdi. Həmesale tiyulları ilə onun sahiblərinin əlaqəsi olmurdu. Onlar tiyuldan onlara çatası Pulu dövlət xəzinəsindən alırdılar. Otlaqları, əkin yerləri, oturaq kəndliləri olan mahallar köçəri və yarımköçəri tayfalara irsi dolanışıq üçün də verilirdi. Tayfalar üçün verilən torpaqlar həmin tayfanın başçısına (əmirinə) verilən tiyuldan fərqlənirdi.

Ənənəvi vəqf əmlakı xeyli genişlənmişdi. Vəqf əmlakına geniş torpaq sahələri ilə yanaşı kəhrizlər, dükanlar, rastabazarlar, sənətkar karxanaları, karvansaralar, dəyirmanlar, hamamlar və s. daxil idi. Vəqflər iki yerə bölünürdü. Bunlardan vəqfi-xeyriyyə dini idarələrin, vəqfi-əhliyyə isə din xadimlərinin mülkləri idi. Vəqflərin xüsusi vergi və məhkəmə imtiyazları vardı. Vəqflər xüsusi qaydalarla idarə olunur, onlardan dövlət vergiləri yığılmırdı. Onların toxunulmazlıq hüququ var idi. Vəqf əmlakı satıla və bağışlanıla bilməzdi. Vəsiyyətlərlə verilən əmlaklar hesabına məscid, mədrəsə, xanəgahların vəqfləri genişlənirdi.

Feodalların şəxsi torpaq sahibliyi mülk idi. Mülk sahibinin islam qanunları əsasında dövlətdən torpaq almaq hüququ vardı. Eyni zamanda dövlət də öz növbəsində xidmətlərinə görə ayrı-ayrı adamlara torpaq sahəsini mülk kimi bəxşiş edə bilərdi. Mülk sahiblərinin torpaqlarını sərbəst bağışlamaq, satmaq, varisinə vermək hüquqları var idi. Mülk sahibi torpağını vəsiyyətlə istədiyi dini idarəyə də bəxş edə, yaxud varisinin mülki hüququ saxlanılmaqla hər hansı vəqf əmlakının himayəsinə keçirə bilərdi. Axırıncı halda varis həmin torpağı alıb-satmaq hüququnu itirmiş olurdu. Yalnız bu halda varisin ata mülkünün gəlirindən Pay almaq hüququ qalırdı.

İcma torpaq sahibliyinə camaat da deyilirdi. Bu torpaqlar kənd icmaçılarının –camaatın istifadəsində idi. Icmanın başçısı ağsaqqal adlanırdı. O, icmaçılar arasında vergiləri bölür və yığırdı. Əvəzində verginin müəyyən hissəsi ona çatırdı. Icma başçısı vəzifəsi çox vaxt irsən keçirdi. Hər bir icmanın sənətkarları var idi. Onlar xırda vergilər ödəyirdilər. Sənətkarları icma öz hesabına saxlayırdı.

Böyük torpaq sahibləri icmaları sıxışdırıb, torpaqlarını ələ keçirirdilər. Onlar burada öz rəiyyətlərini yeniləşdirib, torpaqlarını onlara icarəyə verirdilər. Icarə haqqı olaraq götürülən məhsulun 2/3 hissəsi torpaq sahibinə ödənilirdi.

İcma torpaqları az məhsul verən dağlıq bölgələrdə daha çox qalırdı. Sayı getdikcə azalan azad icmalarla yanaşı, dövlətə və iri torpaq sahiblərinə tabe icmalar da vardı.

**Hakim zümrə. Kəndlilər.** XVI-XVII yüzillərdə hakim zümrə dörd əsas qola bölünürdü: 1. Yarımköçəri qızılbaş tayfaların hərbi əyanları (başqa tayfalardan və şah qvardiyası sıralarından olan hərbçilər də buraya daxil idi, ancaq onlar sayca

çox deyildi); 2. Ali müsəlman ruhaniləri; 3. Mərkəzi və yerli idarələrin mülki məmurları; 4. Qədim oturaq yerli əyanlar.

Hakim zümrə tərkibində qızılbaş tayfa əyanları başlıca yer tuturdular. Dövlətdə siyasi və hərbi hakimiyyət onların əlində idi. Səfəvi imperatorluğunun bütün yerli idarələrində də qızılbaş tayfa əyanları hakimiyyətdə olub, ən iri torpaq sahibkarları da onlar idilər. I Şah Abbasın islahatlarından sonra şah qvardiyası sıralarından yeni hərbi əyanlar yaranırdı. Ancaq yerli dayaqları olmadığı üçün onlar qızılbaş tayfa əsilzadələrini sıxışdıra bilmədilər. I Şah Abbasdan sonra qızılbaş tayfa əyanları ilə çəkişmədə onların əvvəlki mövqeyi sarsıdıldı. Onlar dövlət quruluşunda qızılbaşların hakimiyyətini qəbul etmək məcburiyyəti qarşısında qaldılar.

Vəqf əmlakı ilə bağlı olan ali müsəlman ruhanilərinin də böyük nüfuzu vardı. Onların çoxu iri torpaq sahibləri idilər. Mərkəzi və yerli idarələrdə çalışan məmurlar da hakim zümrənin mühüm qolu idilər. Maliyyə idarələrinin topladığı vergilərin müəyyən hissəsi onların saxlanılmasına xərclənirdi. Qədim oturaq əsilzadələr əsasən mülk sahibləri idilər. Qarabağ və Şirvanın bir çox məmurlarının başçıları oturaq əyanlar içərisindən təyin edilirdi.

XVI-XVII yüzillərdə kəndlilərin təbəqələşməsi genişlənməkdə idi. Bu dövrdə kənd əhalisinin xeyli hissəsi ümumdövlət iqtisadi bazarı ilə bağlı olan varlı sahibkar kəndlilərdən ibarət idi. Azad kəndlilərin - icmaçıların sayı getdikcə azalır, torpaqlarını itirən kəndlilərin sayı isə artırdı. Torpaqsız və aztorpaqlı kəndlilər feodallardan torpaq icarəyə götürürdülər.

**Vergi və mükəlləfiyyətlər**. Kənd və şəhər əhalisi dövlətə, sahibkarlara müxtəlif vergilər ödəyirdilər. Eyni zamanda bir çox mükəlləfiyyətlər daşıyırdılar. Səfəvilər dövründə vergilərin toplanmasında bir çox illər Uzun Həsənin Qanunnaməsi əsas götürülmüşdü. Ağqoyunlu Sultan Yaqubun 1488-ci il fərmanında adı keçən 27, Ağqoyunlu Qasımın isə 1498-ci ildə soyurqal haqqındakı fərmanında xatırladılan 31 növ vergi və mükəlləfiyyətin demək olar hamısı qüvvədə qalırdı.

XVI yüzilin əvvəllərindən Azərbaycanın ictimai-siyasi, iqtisadi həyatında irəliləyişlər və Səfəvi şahlarının iqtisadi siyasətinə uyğun olaraq köhnə vergi sistemində müəyyən dəyişikliklər edilmişdi.

Şah I Təhmasib 1555/6-cı ildə vergi, mükəlləfiyyət və cərimələrin miqdarını aydınlaşdırmaq üçün 96 maddədən ibarət qanun verdi. Bu qanun (dəstur əl-əməl) daş üzərinə yazılıb Təbriz şəhərinin meydanına qoyuldu. 1565-ci ildə isə Azərbaycan, İraq, Fars, Xorasan, Şirvan və Kirmanda tacir və sənətkarlardan alınan tamğa vergisinin ləğv olunmasına dair onun fərmanı çıxdı. Zərbxanalardan da tamğa vergisinin alınmasına son qoyuldu. Təbriz sənətkarlarına aid ayrıca fərman ilə şah onları qanunla toplanılan bütün vergilərdən azad etdi. Həmin fərman daş lövhə üzərinə yazılıb Təbriz məscidlərindən birinin qapısına bərkidildi. Rəiyyətin üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin sayı 35-dən çox idi. Alınan vergilər bir qayda olaraq maliyyə idarələrində vergi dəftərinə yazılırdı. Amma bir çox mükəlləfiyyətlər vergi dəftərlərində yazıya alınmırdı.

Malcəhət (xərac) başlıca vergi olub, torpağın münbitliyinə və ya yığılan məhsulun həcminə görə alınırdı. Vergi ümumi məhsulun 1/5, yaxud 1/3 hissəsinə bərabər idi. Bağbaşı bağlardan toplanılan məhsulun 1/10 həcmində alınırdı; Çobanbəyi otlaqlardan istifadə əvəzinə alınırdı. Ələfə və Ülfə ordunun ərzağı və atlarına verilən yem, ulaq nəqliyyat mükəlləfiyyəti, qonalgə yol gedən elçi, qasid məmura verilən yer və ərzaq, rəsmi-sədarə baş ruhani xeyrinə yığılan rüsum, rəsmi-vüzarə vəzirlərin xeyrinə alınan rüsum, rüsum daruğəgi polis rəisi üçün alınan rüsum, rüsumi-ümmal maliyyə idarəsi işçiləri üçün alınan rüsum idi.

XVI-XVII yüzillərdə Azərbaycanda torpaq rentası məhsul, pul və biyar şəklində mənimsənilirdi. Avarizat adlı vergi məhsulla da, pulla da alınır və bəzən isə işləyib ödəmə şəklində yerinə yetirilirdi. Ancaq əvvəlki yüzilliklərdə olduğu kimi vergilər əsasən məhsul (natura) şəklində ödənilirdi.

**XVI-XVII əsrlərdə Azərbaycan mədəniyyəti.** XVI əsrin baçlanğıcında Azərbaycan Səfəvi dövlətinin yaranması, habelə mərkəzləşdirilmiş siyasi qurumun qüvvətlənməsi ilə əlaqədar xalqın mədəniyyəti də xeyli inkişaf etdi. Gəncə, Təbriz, Şamaxı, Marağa, Ərdəbil, şəhərləri bu dövrün mühüm mədəniyyət mərkəzləri kimi tanınmışdı.

XVI əsrdə Azərbaycan mədəniyyətindən danışarkən ilk növbədə maarif, elm sahələri haqqında söhbət açmaq lazımdır. Məktəb və mədrəsələrdə həm şəriət,həm də riyaziyyat, məntiq, fəlsəfə, nücum və.s fənlər tədris olunurdu.Təbrizdə böyük kitabxana var idi.Marağa rəsədxanası bərpa olundu. I Təhmasibin sarayında qulluq edən, hətta onun yürüşlərinin iştirakçısı olan Həsən bəy Rumlu 12 cildlik "Əhsən ət-Təvarix" (Tarixlərin ən yaxşısı) əsərini yazmışdı. Xandəmir təxəllüsü Qiyasəddin ibn Hümaməddin əl Hüseyn (1475-1536)çoxcildlik əsərlər külliyyatının bir hissəsini Səfəvilər dövlətinin yaranmasına həsr etmişdir.

Şərəf xan Bitlisi "Şərəfnamə"əsərində XVI əsr Sıfıvilər dövlətinin zəifləməsi haqqında məlumat verir.

Bu dövrdə tibb elmi də inkişaf edirdi. Əbdül Fəth Təbriz, Əli Təbrizi, İmadəddin Mahmudi kimi məşhur həkimlər vardı. Əsərlər xəttatlar tərəfindən yazılırdı.

I Şah İsmayılın sarayında "şairlərin şahı" –"məlik ül-şüara" Həbibi başda olmaqla Sürури, Şahi, Matəmi, Tüfeyli,Qasimi kimi şairlər var idi. Şah İsmayıl özü Xətai təxəllüsü ilə türk dilində yazırdı. Onun "Divan","Nəsihətnamə","Dəhnamə" adlı şerlər toplusu var idi.

XVI əsr Azərbaycan ədəbiyyatının, həm də Şərq dünyasının ustadı Məhəmməd Füzuli (1494-1556) elm və mədəniyyət mərkəzlərindən olan Bağdadda yaşayıb yaratmışdır. Klassik ədəbiyyata yaxından bələd olan Füzuli "Leyli və Məcnun", "Şikayətnamə", " Bəngü-badə" əsərlərinin müəllifidir. Ərəbcə isə "Mətlə-ül etiqad" ("Etiqadın mənşəyi") əsərini yazmışdır.

Şifahi xalq yaradıcılığının yeniforması olan dastanlar yaranır XVI əsr Azərbaycan musiqisinin görkəmli nümayəndəsi xanəndə Hafiz lələ olmuşdur.Təbriz miniatür məktəbi bütün Şərqdə məşhur idi.Sultan Məhəmməd və onun məktəbinin

yetirmələri Kəmaləddin Behzad, Mir Müsaviri, Mir Zeynalabdin Təbrizi və.b. dünya incəsənət tarixinin inkişaf salnaməsinə unudulmaz səhifələr yazmışdılar.

XVI əsrdə Azərbaycanda çoxlu sosial binalar,karvansara,hamam,ovdan, körpü, məqbərə,məscid tikilmişdir. 1544-cü ildə Qusarın Həzrə kəndində,Samur çayı sahilində Şeyx Cüneyd məqbərəsi,Qubanın Ağbil kəndindəki məqbərə, Naxçıvan MR Qazançı kəndi yaxınlığında Lincə çayı üzərində tikilən körpü, usta Əmirşah tərəfindən tikilən Bakının Şərq darvazaları və.s. göstərmək olar.

XVI-XVII əsrlərdə Azərbaycan Səfəvi dövlətinin mərkəzləşmiş dövləti xalqın mədəniyyətinin xeyli inkişaf etməsinə səbəb oldu. Gəncə,Təbriz, Şəmaxı, Marağa, Ərdəbil kimi mədəniyyət mərkəzləri öz nüfuzunu itirməmişdi. Həm dünyəvi həm də dini elmlər inkişaf edirdi. Astronomiya sahəsində Qiyasəddin Mənsur ibn Əmir Sədrəddin Məhəmməd Şüyx Bəhaəddin Amil,Mövlana Əlirza Təbrizi kimi alimlər vardı. Onlar Marağa rəsədxanasının bərpası ilə məşğul oldular.

Riyaziyyatda Şeyx Məhəmməd Şəbüstərinin ardıcılları Şeyx Abdulla Şəbüstərizadə, Təbrizli Seyid ƏhmədLaləvi, təbrizli Mirzə İbrahim (həm də fəlsəfə sahəsində), dövrünün məşhur münəccimi Mövlana MəhəmmədƏrdəbili, şirazlı alim Mahmud bəy Füsuni (riyaziyyat,astronomiya), təbabətdə I Şah Təhmasibin şəxsi həkimlərindən Əbülfəth Təbrizi,İmadəddin Mahmud İmnanuri, Mövlanə Kəmaləddin Hüseyn oğlu Nurəddin və.b.göstərmək olar. Məşhur ensiklopediyaçı alim Məhəmməd Hüseyn Xələf oğlu Təbrizi, Şirvan alimi Mövlana Mirzə Məhəmməd, filosof Yusif Məhəmmədcan oğlu Qarabağı kimiləri öz müasirlərindən seçilirdilər.

XVI-XVII əsr tarix elmi sahəsində çalışan alimlərdən Həsənbəy Rumlu, Fəzli İsfahani, İskəndər bəy Münşi öz dövrünün tarixi, diplomatik,dövlət işlərini, hadisələrini çox gözəl qələmə almışlar.

XVI-XVII əsrlərdə əsərləri məktəbdə elm kimi tədris olunan filosof Xacə Nəsrəddin Tusini göstərmək olar. Həmçinin Aristotel, Arximed, Evklid,Qalileyin əsərlərindən də məktəblərdə istifadə olunurdu.

Çoxlu məktəb və mədrəsələr tikilmişdi. Bəzi alimlərin öz ali təhsil müəssisəsi vardı. Maarif əsasən şəhərlərdə yayılırdı. Kəndlilərin böyük əksəriyyəti savadsız idi.

XVII əsrdə Azərbaycanda kitablar,adətən xəttatlar tərəfindən üzü köçürülməklə yazılırdı. Kitabxanaçılıq da inkişaf edirdi. I Şah İsmayıl Təbriz kitabxanasına diqqəti həmişə artırırdı.Özünün kitabxanasında minlərlə nüsxə kitab vardı. Şeyx Səfi məqbərəsindəki kitabxananın şöhrəti böyük idi.

XVI-XVII əsrlərdə ədəbiyyat sahəsində Məhəmməd Əmani,Əlican Qövsi Təbrizi, Məsihi,Saib Təbrizi, Tərzi Əfşar,aşıq yaradıcılığında “Aşıq Qərib” “Abbas və Gülgəz, “Şah İsmayıl” “Əsli və Kərəm”dastanları,Qurbani, Abbas Tufarqanlı,Sarı Aşıq Abdulla kimi xalq poeziyasının nümayəndələri var idi.

*§ 1. XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin siyasi və sosial-iqtisadi həyatı, xalq hərəkatı və üsyanlar.*
*§ 2. I Pyotrun Azərbaycana işğalçılıq yürüşü və onun ağır nəticələri. İstanbul sülhü (1724-cü il) və Azərbaycan ərazilərinin bir hissəsinin Rusiya və Osmanlı hakimiyyəti altına keçməsi.*
*§ 3. Səfəvi imperiyasının süqutu, Əfşarlar imperiyasının meydan gəlməsi.*
*§ 4. Azərbaycan Nadir şah Əfşarın dövründə (1736-1747-ci illər).*

## *§ 1. XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin siyasi və sosial-iqtisadi həyatı, xalq hərəkatı və üsyanlar*

XVII əsrin sonu – XVIII əsrin başlanğıcında Səfəvi dövləti dərin iqtisadi və siyasi böhran keçirirdi. Dövriyyədə gümüş pul çatışmamazlığı yarandı, dövlət xəzinəsi tamamilə boşalmışdı. Ərdəbil məqbərəsindəki əşyaları (qızıl, gümüş və mis) əridib pul kimi istifadə edirdilər Şah Sultan Hüseynin(1694-1722) gördüyü tədbirlər maliyyə böhranının qarşısını ala bilmədi. Mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən iri feodallar müstəqilliyə can atırdılar.

Böhran əhalinin vəziyyətini ağırlaşdırmışdı. Bu zaman Azərbaycanda olmuş rus diplomatı A.Volinski Səfəvi imperiyasının taxıl anbarı sayılan Azərbaycanda tarlaların 7 il əkilməməsindən, ölkədə aclığın hökm sürməsindən yazırdı. Şah Sultan Hüseynin vergini artırması nəticəsində xalq var-yoxdan çıxdı və vəziyyəti daha da ağırlaşdı. Ölkədə şah hakimiyyətinə və feodal zülmünə qarşı xalq hərəkatı genişləndi.

**Car-Balakən, Şamaxı, Təbriz** və digər ərazilərdə xalq hərəkatı başladı. 1707-ci ildə başlanana Car-Balakən üsyanının əsas səbəbi sosial zülm idi. Lakin şah qoşunları onu amansızlıqla yatırdı, Car kəndi yandırıldı. 1711-ci ildə Car-Balakəndə üsyan yenidən başlandı. Üsyançılar silahlanıb Şamaxıya hücum etdilər, döyüşdə qalib gəldilər və Şirvan bəylərbəyini öldürdülər. Şah Sultan Hüseyn Keyxosrovu Şirvana yeni bəylərbəyi təyin etdi.

Muğan əhalisi də mərkəzi hakimiyyətdən üz döndərdi. A.Volinski qeyd edir ki, onlar şahın göndərdiyi hakimi qəbul etmədilər, hakimi öz aralarından seçdilər. 1709-cu ildə Şəki, Şirvan və Təbrizdə sənətkar və yoxsulların üsyanı baş verdi. 1709-1715-ci illərdə Soucbulaq və Muğanda sosial zülmə qarşı kəndli üsyanları olmuşdur.

Feodal zülmünə qarşı mübarizənin əsas mərkəzlərindən biri Şirvan və Cənubi Dağıstan idi. Burada üsyana Müşkür mahalından olan sin xadimi Hacı Davud başçılıq edirdi. 1719-cu ildə müşkürlü Hacı Davud üsyan qaldırdı, Dərbənd, Şirvan və Xudata hücum etdi və buna görə 1719-cu ildə Səfəvi hakimiyyəti tərəfindən həbs olundu.

1720-1721-ci illərdə Şirvan və Cənubi Dağıstanda üsyan yenidən alovlandı və həbsdən qaçan Hacı Davud üsyana rəhbərlik etməyə başladı. Hacı Davud qazıqumuxlu Surxay xanla birləşərək 1720-ci ildə Şabran və Xudat qalasını tutdu. Bundan sonra üsyançılar Şamaxını, Bakını və Dərbəndi tutmağa çalışsalar da, onların cəhdləri nəticəsiz qaldı. Bu şəhərləri öz gücü ilə tuta bilməyən Hacı Davud 1721-ci ilin 22 aprelində Rusiyaya müraciət edib hərbi yardım istədi. Hacı Davud müraciətində həmçinin Rusiya təbəəliyini qəbul etmək istəyini və Rusiyaya canlabaşla xidmət edəcəyini də bildirdi. Həştərxan general-qubernatoru A.P.Volinskinin məsləhəti ilə çar I Pyotr Hacı Davudun təklifini rədd etdi.

Min nəfərlik Dağıstan süvariləri ilə birləşən Hacı Davud öz qüvvələri ilə 1721-ci il avqustun 10-da Şamaxıya hücüm etdi, əhalinin köməyi ilə şəhəri tutdu. Bəylərbəyi Keyxosrov xan və 800 Səfəvi tərəfdarı öldürüldü. Bir çox ölkələrdən gələn əcnəbi tacirlər, o cümlədən rus tacirləri üsyançılar tərəfindən qarət edildi, bəziləri qətlə yetirildi. Üsyançılar müqavimətə rast gəlmədən Gəncəyə qədər irəliləsələr də, Gəncədə məğlub olub geri qayıtdılar. 1721-ci ilin oktyabrında Hacı Davud və Surxay xan Osmanlı sultanı III Əhmədə (1703-1730) müraciət edərək Osmanlı təbəəliyini qəbul etməyə hazır olduqlarını bildirdilər və Sultandan qoşunlarla kömək etməyi xahiş etdilər. Rusiyadan fərqli olaraq III Əhməd onların müraciətinə müsbət cavab verdi və Hacı Davuda Şirvan xanı titulu verildi.

XVIII əsrin 20-ci illərinin əvvəlində Şimali Azərbaycanda və Dağıstanda Səfəvi hakimiyyətinə qarşı yönəlmiş üsyanın iştirakçıları kəndlilər, yerli feodallar, rühanilər idi. Bu üsyan müəyyən dərəcədə dini xarakter daşısa da, mahiyyət etibarı ilə şah zülmünə qarşı sosial hərəkat idi.

1722-ci ildə Əfqan tayfaları Səfəvilərə qarşı üsyan qaldırdılar. Səfəvilərin paytaxtı İsfahanı 8 ay mühasirədə saxladılar, şəhəri yalnız həmin ilin sentyabrın 23-də tutdular. Səfəvi şahı Sultan Hüseyn üsyanın başçısı Mir Mahmud xanın düşərgəsinə gəldi, taxt-tacı və digər şah nişanlarını ona təslim etdi. Şah Sultan Hüseyn və bütün ailə üzvləri əsir alındı. Şahın böyük oğlu Təhmasib əfqanlara təslim olmadı, Azərbaycana qaçdı, Astarabadda özünü II Təhmasib adı ilə şah elan etdi. Şah Sultan Hüseyn II Təhmasibi şah kimi tanımadı. Rusiya Səfəvilər dövlətindəki ikitirəlikdən istifadə etməyi və Azərbaycan torpaqlarını ələ keçirməyi qərara aldı.

### *§ 2. I Pyotrun Azərbaycana işğalçılıq yürüşü və onun ağır nəticələri*

Rusiya yetərincə hərbi-siyasi gücə malik olmadığına görə XVIII əsrə qədər Azərbaycana qarşı ancaq iqtisadi siyasət həyata keçirmişdir. XVIII əsrin əvvəllərində Rusiya iqtisadi və siyasi cəhətdən qüvvətləndi və Azərbaycanı hərbi yolla tutmaq planları qurmağa başladı. Çar I Pyotr və ətrafındakılar hesab edirdilər ki, Azərbaycan Rusiyanın inkişaf etməkdə olan manufakturası üçün xammal bazası və satış bazarı ola bilər. Rusiya eyni zamanda Xəzər dənizi hövzəsindən keçən ticarət yolunu ələ keçirib, Avropa ölkələri ilə ticarətdə vasitəçi olmağa çalışırdı. Rus çarı I Pyotr (1689-1725) Səfəvi dövlətinin ağır vəziyyətindən istifadə edərək

öz niyyətini həyata keçirməyə çalışırdı. I Pyotr Səfəvi dövlətindəki vəziyyəti öyrənmək üçün A.Volınskinin başçılığı ilə 1715-ci ildə oraya elçilik göndərmiş və ona bir sıra gizli tapşırıqlar da vermişdi. Elçilik karvan yolları, otlaqlar və müdafiə qüvvələrinin vəziyyətini öyrənməli idi. Eyni zamanda, Peterburq Elmlər Akademiyasının alimləri – İ.Lepexin, S.Qmelin, Klaprot və başqaları elmi axtarışlar adı ilə Azərbaycanın təbii sərvətlərini öyrənir və qiymətli məlumatları Peterburqa ötürürdülər. Kəşfiyyat xarakterli məlumatların Rusiyaya ötürülməsində erməni tacirlər canfəşanlıq edirdilər.

Azərbaycan və Xəzər dənizi hövzəsinə dair Osmanlı dövlətinin də öz planları var idi. Rusiya hər vasitə ilə Osmanlı dövlətinin Xəzər dənizinə yolunu kəsmək istəyirdi. Cənubi Qafqazın xristian əhalisi, xüsusən də ermənilər Rusiyanın bu işğalçılıq planının həyata keçməsinə kömək edirdilər. Onlar Rusiya dövlətinə özlərinin himayədarı kimi baxırdılar.

**Azərbaycanın Xəzəryanı bölgələrinin Rusiya tərəfindən işğalı.** 1721-ci ildə Şimal müharibəsində İsveç üzərində qələbə çaldıqdan sonra I Pyotr Xəzəryanı bölgələrə yürüşə başladı. Bunun üçün bəhanə 1720-1721-ci il üsyanı zamanı Şamaxıda rus tacirlərinin öldürülməsi və malların qarət edilməsi oldu. Osmanlı dövləti ruslara qarşi Haci Davudan istifadə etmək qərarına gəldi. Osmanlı dövləti ona xan rütbəsi verdi və onun səlahiyyətlərini Krım xanına verilən səviyyəyə qaldırdı.

**1722-ci il iyunun 18-də** I Pyotr Həştərxandan hərbi səfərə başladı. Rus qoşunları dəniz və quru yolla Dərbəndə doğru irəliləyirdilər. I Pyotr hərbi səfərə başlamamışdan əvvəl Azərbaycan, fars, ərəb dillərində Bəyannamə hazırlatdırıb Azərbaycana göndərmişdi. Orada Rusiyanın planları pərdələnir və göstərilirdi ki, guya hərbi səfərdə məqsəd yerlərdə əmin-amanlıq yaratmaq, rus tacirlərini qarət edənləri cəzalandırmaqdır. Səfəvi dövləti Rusiyanın bu hücumuna heç bir müqavimət göstərə bilmədi. 1722-ci il avqustun 15-də rus eskadrası, avqustun 23-də isə piyada qoşunları Dərbəndə çatdı. Müqavimət göstərməyin mənasız olduğunu görən şəhər hakimi İmanqulu xan qala darvazalarının açarını və "Dərbəndnamə"nin XVI əsrə aid əlyazmasını I Pyotra təqdim etdi. I Pyotr Senata göndərdiyi məktubunda şəhərdə yaxşı qarşılandığını bildirdi. Lakin Azərbaycanın bir çox şəhərlərinin hakimləri ruslara tabe olmaq niyyətində deyildilər. Bakı hakimi Məhəmmədhüseyn bəy I Pyotrun göndərdiyi məktubu qəbul etmədi. Avqustun 28-də I Pyotr geri qayıtmaq haqqında əmr verdi. Bunun səbəbi İsveçlə başlana biləcək yeni müharibə təhlükəsi və ərzaq gətirən gəmilərin dənizdə fırtınaya düşməsi idi.

Ancaq I Pyotr Xəzər hövzəsini ələ keçirmək planından əl çəkməmişdi. 1722-ci ilin dekabrında polkovnik Şipovun başçılığı ilə rus eskadrası Rəşti işğal etdi. Rəştdə rus konsulluğu yaradıldı və S.Abramov konsul təyin olundu. Matyuşkinin başçılığı ilə rus donanması 1723-cü il iyulun 28-də Bakını tutdu. Şəhərin hakimi Məhəmmədhüseyn bəy Hacı Davudla əlaqə saxlamaqda günahkar bilinib, qardaşları ilə birlikdə Rusiyaya sürgün edildilər və elə orada öldürüldülər. Knyaz İ.Baryatinski Bakının komendantı təyin edildi. Bakıdan sonra ruslar Salyanı ələ keçirdilər.

**Peterburq müqaviləsi.** II Təhmasib Rusiyadan kömək almaq üçün İsmayıl bəyin başçılığı ilə Peterburqa nümayəndə heyəti göndərdi. O, 1723-cü ilin sentyabrın 12-də Peterburqda Şahdan icazə almadan Rusiya ilə müqavilə bağladı. Müqaviləyə görə Dərbənddən Gilana qədər dəniz sahili torpaqlar Rusiyaya verilirdi. Rusiya isə əfqanlara qarşı mübarizədə Səfəvilərə kömək edəcəyini öhdəsinə götürürdü. Lakin Şah II Təhmasib ondan iznsiz bağlanan bu müqaviləni tanımadı.

**İstanbul sülhü (1724-cü il) və Azərbaycan ərazilərinin bir hissəsinin Rusiya və Osmanlı hakimiyyəti altına keçməsi.** Rusiyanın Xəzər hövzəsində və Cənubi Qafqazda möhkəmlənməsindən narahat olan İngiltərə və Fransa Osmanlı dövlətini Rusiyaya qarşı müharibəyə təhrik edirdilər. Osmanlı dövləti də Rusiyanın Cənubi Qafqazda mövcudluğunun əksinə idi. Azərbaycan əhalisi də bu dövrdə müəyyən qədər Osmanlı dövlətinə meyl edirdi. Bunu İrəvan azərbaycanlılarının adından Ərzurum paşasına yazılmış məktub da təsdiqləyir. Məktubda deyilirdi: "Niyə oturubsunuz? Siz də türksünüz, biz də. Gavurun əlinə düşməkdənsə, sizin əlinizə düşməyimiz yaxşıdır, vaxtında gəlin şəhəri zəbt edin və rusları şəhərə buraxmayın". Osmanlı qoşunları 1723-cü ilin oktyabrında Gəncəyə hücum etdi. Lakin Səfəvi qoşunları tərəfindən müdafiə olunan şəhəri tuta bilmədilər. Ancaq 1724-cü ilin iyununda osmanlılar İrəvanı müqavimətsiz ələ keçirdilər.

Osmanlı dövlətinin Azərbaycana qoşun çəkməkdə əsas məqsədi Cənubi Qafqazın rusiya tərəfindən işğalına yol verməmək və Xəzər dənizinə çıxaraq rus donanmasının Xəzərdə hegemonluğunun qarşısını almaq idi. Rusiya isə Osmanlı dövləti ilə toqquşmaq istəmir, münaqişəni diplomatik yolla həll etməyə çalışırdı. Beləliklə, Cənubi Qafqazda Rusiya, Türkiyə və Səfəvi dövlətlərinin maraqları toqquşurdu. Avropa dövlətlərinin maneçiliklərinə baxmayaraq, 1724-cü ilin iyunun 12-də Rusiya ilə Osmanlı dövləti arasında Peterburq müqaviləsinin şərtlərinə oxşar sülh müqaviləsi bağlandı. İstanbul müqaviləsinin şərtlərinə görə osmanlılar Dərbənd, Bakı, Salyan, Lənkəran, Rəşt və Ənzəlinin Rusiyaya ilhaqını tanıdı. Rusiya is Xəzəryanı vilayətlərdən başqa Azərbaycanın qalan torpaqlarının Osmanlı dövləti tərəfindən tutulmasına razılıq verdi. Qoşun saxlamamaq şərti ilə Şamaxı osmanlıların himayəsinə keçdi. Yarımmüstəqil Şirvan xanlığı yaradıldı və Hacı Davud Şirvan xanı təsdiq edildi. Beləliklə, Azərbaycan ərazisi Rusiya və Osmanlı imperiyaları arasında bölündü.

**Azərbaycan torpaqlarının Rusiya və Osmanlı imperiyalarına qatılması.** İstanbul müqaviləsindən sonra Osmanlı qoşunları Cənubi Qafqazı, o cümlədən Azərbaycan torpaqlarını tutmağa başladı. 1724-cü ilin yayında Osmanlı qoşunları Səlmas, Xoy, Mərəndi ələ keçirdi. Onlar həmin ilin avqustunda Təbrizi tutmağa cəhd etdilər, lakin Səfəvi qoşunları buna imkan vermədi. İrəvan, Naxçıvan, Ordubad, Qazax, Borçalı Osmanlı hakimiyyətini könüllü qəbul etdilər. 1725-ci ildə Osmanlı qoşunları əvvəlcə Təbrizi və Gəncəni, sonra isə Ərdəbili tutdular. 1726-cı ildə əfqanlarla bir neçə toqquşmadan sonra osmanlılar Həmədanı və Kirmanşahı ələ keçirdilər. Əfqanların başçısı Əşrəf xan osmanlıların tutduqları torpaqları təsdiq etməyə məcbur oldu.

**Azərbaycanda Osmanlı inzibati – idarə üsulu.** Osmanlılar tutduqları ərazilərdə öz inzibati idarə sistemlərini yaratdılar. Azərbaycan ərazisi vilayət və bəylərbəyliklərə bölündü. Bəylərbəyliklər sancaqlardan, sancaqlar isə mahal və nahiyələrdən ibarət idi. Vilayətləri Sultan tərəfindən təyin edilmiş sərəsgər idarə edirdi. Sancağı bəylər, mahal və nahiyələri yerli feodallardan təyin olunan naiblər və kəndxudalar idarə edirdi. Kürdən şimaldakı ərazilərdə Osmanlı qoşunu saxlanılmırdı. Buranı "paşa" titulu almış yerli hakimlər idarə edirdilər.

**Xəzəryanı ərazilər Rusiyanın hakimiyyətində.** Xəzəryanı bölgələri ələ keçirən Rusiya əvvəl burada komendant idarə üsulu tətbiq etsə də, sonra Səfəvi idarə üsulunu olduğu kimi saxladı. Xəzəryanı ərazilər əyalətlərə, mahallara, nahiyələrə və kəndlərə bölündü. Mahalları darğalar, nahiyələri yüzbaşılar, kəndləri isə kəndxudalar və kovxalar idarə edirdilər. Əyalətdə hərbi-siyasi hakimiyyət rus zabitlərinin əlində idi.

I Pyotr Bakı neftinə xüsusi maraq göstərir, Rusiya manufakturalarını xam ipəklə təmin etmək üçün ipəkçiliyə, pambıqçılığa diqqət yetirirdi. Osmanlıların irəliləməsi Rusiyanı narahat edirdi və işğal etdiyi ərazilərdə möhkəmlənmək üçün hərbi-diplomatik tədbirləri gücləndirdi. I Yekaterina II Təhmasiblə münasibətləri qaydaya salmaq üçün knyaz V.Dolqorukovu Gilana göndərdi. 1727-ci ildə sərhədlərin müəyyənləşdirilməsi barədə razılıq əldə edildi. Cavad, Salyan, Şeşpara, Rustov, Quba və Təngə Rusiyaya verildi. Rusiya hakimiyyəti altında yaşamaq istəməyən bu bölgənin ləzgi əhalisi Hacı Davudun da təsiri ilə Osmanlı dövlətinə verilən bölgələrə – Göyçaya, Ağdaşa, Qəbələyə, Şəkiyə köçdülər. Hacı Davud Osmanlının Rusiya ilə bu razılaşmasına qarşı çıxdığından 1728-ci ildə sultan tərəfindən həbs edilib Kiprə sürgün olundu. Rusiya Azərbaycanda möhkəmlənmək üçün xristianlardan, o cümlədən ermənilərdən istifadə edirdi. 1724-cü ildə I Pyotrun verdiyi fərmanda rusların işğal etdiyi Azərbaycan ərazilərində ermənilərin yerləşdirilməsi tövsiyə edilirdi. Şirvan bölgəsində ermənilərin kütləvi məskunlaşdırılmasına bu dövrdə başlanılmışdır.

### *§ 3. Səfəvi imperiyasının süqutu, Əfşarlar imperiyasının meydan gəlməsi*

Səfəvi dövlətinin ərazisinin bir hissəsini Osmanlılar, bir hissəsini əfqanlar, bir hissəsini Rusiya tutmuş və onun varlığı təhlükə altında qalmışdı. Səfəvi dövlətinin taleyini düşünməyə başlayan Şah II Təhmasib və iri feodallar türk Əfşar tayfasından çıxmış, dövrünün görkəmli sərkərdəsi Nadirqulu xanın ətrafında birləşdilər. Ölkəni yadellilərdən xilas etmək uğrunda mübarizəyə başlayan Nadirqulu xan 1728-1730-cu illərdə əfqan feodallarını ölkədən qovdu və Heratı ələ keçirdi. Nadirqulu xan 1730-cu ildə İsfahana gəldi və Həmədan, Marağa, Ərdəbil, Təbriz osmanlılardan geri alındı. Osmanlı dövlətində baş vermiş dövlət çevrilişindən istifadə edən Nadirqulu xan hərbi əməliyyatı genişləndirdi, İrəvan üzərində hücuma hazırlaşdı. Lakin Xorasanda baş verən üsyan Nadiriqulu xanı ora getməyə məcbur etdi. II Təhmasib şöhrətini artırmaq üçün 1731-ci ildə hərbi əməliyyatları davam

etdirdi və məğlubiyyətə uğradı. Osmanlılar Ərdəbili və Təbrizi tutdular, II Təhmasib sülh bağlamağa razı oldu. 1732-ci ilin yanvarın 16-da Girmanşahda sülh bağlandı. Sülhün şərtlərinə görə İrəvan, Gəncə, Şamaxı, Şirvan bölgələri Osmanlılara verildi. Həmədan, Girmanşah, Ərdəbil və Təbriz Səfəvilərə qaytarıldı, Araz çayı onlar arasında sərhəd oldu.

**Rəşt müqaviləsi.** I Pyotrun ölümündən sonra saray çevrilişləri Rusiyanı zəiflətdi, onun beynəlxalq nüfuzu aşağı düşdü. Xəzəryanı əraziləri əldə saxlamaq imkanı məhdudlaşdı. Rusiya Osmanlıları Xəzər dənizinə buraxmamaq üçün Xəzəryanı torpaqları Səfəvilərə qaytarmağa razı idi. 1732-ci ildə Rusiya ilə Səfəvilər arasında Rəşt müqaviləsi bağlandı. Müqaviləyə görə Rusiya Kürə qədər olan torpaqları Səfəvi dövlətinə qaytardı, Səfəvilər isə bu ərazilərə Osmanlıları buraxmamağı öhdəsinə götürdü. Səfəvilər tutulmuş torpaqları Osmanlılardan geri aldıqdan sonra Kürdən şimaldakı torpaqlar Səfəvilərə qaytarılmalı idi. Rus tacirlərinə Səfəvi ərazisində ticarətdə güzəştlər verildi.

**Nadirqulu xanın Osmanlılar üzərində qələbəsi.** Xorasandan qayıtdıqdan sonra, 1732-ci ilin avqustunda Nadirqulu xan II Təhmasibi hakimiyyətdən saldı. Onun oğlu Abbas Mirzəni – III Şah Abbas şah elan etdi, özünü onun qəyyumu təyin etdi. Nadirqulu xan öncə Osmanlılarla bağlanmış Girmanşah müqaviləsini ləğv etdi və Osmanlılardan Səfəvi torpaqlarını geri qaytarmağı tələb etdi. Rədd cavabı aldıqda yüz minlik qoşunla bir neçə istiqamətdə hücuma keçdi. 1733-cü ilin yanvarında Bağdad ətrafında Osmanlı qoşunlarına böyük zərbə vuruldu. Əhməd paşa sülh təklifi etdi. Bağdadda sülh bağlandı . Sülhə görə Osmanlılar 10 il müddətində tutmuş olduqları Səfəvi torpaqlarını geri qaytarmağa razılaşdılar və buna qismən əməl etdilər. Nadirqulu xan hərbi əməliyyatları Azərbaycanın şimalında keçirdi. 1734-cü ildə Şamaxı tutuldu, müqavimət göstərdiyinə görə şəhər dağıdıldı, əhalisi indiki Ağsu ərazisinə - Yeni Şamaxıya köçürüldü. Bundan sonra Nadirqulu xan Qazıqumuxda gizlənmiş Surxay xanın üzərinə hücum etdi, Surxay xan qaçdı, Qazıqumux qarət edildi. Daha sonra Nadirqulu xan Osmanlıların ən çox cəmləşdiyi Gəncə üzərinə hərəkət etdi. Şəhər 4 ay mühasirədə saxlandı. Həmçinin Rusiya ilə olan çoxdankı münaqişəni də aradan qaldırmğa çalışır.1735-ci ilin martın 10-da Gəncə yaxınlığında Rusiya və Səfəvi arasında Gəncə müqaviləsi imzalanır.Ruslar xəzəryanı vilayətləri tamam tərk edir. Mühasirədə saxlanılan osmanlılara kömək etməyə gələn qüvvələr Üçmüədzin ətrafında Nadirqulu xan tərəfindən darmadağın edildəndən sonra Gəncədəki Osmanlı qarnizonu təslim oldu. Beləliklə, 1735-ci ilin sonunda Osmanlılar Səfəvi torpaqlarından tamamilə çıxarıldı.

Artıq keçmiş Səfəvi sülaləsinin nümayəndələri və feodal əyanları artıq xalq arasında öz nüfuzlarını tamamilə itirmişdilər və ölkəni dağıntıdan xilas etmək iqtidarında deyildilər. 1730-1736-cı illərdə Səfəvi İmperiyasının ali baş komandanı, 1732-1736) toplanmış Muğan düzündə qurultay çağırdı. Bu qurultaya hərbi, mülki və dini əyanlardan, şəhər və kənd başçılarından ibarət 100 minə yaxın adam toplanmışdı. Muğan qurultayında Nadir özünü şah elan etdi. Beləliklə, Səfəvilər süləsinin hakimiyyətinə son qoyuldu. Keçmiş Səfəvilər imperiyasının ərazilərini

əhatə edən və türk mənşəli Əfşarlar sülaləsi tərəfindən idarə edilən Əfşarlar imperiyası meydana gəldi.

### *§ 4 Azərbaycan Nadir şah Əfşarın dövründə (1736-1747-ci illər)*

Əfşarlar azərbaycanlıların etnogenezinin formalaşmasında iştirak etmiş qədim türk tayfasıdır. Əfşar boyu Oğuzların 24 boyundan biri və Qaşqarlı Mahmuda görə, Divanı Lüğəti-Türkdəki iyirmi iki oğuz bölümündən altıncısıdır. Bu boy Boz oğuzları qolundan (sağ qolundan), Oğuz Xaqanın oğlu Ulduz xanın dörd oğlundan ən böyüyü olan Əfşarın soyundan gəlir. Əfşarlar Orta Asiyada, Sır-Dərya bölgəsində yaşamışlar. Böyük köç ilə digər Oğuz tayfalarından ayrılaraq Xuzistan, Xorasan, bir qismi isə İraq, Suriya yolu ilə Qərbi Azərbaycan (indiki Ermənistan ərazisi) və Anadoluya gəlmişlər. İrana, İraq Suriyasına, Əfqanıstana da yayılmışlar. Əfşarlar, Oğuzun o biri nəvələri Kınıklar və Qayılar kimi böyük hökmdarlar və sülalələr yetişdirmişlər. Əfşarlar imperiyası əfşar tayfasının tarixdə yaratdığı ən möhtəşəm dövlət olmuşdur.

Əfşarlar imperiyasının bazasını Azərbaycan ərazisi təşkil etmişdir. Nadir şahın **inzibati islahatına** görə, Şirvan, Qarabağ, Çuxur-Səd, Təbriz bəylərbəylikləri birləşdirilərək Azərbaycan bəylərbəyliyi yaradıldı. Azərbaycan bəylərbəyliyinə Dərbənddən Həmədanadək bütün tarixi Azərbaycan torpaqları daxil idi. Azərbaycanın mərkəzi əvvəlcə Ərdəbil, daha sonra Təbriz şəhəri olmuşdur. Nadir 1736-cı ilin fevral ayında şahlıq tacını da məhz Azərbaycanda – Muğanda, Suqovuşanda başına qoydu. Əlbəttə, bu təsadüfi deyildi və Nadirin milli kökünə ehtiramının bir göstəricisi idi. Nadir şah əslində, İranı və onun ətrafını fəth edərək Azərbaycana birləşdirmiş, Azərbaycan dövlətini bərpa etmişdir. Bu ərazidə Azərbaycan türkləri ilə bir yerdə farslar, kürdlər, ermənilər, gürcülər, ərəblər, Qafqaz xalqları və s. yaşayırdılar, ancaq ölkədə vahid hakimiyyəti əhalinin əksər çoxluğunu təşkil edən Azərbaycan türkləri idarə etmişdir. Azərbaycan bəylərbəyliyinin hakimi vəzifəsinə Nadir şah qardaşı İbrahim xanı təyin etdi.

Nadir şah **vergi islahatı keçirərək,** vergilərin toplanılmasını qaydaya saldı və xəzinənin gəlirini xeyli artırdı. Nadir şahın Azərbaycanda vergi siyasəti nəticəsində əhali tamamilə var-yoxdan çıxdı, bir sıra bölgələrdə kütləvi aclıq başladı. Nadir şahın torpaq siyasətinin mahiyyəti ondan ibarət idi ki, o, ayrı-ayrı iri feodalların nüfuzunu sarsıdaraq, dövlət torpaqlarını daha da genişləndirdi. Nadir şahın Cənubi Qafqazdan ən mahir sənətkarları Xorasana köçürməsi Azərbaycanda sənətkarlığa mənfi təsir etdi.

**Nadir şahın dini islahatları.** Nadir şahın apardığı dini siyasət Səfəvilər dövründən yayılan məzhəb ixtilaflarına son qoyulmasına, sünnülər, şiələr və sair məzhəb tərəfdarlarının vahid məqsədlər ətrafında birləşdirilməsinə xidmət edirdi. Bu məqsədlə 1743-cü ilin noyabr ayında Nadir şah xanımı, Şah Sultan Hüseynin qızı Raziyyəbəyim ilə Kərbəlaya gəlmiş, burada imamların qəbirlərini ziyarət edib, səcdəgahın təmiri üçün 20000 pul ayırmışdı. Bundan sonra Nadir şah Nəcəfə

gəlib burada bütün müqəddəs yerlərin din alimlərinin iştirakı ilə məclis təşkil etdi, sünnü və şiə təriqətləri arasında olan ixtilafların aradan qaldırılması üçün tapşırıqlar verdi. Məlumdur ki, dövrünün ən qüdrətli və möhtəşəm dövləti olan Osmanlı dövlətinin sultanı 1517-ci ildə Misirin fəthindən etibarən, həm də müsəlman dünyasının xəlifəsi kimi əmir əl-mömin (möminlərin əmiri) olmaqla ruhani hakimiyyətini də təmsil edirdi. Ona görə də Nadir şah dini tələblərlə bağlı məsələləri Osmanlı sultanı ilə bilavasitə razılaşdırmaq yolunu tutdu.

Orta əsrlər müsəlman idarəçilik sisteminin mahiyyətini müəyyən edən Nadir şah islamla bağlı mövcud stereotipləri məhv etdi. Özü müsəlman ayin və ibadətlərini ardıcıl olaraq yerinə yetirsə də, din xadimlərinin dövlət işlərinə müdaxiləsini minimuma endirdi və dünyəvi məzmunlu qüdrətli bir imperiya yarada bildi. Şiə məzhəbinin dövlətin idarəçiliyində hegemonluğunu bir kənara qoyaraq, vahid məzhəbin bərqərar olması istiqamətində ən müxtəlif səviyyələrdə tədbirlər gördü. Nadir xəlifə kimi ruhani hakimiyyətini də həyata keçirən türk sultanı Mahmud ilə yazışmalardan sonra VI İmam Cəfər Əs-Sadiqin adı ilə bağlı olan Cəfəriliyin rəsmi təriqət kimi qəbul edilməsinə cəhd etdi. Hənəfi, Şafii, Hənbəli və Maliki məzhəbləri kimi, dörd məşhur məzhəblə yanaşı, sünnülər Cəfəri məzhəbini də felən tanıdılar. Cəfərilər adı çəkilən sünnü məktəbinin davamçıları ilə bərabər, Kəbə ətrafında namaz üçün ayrıca yer (məqam və ya musalla) aldılar. Bütün bunlar Nadirin müstəsna fəaliyyətinin nəticəsi idi. Nadir şahın həm dini, həm siyasi, həm də hərbi sahədə apardığı siyasət məhz Turan və İslam aləmini birləşdirmək olmuşdur. 1740-cı ildə Nadir şah Sultan I Mahmuda (1730-1754) belə bir müraciətlə məktub göndərmişdi ki, əgər siz Cəfəri məzhəbini qəbul etsəniz, mən bütün məmləkətlərimi Osmanlıya qataram.

**Nadir şahın ordu quruculuğu.** Nadir şahın sərkərdəlik və dövlətçilik fəaliyyətinin yadda qalan uğurlarının əldə edilməsinin başlıca səbəblərindən biri də onun güclü hərbi qüvvələr yaratması idi. Nadir şah özünün bütün hərbi keyfiyyətlərini də məhz bu qüvvələr vasitəsilə ifadə edə bilmişdi. İstəklərinə və tələblərinə uyğun gələn qoşunları formalaşdırmaqla Nadir şah həm böyük tarixi qələbələrlə yadda qaldı, həm də yeni bir dövlət qurdu. Səfəvilər dövründə mövcud olmayan hərbi-dəniz qüvvələrinin və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün əhəmiyyətli addımlar atdı. Nadir şah iştirak etdiyi döyüşlərin aparıldığı şəraitə uyğun olaraq yüngül artilleriyanın (zənburəklərin) işlədilməsinə, döyüş istifadəsinə diqqəti artırdı, artilleriyanın yeni strukturlarını yaratdı. Bundan başqa, briqada (tip) və ləşgərlərin strukturlarında da bir sıra yeniliklər meydana gəldi. Nadir şahın qoşunlarında dəstələr daimi və müvəqqəti əsasda üzvi şəkildə birləşdirildi. Nadir şah dövləti, əsasən, hərbi dayaqlar üzərində bərqərar olmuşdu. Ona görə də, Nadir şahın ətrafında daimi əsasda yaradılmış qoşun strukturu var idi. Bura cəzayirçi, qorcu, qullar dəstələri, xüsusi qvardiya keşikçilər dəstəsi və s. daxil idi. Qoşunlara səfərbərliyin həyata keçirilməsində Nadir şah könüllülük prinsipindən istifadə edirdi. Bununla belə, Nadir şah qoşunların sayının artması üçün məcburiyyət vasitələrinə də əl atır, ələ keçirdiyi vilayətlərin, ərazilərin hakimləri və əhalisi qarşısında konkret sayda qoşun top-

layıb mərkəzi hakimiyyətin ixtiyarına verilməsi tapşırıqlarını da qoyurdu. Nadir şah qoşunların struktur vahidlərinin formalaşdırılmasında və onların idarə edilməsində onluq sistemindən istifadə edirdi.

Eyni zamanda Nadir şah Fars körfəzində və Xəzər dənizində donanma yaradılması işinə başladı və ordusunu yenidən qurmaq fikrinə düşdü. Hər iki məqsədlə Avropa ölkələrindən mütəxəssislər gətirdi. Onun ordusunda artilleriya və tüfəngçilər – ağır muşketlərə silahlanmış piyada döyüşçüləri mühüm yer tuturdu. Yeni toplar, mortiralar (qısa lüləli toplar) və nüvələr tökməkdən ötrü Mərvdə möhkəmləndirilmiş mərkəz yaradılmışdı. Topçuların hazırlığı, artilleriya və top sınaqları burada keçirilirdi. Bütün bunlar Nadir şahın gələcək qələbələri naminə edilirdi. Onun geniş planları vardı. O, Xəzər dənizi ətrafındakı bütün torpaqları birləşdirərək, Çini də tutmaqla nəhəng bir dövlət yaratmaq arzusunda idi.

Onun apardığı mərkəzləşdirmə siyasəti fars mənşəli feodal əyanlarının maraqlarına toxunurdu. 1741-ci ildə Mazandaran meşələrindən keçərkən, Nadirə sui-qəsd edildi. Lakin sui-qəsd uğurlu olmadı, sui-qəsdin təşkilində günahlandırılan, Nadirin böyük oğlu Rzaqulunun gözləri çıxarıldı.

**Azərbaycanda Nadir şah zülmünə qarşı mübarizə.** Nadir şahın apardığı müharibələrin bütün xərci xalqın üzərinə düşürdü. Ona görə də vergilər günü-gündən artırılırdı. Digər tərəfdən, Nadir vergilərin toplanmasını mərkəzləşdirdiyinə görə yerli feodalların da gəliri azalmışdı və buna görə də onlar da Nadir şahın hakimiyyətindən narazı idilər. bütün bunlar Nadir şaha qarşı xalqın mübarizəsini gücləndirirdi.

İlk olaraq 1734-cü ildə Astarada ac kəndlilərin çıxışı baş verdi. Şəkinin **Biləcik** kəndinin sakinləri üsyan edərək, Cənik və Tala kəndlərinin əhalisini köməyə çağırdılar. Lakin, Nadir şahın cəza dəstələri üsyanı yatırdı və onları cəzalandırdı. Şimal-qərbi Azərbaycanda camaatın apardığı mübarizə, həmin hadisələrin şahidi Molla Məhəmməd Carinin qələmə adığı “XVIII əsr Car müharibələri salnaməsin”də öz əksini tapmışdır.

1737-ci ildə Nadir şah Hindistan və Mərkəzi Asiyaya yürüş etdi. Nadir şahın ölkədə olmamasından istifadə edən Car camaatı 1738-ci ildə yenə üsyan qaldırdı. Onlara Divanə İbrahim və Xəlil başçılıq edirdi. 1738-ci ildə Manik kəndi yaxınlığındakı döyüşdə Nadir şahın qardaşı İbrahim xanın qoşunları dağlıların birləşmiş orduları tərəfindən məğlubiyyətə uğradılmış, İbrahim xan və Gəncə bəylərbəyi Uğurlu xan Qacar öldürülmüşdü. Nadir şahın oğlu Rzaqulu xan Əmiraslan xanın başçılığı ilə Cara qoşun göndərdi. Lakin bu qoşun da üsyançılar tərəfindən darmadağın edildi. 1739-cu ildə Mirzə Səfi xanın başçılıq etdiyi qoşun üsyanı çətinliklə yatırdı.

XVIII əsrin 40-cı illərinin əvvəllərində Azərbaycanın şimal və şimal-şərqində Nadir şaha qarşı üsyanlar şiddətli mərhələyə çatdı. Tutduğu ölkələrdə silahlı qarnizonlar saxlayan Nadir şah 1741-ci ildə Dağıstan üzərinə yeridi. Məsələ burasında idi ki, Nadir Hindistanda olarkən dağlılar tabeçilikdən çıxmışdılar. Üstəlik

onların dəstələri tez-tez Dərbənd, Şamaxı, Kaxetiya və Car-Balakən vilayətləri üzərinə hücum edirdilər.

1741-ci ilin yayında Nadir şah üsyanı yatırmaq üçün Azərbaycanın şimal-şərqinə qoşun yeritdi, lakin əhalinin müqavimətini qıra bilmədi. Dağıstandakı uğursuzluqdan sonra 1743-1747-ci illərdə ölkəni üsyanlar dalğası bürüdü. 1743-cü ildə Şirvanda Nadir şaha qarşı üsyan baş verdi. Bu üsyandan özünü Səfəvi şahzadəsi adlandıran şəxslər xalq narazılığından öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. Nəticədə I, II, III Sam Mirzələr meydana çıxdı. I Sam Mirzə Şirvanda peyda oldu və İrəvana gələrək Nadir şahdan narazı olan 20 min nəfəri ətrafına topladı. 1743-cü ilin əvvəlində Yeni Şamaxını ələ keçirdi. Əhalini öz ətrafına çəkmək üçün verhiləri ləğv etdi. Lakin Nadir şahın oğlu Nəsrulla xan üsyanı amansızlıqla yatırdı. I Sam Mirzə edam edildi.

1743-cü ilin payızında üsyana Ərdəbildən gəlmiş II Sam Mirzə başçılıq etdi. Nadir şah zülmündən cana doymuş xalq onun tərəfinə keçdi. Yeni Şamaxıdan Dərbəndə qədər ərazi üsyançılar tərəfindən tutuldu. II Sam Mirzə vergiləri yüngülləşdirdi, bir qismini ləğv etdi. Yeni Şamaxının əhalisi üsyan edib, onu şəhərə dəvət etdi, lakin Nəsrulla xan II Sam Mirzənin də üsyanını yatırdı.

**Şəki üsyanı.** 1743-cü ildə Şirvan, Şəki, Təbriz, Xoy və Səlmasda yeni üsyanlar baş verdi. Bu dövrdə azadlıq mübarizəsinin mərkəzlərindən biri Şəki idi. Şəkinin hakimi Məlik Nəcəf əhali ilə pis rəftar edir, artıq vergilər toplayırdı. Onun zülmündən cana gəlmiş Şəki Əhalisi Nadir şaha şikayət etdi. Şah isə Şəki əhalisinin sakitliyi üçün Şəki əyanlarından bir nəfərin vəkil seçilməsini tapşırdı. Hacı Qurban oğlu Çələbi Məlik Nəcəfin üzərində nəzarətçi və vəkil seçildi. Məlik Nəcəflə Hacı Çələbi arasında münaqişə başlandı. Məlik Nəcəf Hacı Çələbidən şaha şikayət etdi. Şah onu öz hüzuruna çağırdı və edam edilməsini əmr etdi. Hacı Çələbi edama aparılarkən Məlik Nəcəfin bütün pis əməllərini şaha bildirdi. Şah onu azad etdi. 1743-cü ildə Hacı Çələbi öz adamları ilə Məlik Nəcəfi öldürdü və Şəkidə hakimiyyəti ələ keçirdi, “Gələrsən-görərsən” qalasında möhkəmləndi. Nadir böyük qoşunla Şəkiyə hücum etdi. Lakin 4 aylıq mühasirə bir nəticə vermədi. Nadir şahın qoşunları geri çəkildi. 1746-cı ildə qala müdafiəçilərinin ərzaq ehtiyatı tükəndi. Hacı Çələbi vəkil vəzifəsində qalmaq şərti ilə Nadir şaha təslim oldu.

**Yeni çıxışlar. Nadir şahın öldürülməsi.** Şirvan və Şəkidə baş verən üsyanlardan sonra xalqın vəziyyəti daha da ağırlaşdı. Nadir şah yeni-yeni vergilər üçün fərmanlar verdi, keçən ildən qalmış vergi borclarının ödənilməsini tələb etdi. Üsyan dalğası yenidən gücləndi. 1747-ci ildə Ərdəbildə və Təbrizdə üsyan başladı. Təbriz üsyanına III Sam Mirzə başçılıq edirdi. Üsyançılar Novruz bayramı günü şəhəri ələ keçirdilər və şahın adamlarını qırdılar. Onlar İrəvana hücum etdilər, müqavimətə rast gəlib Təbrizə qayıtdılar. Bu üsyan da məğlubiyyətlə başa çatdı, III Sam Mirzə qətlə yetirildi.

Xalqların azadlıq mübarizəsi, aramsız müharibələr, iqtisadi vəziyyət, iri feodal qrupları arasındakı mübarizə - bütün bunlar Nadir şahı qəzəbləndirdi və o, kütləvi cəza tədbirlərinə başladı. Təqiblər aparıcı soyların məşhur nümayəndələrin-

dən də yan keçmədi. Bunun da nəticəsində sarayda sui-qəsd havası yetişirdi. 1747-ci ilin iyununda gecə Nadir şah öz çadırında qətlə yetirildi. Bir çox tarixçilərin "Şərqin Napoleonu" adlandırdıqları bu böyük şəxsiyyətin həyatı belə faciəli şəkildə başa çatdı. Onun yaratdığı və ərazisi 5,5 milyon kvadrat kilometr olan Azərbaycan Əfşarlar imperiyası süqut etdi, dövlətin ərazisində onlarla xırda dövlətlər – xanlıqlar meydana gəldi.

# FƏSİL 11. AZƏRBAYCAN XANLIQLAR DÖVRÜNDƏ

*§ 1. Azərbaycanda xanlıqların meydana gəlməsinin səbəbləri və xüsusiyyətləri. Azərbaycanın Cənub xanlıqları.*
*§ 2. Azərbaycanın Şimal xanlıqları*
*2.1.Şəki xanlığı.*
*2.2.Quba xanlığı.*
*2.3.Qarabağ xanlığı.*
*§ 3. XVIII Əsr Azərbaycan-Rusiya Münasibətləri*
*3.1.Xanlıqların Rusiya ilə münasibətləri.*
*3.2 Ağa Məhəmməd Qacarın Azərbaycana yürüşləri.*
*3.3 XVIII əsrin 90-cı illərində Azərbaycan Rusiya münasibətləri.*
*§ 4. Xanlıqların ictimai-iqtisadi, siyasi quruluşu və mədəni həyatı*

## *§ 1. Azərbaycanda xanlıqların meydana gəlməsinin səbəbləri və xüsusiyyətləri*

Xanlıqların əmələ gəlməsinin başlıca amillərindən biri Səfəvi dövlətinin süqutu və dövlətin iqtisadiyyatının tənəzzülü və ucqarlarla iqtisadi əlaqələrin zəifliyi idi. Bu isə natural təsərrüfatın hökm sürdüyü feodalizm cəmiyyətinin təbiətindən doğurdu. Böyük coğrafı kəşflərdən sonra dünya ticarət yolları öz istiqamətini dəyişdi, vaxtı ilə ticarət yollarının düyün nöqtəsi olan İran və Zaqafqaziya indi kənarda qalmışdır. Şəhərlərdə xarici ticarətin tənəzzülə uğraması feodalları və şah xəzinəsinin gəlirinin azalmasına səbəb olmuşdur. Xanlıqların meydana çıxmasının iqtisadi amillərindən danışarkən Azərbaycan şəhərləri ilə Rusiya arasında ticarət əlaqələrinin genişləndiyini qeyd etməliyik. Bunun nəticəsində Azərbaycan şəhərləri - Bakı, Dərbənd, Şamaxı, Təbriz və s. müstəqillik qazanmış və İranla əlaqələri zəifləmişdir. Şəhərlərin iqtisadi cəhətdən zəif olmalarına baxmayaraq ayrı-ayrı xanlıqların mərkəzlərinə çevrilirlər.

Xanlıqların meydana çıxmasında və bu prosesin sürətlənməsində xalq kütlələrinin azadlıq mübarizəsi mühüm rol oynamışdır. XVIII əsrin əvvəllərində Səfəvi dövlətinə zorla birləşdirilmiş xalqların azadlıq mübarizəsi şiddətlənir. A.Volınski yazır ki, Səfəvi dövlətindən çox az yer tapmaq olar ki, orada hökumətə qarşı üsyan baş verməsin. XVIII əsrin 30-40-cı illərində Nadir zülmünə qarşı üsyanlar daha kəskin xarakter almışdır. Xoy, Şəki və Şirvanda baş verən üsyanlar xüsusi ilə qeyd edilməlidir.

Xanlıqların meydana gəlməsində beynəlxalq şərait də müəyyən rol oynamışdır. XVII əsrin sonu XVIII əsrin əvvəllərində İran və ona daxil olan ölkələrdə iqtisadi və siyasi böhran dərinləşdiyi halda, Qərbi Avropa dövlətləri, həmçinin Rusiya yeni-yeni müstəmləkələr ələ keçirməyə çalışırdılar. Bu və ya digər dövlətlər Azərbaycanı ələ keçirmək üçün müxtəlif vasitələrə əl atır və onlar arasında kəskin mübarizə gedirdi. Azərbaycanın Rusiya ilə əlaqələri daha geniş hal almışdır. Rusiya öz planlarını həyata keçirmək üçün ayrı-ayrı Azərbaycan xanlarına müstəqillik vermə-

yi vəd edirdi. Ona görə də bir sıra xanlar rus çarına məktublarla müraciət edirdilər. Belə bir vəziyyət xanlıqların müstəqil yaşamalarına şərait yaradırdı.

Azərbaycanda feodal dağınıqlığı - xanlıqların yaranması ümumiyyətlə mənfi hal olub, ölkənin birliyini parçalayır, xarici düşmənlərə qarşı mübarizəni zəiflədirdi. Lakin ayrı-ayrı xanlıqların yeritdiyi siyasət nəticəsində müəyyən ərazidə iqtisadi inkişaf baş verirdi. Xanlıqların mərkəzi olan şəhərlər iqtisadi və mədəni mərkəzlərə çevrilirdi.

XVIII əsrin ortalarında Azərbaycan Əfşar əsarətindən azad olduqdan sonra onun ərazisində 19 xanlıq yarandı. Onların 11-i Azərbaycanın şimalında; -Şəki, Bakı, Şirvan, Qarabağ, Quba, Gəncə, Dərbənd, Naxçıvan, Salyan, Lənkəran, Cavad; 8-i isə Azərbaycanın cənubunda - Təbriz, Urmiyə, Xoy, Qaradağ, Marağa, Ərdəbil, Sərab, Maku yaranmışdır. Qarabağ xanlığına tabe olan 5 malik: Vərəndə, Gülüstan, Dizaq, Çarabord (Çiləvörd), Xaçın və Car- Balakən Camaatı, 5 sultanlıq; - Şəki xanlığına tabe olan İlisu, Qəbələ, Ərəş və müəyyən dövrlərdə Şəki xanlığına, yaxud da Kartli-Kaxetiya çarlığına tabe olan Qazax, Şəmsəddil əmələ gəldi.

### *§ 2. Azərbaycanın Cənub xanlıqları*

XVIII ərin ortalarında ardı-arası kəsilməyən müharibələr, feodal çəkişmələri, iqtisadi əlaqələrin zəifliyi, natural təsərrüfatın üstünlüyü ölkəmizdə mərkəzləşdirilmiş dövlət yaratmağa imkan vermirdi. İran ərazisində mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən vilayət hakimləri olan feodallar müstəqilləşməyə başladılar. Azərbaycan ərazisində yaradılmış vilayətlərin feodalları da yaranmış əlverişli şəraitdən istifadə etməyə, bu əyalətləri İrandan ayırıb müstəqil olmağa can atırdılar. Nadir şahın ölümü ilə taxt-tac uğrunda mübarizənin qızışdığı, mərkəzi hakimiyyətin zəiflədiyi bir dövrdə Azərbaycan ərazisində müstəqil feodal dövlətləri -xanlıqlar yaranmağa başladı.

XVIII əsrin ortalarında Azərbaycanda yaranmış feodal dövlətlərindən biri Urmiya xanlığı idi. Bu xanlıq Xoy, Marağa xanlıqları, Kürdüstan və Osmanlı imperiyası ilə sərhəd idi. Xanlığın mərkəzi Urmiya şəhəri olmuşdur.

Xanlığın əsasını Əfşar tayfasından olan Fətəli xan Əfşar (1747-1763) qoymuşdur. Fətəli xan mərkəzi hakimiyyət uğrunda mübarizənin qızışmasından istifadə edərək yeni ərazilər ələ keçirmək siyasəti yeridirdi. Təbrizə olan üsyanlar nəticəsində şəhər hakimi Məhəmməd xan əfşar öldürüldü. Bundan istifadə edən Fətəli xan Əfşar Tərbizi tutdu və paytaxtı buraya köçürdü. Beləliklə, Fətəli xan Əfşar Azərbaycan torpaqlarının tutulması üçün fəaliyyətə başladı. Fətəli xan xarici hücumlardan qorunmaq və torpaq zəbt etmək məqsədi ilə Nadir şahın sərkərdələrindən olan əfqanlı Azad xanı öz tərəfinə çəkmişdi. Vəziyyətin çətinləşdiyini görən Xoy xanı Şahbax xan Fətəli xanla ittifaqa girməyə məcbur olmuşdu. Bundan sonra qoşun yeridərək Fətəli xan Qarabağ, Marağa və Sərab xanlıqlarını da tutmuşdu.

XVIII əsrin ortalarında Fətəli xan Əfşar Kərim xan Zənd və Məhəmməd Həsən xan Qacarla mübarizəyə başladı. O, Bu məqsədlə ayrı-ayrı hökmdarlara müra-

ciət edib, onları ittifaqa çağırdı. Lakin rədd cavabı aldıqdan sonra, 1751-ci ilin sonunda müttəfıqi Azad xanı İrəvan xanlığı üzərinə göndərdi. İrəvan xanı Mir Mehdi xan müttəfıqləri ilə Azad xanın qoşununu geri oturtdu.

XVIII əsrin 50-ci illərində taxt-tac uğrunda mübrizənin mərkəzi Xorasandan cənuba keçmişdi. Tayfaya Kərim xan başçılıq edirdi. O, İranın cənub torpaqlarını tutduqdan sonra 1752-ci ilin sonunda Azərbaycana hücum etdi. Lakin Fətəli xan Əfşarın qoşunu Miyana ətrafında onu məğlub etdi. Kərim xan cənuba - fars vilayətinə qaçdı. Fətəli xan onu təqib edərək Qəmsə adlanan yerdə baş vermiş döyüşdə qardaşı İskəndər xanı Əsir tutaraq edam etdirdi. Azərbaycanda baş verən hadisələr Fətəli xana Kərim xanı axıra qədər təqib etməyə imkan vermədi. O, geriyə Urmiyaya qayıtdı. Bu illərdə Fətəli xanın idarə etdiyi ərazinin sərhədləri İranın cənubuna qədər uzanırdı. 1753-cü ilin sonu 1754-cü ilin əvvəllərində mərkəzi və cənubi İran Fətəli xanın hakimiyyəti altında idi. Lakin Kərim xan əvvəl Şirazı, sonra isə İsvahanı ələ keçirdi. Fətəli xanın mərkəzi hakimiyyət uğrunda mübarizəsi zəifləmişdi. Bundan istifadə edən Qacarlar fəallaşdı. Məhəmmədhəsən xan Qacar 1755-ci ildə Zəndlər üzərində qələbə çaldı və 1756-cı ildə İsvahana daxil oldu. Kərim xan Şiraza qaçdı. Məhəmmədhəsən xan Rəşti, Ərdəbili, Lənkəranı, Təbrizi və Urmiyanı tutdu. 1759-cu ildə Məhəmmədhəsən xan Qacarın ölümündən sonra Fətəli xan Təbrizə qayıdaraq hakimiyyətini möhkəmləndirməyə başladı. 1759-cu ildə Fətəli xan Qarabağa hücum etdi və Şuşanı aldı. Şəhərin alınması üçün ciddi təhlükə yarandığını görən Qarabağ xanı Pənahəli xan Fətəli xandan asılılığı qəbul etdi və oğlu İbrahimxəlil ağanı onun yanına göndərdi. Tezliklə Fətəli xan İrəvan, Şəki və Ərəşi də Urmiya xanlığına tabe etdirdi. Kərim xan 1760-cı ildə Azərbaycanın cənubuna hücum edərək Təbrizi mühasirəyə aldı. Təbrizi dörd ay mühasirədə saxlasa da tuta bilmədi. 1761-ci ildə Kərim xan yenidən hücuma keçdi, lakin Qaraçəmən yaxınlığında məğlub oldu. Təbriz xanı Nəcəfqulu xan və Fətəli xan Əfşar arxayınlaşdılar. Bundan istifadə edən Kərim xan yeni qüvvə ilə hücum edərək Təbrizi aldı. Fətəli xan Urmiya qalasına çəkildi. 1763-cü ildə 9 aylıq mühasirədən sonra Kərim xan Urmiya qalasını aldı. Fətəli xan əsir düşdü və Şiraza aparılaraq edam edildi. İsvahanda üsyanlar baş verdiyini görən Kərim xan geri qayıtmağa məcbur oldu. Urmiya xanlığının idarəsi Rüstəm bəy Əfşara tapşırılmışdı.

**Xoy xanlığı:** XVIII əsrin ortalarında yaradılmış Xoy xanlığı Maku, Naxçıvan, Qarabağ, Təbriz, Urmiya xanlıqları və Osmanlı imperiyası ilə həmsərhəd idi. Xanlığın mərkəzi Xoy şəhəri idi. Xanlığı Dünbuli tayfasından olan Şahbaz xan idarə edirdi. O Urmiyalı Fətəli xanla ittifaqa girmişdi. Kərim xan Zənd Fətəli xana qalib gəldikdən sonra «Şiraz qonaqlığı» adı altında Şiraza aparılan Şahbaz xan orada vəfat edir. Azərbaycanım bir hisəsinin, xüsusən Xoy və Təbriz xanlıqlarının Dünbuli tayfa başçılarının əlində olması bu tayfanın şöhrətinin artmasına səbəb olmuşdu. 1763-1786-cı illər hakimiyyətdə olan Dümbuli Əhməd xan Azərbaycanın bir sıra xanlıqları və Kartli çarlığı ilə diplomatik əlaqə saxlayırdı. O, bir müddət İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarını da özündən asılı vəziyyətə salmışdı. Təbriz xanı Nəcəfqulu xan Dümbuli ona canlı qüvvə və pula kömək edirdi. Qara-

bağ xanlığı ilə əlaqələri də onun hakimiyyətinin möhkəmlənməsinə müsbət təsir edirdi. Onlar Qarabağ xanlığının ərazisini işğal edərək öz aralarında bölüşdürmüşdülər. Əhməd xan dirçəlməkdə olan Urmiya xanlığnıda tabe etməyə çalışırdı. Nəcəfqulu xanın ölümündən sonra onun oğlu Xudadat xanı Təbrizdi hakimiyyətə gətirən Əhməd xan onunla birləşərək Urmiyalı İmamqulu xan Əfşara həmçinin onun müttəfiqi sərablı Əli xan Şəqaqiyə qarşı çıxdı və 1783-cü ilin payızında Təbriz yaxınlığındakı döyüşdə mühüm qələbə çaldı. Bu qələbə Xoy xanlığının nüfuzunu daha da artırdı.

Lakin hakimiyyət uğrunda amansız mübarizə Xoy xanlığını da zəiflətmişdi. Digər tərəfdən Kərim xan Zənd bu xanlığın gələcəkdə daha da güclənərək onun üçün təhlükəyə çevriləcəyindən ehtiyat etdiyinə görə necə olursa-olsun Əhməd xanı aradan götürməyə çalışırdı. Bu məqsədlə Şiraza girov aparılan və orada vəfat edən Xoy xanı Şahbaz xanın oğlanları ilə Əhməd xan arasında düşmənçilik yaratdı, onları əmilərinin üstünə qaldırdı. Şahbaz xanın oğlanları Şirazdan Xoya qayıtdılar və 1786-cı ildə Əhməd xanın oğlanları və baş sərkərdə Süleyman xanı qətlə yetirdilər. Cəfərqulu xan və Hüseynqulu xan qardaşlarını isə Əsir götürdülər. Lakin hakimiyyəti ələ ala bilmədilər. Cəfərqulu xan sui-qəstdən yaxa qurtarıb xanlığa qayıtdı və qardaşı Hüseynqulu xanı əsirlikdən azad edib xanlığın taxtına oturdu. Cəfərqulu xanın düşmənlər üzərində çox mühüm qələbə çalmasına baxmayaraq, xanlıq əvvəlki mövqeyini nisbətən itirmişdi.

**Qaradağ xanlığı:** Qaradağ xanlığı şimaldan Qarabağ, Şərqdən Lənkəran, Ərdəbil, cənubdan Təbriz, qərbdən Xoy və Naxçıvan xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Əhər şəhəri idi. Qaradağ tayfası Səfəvilərin hakimiyyətə gəlməsinə köməkçi olduqları üçün Qaradağ vilayətinin idarəsi nəsildən-nəslə keçmişdir. XVIII əsrin birinci rübündə mərkəzi hakimiyyət zəiflədiyinə görə, Qaradağ xanı Kazım xan müstəqil olmuşdu. Kazım xan mərkəzi hakimiyyətə tabe olmadığına görə Nadir şah onun gözlərini çıxartmışdır. Nadir şahın ölümündən sonra Qarabağ xanlığı yenidən müstəqillik əldə etmişdir. Kazım xan XVIII əsrin ortalarında Qaradağ, Gəncə, Naxçıvan xanlıqlarının Şəki xanı Hacı Çələbiyə qarşı ittifaqına qoşulmuşdu. Qaradağ xanlığı 1782-ci ildə Xoy və Qaradağ xanlarının birləşmiş qüvvələri tərəfindən işğal edildikdən sonra öz müstəqilliyini demək olar ki, itirmişdi. 1791-ci ildə isə Ağa Məhəmməd xan Qacara tabe olmuşdur.

**Təbriz xanlığı:** Təbriz xanlığı XVIII əsrin ortalarında Azərbaycanda yaranmış müstəqil qurum kimi Xoy, Naxçıvan, Qarabağ, Sərab və Marağa xanlıqları ilə həmsərhəd idi. Xanlığın mərkəzi Təbriz şəhəri olmuşdur.

Nadir şahın ölümündən sonrakı illərdə, müstəqil dövlət yaratmaq niyyətində olan Əmiraslan xan III Sam Mirzəni edam etdirdikdən sonra qısa vaxtda Təbriz, Xalxal, Ərdəbil və Azərbaycanım bir sıra cənub əyalətlərinin özünə tabe etdi. Əmiraslan xan Nadirin ölümündən sonra, hakimiyyətə gəlmiş qardaşı oğlu Əliqulu xanın (Adil şahın) hakimiyyətini tanımadı və 1748-ci ildə özünü İranın müstəqil hakimi elan etdi. Lakin həmin ilin sonunda Adil şahın öz qardaşı İbrahim Mirzə tərəfindən hakimiyyətdən uzaqlaşdırılması vəziyyəti xeyli dəyişdi. İbrahim

Mirzə böyük qüvvə ilə Əmiraslan xanın üzərinə hücum edib Təbrizə daxil oldu. Məşhəd və İsfahanda baş vermiş üsyan xəbərini eşidən İbrahim şah böyük hərbi qüvvə ilə oraya yola düşdü. Məşhəddəki döyüşdə İbrahim şah həlak oldu. Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirmək istəyən Fətəli xan Əfşar Nağı xanla birlikdə Təbrizi tutdu və paytaxtı Urmiyadan buraya köçürdü. Fətəli xan Əfşar Təbrizin idarəsini Nəcəfqulu xana tapşırdı. Buna görə də Təbriz xanlığı Urmiya xanlığından asılı vəziyyətdə olmuşdu. Fətəli xanın öldürülməsindən sonra Təbriz xanlığı tam müstəqillik əldə etdi.

Təbriz xanlığının əhalisi əkinçilik, bağçılıq, qismən də maldarlıqla da məşğul olmuşlar. Sənətkarlıq və ticarət inkişaf etmişdir. Xanlın inzibati cəhətdən Təbriz, Güney və Mərənd vilayətlərinə bölünürdü. Mahalları bəylər, naiblər, kəndxudalar idarə edirdilər. Xanlığın təqribən 10 min nəfərlik ordusu var idi. Kəndlilər və şəhər əhalisi vergi verir, müxtəlif mükəlləfiyyətlər daşıyırdı.

**Ərdəbil xanlığı:** XVIII əsrin ortalarında yaranmış xanlıqlardan biri də Ərdəbil xanlığıdır. Bu xanlığın mərkəzi Ərdəbil şəhəri idi. Ərdəbil xanlığı Lənkəran, Qarabağ, Təbriz, Marağa və Gilan xanlıqları ilə həmsərhəd idi. Xanlığın əsasını Şahsevən tayfasından olan Bəbir xan qoymuş və dövləti siyasi cəhətcə möhkəmləndirmişdi. Xanlığı feodal əyanlarının toplaşdığı divanxana idarə edirdi. Mahallarda idarəçilik işləri bəylər, naiblər, kəndxuda tərəfindən aparılırdı. Xanlığın 3 min nəfərlik daimi qoşunu var idi. Bəbir xanın oğlu Nəzərəli xanın dövründə (1747- 1783) zəndlər və qacarlarla münasibət kəskinləşmişdi. Amma Nəzərəli xan nikah diplomatiyası vasitəsi ilə qarabağlı İbrahim xanla dostluq əlaqələri yaratmışdı. Lənkəran xanlığı ilə də mehriban qonşuluq münasibətində idi. İran hakimi Kərim xanın fıtnəsi nəticəsində Nəzərəli xan səfərdə olarkən Gilan hakimi Hidayət xan tərəfindən Əsir alınıb Ənzəliyə aparılmışdı. Lakin Kərim xanın ölümündən sonra ərdəbillilər onu əsirlikdən xilas etmişdir.

Qubalı Fətəili xan 1784-cü ilin mayında hücum edib Ərdəbil və Meşkini tutdu. Bu hadisə Fətəli xanın düşmənlərinin, eləcə də Rusiyanın narazılığına səbəb oldu. Nəzərəli xanın ölümündən bir qədər sonra həkimiyyətə gələn Nəsir xanın dövründə xanlıq qacarlardan asılı vəziyyətə düşmüşdü.

## *§ 3. Azərbaycanın Şimal xanlıqları*
### *3.1. Şəki xanlığı*

1743-1744-cü illər üsyanı nəticəsində Şəki ərazisi İran əsarətindən xilas oldu. Burada müstəqil Azərbaycan dövləti olan Şəki xanlığı yaradıldı. Xanlığın əsasını qoyan Hacı Çələbi olmuşdur. Müstəqil Şəki xanlığının yaradılması əslində Azərbaycanın böyük bir hissəsində dövlətçiliyin bərpası demək idi.

Şəki xanlığı öz banisi Hacı Çələbiıin dövründə xeyli qüvvətlənmiş, fəal siyasət yeridərək ətraf torpaqları özünə birləşdirmişdir. Hacı Çələbi əlverişli şəraitdən istifadə edərək Təbrizə qədər irəliləmiş, lakin Əmir Aslan xan onu geri çəkilməyə məcbur etmiş və əks hücuma keçərək Şəkiyə hücum edir. H.Çələbinin oğlu

Həsənağa isə döyüşdə öldürülür. H.Çələbi Şirvan xanı ilə birləşərək Qarabağa soxulur. Lakin Boyat qalasını bir ay mühasirədə saxladıqdan sonra məğlub olub geri çəkilir. H.Çələbi Kürdən keçərkən məyus halda demişdir: «Pənahəli xan özünü xan elan etmişdir, mən isə öz məğlubiyyətimlə onun xanlığını təsdiq etdim». H.Çələbi yenə öz planlarından əl çəkmir, Qarabağ məliklərindən öz məqsədi üçün istifadə etməyə çalışır. O, Qazı Qumuxlu Məhəmməd Həsən xanın qızı ilə evlənməklə onu öz tərəfinə çəkir. Bir qədər sonra Ərəş və İlisu sultanlıqlarını özündən asılı vəziyyətə salır. Beləliklə, Şəki xanlığı bu dövrdə Azərbaycan xanlıqları içərisində ən güclü feodal dövləti olur. H.Çələbi Şəkidə abadlıq işləri aparmış - məscidlər, hamamlar, mədrəsələr və s. ictimai binalar tikdirmişdir. Vergiləri nizama salmaq məqsədi ilə Qanunnamə hazırlatmışdır.

Şəki xanlığının güclənməsi, onun Car-Balakən və Gəncə torpaqlarına göz dikməsi bir sıra Azərbaycan xanları və Kartlı - Kaxet çarlığını ciddi narahat edirdi. Gürcü hakimləri Carı ələ keçirməyə çalışırdılar. Lakin 1751-ci ildə onların qoşunları Carda H.Çələbi tərəfindən məğlub edildi. 1752-ci ildə Temuraz) Kartli çarı» və İrakli (Kaxet çarı) Gəncəyə hücum etməyi qərara aldılar. Onlar bu məqsədlə Qarabağ xanı Pənahəlini öz tərəflərinə çəkərək onunla ittifaqa girdilər. Bu ittifaq əslində H.Çələbiyə qarşı çevrilmişdi. İttifaqa Naxçıvanlı Heydərqulu xan, Qaradağlı Qasım xan, Gəncəli Şahverdi xan, İrəvanlı Hüseyn xan da cəlb edildi. 1752-ci ilin martında müttəfiqlər Gəncə altında Qızılqaya adlanan yerdə görüşdülər. Lakin İrakli xəyanət edərək xanları əsir aldı və onları özündən asılı vəziyyətə salmağa çalışdı.

Kürün sol sahilində düşərgə salmış H.Çələbi xanların əsir alınması xəbərini aldıqda hücum edərək gürcüləri təqib etməyə başladı. Ağstafa çayı yaxınlığında gürcüləri məğlub etdi və xanları əsirlikdən azad etdi. Borçalı və Qazax sultanlıqlarını ələ keçirdi, oğlu Ağakişini ora hakim təyin etdi. Tariximizə «Qızılqaya xəyanəti» kimi daxil olmuş bu hadisə bir daha göstərdi ki, Azərbaycan xanları birləşməli və ümumi düşmənə qarşı vahid cəbhədə mübarizə aparmalıdırlar. 1752-ci ilin yazında H.Çələbi dostluq münasibətləri yaratmaq üçün Temurazın sarayına elçi göndərdi. Lakin Temuraz Kabardin hakimindən 2 min qüvvə alaraq Ağakişini Borçalı və Qazaxdan çəkilməyə məcbur etdi. Sonrakı il H.Çələbi Cara hücum etsə də, məğlub oldu. Şirvan torpaqlarını ələ keçirmək üçün 1755-ci ildə H.Çələbi ora hücum etdi. Ağsuyu mühasirə etsə də, məğlub olub geri çəkildi. H.Çələbi 12 il xanlıq etdikdən sonra 1755-ci ildə vəfat etmişdir.

Onun ölümündən sonra Şəki xanlığında hakimiyyət uğrunda mübarizə güclənmiş, Şəki xanlığı öz əvvəlki qüdrətini itirmiş, Azərbaycanın siyasi həyatında elə bir rol oynaya bilməmişdir.

Hakimiyyətə H.Çələbinin oğlu Ağakişi keçmişdir. O, qaymatası qazıqumuxlu Məhəmməd Həsən xan tərəfindən Ərəşdə öldürülmüşdür. Məhəmməd xan 40 gün Şəkidə hakimiyyətdə olmuşdur. H.Çələbinin nəvəsi Hüseyn xan Qubalı Fətəli xanın köməkliyi ilə xanlığı ələ keçirmişdir. 1762-ci ildən Fətəli xan Əfşər Azərbaycana soxulur. Bundan istifadə edən Ərəş sultanı Əli Hüseyn xanlıqdan kənar

etmək istədi, lakin bu baş tutmadı. 1767-ci ildə Qubalı Fətəli xan Hüseyn xan ilə birlikdə Şirvanı ələ keçirdilər. Şirvanın bir hissəsinin Şəkiyə qatılması Fətəli xanı narahat etdi. Hüseyn xan bunu hiss etdikdə Şirvan xanı Ağası ilə yaxınlaşdı. 1768-ci ildə Fətəli xan Hüseyn xanı məğlub etdi və 1769-cu ildə onlar arasında bağlanılan müqaviləyə görə Hüseyn xan fətəli xandan asılı vəziyyətə düşdü. O, Şamaxı hadisələrinə qayıtmayacağına və Fətəli xana qoşunla kömək edəyəciyini üzərinə götürmüşdü. 1779-cu ildə Hüseyn xan 22 il hakimiyyətdən sonra əmisi Əbdülqadir tərəfindən öldürülmüşdür. Onun oğlu Məhəmməd Həsənağa Cardan qoşun toplayaraq hakimiyyəti ələ keçirmişdi. Məhəmməd Həsən Şəki qalasını tikdirmiş, xanlıq üçün «Dəstur-əl Əməl» qanunnaməsi hazırlamışda. O, Fətəli xanın siyasətinə qarşı çıxmış, 1785-ci ildə məğlub edilmişdir. Fətəli xan onu özündən asılı vəziyyətə salmışdı. Onlar «Nigah diplomatiyasına» əl ataraq bir-birinin bacısı ilə evlənmişdilər. Məhəmməd Həsən Fətəli xanın asılılığından qurtarmağa çalışmış, hətta Ərəş sultanı ilə birlikdə Ağsuya hücum etmişdi. Məğlub olduqdan sonra bacısı vasitəsi ilə Fətəli xandan Aman istəmişdir. 1795-ci ildə Ağa Məhəmmədin hücumu zamanı onun tərəfinə keçmişdi. O, qardaşı Fətəlini kor etmiş, Səlim isə Cara qaçmışdı. Səlim xan xanlığı ələ keçirmişdi. 1796-cı ildə o, Zubovun yanına elçi göndərmişdi. Qacarın 2-ci hücumu zamanı Şirvanlı Mustafa xan Şəkini tutub ora öz naibini təyin etmişdir. 1804-cü ildə Səlim xan Şəkidə hakimiyyəti yenidən ələ keçirdi. 1805-ci ildə Rusiyanın himayəsini qəbul etdi. Qarabağlı İbrahim xan və ailəsi ruslar tərəfindən öldürüldükdən sonra Səlim xan tərəddüdə başladı və İrana qaçmışdır. Şəkinin xanı Cəfərqulu xan Xoyski təyin olunmuşdur. Onun oğlu İsmayıl bəy öldükdən sonra (1819) Şəkidə xanlıq üsuli-idarəsi ləğv edildi.

### *3.2. Quba xanlığı*

Azərbaycanda ən zəngin vilayətlərdən biri olan Qubanın ərazisində Dağıstan, Şimali Qafqaz və Rusiyanı birləşdirən mühüm ticarət yolu keçirdi. Bu əlverişli vəziyyət Quba xanlığının yüksəlişində mühüm rol oynamışdır.

Quba xanlığı Azərbaycanın ərazisində erkən yaranmış xanlıqlardan biri idi. Xanlığın əsası XVII əsrin sonuncu rübündə qoyulmuşdur. Tarixi mənbələrdə Qubanın ilk xanı Hüseynin 1689-cu ildə öldüyü qeyd olunur. Xanlığın mərkəzi əvvəl Xudat qalası, sonra isə, 1735-ci ildən Quba olmuşdur. 1724-cü ildə Quba Rusiyaya birləşdirilmiş və onun xanı Hüseynəli xan təyin olunmuşdur. O, çar xəzinəsinə xərac verməmiş, ancaq yeri gəldikdə öz qoşunları ilə Rusiyaya kömək etmişdir. Sonra Quba xanlıgı Nadir şahdan asılı vəziyyətə düşmüşdür. Onun ölümündən (1758) sonra isə müstəqillik qazanmışdır. XVIII əsrin 50-ci illərindən başlayaraq Quba xanlığı öz ərazisini genişləndirmək üçün mübarizəyə başlamışdır. Hüseynəli xan 1722-1757-ci illərdə Səlyanı Qubaya birləşdirmişdir. Siyasi cəhətdən zəif, ərazisinin az olmasına baxmayaraq Səlyan böyük strateji və iqtisadi potensiala malik idi mənbələrdə qeyd olunur ki, balıq ovundan 50 min gümüş pul gəlir götürülmüşdür.

Fətəli xanın (1758-1789) dövründə Quba xanlığının nüfuzu daha da artmışdı. O, 22 yaşında Qubanın xanı olmuş, yeni-yeni torpaqları bu xanlığa birləşdirmişdir. Quba xanı öz ərazisini genişləndirmək üçün müxtəlif vasitələrə əl atmışdır. O, bəzi feodal hakimlərini zorla, bəzilərini qohumluq əlaqəsi ilə özündən asılı vəziyyətə salmışdı. Əhalinin aşağı təbəqəsi də Fətəli xanın birləşdirmək siyasətinə tərəfdar idilər. Xüsusilə Fətəli xan 1736-cı ildə anadan olmuşdu. Salyanın alınmasına özü rəhbərlik etdi. 22 yaşında Qubanın xanı oldu. Tacir və sənətkarlar ticarətin inkişafına müsbət təsir edən mərkəzləşdirilmiş dövlətin yaranmasından razı idilər. Fətəli xan dövrünün görkəmli dövlət xadimi idi. O, ilk növbədə qoşunlarını artırdı. Vergi islahatları keçirdi. Dövlətin sərhədlərini möhkəmlətmək üçün Muğandan döyüşkən Şahverən tayfasının bir hissəsini xanlığa köçürdü. A.Bakıxanov yazır: «Fətəli xan tədbirli, əzmində sabit qədəm, məmləkətin idarəetmə işlərində mahir bir adam idi». P.T.Butkov onu geniş ağla malik, igid, bacarıqlı, düşüncəli və yorulmaq bilməyən bir şəxs kimi təsvir edir. O, mahal naiblərinin hüquqlarını məhdudlaşdırmış, vergiləri nizama salmış, xəzinənin gəlirin artırmışdır. O, muzdlu qoşun saxlayırdı. Digər xanlıqlardan fərqli olaraq, onun Azərbaycan torpaqlarını birləşdirmək siyasəti mütərəqqi hadisə idi.

Mühüm qala və ticarət liman olan Dərbəndin Qubaya birləşdirilməsi böyük əhəmiyyət kəsb edirdi. Əhali Məhəmməd Hüseyn xandan narazı olub, Fətəli xana meyil edirdi. Fətəli xan Dağıstan hakimləri - Tarku Şamxalı Murtuzəli, Qaraqaytaq Usmisi Əmir Həmzəni və Tabasaran hakimi ilə əlaqəyə girib Samurun sağ sahilində olan torpaqları ələ keçirdi, sonra isə Dərbəndi mühasirə edib, 1759-cu ildə ələ keçirdi. Məhəmməd Hüseyni tutub gözlərini çıxartdı və Bakıya göndərdi. Dərbəndin xəzinəsi və xanın əmlakı ələ keçirildi. Fətəli xan Dərbəndin və Qubanın bir sıra kəndlərindən vergi toplamaq hüququnu müttəfiqlərinə verdi. Əmir Həmzənin bacısı Tuti Bikə ilə evləndi. Dərbənddən sonra 1767-ci ildə Bakı xanlığı Qubaya birləşdirildi. Bakı həm dəniz limanı, həm də Xəzər dənizində mühüm ticarət mərkəzi idi. Buradan çıxarılan neft böyük gəlirə malik idi. Fətəli xan bacısı Xədicə Bikəni nisbətən zəif iradəli Məlik Məhəmməd xana verməklə onu özündən asılı vəziyyətə saldı. 1781-ci ildə onun ölümündən sonra Bakınm hakimi oğlu Mirzə Məhəmməd oldu.

Fətəli xan öz müvəffəqiyyətlərini genişləndirərək Şirvan xanlığını ələ keçirmək uğrunda mübarizəyə başladı. XVIII əsrin ortalarında Şirvanın bir hissəsi Nadirin vergi toplayanı Hacı Məhəmmədəli xan, bir hissəsi isə Çoban tayfasının sərkərdə nəslindən Məhəmməd Seyid xan idarə edirlər. Bir qədər sonra bütün Şirvan ərazisi Məhəmməd Seyid xan və Ağasi xan qardaşlarının əlinə keçdi.

Fətəli xan Şirvanı dağlıların basqınlarından qorumaq üçün bac alırdı. Lakin Ağası xan bu bacı verməkdən boyun qaçırdı. Bundan istifadə edərək Fətəli xan Şəki xanı Hüseynəli ilə oraya hücum etdi (1754). Ağasi xan bac verməyə hazır olsa da qoşun toplamağa başladı. 1768-ci ildə Şəki və Quba qoşunları Şamaxıya hücum etdi. Ağasi xan məğlub edildi, gözləri çıxarılıb Kür sahilində Ketavana gön-

dərildi. Şirvan torpaqları Şəki və Quba arasında bölüşdürüldü. 1768-ci ildə Cavad xanlığı Quba xanlığından asılı vəziyyətə düşdü.

XVIII əsrin 60-cı illərində Quba xanlığı Azərbaycanın şimal-şərq torpaqlarını öz hakimiyyəti altında birləşdirdi. Təbriz, Ərdəbil və Gəncə əhalisi Fətəli xanın himayəsinə sığınmaq arzusunda olduqlarını bildirdilər. O zaman Azərbaycanda olan rus məmurlarından biri yazırdı: «... Mən Gilan vilayətindən, Ərdəbil, Təbriz, Gəncə və İrəvan şəhərlərində hədiyyələrlə Dərbəndə Fətəli xanın yanına gəlmiş üç nəfər adlı-sanlı tacir gördüm: onlar öz xanlarından gizli, yerli əhali adından xahiş edirdilər ki, Fətəli xan həmin yerləri öz hakimiyyətinə tabe etsin: onlar vəd edirdilər ki, yürüş zamanı ona heç bir müqavimət göstərilməyəcəkdir».

Öz hakimiyyətlərini itirən feodallar Fətəli xanın bü siyasətindən narazı idilər. Onlar Fətəli xana qarşı ittifaqa girdilər. Şamaxıda Fətəli xana qarşı qəsd təşkil edildi, bu qəsddə Şəki xanı Hüseynəli də iştirak etmək üçün 10 min qüvvə ilə Şamaxıya yaxınlaşdı. Fətəli xan Məhəmməd Seyid xan başda olmaqla qəsdçiləri həbs etdi. Hüseynəli döyüşə girmədən Fətəli xana tabe oldu.

Quba xanlığının güclənməsi digər xanlıqları narahat edirdi. Qarabağ, Şəki xanlığı və Kartli-Kaxet çarlığı Fətəli xana qarşı ittifaq yaratdılar, lakin bu ittifaq ən çox Fətəli xanı geri çəkilməyə tələb etmişdir. Fətəli xan geri çəkilməyə məcbur olmuşdur.

Ərazi genişləndikcə, şöhrət artdıqca Fətəli xana qarşı əks qüvvələr birləşirdi. Qarabağ, Şəki və Dağıstan hakimləri 1774-cü ildə Kavduşan çölündə (Quba ilə Dərbənd arasında) Fətəli xanı məğlub etdilər. Fətəli xan Salyana çəkildi. Əmir Həmzə Qubanı tutdu. Dərbəndi mühasirəyə aldı. Şəhərin müdafıəsinə Tuti Bikə rəhbərlik edirdi. Əmir Həmzə onu aldadıb şəhərə girmək üçün şayiə yaydı ki, Fətəli xan ölüb. Hətta bacısını tam inandırmaq üçün ölmüş bir Dağıstan hakiminin meyidini müşayiət edən matəm mərasimi təşkil etdi. Lakin hiylə baş tutmadı.

1775-ci ildə Fətəli xanın xahişi ilə rus hökuməti general İ.F.de Medelin başçılığı ilə Dərbəndə qoşun göndərdi. Ə.Həmzə Qubadan və Dərbənd ətrafından çəkildi.

1784-cü ildə Fətəli xan Cənubi Azərbaycana yürüş edərək Ərdəbil və Meşkin şəhərlərini ələ keçirdi. Lakin bundan II Yekaterina narazı qaldı və onu geri çağırdı.

1785-ci ildə Fətəli xan Şəki xanlığını özündən asılı vəziyyətə saldı. O, İrakli ilə ittifaq yaratdı. 1788-ci ildə onların qoşunları Gəncəyə daxil oldu. 1789-cu ilin martında Fətəli xan Cənubi Azərbaycana yürüşə hazırlaşarkən Bakıda qəflətən vəfat etdi.

Fətəli xanın 32 illik hakimiyyəti dövründə Azərbaycan torpaqlarının vahid dövlətdə birləşdirilməsi uğrunda mübarizə aparmışdır. Lakin natural təsərrüfatın hökm sürməsi feodal pərakəndəliyi, xarici şəraitin əlverişli olmaması, yerli feodal hakimlərinin müqaviməti buna inıkan verməd. Onun yaratdığı birlik isə tezliklə dağıldı. Oğlu Əhməd xan atasının nailiyyətlərini möhkəmləndirə bilmədi. Onu əvəz etmiş Şeyx Əli xanm dövründə Şirvan, Bakı, Şəki və digər xanlıqlar Quba xanlığmdan ayrıldılar.

### *3.3. Qarabağ xanlığı*

XVIII əsrin ortalarında Azərbaycanda yaranan xanlıqlar arasında əsası Pənahəli xan tərəfindən qoyulmuş Qarabağ xanlığı böyük nüfuza malik idi. Xanlığın əhalisini Cavanşir, iyirmi dörd, otuz ikilər, Kəbirli, Ziyadoğlu, Baharlı türk tayfaları təşkil edirdi. Pənahəli xan Qarabağda yaşayan cavanşirlər tayfasına məxsus Sarcallar kəndindən çıxmışdır. Tarixçilərin verdiyi məlumata görə ata-babaları adlı-sanlı, dövlətli şəxslər idi. Pənahəli gəncliyində qardaşı Behbudəli ilə birlikdə Nadir şahın yanında xidmət etmişdir. Lakin qardaşının Nadirin qəzəbinə düçar olmasından sonra Pənahəli Muğana qaçmış və burada ətrafına dəstələr toplayaraq ətraf ərazilərə basqınlar təşkil etmişdir.

Muğanda Nadir şaha tacqoyma mərasimində Qarabağın bu tayfaları onun əleyhinə çıxdılar. Ona görə də Nadir şah qarabağlıları cəzalandıraraq onları Xorasan vilayətinə və Əfqanıstan sərhədlərinə sürgün etdi. Pənahəli bəy və onun qardaşı Fərzəli bəy də onların arasında idi. Fərzəli bu siyasətə qarşı çıxdığı üçün edam edildi. 1738-ci ildə Pənahəli bəy yaxın adamları ilə Qarabağa gedir və bir müddət Zəngəzurda yaşayır, 1743-cü ildə özünü xan elan edib, xanlığın əsasını qoyur.

Nadirin ölümündən sonra Pənahəli (1743-1763) 1748-ci ildə Qarabağda öz hakimiyyətini möhkəmlətmək üçün cavanşirlər, otuzikilər və başqa tayfaların qüvvələrindən istifadə etmişdir. Nadirin Qarabağdan Xorasana köçürdüyü tayfalar XVIII əsrin ortalarında yenidən öz yerlərinə qayıdaraq, dinc əməklə məşğul olmağa başladılar. Pənahəli onları öz tərəfinə çəkmək üçün Şirvan, Şəki, Gəncə və s. yerlərə basqınları zamanı ələ keçirdiyi mal-qara, at və müxtəlif əmlakı onlara paylayırdı. Qarabağ xanlığının mərkəzi Şuşa şəhəri idi. Əhalisi əkinçilik, maldarlıq, arıçılıq və toxuculuqla məşğul olurdu. Şuşada «Panabad» adlı pul kəsirdilər. Pənahəli hakimiyyətini möhkəmləndirmək üçün qohum olduğu Car icmalarının hakimi və Vərəndə məliyi Şahnəzərin köməyindən istifadə edirdi. Pənahəli İran və digər xanlardan qorunmaq üçün Kəbirli mahalında 1748-ci ildə Boyat qalasını tikdirdi. Xanın ailəsi və qohumları buraya köçürüldü. Qarabağ xanlığının qüvvətlənməsi digər xanları narahat etməyə başladı. Şəki xanı Hacı Çələbi Şirvan xanı ilə birləşərək Qarabağa soxulsa da müvəvəqiyyət qazana bilmədi. Pənahəli xanın bu qələbəsi onun nüfuzunu daha da artırmış, Qarabağın bütün əhalisi onun hakimiyyətini qəbul etmişdir. Pənahəli gələcəkdə öz düşmənləri ilə daha müvəffəqiyyətli mübarizə aparmaq məqsədi ilə Ağdam yaxınlığında 1751-ci ildə Şahbulaq qalasını tikdirdi.

Qarabağın qədim adı Arsaq (Арцаг) adlanır. Onun Арцаг adlanması Savir-Xəzər türkdilli tayfalarla bağlıdır. Erməni mənbələrinə də onlardan keçmişdir. V-VII əsrlərdəki erməni qaynaqları Savir- Xəzərlərdəki fonetik variantı yazıya almışdır. Arsaq qəbiləsi Azərbaycan xanlığının soykökündə duran başqa qəbilələrlə qaynayıb-qarışdıqca qəbilə birləşməsi müstəqilliyini itirmiş və yer, ərazi adı kimi arxa plana çəkilmiş, «Qarabağ» sözü ön plana çıxmışdır. «Qara» və «bağ» tərkiblərindən yaranmış «Qarabağ»ın I hissəsinin «rəng», «pis», «qayğılı», «bədbəxt»,

«şimal», eləcə də başçı, böyük, güclü anlamı vardır. Azərbaycanın bir sıra yerlərində böyük qardaşa da qara deyirlər. «Qarabağ» adının ikinci tərkibi «bağ»ın «bağ(ip)», «düyün», «bağ (bağ-bağat», «soybirləşməsi silsiləsi», «xalqın bir hissəsi» və b. anlamları daha çox yayılmışdır. Qarabağ - güclü, böyük saybirləşməsinin, xalqın başçısı, bölgüsü deməkdir. Görünür ki, burada azərbaycanlıların güclü, böyük bölgüsü məskən salmışdır. Doğrudan da, bu torpaqlarda vaxtilə Orta Asiyadan Qafqaza qədər böyük, güclü qəbiləbirləşməsi nıəskən salmışdır (M.Seyidov. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: 1989, səh. 36-37).

Qarabağa Kiçik Qafqaz dağları daxil olmaqla Kür-Araz çayları arasındakı ərazi daxildir. Oıun sərhədləri cənub-şərqdən Kür-Araz çayları qovşağı, cənubdan Araz çayı, qərbdən Qarabağ dağları adlanan Kəşkəb, Salvarlı və Ərikli dağları ilə Göyçəgölünə qədər uzanmış, şərqdən Goran-Kür çayı ilə sərhədlənmişdir. Qarabağ 17 mahala bölünmüşdür: Sisyan, Kəbirli, Talış, Cavanşir (Qarabağ düzü və ona bitişik olan Bərdədən cənubdakı torpaqlar). Otuziki, İyirmidörd, Xaçın, Çiləbörd (Çarabörd), Vərəndə, Dizax və s. Talış bəzən Gülüstan adlanırdı. On iki mahal bütünlüklə azərbaycanlı türklərindən ibarət idi.

Nadirin ölümündən sonra hakimiyyətə keçən oğlu Əliqulu (Adil şah) Azərbaycanın idarə edilməsini Əmir Aslan xana tapşırdı. Hacı Çələbi üzərindəki qələbədən sonra özünə yeni düşmən qazanmamaq üçün Əmir Aslan xanın yanına elçi göndərərək Adil şahın hakimiyyətini qəbul etdiyini bildirdi.

Pənahəli xan Qarabağın beş məlikliyini asılı vəziyyətə saldı. Vərəndə məliki özü Pənahəli xanın hakimiyyətini qəbul etdi. Dörd məliklik (Xaçın, Dizaq, Ciləbörd, Gülüstan) zorla tutulmuşdur. Pənahəli xan öz ərazisini cənubi-qərbə doğru genişləndirərək Sisiyan, Qapan, Mehrini xanlığa birləşdirdi. Xanlığın sərhədləri şimaldan Gəncə xanlığına, şərqdən Kür-Arazın birləşdiyi yerə, cənubdan Araz çayına, qərbdən isə Mehri, Sisiyana qədər çatırdı.

Pənahəli xan yeni qalanı möhkəmlətməklə məşğul olarkən Cənubi Azərbaycan və İran hakimləri dəfələrlə buraya hücum etmişlər. 1757-ci ildə Məhəmməd Həsən xan Qacarın qoşunları Qarabağa soxuldu. O, Pənahabadı mühasirə etməyə cürət etmədi. Şuşanın 30 verstliyində «Xatın arxı» yanında baş verən döyüşdə məğlub oldu. Pənahəli xan iki ağır top qənimət götürdü. İranda Kərim xan Zəndin ona qarşı çıxış etdiyini eşidən Məhəmməd Həsən xan İrana qayıtdı. 1759-cu ildə Qarabağa Urmiya xanı Fətələi xan Əfşarın 30 minlik qoşunu hücum etdi. 6 ay davam edən mübarizə Pənahəli xanın asılılığı qəbul etməsi və oğlu İbrahimxəlili girov verməsi ilə nəticələndi. Yaranmış vəziyyətlə əlaqədar olaraq Pənahəli xan zahirən olsa da, onunla sazişə girməyə məcbur oldu. Oğlu İbrahimxəlili girov kimi onun yanına gətirdi.

XVIII əsri 50-ci illərində İranda hakimiyyəti ələ keçirən Kərim xan Zənd Fətəli şah Əfşarı məğlub edərək Azərbaycanın cənub torpaqlarını tutdu və Qarabağ xanlığını hədələməyə başladı. Kərim xan Zənd Fətəli şah Əfşarla Pənahəli xanın qüvvələrindən istifadə etdi. Lakin Kərim xan Zənd Urmiyanı aldıqdan sonra orada dustaq olan İbrahimxəlil ağanı hakimiyyət fərmanı ilə Qarabağa yola saldı.

Beləliklə Qarabağ xanlığına ciddi zərbə vurmuş oldu. O, Pənahəli xanı özü ilə Quma «Şiraz qonaqlığına» aparmış, bəhanələrlə onu geri qayıtmağa qoymamışdır. Xanlığın idarəsini oğlu İbrahimxəlil xana (1763-1806) həvalə etmişdir. Qarabağın idarə edilməsini isə Pənahəli xan kiçik oğlu Mehralıya tapşırmışdı. Bundan sonra Mehralı bəylə İbrahimxəlil qardaşları arasında çəkişmə başlamış, 1763-cü ildə İbrahimxəlil qalib gəlmişdi. Mehrəli Qubaya qaçmış, hücumlarda iştirak etmiş və 1785-ci ildə öldürülməsi ilə nəticələnmişdi. İbrahimxəlilin dövründə Qarabağ xanlığı daha da möhkəmlənmişdir. O, mərkəzi hakimiyyətdən uzaqlaşmağa çalışan məlikləri özünə tabe etmiş, fəal xarici siyasət yeritmişdir. A, Avar hakimi Ümmə xanın qızı ilə evlənmiş və onun qüvvələrindən istifadə etmişdir. İbrahimxəlil xan hakimiyyətini müəyyən vaxtlarda Naxçıvan, Gəncə və Təbriz xanlıqlarına da yaya bilmişdi.

Pənahəli xanın ölümündən sonra Dizaq məliyi Yesay, Çiləbörd məliyi Məclum, Gülüstan məliyi Bəyləryan asılılıqdan qurtarmağa çalışmışlar. Vərəndə məliyi Şahnəzər və Xaçın məliyi Mirzəxan İbrahim xana sədaqətlərini bildirmişlər. Şahnəzər qızı Hüzadı İbrahimxəlil xana verdi. 1781-ci ildə İbrahimxəlil xan ona sadiq olan məliklərin köməyi ilə Tuğu mühasirə etdi. Yesayı tutub həbsə saldı. Hakimiyyətə oğlu Bəhmən keçdi. Lakin məliklər mübarizəni davam etdirdi. Onlar İbrahimxəlilə qəsd təşkil etməyə çalışır. Qəsdin üstü açılır. Məclum və Abov həbs edilir, sonra onlar qaçaraq II İrakliyə sığmırlar. İbrahimxəlil onları tələb etmiş, ələ keçməklərindən qorxaraq Cavad xanın yanına qaçmışlır. Sonra Qacarın Tiflisə hücumunda bələdçi olmuşlar.

İbrahimxəlil gürcü çarı II İrakli ilə ittifaqa girmiş, danışıqlar aparmaq üçün vəziri Vaqifi oraya göndərmişdir.

## *§ 4. XVIII Əsr Azərbaycan-Rusiya Münasibətləri*
### *4.1. Xanlıqların Rusiya ilə münasibətləri*

XVIII əsrin ikinci yarısında Rusiyanın Qafqaza marağı daha da artmışdır. Rusiya mütləqiyyətinin Cənubi Qafqaz, Xəzər hövzəsini ələ keçirmək üçün xüsusi planı var idi. Rus çarizminin müstəmləkəçilik siyasətinə baxmayaraq Azərbaycanın Rusiyaya birləşdirilməsi meyli onun İran əsarətindən qurtarmağa, feodal müharibələrinin aradan qaldırılmasına imkan verirdi.

İran tərəfindən daim gözlənilən təhlükə şəraitində Azərbaycanın bəzi xanlıqları Rusiya ilə yaxınlaşmağa cəhd edirdilər. Onlar belə hesab edirdilər ki, Rusiyanın köməyi ilə İranın hücumlarını dəf etmək olar.

1768-74-cü illərdə Türkiyə-Rusiya müharibəsi dövründə Rusiyaya yaxınlaşma prosesi daha qüvvətlənmişdir. Türkiyə öz elçilərini Azərbaycan və Dağıstana göndərir, müxtəlif vədlərlə yerli hakimləri öz tərəfinə çəkməyə çalışırlar. Onları Rusiyaya qarşı birgə mübarizəyə çağırırlar.

Türkiyə Azərbaycanın ən güclü xanı Fətəli xanı öz tərəfinə çəkməyə daha çox cəhd edirdi. Türkiyə nümayəndəsi Fətəli xanın yanına gəlmiş, onu Rusiyaya qarşı çıxmağa təhrik etmişdir. Lakin Fətəli xan bu təklifı qəbul etməmişdir. 1769-cu ildə Bakıda olan rus konsulu öz hökumətinə bildirmişdi ki, Fətəli xan Rusiyaya qarşı müharibədə Türkiyəyə kömək təklifini qəbul etmədi və onun hədiyyələrini almadı. Fətəli xan türk elçisinə belə cavab vermişdir: «Onlar mənə lazım deyil, mənə öz varidatım bəsdir». 1770-ci ildə Rusiyanın diplomatik nümayəndəsi bildirdi ki, türklərin Quba xanını öz tərəfinə çəkmək üçün etdiyi bütün cəhdləri boşa çıxdı. Fətəli xan buna heç bir meyil göstərmədi və heç şey etmədi: həqiqətən də o, əvvəlki dostluğunu davam etdirməkdən başqa Rusiyaya qarşı heç bir şey başlamaq fıkrində deyildi. Fətəli xanın simasında özünə müttəfiq qazanmaq istəyən Kərim xan Zənd 1774-cü ildə çoxlu hədiyyələrlə elçi göndərmişdir. Lakin Fətəli xan hədiyyələri qəbul etmədi və onun təkliflni rədd etdi.

Quba xanlığı Rusiya ilə ittifaqı və dostluğu ardıcıllıqla aparmışdır. Quba xanlığı dəfələrlə Rusiyanın himayəsinə qəbul edilməsini xahiş etmişdir. Azərbaycanda olan rus səyyah və məmurları Azərbaycan əhalisinin Rusiyaya meylini dəfələrlə qeyd etmişdirlər. XVIII əsrin ikinci yarısında yüksək vəzifəli rus məmurları, diplomatları, alim və səyyahlarının Azərbaycanda olması rus-Azərbaycan əlaqələrini daha da möhkəmləndirmişdir.

Qafqazda Rusiya mənafeyi nöqteyi-nəzərindən Rusiya Elmlər Akademiyasının həqiq üzvü S.T.Qmelinin 1769-1774-cü illərdəki ekspedisiyası böyük rol oynadı. Ekspedisiyanın məqsədi böyük iqtisadi və hərbi-siyasi əhəmiyyətə malik olan Həştərxandan Gilana qədər Kaspi sahili vilayətləri tədqiq etmək olmuşdur. Bu ekspedisiyanın elmi axtarışları arxasında siyasi məqsədlərin olduğu yerli hakimlərə məlum idi. Qmelin Fətəli xanın yanında olmuş, hətta xan ona öz yanında qalmağı təklif etmişdir. Ekspedisiya geri qayıdarkən Əmir Həmzə tərəfindən yaxalandı. Qmelin əsirlikdə öldü (1774). Ekspedisiyanın 5 cildlik təsviri Qafqaz, orada yaşayan xalqlar, oranın etnoqrafiyası, iqtisadiyyatı haqqında geniş məlumat toplamışdır. Hesabatda Azərbaycanın təbiətinə, abidələrinə, qədim tarixinə, ayrı-ayrı siyasi xadimlərinə geniş yer verilmişdir. Hesabat Azərbaycanın o dövrdəki tarixini öyrənmək baxımından maraqlıdır. Orada Azərbaycan xalqının Rusiyaya meyil etmələrinə də toxunulmuşdur.

XVIII əsrin 80-ci illərinin əvvəllərində rus sərkərdəsi A.V.Suvorov Zaqafqaziya ilə yaxmından maraqlanmışdır. 1780-ci ilin yanvarında Kaspi sahilinə yürüşə başçılıq etmək üçün Həştərxana gəlmişdir. 1782-ci ildə Krım və Kuban qoşunlarına komandan təyin olunmuşudr. O, Zaqafqaziyanın bir sıra siyasi xadimləri ilə yazışırdı.

Fətəli xan Rusiya ilə münasibətlərini daim genişləndirirdi. 1768-74-cü il müharibəsinin Rusiyanın qələbəsi ilə başa çatması, onun Qafqazdakı mövqeyini möhkəmləndirdi. 1783-cü ildə Gürcüstanın Rusiya tərkibinə daxil olması haqqında Georgiyevskdə müqavilə bağlandı. Bunu Fətəli xan rəğbətlə qarşıladı. 1784-cü ildə Tarku şamxalı Rusiyadan asılılığı qəbul etdi. Beləliklə, bütün Zaqafqaziyanın və Dağıstanın Rusiyaya birləşdirilməsi üçün əlverişli şərait yarandı. Lakin 1787-ci

ildə Rusiya ilə Türkiyə arasında başlanan müharibə rus qoşunlarının Gürcüstandan çıxarılması ilə nəticələndi. Türkiyə yenə də müxtəlif vasitə ilə Azərbaycan və Dağıstan əhalisinin öz tərəfinə çəkməyə və onları Rusiyaya qarşı müharibəyə sövq etməyə çalışırdı. 1787-ci ildə Qubaya gələn türk nümayəndəsi Fətəli xanın Rusiyaya qarşı müharibəyə təhrik etdi. Lakin bu təklif rədd edildi. O zaman Rusiyanın xarici siyasətinə başçılıq edən Potyomkin II Yekaterinaya xəbər verirdi ki, Fətəli xan «Onu Rusiyaya qarşı silahlandırmağa qızışdıran sultan fərmanını və vəzirin məktubunu göndərmişdir... Bunun əleyhinə qarşı olaraq o (Fətəli xan), öz düşmənlərinə qarşı birgə çıxış etmək haqqında çar İrakliyə kömək təklif etmişdir. Mən onun bu hünərini tərifsiz qoymadım.

1787-ci ildə Quba xanlığının 17 nəfərdən ibarət elçi heyəti Peterburqa gəldi. Ona görkəmli diplomat Sadıq Məhəmməd Vəliyev başçılıq edirdi. Fətəli xanın II Yekaterinaya göndərdiyi məktubda deyilir: «İmperator həzrətlərindən xahiş edirəm ki, mənim ixtiyarımda olan bütün xalq və vilayətləri birlikdə ali hakimiyyətimizə qəbul edəsiniz. Xan bütün dövrlərdə Rusiyanın dostu olacağını bildirirdi. Onun məktublarının birində deyilir: «Əmin edə bilərəm ki, bütün ömrüm boyu Rusiyaya qarşı sədaqətimlə zərrə qədər olsun qüsur olmayacaqdır. Mən daim Rusiyanın dostlarına dost, düşmənlərinə düşmən olacağam».

Onu da qeyd etməliyik ki, Fətəli xan Rusiyanın köməyinə arxalanaraq Azərbaycan torpaqlarını birləşdirməyə çalışırdı. Ona görə də Rustya hökuməti onun qüvvətlənməsi ilə razılaşmırdı. Hətta II Yekaterina 1775-ci ildə Fətəli xanın köməyinə göndərilmiş rus ordusunun geri çəkilməsini tələb etmişdir. 1784-cü ildə Fətəli xanın Ərdəbili tutması rus çarını narahat etmişdir. Lakin buna baxmayaraq Fətəli xan Rusiyaya meylində ardıcıl siyasət yeritmişdir.

Yadellilərə qarşı mübarizədə və öz mövqeyini möhkəmlətməkdə Qarabağlı İbrahim xan da Rusiya ilə yaxınlaşmağa çalışırdı. 1783-cü üdə İbrahim xan məktubla II Yekaterinaya müraciət etdi və Peterburqa nümayəndə heyəti göndərərək Qarabağ xanlığının Rusiya təbəəliyinə qəbul edilməsini xahiş etdi. 1783-cü ilin yayında Qafqaz qoşunlarının komandiri Patyomkinə II Yekaterinanın fərmanında deyilir: «İbrahim xana gəlincə, onun Rusiya təbəəliyinə qəbul olunmasında heç bir çətinlik və şübhə yoxdursa, görünür, çar İrakliyə qarşı yetirdiyimiz siyasəti rəhbər tutmaq olar; belə olduqda onun Rusiya imperatoru taxtına tabe olması, mənim və xələflərimiz üzərində ali hakimiyyətin tanınması haqqında müqavilə bağlamaq barədə general Patyomkinə tapşırıq verməyi yaddan çıxarmayın».

Lakin İbrahim xan Rusiya ilə münasibətdə ardıcıl olmamışdır.

### *4.2. Ağa Məhəmməd Qacar şahın Azərbaycana yürüşləri*

Kərim xan Zəndin (1759-1779) ölümündən sonra İranda kəskinləşməkdə olan ara müharibələrində Qacarlar daha fəal olmuşdular. 1791-ci ildə Ağa Məhəmməd Qacar (1780-1797) İran və Cənubi Azərbaycanı öz hakimiyyəti altında

birləşdirdi. O, Azərbaycanın şimal hissəsini ələ keçirməyə hazırlaşdı. Azərbaycan xanlarına məktublar göndərərək onun hakimiyyətini qəbul etməyi tələb etdi.

Rusiyanın şərqdəki siyasətinə mane olmaq üçün İngiltərə və Fransa İrana kömək edirdi. Orduları yenidən qurmaq üçün İrana təlimatçılar göndərirdilər.

Qacar Qarabağa və Gürcüstana hücuma hazırlaşır. O, İbrahim xandan oğlunun girov göndərməyi tələb etmiş və rədd cavabı almışdır. O, Qarabağa 8 min qoşun göndərmiş, lakin Əsgəran yaxınlığında Qarabağ və Gürcü qoşunları tərəfindən məğlub edilmişdir. Onun digər qoşun hissələri Lənkəran xanlığına soxulmuş, Mir Mustafa xan Xəzər dənizindəki rus donanmasında sığınacaq tapmışdır.

1795-ci ilin yayında Qacar 85 minlik qoşunla Qarabağa hücum etdi. Onun hücumu bütün Zaqafqaziya üçün təhlükə törətdi. II İrakli Qarabağ xanlığı ilə ittifaqa girdi. Bu ittifaqa Talış və İrəvan xanları da qoşuldular. İttifaqın yaradılmasında xanlığın vəziri Vaqif böyük rol oynamışdır.

Qacar Şuşa şəhərini mühasirəyə aldı. Qarabağın bütün əhalisi düşmənə qarşı mübarizəyə qalxdı. Azərbaycanlılardan ibarət dəstələr tez-tez düşmənə arxadan zərbə vurur, onların ərzaqla təmin edilməsini çətinləşdirirdilər. Mirzə Camal yazır ki, o vaxtın hesabı ilə qatır 4 manat, dəvə 6, yaxşı at 10 manat idi. Şuşa şəhəri qəhrəmanlıqla müdafıə olunurdu... Qalada 15 min xalq qoşunu yaradılmışdı. Onun müdafıəsində qadmlar da iştirak edirdi. Mirzə Camal yazır ki, ermənilər və azərbaycanlılar vahid qoşun təşkil edir, işğalçılara qarşı çiyin-çiyinə vuruşurdular. Fransız zabitlərinin başçılıq etdiyi toplar 3 gün Şuşanı atəşə tutdu, lakin qala divarlarını dağıda bilmədi.

Qarabağlılar tez-tez İran qoşunlarının düşərgələrinə gecə hücumları təşkil edir və onlara böyük tələfat verirdilər. Əsgəran qalasının naibi Həsən bəyin dəstəsi gecə düşmən düşərgəsinə gücum etmiş, düşmənə ciddi tələfat verdikdən sonra geri qayıtmışdır. Sərbazlar onların düşərgədə olduğunu güman edərək bütün gecəni bir-birini qırmışlar. Vərəndə məliyinin dəstəsi düşmənin gözətçi məntəqəsini ələ keçirmiş, onları qırmış və əsir almışdır.

Şuşanın müdafıəsi 33 gün davam etmişdir. İran qoşunlarının sayı azalmış, bütün topları sıradan çıxarılmışdır. Mirzə Adıgözəlbəy bəyin yazdığına görə Ağa Məhəmməd xan Şuşada qoşunlarının tamamilə darmadağın ediləcəyindən ehtiyat edərək deyirdi: «Zərərin yarısından da qayıtmaq mənfəətdir. Müsibətlə dolu olan bu təhlükəli yerdə at başı qaytarmaq nicat xəzinəsinin açarıdır. Yoxsa çox çəkməz, bütün qoşunumuz və heyvanlarımız dərin xunxarlıq dəryasında məhv olub gedər. Bizlərdən bir nəfər olsun İrana salamat qayıtmaz».

Gəncə xanı Cavad xan Ağa Məhəmməd xanın düşərgəsinə gəlmiş və onun himayəsini qəbul etmişdir. O, Gəncədə hakimiyyətini möhkəmlətməkdə Qacardan istifadə etməyə çahşırdı. Cavad xan Şuşanın mühasirəsindən əl çəkməyi və Tiflisə hücum etməyi Ağa Məhəmməd xana təklif etdi. Onlara Səki hakimi Məhəmməd Həsən xan və İbrahim xanın düşmənləri olan məliklər Abov və Məclum da qoşuldular.

Ağa Məhəmməd xan 20 minlik qoşunla Ağdamdan Gəncəyə doğru hərəkət etdi. Onun qoşunlarının ön cərgəsinə Abov və Məclum bələdçilik edirdi. 1795-ci

ilin sentyabrın 12-də İran qoşunları şiddətli vuruşmadan sonra Tiflisə daxil oldular. Şəhərə od vurulub yandırıldı. II İrakli qırğının dayandırılmasını xahiş etdi. Ağa Məhəmməd xan bildirdi ki, bu o zaman dayandırılar ki, köməyə gəlmiş qarabağlılar ona təqdim edilsin. İrakli isə bunu rədd etdi. Tiflisdən xeyli adam qırıldı. XVIII əsr Azərbaycan şairi Şikəstə Şirin öz şeirlərində Tiflisin faciəsini ürək ağrısı ilə təsvir etmişdir. İran ordusu Gürcüstanı taladıqdan sonra 1795-ci ilin payızında Azərbaycana qayıtdı və Muğan düzündə düşərgə saldı. İşğalçılar tez-tez hücumlar təşkil edərək şəhər və kəndləri yandırır, əhalini qarət edir, mal-qaranı sürüb aparır. Təkcə Qarabağdan 100 min baş mal-qara aparılmışdır.

Ağa Məhəmməd xan Muğanda qışladıqdan sonra yazda yenidən Şuşaya hücum etməyi planlaşdırmışdır. Lakin rus qoşunlarının Azərbaycana gəlməsi və İranda baş verən üsyan onu geri çəkilməyə məcbur etdi. 1796-cı ilin yazında Ağa Məhəmməd xan İrana qayıtdı və özünü İran şahı elan etdi.

### *4.3. XVIII əsrin 90-cı illərində Azərbaycan-Rusiya münasibətləri*

Ağa Məhəmməd şahın Zaqafqaziyaya hücümü Rusiyanı narahat edir və burada onun mənafeyinə toxunurdu. İran təcavüzü Azərbaycan xanlarının Rusiyaya meylini gücləndirirdi. II Yekaterina hökuməti Rusiya təbəəliyini qəbul etmək istəyən xanların səylərini rəğbətlə qarşılayır. İkinci rus-türk müharibəsinin Rusiyanın xeyrinə qurtarması onun Qafqazda mövqeyinin möhkəmlənməsinə müsbət təsir göstərdi və burada fəal siyasət yeritməyə imkan verdi. II Yekaterina Qafqaz qoşunlarının baş komandanı İ.V.Qudoviçin adına göndərdiyi 1792-ci il 8 fevral tarixli sərəncamında yazırdı: «Əmr edirik ki, bizə dost olan xanları ali himayə göstərəcəyinizə əmin edin». Qudoviç isə 1795-ci ilin sentyabrında II Yekaterinaya yazırdı: «İranın cənub əyalətlərinin vəziyyətinə laqeyd baxmaqla biz Azərbaycan ölkəsi və Kaspi dənizi sahili boyunca uzanan vilayətlərə diqqət verməyə bilmərik».

1796-cı ilin aprelində Zubovun komandanlığı ilə 30 min rus qoşunu Dərbəndə yaxınlaşdı. Qafqazm geniş tədqiqi üçün təbiətşünas və səyyah Marşal fon Biberşteyn Zubovu müşayiət edirdi. Qubalı Şeyxəli xan müqavimət göstərməyə cəhd etsə də, nail olmadı və rus qoşunları Dərbəndi tutdu. Dərbəndin idarə edilməsi Fətəli xanm qızı Pəricahana tapşırıldı. Bakı və Şirvan rus qoşunları tərəfindən tutuldu. Qarabağlı İbrahim xan Vaqif və oğlu Əbülfət ağa başda olmaqla Zubovun yanma elçi göndərdi. Zubov elçiləri yaxşı qarşıladı. Zubov xana çoxlu hədiyyələr göndərdi və Rusiya ilə Qarabağ xanlığının yaxınlaşmasında xüsusi xidməti olan Vaqifə II Yekaterina adından qiymətli əsa bağışlandı.

Qarabağın nümayəndələrinin rus komandanlığı ilə mehriban danışığı başqa xanlara da təsir etdi. Talış xanı Mir Mustafa, Şirvan xanı Mustafa, Gəncə xanı Cavad, İrəvan, Naxçıvan, Xoy və Qaradağ xanları elçilərinin İbrahim xanın yanına göndərərək onlan məsləhət istədilər. Onlar deyirdi: «O Rusiya dövlətinə itaət etməyi lazım bildiyi üçün biz də dostluq yolu ilə gedərək, mərhəmətli Rusiya İmperatriçəsinə itaət edərik».

İbrahim xan bunu general Zubova çatdırdı. Rus qoşunları Şamaxı, Səlyan və Cavadı tutdu. Azərbaycanın şimal xanlarının çoxu Rusiyanın himayəsinə keçdi. Zubov Kürün sahilində Cavad yaxınlığında Yekaterina qalasını tikdirməyi planlaşdırdı. Ticarət və hərbi strateji əhəmiyyətə malik Bakı limanının müdafiəsinin möhkəmləndirilməsi nəzərdə tutulurdu. Qafqazın təbii zənginliklərindən istifadə edilməsinə də maraq göstərilirdi. Biberşteynin məlumatları və onun sələflərinin materiallarını tamamladı. Terekdən Kür çayına qədər ərazinin etnoqrafiyası, bu yerlərin tarixi və coğrafiyası, iqlimi, heyvanat və bitki aləmi haqqında xeyli material toplandı.

Lakin 1796-cı ildə (6 noyabr) II Yekaterinanın ölümündən sonra hakimiyyətə keçən I Pavel Qafqazda olan rus qoşunlarını geri çağırdı. Ağa Məhəmməd şah rus qoşunlarının Azərbaycandan getməsindən istifadə edərək Azərbaycan və Dağıstan hakimlərinə fərman göndərərək ona tabe olmağı tələb etdi... Lakin bu tələb rədd edildi.

1797-ci ilin yazında İran qoşunları yenidən Qarabağa soxuldu. O zaman Qarabağda baş vermiş quraqlıq vəziyyəti ağırlaşdırmışdı. Bir çərək buğda 45 manat idi. Mirzə Camal göstərir ki, İbrahim xan yaxın adamları ilə Car və Tala tərəfə gedirdi. Burada Gürcüstan və Dağıstandan qüvvə toplamaq istəyirdi. Şuşanın müdafiəsi özbaşına buraxıldığından İran qoşunları şəhəri tutdu. Şəhərdə qırğın başlandı. Vaqif həbs edildi. Lakin şah öz xidmətçiləri Səfərəli və Abbas bəy tərəfindən öldürüldü. 1797-ci il iyulun 4-də öz yatağında sui-qəsd nəticəsində ölümcül yaralanmış Ağa Məhəmməd Qacar yatağından bir qədər qalxıb, axırıncı dəfə «Bədbəxt sən İranı viran etdin!» demişdir. İran qoşunları çəkilib getdi. İranın Zaqafqaziyanı tutmaq planı boşa çıxdı.

### *4.4. Xanlıqların ictimai-iqtisadi, siyasi quruluşu və mədəni həyatı*
### *Xanlıqların ictimai-siyasi quruluşu və iqtisadi həyatı*

XVII əsrin ikinci yarısında ümumilikdə Azərbaycanda məhsuldar qüvvələr zəif inkişaf edirdi. Kənd təsərrüfatı ağır vəziyyətdə idi. Torpağın becərilməsində ibtidai alətlərdən istifadə edilirdi. Xarici basqınlar, feodal ara müharibələri süni suvarma şəbəkəsini dağıtmış, mal-qaranın sayının azalmasına səbəb olmuşdu.

Lakin buna baxmayaraq ayrı-ayrı xanlıqlarda əkinçilik və maldarlıq dirçəlir, suvarma şəbəkələri bərpa edilr. Pənahəli və İbrahimxəlil xanın dövründə Mildə olan suvarma arxlarınm bərpasına təşəbbüs edilir.

Azərbaycan əhalisi əsas taxılçılıq, maldarlıq, bağçılıqla məşğul olur. Quba, Dərbənd, Bakı xanlıqlarında boya bitkisi, zəfəran və s. yetişdirilirdi. Şəki və Şirvan ipəkçiliyin əsas mərkəzi olaraq qalırdı. Səlyanda Kür çayı hövzəsində balıq ovu genişlənmişdir. Balıq ovu 50 min gümüş manat gəlir verirdi.

Əvvəlki feodal torpaq mülkiyyət formaları qalmaqda idi. Xanlıqlarda bütün torpaqlar xana məxsus idi. Divan torpağı ilə xanın şəxsi torpağı arasında fərq yox idi. Xanın ayrı-ayrı şəxslərə verdiyi torpaq - tyul adlanırdı. Tyuldar xanın fərmanı

ilə ona verilən torpağın və kəndlilərin sahibi idi. Tyul torpaqları ancaq xanın fərmanı ilə irsi keçə bilərdi. Tyuldan fərqli olaraq mülk sahibləri xana xidmət etməyə borclu deyildir. Onlar xanın xəzinəsinə müəyyən miqdarda vergi verirdi. Mülklər alınıb-satıla bilərdi.

İstismar olunan kəndlilər bir neçə qrupa bölünürdü. Onların əsas hissəsini raiyyət təşkil edirdi. Kəndlilər icmalarda birləşir, divan, vəqf, sahibkar torpaqlarını becərirdilər. Nisbətən azlıq təşkil edən qrup rəncbərlər idilər. Onlar xanın və naiblərin təsərrüfatlarında işləyirdilər. Feodal ara müharibələri nəticəsində əldə edilən əsirlər, bir çox hallarda rəiyyət rəncbərə çevrilir. Əhalinin müəyyən hissəsi elat təşkil edirdi. Onlar vergilərdən azad edilir, xanın hərbi qüvvələrində iştirak edirdilər. Vergi immunitetinə malik olan elat məaf adlanırdı.

XVII əsrin ikinci yarısında Azərbaycanda yenə də məhsul rentası əsas yer tuturdu. Lakin bununla yanaşı rentanın işlə və pulla ödəmə forması var idi. Rəiyyətdən alma əsas vergi məlcəhət adlanırdı. Müxtəlif xanlıqlarda onun həcmi müxtəlif idi. Otlaqlar üçün çöpbaşı, bağbaşı, dini bayramlar üçün bayramlıq, ağanın ailəsində toy olarkən toy xərci almırdı. Bundan başqa bir çox vergi növləri vardır. Qarabağ xanldığında 17 növ vergi var idi. Bunanla yanaşı feodal rəiyyət biyar və əvrəz adlı mükəlləfiyyətlər yerinə yetirməli idi.

XVIII əsrin ikinci yarısında kəndlilərin feodallara qarşı mübarizəsi bəzən passiv, bəzən isə açıq qiyam halını alırdı. Şəkidə yaşamış şair Nəbi Küngüt kəndində Hüseyn xana qarşı baş verən üsyandan bəhs edir quba və Dərbənddə də kəndli çıxışları baş vermişdir.

Natural təsərrüfatın hökm sürdüyü şəraitdə Azərbaycanın iqtisadiyyatında sənətkarlıq mühüm yer tutmuşdur. Şəhər və kəndlərdə əmək alətləri, dəri məmulatı, ev əşyaları hazırlayan sənətkarlıq emalatxanaları vardır. Şamaxı özünə ipək parçaları ilə şöhrət tapmışdır. Şirvanda mis qab-qacaq və silah hazırlanan mərkəz Lahıc idi. Burada kiçik həcmli toplar da tökülürdü. Quba, Qarabağ, Naxçıvanda xalça istehsalı geniş şəkil almışdır.

XVIII əsrin ikinci yarısında Azərbaycanda ümumilikdə şəhər həyatı durğunluq keçirirdi. Ancaq bu və ya digər xanlıqların mərkəzinə çevrilən Şamaxı, Quba, Şuşa, Təbriz, Şəki və s. şəhərlər inkişaf edirdi. Şəhərlərin görünüşündə elə bir dəyişiklik olmamışdır. Şəhər əhalisinin bir hissəsi sənətkarlıq və ticarətlə məşğul olsa da, kənd təsərrüfatında tam ayrılmamışdır. Xəzər dənizində mühüm liman olan Bakının 3 min əhalisi var idi. Onun iqtisadiyyatının əsasını neft və duz təşkil edirdi. Qmelin yazır ki, neft və duzdan 40 min manat gəlir əldə edilirdi. Şamaxıda 5 min əhali yaşayırdı. A.V.Suvorovun məlumatlarında Şuşa, Dərbənd, Lənkəran haqqında maraqlı faktlar vardır.

Xanlıqlar dövründə ticarət xeyli zəifləmişdir. Azərbaycan şəhərlərini əsasən quru ticarət yolları birləşdirirdi. Xarici ölkələrə əsasən neft, ipək, duz, balıq, zəfəran, mahud və s. ixrac edilirdi.

Azərbaycanın xarici ticarətində əsas yeri Rusiya tuturdu. Bakıda tez-tez rus ticarət gəmiləri görünürdü. 1785-ci ildə Həştərxandan Bakıya 22 gəmi gəlmişdi.

Onlar metal şeylər, parça və başqa mallar gətirmişlər. 1793-cü ildə Həştərxandan Bakıya 310 min manatlıq, Bakıdan oraya isə 240 min manatlıq mal aparılmışdır.

Rusiya ilə ticarətdə Quba xanlığı böyük yer tuturdu. 1782-ci ildə bağlanmış saziş bu sahədə mühüm rol oynadı. Niyazabad limanı abadlaşdırıldı, rus tacirlərinin mallarını qorumaq üçün dəstələr ayrıldı. Xanlıqlar arasında gömrük haqqı daxili ticarətə maneçilik törədirdi. Bakıdan Tiflisə aparılan eyni mal üçün 5 dəfə gömrük haqqı vermək lazım gəlirdi. Azərbaycanda vahid pul sistemi yox idi, hər bir xanlığın özünün pul vahidi var idi. Qarabağda 15 qəp., Pənahabad, Qubada gümüş abbası, Bakıda mis pul, Şirvanda adsız abbası kəsilirdi.

Azərbaycanın xeyli hissəsi İran əsarətindən qurtardıqdan sonra bir sıra xanlıqlar müstəqil dövlət qurumlarına çevrildilər. Xanlıqların dövlət quruluşu İranın dövlət quruluşuna nisbətən xeyli sadələşmişdir. Xanlığın adi hakimi xan idi, hər bir xanlığın özünəməxsus dövlət quruluşu və məhkəmə sistemi var idi. Bəzən xanlıqlarda (məs., Qarabağ) dövlət - dövlət şurası (divan), inzibati, vergi və hərbi idarələrdən ibarət idi. Xanlıqlar inzibati cəhətdən mahallara bölünürdü. Onları xanın təyin etdiyi naib idarə edirdi. Naibin ixtiyarında darğa, yüzbaşı, kəndxuda vardır. Məhkəmə işləri ruhanilərin əlində idi. Ölüm hökmünü xan çıxarırdı. Xanın qoşun hissələrinin əsasını piyada və süvarilər təşkil edirdi. Onlar maaf və tyuldarlar tərəfindən göndərilən dəstələrdən ibarət idi.

Xanlıqların mərkəzi olan şəhərlər sənətkarlıq və ticarət mərkəzləri olmaqla yanaşı mədəni mərkəzlər idilər. Şəhərlərdə olan mədrəsələrdə ərəb və fars dillərində dərslər aparılırdı, əsas yeri dini fənlər tuturdu. Mədrəsələrdə təhsil alan Azərbaycan ziyalıları içərisində şeirə maraq daha güclü idi.

Elm sahəsində elə bir irəliləyiş nəzərə çarpmır. Görkəmli coğrafiyaşünas - səyyah Zeynalabdin Şirvani və tarixçi Əbdülrəzzaq bəy bu dövrdə yaşayıb-yaratmışlar.

Azərbaycan ədəbiyyatında iki cərəyan - xalq və saray ədəbi cərəyanları mövcud idi. Birinci cərəyanın nümayəndələri xalqın istək və arzularını əks etdirdiyi halda, ikinci cərəyan hakim sinfin həyatını mədh edirdi. Şifahi xalq yaradıcılığı və aşıq şeri inkişaf edirdi.

Azərbaycan ədəbiyyatı və dili tədricən xarici sözlərdən təmizlənirdi. Füzuli ənənələrini davam etdinə, aşıq yaradıcılığından bəhrələnən bir sıra şairlər yetişirdi.

Azərbaycan ədəbiyyatında Nişat Şirvani, Şakir Şirvani və s. əsərlərində xalqın etiraz səsi ucalırdı. Nişat Şirvani Şirvanda anadan olub, türk istilası zamanı Rusiyanın himayəsində olan Salyana köçmüşdür. Onun yaradıcılığında əsas yeri məhəbbət mövzusu tutmuşdur. Onun şeirlərində dövrünün haqsıqlıqlarına qarşı etirazlar da vardır. Şakir Şirvaninin «Şirvanın əhvalı» şeirində Nadirin burada törətdiyi hadisələrdən bəhs edilir.

XVIII əsrin II yarısında görkəmli şairlər - Arif Təbrizi, Arif Şirvani, Ağa Məkih Şirvani, Nəbi, Baba Şirvani, Xəstə Qasım və başqaları olmuşlar. Arif Təbrizi Təbrizdə və Şuşada yaşamış lirik bir şair idi. Arif Şirvani Lahıcda yaşamış, çoxlu qəzəl və həcvlərin müəllifidir. Ağaməsiy Fətəli xanın həyatına həsr etdiyi irihəcmli «Şahnamə» əsərinin müəllifidir. Nəbi Şəkidə baş verən kəndli çıxışları-

na şeirlərində geniş yer vermişdir. Xəstə Qasım qoşma və gəraylı formasında yazmışdır. Şikəstə Şirin Qacarın Tiflisdə törətdiyi fəlakətlərdən bəhs etmişdir. XVIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Vidadi və Vaqif olmuşdur. Molla Vəli Vidadi 1709-cu ildə Şəmkirdə anadan olmuşdur. O, Poylu və Şıxlı kəndlərində müəllimlik etmiş, Qarabağ xanının və II İraklinin saraylarında yaşamışdır. Şair 1807-ci ildə vəfat etmiş, Qaz Gəmiqaya adlı yerdə basdırılmışdır. Vidadinin yaradıcılığında şifahi xalq yaradıcılığı və aşıq poeziyası birləşmiş, onun əsasən lirik şeirləri vardır. Dövrünün acınacaqlı vəziyyəti şairin şeirlərinə çökmüş və onu bədbinləşdirmişdir. 1780-ci ildə Şəki xanı Hüseynin öldürülməsinə həsr etdiyi şeirində feodal ara müharibələrini kəskin tənqid etmişdir. Onun «Vaqif», «Çoxdandır», «Durnalar», «Ağlarsan» və s. şeirləri böyük əhəmiyyətə malikdir.

M.P.Vaqif 1717-ci ildə Qazax mahalında anadan olmuş, ilk təhsilini Şərif Əfəndidən almışdır. O, əvvəl Gəncəyə, sonra isə Şuşaya gəlmiş, burada məktəbdarlıqla məşğul olmuşdur. O, İbrahim xan tərəfindən saraya dəvət edilmiş, burada eşikağası və vəzirliyə qədər yüksəlmişdir. Qarabağ xanlığının möhkəmlənməsinə böyük əmək sərf etmişdir. 1797-ci ildə Məhəmməd bəy Cavanşir tərəfindən öldürülmüşdür.

Vaqifin yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi mərhələ təşkil edir. O, realizm ədəbi cərəyanı səviyyəsinə qədər yüksəlmişdir. Vaqif yaradıcılığında əsas yeri məhəbbət mövzusu tutmuşdur. Onun gözəllərə həsr etdiyi şerləri real həyatdan alınmışdır. O, ilahi gözəlliyi deyil, real gözəlliyi tərənnüm etmişdir. Vaqifin dili sadə, təravətli və aydın idi. Şairin bir sıra şeirlərində ədalətsizlik, zorakılıq tənqid olunmuşdur.

XVIII əsrdə Azərbaycanda incəsənətin musiqi, rəssamlıq, memarlıq sahələri inkişaf etmişdir. Aşıq yaradıcılığı yüksək mərhələyə qalxmışdır. Bu dövrdə ən çox istifadə edilən musiqi aləti saz, tar, balaban, zurna, tütək, nağara, dəf olmuşdur. Azərbaycanda bir sıra memarlıq abidələri yaranmışdır. 1762-ci ildə Şəki xan sarayı tikilmişdir. Şuşada, bir sıra maraqlı memarlıq abidələri tikilmişdir.

Qarabağ tarixçisi Mirzə Camal Cavanşirin yazdığına görə, İbrahimxəlil xan qalanı möhkəmləndirmək üçün 1783-1784-cü illərdə onun ətrafına 3,7 km uzunluğunda müdafıə hasarı çəkdirmişdir. Üç tərəf təbii sərhəd olduğuna görə həmin yerlərdə müdafiə divarları tikmək lazım gəlməmişdir. Qala divarlarının eni 2 metr 20 sm, hündürlüyü isə 8 metr olmuşdur. Hər 50 metrdən bir iri və əzəmətli bürclər ucaldılmışdı. Qalanın girəcəyində - şimal tərəfə «Gəncə qapısı», qərb tərəfə isə «İrəvan qapısı» adlanırdı.

# FƏSİL 12. AZƏRBAYCAN TORPAQLARININ RUSİYA VƏ İRAN QACARLAR ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ

*§ 1. XVIII əsrin sonu XIX əsrin əvvəllərində Azərbaycanın beynəlxalq vəziyyəti. Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən istilasının başlanması*
*§ 2. Birinci Rusiya-Qacar müharibəsi (1804-1813). Gülüstan sülh müqaviləsi*
*§ 3. İkinci Rus-İran müharibəsi. Türkmənçay sülh müqaviləsi. İstilanın başa çatması.*

## *§ 1. XVIII əsrin sonu XIX əsrin əvvəllərində Azərbaycanın beynəlxalq vəziyyəti. Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən istilasının başlanması*

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərinə parçalanmışdı. Qonşu xanlığın ərazilərini ələ keçirmək uğrunda xanlar arasında ardı-arası kəsilməyən ara müharibələri, feodallarla ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən kəndlilər arasında sinfi ziddiyyətlərin güclənməsi, iqtisadi tənəzzül Azərbaycanın daxili vəziyyəti üçün səciyyəvi hal idi. Rusiyanın Cənubi Qafqaz barəsindəki işğalçı niyyətləri, İran işğalçılarının viranedici yürüşləri vəziyyəti daha da gərginləşdirirdi.

Göstərilən dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazın istilasından ibarət idi. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiya ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq Rusiya elminə məlum idi və təsadüfi deyil ki, II Yekaterina hökuməti bu ölkənin sərvətlərinin mənisənilməsini onun istilası ilə bağlayırdı. Qızıl boya, yun, ipək, pambıq, tütün, yanacaq və s. Rusiya sənayesini xammal və yanacaqla təmin edə bilərdi.

Zaqafqaziyanın siyasi və hərbi-trateji əhəmiyyəti xüsusilə böyük idi. Bu diyarın işğalı ənənəvi rüs-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə həl edə bilərdi. Rusiya Mərkəzi Qafqazı hələ fəth edə bilməmişdi. Cənubi Qafqazın istilası dağlıların ərazilərini şimaldan və cənubdan mühasirəyə almaqdan ötrü əlverişli şərait yarada bilərdi. Nəhayət, rus-ingilis rəqabəti Cənubi Qafqazın, o cümlədən Azərbaycanın əhəmiyyətini artırırdı. Rusiyanın bu yerləri işğal etməsi Böyük Britaniyanın Şərqdə təsirinə, Ost-Hind kompaniyasının inhisarına ağır zərbə endirə bilərdi.

Feodal ara müharibələri və xarici işğalçıların basqınları Cənubi Qafqazı var-yoxdan çıxarırdı. Zəruri ilkin sosial-iqtsadi şərtlərin, yetkin siyasi qüvvələrin olmaması üzündən ayrı-ayrı xanların Azərbaycanı öz başçılıqları altında birləşdirmək cəhdləri müvəffəqiyyətsizliyə uğrayırdı.

Qərbi Avropa dövlətlərinn də, xüsusən Ingiltərə və Fransanın Cənubi Qafqaz barədə işğalçı planları var idi. Onlar Rusiyanın bu ərazidə zəifləməyən hərəkətlərini diqqətlə izləyir və çarizmin planlarına mane olmağa çalışırdılar.

1800-cü ilin sonunda İngiltərə nümayəndəsi Malkolm İrana gəldi və 1801-ci ilin əvvəllərində o, bu dövlətlə müqavilə bağladı. Siyasi və ticarət müqavilələrini bağlamaqla İngiltərə İran Qacarların daxili işlərinə qarışmaq imkanı əldə etdi. İngiltərə hər hansı dövlətin İran Qacarlar dövləti üzərinə hücum edəcəyi təqdirdə şaha lazımi qədər xidmət heyəti ilə birlikdə tələb olunan miqdarda hərbi xərc verməyi öz üzərinə götürürdü.

Ticarət müqaviləsi razılığa gələn tərəflərin tacirlərinə öz mallarını hər iki dövlətin ərazisinə azad daşımaq hüququ verirdi. İngiltərə tacirlərinə Qacarların istənilən şəhər və limanında məskən salmağa icazə verilir, onların malları isə hər cür vergilərdən azad olunurdu.

Müqavilələr ölkənin bazarını ingilis tacirlərinin üzünə geniş açır, İranı öz müstəmləkə mülklərini genişləndirmək uğrunda mübarizədə Ingiltərənin antirus siyasətinin alətinə, öz müstəmləkəsini- Hindistanı kənar təcavüzlərdən qorumaq, Zaqafqaziya barəsində özünün uzağa gedən planlarını həyata keçirmək üçün meydana çevirirdi.

Çar hökuməti belə hesab etdi ki, bu müqavilə ilk növbədə Rusiyaya qarşı yönəldilmişdir, ona görə də öz planlarının həyata keçirilməsinə hazırlaşdı. Lakin I Pavelin (1801) öldürülməsindən və I Aleksandrın hakimiyyətə gəlməsindən sonra rəqiblərin qüvvələr nisbəti dəyişdi. I Aleksandr (1801-1825) Fransa ilə əlaqələri qırdı və İngiltərə ilə yaxınlaşdı. Bu dövrdə təcavüzkar napoleonçu Fransanın mövcudluğu şəraitində Rusiya ilə yaxınlaşmanı yüksək qiymətləndirən İngiltərə artıq İran Qacarlar dövlətini açıqca müdafiə edə bilmirdi. Fransa bu vəziyyətdən dərhal istifadə etmək imkanını əldən verməyərək Rusiya ilə müqavilə bağlamağı şah İranına təklif etdi.

İngiltərə ilə yaxınlaşmasına baxmayaraq, I Aleksandr Cənubi Qafqaz barədə öz planını həyata keçirməyi qərara aldı. O, hər şeydən əvvəl Həştərxan- Dərbənd-Bakı vasitəsilə rus qoşunlarının 1799-cu ildə yenidən daxil olduğu Gürcüstanla əlaqə yaratmağa çalışırdı.

1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi haqqında çar manifesti elan olundu. Rus qoşunları baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Azərabycan ərazisinin də bir hissəsi – Kartli-Kaxetiya çarlığının vassal asılılığında olan və onunla birlikdə Rusiyaya birləşdirilmiş Qazax, Borçalı, Şəmşəddil sultanlıqları bu quberniyanın tərkibinə daxil edildi. Deməli, Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə Azərbaycan torpaqlarının Rusiya tərəfindən istilasının başlanğıcı qoyuldu.

I Aleksandr 1801-ci ilin dekabrında Qafqaz qoşunlarının baş komandanı general Knorrinqə yazırdı: «Qonşu hakimlər və xalqlarla münasibət saxlayaraq, Rusiya tərəfdarlarının sayını artırmağa çalışmalı. Xüsusən də üzərlərində hələlik Baba xanın (Fətəli şahın) hakimiyyəti yaranmamış Irəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanları cəlb etməli».

Bu fərmana müvafiq olaraq general Knorrinq 1802-ci ilin sentyabr-dekabr aylarında Şimali Qafqazda, Georgiyevsk şəhərində siyasi və ticarət məsələləri üz-

rə danışıqlar üçün çar komandanlığının Şimali Azərbaycan xanlarının və Qafqazın digər hakimlərinn nümayəndələri ilə görüşünü keçirdi. Danışıqlarda Tərki şamxalı, Qaraqaytaq üsmisi, Tabasaran hakimi və digər dağlı hakimlərin nümayəndələri ilə yanaşı, iki Azərbaycan xanlığınıın- Quba və Lənkəran xanlığının nümayəndələri də iştirak edirdilər. Digər xanlıqların nümayəndələri görüşdə iştirak etmirdilər. Çünki buna qədər İran Qacar şahının nümayəndəsi İbrahimxəlil xanın yanına gələrək Qarabağın tabe olmasını tələb etmişdi. Bakı xanına da belə tələb verilmişdi.

Beləliklə, Qacarların maneçiliyinə baxmayaraq, Georgiyevskdəki dörd aylıq danışıqlar müvəffəqiyyətlə başa çatdı və 1802-ci il dekabrın 26-da müqavilə imzalandı. Müqaviləyə görə, onu imzalayanlar İran Qacar dövlətinə hücum edəcəyi təqdirdə ona qarşı çıxmağı öz öhdələrinə götürürdülər. Müqavilə Zaqafqaziyada ticarətin genişləndirilməsini, Xəzər dənizində gəmiçiliyin inkişaf etdirilməsini və s. nəzərdə tuturdu. Müqavilədə deyilirdi ki, onu imzalayanlar «onların öz xahişlərinə görə… Rusiya,… himayəsinə» qəbul olunurlar.

Azərbaycanın çar Rusiyası tərəfindən istilası kimi mürəkkəb və zidiyyətli prosesin öz xüsusiyyətləri vardır.

Feodal hakimlər- xanlar yaxşı başa düşürdülər ki, öz qüvvələri ilə İran Qacarlar dövləti, Rusiya kimi dövlətlərə müqavimət göstərməklə öz xanlıqlrını qoruyub saxlaya bilməyəcəklər. Onlar Rusiyanın xanlıqların istiqlaliyyətini qoruyacağı barədə verdiyi yalan vədlərə uyaraq öz xanlıqlarının istiqlaliyyətini bu yolla qoruyacaqlarını zənn edərək, bir tərəfdən rus himayəsini qəbul etməyə meyl etməli olur, digər tərəfdən isə çarizmin vədlərinə qətiyyətsizlik göstərirdilər. Onların bəziləri bu yolla İran və ya Türkiyə qoşunlarının basqın edəcəyi təqdirdə öz torpaqlarını qarətdən və var-yoxdan çıxarılmaqdan müdafiə edə biləcəklərinə ümid bəsləyirdilər. Eyni zamanda, bu xanlar İrana və Türkiyəyə də meyl göstərdiklərindən tərəddüdd edir, öz mövqe və qərarlarını qəti müəyyənləşdirməyə tələsmirdilər. Bu , hər şeydən əvvəl, xanların öz xanlıqlarının daxili idarəsində müstəqilliklərinin saxlanılmasına əmin olmamaları ilə əlaqədar idi.

Rusiya ayrı-ayrı Azərbaycan xanlarını İran və Türkiyə təhlükəsindən müdafiə edəcəyini vəd etsə də, bu heç də onun xanlıqlara müstəqillik vermək niyyətində olması deyildi. Azərbaycanın ayrı-ayrı feodal hakimlərinin Rusiya istilasına müqavimət göstərə biləcəklərindən, habelə öz hüquq və imtiyazlarının bərpası uğrunda mübarizəni davam etdirəcəklərindən ehtiyat edən Rusiya əlavə tədbirlər də həyata keçirmək barədə fikirləşirdi. Bu illərdə qədim gürcü zadəgan nəslindən çıxmış, 1802-ci ilin sentyabrında Qafqazın baş komandanı təyin edilən general P.D.Sisianov Cənubi Qafqazda müstəmləkə siyasətinin icraçısı oldu. Çar hökuməti Cənubi Qafqazdakı bütün mülki-hərbi hakimiyyəti qafqazlı Sisianova etibar edərək, onun vasitəsilə Qafqazı sakitləşdirməyə ümid bəsləyrdi. Sisianov isə Azərbaycan xalqına özünün nifrətedici və amansız münasibətilə fərqlənirdi. Azərbaycanın Rusiya tərəfindən işğalının gedişində onun bir çox Azərbaycan xanlarına göndərdiyi alçaldıcı məktubları buna dəlalət edir.

Çar hökuməti Şərqi Gürcüstan ərazisindən hücum meydanı kimi istifadə edərək, özünün Azərbaycan barəsindəki planlarını həyata keçirməyə başladı. Çünki bu ərazi rus qoşunlarının Gürcüstandan Azərbaycanın içərilərinə doğru uzanan yolun üstündə idi. 1803-cü ilin martında Rus qoşunları 5 minlik gürcü qoşunu ilə birlikdə Car-Balakən yerli əhalisinin müqaviməti ilə rastlaşdı. Gürcüstanda anti-rus, iranpərəst dairələrə başçılıq edən və öz hakimiyyətinin bərpasına çalışan gürcü şahzadəsi Aleksandr isə silahlı dəstə ilə Cara gəldi. Qanıq (Alazan) çayı sahilində döyüş baş verdi. Müqaviməti qırdıqdan sonra general Qulyakov heç bir hərbi ehtiyac olmadan Balakəni yandırdı. Martın 29-da Car fəth olundu. 1803-cü il aprelin 12-də Car-Balakənin 9 nəfərdən ibarət səlahiyyətli nümayəndə heyəti Tiflisə general Sisianovun yanına getdi. Burada onlarla Car-Balakən camaatının Rusiyanın hakimiyyəti altına alınması barədə saziş bağlandı.

"Andlı öhdəlik" sazişin şərtlərinə görə, carlılar çar xəzinəsinə ildə 220 pud ipəklə xərac ödəməli, sədaqət əlaməti olaraq əmanətlər verməli, öz ərazilərində rus qoşunlarını yerləşdirməli idilər. Lakin camaatın daxili idarəsinin dəyişməz olaraq qaldığını və əhalinin itaət şərtlərini yerinə yetirmədiyini görən general Qulyakov 1804-cü ilin yanvarında yenidən Cara soxuldu. Car yenidən fəth olundu və yandırıldı. Sonra rus qoşunları Zaqatalaya doğru yeridilər və Zaqatala yaxınlığındakı dərədə carlılar tərəfindən hücumə məruz qaldılar. Qanlı döyüşdə carlılar üstünlük qazanıb qələbə çaldılar. Rus qoşunlarının salamat qalmış hissəsi Muxax kəndinə geri çəkildi, general Qulyakov isə öldürüldü.

Carlılar yenidən hücuma keçmiş rus qoşunlarına müqavimət göstərməyi davam etdirməyin qeyri-mümkünlüyünü və faydasızlığını görərək təslim oldular.

Car-Balakən camaatının fəthindən sonra qonşu Ilisu sultanlığı da Rusiya təbəəliyini qəbul etməli oldu. Sultanlıqda 40-cı illərin ortalarınadək sultan öz torpaqlarının daxili idrəsində hakimiyyətini qoruyub saxlamışdı.

General Sisianov Gəncə xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Çünki Gəncə qalası rus qoşunlarının Azərbaycanın içərilərinə doğru sonrakı irəliləyişinin açarı idi. «Gəncə qalasının yerli mövqeyi bütün Azərbaycan üzərində hökmrandır. Bax buna görə də bu istila Rusiya üçün birinci dərəcəli əhəmiyyətə malikdir».

Gəncə xanlığı XVIII əsrin 90-cı illərindən rus dövləti ilə səmimi diplomatik münasibətlər saxlayırdı. Xanlığın hökmdarı Cavad xan Sisianovun Rusiya himayəsini qəbul etmək təklifinə rədd cavabı vermədi. O, yazırdı ki, 1796-cı ildə «sənin padşahın fərman göndərdi və mən də onun təklifini qəbul edib qalanı təhvil verdim. Əgər indi də sənin padşahın belə fərman göndəribsə, onu mənə göstər. Onda mən onun iradəsini görərək buna uyğun hərəkət edərəm». General tələb etməyi siyasi danışıqlardan üstün utdu. O, məktublarında özünəməxsus yekəxanalıq və etinasızlıqla Cavad xanı özündən uzaqlaşdırdı, bu da qanlı döyuüşlərə gətirib çıxardı. Sisianov Rusiya hakimiyyətini qəbul etmiş digər xanlıqlardan fərqli olaraq, Gəncə xanlığına qarşı daha amansız tələblər irəli sürürdü. O, Cavad xandan ildə 20 min çervon məbləğində, yəni sonralar Şəki, Qarabağ və Şirvan xanlıqları

üçün müəyyənləşdirilmiş məbləğdən 3 dəfə çox ödənc tələb edir və yazırdı: «Əgər mənim təklifimi qəbul etməsən, Gəncəyə ataş və qılıncla gələcəyəm».

O, 1803-cü il noyabrın 29-da 11 topu olan 6 piyada batalyonu, 3 eskadron və 2 kazak yüzlüyündən ibarət qoşunu Gəncə üzərinə yeritdi. Bütün bu qoşunlara general Portnyakin komandanlıq edirdi. Gəncəyə doğru yolda, şəhərin iki verstliyindəki Quluqobu adlı yerdə 1803-cü il dekabdın 29-da rus qoşunları ilə gəncəlilər arasında ilk vuruşma baş verdi. Cavad xan bir qədər müqavimətdən sonra gücdən düşərək pozulmuş qoşunları ilə qalaya qayıtdı. Bundan sonra rus qoşunları Gəncəni mühasirəyə aldılar. Mühasirə bir ay davam etdi. 1804-cü il yavarın 2-dən 3-ə keçən gecə rus qoşunları qalaya hücuma başladılar. Onların iki cəhdi dəf olundu. Qalanın müdafiəçiləri inadlı müqavimət göstərdilər. Cavad xan və onun oğlu Hüseynqulu ağa döyüşlərdə qəhrəmancasına həlak oldular. Gəncə Xanlığında döyüşlərdə 1500 dən çox adam həlak oldu. Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi, şəhər isə öz qədim adını itirdi və I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. «Gəncə» adını çəkmək qadağan olundu. Bu qaydanı pozanlar bir ruc gümüş manatı cərimə edilirdilər.

Gəncənin alınması rus qoşunlarının digər feodal dövlətlərini tabe etmək məqsədi ilə Azərbaycanın içərlərinə doğru irəliləməsi üçün böyük əhəmiyyət kəsb etdi. Gəncə xanının vassal asılılığında olan Samux hakimi Şirin bəy Gəncənin süqutundan sonra Rusiya təbəəliyini qəbul etəməyə məcbur oldu. O, hər il Rusiyaya 1000 çervon, yəni 3 min manat bac verməyi öhdəsinə götürdü.

## *§ 2. Birinci Rusiya-İran Qacar müharibəsi (1804-1813). Gülüstan sülh müqaviləsi*

Gürcüstanın, Azərabycanın bir hissəsinin Rusiya tərəfindən işğalı İran və Türkiyənin, həbelə onların arxasında duran İngiltərə və Fransanın narahatlığına səbəb oldu. XIX əsrin birinci yarısında yaşamış Azərbaycan tarixçisi A.Bakıxanovun yazdığına görə, «İran rusların sürətli müvəffəqiyyətlərinə dəhşətlə baxırdı. İran şahı 70 minlik qoşununu Zaqafqaziya sərhədlərində cəmləşdirdi».

Şah sarayı Rusiya ilə müharibəyə hələ 1801-ci ilin yarısından- İngiltərə ilə müqavilə bağladıqdan sonra hazırlaşırdı. Elə həmin ilin sentyabrında Ənzəlidə sahil istehkamları quruldu.

Fətəli şah Zaqafqaziyanı tutmağa hazırlaşaraq, əvvəlcə Gürcüstan və Gəncə ilə həmsərhəd olan bütün xanlıqların ərazilərini ələ keçirmək niyyətində idi. O, bu məqsədlə 1802-ci ilin iyulunda 20 minlik qoşunu sərhədə göndərməyi qərara aldı. Fətəli şah Avropa kralları və imperatorlarına məkutbla müraciət edərək kömək almağa çalışdı.

Lakin İranın daxilində baş vermiş çaxnaşmalar və Ingiltərə tərəfindən real köməyin olmaması davakar əhval-ruhiyyəli şah sarayına soyuducu təsir göstərirdi. Ingiltərə isə I Pavelin öldürülməsindən və xüsusən də Fransa qoşunlarının Rusiya və Misirdən getməsindən belə qənaətə gəldi ki, Hindistana yürüş planı

Napoleonun şərq siyasətinin gündəliyindən çıxarılmışdır və şaha köməyə ehtiyac qalmayıb. Ona görə də İngiltərə vəd verməkdən uzağa getmirdi. Bununla belə o, İranı Rusiya ilə müharibəyə qızışdırırdı.

İran sarayı Rusiya ilə müharibəyə hazırlaşaraq Gürcüstanı Rusiyaya qarşı birgə çıxışa cəlb etmək məqsədi ilə öz nümayəndələrini buraya göndərdi. Zaqafqaziyanın hər yerinə şahın Gəncə və Gürcüstan üzərinə yerimək niyyətindən xəbər verən, xanlardan itaət və kömək göstərilməsini tələb edən fərman göndərildi.

1804-cü ilin mayında Fətəli şah başda olmaqla İran Qacarlar dövlətinin 000yuxarı feodal təbəqələri rus qoşunlarının Zaqafqaziyadan çıxarılmasını tələb etdi. Tələb rədd olundu və 1804-cü il iyunun 10-da Rusiya ilə İran arasındakı diplomatik əlaqələr kəsildi, 10 il davam edən rus-İran müharibəsi başlandı.

Müharibənin başlanğıcında Zaqafqaziyadakı rus qoşunlarının sayı cüzi idi: 24 topu olan 9 piyada və 2 süvari alayı. Buna baxmayaraq, rus qoşunlarının komandanlığı müharibə aparmağın hücum planını seçdi. İlk döyüş 1804-cü il iyulun 2-də İrəvan xanlığının ərazisində, Eçmiədzin divarları yanında baş verdi. 12 topu olan 3600 nəfərlik piyada, süvari eskadronu və 2 kazak yüzlüyündən ibarət rus qoşunu 20 minlik İran qoşünü ilə qarşılaşdı. Rus qoşunları gürcü süvari dəstələrinin köməyi ilə üstünlük qazandılar.

İkinci döyüş İrəvan xanlığında, Qəmərli kəndinin yanında baş verdi. 1804-cü il iyulun 29-dan 30-a keçən gecə azsaylı rus qoşun dəstəsi ilə İran qoşunlarının böyük birləşməsi arasında qanlı döyüş oldu. Rus qoşunları tutduqları mövqeləri qoruyub saxlaya bildilər. Lakin azuqənin çatışmazlığı, qoşunların azlığı, habelə İran qoşunlarının kiçik rus dəstəsi yerləşmiş Gəncəyə tərəf irəliləməsi üzündən sentyabrın 4-də rus qoşunları İrəvandan geri çəkildi. Gəncəyə tərəf gəlib onun gündoğanında düşərgə saldı.

Kürəkçay müqaviləsi Gəncənin alınması, rus qoşunlarının sonrakı müvəffəqiyyətləri Azərbaycan xanlıqlarının istilasının sürətlənməsində mühüm rol oynadı. General Sisianov hələ 1804-cü ilin əvvəlində mayor Lisaneviçi Qarabağa İbrahimxəlil xanın yanına göndərərək ondan «Rusiya təbəəliyinə» keçməyi tələb etdi. Ibrahimxəlil xan İran qoşunlarının hücumunun qarşısını almaq üçün Sisianovdan hərbi kömək xahiş edib, «Rusiyaya kömək göstərmək və ona sadiq qalmaq» vədi verdi.

General Sisianov Gəncə yaxınlığındakı Kürəkçayının sahilinə gəldi və düşərgə saldı. İbrahimxəlil xan da buraya gəldi və 1805-ci il mayın 14-də Sisianovla görüşdü. Görüşdə müqavilə imzalandı. Bu müqaviləyə əsasən xan, onun varisləri və xanlığın bütün əhalisi Rusiya təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq təhəddüdü qoyulurdu. Çar isə öz növbəsində bu xan sülaləsinin hüquqlarını «bütün zamanlar üçün» təsdiq edirdi, lakin hər dəfə xan varisləri çar tərəfindən təsdiq olunmalı idi. Xan öz nəvəsini əmanət verməyi boynuna götürdü. O, Tiflisdə qalmalı idi. Xanlığın daxili idarəsi xanın ixtiyarında saxlanıldı. Lakin o, rus qarnizonunu Şuşaya buraxmağı və onu zəruri şeylərlə təmin etməyi

öz üzərinə götürdü. Xan hər il öz gəlirlərindən Rusiya xəzinəsinə 8 min çervon ayırmağı öhdəsinə götürdü.

Sisianovun düşərgəsinə İbrahimxəlil xanla birlikdə onun kürəkəni, bundan bir az əvvəl şirvanlı Müstafa xanın köməyi ilə öz qardaşını qovaraq Şəki xanlığında hakimiyyəti ələ keçirmiş Səlim xan da gəlmişdi. Öz qardaşına və onun tərəfdarlarına qarşı köməyə ehtiyacı olan Səlim xan qaynatasının məsləhəti ilə ruslarla müqavilə bağlamağa tələsdi. Bu müqavilə Qarabağ xanı ilə bağlanmış müqavilənin şərtlərini təkrar edirdi, lakin Şəki xanı rus xəzinəsinə 7 min çervon ayırmalı, rus qoşunları isə Şəkinin özündə yox, tikiləcəyi nəzərdə tutulan qalada yeləşməli idi.

Bəzi xanlıqlar tərəfindən Rusiya hakimiyyətinin döyüşsüz qəbul edilməsi faktı çarzmin burada işğalçı məqsədlər güdməsi kimi qəbul edilməməlidir. İlk zamanlar bəzi xanlıqların daxili muxtariyyət hüququnun saxlanılmasına gəldikdə isə bu, öz qarşısında İngiltərə və Fransanın həvəsləndirdiyi İran və Türkiyə kimi rəqibləri görərək, Zaqafqaziyada böyük ehtiyatla hərəkət etməyə can atan çarizmin müvəqqəti tədbiri idi.

İngiltərə rus-İran müharibəsini qızışdıraraq öz müttəfiqinə-İrana münasibətdə ikiüzlü siyasət yürüdürdü: İran tərəfindən 1801-ci il müqaviləsinin şərtlərinə əməl olunmasını tələb edərək özünü elə aparırdı ki, guya onun özü müttəfiqlik borclarından azaddır.

İngiltərənin belə siyasəti onunla nəticələndi ki, 1804-cü ilin payızında İran şahı Rusiya əleyhinə Fransa ilə ittifaq bağlamağa hazır olması barədə Napoleona məktub göndərdi. Napoleon bundan istifadə etməyi qərara aldı və İstanbuldakı Fransız səfirinə İranla danışıqlara başlamaq barədə göstəriş verdi.

1805-ci il yay kompaniyasının gedişində İran qoşunları iyunun ortalarında Qarabağa soxuldular və onu talan etdilər.

Pirqulu xan Əsgəranı tutdu və Qarabağın içərilərinə irəlilədi. 1805-ci il iyunun 26-da şah qoşunları polkovnik Koryagin başda olmaqla azsaylı rus qarnizonunun yerləşdyi Şahbulağı mühasirəyə aldılar. Şahzadə Abbas Mirzə qalanın təslim olmasını tələb etdi. Koryagin vəziyyətin çıxılmazlığını görərək qalanı iyulun 8-də təslim etməyə razılaşdı, özü isə iyulun 7-nə keçən gecə dəstəsi ilə düşmənin xəbəri olmadan qalanı tərk etdi. Abbas Mirzə rus dəstəsinin gizlicə oradan çıxmasını bilən kimi onu təqib etməyə başladı, lakin ona hücum etməyə cürət etmədi. Şahbulaqdan şimaldakı Muxrat qəsrində dayanmış Koryaginə kömək gələndə şah qoşunları geri çəkildilər. Koryaginin dəstəsi Gəncəyə gəldi və burada Kotlyarevskinin dəstəsi ilə birləşdi.

İyulda İran qoşunları Qazaxa soxuldular. İran qoşunlarının komandanı yerli əhalinin köməyinə ümid bəsləyirdi. O, kəndxudalara bəyanatla müraciət edərək Qazax sakinlərini Rusiyaya qarşı üsyana çağırdı. Koryagin 570 nəfərlik dəstə ilə döyüş əməliyyatları meydanına tələsdi və iyulun 27-də Zəyəm yaxınlığındakı İran düşərgəsinə hücum etdi.

İran qoşunlarının 1805-ci ilin yay hərbi kampaniyasındakı məğlubiyyəti və bunun ardınca başlamış fasilə Rusiya hökumətinə Azərbaycanda öz mövqeyini daha da möhkəmləndirmək, Şirvan, Bakı və Quba xanlarını tabe etmək imkanı verdi.

Hələ Qarabağ və Şəki xanlıqları ilə müqavilələr bağlanan dövrdə Sisianov Rusiya hakimiyyətini qəbul etməyi şirvanlı Mustafa xandan da tələb etmişdi. Şirvan xanı qonşu Azərbaycan xanlıqları üzərində onun hakimiyyətinin tanınması şərti ilə bu tələblə razılaşdı. Mustafa xan illik bac verməkdən boyun qaçırır, daxili idarədə özünün müstəqilliyi barədə təminat və özünə daimi məvacib təyin olunmasını tələb edirdi. Sisianov isə özünün irəli sürdüyü şərtlərlə Rusiya hakimiyyətini qəbul etməyi tələb edirdi və danışıqların heç bir şey verməyəcəyinə əmin olduqdan sonra 1805-ci ilin noyabrında Mingəçevir yaxınlığında Kürü keçərək Şamaxıya doğru yeridi. Onun 10 topu olan dəstəsi 1100 piyadadan və süvarilərdən ibarət idi.

General Sisianov Şirvana doğru hərəkət edərkən Ibrahimxəlil xandan kömək tələb etdi və o da 1500 süvari ilə birlikdə öz böyük oğlu Mehdiqulu ağanı göndərməyə məcbur oldu. Rus qoşunlarının yaxınlaşdığını eşidən Mustafa xan Sisianovun tələbini qəbul etmək qərarına gəldi, xanlığın xarici əlaqələr hüququnun Rusiyaya verilməsinə, ildə 8 min çervon bac ödəməyə, xanlığın hüdudları daxilndə ticarətin təhlükəsizliyini təmin etməyə və s. razılaşdı. Bununla belə, xan danışıqlardan boyun qaçırdı, təbii qala və sığınacaq olan Fitdağda mövqeyini möhkəmləndirdi. Sisianov qoşunlarını Şamaxının lap yaxınlarına çəkməyə başladı. Rus qoşunları Fitdağa yaxınlaşdı. Öz vəziyyətinin çıxılmazlığını görən xan Rusiya təbəəliyinə keçməyə razı oldu. Mustafa xan və Sisianovun 1805-ci il dekabrın 27-də imzaladıqları müqavilə əvvəlcə bağlanmış iki müqavilə ilə eyni idi.

Azərbaycanın ən iri xanlıqlarından birinin- Şamaxı xanlığının tabe edilməsi çar Rusiyası üçün bütün Şimai Azərbaycanın ələ keçirilməsində mühüm əhəmiyyətə malik idi. Şamaxı xanlığı digər xanlıqlar arasında mərkəzi mövqe tuturdu, böyük iqtisadi, siyasi və hərbi-srateji əhəmiyyətə malik idi.

Şamaxı xanlığının tabe edilməsindən sonra Bakıya yol açıq idi. 1805-ci ilin əvvəllərində Qafqazdakı rus qoşunlarının baş komandanı Gilanı tutmaq, geri qayıdarkən isə Bakını ələ keçirmək üçün rus donanmasını Xəzərə göndərməyi qərara aldı.

Çar hökuməti Xəzər donanmasının möhkəmləndirlməsinə və onun köməyi ilə Xəzərin qərb sahillərinin ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Çarın xarici işlər naziri bunu dönə-dönə Sisianova xatırladırdı.

1805-ci il Apreldə desant qoşunları general Zavalişinn rəhbərliyi altında Rəşt istqamətində yola düşdü. Bu qoşunların qarşısına Ənzəli və Bakını tutmaqdan başqa, ötən kampaniyada əsir düşmüş adamların və gürcü knyazlarının geri alınmasını şahdan tələb etmək vəzifəsi qoyulurdu. Iyunun 23-də donanma Ənzəli limanına çatdı. Desant çıxarmaq və Rəşti tutmaq üçün göstərilən uğursuz cəhtdən sonra rus eskadrası avqustun 12-də Bakı rayonuna yaxınlaşdı. Qalanın təslim edilməsi barədə danışıqlar başlandı. Zavalişin rədd cavabı alaraq avqustun 15-də qala-

nı atəşə tutmağa, avqustun 22-də isə şəhəri mühasirəyə almağa başladı. Avqustun 29-dək xanlığın mühüm strateji məntəqələri tutuldu.

İranla əlaqə saxlayan Bakı hakimi Hüseynqulu xan kömək üçün şah sarayına müraciət etdi. İran tarixçisi Nəsir Nəcminin məlumatına görə, Abbas Mirzə Urmiyalı Əsgər xana Bakı xanına kömək üçün qoşunlarla birlikdə dərhal yola düşməyi əmr etdi. Qubalı Şeyxəli xan da Hüseynqulu xana köməklik etməyə hazırlaşırdı. General Zavalişin Bakıya - Hüseynqulu xana Urmiya və Qubadan köməyin yaxınlaşmasından qorxaraq qalanı ələ keçirmədən Lənkəran yaxınlığındakı Sara adasına çəkildi. 1806-cı il fevralın əvvəllərində Sisianov artilleriyası olan böyük qoşun dəstəsi ilə Bakının iki kilometrliyində general Zavalişinin desant dəstəsi ilə birləşdi və Naxırbulaqda düşərgə saldı. Sisianov qalanın təslm edilməsini tələb etdi.

Sisianovun təklif etdiyi şərtlərə görə Bakı xanlığı Rusiya təbəəliyini qəbul etməli, xanlığın ərazisi Rusiyaya birləşdirilməli, xanlığın bütün gəlirləri çar xəzinəsinə göndərilməli, xan isə ildə 10 min manat məbləğində məvacib almalı idi. Şəhər xüsusi qaydalar üzrə idarə olunmalı idi. Bakı qalasında toplarla birlikdə 600-1000 əsgərdən ibarət qarnizonun yerləşdirilməsi nəzərdə tutulurdu. Xarici siyasət və hərbi məsələlərdə xan Qafqazdakı rus qoşunları baş komandanlığının sərəncamlarına tabe olmalı idi.

Bakılı Hüseynqulu xan bu şərtlərlə razılaşdı. Fevralın 8-də Sisianov polkovnik Eristavinin müşayiəti ilə demək olar ki, mühafizəsiz şəkildə onu lap qalanın yanında gözləyən xanla görüşmək üçün yola düşdü. Rəşid bəy İsmayılov bu görüş haqqında yazırdı: Bakı əyani ciddi surətdə şəhərin açarını Sisianova təhvil verib, duz və çörək təqdim etdi. Duz-çörəyi qəbul qəbul edib, qalanın açarını Sisianov əyana qaytardı; xan ilə görüşməyə və açarı məmləkətin sahibi olan Hüseynqulu xanın kendi əlindən qəbul etməyi Sisianov izhar etdi. Məiyyətində İbrahim bəy, Ağa Kərim bəy, Qasım bəy, Səid bəy və Əmir Həmzə olaraq, Hüseynqulu xan bilatəxir şəhərdən çıxdı. Sisianov yavərsiz, ancaq bir kazak və podpolkovnik Yeristov məiyyətində olaraq, xanı istiqbal etdi. Bu əsnada xanın işarəsilə Əli bəyin oğlu İbrahim bəy tapança ilə Sisianovu vurdu. Səid bəy və Əmir Həmzə Yeristovu öldürdülər. Kazak qaçıb qurtulmuşdur. Eyni vəqtdə xanın əsgərləri qaladan topları atmağa başlamışdılar. Hüseynqulu xan Sisianovun başını Fətəli şaha göndərib, cəsədini dəxi qala qapısının qarşısında dəfn etdirmişdir. Rus qoşunu sərkərdəsiz qaldığından, gəmilərə mnib Hacıtərxana getmışdir. Fəqət Azərbaycanın bəzi nöqtələrində müstəhfiz qoşunu qalmışdı. Qətlindən altı ay sonra ruslar Sisianovun sümüklərini Tiflisə gətirib Səbun kəlisasında dəfn etdilər.

General Zavalişin rus qoşunlarını Bakıdan Sara adasına, sonra isə Kızılyara aparmağa məcbur oldu.

Bakıda Sisianovun öldürülməsinlən sonra Zaqafaziyadakı rus qoşunlarının vəziyyəti ağırlaşdı. Cənubi Qafqazda da şərait mürəkkəbləşdi. Xanların çoxu tərəddüd etməyə başladı. Dağıstanın bəzi feodal hakimləri bu məqamdan istifadə edərək tələsik Zaqafqaziyaya soxulmaq üçün hazırlıq görməyə başladılar. Qazıqumux hakimi Surxay xan Azərbaycana soxuldu. Lakin rus qoşunlarının Şimali Qaf-

qazdakı fəallığı üzündən digər Dağıstan hakimləri Kürə yaxınlaşan, Mingəçevir yaxınlığındakı keçidi ələ keçirməyə ümid bəsləyən, lakin tələsik geri qayıtmağa məcbur olan Surxay xana kömək göstərməyə cürət etmədilər.

1806-cı ilin yazında İran qoşunları yenidən fəallaşdı. Napoleonun vəd etdiyi kömək burada az rol oynamadı. İran qoşunları Arazı keçərək Qarabağa yeridi.

İyunun 8-də rus və İran qoşunları arasında 1806-cı ilin kampaniyasının ilk silahlı toqquşması baş verdi. Şahbulaq və Əsgəran arasında, Ağdamda rus dəstəsi 4 min İran sərbazı ilə qarşılaşdı. Rus dəstəsi İran qoşununu sıxışdırdı və Əsgəranı tutaraq Şuşaya doğru irəlilədi.

Şahzadə Abbas Mirzə İbrahimxəlil xanı öz tərəfinə çəkmək üçün elçilərini onun yanına göndərdi. Bu dövrdə Şuşada yerləşən mayor Lisaneviçin başçılıq etdiyi rus qarnizonunun azlığı üzündən İbrahimxəlil xan xanlığın var-yoxdan çıxarılmasına yol verməmək üçün əvvəlcədən Lisaneviçlə razılaşaraq rus qoşunları gəlib çıxanadək iranlılarla mülayim rəftar etməyi qərara aldı. Rus qoşunlarının gəlib çıxmasının xeyli çəkməsi İran qoşunlarının lap qalaya yaxınlaşmasına səbəb oldu. Ibrahimxəlil xan öz ailəsinin təhlükəsizliyini təmin etmək üçün onu Şuşa qalası yaxınlığındakı Xankəndinə köçürdü. XIX əsrin I yarısıda yaşamış Azərbaycan tarixçisinin yazdığı kimi, «bəzi bədniyyətli adamlar xanı mayora elə şərləmişdilər ki, mayor gecə ikən bir dəstə döyüçü ilə onun məskəninə yollandı. Burada fələyin zalım hökmü ilə Ibrahim xan bəzi ailə üzvləri və yaxın adamları ilə birlikdə öldürüldü.» Bu qətl çar zabitlərinin müstəmləkəçi vəhşiliyini səciyyələndirən parlaq misaldır. Belə yolla həm tərəddüd edən feodallar, həm də əhali ruslardan uzaqlaşdırıldı. Təsadüfi deyil ki, bu hadisələrdən dərhal sonra şəkili Səlim xan Rusiya ilə əlaqələri kəsdi, «əhalini üsyana qaldırdı və rus qoşunlarını xanlıqdan getməyə məcbur etdi».

1806-cı ilin qışında yeni baş komandan təyin olunmuş general Qudoviç Qarabağın idarə olunması haqqındakı fərmanı Mehdiqulu xana təqdim etdi.

Qəsbkarlar geri çəkilərkən dinc sakinlərdən ibarət kütlələri zorla qovub əsirliyə aparırdılar. Təkcə Şirvandan İrana 6 min nəfər aparılmışdı.

Yay kampaniysının müvəffəqiyyətlə başa çatmasından sonra qarşıda Şimali Azərbaycanın qalan ərazisinin, ilk növbədə Bakı və Quba xanlıqlarının işğalı məsələsi dururdu.

Rus komandanlığı Bakı və Dərbənd qalalarının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. General Qlazenap 1806-cı il mayın 3-də çara yazırdı: «Nə qədər ki, Bakı alınmayıb, o vaxtadək Şirvan və Qarabağdakı nailiyyətlər həmişəlik təhlükə olacaqdır, elə Gürcüstanın özü də farsların basqınını gözləməlidir». İran hökuməti Rusiya və onun planları üçün Bakının əhəmiyyətini aydın başa düşürdü və Qarabağdakı uğursuzluqlardan sonra rus qoşunlarının irəliləməsinin qarşısını almaq məqsədilə hərbi əməliyyatları Şamaxı xanlığı istiqamətinə keçirdi. Bu vaxt bir rus dəstəsi Zərdaba, digəri isə Cavada daxil oldu. Rus qoşunlarının yaxınlaşdığını eşidən Abbas Mirzə düşərgə saldığı Ağsudan Kür çayına doğru geri çəkildi. Bakı və Dərbəndə doğrü irəliləmək üçün əlverişli şərait yarandı. Qubalı Şeyxəli

xan Rusiya təbəəliyini qəbul etmək istəmirdi. 1806-cı ilin iyununda rus qoşunları Quba xanlığına tabe olan Dərbəndə yaxınlaşdılar və iyunun 22-də onu tutdular. Sonra onlar general Bulqakovun komandanlığı altında Bakıya doğru yönəldilər. General şəhər sakinlərinə müraciət göndərdi. Hüseynqulu xan öz nümayəndə heyətini şəhərin bayrağı, qalanın açarı və duz-çörəklə Bulqakovun yanına göndərdi. Lakin Hüseynqulu xanın özü qisasdan qorxaraq ailəsi ilə birlikdə Qubaya, oradan da İrana qaçdı. Beləliklə, 1806-cı il sentyabrın 3-də Bakı xanlığı Rusiyaya tabe edildi. Tezliklə Quba xanı da qaçdı, onun xanlığı da Rusiyaya tabe olundu. Dərbənd və Quba xanlıqları Tərki şamxalının ixtiyarına verildi, sonralar isə əyalətlərə çevrildi.

Beləliklə, 1806-cı ilin sonunda Lənkəran, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Azərbaycanın şimal ərazisi Rusiyanın hakimiyyəti altına keçdi.

Göstərilən xanlıqların işğalından sonra rus qoşunları Şəki xanlığındakı üsyanı yatırmaq üçün göndərildi. 1806-cı il oktyabrın 22-də Nuxa yaxınlığında həlledici döyüş baş verdi və şəkil Səlim xanın dəstələri məğlubiyyətə uğradı. Rus qoşunları Nuxa şəhərini mühasirəyə aldılar. Şəhər sakinləri müqavimət göstərməkdə davam edirdi. Bununla belə, nuxalıların müqaviməti qırıldı və rus qoşunları hücum edib Nuxanı ələ keçirdilər. Səlim xan İrana qaçdı. Xanlığın idarə olunması üçün Şəkidə yerli, Rusiyaya meylli olan bəylərdən ibarət müvəqqəti idarə təşkil olundu.

Sonra rus qoşunları üsyan bürümüş Car-Balakənə yola düşdü. Rus qoşunları Carda üsyanları və Avar xanının, habelə digər Dağıstan feodallarının burada olan süvarilərini mühasirəyə aldılar. Tezlikl bu üsyan da yatırıldı.

I Rus-İran müharibəsinin başlanğıcında Rusiyanın tərəfinə keçmiş xoylu Cəfərqulu xan Şəki xanı təyin edildi. O, özünün keçmiş Xoy xanlığı əhalisinin bir hissəsini Şəkiyə köçürdü. Azərbaycanlılardan və ermənilərdən ibarət olan köçkünlər Nuxa şəhərinin ətrafında bir neçə kənd (Yenikənd, Cəfəradab və s.) saldılar.

İran hökuməti də güzəştlərə ümid bəsləyərək sülh bağlamaq istəyirdi. 1806-cı il sentyabrın ortalarında şah sarayı öz nümayəndəsini sülh bağlamaq təklifi ilə rus qoşunlarının baş komandanı Qudoviçin yanına göndərdi. Çar hökuməti heç nəyi İrana güzəştə getmək fikrində deyildi, əksinə o, İrandan Naxçıvan və İrəvan xanlıqlarını tələb etdi. Çar hökuməti hətta müvəqqəti barışığın imzalanmasına razı idi. Lakin danışıqlar uzandı. İngiltərə və Fransa bu işdə az rol oynamırdı.

Austerlisdən sonra İran və Türkiyədə Napoleon diplomatiyası daha da fəallaşdı. Napoleon 1806-cı ildə öz nümayəndəsi general Romyeni İrana göndərdi. İran Qacar dövlətinin Fransa ilə danışıqları İngiltərəni təşvişə saldı. Bağdaddakı İngilis səfiri Xarford Cons şah nazirinə müraciət edib ona təminat verdi ki, İngiltərə 1801-ci il müqaviləsinin şərtlərinə sadiq qalacaqdır. General Romyenin qəfildən müəmmalı şəkildə vəfatı üzündən danışıqlar kəsildi.

Napoleon «rus qoşunlarını Zaqafqaziyadan qovmaq üçün… Fransız qoşunlarının İran sahillərinə çıxmasına icazə verməyi» İrana təklif etdi.

Fransa bütün vasitələrlə Türkiyəni də Rusiyaya qarşı qaldırmağa çalışırdı.

Napoleonun 1806-cı ildə Istanbula gəlmiş səfiri general Sebastyan hədələr və cəlbedici vədlərlə Türkiyənin bir sıra rüs-türk sazişlərini, o cümlədən də təzəcə imzalanmış müttəfiqlik müqaviləsini təhrik yolu ilə pozmağa nail oldu. 1806-cı ilin sonunda Türkiyə Rusiyaya qarşı müharibəyə başladı.

Rüs-türk müharibəsinin başlanmasından sonra Qafqazdakı rus qoşunlarının komandanlığı Tərtər çayında istehkam yaratmağı qərara aldı. Quba, Bakı və Dərbəndi təzəcə ələ keçirmiş, Şəki və Car-Balakəndə üsyanı yatırtmış, qoşunlar oraya göndərilmişdi. Baş komandan general Qudoviç rus ordusunun başında Gümrüyə yönəldi. Burada rüs və türk qoşunları arasında qanlı döyüş baş verdi. Mirzə Adıgözəl bəy bu döyüş haqqında yazırdı: «Hər iki qoşun Arpa çayında qarşılaşdı və bir-birinin qarşısında yerləşdilər. Bir qədər vaxtdan sonra döyüş baş verdi. Qaş qaralana yaxın osmanlılar məğlub edildilər. Ruslar osmanlılardan qənimətlər və çoxlu top ələ keçirdilər». Bu döyüş 1807-ci il iyunun 18-də baş vermişdi. Elə həmin ildə İran Qacar qoşunlaının Zaqafqaziyaya viranedci yürüşləri yenidən başladı.

Napoleon 1807-ci ilin əvvəllərində İran şahını Rusiya ilə mübarizəni gücləndirməyə çağırırdı. 1807-ci il yanvarın 17-də Napoleon İran şahına yazırdı ki, Rusiya üzərində qələbə «məni səninlə yaxınlaşdırır», ona görə də Rusiya üzərinə hücum etməyi, Zaqafqaziyanı tutmağı, «Xəzər dənizini ruslardan ötrü bağlamağı» məsləhət görürdü. O, «üç dövlətin əbədi ittifaqını» (yəni Fransa, İran və Türkiyənin ittifaqını) yaratmağa çağırırdı.

1807-ci il aprelin sonunda İranın səlahiyyətli nümayəndəsi I Napoleonun olduğu Şərqi Prussiyaya gəldi və danışıqlara başladı. I Napoleon müqavilənin bağlanmasını gözləməyərək, İrana göndərilmək üçün 50 top, 10 min tüfəng və 4 min piyada hazırlamaq əmrini verdi. 1807-ci il mayın 4-də Finkenşteyndə Fransa-İran müqaviləsi imzalandı. Bu müqaviləyə görə, Zaqafqazyanı tutmaq üçün İrana hərbi kömək göstərilməsi nəzərdə tutulurdu.

Rusiya və İran arasında barışığın görünməkdə olan əlamətləri Fransa-İran müqaviləsinin bağlanması və fransız diplomatik nümayəndə heyətinin İrana gəlməsi ilə yoxa çıxdı. Fransızların rəhbərliyi ilə İsfahanda top istehsalı qaydaya salındı. Tehranda isə artilleriya parkı təşkil olundu.

Hələ 1807-ci ilin yayında beynəlxalq vəziyyətdə dəyişikliklər baş verdi. Rusiya ilə Fransa arasında Tilzit sazişi, habelə hücum və müdafiə ittifaqı haqqında gizli rus-fransız müqaviləsi imzalandı. Tilzitdə Napoleon İran və Türkiyənin mənafelərinin təmin olunmasını təkid etmədi. Tilzit müqaviləsinin 2-ci gizli maddəsində qeyd olunurdu ki, Fransa özünün Türkiyə və İran işlərindəki vasitəçiliyindən imtina edir. Lakin sonrakı hadisələr göstərdi ki, Fransa və Rusiya arasında Tilzitdə bağlanmış bu ittifaq məcburi ittifaq idi.

Yaranmış şərait şahı İngiltərə ilə yaxınlaşmağa sövq edirdi. İngiltərə hökuməti şəraitdən dərhal istifadə etdi və İranda öz yerini hər vasitə ilə möhkəmləndirmək qərarına gəldi. 1809-cu ildə İngiltərə Iranla müqavilə imzaladı. Bu müqaviləyə görə, iran İngiltərə ilə düşmənçilik edən bütün dövlətlərlə münasibətlərini kəs-

məyi öhdəsinə götürdü. İngiltərə şaha Rusiya ilə müharibə müddətində hər il 120 min funt-sterlinq məbləğində maliyyə yardımı göstərməyi, silah, hərbi sursat və təlimatçılar verməyi vəd etdi.

Artıq 1808-ci ilin mayında 10 minlik İran qoşunu İrəvana doğru çəkilirdi. Rus qoşunlarının baş komandanı general Qudoviç də öz qoşunlarını İran sərhəddinə doğru yönəltdi və sentyabrın 4-də Soğanlıq düşərgəsindən 3 min nəfərdən bir qədər artıq qoşunla Pəmbəkə doğru yeridi. O, oradan Iran qoşunlarına hücum etmək niyyətində idi. Qudoviç eyni zamanda Naxçıvanı ələ keçirməyi general Nebosinə əmr etdi. Nebosin sentyabrın 11-də 3 min nəfərlik qoşunla Şuşadan yola düşdü. Sentyabrın 26-da Irəvanlı Hüseyn xan başda olmaqla 4 min nəfərdən ibarət Iran qoşununu məğlub etdi. Rus qoşunları İrəvana geri çəkilən Hüseyn xanı təqib edərək yolüstü Eçmiədzini ələ keçirtdi. Bu zaman general Nebosin Naxçvana doğru irəliləyərək oktyabrın sonunda Qarababa kəndi yanında İran qoşunlarını dağıtdı və Naxçıvanı tutdu. Rus qoşunlarının birləşmiş qüvvələri Irəvanın mühasirəsinə başladı və mayın ortalarında qalaya hücum etdi. Lakin müvəffəqiyyətsizliyə uğrayıb geri çəkildi. Rus qoşunları Naxçıvanı da tərk etməyə məcbur oldular. Abbas Mirzə Naxçıvanı tutaraq rus qoşunlarını təqib etməyə başladı. Qarababa kəndi rayonunda döyüş baş verdi, Qudoviç yenidən məğlubiyyətə uğradı. 1808-ci il kampaniyası uğursuz başa çatdı və Qudoviç istefaya getməyə məcbur oldu.

Yeni baş komandan Tormosov İran Qacarlar hökuməti ilə münasibətləri danışıqlarla nizama salmağa ümid bəsləyirdi. Lakin 1809-cu ilin iyununda şahın özü Qarabağ və İrəvanla kifayətlənmək və qüvvələrini Türkiyə ilə birləşdirmək üçün qərbdə hərbi əməliyyatlar cəbhəsini genişləndirmək niyyəti ilə Cənubi Azərbaycana gəldi. Şah Zaqafqaziya hakimləri və sakinlərinə fərmanlar göndərərək onları Rusiyaya qarşı çıxış etməyə çağırdı. Lakin İran qoşunlarına öz planlarını həyata keçirmək müəssər olmadı.

1809-cu ilin sentyabrında 11 minlik İran Qacar süvari qoşunu Lənkəran xanlığına soxuldu və Lənkəranı talan etdi. Mir Mustafa xan öz qoşunlarının qalıqları və ailəsi ilə birlikdə yarımadada gizlənməyə məcbur oldu. Həmin günlərdə Əsgəranda İran və Rusiya arasında danışıqlar yenidən başlandı. General Tormosov İran nümayəndəsi Mirzə Bezürkdən Lənkəran xanlığının müstəqilliyini tanımağı tələb etdi.

İngiltərə və Türkiyənin maneçilliyi üzündən danışıqlar kəsildi. Türkiyə barışıq bağlanacağı təqdirdə İranla müharibədən azad olacaq qoşunların hesabına Rusiyanın güclənməsindən ehtiyat edirdi. Ona görə də sultan danışıqları pozmaq üçün öz səlahiyyətli nümayəndəsini qiymətli hədiyyələrlə Tehrana göndərdi. Şahzadə Abbas Mirzəyə isə 12 minlik nizami seçmə türk qoşunu təklif etdi. Zaqafqaziyadakı rus qoşunları ağır vəziyyətə düşdü.

1810-cu ilin iyununda İran qoşunları Qarabağa, Gəncəyə və Pəmbəkə doğru irəlilədi. İran qoşunlarının ön dəstələri Tuğ kəndinin yaxınlığında Qarğabazar adlanan yerdə dayandı. İranlılar Mehridə də möhkəmləndilər. Təbriz istiqamətində Cənubi Azərbaycana irəliləməyin açarı rolunu oynayan Mehrinin mühüm strateji

əhəmiyyətini nəzərə alan, sayca 400 nəfərdən bir qədər artıq dəstəsi olan Kotlyarevski Mehriyə doğru hərəkət etdi. İyunun 15-də kəndi hücumla ələ keçirmək ona müəssər oldu. Arazın o tayına geri çəkilmiş iranlılar iyulun 2-də yenidən Mehriyə yaxınlaşdılar. Mühasirə beş gün davam etdi. Şah komandanlığı onun alınmazlığına əmin oaraq geri çəkilmək məcburiyyətində qaldı. İyulun 8-nə keçən gecə Kotlyarevski İran qoşunlarının Mehri yaxınlığında yerləşən düşərgəsinə qəflətən hücum etdi. Süngü döyüşündə İran dəstəsi darmadağın edildi və Qarabağın hüdudlarından kənara atıldı. Rus qoşunlarının bu qələbəsi Zaqafqaziyadakı bütün vəziyyəti dəyişdi. 1810-cu ilin avqustunda İran və Türkiyə arasında Rusiya əleyhinə hərbi ittifaq bağlandı. Lakin bunun da köməyi olmadı. İran qoşunları Ahalkələk yaxınlığında darmadağın edildi. Abbas Mirzə rus dəstələri ilə yeni toqquşmalardan çəkinərək barışıq haqqında danışıqlara yenidən başlamaq qərarına gəldi.

1812-ci il martın 14-də,yəni Fransa ilə Rusiya arasında əlaqələrin kəsilməsi ərəfəsində və Banopart əleyhinə İngiltərə-Rusiya ittifaqının yaradıldığı dövrdə Ouzli müqaviləni imzaladı. Bu müqavilə 1809-cu il müqaviləsini təsdiq edirdi. Bu müqaviləyə görə, İngiltərə İrana lazımi miqdarda qoşun göndərməyi və yaxud da Britaniya səfirinin bilavasitə nəzarəti altında bütün müharibə ərzində ordunun saxlanması üçün hər il 200 min tümən pul ödəməyi öz öhdəsinə götürdü. İngiltərə hökuməti Xəzərdə gəmiqayırmanın təşkili, hərbi anbarların tikintisi üçün mütəxəssislər qrupu ayırmağı, zəruri hallarda hərbi gəmilərini Iran körfəzinə göndərməyi öhdəsinə götürdü. Bu gəmilər körfəzin istənilən limanını tutmaq hüququna malik idi.

İran Qacarlar dövləti İngiltərədən belə əhəmiyyətli yardım alaraq barışıqdan imtina etdi və fəal surətdə hücuma hazırlaşmağa başladı.

1812-ci ilin əvvəllərində 20 minlik İran ordusu Qarabağa soxuldu. O, Şahbulaq və Sultanbud tərəfə irəlilədi. Böyük miqdarda artilleriyaya malik olan şah qoşunların İngilis zabitlərinin komandanlığı altında azsaylı rus qarnizonunu mühasirəyə aldılar və asan qələbə çaldılar.

Rus qoşunları rüs-türk müharibəsinin Qafqaz və Balkan cəbhələrində bir sıra qələbələr qazandılar. M.I.Kutuzovun komandanlığı altında Balkanlardakı qələbə xüsusən təsiredici idi və bu da Türkiyəni sülh istəməyə məcbur etdi. 1812-ci il mayın 16-da Buxarestdə Rusiya və Türkiyə arasında sülh müqaviləsi bağlandı. Bu müqaviləyə görə Türkiyə Zaqafqaziyanın böyük bir hissəsinin Rusiya tərəfindən işğal olunmasını təsdiq etdi.

1812-ci ilin yayında Napoleon fransası ilə Rusiya arasında müharibə başlandı. 1812-ci il iyulun 8-də İngiltərə ilə Rusiya arasında Fransa əleyhinə yönəlmiş müqavilə imzalanmasına baxmayaraq, Ruiyanın başının Napoleonla müharibəyə qarışmasından istfadə edən İngiltərə İranda fəallaşdı. Abbas Mirzə rus ordusunun əsas qüvvələrinin Napoleona qarşı müharibəyə yönəlməsindən istifadə edərək öz ordusunu Zaqafqaziya üzərinə yeni hücuma hazırlamağa başladı.

İran ilk növbədə Rusiyanı Qarabağdan sıxışdırıb çıxarmaq istəyirdi. Bunun üçün də hər şeydən əvvəl general Kotlyarevskinin dəstəsinin yerləşdiyi, möhkəm-

ləndirilmiş Mehrini tutmaq lazım idi. İyulun 12-də İran qoşunları Qarabağa soxuldular, lakin darmadağın edilib Arazın o tayına atıldılar. Avqustda 20 minlik İran qoşunu Lənkəran da daxil omaqla Lənkəran xanlığı ərazisini ələ keçirdi. İran qoşunlarının digər dəstələri Ərçivanı tutub bununla da Azərbaycanın içərilərinə doğru yol açdılar. Rusiyanın Zaqafqaziyadakı vəziyyəti yenə də mürəkkəbləşdi. Rus komandanlığı Abbas Mirzənin sülh bağlamaq üçün 40 günlük barışıq barədə təklifindən istifadə etməyi qərara aldı. Danışıqlar sentyabrın 20-də Aslandüzdə başlandı və oktyabrın 10-dək davam etdi. Tərəflər özlərinin əvvəlki mövqelərindən əl çəkmək istəmədiyinə görə, danışıqlar heç bir nəticə vermədi. Şah qoşunları yenidən hərbi əməliyyata başladı.

Abbas Mirəzənin komandanlığı altında 30 minlik ordu Aslandüz yaxınlığında Araz sahilində cəmləşdi. O, Kotlyarevskinin komandanlığı altında qarşısında dayanmış rus dəstələrinə zərbə endirərək Qarabağa və Yelizavetpola (Gəncəyə), daha sonra isə Gürcüstana doğru irəliləmək niyyətində idi.

Lakin Abbas Mirzənin planları həyata keçmədi. O, ilk zərbəni Ağoğlan adlı yerin yaxınlığında, Araz sahilində aldı. Irəvanlı Hüseynqulu xanın qoşunları isə Pəmbək və Şuragələ soxuldular. Onları çoxsaylı rus qoşunları qarşıladı. Bu qoşunlar Dilican dərəsində erməni əhalisininköməyi ilə qələbə çaldı. Pirqulu xan da Şəkidə darmadağın edildi. Abbas Mirzə əzilmiş hissələrin qalıqlarını toplayaraq səhərisi gün məğlubiyyətinin əvəzini çıxmağı qərara aldı. Lakin Kotlyarevski Aslandüz istehkamlarına hücum edib onun qoşunlarını darmadağın etdi. Tezliklə Kotlyarevski İran qoşunlarını sıxışdırıb çıxarmaq üçün Lənkəran xanlığına göndərildi. O, 1812-ci il dekabrın 17-də təxminən 2 min nəfərlik dəstə ilə Ağoğlandan yola düşərək Arazı keçdi və dekabrın 21-də Lənkəran xanlığına daxil oldu. Xəzər donanması da buraya göndərilmişdi. Dekabrın 21-də İran qoşunlarının ön dəstələri Muğanda darmadağın edildi. Rus qoşunlarının yaxınlaşdığından xəbər tutan İran qoşunları Ərçivandan geri çəkildilər. Kotlyarevski Ərçivanda kiçik bir qarnizon qoyaraq Lənkərana tərəf irəlilədi. O, xanlığın ərazisinə daxil oldu. Lənkəran qalasının təslim olunması barədə Kotlyarevskinin dəfələrlə etdiyi təkliflər rədd olundu. Rus qoşunları qalanı dekabrın 30-dək davam edən fasiləsiz artilleriya atəşinə tutdu. Dekabrın 31-də Kotlyarevski qoşunu üç hissəyə bölərək axşam qala divarlarına yaxınlaşdı və 1813-cü il yanvarın 1-də səhərə yaxın hücuma başladı. Amansız və qanlı çarpışma 3 saatdan çox çəkmədi və qala alındı.

Aslandüz və Lənkəran qələbələri müharibənin taleyini həll etdi. Artıq aydın oldu ki, demək olar ki, heç bir şey rus qoşunlarının İran Qacar dövlətinin içərilərinə doğru irəliləməsinə mane ola bilməzdi. Qacarlardakı ingilis səfiri Ouzli Rusiya və İran arasındakı müharibənin dayandırılmasının zəruri olması haqqında Londondan göstəriş aldı. Bu danışıqlar sentyabrın 27-də Qarabağda, Gülüstan kəndində başladı və 1813-cü il oktyabrın 12-də sülh müqaviləsi imzalanması ilə başa çatdı.

Gülüstan müqaviləsinə görə, İran Qacar hökuməti Rusiyanın qələbəsini, Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Lənkəran xanlıqlarının ərazisinin,

habelə Şərqi Gürcüstan və Dağıstanın Rusiyanın ixtiyarına keçməsini tanıdı. İrəvan və Naxçıvan xanlıqları İranın hakimiyyəti altında qaldı. İran təkcə Rusiyaının Xəzər dənizində hərbi gəmilər saxlamaq barədə hüququnu tanıdı. Aşağı, 5 faizlik gömrük tarifi qoyuldu ki, bu da o demək idi ki, rus tacirləri üçün İrana yol açılırdı. İranın daxilində isə rus tacirləri daxili gömrük rüsumlarını ödəməkdən azad olunurdu. Bütün bunlar rus-İran ticarətinin inkişafı üçün əlverişli şərait yaradırdı. Gülüstan müqaviləsi Şimali Azərabycanın və bütün Zaqafqaziyanın çar Rusiyası tərəfindən istilasını təsdiq edirdi. Bu müqavilənin bağlanması ilə Azərbaycanın Rusiya-İran tərəfindən bölüşdürülməsinin birinci mərhələsi başa çatdı.

Gülütan müqaviləsindən sonra beynəlxalq durum Qərbi Avopada baş verən dəyişikliyə bağlı idi. Napoleonla savaşı qazanan Rusiya onun ordusunu təqib edərək Avropa yürüşünə başladı. 1813-cü il oktyabrın 4-7 (16-19)-də Leypsiq altında «Xalqlar döyüşü» oldu. Müttəfiqlər bu döyüşdə qalib gəldilər. Paris üzərinə yol açıldı, 1814-cü il martın 31-də müttəfiq oduları Fransanın paytaxtına girdilər. Napoleon hakimiyyətdən devrilib sürgün edildi. Oktyarın 1-də Vyana konqresi açıldı. 1815-ci il iyunun 8-də «Yekun aktı» imzalandı.

İngiltərə hər vasitə ilə İranda Rusiya mövqeyinin möhkəmlənməsinə mane olmağa çalışırdı. 1814-cü ildə Tehranda İngiltərə ilə İran arasında yeni bağlaşma imzalandı. 1809-cu ildə olduğu kimi, Rusiya ilə savaş başladığı halda Iran İngiltərədən ildə 200 min tümən (2 milyon gümüş rubl) yardım alacaqdı, ancaq bu böyük yardım Britaniya böyük elçisinin nəzarəti altında xərclənməli idi. Rusiya-İran münasibətlərində İngəltərə hökumətinə «araçı» rolu oynamaq hüququ verildi. Şah sarayında İngiltərənin nüfuzu gücləndi, İran silahlı qüvvələrində Ingilis zabitlərinin işi genişləndi.

İngiltərə 1821-ci il «imtiyazlı» gömrük qanunudan istifadə edərək Transqafqazda, o sıradan Azərbaycanda iqtisadi nüfuzunu genşləndirdi. Rusiya bundan çox narahat olmağa başladı.

1813-cü ildən sonra da Rusiya-İran münasibətləri gərgin olaraq qalırdı. İran öz uğursuzluğu ilə razılaşmır, Rusiya isə yeni torpaqlar ələ keçirmək üçün savaş olmasını istəyirdi.

Gülüstan sövdələşməsinin 1-ci maddəsində dəbdəbəli sözlərlə bildirilirdi ki, tərəflər arasında «mövcud olmuş düşmənçilik və narazılığa bu müqavilə ilə bu gündən və gələcəkdə son qoyulur». Lakin 1826-cı ildə tərəflər arasında yeni savaş başlandı.

Rusiya ilə İran arasında ən çox çəkişmə doğuran 2-ci maddə oldu. Bu maddə dövlətlərarası sərhəd məsələsi ilə bağlı idi. Dəqiqlik baxımından 2-ci maddə diplomatik standarta tam uyğun gəlmir, «birtərəfli (separat) şəkildə» sərhədləri dəyişdirməyə şərait yaradırdı.

Gülüstan müqaviləsinn 2-ci maddəsi əslində tərəflərin heç birini, yəni Rusiyanı da təmin etmirdi. İrəvan və Naxçıvan xanlıqları ələ keçirilməmiş qalırdı. Ru-

siya məqamın yetişməsini gözləyirdi. Nəticədə Azərbaycan torpağı yeni döyüşlər qarşısında idi.

Tərəflər yeni savaşa yaxınlaşdıqca çar Rusiyası Azərbaycan xanlıqlarını aradan götürməyə tələsirdi.

Rusiyaya silahla qarşı durmağa çalışan xanlıqlar (Gəncə, Quba, Bakı) dərhal yox edilmişdi. Qafqaz baş komandanı İrandan Tiflisə döndükdən sonra növbə vassal xanlıqlara çatdı.

I.P.Petruşevski haqlı olaraq yazır ki, Yermolovun komandanlığı zamanı rus hökuməti «yerli xan sülalələrini aradan götürmək üçün birbaşa təxribat üsulları işlətməkdən çəkinmirdi». 1819-cu ildə ilk olaraq Şəki xanlığı ləğv edildi. Rusiya hökuməti sonuncu Şəki hakimi Ismayıl xanın ölümünü bəhanə gətirdi. Amma iş bundadır ki, rus zabitləri özləri də Ismayıl xanın öldürüldüyünü, milliyətcə erməni olan general Mədətovun (Transqafqaz müsəlman əyalətlərinin hərbi rəisi) göstərişi ilə ona zəhər verildiyini gizlətmirdilər. Iran hökuməti bu haqda hətta rəsmi bəyanat vermişdi. Xanlığın bütün xəzinə yatırı və mülklərini Rusiya dövləti müsadirə etdi. Xan ailəsi soyulub var-yoxdan çıxarıldı.

Həmin ildə yerli hakimləri olan Qazax və Şəmşəddil sultanlıqları, 1820-ci ildə isə Şirvan xanlığı ləğv edildi.

General Mədətovun Qarabağ xanlığı üzərində əlləşməsi daha uzun sürdü. Rusiya hərbiçiləri burada ən alçaq üsullara əl ataraq Mehdiqulu xanın yaxın qohumunu yenə ona qarşı qoydular. Ruslardan xanlıq gözləyən Cəfərqulu ağa sakitliklə Simbirskə sürgün edildi. Qarabağ xanlığının bütün var-dövləti Rusiya xəzinəsinə ötürüldü, dövlətin saysız torpaq mülkləri, ilxı və sürüləri bu xəzinənin ixtiyarına keçdi.

İkinci Rusiya-Iran savaşı başlamazdan öncə (1826) Lənkəran xanlığının vassal varlığına da son qoyuldu. Beləliklə, ikitərəfli dövlətlərarası andlaşmalar (Kürəkçay bağlaşması və b.) ilə xanların iç muxtariyyətinin toxunulmazlığına, onların «ölkənin bütövlüyünün saxlanılmasına imperator zəmanəti»ni çar hökuməti özü pozub atdı. Beləliklə, Şimalı Azərbaycan rus müstəmləkə rejimi hökm sürməyə başladı.

Asılı xanlıqların yox edilməsi birinci Rusiya-İran savaşının verdiyi dərslərdən irəli gəlirdi. Mərkəzi Rusiyadan Güneyə uzanıb gələn yollar çətin və təhlükəli idi. Asılı xanlıqların varlığına son qoymaqla çar Rusiyası öz ordusunun arxa təminatını yoluna qoya bildi. Baş komandan I.Paskeviç özü bunu etiraf edib yazırdı: «Istər Iranla, istərsə də Türkiyə ilə indiki (yeni) savaşlar göstərdi ki, bizim ordunu saxlayıb yedizdirən Azərbaycan idi».

Xanlıqların ləğv edilməsi ilə Azərbaycan xanlıqlarının bütöv bir dönəmi sona yetmiş oldu. Çarlıq Rusiyası bununla Quzey Azərbaycanın siyasi fəthini başa çatdırmaq üçün özünə yol açdı. Bununla yanaşı, quzey xanlıqların bütün var və yatırını, bütün təsərrüfatını öz əlinə keçirərək buranın iqtisadi fəthi qarşısında duran xanlıq idarəçiliyini aradan götürmüş oldu. Azərbaycanın dövlətçilik qurumla-

rının yox edilməsi ilə ölkənin büsbütün sümürgəclik meydanına çevrilməsi üçün yol açıldı.

### *§ 3. İkinci Rusiya-Qacar müharibəsi. Türkmənçay sülh müqaviləsi. İstilanın başa çatması*

Rusiyanın 1804-1813-cü illər Rusiya-Iran müharibəsində qələbəsi, Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən istilası inglis müstəmləkəçilərinin qəzəbinə səbəb oldu. Gülüstan müqaviləsini özü üçün rüsvayçılıq hesab edən və Cənubi Qafqazı ələ keçirmək üçün yeni planlar hazırlayan İran sarayı isə Rusiyanın Cənubi Qafqazı zəbt etməsi ilə barışmaq istəmirdi. İranın bu planları Ingiltərənin Cənubi Qafqazdakı planlarına tam uyğun gəlirdi və buna görə də ingilis diplomatiyası hər vasitə ilə yeni münaqişələr törədir, Iranı Rusiya ilə yeni müharibəyə təhrik edirdi.

Müharibənin qurtarmasından cəmi bir il sonra, 1814-cü il noyabrın 25-də Tehranda İngiltərə ilə İran Qacarlar dövləti arasında müqavilə bağlandı. Bu müqavilə Rusiyaya qarşı yönəldilmişdi. İran şahı Iran sərhədləri tərəfdən Hindistanın təhlükəsizliyini təmin etməyi öz öhdəsinə götürürdü. Böyük Britaniya isə Irana hər il 1809-cu il müqaviləsi üzrə müəyyən olunmuş məbləğdə maliyyə yardımı göstərmək, ordu və hərbi gəmilər ayırmaq haqqında öz öhdəliyini bir daha təsdiq etdi. İngiltərə İrana Gülüstan müqaviləsi ilə müəyyənləşdirilmiş Rusiya-İran sərhədlərinə yenidən baxmağa nail olmaq barədə söz verdi. Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolov 1817-ci ildə nümayəndə heyətinin başçısı kimi İranda olarkən çoxlu ingilis zabitinin qızğın fəaliyyətinin şahidi olmuşdu.

Vəliəhd, cənubi Azərbaycanın hakimi Abbas Mirzə Rusiyaya qarşı yeni müharibənin hazırlanmasında yenə də mühüm rol oynayırdı. İngilis diplomatiyası hər vasitə ilə onu İngiltərənin daimi nəzarəti altında saxlamağa çalışırdı. 1815-c ildə Gülüstan müqaviləsinə yenidən baxmağa Rusiyanın razılığını almaq və Cənubi Qafqazın, əsasən Azərbaycan ərazisinin heç olmazsa bir hissəsinin İrana verilməsinə nail olmaq üçün İngiltərə ilə sıx bağlı olan və çoxdan onun təminatından istifadə edən Mirzə Əbdül Həsən xanın başçılığı ilə Peterburqa nümayəndə heyəti göndərildi. İngiltərə və İranla münasibətləri kəskinləşdirmək istəməyən çar hökuməti sərhədlərin müəyyənləşirilməsində bəzi xırda güzəştlərə getməyi qərara aldı və bu məqsədlə 1817-ci ildə A.P.Yermolovun başçılığı ilə İrana nümayəndə heyəti göndərdi. A.P.Yermolovun səfirlyi İranda soyuq qarşılandı. İngilislər tərəfindən qızışdırılan vəliəhd Abbas Mirzə hətta Yermolovun səfirliyndən ölkədə hərbi əhval-ruhiyyəni qızışdırmaq üçün istifadə etməyə çalışdı.

Tərəflərin elə ilk görüşündə İrandakı ingilis səfirinin iştirakı ilə şah diplomatiyası Gülüstan müqaviləsinə görə Rusiyaya keçmiş torpaqların İrana verilməsini tələb etdi. Şah sarayının mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək fikrində olmadığına və İngiltərənin köməyi ilə müharibəyə hazırlaşdığına əmin

olan general Yermolov İranı tərk etdi. Rusiyaya qayıtdıqdan sonra Yermolov Peterburqa yazırdı: «İngilislər ehtiyat edirdilər ki, İran bizim hakim təsirimiz altına düşə bilər». O, daha sonra qeyd edir di ki, «vəliəhdin sarayında ingilislərsiz heç bir iş görülmür».

XIX yüzilliyin 20-ci illərində Qacarların Rusiyaya qarşı hərbi hazırlığı yeni mərhələyə qədəm qoydu və çox fəallaşdı. İngilis diplomatiyası ehtiyat edirdi ki, Rusiya şərq məsələsini öz xeyrinə həll edə bilər və ona görə də hər vasitə ilə Qacarları müharibəyə təhrik edirdi.

Şah sarayı ingilislərin köməyi ilə öz ordusunun gücünü artırır, gələcək müharibədə Türkiyədən kömək almağa səy göstərirdi. Bu işdə də İngiltərə İrana kömək etdi. 1823-cü ildə İran və Türkiyə arasında müqavilə bağlandı. İngilislərin köməyi ilə Cənubi Qafqazda geniş casusluq və təxribat işləri təşkil edildi.

1825-ci ilin payızında Abbas Mirzənin qoşunu üçün İsfahana 200 tay ingilis silahı gətirildi. 1826-cı ildə İngiltərə Hindistandan daha 15 min tüfəng göndərdi. Bu zaman ingilislər şaha bildirdilər ki, gələcəkdə kömək yalnız o zaman göstəriləcəkdir ki, İran Rusiyaya qarşı müharibəyə başlasın. Elə həmin il İngiltərə artıq Rusiyaya qarşı müharibəyə başlamağı inadla israr edirdi.

1826-cı ildə general Menşikovun başçılıq etdiyi rus nümayəndə heyəti İran Qacar dövlətinə gəldi. Aldığı təlimata əsasən, Menşikov şah sarayının nəzərinə çatdırmalı idi ki, Rusiyanın məqsədi İranla sülhü, mehriban razılıq və dostluq münasibətlərini qorumaqdan, beləliklə İranın Rusiyanın işğal məqsədi daşıması və öz ərazisini genişləndirmək istəməsi gümanını aradan qaldırmaqdan ibarət olmalı idi. Menşikov sərhəd haqqında məsələni tənzimləməyə, «şahı razı salmaq üçün bütün gücünü sərf etməli idi». Çarın sərəncamı ilə Menşikov Qarabağın və Lənkəran xanlığının bir hissəsini güzəştə getməyə hazır idi.

Şahın yay iqamətgahı Sultaniyyəyə gələn Menşikov başa düşdü ki, müharibə labüddür.

İran sarayı özünün Rusiyaya qarşı hazırladığı müharibə planlarında «Qafqaz müsəlman vilayətlərinin», daha doğrusu Azərbaycan və Dağıstanın «hamılıqla silahlanmasına» böyük ümid bəsləyirdi. Qaçqın Azərbaycan xanları Abbas Mirzəni inandırırdılar ki, onun ordusu görünən kimi müsəlman əhalisi üsyan qaldıracaq və rusları qovacaqdır. Abbas Mirzə Qafqaz xalqları arasıda milli və dini ədəvəti qızışdıracağına da ümid bəsləyirdi.

1826-cı il mayın 26-da İran qoşunu sərhəd dəstələrinə hücum etdi, iki aydan sonra isə iyulun 19-da Abbas Mirzənin 60 minlik ordusu Şimali Azərbaycana soxuldu.

Abbas Mirzənin planı qəflətən Qarabağa soxulmaq, Şuşanı ələ keçirmək və sonra isə Gəncəni tutmaqla Tiflisə hücum etmək idi. İrəvan sərdarı Hüseyn xan cənubdan Şuragəl və Pəmbəyə soxulmalı və burada Abbas Mirzənin əsas qüvvələrinin yaxınlaşmasını gözləməli idi. Abbas Mirzənin yanında olan gürcü şahzadəsi Aleksandr isə İran ordusu ilə Kaxetiyaya girməli və burada Car-Balakən dəstələri ilə birləşib Şimal-Şərqdən Tiflis üzərinə hərəkət etməli idi.

Ordunun bir hissəsi yol üstündəki hər şeyi oddan və qılıncdan keçirərək Gəncəyə tərəf hərəkət etdi. Digər əsas qüvvələr Şuşa üzərinə yeridildi.

Zaqafqaziyadakı rus qoşunlarının sayının azlığı və pərakəndəliyi İran qoşununun Quba, Bakı və b. yerlərə hərəkəti üçün əlverişli şərait yaratdı. İran odusu ilə İrana qaçmış hakimiyyət iddiasında olan xanlar- gəncəli Cavad xanın oğlu Uğurlu xan, bakılı Hüseynqulu xan, şirvanlı Mustafa xan və başqaları da gəlirdilər. Qarabağda İrana meyl edən bəy qrupları öz fəallığını artırırdılar. İran şahının hakimiyyəti altında olan İrəvan xanı rus odusunun düşərgə saldığı rayona böyük atlı dəstəsi ilə hücum etdi. Əhali öz keçmiş xanlarına kömək məqsədi ilə Rusiya əleyhinə üsyanlar qaldırdı. Belə bir üsyan Gəncədə baş verdi. Bu çıxışın iştirakçıları iyulun 27-də həbsxananı ələ keçirdilər, iyulun 28-ə keçən gecə isə yerli qarnizonu darmadağın etdilər. Zurnabaddan rus qarnizonunun köməyinə gələn rota top atəşi ilə qarşılandı, rota geri çəkildi. Şəhər Abbas Mirzənin qoşunu tərəfindən tutuldu. Beləliklə, hərbi əməliyyatlar Şimali Azərbaycanın demək olar ki, bütün ərazisini və Qərbi Azərbaycanın bir hssəsini əhatə etdi. Elə bu vaxt İran ordusu bütün Qarabağ mahallarını ələ keçirərək Şuşa qalasını mühasirəyə aldı. Şuşa qarnizonu sayca az idi. O 6 rotadan, daha doğrusu 4 topu olan 1500 adamdan ibarət idi.

Şuşa qalasının mühasirəsi 48 gün davam etdi. Abbas Mirzənin təslim olmaq haqqında dəfələrlə verdiyi tələblər Şuşa qarnizonunun rəisi polkovnik Reut tərəfindən rədd edildi. Şuşa qalasını uzun müddət mühasirədə saxlamaq İran hərbi komandanlığının səhvi idi. Yermolov başa düşürdü ki, azsaylı qüvvələrlə bütün cəbhə boyu düşmənə əks zərbə vurmaq mümkün deyil. Bütün qüvvələri Cənubi Qafqazın hərbi-siyasi mərkəzi olan Tiflisin müdafiəsində cəmləşdirməklə o, düzgün qərar qəbul etdi.

Hüseynqulu xan İran sərbazlarından ibarət böyük bir dəstə ilə azsaylı rus qarnizonunun müdafiə etdiyi Bakı qalasını dənizdən və qurudan mühasirəyə aldı. Bakı körfəzi də dənizdən İranın avarlı donanması tərəfindən mühasirədə idi. Qala möhkəm dayanmışdı və Hüseynqulu xanın bütün hücumları dəf edildi. Rus hərbi komandanlığı Bakıya böyük əhəmiyyət verirdi. Bakı limanı Həştərxanla daimi əlaqə saxlanılmasında, rus ordusunun döyüş sursatı və ərzaqla təmin edilməsində mühüm rol oynayırdı.

Lakin Hüseynqulu xanın qalanı ələ keçirmək üçün göstərdiyi bütün cəhdlər müvəffəqiyyətsizliyə uğradı. İran qoşunları Şamaxıda da güclü müqavimətə rast gəldilər. Mustafa xan yeni Şamaxını ələ keçirməyə müvəffəq olmuşdu. Bütün əhalinin köməyinə baxmayaraq, o, köhnə Şamaxını ələ keçirə bilmədi. Elə həmin vaxt şəkili Səlim xanın oğlu Hüseyn xan Iran sərbazlarından ibarət dəstə ilə Şəki xanlığına soxuldu. Mirhəsən xan Lənkərana gəldi. O, Xəzər batalyonunu və kazak bölməsini sıxışdıraraq Salyanı, Qızılağacı ələ keçirməyə və Lənkəranı mühasirəyə almağa müvəffəq oldu. Şimaldan təcrid olunan və ərzaq ehtiyatı tükənən qarnizon rəisi mayor İlyinski iyunun 27-nə keçən gecə şəhəri yandırdı və ordunu Xəzər donanmasına mindirərək Sara adasına üz qoydu.

Özlərinin keçmiş mülklərini ələ keçirən xanların başlıca vəzifəsi yerlərdə İran ordusunun qüvvələri ilə birlikdə hərəkət edərək körpüləri, dəyirmanları dağıdan, ərzaq ehtiyatlarını məhv edən təxribatçı dəstələri təşkil etmək idi.

General Yermolov keçmiş Azərbaycan xanlarına qarşı sərt tədbirlər görmək qərarına gəldi və Dağıstanda yerləşən qoşunu onlara qarşı göndərdi. Bu qoşun Qubaya hərəkət edərək, oradan da iyunun 23-də Köhnə Şamaxıya gəldi. Lakin Qubanın sonuncu hakiminin oğlu Sultan Əhmədin Quba ətrafında peyda olması və həmçinin ərzaq ehtiyatının tükənməsi rus qoşunlarını geri çəkilməyə və Qubaya daxil olmağa məcbur etdi. Şəhər Iran ordusu tərəfindən mühasirəyə alındı. Abbas Mirzənin oğlu yerli əhalini soyur və onu özünə qarşı çevirirdi. Cənubi Dağıstan Abbas Mirzə tərəfindən Dağıstanın hakimi təyin edilmiş Surxay xanın əlinə keçdi.

Abbas Mirzə öz ordusu ilə Şuşa qalası ətrafında dayanarkən Iran ordusunun digər dəstələri Gəncəni ələ keçirdikdən sonra Tiflisə tərəf hərəkət etdi. Yolda onlar mənşəcə Qarabağ ermənilərindən olan general Mədətovun dəstəsi ilə rastlaşdılar.

Rus hərbi dəstələri və gürcü süvariləri şahzadə Aleksandrın dəstəsini məğlub etdilər. Mədətovun dəstəsi qazandığı müvəffəqiyyəti inkişaf etdirərək Gəncəyə hərəkət etdi. Lakin Gəncəyə gedən yolun üstündə, Şamxorda Iranın böyük hərbi qüvvələri yerləşmişdi.

1826-cı il sentyabrın 3-də səhər tezdən İran ordusu rus qoşunlarının düşərgəsinə doğru hərəkət etdi. Şamxor yaxınlığında düzənlikdə qanlı döyüş başlandı. Kazaklar və süvarilər döyüşə birinci olaraq girdilər. Gürcü dəstəsi hücum edən rus qoşununun sağ cinahında fəaliyyət göstərirdi. Birləşmiş qüvvələr İran süvari qoşunu ilə döyüşə atıldı. Sonra isə bütün rus qoşunu hücuma keçdi və düşmən geri çəkilməyə məcbur oldu.

İran ordusu Şamxorçay yanında möhkəmlənməyi, sonra isə rus qoşunu üzərinə hücum etməyi qərara aldı. Lakin hücum edən rus qoşununun zərbələri altında şah qoşunları pərən-pərən düşdü.

Şamxor məğlubiyyətindən sonra İran ordusu tələsik Gəncədən geri çəkildi, sentyabrın 4-də general Mədətovun rus dəstəsi Gəncəyə daxl oldu. Sentyabrın 9-da rus korpusunun əsas qüvvələri Gəncəyə gələrək general Mədətovun qrupu ilə birləşdi.

İran ordusunun yaxınlaşdığını eşidən rus komandanlığı zərbə qrupunu Gəncə yaxınlığında cəmləşdirdi. Sentyabrın 10-da sonralar Yermolovu əvəz edən Paskeviç də əlavə qoşunla buraya gəldi. Rəqiblər döyüş meydanında üzbəüz dayanmışdılar. Rus qoşunu 8700 adamdan ibarət idi. İran ordusu isə 15.500 nəfərlik nizami piyadadan, 10.700 nəfərlik süvaridən ibarət idi.

1826-cı il sentyabrın 13-də Iran qoşunları hücuma başladı. Amansız döyüş baş verdi. Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy bu döyüş haqqında yazırdı: «Səhər vaxtı sərdar Paskeviç və general Mədətov qoşunlarına nizam verib Şeyx Nizami türbəsinə yaxınlaşdılar. Qızılbaş qoşunu ilə üz-üzə gəldilər. Burada böyük sultani bir müharibə oldu. Bir saatdan sonra qızılbaşlar basıldılar». Seçmə şah qoşunu darmadağın edildi. Bu döyüşdə Iran qoşunundan 1000 nəfər öldürüldü, 1100

nəfədən çoxu əsir alındı, 4 bayraq, bir neçə top və s. ələ keçirildi. Abbas Mirzənin qoşununun qalıqları tələsik Qarabağdan keçərək cənuba, Xudəfərin körpüsünə tərəf qaçdı. Sentyabrın 18-də Abbas Mirzə Şuşa altında saxlanılan dəstəni də özü ilə götürərək Arazın sağ sahilinə keçdi.

XIX yüzilliyin birinci qərinəsində Cənubi Qafqazda baş verən hərbi əməliyyatlar içərisində ən böyük döyüşlərdən olan Gəncə döyüşünün Rus-İran müharibəsinin sonrakı gedişində çar Rusiyası üçün çox mühüm əhəmiyyəti oldu və faktiki olaraq onun müqəddəratını həll etdi. Şah qoşunu ilə birlikdə onun köməyi ilə öz hakimiyyətlərini bərpa etməyə ümid bəsləyən xanlar və feodallar da Azərbaycanı tərk etdilər.

1826-cı ilin dekabrında Abbas Mirzə və şahzadə Aleksandr Azərbaycan və Dağıstan hərbi hissələrinn köməyi ilə Şəki əyaləti ilə həmsərhəd olan Dağıstan əhalisinin üsyanını təşkil etdilər və Hüseyn xanın iddiasında olduğu xan hakimiyyətini bərpa etmək şərti ilə Nuxaya böyük dəstə yeritdilər. Dekabrın 9-da Yermolovun başçılığı ilə rus dəstələri Nuxaya gəldi. Müqavimət göstərməyə və müdafiə olunmağa imkanı olmayan Hüseyn xan qaçdı və Araz çayından Irana keçdi. Sentyabrın 24-də Sultan Əhmət özünün 6 minlik dəstəsi ilə Qubadan geri çəkildi, şirvanlı Mustafa xan isə Şamaxıdan qaçdı. Qubada mühasirədən çıxan rus dəstəsi geri çəkilən Iran qoşun dəstəsini təqib etdi. Başqa xanlar da qaçdılar. 1827-ci ilin əvvəllərində İran sərbazları bütün Şimali Azərbaycan ərazisini tərk etdilər, yalnız Lənkəranda hələlik Mirhəsən xan qalırdı. İran feodalları Arazın o tayına keçdikdən sonra da tez-tez soyğunçu basqınlar təşkil etməklə Azərbaycan torpaqlarını rahat qoymurdular.

Belə hücumların qarşısını almaq məqsədilə dekabrın 26-da Mədətovun başçılığı ilə rus qoşunu Araz çayını keçərək Cənubi Azərbaycan ərazisinə, 1827-ci ilin yanvarında isə Meşkin dairəsinə daxil oldu. Lakin rus komandanlığı hələlik öz qarşısına Cənubi Azərbaycanın içərilərinə doğru irəliləmək vəzifəsini qoymamışdı və Mədətov öz qoşunu ilə geri qayıtdı.

Hərbi əməliyyatlar 1827-ci ilin yazında yenidən başlandı. Apreldə rus qoşunu iki istiqamətdə irəliləməyə başladı. Dəstələrədən biri Mədətovun komandanlığı altında 1827-ci il apelin 20-də Xudafərin körpüsünü ələ keçirdi, Cənubi Azərbaycana yol açıldı. Lakin rus komandanlığı ilk növbədə İrəvan xanığını ələ keçirməyi qərara aldı.

Əlahiddə Qafqazda korpusunun əsas qüvvələri Iran qoşunları tərəfindən viran edilmiş Eçmiədzinə daxil oldu və aprelin 23-də Irəvan üzərinə hərəkət etdi, səhəri gün isə Irəvan qalasına yaxınlaşaraq onu mühasirəyə aldı. Mühasirə iki ay davam etdi. Lakin rus qoşunu sayının azlığı ucbatından (8600 adam) Irəvanda müvəffəqiyyət qazana bilmədiyindən rus komandanlığı qalanın mühasirəsinə vaxt itirməməyi qərara aldı və qoşununu Naxçıvan üzərinə yertdi. 1827-ci il mayın 26-da 20 km.-lik yürüşdən sonra rus qoşunu Naxçıvanı döyüşsüz ələ keçirdi və Abbasabad qalasına yaxınlaşdı. Bu qalanın böyük strateji əhəmiyyəti var idi. Belə ki, o,

şah hakimiyyətinin Naxçıvan xanlığında dayağı idi və Araz çayı üzərində keçidi təmin edirdi.

Rus qoşunu İrəvana yaxınlaşana qədər avqustun 13-də Alagöz dağının ətəklərində, avqustun 17-də Uşağanda və b. yerlərdə iri döyüşlərə girdi. Rus qoşunu avqustun sonlarında İrəvana yaxınlaşdı. O ilk növbədə xeyli taxıl və digər ərzaq ehtiyatlarının toplandığı Sərdarabad qalasını mühasirəyə aldı. Sentyabrın 20-də Sərdarabad qalası süqut etdi, sentyabrın 26-da Irəvan qalasının da mühasirəsi başlandı. İrəvan xanlığı əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət idi. Paskeviçin yazdığı kimi, «İrəvan vilayətində 10 min müsəlman (azərbaycanlı – Red.) və ancaq 3 min erməni ailəsi var idi. Elə həmin gün qanlı döyüşdən sonra rus qoşunu İrəvan qalasını ələ keçirdi.

İrəvan qalasındakı qələbə, onun alınması Rusiya-İran müharibəsinin gedişində rus komandanlığı üçün mühüm əhəmiyyətə malik idi. Bu vaxta qədər general Krestovun komandanlığı altında Cənubi Azərbaycanın sərhədlərində dayanan rus qoşunu ölkənin içərilərinə doğru irəliləməyə başladı. Oktyabrın 2-də Mərənd döyüşsüz ələ keçirildi.

Rus qoşunu Xoy şəhərinə yaxınlaşarkən müqavimətə rast gəlmədi. 1827-ci il oktyabrın 11-də rus qoşunu Təbrizə hərəkət etdi. Oktyabrın 13-də rus qoşunu Təbrizə daxıl oldu. Çoxlu qənimət- 40 top, mindən çox tüfəng, çoxlu mərmi ələ keçirildi.

Təbrizin və bütün Cənubi Azərbaycanın idarə olunmasına dair təlimat A.S.Qriboyedov tərəfindən tərtib edilmişdi. Rus qoşununun Təbrizi ələ keçirməsi ilə Tehrana yol açıldı. Qorxuya düşən şah hökuməti sülh xahş etdi.

Bununla belə, daxili və beynəlxalq vəziyyət Rusiyanı İranla müharibəni başa çatdırmağa sövq edirdi, çünki dağlıların azadlıq hərəkatı geniş vüsət almışdı və Rusiya Türkiyə ilə müharibənin yaxınlaşdığını hiss edirdi. 1827-ci il noyabrın 7-də danışıqlar başlandı. Lakin inglis diplomatiyasının təhriki və Türkiyənin təzyiqi altında danışıqlar kəsildi. 1828-ci il yanvarın 24-də Paskeviç rus qoşununa Ərdəbil və Tehran istiqamətndə hərəkət etməyi əmr etdi. Rus qoşunları yanvarın 28-də Urmiyanı, fevralın 8-də isə Ərdəbili tutdular. Rus qoşununun yeni hücumu Iranın hakim dairələri arasında vahimə doğurdu. Iranın tamamilə darmadağın ediləcəyindən ehtiyat edən Britaniya səfiri Makdonald döyüşən tərəflər arasında vasitəçi kimi çıxış etdi. 1828-ci il fevralın 6-da (18-də) Təbriz yaxınlığındakı Türkmənçay kəndində Abbas Mirzə ilə Paskeviç arasında sülh danışıqları yenidən başlandı. Rusiya hökuməti Paskeviçin qarşısında şahdan Cənubi Azərbaycan ərazisinin də Rusiyaya birləşdirilməsini tələb etmək vəzifəsini qoymuşdu. Danışıqların iştirakçısı A.S.Qriboyedov da Cənubi Azərbaycan ərazisinin Rusiyaya birləşdirilməsi fikrinə tərəfdar çıxdı.

Britaniya diplomatiyası danışıqlarda vasitəçiliyə can atırdı. O İran Qacarlar dövlətinin tamamilə dağılmasından, bütün Cənubi Azərbaycanın rus qoşunları tərəfindən tutulacağından qorxurdu və bütün gücünü ona sərf edirdi ki, Rusiya özünün Cənubi Azərbaycana olan iddialarından əl çəksin. Türkiyə ilə

yaxınlaşmaqda olan müharibə təhlükəsi şəraitində çar hökuməti İran Qacarlar dövləti ilə sülh müqaviləsi bağlamağa tələsdi. Müqavilə 1828-ci il fevralın 10-da (22-də) imzalandı. Türkmənçay sülh müqaviləsinə görə, İran Qacarlar dövləti Şimali Azərbaycana olan öz iddialarından əl çəkir, onun üzərində Rusiya hakimiyyətini tanıyırdı. Cənubi Azərbaycan isə İran Qacarlar dövlətinin himayəsində qaldı. Azərbaycan iki yerə bölündü. Bu ədalətsizlik indiyədək davam etməkdədir.

Türkmənçay müqaviləsi 16 maddədən ibarət idi. İran və Rusiya arasında sərhəd xəttini dördüncü, İranın Qafqaz dağlarına qədər bütün Zaqafqaziya ərazisini, o cümlədən Gülüstan müqavləsinə əsasən Rusiyaya keçmiş ərazilərini və «Araz çayının bu və o biri tərəfindəki İrəvan xanlığını və Naxçıvan xanlığını»… . Rusiyaya «güzəştə» getdiyini beşinci maddələr müəyyən edirdi.

Səkkizinci maddəyə görə İran Xəzər dənizinin Rusiyanın daxili dənizi olduğunu tanıyırdı. Xəzər dənizində hərbi donanma saxlamaq hüququ ancaq Rusiyaya verilirdi. Bu maddə Xəzər dənizində hərbi donanma yaratmağa can atan İngiltərənin mənafeyinə güclü zərbə idi. Onuncu maddə ilə Rusiyaya İranın istədiyi şəhərində özünün diplomatik nümayəndəliyini açmaq və ticarət etmək hüququ verilirdi. Müqaviləyə əsasən İran Rusiyaya 20 milyon manat məbləğində hərbi təzminat ödəməli idi. Müqavilədə Cənubi Azərbaycandan Cənubi Qafqaz ərazisinə köçənlərin hüquqlarını müdafiə edən maddə var idi. Türkməçay müqaviləsinə əsasən əhalinin Cənubi Azərbaycan, Cənubi Qafqaz və əksinə sərbəst hərəkət etməsinə icazə verilirdi. Bunun nəticəsində bir çox erməni ailələri Cənubi Qafqaz, Qarabağ və İrəvan xanlıqlarına köçdülər.

Həm 1804-1813-cü və 1826-1828-ci illər rus-İran müharibələrinin gedişində, həm də sonralar ermənilərin böyük kütlələrinin İran, Türkiyə və Cənubi Azərbaycandan Zaqafqaziyaya, o cümlədən də Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artırdı. Təkcə 1826-1828-ci illər rus-İran müharibəsinin gedişində İrandan və Azərbaycanın cənub ərazilərindən Zaqafqaziyaya, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Məlumdur ki, 1826-1828-ci illər rus-İran müharibəsinin Rusiya üçün qalibiyyətlə başa çatmasından sonra iki vuruşan dövlət arasında bağlanmış Türkmənçay müqaviləsinə görə ermənilərin maneəsiz olaraq İran ərazisindən Rusiya ərazisinə köçməsinə icazə verilmişdi. Bu akt ermənilərin İrandan Zaqafqaziyaya, o cümlədən Qarabağa kütləvi halda köçməsinə imkan verirdi. Iki il ərzində 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 mindən çox İran və 84000 Türkiyə ermənisi köçürüldü və onlar erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200 min desyatindən çox xəzinə torpağı ayrıldı.

Bu hadisələrin şahidi olan rus səfiri A.S.Qriboyedov yazırdı: «Biz onunla, həmçinin müsəlmanları onların uzunmuddətli olmayacaq indiki ağırlaşmalarla barışdırmaq və onlardan ermənilərin ilk vaxtlarda köçürüldükləri torpaqları həmişəlik tutacaqları barədə qorxunu çıxarmaq üçün müsəlmanlara olunacaq təlqin barədə çox mülahizələr etdik. Bu mənada mənim yanıda olmuş xanla danışılmışdı».

1832-ci ildə Qarabağ əhalisinin 91 faizini azərbaycanlılar, 8,4 faizini isə ermənilər təşkil edirdilər. 1832-ci il kameral təsvirlərinin materiallarına görə, Qarabağ əyalətinin ərazisindəkii 20546 ailədən 13965-i azərbaycanlılar, 6491-i isə ermənilər idi. Beləliklə, çarizmin XIX əsrin 30-cu illərinin əvvəllərindəki köçürmə siyasəti nəticəsində azərbaycanlıların faizi 64,8-ə endi, ermənilərin faizi isə 34,8-ə qalxdı.

Türkmənçayda rus tacirlərinə bir sıra üstünlüklər verən və xüsusi «akt» adlandırılan ticarət sazişi bağlandı.

Türkmənçay sülh müqaviləsi XIX yüzilliyin birinci qərinəsinin Rusiya-Iran müharibəsinə son qoydu və İranın Cənubi Qafqaza və Dağıstana olan iddialarından imtina etdiyini təsbit etdi.

İkinci Rusiya-İran müharibəsinin başa çatdığı dövrdə Rusiya ilə Türkiyə arasında münasibətlər kəskin şəkildə pisləşdi. İran üzərində qələbədən sonra, Xəzər demək olar ki, Rusiyanın daxili dənizi idi. İndi çar Rusiyası öz qarşısına Qara dənizi, ilk növbədə Qara dənizdə hökmranlığın açarı hesab edilən Bosfor və Dardanel boğazlarını ələ keçimək vəzifəsini qoymuşdu. Qara dəniz Rusiya üçün nəzərlərini boğazlara və Qafqaza yönəltmiş İngiltərə və Fransadan özünün cənub sərhədlərini qoruma baxımından da mühüm əhəmiyyət kəsb edirdi.

1828-ci ilin aprelində Rusiya Türkiyəyə müharibə elan etdi.

Rus-türk müharibəsində Qafqaz əhərbi əməliyyatları rus qoşunlarının Qars istiqamətndə hücumu ilə başlandı. Qarsı tutduqdan sonra ruslar Ahalsıx üzərinə hərəkət etdilər. Avqustun 9-da rus qoşunları Ahalsıxı ələ keçirdilər. Hələ bundan əvvəl rus qoşunları Ahalkələki və Xertsisi tutmuşdu. Avqustun sonlarına qədər rus qoşunları Bəyazid qalası, Torpaqqala və Diadil sədləri ilə birlikdə bütün Bəyazid paşalığını ələ keçirdi.

1829-cu il hərbi əməliyyatlarının gedişində rus qoşunu Ərzrumu ələ keçirdi və Trapezund üzərinə hücuma hazırlaşmağa başladı. Balkan hərbi əməliyyat meydanında isə rus qoşunları Balkan dağlarından keçərək Ədirnəni ələ keçirdi. və İstanbula yaxnlaşdı. Sultan sülh xahiş etməyə məcbur oldu. 1829-cu il sentyabrın 2-də (14-də) Ədirnədə bağlanan sülh müqaviləsinə görə, Türkiyə şimalda Anapadan başlayaraq, cənubda Müqəddəs Nikolay limanına qədər Qara dənizin bütün şərq sahillərini və Ahalsıx paşalığının ərazisinin bir hissəsini Rusiyaya güzəştə getdi. Bosfor və Dardanel boğazları rus və Qərbi Avropa ticarət gəmiləri üçün açıq saxlanılırdı. Moldaviya və Valaxiya rus qoşunu tərəfindən müvəqqəti olaraq işğal edildi.

Ədirnə sülhü Şimali Azərbaycanın, bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt ounmasını təsbit etdi, Rusiyanın Orta Şərqdə və Balkanlarda mövqelərini möhkəmləndirdi, Qara dənizdə ticarətin genişlənməsi üçün şərait yarandı.

Beləliklə, Azərbaycanın Şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail ola bilmədi. Azərbaycan xalqını müharibə nəticəsində zorla iki hissəyə bölmək kimi tarixi ədalətsizlik baş verdi. Bu tarixi ədalətizlik nəticəsində vahid xalq bölündü və onların hər biri bir-birin-

dən fərqli sosial-iqtisadi, siyasəi və mədəni inkişaf yoluna düşməyə məcbur oldu. İşğal nəticəsində Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazasına, tacirlərinin isə satış bazarına çevrildi. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisaliyyatı xarakteri aldı. Bu isə o demək idi ki, yalnız Rusiya sənayesi üçün xammal istehsal etməli idi. Nəhayət, ən başlıcası budur ki, Şimali Azərbaycan Rusiyanın ucqar müstəmləkəsinə çevrildi.

Azərbaycanın çar Rusiyası tərəfindən zəbt edilməsi ilə Şimali Azərbaycan Rusiyanın tərkibində kapitalizmin inkişaf yoluna düşdü. Ələbəttə, Bakı kimi neft sərvəti mərkəzinin olması Azərbaycanda kapitalist münasibətlərinin XIX yüzillikdə inkişaf etməsinin əsas amillərindən biri idi. Rusiyanın tərkibində Azərbaycan xalqının dünya mədəniyyəti ilə qovuşması prosesi də sürətləndi.

Ölkə Rusiya tərəfindən işğal ediləndən sonra elə ilk illərdə Azərbaycan xanlıqlarında mövcud olan müxtəlif pul sistemləri vahid rus pul sistemi ilə əvəz edildi. Bu tədbir ölkənin ayrı-ayrı rayonları arasında ticarətin və XIX yüzilliyin birinci yarısında əmttəə-pul münasibətlərinin inkişafında mühüm rol oynadı. Azərbaycan iqtisadiyyatı müstəmləkə xarakteri alsa da, o, metropoliyanın xammal bazasına çevrilsə də Rusiya impeiyasının ayrılmaz hissəsi kimi Rusiyanın iqtisadi inkişaf axınına cəlb olundu, onun bazarına qoşuldu və bu bazar vasitəsilə dünya əmtəə dövriyyəsində iştirak etməyə başladı.

Çarizm hər vasitə ilə ucqarlarda, o cümlədən Azərbaycanda feodal münasibətlərini, geriliyi qoruyub saxlamağa, rus kapitalı tərəfindən ölkənin müstəmləkə qaydası ilə qarət olunmasına, kapitalizməqədərki münasibətlərin saxlanılmasına çalışırdı. Ucqarların xalq kütlələri ikiqat zülmə- çarizmin və yerli istismarçıların zülmünə məruz qalırdılar. Yerli mülkədarların və zadəganların bəzilərinin simasında özünə müttəfiq tapan və onlara arxalanan çarizm Azərbaycanda müstəmləkə siyasəti yeridirdi.

# FƏSİL 13. ŞİMALİ AZƏRBAYCAN XIX ƏSRİN 30-40-ci İLLƏRİNDƏ

*§ 1. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti*
*§ 2. Çar Rusiyasının köçürmə siyasəti və onun nəticələri*
*§ 3. Çarizmin müstəmləkə zülmünə qarşı üsyanlar*
*§ 4. XIX əsrin 40-cı illərdə keçirilmiş islahatlar*
*§ 5. XIX əsrin birinci yarısında Azərbaycan mədəniyyəti*

## § 1. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti

XVIII əsrin sonu XIX əsrin əvvələrində Rusiyanın Cənubi Qafqaz, o cümlədən Azərbaycan siyasətində ilk dövrlərdə iqtisadi motivlərdən daha çox hərbi-strateji rejim mühüti yer tuturdu.

Türkmənçay müqaviləsinin imzalanmasınadək Şimali Azərbaycanın iqtisadi əhəmiyyəti çar hökuməti tərəfindən hələ ki axıradək, aydın şəkildə dərk olunmamışdı. Doğrudur, Şimali Azərbaycan Rusiya manufakturası üçün xammal bazası kimi heç də az əhəmiyyətə malik deyildi. Lakin rus manufaktura səneyesinin özünün inkişafı hələ o dərəcədə yüksək deyildi ki, bu, müəyyənedici amil rolunu oynaya bilsin.

Rusiyanın Şimali Azərbaycanda ağalığı 1840-cı ilədək sırf hərbi işğal rejimi şəklində özünü göstərirdi. Rusiyanın daxili və mərkəzi qaberniyalarında mövcud olan idarəçilik sisteminin bu dövrədək burada tətbiq edilməməsi də bir daha buna dəlalət edir. Bundan başqa, XIX əsrin 40-cı illərinədək rus hakimiyyət orqanlarının Rusiya tərəfindən yenicə tutulmuş bu ölkədə idarəçilik məsələsi barəsində vahid xətti hələlik yox idi. Rusiyaya hərbi müqavimət göstərmiş Gəncə və Bakı xanlıqları onların hərbi istilasından dərhal sonra ləğv edilmişdisə, Şəki xanlığı, Şəmşəddil və Qazax sultanlıqları 1819-cu ilədək, Şirvan xanlığı 1820-ci ilədək, Qarabağ xanlığı 1822-ci ilədək, Lənkəran xanlığı 1826-cı ilədək, İrəvan və Naxçıvan xanlıqları 1827-ci ilədək, İlusu sultanlığı isə 1844-cü ilədək mövcud olmuşdu. Lakin bütün bunlar taktiki gedişlər, yenicə istila edilmiş yad müsəlman ölkəsində yerli əhalini hələləik mümkün qədər az qıcıqlandırmaq istəyindən başqa bir şey deyildir.

Yerli xan sülalələrini məhv etdikdən sonra çar hökuməti xanlıqları əyalətlərə çevirirdi. Bu əyalətlərə rus zabitləri sırasından olan komendantlar başçı təyin edilmişdilər. Komendantlar vaxtilə xanların malik olduqları bütün hüquqlardan istifadə edir, bir çox hallarda özlərini tam mütləq kimi aparırdılar. Komendant əyalət və şəhər məhkəmələrində sədrlik edir, yerli ruhanilərin başçısı-axund və ya qazını, mahal naiblərini və digər əyalət məmurlarını vəzifələrə təyin edirdilər. Ayrı-ayrı bəylərə və başqalarına mülklə bərabər rəiyyətlərin bağışlanması barəsində keçmiş xanların verdikləri fərmanların təsdiq edilib-edilməməsi də komendantların

ixtiyarında idi. Komendantlar özləri də ayrı-ayrı bəylərə tiyul torpaqları, habelə rəncbərlər paylayırdılar. Xan sənədləri üzrə bəylik almış şəxslərin bu rütbələrinin təsdiqi, habelə "siyasi cəhətdən səbatsız" bəylərin mülklərinin müsadirə olunması və başqa şəxslərə verilməsi də komendantdan asılı idi. Komendantın adicə əmri ilə xəzinəyə məxsus kəndlər və kəndlilər xüsusi şəxslərə verilə, xüsusi sahibkarların mülkləri xəzinənin ixtiyarına keçirilə bilərdi. Komendantlar sərbəst sürətdə rəncbərləri rəiyyətlərə, rəiyyətləri rəncbərlərə çevirirdilər.

Hələ xanlıqlar dövründə mövcud olmuş vergi sistemi də, demək olar ki, dəyişdirilmədən XIX əsrin 40-cı illərinədək saxlanılmışdı. Vergilərin əsas ağırlığı ilk növbədə kəndli kütlələrin üzərinə düşürdü. Məsələn, Qarabağ əyalətində xəzinənin xeyrinə aşağıdakı vergilər alınırdı: - malcəhət (taxıl məhslunun 1/10-i), salyana (arpa və buğda ilə ödənilən xüsusi illik rüsum), mirzəyana (dəftərxana və digər idarələrin saxlanması üçün yığılan rüsum), otaq xərci (mənzil və alaf mükəlləfiyyətini əvəz etmiş vergi), at arpası (ordunun ehtiyacları üçün arpa ilə ödənilən vergi), kələntərlik (aşağı rütbəli məmurların saxlanılması üçün yığılan vergi), bayramlıq (bayram hədiyyələri), karxana xərci (ipəksarıma müəssisələri və digər emalatxanalardan yığılan vergi), bağbaşı (bağlardan yığılan vergi), çöpbaşı (otlaq vergisi) və bir çox başqaları.

Bu dövrdə yaradılan əyalətlərin sərhədləri müvafiq keçmiş xanlıqların sərhədləri ilə üst-üstə düşürdü. Xanlıqlar dövründə mövcud olan mahallara (rəsmi rus terminalogiyasına görə isə sahələrə) bölgü əyalətlərdə də saxlanılmışdı. Xanlıqlar dövründə olduğu kimi, mahal naibi vəzifəsinə komendat etibarlı hesab etdiyi yerli torpaq sahibləri-bəylərdən birini təyin edir, bəzi yerlərdə isə bu vəzifəni irsi məliklərdən birinə həvalə edirdi.

Şəki, Şirvan, Qarabağ və Lənkəran əyalətləri inzibati cəhətdən iqamətgahı Şuşa şəhərində yerləşən müsəlman əyalətləri hərbi dairə rəisliyinə, Bakı, Quba və Dərbənd əyalətləri isə iqamətgahı Dərbənd şəhərində yerləşmiş Dağıstan hərbi rəisinə tabe idi. Keçmiş Gəncə xalığının ərazisi isə bu dövrdə inzibati cəhətdən Şərqi Gürcüstan ərazisində yaradılmış inzibati vahidlərin tərkibinə daxil edilmişdi.

XX əsr tarixşunaslığında komendant idarəçilik üsulu adlandırılan bu inzibatçılıq üsulunu çar hökumət orqanları Hərbi xalq idarəçiliyi adlandırırdı, əslində isə rus zabitlərindən təyin olunan komendantlar öz səlahiyyətlərinin miqyasına görə mahiyyətcə XVIII əsr Azərbaycan xanlarından, demək olar ki, heç nə ilə fərqlənmirdilər. Onlar bircə ölüm cəzası verə bilməzdilər. Onların bəziləri ölüm hökmünü gizli şəkildə həyata keçirirdilər. Beləliklə, XIX əsrin ilk rübündə rus komendantlarının Şimali Azərbaycanda tədbiq etdikləri idarəçilik üsulları tamamilə feodal idhərəçilik üsulları idi, lakin Xan idarəçilik üsulundan fərqli olaraq çar üsulu həm də özünün aydın təzahür edən müstəmləkəçilik xarakteri ilə səciyyələndirilirdi. Başqa sözlə deyilərsə, Şimali Azərbaycan əhalisi bu dövrdə 2 qat- həm feodal, həm də müstəmləkə əsarəti altında idi. Kəndli kütlələri və hətta tacirlər üçün bu rejim və onun vergi sistemi xanlıqlar dövrünün inzibati maliyyəçilik qaydalarına nisbətən daha ağır və əziyyətli idi. Rus hakimiyyət orqanları xanlıq dövrünün bir

dənə də vergisini ləğv etmədən bunlara yeni-yeni vergilər əlavə edirdilər. Komendant üsulu-idarəsi dövründə formal olaraq şəriət və xan qanunları qüvvədə idi, lakin komendant bu qanunlar ilə ancaq özələrinə və ruslarla əlaqədə olan kiçik yerli feodal qurupuna sərf edəcək dərəcədə hesablaşırdı. Xanlıqlar dövrünün maliyyə-inzibati sistemi hərbi-xalq idarəçiliyi dövründə özünün ən pis və ağır formasında, rus polis-bürokratik dövlətinin qüdrəti ilə gücləndirilmiş və müstəmləkə əsarəti üsullarına əlavələr olunmuş şəkildə mövcud idi. Komendant-üsul idarəsinin müvəqqəti, işğalçı xarakteri və Qafqazın baş rəisləri dövründə müxtəlif tərəddüdlərə və dəyişikliklərə məruz qalan daxili siyasətdə vahid hərəkət xəttinin olmaması bu bölgədə çarizm üçün hansısa möhkəm və sabit sosial baza yaratmağa imkan yarada bilməzdi. Halbuki müstəmləkə istismarının dərinləşdirilməsi, işğal olunmuş ölkənin iqtisadi cəhətdən mənimsənilməsi üçün çar Rusiyasının belə sosial bazaya güclü ehtiyacı duyulurdu. Əlbəttə ki, çarizm yerli xiristian əhalisi və bəzi çox cüzi feodal qurupları (Qarabağın xiristian məlikləri , bəzi kəngərli bəyləri, Bakı xan sülaləsinin Maştağa qolu və s.) içərisində çox zəif və sürüşkən sosial dəstəyə malik idi. Lakin XIX yüziiliyin 20-30-cu illərində rus hakimiyyət orqanları Şimali Azərbaycanda nə öz sosial bazalarını genişləndirə, nə də bu bazadan özünün müstəmləkəçilik siyasətinin məqsədcləri üçün tam şəkildə istifadə edə bilirdi. Rusiya hökuməti yerli ali müsəlman silkinin hüquqlarını, onların torpaq sahibliyini təsdiq etmədi. Çar hökumət idarələri belə bir tezis irəli sürmüşdülər ki, guya Azərbaycanda yerli feodallar malikanələrin xüsusi sahibkarları yox, sadəcə olaraq xəzinə torpaqlarının yalnız idarə ediciləri, müdürləridilər. Bu iddia çar hökumətinin əli ilə yerli feodallara təzyiq gösərmək vastəsinə çevrilmişdi. Bu vasitədən istifadə edən hökumət istənilən feodal mülkünü, malikanəsini müsadirə edə bilərdi. Xəyanətdə ancaq şübhəli bilinən bəylərin belə xeyli torpagını müsadirə edən çar hökuməti komendantlara bu torpaqlardan özlərinin istədikləri kimi istifadə etmək hüququ vermişdi. Komendantlar isə belə torpaqları əsasən səbatlı, etibarlı, xüsusən də rus ordusunda xidmət etmiş bəylərə paylayırdılar.

XIX əsrin ilk onilliklərində Şimali Azərbaycanda müstəmləkə siyasəti çar Rusiyası tərəfindən yerli torpaq sahiblərinin kobudcasına qarət olunması, Rusiya mütləqiyyətinin soykənə biləcəyi yeni feodal, torpaq sahibləri zümrəsinin yaradılmasına cəhd göstərilməsi prosesi gedirdi, lakin 30-cu illərin sonunadək bu proses özbaşına, mərkəzi hakimiyyətdən daha çox onun yerli Cənubi Qafqazdakı idarələrinin iştirakı ilə gedirdi. Bu dövrdə rus hakimiyyəti orqanlarının yeni müsəlman zadəganları təbəqəsini yaratmaq barəsində az-çox düşünülmüş sistemi hələ ki, yox idi.

XIX əsrin 30-cu illərinin əvvələrində Rusiya Şimali Azərbaycanda yeritdiyi müstəmləkə siyasəti yeni mərhələyə daxil olmuşdu. Bu ilk növbədə XIX əsrin ilk onilliklərində bir-birini əvəz etmiş Rus-İran və Rus-Türk müharibələrinin başa çatması ilə əlaqədar idi. Cənubi Qafqazdakı Rus siyasətində hərbi strateji məqamlar müəyyən müddət üçün arxa plana keçmişdi. Digər tərəfdən də artıq bu dövrdə Rusiya iqtisadiyyatında xüsusən toxuculuq sənayesində yüksəliş prosesi müşahidə olunurdu ki, bu da Cənubi Qafqaz və İranın ilk növbədə rus mallarının satış bazar-

larına çevrilməsini şərtləndirirdi: Belə ki, məhdud daxili bazara malik olan təhkimçi Rusiya belə bazarlara möhtac idi. Eyni zamanda, müstəmləkə orqanları Rusiya sənayesini ucuz xammalla təhciz etmək xatirinə Cənubi Qafqazda bəzi sahələrin inkişafına yardım etməyə cəhdlər göstərirdilər. İpəkçilik, pambıqçılıq və b. texniki bitkilər becərilməsinin genişləndirilməsi üçün bəzi tədbirlər görülməyə başlanmışdı. Rusiya və yerli tacirlərin nümayəndələrindən ibarət qarışıq ticarət kompaniyalarının yaradılması üçün bəzi tədbirlər görmüşdü. Bütün bu dəyişikliklər, xüsusən də XIX əsrin 30-cu illərində xalqın güclü anti-müstəmləkə çıxışları rus hökumətini komendant idarə üsulunu yenidən nəzərdən keçirməyə vadar edirdi. Qafqazdakı rus qoşunları komandanı, general Paskeviç buradakı idarəçilik sisteminin dəyişdirilməsi barəsində mərkəzi hökumət idarələri qarşısında hələ 1829-cu ildə məsələ qaldırmışdı. Qraf Paskeviç hərbi idarəçilik sisteminin dəyişdirilməsi ilə yanaşı hüquq, məhkəmə və idarəçilik sahələrində yerli xüsusiyyətləri tamamilə ləğv etməyi və burada Rusiyanın mərkəzi quberniyalarındakına bənzər mərkəzləşdirilmiş idarəçilik sistemi yaratmağı təklif edirdi. Bu dövrdə mürtəce rus generalı yerli xalqların adət və ənənələrini, etnoqrafiq, dini və mədəniyyətini qətiyyən nəzərə almırdı. XIX yüzilliyin 30-40-cı illərinin əvvələrində həyata keçirilmiş bir sıra tədbirlər – sahibkar torpaqların kütləvi surətdə müsadirəsi, ağaların hüquqlarının ləğvi, bəylərin hüquqlarının ləğvinə cəhdlər və s. məhz çar hökumətinin Şimali Azərbaycanda rus zadəganlarını yerləşdirmək niyyətlərindən irəli gəlmişdi. 1840-1841-ci illərdə çar Rusiyası Şimali Azərbaycan torpaq sahiblərini torpaqlardan və onlardan götürülən gəlilərdən məhrum etməyə cəhd göstərirdi.

Lakin çarizmin bu layihələri elə kağız üzərindəcə qaldı. Ilk növbədə, elə ona görə ki, bu ucqar Asiya ölkəsində məskunlaşmağa razı olan kifayət qədər rus zadəganı tapılmadı. Cənubi Qafqaz diyarını rus kəndliləri və sənətkarları ilə məskunlaşdırmaq planları da elə bu səbəb üzündən, hələlik həyata keçirilmədi. Belə mürəkkəb şəraitdə Rusiya imperiyası Dövlət şurası Cənubi Qafqaz idarəçiliyi sahəsində islahat işini senator Qanın başçılığı ilə bu diyara göndərilmiş xüsusi komisiyanın ixtiyarına verdi. Senator Qann yadellilərin xüsusiyyətləri, adət və ənənələlərini öyrənməyə artıq iş sayıb Paskeviç, Meçnikov və Kutaysovun layihələri əsasında Cəniubi Qafqaz diyarının inzibati idarəçiliyinin islahatı layihəsini işləyib hazırlamağa başladı. 1838-ci ilin fevralında o, öz layihəsini senata təqdim etdi. Hökumətin ümumi mövqeyi Qanın layihəsinin əsaslarına o qədər yaxın idi ki, həm Dövlət Şurası, həm də Qafqaz Komitəsi belə bir faktı nəzərə almadılar ki, bu layihənin müəllifi Qafqazı ötəri görmüşdür və Qafqaz barəsində kifayət qədər təsəvvürə malik deyildi. Qan çətinlik çəkmədən layihəsini qəbul elətdirə bildi. Layihə cənubi Qafqazı inzibati cəhətdən 2 yerə Gürcüstan-İmeretiya quberniyasına və Xəzər vilayətinə bölürdü. Diyarda baş idarəçilik Qafqazın baş rəisinin öhdəsinə verilirdi. O, öz vəziyyətinə, hüquq və səlahiyyətlərinə görə, daxili Rusiya quberniyalarının general-qubernatorları ilə eyniləşdirilirdi. Baş rəisin yanında Baş İdarə Şurası yaradılırdı. Quberniya, vilayət və qəza idarələri ciddi surətdə daxili Rusiya quberniyalarındakı idarəçiliyə müvafiq olaraq qurulurdu. Layihə heç bir yerli mü-

səlman qanunu tanımırdı. Şəriət məhkəmələrinin ixtiyarında ancaq kəbin-talaq məsələləri saxlanılırdı. Yerli bəylərdən olan divanbəyiləri, mahal naibləri və b. işdən uzaqlaşdırılır, rus və digər xristian məmurları ilə əvəz olunurdular. Mahal naiblərinin yerinə sahə iclasçıları vəzifələri təsis olunurdu. Komendant idarəçilik üsulu ləğv edilirdi. Layihəyə görə yerlərdə ruslaşdırma siyasətinin realaşdırılması bu işin başlıca icraçıları sayılan sahə iclasçılarına həvalə olunurdu. Sonunculara müəyyən torpaq sahələri ayrılır, bu torpaqlarda yaşayan rəiyyətlər üzərinə iclasçının xeyrinə vergilər ödəyib mükəlləfiyətlər yerinə yetirmək öhdəlikləri qoyulurdu.

Qanun layihəsinin başlıca məğzi ondan ibarət idi ki, hökumət yerli bəylərə və digər imtiyazlı zümrə nümayəndələrinə arxalanmaq xəttindən büsbütün imtina etsin.

Şimali Azərbaycanda öz hakimiyətinin ilk onilliklərində çar hökumətinin bu diyarı idarə etmək üçün dəqiq idarəçilik sistemi yox idi. Burada hər baş komandan, hər bir komendant, hər bir məmur öz düşüncələrinə, öz insani keyfiyyətlərinə, öz təhsilinə müvafiq şəkildə hərəkət edirdi. Buradakı rus rəisləri tez-tez dəyişdirildiklərindən qaydalar da eyni tezliklə yeniləşdirilirdi. Yerli əhalinin nə mülkiyyət hüququ, nə də şəxsi təhlükəsizliyi heç bir qanunla mühafizə və təmin olunmurdu.

Qanunsuzluqlar və bununla əlaqədar olan sui-istifadələr xalqı əzir, normal həyata gedən hər cür yolu bağlayırdı. İdarəçiliyin Rusiya metodları bu torpağın əsl sahibi olan yerli xalq üçün yad və başa düşülməyən idi.

XIX əsrin 40-cı illərinədək Şimali Azərbaycanda əvvəlki dövrlərdə mövcud olmuş xüsusi torpaq mülkiyyəti formaları – mülk və tiyul qalmaqda idi.

Mülk qeyri-şərti, nəslən keçən torpaq mülkiyyəti forması idi. Tiyul isə şərti torpaq mülkiyyəti forması olub, tiyuldarlara hərbi və ya başqa xidmət müqabilində verilirdi.

Şimali Azərbaycanda Rusiya işğallarının gedişində və rus əsarətinin ilk mərhələsində çar hökuməti öz sosial siyasətini yürüdərkən, təbii ki, bir hissəsi əldə silah Rusiya ağalığına qarşı vuruşan yerli feodallar içərisində özünə dayaq tapa bilməmişdi. Bu dövrdə Azərbaycanın ali müsəlman silkinin əksər hissəsi Rusiya üçün səbatsız, etibarsız kütlə kimi hökumətin rəsmi siyasətinə dayaq ola bilməzdi.

Lakin eyni zamanda yerli feodal dairələrinin yardımı olmadan çarizm özü üçün ənənəsi, dili və dini yad olan bu diyarı idarə edə bilməzdi. Buna görə də, hökumət yerli ali müsəlman silkinə siyasi və iqtisadi cəhətdən təzyiq göstərmək metodları axtarmaq məcburiyyətində qalmışdı.

XIX yüzilliyin ilk onilliklərində Şimali Azərbyacanda əvvəlki torpaq sahiblərinin soyulması və rus hakimiyyətinə arxalanan yeni feodal kadrlarının formalaşdırılması prosesi gedirdi. Lakin 30-cu illərin sonlarınadək bu proses mərkəzi hökumətin deyil, ən çox yerli hakimiyyət orqanlarının iştirakı ilə həyata keçirilirdi. Rus mutləqiyyətinin feodal təbiəti onu Azərbaycan feodallırının müəyyən qruplarına arxalanmağa sövq etsə də, XIX əsrin 40-cı illərinədək çar hökumətinin bu sahədə az-çox düşünülmüş siyasəti hələ ki, yox idi.

XIX əsrin ilk 30 illiyində çar hökuməti tərəfindən xanlıqlar dövründəki vergi və mükələfiyyətlər sisteminin əsasən qorunub saxlanılmasına baxmayaraq, Şimali Azərbaycan kəndlilərinin vəziyyəti xeyli pisləşmişdi. Bu, onunla izah olunur ki, xan tərəfindən ciddi və yaxın nəzarət şəraitində bu sistem xanın yaxıq adamlarının zənginləşməsi vasitəsi ola bilməzdi. Çar idarəçiliyi dövründə tam qeydiyyatsızlıq, nəzarətsizlik, cəzasızdıq şəraitində isə Şimali Azərbaycan kəndlilərindən təkcə dövlət xəzinəsinə gedən vergilər deyil, həm də rus məmurlarının şəxsi cibinə axan var-dövlət də qoparılıb alınırdı. Qayda-qanunsuzluğun son həddə çatdığı bir şəraitdə sui-istifadələrdə günahkar olanları aşkara çıxarmaq çox çətin idi. Kəndlilər çox vaxt xəzinəyə nə qədər vergi ödəməli olduqlarını belə bilmirdilər. Vergilər müəyyən qaydalar əsasında deyil, məmurların kefləri istədiyi şəkildə yığılırdı.

Cənubi Qafqazda öz hökmranlıgını təsbit etməyə başladığı ilk günlərdən çar hökuməti bölgəyə həm də ilk növbədə iqtisadi mənimsəmə obyekti kimi baxırdı. Özü də bu zəngin diyar rəsmi çar dairələrinin diqqətini təkcə satış bazarı kimi deyil həmçinin böyük imkanlara malik rəngarəng xammal mənbəyi kimi çəkirdi.

Hələ işğalların gedişində çar hökuməti diyarın iqtisadi vəziyyətini öyrənməyə, iqtisadi və maliyyə imkanlarını aşkara çıxarmağa sistemli cəhdlər göstərirdi. Bir çox şəhər və bölgələr ələ keçiriləndən dərhal sonra onların əhalisi siyahıya alınmış, bir sıra xanlıqlar (Şəki, Şirvan, Qarabağ) ləğv edilən kimi onların geniş və müntəzəm iqtisadi təsvirləri (əhali sayımı, torpaq, vergilər və s. göstəricilər verilməklə) tərtib olunmuşdur. Artıq XIX əsrin əvvələrində müstəmləkəçi rus idarələri Şimali Azərbaycanda texniki bitkilərin becərilməsi işinin yaxşılaşdırılması, yeni texniki bitkilərin becərilməsini təşkil etmək üçün bir sıra tədbirlər görməyə cəhdlər göstərirdi. 1837-ci ildə hökumət idarələri şəkər qamışı becərib ondan qənd istehsal etmək şərti ilə şəkər zavodu üçün Lənkəran əyalətində 500 desyatin torpaq ayırmışdı.

Hələ bundan 20 il əvvəl, 1816-cı ildə Qafqazdakı rus qoşunlarının baş komandanı və həm də buradakı rus idarəçilik sisteminin başçısı A.P.Yermolov Cənubi Qafqazda xəzinə və ya heç olmasa xüsusi şüşə zavodunun açılmasını, habelə mahud fabrikinin tikilməsini təklif edirdi.

Çar hökuməti idərələrinin başlıca qayğısı Cənubi Qafqaz diyarında Rusiyanın aparıcı sənaye müəssisələrini xammalla təchiz etmək üzrə tədbirlərin həyata keçirilməsi idi. Nəzərdən keçirilən dövrdə Rusiya toxuculuq sənayesi rəngləyici material kimi marenaya güclü ehtiyac hiss edirdi. Cənubi Qafqazın, ilk növbədə isə Şimali Azərbaycanın işğalınadək rus toxuculuq sənayesinə lazım olan marena xaricdən, əsasən Hollandiyadan gətirilirdi. Cənubi Qafqaz çarizm tərəfindən işğalınadək Rusiyanın ipəkçilik sənayesi çox ləng inkişaf edirdi. Bu sənaye üçün xammal (əsasən iplik xam sap) Rusiyaya Italiya, Fransa, Iran və Osmanlı imperiyasından gətirilirdi.

Rusiyada ipəkəyirmə sənayesinin yaradılması və inkişafı ölkəyə keyfiyyətli və ucuz ipək xammalının gətirilməsi məsələsini kəskin şəkildə qabardırdı. Bunun

nəticəsi olaraq XIX əsrin 20-ci illərindən etibarən Rusiya müstəmləkəçilik orqanları Cənubi Qafqazda ipəkçiliyə xüsusi diqqət yetirməyə başlamışdılar.

Şimali Azərbaycanda başlıca ipəkçilik rayonları Car-Balakən, Şəki, Şirvan, Qarabağ, Ordubad qismən də Quba və Lənkəran bölgələri idi. İpəkçiliyin inkişafı və Şimali Azərbaycan ipəyinin digər yerlərə aparılmasının artması artıq XIX əsrin II rübündə müəyyən sosial-iqtisadi nəticələrə gətirib çıxardı. Ticarət-sələmçi kapital özünün bütün fəsadları ilə birlikdə kənd təssərrüfatının bu sahəsinə soxulurdu. İpəkçiliklə məşğul olan kəndlilər, sənətkarlar, tacirlər və möhtəkirlərin güclü asılılğına düşmüşdülər.

1829-cu ildə Nuxada ipəksarıma müəssisəsi təşkil olunmuş, oraya ipəksarıyan maşınlar və xəzinə rəncbərlərinə mükəmməl ipəksarıma üsularını öyrətmək üçün ustalar göndərilmişdilər. İpəksarımanın yeni mükəmməl üsulu təkcə Şəki əyalətində yayılmırdı. İpəksarimanın yeni mükəmməl maşın üsulunu tətbiq etmək üçün Şirvan və Qarabağ əyalətlərində də bir neçə yeni ipəksarıma maşını göndərilmişdir. 1836-cı ildə Cənubi Qafqazda ipəkçiliyi və ticərəti yayan cəmiyyət yaradıldı. Bu, mülkədar kapitalına əsaslanan özəl səhmdar cəmiyyət idi. Onun başında fransız taciri Tribodino dururdu. XIX əsrin I yarısında çar hökumətinin Şimali Azərbaycandan müstəmləkə kimi istifadə etməyə yönəlmiş iqtisadi siyasəti çarizmin ümumi müstəmləkəçilik siyasətinin mühüm tərkib hissəsini təşkil edirdi.

XIX əsrin əvvələrində Şimali Azərbaycan ticarətinin inkişafına feodalizmə xas olan bir sıra institutlar mane olurdu. Bunların içərsində daxili feodal rüsumları institutu daha aydın şəkildə nəzərə çarpırdı. XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvələrində Şimali Azərbaycanda hələ də 17 cür rahdar maddəsi və müxtəlif peşə və sənət sahələri üzərinə qoyulan 120 rüsum saxlanılmaqda idi. Eyni zamanda yeni gömrük xətti yaradılır, özü də müxtəlif gömrükxanalarda rüsumlar müxtəlif tariflər üzrə alınırdı. Bütün bunlar çarizmin bu şərq ölkəsində yürütdüyü iqtisadi siyasətin yararsızlığı və çaşqınlığıqa dələlət edirdi.

1821-ci il oktyabrın 8-də Cənubi Qafqazda yeni güzəştli gömrük tarifi tətbiq edildi. Bu tarifə görə itxal edilən xarici mallardan cəmisi 5 faizlik rüsum alınırdı. Təxminən 10 il fəaliyyət göstərmiş 1821-ci il güzəştli gömrük tarifi diyarda ticarətin inkişafına, iriməbləğli sərmayələrin meydana çıxmasına təkan verdi, yerli daxili rüsumların qalmasına baxmayaraq, yerli bazarın qapalılığını xeyli sındırdı, xarici ticarətə müəyyən sərbəstlik verdi. Bu tarifin tətbiqi həm də göstərir ki, bu dövrdə çarizmin ticarət siyasətinin əsas vəzifəsi diyari Avropa və Asiya arasındakı ümumdünya mübadiləsinə cəlb etmək, onu bu ticarətin vasitəsinə çevirmək idi. Əsas məqsəd isə bu yolla da bu yeni müstəmləkədən mümkün olan gəlirləri daha da artırmaq idi.

Lakin XIX əsrin 20-ci illərin sonunda Rusiya toxuculuq sənayesinin istehsalatın mexanikləşdirilməsi sahəsində ilk addımlarlı müşaiyət olunan yüksəlişi şəraitində Rusiyanın çox gənc sənaye burjuaziyası dairələri içərisində Cənubi Qafqazdan buraya Qərbi Avropanın sənaye məhsullarının gətirilməsinə imkan verən

1821-ci il güzəştli tarifindən narazılıq yetişirdi. Çünki bu burjuaziya hələ xarici tərəfi – müqabilələrlə rəqabətə qadir deyildi.

Əgər XIX əsrin ilk rübündə çar hökumətinin Şimali Azərbaycanda yürütdüyü ticarət siyasətinin başlıca məqsədi Rusiyanın Avropa və Asiya arasında ümumdünya ticərət mübadiləsinə cəlb etməkdən ibarət idisə, həmin əsrin 20-ci illərin sonlarından etibarən Rusiyanın Asiya ticarətinin mənafeləri barəsindəki təsəvvürlərdə dəyişikliklər baş verir. Avropa və Asiya arasındakı dünya ticarətində vasitəçilik, Hindistan ticarətinə maraq diqqət tədricən uzaqlaşır, Asiya bazarının Rusiya sənaye məhsulları üçün satış bazarına çevrilməsi vəzifəsi isə əksinə ön plana keçir.

1831-ci il 3 iyun əsasnaməsi Cənubi Qafqaz bazarlarına təkbaşına yiyələnmək uğrunda Rusiya burjuaziyası ilə uzunmüddətli mübarizəsinin qanunauyğun nəticəsi oldu. Bu əsasnaməyə görə:

-Cənubi Qafqaz tranzit ticarət yolu Avropa malları üçün əslində bağlanılmış oldu:

-Əsasən Qərbi Avropa ölkələrinin toxuculuq sənayesi məhsulları üzərinə faktiki olaraq qadağanedici tariflər qoyuldu.

Sənətkarlıq, o cümlədən ev sənətkarlığı məhsulları üzərinə qoyulmuş daxili rüsumlar barəsində isə bu Əsasnamədə deyilirdi: daxili sənaye məhsullarına aid rahdar maddələri də tədricən dəyişdirilməli və ya ləğv olunmalıdır.

1831-ci il əsasnaməsi üzrə Cənubi Qafqaz, o cümlədən də Şimali Azərbaycan I Nikolay hökumətinin mühafizəedici gömrük siyasəti çevrəsinə daxil olur və Rusiya sənaye məhsulları üçün daxili satış bazarına çevrilirdi. Yuxarıda haqqında danışılan rahdar rüsumları daxili ticarətin inkişafına fövqəladə dərəcədə maneçilik törədirdi. Lakin onların ləğvi işi xeyli ləngidi. Iki dəfə 1832-ci il martın 15-də və 1836-cı il iyunun 6-da rahdarın ləğvi haqqında məsələ qaldırılmış, lakin Qafqazın baş rəisi baron Rozen xəzinənin maliyyə mənafelərini müdafiə edərək hər dəfə bu işin həyata keçirilməsini hər vasitə ilə ləngidirdi. Rəngarəng rahdar rüsumları tədricən aradan qaldırılmış və ancaq 1846-cı ildə onlar tamamilə ləğv olunmuşdur.

Qadağanedici gömrük tarifləri sistemi də 1846-cı ildə ləğv olundu. 1846-cı il 14 dekabr tarixi əsasnaməyə görə 1831-ci il əsasnaməsinin qadağanedici şərtləri aradan qaldırılmış, Qərbi Avropadan gətirilən mallar üzərinə qoyulan gömrük rüsumları xeyli azaldılmışdır.

## *§ 2. Çar Rusiyasının köçürmə siyasəti və onun nəticələri*

Çar müstəmləkəçiləri ilk illərdən etibarən Qafqazda rusların köçürülüb yerləşdirilməsinə ciddi fikir verirdilər. Bu yolla Qafqazda, o cümlədən Azərbaycanda məskunlaşan ruslar çarizmin dayağına çevrilməli, bu yerlərin itaətdə saxlanılmasında əsas dayaq rolunu oynamalı idilər. Zaqafqazifada rusların yerləşdirilməsi əsasən üç istiqamədə aparılmışdır. Hərbi hissələrdə inşa edilmiş kilsələrdə xidmən edən din xadimlərinin gətirilməsi, hərbi xidmətdən sonra burada daimi yaşamaq

üçün qalanlara imtiyazların verilməsi, dini əqidələrinə görə sektantların Rusiyanın müxtəlif quberniyalarından Azərbaycana göçürülüb məskunlaşdırılması.

Kilsələr Rusiyanın müstəmləkə siyasətini Azərbaycanda həyata keçirən ilk carçılar idilər. Lakin Rusiyanın müstəmləkə dairələrinin ciddi cəhdlərinə baxmayaraq xristianlığın bu yolla yayılması geniş vüsət almışdı. Rus kilsələri ermənilərin çarizmin dayağına çevrilməsi prosesini sürətləndirdi və bu işə məqsədyönlü bir istiqamət verdi. Zaqafqaziyanın ruslaşdırılmasında kilsə fəaliyyətinin kifayət etmədiyini duyan çarizmin müstəmləkəçiliyin başqa üsullarına əl atdılar. 1821-ci il yanvarın 3-də venrilmiş çarın fərmanında əsgəri xidməti qurtarandan sonra Qafqazda qalmaq istəyənlər üçün imtiyazlar nəzərdə tutulmuşdu. Qafqaz arzusunda olanlara pul, hərbi ləvazimat verilir, əkinçiliklə məşğul olmaq üçün münbit torpaq sahələri ayrılırdı. Hərbi məskənlər kimi salınan bu yaşayış məntəqələrindən birincisi Şuşa şəhəri yaxınlığında, sonralar isə Qubada salındı.

Çar hökuməti Azərbaycanı əbədi olaraq əldə saxlamaq üçün köçürməyə və xüsusilə də rusların bu diyarda məskunlaşdırılmasına əsas vasitə kimi baxırdı. 1837-ci ildə çar I Nikolayın fərmanı ilə Yelizavetpolda hərbi kaloniyalar yaratmaq haqqında göstəriş verildi. Azərbaycanda rusların məskunlaşdırılmasını geniş miqyasda həyata keçirmək üçün daha təsirli işlərdən biri də rus sektantlarının buraya köçürülməsi idi. 1802-ci ildə imzalanmış çar fərmanı ilə təriqətçilərin Zaqafqaziyaya sürgününün əsası qoyuldu. Rusiyadan təriqətçilərin Zaqafqaziyaya axınının təşkil etmək üçün xüsusi Komitə yaradıldı. Azərbaycanda yerləşdirilən hər köçkün ailəsinə 5 desyatin miqdarında torpaq verilməsi nəzərdə tutulurdu.

Rusların köçürülməsi ilə bağlı olaraq 1830-cu ilin oktyabrın 20-də Dövlət Şurası daha bir qərar qəbul etdi. Bu qərarda rus Pravoslav kilsəsinə qarşı çıxan hər hansı təriqətçi kafir kimi qiymətləndirilirdi. Bu qərar staroobryadçılar, molokanlar, duxoborlar, skoplar və subbotniklərə şamil edilirdi. Qərarda qeyd edilirdi, təriqətçiləri cəza kimi ya Qafqaz hərbi korpusuna əsgəri xidməti keçirmək üçün Zaqafqaziyaya göndərməli, ya da oraya sürgün olunmalıdırlar.

Dövlət Şurasının 31 yanvar 1831-ci il tarixli qərarında rus köçgün təriqətçilərinin Azərbaycanda yerləşdirilməsi qaydaları şərh edilmişdi. Bu qərara görə: 1) rus köçgünləri üçün ayrılmış torpaq sahəsi 5 desyatindən az olmamalı idi. 2) məhkəmənin hökmü ilə köçürülən təriqətçilər, meşə yaxınlığında olan torpaq sahəsində yerləşdirildiyi təqdirdə 50 manat, meşələrdən uzaq məskunlaşmaq üçün torpaq sahəsi alanda isə 100 manat pul müavinəti almalı idi. 3) raskolniklər başqalarına təsir göstərməsinlər deyə təzə məskən saldıqları yerlərdə kompakt halda yerləşdirilmələri qadağan edilirdi, onlar pərakəndə halda yaşamalı idilər. 4) raskolniklərin şəhər əhalisinə zərərli təsirini heçə endirmək üçün onlar kənd təsərrüfatı rayonlarında məskunlaşdırılmalı idilər.

Azərbaycanda rus təriqətçilərinin köçürülüb məskunlaşdırılmasında ilk illərdə dini motivlər üstünlük təşkil etmişdir. Azərbaycanda rus köçkünlərinin yerləşdirilməsi Qafqaz canişininin nəzarəti altında həyata keçirilirdi.

Başqa yerlərdə olduğu kimi azərbaycanda da ilk vaxtlarda rus sektantlarının bir yerdən başqa yerə köçmələri qadağan edilmişdi. Bundan da əsas məqsəd onları məhdud çərçivədə saxlamaqla, təriqətçiliyin qarşısını almaq idi. Bu proses XIX əsrin 30-cu illərin ikinci yarısına kimi davam etdi. Bu vaxtdan sonra rus köckünlərindən Azərbaycanı idarə etmək məqsədiylə daha geniş planda istifadə etmək qərara alındı.1837-ci ildə qəbul edilmiş hökumət qərarında sektantlarla bağlı pasport rejimi ləğv edildi, sürgün olduqları ərazilərdə onların sərbəst hərəkət etmələri üçün icazə verildi. Bu yeni siyasət Azərbaycana yeni rus axınına səbəb olmalı idi ki, bu da öz növəsində çar müstəmləkə dairələrinin Qafqazın ruslaşdırma siyasətini sürətləndirməli idi. Ciddi pasport rejimi çərçivəsində yaşayan sektantlar yeni qərar qəbul ediləndən sonra Rusiyaya qayıtmaq meylindən əl çəkir, Azərbaycanın daha münasib yerlərini daimi yaşayış məntəqəsi kimi seçirdilçr. XIX əsrin 40-cı illərin ikinci yarsında rəsmi hökumət dairələrində rus sektantlarına artıq dini təfriqə salanlar kimi deyil, Azərbaycanda çar siyasətinin daşıyıcısı və həyata keçirilməsində istifadə olunan bir mühüm amil kimi baxmaq üstünlük təşkil etməyə başladı. 1848-ci ildə verilən qərara əsasən rus sektantlarına Azərbaycanın şəhərlərində də yaşamaq hüququ verilirdi. Bu yeni qərar Azərbaycana yeni rus axını üçün hüquqi zəmin yaratmalı və burada ruslaşdırmanı sürətləndirməli idi.

40-cı illərin ikiknci yarsından etibarən rusların Azərbaycanda yerləşdirilməsində mühüm dəyişikliklər edildi. Belə ki, o vaxtacan Azərbaycan rus köçkünləri üçün sürgün məkanı rolunu oynasa da bu vaxtdan sonra hökumət dairələri rus ailələrinin könüllü gəlməsi haqqında da tədbirlər proqramı hazırlandı.

1849-cu ilin dekabrın 9-da qəbul olunmuş Zaqafqaziyaya köçən raskolniklərin imtiyazları haqqında qərarda könüllü olaraq Zaqafqaziyaya köçmək və burada məskunlaşmaq istəyən ruslar üçün əsaslı imtiyazlar nəzərdə tutulurdu. Rus köçkünlərinin münbit və məhsuldar torpaq sahələrində yerləşdirilməsinə dair sərəncam verməklə yanaşı onların 8 il müddətində vergilərdən azad olmaları nəzərdə tutulmuşdu.

Zaqafqaziya regionuna rus axınını genişləndirmək məqsədilə 1849-cu ilin dekabrın 21-də çarın yeni fərmanı çıxdı. Orada könüllü olaraq Azərbaycana köçən hər rus ailəsinə 30-dan 60 desyatinə qədər torpaq sahəsi verilirdi. Bundan başqa könüllü gələnlər kreditlə təmin olunmalı, ev tikmək üçün onlara pulsuz olaraq tikinti materialları da verilməli idi. Fərmanda köçkünlərin həm də torpağın becərilməsi üçün lazım olan kənd təsərrüfatı alətləri ilə təmin olunması nəzərdə tutulmuşdu.

Bu fərmandan sonra Azərbaycana rus ailələrinin gəlişində yeni bir mərhələ başlandı. Bu dövrdən etibarən rus köçkünlərinin nəinki əvvəllər nəzərdə tutulmuş Qarabağ, Şəki Şirvan və Lənkəran mahallarında, həmçinin onların Mil və Muğan zonalarında yerləşdirilməsinə başlandı. Rus köçkünləri Muğanda pambıqçılığın inkişafına kömək etməli idilər. Azərbaycanda ilk rus yaşayış məntəqəsi 1830-cu ildə Vərəndin adlı sahədə (Qarabağ mahalında) salınmışdı.

Ümumiyyətlə, XIX əsrin 30-cu illərindən 90-cı ilərinədək rus köçkünləri vasitəsilə Bakı quberniyasında 22 kənd salındı. Rus kəndlərinin 8-i Şamaxı, 7-si

Lənkəran, 3-ü Göyçay, 3-ü Cavad və 1-i Quba qəzalarında salınmışdı. XX əsrin əvvəllərində 1905-ci ilə kimi rusların Azərbaycana güclü axını nəticəsində Bakı quberniyasında 18, Yelizavetpol quberniyasında isə 10 yeni rus kəndi salındı. 1873-cü il məlumatına görə Azərbaycanın 1203396 nəfərdən ibarət əhalisinin 27120 nəfərini, yəni 2,3 faizin köçürülmüş rus kəndliləri təşkil edirdi.

Azərbaycanı itaətdə saxlamaq üçün tətbiq olunan köçürmə siyasətində ermənilər xüsusi rol oynayırdılar. Erməni-rus əməkdaşlığı ikinci Rusiya-Iran müharibəsi zamanı daha qabarıq bir formada təzahür etdi. Müharibə dövründə erməni könüllüləri rus ordusunun tərkibində İrana qarşı vuruşmalarda fəal iştirak edirdilər. Erməni-rus anti islam ittifaqının yaranmasına Eçmiədzin kilsəsi və onun başçısı rəhbərlik edirdi. Xidmətlərinə görə erməni keşişi Nerses Aleksandır Nevski ordeni ilə təltif edildi. Iranla müharibənin ən qızğın nöqtəsində vuruşan erməni könüllü batalyonlarının müharibənin rusların xeyrinə qurtarmasında müəyyən xidmətləri oldu. Çar hökumətinin hərbi-strateji və müstəmləkəçilik planlarında etibarlı dayaq və müttəfiq kimi dəyərləndirilən ermənilər İkinci Rus-İran müharibəsindən öz xeyirlərinə çox şey gözləyirdilər. Bu hər şeydən əvvəl Azərbaycanın Cənub və Şimal torpaqları hesabına erməni dövləti yaratmaqdan ibarət idi. Ermənilərin bu planlarının reallaşması yolunda əsas maniə demoqrafiq problemlərlə bağlı məsələlər idi. Azərbaycan ərazisində toplu halda yaşayan əhalinin sayı nisbətini ermənilərin xeyrinə həll etmək lazım idi. Bu yolun optimal variantı Türkmənçay müqaviləsinin mətnində öz əksini tapdı. Bu sənədin XV maddəsində İranda yaşayan ermənilərin Şimali Azərbaycana köçürülməsi nəzərdə tutulurdu. Belə bir maddənin müqavilənin mətninə daxil edilməsində rus diplomatiyasının əsas məqsədi Şimali Azərbaycanda ermənilərin sayını süni çoxaltmaqla yanaşı İrana xəyanət edən erməniləri layiqli cəzadan qorumaq idi. Ermənilərə hamiliyi öhdəsinə götürmüş çar hökuməti İranla müharibə qurtaran kimi erməni milli ərazisi düzəltmək sahəsində ilk əməli addımı atdı. Bu özünün ifadəsini İrəvan və Naxçıvan xanlığının ləğvi və onların əvəzində İrəvanda erməni vilayətinin yaradılması haqqında imzalanmış fərmanda tapdı. Bu məsələ ilə əlaqədar olaraq 1828-ci il martın 20-də çarın senata göndərdiyi fərmanda deyilirdi. İranla imzalanmış müqavilə əsasında Rusiyaya ilhaq olunun İrəvan və Naxçıvan xanlıqları bundan sonra erməni vilayəti adlandırılsın.

1828-ci ildə İranın müxtəlif şəhərlərindən Şimali Azərbaycana orta hesabla 40 min nəfər erməni köçürülmüşdü. Ermənilərin köçürülməsində əsas məqsəd Şimali Azərbaycan xanlıqlarında əhalinin milli tərkibində xiristianların xeyrinə ciddi dəyişiklik etmək idi. 1828-ci ildə yenicə yaradılmış erməni vilayətində əhalinin dördə üç hisəsini müsəlmanlar təşkil edirdi. İrəvan mahalında isə əhalinin üçdə iki hissəsi azərbaycanlı idi. Şimali Azərbaycan torpağına erməni axını təkcə İrandan deyil həmdə qonşu Türkiyədən başlandı. 1828-1829-cu illərdə rus-türk müharibəsində Rusiyanın qələbəsi ermənilərin Türkiyədən Azərbaycana köçürülməsinə şərait yaratdı. Türkiyədən köçürülən hər bir erməni ailəsinə ailə üzvlərinin sayına görə torpaq sahəsi verilməli idi. Ermənilər dövlət, kilsə və mülkədar torpaqlarında

yerləşdirilməli idilər. Erməni köçkünləri 6 il müddətinə bütün vergi və mükəlləfiyyətlərdən azad edilməli idilər. Ermənilər münbit torpağı, münasib iqlimi və içməyə yararlı suyu olan yaşayış məntəqələrində yerləşdirilməli idilər. Türkiyədən Azərbaycana təqribən 90 min erməni köçürülmüşdü. Irandan və Türkiyədən köçürülən ermənilərin əksəriyyəti İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirilirdilər. İrəvan xanlığında azərbaycanlıların xüsusi çəkisi 1828-ci ildə ümumi əhalinin 73,8 faizini təşkil edirdisə, 1834-1835-ci illərdə isə bu rəqəm 46,2 faizə enmişdi.

## *§ 3.Çarizmin müstəmləkə zülmünə qarşı üsyanlar*

Azərbaycan xalqı XIX əsrin başlanğıcında Rusiya işğallarının ilk günlərindən etibarən mümkün olan bütün vasitələrdən istifadə etməklə işğalçılara qarşı mübarizəyə qalxmışdı. Qüvvələrin son dərəcə qeyri bərabər olmasına baxmayaraq 1803-1804-cü illərdə Cavad xan başda olmaqla Gəncə xanlığı, Çar-Balakən camaatları Sisianovun rus qoşunlarına güclü müqavimət göstərmiş, ayrı-ayrı döyüşlərdə bəzi uğurlar da qazanmışdı. Rus işğalçılarına qarşı ən güclü və uzun sürən mübarizə aparmış Azərbaycan bölgələrindən biri Quba və Dərbənd olmuşdu. Şimali Azərbaycanın Şimal-Şərq bölgəsində bu mübarizəyə uzun illər boyu Quba və Dərbənd xanı məşhur Fətəli xanın oğlu Şeyxəli xan başçılıq etmişdi. Birinci Rus-Iran müharibəsindən sonra bu mübarizənin miqyası xeyli daralmış, Şeyxəlinin söykəndiyi sosial dayağın ünvanı Qubadan tədricən Dağıstana tərəf köç etmişdi. Gülüstan sülhünə qədər Şimali Azərbaycan əhalisinin işğalçılara qarşı mübarizəsi silahlı müqavimətlə yanaşı əhalinin kütləvi şəkildə doğma yerlərini tərk edib rusların əli çatmayan Cənubi Azərbaycana və başqa yerlərə köçməsində təzahür edirdi. 1803-1806-cı illərdə Carı 1000 ailə, 1804-cü ildə Gəncəni 200 ailə, Samux kəndlərini 329 adam tərk etmişdi. 1804-1813-cü illərdə Yelizavetpol dairəsindən 1500 ayrım ailəsi qaçmışdı. 1805-1812-ci illərdə Qarabağ xanlığının əhalisi buradan baş götürüb rusların əlindən qaçanların hesabına yarıbayarı azalmışdır. Eyni hal rus işğallarından sonra bütün xanlıqlarda müşahidə olunmuşdu. İrəvan xanlığının işğalından sonra buradakı 2984 azərbaycanlı ailəsindən 2137-si İran və Osmanlı dövlətlərinə köçüb getmişdi.

XIX əsrin əvvəllərində Şimali Azərbaycanın işğalının gedişində və işğaldan sonrakı ilk dövrlərdə çarizmin yerli xalqa qarşı tez-tez tətbiq etdiyi ən geniş yayılmış mübarizə üsullarından biri də əhali içərisində nüfuzu olan adamların, bir sıra yerli hakimlərin müxtəlif yollarla aradan götürülməsi idi. Özü də bu zaman çar hökumət idarələri, bir qayda olaraq, heç nə ilə hesablaşmır, o cümlədən həmin adamların elə rusların özlərinə göstərdikləri xidmətləri belə nəzərə almırdılar.

1819-cu ilin may-iyun aylarında Şəmsəddildə və qismən də Qazaxda baş vermiş iğtişaşların da başlanmasına təkan verən məhz belə hadisələr olmuşdu. Mayın lap əvvəllərində Qafqazdakı rus qoşunları baş komandanı general A.P.Yermolov general Mədətova məxvi göstərişində bildirirdi ki, Şəmsəddilli Nəsib sul-

tan və Mustafa ağa Şıxlı özlərinə tabe olan elat camaatları ilə birgə İravana qaçmaq istəyirlər. Ona görə də, Yermolov Mədətova əmr edirdi ki, həmin şəxsləri dərhal Yelizavetpola (Gəncəyə) çağırıb həbs etsin. Mədətov mayın 7-də Yermolova yazdığı raportunda əmrin yerinə yetirildiyini, həmin şəxslərin Yelizavetpola çağrılıb həbsə alındıqlarını bildirirdi. 1826-cı ildə Şirvan, Qarabağ və Şəki əyalətlərində bəylərin çoxu əldə silah ruslara qarşı vuruşmuş, bir hisəsi hələ müharibəyə qədər İranın hökumət dairələri ilə əlaqə saxlamış, bəziləri isə hələ hadisələrdən xeyli əvvəl gizli müşahidələr keçirmiş və ruslara qarşı niyyətlərini həyata keçirmək üçün məsləhətləşmələr aparmışdılar.

Gəncə ilə yanaşı, Quba və Şamaxıda da belə çıxışlar çox geinş miqyas almış və bir müddət həmin əyalətləri rus hakimiyyət orqanlarının əsarəti altından azad etmişdir. O zamankı və sonrakı rus müstəmləkəçi hakimiyyət orqanları 1826-cı ildə baş vermiş hadisələrin müqyasını və onlar haqqında məlumatları nə qədər gizlətməyə çalışsalar da, arxivlərdə və digər qaynaqlarda qorunub saxlanılmış sənədlər və materiallar 1826-cı ildə rus müstəmləkəçilərinə qarşı üsyanların təkcə Gəncədə baş vermədiyinə dəlalət edir. XIX əsrin əvvəllərindən Azərbaycanda başlayan Rusiya istilası və Rusiya müstəmləkə əsarəti dövrü ərzində müstəmləkəçilərə qarşı xalqımızın mübarizəsi bir gün belə dayanmamış, müxtəlif dövrlərdə zaman və şəraitdən asılı olaraq müxtəlif forma və üsullarla davam etdirilmişdi.

1826-1828-ci illərdə II Rus-İran müharibəsinin başlanması ilə Şimali Azərbaycanın bir çox bölgəsini rus işğalçılarına qarşı güclü xalq hərəkatı bürümüşdü.

Gəncə, Quba, Şirvan, Bakı, Lənkaran və b. yerlərdə baş vermiş çıxışların hər birinin konkret başlama səbəbləri olsa da, onları eyniləşdirən ən başlıca cəhət ondan ibarət idi ki, bunların hamısı Rusiyanın Şimali Azərbaycanda yaratdığı ağır müstəmləkə rejiminin qanunauyğun nəticəsi, rejimə qarşı ümumxalq müqavimətinin xarakterik təzahürü idi.

Qısa müddət ərzində çar Rusiyasının Şimali Azərbaycanda yaratdığı müstəmləkə rejimi yerli xalqı mütləqiyyətə qarşı qaldıra bilmişdi. Hələ əvvəlki müharibə dövründə və ondan sonrakı illərdə rusların qırğınları, qarətləri, hökumətin yerli xüsusiyyətləri nəzərə almayan qaba siyasəti xalq arasında qəzəb və hiddəti coşdururdu. İşğalın ilk günlərindən yeni hakimiyyət yerli xalqa düşmən münasibət bəslədiyini gizlədə bilmirdi və buna heç cəhd də göstərmirdi. Çarizmin Şimali Azərbaycanda yürürtdüyü müstəmləkəçilik siyasətinin üzvü tərkib hissəsi olan xristian (erməni) köçürmələri istilanın ilk günlərindən yerli əhalini sıxışdırmaq vasitəsi kimi tətbiq edilirdi. Şimali Azərbaycana ruslar tərəfindən ermənilərin köçürülməsi nə Türkmənçay, nə də Gülüstan müqavilələrindən sonra deyil, hələ Sisianov tərəfindən, Gəncənin ruslar tərəfindən işğalından dərhal sonra başlamışdı. Məhz bu, qeyri-rus, qeyri-xiristian xalqların hamısına dərindən nifrət edən şovinist, xəstə Rusiya generalı əsrin əvvələrində müxtəlif yerlərdən Tiflisə toplaşmış erməni ailələrindən 150-ni hələ 1804-cü ildə Gəncənin işğalı, burada törədilən dəhşətli qətl və qarətlərdən az sonra bu şəhərə köçürmüşdü.

Çarizmin müstəmləkə zülmü 1826-cı ildə Şimali Azərbaycan əhalisinin, demək olar ki, bütün zümrələrini əhatə etmiş üsyanların başlıca səbəbi idi.

Düşmənə qarşı çevrilmiş üsyanlardan biri də Şirvan üsyanı idi. Bu üsyana birinci rus-Iran müharibəsindən bir müddət sonra Şamaxıdan qaçmağa vadar edilmiş keçmiş Şirvan hakimi Mustafa xan başçılıq etmişdi.

Üsyan Şirvan əyalətinin xeyli hissəsini, əhalinin əksər təbəqələrini əhatə etsə də, qüvvələr qeyri bərabər idi. 1826-cı ilin payızında hərbi əməliyyatlarda strateji təşəbbüs rusların əlinə keçdikdən sonra, digər əyalətlərdə olduğu kimi, Şirvanda da üsyan tədricən zəifləmiş və tezliklə yatrılmışdı. Çar hökuməti Şirvanda da kütləvi cəza kampaniyasına başlamışdı. Yüzlərlə Şirvan sakini həbsxanalara atılmışdı.

1826-cı il üsyanlarından sonrakı cəza kampaniyası o qədər kütləvi və qanunsuz şəkil almışdı ki, bundan az sonra yerli əhalinin narazılığını müəyyən qədər azaltmaq üçün çar I Nikolay 1826-cı il hadisələrinə görə məhkəməsiz süqgün olunmuş Şimali Azərbaycan sakinlərinin bağışlanması və onların mülklərinin özlərinə qaytarılması barəsində Qafqazın baş rəisi Paskeviçin adına 1830-cu il iyulun 13-də xüsusi reskript imzalamışdı. 1826-cı ildə baş vermiş Gəncə, Quba, Şirvan və Car-Balakən üsyanları yatrıldıqdan sonra Rusiya müstəmləkəçilərinə qarşı açıq mübarizə üsullarını gizli mübarizə formaları əvəz etmişdi. 1827-ci ildə Qarabağ əhalisi yeni müstəmləkəçilərin açıq-aşkar soyğünçuluğuna qarşı belə bir mübarizə üsulu seçmişdi. Qarabağ əyalətinin müxtəlif mahallarından gələn məlumatlara görə, hökumət idarələrinin təhriki ilə əhalidən cüzi haqq müqabilində hökumət xəzinəsi üçün satın alınmış (əslində müsadirə edilmiş) mal-qara guya ki, kəndlilər tərəfindən əyalət mərkəzi Şuşaya yola salınır, yolda ikən bu mal-qara sürüləri quldurların basqınlarına məruz qalır və oğruların (çox güman ki, əsil sahibkarların) əlinə keçirdi.

Şirvan əyalətinin Xonçobanı və Təbəristan mahallarında isə əhali 1826-cı il üsyanından çax keçməmiş bu üsyandan sonra Şirvandan qaçmış bəylər və b. sakinlərin mal-qarası və digər əmlakının hökumət orqanları tərəfindən müsadirə olunmasına müxtəlif yollarla mane olurdu.

Şimali Azərbaycanda çarizmə qarşı azadlıq mübarizəsinin növbəti yüksəlişi 1830-1831-ci illərə təsadüf etmişdi.

Məlumdur ki, çar Rusiyası işğal etdiyi ölkələrdə yerli əhalidən hərbi hissələr təşkil etməklə, həm özünə dayaq yaratmağa, həm də əsarətə alınmış yerli əhali içərisində təfriqə salmağa çalışırdı. Şimali Azərbaycanın işğalı zamanı birada da belə hərbi hissələr (birinci və ikinci müsəlman süvari alayları) yaradılmışdı.

XIX əsrin 30-cu illərinin əvvəllərindən Şimali Azərbaycanın Car-Balakən, Lənkəran, Şirvan və s. bölgələrində rus müstəmləkəçilərinə qarşı çevrilmiş bir sıra çıxışlar baş vermişdi.

Özünün sosial-iqtisadi və ictimai-siyasi xüsusiyyətləri ilə fərqlənmiş Gar-Balakən camaatlarının yaranma tarixi XVII əsrin I yarsı və ortalarına gedib çıxır. Məhz XVII əsrin ortalarında burada Balakən, Katex, Car, Qala, Muxax və Ginix (Ginik) kimi ilk gamaatlar formalaşmışdı.

Böyük Qafqazın cənub ətəklərində o qədər də böyük olmayan ərazidə yerləşən, ilk baxışdan sərt mərkəzləşməmiş siyasi struktura malik olmuş Car-Balakən camaatları bölgədə güclü hərbi-siyasi nüfuza malik olmuşdu. Qafqazdakı rus qoşunlarının baş komandanı general Paskeviç çar I Nikolaya 1830-cu il 11 mart tarixli hesabatında yazırdı ki, istənilən vaxt 10 min nəfərə qədər atlı döyüşçü çıxara biləcək Car-Balakən camaatlarının razılığı olmadan nə İlisunun yeni sultanları, nə də Şəkinin yeni xanları hakimiyyətdə möhkəmlənə və ya bərqərar ola bilərdilər.

XIX əsrin başlanğıcında İran və Osmanlı imperiyası ilə muharibələri uğurla başa vurduqdan sonra çarizm hadisələr burulğanın mərkəzində yerləşən Dağıstanın bilavasitə qonşuluğundakı bu strateji bölgədə möhkəmlənmək, habelə 1803-cü ildən bəri ruslara, demək olar ki, heç bir bac ödəməyən, ruslardan asılılığı, əslində, formal olaraq qəbul edən Car-Balakənliləri cəzalandırmaq, buranın idarəsini bilavasitə öz əlinə almaq üçün 1830-cu ilin əvvəllərində Qafqazdakı rus hakimiyyət dairələri qəti addımlar atmışdı.

Camaatlar təhlükənin reallığını yaxşı başa düşərək cavab tədbirləri görməyə cəhd göstərirdilər. Onlar Dağıstana çaparlar göndərərək oradakı Curmud, Tebet, Daşlı, Ansux və Qapıçı camaatlarını köməyə çağırmışdılar. Car-Balakən camaatlarının öz içərisində vaxtaşırı məsləhətləşmələr başlamışdı. Lakin təəssüf ki, bu səylər bir nəticə verməmişdi. Kömək üçün müraciət olunmuş Dağıstan camaatları qış və aşırımların bağlı olması (rusların bu barədə ümüdləri doğrulmuşdu) üzündən rədd cavabı vermiş, camaatların öz içərisində də tam yekdillik əldə etmək mümkün olmamışdı. Balakən, Muxax və Cinik camaatları 1830-cu il üsyanın liderləri olmuş Car və Tala camaatlarından ayrılaraq üsyanda iştirak etməkdən boyun qaçırmışdılar.

Car-Balakən ərazisinə daxil olub talançılıq edən (camaatlardan zorla at toplanılırdı) ruslarla yerli əhali arasında 1830-cu il fevralın 27-dək ilk toqquşmalar oldu. Hər iki tərəf üçün cüzi itki ilə (ruslardan üç yaralı, yerlilərdən bir həlak olan və iki yaralanan olmuşdu) başa çatmış bu ilk toqquşmanın səhərisi günü-fevralın 28-də ruslar Car və Zakatalanı tutdular.

Artıq martın 4-də Bekoviç-Çerkasski başda olmaqla Car-Balakənin Müvəqqəti Vilayət Idarəsi yaradılmışdı.

Lakin binunla ruslar bütün istəklərinə çata bilmədilər. 1830-cu ilin əvvəllərində başlanmış Car-Balakən üsyanları müxtəlif fasilələrlə 1832-ci ilə dək davam etdi. Şeyx Şaban kimi başçıların rəhbərlik etdiyi, Dağıstan imamı Həmzət bəyin gəlişləri dövründə daha da canlanan bu silahlı çıxışlara rusların Cardakı hakimiyyət orqanları, nəhayət ki, 1832-ci ilin axırlarında son qoya bildilər.

Sonuncu Lənkaran hakimi Mirhəsən xanın başçılığı altında 1831-ci ilin yazında baş vermiş Lənkəran üsyanı XIX əsrin 30-cü illərində müstəmləkə zülmü əleyhinə çevrilmiş Azərbaycan xalqının ən güclu çıxışlarından biri idi. Şimali Azərbaycanın hər yerində olduğu kimi, burada da yürüdülən ağır müstəmləkə siyasəti, xüsusən də yerli çar idarələrinin amansızlığı və acgözlüyü əhali içərisində narazılığı günü-gündən gücləndirərək, böhran vəziyyətinə çatdırmışdı. Digər tə-

rəfdən isə çar Rusiyanın Cənub istiqamətində işğalları davam etdirmək niyyətləri bu bölgədə də siyasi sabitliyin yaranmasına imkan vermirdi.

1830-cu il dekabrın 9-da İrandakı yüksək rütbəli rus diplomatlarından biri Bezak Paskeviçə yazırdı ki, Türkmənçay müqaviləsinin şərtlərinə əsaslanaraq, rusların araqarışdıranları sərhəd bölgələrindən uzaqlaşdırmaq barəsində təkidli tələblərindən sonra Abbas Mirzə Cənubi Azərbaycanın Şimalında məskunlaşmış Mirhəsən xanı həbs etmək üçün xüsusi adamlar göndərmişdi. Lakin həbs üçün göndərilmiş Bala xan və Fərzi xan Mirhəsən xanın evinə çatan kimi qarətə başlamış və Mirhəsən xan qaçıb aradan çıxmaq imkanı qazanmışdı. Bu hadisədən az sonra hadisələrin axarı gözlənilməz məcraya gönəlmişdi. Mirhəsən xan iki arvadı, uşaqları və nökərləri ilə birlikdə gözlənilmədən Astara mahalında peyda olmuş, oradan da Lənkəran komendantı podpolkovnik Korniyenkonun yanına gələrək günahkar olduğunu, rusiyanın himayəsinə girməyə, edama qədər hər cür cəzanı çəkməyə hazır olduğunu bildirmişdi. Bunun ardınca Ərdəbil hakimi Bəhmən Mirzə rus hakimiyyət orqanlarına müraciət edərək Mirhəsən xanı tutub cəzalandırmağı xahiş etmişdi. Öz növbəsində Paskeviç İran hakimiyyətindən xahiş edirdi ki, Mirhəsən xanı həbs edib Lənkəran və ya Qarabağ komendantına təhvil versinlər. Mirhəsən xan Lənkərana gəldikdən sonra isə ruslar onu saxlayıb, xanı Cənubi Azərbaycanın Qızılüzən bölgəsinə sürgün etməyə, onun bir daha rus-İran sərhədlərinə yaxınlaşmasına imkan verməyəcəyinə vəd vermiş Abbas Mirzəyə təhvil vermək niyyətinə düşmüşdülər.

Məhz bu hadisələrdən sonra Mirhəsən xan martın 5-də 20-30 atlı ilə Astara çayını keçib Lənkaran xanlığı hüdudlarına daxil olmuş, martın 6-da oğlu Abdulla bəylə birlikdə Lənkəranın 10 versliyindəki Yuxarı Nüvədi kəndinə gəlmişdi.

Ən qısa müddət ərzində Mirhəsən xanın ətrafına min nəfərədək silahlı atlı toplaşmış, artıq martın 9-dək Lənkəran xanlığının bir çox mahalı ixtişaşa qoşulmuşdu. Xan əyalətin hər yerinə adamlar göndərərək, əhalini ruslara qarşı üsyana səsləyir, ruslarla əməkdaşlıq etmiş bəyləri və b. cəzalandırırdı. Əyalət tamamilə xanın nəzarəti altına keçdiyindən Korniyekonun bütün əmrləri xanın adamlarının əlinə keçirdi. Ruspərəst bəylərin çoxu qorxudan Salyana qaçmışdı. Lənkəran üsyanının getdiyi bütün dövr ərzində Qafqazın bütün rus müstəmləkəçi orqanları özlərinin bütün diqqətini bu güclü xalq hərəkatının qarşısını almağa yönəltmişdi.

1831-ci il martın 23-də Korniyenkonun qoşunu ilə Abdulla bəyin dəstəsi arasında 4 saatlıq döyüş və birinci tərəfin kiçik itkiləri ilə başa çatmışdı. Döyüşlərin əksəriyyətinin əhəmiyyətsizliyinə baxmayaraq, Lənkəran üsyanı hakimiyyət dairələrini bərk təşvişə salmışdı. Cənubi Qafqazın bütün bölgələrində az-çox iri hərbi birləşmələrin hamısında Lənkəran üsyançılırına qarşı təpədən- dırnağa silahlanmış hərbi yardım göndərilirdi.

Xeyli güclənmiş Korniyenko çox cüzi itki (3 yaralı) ilə mart ayının 27-də Ərkivan kəndini ələ keçirməyə müvəffəq olmuşdu.

Eyni zamanda, Şirvan, Qarabağ, Yelizavetpol və s. bölgələrindən Lənkəranın rus qornizonuna yeni –yeni kömək gəlməkdə idi.

Ruslar Mirhəsən xanın üsyançılarına qarşı tədbirləri İran tərəfinin səyləri ilə əlaqələndirməyə çalışırdılar. Rusiyanın təzyiqi ilə Ərdəbil hakimi şəhzadə Bəhman Mirzə Mirhəsən xanın Lənkərandan sıxışdırılıb çıxarılacağı təqdirdə onu ələ keçirmək üçün mahaldan xeyli atlı yığaraq onları Rusiya-İran sərhəddinə toplamışdı. Rus komandanlığının bütün cəhdlərinə baxmayaraq, üsyanın genişlənməsinin qarşısının dərhal almaq mimkün olmadı. Martın 11-də üsyançıların bir dəstəsi Lənkəranın lap yaxınlığında xəzinə ilxısına hücum etmiş, xəzinə ilxısı üçün yığılmış ot tayalarını yandırmışdı.

Rus hökumətinin bütün cəhdlərinə baxmayaraq Lənkəran üsyanı təxminən 2 aya qədər-1831-ci il mayın 5-dək davam etmişdi.

Rusiya imperiyasının bütün tədbirlərinə 1831-ci ilin iyul-avqust aylarında dəfələrlə Irana verdiyi notalara baxmayaraq, Ərdəbil, Gilan və Mazandaran bölgələrində gizlənən Mirhəsən xanı tutmaq mümkün olmadı.

XIX əsrin 30-40-cı illərində bütün Şimali Azərbaycanda baş vermiş antirus, antimüstələkə üsyanlarından ən güclüsü və geniş miqyaslısı məhz 1837-ci il Quba üsyanı olmuşdu. Üsyanın başlıca səbəbi çarizmin feodal-müstəmləkəçi əsarəti idi. 1837-ci ilin Quba çıxışlarının başlanğıcı süvarilərin toplanması ilə əlaqədar olaraq hələ mart-aprel aylarında qoyulmuşdu. Üsyançılar Xuluq kəndxudası Hacı Məmmədi özlərinə başçı-xan seçdilər. Quba şəhəri, Buduq və Barmaq mahallarından başqa əyalətin qalan bütün hissəsi tamamilə Hacı Məmmədin nəzarəti altına keçdi. Tezliklə Bədir qala kəndinə yığışmış üsyaçılırn sayı 3 min nəfərə çatdı. Bunların içərisində Mahmud əfəndinin başçılığı ilə Dağıstan icmalarından gəlmiş 100 nəfər silahlı da var idi. Üsyançılar buradan Qubaya doğru gönəlib Ağbil kəndində dayandılar. Az sonra üsyançıların sayı 3 min nəfərdən xeyli çox olmuşdu. Bundan sonra onlar çayı keçib bilavasitə Qubanın həndəvərində olan Pişikbağda düşərgə saldılar. Üsyançıların sayı qısa müddətdə 12 min nəfərə çatmışdı. Bunların içərisində həm Quba əyalətinin bütün mahallarından (Buduqdan başqa), həm də Dağıstanın Kürə, Qazıqumux, Tabasaran və s. bölgələrindən gəlmiş üsyançılar var idi. Burada Quba şəhər əhalisinin nümayədələrinin (XanMəmməd və Səlim) də iştirakı ilə keçirilən yığıncaqda Quba şəhərindən kənarda yerləşən Lazaretə hücum etmək qərara alındı. Lakin Yarəli və Usta Osmanın Lazaretə hücumu gözlənilən nəticəni vermədi. Sentyabrın 6-da üsyançıların şəhərə təkrar hücum cəhdi də bir nəticə vermədi. Qubanın mühasirəsi daha 4 gün (sentyabrın 10-dək) davam etsə də, hökumətin hər tərəfdən nizami ordu hissələrini, Dağıstan, Şirvan və İlisudan qeyri-nizami milis dəstələrini Quba əyalətinə yönəltməsi öz işini gördü. Quba əyalətinə yeridilmiş qüvvələr tərəfindən öz kəndləri və ailələri ilə bərabər talanlara məruz qalan üsyançılar sentyabrın 10-11-də dağılışmağa başladılar. Hacı Məmməd məcburiyyət qarşısında qalaraq mühasirəni ləğv edib dəstə üzvlərini buraxdı və Xuluqa qayıtdı. Ailəsi ilə birlikdə Kürə xanlığının Tüpix kəndində sığınan Hacı Məmməd xəyanətkarcasına Qazıqumux və Kürə hakimi Məmmədmirzə xan tərəfindən oğlu Novruzla birlikdə həbs olunub, ruslara təhvil verildi. Yarəli dağlara

çəkilib mübarizəni davam etdirirdi. Üsyanın 36 nəfər başçısı hərbi səhra məhkəməsində ittiham olundu. Hacı Məmməd daxil olmaqla bir qrup edam olundu.

Quba əyalətində rusların can atdıqları sakitlik ancaq 1838-ci il sentyabrın 26-da, Şəki üsyanını yatırılmasından bir müddət sonra rutullu Ağa bəy 30 kəndxuda ilə birlikdə general Fezeyə təslim olub aman istədikdən sonra tədricən əldə edilmişdi. Bu son dərəcə narahat bölgənin hərbi-inzibati nəzarət altında saxlanılmasını gücləndirmək üçün müstəmləkəçilər 1839-cu ilin iyul ayında Altıpara, Doqquzpara, Axtı və Rutul mahallarını Quba əyalətinin tərkibindən çıxararaq onları xüsusi Samur dairəsində birləşdirdilər.

Uzunsürən kütləvi və amansız tədbirlərinə baxmayaraq, müstəmləkəçi hakimiyyət orqanları Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, Quba əyalətində də tam itaət göstərilməsinə nail ola bilmədilər. Çox geniş əraziyə yayılıb, geniş vüsət almış 1837-1838-ci illər Quba üsyanı mərkəzi Rusiya hökumətini 40-cı illərin inzibati-məhkəmə islahatlarına vadar etmiş mühüm amillərdən biri kimi qiymətləndirilə bilər.

Öz gücü, miqyası və yayılma ərazilərinə görə seçilən, aşağıdan zirvəyədək bütün müstələkəçi hakimiyyət sistemini möhkəm təşvişə salmış Quba üsyanı ilk növbədə onunla səciyələnir ki, ilk dəfə olaraq məhz burada yerli əhali hələ çıxışın ilkin mərhələsində hakimiyyəti bəzi ciddi güzəştlərə getməyə məcbur edə bildi. Ikincisi üsyan kifayət qədər geniş əraziyə yayıla, daha intensiv şəkildə uzun müddət davam edə bildi. Üçüncüsü məhz Quba üsyançıları qəhrəman Şeyx Şamillə daha səmərəli mübarizə birliyi qurmağa nail ola bilmişdilər. Və nəhayət məhz həm də 1837-1838-ci illərin Quba üsyanı çarizmin məstəmləkəçi komendant idarəçiliyi sisteminin tabutuna çalınmış sonuncu mıxlardan biri oldu.

Şimali Azərbaycanda müstəmləkəçi çar rejiminə qarşı üsyanlardan biri də, yuxarıda deyildiyi kimi, Şəki əyalətində baş vermişdi. Digər üsyanlar kimi bu üsyanın da başlıca səbəbi çar Rusiyasının burada yaratdığı və özünün xüsusi ağırlığı ilə seçilən müstəmləkə rejimi idi. 1838-ci il Şəkin üsyanı onun rəhbərləri və iştirakçılarının bir sıra düşünülmüş tədbir və hərəkətləri ilə də səciyəvi idi. Məsələn, üsyanın ilk başlanğıncında Məşədi Məmməd və Ağa bəy rutullu xüsusi bəyanətlə əyalətin əhalisinə müraciət etmiş onları ruslara və ermənilərə qarşı mübarizəyə çağırmışdılar. 1838-ci il sentyabrın 1-də üsyançılar müqavimətsiz olaraq Nuxa şəhərinə daxil oldular. Bu Şəki üsyanının ən yüksək nöqtəsi idi. Lakin qızğın döyüşlər nəticəsində sentyabrın 3-dən 4-nə keçən gecə üsyançılar Nuxa şəhərini tərk etmək məcburiyətində qalmışdılar. Rus əsgərləri və Ilisu sultanının süvariləri tərəfindən təqib olunan üsyançılardan 100 nəfərindən çoxu əsr alınıb komendanta təhvil verilmişdi. Uğursuzluqdan sonra üsyançılar Şimali-Şərqə doğru çəkildilər. Ağa bəy dəstəsini Həzrə kəndində yerləşdirib özü Rutula yollandı. Məşədi Məmməd isə məşhur üsyançı Yarəli ilə birlikdə təxminən 200 nəfərlik dəstə ilə Şəki əyalətinin sərhədləri boyu manevrlər edərək yeni həmlə üçün məqam axtarırdı. 1838-ci il sentyabrın 26-da Ağa bəy Rutullunun ruslara təslim olmasından cəmi 4 gün sonra sentyabrın 30-da Qurtqaşınlının başçılıq etdiyi böyük cəza dəstəsi Xaçmaz dərəsi-

nin yuxarı hissəsində Məşədi Məmmədin başçılıq etdiyi üsyançı dəstəsini darmadağın etdi. Məşədi Məmməd 10 nəfərlik dəstə ilə 1838-ci il oktyabrın 2-də Cənuba tərəf üz tutdu. O, böyük çətinliklə Güney Azərbaycana gedib çıxmağa müvəffəq oldu.

Beləliklə, müstəmləkə əsarətinə çevrilmiş möhtəşəm 30-cu illər üsyanlarından sonuncusu olan Şəki üsyanı da məğlubiyyətlə nəticələndi. Lakin məğlubiyyətə baxmayaraq bu üsyanlar izsiz qalmadı. Üsyanlar müstəmləkə rejiminə qarşı Azərbaycan xalqının mübarizə əzminin ifadəsi oldu. Xalqın kütləvi hərəkatı, silahlı üsyanlar nəticəsində Rusiya Qafqazda özlərinin müstəmləkə siyasətində bəzi dəyişikliklər etmək məcburiyyətində qaldılar.

## *§ 4. XIX əsrin 40-cı illərində keçirilmiş islahatlar*

XIX əsrin 30-cu illərinin sonlarına yaxın komendant idarə üsulu tam iflasa uğramaqda idi. O, çarizmin Azərbaycanda siyasi mövqeylərini möhkəmləndirmək vəzifəsinə cavab vermirdi. 30-cu illərin əvvələrində general Paskeviç inzibati idarə sisteminə yenidən baxılması zərurəti barədə məsələ qaldırmışdı. Senatorlar Meçnikov və Kutaysov da komendant idarə sisteminin ləğv edilməsini lazım bilmişdilər. 1838-ci ildə senator Qan da Zaqafqaziya ölkəsinin idarə olunmasına dair layihə təqdim etmişdi. Bütün bunlar əsasında 1840-cı il aprelin 10-da çar hökuməti Zaqafqaziyada inzibati islahat haqqında qanun verdi. Qanuna görə komendant idarə üsulu ləğv olundu. Zaqafqaziya mərkəzi şəhəri Tiflis olan Gürcüstan-Imeretiya quberniyasına və baş şəhəri Şamaxı olan Xəzər vilayətinə bölündü. Azərbaycanın böyük bir hissəsi Xəzər vilayətinin tərkibinə daxil oldu. Vilayət Şamaxı, Şuşa, Şəki, Lənkəran, Bakı, Quba və Dərbənd qəzalarına, qəzalar isə məntəqələrə bölünürdü. Gürcüstan-Imeretiya quberniyasının tərkibinə Yelizavetpol, Balakən və Naxçıvan qəzaları daxil idi. Köhnə idarələr əvəzinə yeni quberniya, qəza və məntəqə idarələri təşkil olunurdu. Mahal naibləri vəzifəsi ləğv edilirdi. Azərbaycanlı məmurlar inzibati aparatdan çıxarılır, onların yerinə rus məmurları təyin olunurdu.

Azərbaycanda məhkəmə işləri ümumimperiya qanunları əsasında fəaliyyət göstərən quberniya, vilayət və dairə məhkəmələrinin ixtiyarına keçirdi. Nigah və vərəsəlik işləri müstəsna hal kimi ruhaniliyin ixtiyarında qalırdı.

Çar hökuməti yerlərdə öz mövqeyini möhkəmləndirmək məqsədilə 1841-ci il aprelin 25-də verdiyi fərmanla Gürcüstan-Imeretiya quberniyasının Qazax, Şəmşəddin və Borçalı məntəqələrinin ağaları öz torpaqlarından və kəndlilər üzərindəki hakimiyyətlərindən məhrum edildilər. Onların torpaqları dövlətin ixtiyarına keçdi. 1841-ci il mayın 28-də Xəzər vilayətinin tiyuldar bəyləri haqqında da belə bir qərar qəbul olundu. Lakin bu qərarlar həyata keçirilmədi.

XIX əsrin 40-cı illərinin əvvələrində keçirilən islahatlar nəticəsində yerli bəylərin hüquqlarının məhdudlaşdırılması böyük narazılığa səbəb oldu. Çar hökuməti Qafqazda öz mövqelərini möhkəmləndirmək üçün 1844-cü ildə burada canişinlik təsis etdi. Çarın Qafqazda ilk canişini Vorontsov oldu. Onun dövründə

1846-cı ildə Zaqafqaziyada yeni inzibati bölgü həyata keçirildi. Ölkənin ərazisi Tiflis, Kutais, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Quberniyalar qəzalara, qəzalar isə mətəqələrə bölünürdü. 1846-cı il dekabrın 6-da bəylər və ağaların hüquqları haqqında çar fərmanı verildi. Fərmana əsasən təkcə mülklər və mülkixalisləri deyil, habelə tiyul torpaqları da bəylərin, ağaların və məliklərin tam mülkiyyəti kimi təsdiq edilirdi. Fedolların bu torpaqlar üzərindəki əmlak toxunulmazlığı hüququ çar qanunları ilə təmin olunurdu. Fərmanda həm də feodaların kəndlilər üzərində inzibati məhkəmə hüquqları öz əksini tapırdı.

1847-ci il aprelin 20-də və dekabrın 28-də kəndli əsasnamələri adlanan sənədlər nəşr olundu. Bu əsasnamələrdən birincisi Şamaxı, Şuşa, Şəki, Lənkəran, Bakı və Quba qəzalarının bəy kəndlilərinə, ikincisi isə Qazax və Şəmşəddin məntəqələrində ağaların torpaqlarında yaşayan kəndlilərə aid idi. Əsasnamələrə görə bəy torpaqlarında yaşayan bütün kəndlilər vahid ad-mülkədar tabesi adı alırdılar. Kişi cinsindən olub 15 yaşından yuxarı kəndlilər bəylərə məxsus torpaqlarda 5 desyatinə qədər həcmdə pay torpağından istifadə edə bilər, bunun əvəzində isə taxıl məhsulunun onda birini, çəltik, tərəvəz və meyvə məhsulunun üçdə birini malcəhət formasında bəyə verməli idilər. Otlaqlardan istifadə əvəzində kəndlilər çöpbaşı vergisi ödəyirdilər. Bəyin ev işlərini görmək üçün hər 10 kəndli ailəsi bir nəfər kişi ayırmalı idi. Hər bir ailə bəyən təsərrüfatında biyar mükəlləyiyyətini icra etmək üçün ildə18 gün müddətinə bir nəfər verirdi. Kəndin bütün kəndliləri ildə iki gün hamılıqla torpaq sahibinin təsərrüfatında əvrəz işinə çıxmalı idilər. Biyar əvəzinə bəy pul da ala bilərdi. 1847-ci il əsasnamələri Azərbaycanın təsərrüfat həyatına müəyyən təsir göstərdi. Maldarlar torpaq vergilərindən azad edildiklərindən əkinçilik bir qədər ixtisar olur, maldarlıq isə genişlənirdi. Beləliklə, 1847-ci ilin kəndli əsasnamələri ali müsəlman zümrəsi ilə kəndlilər arasındakı aslılıq münasibətlərini rəsmləşdirərək qanuni şəklə saldı.

## *§ 5.XIX əsrin I yarısında Azərbaycan mədəniyyəti*

XIX əsrin I yarısında İqtisadiyyatın inkişafı mədəniyyət sahəsinə də təsir göstərdi. Bu dövrün mədəniyyəti üçün realist, maarifçi meyllərin güclənməsi səciyyəvidir. Görkəmli elm və mədəniyyət xadimləri A.Bakıxanov, M.Ş.Vazeh, M.C.Topçubaşov, Mirzə Kazım bəy, M.F.Axundov, Q.B.Zakir və başqaları o dövrün elm və mədəniyyət aləmində özlərinə məxsus iz qoymuşdular.

Mirzə Şəfi Vazeh (1796-1852) incə lirikası, satirası ilə Azərbaycandan kənarda da ad qazanmışdır. Onun şərqiləri bir sıra dillərə tərcümə olunaraq uzun illər boyu Avropanı da heyrətə gətirmişdir.

Görkəmli azərbaycanlı alimlər M.C.Topçubaşov və Mirzə Kazım bəy şərqşünaslıq sahəsində elmi işləri ilə bütün dünyada şöhrət tapmış, Rusiya şərqşünaslığının baniləri olmuşlar.

XIX əsrin I yarısında tarixşünaslıq da inkişaf etmişdi. A.Bakıxanovun "Gülüstani-i İrəm"i, Mirzə Adıgözəl bəyin, Mirzə Camal və Əhməd bəy Cavanşirlərin

Qarabağ tarixinə, Kərim ağa Fatehin Şəki xanlarının tarixinə həsr etdikləri tarixi xronikal əsərləri və digər əsərləri bu dövrün məhsuludur. Məhəmməd Qazi, Məhəmməd Sadiq, Əbdürrəzaq Dunbuli və.b. kimi salnamə müəllifləri də bu dövrdə yaşayıb yaratmışdılar.

XIX əsrin görkəmli şəxsiyyətlərindən biri böyük dramaturq filosof və şair Mirzə Fətəli Axundov(1812-1878) idi.Böyük dramaturq Azərbaycan ədəbiyyatı tarixində bir neçə ədəbi janrın əsasını qoymuş, ədəbiyyatımızda realist cərəyanın möhkəmləndirilməsi, gerçəkliyin olduğu kimi göstərilməsi,ictimai həyatın eybəcərliklərinə qarşı mübarizə sahəsində əvəzsiz iş görmüşdür.

Bu dövrdə geniş inkişaf tapmış Azərbaycan satirik şerinin ən görkəmli nümayəndələrindən biri olan Qasım bəy Zakir (1784-1857) yaradıcılığında həmin dövrün ictimai-sosial həyatının bəlaları başlıca hədəf idi.

Həmin dövrdə 37 il ərzində Hindistandan Sudana qədər neçə-neçə ölkə gəzmiş Hacı Zeynalabdin kimi coğrafiyaşünas,etnoqraf,tarixçi və şair,qarabağlı Qənbər və muğanlı Əvəz kimi ustad rəssamlar yetişmiş,Tiflisdə Azərbaycan türkcəsində ilk qəzetlər "Tatar xəbərləri" (1832), "Qafqazın bu tərəfinin əxbarı"(1841-1846) qəzetləri çap olunmağa, dünyəvi təhsil yayılmağa başlamışdır.

# FƏSİL 14. ŞİMALİ AZƏRBAYCANDA XIX ƏSRİN İKİNCİ YARISINDA KAPİTALİST MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI

§ 1. XIX əsrin 60-70-ci illərdə inzibati sistemdə dəyişikliklər və burjua islahatları.
§ 2. Kənd təsərrüfatında kapitalizmin inkişafı.
§ 3. Sənayedə kapitalist münasibətlərinin inkişafı.
§ 4. Cənubi Azərbaycan XIX əsrdə
§ 5. XIX əsrin ikinci yarısında mədəniyyət

## *§ 1. XIX əsrin 60-70-ci illərdə inzibati sistemdə dəyişikliklər və burjua islahatları*

XIX əsrin 60-70-ci illərində Rusiyanın daxili siyasi həyatında bir sıra əhəmiyyətli dəyişikliklər baş verdi. Müstəmləkəçi dövlət kimi çarizm imperiyanın milli ucqarlarında yerli xalqların dövlət hakimiyyətinin inkişafına imkan vermirdi. Qafqazda ali hakimiyyət çar canişinin və ona tabe olan qubernatorların əlində idi. Tarixi zərurət yarandıqda mütləqiyyət inzibati quruluşda qismən dəyişikliklər edirdi. Şamaxı zəlzələsindən (1859) sonra quberniyanın mərkəzi Bakıya köçdü və adı dəyişdi. Dərbənd quberniyası ləğv edildiyindən Quba qəzası Bakı quberniyasının tərkibinə verildi. Car-Balakən hərbi dairəsi Zaqatala dairəsinə çevrildi.

Çarın qardaşı Mixail Nikolayeviçin canişinliyi (1862-1882) dövründə Yelizavetpol quberniyası təşkil edildi. Mərkəzi Gəncə şəhəri idi. 1868-ci ilin yanvarında fəaliyyətə başlayan yeni quberniyaya Bakı quberniyasından Şəki və Şuşa qəzaları, Tiflis quberniyasından Qazaxla birlikdə Gəncə qəzası,İrəvan quberniyasından Ordubad qəzasının Mığrı məntəqəsi və təzə təşkil olunmuş Zəngəzur qəzası verildi. 1874-cü ildə əlavə müstəqil Ərəş qəzası, 1883-cü ildə Cəbrayıl və Cavanşir qəzaları yaradıldı. Qəzalar məntəqələrə (50 məntəqəyə) bölündü. Bu inzibati bölgü Azərbaycanda 1918-ci ilə qədər demək olar ki, dəyişmədi.

Ölkə daxilində 60-cı illərdə baş verən hadisələrin fövqündə təhkimçilik hüququnun ləğv edilməsi dayanırdı.

Yerli feodallarla ittifaqa girən çar hökuməti digər milli ucqarlarda olduğu kimi Zaqafqaziyada, o cümlədən Azərbaycanda aqrar islahatın keçirilməsini qəsdən ləngidirdi. Lakin Zaqafqaziya iqtisadiyyatını müstəmləkə istismarının tələblərinə uyğunlaşdırmaq zərurəti çarizmi burada feodal-asılı münasibətlərin əsaslarını sarsıdan tədbirlər həyata keçirməyə məcbur etdi. Məsələn, 60-cı illərin ortalarında neft, zəy və duz mədənlərinə təhkim olunmuş kəndlilərin məcburi əməyi ləğv edildi. Rusiyadakı zemstvo idarələrinə bənzər vahid kənd idarəsi yaradıldı. Kəndxudanın rəhbərlik etdiyi bu idarə üç il müddətinə seçilməklə kəndə aid vacib məsələlərlə məşğul olmalı idi.

XIX əsrin 60-70-ci illərində Rusiyada həyata keçirilən burjua islahatlarından ikisi (məhkəmə və şəhər islahatları) çox gec və məhdud şəkildə burada da tət-

biq edildi. Çarın fərmanı ilə Azərbaycanda barışıq hakimləri vəzifəsi müəyyən edildi. Rusiyadakından fərqli olaraq, onlar seçilməyib hökumət tərəfindən təyin olunurdular. Cinayət işlərinə məhkəmə iclasçılarının iştirakı olmadan baxılırdı. Mühakimə rus dilində aparılırdı. Bu müstəmləkə əsarəti siyasətinin parlaq təzahürü idi. Şəhərlər haqqındakı islahat 1874-cü ildə məhdud şəkildə Bakı, Gəncə, şəki, Şuşa, Naxçıvan və Ordubad şəhərlərində həyata keçirilməyə başladı. Seçicilərin sayından asılı olaraq bələdiyyə üzvlərinin miqdarı 30-72 nəfər müəyyən edilirdi. Şəhər özünüidarəsinin vəzifəsi: abadlıq, maarif, səhiyyə, bazar, sənaye və s. məsələlərlə məşğul olmaq idi.

60-cı illərin əvvəllərində Zaqatala dairəsində çarizmin qatı müstəmləkəçilik siyasətinə, məmurların özbaşınalığına və rüşvətxorluğuna, ən başlıcası, burada əhalini zorla xristianlaşdırmaq tədbirlərinə qarşı güclü narazılıq yarandı. Müsəlman kəndlərində məscidləri dağıdıb əvəzində kilsələr tikirdilər. Narazılığın bir səbəbi də islahat keçiriləcəyindən keşkəl sahiblərinin narahatlığı idi. Çünki dairənin ərazisində torpağı becərənlər yengiloylar və muğallar idi. Islahat nəticəsində onların azad edilməsindən sonra gəlir mənbələrindən qorxan keşkəl sahibləri burada islahatın keçirilməsini istəmirdilər.

Dairədə xristianlaşdırma siyasətinə qarşı artan narazılıqdan müsəlman ruhaniləri istifadə etdilər. Üsyana çar ordusunda qulluq etmiş, əhali arasında böyük nüfuzu olan Hacı Murtuz başçılıq etdi. Üsyan 1863-cü il iyunun əvvəllərində (iyunun 5-dən 6-na keçən gecə) başlandı. Onlar Zaqatala qalasına hücum etdilər. Lakin qala toplarının şiddətli atəşi altında geri çəkilməyə məcbur oldular. Çar hakim dairələri tezliklə üsyanı yatırdılar. Hərbi səhra məhkəməsinin qərarı ilə üsyanın fəal iştirakçılarından 18 nəfəri dar ağacından asıldı. Hacı Murtuz başda olmaqla min nəfəri ailə üzvləri ilə birlikdə sürgün edildilər. Üsyan yatırılsa da çarizmi ciddi narahat etdi.

Zaqafqaziyanı kapitalizm yoluna cəlb edən iqtisadi inkişaf qüvvəsi çarizmi burada da islahat keçirməyə tələsdirirdi. İslahat əvvəlcə 1864-cü ildə Gürcüstanda keçirildi. Bundan iki il sonra Azərbaycanda islahatın layihəsini hazırlamaq üçün bəy komissiyaları təşkil edildi. Bu komissiyalara çar məmurları başçılıq edirdi. Komissiya müsəlman silkindən olan şəxslərin və torpaqlarında sakin olan kəndlilərin vəziyyətinə dair ümumi layihə hazırladı. Nəhayət, Rusiyadakından 9 il sonra çar hökuməti Azərbaycanda aqrar islahat keçirməyə razı oldu. Azərbaycanda kəndli islahatının əsas qanuni sənədi 1870-ci il mayın 14-də verilən «…Əsasnamə» idi. Tədqiqatçıların fikrincə, 14 may 1870-ci il islahatını Azərbaycanda təhkimçiliyin ləğvi kimi qiymətləndirmək düzgün olmazdı. Burada kəndlilərin feodal-asılılığı münasibətləri təhkimçilik səviyyəsində deyildi. Rusiyadakı kimi kəndlilərin rəsmən alınıb satılması halları yox idi.

1870-ci il 14 may «Əsasnaməsi»nin maddələri əsas etibarilə aşağıdakı üç məsələyə:

1. Kəndlilərin feodal asılılığının ləğv edilməsi–kəndlilərə şəxsi azadlığın verilməsi.

2. Pay torpağı – torpaq məsələsi.

3.Mükəlləfiyyətlər - həsr olunurdu.

Rusiyada olduğu kimi, islahatdan sonra Azərbaycanda da kəndlilərə pay torpaqları müəyyən edilirdi. Pay torpağının sahəsi ailədə 15 yaşından yuxarı hər bir kişiyə 5 desyatin hesabı ilə nəzərdə tutulurdu. Qadınlar və uşaqlar nəzərə alınmırdı. Ailədə pay torpağının maksimum həddi 15 desyatindən artıq ola bilməzdi. Kəndlilər onlara çatacaq pay torpağını mülkədarlardan və ya bəylərdən pula satın almalı idilər. Pay torpaqlarının satınalmada dəyəri ümumiyyətlə götürdükdə Bakı quberniyası üzrə Rusiyadakından 8 dəfə, Gəncə quberniyası üzrə 17 dəfə yüksək idi. Ona görə də kəndlilər pay torpaqlarını satın almaq iqtidarında deyildilər. Dövlət Rusiya quberniyalarından fərqli olaraq, pay torpaqlarını satın almaq üçün Azərbaycan kəndlilərinə vəsait buraxmadı. Məsələni mürəkkəbləşdirən bir cəhət də satınalmanın məcburi hesab edilməməsi idi. Ona görə də kəndlilər pul toplayıb pay torpaqlarını alana qədər əvvəlki mükəlləfiyyətləri yerinə yetirməli idilər. Bu müvəqqəti mükəlləfiyyətlilik adlanırdı.

Mükəlləfiyyətlərin miqdarı və toplanması əvvəlki qaydada qalırdı. Yalnız biyar pay torpağının hər desyatinindən 30 qəpik pulla əvəz edilirdi.

Noyabrın 8-də qüvvəyə minən 1870-ci il 14 may «Əsasnaməsi» Azərbaycan kəndlilərinin kütləvi hissəsini (70%-ni) təşkil edən dövlət kəndlilərinə deyil, azlığı təşkil edən sahibkar kəndlilərinə şamil edildi. hətta islahat Zaqatala dairəsi kəndlilərinə də aid edilmədi. «Bədnam azadlıq» kəndlilərin ən vicdansız bir şəkildə talan edilməsi, bir sıra zorakılıqlar və kəndlilərin tamamilə ələ salınması idi».

Bununla belə, Azərbaycanda kəndli islahatı obyektiv məzmunu etibarilə burjua xarakteri daşıyırdı. O kənddə mövcud olan ictimai-iqtisadi münasibətləri kapitalist inkişafı ehtiyaclarına uyğunlaşdırmaq siyasətini əks etdirirdi.

Rusiyada təhkimçilik hüququnun ləğvindən sonra həm mərkəzdə, həm də müstəmləkə ucqarlarda kapitalizmin inkişafına mane olan təhkimçilik və feodal – asılı qalıqların hələ də mövcud olmasına baxmayaraq, 1861-ci ildən sonra inkişaf o qədər sürətlə getdi ki, Avropanın bəzi köhnə ölkələrində əsrlər ərzində baş verən dəyişikliklər Rusiyada on illər ərzində əmələ gəlmişdi. İslahatdan sonrakı on illiklər ərzində kənd təsərrüfatı bazarı sürətlə artıb inkişaf edir, ticarət əkinçiliyi durmadan artır, kəndlilərin təbəqələşməsi prosesi sürətlənirdi.

Mərkəzi Rusiya ilə onun ucqarları arasında yaranan iqtisadi birliyin iki tərəfi var idi. Bir tərəfdən rus kapitalizmi öz fabrikləri üçün özünə bazar yaradırdı. Digər tərəfdən, həmin fabriklərin tələblərini Rusiyanın xammalları ilə ödəməkdən ötəri ucqarlarda ticarət əkinçiliyinin əmələ gəlməsi və inkişafına imkan verirdi. Deməli, Mərkəzi Rusiya ilə ucqarlar arasındakı iqtisadi vəhdət bir tərəfdən rus kapitalizminin öz fabriklərinin məhsulları üçün satış bazarı yaratması, digər tərəfdən isə ölkə daxilində xammal mənbələri axtarması nəticəsində meydana çıxırdı. Başqa milli rayonlar kimi, Azərbaycanda da getdikcə daha artıq Ümumrusiya ictimai əmək bölgüsünə cəlb olunur və Ümumrusiya bazasına qoşulurdu.

XIX əsrin 60-70-ci illərində keçirilən aqrar və burjua islahatlarından sonra ölkənin başqa sənaye rayonları kimi Bakıda kapitalist istehsalı intensiv şəkildə inkişaf edir və Ümumrusiya iqtisadiyyatı ilə yaxından bağlanırdı. Mütləqiyyət tərəfindən Rusiyanın fabrik və zavodları üçün xammal verən neft, mis, ipək, pambıq, düyü, meyvə və s. sahələrin inkişafına daha çox qayğı göstərilirdi. Əlbəttə, bu qayğı çarın azərbaycanlılara rəğbətindən, məhəbbətindən irəli gəlmirdi. Xəzinənin, rus burjuaziyası və mülkədarlarının mənafeyi naminə bunu edirdi. İnqilaba qədər neft sənayesi təkcə Azərbaycanın iqtisadiyyatında deyil, Rusiyanın xalq təsərrüfatının inkişafında başlıca rol oynayan amil idi. Neft sənayesi Rusiyada kapitalizmin həm eninə, həm də dərininə inkişafını göstərən fakt idi. Neft sənayesinin inkişafı ilə əlaqədar Bakıda kimya, maşınqayırma, gəmiqayırma, elektrik, mexaniki, sement və başqa tikinti materialları zavodları və müxtəlif emalatxanalar meydana gəlmişdi. Kapitalizmin inkişafı səviyyəsinə görə Bakı əsrin sonunda imperiyanın ən iri şəhərləri ilə müqayisə olunurdu.

Çoxəsrlik tariximizin müxtəlif dövrləri və problemləri haqqında irəli sürülmüş yanlış konsepsiyalar, baxışlar və böhtanlar kapitalizmin inkişafı məsələsinə də aid edilirdi. Vaxtilə Stalinin Bakı istisna olmaqla Azərbaycanı geridə qalmış feodal-patriarxal kəndli ölkəsi adlandırması, tariximizə vurduğu qara ləkə uzun müddət doğmaya çevrilmişdi. Tədqiqatçılara tarixi həqiqəti obyektiv araşdırmağa imkan verilmirdi. Buna təşəbbüs göstərənlərin faciəsi mütəxəssislərə məlumdu.

Tariximizin görkəmli araşdırıcıları sübut etdilər ki, Azərbaycanda kapitalist münasibətləri təkcə Bakıda deyil, ondan yüz kilometrlərlə məsafədə yerləşən qəzalarda və kəndlərdə də inkişaf etmişdi. Rusiyada əridilən misin 35%-ni verən Gədəbəydəki zavodlar, Rusiyada ən iri ipəkçilik fabriklərindən hesab edilən Alekseyev və Voronin qardaşlarının Nuxadakı fabriki, bundan əlavə, Nuxada, Şuşada, Ordubaddakı 33 ipəkçilik fabriki 150-dən artıq kərpic və sement zavodu, 50-dən artıq pambıqtəmizləyən zavod, onlarla tütün fabriki, şərab zavodu, duz mədəni, balıq vətəgəsi, çəltik təmizləyən dəyirman, rabitə müəssisəsi və başqaları kapitalist müəssisələri idi. Əsrin sonunda bu müəssisələrdə 40-50 min fəhlə çalışırdı. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Bakı istisna olmaqla, Azərbaycanda kapitalizmin inkişafı yüksək səviyyədə olmasa da, ölkənin digər Milli ucqarlarındakından geridə qalmırdı. Kapitalizm əzablı yollarla inkişaf etsə də, Azərbaycan feodal-patriarxal ölkələr səviyyəsində deyildi.

### *§ 2. Kənd təsərrüfatında kapitalizmin inkişafı*

İslahatdan sonra Azərbaycanda sənaye kapitalizmin inkişafı, dəniz və dəmir yolu nəqliyyatlarının, rabitənin, bank və kredit müəssisələrinin inkişafı kənd təsərrüfatında ticarət əkinçiliyinin inkişafı ilə tamamilə əlaqədar idi. Uzaq qəzaların əmtəə-pul münasibətlərinə cəlb olunmasında və sabiq təsərrüfat qapalılığının ləğv edilməsində dəmir yolu çəkilməsinin böyük əhəmiyyəti olmuşdu. H.B.Zərdabi dəmir yolu çəkilməsini neftdən sonra Azərbaycanın iqtisadiyyatını inkişaf etdirən

ikinci mühüm amil hesab edirdi. Bir neçə qəzanın ərazisindən keçən dəmir yolu Azərbaycanı Gürcüstan ilə, sonra isə Şimali Qafqazla və Mərkəzi Rusiya quberniyaları ilə birləşdirdi. Kapitalizmin inkişafında Xəzər ticarət gəmiçiliyinin genişlənməsi də az rol oynamadı. Kənd təsərrüfatında kapitalizmin inkişafında Rusiyadan Azərbaycana köçürülən kəndlilərin də xidməti oldu. Onlar buraya əkin, biçin, səpin maşınları gətirdilər. Onların gəlişi ilə burada kartof, pomidor, kələm kimi bitkilər yetişdirilməyə başladı. Rus kəndliləri ilə yerli kəndlilər qarşılıqlı surətdə bir-birindən çox şey öyrəndilər.

80-90-cı illərdə əkinçilikdə maşınlardan və təkmilləşdirilmiş alətlərdən istifadə olunmağa başlandı. Qustav Listin firması və «Stepun qardaşlarının ticarət evi» 90-cı illərin sonunda özlərinin kənd təsərrüfatı alətləri və maşınları anbarlarını yaratdı. Muğanda və Gəncədə kənd təsərrüfatı alətləri hazırlayan və təmir edən emalatxanalar təşkil edildi. Əkinçilikdə maşınların və təkmilləşdirilmiş alətlərin tətbiq olunması Azərbaycan kəndinin həyatında inqilabi hadisə idi.

Tarixən Azərbaycanda becərilən taxıl bitkiləri buğda, arpa, çəltik və darı idi. Zaqafqaziya dəmir yolu istifadəyə verildikdən sonra taxıl əkilən sahələr və onun məhsuldarlığı iki dəfədən çox artdı. 1883-1887-ci illərdə xaricə və Rusiyaya taxıl ixracı ildən-ilə artdı. Azərbaycanda becərilən «sarı buğda» sortuna xaricdə xüsusi maraq vardı. Çünki ondan keyfiyyətli makaron və vermeşil hazırlanırdı. Çəltik əsasən Lənkəran və Nuxa qəzalarında becərilirdi. Zaqafqaziyada istehsal olunan taxılın 40%-i, çəltiyin 64%-i Azərbaycanın payına düşürdü. Azərbaycana daha ucuz taxıl gətirilməsi və texniki bitkilərə marağın artması nəticəsində 90-cı illərdə burada taxılçılığa maraq azaldı.

Ən gəlirli əmtəə məhsullarından biri ipəkçilik idi. Xam ipək istehsalının əsas rayonları Nuxa və Şamaxı qəzaları qalmaqda idi. Onlardan başqa Şuşa, Quba, Zaqatala, Ordubad əhalisi də ipək yetişdirilməsi ilə məşğul olurdu. Lakin 60-cı illərin ortalarında Fransa və Italiya təbəələrinin Azərbaycanda yaydıqları qattina adlanan ipək qurdu xəstəliyi burada ipəkçiliyin kəskin surətdə azalmasına səbəb oldu. Lakin 70-ci illərin sonunda bu sahədə yenidən canlanma başlandı. Hər il 200-250 min pud xam ipək istehsal olunurdu ki, onun xeyli hissəsi Rusiyaya və xaricə ixrac edilirdi. Əsrin sonunda Azərbaycanda mindən artıq kənd ipəkçiliklə məşğul olurdu. 1900-cü ildə Zaqafqaziyada istehsal olunmuş 450 min pud ipəyin 290 min pudunun 64%-i Azərbaycanın payına düşür.

60-80-ci illərdə ticarət əkinçiliyinin faydalı sahələrindən olan marenaçılıq da sürətlə inkişaf etməyə başladı. Marena boyaq maddələrindən biridi. Ondan toxuculuq sənayesində istifadə etmək üçün qaransın və kalorin kimi boyaqlar alınırdı. Marenanın əsas vətəni Quba qəzası idi. Şamaxıda, Lənkəranda, Zaqatalada da marena yetişdirilirdi. 80-ci illərdə Quba qəzasında 200 min puda qədər marena istehsal edilirdi. Onun əksəriyyəti Rusiya bazarlarına göndərilirdi. Lakin 1869-cu ildə kimyəvi yolla alizarin deyilən boyaq maddəsi alındıqdan sonra Azərbaycanda onun istehsalı dayandı.

Azərbaycanda becərilən texniki bitkilərdən ən gəlirlisi pambıq idi. Rusiyada toxuculuq fabriklərinin sürətlə genişlənməsi, 60-cı illərin ortalarına qədər Şimali Amerikada vətəndaş müharibəsi nəticəsində oradan Rusiyaya pambıq gətirilməsinin dayandırılması, 80-90-cı illərdə xaricdən gətirilən pambıq üzərinə yüksək gömrük qoyulması və s. amillər Azərbaycanda pambıq istehsalına marağı artırdı. Zaqafqaziyada pambıq əkilən sahələrin və məhsulun 60%-i Azərbaycanın payına düşürdü.

Çarizm və rus burjuaziyası Rusiyanın pambıq-parça toxuculuq sənayesini ucuz və keyfiyyətli pambıq xammalı ilə etibarlı şəkildə təmin etmək məqsədilə Muğanın min hektarlarla münbit və yararlı torpağını Rusiyadan köçürülmüş kəndlilərə verdi. XX əsrin əvvəllərinə qədər burada 20 min əhalisi olan 49 yeni qəsəbə salındı. 80-ci illərin sonlarında iri toxuculuq şirkətlərinin agentləri buraya gələrək, pambıq alınması ilə məşğul olan məntəqələr açmışdılar. Hətta 90-cı illərdə pambığa olan maraq o dərəcədə artmışdı ki, Bakının iri kapitalistləri H.Z.Tağıyev və Saturov Cavanşir qəzasında ümumi sahəsi 26 min desyatin olan torpaq sahəsi almışdılar. Əsrin sonunda pambıq istehsalı 212 min puda çatmışdı.

Pambıqla yanaşı, gəlirli texniki bitkilərdən biri tütün idi. 1872-ci ildə xaricdən gətirilən tütün üzərinə yüksək gömrük qoyulması burada tütün istehsalına diqqəti artırdı. Azərbaycanda tütün Quba, Nuxa qəzalarında və Zaqatala dairəsində daha yaxşı inkişaf edirdi. 70-ci illərin əvvəllərində burada on bir min pud tütün istehsal edildiyi halda, əsrin sonunda onun orta illik istehsalı 28 min puda yaxın idi. 80-ci illərdə bir sıra iri tütün fabrikləri yaradıldı. Bakıdan Mirzəbekyans və Ter-Qriqoryan qardaşlarının fabrikində 1899-cu ildə 850 fəhlə çalışırdı. Belə iri fabriklərdən biri Nuxada M.H.Dadaşova məxsus idi. XX əsrin əvvəlində tütün sənayesi daha da genişləndi və inkişaf etdi.

Kür çayının axarı boyu geniş yayılmış biyankökündən hazırlanan lakritsa maddəsi texniki və müalicəvi (sinə xəstəliklərinin müalicəsində istifadə olunurdu) əhəmiyyətə malik idi. Dəmir yolu çəkiləndən sonra ona tələbat və maraq artdı. Yunan təbəələri Xrussaki və Gizi qardaşları 1886-cı ildə Ləkidə zavod tikdilər. Biyankökü zavoda qurudulur, preslənir və xaricə ixrac edilirdi. İkinci belə zavod 1890-cı ildə Urkard tərəfindən Ucarda tikildi. Həmin il üçüncü belə zavod ingilis təbəəsi İosif Bliss tərəfindən Gəncə stansiyasında tikildi. Bu şirkət 1894-cü ildə Kürdəmirdə ikinci bir zavod tikdirdi. Dəmir yolu boyu tikilən bu kapitalist müəssisələrində birlikdə 280-300 nəfər fəhlə çalışırdı. İldə orta hesabla 650-700 min manat xalis gəlir götürülürdü. Lakin 90-cı illərin ortalarında Suriyada zəngin biyan kökü bitkisi aşkar edildikdən sonra xarici kapital öz fəaliyyətini oraya yönəltdi. Azərbaycanda onun istehsalı dayandı.

Zaqafqaziya dəmir yolunun çəkilməsindən sonra burada bağçılığın və üzümçülüyün inkişafına maraq artdı. Quba qəzasından Rusiyaya yaş və quru alma-armud, Nuxa, Zaqatala zonasından qoz-fındıq, Ağdaş-Göyçay qəzalarından nar, alça, alma, Gəncədən və Bakıdan üzüm, Ordubaddan yaş və quru ərik göndə-

rilirdi. Bu meyvələr Azərbaycanda tarixən ənənəvi ixrac məhsulları idi. Əsrin sonunda 940 kənd meyvəçiliklə məşğul olurdu. 47 min desyatin sahədə bağlar yerləşirdi. Bununla belə, 80-ci illərin sonlarından bağçılıq bir qədər zəiflədi. Şərabçılığa diqqət artırıldı. Azərbaycanda şərabçılığın əsas mərkəzi Şamaxı, Göysay, Kürdəmir, Şuşa, Gəncə qəzaları və Zaqatala dairəsi idi. Bu qəzalarda onlarla şərab, araq, konyak, pivə zavodları fəaliyyət göstərirdi. 1900-cü ildə Zaqafqaziyada istehsal olunan şərabın 25%-i (1,5 mln. vedrə) Azərbaycanın payına düşürdü. Şərabçılıq müəssisələrində 7 mindən artıq fəhlə çalışırlı. XX əsrin əvvəllərində Azərbaycanda üzüm bağlarının sahəsi 26 min desyatinə çatırdı.

İslahatdan əvvəlki dövrdə Azərbaycanın maldarlıq məhsulları Rusiyada kifayət qədər bazar tapa bilmədiyi halda, 80-90-cı illərdə toxuculuq sənayesinin inkişafı ilə əlaqədar ona tələb artdı. Zaqafqaziyada Azərbaycan maldarlıq sahəsində birinci yerdə dayanırdı. Qoyun cinslərindən ən çox tərəkəmə və dağ qoyunları geniş yayılmışdı. Onların yununa Rusiya və dünya bazarlarında böyük maraq vardı. Burada ildə orta hesabla 166 min pud yun istehsal edilirdi. Onun bir qismi yerli istehsala, qalan əksəriyyəti Rusiya və dünya bazarına çıxarılırdı. Əsrin axırında Azərbaycanda 2,6 mln. baş qoyun və keçi, 150 min baş at və milyondan artıq qara mal vardı. Əhalisi gündən-günə artan Bakı və digər şəhərlər maldarlıq məhsullarının başlıca idxalçısı idi.

Əsrin birinci yarısında olduğu kimi, ikinci yarısında da kəndlilər dövlət və sahibkar kəndlilərinə bölünürdülər. Onların 70,6%-ni dövlət kəndliləri, 29,4%-ni sahibkar kəndliləri təşkil edirdi. Sahibkar kəndliləri özləri də rəiyyətə, rəcbərlərə, nökərlərə və s. bölünürdülər. İslahatdan sonra dövlət və sahibkar kəndlilərin aztorpaqlılığı və torpaqsızlığı, ən zəruri istehsal alət və vasitələrinin olmaması, təbəqələşmənin güclənməsi, əkinçiliyin süni suvarma ilə sıx bağlılığı və başqa səbəblər icarə sisteminin genişlənməsini sürətləndirdi. Torpaq icarəsi kapitalist münasibətlərinin inkişafını sürətləndirirdi. Torpaq icarəsi islahatdan əvvəl də vardı. Lakin islahatdan sonrakı icarə sistemi təsərrüfatın iqtisadi quruluşunda və xarakterində dəyişikliklər yaratdı. Əvvəlki icarə daha çox istehlak xarakteri daşıyırdısa, islahatdan sonrakı sahibkarlıq, kapitalist xarakteri daşımağa başladı.

İslahatın səciyyəvi cəhətlərindən biri sahibkar kəndlilərin istifadəsində olan torpaqların mülkədarlar tərəfindən onların əlindən alınması idi. Kəndlilərin böyük əksəriyyətini təşkil edən dövlət kəndlilərinin də torpağa ehtiyacı artmışdı. Əsrin sonuna yaxın Azərbaycanda dövlət kəndlilərinin yarısının adambaşına 2 desyatindən az torpağı vardı. Hesablamalara görə, dövlət kəndlilərinin 59%-i aztorpaqlı idi. Torpaqsız kəndlilər isə 38 min nəfərdən artıq idi. Aztorpaqlı kəndlilərin bir hissəsi becərə bilmədiyi pay torpağını ya satır, ya da başqasına icarəyə verərək, muzdurlar sırasına daxil olurdu. 1897-ci il məlumatına görə Gəncə quberniyasında dövlət kəndlilərinin istifadəsində olan torpağın 32%-i, sahibkar kəndlilərin istifadəsində olan torpağın 31%-i icarəyə götürülmüş torpaqlar idi. Vəziyyət Bakı quberniyasında da təxminən belə idi.

Sahibkara məxsus torpaqdan fərqli olaraq xəzinə torpaqlarının icarəsi hakimiyyət orqanları tərəfindən mütləq rəsmləşdirilirdi. Dövlət torpaqlarının hərracla icarəyə verilməsi çar tərəfindən təsdiq olunmuş qanuna əsasən həyata keçirilirdi. Qanunda icarənin müddəti, haqqı və sairə məsələlər hüquqi cəhətdən əsaslandırılırdı. İcarənin şərtləri ağır olduğundan kəndlilər onu birbaşa götürə bilmirdilər. Çox vaxt varlı kəndlilər hərracla icarəyə verilən torpaqları götürür, sonra onu daha artıq icarə haqqı almaqla kəndlilərə verirdilər. Bu cür icarə qaydası subicarə adlanırdı.

İcarə haqqının miqdarı torpağın yararlıq dərəcəsindən, növündən, münbitliyindən yola və bazara yaxın olmasından, icarəyə götürənin toxuma, qoşqu qüvvəsinə və əmək alətinə ehtiyacının olub-olmamasından asılı olaraq məhsulla, pulla və qarışıq – müəyyən edilir və ödənilirdi. İcarə haqqı məhsulun ikidə birindən – onda birinə qədər təşkil edirdi. Pulla icarə məhsulla icarədən bir qədər ucuz başa gəlirdi.

İslahata qədər mövcud olan vergi sistemi XX əsrin əvvəllərinə qədər qalırdı. 1900-cü il iyunun 12-də Qafqazda vergi sistemində islahat keçirildi. Həyat başı alınan vergi ləğv edildi, onun əvəzində dövlət kəndliləri üçün dövlət töycüsü müəyyən edildi. Onun məbləği iki dəfə artırıldı. Azərbaycanda kəndlilərin bir hissəsi yenə də köçəri və yarımköçəri həyat tərzi keçirirdi. Köçəri əhalinin oturaq həyat tərzinə keçməsi təkcə kənd təsərrüfatı üçün deyil, iqtisadi və sosial həyat üçün də əhəmiyyətlidir. Köçəri təsərrüfatı Zaqafqaziya quberniyaları içərisində nisbətən İrəvan quberniyasında çox yayılmışdı. Mütəxəssislərin hesablamalarına görə Bakı quberniyasında əhalinin 4%-i, Gəncə quberniyasında 6%-i, İrəvan quberniyasında 16%-i təşkil edirdi. Xalis köçəri təsərrüfatı Azərbaycanda lap az idi. Yarımköçəri təsərrüfatların kəndləri, torpaqları, bağları, əmək alətləri vardı. Onlar çəltik becərmək və barama qurdu saxlamaqla da məşğul olurdular, muzdlu əməyindən də istifadə edirdilər. H.B.Zərdabi öz məqalələrində köçərilərin həyat tərzi və məişəti haqqında maraqlı məlumat verirdi. 80-ci illərdən XX əsrin əvvəllərinə qədər köçərilərin oturaq həyata keçməsi prosesi davam etmişdi. Bütün Zaqafqaziyada onların miqdarı 89 mindən 39 minə enmişdi. Kapitalizmin inkişafı onların oturaq həyata keçməsinə şərait yaratsa da, lakin çarizm dövründə onların köçəri həyatına tamamilə son qoyulmadı.

Sahibkar kəndliləri dövlət kəndlilərinə nisbətən daha ağır vəziyyətdə yaşayırdılar. Yuxarıda deyildiyi kimi, pay torpaqlarının sahəsi getdikcə azalırdı. Bakı quberniyasında adambaşına 0,9 desyatin, Gəncə quberniyasında ondan da az, 0,6 desyatin torpaq sahəsi düşürdü. Halbuki, onlarla iri mülkədar ailələrinin hər birinin 2 mindən 70 min desyatinə qədər torpaq sahəsi vardı. Azərbaycanda kəndlilərin torpaqsızlığına səbəb olan amillərdən biri də çarizmin müstəmləkəçilik siyasəti nəticəsində minlərlə rus kəndlilərinin buraya köçürülməsi idi.

XIX əsrin 70-90-cı illərində kənddə təbəqələşmə prosesinin gedişində bir-birinə zidd olan iki qütb yaranırdı. Onun bir başında geniş kəndli kütlələrini istismar edən qolçomaqlar – kənd burjuaziyası, digər qütbündə çoxluğu təşkil edən

yoxsullar və muzdurlar dayanırdı. Dağıstandan, Gürcüstandan, Cənubi Azərbaycanından və Azərbaycanın öz qəzalarından gəlmiş on minlərlə aztorpaqlı kəndlilər və muzdurlar təkcə şəhərlərdə deyil, yüz min desyatinlərlə pambıq, üzüm, tütün, marena, çəltik plantasiyalarında, pambıq təmizləyən zavodlarda, ipəkçilik fabriklərində işləyirdilər. İri mülkədar təsərrüfatlarının texniki bazası zəif olsa da, onların hamısı kapitalist təsərrüfatı idi.

Muğanda rus kəndlərində fermer təsərrüfatı yaxşı inkişaf edirdi. Orada maşınlardan və təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərindən istifadə edilirdi. Muzdlu əməkdən daha çox pambıq və marena plantasiyalarında istifadə edilirdi. Mənbələrin verdiyi məlumatdan aydın olur ki, 70-80-ci illərdə hər il Dağıstandan 100 min nəfərə qədər kişi Qubaya və Azərbaycanın qonşu qəzalarına gələrək plantasiyalarda işləyirdilər. Çarın 1887-ci ildə verdiyi fərmandan sonra Cənubi Azərbaycanından: Təbrizdən, Xoydan, Mərənddən, Ərdəbildən, Sərabdan gələn 80-100 min Adama sərhəd məntəqələrində pasport verilirdi. Onlar şəhərlərdə və qəzalardakı müəssisə və plantasiyalarda çalışırdılar.

İslahatdan sonra yalnız Rusiyanın mərkəzində deyil, müstəmləkə ucqarlarda da kəndlilərin çarizmə və yerli mülkədarlara qarşı çıxışları baş verdi. 70-90-cı illərdə Azərbaycan kəndlilərinin əsarətə qarşı mübarizəsi qüvvətləndi. İmperiyanın başqa yerlərində olduğu kimi vergiləri verməkdən və mükəlləfiyyətləri icra etməkdən boyun qaçırılması, mülkədar torpaqlarının tutulması, malikanələrinin dağıdılması, bəylərin öldürülməsi Azərbaycanda da kəndlilərin sinfi mübarizəsinin əsas forması idi. 1878-ci ildə Quba qəzasında kəndlilərlə toqquşma zamanı 120 nəfər hakim sinfin nümayəndəsi öldürülmüşdü. 70-ci illərin sonunda Qazax qəzasındakı Quşçu kəndinin əhalisi mülkədar İskəndərbəyovların zülmünə qarşı çıxış etdilər. Üsyanın rəhbərləri Məşədi Usub və Kərbəlayi Kərimşah həbs edildi. Gəncə qəzasının Xılxına kəndinin kəndliləri mülkədar Zülqədərovlara qarşı çıxış etdilər. Həmin qəzanın Qızılhacılı və Cinni kəndlərinin kəndliləri mülkədar Adıgözəlovlara qarşı çıxış etdilər.1888-ci ildə Qarabulaq kəndinin əhalisi mülkədar Şərifbəyovu kənddən qovdu. O, məhkəmə vasitəsi ilə də torpağı kəndlilərdən geri ala bilmədi. Naxçıvan qəzasında Bənənyar kəndinin kəndliləri Sultanovlara qarşı mübarizəyə başlayıb, vaxtı ilə bəy tərəfindən tutulmuş 260 desyatin torpaqlarını geri aldılar. Buna bənzər hadisələr və çıxışlar digər qəzalarda da baş verirdi.

Azərbaycanda kəndli hərəkatının geniş yayılmış və təsirli formalarından biri qaçaqlar hərəkatı idi. Qaçaqlar hərəkatı bütün qəzaları bürümüşdü. XIX əsrin son rübündə Gəncə qəzasında qaçaqlardan Dəli Alı və Qəmbər, Qazaxda Kərəm, Qarabağda Süleyman və Murtuza, Zaqatalada Yusif, Şəkidə Qutqaşınlı Kərim Əfəndi oğlu, Zəngəzurda Nəbi və başqalarının qaçaqlar dəstəsi böyük şöhrət qazanmışdı. 90-cı illərdə Nəbinin və dəstəsinin adı bütün ölkəyə yayılmışdı. Nəbi Gəncə quberniyasında Zəngəzur qəzasının Aşağı Molu (hazırda Qubadlı rayonundadır) kəndində doğulmuşdu. Gənc yaşlarından həbsxanalara düşüb, katorqaya məhkum olunan Nəbi, həbsxanadan qaçaraq, ətrafına özü kimi igid dəliqanlıları toplayıb çar məmurlarına, bəylərə və xalqın digər zalımlarına qarşı mübarizəyə başladı.

Arvadı Həcər öz qardaşı Mehdi də onun dəstəsində vuruşurdu. Tezliklə Nəbinin şöhrəti hər tərəfə yayıldı. Cənubi Azərbaycan kəndlilərinə kömək üçün Nəbinin dəstəsi Arazın o biri tərəfinə də keçirdi. Nəbi xalqın intiqamçısı kimi hərəkət edirdi. Onun dəstəsi nəinki yerli bəyləri, məmurları, imperiyanın ali rütbəli məmurlarını da narahat edirdi. Çar hökuməti İran və Türkiyə hökumətləri ilə gizli danışığa girib, Nəbini izləmək üçün oraya çoxlu casuslar göndərdi. Hətta hökumət Nəbinin başı üçün böyük məbləğdə pul ayırdı, rütbələr və imtiyazlar vəd etdi. Naxçıvan qəza rəisi Slavçinski ordubadlı tacir Paşa Hacı fərəc oğlunu yanına çağırıb Nəbini öldürməyi tapşırdı. Casuslara xərcləmək üçün ona əvvəlcədən min manat pul verdi və onu «Qızıl medala» təqdim edəcəyini vəd etdi. Sərvət və şöhrət düşkünü olan bu tacir qaçaqlardan Kərbəlayı İmanı və Şahhüseyni pulla ələ aldı. Hər iki satqın 1896-cı il martın 12-də Nəbi öz yoldaşları ilə Kərbəladan qayıdarkən Türkiyə ilə Cənubi Azərbaycan sərhəddində Larni kəndində dincələn zaman, gecə saat 2-yə yaxın onu öldürdülər. El qəhrəmanının öldürülməsi xalqın böyük nifrətinə və hiddətinə səbəb oldu. Xalq qəhrəman oğlu haqqında mahnılar qoşdu və dastan yaratdı. Nəbinin adı Azərbaycan kəndlilərinin mübarizə rəmzinə çevrildi.

Kəndlilərin göstərdiyi igidliyə və mətanətə baxmayaraq, onların kortəbii, qeyri-mütəşəkkil xarakter daşıyan çıxışları məğlubiyyətə uğradı.

### *§ 3. Sənayedə kapitalist münasibətlərinin inkişafı*

XX əsrin əvvəllərində «dünya neft kralının qızıl tacı» hesab edilən neft Bakısında XIX -əsrin 70-ci illərindən sonra kapitalist sənayesinin inkişafına təkan verən bir sıra amillər vardı. İmperiyanın mərkəzində və milli ucqarlarında meydana gələn saysız-hesabsız fabrik-zavodların və nəqliyyatın neft yanacağına tələbatı sürətlə artırdı. D.I.Mendeleyevin «Bakı nefti bütün Rusiyanı isindirir, işıqlandırır və hərəkətə gətirir» deməsi təsadüfi deyildi. 60-cı illərin ortalarında və 70-ci illərdə neft mədənlərinə təhkim olunmuş Balaxanı kəndlilərinin təhkimli əməyinin ləğv edilməsi, neft mədənlərinin müqaitəyə (icarəyə) verilməsi qaydasına son qoyulması, neft fantanın vurması, buruqla quyu qazılması, neftin çıxarılmasında və emalında yeni texnikadan və texnologiyadan istifadə edilməsi, Zaqafqaziya və Ümumrusiya dəmir yolunun və Xəzər ticarət donanmasının istifadəyə verilməsi, xarici kapitalın Bakı neftinə güclü nüfuz etməsi və başqa səbəblər kapitalizmin inkişafına zəmin yaradırdı.

Keçən yüz illiyin son rübündə bütün dünyanın diqqətini özünə cəlb edən Bakının zəngin neft sərvəti 70-ci illərə qədər Rusiyada geniş yayıla bilmədi. Uzun müddət mədənlərin fasiləsiz müqaitəyə (icarəyə) verilməsi neft sərvətinin vəhşicəsinə korlanmasına səbəb olurdu. Ölkədə neftə artan tələbat onun inkişafına mane olan səbəblərin, o cümlədən müqaitə sisteminin ləğvini tələb edirdi. Müqaitə sisteminə qarşı çıxış edənlərdən biri də D.İ.Mendeleyev idi. 1872-ci ildə fevralın 17-də müqaitə sisteminin ləğvi haqqında qanun verildi. Həmin ilin dekabrında neft ya-

taqları müzaidə (hərrac) vasitəsilə satışa qoyuldu. İcarə sisteminin ləğvini 1861-ci il islahatının davamı kimi qiymətləndirirlər.

60-cı illərin əvvəllərindən buruqla quyu qazmağa dəfələrlə cəhd edildi və 1871-ci ildə buna nail olundu. Balaxanıda Mirzəyev qardaşlarının mədənlərində mexaniki üsulla qazılan quyu 45 metrə çatan kimi neft verdi. Quyudan sutkada 2 min pud neft çıxırdı. 11166 nömrəli həmin quyu indi də neft verir. Neft verən dərin quyuların sayı ildən-ilə artırdı. 1873-cü ildə 9 belə dərin quyu olduğu halda, beş ildən sonra onların sayı 33-ü keçdi. 1873-cü ildə buruqla quyu qazmaq işində ilk buxar mühərriklərindən istifadə olundu. Əsrin sonunda buxar mühərriklərinin sayı 2800-ə yaxın idi. XX əsrin əvvəllərində elektrik motorları daxili yanacaqlı neft mühərrikləri, qaz motorları meydana çıxdı.

Mütəxəssislər XIX əsrin 70-ci illərindən 1917-ci il fevral burjua-demokratik inqilabının qələbəsinə qədər Bakıda neft sənayesinin tarixini üç dövrə bölürlər (1872-1900, 1901-1913, 1914-1917). Dövrlərin hər biri səciyyəvi cəhətləri ilə bir-birindən fərqlənir. Birinci dövr neft sənayesinin sürətlə təşəkkülü və tərəqqisi dövrü idi.

70-ci illərin əvvəllərindən etibarən Balaxanıda, Zabratda, Bibi-Heybətdə, Binəqədidə və s. neft fantanının vurması buraya marağı artırmaqla bərabər, neftli torpaq sahəsinin qiymətini min manatdan 45 min manata qaldırdı.

Neft sənayesi inkişafının birinci dövründə burada əsas rolu yerli və rus kapitalı oynayırdı.

Neft istehsalı ilə məşğul olan şirkətlərin sayı ildən-ilə artırdı.

Neft yataqlarının zənginliyi, mənfəətin çoxluğu və ucuz işçi qüvvəsinin olması, habelə çarın ölkənin qapılarını taybatay açması nəticəsində xarici kapitalın Bakı neft sənayesinə güclü marağı başlandı. Xarici kapitalın ilk nümayəndəsi isveç təbəəsi Robert Nobel oldu. Nobel qardaşları Bakıya 70-ci illərin ortalarında gəlsələr də öz şirkətlərini 1879-cu ildə təşkil edə bildilər. Ondan sonra 80-ci illərdə Almaniya təbəələri Lents, Veyzer, Elrix, fransız Bulfru, Avstraliyalı Doçar və başqaları gəldilər. Nobel qardaşlarından sonra iri xarici kapital fransız Rotşild və ingilisləri təmsil edən Cems Vişau idi. O, 1897-ci ildə «Oleum» şirkətini təşkil etdi. Şirkət əsrin sonunda 10 mln manat xalis gəlir götürdü. Əsrin sonunda burada onların şirkətlərinin sayı 6-ya çatdı. 80-cı illərin əvvəllərində 10 mln.pud neft istehsal edən «Nobel qardaşları» birliyi 1899-cu ildə 93 mln.puda çatdırmaqla təkcə Rusiyada deyil, dünyada birinci yerə çıxdı. Dünyada çıxarılan neftin 9 faizə yaxını bu şirkətin payına düşürdü.

1873-cü ildə Bakıda 12 şirkət olduğu halda, əsrin sonunda onların sayı 140-a çatırdı. 1870-ci ildən 1901-ci ilə qədər neft istehsalı 165 dəfə artaraq 3 mln puddan 667 mln puda çatdı. Bakı neft sənayesi dünya neft istehsalının yarıdan çoxunu və Rusiyadakının 95 faizini verirdi. Halbuki 1870-ci ildə Rusiyaya gətirilən neftin cəmi 14 faizi Bakının payına düşürdü.

Neft emalı – neftçıxarma sənayesinin yüksəlişi onun emalına şərait yaratdı. rus kapitalistləri Kokorev və Qubonin Suraxanıda neftayıran zavod tikmək üçün xaricdən maşınlar və mühəndislər gətirdi. Zavodun tikintisi 1859-cu ildə başa çatdırıldı və bir il sonra məhsul verməyə başladı. Zavodun işə salınması çoxlarını həvəsə gətirdi. Akademik A.F.Moritsin neftdən parafin şamı almaq ideyasını öyrənən Tiflis əczaçısı Vitte 1861-ci ildə indiki Pirallahı adasında 150 min manata başa gələn zavod tikdirdi. Zavoda qara neftdən parafin yağı və şamı hazırlanırdı. 60-cı illərin sonunda zavod öz profilini dəyişərək ağ neft istehsal etməyə başladı. Vittenin zavodunda fəhlə işləyən savadsız, lakin qabiliyyətli adam olan Cavad Məlikov öz layihəsi əsasında üç nəfərlə şərikli yeni ağ neft istehsal edən zavod tikdirdi. 1862-ci ildə Mirzəyev iki ağ neft zavodu tikdirdi. Suraxanıda atəşgahın yaxınlığındakı zavodu daha güclü idi. 70-ci illərdə neftayırma zavodların sayı 47-yə çatdı. Onların içərisində H.Z.Tağıyevin və Kələntərovun zavodları fərqlənirdi.

80-ci illərdən başlayaraq Xəzər Volqaboyunun ticarət donanmalarının, habelə dəmir yolu nəqliyyatının qara neftdən yanacaq kimi istifadəyə keçməsi neft emal edən sənayenin inkişafına təkan verməklə mazuta olan tələbi artırdı. 1900-cü ildə Rusiyada 263 mln pud qara neft işlədildi. Xırda neftayıran zavodların təmərküzləşməsi nəticəsində əsrin sonunda neftayıran zavodların sayı 101-ə endi. Ağ neft zavodlarının 20-də sürtgü yağları hazırlanırdı. Neftin emalı sahəsində əldə edilən nailiyyətlərdən biri də 70-ci illərin sonunda neft qalıqlarından kükürd turşusu istehsal edən müstəqil zavodların yaranması idi. Belə ilk kükürd turşusu zavodu 1880-ci ildə Şibayev tərəfindən tikildi. Sonra bir-birinin ardınca Nobel qardaşlarının, Adamovun, Tumayevin və başqalarının zavodları tikildi. XX əsrin əvvəllərində burada 7 kükürd turşusu və 4 yeyici natri zavodu fəaliyyət göstərirdi.

Neft hasilatı və emalının inkişafı 1883-cü ildə Amerikadan Rusiyaya neft gətirilməsini tamamilə dayandırdı.

Neftin ixracı və satışı: ilk vaxtlar neft mədənlərdən zavodlara arabalarda ağac və dəmir çənlərdə daşınırdı. 60-cı illərin əvvəlində Bakıya gələn D.I.Mendeleyevin təklifi ilə neft boruları çəkildi. Əsrin sonunda burada ümumi uzunluğu 400 km olan 39 neft kəməri vardı. 80-ci illərdə istifadəyə verilən Bakı, Sabunçu-Suraxanı dəmir yolu ilə də zavodlara neft daşınmağa başlandı. Əsas məsələ neft məhsullarının Bakıdan kənara, Rusiyanın daxili əyalətlərinə və dünya bazarlarına daşınması məsələsi idi. 70-ci illərin sonunadək neft Xəzər dənizi və Volqa ilə yelkənli gəmilər vasitəsilə çəlləklərdə Rusiyanın daxili əyalətlərinə daşınırdı. Bu işlə Xəzərdə «Volqa», «Qafqaz və Merkurii», «Samalyot», «Şərq», «Mazut» və başqa şirkətlərin gəmiləri məşğul olurdu. 1877-ci ildə Nobel qardaşlarının sifarişi ilə hazırlanan dəmir korpuslu «Zərdüşt» gəmisi xüsusilə fərqlənirdi. 1900-cü ildə Xəzər neft daşıma donanmasında yüktutumu 140 mln pud olan 1300 baj vardı. Bakı dəniz limanı yük dövriyyəsinə görə Peterburq və Odessa limanlarından da güclü idi. Məsələn, Odessada 185 mln pud, Peterburqda 286 mln pud, Bakıda isə 338 mln pud yük daşınırdı.

Neftin Rusiya və dünya bazarlarına daşınmasında dəmir yolu çəkilməsinin böyük əhəmiyyəti oldu. Mühəndis Şuxovun təklifi ilə dəmir yolunda vaqon-sisternlər işə salındıqdan sonra nefti uzaq yerlərə daşımaq asanlaşdı. D.İ.Mendeleyevin təklifi ilə 1897-1907-ci illərdə Bakı ilə Batum arasında çəkilmiş 829 verst uzunluğunda neft kəməri iqtisadi cəhətdən çox faydalı oldu. Həmin kəmər vasitəsilə ildə 60 mln pud neft nəql edilirdi.

Dəmir yolu xətlərinin və Bakı-Batum neft kəmərinin çəkilməsi neftin Rusiya və dünya bazarlarına nəql olunmasını xeyli asanlaşdırdı.

Neft sənayesi ağır sənayenin ən çox inhisarlaşmış sahəsi idi. 1884-cü ildə Bakıda kapitalistlərin xüsusi təşkilatı: «Neft sənayeçilərinin qurultayı» meydana çıxdı. Maqnatların yüksək gəlirini təmin edən bu təşkilat, eyni zamanda kapitalistləri fəhlə hərəkatına qarşı mübarizəyə təhrik edirdi. Təşkilata qurultay şurası başçılıq edirdi. 1894-cü ildə «Bakı ağ neft zavod sahibləri ittifaqı» təşkilatı da yaradıldı. Lakin bu təşkilat çox yaşaya bilmədi.

Neft sənayesi ilə yanaşı, Azərbaycanda dağ-mədən və emaledici sənayenin digər sahələri də inkişaf edirdi. Maraqlıdır ki, bu sənaye müəssisələrinin bir hissəsi şəhərlərdə deyil, qəzalarda, kəndlərdə, dəmiryolu stansiyaları yaxınlığında yerləşirdi. Belə iri kapitalist müəssisələrindən biri Gədəbəydəki misəridən zavod idi. Orada misəridən zavodun tikintisinə 50-ci illərdə təşəbbüs edilməsinə baxmayaraq, onun əsl tarixi 60-cı illərin ortalarından başlayır. Prussiya təbəəsi Volter Simens 1865-ci ildə burada misəridən iri bir zavod tikdirdi. V.Simens 1883-cü ilin yayında Qalakənd çayı yaxınlığında ikinci misəridən zavod tikdirdi. Gədəbəy zavodunda əsas yanacaq kimi ağac kömüründən, sonra neftdən istifadə edildiyi halda, Qalakənd zavodunda elektrik enerjisindən istifadə edilirdi. Çayın üzərində iki turbinli elektrik stansiyası tikilmişdi. Simens mədəndən filizi zavodlara daşımaq üçün dar xətli dəmir yolu çəkdirmiş və bu yolu Qalakənd zavoduna qədər uzatmışdır. 1889-cu ilə qədər Dəllər stansiyasından nefti və mazutu dəmir çəlləklərdə Gədəbəyə arabalarda daşıyırdılar. Simens Dəllər stansiyasından Çardaxlı kəndinə qədər 21 verst məsafədə boru çəkdirdi.

Misin əridilməsi üçün hər il 330 min pud dəmir filizi lazım gəlirdi ki, həmin filiz də Gədəbəydə çıxarılırdı.

1900-cü ildə hər iki zavodun birlikdə məhsulu 148 min puda çatırdı. Bu Qafqazda çıxarılan misin 68%-ni, Rusiyadakının 35 faizini təşkil edirdi. Əridilən misin cüzi hissəsi qab qayırmaq üçün yerli sənətkarlara satılır, qalanı Bakı və Batum limanları vasitəsilə Rusiyanın daxili əyalətlərinə və xaricə göndərilirdi. Zavoda yeni texnikaya meyl güclü idi. Fəhlələrin əksəriyyəti müsəlmanlar idi.

Simens qardaşları mis istehsalını əllərində saxlamaqla bərabər, Daşkəsəndəki filiz mədənlərini də ələ keçirdilər. 60-cı illərin ortalarında orada Kobalt zavodu tikdirdilər. 1866-1870-ci illərdə bu zavodda 8 min puddan artıq məhsul istehsal edildi. lakin bu zavodun taleyi uğurlu olmadı.

Dağ-mədən sənayesi sahələrindən biri də Naxçıvan qəzasında daş, duz və göllərdə şor duz çıxarılması idi: 60-cı illərin ortalarında və ikinci yarısında duz

mədənlərinə təhkim olunmuş kəndlilərin azad edilməsi və duz mənbələrinin müzaidə vasitəsilə açıq satışa buraxılması onun inkişafını xeyli sürətləndirdi: çıxarılan duzun bir hissəsi yerli istehlaka, qalanı Rusiyaya, İrana və Türkiyəyə göndərilirdi. Bakı quberniyasında xəzinəyə məxsus 70-ə qədər duz gölü vardı. Əsrin sonunda Naxçıvanda duz istehsalı 300 min pudu ötüb keçdi.

Neft və kimya sənayesinin inkişafı Bakıda metal emalı sənayesinin inkişafına səbəb oldu. Demək olar ki, hər bir neft şirkətinin mexaniki zavodu və ya emalatxanası vardı. İlk iri mexaniki təmir emalatxanası 50-ci illərin sonlarında «Qafqaz və Merkurii» cəmiyyəti tərəfindən tikildi. İkinci belə müəssisə 70-ci illərin ortalarında Nobel qardaşları tərəfindən tikildi və mexaniki zavoda çevrildi. 80-ci illərdə mexaniki zavodların sayı çoxaldı. Rotşildin, Mantaşovun, Xatisovun zavodları, Əlibəyovun kanat fabriki və başqaları yaradıldı. 90-cı illərdə onların sayı 52-yə çatırdı. Onlardan 20-si iri mexaniki zavod idi. O cümlədən 8-i çuqunəridən, 4-ü mexaniki, 8-i miss emaledici idi. Bu zavodlar içərisində min nəfərə qədər fəhləsi olanları az deyildi.

Mexaniki istehsalın tərkib hissələrindən biri gəmiqayıran və təmir edən zavodlar idi. «Qafqaz və Merkuri» cəmiyyətinin mexaniki zavodunda 60-cı illərin ortalarından gəmilərin təmirinə başlanıldı. Qara şəhərdə Nobel qardaşlarının, 90-cı illərin sonlarında isə A.Dadaşovun gəmi təmiri zavodu və başqaları yarandı. 1900-cü ildə Bakıda 9 gəmi təmiri müəssisəsi vardı.

Tikinti materialları – kapitalizmin inkişafı tikinti materialları sənayesinin də inkişafını sürətləndirdi. Abşeronun daş karxanalarından tikinti daşları çıxarılmağa başladı. XX əsrin əvvəlində Bakıda tikilən binaların 90%-i daşdan idi. Daşdan sonra ikinci tikinti materialı kərpic idi. XIX əsrin sonunda respublikada 150 kərpic bişirən müəssisə vardı. XX əsrin əvvəlində onların sayı 200-ü keçdi. Keşlədəki kərpic zavodunda ildə 2 mln. kərpic istehsal edilirdi. Neft mədənlərinin sementə olan tələbatının artması burada sement zavodlarının yaradılmasını zəruri edirdi. Rusiyadan buraya gətirilən sement baha başa gəlməkdən əlavə, ona olan ehtiyacı ödəyə bilmirdi. Ona görə də XX əsrin əvvəlində əvvəlcə Keşlə kəndində, bir qədər sonra Tovuzda sement zavodları fəaliyyətə başladı. Keşlə sement zavodu Zaqafqaziyada ilk və yeganə zavod idi. Orada ildə 7 min ton sement istehsal edilirdi (Tovuzdakı sement zavodu 1915-ci ildə istifadəyə verilmişdi).

Bakıda ilk elektrik stansiyasının pionerii «Qafqaz və Merkuri» cəmiyyətinin tikdirdiyi kiçik stansiya hesab olunur. Əsrin sonlarında Bakıda təşkil olunan «Elektrosila» cəmiyyəti yaşadığımız əsrin əvvəllərində Bayılda və Ağ şəhərdə əvvəlkilərdən daha güclü iki elektrik stansiyası tikdi. Ümumiyyətlə, istehsal olunan enerjinin 95%-i şirkətlərin sənaye müəssisələrinə, qalan 5%-i isə şəhərin işıqlandırılmasına və kommunal təsərrüfatlarına sərf edilirdi. Bununla belə, Bakıdakı elektrik stansiyaları öz gücünə görə Peterburq və Moskvadan sonra Rusiyada üçüncü yeri tuturdu.

XIX əsrdə və XX əsrin əvvəllərinə qədər Simens qardaşlarının Qalakənddə tikdirdiyi kiçik elektrik stansiyasından başqa, Bakıdan kənarda və Azərbaycanın qəzalarında elektrik enerjisindən istifadə edilmirdi.

Tarixi xronoloji baxımdan Bakıdan kənarda Azərbaycan qəzalarında yaranan ilk iri kapitalist müəssisəsi Nuxadakı külli miqdarda baramanı emal etmək üçün fabrik tikmək zərurəti meydana gəldi. Böyük gəlir gətirəcəyini nəzərə alaraq Moskva sənayeçilərindən Alekseyev və Voronin qardaşları Nuxada 60 min manata başa gələn ipəkçilik fabriki tikdirdilər. 1861-ci ildə fəaliyyətə başlayan fabrikdə 432 dəzgah və 64 hovuz vardı. Dəzgahlar buxar mühərriki ilə hərəkətə gəlirdi. 60-cı illərin ortalarında fabrikdə 850 fəhlə çalışırdı. Fabrikdə layihədə nəzərdə tutulduğundan xeyli çox ildə 1200-1400 min pud ipək məhsulu istehsal olunurdu. Bu təkcə Rusiyada deyil, Avropada ən iri ipəkçilik fabriki hesab olunurdu. Lakin ipək qurdu xəstəliyi ilə əlaqədar 60-cı illərin ortalarında fabrik müvəqqəti olaraq dayandırıldı. 70-ci illərin əvvəllərindən fabrikin fəaliyyəti yenidən canlandı. Sahibkar Mirzəyev fabriki 45 min manata satın aldı. Fabrik müəyyən fasilələrlə 80-ci illərin ortalarına kimi işlədi. Bundan əlavə, Nuxa qəzasında 33, Qarabağda 19, Ordubadda 2 fabrik xarakterli ipəkçilik müəssisəsi vardı. Onlarda buxar mühərriklərindən və dəzgahlardan istifadə edilirdi. XX əsrin əvvəllərində ipəkçilik sənayesi daha sürətlə inkişaf etdi. Bu fabriklərin məhsulunun əksəriyyəti Rusiya və qismən xarici bazarlara göndərilirdi.

Pambıq istehsalının və toxuculuq sənayesinin inkişafı 70-90-cı illərdə Azərbaycanda pambıqtəmizləyən zavodların sayca artmasına səbəb oldu. Bakı və Gəncə quberniyalarında 90-cı illərin sonunda 27 pambıqtəmizləyən zavod vardı. XX əsrin əvvəllərində onların sayı 50-ni keçmişdi. Bu zavodlarda təmizlənən pambıq lifinin az qismi burada saxlanılır, qalanı Rusiyanın toxuculuq fabriklərinə gön-dərilirdi. XX əsrin başlanğıcında H.Z.Tağıyevin iri toxuculuq fabriki işə düşdü. Fabrik Avropa ölkələrindən gətirilən maşınlar və dəzgahlarla təchiz olunmuşdu. Onun tikilməsinə və təchizinə 3,3 mln.manat vəsait sərf edilmişdi. Fabrikdə min nəfər fəhlə çalışırdı ki, onların 150 nəfəri qadın idi.

80-ci əvvəlində balıq sənayesində müqaitə sisteminin ləğv olunması balıqçılığın inkişafına yaxşı təsir etdi. Həmin il Bakıda Şərqi Zaqafqaziya sularındakı balıq vətəgələrinin xüsusi idarəsi yaradıldı. İdarənin nəzarət dairəsi Şimalda Samur çayının mənsəbindən, cənubda Astara çayının mənsəbinə qədər 640 vers məsafəni əhatə edirdi.

Xəzər dənizindən əlavə Araz, Kür çaylarında və göllərdə balıq ovlanırdı. 1900-c2 ildə 380 min sentner balıq istehsal edilmişdi. XX əsrin əvvəlində vətəgələrin sayı inkişaf edərək 50-dən 127-yə çatmışdı. Balıq sənayesində mövsümü fəhlələrlə birlikdə 31 min adam çalışırdı.

Azərbaycanın müstəmləkə iqtisadiyyatının Rusiyanın xalq təsərrüfatının tərkib hissəsinə çevrilməsi burada nəqliyyatın və rabitənin inkişafı ilə yaxından bağlı idi. XIX əsrin ikinci yarısında Azərbaycanın qəzalarını bir-biri ilə və onları dəmir

yolu stansiyaları və dəniz limanları ilə birləşdirən yollar çəkildi. Ağsu yolu uzadıldı və qəzalar arasında yollar çəkildi. Əlbəttə, bu yollar əyalətlər arasında iqtisadi-ticarət əlaqələrini qismən sahmana salsa da, dəmir yolunu əvəz edə bilmirdi. 1878-1880-ci illərdə Bakını Sabunçu, Suraxanı və Balaxanı neft mədənləri ilə birləşdirən dəmir yolu xətti çəkildi. Bu yolda hərəkət edən qatarlarda təkcə neft məhsulları deyil, fəhlələr və sərnişinlər də daşınırdı. 1879-cu ilin dekabrında Tiflisdən Bakıya 515 km uzunluğunda dəmir yolu xəttinin çəkilişinə başlanıldı və 1883-cü il mayın 8-də istifadəyə verildi. XIX əsrlə XX əsrin qovuşuğunda Qafqaz dəmir yolunun Bakı-Dərbənd şöbəsinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi həyatında daha mühüm rol oynadı. Beləliklə, Ümumrusiya və onun vasitəsilə dünya bazarlarına geniş yol açıldı. Dəmir yolunun çəkilməsi ilə bir zamanda ona xidmət edən stansiyalar, depolar, emalatxanalar da tikilirdi. Dəmir yolunun çəkilişi ilə Zaqafqaziyanın iqtisadi cəhətdən mənimsənilməsi yolundakı çətinliklər xeyli aradan qaldırıldı. Lakin dəmir yolu ilə neft ixracatının ancaq 65%-ni daşımaq mümkün olurdu. Bu vəziyyət Xəzər dənizində neft məhsulları daşıyan donanma yaradılması vəzifəsini qarşıya qoydu.

XIX əsrin 40-cı illərinin ortalarında Xəzərdə və Kürdə gəmi görünməyə başlamışdı. Buraya Həştərxandan ilk dəfə gələn gəmi «Volqa» idi. Həmin vaxt Həştərxanla Bakı arasında poçt gəmisi işləməyə başladı. 50-ci illərdə Kürdə «Knyaz Vorontsov» adlı gəmi üzdü. Sonra çayda Salyanla Yevlax arasında 30 sərnişin paroxodu üzürdü, 70-ci illərin sonunda Kaspi dənizində xarici şirkətlərə mənsub (Nobel qardaşlarının «Zərdüşt» və «Budda») gəmilər meydana gəldi. 70-ci illərdə nefti Bakıdan gəmilərlə Rusiyaya daşımaq sahəsində iş başlandı. 1878-ci ildə ilk dəfə nefti gəmiyə yükləmək sahəsində parla işləyən nasoslardan istifadə edildi. 90-cı illərin sonunda Xəzərdə maye yükü daşıyan gəmilərin sayı 350-yə çatırdı. Ümumiyyətlə, Xəzər ticarət donanmasında 17 milyon pud yükgötürümü olan və Böyüklü-kiçikli 700-800 gəmi vardı. Onların üçdə biri buxarla işləyən gəmilər idi. Gəmi sahibləri içərisində azərbaycanlılar üstünlük təşkil edirdi.

Bakıda və qəzalarda kapitalist sənayesinin inkişafı rabitənin də inkişafına kömək etdi. Azərbaycanda poçtun tarixi hələ XIX əsrin birinci rübündə, Rusiyaya birləşmə dövründən başlamışdı. 1818-ci ildə ilk dəfə Gəncədə poçt idarəsi yaradıldı. Bundan neçə il sonra 20-ci illərin ortalarında Bakıda yaradıldı. Türkmənçay sülhündən sonrakı ilk illərdə Qubada, Şamaxıda, Nuxada, Şuşada, Salyanda, Naxçıvanda, Lənkəranda poçt idarələri təşkil edildi. Lakin rabitənin geniş inkişafı əsrin ikinci yarısına təsadüf edir. 1863-cü ildə yaradılan Qafqaz poçt idarəsinin dörd idarəsindən biri Bakıda yerləşirdi. 60-70-ci illərdə Göyçayda, Ağdaşda, Zaqatalada, Culfada, Ordubadda poçt idarələri təşkil edildi. Dəmir yolu çəkildikdən sonra rabitənin inkişafı sürətləndi.

Əsrin sonunda Azərbaycanda 60 poçt stansiyası fəaliyyət göstərirdi.

1868-ci ildə qəzalardan keçməklə Tiflisdən Bakıya teleqraf xətti çəkildi. Sonra Gəncə ilə Şuşa arasında çəkildi. 1879-cu ildə Xəzər dənizinin dibi ilə Bakı-

dan Krasnovodska teleqraf xəttinin çəkilişi başa çatdırıldı. 80-ci illərin əvvəllərində 12 teleqraf stansiyası fəaliyyət göstərirdi. 90-cı illərdə Bakı-Tiflis dəmir yolu boyu 513 km məsafədə teleqraf xətti çəkildi. XX əsrin əvvəllərində Bakı teleqraf xətti Dərbənd, Port-Petrovski, Minvod və s. şəhərləri ilə birləşdirildi. Bakı ilə Tehran arasında birbaşa teleqraf xətti çəkildi.

Telefonun tarixi 80-ci illərdən başlayır. Əvvəlcə «Qafqaz və Merkuri», sonra Nobel qardaşları birliyi tərəfindən mədənlərlə neftayıran zavodlar və müəssisələr arasında çəkildi. Şəhəri əhatə edən ilk mərkəzləşdirilmiş telefon stansiyası 1886-cı ildə tacir Qustav List tərəfindən tikildi. Bakının rayonlarını birləşdirən telefon stansiyasının on bir min abonenti vardı. XX əsrin əvvəllərində abonentlərin miqdarı dörd dəfə artaraq 42 minə çatdı.

Kapitalizs cəmiyyətinin xarakterik cəhəti olan bank-kredit müəssisələri 70-ci illərin ortalarından etibarən yaradıldı. Rusiyanın bir sıra mərkəzi banklarının burada şöbələri təşkil edildi. XX əsrin əvvəlində təkcə Bakı quberniyasında 48 kredit və 4 əmanət xəzinəsi kompaniyası vardı.

### *§ 4. Cənubi Azərbaycan XIX əsrdə*

XIX əsrdə Azərbaycanın bütövlükdə götürüldükdə iqtisadi inkişafını müəyyən etmiş əsas amil onun çar Rusiyası və İran Qacar dövləti arasında bölüşdürülməsi oldu. Azərbaycanın şimal hissəsinin Rusiyaya birləşdirilməsi Şimali Azərbaycanın Ümumrusiya və sonuncu vasitəsilə ümumdünya iqtisadi inkişaf dairəsinə daxil olmaqla, obyektiv olaraq bu diyarda iqtisadi proseslərin sürətlənməsinə, daha mütərəqqi kapitalist inkişaf yoluna keçməsinə şərait yaratdı.

Cənubi Azərbaycanın iqtisadiyyatında isə bütün İranda olduğu kimi, durğunluq meyli davam edirdi. Bütün XIX əsr ərzində İran dövlətinin Avropa dövlətlərinə bir – birinin ardınca güzəştləri getməsi, onların xeyrinə müqavilələri bağlanması və s. nəticəsində ölkədə kapitulyasiya qaydası yarandı. Ölkə yarımmüstəmləkəyə çevrildikdən sonra isə İranın, o cümlədən Cənubi Azərbaycanın iqtisadi inkişaf yolunda ən mühüm əngəl iqtisadiyyatın iki tərəfli inkişafa düçar etmiş xarici kapitalın ağalığı oldu.

Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti yenə də kənd təsərrüfatı – əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisinin deyil, şəhər əhalisinin də bir hissəsi əkinçilik , bağçılıq və kənd təsərrüfatının başqa sahələrində çalışırdı.

Rusiya ilə müharibələr qurtardıqdan sonra təsərrüfat həyatının nisbi canlanması ticarətin də genişlənməsinə təkan verdi. Cənubi Azərbaycanın Təbriz, Ərdəbil, Marağa, Urmiya, Zəncan istər İran miqyasında, istərsə də İranin xarici ölkələrlə ticarət əlaqələrində mühüm rol oynayırdılar.

XIX əsrin ortalarında Cənubi Azərbaycanın feodal munasibətlərində nəzərə çarpacaq dəyişiklik baş verməmişdir. Əyalət əhalisinin əsas hissəsi yenədə zəhmətkeş kəndlilərdən ibarət idi. Torpaq üzərində mülkiyyət formaları XVII-XVIII əsrlərdəki kimi idi.

XIX əsrin ortalarında Cənubi Azərbaycanda feodalların sahib olduğu böyük torpaq sahələrinin əksəriyyəti şah ttərəfindən tam mülkiyyət hüququ olmadan dövlət torpaqları hesabına bağışlanmış tiyul və başqa torpaq sahibliyi formalarından ibarət idi. Dövlət, xalisə torpaqların renta gəlirindən əlavə ayri-ayri şəxslərin xüsusi mülkiyyətinin təşkil edən torpaqdan aldiği vergisini də tiyul kimi bu və ya digər vəzifə sahibinə məvacib əvəzinə verirdi. Şah oturaq və ya köçəri, yarımköçəri həyat sürən ayrı-ayrı tayfalara dövlət qarşısında hərbi xidmətə görə torpaq sahələri bağışlayırdı. Bütün tayfanın sərəncamına verilən bu torpaqlar ilati-ilat (ellər) torpağı adlanırdı.

Feodalların mülkiyyəti təkcə tiyul və ilat torpaqlarından təşkil olunmurdu. Feodalların oz xüsusi mülkiyyətində olan torpaqlar isə mülk adlanırdi. XİX əsrin ortalarına doğru xususi mülkiyyət hüququnda ayri-ayri şəxslərə məxsus torpaqların çoxalması meyli nəzərə çarpırdı. Mülk torpaqları əksəriyyəti feodal zadəganlarının əlində cəmlənmişdi.

Əyalətdəki torpaqlarin bir qismi də ali ruhanilərin başçılıq etdiyi dini idarələrə məxsus "vəqf" adlanan torpaqlardan ibarət idi. Əyalətin zəhmətkeş və istismar olunan sinfinin təşkil edən kəndlilərin cüzi hissəsini n xüsusi torpaqları var idi. "Xirda malik" adlanan, daha cox Urmiya rayonunda təsadüf edilən sahələrin ümumi həcmi torpaq növlərinin başqa növləri ilə müqaisədə heç dərəcəsində idi. Kənd ətraflarında kəndlilərin mülkədardan pulla aldıqları kəndli icma torpaqları mövcud idi . Kəndli kütlələrinin əksəriyyətinin torpağı yox idi. Onlar dövlətə , dini və dünyəvi feodallara məxsus torpaqlarda paydarlıq icazəsi əsasinda istifadə edirdilər.

Süni suvarilan torpaqların içərisində ən cox yayılmış forma yardarlıq idi. Azərbaycanın suvarılmayan , əsasən dənli bitkilər əkilən dəmyə torpaqlar olan rayonlarda ən geniş yayılmış icarə növü idi. Mülkədarlar kəndlinin malik olduğu bütün gəlir mənbələrindən müəyyən hissə alırdılar. Bütün hallarda paydar kəndlinin ödədiyi renta cox yüksək idi. Paydar kəndli bir qayda olaraq rentanı məhsuldar pay hesabı ilə ödəyirdi. Pul rentasına isə təsbit edilmiş idarədə rast gəlmək olardı. Bəzi hallarda kəndli rentanın bir hissəsini məhsullar, qismən də işləyib ödəmə ilə (biyarla) verirdi.Bir cox yerlərdə biyar günləri ildə bir iki aya catır, bəzi yerlərdə isə iki-üç gündən artıq olmurdu.

XİX əsrin sonu və XX əsrin əvvəllərində biyardan istifadə nisbətən artmışdı. Peydar kəndlilər həmişə eyni yerdə yaşıyır, eyni torpaq sahələrindən istifadə edirdilər. Onlar həmin torpaqlar üzərində istifadə hüququna malik idilər. Adət-ənənəyə görə isə kəndli müəyyən bir torpaq sahəsi uzun müddət əkib becərdikdə o həmin torpaq üzərində sahiblik hüqüqu qazanırdı. Lakin XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda torpaq üzərində burjua mülkiyyəti xüsusiyyətlərinin meydana gəlməsi və getdikcə möhkəmlənməsi ilə əlaqədar olaraq torpaq sahibləri kəndlilərin torpaq üzərindəki sahiblik hüququndan getdikcə daha cox məhrum etməyə başladılar.

Azərbaycanda mülkədarlar kəndlilərin daimi icarəsində olan torpaqların ən münbit hissələrini zəbt edərək onları daha çox istehsal imkanı olan kəndlilərə icarəyə verməyə çalışırdılar.

Cənubi Azərbaycanda vasitəli icarə geniş yayılmışdı. Belə halda ayrı-ayrı şəxslər dövlət, vəqf və xüsusi torpaqları bütövlükdə icarəyə götürərək onları kiçik hissələrlə kəndlilərə icarəyə verirdilər. XIX əsrin ikinci yarısından başlayaraq ticarət əhəmiyyətli kənd təsərrüfatı məhsullarından daha çox gəlir əldə etmək imkanı yarandıqdan sonra öz şəxsi təssərrüfatlarını yaratmağa və genişləndirməyə az-çox meyl edirdilər. Öz şəxsi təssərrüfatını genişləndirən mülkədarlar biyar əməyinə əsaslanmaqdan əlavə muzdlu əməkdəndə istifadə edirdilər. Bir sıra feodallar getdikcə daha çox ticarət əkinçiliyinə qoşulurdular. Onlar peydar kəndlilərin istismarını şidətləndirməklə xırda əmtəə istehsalını artırır, bu yolla külli miqdarda gəlir götürürdülər. Belə feodallar bir qayda olaraq xarici bazarla, xüsusilə bəhs edilən dövrdə Cənubi Azərbayanın kənd təsərüfatı mallarının əsas alıcısı olan Rusiya bazarı ilə bağlı idilər.

Əyalətdə əsas istismarçı sinif olan feodallarla kəndlilər arasındakı münasibətlər , kəndlilərin feodallardan asılılıq dərəcəsi və forması da eyni deyildi. Cənubi Azərbaycanın elə yerləri var idi ki, orada feodal asılılığı təhkimçilik dərəcəsinə yaxınlaşırdı.

Yeni silkə mənsub olan torpaq sahibləri cərgəsinə tacir və sərraflardan , xırda mülkədarlardan ibarət, başqa sözlə, qeyri-iqtisadi məcburiyyəti həyata keçirməyə vasitələri (silahlı dəstələrə malik olmaq, yerlərdə dövlət vəzifəsi daşımaq və s kimi) olmayan şəxslər daxil idi. Belə torpaq sahibləri kəndlilər üzərində qeyri – iqtisadi məcburiyyəti nisbətən zəif tətbiq edə bilirdilər. Şəxsi asılılığın və ya qeyri –iqtisadi məcburiyyətin qüvvətli olduğu yerlərdə isə feodallar paydar kəndlilərin ümumi məhsulunun müəyyən bir hisəsinin müəyyən bir hissəsini mənimsəməkdən əlavə, kəndlidən bir sıra əllavə vergi və mülkələfiyətlər ödəməyi də tələb edirdilər.

Kəndli bu feodal mükəlləfiyətlərindən, «əvariz» əsasında mülkədara ət, yağ, toyuq, yumurta, pendir, qənd, meyvə və s. verməli , onu yanacaqla və s ilə təmin etməli idi.

Gülüstan müqaviləsindən sonra Mərkəzi İran hökuməti Cənubi Azərbaycan əyalətində bir sıra nüfuzlu və qüvvətli xanların, o cümlədən Maku, Urmiya, Nəmin, Gərgər xanlarının hakimiyyətini tanımaqla, onların ayrı-ayrı xanlıqların hakimi təsdiq etdi və daxili müstəqilliklərini saxlamalı oldu. Siyasi cəhətdən İran dövlətinə tabe olan bu yarımmüstəqil xanlıqlar hələ uzun müddət və daxili sərbəstliklərini qoruya bildilər. Dövlət bu xanlıqların daxili işlərinə qarışmır, lakin onlardan vergi və əsasən silahlı qüvvə tələb edirdi.

Cənubi Azərbaycandakı digər xanlıqlar tamamilə ləğv edildi. Dövlət keçmiş xanlıqlarn yerinə ayrı-ayrı vilayətlərə lazım bildiyi adamları hakim təyin etdi.

Fətəli şahdan başlayaraq Qacar şahlarının daxili siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Fətəli şah zamanında Cənubi Azərbaycan vəlihəd əyləşən yer hesab edilmiş , səltənət evi hesab edilən Təbrizdə isə bundan sonra həmişə

Qacarların rəsmi vəliəhdləri oturmuşdular. Vəliəhdin İran dövlətinin canişini kimi Təbrizdə oturması , şübhəsiz , Azərbaycanın İran üçün iqtisadi, xüsusilə siyasi əhəmiyyətindən doğurdu. Ilk Qacar şahları dövründə Cənubi Azərbaycan, xüsusilə Təbriz dövlətin xarici siyasətində də mühüm rol oynayırdı.

Başda vəliəhd olmaqla əyalətin müxtəlif inzibati orqanlarına təyin olunmuş şahzadələrin hər biri öz ətrafında böyük bir müxtəxorlar dəstəsi toplamışdı. Əyalətin idarə olunmasına rəhbərlik rəsmən vəliəhdin ixtiyarında idi, əslində isə bu işi, adətən, şahzadələr içərisindən təyin olunan vali aparırdı. Valinin sərəncamında böyük bir idarə aparatı var idi. Buraya Təbriz şəhərinin bəylərbəyisi, əyalətdə yerləşən bütün nizami qoşun hissələrinin başçısı, vergilərin toplanması və Ümumiyyətlə əyalətin maliyyə işlərinə başçılıq edən mustoffi və başqaları daxil idi. Əyalətin mərkəzi Təbrizə , vilayət və mahallara təyin olunan şahzadələr öz vilayətlərinə gəlir mənbəyi kimi baxır, əhalini soyurdular. 1837-ci ildə Məhəmməd şahın Təbriz bəylərbəyisi vəzifəsinə Əhməd xanı, Xoy mahalına Xudadat xanı, Qaradağa Əmiraslan xan Dumbulunu, Ərdəbilə zəncanlı Hüseynqulu xanı təyin etməsi məlumdur.

Qacarlar əsasən Azərbaycan tayfalarından olmalarına məhz bu qəbilələrin hərbi qüvvələrinin yardımı ilə hakimiyyətə gəlmələrinə baxmayaraq İranda hakim milli qrup olan farsları heç də sıxışdırmamış, əksinə əvvəlki dövlət aparatını ,onun ənənələrini saxlamışdılar.

Qacarlar əvvəllər qismən Gəncə ətrafında yaşayirdilar. I Şah Abbas burada yaşayan Qacarlardan 30 000 ailəni köçürərək onları Mərv nahiyəsində və Astarabadın Mürəkabadın qalası ətrafında yerləşdirdi. XVIII əsrin ikinci yarısında İranda hakimiyyət uğrunda mübarizə aparan tayfalardan biri də vaxtilə Astarabada köçürülmüş Qacarlar idi.

Azərbaycan əhalisinin, xüsusilə geniş kəndli kütlələrinin qarşı-qarşıya durduğu əsas istismarçılar yerli feodallar idi. Bir çox xanlar siyasi hakimiyyətdən kənar edilsələr də, onların xalq kütlələri üzərindəki ağalığı toxunulmaz qalırdı. Bütün bunlar əhalinin narazılığına səbəb olurdu. 30-cu illərin sonu 40-cı illərin əvvəllərində Təbrizdə bir neçə dəfə həyəcan və çıxışlar baş vermişdi. 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacirlər və şəhər yoxsulları hakimə qarşı çıxmış, onu şəhərdən qovmuşdular. 1848-ci ildə Təbrizdə yenə də şəhər yoxsulları və sənətkarların həyəcan və çıxışları baş vermişdi.

1864-cü ildə Təbrizdə xarici şirkətlərin kəskin rəqabətilə üzləşən tacirlərin kütləvi etirazı baş vermişdi. Təbriz bazarında baş vermiş və dörd ay davam etmiş bu narazılıq müddətində bütün xarici şirkətlərlə ticarət əlaqələri dayandırılmışdı. Yalnız qiymətlər əvvəllki səviyyəyə qaldırıldıqdan sonra tacirlər dükanları açmışdılar.

XIX əsrin ortalarında baş vermiş bu ayrı-ayrı çıxışlar öz əhatə dairəsinə, ictimai tələblərinə görə başlıca olaraq çox məhdud, hec bir siyasi məfkurəvi prinsipə əsaslanmayan, pərakəndə və kortəbii idi.

Babizmin və bu təriqət zəminində genişlənmiş hərəkatın banisi Seyid Əli Məhəmməd olmuşdur. Seyid Əli zülm və ədalətsizlik icərisində yaşayan xalqa həqiqətlərin çatdırılmasında özünü imam Mehdi ilə xalq arasında vasitəçi elan etmiş

və buna görə də 1844-cü ildən etibarən Bab (ərəbcə qapı, darvaza deməkdir) ləqəbini götürmüşdü. O, irəli sürdüyü fikirlərlə yeni bir təriqətin əsasını qoymuşdu. Babın əsas ideyaları onun " Bəyan" adlı əsərində ifadə olunmuşdur. Babın fikrincə, bütün dünya və insan cəmiyyəti bir-birini əvəz edən dövrlər üzrə inkişaf edir və hər yeni dövrün öz qanun-qaydaları olur.

Hər yeni dövrün qanun-qaydasını o dövrün peyğəmbəri gətirir. Bab deyirdi ki, indi üləma və hakimlərin zülmü nəticəsində İran bədbəxtlik və əziyyətlər diyarına çevrildiyindən yeni peyğəmbər imam Mehdinin zühur etməsi vaxtı çatmışdır. Bunlara baxmayaraq o , özünü əvvəl imam Mehdinin fikirlərini xalqa çatdırmaqda vasitəçi-Bab , sonra isə peyğəmbər elan etdi.

Bab yeni yaradılacaq cəmiyyətdə insanlar arasında , o cümlədən qadınlara münasibətdə bərabərlik , ədavət, şəxsiyyətin toxunulmasızlığını elan edirdi. Babın dedikləri geniş xalq kütlələrinin istəklərini əks etdirdiyindən onun tərəfdarları sürətlə artırdı.Ayrı-ayrı yerlərdə üsyanlar baş verirdi. Babı öldürməklə bütün İranda hərəkətın qarşısını almağa ümid edən hökümət 1850-ci iyulun ilk günlərdə onu Təbrizdə edam etdirdi. Lakın Babın öldürülməsi ilə hərəkət yatmadı, daha da qüvvətləndi.

Cənubi Azərbaycanda babilərin ən böyük üsyanı Zəncanda olmuşdu. 1850-ci ilin baharında təkcə şəhərdə babilərin sayı 15 min nəfərə çatırdı. Həmin tarixdə babilər şəhər qalasını tutdular. Lakin üsyan şah qoşunları tərəfindən 1850-ci ilin dekabrında amansızlıqla yatırıldı.

Bütün İranda, o cümlədən Cənubi Azərbaycanda sosial ziddiyyətlərin kəskinləşməsi nəticəsində baş vermiş babi üsyanları mövcud ictimai münasibətlərindən, siyasi – iqtisadi quruluşdan narazı qüvvələrin ölkənin kapitalizmə keçid dövrün ərəfəsində baş verən ilk kəskin çıxışlarından idi. Üsyanlar qeyri –müttəşəkkil xarakterdə olması, bütün hallarda passiv müdafiə taktikası ilə aparılması və başqa səbəblərdən müvəffəqiyyətsizliyə uğrasa, zahirən dini pərdə əsasında aparılsada, bu çıxışlar əslində kəndlilərin, şəhər orta təbəqələri və yoxsullarının sosial ədalətsizliyə, feodal qayda-qanunlarına qarşı çevrilmiş mübarizəsi idi. Babi üsyanları ölkənin ictimai –siyasi iqlimində heç bir dönüş yarada bilməsədə, bu çıxışların geniş kütlələrin oyanmasında, gələcəkdə ölkədə feodal qaydalarına qarşı inqilabi şərait yaranmasında əhəmiyyəti çox idi.

Keçən əsrin 70-80-ci illərindən Cənubi Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının artması ilə əlaqədar olaraq əmtəələrin texniki emalı, ölkə daxilində bir yerdən başqa yerə aparılması və nəhayət , xaricə ixrac edilməsilə məşğul olan tacirlərin də sayı və fəaliyyət dairəsi genişlənirdi. Bir sıra tacirlər xarici ölkələrə xalça, şal, və s kustar sənaye məhsulları ilə yanaşı , torpaq sahibləri və bilavasitə istehsalçılarılardan aldıqları pampıq , tiryək, kitrə, yun, badam, xurma, dəri və s ixrac edir, əvəzində manufaktura, qənd və s. gətirirdilər.

XIX əsrin sonu və XX əsrin əvvəllərində kənd təsərrüfatı məhsullarının satın alınması, texniki emalı və ixracı ilə tək tək şəxslər və xarici şirkətlərlə yanaşı, bir sıra yerli ticarət şirkətləri də məşğul olurdu. Inanda tacirlərin çoxu sələmçiliklə

məşğul olurdu. 1889-cu ildə İranda ilk xarici (ingilis) bank olan «Bankeşahənşahı» və bunun ardınca 1890-cı ildə rus girov -borc bankı yarandıqdan sonra iri şəhərlərdə əməliyyatları məhdudlaşdığından torpaq ələ keçirən , istehsalçılara və ya torpaq sahiblərinə əvvəlcədən borc verməklə kənd təsərrüfatı malları alveri ilə məşğul olan sərraf tacirlərin sayı artdı.

XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda tacirlərin çoxu sələmçiliklə məşğul olurdu. Sərraf- tacir müstəqil pul əmlakı - yaratmaqla bir tərəfdən istehsalçıları müflisləşdirərək onları getdikcə istehsal vasitələrindən məhrum edir, bununla da öz əməyini sağmağa hazır olan pauperlərin yaranması prosesini sürətləndirir (bu isə ölkədə kapitalizmin meydana gəlməsi üçün ilkin şərtləndirir), digər tərəfdən, kiçik orta və hətta bəzən iri feodalları tədricən torpaq mülkiyyətindən kənar edirdilər. Bir çox iri sərraf tacirlər pambıq təmizləyən , meyvəqurudan , barama açan , tiyrək hazırlayan və s. xammalın ilk emalı ilə məşğul olan müəssisələrə də malik idilər. Bu cür hallarda həmin sərraf - tacirlər, başqa sözlə, ticarət - sələm burjuaziyasının nümayəndələri istehsal üsulunun dəyişilməsinin, feodalizmə nisbətən mütərrəqi istehsal qaydalarının - kapitalizmin yaranmasının bilavasitə iştirakçısı olurdular. Ümumiyyətlə götürüldükdə isə ticarət sələmçi burjuasiyasının əsas fəaliyyətinin ölkədə məhsuldar qüvvələrin inkişafında rolu məhdud idi, çünki sələmçi tacirlər istehsalçıların kəskin istismarı nəticəsində əldə etdikləri sərvətləri sənaye ocaqlarının yaradılmasına və ya kənd təsərrüfatının intensiv inkişafını az hallarda tətbiq edirdilər. Onlar ölkədə ilkin kapital yığımına və bununla da kapitalizmə keçid üçün zəmin yaradılmasına yardım etsələr də, həmin kapitalın öz-özlüyündə ölkədə kapitalist münasibətlərinin inkişafında rolu az idi. Ölkənin və xalqın ümumi ehtiyacı ilə hesablaşmayan ticarət – sələm burjuasiyası özü üçün ən yüngül yolla-xarici bazarın tələbatın ödəmək yolu ilə gedirdi.

## § 5. *XIX əsrin ikinci yarısında mədəniyyət*

Aərbaycanın sosial-iqtisadi və siyasi həyatında baş verən dəyişikliklər XIX əsrin ikinci yarısında mədəniyyətdə də əksini tapırdı. Bu dövrdə mədəniyyətin başlıca xarakter xüsusiyyəti demokratik-maarifçilik ideyalarını təbliğ edən məktəbin daha da inkişafı və yeni tipli məktəblərin yaranması və inkişafı, milli mətbuatın və teatrın yaranması, ədəbiyyatda və incəsənətdə xəlqilik ünsürlərinin qüvvətlənməsi, əhalinin qabaqcıl ziyalılarında milli şüurun oyanması və sairədən ibarət idi.

Əsrin birinci yarısında fəaliyyət göstərən məktəblər və mədrəsələr yenə qalmaqda idi. Daha aşağı dərəcəli məktəblər demək olar ki, kəndlərin əksəriyyətində var idi. Belə məktəblərdə rəsmi, müəyyən edilmiş təhsil müddəti yox idi. Dərs cədvəli tətbiq edilmirdi, şagirdlərin yaş xüsusiyyəti nəzərə alınmırdı. Məktəblərdə cismani cəza tətbiq edilirdi. Falaqqa etibarlı pedaqoji təsir vasitəsi sayılırdı. Tədris ərəb və fars dillərində aparılırdı. Bu məktəbi bitirənlər mədrəsələrdə təhsillərini davam etdirirdilər. XIX əsrin son rübündə ruhani məktəblərində təlimin məzmu-

nunda mütərəqqi meyl gücləndi. Təlimin məqsədində, məzmununda, təşkilat qaydasında və üsullarında dəyişikliklər baş verdi. Mütərəqqi maarifçi ziyalılar məscid məktəblərinə ümumtəhsil verən ibtidai məktəb nöqteyi-nəzərindən baxırdılar. Yeni ruhda təşkil olunan məktəblərə «üsuli-cədid» məktəbləri deyilirdi. Belə məktəblər rus məktəblərindəki tədris üsulu ilə tanış olan müəllimlər tərəfindən açılırdı.sinif otaqları mebellə, skamyalar, qlobus, yazı taxtası və başqa tədris ləvazimatı ilə təchiz olunurdu. Ilk belə məktəblər 90-cı illərin ortalarında Gəncədə, Şamaxıda, Nuxada, Naxçıvanda, Şuşada və başqa şəhərlərdə açılırdı.S.Ə.Şirvaninin (1835-1888), Mir Möhsün Nəvvabın (1833-1918), Məmmədtağı Səfərovun («Sidqi» 1853-1904) və başqalarının məktəbləri nümunəvi məktəblər idi.

Rusiyada həyata keçirilən məktəb islahatları 70-ci illərdən başlayaraq Azərbaycanda ibtidai təhsil sahəsində canlanmaya səbəb oldu. Məktəbdə təhsil müddəti dörd il idi. Tədris planına ana dili, şəriət, rus dili, hesab, coğrafiya, tarix, nəğmə, təbiətşünaslıq fənləri daxil idi. XIX əsrin ikinci yarısında olmaqla cəmi 5 şəhər ibtidai məktəbi vardı. Şəhər məktəblərində təhsil müddəti 6 il idi. Şəhər məktəbləri XIX əsrin birinci yarısında yaranmış qəza məktəblərinin əsasında meydana gəlirdi. Zaqafqaziyada şəhər məktəbi ilk dəfə 1874-cü ildə Şuşada yaradıldı. Onun ardınca Şamaxı qəza məktəbi şəhər məktəbinə çevrildi. 70-ci illərin sonlarında Nuxa və Naxçıvan, 80-ci illərin ortalarında Gəncə, Zaqatala, Bakı, 90-cı illərdə Ordubaddakı qəza məktəbləri şəhər məktəblərinə çevrildi.

Kapitalist münasibətlərinin inkişafı mütəxəssislərə və ixtisaslı fəhlələrə tələbi artırırdı. Ona görə də 80-90-cı illərdə bir sıra sənət məktəbləri yarandı. 1874-cü ildə Bakı ibtidai məktəbi nəzdində yaradılan sənət şöbəsi 80-ci illərin axırında müstəqil sənət məktəbinə çevrildi. Həmçinin 80-ci illərin əvvəlində Bakıda gəmiçilik məktəbi, 90-cı illərin ortalarında mexaniki, sonra inşaat şöbələri olan texniki məktəb yaradıldı. Gəncədə sənət məktəbi, Qubada və Mərdəkanda bağçılıq məktəbləri təşkil edildi.

70-ci illərin ortalarında rus-Azərbaycan məktəbləri deyilən məktəblər yaranmağa başladı. Bu məktəblərin yaradılmasından məqsəd azərbaycanlıları orta məktəblərə daxil olmaq üçün hazırlamaq idi. Tədris rus dilində olsa da, bu məktəblər əsasən azərbaycanlılar üçün nəzərdə tutulurdu. Ziyalıların gərgin mübarizəsindən sonra 1887-ci ildə Bakıda rus-Azərbaycan məktəbi açıldı. Onun rəhbərləri S.M.Qənizadə və H.Mahmudbəyov idi.

XIX əsrin birinci yarısında Azərbaycanda bir dənə də olsa orta məktəb yox idi. Orta məktəblərin yaradılması ideyası 40-cı illərdə meydana gəlsə də onun təşkili 1865-ci ilə təsadüf edir. Həmin il Bakıdakı dörd sinifli ali ibtidai məktəb əsasında realnı progimnaziya təşkil edildi və iki ildən sonra realnı gimnaziyaya çevrildi. Bundan 5 il sonra Gəncə qəza məktəbi klassik progimnaziyaya çevrildi. 7 sinifdən ibarət olan klassik gimnaziya gəncləri əsasən universitetə hazırlayırdı. Buranı bitirənlər əsasən ali texniki və kənd təsərrüfatı institutlarına daxil ola bilirdilər. Burada təhsil pullu idi.

Məktəb haqqındakı islahat qızların təhsili məsələsinə də təsir göstərdi. Bakıdakı «Müqəddəs Nina» qız məktəbi istisna olmaqla, Azərbaycanda qızların təhsili bir qayda olaraq evlərdə təşkil edilirdi. Təhsil pullu idi. 1864-cü ildə Zaqatalada təhsil müddəti bir il olan qız məktəbi açıldı. Bu məktəb 1904-cü ildə dörd sinifli Marinski qız məktəbinə çevrildi. Bakı «Müqəddəs Nina» məktəbi əsasında 70-ci illərin ortalarında müstəqil gimnaziya təşkil edildi. Azərbaycanda dünyəvi elmləri öyrədən ilk müsəlman qız məktəbi 1901-ci ildə Bakıda maarifpərvər və xeyirxah milyonçu H.Z.Tağıyevin təşəbbüsü və vəsaiti hesabına açıldı. Onun müdiri H.B.Zərdabinin qadını Hənifə xanım Məlikova idi. Qızlardan 35 nəfəri pulsuz oxuyurdu.

Azərbaycanda maarifin inkişafını ləngidən səbəblərdən biri də müəllim kadrlarının son dərəcədə az olması idi. Əslində 70-ci illərə qədər Zəqafqaziyada müəllim kadrı hazırlayan təhsil müəssisəsi yox idi. 70-ci illərdə orta məktəblər üçün Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutunda müəllim hazırlanmağa başladı. 1876-cı ildə Qori şəhərində Zaqafqaziya Müəllimlər Seminariyası təşkil olundu. 1879-cu ildə həmin seminariyada Azərbaycan bölməsi yaradıldı. Bu bölmənin ilk rəhbəri A.O.Çernyayevski idi. Qori seminariyasının Azərbaycan şöbəsində xeyli miqdarda kadr hazırlandı. Həmin kadrlar Azərbaycanda xalq maarifinin təşkilində misilsiz fədakarlıq göstərdilər.

Məktəbdarlıq sahəsində müəyyən qədər biliyi və təcrübəsi olan müəllimlər bir sıra dərsliklər və köməkçi vəsaitlər hazırladı. M.Ə.Vəzirovun hazırladığı Azərbaycan dili dərsliyi 1861-ci ildə çap olundu. Azərbaycan dilinin tədrisi sahəsində A.O.Çernyayevskinin «Vətən dili» dərsliyinin böyük əhəmiyyəti olmuşdu. Bu dərslik dəfələrlə çap edilmişdi. M.T.Sidqinin 80 nəsihətdən ibarət «Qiraət kitabı» marağa səbəb olmuşdu. 80-ci illərin sonunda R.Əfəndiyevin «Uşaq bağçası» və N.Nərimanovun «Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» dərslikləri diqqəti cəlb edirdi.

Xalq kütlələrinin ana dilində təhsil almasında və maariflənməsində ərəb əlifbası ciddi çətinlik törədirdi. Qabaqcıl ziyalılarımız ərəb əlifbasının islah olunmasına maraq göstərirdilər. Bu işdə ardıcıl və mətin mübarizə aparan M.F.Axundov oldu. O, 1863-cü ildə əlifba islahatını təbliğ etmək məqsədilə Türkiyəyə getdi. Onun Istanbula gəlişi gurultaya səbəb olsa da, əlifba islahatını həyata keçirmək mümkün olmadı. M.F.Axundov 1878-ci ildə rus və latın qrafikası əsasında ərəb əlifbasını tamamilə əvəz edəcək yeni əlifba tərtib etdi, onun bu cəhdi də nəticəsiz qaldı.

Azərbaycanın zəngin neft, dəmir, mis, alünit, polimetal və s. yataqları rus geoloqlarının diqqətini cəlb edirdi. Ömrünü Qafqazın tədqiqinə sərf etmiş akademik G.V.Abix burada geniş tədqiqat işləri aparırdı. Azərbaycan rayonlarının geoloji quruluşunu öyrənmək işində görkəmli alimlərdən V.I.Arxipov, Q.B.Xalatov, I.Valentin və başqalarının xidməti böyük idi.

80-ci illərin ortalarında ilk azərbaycanlı kimyagər Möhsünbəy Xanlarovun (1857-1921) üzvi kimya sahəsində tədqiqatları başlandı.

Biologiya, kənd təsərrüfatı elmləri üzrə Rusiyada aldıqları bilikləri öz vətənində geniş yayan, Darvin təliminin müdafiəçisi H.B.Zərdabi (1842-1907), N.B.Vəzirov (1854-1926) və başqaları elmin həqiqi ehtiraslı carçıları idi.

XIX əsrin ikinci yarısında Mirzə Yusif Nersesov, Mirzə Camalın oğlu Rzaqulubəy, Mirmehdi Xəzani, Həsənəlixan Qaradaği, Əhmədbəy Cavanşir, Mirzə Əhməd Mirzə Xudaverdi oğlu və başqaları tarixşünaslıq sahəsində az-çox iş görmüşlər.

Qafqazın tədqiqi ilə məşğul olan şərqşünaslardan I.I.Berezin, N.V.Xanıkov, V.V.Qriqoryev, A.P.Berje, V.V.Bartold, P.Q.Butkov və başqalarının əsərlərində Azərbaycanın XVIII–XIX əsrlər tarixinin bir sıra hərbi-siyasi məsələləri işıqlandırılırdı.

XIX əsrdə Azərbaycanda fəlsəfi və ictimai fikirin inkişafı M.F.Axundovun adı ilə bağlıdır. Onun yaradıcılığı və dünyagörüşü XIX əsrin 60-70-ci illərində fəlsəfi fikir tarixində bütöv hadisə idi. Yaşadığı dövr rus, Şərq və Avropa fəlsəfəsi ilə yaxından tanışlıq onun filosov və mübariz ateist kimi formalaşmasına təsir etmişdi. O, fəlsəfəyə dair görüşlərini bir çox əsərlərində, xüsusilə «Kəmalüddövlə məktubları», «Mola Rumi və onun əsəri haqqında», «Filosof Yuma cavab», «Babilik əqidələri», «Con Stüart Milli-azadlıq haqqında» və s. əsərlərində daha qabarıq və konkret vermişdi.

Ədəbiyyatşünaslıq – elmin və mədəniyyətin bir çox sahələrində olduğu kimi, ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində də yeni, mütərəqqi, demokratik cərəyanın banisi M.F.Axundov idi. Tənqidi realizmi Azərbaycanda ədəbi məktəb səviyyəsinə yüksəldən M.F.Axundov ədəbi elmi tənqidi rels üzərinə qaldırdı. Onun başladığı işi H.B.Zərdabi, N.Nərimanov, S.M.Qənizadə, M.M.Nəvvab, Firudin bəy Köçərli ləyaqətlə davam etdirdi və kamilləşdirdi.

Ədəbiyyat – qabaqcıl rus və dünya ədəbiyyatının mütərəqqi ənənələrinin təsiri altında ədəbiyyatda xəlqilik, maarifçilik, demokratizm prinsipləri möhkəmlənirdi. M.F.Axundov tərəfindən qoyulan ənənələr 80-90-cı illərdə Eynəli Sultanov, N.Nərimanov, Ə.Haqverdiyev, S.M.Qənizadə, S.Ə.Şirvani, N.B.Vəzirov, C.Məmmədquluzadə, R.Əfəndiyev və başqaları tərəfindən davam etdirilirdi. Həmin ədiblərin yaradıcılığında Azərbaycan ədəbi Milli dilinin formalaşdırılması davam edirdi. XIX əsrin ikinci yarısında elmi əsərlərin çoxu Azərbaycan dilində yazılırdı.

Azərbaycan ədəbiyyatı tarixində qüvvətli satirik və maarifçi şair kimi tanınan S.Ə.Şirvani nəsr sahəsində müəyyən iz qoymuşdu. Onun hekayələrindən «Nəkir və Munker», «Talıbxan»ı göstərmək olar. Nəsr və şeirlə yazılmış 8 təmsilin müəllifidir. Onların içərisində «Tülkü və çaqqal» daha maraqlıdır.

S.M.Qənizadənin yazdığı «Müəllimlər iftixarı», «Gəlinlər həmayili», «Allah divanı», «Qurban bayramı» hekayə və povestləri bədii nəsrin yaxşı nümunələri hesab edilə bilər.

Keçən əsrin sonlarında ədəbi fəaliyyətə başlayan maarifçi-pedaqoq, böyük demokrat C.Məmmədquluzadənin «Danabaş kəndinin əhvalatları» povesti bədiili-

yi və realizmi cəhətdən inqilabdan əvvəlki ədəbiyyatımızda misli görünməmiş əsər idi. XX əsrin əvvəllərində onun yaradıcılığı daha da çiçəkləndi.

Bu dövr ədəbiyyatımızı N.Nərimanovun ədəbi-bədii publisist əsərləri tamamilə yeni yüksəkliyə qaldırdı, ideya istiqamətini müəyyənləşdirdi. «Bahadır və Sona» romanı ilk realist roman kimi müəllifinə ölməz şöhrət qazandırdı.

Dramaturgiya sahəsində M.F.Axundovun ənənələrini N.B.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov, R.Əfəndiyev davam etdirdi.

XIX əsrin ikinci yarısında poeziya əsas etibarilə dörd qol üzrə – yazılı ədəbiyyatda aşıq şeiri, realist satirik cərəyan, qəzəl şeiri və dini mərsiyyə şeiri – inkişaf edirdi. Bu dövrün xalq aşıqlarından Dədə Ələsgər, aşıq Nəcəfqulu, Hüseyn Bozalqanlı, Çoban Əfqan, Mola Cümə və başqaları böyük şöhrət qazanmışdı.

Qəzəlçiliyin geniş yayılması ilə əlaqədar olaraq Bakıda, Şamaxıda, Qarabağda, Lənkəranda, Ordubadda şairlərin bir sıra ədəbi məclisləri təşkil olunmuşdu. Şuşadakı «məclisi-üns» ədəbi məclisin üzvlərindən biri xan qızı Xurşidbanu Natəvan (1832-1897) idi.

Bu dövrdə realist satirik poeziyanın ən görkəmli nümayəndəsi S.Ə.Şirvani idi. O, zəngin irs qoyub getmişdi.

Mədəniyyət sahəsində ən böyük nailiyyətlərdən biri Milli mətbuatın yaranması oldu. Ziyalıların qabaqcıl nümayəndələri Milli mətbuatın əsasını qoymaq üçün min cür əziyyətə qatlaşırdılar. H.B.Zərdabinin məşəqqətli mübarizəsindən sonra istənilən məqsədə nail olundu. 1875-ci il iyunun 22-də «Əkinçi» qəzetinin birinci nömrəsi çapdan çıxdı. 1877-ci il sentyabrın 29-dək çap olunan «Əkinçi» qəzeti ayda iki dəfə 300-400 tirajla çap olunmaqla cəmi 56 nömrəsi çıxmışdı. «Əkinçi» qəzeti «Daxiliyyə», «Əkin və ziraət xəbərləri», «məktubat», «elmi xəbərlər» və «təzə xəbərlər» başlıqları altında 5 şöbəyə bölünürdü.

«Əkinçi» qəzetinin nəşri dayandırıldıqdan sonra 1879-cu ildə Tiflisdə Azərbaycan dilində «Ziya» adlı yeni qəzet çıxmağa başladı. Qəzet həftədə bir dəfə nəşr edilirdi. Həcmi 4-8 səhifədən ibarət idi. Cəmi 76 nömrəsi buraxıldı. Qəzetin redaktoru mürtəce baxışlı ziyalı olan Seyid Ünsizadə idi. 1880-ci ilin sonunda «Ziya» qəzeti «Ziyayi Qafqaziyyə» adı ilə çıxmağa başladı. Onun nəşri 1884-cü ilin iyun ayına qədər davam etdi. Bu müddət ərzində 104 nömrəsi çıxdı. Bu qəzetin nəşri davam etməklə, 1880-ci ilin yanvarında Tiflisdə «Ziya» mətbəəsində «Kəşkül» adlı yeni bir qəzet nəşrə başladı. Onun naşiri demokratik ziyalıların nümayəndələrindən olan Cəlal Ünsizadə idi. «Kəşkül» həftədə bir dəfə nəşr olunurdu. Onun cəmi bir nömrəsi çapdan çıxdı. «Kəşkül» qəzeti 1891-ci ilə qədər nəşr olundu.

70-90-cı illərdə Bakıda burjuaziyanın vəsaiti ilə onun ideologiyasını təbliğ edən bir sıra («Bakinskiye izvestiya», «Kaspi» və s.) qəzetlər nəşr edilirdi.

Əsrin sonunda Bakıda 16 mətbəə fəaliyyət göstərirdi.

Milli teatrın təşəkkül tapması xalqımızın mənəvi həyatında böyük hadisə oldu. 1873-cü ildə Bakıda çalışan bir sıra ziyalının təşəbbüsü ilə Milli teatr yaradıldı. İlk teatr tamaşası 1873-cü il martın 22-də Novruz bayramı günündə Bakı realnı məktəbi teatr həvəskarları truppasının təşəbbüsü ilə hazırlanmışdı. Onlar

M.F.Axundovun «Hacı Qara» komediyasını göstərmişlər. Bununla Milli teatrın əsası qoyuldu. Bu tamaşadan sonra 80-90-cı illərdə ətrafında yeni qüvvələr toplanan Bakı həvəskarlar truppası 1883-cü ildə peşəkar teatr qrupuna çevrildi. Az vaxt içərisində Bakıda bir sıra istedadlı teatr xadimləri Cahangir Zeynalov, Həbibbəy Mahmudbəyov, Nəcəfqulu Vəliyev, H.Sarabski və b. yetişdi. 1895-ci ilin yanvarında Bakıda həvəskar aktyorlar tərəfindən N.Nərimanovun «Nadanlıq» pyesi tamaşaya qoyuldu. Bir il sonra müəllifin «Dilin bəlası» və ya «Şamdan bəy» pyesi tamaşaya qoyuldu. Tamaşadan yığılan pulun bir hissəsi Nərimanov kitabxanasına sərf edildi.

Maarifə və mədəniyyətimizə böyük qayğı göstərən kapitalist H.Z.Tağıyev 1883-cü ildə teatr binası tikdirdi (hazırda Ş.Qurbanov adına Musiqili Komediya teatrının binası).

Musiqi – əsrin birinci yarısında olduğu kimi, musiqi iki istiqamətdə inkişaf edirdi. Onlardan birini əsrlər ərzində püxtələşən, xalqın həyatı ilə sıx bağlı olan və peşəkar, ustad aşıqlar tərəfindən inkişaf etdirilən aşıq yaradıcılığı təşkil edirdi. Digəri, xanəndə və sazəndələrin yaradıcılığını təmsil edən istiqamət idi. Onların hər birinin öz ansamblı və repertuarı vardı.

XIX əsrin ikinci yarısında musiqi ifaçılığı sahəsində istedadlı ustalar yetişmişdi. Onların sırasına Xarrat Qulu, Sadıqcan, Hacı Hüsü, Cabbar Qaryağdı, Ələsgər Abdullayev, Keçəçi Məmməd və onlarla başqaları daxil idi.

Musiqi xadimlərinin beşiyi, Qafqazın konservatoriyası Qarabağın ürəyi Şuşa idi. Şuşadakı musiqi məktəbləri musiqinin yayılmasında və peşəkar xanəndələrin və sazəndələrin yetişdirilməsində misilsiz rol oynamışdı.

Kapitalizmin sürətlə inkişafı Bakıda tikinti işlərinin geniş miqyas almasına səbəb oldu. Bir-biri ilə rəqabətə girən milyon sahibləri zənginliyi və təmtəraqı ilə diqqəti cəlb edən gözəl binalar tikdirirdilər. Bu möhtəşəm binalar şəhərə yaraşıq verməklə bərabər, əvəzsiz abidələrə çevrilirdilər. Onlar indi də müasir Bakının gözəl inciləridir.

Keçmiş əsrlərdə tikilmiş abidələrin bərpası sahəsində də iş aparılırdı. 50-ci illərdə Şəkidə xan sarayının bərpası başa çatdırıldı.

Rəssamlıqda və təsviri sənətdə M.M.Nəvvabın, X.Natəvanın, M.Q.İrəvaninin əsərləri marağa səbəb olurdu.

# FƏSİL 15. ŞİMALİ AZƏRBAYCAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ (1900-1918-ci İL)

**§ 1.** *XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi vəziyyət.*
**§ 2.** *Azərbaycanda milli təfəkkürün formalaşması.*
**§ 3.** *Azərbaycan I Dünya müharibəsi illərində.(1914-1918).*
**§ 4.** *Cənubi Azərbaycan 1905-1911-ci illərdə Məşrutə inqilabı dövründə. Səttarxan.*
**§ 5.** *XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti.*

## *§ 1. XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi vəziyyət*

**1900-1903-cü illər iqtisadi böhranının Azərbaycan iqtisadiyyatına təsiri. Neft və digər sənayesi sahələri.** XX əsrin əvvəllərində Rusiya inhisarçı kapitalizm mərhələsinə qədəm qoymuşdu. Müstəmləkəçilik sisteminə uyğun olaraq milli ucqarlar iqtisadi cəhətdən Rusiyanın təsərrüfat sisteminə uyğunlaşdırıldığı üçün XX əsrin əvvəllərində Rusiyanin müstəmləkəsi olan Azərbaycanda da kapitalist istehsalı sürətlə inkişaf edirdi. Çarizmin müstəmləkə siyasəti inhisarların meydana gəlməsinə şərait yaradırdı. Rusiyaya güclü xarici kapital axını nəticəsində Rusiya kapitalizmi Qərbi Avropadan asılı vəziyyətə düşmüşdü. Rusiyaya axışan xarici kapital əsasən imperiyanın milli ucqarlarına, o cümlədən yüksək gəlir gətirən Azərbaycan neft sənayesinə yönəldilmişdir.

Lakin 1900-1903-cü illərdə bütün dünyanı bürüyən iqtisadi böhran Rusiyanın iqtisadi-siyasi həyatda daha ağır fəsadlara yol açdı. Başqa kapitalist ölkələrə nisbətən Rusiyada böhranın təsiri daha dərin iz buraxdı. 1900-1903-cü illər ərzində ölkədə 3 minədək iri və xırda müəssisələr bağlanmışdı, imperiyanın iqtisadi həyatı iflic halına düşmüşdü.

Böhran Rusiyanın kapitalist sənayesini əhatə etdiyi kimi Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərdi, xüsusilə də neft sənayesində özünü daha güclü surətdə biruzə verdi. İstehsalla tələbat arasındakı kəskin uyğunsuzluq iqtisadi böhranı daha da dərinləşdirirdi. Qiymətlərin kəskin şəkildə aşağı düşməsi Bakı neft birjalarının fəaliyyətinin dondurulmasına səbəb olmuşdu..

Lakin neft məhsullarına olan tələbatın azalmasına baxmayaraq Bakı mədənlərində neft hasilatı artmaqda davam edirdi. Bazarda tələbat olmadığına görə təkcə 1901-ci il martın 1-nə qədər 163 milyon pud neft ehtiyatı yığılıb qalmışdı. Belə vəziyyət bazar qiymətlərinin aşağı düşməsinə və neft sənayesində qeyri-sabitliyə səbəb olurdu. 1901-ci ildə neft məhsullarının qiyməti əvvəlki ilə nisbətən 43% aşağı düşdü.

Böhran neft istehsalı və emalı ilə məşğul olan şirkətlərin də vəziyyətinə ciddi təsir göstərmişdi. 167 şirkətdən 1902-ci ildə ancaq 136-sı neft çıxarılmasını davam etdirirdi. 1903-cü ilin sonlarına yaxın isə 170 şirkətdən ancaq 153 fəaliyyət

göstərirdi. Xırda və ota müəssisələrin rəqabətə davam gətirə bilməməsi nəticəsində, təkcə 1901-ci il ərzində Bakıda 13 zavod ya satılmış, ya da başqa neft cəmiyyətləri tərəfindən icarəyə götürülmüşdü.

Beləliklə, böhran illərində neft məhsulları qiymətlərinin kəskin aşağı düşməsi xırda və orta sahibkarların iflasına səbəb olmuş, neft istehsalınının iri inhisarların əlində cəmləşməsinə şərait yaratmışdı. 1901-ci ildə Bakıdakı 146 şirkətdən beş ən iri şirkət (Nobel qardaşları birliyi, Rotşild, Mantaşev və K*, Xəzər-Qara dəniz birliyi, Bakı neft cəmiyyəti) bütün neft istehsalının 42,5%-ni öz əlində cəmləşdirmişdi. Bu neft kompaniyaları içərisində isə başlıca rolu Nobel qardaşları, Rotşild və Mantaşovun şirkətləri oynayırdı.

Bu dövrdə neft daşınması və ixrac sahəsində neft sənayeçiləri arasında kəskin mübarizə gedirdi. Nobel qardaşları, Rotşild və digər iri neft sahibkarları neft ixracını öz inhisarları altına almağa çalışırdılar. Artıq London neft sindikatı "Konsolideyted petrolium" ingilis bazarında ağ neft ticarəti üzrə nəzarəti ələ keçirmiş, Amerika tresti "Standart oyl" ilə razılaşmasına görə 40%-dən artıq Rusiya neft məhsullarını bu bazara buraxmamağı öz öhdəsinə götürmüşdü.

Beləliklə, neft ixracı sahəsində iri inhisarçılar arasında kəskin rəqabət başlamışdı. 1902-ci il iyulun əvvəllərində Bakı neft sahibkarlarının özlərinin xüsusi ixrac sindikatını təşkil etmək cəhdi "Nobel qardaşları birliyi", "Xəzər-Qara dəniz cəmiyyəti" kimi iri inhisarların kəskin müqavimətinə rast gəldi və uğursuzluqla nəticələndi. İxrac uğrunda mübarizədə dünya bazarında xüsusi mövqeyə sahib olan iri, xarici şirkətlər qalib gəldi.

Qeyd etmək lazımdır ki, qiymətlərin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq Azərbaycan neft sənayesi bütövlükdə yenə də iri inhisarlar üçün böyük gəlir gətirən bir sahə idi. Məsələn, 1902-1904-cü ilərdə "Nobel qardaşları şirkəti" neftdən 9,3 milyon manat, "Bakı neft cəmiyyəti" isə 1,5 milyondan artıq nəqd gəlir əldə etmişdilər.

Bakı nefti uğrunda mübarizədə Britaniya şirkətləri daha çox fəallıq göstərirdilər. 1898-1903-cü illər ərzində ingilis kompaniyaları Bakı neft müəssisələrinə 47 milyon manat pul qoymuşdular. 1902-ci ildə Bakıda 39,4 milyon manat kapitalı olan 11 ingilis müəssisəsi fəaliyyət göstərirdi. 1904-cü ildə Rusiyadakı Britaniya neft cəmiyyətləri ingilis kompaniyası olan "S.M.Şibayev və K*"rəhbərliyi altında birləşdirildi. 1905-ci ilin martında isə Nobel qardaşları şirkəti və "Mazut" cəmiyyəti "S.M.Şibayev və K*", "Oleum" şirkətləri ilə birləşərək Bakı neft sənayeçiləri sindikatının əsasını qoymuş oldular.

Amerikanın "Standart oyl" tresti də Bakı neftinə böyük maraq göstərirdi. 1904-cü ildə Bakı sənayeçiləri ilə bu trest arasında bağlanan qeyri-bərabər müqavilə nəticəsində Rusiyanın neft məhsulları tədricən dünya bazarlarından sıxışdırılıb çıxarılmağa başlamışdı.

Lakin Azərbaycan neft sənayesində inhisarlaşma prosesinin dərinləşməsi eyni zamanda texniki tərəqqinin ləngiməsinə, neft istehsalının azalmasına səbəb olduğu üçün Rusiya tədricən dünya neft hasilatındakı birinciliyi itirirdi.Belə ki,

Rusiyada istehsal olunan neftin 83%-i Bakıda çıxarılsa da neft sənayeçiləri müasir texnologiyalara vəsait qoymaqdan çəkindiyi üçün Bakı neft istehsal texnikası XIX əsrin 80-90-cı illəri səviyyəsində qalmışdı.

Neft sənayesindəki durğunluq iri kapital axınının da azalmasına səbəb olmuşdu. Bundan başqa Rusiyanın rus-yapon müharibəsindəki müvəffəqiyyətsizliyi və 1905-1907-ci illər inqilabı xarici inhisarların çar hökumətinə inamını azaltmış və bu ölkəyə kapital qoymaqdan çəkindirmişdi. Neft sənayesindəki bu durğunluq I Dünya müharibəsi ərəfəsinədək davam etdi.

Böhran əlaməti neft sənayesi ilə bərabər metallurgiya, ipəkçilik, balıqçılıq, duz istehsalı sənayesində də özünü göstərməkdə idi. Beləki,1900-1903-cü dünya iqtisadi böhranı illərində

1900-cü il 1903-cü il

mis filizi istehsalı 3,9 milyon puddan 3,2 milyon puda

mis əridilməsi 199499 puddan 149462 puda

duz istehsalı 439 min puddan 345,2 puda

balıq sənayesi isə 73,7mln.ədəddən 57,7 mln. ədədə düşmüşdü

Bu dövrdə sənaye böhranı iri şəhərlərin ticarət dövriyyəsinə mənfi təsir göstərməsinə baxmayaraq , bütövlükdə götürdükdə Azərbaycabda ticarətin həcmi artmaqda idı. Bakıda hər il baharda təşkil olunan ticarət yarmarkasına 1903-cü ildə gətirilən malların məbləği 1902-ci ilə nisbətən 146,4 min manat, satılan malların məbləği isə 98,7 min manat yüksəlmişdı.

**Kənd təsərrüfatı.** XX əsrin əvvəllərində Azərbaycan kəndlilərinin əsas məşğulliyyəti əkincilik olaraq qalırdı. 1900-1903-cü illərdə Azərbaycabda ildə orta hesabla 50 mln. puda qədər taxıl istehsal olunurdu. Bu dövrdə barama istehsalı və ipəkçilik üzrə də Azərbaycan Zaqafqaziyada mühüm yer tuturdu. Rusiya sənayesinin mahlıca olan tələbatının artması nəticəsində Azərbaycabda pambıqçılıq təsərrüfatı da genişlənməkdə idi. Yelizavetpol quberniyasının 8 qəzasından 6-da pambıq becərilirdi. Bakı quberniyasının Cavad və Göyçay qəzalarında pambıqçılıq daha çox inkişaf etmişdi.

Azərbaycabda kənd təsərrüfatı sahələrindən biri olan tütüncülik , keçən əsrlərdə olduğu kimi , yenə də Zaqatala dairəsi, Quba, Şəki qəzalarında inkişaf etdirilirdi. Azərbaycanın kənd təsərrüfatında mühüm yeri olan bağçılıq və üzümçülüklə isə əsasən Yelizavetpol quberniyasının Şuşa, Yelizavetpol, Qazax və Ərəş qəzalarında, Bakı quberniyasının Göyçay, Bakı, Şamaxı qəzalarında məşğul olurdular. 1903-cü ildə Bakı quberniyasında bağların sahəsi 10948 desyatinə, Yelizavetpol quberniyasında isə 11835 desyatinə bərabər idi.

Lakin bu dövrdə dövlət xəzinəsinə, bəylərə, mülkədarlara və sələmçilərə ağır vergi və mükəlləfiyyətlər ödəyən Azərbaycan kəndlilərinin vəziyyəti çarizmin milli-müstəmləkə siyasəti ilə daha da ağırlaşmışdı. 1900-cü il mayın 1-də çar hökumətinin guya Azərbaycan kəndlilərinin torpaq problemini həll etmək üçün dövlət kəndlilərinə töycü (məhsul vergisi) ödəmək şərtilə xəzinə torpaqlarından daimi istifadə etmək hüququnu verdi. Lakin əslində bu xüsusi mülkiyyət hüququ

deyil, yalnız xəzinənin xeyrinə ağır töycülər ödəmək şərtilə torpaqdan daimi istifadə etmək hüququ idi.

**Carizmin köçürmə siyasəti.** Onsuz da aztorpaqlılıqdan əziyyət çəkən Azərbaycan kəndlilərinin vəziyyətini çarizmin milli ucqarlarda yeritdiyi müstəmləkəçi torpaq siyasəti daha da ağırlaşdırırdı.Torpaq getdikcə daha geniş miqyasda alqı-satqı vasitəsinə çevrildiyindən və əkin sahələrinin genişlənməsi ilə əlaqədar olaraq qiyməti yüksəlməkdə olan kəndli torpaqları bəy və mülkədarlar tərəfindən zəbt olunurdu. Üstəlik də, Rusiya imperiyası 1861-ci ildən etibarən təhkimçilikdən azad etdikləri minlərcə rus kəndlisini münbit Azərbaycan torpaqlarında yerləşdirməyə başlamışdı. Onsuz da yetişdirdiyi məhsulun çox hissəsi əlindən alınan Azərbaycan kəndlilərinin vəziyyəti ,üstəlik torpaqlarının bir qisminin rus kəndlilərinə verilməsilə daha da ağırlaşmışdı. Kəndlilərin torpağının getdikcə azalmasına baxmayaraq, XX əsrin əvvəllərində carizm Azərbaycabda köçürmə siyasətini yeritməkdə davam edirdi və köçürülənlər əsasən yerli kəndlilər hesabına torpaqla təmin edilirdilər.

Beləliklə, Rusiyada həyata keçirilən Stolıpin aqrar islahatının Azərbaycana da tətbiq edilməsinin əsas mahiyyəti torpaqsız rus kəndlilərinin torpaq problemini onların mərkəzi rus quberniyalarından milli ucqarlara—Sibirə,Orta Asiyaya, Qafqaza köçürmə yolu ilə həll etmək idi . Çar hökuməti aztorpaqlı və ya torpqsız rus kəndllərini müxtəlif vasitələrlə köçməyə şirnikləndirirdi. Nəticədə külli miqdarda sektant rus ailələri Qafqaza köçürülərək milli ucqarlarda ruslaşdırma siyasətini davam etdirirdi. 1901-1904-cü illər ərzində Muğanda Yermolovo, Kozlyakova, Lənkəranda Alekseyevka, Pokrovka, Qubada Şirvanskoe kimi bir çox rus kəndləri salındı. 1903-cü ildə Lənkəran, Şamaxı, Cavad,və Quba qəzalarında Rusuyadan köçürülənlər üçün ayrılan pay torpaqlarının sahəsi 21236 desyatinə bərabər idi. Birinci rus inqilabı ərəfəsindəki beş il ərzində təkcə Bakı quberniyası daxilində köçürülənlər üçün 43861,95 desyatin torpaq ayrılmışdı ki, bundan 17159,2 desyatini Cavad qəzası, 5578,5 desyatini Quba, 10608,3 desyatini Lənkəran, 4515, 95 desyatini Şamaxı qəzasının payına düşürdü.

XX əsrin əvvəllərində rusların himayədarlığı və Daşnaksütün partiyasının köməyilə genişləndirilərək Türkiyə və İran sərhədləri boyunca uzanan bu erməni vilayəti müsəlman dövlətlərin Qafqaza doğru irəliləməsi cəhdlərinin qarşısını almaq üçün yaradılmış bir bufer bölgə rolunu oynayırdı.

Beləliklə, bu məqsədlə çar hökumətinin köçürmə siyasəti Azərbaycanın həm İran, həm də Türkiyə ilə sərhəd olan ərazilərdə intensiv şəkildə davam etdirilirdi. Əsas məqsəd isə imperiyanın iqtisadi tələbatını ödəməklə bərabər həm də Şimali və Cənubi Azərbaycan torpaqları arasında eyni zamanda Türkiyə ilə sərhəd bölgələrdə xristian əhalinin( rusların, ermənilərin) yerləşdirilməsi ilə möhkəm bir sədd təşkil edilməsi idi.

Bundan başqa çar hökuməti Azərbycanda xristianların sayıni artırmaq üçün, əsasən sərhəd bölgələrində Azərbaycanlıların İran və Türkiyədəki dindaşları ilə təmasını yox etmək üçün erməni və rus kəndliləri ilə bərabər , almanları da məskun-

laşdırırdılar. Rusiya onlar üçün mühacirəti asanlaşdırmaq üçün burada, hətta mühacirət müdiriyyəti də təsis etmişdi.

1905-ci il rus inqilabının süqutundan sonra çarizm Azərbaycabda özünün müstəmləkəçi köçürmə siyasətini daha da gücləndirdi.Muğan düzünə daha çox kəndli köçürüldü. Burada Pokrovka, Alekseyevka, Qriqoryevka rus kəndləri salındı. 1908-ci ildə Yelizavetpol quberniyasının müxtəlif qəzalarına 187 kəndli ailəsi köçürüldü. 1909-cu ildə Kiyev quberniyasından Quba qəzasına 2000-nə yaxın kəndli köçürüldü. Ümumiyyətlə, Azərbaycana 1908-ci ildə 1145, 1909-cu ildə 1211,1910-cu ildə isə 615 rus kəndli ailəsi köçürüldü.

Köçürülmüş kəndlilər yerli kəndlilərin ata-baba yerlərindən sıxışdırılması nəticəsində torpaqla təmin olunurdular. Məsələn, Təkəli, Çəmənli, Xalac və b,. kəndlərdən 2000-dən artıq kəndli ailəsi öz ata-baba yurdundan çıxarılmışdı. Göyçay qəzasının Qalıncaq kəndi əhalisinin də pay torpağı əllərindən alınaraq yerində İvanovka rus kəndi salınmışdı.

Köçürmə siyasətini həyata keçirən çar hökuməti Azərbaycan kəndlilərinin torpağının azlığı və ya heç bir torpağa malik olmaması ilə əsla hesablaşmırdı. Beləliklə də XX əsrin əvvəllərində çarizmin müstəmləkə siyasəti nəticəsində Azərbaycanda aztorpaqlı və torpaqsız kəndlilərin sayı daha da artdı. Ağır vergi siyasəti, torpaqsızlıq, məmur özbaşınalıqları kəndli etirazlarının güclənməsinə səbəb oldi.

**Azərbacanda kəndli hərəkatı. Qaçaqçılıq.** Rusiya imperiyasının təhkimçilikdən azad etdikləri minlərlə rus kəndlisinin münbit Azərbaycan torpaqlarında yerləşdirməsi, onsuz da yetişdirdiyi məhsulun çox hissəsi əlindən alınan Azərbaycan kəndlilərinin vəziyyətini daha da ağırlaşdırmışdı. Ağır vergilərdən cana doyan, ərazilərinin bir qismi əlindən alınıb ruslara və ermənilərə verilən, ticarət işləri ermənilərə həvalə edilən Azərbaycan xalqı bu haqsızlıqlardan doyaraq rus müstəmləkəçiliyinə qarşı qaçaq hərəkatına başladı. Rus idarəsinin ağır vergilərini ödəməkdən boyun qaçıran Nəbi adlı Azərbaycan kəndlisi ilə başlayan “Qaçaq Nəbi” hərəkatı qısa bir zamanda bütün Azərbaycana yayılaraq milli-azadlıq hərəkatına çevrildi. 1905-1907-ci illərdə qaçaqçılıq hərəkatı bütün Azərbaycanı bürümüşdü. 1907-ci ildə Cavanşir qəzasının bir neçə kəndində kəndli çıxışları baş verdi. Bunun ardınca Azərbaycanın müxtəlif yerlərində kəndli həyəcanları bürüdü. Qaçaqçılıq hərəkatı Yelizavetpol qəzasında daha güclü idi.1909-cu ildə Yelizavetpol qəzasının Goranboy-Əhmədli kəndində Qatir Məmməd adi ilə məşhur olan Məmməd Əli oğlu Məmmədovun(1893-1919) başçılığı altında kəndli silahlı dəstəsi, 1910-cu ildə Kərbalayi Əsgərin üsyançı dəstəsi, Qaçaq Məşədi Yolçunun dəstəsi, və b. hökumət və torpaq sahibləri üçün zəhmli bir qüvvəyə çevrilmişdi.

Göründüyü kimi, çar hökumətinin kəndlilərin torpaq mülkiyyətinə dair verdiyi qanunlar (1900-cü il 1may və 1903-cü il 21 aprel qanunları ) problemi həll etmək əvəzinə daha da mürəkkəbləşdirdi. Bu problem 1912-1913-cü illərdə həyata keçirilən aqrar qanunların verilməsinə qədər həll edilməmiş qaldı. 1912-ci il dekabrın 20-də Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satılması haq-

qında qanun verildi. Lakin bu qanun Zaqatala dairəsinə yalnız 1913-cü ildə şamil edildi. 1912-1913-cü il qanunları Azərbaycan kəndlilərinin böyük əksəriyyətini təşkil edən xəzinə-dövlət kəndlilərinə aid edilmədi.

**Ticarət.** XX əsrin əvvəllərində Azərbaycabda ticarət kapitalının təmərküzləşməsi prosesi sürətlənmişdi. İnhisar və kredit ticarəti inkişaf edirdi, iri kapitalist ticarət müəssisələri ilə yanaşı kiçik və orta ticarət müəssisələrinin də sayı artmışdı, iri şirkət və kompaniyaların satışı genişlənmişdi. Bu dövrdə daxili ticarətin təşkili sistemi təkmilləşir, onun formaları genişlənirdi. 1904-cü ildə Bakı quberniyasında 104 min manat illik dövriyyəsi , 11,4 mln. manat illik mənfəəti olan 5154 ticarət müəssisəsi fəaliyyət göstərirdi.Yelizavetpol quberniyasında da ticarət müəssisələrinin sayı çoxalır, illik dövriyyəsi artırdı.1909-cu ildə 17 milyon, 1910-cu ildə isə 16,7 milyon manatlıq ticarət dövriyyəsi olmuşdu. Ticarət kapitalının təmər-küzləşməsi prosesi sürətlə gedirdi. Təkcə Bakı şəhərində 1904-cü ildə 56, 1910-cu ildə 98, 1913-cü ildə

200 ticarət evi var idi. 1910-cu ildə Gəncə, Şuşa, Şəki və Naxçıvanda 7 ticarət evi fəaliyyət göstərirdi.

### *§ 2. Azərbaycanda milli təfəkkürün formalaşması*

XX əsrin əvvəllərində bir-birinin ardınca baş verən iqtisadi böhranlar (1900-1903, 1906-1908) nəticəsində işsizlik artmaqda idi və işçilərin iqtisadi vəziyyəyi ağırlaşmışdı, kəndlilərin narazılıqları güclənmişdi. Rusiyanin digər milli ucqarlarında olduğu kimi Azərbaycabda da ictimai-siyasi hərəkat canlanmışdı. Çarizm bu hərəkatın milli-azadlıq hərəkatına çevrilməsinin qarşısini almaq üçün 1902-ci il yanvar ayında fövqəladə vəziyyət elan etdi. Bu arada inqilabçı təşkilatlar Azərbaycan işçıləri arasında təbliğatı genişləndirməyə səy göstərirdilər.

Azərbaycanda genişlənməkdə olan milli müstəmləkə hərəkatında iki müxtəlif istiqamət gözə çarpırdı: 1) türk və islampərəst milli burjua hərəkatı; 2) bu hərəkatdan öz məqsədləri üçün istsfadə etməyə çalışan bolşevik erməni-rus ittifaqının təsiri altına düşən sosialist hərəkatı.

Bu dövrdə Rusiyada sosial-inqilabi hərəkatı genişlənmişdi.Bu hərəkatın ən nüfuzlu partiyası olan Rusiya Sosial-Demokrat Fəhlə Partiyası (RSDFP) Azərbaycanın siyasi həyatına da nəzarəti ələ almaq məqsədilə 1901-ci ildə partiyanın Bakı komitəsini yaratdı. Lakin Bakıda yaradılan bu komitənin tərkibində bir nəfər də olsun azərbaycanlı yox idi. Hər vasitə ilə güclü sənaye mərkəzi olan Bakıda sosial hərəkata nəzarəti ələ keçirməyə çalışan bu təşkilat özünün mətbuat orqanı "İskra" qəzetini və digər inqilabi ədəbiyyat çap etmək üçün burada "Nina" gizli mətbəəsini təşkil etdi.

**Dekabr ümumi tətili**. **İlk kollektiv müqavilə**. 1900-1904-cü illərdə Bakida sosial gərginlik artmaqda idi. 1901-1902-ci illərdə Bakı fəhlələri 1mayı kütləvi nümayişlərlə qeyd etdi, 1903-cü il iyulun 1-də ümumi tətil keçirildi. Nəhayət getgedə artan gərginlik 1904-cü ilin dekabrın 13-də başlayan böyük siyasi tətillə

partladı. İlk olaraq tətilə başlayan “Xəzər-Qara dəniz cəmiyyəti” zavodunun fəhlələrinə daha sonra Nobel qardaşları, Rotşild, Mantaşev şirkətlərinin fəhlələri, bütün Balaxanı-Sabunçu, Bibiheybət neftçiləri, Qara şəhər və Ağ şəhərin müəssisələri və s.-nin işçiləri də qoşuldular.Dekabr tətilində RSDFP Bakı komitəsi ilə bərabər Lev, İlya, Qleb Şendrikov qardaşlarının təşkil etdiyi “Müstəqil işçi hərəkatı” və ya “Balaxanı və Bibiheybət işçi İttifaqı” və milli sosial-demokrat “Hümmət” təşkilatları da siyasi fəaliyyət göstərirdilər. 1903-cü ildən bəri bolşevik və menşevik qruplarına parçalanmış RSDFP üçün ciddi rəqib olan şendrikovçular əsas diqqəti iqtisadi xarakter daşıyan məsələlərə yönəltmişdilər. Azərbaycabda siyasi həyatin canlandığı belə bir vaxtda müsəlman işçiləri arsında təbliğat aparan milli sosial-demokrat təşkilatı “Hümmət”in sıralarında S.M.Əfəndiyev, M.Məmmədyarov, Ə.Axundov, B.Sərdarov, M.Əzizbəyov, N.Nərimanov fəaliyyət göstərmişlər.

1904-cü il dekabr tətili Bakı fəhlələrinin ən böyük tətili oldu və Rusiyanın inqilabi mübarizə tarixində ilk dəfə olaraq fəhlələrin qələbəsi ilə başa çatdı. Dekabrın 30-da tətilçilərlə neft sənayeçiləri arasında danışıqlar müvəffəqiyyətlə başa çatdırıldı və fəhlələrin “Mazut konstitusiyası” adlandırdıqları ilk müştərək müqavilə imzalandı. Nəhayət .dekabrın 13-də başlayan Bakı fəhlələrinin ümumi tətili qalibiyyətlə başa çatdırıldı.

Dekabr günlərində keçirilən Bakı tətili 1905-ci ilin yanvarında başlayan Ümumrusiya inqilabı üçün bir başlanğıc oldu. Belə ki, dekabr tətilindən cəmi bir neçə gün sonra Rusiyanin çarlıq rejimini kökündən sarsıdan 1905-1907-ci illər I rus inqilabı baş verdi. Rus despotizmi bu illərdə aldığı zərbələrdən bir daha özünə gələ bilmədi.

1905-ci il yanvarın 9-da Peterburqda nümayiş içtirakçılarının gülləbaran edilməsi tarixə “Qanlı bazar” hadisəsi kimi daxil oldu və imperiyanın hər yerində, o cümlədən Azərbaycabda da etiraz çıxışları və tətillərin başlamasına səbəb oldu. “Qanlı bazar” hadisəsi Bakıda çox böyük əks-səda doğurdu. Bakı müəssisələrində başlanan tətilə Azərbaycanın bir çox bolgələrinin işçiləri, o cümlədən Gəncə, Gədəbəy fəhlələri də qoşuldular.

**1905-1907-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti**. Bakıda fəhlə hərəkatlarının belə geniş vüsət aldığını görən hökumət dairələri burada azərbaycanlılarla ermənilər arasında milli nifaq salmaq qərarına gəldilər və buna nail də oldular. İlk partlayış Bakıda başladı. 1905-ci il fevralın 6-da Bakıda ermənilərin azərbaycanlılara qarşı başlanan soyqırımı 9-dək davam etdi. Bakıda 3 gün sürən bu qırğın 20-21 fevralda İrəvanda, may ayinda Naxçıvanda, iyulda Qazaxda təkrarlandı.

Çarizm milli qırğınlarla bərabər inzibati tədbirlərə də əl atdı. Çar hökuməti Azərbaycanda repressiyaları gücləndirmək üçün fevralın əvvəlində Bakıda fövqəladə vəziyyət elan etdi. Çar II Nikolay 1905-ci il fevralın 26-da “Qafqazda tezliklə sülh və sakitliyi yaratmaq üçün ” yenidən Qafqaz canişinliyinin bərpa edərək İ.İ.Vorontsov-Daşkovu təcili şəkildə Qafqaz canişini kimi bölgəyə göndərdi. Bu təcrübəli və şovinist siyasətçi özünü guya Qafqazdakı bütün millətlərin qoruyucu-

su kimi göstərməyə cəhd etsə də, əslində ancaq ermənilərə havadarlıq edirdi və Rusiya imperiyasını "Parçala, hökm sür!" siyasətini bölgədə böyük məharətlə həyata keçirirdi. Onun bölgədə ilk işi Qafqazda Rusiyanın dayağı olan ermənilərlə dostluq münasibətlərini təzələmək oldu. Vorontcov-Daşkov Qafqazdakı hadisələri uzun müddətli və geniş miqyaslı bir siyasi vəziyyət kimi qiymətləndirirdi. O, hər zaman türklərə, o cümlədən azərbaycanlılara qarşı ermənilərdən başlıca qüvvə kimi istifadə etmək tərəfdarı idi. Çara göndırdiyi məxfi məktublarda da öz mövqeyini sərgiləyən ermənilərin himayəçisi Vorontcov-Daşqov hələ I Pyotrun vaxtından ermənilərin Rusiyaya olan sədaqətini xatırladırdı və məsləhət görürdü ki, erməniləri himayə etsin. Müharibə zamanı onlardan Osmanlı sultanlığına arxadan zərbə endirmək və yaşadıqları əraziləri rus ordusunun hərb meydanına çevirmək üçün istifadə etməyi tövsiyyə edirdi.

Bu siyasətin nəticəsi idi ki, Azərbaycanın ən münbit torpaqlarında yerləşdirilən ermənilər Azərbaycan iqtisadiyyatinin inkişafından azərbaycanlılardan daha çox mənfəət (10 dəfədən artıq) əldə edirdilər. Onların aldığı neftli pay torpaqları azərbaycanlılarınkından 10 dəfə artıq idi, 167 neft şirkətindən əksəriyyəti xırda müəssisələr olmaqla cəmi 49 şirkət azərbaycanlılara məxsus olduğu halda, zəngin erməni ailələri 55 orta və iri şirkətin sahibi idilər. 1900-cu ildən etibarən Bakı quberniyasındakı 115 sənaye şirkətinin 29% ermənilərin, yalnız 18% Azərbaycanlıların idi. Şərabçılıq, balıq sənayesi, tütün istehsalı kimi gəlirli sahələr də ermənilərin əlində idi.

Belə iqtisadi uyğunsuzluq iş yerlərinin bölgüsündə də özünü göstərirdi. Yüksək vəzifə tutan ermənilər 25% təşkil etdiyi halda 70% azərbaycanlı dövlət idarələrində heç bir vəzifə tutmurdu və az maaşla fəhlə olaraq çalışırdı. XX əsrun əvvəllərində dünyanın tanınmış iş mərkəzlərindən birinə çevrilən və bir çox iş adamlarının axın etdiyi Bakıya 50 minə yaxın erməni də toplanmışdı. Azərbaycanın ən böyük ticarət mərkəzi olan Bakının iqtisadi həyatda əsas yeri erməni tacirləri tuturdu. Beləliklə, rus idarəçiliyinin himayəsi altında olan ermənilər getdikcə varlandıqca, azərbaycanlılar öz ölkələrində kasıblayırdılar. Ermənilər iqtisadi cəhətdən ölkənin ağası vəziyyətində idilər.Belə iqtisadi uyğunsuzluq və rusların hər zaman erməniləri himayə etməsi ermənilərlə azərbaycanlılar arasında onsuz da gərgin olan münasibətləri daha da ağırlaşdırdı və ermənilər rusların dəstəyinə və öz iqtisadi üstünlüklərinə arxalanaraq azərbaycanlılara qarşı qırğınlar törətdilər.

Siyasi təkilatlanma sahəsində də azərbaycanlılardan xeyli üstün olan ermənilərin bu dövrdə azərbaycanlılardan fərqli olaraq ifrat millətçi "Daşnaksütün" partiyası mövcud idi . Partiyanın məqsədi Şərqi Anadoludakı Osmanlı vilayətlərinin də daxil olduğu müstəqil bir erməni dövləti qurmaq idi. Rusiya ərazisinə köçməzdən əvvəl Türkiyə torpaqlarında terrorçuluq fəaliyyəti göstərən ermənilər Rusiyanın köməyilə Azərbaycan torpaqlarında yerləşdikdən sonra burada da fəaliyyətlərini davam etdirirdilər. Hətta bu işdə bəzən onlara qarşı çıxan çar məmurlarına qarşı da terror əməliyyatları törətməkdən çəkinmirdilər. Məsələn, Qafqazın baş valisi Georgi

Qolitsın azərbaycanlılarla daha mülayim rəftar etdiyi üçün 1903-cü ildə erməni millətçiləri tərəfindən yaralanaraq Qafqazı tərk etməyə məcbur olmuşdu.

Beləliklə, ermənilər millətçi-şovinist və terrorçu Daşnaksütün partiyası ətrafında birləşdikləri halda azərbaycanlıların milli təşkilatları yox dərəcəsəndə idi. Buna görə də ermənilərin hücumları zamanı azərbaycanlılar təşkilatlanmamış, plansız və silahsız olaraq ermənilərə qarşı mübarizə apardıqları üçün ağır tələfat verdilər. Erməni terrorçularının qana buladığı kəndlərdə yüzlərlə, minlərlə müsəlman əhali (bura azərbaycanlılarla bərabər ləzgi, tat, dağ yəhudiləri və b. da aid idi.) həyatını itirdi. Ruslar bu vəhşiliklərin qarşısını ala biləcək durumda olmalarına baxmayaraq, erməniləri dəstəklədikləri üçün hadisələrə müdaxilə etmədilər.

1905-ci ilin yayında Azərbaycabda yenidən kütləvi çıxışlar artdı.Bir-birinin ardınca keçirilən tətillərin (1 may, 18 iyul, 16 avqust) təsiri altında Azərbaycabda inqilbi hərəkatın genişlənməsindən qorxuya düşən çar hökuməti yenidən erməni-müsəlman qırğını təşkil etdi. Qırğın Bakı, Gəncə, Şuşa qəzalarını və Azərbaycanın bir sıra rayonlarını əhatə etdi. 1906-ci ildə ermənilərin Azərbaycanlılara qarşı törətdikləri soyqırımın yeni dalğası başlandı. Bakı, Yelizavetpol, İrəvan quberniyalarında qırğınlar törədildi.

Bu qırğının ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilməsinə baxmayaraq dünya mətbuatında Azərbaycandakı soyqırım ermənilərin hər zamankı saxtakarlığı nəticəsində təhrif olundu və ermənilər zərərçəkən tərəf kimi təqdim edildi.

**XX əsrin əvvəllərində Azərbaycanda milli şüurun oyanması və milli hərəkat. Siyasi partiyalar.** XIX əsrin sonlarından Rusiya ziyalılarının azadlıq ideyaları tədricən imperiyanin müstəmləkəsi olan Azərbaycabda da əks-səda doğururdu. Qabaqcıi Azərbaycan ziyalılarının milli mənlik şüuru, milli təfəkkürü formalaşmaqda idi.

XX əsrin başlanğıcında Rusiyada baş verən siyasi hadisələr nəticəsinda yaranan tarixi şərait ,xüsusilə də ermənilərin azərbaycanlılara qarşı apardıqları soyqırım siyasəti Azərbaycan milli burjuaziysının da milli təfəkkürünün inkişafına mühüm təsir göstərdi. Hakim mövqedə olan rusların ermənilərə havadarlıq etməsi və azərbaycanlılara qarşı biganəliyi, erməni-daşnak partiyasının qaniçənliyi nəhayət azərbaycanlıları da təşkilatlanmağa vadar etdi.

Azərbaycanda XX əsrin əvvəllərində milli hərəkatin güclənməsinə iki əsas amil təsir göstərirdi: 1) Milli burjuaziyanın dəstəyi ilə müxtəlif təhsil ocaqlarında təhsil alaraq vətənə qayıdan Azərbaycan gəncləri milli demokratik hərəkatın yaranması və inkişafında böyük rol oynamağa başladılar. İxtisasa yiyələnməklə bərabər qabaqcıl Avropa ideologiyası ilə də tanış olan Azərbaycan ziyalıları milli özünüdərketmə, mənəvi dəyərlər, xalqın tarixi, etnik mənşəyi ilə bağlı məsələlərin araşdırılmasının zəruriliyini anladılar; 2) Çarizmin türk-müsəlman xalqlarına qarşı çevrilmiş milli müstəmləkə siyasəti nəticəsində milli hərəkatda “Milliyət və hürriyyət”, “Məşrutə və müsavat” ideyaları geniş vüsət aldı. M.Rəsulzadənin dediyi

kimi, “Millət inanmağa başladı ki, istiqlal xaricində onun üçün əlavə Azərbaycan yoxdur”.

O dövrün milli ziyalilarımızın qabaqcıl nümayəndələrindən H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağayev, N.Nərimanov, C.Məmmədquluzadə, M,Hadi, H.Cavid, Ü.Hacıbəyov, M.Ə.Sabir, A.Şaiq, Ə.Topçubaşov, F.Köçərli, M.Rəsulzadə və b. milli mətbuatdakı çıxışları xalqın milli təfəkkürünün formalaşmasında mühüm rol oynadı. Bu işdə H.Zərdabinin və M.Rəsulzadənin millətçilik və dövlətçilik, C.Məmmədquluzadənin demokratizm və Azərbaycançılıq ideyaları misilsiz rol oynadı. Türk dünyasının görkəmli ideoloqları İ.Qaspıralı, Ə.Hüseynzadə, Y.Ağçura oğlu, Ə.Ağayev və b.-nın türkçülüyə dair fikirlərində obyektiv olaraq Azərbaycanın milli müstəqilliyinin ümumtürk azadlığının tərkib hissəsi olduğu ideyası öz əksini tapırdı.

Lakin XX əsrin əvvəllərində ilk addımlarını atmağa başlayan Azərbaycan milli hərəkatının kifayət qədər təcrübəsi və elmi cəhətdən əsaslandırılmış konsepsiyası yox idi. Bu hərəkatın aparıcı qüvvəsi - formalaşmaqda olan milli burjuaziya və demokratik ziyalılar kifayət qədər yetkin deyildi. Ilk vaxtlar onlar öz mövqelərini şəhər özünüidarə orqanları, o cümlədən Bakı şəhər Duması və mətbuat vasitəsilə bildirməklə, Dövlət Dumasına şikayət ərizələri, imza toplama kompaniyaları ilə kifayətlənirdilər. Topçubaçov, Ağayev, Ziyadxanov, R.Şirvanski kimi Azərbaycan liberalları öz çıxışlarında müsəlmanların siyasi hüquqsuzluğu, onların ictimai-siyasi və mədəni-maarifçi fəaliyyətlərinin mıhdudlaşdırılması kimi problemlərə toxunaraq milləti oyanmağa, maarifçiliyin genişləndirilməsinə, xeyriyyə cəmiyyətlərinin yaradılmasına çağırırdılar. Azərbaycan ziyalıları obyektiv olaraq müstəmləkəçi imperiyanin əsarətindən qurtarmaq yolları axtarsalar da inzibati muxtariyyət haqda dəqiq proqramları yox idi. Onlar ilk vaxtlar Rusiya sosial-demokratlarının mövqeyində dayanırdilar. Hətta Azərbaycan ziyalılarının bəziləri S.M.Əfəndiyev, M.Ə.Əzizbəyov, M,Q.Mövsümov, Ə.Axundov RSDFP-nin üzvü idilər. Lakin M.Ə.Rəsulzadə, M.K.Mirqasımov, M.Hacıyev, A.Kazımov, M.H.Hacınski kimi bir çox qabaqcıl ziyalılar bolşeviklərin inzibati muxtariyyət yaratmaq kimi bəzi müddəalarına rəğbət bəsləsələr də bu partiyaya daxil olmayaraq 1904-cü ilin oktyabrında özlərinin müstəqil milli təşkilatlarını, müsəlman aləmində ilk sosial-demokrat “Hümmət” təşkilatını yaratdılar. Hümmətçilər 1904-cü ilin II yarısından 1905-ci ilin fevralınadək “Hümmət”, 1906-ci ilin dekabrından 1907-ci ilin martınadək “Təkamül”, daha sonra “Yoldaş” qəzetini nəşr etdilər. Bu işə M.Ə.Rəsulzadə, Ə.A.Axundov rəhbərlik edirdi. M.Hacinski, M.Rəsulzadə öz məqalələrində milli vəhdət, öz milli müqəddəratını təyin etmək hüququ uğrunda mübarizədə müsəlman xalqlarının birliyi ideyasını təbliğ edirdilər. Getdikcə tərəfdarları artan “Hümmət” təşkilatının artiq Bakıda deyil, Gəncə, Şuşa, Haxşıvan, Culfa, Tiflisdə , hətta Dağıstanda da şöbələri də fəaliyyət göstərirdi. 1905-ci ilin əvvəllərində Hümmət qrupuna iki bacarıqlı təşkilatçı da qatıldi. Bunlardan biri RSDFP-nin üzvü , təcrübəli inqilabçı olmuş mühəndis M.Əzizbəyov (1870-1918), digəri isə yazıçı və müəllim, eyni zamanda milli burjuaziyanin nümayəndəsi, xey-

riyyəçi Z.Tağıyevin köməyilə Odessada tibb təhsili alan N.Nərimanov (1870-1925) idi. M.Rəsulzadənin "Hümmət"də fəaliyyəti təqribən 1909-1910-cu illərə qədər, yəni təqiblərə məruz qalaraq İrana mühacirət etməsinədək davam etdi. 1907-ci ildə Stolıpin irticası dövründə "Hümmət" təqiblərə məruz qaldığı üçün xeyli zəiflədi. N.Nərimanov, M.Sərdarov kimi bəzi liderlər həbs edildi, M.Rəsulzadə, M.Əbilov, D.Bünyadzədə kimi yüzlərlə qrup üzvü İrana sürgün olundu. Buna baxmayaraq 1909-cu ilin dekabr ayında Gəncədə toplaşan bir qrup hümmətçi yenə bir proqram hazırlayaraq söz, mətbuat, dil azadlığı, təhsil azadlığı, 8 saatlıq iş günü, torpağın kəndlilərə paylanması kimi tələblər irəli sürdülər. Lakin partiya zəiflədiyi üçün bu proqramın praktik yararı olmadı və partiya öz fəaliyyətini 1917-ci ilə qədər dayandırdı. Bəzi hümmətçilər isə RSDFP-nin sıralarında çalışmağa başladılar. 1911-ci ildə M.Əzizbəyov bu partiyanin nümayəndəsi kimi Bakı Dumasına seçildi. Azərbaycan sosialistləri milli mətbuatı canlandırmağa çalışaraq "Yoldaş" adlı həftəlik bir mətbu yayınına başlasalar da, 3 nömrədən sonra 1907-ci ilin iyulunda bağlandı. 1911-ci ildə D.Bünyadzadənin redaktorluğu ilə "Bakı" həyatı, daha sonra "Arı" jurnalları nəşr olunmağa başlasa da, onlar da qısa ömürlü oldular. Bunun səbəbi I rus inqilabının məğlubiyyətindən sonra xalqın sosializmə marağının azalması və hökumətin davamlı təqibləri idi.

Daşnakların yüksək səviyyədə təkilatlanmasına qarşı ayrı-ayrılıqda mübarizə aparan azərbaycanlı qruplar rus-erməni anlaşmasına qarşı birgə hərəkət etmək istəyilə 1905-ci ilin payızında Əhmədbəy Ağayevin başçılığı ilə Gəncədə "Difai" adlı təşkilat yaratdılar. "Difai"nin qurulması ilə Gəncə Azərbaycan milli hərəkatının əsas mərkəzinə çevrildi. Bu təşkilatın yeganə məqsədi azərbaycanlılara qarşı edilən haqsızlıqların və təcavüzlərin qarşısını almaq idi. Azərbaycan milli hərəkatının ilk nüvəsini təşkil edən "Difai" təşkilatı əhali arasında yaydığı gizli vərəqələrdə "erməni-müsəlman" qırğınında Rusuyani günahlandırır, ermənilərə havadarlıq edən çar hökumətinə qarşı çıxış edirdi. "Difai" əhali arasında yaydığı intibahnamələrdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlarda Rusiyanı günahlandırırdı. Beləliklə , Şeyx Şamil üsyanından bəri çarizmin heç bir ciddi müqavimətə rast gəlmədiyi Qafqaz bölgəsində "Difai" təşkilatı əsasən Rusiya imperiyasına qarşı çıxaraq çarlıq üsuli-idarəsi ilə mübarizəyə başladı. Onun ardınca Qafqaz xalqlarının birgə mübarizəsinə yönələn "Sosial Federalist Türk İnqilabi Komitəsi", daha sonra "Difai"nin qurucuları arasına girəcək olan Rüstəmbəyov Gəncədə "Qeyrət" adlı təşkilat yaratdı. "Sosial Federalist Türk İnqilabi Komitəsi" buraxdığı gizli vərəqələrdə çar hökumətini müsəlmanların hüquqlarını məhdudlaşdırmaqda, Bakıda millətlərarası toqquşmaların təşkil edilməsində, Qafqazdq köçürmə siyasətini həyata keçirməsində ittiham edirdi. Vərəqələrdə, həmçinin əsarətin ləğv edilməsi, hər bir millətin öz müqəddaratını təyin etmək üçün Qafqaz xalqlarının birliyinə, Federal Qafqaz uğrunda mübarizə aparan bütün qüvvələrin birləşdirilməsinə çağırışlar da öz əksini tapmışdı. Daha sonra bu fikirlər "Qeyrət" təşkilatının ideyalarında da təkrarlandı.

Çarlıq rejimi get-gedə daha dərin böhranlara məruz qaldıqca Azərbaycan liberalları daha sərt bəyənatlar verməyə və Rusiya müsəlmanlarının birgə fəaliyyəti istiqamətində mübarızəsini genişləndirməyə başlamışdı. Bunun nəticəsu olaraq 1905-ci il avqustun 15-də Nijni-Novqorodda I Ümumrusiya Müsəlmanları qurultayı toplandı. Qurultaya Krım, Şımali Qafqaz, Kazan, Ural, Türküstan və Sibirdən 150 nümayəndə qatıldı. Bu qurultayın keçirilməsinə rəsmi icazə alınmadığından nümayəndələr çar hökumətilə münaqişəyə girməmək üçün bir səyahət gəmisində toplanaraq içlaslarını keçirdilər. Konfransa rəhbərliyi Qasprinski, Topçubaşov, R.İbrahimov və sonralar pan-türkizmin liderlərindən birinə çevriləcək Yusif Ağçuraoğlu edirdi. Müzakirələrin əsas mövzusu müsəlman hərəkatının təşkilatlanma məsələsi idi. Müzakirələrin nəticəsi olaraq "Rusiya Müsəlman İttifaqı" və ya qısaca olaraq İttifaq yaradılması qərara alındı. "İttigaqın" qarşısına aşağıdakı vəzifələr qoyulmuşdu:

1. Ümumrüsiya müsəlmanlarının vahid bir hərəkat daxilində cəmləşməsi;
2. Millətlərin bərabər təmsil edildiyi Konstitusiyalı Monarxiyanın qurulması;
3. Ümumrusiya müsəlmanlarının və digər Rusiya xalqlarının qanun qarşısında bərabər hüququnun təmin edilməsi və müsəlmanlara ayrıseçkilik göstərən bütün qanunların ləğv edilməsi;
4. Müsəlmanların mədəniyyət və təhsil səviyyəsinin inkişaf etdirilməsi.

Bundan başqa qurultay Müsəlman İttifaqına rəhbərlik etmək üçün daimi yeri Bakı olan Mərkəzi Komitə yaratmaq qərari aldı.Qurultayda Qaspıralı İsmayıl bəyin bütün türk birliklərinin iqtisadi-siyasi və mədəni cəhətdən inkişaf etməsi üçün tədbirlər görülməsi təklifi bütün türk nümayəndələri tərəfindən rəğbətlə qarşılandı.

İttifaqda cəmləşmiş Ümumrusiya siyasi qüvvələri Rusiya Dövlət Dumalarının bütün çağırışlarında müsəlman fraksiyasının əsasını təşkil etdi. Müsəlman parlament fraksiyası qanun layihələrinin işlənməsində, sorğuların hazırlanmasında hər zaman müsəlman qurultaylarının qərar və qətnamələrini rəhbər tuturdu.

1905-ci il dekabrın 4-də Azərbaycan burjuaziyasının kadetlərə rəğbət bəsləyən bir hissəsi İ.Hacıyev, Ə.Topçubaşov, K.SəfərƏliyev və b. Konstitusiyalı Demokratiya (kadet) partiyasının Bakı şöbəsini təşkil etmişdilər. Kadet proqramındakı konstitusiyalı monarxiya çərçivəsində parlament rejimi və digər sosial-iqtisadi islahatlarla bağlı məsələlər Ümumrusiya Müsəlman İttifaqının da proqramına uyğun gəldiyi üçün müsəlman ittifaqı kadet partiyası ilə birləşmək qərarına gəlmişdi.

Kadetlərlə ittifaq məsələsi 1906-ci il 13-23 yanvar tarixləri arsında Sankt-Peterburqda keçirilən II Ümumrusiya Müsəlmanları İttifaqında rəğbətlə qarşılanaraq qəbul edildi.

III Ümumrusiya qurultayı yenə də Nijni-Novqorodda keçirildi və bu qurultay İttifaqın Ümumrusiya Müsəlmanlarını təmsil edəcək bir siyasi partiyaya cevrilməsi kimi mühüm bir qərar qəbul etdi. Kadetlərlə eyni platformada olan İttifaq əlavə olaraq öz proqramına müsəlmanlarla bağlı din bərabərliyi, yerli idarəçilik hüquqlqrinin genişləndirilməsi, yerli dildə təhsil azadlığı və s. məsələlər də daxil etdi.

1905-ci il 17 oktyabr Manifestindən sonra bir qrup Bakı liberalı kadetlərin Bakı şöbəsi ilə sıx əlaqədə olan Konstitusiyalı Müsəlman Partiyası yaratdı. Partiyanın proqramında Zaqafqaziyanin öz məclisinin (Seym) və milli idarəçilik qruplarının olduğu müstəqil bir bölgəyə çevrilməsi ideyası öz əksini tapmışdı.

**Dövlət Dumaları və Azərbaycanlı deputatların onların işində iştirakı.** 17 oktyabr Manifestindən sonra çar hökuməti 1905-ci il dekabrın 11-də Rusiya Dumasına seçkilər haqqında yeni qanunlar qəbul edildiyini və seçki hüquqlarının genişləndiyini bəyan etdi.

I Dövlət Duması öz işinə 1906-ci il aprelin 27-də başlamasına baxmayaraq Zaqafqaziyada, o cümlədən Bakı və Yelizavetpol quberniyalarında seçkilər 1906-ci il mayın sonları üçün ancaq başa çatdı. Buna görə də I Dumaya seçilmiş 6 müsəlman namizəd –Topçubaşov, Ziyadxanov, Xasməmmədov, M.Əliyev, A.Muradxanov, Haqverdiyev parlament fəaliyyətlərinə gec başlamalı oldular. Azərbaycan deputatları imperiyanin müsəlman ucqarlarının 36 deputatını birləşdirən parlament fraksiyasına daxil oldu. Topçubaşov fraksiyanin bürosuna seçildi. Fraksiya hər bir millətin özünü idarə, muxtariyyət, ümumi icbari təhsil tərəfdarı olan kadetlərlə birgə hərəkət etmək qərarı aldı. Ümumiyyətlə, müsəlman fraksiyasının proqramı konstitusiya əsaslarına dayanaraq torpaqların milliləşdirilməsi, din məsələlərində tam muxtariyyət , bütün imperiya ərazisində müstəqil vilayət məclislərinin təsis edilməsi ilə yerlərdə geniş muxtar idarəçilik prinsipindən ibarət idi. Sonrakı dövlət dumalarında olduğu kimi I Dumada da müzakirələrin başlıca mövzusu aqrar məsələ idi. Dumada çıxış edən İ.Ziyadxanov aqrar məsələdə başlıca bəlanı çarizmin köçürmə siyasətində görürdü. İrəvan və Yelizavetpol quberniyalarında millətlərarası toqquşma barədə daxili işlər nazirliyinə yönəlmiş sorğu üzrə hazırladığı çıxışında isə İ.Ziyadxanov imperiya daxilindəki siyasi hüquqsuzluqdan narahatlığını bildirib qeyri millətlərə də ruslarla bərabər hüquq verilməsini tələb etdi və öz məruzəsində ali təhsilli azərbaycanlıların dövlət müəssisələrində vəzifə tuta bilməmələri, bəzi ali məktəblərin azərbaycanlı tələbələr üçün bağlı olması məsələlərinə də yer verdi.

Lakin müsəlman ucqarlarının deputatlarının böyük ümidlər bəslədikləri I Dumanın fəaliyyəti yarimçıq dayandırıldı. I Duma cəmi 3 ay fəaliyyət göstərə bildi və 8 iyulda car tərəfindən buraxıldı. Beləlikə də, I Duma çox qısa bir zamanda fəaliyyət göstərdiyi üçün azərbaycanlı vəkillər birada öz varlıqlarını tam olaraq hiss etdirə bilmədilər.

II Dumaya seçkilər seçki qanununa edilən dəyişikliklər əsasında 1907-ci ilin yanvar-fevral aylarında keçirildi. Lakin Zaqafqaziyadakı yeni seçki qanunları müsəlmanların xeyrinə olmamışdı. II Dumada azərbaycanlıları təmsil edəcək vəkillərin sayı cəmi 5 nəfər oldu: F.Xoyski, X.Xasməmmədov, İ.Tağıyev (milyonçu Z.Tağıyevin oğlu) Z.Zeynalov və "Şərqi Rus" qəzetinin keçmiş redaktoru M.A.Şahtaxtinski. Azərbaycan deputatları müsəlman parlament fraksiyasına , F.Xoyski və X.Xasməmmədov isə onun bürosuna daxil oldular. Fraksiyanin ayrıca kitabca şəklində nəşr olunmuş proqramında vətəndaşların hüquqları müəyyən-

ləşdirilmiş, dövlət və dini quruluş, yerli özünüidarə, məhkəmə, xalq maarifi, maliyyə və dövlət iqtisadiyyatı, aqrar və s. məsələlər üzrə müddəalar şərh olunmuşdu. Bunlardan başqa, müsəlman fraksiyası dumada qadınların hüquq bərabərliyi, seçki hüququ barədə də məsələ qaldırdı. Lakin 1907-ci il 3 iyulda II Dumanin da buraxılması ilə müsəlman xalqlarının hüquqlarının müdafiəsi üçün dumaya bağlanan ümidlər yenə də boşa çıxdı.

III Dumaya seçkilər haqda yeni qanun Rusiya milli ucqarlarının dumaya nümayəndə göndərmək hüququnu daha da məhdudlaşdırdi. Belə ki, əgər Bakı, Yelizavetpol və İrəvan quberniyalarının hər birinin əvvəlki dumaya 3 nümayəndə göndərmək hüququ var idisə, indi bütün bu quberniyalar birlikdə ancaq 2 nümayəndə seçə bilərdi. Nəticədə dumalar içərisində ən mühafizəkar olan III Dumada Zaqafqaziyanın müsəlman əhalisi tək bir nümayəndə -Xəlil bəy Xasməmmədovla təmsil edildi. III Dumada da Rusiya imperiyasını müsəlman ucarlarından olan deputatları (8 nəfər) vahid parlament fraksiyasında birləşdilər.Fraksiya ana dili, ibtidai təhsil, Qafqazda zemstvo idarələrinin təsis edilməsi, vətəndaş və siyasi azadlıqlar, köçürmə məsələsinin qaydaya salınması kimi vacib məsələlərə münasibətini bildirilirdi.

**Milli-azadlıq hərəkatı.** XX əsrin əvvəllərində Azərbaycabda gedən milli – azadlıq hərəkatında mahiyyətcə bir-birinə zidd olan 2 istiqamət – burjua-liberal və inqilabi-demokratik istiqamətlər mövcud idi. Bu istiqamətlər də öz növbəsində bir neçə qollara ayrılırdı;Azərbaycanın gələcək dövlət quruluşu, habelə Rusiyanin siyasi quruluşu və başlanmış inqilabın ortaya çıxardığı kəskin problemlərlə bağlı müxtəlif mövqelər mövcud idi. Baçlıca olaraq "Müsəlman Konstitusiya Partiyası" ətrafında birləşən və "Ümumrusiya müsəlman ittifaqı" nin nümayəndələri olan sənaye-ticarət burjuaziyası və burjua ziyaliları kadet proqramına qoşulmuşdu. Bu cərəyani Ə.Topçubaşov , Ə.Ağayev, M.Vəkilov kimi ziyalılar təmsil edirdi.

Milli hərəkatın inqilabi-demokrat cinahını isə milli sosialist partiyası olan "Hümmət" təmsil edirdi. İnqilabi-demokratik istiqamətin liderləri isə B.Sərdarov, M.Ə.Rəsulzadə, M.Hacinski, A.Kazımzadə, N.Nərimanov və b. idilər. M.Mövsümov. S.Əfəndiyev, A.Axundov kimi RSDFP-nın azərbaycanlı üzvləri isə çar bürokratiyası, rus despotizminə qarşı çıxırdı. Ziyalılar inkişafın əsas yolunu yerli dildə təhsilin genişləndirilməsində, qadın hüquqlarının qorunmasında görürdülər.

Şimali Azərbaycabdakı milli hərəkata Türkiyə və İranda meydana gələn hərəkatların da təsiri olmuşdu. Azərbaycan ziyalıları XIX əsrdə parçalanmış Azərbaycanın İran nəzarətində qalan Cənubi Azərbaycan türklərinin də problemlərinə biganə qalmır, burada baş verən 1907-1908-ci illər milli-azadlıq hərəkatını( məşrutə inqilibı) həyəcanla izləyirdilər.

XX əsrin əvvəllərində Şimali Azərbaycabdakı milli hərəkat ən çox Türkiyədə genişlənən türkçülük ideologiyasından təsirlənmişdi. Məlumdur ki, islamın olduğu qədər türkçülüyün də mərkəzi Türkiyə idi. Çarlıq rejiminin təqibinə uğrayan bir çox azərbaycanlı türkpərəst ziyalılar İstanbula gələrək türkçülük hərəkatına qoşulmuşdular. Hətta Ə.Hüseynzadə ilə İ.Qasprinki (Qaspıralı) Türkiyədə təsis olunmuş "İttihad və Tərəqqi" partiyasının Mərkəzi Komitəsinə üzv seçilmişdilər. Ziya

Gökalpın məşhur “ Türkləşmək, islamlaşmaq və müasirləşmək” ideyası Azərbaycan ziyalılarının təfəkküründə və Azərbaycan milli hərəkatında özünəməxsus yer tutmuşdu.

**“Müsavat” partiyasının yaranması.** Azərbaycan türklərinin milli-azadlıq hərəkatında heç bir təşkilat “Müsavat” partiyası qədər təsirli rol oynamamışdır.

1905-1907-ci illər inqilabından sonra qabaqcıl Azərbaycan ziyalılarının bir hissəsi Türkiyədə öz fəaliyyətlərini davam etdirirkən , Bakıda qalan bir qrup ziyalı sonralar Azərbaycanın ən böyük milli-siyasi təşkilatına çevriləcək “ Müsavat “ partiyasının əsasını qoydular. Rus inqilabının süqutu ilə xəyalları puç olmuş bir qrup keçmiş hümmətci müsəlman xalqlarının millətçi ideyalarından təsirlənərək A.Kazımzadə, T.Nağıyev və M.Rəsulzadənin rəhbərliyi ilə 1911-ci ildə Müsavat adlı bir dərnək qurdular. Bu ad müsəlmanların ruslarla bərabər hüquqlara sahib olmasını, eyni zamanda bütün islam dünyasında müstəqilliyə qovuşmaq arzusunu özündə əks etdirirdi. Müsavatın proqramı aşağıdakı müddəalardan ibarət idi:

1. Milliyət və təriqət fərqinə baxmayaraq bütün müsəlmanların birliyi;
2. Müstəqilliyini itirmiş müsəlman ölkələrinin yenidən müstəqil olmasına çalışmaq;
3. Müstəqilliklərini müdafiə etmək üçün mübarizə aparan bütün müsəlman ölkələrinə maddi və mənəvi yardım göstərmək;
4. Müsəlman millətlərin və dövlətlərin müdafiə gücünü artırmaq üçün yardım etmək;
5. Bu fikirlərin yayılmasına mane olan bütün maneələri dəf etmək;
6. Müsəlmanların birləşməsinə və inkişafına çalışan bütün partiyalarla əlaqə yaratmaq;
7. İnsanlığın rifahı və inkişafı üçün çalışan xarici partiyalarla əlaqə yaradıb fikir mübadiləsi aparmaq;
8. Müsəlmanların yaşayışı üçün zəruri olan ticarət, sənaye və iqtisadi həyatı gücləndirmək üçün hər cür vasitədən istifadə etmək;

Daha çox ziyalılar, tələbələr, tacirlər və iş adamları tərəfindən dəstəklənən “Müsavatın” proqramında Ə.Hüseynzadənin “Türkləşmək, Avropalaşmaq, İslamlaşmaq!” ideyası öz əksini tapmışdı. Hətta bu ideya sonralar Azərbaycan Cümhuriyyətinin bayrağında da təmsil olunmuşdu.

1913-cü ildən etibarən Müsavat partiyası M. Rəsulzadənin simasında təcrübəli siyasətçi və yetişmiş bir liderə sahib olaraq Azərbaycanın ən nüfuzlu partiyasına çevrilmişdi. Bu dövrdə Rəsulzadə çarın Romanovlar sülaləsinin 300 illiyi münasibətilə imzaladığı əfv fərmanından istifadə edərək Vətənə - Azərbaycana dönməyi Türkiyədə azərbaycanlı mühacirlər arsında yaşamaqdan üstün tutmuşdu. Türkiyədən dönən kimi Müsavat partiyasının sıralarına daxil olan M.Rəsulzadə çox az bir müddət içərisində partiyanin lideri səviyyəsinə yüksələrək hər zaman türk xalqlarının birliyi ideyasını təbliğ edirdi.

**Azərbaycan milli mətbuatının fəaliyyəti.** XX əsrin əvvəllərində Avropa ilə İslam mədəniyyətinin çulğalaşması nəticəsində Azərbaycan ziyalıları formalaş-

mağa başlamışdı. Qeyd etmək lazımdır ki, bu dövrdə Azərbaycan ziyalıları dedikdə, ənənəvi müsəlman məktəblərində təhsil görmüş deyil , yalnız Avropa tipli təhsil müəsisələrində yetişən ziyalılar (intellegentlər) nəzərdə tutulurdu. Rus hökumətində və rus ordusunda çalışan Azərbaycanlı məmurlar, "rus-tatar məktəbləri"-nin məzunları, rus universitetlərinin, Tiflis və Qoridəki Zaqafqaziya müəllim seminariyasının məzunları, müəllimlər Azərbaycan ziyalılarını təmsil edirdilər.

1905-ci il hadisələrindən sonra çar hökumətinin zəifləməsi nəticəsində Azərbaycan ziyalılarının fəallığı artmışdı. Xeyriyyə cəmiyyətləri, təhsil, teatr, sənət dərnəkləri gündən-günə artmaqda idi. Bu mədəni canlanmanın nəticəsi olaraq 1914-cü ildə oxuma-yazma bilənlərin sayı, həmcinin Azərbaycan dilində nəşr olunan kitabların sayı 2 dəfə artmışdı. Çar rejiminin zəifləməsi ilə Azərbaycan mətbuatı özünün qızıl çağını yaşayırdı. 1905-1917-ci illər arasında Azərbaycabda 63 qəzet və jurnal dövriyyəyə daxil olmuşdi. Azərbaycan əhalisinin hələ də oxuma-yazma bilmədiyi bir dövrdə bu çox mühüm göstərici idi.

XX əsrin əvvəllərində Bakı Rusiya müsəlmanları mətbuatının mərkəzinə çevrilmişdi. Qəzet və jurnalların bir çoxunun qısa ömürlü olmasına baxmayaraq çox geniş oxucu kütləsinə və yüksək təfəkkür səviyyəsinə malik idilər. Bunların arasında ədəbi jurnallardan "Füyuzat", gündəlik qəzetlərdən "Həyat" və "İrşad" xüsusi yer tuturdu. Hindistan , Əfqanıstan kimi uzaq yerlərdə belə abunəçiləri olan "Molla Nəsrəddin " satirik jurnalı dövrün ən populyar və mətbuat baxımından ən seçilən jurnalı idi. Hətta savadı olmayanlar belə jurnalın karikaturalarını bəyənərək ona abunə olurdular. 1906-ci ildən çıxmağa başlayan "Molla Nəsrəddin" jurnalı milli hərəkatın inqilabi-demokratik istiqamətinin ideya mərkəzi idi. C.Məmmədquluzadənin redaktor olduğu bu jurnalın ətrafında M.Ə.Sabir, Ə.Qəmküsar, O.F.Nemanzadə, Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Əzimzadə kimi Azərbaycanın qabaqcıl ziyalıları toplaşmışdı. Onlar xalqı çarizmin müstəmləkə siyasətinə qarşı mübarizəyə çağırır, hər cür milli müstəmləkə zülmünün və milli-siyasi bərabərsizliyin yox edilməsi, sosial ədalətsizliyin aradan götürülməsi, Azərbaycan xalqının siyasi azadlığı və milli hüquq bərabərsizliyinin tətbuq edilməsi kimi tələblər irəli sürürdülər. Molla Nəsrəddinçilər milli dilin və məktəblərin məhdudiyyət qoyulmadan azad inkişafı, azərbaycanlıların ümumi icbari ibtidai təhsil almasının təmin edilməsi, azərbaycanlı müəllimlərin başqa millətlərdən olan müəllimlərlə hüquq bərabərliyi, yeni tipli çağdaş məktəblər şəbəkəsinin , o cümlədən qızlar məktəblərinin genişlənməsi kimi fikirləri tətbiq edirdilər.

"Molla Nəsrəddin " jurnalının ardınca "Bəhlul"(1907), "Zənbur"(1909-1910) jurnalları da nəşr olunmağa başlamışdı. Bakıda uşaqlar üçün "Dəbistan", (1906-1908), "Rəhbər"(1906-1907), "Məktəb"(1911-1917) jurnaları da çıxırdı.

Azərbaycan mətbuatına azərbaycanlı iş adamları maliyyə cəhətdən dəstək olurdu. Azərbaycanın iqtisadi-ictimai həyatda hər zaman fəal iştirak edən Azərbaycan milli burjuaziyasının lideri Z.Tağıyev "Kaspi", "Həyat", "Füyuzat", "Tazə həyat" kimi qəzetlərin sahibi idi. Gənc torpaq sahibkarı İ.Aşurbəyov bəzi hümmətçi yayınlarla birlikdə müstəqil "İrşad" və daha sonra ədəbiyyat jurnalı "Şəla-

lə"ni maliyyələşdirirdi. Babası B.Aşurbəyov və M.Muxtarov isə gündəlik "Tərəqqi" qəzetini dəstəkləyirdi. Mətbuat azadlığı və iqtisadi dəstək qəzetçilik sahəsində bir çox istedadın ortaya çıxmasına imkan verdi.

Bu dovrün mətbuatında da 2 istiqamət özünü göstərməkdə idi: inqilabi-demokratik və ümummüsəlman, ümumtürk birliyi istiqaməti. Azərbaycanın qabaqcıl ziyalıları inqilabın sosial və siyasi cəhətlərini ön plana çəkənlərlə, bunu ümummilli bir hərəkat kimi görənlər olmaqla 2 cəbhəyə ayrılmışdı;

I qrupa daxil olan Ağayev, Topçubaşov və Hüseynzadə bir müddət "Həyat" qəzetinə rəhbərlik etdikdən sonra 1906-cı ilin fevralından "İrşad" qəzetini çıxarmağa başladılar. Çox populyar olan bu gündəlik qəzetin başlığında "Müstəqillik, Bərabərlik, Ədalət!" şüarı yer alırdı. Qəzetdə Nərimanov, Əzizbəyov, Əfəndiyev kimi hümmətcilər də çalışırdı.

1905-ci ildən etibarən milli qəzetlər artiq təkcə azərbaycanlılara deyil, Qafqaz türklərinə və eyni zamanda bütün türklərə öz oxucuları kimi səslənməyə başlamışdı. Milli kimlik, türkçülük ideyalarını təbliğ edilən Azərbaycanda "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq!" şüarı türkçülüyün əsas şüarı oldu.

1906-cı ildən dərc olunan ədəbi sənət jurnalı "Füyuzat" da "Türkçülük, İslam və Avropa mədəniyyəti" istiqamətini təbliğ edurdi. "Füyuzat" həmçinin Azərbaycan mədəniyyətinin yad təsirlərdən yaxa qurtarması üçün ciddi mübarizəyə başlamışdı. Aralarında Osmanlı Əhməd Kamal, Abdulla Cövdət, Krımlı tatar Həsən Səbri kimi Azərbaycanlı olmayan türklərin də yer aldığı "Füyuzat" bütün türklərin vahid ədəbi dildən istifadə etməsinin zəruriliyini vurğulayırdı.

1907-ci il dekabr ayında "Füyuzat" bağlandıqdan sonra türkçülük ideyalarını "Yeni Füyuzat", "Şəlalə" jurnalları davam etdirdi.

### *§ 3. Azərbaycan I Dünya müharibəsi illərində (1914- 1918)*

1914-cü ildə başlayan I Dünya müharibəsinə 38 ölkə cəlb edilmişdi. Müharibədə iştirak edən dünyanın bütün aparıcı dövlətləri –Almaniya , İngiltərə, Fransa, Avstriya-Macarıstan , Rusiya kimi imperialist dövlətlərin hər birinin bu müharibədə özünəməxsus iqtisadi-siyasi maraqları olsa da , dünyanın yenidən bölüşdürülməsinə daha çox can atan Almaniya İ Dünya müharibəsini başlayan əsas dövlət oldu.

Azərbaycan dünyanin böyük dövlətlərinin işğalçılıq planlarında. XX əsrin əvvəllərində imperialist dövlətlərin dünyanı iqtisadi və siyasi təsir dairəsinə bölgüsündən narazı qalan və daha çox ərazi ələ keçirməyə çalışan Almaniya Yaxın və Orta Şərqdə işğalçı planlarını həyata keçirərək bu bölgədə ingilis mövqelərinə zərbə vurmaq, Rusiyadan Qafqazı qoparıb almaq fikrində idi. Almaniyanın müharibə planlarında Azərbaycan mühüm yer tuturdu və Almaniyanın Qafqaz siyasətinin mərkəzində Bakı nefti dururdu.

Ümumiyyətlə, inhisarçı kapitalizm mərhələsinə daxil olan və dünyanı iqtisadi təsir dairəlğrinə bölüşdürmək uğrunda mübarizəyə başlayan böyük dövlətlərin hər birinin işğalçılıq planlarında Qafqaz, xüsusilə də Azərbaycan mühüm yer

tuturdu. XX əsrin ən mühüm strateji məhsulu olan neft uğrunda və Azərbaycan neft sənayesində hakim mövqe uğrunda mübarizə edən hər bir iri kapitalist olkəsinin Azərbaycanla bağlı planları var idi.

Almaniyanın Şərqdə hegemonluq uğrunda mübarizəsində Qafqaz, xüsusilə Azərbaycan mühüm yer tuturdu. Almaniyanin əsas məqsədi Qafqazın ən mühüm rayonlarından biri olan Azərbaycanı Rusiyadan ayıraraq müharibə edən tərəflər arasında bufer dövlətə çevirmək və Bakı neftinə nəzarəti ələ keçirmək idi. Almaniya bu işdə Türkiyəni özünə müttəfiq seçmişdi.

İngiltərə də öz növbəsində Bakı nefti uğrunda mübarizə apararaq alman kapitalının Bakı neft ssənayesinə nüfuz etməsinə mane olmağa çalışırdı.

Rusiya üçün də, təbii ki, Azərbaycan, xüsusilə də, Bakı neftindən qaynaqlanan zənginlik böyük əhəmiyyət kəsb edirdi və o, bu sərvəti əldən vermək istəmirdi. İstər çar Rusiyası, istər Müvəqqəti hökumət , istərsə də sovet Rusiyası dövründə Rüsiya Bakı neftindən heç bir zaman imtina etmək niyyətində olmamışdı. I Dünya müharibəsi və bolşevik üsyanlarının təsiri altında dağılma nöqtəsinə gələn Rusiya iqtisadiyyatı yalnız Bakı nefti ilə yenidən güc qazana bilərdi.

Osmanlı Türkiyəsi ilə Azərbaycan arasında kökləri çox qədimə gedən tarixi, mədəni və dini əlaqələr mövcud idi. Bölgənin coğrafi mühiti də əlverişli ictimai-iqtisadi əlaqələr qurulması üçün məqsədəuyğun idi. Bu müharibədə Türkiyının əsas məqsədlərindən biri Azərbaycanı Rusiyanin əsarətindən xilas etməklə bərabər Rusiya ilə Türkiyə arasında bufer dövlət yaratmaq idi. Qafqaz strateji cəhətdən olduğu kimi etnik, tarixi, mədəni və iqtisadi cəhətdən də Osmanlı dövləti üçün böyük əhəmiyyət kəsb edirdi.

**Müharibə illərində Azərbaycan sənayesinin vəziyyəti**. Zaqafqaziyanın əvvəllcə hərbi əməliyyatlar meydanına, sonra isə cəbhəyanı bölgəyə cevrilməsi bölgənin iqtisadi həyatına xeyli təsir göstərdi. Mərkəzi Rusiya ilə əlaqələri pozulan bölgənin ərzaqla təminatı xeyli mürəkkəbləşmişdi. Qara dəniz limanlarının bağlanması və neft məhsularının ixracının dayanması nəticəsində neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi vəziyyəti daha da ağırlaşdırmışdı.

Cəbhəyanı bölgəyə çevrilmiş Azərbaycan sənayesi müharibənin dağıdıcı təsirini Rusiyanin digər arxa rayonlarına nisbətən daha güclü şəkildə hiss edirdi. Müharibə əmtəə dövriyyəsini, nəqliyyat işini pozmuş, sənaye xammalı və avadanlığı idxalını məhdudlaşdırmışdı. Həm Rusiyanin sənaye rayonları, həm də Zaqafqaziyanin ayrı-ayrı hissələri ilə əlaqələri kəsilmişdi.

I Dünya müharibəsi çar Rusiyasından iqtisadiyyatını yenidən qurmağı, təssərrüfatın ağırlıq mərkəzini müdafiə sənayesinə köçürməyi tələb edirdi. Lakin Rusiya ilk dəfə olaraq ölkənin iqtisadi həyatını planlaşdıraraq idarə etməyə,yəni müharibə dövründə bir çox dövlətlərin iqtisadi siyasətində tətbiq edilən iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinə cəhd etsə də, burjuaziyanin müharibədən qazanc götürmək üçün öz müəssisələrini hərbi məhsul istehsalına keçirməsinin qarşısını ala bilmədi.

Təbii ki, müharibə illərində neft tələbatının ödənilməsi birinci dərəcəli vəzifə idi. 1915-ci ilin iyulunda keçirilən Müdafiə üzrə xüsusi müşavirədə neft sənayesi dövlət əhəmiyyətli bir sahə kimi qiymətləndirildi. Neftdən partlayıcı maddələr (toluol, benzol) habelə yağlar, aviasiya benzini və digər məhsullar emal etmək məsələsi xüsusi yer tuturdu. Hökumət neft emalı zavodlarının tikilməsi, avdanlıqla təchiz edilməsi üçün 1 mln. man. pul ayırdı. Neft sənayeçiləri yüksək enerjili zavodların tikilməsinə başladılar. Artıq 1916-ci ilin əvvəlində "Nobel qardaşları" şirkəti ayliq istehsal gücü 5-6 min pud olan birinci toluol zavodunu tikdirdi.

Lakin bu dövrdə neft sənayesində meharibə şəraiti ilə bağlı olaraq tələb olunan avadanlığın vaxtında çatdırılmaması, nəqliyyat işinin pozulması və s. kimi bir sıra problemlər var idi. Bunula əlaqədar olaraq neft hasilatı işləri xeyli aşağı düşmüşdü. Müharibə illərində çıxarılan neftin hamısını hökumət alırdı. Azərbaycan neft sənayeçiləri bu durumdan mənfəətlə istifadə edərək müharibə illərində neftin qiymətini artırır və qiymətlərin yüksək qalmasını təmin etmək üçün onun istehsalını məhdudlaşdırırdı.

Neft emalı sahəsinin də avadanlıqlarla təminatının pisləşməsi nəticəsində bu sahədə texniki gerilik müşahidə olunurdu. Nəticədə çıxarılan neftin hamısını emal etmək olmurdu. 1917-ci ildə çıxarılan neftin yalnız yarıdan bir qədər çoxunu emal etmək mümkün olmuşdu.

Müharibə illərində bir çox müəssisələr dövlət tərəfindən verilən hərbi sifarişləri yerinə yetirirdi. Məsələn, 1915-ci ilin əvvəllərindən Bakı hərbi-sənaye komitəsinin çuqun mərmilər, fuqas qumbaraları və mina hazırlayan zavodu, "Nobel qardaşları" şirkətinin benzin istehsalı zavodu , habelə Z.Tağıyevin bez və parusin istehsal edən səhmdar cəmiyyəti ilk növbədə cəbhəni zəruri mallarla təmin edən müəssisələr sırasına daxil edilmişdilər. Lakin bu tədbirlərə baxmayaraq car hökumətinin iqtisadiyyatı dövlət tərəfindən tənzimləmək, möhkəm hərbi təsərrüfat yaratmaq, bahalığın qarşısını almaq səyləri baş tutmadı. Bu iqtisadiyyatın ən mühüm sahələrinin böhranına gətirib çıxardı.

Ümumi təsərrüfat dağınıqlığı Azərbaycanın digər təsərrüfat sahələrində də özünü göstərirdi. Dağ-mədən, ipəkcilik və b. sənaye sahələrində də geriləmə müşahidə olunurdu. Gədəbəydə mis filizinin çıxarilması 1913-cü ildəki 1,8 mln. puddan 1914-cü ildə 892,2 min puda, 1915-ci ildə isə 105 min puda, mis emalı isə bu dövrdə 49,7 min puddan 2.5 min puda enmişdi. Nuxa və Şuşanın ipəksarıma fabriklərinin yarıdan coxu barama çatışmaması üzündən işləmirdi.

Bir çox digər sahələr də məhdudlaşmaqda davam edirdi. Pambıq parça istehsalı azalmışdı. 1917-ci ildə Azərbaycanın tütün fabriklərinin istehsal gücü cəmi 30% idi . Balıqçılıq sənayesində də göstəricilər aşağı enmişdi. 1910-1912-ci illərlə müqayisədə 11,6 min puddan 7,2 min puda enmişdi.

**Kənd təsərrüfatı.** Müharibə illərində kənd təsərrüfatında da gerilik müşahidə olunurdu. İstər əkinçilik, istərsə də maldarlıq xeyli ixtisara düşdü, pambıq əkin sahələri əsaslı surətdə azaldı, bağçılıq və üzümçülük tənəzzülə uğradı. Müharibə dövründə Azərbaycan kəndinin xeyli dərəcədə işçi qüvvəsindən, qoşqu heyvanla-

rından, əmək alətlərindən, toxumdan, ərzaqdan məhrum edilməsi, Rusiya və xarici bazarlarla əlaqələrinin kısılməsi –Azərbaycan kəndində ciddi təsərrüfat böhranına səbəb oldu. Taxıl əkinləri təkcə 1 il ərzində (1914-1915) 42% azalmışdı, dənli bitki sahələri Yelizavetpol quberniyasında 1913-cü ilə nisbətən 1916-cı ildə 70%, Şuşa qəzasında isə 80% azaldı.

Heyvandarlıq da ağır vəziyyətə düşmüşdü. Əgər 1913-cü ildə Zaqafqaziyada iri buynuzlu mal-qaranın 43%-i, xırda buynuzlu mal-qaranin 45%-i, atların 51%-i Azərbaycanın payına düşürdüsə, 1916-cı iıdə bu göstəricilər müvafiq surətdə aşağıdakı kimi idi: 29%, 30%, 44%.

Ərzaq məhsullarının qiyməti də sürətlə bahalaşmaqda idi. 1914-cü illə müqayisədə 1916-cı ildə çörəyin qiyməti 226%, 1917-ci ildə isə 300% armışdi. 1916-cı ildə taxılın qiyməti müharibə ərəfəsindəki dövrlə müqayisədə 7-8 dəfə artmışdı.

**Qafqaz cəbhəsi**. I Dünya müharibəsi illərində Avropada yaradılmış əsas cəbhələrlə bərabər Şərq və Qafqaz cəbhəsi də açılmışdı. Qafqaz cəbhəsi Batumdan Cənubi Azərbaycabdakı Urmiya gölünədək uzanırdı. Türkiyə Qafqaz cəbhəsinə böyük əhəmiyyət verirdi. Türk qoşunlarının Qagqaz cəbhəsindəki əməliyyatlarına Ənvər paşa rəhbərlik edirdi. Ənvər paşa Osmanlı Türkiyəsinin sarsılmış qüvvəsinin İ Dünya müharibəsi nəticəsində yenidən qüdrətli bir dövlət halına gələcəyinə inanırdı. Onun ən müqəddəs arzusu Qafqaz və Orta Asiya türklərinin Rusiya əsarətindən xilas edilməsi idi. Onun əsas idealı “turançılıqla” bərabər dünya müsəlmanlarının birliyi, onların arasındakı əlaqələrin möhkəmləndirilməsi idi. Ənvər paşa Qafqaz cəbhəsini yalnız Azərbaycan türkləri üçün deyil, bütün Qafqaz müsəlmanları üçün qurtuluş mənbəyi kimi görürdü. Onun əsas məqsədi Qafqazda İslam dövləti qurmaq və Türkiyə ilə Rusiya arasında bir bufer dövlət yaratmaqla Qafqaz türklərini himayə etmək idi.

Beləliklə, 1914-cü il oktyabrın 31-də Qafqaz cəbhəsində hərbi əməliyyatlar başlandı və türk qoşunları Kars və Batum tərəfdən Qafqaza girərək müvəffəqiyyət qazandı.Rus ordusina qarşı noyabrın 17-nədək davam edən döyüşlərdə qazandığı qələbədən ruhlanan Ənvər paşa Sarıqamış istiqamətində də rus ordusunu darmadağın edərək Karsı ələ keçirməyi qərara aldı.

Lakin ağır qış şərtləri, əsgərlərin təchizat çatışmamazlığı, döyüşə hazırlıq mərhələsinin çox qısa olması və s. səbəblər üzündən Sarıqamış əmliyyatında türklər məğlub oldular və 1915-ci il yanvarın 2-də Ənvər paşa Ərzuruma qayitmalı oldu. Beləliklə, Qafqaz cəbhəsində Ənvər paşanın turançılıq hərəkatının ilk mərhələsi uğursuzluqla nəticələndi.

1916-cı ilin oktyabr ayından etibarən Rusiyadakı ölkədaxili problemlər: sabitliyin pozulması, ərzaq qıtlığı, bahalıq, möhtəkirliyin artması nəticəsində paytaxt Petroqradda və digər şəhərlərdə hökumət əleyhinə çıxışlar başlanmışdı. Belə böhran vəziyyəti Rüsiyanin müharibə vəziyyətinə , həmçinin Qafqaz cəbhəsinə də təsir etdı. 1917-ci ilin qışında Rusiya ordusu xəstəlik və aclıqdan 100.000 əsgər itirmişdi. Belə anarxiyadan istifadə edən bolşeviklər Rusiyada hökumət çevrilişi etdilər. Bundan sonra Rus ordusundakı anarxiyanin qarşısını almaq mümkün ol-

madı. 1917-ci ilin dekabrında Qafqaz cəbhəsindəki rus əsgərlərinin 200-ü fərarilik etdi. Cəbhədə cəmi 40.000 əsgər qaldı. İnqilabın təsiri ilə rus qüvvələrinin cəbhədən geri çəkildiyi vaxt türk qoşunları hücuma keçərək torpaqlarını bir-birinin ardınca işğaldan azad etməyə başladı. Şərqi Anadolu ilə Qara dəniz bölgəsini tamamilə düşməndən azad edən türk ordusunun müvəffəüiyyətləri Ənvər paşanı 1914-cü ildə yarımçıq qalan Qafqaz səfərini başa catdırmağa sövq etdi.

**Petroqradda fevral burjua-demokratik inqilabı**. Carizmın devrilməsi. Ağır müharibə şərtləri Rüsiyada çarizmin devrilməsinə gətirib çıxardı. 1917-ci il fevralın 28-də Petroqradda başlanan inqilab Dövlət Dumasının çar hökumətinə qarşı çıxaraq Müvəqqəti hökumət qurması və çarın taxtdan devrilməsi ilə nəticələndi. Beləliklə də 304 illik Romanovlar sülaləsinin , eyni zamanda rus monarxiyasının sonu çatdı. Hakimiyyət demokratik seçki üsulu ilə Müəssislər Məclisi qurulanadək Müvəqqəti hökumətə keçdi.

Yeni rejimin ilk işi bütün Rusiya vətəndaşlarının dini və milli məhdudiyyətlərinin aradan qaldırılması oldu. Daha sonra əhalisi qeyri-rus etnik bölgələrdə yerli xalqın nümayəndələrinə daha çox söz haqqı verən idarə sistemi yaradılması qərara alındı. Martın 9-da Qafqaz vilayətlərinin idarə edilməsi üçün Zaqafqaziya Xüsusi Komitəsi yaradıldı.Bu komitə bölgənin milli qruplarını təmsil edən vəkillərdən təşkil ediləcəkdi. Azərbaycanı Y.M.Cəfərov təmsil etməli idi. Lakin Komitə fəaliyyətinin ilk dövründən etibarən xalqın etimadını qazana bilmədi və siyasi təşkilatlar tərəfindən ləğv edildi.

Fevral inqilabından sonra Şərqi Zaqafqaziyada siyasi təşkilatlar 2 əsas qrupda cəmləşmişdi: I qrupa rusların çoxluq təşkil etdiyi solçu sosial-demokrat və sosial-inqilabçıların hakim olduğu Sovetlər aid idi. Sovetlər arasında daha cox diqqət mərkəzində olan Bakı Sovetinə 52 üzvünün cəmi 9-nun bolşevik olmasına baxmayaraq bolşevik Şaumyan rəhbər seçilə bilmişdi.

II qrup siyasi təşkilatlara isə əsasən Azərbaycanın milli birlikləri aid idi. Bütün bu təşkilatlar da öz növbəsində Müsəlman Əhalisi Cəmiyyətləri Birliyində cəmlənmişdi. Birliyin sədri Topçubaşov, idarə komitəsinin sədri isə M.N.Hacınski idi.

Rusiyada monarxiya rejiminin devrilməsindən bir neçə gün sonra Gəncədə “ Türk Adəm-i Mərkəziyyət Firqəsi ” yaradıldı. Bu partiya Rusiyada millətlərin müstəqilliyinə əsaslanan Federal dövlət quruluşu ideyasını təbliğ edirdi. Buna görə də federalistlər adlanan bu təşkilatın qurucusu türkçülük ideologiyasının liderlərindən olan Qasprinskinin kürəkəni N.Yusifbəyov idi. Rüstəmbəyov, D.Ağazadə, Xasməmmədov qardaşları təkilatın liderlərindən idilər.

Bu dövrdə fəaliyyət göstərən milli partiyalardan biri də 10 il əvvəl olduğundan daha marksist xarakterdə yenidən siyasi meydana atılan “Hümmət” təşkilatı idi. Lakin bu dövrdə “Müsavat” daha nüfuzlu təşkilata çevrildiyi üçün “Hümmət” xalq kütlələri içərisində özünə möhkəm dayaq yarada bilməmişdi. Həm də RSDFP-nın təsiri altına düşərək 1917-ci ildə sosial-demokratların menşevik və bolşevik qanadlarına bölünməsindən təsirlənən “Hümmət” təşkilatı da belə paralel parçalanmaya məruz qaldı; Nərimanov tərəfdarları Bakıda bolşevik qrupunu,

Ə.Əbilov, S.Ağamalıoğlu, A.Qarayev və b. isə Tiflisdə menşevik qrupunu yaratdılar. Lakin hümmətçilər belə parçalansalar da 1917-ci il dekabr ayında keçirilən Qafqaz Müsəlmanlrı qurultayında vahid partiya kimi təmsil olunmuşdular.

Fevral inqilabının yaratdığı yeni şəraitdə Bakıda aprelin 15-indən 20-dək davam edən Qafqaz Müsəlmanları Qurultayı toplandı. Qurultayda Rusiyada federal respublika yaradılması ideyası təklif edildi. Lakin bu məsələdə fikir ayriliği mövcud idi; Solçu sosialistlər Rusiya ilə birləşməkdə israr edirdilər, sağçılar isə bu məsələni islampərəst ideyalar mövqeyindən dəyərləndirərək müsəlman birliyi tərəfdarı kimi çıxış edirdilər.

Beləliklə, 1905-ci il rus inqilabı dövründə Rusiyanin müsəlman liderləri arasındakı fikir ayrılıqları 1917-ci ilin yazında daha kəskin şəkildə ortaya cıxmışdı. Bu ixtilaflar 1917-ci il mayın 1-də Moskvada keçirilən növbəti Ümumrusiya Müsəlmanları Qurultayında daha da dərinləşdi. Qurultayda etnik və bölgə cəhətdən coğrafi ayrılma tərəfdarlarının lideri M.Rəsulzadə çıxış yolunu din baxımından deyil, eyni kök baxımından birləşməkdə, yəni türk xalqlarının birliyində görərək " Öncə türk, sonra müsəlman!" prinsipi ilə hərəkət etməyi tövsiyyə edirdi. Nəticədə qurultay müstəqillik tərəfdarlarının qələbəsilə başa çatdı və 271 səsə qarşı 446 səs çoxluğu ilə Rusiyanin "coğrafi-federal əsasa dayanan demokratik bir cumhuriyyətə dönməsi" tələbini qəbul etdi. Qurultayda həmçinin azlıqlarla bağlı 2 qərar da qəbul edildi: 1. Rusiya bölgələrində yaşayan müsəlmanlara mədəni muxtariyyət verilməsi; 2. Ümumrusiya müsəlmanlarının dini və mədəni həyatını təmin etmək üçün səlahiyyətli müsəlman idarəsi yaratmaq.

**Müsəlman hərbi birliklərinin yaradılması.**1917-ci il mayın 1-də Ümumrusiya Müsəlmanları Qurultayında müsəlman əsgər birliklərini qurulmasına icazə üçün Müvəqqəti hökumətə müraciət qəbul edildi.

Çar Rusiyası əsarəti altına aldığı türklərin ruslara bağlılığına həmişə şübhə ilə yanaşmış , ona görə də onların mədəni, elmi, iqtisadi, o cümlədən hərbi sahədə irəliləmələrinə qəsdən əngəl olmuşdu. Türk oğulları hərbi xidmətə çağırılmamış , onlara silah verilməyərək illərlə əsgərlik məsləyindən uzaqda tutulmuş və türklərin bu sahədə inkişaf etməsinin qarşısı alınmışdı.

Hərbi sahədə olduğu kimi ,dövlət idarəçiliyindən də türklər mümkün qədər uzaqlaşdırılmışdılar. Türklərdən podpolkovnik olan və müdafiə nazirliyində işləyənə çox nadir halda rast gəlmək olardı. Türklərin tutduğu ən yüksək vəzifə tərcüməçilik idi. Bunun əksinə olaraq erməni və gürcülər isə əsgəri xidmətə alınırdılar və bu sahədəki bacarıqlarını inkişaf etdirirdilər. Onlardan rus ordusunda xidmət edən çox sayda zabit və general yetişmişdi.

Lakin çar hökuməti müsəlmanları orduya çağırmasa da , bir çox azərbaycanlılar könüllü surətdə hərbi xidmətə gedirdilər. I Dünya müharibəsi dövründə cəbhələrdə 200-dən çox azərbaycanlı zabit vuruşurdu. Məhşur generallar S.Mehmandarov, Ə.Şıxlinski , H.Naxçıvanski, döyüşlərdə göstərdiyi igidliklərə görə təltif olunmuş ilk azərbaycanlı təyyarəçi poruçik F.Qayıbov da bunların arasında idi.

Azərbaycan liderləri çar rejiminin azərbaycanlıları əsgəri xidmətə cəlb etməmək siyasətini hər zaman özlərinə qarşı ən böyük haqsızlıq olaraq görürdüıər. Buna görə də çarlığın yıxılmasından sonra Qafqaz türkləri hərbi təhsil görən xristian qonşularına qarşı geriliyi aradan qaldırmaq üçün öz hərbi birliklərini qurmağa təşəbbüs göstərdilər və Ümümrusiya müsəlmaları adından müsəlman əsgər birliklərinin qurulmasına icazə üçün Müvəqqəti hökumətə müraciət etdilər. Kerenski hökuməti bu istiqamətdəki müsəlman istəklərini müsbət qarşılamadı. Lakin buna baxmayaraq artıq Azərbaycan hərbi birlikləri qurulmağa başlamışdı. Müsəlman milli birliklərinin özəyini Petroqraddan gətirilmiş və Hüseyn xan Naxçıvanskinin komandanlıq etdiyi “Qafqaz yadelli süvari diviziyası” təşkil etmişdi. Müsəlmanlardan təşkil olunduğu üçün rusların həqarətlə “Vəhşi diviziya” adlandırdığı bu birlik ən iri müsəlman hərbi birləşməsi idi. Şuşada təşkil olunmuş “Tatar süvari alayı” da bu diviziyanın tərkibinə daxil idi.

Beləliklə, 1917-ci ilin fevralında “xalqlar həbsxanası” olan çar Rusiyasında baş verən burjua-demokrtik inqilabının qələbəsindən sonra Zaqafqaziyada siyasi proseslər özünəməxsus inkişaf tolu ilə cərəyan edirdi. Lakin bu dövrdə nə Zaqafqaziyanin idarəsi üzrə təşkil edilmiş Xüsusi Komitə (OZAKOM ) , nə də Zaqafqaziya Komissarlığı ( Zakafkom ) mövcud siyasi vəziyyəti sabitləşdirmək iqtidarında olmadı.

### *§ 4. Cənubi Azərbaycan 1905-1911-ci illərdə Məşrutə inqilabı dövründə. Səttarxan*

1905-ci ildə Rusiyada başlanan və qonşu İranın siyasi mühitinə bilavasitə təsir göstərən inqilabi hadisələr ölkədə həyəcan və çıxışların siyasi kəskinliyinin artmasını gücləndirdi, inqilalabın başlanmasına şərait yaratdı. Təbrizdə siyasi yığıncaqların fəaliyyət göstərməsi yeni maarif, mədəniyyət ocaqlarının yaradılması və inkişafı ilə sıx surətdə bağlı idi.

1897-ci ildə Təbrizin görkəmli ziyalılarından Seyid Hüseyn xan Ədalətin redaktorluğu ilə « Əlhədid» adlı qəzet nəşr edilməyə başlayır. 1900-cu ildə Təbrizdə maarifpərvər ziyalılıardan ibarət dəstə toplanaraq «Azərbaycan maarif əncüməni» təşkil etdilər. Mütləqiyyətə, onun baş naziri Əminüssultan Atabəyə və belçikalılara qarşı Təbrizdə başlanmış etiraz çıxışları İranın başqa şəhərlərinə də yayıldı. 1903-cü ildə baş nazir hakimiyyətdən uzaqlaşırdı. Qacarlar sülaləsinin nümayəndəsi Eynəddövlə baş nazir oldu. Lakin ölkənin vəziyyətində dəyişiklik olmadı. Əhali arasında narazılıq artmaqda idi.

1905-ci ilin dekabrın 13-dən Seyid Bəhbəhani və Seyid Məhəmməd Təbatının başçılığı ilə Şahəbdüləzim başçılığı ilə minlərlə adam məsciddə bəstə oturdular. Bir qədər sonra Inqilab komitəsinin görkəmli üzvlərinin iştirakı ilə «Həvzeyi-islama» və ya «Əncüməni -islami» adlanan rəhbərlik mərkəzi yaratdılar. Bu əncumən yarandıqdan sonra ruhanilər böyük və izdihamlı yığıncaqlar keçirərək müttləqiyyətə qarşı mübarizəyə çağırırdılar.

Avqustun 19-da hərəkət başçıları , dövlət nazirlər, əhalinin müxtəlif sinif və təbəqələrinin üç min nəfər toplanaraq təntənəli surətdə məclis yaradılmasını elan etdilər. Sentiyabrın 9-da seçgi nizamnaməsi şah tərəfindən imzalandıqdan sonra Tehranda məclisə seçgilər başlandı İstibdad konstitusiya fərmanı ləğv etmək istədikdə isə başqa əyalətlər də fəal surətdə inqilaba qoşuldular.

1905-1911-ci illər Məşrutə inqilabı başlarkən Təbrizdə və bütün Azərbaycanda kütləələri mütləqiyyətə qarşı qaldırmaq , hərakata düzgün istiqamət vermək və onun gedişində rəhbərlik işini həyata keçirmək üçün güclü siyasi təşkilətın yaradılması vacib idi. Təbrizdə sosial-demokrat təşkilatının əsasını qoyan gizli siyasi cəmiyyət və qrupların təşkilatçıları və bütün üzvləri 1905-1911-ci illər inqilabi dövründə «Gizli mərkəz» in ətrafında birləşərək misilsiz fədakarlıq göstərdi.

Təbriz sosial –demokrat təşkilatı və Azərbaycan əyalət əncüməni 1907-ci ilin əvvvəllərində başlayaraq əhalinin silah almağa , hərbi təlim keçməyə çağırır və təşviq edirdi. Demokratik əncümənlərin , mübariz kütlələrin etirazı və təzyiqi nəticəsində əksinqilab güzəştə getməyə , Azərbaycan əyalət əncüməni tələblərini qəbul etməyə məcbur oldu. Lakin 1908-ci il iyulun 23-də şah höküməti demokratik qüvvələrə qarşı hücuma keçdi, 300 nəfərdən çox konstitusiyalı həlak oldu. Bir çox vilayətlərdə irtica demokratik qüvvələrə üstün gəldi.

Əksinqilab 1908-ci il 23 iyun çevrilişindən əvvəl Cənubi Azərbaycan vilayətlərində əksinqilabi hərakata başlamışdı. Mir Haşimin başçılığı etdiyi «İslamiyyə» əncüməni əksinqilab ocağına çevrilmişdi. Səttarxanın mücahidləri əksinqilab tərəfindən tutulmuş əyalət əncuməni binasını azad etdi, Lakin şahın əmri ilə iyulun 8-də Təbriz üzərinə əlavə qüvvələr göndərildi. İyulun 19-da Bağırxanın başçılığı ilə mücahidlərr şimala hücum edərək oranı əksinqilabdan təmizlədilər. İyulun 18-də sosial- demokrat təşkilatlarının başçıları Səttarxanın iştirakı ilə dəstələr şəhərin mərkəz hissəsində bütün damlardan , darvazalardan və məscidlərin ağ bayraqları vurub salaraq, onların yerinə inqilabi hərəkətın davam etdiyini bildirən bayraqlar sancdılar.

Təbriz sosial –demokrat təşkilatı “hərbi şura” yaradaraq siyasi qüvvələrin hərbi cəhətdən təşkilini və nizam intizam işlərini bu şuranın öhdəsinə qoydu. 1908-ci oktyabrın ikinci yarısında etibarən Azərbaycən xalqının mübarizəsində yeni dövr başlandı.

Təbrizdə inqilabın bütün silahlı qüvvələrinə hərbi şura tərəfindən rəhbərlik olunması ilə yanaşı, həqiqət əncüməni Əmirqızın və onun ətraf məhələrinin fədailərini Səttarxanın başçılığı altında, «Qüdrət» əncüməni isə Xiyabani və onun ətraf məhəllərinin fədailərini Bağırxanın başçılığı altında birləşdirmişdi. Lakin Məhəmmədəli şah İranın bütün əyalət və vilayətlərindən silahlı qüvvələr toplayaraq Təbriz üzərinə göndərməkdə davam edirdi.

Hadisələrdən imperialist və işğalçılıq siyasətləri üçün istifadə etməyə cəhd göstərən İngiltərə və çarizm Təbrizdəki aclığı, sarayla inqilabçılar arasında «sülh» yaratmaq adı altında danışıqlarda Əncümən konstitusiyanın bərpa edilməsi, həra-

katda iştirak edənlərin silahlarının alınmaması , hərəkəta qoşulanları təqib olunmaması, dövlət qoşunlarının Təbriz ətrafından uzaqlaşhdırılması və Azərbaycan valisinin xalqın razlığı ilə təyin edilməsindən ibarət beş şərt irəli sürdü. Əksinqilab şərtlərlə razılaşdı. İrticanın məqsədi vaxt qazanmaq Təbrizi aclıq yolu ile ələ keçirməkdən ibarət idi.

1909 – cu ilin axırlarında çar höküməti Təbrizə və Azərbaycanın digər vilayətlərinə qoşun yeritdikdən sonra şah qoşunlarına qarşı döyüşlər dayandırılsa da Gilan və İsfahanda inqilabçıların fəallaşmasına, onların Tehran üzərinə yürüşə başlayıb əks inqilabdan azad edilməsinə şərait yaratmış oldu. “Ali məclis” Məhəmmədəli şahın devrildiyini , onun 14 – yaşlı oğlu Sultan Əhmədin şah elan olunduğunu bildirdi.

Konstitusiyanın bərpası uğrunda iştirak edən müxtəlif sinif və təbəqələrin mübariz qüvvələri mütləqiyyətə qarşı növbəti qələbələrə qarşı bir-birindən ayrıldılar. İnqilabçı ziyalılar 1909 noyabrın 15-də İran demokratik partiyasını yaradaraq mübariz kütlələri partiya ətrafında toplamağa başladılar.

Təbriz sosial – demokrat təşkilatı isə konstitusiya bərpa edildikdən sonra da siyasi və təşkilati fəaliyyətini davam etdirdi. Azərbaycan əyalət əncüməni və bütün inqilabi ictimai təşkilatlara Təbriz sosial - demokrat təşkilatı rəhbərlik edirdi. Tehran hököməti Cənubi Azərbaycandaki inqilab qüvvələrini tərkisilah edib Təbrizdən uzaqlaşdırmağa çalışırdı.

1910-cu ildə Səttarxan Tehrana dəvətdən etiraz etsədə aprelin 15-də təklifi qəbul edərək Tehrana yollandı. 1910-cu il iyulun 7-də Sanəhdar hököməti istefa verdi. Səttarxan və onun ətrafındakı mücahidlərər qarşı basqın təşkil olundu. 18 nəfər öldü 40 nəfər , o cümlədən Səttarxan yaralandı. 300-ə yaxın fədai həbs olundu. Bununla da inqilabın son səngəri dağıdıldı.

İngiltərə və çarizmin keçmiş şah Məhəmmədəlinin 1911-ci ilin iyul ayında İrana qayıtmasına şərait yaratmasına ölkədə siyasi vəziyyət yenidən gərginləşdi. 1911-ci ilin avqustun 24-dən əksinqilab qüvvələri Təbriz üzərinə hücuma keçdi. Döyüşlər dekabrın 20-dən 26-na dək davam etdi. Əyalət Əncüməni və hərəkat başçıları qüvvələrin qeyri bərabər oldugunu nəzərə alaraq döyüşü dayandırdılar. Şəhər çar qoşunları tərəfindən tutuldu. 1912-ci ilin ilk aylarinda İngiltərə və çarizmin silahlı qüvvələrinin müdaxiləsi nəticəsində İranın inqilab mərkəzləri də dağıdıldı, inqilabçılara divan tutuldu.

### *§ 5. XX əsrin əvvəllərində Azərbaycan mədəniyyəti*

**Maarif.** Çarizmin milli müstəmləkə siyasəti maarifin inkişafında özünü daha aydın göstərirdi . Bu dövrdə Bakı şəhərində azərbaycanlı əhalinin yalnız 19,3% savadlı idi. Savadsızlığın başlıca səbəbi isə ana dilində məktəblərin açılmasına icazə verilməməsi və təhsilin pullu olması idi. Azərbaycan burjuaziyasının dövlət dumasında olan nümayəndələrinin məktəb açmaq tələbləri əsasən eşidilməmiş qa-

lırdı. Lakin 1905-1907-ci illər hadisələrindən sonra çar hökuməti maarif sahəsində də bəzi güzəştlərə getməyə məcbur oldu.

Bu dövrdə Azərbaycan demokratik ictimaiyyəti “rus-tatar” məktəbləri şəbəkəsini genişləndirmək uğrunda mübarizə aparırdı. Onlar eyni zamanda çarizmin bu məktəbləri ruslaşdırma siyasətinə qarşı da çıxış edirdilər . Azərbaycabda mədəniyyət və təhsilin inkişafında “Nicat” , “Nəşri-maarif “ kimi cəmiyyətlər mühüm rol oynadı.

Sahibkarlar, ziyalılar, ictmai və din xadimlərindən ibarət böyük bir qrupu özündə birləşdirən və Z.Tağıyevin rəhbərlik etdiyi “Nəşri maarif “ cəmiyyəti məktəb şagirdlərinə maddi yardım göstərməklə yanaşı özləri də təhsil ocaqlarının yaradılmasında iştirak edirdilər. 1915-ci ildə cəmiyyətin açdığı 15 xalq məktəbində 900 şagird təhsil alırdı.

“Nicat “ cəmiyyətinin qurucuları isə Ə.Ağayev, Ə.Axundov, M.Hacinski kimi qabaqcıl Azərbaycan ziyalıları idi.

Azərbaycan demokratik ziyalıları Azərbaycan qadınlarının da savadlanması istiqamətində fəal iş görürdülər. 1901-ci il oktyabrın 1-də Azərbaycan mill burjuaziyasının lideri və Azərbaycan maarifciliyi tarixində özünəməxsus yeri olan Z.Tağıyev öz hesabına “Bakı rus-müsəlman qadın məktəbi” açmışdı. Bu XX əsr Azərbaycan mədəniyyətində mühüm tarixi hadisə idi. Bunun ardınca 1902-ci ildə Gəncədə qadın məktəbi , daha sonra Ağdamda, Qazax qəzasının Salahlı kəndində , Göyçay qəzasının Zəyəm kəndində , Şuşada, Şamaxıda və b. yerlərdə qadın məktəbləri açıldı. Bu məktəblərdə H.Məlikova, X.Ağayeva, R.Hacıbəyova, S.Vəzirova, Ş.Əfəndiyeva, A.Sultanova kimi ziyalı Azərbaycan qadınları müəllimlik edirdilər.

Əsrin əvvəllərində Bakı və b. şəhərlərdə yaşlıların da təhsil alması üçün əsasən bazar günü fəaliyyət gostərdikləri üçün “Bazar məktəbləri” adlanan müəssisələr fəaliyyət göstərməyə başlamışdı.

Bu dövrdə Azərbaycan mədəniyyət xadimlərinin qarşısında duran ən mühüm vəzifələrdən biri də də tədtis-metodik vəsaitlər hazırlayıb nəşr etdirmək idi. Bu işdə R.Əfəndiyev, S.S.Axundov, F.Ağazadə, A.Şaiq, M.Mahmudbəyov, A.Səhhət, Ə.Əfəndiyev, Q.N.Nərimanbəyov, Q.Qəmərlinski, Ü.Hacıbəyov, F.Köcərli kimi Azərbaycan ziyalılarının böyük rolu olmuşdu. A.Şaiqin rəhbərliyi altında “Uşaq çeşməyi”, “Gülzar” kimi dərsliklər, A.Mahmudbəyovun redaktorluğu ilə “İkinci il”, “Türk ədəbiyyatına ilk qədəm” , “Yeni türk əlifbası”, Şahtaxtinskinin “Şərq əlifbasının fonetikası” adlı dərsliklər yazılmışdı.

XX əsrin əvvəllərində Azərbaycabda mədəni-maarif idarələri də fəaliyyət göstərməyə başlamışdı. Bakıda, Şuşada, Nuxada, Gəncədə, Qubada kitabxanalar açılmışdı. 1902-ci ildə Qara şəhərdə , 1906-ci ildə Bayılda açılmış xalq evlərində görkəmli mədəniyyət xadimlərinin mühazirələri təşkil edilirdi. 1907-ci ildə Bakıda müsəlman mədəni maarif cəmiyyəti “Səadət “, 1910-cu ildə isə “Səfa” cəmiyyəti fəaliyyət göstərməyə başladı.

**Mətbuat**. I rus inqilabından sonra Azərbaycabda milli mətbuat sahəsində də xeyli irəliləyişlər baş vermişdi. Bürokratiyanın maneçiliklərinə , təqiblərə baxma-

yaraq Azərbaycabda 1917-ci ilin fevralınadək 227 dövri mətbuat orqanı fəaliyyət göstərirdi. 1905-1917-ci illərdə Azərbaycabda nəşr olunan əsas mətbuat orqanları "Həyat" , "Tazə həyat" , "Tərəqqi", "İttifaq", "Həqiqət", "İqbal", "Yeni iqbal" və b. qəzetlər idi. Mətbuat tarixində Müsavat partiyasının orqanı olan "Açıq söz " qəzetinin xüsusi yeri var idi. Azərbaycabda bu dövrdə "Hümmət", "Təkamül", "Bakı həyatı" qəzetləri , "Yeni söz" jurnalı da nəşr olunurdu. Bunların içərisində inqilabi demokratik mətbuat orqanı olan satirik "Molla Nəsrəddin "jurnalı xüsusi yer tuturdu.

1905-1907-ci illər milli mətbuatın inkişafında nəşriyyatçılar qrupunun fəaliyyətini xüsusi qeyd etmək lazımdir. Nəşriyyatçılar arasında Orucov qardaşları, H.Vəzirov, İ.Aşurbəyli, Ə.Mikayılov, M.İbrahimov xüsusilə fərqlənirdi. Gəncədə, Lənkəranda, Şuşada, Naxşıvanda da kiçik mətbəələr fəaliyyət göstərirdi. C.Məmmədquluzadə və Ö.Faiq Tiflisdə " Qeyrət" mətbəəsini təsis etmişdi.

**Azərbaycan ədəbiyyatı**. Bu dövrün Azərbaycan ədəbiyyatı klassik ədəbiyyatın və şifahi xalq yaradıcılığının mütərəqqi ənənələrinə əsaslanmaqla bərabər Avropa və rus ədəbiyyatının da nailiyyətlərindən bəhrələnərək yeni ədəbi mərhələyə qədəm qoymuşdu. Azərbaycan tənqidi realizmi yüksək səviyyəyə çatmışdı. XX əsr Azərbaycan tənqidi realizm məktəbinin görkəmli nümayəndələri C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, Y.V.Çəmənzəminli, Ə.Möcüz və b. idilər.C.Məmmədquluzadənin "Ölülər"komediyası, M.Ə.Sabirin "Hophopnamə"si, N.Nərimanovun "Pir" povesti, Ə.Haqverdiyevin "Pəri cadu" pyesi və s. XX əsr Azərbaycan ədəbiyyatının realist istiqamətinin ən parlaq nümunələri idi.

Bu dövrün digər ədəbi cərəyanı da romantizm idi. Onun ən böyük nümayəndələri M.Hadi, A.Səhhət, H.Cavid, A.Şaiq, və b. idilər. H.Cavid Azərbaycan ədəbiyyatında şeirlə yazılmış ilk dram əsərinin müəllifi idi. Onun fəlsəfi "Şeyx Sənan" faciəsi dini fanatizmə qarşı yönəlmişdi.

XX əsrin əvvəllərində ədəbi failiyyətin müstəqil istiqaməti kimi formalaşan Azərbaycan uşaq ədəbiyyatı A.Səhhət, A,Şaiq, M.Ə.Sabir, C.Məmmədqulqzadə, S.S.Axundovun əsərləri sayəsində inkişaf edirdi.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixinin öyrınilməsinin əsasını qoyan görkəmli ədəbiyyatşünas alim F.Köçərli "Azərbaycan türklərinin ədəbiyyatı" adlı 3 cildlik əsərini yazdı.

Dünya ədəbi irsinin və ədəbi fikrinin öyrənilməsində , ictimai-siyasi və elmi-nəzəri məsələlərin təhlil edilməsində Ə.Hüseynzadə , Ə. Ağayev , Ə.Topçubaşov kimi Azərbaycan publisistləri də fəal iştirak edirdilər. Bu dövrdə Azərbaycan elminin görkəmli nümayəndələrindən olan tarixçi-şərqşünas, etnoqraf M.Şahtaxtinski Sarbonna Universitatinin "Asiya fonetikası "cəmiyyətinin həqiqi üzvü seçilmişdı.

XX əsrin əvvəllərində Azərbaycan tarixşünaslıq elmi R.İsmayilovun "Qafqazın qısa tarixi"(1904), H.Gəncəvinin "Zəbdətüt Təvarix" (Tarixin qaymağı), M.R.Fənanın "Qarabağın yeni tarixi"(1912) əsərləri ilə zənginləşdi.

**İncəsənət.** XX əvvəllərində teatr , musiqi, təsviri incəsənət də öz inkişafında yeni mərhələyə qədəm qoymuşdu. Mədəni maarif cəmiyyətlərinin yaranması öz növbəsində Azərbaycan milli teatr sənətinin inkişafına və Azərbaycan teatrının H.Ərəblinski, C.Zeynalov, H.Sarabski, S.Ruhulla kimi korifeylərinin yaranmasına təkan verdi. 1916-cı ildə H.Ərəblinski və H.Sarabskinin rəhbərliyi ilə yaradılan "Müsəlman dram cəmiyyəti" Azərbaycan teatrını həm ölkə daxilində , həm də onun sərhədlərindən kənarda tanıtdı.

Azzərbaycan milli opera teatrının yaranması da bu dövrə təsadüf edir . Azərbaycan musiqisinin inkişafında Ü.Hacıbəyov, M.Maqomayev, C,Qaryağdıoğlu, H.Sarabski, Q.Pirimov kimi mədəniyyət xadimlərimizin böyük xidmətləri olmuşdur. 1908-ci ildə Z.Tağıyev teatrinda "Leyli və Məcnun" operasının ilk dəfə tamaşaya qoyulması Azərbaycan musiqi tarixində mühüm bir hadisə oldu.

1908-1915-ci illərdə Ü.Hacıbəyiv "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Əsli və Kərəm", "Şah Abbas və Xurşud Banu ","Harun və Leyla " kimi bir söra yeni operalar yaratdı.

1913-cü il oktyabrın 25-də ilk dəfə milli musiqili teatr səhnəsində Ü.Hacıbəyovun "Arşın mal alan " musiqili komediyası səhnəyə qoyuldu və böyük müvəffəqiyyət qazandı.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında bəstəkar M.Maqomayevin də misilsiz xidmətləri olmuşdur. Onun 1916-cı ildə yaratdığı "Şah İsmayıl " operası Azərbaycan opera sənətinin qızıl fonduna daxil oldu.

**Təsviri incəsənət**. XX əsrin görkəmli rəssamlarından Ə.Əzimzadə , B.Kəngərli Azərbaycan təsviri incəsənətinin tərəqqisində mühüm rol oynamışlar. 1913-cü ildə Bakıda ilk dəfə rəsm əsərləri sərgisinin açılışı Azərbaycanın mədəni həyatda böyük hadisə idi.

**Memarlıq.** Azərbaycanın XX əsr memarlıq incəsənətinin inkişafını ilk növbədə qabaqcıl sənaye şəhərinə çevrilən Bakının gündən-günə artan memarlıq abidələrində görmək mümkün idi. O dövrdə tikilmiş İsmailiyyə (1910) binası, Mayılov qardaşları teatrı (1911) hazırda da Azərbaycan memarlıq nümunələrinin parlaq incilərindən hesab olunur.

Azərbaycan memarlıq sənətinin inkişafında istedadlı memarlar olan, 1902-ci ildə Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmiş ilk Azərbaycanlı mühəndis memar Zivər bəy Əhmədov və İ.Q.Hacinskinin özünəməxsus yeri olmuşdur.

Beləliklə, XX əsrin başlanğıcında Rusiyada baş verən siyasi hadisələrin (müharibə və inqilabların) təsiri ilə mütləqiyyət milli ucqarlarda, XIX əsrdən Rusiyanın müstəmləkə əsarətinə düşmüş Azərbaycabda bir sıra demokratik dəyişikliklər etməyə məcbur oldu. Belə tarixi şərait Azərbaycan milli burjuaziyasının təşəkkülünə, milli təfəkkürünün inkişafına təsir göstərdi. İmperiyanın və Avropanın müxtəlif ali məktəblərində təhsil almış azərbaycanlı gənclər Azərbaycan milli-demokratik hərəkatının yaranmasında və inkişafında mühüm rol oynadılar. Təhsil aldıqları ölkələrin qabaqcıl ideologiyasını mənimsəyən azərbaycanlı gənclər Azərbaycanda milli təfəkkürün inkişafı üçün millətinin tarixini, mənəvi dəyərlərini, et-

nik mənşəyi problemlərini , Azərbaycançılıq prinsiplərini önə çıxara bildilər. Milli şüurun oyanması nəticəsində millət, M.Ə.Rəsulzadənin söylədiyi kimi , istiqlal xaricində onun üçün əlavə Azərbaycan olmadığına inandı.

Formalaşmaqda olan milli təfəkürümüz türk dünyasının görkəmli ideoloqları İ.Qaspıralı, M.Ə.Rəsulzadə , M.Ə.Topçubaçov, Ə.Hüseynzadə, Y.Akçuraoğlu və b.-nın türkçülüyə dair fikirləri əsasında inkişaf etdi. Azərbaycanın milli müstəqilliyi ümümtürk azadlıq hərəkatının tərkib hissəsinə çevrildi.

# FƏSİL 16. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (MAY 1918 – APREL 1920-ci İLLƏR)

*§ **1.** Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyət.*
*§ **2.**Azərbaycan Xalq Cümhuriyyətinin təşkili yaradılması. Milli hökümətin daxili siyasəti.*
*§ **3.**Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Paris sülh konfransı.*
*§ **4.** Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun tarixdə yeri.*
*§ **5.** 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı. Ş.M.Xiyabani.*

## *§ 1. Müstəqillik ərəfəsində Azərbaycanda siyasi vəziyyət*

1917-ci il fevral inqilabı 2-də II Nikolayı Rusiya taxt-tacını tərk etmək haqqında ilk manifesti imzaladı. Martın 2-də ölkədə real hərbi-siyasi güc olan qurumun-Petroqrad Fəhlə və Əsgər Deputatları Sovetinin bilavasitə dəstəyi ilə Müvəqqəti hökumət təşkil olundu.

Məmməd Əmin Rəsulzadə o günlərdə yazırdı: «Rusiyanın xalqları öz ürəklərində saxladıqları məqsədlərə, nəhayət ki, çatdılar. Əliqanlı жandarm, bütün xalqın düşməni olan istibdad yıxılmışdır».

Fevral inqilabı bütün müsəlmanların, o cümlədən azərbaycanlıların siyasi fəallağını artırdı. Gündəlikdə duran ən vacib məsələlərdən biri təkcə Cənubi Qafqazın deyil, bütün Rusiya müsəlmanlarının pərakəndə halda olan qüvvələrinin birləşdirilməsindən ibarət idi.

Fevral burjua-demokratik inqilabının qələbəsindən sonra «Müsavat» partiyası leqal şəkildə xalqı öz tərəfinə çəkmək istiqamətində geniş siyasi və təşkilati fəaliyyətə başladı.

«Müsavat» partiyası federativ demokratik Rusiya tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış azərbaycanlı vətəndaşlara seçki hüququ verilməsi ideyasını irəli sürürdü.

Qurultayın gündəliyinə fəhlə və torpaq haqqında məsələlər də daxil edilmişdi. Lakin qurultay bu məsələlərə aid qətnamə qəbul etmədi və onların həllini Müəssislər Məclisi çağırılana qədər təxirə saldı.

«Müsavat» partiyasının 1917-ci il oktyabrın 25-də 31-dək davam etmiş I qurultayı Azərbaycanın ictimai həyatında və partiyanın özünün siysi tarixində əhəmiyyətli hadisə idi. Partiya proqramının müzakirəsi və qəbul edilməsi qurultayın ən başlıca məsələsi oldu.

“Müsavat” partiyasının proqramı dövlət quruluşu, fəhlə məsələsi, milli və dini məsələlər, vətəndaş hüquqları, aqrar məsələ və s. sahələri əhatə edən 9 bölmə və 76 maddədən ibarət idi. “Müsavat”ın I qurultayı partiyanın sonrakı siyasi mübarizəsinin və Azərbaycana milli ərazi muxtariyyəti verilməsinin taktika və strategiyasını müəyyən etdi. “Müsavat” partiyasının I qurultayı partiyanın idealoji və

təşkilati cəhətdən tam formalaşdırmaqla yanaşı, onun ümummilli siyasi qüvvəyə çevrilməsi istiqamətində mühüm hadisə oldu. Qurultayda partiyanın rəhbər orqanları, eyni zamanda M.Ə.Rəsulzadə onun Mərkəzi Komitəsinin sədri seçildi.

Milli azadlıq hərəkatında və milli Azərbaycan dövlətinin yaradılmasında "Müsavat"ın rolu böyük idi. Partiyanın liderləri real vəziyyətdən çıxış edərək ölkədəki bütün demokratik qüvvələri milli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəyə çağırırdılar. 1917-ci il oktyabrın 25-də Petroqradda bolşeviklərin siyasi üsyanı nəticəsində Müvəqqəti hökumət devrildi. Bolşeviklərin Petroqradda hakimiyyəti ələ keçirməsi xəbəri alındıqdan sonra – 1917-ci il oktyabrın 27-də Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin fövqəladə yığıncağı keçirildi. İclasın gündəliyində duran əsas məsələ hakimiyyət məsələsi idi. Bolşeviklərin kəskin etirazına baxmayaraq, menşevik-eser-daşnak bloku 168 səsə qarşı 246 səslə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaradılması haqqında qərarın qəbul olunmasına müvəffəq oldu.

Rusiyada baş vermiş oktyabr çevrilişinə loyal münasibət nümayiş etdirən "Müsavat" partiyası bundan sonra xalqların öz müqəddəratını təyin etmək hüququnun həyata keçiriləcəyinə ümid edirdi.

Beləliklə, 1917-ci ilin sonu- 1918-ci ilin əvvəlində Zaqafqaziyada baş verən hadisələr bütün diyardakı həm mövcüd siyasi şəraitə, həm də siyasi partiyaların fəaliyyətinə ciddi təsir göstərirdi. Bu dövrdə diyar şərti olaraq iki hissəyə parçalanmışdı: birinci, Rusiya bolşevizminin dayağına çevrilməkdə olan Bakı şəhəri; ikincisi, Zaqafqaziyanın qalan ərazisi. Hakimiyyəti ələ keçirmiş bolşeviklər Azərbaycana muxtariyyət vermək istiqamətində heç bir addım atmır, əksinə inqilabi-demokratik qüvvələri Leninin başçılıq etdiyi Xalq Komissarları Soveti ətrafında daha sıx birləşməyə çağırırdılar.

1917-ci il dekabrın 18-də Lenin S.Şaumyanı Zaqafqaziya işləri üzrə xüsusi komissar təyin etdi, Bakı Sovetinin sədri vəzifəsini isə ondan sonra P.Çaparidze tutdu. Bu dövrdə müsavatçılar, xüsusilə Gəncə müsavatçıları Bakıdakı öz fəaliyyət məkanını Rusiyadan getdikcə uzaqlaşan bütün Cənubi Qafqaz regionuna keçirməyə başladılar. RSFSR XKS-nə tabe olmaq istəməyən və diyarı anarxiyadan qorumağa çalışan Gürcüstən Sosial Demokrat partiyası (menşeviklər), "Müsavat", "Daşnaksütun" və sağ eserlərin nümayəndələri noyabrın 11-də Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina etdiklərini bildirib, "Müstəqil Zaqafqaziya hökuməti" yaratmaq haqqında qərar çıxartdılar. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. Onun tərkibinə Gürcüstəndan Y.Gegeçkori (sədr) və A.Çxengeli, Azərbaycandan F.X.Xoyski, M.Y.Cəfərov, X.Məlik-Aslanov, ermənilərdən T.Ter-Qazaryan, X.Karçikyan, A.Aqacanyan, sağ eserlərdən D.Donskoy daxil oldular.

Milli Şuralar vətənpərvər qüvvələri öz ətrafında birləşdirir və yerlərdə hakimiyyəti ələ alırdılar. Bu cəhətdən Bakı Müsəlman Şurasının vəziyyəti çətin idi, çünki onun qarşısını bolşeviklərin başçılıq etdiyi Bakı Soveti kimi güclü bir rəqib kəsmişdi.

Milli hərbi hissələrin yaradılması yerli milli şuraların əsas fəaliyyət istiqamətlərindən biri idi. İlk milli dəstələrdən biri əvvəllər çar ordusu birləşmələrindən olan "Qafqaz yerli süvari diviziyasına" daxil olan, Azərbaycan türklərindən ibarət süvari alayın "Tatar süvari alayı" idi. Çar ordusu dağıldıqdan sonra bu alay Azərbaycana qayıtdı və yaradılan milli silahlı qüvvələrin tərkibinə daxil oldu.

Yeni silahlı dəstələr yaradılması üçün silah çatmırdı. Bunu nəzərə alan Gəncə Müsəlman Şurası şəhərdə olan keçmiş çar ordusunun 219-cü alayının, həmçinin Qafqaz cəbhəsində Rusiyaya qayıdan bir neçə hərbi eşelonu tərksilah etməyə razı oldu. Bu tədbirin həyata keçirilməsi nəticəsində 15 min tüfəng, 70-ə yaxın pulemyot və 20 top əldə edildi. Bu əməliyyat zamanı Gəncə Milli Şurasına Zaqafqaziya Komissarlığının göndərdiyi zirehli qatar kömək etdi.

Dövrün ən kəskin sosial-iqtisadi məsələlərindən biri olan aqrar məsələsinin həlli üçün Zaqafqaziya Komissarlığı bir sıra addımlar atdı. Məsələn, 1917-ci il dekabrın 16-da "Dövlət keçmiş xanədan, kilsə, monastr, hüquqi şəxslər və sahibkar torpaqlarının torpaq komitələrinə verilməsi haqqında" qanun qəbul etdi. Bu qanuna görə, kəndlilərin alacağı torpaqlar torpaq komitələrinin sərəncamına verilməli, kəndlilər isə torpağı həmin komitələrdən icarəyə götürmədli idilər.

Zaqafqaziya Komissarlığının fəaliyyəti Antanta və ABŞ tərəfindən Sovet Rusiyasına qarşı hərbi müdaxilənin başladığı vaxta düşdü. İngiltərə, Fransa və ABŞ hökumətləri Cənubi Qafqazda antibolşevik qüvvələrə kömək etməyə xüsusi diqqət yetirirdilər. Onların nümayəndələri (ABŞ konsulu və b.) 1917-ci il noyabrın 11-i və 15-də Zaqafqaziya Komissarlığının yaradılması ilə bağlı keçirilən iclaslarda olmuşdular. ABŞ konsulu Smit Vaşinqtona göndərdiyi məktubunda Zaqafqaziya Komissarlığını de-fakto tanımaq və antibolşevik qüvvələrə maliyyə yardımı göstərmək üçün Tiflisə 10 milyon dollar göndərməyi təklif edirdi.

Xarici siyasət sahəsində Zaqafqaziya Komissarlığının fəaliyyəti əslində diyarı bolşevik Rusiyasından ayırmaq məqsədi daşıyırdı.

1917-ci il dekabrın 5-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında barışıq sazişi bağlandı. 1918-ci il yanvarın 14-də isə Türkiyə komandanlığı Zaqafqaziya Komissarlığına tərəflər arasında sülh müqaviləsi bağlamaq haqqında danışıqlara başlamaq təklifi ilə müraciət etdi.

1917-ci ilin sonlarında Azərbaycanın və ümumiyyətlə Zaqafqaziyanın siyasi həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçirilməsi oldu. Ona hazırlıq işlərinə hələ Oktyabr çevrilişindən əvvəl başlanmış, Xüsusi Zaqafqaziya Komitəsi nəzdində Müəssislər Məclisinə seçkilər üzrə Mərkəzi Zaqafqaziya Komissiyası yaradılmışdı. Azərbaycanda Müəssislər Məclisinə seçkilər üzrə komissiyaya F.X.Xoyski rəhbərlik edirdi. Seçkilərə hazırlıq və onların keçirilməsi işində həm siyasi (seçkiqabağı kompaniyanın gedişində siyasi partiyalar arasında aşkara çıxan ixtilaflar), həm də sırf texniki xarakterli çoxlu çətinliklər var idi. Siyahıyaalınma prosesi yerli əhali arasında savadsızlığın yüksək səviyyədə olmasını aşkar etdi (Müəssislər Məclisinə seçkilərdə iş-

tirak etmək hüququna malik seçicilərin 50 faizindən çoxu savadsız idi, bu, seçkilərin mütəşəkkil keçirilməsini çətinləşdirən amillərdən idi).

Sentyabrın sonlarında seçkilərə hazırlıq işləri qəzalarda qaydaya düşsə də, Bakı şəhəri və mədən-zavod rayonlarında vəziyyət mürəkkəb olaraq qalırdı. Bolşeviklər əhalinin tərkibində fəhlələrin çoxluğuna nail olmaq niyyətilə mədən-zavod rayonlarının şəhərə birləşdirilməsi üçün geniş təbliğat aparırdılar. Bu tədbirin həyata keçirilməsi həmin rayonların ərazilərindəki əhaliyə seçkilərdə iştirak etmək hüququ verməliydi. Müsavatçılar bu tədbirin fəal tərəfdarları kimi çıxış edirdilər. Bütün bu səylər nəticəsində OZAKOM-un xüsusi göstərişi ilə mədən-zavod rayonları ərazisi şəhər idarəsi tərkibinə qatıldı.

"Müəssislər Məclisinə seçkilər haqqında əsasnamə" öz dövrünün burjua dövlət hüququ standartları baxımından demokratik sənəd idi. Qadınların, hərbi qulluqçuların səsverməyə buraxılması, dairələrin çoxunda proporsional seçki sisteminin tətbiqi və s. buna dəlalət edirdi. Bu fakt da maraqlıdır ki, Müəssislər Məclisinə seçkilər üzrə komissiya müsəlman qadınların seçki kampaniyasında iştirakını təmin etməyə çalışmış, onların səs verməsi üçün 9 seçki dairəsində xüsusi binalar ayrılmasına icazə vermişdi.

Zaqafqaziyada, o cümlədən Azərbaycanda Müəssislər Məclisinə seçkilər 1917-ci il noyabrın 26-da keçirildi. Zaqafqaziya dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, müsavatçılar və daşnaklar ümumilikdə səslərin 73 faizini qazandılar. Seçkilərin Nəticələri göstərdi ki, Zaqafqaziyada bolşeviklərin hakimiyyətə gələ bildikləri Bakı şəhəri istisna olmaqla, "Müsavat və "Daşnaksütun" partiyaları daha güclü nüfuza malikdir.

1918-ci il fevralın 23-də 3 əsas partiya fraksiyalarının nümayəndələrindən ibarət olan Zaqafqaziya Seymi öz işinə başladı. Seymdə Gürcüstəndan sosial-demokratlar (menşeviklər)- 32 nəfər, Azərbaycandan müsavatçılar, onlara qoşulmuş bitərəf demokratlar- 30 nəfər, ermənilərdən "Daşnaksütun" partiyasından olanlar- 27 nəfər deputat iştirak edirdi. Bundan əlavə, sosial-inqilabçılar (eserlər), milli demokratlar, Erməni Xalq Azadlıq Partiyası, Müsəlman Sosialist Bloku-7 nəfər, Rusiyada müsəlmanlar fraksiyası ("İttihad")-3 nəfər və menşevik-hümmətçilər partiyası –4 nəfər deputatla Seymdə təmsil olunmuşdular.

Zaqafqaziya Seymində Azərbaycan siyasi partiyalarının 44 nümayəndəsi var idi.

Zaqafqaziya Seymi Y.Gegeçkori başda olmaqla Zaqafqaziya hökumətini təşkil etdi. Zaqafqaziya Seymindən müsəlman fraksiyasının lideri M.Ə.Rəsulzadə bu barədə yazırdı: «Seymdə müsəlmanların bütün səyləri cəbhə məsələsinin dinc yolla həlli və Qafqazın müstəqilliyinin dərhal həyata keçirilməsinə yönəlmişdir».

Seymin qarşısında duran əsas məsələlərdən biri yaxınlaşan sülh danışıqları üçün hüquqi baza yaratmaq idi.

Zaqafqaziya Seymi hələ Türkiyə ilə sülh danışıqlarına hazırlaşdığı vaxt Brestdə Rusiya ilə Almaniya arasında separat müqavilə imzalanmışdı və onun bir şərtinə görə Ərdəhan, Qars və Batum Türkiyəyə verilməli idi. Belə bir şəraitdə 1918-ci il martın 14-də Trabzonda Türkiyə və Zaqafqaziya Seyminin nümayəndə

heyətləri arasında sülh konfransı açıldı. Konfransda Türkiyə nümayəndəliyi mövqeyini açıqlayaraq bildirdi ki, əgər Zaqafqaziya beynəlxalq hüququn subyekti olmaq istəyirsə, tezliklə Rusiyadan ayrılmalı və öz müstəqilliyini elan etməlidir.

Seymdə mübahisələr getdiyi bir vaxtda Türkiyə tərəfi qətiyyətlə bəyan etdi ki, Zaqafqaziya Seymi ilə sülh Brest-Litovsk müqaviləsinin məlum şərti əsasında bağlanacaq.

Trabzon danışıqlarında iştirak edən Zaqafqaziya nümayəndəliyinin daxilində Türkiyəyə güzəşt məsələsində yekdillik yox idi. Çünki ermənilər Qars vilayətinin böyük bir hissəsini, gürcü nümayəndələri Ərdəhanın və Batumun Zaqafqaziya dövlətinin tərkibində qalmasını istəyirdilər. Azərbaycan daha 2 mühüm səbəbdən gürcüləri müdafiə edirdi: birincisi, bütün Zaqafqaziya, o cümlədən Azərbaycan üçün Qars və Ərdəhan dünya okeanına yeganə çıxış qapısı olan Batum qədər çox böyük əhəmiyyət daşımırdı; ikincisi, yerli əhalinin əksəriyyəti türklər olan bu 2 vilayət milli, coğrafi, tarixi amillərlə Türkiyəyə bağlı idi.

Aprel ayının 6-da Türkiyə tərəfi Zəqafqaziya nümayəndələrinə Brest-Litovsk müqaviləsinin şərtlərini qəbul edib-etməmək barəsində 48 saat ərzində cavab verilməsini tələb edən ultimatum təqdim etdi.

Nümayəndə heyətinin başçısı A.Çxengeli Türkiyə tərəfinin ultimatumunu qəbul etmək qərarına gəldi. Lakin gec idi, artıq Türkiyə qoşunları Batumdan başqa həmin ərazilərin hamısını tutmuşdu.

Aprelin 13-də Seymin, hökumətin və fraksiya nümayəndələrinin birgə iclasında danışıqların gedişi müzakirə olundu. Türkiyə ilə müharibə məsələsində hətta Azərbaycan fraksiyası daxilində də yekdillik yox idi.

“Müsavat”, bitərəflər qrupu və “İttihad” məsələyə münasibətdə eyni mövqedən çıxış edərək müharibə əleyhinə birgə qətnamə qəbul etdilər. Lakin Seym həmin iclasda Trabzon danışıqlarını dayandırmaq və Türkiyə ilə müharibəyə hazırlaşmaq haqqında qərar qəbul etdi. Ölkədə hərbi vəziyyət elan edildi. Lakin bu tədbirlər də Türkiyə qoşunlarının irəliləməsini dayandıra bilmədi və onlar 1918-ci il aprelin 14-də Batumu tutdular.

Azərbaycanda milli hərəkatın genişlənməsi, milli azadlıq carçısı olan “Müsavat”ın nüfuzunun artması “Böyük Ermənistan” xülyası ilə yaşayan daşnakları ciddi narahat edirdi. Daşnaklar mart qırğınını törətməklə “Müsavat”ın sosial bazasını, şəhərin müsəlman əhalisini məhv etməyi planlaşdırmışdılar. Bu məqsədlə təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Beləliklə, “Qırmızı qvardiya” adı ilə yaradılan 10-12 minlik ordunun da 70 faizi erməni idi. Əsasən ruslardan ibarət olan Xəzər donanması içərisində xüsusi təbliğat işi aparılmışdı, həmçinin Şamaxı və Muğanda ehtiyat rus-molokan silahlı dəstələri də yaradılmışdı.

Martın 30-da axşam saat 5-də Bakıda ilk atəşlər açıldı. Aldatma siyasəti yeridib özlərinin bitərəfliyini elan etmiş “Daşnaksütun” və Erməni Milli Şurası bu ilk atəşlərdən sonra Bakı Sovetini müdafiə etdilər. Tarixə qanlı faciə kimi daxil olan mart qətilləri 3 gün davam etdi. İlk atəşlərdən sonra həmin gün şəhər silahlı dəstələrlə doldurulmuşdu. Uzun müddət menşeviklərə qarşı mübarizə aparan bol-

şeviklərin menşevik və eserlərlə, hətta kadet və daşnaklarla mart günlərində birləşməsi dini və milli zəmində baş verdi. Martın 30-da axşam Bakı Soveti hərbi dəstələri başçılarının təcili iclası keçirilirdi. Döyüşə başlamaq haqqında qərar çıxarıldı və Erməni Milli Şurasına, daşnak liderlərinə müraciət edildi ki, öz hərbi dəstələrini hərəkətə gətirsinlər. Onların fəaliyyətinə "Kazino" mehmanxanasında yerləşmiş təcili açılmış təlim qərargahından rəhbərlik etmək A.Mikoyan və N.Anançenkoya tapşırılmışdı. Onların müsəlman silahlı dəstələrinin toplandığı yerə qəfil hücümu qələbə ilə başa çatdı. Xəzər donanması gəmilərindən müsəlman məhəllələrinin atəşə tutulması şəhərdə vahiməli vəziyyət yaratdı. Bir neçə saatlıq bombardmandan sonra rus matrosları bunun təxribat olduğunu, "Müsavat"a qarşı mübarizə bəhanəsi ilə müsəlman əhalisinin qırğına verildiyini bildikdə atəşi dayandırdlar. Xeyli molokan-rus hərbi dəstələri də eyni qaydada aldadılaraq Muğandan Bakıya gətirilmişdi. Lakin onlar şəhərdə ayrı vəziyyət olduğunu görüb döyüşdən imtina etdilər və buna görə Bakı Soveti və erməni qoşunları tərəfindən tərksilah olundular. Martın 31-də danışıqlar aparmaq üçün müsəlman nümayəndələri Sovetin İcraiyyə Komitəsinə gəldilər. İnqilabi Müdafiə Komitəsinin ultimatumunun qəbul edilməsinə baxmayaraq, orada P.Caparidze ilə aparılan danışıqlar nəinki heç bir müsbət nəticə vermədi, hətta müsəlman heyətindən 3 nəfər geri qayıdarkən yolda güllələndi.

Beləliklə, 3 günün- 18-21 mart (30 mart-1 aprel) – qətil və qarətlərindən sonra Fövqəladə İstintaq Komissiyasının ümumiləşdirdiyi hesabatına görə Bakıda "əksinqilabçı" adı ilə 12 min nəfər azərbaycanlı qətilə yetirilmişdi. Bu faciəli hadisələrə inqilabi don geyindirmək üçün M.Əzizbəyov şəhərin onsuz da boş qalmış hissəsinə komissar təyin edildi. O, müsəlman əhalisinin şəhərdən çıxmasını və yerdəyişməsini qadağan etsə də, bunun elə bir əhəmiyyəti olmadı.

Danılmaz tarixi fakt kimi məlumdur ki, Azərbaycan müsəlman soyqırımı təkcə Bakı ilə məhdudlaşmadı. Bakıda törədilmiş cinayətlər aprel ayının ilk günlərindən etibarən eynilə Şamaxı, Quba, Xaçmazda törədildi. Azərbaycanın qəzalarına "sovet qoşunları" adı altında göndərilən cinayətkar dəstələrə quldur erməni "hərbiçiləri" T.Əmiryan, H.Amazasp rəhbərlik edirdilər. Daşnak cəlladlardan ən ağır ziyan çəkən Şamaxı qəzası oldu. Nəticədə Şamaxı şəhəri və qəzasının 72 kəndi Bakı Sovetinin bolşevik-daşnak qoşunları tərəfindən dağıdıldı. Şamaxı qırğınlarında 8 min nəfərə qədər azərbaycanlı öldürüldü.

Quba qəzasında qırğın törədən quldur dəstəsinə S.Şaumyanın xüsusi səlahiyyətlər verdiyi H.Amazasp rəhbərlik edirdi. Aprel ayından qəzanın 122 müsəlman kəndi dağıdılmış, yüzlərlə azərbaycanlı və dağlı, o cümlədən ləzgi məhv edilmişdi. Quba qəzasında 16 min insan qətlə yetirilmişdi.

Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də erməni Cəza dəstələrindən ciddi ziyan çəkmişdi. 1918-ci il mart soyqırımı nəticəsində 50 min azərbaycanlı məhv edilmişdi.

1918-ci il aprelin 22-də müsəlman fraksiyasının təzyiqi altında Zaqafqaziya Seyminin geniş iclası keçirildi və müstəqil demokratik federativ Zaqafqaziya Res-

publikasının elan olunması haqqında qətnamə qəbul edildi. Aprelin 20-də Bakı hadisələri ilə bağlı məsələnin müzakirəsi zamanı yaranmış hökumət böhranının bir nəticəsi də bu oldu ki, Y.Gegeçkorinin başçılıq etdiyi Zaqafqaziya hökuməti istefa verdi.

Zaqafqaziyada vəziyyət getdikcə pisləşirdi. Çünki müstəqilliyini elan etməsindən sonra Zaqafqaziya Federativ Respublikasının nə daxili, nə də xarici siyasətində ciddi bir dəyişiklik baş verməmişdi. Siyasi partiyaların nümayəndələri Zaqafqaziya Seymində ümumi dil tapa bilmirdilər, onların ümumi fəaliyyət proqramı yox idi və fraksiyaların hər biri isə öz siyasi xəttini həyata keçirməyə çalışırdı.

1918-ci il mayın 11-də Batumda Zaqafqaziya və Türkiyə arasında nümayəndə heyətləri səviyyəsində danışıqlar davam etdirildi. Zaqafqaziya hökumətinin sədri və xarici işlər naziri A.Çxengelinin başçılıq etdiyi heyətin danışıqlarında Azərbaycanı M.Ə.Rəsulzadə və M.H.Hacınski təmsil edirdilər. Türkiyə tərəfinin təmsilçilərinə xarici işlər naziri Xəlil paşa, Qafqaz cəbhəsi komandanı Vahid paşa və hərbi nazir Ənvər paşa başçılıq edirdilər.

Batum konfransında müşahidəçi sifətində general Ottofon Lossovun başçılığı ilə Almaniya nümayəndəliyi də iştirak edirdi. Batum konfransında Zaqafqaziya Seyminin nümayəndə heyəti Türkiyənin Qars, Ərdəhan və Batum əyalətləri haqqında tələblərini tamamilə tanıdı və bununla da Brest-Litovsk müqaviləsinin müddəasını təsdiq etdi. Bundan əlavə, Türkiyə Axalsıx, Axalkələk, Aleksandropol (Gümrü), Sürməli və Naxçıvan qəzalarının daxil olduğu ərazini də tələb edirdi.

Türkiyə qoşunları 1918-ci mayın 17-də Gümrünü (Aleksanropolu) ələ keçirdilər və Cülfa istiqamətinə çıxdılar. Almaniya və Türkiyə tərəfindən aparılan hərbi əməliyyatlar nəticəsində Batum konfransında gürcülər, azərbaycanlılar və ermənilər Türkiyə ilə ayrı-ayrılıqda danışıqlar aparmağa başladılar.

Digər tərəfdən Batum konfransında Almaniya nümayəndələri ilə separat danışıqların gedişində general Fon Kressin təzyiqi nəticəsində Seymin gürcü fraksiyası Gürcüstənın Federativ Zaqafqaziya Respublikası tərkibindən çıxmasını və öz müstəqilliyini elan etməsini qərara aldı.

Zaqafqaziya Seyminin sədri və üzvləri – K.Çxeidze, A.Sereteli və Y.Gegeçkori gözlənilmədən 1918-ci il mayın 25-də F.X.Xoyskinin sədrliyi ilə keçirilən axşam iclasına gəldilər. A.Sereteli gürcü fraksiyası adından bəyanat verərək xüsusi qeyd etdi ki, “Seymin sabahkı iclasında biz Zaqafqaziya Respublikasının ləğv olunması faktını təsdiq edəcəyik”.

Cavab nitqində F.X.Xoyski bildirdi ki, “Əgər gürcü xalqının iradəsi belədirsə, bizim ona mane olmağa haqqımız yoxdur. Azərbaycan türklərinə isə yeni vəziyyətlə bağlı olaraq müvafiq qərarlar qəbul etməkdən başqa bir şey qalmır”.

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin son iclası oldu. Gürcü fraksiyası Zaqafqaziya Seyminin dağılmasının bütün günahını müsəlman fraksiyasının üstünə yıxdı. Buna görə də müsəlman fraksiyası belə vəziyyətdə Seymin özünü buraxmasına etiraz etmədi.

Beləliklə, həmin qüvvələrin təzyiqi altında yaradılmış Zaqafqaziya Respublikası daxili ziddiyyətlərin kəskinləşməsi nəticəsində dağıldı.

Mart hadisələrindən sonra Bakı şəhərində və onun neft mədən rayonunda Bakı Sovetinin hakimiyyəti gücləndi.

1918-ci il mayın 1-də Bakı XKS gələcək funksiyaları və fəaliyyət proqramını müəyyən edən deklarasiyasını dərc etdi. Deklarasiyada qeyd edilirdi ki, Bakı XKS RSFSR XKS-nın bütün dekret və sərəncamlarını həyata keçirməyə başlamış ümumrusiya mərkəzi hökuməti ilə sıx əlaqədə fəaliyyət göstərəcək.

"Bankların mililəşdirilməsi haqqında" dekret Bakıda komissarların həyata keçirdiyi ilk dekretlərdən biri sayılsa da əslində heç bir milliləşdirmə həyata keçirilməmişdi.

"Azərbaycan neft sənayesinin milliləşdirilməsi haqqında" 1918-ci il 2 aprel tarixli dekretin Azərbaycan iqtisadiyyatına vurduğu ziyanı xüsusi qeyd etmək lazımdır. RSFSR hökuməti, şəxsən Lenin Bakı XKS-dən neft təchizatını təmin etməyi tələb edirdi. V.I.Lenin iyunun 5-dən S.Şaumyana "nefti ilk sıraya qoymaq" tapşırığını, 2 gün sonra göndərdiyi teleqramda isə yenə "tezliklə Bakıdan neft göndərilməsi üçün tədbirlər görün" göstərişini vermişdi.

Bütövlükdə 1918-ci ilin aprel-iyul ayları ərzində Bakı XKS-nın zorakı tədbirləri nəticəsində Bakıdan Sovet Rusiyasına 1,3 milyon tona yaxın neft və neft məhsulları daşındı.

Fəhlələrin vəziyyəti də Kommunanın xeyrinə deyildi. Fəhlələrin irəli sürdükləri tələblər kifayət qədər sərt idi: sovetin yenidən seçilməsi, koalision hökumətin yaradılması, ərzaq məsələsinin tezliklə həll edilməsi, dərin böhranın aradan qaldırılması.

Beləliklə, yeni hökumətin siyasəti təkcə liberal ünsürləri və orta təbəqəni deyil, həmçinin digər sosialist partiyalarını və onların arxasınca gedən fəhlələri ondan uzaqlaşdırdı. Şəhərin müsəlman əhalisi isə yeni hakimiyyətdən üz döndərdi, Bakıda, Azərbaycanda vəziyyət bolşeviklərin xeyrinə olmayan istiqamətdə dəyişdi və "Bakı Kommunası"nın süqutu ilə nəticələndi.

### *§ 2.Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması. Milli hökümətin daxili siyasəti*

1918-ci il mayın 26-da Gürcüstənın Zaqafqaziya Federasiyasından çıxıb özünün istiqlaliyyətini elan etməsindən sonra, ertəsi gün Tiflisdə Zaqafqaziya Seyminin müsəlman fraksiyası özünü Azərbaycanın Müvəqqəti Millli Şurası elan etdi. M.Ə.Rəsulzadənin sədr seçildiyi bu Şura 1918-ci il mayın 28-də müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını elan etdi. Müvəqqəti Milli Şuranın həmin iclasında qəbul olunmuş tarixi sənəddə- Istiqlaliyyət Bəyannaməsində bildirilirdi ki:

1. Bu gündən etibarən Azərbaycanın xalqları suveren hüquqların daşıyıcılarıdır və Zaqafqaziyanın şərqi və Sənubunu əhatə edən Azərbaycan tam hüquqlu müstəqil dövlətdir;

2. Müstəqil Azərbaycanın siyasi quruluşunun forması kimi demokratik respublika müəyyənləşdirilir;

3. Azərbaycan Demokratik Respublikası bütün dünya dövlətləri ilə, xüsusən də qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa can atır;

4. Azərbaycan Demokratik Respublikası hüdudları daxilində milliyyətindən, dini mənsubiyyətindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq özünün bütün vətəndaşlarının siyasi və vətəndaş hüquqlarına təminat verir;

5. Azərbaycan Demokratik Respublikası öz ərazisində məskunlaşmış bütün xalqların azad inkişafı üçün imkanlar yaradacaqdır;

6. Müəssislər Məclisinin çağırılmasınadək bütün Azərbaycana səsvermə yolu ilə seçilmiş Milli Şura və Milli Şura qarşısında məsul olan Müvəqqəti Hökumət başçılıq edir.

"İstiqlaliyyət Bəyannaməsi"nin qəbul edilməsindən sonra Müvəqqəti Milli Şura hökumətin- Nazirlər Kabinetinin təşkil olunmasını Fətəli xan Xoyskiyə tapşırdı. Elə həmin gün Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumət kabinetinin aşağıdakı tərkibini təsdiq etdi:

- Baş nazir və daxili işlər naziri – Fətəli xan Xoyski (bitərəf);
- Maliyyə naziri və xalq maarifi naziri – Nəsib bəy Usubbəyov ("Müsavat");
- Xarici işlər naziri – Məhəmmədhəsən Hacınski ("Müsavat");
- Yollar naziri və poçt-teleqraf naziri – Xudadat bəy Məlikaslanov ("Müsavat");
- Ədliyyə naziri – Xəlil bəy Xasməmmədov ("Müsavat");
- Əkinçilik və əmlak naziri - Şeyxülislamov ("Hümmət");
- Hərbi nazir – Xosrovpaşa bəy Sultanov ("Ittihad");
- Ticarət və sənaye naziri – Məmmədyusif Cəfərov (bitərəf);
- Dövlət nəzarət naziri – Şamo bəy Hacınski (sosialist)

Azərbaycan milli-demokratik qüvvələrinin görkəmli nümayəndələrinin siyasi zəkası xalqın bütün arzu və istəklərini nəzərə alaraq, Qafqazın şərqi və Sənubunda dünyəvi və dnmokratik Azərbaycan dövlətinin yaradıldığını bütün dünyaya bəyan etdi.

1918-ci il iyunun 16-da Müvəqqəti Milli Şuranın üzvləri və AXC-nin ilk hökuməti Tiflisdən Gəncəyə gəldi və dərhal da çox çətin problemlərlə toqquşdu. Bu zaman Gəncədə siyasi vəziyyət son dərəcə mürəkkəb idi. Gəncədəki siyasi qüvvələrin bir qrupu Nuru paşanı inandıra bilmişdi. Tiflisdən gələnlər heç də Azərbaycan xalqının ən ümdə arzu və istəklərinin günun təminçiləri yox, bir qrup siyasətbazlardır.

Milli Şura Gəncəyə gələn kimi Nuru paşa tərəfindən son dərəcə soyuq münasibətlə qarşılandı. Nuru paşanın müşaviri Əhməd bəy Ağayev Fətəli xan Xoyski ilə söhbətində Müvəqqəti Milli Şuranın buraxılması və yeni hökumət kabinetinin təşkil olunmasını təkid etdi. Digər tərəfdən "Müsavat" partiyasında təfriqə başlan-

dı. N.Yusifbəyov, M.Cəfərov və R.Vəkilovun simasında bu partiyanın radikal qrupu Osmanlı hərbi komandanlığı tərəfindən siyasi təzyiqlərə etiraz edir, Müvəqqəti Milli Şuranın buraxılması ilə razılaşsa da yeni hökumət kabinetinin təşkilinə qarşı çıxırdı.

Müvəqqəti Milli Şuranın öz fəaliyyətini dayandırması ərəfəsində "Hümmət" fraksiyası onun tərkibini tərk etdi.

Fətəli xan Xoyski tərəfindən yeni hökumət kabinetinin tərkibi elan olunduqdan sonra sosialistlər də Milli Şuradan çıxırlar. Lakin, eyni zamanda bildirirlər ki, ola bilsin yeni hökuməti dəstəkləyəcəklər. Beləliklə, 1918-ci il iyunun 18-də Müvəqqəti Milli Şuranın "Müsavat", bitərəf və ittihadçılar fraksiyalarından ibarət qalan hissəsi cəmisi bir nəfərin (Milli Şuranın sədri Seyidovun) bitərəf qalması ilə yeni hökumət kabinetinin tərkibini təsdiq etdi və Azərbaycanda bütün hakimiyyət səlahiyyətlərini yenə də F.X.Xoyskinin sədrliyi ilə təşkil olunmuş ikinci hökumət kabinetinə verdi. Lakin Milli Şuranın öz fəaliyyətini dayandırması barəsində qərarında xüsusi olaraq qeyd olunurdu ki, Nazirlər Şurası Azərbaycanın suverenliyi məsələsində heç bir siyasi qüvvəyə güzəştə gedə bilməz və bütün hakimiyyət səlahiyyətlərinin ancaq və ancaq tezliklə çağırılmalı olan ÜmumAzərbaycan Müəssislər Məclisinə verə bilər.

Sonralar M.Ə.Rəsulzadə öz xatirələrində bu hadisələr barəsində yazırdı ki, Milli Şuranın bu şəkildə buraxılması həmin dövrdə Gəncədə gedən müəyyən siyasi mübarizənin nəticəsi idi. Bu mübarizə dövlət idarəçilik formaları ətrafında, demokratik cərəyanlar və demokratik anlayışlar arasında gedirdi.

Beləliklə, Azərbaycanda yenidən özünəməxsus ikihakimiyyətlilik bərqərar oldu. Bir tərəfdən daşnak yaraqlılarının süngülərinə söykənən, 1918-ci ilin mart-aprel aylarında Azərbaycanı qana boyamış Bakı Kommunası və daha sonra eyni dərəcədə xalqa yad olan Sentrokaspi diktaturası, digər tərəfdən isə Gəncədə qərar tutmuş Azərbaycan millli hökuməti, istər Şaumyan erməni - bolşevik güruhu, istərsə də Sentrokaspi diktaturasının eser – menşevik - daşnak rejimi tamamilə məlum səbəblərə görə xalqın arzu və istəklərinə cavab vermirdilər. Digər tərəfdən isə Azərbaycan hökuməti Osmanlı ordu hissələrinin köməyi ilə ölkəni yad ünsürlərdən tamamilə azad etmək üçün gərgin iş aparırdı. Azərbaycan hökuməti Milli Şuranın qanunvericilik səlahiyyətlərini öz üzərinə götürdükdən sonra, qısa müddət ərzində dövlət quruculuğu sahəsində geniş və sistemli tədbirlər həyata keçirdi.

Artıq iyunun 24-də hökumətin qərarı ilə AXC-nin üzərində aypara və səkkizguşəli ulduz olan al qırmızı Dövlət Bayrağı təsdiq olundu (sonralar noyabrın 9-da bu bayraq Azərbaycan Respublikasının indi qüvvədə olan bayrağı ilə əvəz olundu), iyunun 27-də Azərbaycan türkcəsi respublikamızın dövlət dili elan edildi, iyulun 7-də milli komitələrin ləğvi və onların əmlakının müsadirəsi, avqustun 11-də isə Azərbaycan Ordusuna səfərbərlik haqqında fərmanlar verildi.

İngilislərin köməyə çağırılmasına baxmayaraq, Sentrokaspi Bakını əldə saxlaya bilmədi və 1918-ci il sentyabr ayının 15-də yeni yaradılan Milli Ordunun hissələri Bakıya daxil oldular. Sentyabrın 17-də F.X.Xoyskinin başçılıq etdiyi hö-

kumət də Gəncədən Bakıya gəldi. Beləliklə, Şimali Azərbaycanda təxminən 4 ay davam edən ikihakimiyyətlilik başa çatdı və bütün ölkədə qanuni Azərbaycan hökumətinin hakimiyyəti bərqərar oldu. Rus müstəmləkəçilərinin əli ilə məhv olunmuş Azərbaycan milli dövlətçiliyi 90 illik fasilədən sonra xalqın və milli öndərlərimizin sayəsində yenidən dirçəldi və Quzey Azərbaycanını əhatə edən AXC dünya dövlətləri sırasında layiqli yer tutmaq üçün gərgin mübarizəyə başladı.

**Şərqdə ilk demokratik parlament.** Nisbətən qısa müddət ərzində əldə olunmuş hərbi və siyasi nailiyyətlərə baxmayaraq, gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə işləməli oldu. 1918-ci il 30 oktyabr tarixli Mudros (Mondros) sazişinə görə Osmanlı Türkiyəsi 1-ci cahan savaşında öz məğlubiyyətini etiraf edib qoşunlarını Zaqafqaziyadan, o cümlədən Azərbaycandan çıxarmaq zorunda qalarkən, Ənzəliyə ingilis generalı Tomsonla danışıqlara yollanmış Azərbaycan nümayəndə heyəti əliboş geriyə qayıtdıqda AXC-nin vəziyyəti daha da gərginləşdi. Belə şəraitdə hələ iyunda öz fəaliyyətini dayandırmış Milli Şuranın çağırılmasını tələb etməyə başladılar. Əslində belə şura artıq Bakının azad edilməsindən sonra çağırılmışdı. Artıq 1918-ci il noyabrın 16-da Milli Şura öz fəaliyyətini bərpa edir və bir neçə gün sonra- noyabrın 19-da AXC parlamentinin yaradılması barəsində qərar qəbul edir. Bu qanunda Azərbaycanda məskunlaşmış bütün milli azlıqlara da parlamentdə təmsil olunmaq hüququ verilirdi.

Lakin ingilis qoşunlarının Bakıya yeridilməsi vəziyyəti son dərəcə kəskinləşdirirdi. Ingilis komandanlığının, ümumiyyətlə Azərbaycan Respublikasının istiqlaliyyəti ideyasının özünə necə yanaşacağını heç kəs bilmirdi. Ingilislərin ilk hərəkətləri heç bir yaxşı şey vəd etmirdi. 1918-ci il noyabrın 17-də ingilis qoşunları Bakıya daxil olarkən limanda ABŞ, İngiltərə, Fransa və İtaliya bayraqları ilə yanaşı Azərbaycan Xalq Cümhuriyyətinin də bayrağının asıldığını görən kimi sonuncu bayrağın dərhal çıxarılması əmr edilmişdir.

M.Ə.Rəsulzadə öz xatirəsində yazırdı ki, noyabrın 17-də iki Bakı var idi: bədbəxt müsəlman Bakısı və bəxtəvər xristian Bakısı. Bundan iki gün sonra ingilis komandanlığı şəhərin müsəlman əhalisini dərindən məyus edən belə bir müraciət nəşr etdirdi: "Antantanın müvəffəq ordusu öz vətəninə qayıtmadan əvvəl ümumi qələbəyə bu qədər yardım göstərmiş cəsur rus xalqı qarşısında öz borcünu yerinə yetirəcəkdir. Bu borcü yerinə yetirmək naminə bu ordu Rusiyadan qoparılmış Qafqazı düşmənlərdən təmizləyəcəkdir və Ufada təşkil olunmuş rus hökuməti ilə razılığa əsasən buraya bu məqsədlə gəlmişdir".

Milli Şura və Azərbaycan hökuməti müdaxiləçilərə hərbi müqavimət göstərmək üçün heç bir imkan olmadığı (ingilis komandanlığının tələbi ilə AXC-nin azsaylı hərbi qüvvələri və Hərbi Nazirliyi Bakıdan çıxarılmış və Gəncəyə köçürülmüşdür) və ingilis komandanlığının AXC-yə qarşı açıq-aşkar saymazlığı şəraitində milli dövlətçiliyin qorunub saxlanılması üçün doğrudan da zərgər dəqiqliyi tələb edən incə və çevik siyasət yürütmək zorunda qalmışdılar.

AXC parlamentinin açılmasına hazırlıq işləri də bu son dərəcə mürəkkəb şəraitdə aparılırdı.

Müsəlman Şərqi tarixinə ilk seçkili qanunvericilik orqanı kimi daxil olmuş AXC parlamentinin deputat korpusu hansı prinsip əsasında formalaşdırılmışdır? Deputatların əsas hissəsini Milli Şuranın 44 üzvü təşkil edir, qalan 36 müsəlman deputat isə şəhər və qəzalardan, keçmiş milli komitələrin üzvlərindən seçilirdi (belə komitələrin olmadığı yerlərdə deputatlar kənd icmaları nümayəndələrinin Məclisi tərəfindən seçilirdi). Seçkilər gizli idi.

AXC parlamentinin təşkili üçün əsas kimi götürülmüş milli nümayəndəlik prinsipinə müvafiq olaraq erməni və rus milli şuralarına öz deputatlarını parlamentə göndərmək təklif olunmuşdu.

Əvvəlcə hər iki şura bu təklifə rədd cavabı verdilər. Maraqlıdır ki, ermənilər özləri üçün ənənəvi olan ruhda cavab verərək siyasi və milli-mədəni mənafelərin taleyini bəhanə gətirir, erməni milli şurası AXC parlamentinin də ermənilərin ümumi mənafelərini təmsil etmək hüququna malik olmadığını bildirirdi.

Lakin buna bənzər müxtəlif maneələrə baxmayaraq 1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti təntənəli şəraitdə öz işinə başladı. Parlamentə 11 müxtəlif fraksiya və qrupu təmsil edən 97 deputat seçilmişdi.

Bitərəflər qrupu ilə birləşmiş müsavatçılar parlamentdə ən çoxsaylı fraksiyanı (38 deputat) təşkil edirdilər. Sonrakı yerlər ittihadçılar (13), sosialist bloku (13), Əhrar (6), Slavyan-rus cəmiyyəti (3), milli azlıqlar fraksiyası (4), erməni fraksiyası (5) və Daşnaksütun fraksiyası (6) tuturdu. Bitərəflər (4 üzv), partiyaların fövqündə duranlar (4) , və sol bitərəflər (1) ayrıca qrup təşkil edirdilər.

Parlamentin işə başlamasından təxminən bir həftə sonra 1918-ci il dekabrın 13-də parlamentin sədri Ə.Topçubaşovun müavini Həsən bəy Ağayev yeni hökumət kabineti təşkil etmək xahişi ilə F.Xoyskiyə müraciət etdi. H.Ağayevin müraciətində Vətənə xidmət yolunda Fətəli bəyin görkəmli xidmətləri və bütün parlament fraksiyalarının onu baş nazir vəzifəsində görmək arzusu qeyd olunurdu.

F.Xoyskinin baş nazir vəzifəsindən diplomatik şəkildə (AXC-nin ilk baş naziri səhhətindən şikayətlənirdi) imtina etməsinə baxamayaraq, parlament onun namizədliyi üzərində təkid etdi. Çünki F.Xoyskinin başçılıq etdiyi ilk hökumət kabineti kifayət qədər mürəkkəb hərbi-siyasi və iqtisadi şəraitdə işləmələrinə baxmayaraq, öz üzərlərinə düşən vəzifələrin öhdəsindən uğurla gəlmişdilər.

Yeni hökumət kabineti parlamentin özündəki siyasi qüvvələr nisbətinə müvafiq olaraq təşkil edilirdi. Bu yeni koalisiya hökuməti böyük çətinliklərdən sonra faktiki olaraq bütün parlament fraksiyalarının itirakı ilə ("İttihad"dan başqa) yaradıldı. "İttihad"ın koalisiyadan kənarda qalması ondan irəli gəlirdi ki, ittihadçılar bütün digər partiyalar tərəfindən öz vəzifəsinə layiq hesab edilən F.Xoyskinin əleyhinə idilər.

1918-ci il dekabrın 26-da F.Xoyski yeni nazirlər şurasının tərkibini parlamentin təsdiqinə təqdim etdi. Həm partiyanın, həm də bitərəf deputatların təmsil olunduğu həkumətin tərkibi Azərbaycan hökumətinin demokratikliyinə dəlalət edirdi.

Yeni koalisiya hökumətinin təşkili başa çatan kimi general Tomson xüsusi bəyannamə ilə çıxış edərək bu hökuməti yeganə qanuni hökumət kimi tanıdığını bildirdi. Bu, ADR liderlərinin mühüm siyasi-diplomatik qələbəsi idi.

**Azərbaycan Milli ordusunun yaradılması.** Çağdaş yüzilliyin əvvəllərində Azərbaycan milli dövlətçiliyinin bərpa edilməsində və gənc Azərbaycan Xalq Cümhuriyyətinin bütün Quzey Azərbaycanda öz hakimiyyyətini bərqərar etməsində, respublikanın qorunub saxlanmasında milli silahlı qüvvələrin fövqəladə rolu olmuşdur.

Milli silahlı dəstələrin yaradılması zərurəti, azərbaycanlılar qarşısında artıq fevral inqilabından dərhal sonra durmağa başladı, hakimiyyətsizlik və anarxiya, qonşu bölgələrdə milli silahlı birləşmələrin mövcüdluğu bu məsələni Azərbaycan üçün də mühüm siyasi vəzifəyə çevirdi. Qafqaz müsəlmanlarının qurultayında da (1917-ci ilin aprelində), “Müsavat”ın 1917-ci ilin oktyabrında Bakıda keçirilmiş I qurultayında da milli silahlı dəstələrin yaradılması zərurəti qeyd olunurdu.

1917-ci il noyabrın 5-də Gəncədə öz işini başlayan I Qafqaz Müsəlman hərbi qurultayı Qərb cəbhəsində buraya gəlmiş “Qatar süvari polku”nun bazasında Azərbaycan korpusunun yaradılması barəsində qərar qəbul etdi. Lakin zabit kadrlarının kəskin surətdə çatışmaması və 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində Azərbaycanda bərqərar olmuş mürəkkəb hərbi-siyasi şərait üzündən Azərbaycan korpusunun yaradılması işləri çox ləng gedirdi. Ona görə də mayın 28-də yarandığı elan olunmuş AXC cəmisi 600 süngü və qılıncdan ibarət cüzi bir hərbi qüvvəyə söykənə bilərdi. Tezliklə Azərbaycan ordusunda hərbçilərin sayı 1500 nəfərə çatdı. Əsas tərkibi daşnaklardan ibarət olan Bakı Soveti ordusunun hücümu nəticəsində Gəncə üzərini ölüm təhlükəsi aldıqda F.Xoyski hökuməti Şimali Azərbaycanın qərbində hərbi vəziyyət elan etmək və tələsik surətdə nizami ordu yaratmaq işinə girişmək məcburiyyətində qaldı. Qafqazdakı Türk-Osmanlı qoşunlarının komandanı general-leytenant Nuru paşanın yaxından əməli iştirakı ilə Azərbaycan hökuməti sayı 5000 nəfərə çatan Əlahiddə Müsəlman Korpusunu yaratmağa müəssər oldu. Bu korpus 1918-ci il iyunun 26-da Osmanlı hərbi hissələri ilə birlikdə Qafqaz Islam Ordusunun tərkibinə daxil edildi. AXC hökumətinin 1918-ci il avqustun 11-də elan etdiyi hərbi səfərbərliyə əsasən respublikanın 1894-1899-cü il təvəllüdlü müsəlman kişi vətəndaşları həqiqi hərbi xidmətə çağırıldılar.

1918-ci il sentyabrın 1-də AXC-nin Hərbi Nazirliyi yaradıldı. Ona baş nazir F.Xoyskinin özü başçılıq edirdi. General Səməd ağa Mehmandarov hərbi nazirin müavini təyin olunmuşdur.

1918-ci il sentyabrın 15-də Qafqaz Islam Ordusu ingilislər və Sentrokaspi diktaturası tərəfindən tələsik tərk edilmiş Bakıya daxil oldu. Iki gün sonra AXC hökuməti də Gəncədən Bakıya köçdü.

Mudros müqaviləsindən sonra Osmanlı qoşunlarının Azərbaycandan çıxarılmasına, noyabrın 17-dən Bakıya general V.M.Tomsonun komandanlığı altında 39-cü ingilis piyada briqadasının daxil olmasına baxmayaraq, AXC hökuməti nizami milli ordunun yaradılmasına böyük diqqət yetirirdi. Qısa müddət ərzində

Azərbaycan ordusunun milli-texniki bazasının yaradılması üzrə böyük təşkilati işlər yerinə yetirildi. 1918-ci il dekabrın 25-də general S.Mehmandarov hərbi nazir, dekabrın 29-da isə general-leytenant Ə.Şıxlinski hərbi nazirin köməkçisi vəzifələrinə təyin olundular.

1919-cü il yanvarın 15-də hərbi nazirlik yanında Baş Qərargah təsis olundu. Qərargahın tərkibində indentant, mühəndis, artilleriya, hərbi sanitariya, hərbi tədris, tipoqrafiya və s. şöbələr var idi. Martda onun tərkibindən general-kvartmeyestr şöbəsi ayrılmış və Baş Qərargahın Baş Idarəsi yaradılmışdır. General-mayor S.Sulikeviç Baş Qərargahın rəisi təyin edildi. Eyni zamanda hərbi məhkəmə və hərbi prokuror nəzarəti yaradıldı. Hərbi qanunvericilik və maliyyə-təsərrüfat məsələlərini nizamlamaq üçün hərbi nazirliyin nəzdində Hərbi Şura yaradıldı. Bu şuraya AXC ordusunun bütün rütbəli rəhbərləri daxil idi.

Bakının mühüm hərbi-strateji əhəmiyyəti nəzərə alınaraq Bakı möhkəmləndirilmiş rayonunun general-qubernatorluğu yaradılmışdır. 1919-cü ilin iyununda Denikin ordusunun Azərbaycana soxulmaq təhlükəsi ilə əlaqədar olaraq Dövlət Müdafiə Komitəsi təşkil olundu.

1919-1920-ci illər ərzində Azərbaycanda piyada və süvari alayları, artilleriya diviziyaları və briqadaları, habelə digər hərbi-texniki hissələr yaradıldı. 1919-cü ilin sonuna yaxın Azərbaycan ordusu hər birində 3 alay olmaqla 2 piyada və 2 süvari diviziyasından ibarət idi. Süvari diviziyasında 3 alaydan əlavə pulemyotçular hissəsi və süvari-artilleriya divizionu da var idi.

1-ci piyada diviziyası 1-ci Cavanşir, 2-ci Zaqatala və 3-cü Gəncə alaylarından, 2-ci piyada diviziyası isə 4-cü Quba, 5-ci Bakı və 6-cı Şimal alaylarından ibarət idi. Yaradılmaş 7-ci Lənkəran alayı 3-cü piyada diviziyasının meydana çıxmasının başlanğıcını qoydu. Süvari diviziyası 1-ci tatar, 2-ci Qarabağ və 3-cü Şamaxı alaylarından ibarət idi. Bütün bunlardan əlavə, bu diviziyaların heç birinə daxil olmayan 2 qaubitsa batareyası var idi.

Yuxarıda sadalananlarla yanaşı, Lənkəran ehtiyat batalyonu polis və "yardım alayları" yaradılmışdır. Ordunun tərkibinə həmçinin 2 artilleriya briqadası, yüngül artilleriya divizionu, 3 zirehli qatar, 5 aeroplan, bir neçə hidroaeroplan və 6 zirehli maşın daxil idi.

1919-cü ilin avqustunda ingilislər Azərbaycandan getdikdən sonra Hərbi Nazirlik liman yaratmış, "Qars" və "Ərdəhan" kanoner gəmilərindən ibarət Xəzər Hərbi Donanmasını yenidən qurmuşdur.

Hərbi mütəxəssislər hazırlamaq üçün Gəncə şəhərində hərbi məktəblərin əsası qoyulmuşdur. 1920-ci ilin əvvəllərinə yaxın AXC-in silahlı qüvvələrinin ümumi sayı 30 min nəfərə bərabər idi.

AXC hökuməti ordu və donanmanı silah, sursat və digər hərbi ləvazimatla təchiz etmək işində müəyyən çətinliklərə məruz qalırdı. 1919-cü il iyunun 27-də Azərbaycan-Gürcüstan hərbi-müdafiə paktı parlament tərəfindən təsdiq edildikdən sonra Gürcüstandan 12 yüngül və 12 dağ topu, 24 "Maksim" pulemyotu və 3 min ədəd tüfəng alındı. Bu da ordunun təchizi sahəsində vəziyyəti bir qədər düzəltmə-

yə imkan verdi. Bundan əlavə, hərbi təhsil almaq üçün bir qrup Azərbaycanlı Gürcüstən hərbi təhsil müəssisələrinə göndərildi.

AXC hökuməti hərbi sənayenin yaradılması məsələsini də unutmurdu. Respublika parlamenti 1920-ci il fevralın 23-də topların təmiri və ordunu artilleriya ehtiyat hissələri ilə təmin etmək üçün Gəncədə hərbi zavod tikilməsi barəsində qərar qəbul etdi. Bu məqsəd üçün 670 min manat pul ayırdı. Lakin hökumətin gördüyü bütün tədbirlərə baxmayaraq, həm silaha, həm də hərbi mütəxəssislərə böyük ehtiyac var idi.

19-24 yaşlı gənclər 2 il müddətində orduya səfərbər edilirdilər. Lakin Qarabağ və Zəngəzurda Ermənistanla hərbi münaqişə ilə əlaqədar olaraq Dövlət Müdafiə Komitəsinin qərarı ilə 1920-ci il mayın 1-dən etibarən 19 yaşdan 30 yaşına qədər bütün kişilərin orduya səfərbər olunması təklif edilmişdir.

AXC-nin Hərbi Nazirliyi orduda vətənpərvərlik və hərbi ruhun qaldırılmasına böyük diqqət yetirirdi. Hərbi hissələrin ştat siyahısına imamlar və mollalar daxil edilmiş, əsgərləri Azərbaycan xalqının tarixi və keçmişi ilə tanış etmək üçün broşüraların nəşri nəzərdə tutulmuşdu. Görkəmli Azərbaycan bəstəkarı Ü.Hacıbəyli Milli Ordu üçün marş bəstələmişdir.

**Azərbaycan Xalq Cümhuriyyətinin daxili siyasəti.** Qısamüddətli mövcudluğu dövründə AXC ölkənin daxili sosial-iqtisadi, mədəni həyatının dövlət müstəqilliyi qazanmış Azərbaycan xalqının arzu və istəklərinə müvafiq şəkildə yenidən qurulması sahəsində də xeyli iş görə bilmişdir.

Respublika hökuməti fəhlələrin həyat şəraitinin yaxşılaşdırılması üçün əlindən gələni edir və iqtisadi böhrandan çıxış yolları axtarırdı. İstehsal və mübadilə sahələrində səhmanlı işin pozulması ilkin tələbat mallarının kəskin bahalaşması təhlükəsini yaradırdı ki, bu da öz növbəsində fəhlələrin maddi güzəranının kəskin surətdə pisləşməsinə, gənc respublikada maliyyə böhranına gətirib çıxara bilərdi.

1919-cü il yanvarın axırlarında Əmək Nazirliyi fəhlələrə və sahibkarlara müraciət edərək sənayeni dirçəltmək naminə onları öz aralarında əməkdaşlığı möhkəmləndirməyə çağırdı. Eyni zamanda, hökumət zəhmətkeşlərin iş və məişət şəraitini, hüquqi vəziyyətini yaxşılaşdırmağa söz verirdi. Lakin vəziyyətdən yeganə çıxış yolu kimi fəhlələr və sahibkarlardan əmək məhsuldarlığını tələb edəcəkdir. Təəssüf ki, Azərbaycan öz zəngin neft ehtiyatından istifadə edə bilmədi. Tomsonun başçılığı ilə 1918-ci ilin noyabrında Bakıya gələn ingilislər Azərbaycanda özlərini ölkənin sahibi kimi aparırdılar. Bakıda icraedici və məhkəmə hakimiyyəti bütövlükdə general Tomsonun əlində cəmləşmişdi. 1918-ci il noyabrın 29-dan Xəzər Gəmiçilik İdarəsinin bütün gəmiləri ingilis komandanlığının əlinə keçdi.

İngilislər Azərbaycan neftini ardı-arası kəsilmədən ölkədən daşıyıb aparırdı. Təkcə onu qeyd etmək kifayətdir ki, 1918-ci ilin dekabrından 1919-cü ilin avqustuna qədər 9 aylıq dövrdə Bakıdan ümumi dəyəri 113,5 milyon rubl olan 30 milyon pud neft daşınıb aparılmışdır.

Əlbəttə ki, əsasən aqrar-kəndli ölkəsi olan Azərbaycanda iqtisadi həyatın başlıca önəmli məsələsi yenə də torpaq məsələsi idi. Lakin hökumət bu məsələni

yenə də nəzərdən keçirməyə tələsmirdi. Parlamentin iclasında çıxışında baş nazir F.Xoyski torpaq məsələsinin həllini Müəssislər Məclisinin çağırılmasınadək təxirə salmağı təklif edirdi. Lakin kəndlilərin son dərəcə ağır vəziyyəti hökuməti məcbur edirdi ki, bu məsələni parlamentin müzakirəsinə çıxartsın. 1919-cü il fevralın 4-də Azərbaycan parlamenti özünün 12-ci iclasında ilk dəfə olaraq aqrar məsələni nəzərdən keçirdi və menşevik-hümmətçi Səmədağa Ağamalıoğlunun sədrlik edəcəyi aqrar komissiyasını yaratdı.

Qeyd etmək lazımdır ki, aqrar məsələnin qəti həllində hələ xeyli əvvəl mülkədar torpaq sahibliyinin toxunulmazlığı elan olunur və hökumət bu torpaqları kənar qəsblərdən tam müdafiə etməyə söz verirdi.

Parlamentin fəhlə komissiyası əmək haqqının artırılması haqqında qanun lahiyəsi ilə çıxış etdi və əmək haqqı artımının real olaraq zəhmətkeşlərin vəziyyətini yaxşılaşdıracağı hesab edən sosialistlərin tənqidi ilə qarşılaşdı. Qanun layihəsi müsavatçılar tərəfindən müdafiə olundu. «İttihad» isə əksinə, sosialistlərə tərəf çıxdı və əslində hökumətə etimadsızlıq göstərənlərdən birincisi oldu. Yenidən hökumət koalisiyasının dağılması təhlükəsi meydana çıxdı. Göz önündə, açıq-aşkar şəkildə növbəti hökumət böhranı yetişirdi. Parlamentin 14-cü iclasında 1919-cü il fevralın 6-da «Ittihad»ın lideri Q.Qarabəyov hökumətə etimadsızlıq göstərilməsi təklifi ilə çıxış etdi. Baş nazirin bütün səylərinə baxmayaraq, ittihadçıların irəli sürdükləri hökumətə etimadsızlıq göstərilməsi təklifi bütün parlament fraksiyaları tərəfindən müdafiə olundu və buna görə də 1919-cü il fevralın 25-də F.Xoyski hökuməti istefa vermək məcburiyyətində qaldı. Azərbaycan parlamenti sayca 4-cü hökumət kabinetinin yeni tərkibini ancaq 1919-cü il aprelin 14-də təsdiq etdi. 4-cü hökumət kabineti milli siyasət sahəsində Azərbaycanda yaşayan milli azlıqların hüquqlarının tanınmasını, onların milli-mədəni özünəməxsusluqlarının qorunub saxlanılmasını, milli münaqişələrə yol verilməməsini özünün birinci dərəcəli vəzifələrindən sayırdı. Fəhlə məsələsində əmək azadlığını təmin edəcək fəhlə qanunvericiliyinə xüsusi diqqət yetirilirdi. Təxirəsalınmaz həllini gözləyən aqrar məsələyə hökumət bəyannaməsində xeyli yer verilməsi təbii idi. Lakin öz sələfi kimi N.Yusifbəyovun hökumət kabineti də bu məsələnin həllini Müəssislər Məclisinin çağırılmasınadək təxirə saldı. Həmin vaxta qədər isə torpaq məsələsi üzrə bütün materialları işləyib hazırlamağı nəzərdə tutulurdu.

Bütün demokratik hüquqlara təminat verən Yusifbəyov hökuməti hüquqi-demokratik dövlətin yaradılması yolunda ilk addımlardan biri kimi demokratik əsaslar üzərində bələdiyyə özünüidarə orqanlarının yaradılmasını və şəhər özünüidarələrinin işinin yaxşılaşdırılmasını nəzərdə tuturdu.

Hökumət bəyanatında xalq maarifi sahəsi üzrə nəzərdə tutulan tədbirlərə də toxunulurdu. Bu sahədə ümumi icbari təhsil haqqında qanun layihəsinin hazırlanması, ibtidai və orta məktəblərin milliləşdirilməsi, milli azlıqların rus və ana dilində təhsil almaq hüququnu təmin edən imtiyazlırının saxlanılması və s. zəruri hesab olunurdu. AXC qısa müddət yaşasa da Quzey Azərbaycanında maarif və mədəniyyətin inkişafında az iş görmədi.

Ölkənin müəllim kadrlarına ehtiyacını nəzərə alan milli hökumət təkcə digər ölkələrdən, başlıcası isə pedoqoji kadrların dəvət olunması ilə kifayətlənməyərək ölkənin müxtəlif yerlərində kişi və qadın müəllimlər hazırlayacaq bir neçə pedoqoji kurslar təşkil etdi.

Azərbaycan parlamentinin 1919-cü il 1 sentyabr tarixli qərarına əsasən həmin ilin noyabrında Bakıda Darülfünün fəaliyyətə başlaması, dövlət üçün xeyli ağır olan vaxtda bu məqsədlərə xeyli bürcə vəsaitinin ayrılması milli dövlətimizin Vətən elmi və mədəniyyətinin ehtiyaclarına necə böyük qayğı ilə yanaşmasına nümunədir. Bütün müsəlmanlar müsəlman tarixində ilk dünyəvi ali məktəb olan Bakı Dövlət Darülfününda işləmək üçün dövrün ən gözəl mütəxəssisləri dəvət edilmiş, M.Ə.Rəsulzadənin özü də burada Şərq ədəbiyatından mühazirə kursları oxumuşdur.

AXC dövründə milli teatrın inkişafında müsəlman və türk mədəniyyətinin ayrılması və təbliğində də xeyli iş görülmüşdür.

1918-1920-ci illərdə milli mətbuat xeyli inkişaf tapmışdır. 1919-cü ildə qəbul olunmuş mətbuat qanunu öz forma və məzmununa görə ən demokratik hüquq aktlardan biri olaraq ölkədə hər cür senzuradan xali olan azad mətbuatın formalaşması üçün əlverişli şərait yaradırdı.

Beləliklə, qısa müddət yaşamasına baxmayaraq, XX yüzilliyin başlanğıcında meydana çıxmış Azərbaycan Xalq Cümhuriyyəti ölkənin sosial-iqtisadi problemlərinin həlli və milli mədəniyyətin inkişafı sahələrində xeyli iş görməyə macal tapa bilmişdir.

### *§ 3.Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Paris sülh konfransı*

Müstəqilliyini elan etmiş gənc Azərbaycan Cümhuriyyəti xarici siyasət məsələlərinə də xüsusi diqqət yetirirdi. İstiqlaliyyətin qorunub saxlanması daxildən daha çox xarici amillərlə də bağlı idi. Azərbaycan diplomatiyasının bu çətin vəzifənin öhdəsindən gələməsi üçün 1918-20-ci illər dövründə təşkil olunmuş müxtəlif hökumət kabinetlərində Xarici İşlər Nazirliyinin möhkəmləndirilməsi və təşkilati strukturunun təkmilləşdirilməsinə böyük diqqət yetirilirdi. Azərbaycan Cümhuriyyətinin xarici siyasət idarəsinə müxtəlif vaxtlarda dövrünün ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik F.X.Xoyski, M.H.Hacınski, M.Y.Cəfərov, A.X.Ziyadxanlı başçılıq etmişlər. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, S.Hacıbəyli, M.Y.Mehdiyev, M.Məhərrəmov, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digərləri yaxından iştirak etmişlər.

Milliyətindən və dini etiqadından asılı olmayaraq qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olub, onun çıxış nöqtəsini təşkil edirdi. Böyük dünya siyasəti baxımından Azərbaycan Cümhuriyyətinin xarici siyasətini 3 dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr-1920-ci il yan-

var); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü (1920-ci il yanvar-aprel).

Dünya müharibəsinin son mərhələsində Azərbaycan millətinin müstəqillik arzusu Türkiyənin Qafqaz siyasəti ilə çarpazlaşdığından tərəflər arasında bir-birinə olan təbii meyl onların sosial-siyasi, hərbi-iqtisadi əməkdaşlığında maddiləşməklə yeni mərhələyə daxil oldu. Bu yeni mərhələnin səciyyəvi cəhəti onlan ibarət idi ki, Azərbaycanın Osmanlı dövlətinə söykənməyi milli idealla yanaşı, xeyli dərəcədə millətin fiziki varlığının hifz edilməsi zərurətindən irəli gəlirdi.

1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin yaranmasından sonra Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə - dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu. Bu mərhələdə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını 4 iyunda imzalanmış Batum müqaviləsi təşkil edirdi. Müqavilədə göstərilirdi: «Bir tərəfdən Osmanlı imperator hökuməti, digər tərəfdən isə müstəqilliyini elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi-hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməkdə qarşılıqlı surətdə razılığa gəlirlər». 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan çoxtərəfli sazişlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi. Hələ Batumda olan M.Ə.Rəsulzadə və M.H.Hacınski xarici hərbi müdaxiləyə son qoymaq və daxili asayişi qorumaq məqsədi ilə 4 iyun müqaviləsi əsasında hərbi yardım göstərilməsi barədə Türkiyəyə müraciət etdilər. Həmin müraciəti qəbul edən Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi Cənubi Qafqazda möhkəmlənməyə çalışan Almaniyanın etirazına səbəb olmasın. Ona görə də qarşılıqlı razılıq əsasında Osmanlı hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradıldı.

Azərbaycan-Türkiyə münasibətlərinin genişlənib dərinləşməsində 1918-ci ildə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilməsinin böyük əhəmiyyəti oldu.

1918-ci ilin yayında Azərbaycan ətrafında cərəyan edən beynəlxalq vəziyyət Bakının tezliklə azad edilməsini zəruri edirdi. Dünya müharibəsinin sonunda Bakı Türkiyə, Almaniya, İngiltərə və sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdi.

Sovet Rusiyasının Almaniya vasitəsilə işə qarışması Azərbaycan hökumətinin Bakını azad etməsini xeyli yubandırdı. Berlin danışıqları davam etdiyi zaman Bakı Xalq Komissarları Sovetinin şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri boşa çıxdı və iyul ayının axırlarında Bakı Kommunası yıxıldı. Sentrokaspiçilər və avqustun əvvəllərində L.Denstervil başda olmaqla Bakıya daxil olan ingilislər şəhəri Qafqaz İslam Ordusunun hücümundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində 3 aya qədər davıam edən Almaniya-Rusiya danışıqları avqustun 27-də saziş imzalanması ilə nəticələndi. Sazişin 12-ci maddəsində göstərilirdi: «Almaniya Qafqazda Gürcüstanın hüdudla-

rından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım etməyəcək. Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin 4/1-ni Almaniyaya verəcək».

İstanbulda olan Azərbaycan nümayəndələri bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici Işlər Nazirliyinə, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi.

Az sonra Berlinə gedən Tələt paşa təcili şəkildə 27 avqust sazişinin ləğv edilməsini Almaniyadan tələb etdi. Bu addım Bakının azad edilməsində mühüm əhəmiyyətə malik oldu. Sentyabrın ortalarında Azərbaycan-Türkiyə hərbi qüvvələri Bakıya girdi.

Bakının azad edilməsi istiqlalın elan olunmasından sonra Azərbaycanın taleyində ikinci böyük tarixi hadisə idi. Bu qələbənin diplomatik cəhətdən təmin edilməsi Azərbaycan diplomatiyasının ilk uğurlarından idi. Bakının azad edilməsi ilə Azərbaycan Cümhuriyyəti öz hakimiyyətini gənc respublikanın ərazisində bərqərar etdi.

Azərbaycan-Türkiyə münasibətlərinin Ə.M.Topçubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başladı.

1918-ci ilin oktyabrında Ə.M.Topçubaşov İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Türkiyə məğlubiyyət ərəfəsində böhran içərisində olduğu və ay yarım ərzində 3 hökumət kabineti dəyişdiyi üçün Azərbaycanla Osmanlı dövləti arasında sabit münasibətlər bərqərar etmək mümkün olmadı. 1918-ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqı məğlub oldu. Oktyabr ayının 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Cümhuriyyəti üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Barışığın 11-ci maddəsinə görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, 15-ci maddəyə görə Türkiyə Zaqafqaziya Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi.

Noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Lakin bu etirazın elə bir əhəmiyyəti olmadı.

Mudros barışığının Azərbaycana aid maddələrinə görə Osmanlı dövlətindən narazı qalmasına baxmayaraq, onun dünya müharibəsində məğlub dövlətlərdən biri olmasından ehtiyat etməyərək noyabrın 10-da Azərbaycan hökuməti respublikanı tərk edən Türkiyə ordusunun şərəfinə ziyafət verdi. Türkiyə qoşunları həmin gün Bakıdan, az sonra isə Bütün Azərbaycandan çıxdı. Bununla da Azərbaycan Cümhuriyyətinin xarici siyasətində Türkiyə oriyentasiyası dövrü başa çatdı.

Birinci dünya müharibəsinin sonunda Böyük Britaniyanın Azərbaycana marağı müstəsna dərəcədə artmışdı. Bu, bir tərəfdən Almaniya-Türkiyə blokunun Qafqaza meylinin güclənməsi, digər tərəfdən isə dünya neft istehsalının böyük bir

hissəsinin Bakının payına düşməsi ilə bağlı idi. Müharibə ərəfəsində Rusiyada hasil edilən neftin 83 faizi Bakıda çıxarılıdı. Yaxın və Orta Şərqdə möhkəmlənmiş Ingiltərə qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqusttuna qədər mümkün olmadı. Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonra Sentrokaspiçilərin ilk addımı Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk qoşun dəstəsi Bakıya daxil oldu. Avqustun ortalarında general Denstervil başda olmaqla 1000 nəfrlik ikinci hərbi dəstə Azərbaycana gəldi. Şəhərin xristian əhalisi ingilisləri böyük sevinclə qarşıladılar. Mart qırğınlarını törətmiş ermənilər ingilislərin simasında öz xilaskarlarını görürdü. Lakin Britaniya qüvvələrinin azlığı onların ümidlərini puça çıxartdı.

Bakıya gələn Britaniya qoşununun çoxsaylı olması haqda məlumatların şaiyə olduğunu bilən Qafqaz İslam Ordusu şəhəri azad etmək uğrunda son hərbi əməliyyatlara başladı. 1918-ci il sentyabr ayının ortalarında Britaniya qoşunu general Denstervil başda olmaqla Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin 1918-ci ilin payızında iki aylıq fasilədən sonra onlar yenidən Bakıya qayıtdılar. Bu, Türkiyə və onun müttəfiqlərinin birinci dünya müharibəsində tam məğlubiyyəti ilə bağlı idi.

1918-ci il noyabrın 17-də müttəfiqlərin qoşunları Bakıya daxil oldu. Bundan az əvvəl Azərbaycan hökuməti ABŞ prezidenti V.Vilsona, öz fəaliyyətini bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciətlər qəbul etdilər. Müttəfiqlərin gəlişi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının cəhtlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra general V.Tomson bildirdi ki, onun «Bakıda ən bacarıqlı adamlardan biri» saydığı F.X.Xoyskinin hökuməti ölkədə koalisiya hökuməti təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır.

Balkanda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Miln az sonra Bakıya gələrək V.Tomsonun bəyanatını təsdiqlədi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır.

1919-cü ilin əvvəllərindən başlayaraq İngiltərə-Azərbaycan əlaqələri Bakıda olan ingilis komandanlığı, İstanbuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris Konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi.

Azərbaycan xarici siyasəitnin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə qarşılıqlı mehriban münasibətlər yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: «Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər».

Azərbaycan hökuməti Bakıya gəldikdən sonra Dağlılar Respublikası ilə əməkdaşlığı inkişaf etdirmək üçün 1918-ci ilin oktyabr-noyabr aylarında bir sıra müqavilələr bağladı. Iki dövlət arasında bağlanmış müqaviləyə əsasən Azərbaycan hökuməti ciddi maliyyə çətinlikləri qarşısında qalmış Dağlılar hökumətinə 10 milyon manat həcmində yardım göstərmiş və o, Denikinin təcavüzünə məruz qal-dıqda əlində olan bütün vasitələrlə ona yardım göstərəcəyini bildirmişdi. 1919-cü il mart ayının əvvəllərində general Tomsona etiraz notasında Azərbaycan hökuməti bəyan edirdi: «Dağlılar üçün ağır bir zamanda Azərbaycan hökuməti onlara lazımi köməklik göstərməyi özünə borc sayır». Təkcə Dağıstanı deyil, bütün Qafqazı hədələyən Ağ və Qırmızı Rusiyasına münasibətdə Azərbaycan hökumətinin mövqeyi Respublika XIN-in Kuban hökumətindəki səlahiyyətli nümayəndəsi S.Rüstəmbəyova məktübündə öz əksini tapmışdı. Orada deyilirdi: «Bizim hökumətin fikri belədir: Kim olursa-olsun, bolşevik, menşevik, denikinçi və ilaxır; Azərbaycan istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir».

Cənubi Qafqazın üç yeni respublikası- Azərbaycan, Gürcüstan və Ermənistan arasında sülh və sabitliyin yaradılması çox çətin oldu. Müstəqilliyin ilk günlərində Gürcüstan hökumətinin Borçalı, Sığnaq və ümumilikdə Qarayazıda Gürcüstanın sərhədlərini müəyyən etmək adı altında mövcüd vəziyyəti dəyişmək cəhdləri Azərbaycan hökumətinin müqaviməti ilə qarşılaşdı. Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacınski iyunun 14-də Gürcüstan hökumətinin 1918-ci il 5 iyun tarixli qərarına etiraz edərək Gürcüstan hökumətinin Xarici İşlər İdarəsinin başçısına yazırdı: «Borçalı, Tiflis və Sığnaq qəzalarının başdan-başa müsəlmanlardan ibarət olan hissələrinin əhalisi öz nümayəndələri vasitəsi ilə Azərbaycan Cümhuriyyəti tərkibində olmaq arzularını ifadə etdiklərini nəzərə alaraq, mənim hökumətim gürcü hökumətinin yuxarıda qeyd olunan sərəncamına qarşı qəti etiraz edir və ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin saxlanması naminə Borçalı qəzasının hüdudlarından qoşun hissələrini çıxarmaq, Azərbaycan ərazisinin yuxarıda qeyd edilən hissələrinin tutulması haqqında sərəncamı ləğv etmək üçün təcili tədbirlər görməyi təkidlə xahiş edir». Azərbaycan hökumətinin ciddi səyi ilə Qarayazıdakı status-kvo saxlanıldı, Azərbaycan ordu hissəsinin burada qalması şərti ilə beynəlxalq komissiya yaradılması barədə razılıq əldə edildi. Az sonra isə məsələnin müzakirəsi 1919-cü il aprelin 25-də Tiflisdə işə başlayan Qafqaz Konfransının gündəliyinə daxil edildi. Lakin 1919-cü ilin iyununda Şimaldan yaxınlaşan təhlükə ilə bağlı olaraq, Qafqaz Konfransı öz işini dayandırdı. Denikin ordusunun Dağıstan üzərinə hücümu və cənuba doğru irəliləməsi Azərbaycan və Gürcüstan əməkdaşlığını zərurətə çevirdi. Yaranmış vəziyyətdə Ümumqafqaz həmrəyliyinin yaradılmasında Azərbaycan diplomatiyası Gürcüstanla əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. 1919-cü il iyunun 16-da iki dövlət arasında 3 il müddətinə hərbi-müdafiə paktının imzalanması Azərbaycan Cümhuriyyətinin dəyərli diplomatik addımı hesab edilməlidir. Bu pakta görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqaviləni bağlayan tərəflər öz öhdələrinə bir-birinə hər-

bi yardım göstərmək borcünu götürmüşdülər. Eyni zamanda, müqavilənin 10-cü bəndində göstərilirdi ki, «bu müqavilə barədə rəsmi məlumat verildikdən sonra Ermənistan iki həftə ərzində bu müqaviləyə qoşula bilər». Həmin müqavilə iyun ayının 27-də hər iki ölkənin parlamentlərində təqdim edildi.

16 iyun hərbi-müdafiə paktına uyğun olaraq tərəflər hərbi-texniki saziş imzaladılar və birgə Hərbi Şura yaratdılar. İngilis komandanlığının Azərbaycan-Gürcüstan müdafiə paktına münasibəti əvvəlcə mənfi idi, lakin sonralar dəyişdi. Britaniyanın Şərqi Avropa və Qafqazda olan qüvvələrinin baş komandanı S.Miln Denikinin cənuba doğru hərəkəti ilə razı olmadığı barədə baş nazir N.Yusifbəyliyə radioteleqram göndərdi.

Müstəqilliyin ilk günlərindən Gürcüstan Respublikası ilə qurulan diplomatik əlaqələr çox çətin və ziddiyyyətli yol keçsə də, 1920-ci ilin əvvəllərində normal məcraya düşdü. Hər iki respublikanın müstəqilliyi Versal Ali Şurası tərəfindən de-fakto tanındı.

İranla münasibətlərdə də əvvəlki narazılıqlar, daha çox isə anlaşılmazlıqlar 1919-cü ilin ortalarından etibarən öz yerini əməkdaşlıq meyllərinə verməyə başladı. Həmin ilin payızında yaradılan birgə Azərbaycan-İran komissiyasının gərgin işi nəticəsində iki dövlət arasında münasibətlərin bir sıra tərəflərini əhatə edən müqavilə və saziş hazırlandı. 1920-ci il mart ayının 20-də iki dövlət arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı.

Məğlubiyyətdən sonra çətin vəziyyətə düşmüş Türkiyə ilə də əlaqələr bərpa edilməyə başlamış, tanınmış yazıçı Yusif Vəzir Çəmənzəminli Istanbula səfir təyin edilmişdi. Azərbaycan diplomatiyası Avropa və Qafqazdakı fəaliyyətində həyatla ölüm arasında mübarizə aparan Anadolu türklərinin mənafeyini müdafiə edirdi.

Rusiya və Ermənistanla münasibətlər bütün dövr ərzində qeyri-stabil olaraq qaldı. Azərbaycan diplomatiyasının ciddi-cəhtlərinə baxmayaraq «böyük dövlətçilik» mövqeyindən çıxış edən bu dövlətlərlə normal münasibətlər yaratmaq mümkün olmadı.

1918-ci ilin yayından başlayaraq türk xalqının qəddar düşməni Andronik Naxçıvan və Zəngəzur bölgələrində Azərbaycan sərhədlərini pozub dinc əhaliyə qarşı kütləvi qırğınlara başladı. Erməni quldur dəstələri Zəngəzur əhalisindən tələb edirdilər ki, ya Ermənistan hökumətinə tabe olsunlar, ya da Zəngəzuru boşaltsınlar. Lakin əhali Andronikin bu həyasız tələbini rədd edərək öz torpaqlarının müdafiəsinə qalxdı. 1918-ci ilin payızından Azərbaycan torpaqlarının müsəlman əhalisindən təmizlənməsi əməliyyatına Ermənistan hökuməti bilavasitə rəhbərlik etməyə başladı. Daşnaklar 1918-ci ilin axırlarında Zəngəzurda 115, Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında 21, Irəvan quberiniyasında 60-dan çox Azərbaycan kəndini məhv etdilər və əhalisini soyqırımına məruz qoydular. Həmin ərazilərin 100 mindən artıq türk-müsəlman əhalisi öz dədə-baba yurdlarından qovulub didərgin oldu.

Bu təhlükənin qarşısını almaq üçün Azərbaycan hökuməti bir sıra zəruri addımlar atdı. 1919-cü il yanvarın əvvəllərində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğu yaradıldı. Həmin il fevralın 12-dən Xosrov bəy Sultanov general-qubernator təyin edildi. General-qubernatora tapşırıldı ki, Qarabağda separatist hərəkatı ləğv edib qayda-qanun yaratsın və yerli hakimiyyəti təşkil etsin.

Ermənistan hökuməti Qarabağ general-qubernatorluğunun yaradılmasına və Xosrov bəy Sultanovun general-qubernator təyin olunmasına dərhal etiraz etdi və belə iddia irəli sürdü ki, buranın böyük hissəsi Ermənistan ərazisidir, X.Sultanov isə ermənilərin düşmənidir.

1919-cü il yanvarın 2-də Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri Ermənistanın xarici işlər nazirinə göndərdiyi teleqramda Ermənistanın etirazını əsassız sayaraq bildirdi ki, Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycanın ayrılmaz hissəsidir.Eyni zamanda, Ermənistanın etirazı suverenliyə qəsd və Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirildi. Onu da qeyd etmək vacibdir ki, Ermənistan Qarabağ general-qubernatorluğunun yaradılması ilə əlaqədar öz etirazını Qafqazda Böyük Britaniya qoşunlarının baş komandanı general Tomsona və müttəfiq dövlətlərin Zaqafqaziyadakı baş komissarı Haskelə də bildirmişdi. Lakin onlar Azərbaycanın Qarabağ qubernatorluğu yaratmaq və ona general-qubernator təyin etmək hüququnu müdafiə etdilər.

1919-cü il iyunun 18-də Azərbaycan Ermənistana nota göndərdi. Bu notada Ermənistanın etiraz və iddiaları rədd edilərək Qarabağ məsələsində Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışmamaq tələb olunurdu.

İyunun əvvəlində Şuşada vəziyyət yenidən gərginləşdi. Bu zaman Qarabağda baş vermiş hadisələr bilavasitə Erməni Milli Şurasının planı əsasında törədilmişdi.

1919-cü ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın qanuni hakimiyyəti Qarabağda bərpa edildi. Qarabağın dağlıq hissəsində, Zəngəzurda və ermənilərin planlarına daxil olan digər yerlərdə Azərbaycanın suveren hüquqlarının bərpa edilməsində Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov böyük xidmət göstərdi. Qaniçən Andronik onun ciddi təkidi və müttəfiqlərin yardımı ilə nəinki Azərbaycanı, hətta butun Cənubi Qafqazı tərk etməyə məcbur olmuşdu.

«Böyük Ermənistan» iddialarına daxil olan ərazilərdən biri də Naxçıvan bölgəsi idi. Naxçıvanda hələ 1918-ci ildə Araz-Türk Respublikası yaranmışdı. Respublikanın ərazisinə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Şərur, Naxçıvan, Ordubad qəzaları daxil olmuşdu. Paytaxt Naxçıvan şəhəri idi. Hökumətin Bakı uğrunda döyüşlər apardığı bir dövrdə bu respublika əhalinin daşnak hücumlarından qorunmasında faydalı işlər gördü.

Daşnak hökuməti hələ 1918-ci ilin noyabrında Naxçıvan, Şərur-Dərələyəz, İçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin bu yerlərin müsəl-

man əhalisinin güclü müqaviməti həmin planın həyata keçirilməsinə mane oldu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq Naxçıvanın idarəçiliyini Ermənistana versə də, qəza əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi. İngilislərin Zəngəzur və Yuxarı Qarabağı Azərbaycan torpaqları kimi tanıyıb Naxçıvanı Ermənistanın idarəçiliyinə vermək ideyası Azərbaycanla Türkiyənin arasını kəsmək, ümumilikdə Türkiyə ilə qalan müsəlman xalqları arasında xristian erməni dövləti yaratmaq barədə Kerzon planının tərkib hissəsi idi. Naxçıvanlıların dəyanəti və Azərbaycan hö-kumətinin səyləri nəticəsində Ermənistanın amerikanlar vasitəsilə Naxçıvana yiyələnmək niyyətləri puça çıxdı.

Ermənistanla Azərbaycan arasında 1919-cü il noyabrın 23-də imzalanan sazişdən sonra Azərbaycan öz hərbi hissələrini Zəngəzurdan geri çağırdı. Bağlanan sazişə görə, toqquşmalar dayandırılmalı, mübahisəli məsələlər, o cümlədən sərhəd məsələləri danışıqlar vasitəsilə həll edilməli idi. Lakin Ermənistan bu sazişi kobud surətdə pozub Zəngəzura nizami qoşun hissələri göndərdi. Azərbaycan kəndlərinin talanı və dinc əhaliyə vəhşicəsinə divan tutulması geniş miqyas aldı. 1919-cü il dekabrın 14-də Azərbaycan hökumətinin təşəbbüsü ilə Bakıda Ermənistan-Azərbaycan konfransı açıldı. Lakin konfrans ermənilərin günahı üzündən tərəflər arasında ziddiyyəti həll edə bilməyərək işini yarımçıq dayandırdı.

1920-ci ilin yanvarında Ermənistanın hərbi əməliyyatları yenidən gücləndi. Belə bir şəraitdə Azərbaycan hökuməti erməni təcavüzünü dəf etmək üçün ciddi tədbirlər görmək məcburiyyətində qaldı.

Azərbaycanın həyati mənafeyi Sovet Rusiyası ilə normal münasibətlər qurulmasını tələb edirdi. Yeni iqtisadi əlaqələrin hələ yaradılmadığı və ənənəvi əlaqələrin pozulduğu bir vaxtda Azərbaycanın neft, pambıq və digər xammallarının Rusiya bazarından məhrum olması Azərbaycan hökumətinin Şimal qonşusu ilə münasibətləri normallaşdırılmasını zəruri edirdi.

1919-cü ilin yazında Nazirlər Şurasının yeni seçilmiş sədri N.Yusifbəyli təşkil etdiyi hökumətin proqramında Sovet Rusiyası ilə iqtisadi-Ticarət əlaqələrinin bərpası vəzifəsini də irəli sürmüşdü. Bundan ötrü isə ilk növbədə Azərbaycan hökumətinin bu barədə dəfələrlə müraciət etməsinə baxmayaraq, Sovet Rusiyası müxtəlif əsassız bəhanələr gətirməklə buna razılıq verməkdən yayınırdı. Bu diplomatik oyunbazlığın arxasında isə Bakı neftinə sahib olmaq iddiası dururdu. V.I.Leninin 1920-ci il martın 17-də Qafqaz cəbhəsinə göndərdiyi teleqramda bu niyyət açıq-aydın göstərilmişdi: «Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin…».

Hökumət çoxsaylı çətinliklərlə bağlı olan daxili problemləri həll etməyə çalışdığı bir vaxtda Azərbaycan diplomatları Parisdə toplanmış qalib dövlətlər tərəfindən tanınmaq və kömək əldə etmək üçün ağır mübarizə aparırdılar. Azərbaycan parlamenti Paris Sülh Konfransında iştirak etmək üçün Ə.M.Topçubaşov sədr, M.H.Hacınski sədrin müavini, nümayəndə heyətinin üzvləri – Ə.Şeyxülislamov, Ə.Ağayev və müşavirlər M.Məhərrəmov və S.Hacıbəyov olmaqla nümayəndə he-

yətini təsdiq etmişdi. 1919-cü il yanvarın 18-də həmin nümayəndə heyəti Istanbula yola düşdü. Burada onlar 1919-cü il yanvarın 20-də Parisə getmək üçün viza almalı idilər. Lakin Istanbula gəldikdən sonra nümayəndə heyəti 1919-cü ilin aprelinə qədər ləngidi, çünki müttəfiq qoşunlarının komandanlığı hər vasitəyə əl atıb onun Paris Sülh Konfransında iştirakına mane olurdu. Lakin artıq 1919-cü il mayın 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Görüşün nəticələri çox da ümidverici deyildi. ABŞ prezidenti qeyd etmişdi ki, dünyanın kiçik ərazilərə parçalanmasını Sülh Konfransı istəmir və Azərbaycan məsələsinə Rusiya məsələsi həll olunduqdan sonra baxıla bilər.

Azərbaycan nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov Paris Sülh Konfransına təqdim edilmiş memorandum surətini ABŞ prezidenti V.Vilsona təqdim etmişdi. Sənəd xüsusi xəritəli vərəqdə sərhədləri göstərilməklə Qafqaz Azərbaycanının müstəqilliyinə; iqtisadi xəritə ilə birlikdə Azərbaycanın iqtisadi vəziyyəti və maliyyəsinə; etnoqrafik xəritə və diaqramlarla birlikdə Azərbaycan əhalisinin etnik tərkibinə dair 3 maddədən ibarət idi.

1919-cü il iyunun 13-də V.Vilson, D.Lloyd Corc, J.Klemanso,V.Orlando və baron Makinonun imzası ilə Rusiya ərazisində admiral Kolçakın ali hakimiyyətini qis-mən tanımasına dair sənəd dərS olundu. Bununla əlaqədar olaraq Azərbaycan, Gürcüstan, Latviya, Estoniya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri 1919-cü il iyunun 13-də Paris konfransının sədrinə etiraz notası təqdim etdilər.

Parisdə Azərbaycan nümayəndə heyəti İranla münasibətlər məsələsi üzrə xeyli iş gördü. Məlum olduğu kimi, Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra İran Azərbaycana qarşı ərazi iddiaları irəli sürür və onun İran dövlətinə birləşdirilməsini tələb edirdi.

1919-cü il avqustun 19-da Londonda İngiltərə-İran müqaviləsi bağlandıqdan sonra İran Azərbaycanla bağlı ərazi iddialarından əl çəkdi. 1919-cü il noyabrın 1-də Parisdə Azərbaycanla İran arasında Azərbaycanın müstəqilliyinin tanınması haqqında müqavilə bağlandı və iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasına dair razılıq əldə edildi. Bu müqavilənin bağlanması Azərbaycan diplomatiyasının beynəlxalq sahədə mühüm qələbəsi idi.

Bolşevik təhlükəsinin güclənməsi nəticəsində Qafqazda yaranmış vəziyyət Antanta ölkələrini ciddi şəkildə düşünməyə və real əməli addımlar atmağa məcbur etdi. Qırmızı Ordunun Qafqaza yiyələnməsi bütün Yaxın və Orta Şərqi təlatümə gətirib bolşevik ideyalarının İranda və digər Şərq ölkələrində yayılmasına kömək edəcəyi aydın idi. Bu məqsədlə 1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiya tərəfindən isə onların Sülh Konfransındakı nümayəndələri, həmçinin Parisdəki səfirləri iştirak edirdilər. Burada İngiltərə naziri lord Kerzonun təklifi ilə Qafqaz respublikalarına münasibət probleminin siyasi tərəflərinə aid müzakirə aparıldı. Öz çıxışında Kerzon Loyd Corcün Azərbaycan və Gürcüstanın müstəqil dövlət kimi tanınmaq məsələsini Ali Şuranın gündəliyinə çıxartmaq niyyətində olduğunu

bildirdi. «Erməni məsələsi»nə gəldikdə isə onu «Türkiyə məsələsi» ilə bir yerdə həll etmək nəzərdə tutulurdu. Xarici işlər nazirləri Azərbaycan və Gürcüstana qarşı üçtərəfli təhlükə yaranması ilə bağlı eyni fikirdə olduqlarını bildirdilər. Onlar «üçtərəfli təhlükə» dedikdə, əvvələn bolşevik Rusiyası qoşunlarının cənuba doğru irəliləməsini; ikinci, geri çəkilən Denikin qoşunlarının bu respublikalara soxula biləcəyini; üçüncü isə kamalçıların Rusiya ilə sazişə əsasən bu respublikalara daxil ola biləcəyini nəzərdə tuturdular. Vəziyyətin kəskin böhranlı şəkil alması Azərbaycan və Gürcüstan hökumətlərini Antanta ölkələrindən kömək istəməyə məcbur etdi. Bu xahişlər barədə Ali Şuraya məlumat verən Kerzon Azərbaycan və Gürcüstanın dərhal de-fakto tanınması təklifini irəli sürdü.

Yanvarın 13-də ABŞ-ın Parisdəki səfiri Valles İngiltərə və Fransanın Azərbaycan və Gürcüstən dövlətlərinin müstəqilliklərini de-fakto tanımaları və onlara yardım göstərməyə hazırlaşmaları barədə Vaşinqtona məlumat verdi.

Yanvarın 15-də Versalda hərbi ekspertlər şurası Azərbaycana və Gürcüstana hərbi kömək göstərməklə bağlı məsələləri müzakirə etdi. Şuranın işində iştirak etmək üçün Böyük Britaniyanın hərbi naziri U.Çörçill, Britaniya İmperiya Ordusu Baş Qərargahının rəisi feldmarşal H.Vilson, admirallığın birinci lordu U.Lanq, lord-admiral A.Bitti və başqaları təcili olaraq Londondan Parisə gəldilər. Yanvarın 16-da hərbi ekspertlərin işi davam etdirildi. Onların iclasıa J.Klemanso sədrlik edirdi.

1920-ci il yanvarın 19-da Paris Sülh Konfransının Ali Şurasının hökumət başçılarının iştirakı ilə keçirilən iclasında Cənubi Qafqaz respublikaları problemi ətraflı müzakirə edildi. İclasda Ali Şuranın 10 yanvar tarixli tapşırığına əsasən, ingilis nümayəndələri tərəfindən tərtib edilmiş memorandum elan olundu. Memorandumda aşağıdakı tədbirlər nəzərdə tutulurdu:

1. Azərbaycan və Gürcüstanın tanınması (bu tədbirlər həyata keçirilmişdi);
2. Əvvəllər Denikinə verilmiş və Potidə olan silah və sursatın Azərbaycan, Gürcüstan və Ermənistana verilməsi;
3. Azərbaycana və Gürcüstana əlavə ərzaq, maliyyə və hərbi (silah və geyim) cəhətdən yardım göstərilməsi;
4. Bakının müdafiəsinin möhkəmləndirilməsi üçün əlavə tədbirlərin görülməsi;
5. Xəzər sahillərinin müdafiəsinin təmin olunması, bolşevik ordusunun Xəzər dənizinə və Xəzər donanmasına buraxılmaması, Denikinin dəniz donanmasının müttəfiqlərin ümumi istifadəsinə qaytarılması, bü mümkün olmadıqda isə onun batırılması.

İclasda müttəfiqlərin hərbi ekspertləri adından məruzə ilə Ferdinand Foş çıxış etdi. Cənubi Qafqaz respublikalarının nədə və hansı formada kömək göstərmək məsələsi kəskin mübahisələrə səbəb oldu.

Beləliklə, Klemanso və Çörçill Qafqaza bilavasitə qoşun göndərmək tərəfdarı olduqları halda Loyd Corc və Nitti köməyi hərbi sursat göndərməklə məhdudlaşdırmağı nəzərdə tuturdular.

Ə.M.Topçubaşov müttəfiqlərə Şimaldan hərəkət edən ordu ilə Qafqaz respublikaları arasında bufer rolu oynayan Dağlılar Respublikasını da de-fakto tanımağı təklif edirdi.

Beləliklə, 1920-ci ilin yanvarında Paris Sülh Konfransında Azərbaycan Cümhuriyyətinin de-fakto tanınması Ə.M.Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndələrinin diplomatik fəaliyyətlərinin uğurlu nəticəsi kimi qiymətləndirilməlidir.

1920-ci il yanvarın 2-də Azərbaycan hökumətinin fövqəladə iclası keçirildi. Yanvarın 14-də bütün Azərbaycan ərazisində bayram şənlikləri keçiriləcəyi elan edilmişdi, respublikanın paytaxtında mitinqlər və nümayişlərin, həmçinin Azərbaycan Ordusunun hərbi keçidinin və Azərbaycan parlamentinin təntənəli iclasın keçirilməsi haqqında qərar qəbul edildi. Azərbaycanda yanvarın 14-ü istirahət günü elan olundu.

Azərbaycanın müstəqilliyinin elan olunması beynəlxalq aləmdə ona marağın artmasına təkan verdi. Bir çox ölkələr- Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya Bakıda öz konsulluqlarını açmağa başladılar, İtaliya isə burada öz nümayəndəliyini yaratdı.

1920-ci il martın 20-də Azərbaycanla İran arasında sülh və dostluq haqqında müqavilə bağlandı. Müqaviləyə əsasən, İran hökuməti Azərbaycanın müstəqiliyini de-yure tanıdı. Tərəflər dostluq və iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi, həmçinin Tehranda Azərbaycan səfirliyinin, Bakıda isə İran səfirliyinin açılması barədə öhdəliklər götürdülər. Bundan əlavə, həmin gün Azərbaycanla İran arasında gömrük, Ticarət, poçt-teleqraf və konsul əlaqələri haqqında saziş imzalandı. Təbrizdə isə Azərbaycanın Baş Konsulluğu fəaliyyət göstərməyə başladı.

1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Brtaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada AXC-nin diplomatik nümayəndəlikləri açılması haqqında qanun qəbul etdi. Türkiyə, Gürcüstən və Ermənistan kimi qonşu ölkələrlə diplomatik əlaqələr genişləndi. Bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başladı.

### *§ 4. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun tarixdə yeri*

1920-ci ilin yazından müsəlman partiya və qruplaşmaları - «Müsavat», «Əhrar», «İttihad», sosialistlər, kommunistlər, bitərəflər arasında mübarizənin güclənməsi respublikada siyasi durumu pozan və sabitsizliyi dərinləşdirən mühüm amillərdən biri idi.

«Müsavat» partiyası hələ 1919-cü ilin dekabrında beşinci hökumət kabinetini təşkil edərək ittihadçıların müqavimətini neytrallaşdırmaq niyyəti ilə onlara koalisiya təklif etmişdi. Belə ki, «Müsavat» ın konkret məqsədi «İttihad» partiyasının simasında parlamentin sağ hissəsini özünə tərəfkeş etmək idi. Lakin «İttihad» hökumətə daxil olmaq təklifi müqabilində üç şərti irəli sürdü: 1) Bütün mü-

səlman partiyalarının koalisiyasına riayət olunsun; 2) Daxili işlər naziri portfeli M.H.Hacınskiyə verilsin; 3) Dövlət nəzarəti vəzifəsi bu partiyanın nümayəndəsinə həvalə edilsin.

Dövlət nəzarəti vəzifəsini ələ keçirən «Ittihad» bununla da hökumətdə öz gələcək fəaliyyətinin əsas istiqamətini- dövlət strukturlarındakı qanunsuzluqlarla mübarizə aparmaq adı altında «Müsavat»ın əleyhinə kampaniyaçılıq istiqamətini müəyyənləşdirdi. Onların fikrincə, pozuntular və korrupsiyanın daha çox baş verdiyi struktur Ticarət və Sənaye Nazirliyi idi. Bu səbəbdən nazirlik xüsusi hücumlara məruz qaldı.

«İttihad»ın başladığı kampaniyanı Daxili İşlər Nazirliyində davam etdirən M.H.Hacınskinin həyata keçirliyi tədbirlər nəticəsində çoxlu məmur xidmətdən kənarlaşdırıldı. M.H.Hacınskinin bu hərəkətləri, həmçinin fəhlə liderləri və kommunistlərlə yaxınlaşması parlamentin müsavatçılar və bitərəflər fraksiyasında etirazlara səbəb oldu. «İttihad» kommunizmin Qərb imperializminə qarşı mübarizədə müsəlman dünyasına göstərdiyi köməyi onun ateist xarakterindəki günahı yuyub təmizləyən əvəz sayaraq kommunistlərlə ittifaqa çağırır, Rus Sovet ordusunun Antantaya qarşı mübarizə aparan Türkiyə ilə birləşməsi üçün Azərbaycana buraxılmasını tələb edirdilər. Bir-birinə əks cəbhədə parçalanmış Türkiyənin özündə də müəyyən qüvvələr belə mövqe tuturdu.

Türkiyə qoşunları Mudros müqaviləsinin şərtinə görə Azərbaycandan çıxarılsa da, burada Türkiyə amili qalmaqda idi. Mustafa Kamal müttəfiqlərə qarşı çıxdıqdan sonra Türkiyənin nüfuzu Azərbaycanda yenidən yüksəldi, «gənc türklər»də Sovet Rusiyası ilə əməkdaşlıqda Qərb imperializminə qarşı mübarizə aparmaq üçün mümkün üstünlüklər görürdülər. Buna görə də həm onlar, həm də kamalçılar Sovet Rusiyası ilə sıx əlaqə yaratmağa çalışırdılar. Azərbaycan isə bu əlaqələrin yaradılması üçün əlverişli yer hesab olunurdu, çünki sovet köməyi müharibə edən Anadoluya Azərbaycandan keçərək çatdırıla bilərdi.

Azərbaycan cəmiyyətindəki sabitliyə ciddi təsir edən amillərdən biri də «Müsavat» partiyasının sıralarındakı qeyri-müəyyənlik idi. Partiyanın sol qanadı kifayət qədər güclü şəkildə ondan ayrılmağa meyllənmişdi. Bu qanad hökumətin daxili və xarici siyasətini kəskin şəkildə tənqid edirdi. Bitərəflər qrupunun lideri Behbud Xan Cavanşir və «Müsavat» partiyasının üzvü M.H.Hacınski də Sovet Rusiyası ilə dostluq münasibətləri yaradılmasına tərəfdar idilər. Azərbaycanın siyasi xadimlərinin dövlət idarəçiliyi və siyasət-diplomatiya təcrübəsinin olmaması da özünü göstərirdi.

Birləşmədən bir qədər əvvəl «Hümmət» partiyasında parçalanma baş verdi. Parçalanmadan sonra sol hümmətçilər R.A.Axundovun başçılıq etdiyi Azərbaycan eserlər partiyası ilə birləşməyə cəhd göstərdilər. Təşəbbüs uğursuzluqla nəticələndi. Müsəlman eserlərinin kommunistlərlə əlaqə yaratmaq cəhdi də baş tutmadı, çünki eserlərin fikrincə formalaşmaqda olan Azərbaycan Kommunist Partiyasının tərkibinə yalnız azərbaycanlılar daxil olmalı idi.

Azərbaycan kommunist təşkilatlarının 1920-ci il fevralın 11-12-də Bakı şəhərində keçirilən I qurultayında Azərbaycan Kommunist Partiyası yaradıldı. Bu vaxtdan etibarən kommunistlərin silahlı üsyana hazırlığı başlandı.

Respublikada siyasi vəziyyətin sabit olmaması parlamentin və hökumətin işində də öz əksini tapdı. Yeni hökumətdə əmək və əkinçilik naziri vəzifəsini tutmuş Ə.Pepinov 1919-cü il dekabrın 28-də həmkarlar təşkilatlarının iştirakı ilə fəhlə məsələsinə dair müşavirə keçirdi. Nazir fəhlələrdən ona kömək göstərmələrini xahiş etdi və fəhlələr isə onun verdiyi bütün vədlərə əməl edildikdən sonra kömək göstərəcəklərini bildirdilər. Fəhlə sinfinin mənafeyini müdafiə etmək şüarı ilə kommunistlər milli hökumətə qarşı mübarizə aparırdılar.

Parlamentdə çoxsaylı siyasi partiyaların olması və onların arasındakı daimi mübarizə Azərbaycan Cümhuriyyətinin mövcüd olduğu bütün müddət ərzində hökumətin vəziyyətini ağırlaşdırırdı.

28 aprel günündən düz 4 ay əvvəl "Müsavat" partiyasının görkəmli üzvləri və parlamentin bitərəflər qrupu- cəmi 12 nəfər F.Xoyskinin kabinetində toplaşdılar. Toplantıda baş nazir N.Yusifbəyli başda olmaqla müsavatçı nazirlər də iştirak edirdilər. Bu tarixi müşavirədə ölkədə vəziyyətin son dərəcə ciddi olması yekdilliklə etiraf olundu və dərhal təxirəsalınmaz tədbirlər görülməsi tələb edildi. Hökumətə aşağıdakı tədbirlərdən ibarət təklif verildi:

1. M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən kənarlaşdırmaq və onun yerinə kommunistlərlə mübarizə aparmağa qabil olan adam təyin etmək;
2. M.H.Hacınski ilə birlikdə digər sosialist nazirlərin gedəcəyi halda onları dərhal başqaları ilə əvəz etmək;
3. Parlamenti buraxmaq və hökumətə xarici siyasət və ölkənin müdafiəsi işində ən geniş səlahiyyətlər vermək;
4. 6 aydan sonra Müəssislər Məclisinə seçkilər keçirmək.

Lakin hadisələrin sonrakı gedişi nəzərdə tutulan bu tədbirləri həyata keçirməyə imkan vermədi. Sovet Rusiyası tərəfindən təhlükə getdikcə artırdı. Buna görə də 1920-ci il yanvarın 2-də RSFSR Xalq Xarici Işlər Komissarı Q.V.Çiçerinin ağ qvardiyaçı Denikin ordusuna qarşı hərbi ittifaq bağlamaq təklifi ilə xarici işlər naziri F.Xoyskiyə göndərdiyi nota Azərbaycanı Rusiyanın daxili münaqişələrinə cəlb etmək və bununla da gələcəkdə Azərbaycanı işğal etmək üçün nəzərdə tutulan siyasi manevrdən başqa bir şey deyildi. Çiçerin notasının əsas məqsədini başa düşən Azərbaycan xarici işlər naziri F.Xoyski onun təklifini rədd etdi. Bolşevik təhlükəsinin real olduğunu nəzərə alan F.Xoyski hökumətdən respublikada fövqəladə vəziyyət tətbiq etməyi, parlamentin buraxılmasını, yaxın vaxt ərzində Müəssisələr Məclisinə seçkilər keçirilməsini tələb etdi.

Sovet Rusiyasına münasibət məsələsi Azərbaycanın siyasi partiyaları arasında əsas ziddiyyət nöqtəsinə çevrildi. Sosialistlər və ittihadçılar Çiçerinin notasına müsbət cavab vermək tərəfdarı idilər.

Hökumətin siyasətinə qarşı onun bəzi üzvləri də müxalifətçi mövqe tutdular. Əsas mübahisə Sovet Rusiyasına loyal münasibətin tərəfdarı daxili işlər naziri

M.H.Hacınski ilə Rusiya təzyiqinə qarşı radikal tədbirlər görülməsinin tərəfdarı olan xarici işlər naziri F.Xoyski arasında baş verdi.Radikallar qalib gəldilər və 1920-ci il fevralın 18-də M.H.Hacınski daxili işlər naziri vəzifəsindən getdi, lakin Ticarət, sənaye və ərzaq naziri vəzifəsini tutdu.

Martın ortalarında müsavatçılar və bitərəflər fraksiyasının birgə iclasında bu məsələ tam kəskinliyi ilə qoyuldu. M.H.Hacınski öz baxışlarını şərh etdi. F.X.Xoyski başda olmaqla digər qrup M.H.Hacınskinin məruzəsini mənfi qarşıladı. F.Xoyski qeyd edirdi ki, "heç bir rus partiyası, heç bir Rusiya hökuməti heç vaxt Zaqafqaziya respublikasının müstəqilliyini tanımayacaq və yalnız Qafqaz xalqlarının güclü ordusu və əldə silah müstəqilliyini qorumaq əzmi olduğu zaman Qırmızı Moskva bizimlə hesablaşacaq və bizim sərhədlərimizi keçməyəcəkdir". Buna görə də sərt xəttin tərəfdarları respublikanı müdafiə etmək üçün bütün zəruri tədbirləri görməyə və ölkəni kommunist ünsürlərindən və onlara rəğbət bəs-ləyənlərdən təmizləməyə çağırırdı. Bu tədbirləri həyata keçirmək üçün onlar hökumətə fövqəladə səlahiyyətlər verməyi və vaxt itirmədən qonşu respublikaları Qafqazın birgə müdafiəsinə çağırmağı təklif etdilər. Lakin sərt kurs tərəfdarlarının təklifləri qəbul edilmədi.

Azərbaycan hökumətində daxili mübarizənin davam etdiyi bütün dövr ərzində Sovet Rusiyası tərəfindən təzyiq hiss olunurdu. Xarici işlər naziri F.Xoyskinin Rusiya ilə hərbi ittifaqdan imtina etməsinə cavab olaraq 1920-ci il yanvarın 23-də Çiçerin ikinci notanı göndərdi və Azərbaycanı Rusiyadakı hərbi münaqişəyə cəlb etmək üçün yenidən təşəbbüs göstərdi.

1920-ci il martın 17-də V.I.Leninin Qafqaz cəbhəsi Hərbi-İnqilabi Şurası adından göndərdiyi teleqram sovet hökumətinin Azərbaycana münasibətindəki gizli niyyətlərdən xəbər verir: "Bizim üçün Bakını ələ keçirmək son dərəcə vacibdir. Bütün səyləri bu istiqamətə yönəldin, həm də bəyanatlar sırf diplomatik olmalıdır, möhkəm yerli sovet hakimiyyətinin hazırlanmasında maksimum yəqinlik əldə edilməlidir".

F.X.Xoyski Q.V.Çiçerinin yeni notasını cavabsız qoymadı və 1920-ci il martın 7-də Azərbaycan xarici işlər nazirinin daha qətiyyətli şəkildə tərtib olunmuş üçüncü notasını göndərdi. F.Xoyski qeyd edirdi ki, mehriban qonşuluq münasibətlərinin yaradılması yalnız hər iki tərəfin suverenliyi əsasında həyata keçirilə bilər və məhz bu cəhətdən Azərbaycan hələ Sovet Rusiyası tərəfindən heç bir həmrəylik görməmişdir.

Siyasi dairələrdə Rusiya ilə əlaqələr yaratmağın vacibliyi yaxşı başa düşülürdü. Bu əlaqələrin pozulması nəticəsində Azərbaycan iqtisadiyyatı, xüsusən neft sənayesi ağır böhran keçirirdi. Nəticədə hasil edilən neftin miqdarı ixrac edilən neftin miqdarına uyğun gəlmirdi. Bakıda orta hesabla ayda 18-19 milyon pud neft çıxarılır, amma onun cəmi 5-6 milyon pudu ixrac edilirdi. Buna görə də Sovet Rusiyası ilə iqtisadi əlaqələr yaradılması və əmtəə mübadiləsinin başlanması qaçılmaz zərurətə çevrilmişdi. Lakin belə əmtəə mübadiləsi yalnız xalqların hüquqi bərabərliyi və suverenliyi prinsipləri əsasında mümkün idi.

“Müsavat”ın M.H.Hacınskini daxili işlər naziri vəzifəsindən geri çağırmaq niyyətindən xəbər tutan “İttihad” hökumət koalisiyası haqqında öz razılaşmasını ləğv etmək və hökumətdəki nümayəndəsini geri çağırmaq haqqında qərar qəbul etdi. Daxili işlər naziri vəzifəsinə yeni namizəd məsələsində “Müsavat” heç bir güzəştə getmək istəmədi və bu vəzifəyə yalnız “Müsavat” partiyasının üzvünü irəli sürəcəyini bildirdi. Daxili İşlər Nazirliyini gücləndirmək üçün “Müsavat” partiyası fevralın 23-də bu vəzifəyə hökumətin ən gənc üzvü olan M.Vəkilovu, onun müavini vəzifəsinə isə partiyanın radikal mövqeli liderlərindən olan Ş.Rüstəmbəyovu məsləhət gördü. Məhz onların səyi ilə dövlətə zidd ünsürlərə qarşı fəal mübarizə başlandı. Bolşeviklər içərisində həbslər keçirildi, fəhlə klubları və ən irticaçı, ciddi müxalifət mövqeyində olan qəzetlər “Edinaya Rossiya”, “Novıy mir” və s. bağlandı.

Lakin partiya fraksiyaları arasında danışıqlar heç bir müsbət nəticə vermədi. “İttihad” partiyası “Müsavat”ı hakimiyyəti zorla ələ keçirməkdə ittiham etməkdən də çəkinməyərək bildirdi ki, “Müsavat” parlamentdə çoxluğu təsadüfən qazandığından onun iqtidarda olması qanunsuzdur.

Sosialistlərin və “İttihad” nümayəndələrinin getməsi hökumət böhranını kəskinləşdirdi. Hökumətdə qalan müsavatçılar artıq Nazirlər Kabinetinin süqutunun qarşısını almaq iqtidarında deyildilər.

Beləliklə, müstəqillik mövqeyində duran bütün siyasi qüvvələrin səmərəli işbirliyi quracağına bəslənən ümidlər özünü doğrultmadı.

Hökumət başçısı vəzifəsini tutmaq imkanı olmayan “Əhrar” və “İttihad” partiyaları müsavatçıların ən loyal nümayəndəsi saydıqları M.H.Hacınskinin namizədliyi ilə razılaşdılar. Sosialistlər üç nazir vəzifəsini tələb edir, daxili işlər, xarici işlər və hərbi nazir vəzifələrinə S.Hacınski, A.Səfikürdski və B.Rzayevi təklif edirdilər.

Yeni hökumətin təşkili prinsipləri ilə razılaşmayan “Müsavat” partiyası üzvlərinin bir hissəsi M.H.Hacınskinin yaratdığı hökumətə daxil olmaq təklifindən imtina etdilər.

Azərbaycan kommunist təşkilatları əsas gücü fəhlələrin və döyüş dəstələrinin silahlanmasına sərf edir, silahlı üsyanın hazırlanmasını özlərinin ən yaxın məqsədləri hesab edirdilər. Azərbaycan kommunistlərinin Həştərxanla əlaqəsi bu sahədə işi yüngülləşdirdi. Həştərxan vasitəsilə Moskvadan göstərişlər daxil olur, bolşevik fəalları, silah ehtiyatları və pul vəsaiti gətirilirdi. Bu dövrdə V.I.Leninin göstərişi ilə RK (b) P-nin Bakı Komitəsinin sərncamına “hərbi məqsədlər üçün” 15 milyon manat pul göndərilmişdi. Silah Həştərxandan başqa Orta Asiyadan da gətirilirdi. 1920-ci ilin mart ayı ərzində Türküstan cəbhəsi komandanlığının köməyi ilə Krasnovodskdan Bakıya qayıqlarla 2 minə yaxın tüfəng, çoxlu döyüş sursatı və pul vəsaiti gətirilmiş, bunlar Qaraşəhərdə və Bayılda düzəldilmiş xüsusi anbarlarda gizlədilmişdi.

Yeni hökumət yaratmaq səlahiyyəti almış M.H.Hacınski Azərbaycan kommunistləri ilə danışıqlara girərək onlara nazir vəzifələri təklif etdi. Lakin kommunistlər bu təklifə razı olmadılar.

Yaxınlaşan “bolşevik təhlükəsinin” bütün ciddiliyini başa düşən F.Xoyski özünün həmkarı Y.P.Gegeçkoriyə hələ 1919-cü il iyunun 27-də Gürcüstanla Azərbaycan arasında general Denikinə qarşı yönəlmiş birgə müdafiə taktikasının şərtlərini reallaşdırmaq üçün zəruri tədbirlər görməyi təklif etdi. Lakin Azərbaycanla hərbi əlaqələrin belə konkretləşdirilməsi artıq o dövrdə Gürcüstan hökumətinin mənafeyinə uyğun gəlmirdi. Həmin dövrdə Gürcüstan nümayəndəsi Uraqadze Moskvada öz hökuməti adından Çiçerinlə Gürcüstanın Sovet rusiyası tərəfindən tanınması barədə danışıqlar aparırdı.

Öz müstəqilliyi uğrunda Qərb dövlətləri ilə mübarizə aparan və Sovet Rusiyasının hərbi və diplomatik yardımına ehtiyacı olan Türkiyə isə Şimal qonşusu ilə sıx əlaqələr yaratmağa çalışırdı. Ankara hökumətinin RSFSR hökumətinə ilk rəsmi müraciətində - M.K.Atatürkün V.I.Leninə 1920-ci il 26 aprel tarixli məktubunda qeyd edilirdi ki, “Sovet qüvvələri Gürcüstana qarşı hərbi əməliyyata başlamağa və ya diplomatik yolla öz nüfuzu vasitəsilə Gürcüstanı ittifaqa girməyə məcbur etsə, ingilisləri Zaqafqaziyadan qovmağa çalışsa, Türkiyə imperialist Ermənistana qarşı hərbi əməliyyatları öz üzərinə götürür və Azərbaycan Cümhuriyyətini Sovet dövləti dairəsinə girməyə məcbur etməyi öhdəsinə alır”. Bunun müqabilində Türkiyə Sovet Rusiysından ilk yardım kimi qızılla 5 milyon türk lirəsi, həcmi və miqdarı danışıqlar zamanı müəyyən ediləcək silah və sursat, həmçinin bəzi hərbi-texniki vasitələr, tibbi-sanitariya materialları və ərzaq xahiş edirdi. Tərkibində keçmiş Türkiyə hərbi əsirlərindən təşkil olunmuş hərbi hissələr olan 11-ci ordunun Bakıdan yan keçməklə Antanta qoşunlarına qarşı mübarizə aparmaq üçün Qarabağ və Ermənistandan keçərək Anadoluya gəlməsi nəzərdə tutulurdu. Sovet Rusiyası isə öz növbəsində hər vasitə ilə hərbi-strateji cəhətdən çox mühüm olan regionu, ilk növbədə Bakı neft sənaye rayonunu ələ keçirməyə, Yaxın və Orta Şərqin qapısında möhkəmlənməyə çalışırdı.

1920-ci ilin aprelin 8-də RK(b)P Mərkəzi Komitəsinin Plenumu RK(b)P MK-nın Qafqaz Bürosunun yaradılması haqqında qərar qəbul etdi. Büronun tərkibinə S.M.Kirov, A.M.Nazaretyan, N.Nərimanov, Q.K.Orconikidze, Y.D.Stasov və b. daxil oldular.

Bakıda üsyan başladığı halda birgə hərəkəti əlaqələndirmək məqsədilə RK(b)P Qafqaz Diyar Komitəsinin bürosu, AK(b)P və Kirovun XI Ordunun komandanlığı ilə yazışmaları bütün aprel ayı ərzində davam edirdi. XI Ordunun komandanlığı, RK(b)P Qafqaz Diyar Komitəsi və AK(b)P nümayəndələrinin iştirakı ilə aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda keçirilən müşavirələrdə qarşıdakı birgə əməliyyatlar planını təfsilatı ilə müzakirə etdi. Bu plan aprelin 27-də Bakıda kommunistlərin silahlı çıxışını və həmin gün XI Ordunun Azərbaycan sərhəddini keçməsini nəzərdə tuturdu.

Aprelin 27-də səhər tezdən kommunistlərin silahlı dəstələri həm şəhər daxilində, həm də onun kənarlarında ən mühüm obyektləri- dəmiryol vağzalını, poçtu, teleqrafı, radiostansiyanı, polis məntəqələrini, iri neft mədənlərini, sənaye müəssisələrini, hərbi və Ticarət limanınını və s. yerləri ələ keçirməyə başladılar. Eyni zamanda, hərbi nazir S.Mehmandarov zabitlərə yeni hökumətə tabe olmağı əmr etdi.

1920-ci ilin aprelində Bakıda hərbi çevrilişin hazırlanması və keçirilməsində burada olan Türkiyə hərbi xidmətçiləri və kommunistləri fəal rol oynayırdılar. Məhz onların köməyi nəticəsində şəhərdə bir çox mühüm obyektlər, o cümlədən dəmiryol vağzalı tutuldu, şəhərin hərbi qubernatoru M.Q.Tlexas həbs edildi. Məhz Türkiyə zabitləri və əsgərləri hökumətin Bakını tərk etmək cəhdinin qarşısını aldılar.

Bakıda baş verən aprel hadisələrində Xəzər Hərbi Donanması əhəmiyyətli rol oynadı. Donanma gəmilərinin heyəti bu dövrdə kommunistlərdən və onlara rəğbət bəsləyən matroslardan ibarət idi. Hakimiyyətin 2 saat ərzində Azərbaycan İnqilab Komitəsinə təhvil verilməsini ultimatumla tələb edən hərbi gəmilər sahildə düzüldülər və öz toplarını hökumət orqanları binalarına tuşladılar.

Aprelin 27-də günorta artıq hərbi drujinaların faktiki olaraq şəhərdə vəziyyətə tam nəzarət etdiyi və XI Ordunun ön hissələrinin Azərbaycan Cümhuriyyəti ərazisində olduğu bir vaxtda Azərbaycan İnqilab Komitəsi qanuni hökuməti devirib hakimiyyəti qəsb etməsinə qanuni don geydirməyə çalışırdı. Bu məqsədlə aprelin 27-də saat 11-də başda H.Sultanov olmaqla kommunistlərin nümayəndə heyəti AK(b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsi Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransının adından hakimiyyəti N.Nərimanovun başçılıq etdiyi Sovet fəhlə-kəndli hökumətinə təslim etmək barədə Ç.Ildırım tərəfindən tərtib olunmuş ultimatumu parlamentə təqdim etdi. Cavab 2 saat ərzində verilməli idi, əks halda bolşeviklər atəş açmaqla hədələyirdilər.

Həmin ultimatumu müzakirə etmək üçün parlament iclasından əvvəl M.H.Hacınski, M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov və Ağamalıoğlundan ibarət komissiya yaradıldı. Komissiya ultimatuma cavab olaraq öz şərtlərini hazırladı və bu şərtlər parlamentin müzakirəsinə verildi.

N.Yusifbəylinin yanında məhdud dairədə keçirilmiş müşavirədə Ş.Rüstəmbəyov bəzi deputatlara qan tökülməsinə yol verməmək üçün Bakıdan çıxmağı və bolşeviklərə qarşı mübarizəni təşkil etmək üçün Gəncəyə köçməyi təklif etdi. Lakin onun təklifini toplantı iştirakçıları qəbul etmədilər. Saat 20:45-də Azərbaycan parlamentinin təcili iclası açıldı. Gündəlikdə bir məsələ- Azərbaycan İnqilab Komitəsinin hakimiyyəti təhvil vermək barəsində ultimatumu məsələsi dururdu. Müzakirə başlamazdan əvvəl çıxış edən hərbi nazir S.Mehmandarov silahlı müqavimətin mümkün olmadığını bildirdi.

Ultimatumun mətnini oxuyan və öz təslimçilik mövqeyini nümayiş etdirən M.H.Hacınski ultimatumun şərtlərini qəbul etməyi təklif etdi və deputatları inandırmağa çalışdı ki, XI Ordu Bakıya girmədən Türkiyəyə köməyə keçmək niyyətindədir. Qızğın müzakirələrin gedişində çıxış edən müxalif parlament fraksiyalarının nümayəndələri: S.Ağamalıoğlu («Hümmət»), Q.Qarabəyov («Ittihad»),

A.Səfikürdski (sosialist bloku), A.Qardaşov («Əhrar») M.H.Hacınskinin hakimiyyəti təhvil vermək təklifini müdafiə etdilər.

«Müsavat» fraksiyası adından onun sədri M.Ə.Rəsulzadə çıxış edərək dedi: «Bizə kobud ultimatum verilmişdir. Bizim xilaskarımız hörmət etdiyimiz Türkiyədir. Biz öz müstəqilliyimizin tapdalanmaması şərtilə Türkiyəyə köməyə gedən qüvvələri müdafiə edirik. Lakin Cənablar, bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr bizə dost deyil, düşməndir! Bu ultimatumun qəbul edilməsi hakimiyyəti dost maskası geymiş düşmənə vermək deməkdir! Biz buraya millətin iradəsi və arzusu ilə gəlmişik və bizi buradan yalnız güc və süngü ilə çıxarmaq olar». Bununla belə, vətəndaş müharibəsi təhlükəsini nəzərə alan «Müsavat» fraksiyası Azərbaycanın müstəqilliyinin saxlanacağı şərtilə kommunistlərin ultimatumunu qəbul etmək haqqında çoxluğun fikrinə qoşulmağa məcbur oldu.

1920-ci il aprelin 27-dən 28-nə keçən gecə parlament hakimiyyəti Müvəqqəti Inqilab Komitəsinə təhvil verdi. Komitənin tərkibi onun qiyabi seçilmiş sədri N.Nərimanov, A.Alimov, D.Bünyadzadə, M.Hüseynov, Ə.Qarayev, Q.Musabəyov və H.Sultanovdan ibarət idi. Komitə radio vasitəsilə RSFSR hökumətinə «Qırmızı Ordu hissələrini göndərmək yolu ilə dərhal real kömək göstərmək» haqqında rəsmi xahişlə müraciət etdi. Müraciət əslində formal xarakter daşıyırdı. Səsvermə nəticəsində (əleyhinə 1 nəfər, bitərəf qalanlar 3 nəfər, səsvermədə iştirak etməyənlər 3 nəfər) 1920-ci il aprelin 27-də axşam saat 11 radələrində parlament hakimiyyətinin Azərbaycan İnqilab Komitəsinə verilməsi haqqında qərar qəbul etdi. Parlament sədrinin müavini M.Y.Cəfərov və İşlər İdarəsinin direktoru M.Vəkilov tərəfindən imzalanmış sənəddə hakimiyyətin verilməsi şərtləri göstərilirdi: «Nəzərinizə çatdırırıq ki, biz aşağıdakı şərtlərlə hakimiyyəti təhvil veririk:

1. Sovet hakimiyyəti tərəfindən idarə edilən Azərbaycanın tam müstəqilliyi saxlanılır;
2. Azərbaycan Kommunist Partiyasının yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;
3. Hər cür xarici təzyiqlərdən asılı olmayaraq Azərbaycanın qəti idarə formasını Azərbaycan Fəhlə, Kəndli və Əsgər Deputatları Soveti simasında Azərbaycanın ali qanunvericilik orqanı müəyyən edəcəkdir;
4. Hökumət idarələrinin bütün qulluqçuları öz yerlərində qalır və yalnız məsul vəzifə tutan şəxslər dəyişdirilir;
5. Yeni təşkil olunan müvəqqəti kommunist hökuməti parlament üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;
6. Hökumət Qırmızı Ordunun döyüşlə Bakıya girməsinin qarşısını almaq üçün tədbirlər görəcəkdir;
7. Yeni hökumət kimin tərəfindən təşkil edilməsindən asılı olmayaraq Azərbaycanın müstəqilliyinə son qoymaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlərlə və bütün vasitələrlə mübarizə aparacaqdır».

Qərarın yekun hissəsində göstərilirdi: «Azərbaycan parlamenti özünün fövqəladə iclasında səs çoxluğu ilə bu şərtləri qəbul etmişdir və onu Sizin nəzərinizə çatdırdıq».

Aprelin 27-də saat 1-ə 5 dəqiqə işləmiş Azərbaycan parlamentinə ultimatum verilməsindən 12 saat əvvəl A.Mikoyan, Q.Səbiyev və Q.Musabəyovu gətirən «III Beynəlmləl» zirehli qatarı Samur körpüsündən keçdi və yol boyu qəflətən yaxalanmış azsaylı və pərakəndə ordu hissələrinin müqavimətini qırmaqla Bakıya doğru hərəkət etdi. Aprelin 27-də axşam saat 21-də Biləcəri stansiyası Sovet zirehli qatarları tərəfindən tutuldu, səhər saat 4-də isə «III Beynəlmləl» zirehli qatarı Bakı stansiyasına gəldi. Aprelin 30-da XI Ordunun əsas hissələri şəhərə daxil oldu. Onların irəliləməsi zamanı başda Xəlil paşa olmaqla yerli əhali içərisində təbliğat aparan və əhalini XI Orduya müqavimət göstərməməyə çağıran Türkiyə zabitləri qrupu sovet qoşunlarına fəal kömək edirdi. Həmin gün 7-ci süvari diviziyasının hissələri Şamaxı və Ağsuya daxil oldular, mayın 1-də isə Azərbaycan hissələrinin müqavimətini aradan qaldıran sovet zirehli qatarları Gəncə stansiyasını ələ keçirdilər.

Mayın 1-də Volqa-Xəzər Hərbi Donanmasının gəmiləri Bakı limanına daxil oldu. Mayın 3-də və 4-də Lənkəran və Astaraya hərbi dəniz desantı çıxarıldı. 1920-ci il mayın ortalarında XI Ordu Azərbaycan Cümhuriyyətinin demək olar ki, bütün ərazisini nəzarət altına aldı. Beləliklə, bolşevik Sovet Rusiyasının hərbi müdaxiləsi ilə suverenliyini bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, hakimiyyət kommunistlərin əlinə keçdi.

AXC hakimiyyətinin devrilməsi ciddi daxili və xarici səbəblərin nəticəsidir. 1920-ci ilin yazında respublikada getdikcə dərinləşən siyasi sabitsizlik ölkədə fəaliyyət göstərən müsəlman partiyaları- «Müsavat», «Əhrar», «İttihad», sosialistlər, bitərəflər qrupu və b. arasında gedən mübarizənin qızışması ilə müşayiət olunurdu. İki ilə yaxın bir müddətdə 5 hökumət kabinetinin bir-birini əvəz etməsi həmin mübarizənin nəticəsi idi. Azərbaycanın rus-sovet ordusu tərəfindən istilası ərəfəsində siyasi partiyaların qarşıdurması o qədər kəskinləşmişdi ki, həmin ərəfədə yeni hökumət kabineti təşkil etmək heç cür mümkün olmadı.

Respublikada vəziyyəti mürəkkəbləşdirib dərinləşdirən digər ciddi amil o idi ki, hökumət dövlət ərazisinin bütövlüyünü təmin etmək üçün erməni daşnakları ilə mübarizəyə həddindən artıq iqtisadi və hərbi ehtiyatlar cəlb etmək məcburiyyətində qalmışdı. Lakin bu vaxt dərinləşməkdə olan siyasi və iqtisadi böhranın mövcudluğuna baxmayaraq, Azərbaycanda «inqilabi şəraitin yetişməsi» deyilən bir vəziyyət yox idi. O zaman Azərbaycan xalqı üçün aşkarda olan ən vacib məsələ müstəqilliyin nəticələri idi.

N.Nərimanov çevrilişdən bir neçə ay öncə Moskvaya Azərbaycandakı vəziyyət barədə məlumat verərkən ərzaq məsələsinin yaxşı vəziyyətdə olduğunu, Azərbaycana gediş-gəlişin sərbəstliyini, hər istiqamətdə qəzet nəşrini, mətbuat azadlığını, çoxpartiyalı parlament fəaliyyətini, əmək birjasının mövcüdluğunu, ziyalı əməyinin yaxşı qiymətləndirildiyini (onlara yaxşı əməkhaqqı verildiyini), 5 may və 14 avqustda uğursuz tətillərdən sonra fəhlələrin nüfuzunun qismən enmə-

sini, yalnız müsəlmanlardan ibarət nizami ordunu, onun başında təcrübəli generalların durduğunu, əsgərlərin normal təminatını ətraflı şərh etmişdi. Müstəqil dövlət quruculuğu üçün əlverişli olan belə bir şəraiti arzulayan Moskvadakı Kommunist mərkəzi yerli kommunist hərəkatı təşkilatlarının öz güclərini və səylərini vahid Azərbaycan Kommunist Partiyasında birləşdirməsinə nail oldu. Beləliklə, Azərbaycanı qəsb etmək üçün daha bir ciddi zəmin yarandı. Yerli kommunistlər istilanın iştirakçıları və Mərkəzin arxalandığı əsas qüvvə oldu. Yerli partiya təşkilatlarından birinin 28 apreldən sonrakı hesabatında deyilirdi: «Əgər inqilab qansız keçibsə, Müsavat hakimiyyəti devrilibsə, bu o demək deyil ki, bizim partiyamız güclü idi. Bu ona görə belə oldu ki, XI Qırmızı Ordu güclü idi».

Beləliklə, aprel çevrilişi xarici qüvvənin «ildırım sürətli öldürücü» yürüşü nəticəsində həyata keçdi. Daxili səbəblər isə hökumət böhranı, Qarabağ konflikti, silahlı üsyana hazırlıqda yerli kommunistlərin fəal iştirakı, Türkiyə hərbi qulluqçularının köməyi Qırmızı Ordunun ölkəni istila etməsini yalnız asanlaşdırdı.

Cümhuriyyətin yaradılması, uğursuzluğuna baxmayaraq onun 23 aylıq fəaliyyəti Azərbaycan xalqının tarixi taleyində çox mühüm hadisə idi. O, qısa müddətdə öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi. Azərbaycan Cümhuriyyəti demokratik respublika kimi bərqərarlaşırdı. AXC-nin yaranışı bütün Müsəlman Türk dünyası üçün çox əlamətdar hadisə idi. Çünki Azərbaycan Cümhuriyyəti Qərb ölkələri tərəfindən rəsmi şəkildə tanınan ilk türk və müsəlman respublikası idi.

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan dövlətçiliyinin tarixində böyük iz qoymuş, Azərbaycanın gələcəkdə müstəqil olması üçün mühüm təməl hazırlamışdır. Cümhuriyyətin süqutundan sonra M.Ə.Rəsulzadə üçrəngli milli bayrağımızın hər bir nəslin ruhunda, qəlbində qorunub saxlanılacağına inanırdı. Azərbaycanı yenidən müstəqilliyə qovuşdurmaq ehtirası ilə yaşayanlar bu inamdan güc aldılar “bir kərə yüksələn bayraq bir daha enməz” həqiqətini bu gün bir daha təsdiq etdilər. 1991-ci ildə yenidən öz müstəqilliyini, milli dövlətçilik ənənələrini bərpa edərək Azərbaycan Respublikası AXC-nin bütün sahələrdə topladığı böyük tarixi təcrübəni bu gün də davam etdirir və dönmədən həyata keçirir. Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlətçilik irsini yüksək qiymətləndiən Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu illiyinə həsr olunmuş təntənəli mərasimdə demişdir: “Biz bu gün Azərbaycanın dövlət müstəqilliyi aktı haqqında danışarkən, mütləq qeyd etməliyik ki, həmin müstəqillik aktı Azərbaycanın 1918-ci ildə yaranmış ilk müstəqil Xalq Cümhuriyyətinin bərpasıdır. Bəli, biz onların varisiyik. Onların işinin davamçısıyıq – ancaq yeni şəraitdə, yeni bir tarixi zamanda. Bu gün biz müstəqilliyimizin onuncu ildönümünü qeyd edərkən böyük iftixar hissi ilə deyə bilərik ki, on illik bu müstəqillik Azərbaycan xalqının müstəqillik arzusu ilə yaşayan vətənpərvər insanlarına, 1918-ci ildə Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və bir çox başqalarının yaratdığı Xalq Cümhuriyyətinə bizim tərəfimizdən, bugünkü nəsillər tərəfindən yüksəlmiş böyük bir abidədir. Əgər

Xalq Cümhuriyyəti 1920-ci ildə, o vaxtkı tarixi şəraitdə yaşaya bilmədisə, indi Azərbaycan müstəqil dövlət olaraq, on il yaşayıb, bundan sonra da yaşayacaq və müstəqillik əbədi olacaq, daimi olacaqdır”.

Müasir Azərbaycan Respublikası bu il yüzilliyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin həqiqətən varisidir.

### *§ 5. 1917-1920-ci illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatı. Ş.M.Xiyabani*

Cənubi Azərbaycana şahın təyin edilən vəliəhd vali /general qubernator/ və İran Qacar hökümətinin digər nümayəndələri azərbaycanlıları qarət edirdilər. İran Qacar hökumətinin yerli idarələrə təyin etdiyi fars məmurları Azərbaycan xalqının Milli və digər hüquqlarına da qəsd edirdilər. Birinci dünya müharibəsi dövründə əhalinin vəziyyəti daha da pisləşmişdi. Müharibə dövründə İran Qacar dövlətinin özünü bitərəf elan etməsinə baxmayaraq onun ərazisinin hərbi əməliyyatlar meydanına çevrilməsi ölkə zəhmətkeşləri üçün ağır yük idi və dağıntılar, aclıq və yoluxucu xəstəliklərə səbəb olurdu.

Fevral inqilabının, sonra isə Oktyabr dövlət çevrilişinin baş verməsi çarizmin İranda yeritdiyi siyasətə son qoydu. Yeni yaranan Sovet hökuməti xarici siyasətində başqa xalqların tam hüquq bərabərliyinə, dostluğa, ölkələrin istiqlaliy-yətinə dərin hörmətə əsaslandığını elan edərək vaxtı ilə çar hökümətinin müxtəlif asılı ölkələrlə bağladığı qeyri-bərabər müqavilələrin, həmin ölkələrdə əldə etdiyi imtiyaz və üstünlüklərdən və s. imtina etməsini bildirdi. Belə asılı ölkələrdən biri də İran idi.

Sovet hökuməti ilk növbədə İranı təsir dairələrinə bölmək haqqında çar Rusiyasının İngiltərəilə bağladığı 1907- və 1915-ci il /mart/ məxvi sazişlərini ləğv etdi və birinci Dünya müharibəsi ilə əlaqədar İran ərazisində olan rus qoşunlarının oradan çıxarılmasını təşkil etdi. 1917-ci il 24 noyabrda dərc olunmuş «Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə» adlı müraciətdə bu barədə deyilirdi. «Biz elan edirik ki, İranı bölmək haqqındakı müqavilə cırılmış və məhv edilmişdir. Hərbi əməliyyat dayanan kimi qoşunlar İrandan çıxarılacaq və iranlıların öz taleyini azad surətdə müəyyən etmək hüququ təmin olunacaqdır».

1918-ci ilin əvvəlindən etibarən rus qoşunları İran ərazisindən çıxarılmağa başladı. Bu dövrdə İranda Milli azadlıq hərəkatı yüksəlişə doğru gedirdi. Hərəkətın əsas mərkəzləri Cənubi Azərbaycan, Gilan və Xorasan idi.

Cənubi Azərbaycanda hələ fevral inqilabından sonra başlamış inqilabi canlanma getdikcə daha qabarıq şəkil aldı. Xalq İranda öz işğalçı siyasətini genişləndirən və İrana ərazisindən qonşu Zaqafqaziyadakı mürəkkəb siyasi vəziyyətə və burada müstəqil dövlətlər yaradılmasına yönəldilmiş milli proseslərə müdaxilə üçün istifadə etməyə çalışan ingilis imperialistlərinə və onlara satılmış İran hökmətinə qarşı daha qətiyyətlə ayağa qalxdı. 1917-ci ilin noyabr və dekabr aylarında Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və b. şəhərlərdə keçirilən izdihamlı mitinqlərdə

əhali ingilis imperialistlərinin əlində oyuncağa çevrilmiş. Vüsuqüddəvlə kabinəsinin istefa verməsini, demokratik hökumət təşkil olunmasını tələb edirdi. Təbriz və digər şəhərlərdə keçirilən mitinqlərin çoxunun təşkilatçısı Azərbaycan Denokratik Partiyası idi. 1917-ci ilin sonunda istefa verməyə məcbur oldular.

1918-ci ilin əvvəlində Sovet hökuməti İran ərazisindəki rus qoşunlarını çıxardıqca Cənubi Azərbaycanın bir çox şəhərlərini, oradan ərzaq ehtiyatını, artıq silahları ADP-nin nümayəndələrinə təhvil verirdi. Sovet hökuməti öz qoşunlarını Cənubi Azərbaycandan çıxarsa da İngiltərə, İran ərazisindən qonşu dövlətlərə qarşı müdaxilə hücum meydan kimi istifadə etmək yoluna düşdülər. 1918-ci ilin baharınadək ingilislər Zəncan və Miyanəni işğal etməyə nail oldular. İngilislər Türkiyə – «təhlükəsini» bəhanə edərək Cənubi Azərbaycanın digər şəhərlərini, məsələn, Xoy və Urmiya şəhərlərini də ələ keçirərək, orada ingilis zabitlərinin komandanlığı altında polis və qoşun dəstələri yaratdılar.

Digər tərəfdən keçmiş çar və fransız zabitlərinin, Amerika missionerlərinin və başqalarının təhrikilə Cənubi Azərbaycanın şimal-qərbində aysorlar, ermənilər, kürdlərin azərbaycanlılara qarşı qırğınları törədilirdi. 1918-ci ilin əvvəllərində Türkiyə hərbi hissələrinin azərbaycanlılara qarşı şiddətli erməni təcavüzünə son qoymaq üçün Zaqafqaziyada Şərqə doğru irəliləməsilə eyni vaxtda türk qoşunlarının Cənubi Azərbaycana daxil olması qırğınların qarşısını aldı. Lakin Türkiyə birinci Dünya müharibəsində məğlub olan tərəf kimi öz ordusunu Cənubi Azərbaycandan çıxardıqdan sonra ingilis imperialistləri İranın şimal-qərbini əllərinə keçirdilər. İran ərazisindən qonşu dövlətlərə qarşı hücum meydanı kimi istifadə edən ingilis imperialistləri ölkədəki fəaliyyətlərini rəsmiləşdirmək üçün İran hökuməti ilə 1919-cu il avqustun 9-da saziş imzaladılar. Sazişin bağlanması Cənubi Azərbaycanda genişlənən Milli-azadlıq hərəkətının yeni pilləyə qalxmasına təkan verdi. Hərəkəta başçılıq edən ADI-nin bu dövrki fəaliyyəti üçün səciyyəvi cəhət o idi ki, partiya tədricən passiv mübarizə mövqeyindən uzaqlaşır, artıq hökumətə öz tələblərini qəti şəkildə bildirir, xalqı daha da ciddi mübarizəyə çağırır və bunun üçün özü hazırlaşırdı. Silahlı üsyan ərəfəsində partiya orqanı «Təcəddüd» qəzeti xalqda Milli hisslərin, mübarizə əzminin artırılmasında xüsusi rol oynayırdı.

1919-cu ildə və 1920-ci ilin əvvəllərində yaranmış mürəkkəb siyasi şəraitdə ADP-nin rəhbərliyi dinc yolla mübarizə taktikasının lazımi nəticə vermədiyini bir daha yəqin etdi. Partiyanın proqramında nəzərdə tutulan taktika dəyişildi və onun dinc çıxışlarla yanaşı, silahlı üsyana hazırlıq görmək qərarı 1920-ci ilin əvvəlində və xüsusilə baharında daha böyük inamla həyata keçirildi. Üsyanın həyata keçirilməsi nəzəri cəhətdən Xiyabaninin nitq və məqalələrində əsaslandırıldı.

Müxtəlif elmi-siyasi cərəyan və nəzəriyyələrlə, o cümlədən sosializm haqqında fikirlərlə tanış olan, ən sol məslək hesab etdiyi bolşevizmdən danışan Xiyabani siyasi mübarizədə nə sağ, nə də çox sol olmayan, özünün dəfələrlə təkrar etdiyi kimi «orta xətt götürməyə çalışırdı və buna uyğun olaraq o, öz siyasi platformasını «təcəddüd məsləki» adlandırırdı. Xiyabani öz nitqlərində bu məsləki irticaçı və mühafizəkar siyasi cərəyanlara qarşı qoymaqla öz siyasi mövqeyini, baxışla-

rını təcəddüd, yəni yenilikçi bir əqidə kimi səciyyələndirirdi. Bir qədər yayğın olsa da, təcəddüd məfkurəsi imperializm ağalığına, şah hakimiyyətinin zülmünə, Feodal geriliyi və istibdad qalıqlarına, bir çox sosial ədalətsizliklərə qarşı üsyan elan edən, siyasi və demokratik azadlıqlar, «həqiqi xalq hakimiyyəti» və s. kimi inqilabi-demokratik tələblər irəli sürən və nəhayət, Cənubi Azərbaycanın Milli hüquqları uğrunda mübarizə aparan bir əqidə, siyasi-nəzəri cərəyan idi.

Xiyabani Avropa ölkələrilə İranın, o cümlədən Cənubi Azərbaycanın sosial inkişafındakı fərqi görür və buna görə də o, öz ölkəsinin – fəhlə sinfinin Formalaşdığı İranın, o cümlədən Cənubi Azərbaycanın vəziyyəti ilə əlaqədar kütlələri sinfi mübarizəyə və sosialist inqilabına deyil, yuxarıda göstərildiyi kimi başlıca olaraq feodal geriliyi və istibdad qalıqlarına, bir sıra sosial ədalətsizliklərə, demokratiyanın boğulmasına qarşı üsyana çağırırdı. Bu nəzəriyyəni rəhbər tutan ADP siyasi hakimiyyəti ələ almaq üçün döyüşgən qüvvə hazırlayıb, silahlı üsyan həyata keçirməklə inqilabi yol nəzərdə tuturdu. Partiya hakimiyyəti ələ aldıqdan sonrakı dövrdə sosial-iqtisadi məsələlərin həllində «təcəddüd, təkamül», yəni tədriclə həyata keçiriləcək yenilikçi inkişaf yolunu seçirdi.

Deməli, partiya rəhbərliyi köklü sosial dəyişikliklərə çağrmadan əslində mövcud quruluşu islah etmək və hakimiyyəti bunları həyata keçirə biləcək islahatçılara verməyi qarşıya qoyur, bununla da yarı inqilabçı, yarı islahatçı xırda burjua mövqeyində durmuş olurdu. Buradan da hərəkətin formaca inqilabçı, məzmunca islahatçı mahiyyəti əvvəlcədən müəyyən edilmiş oldu. Hərəkət rəhbərləri üsyanın hazırlanmasında zəhmətkeş qüvvələrə əsaslanırdılar. Zəhmətkeş dedikdə Xiyabani və başqaları öz iş qüvvəsini satan azsaylı fəhlələr və torpaqsız kəndlilərlə /rəncbərlər/ yanaşı, o dövrün Cənubi Azərbaycan şəhərlərinin başlıca sosial qüvvələrini təşkil edən və başqasının əməyini istismar etməyən sənətkarları, xırda tacirləri, ziyalıları, xırda dövlət qulluqçularını və eləcə də xırda torpaq sahibi olan kəndliləri nəzərdə tuturdular. Üsyana hazırlıq mərkəzi hökümətin Cənubi Azərbaycanda bir çox cəza tədbirləri həyata keçirdiyi bir şəraitdə aparıldı. 1920-ci ilin əvvəllərində öz qəddarlığı ilə tanınmış şahzadə Eynüddövlə Azərbaycana vali, Əminülmülk isə ona müavin təyin edildi. Təbrizdə cəza tədbirləri gücləndirildi, həbslər başlandı.

1920-ci il aprelin ilk günlərində ADP-nin üzvlərindən bir neçəsinin həbs edilməsi üsyanın başlanması üçün bilavasitə səbəb oldu. Aprelin 6-dan ayağa qalxmış demokratlar silahlanarak «Təcəddüd» qəzeti redaksiyasının binasında toplandılar Aprelin 7-də ADP rəhbərliyi silahlı üsyan planı hazırladı. Üsyanın elə ilk günü Təbriz bazarı bağlandı, bütün tacirlər, sənətkarlar və əhalinin digər nümayəndələri demokratların haqlı tələbləri ilə həmrəy olduqlarını bildirdilər. Üsyana rəhbərlik etmək üçün ictimai idarə heyəti /İİH/ təşkil olundu. Bu heyətə Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi. Üsyançılar iki gün müddətində demək olar ki, bütün dövlət idarələrini ələ keçirdilər. Beləliklə, silahlı üsyan qan tökülmədən qələbə çaldı. Bütün şəhər üsyançıların əlinə keçdikdən sonra İİH əhaliyə fars və fransız dillərində buraxdığı bəyanatla müraciət etdi. Bəyanatda bütün Azərbaycan əyalətində ümumi asayişi yaratmaq, hökumət nümayəndələrinin konstitusiyaya zidd olan siyasətinə

son qoymaq və konstitusiyanı sözdən işə keçirmək kimi məqsədlər göstərilirdi. Bəyannamədə əks olunmasa da, üsyanın əsas hədəflərindən biri İranda ağalıq edən ingilis imperialistləri onların ölkədəki qəsbkarlıq siyasəti idi. Azərbaycan vilayətinin adı dəyişdirilərək «Azadistan» - Azadlıq ölkəsi adlandırılmışdı.

İİH öz fəaliyyətinə ilk növbədə Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları idarə işlərindən kənar edərək onların yerinə ADP-nin tanınmış üzvlərini təyin etməli oldu, həmin idarələrdə müəyyən islahat işləri aparıldı, idarələrarası yazışmalardakı şəxsi müraciətlərdə təmtəraqlı feodal titullarının işlədilməsi götürüldü / müraciətdə təkcə ağa sözü saxlanıldı/, sənədlərdə əyalatin adının Azadistan yazılması təmin edildi. Üsyanın başlanmasının ilk günündən üsyançılar arasında ciddi-nizam-intizam var idi.

Təbrizdə üsyan qalib gələn gündən şəhərin Xeyriyyə bağında hər gün mitinq keçirilir, üsyanın məqsədləri, qarşıda duran vəzifələr, gündəlik işlərlə əlaqədar, Azərbaycan şəraitində aydınlaşdırılması zəruri olan məsələlər və s. izah edilirdi. Xiyabani hər gün əhali qarşısında əvvəlcədən partiya komitəsində müzakirə edilib bəyənilmiş məruzə ilə çıxış edirdi.

İran hökuməti üsyan xəbərini alan kimi Təbrizdə mərkəzi hökuməti təmsil edən dövlət məmurlarına hərəkatı yatırmaq haqqında göstəriş verdi. İran hökuməti üsyançılara qarşı ilk zərbəni şahzadə Eyniddövlə vasitəsilə həyata keçirməyi planlaşdırırdı. Eyniddövlə üsyanı yatırmaq haqqında mərkəzin göstərişini həyata keçirmək üçün dərhal bir sıra tədbir görməyə başladı, ilk növbədə Tehrandan küllü miqdarda pul tələb etdi. O, ADP-dən uzaqlaşmış «Tənqidçilər» qrupunun demokratlara qarşı qiyamını təşkil etməyə başladı. Lakin bu təxribat baş tutmadı. Təxribatçılar həbs edildilər, bir hissəsi isə Təbrizdən sürgün edildilər. Eyni zamanda dövlət idarələri mərkəzi hökumət nümayəndələrindən tamamilə təmizləndi, Təbrizdə İran dövlətinin Eynüddövlədən başqa nümayəndəsi qalmadı və bütün Azərbaycanda hakimiyyət Xiyabaninin əlinə keçdi. Eyniddövlənin səlahiyyəti isə üsyançılar ttərəfindən o dərəcədə məhdudlaşdırıldı ki, o üsyançılara qarşı istifadə etmək üçün Tehrandan göndərilən pulları /100 min manat/ belə ala bilmədi. Həmin vəsait Xiyabaninin nəzarəti altında olan maliyyə idarəsinin ixtiyarına keçdi və şahzadə bu puldan yalnız aylıq məvacibini çətinliklə ala bildi. Təbrizə üsyançıların öz mövqelərini möhkəmləndirməsi nəticəsində Təbriz üsyanına yüzlərcə təbrik teleqrammı və məktub alırdı. Təbrizə gələn kəndlilərin çoxu İİH-nin təşkil etdiyi Milli qvardiya dəstələrinə yazılırdı. Üsyana qoşulmuş yaxın mahalların əhalisi Təbriz ətrafında istehkamlar tiki rvə səngərlər qazırdılar. Təbrizdə başlanmış üsyan tədricən Cənubi Azərbaycanın başqa mahal və şəhərlərini də əhatə edirdi. Bu üsyanların çoxuna bir qayda olaraq ADP-nin yerli təşkilatları başçılıq edirdi. Təbriz üsyanı zamanı Marağada və Əhərdə də üsyan nəticəsində demokratlar hakimiyyəti ələ almışdılar. 1920-ci ilin iyununda Zəncanda da üsyan olmuş, üsyanın qələbəsi nəticəsində hakimiyyət Məmmədəli Başmaqçının başçılıq etdiyi demokratların əlinə keçmişdi.

Xoy şəhərində də ADP-nin rəhbərliyi altında üsyan başlamış, dövlət məmurları şəhərdən qovulmuş, şəhər və ətraf mahallar üsyançıların əlinə keçmişdi. Ərdəbil vilayətində yarıköçəri həyat sürən şahsevən tayfaları da iyunun 7-də İİH-yə öz tabeliyini bildirmişdi. Ümumiyyətlə, bir çox tayFalar inqilaba tərəfdar çıxdıqlarını bildirmişdilər.

Beləliklə, Təbriz üsyanı ilə kulminasiya nöqtəsinə çatan Milli-azadlıq hərəkatı məhdud və zəif cəhətlərinə baxmayaraq artıq iyunun əvvəllərinə doğru Cənubi Azərbaycan çərçivəsində geniş bir dairəni əhatə edirdi. Təbriz üsyanı zamanı İranın bir çox əyalət və vilayətlərində ingilis imperializmi və şah hakimiyyətinə qarşı milli-azadlıq hərəkətları genişlənməkdə idi. Gilanda, Mazandaranda, Xorasanda, Luristanda, Həmədanda, Qəzvində , İranın Əfqanıstanla sərhəd vilayətlərində və nəhayət ölkənin paytaxtında özünü göstərirdi.

İngilis imperializmi və İranın mürtəce hökümətinə qarşı mübarizədə Gilandakı 1918-1921-ci illər milli-azadlıq hərəkətının yüksək mərhələyə çatması və burada sovet Respublikası yaradılmasının rolu olmuşdur. Qafqazda itirdikləri mövqeyi qaytarmaq cəhdilə ingilis diplomatiyası İranda fəaliyyətini daha da gücləndirmişdi. İngilis imperializmi buradan Bakı üzərinə müdaxilə təşkil etməyə can atırdı. Buna görə də Sovet Rusiyası 1920-ci ilin fevralın 9-da Ənzəli və Rəşt şəhərlərini zəbt edib, ingilislərin Sovetlər üçün həyati əhəmiyyəti olan Bakı neftini ələ keçirmək cəhdlərini qabaqlamaq və eyni zamanda hərbi qüvvələr qanadında «inqilabi ixrac etməklə» İranı da sovetləşdirmək məqsədilə Ənzəliyə Sovet donanmasını göndərdi. Bu qüvvələrə əvvəlcədən Bakıda buradan İranlı qəsbkar fəhlələrdən xüsusi təşkil olunmuş İran Qırmızı Ordusu dəstələri və İran kommunistlərinin böyük bir qruppu daxil idi. 1920-ci il mayın 18-də Sovet qoşunları Ənzəli və Rəştə girdilər. Bakıdan gələn dəstələr yerli inqilabi qüvvələrlə birləşərək gilanda Sovet Respublikası elan etdilər.

İyunun 5-də ticarət burjuaziyasını, xırda və orta mülkədarları təmsil edən Kiçik xanın başçılığı ilə müvəqqəti hökumət və hərbi inqilabi komitə təşkil olundu. Müvəqqəti hökümətin tərkibinə müxtəlif patiya və siyasi qrupların nümayəndələri, o cümlədən İran klmmunistləri də daxil idi. Gilanda hakimiyyətin inqilabi qüvvələr əlində olması İran kommunistlərinin təşkilatı – İran ədalət Partiyasının açıq fəaliyyəti üçün şərait yaratdı. 1920-ci ilin iyunun 22-24-də Ənzəli şəhərində İran kommunistlərinin birinci qurultayı keçirildi. Qurultayda partiyanın məramnamə və nizamnaməsi qəbul olundu, ingilis imperialistləri və İran irticasına qarşı vahid mübarizə cəbhəsi yaratmaq qərara alındı. Buna uyğun olaraq kommunistlər həm Kiçik xanın başçılıq etdiyi müvəqqəti hökumətdə, həm də iyulun 19-da bu hökumət dağıldıqdan sonra anarxist ruhlu xırda burjua ziyalılar qrupunun başçısı Ehsanulla xanın iyulun 31-də Gilanda yaratdığı Milli Komitədə iştirak edirdilər.

İstər Kiçik xanın, istərsə də Ehsanulla xanın başçılıq etdikləri hökumətlərin fəaliyyəti dövründə vahid cəbhəyə daxil olan siyasi qüvvələr arasında bir sıra mühüm məsələlərdə fikir ayrılığı vahid milli qüvvələrinin parçalanmasına səbəb oldu. Gilan hərəkətında rəhbər qüvvələrdən biri olan, həmin qısa dövrdəki hər iki

hökumətdə iştirak edən IKP-dəki Mikaelyanın /Sultanzadə/ başçılıq etdiyi solçu kommunistlər birinci qurultayda seçilmiş MK-da əksəriyyət təşkil edirdi. Onların Gilanda vaxtından əvvəl həyata keçirməyə təşəbbüs etdikləri bir sıra solçu tədbirlər də vahid cəbhənin dağılmasında mühüm rol oynadı. Şərq ölkələrində kommunistlər içərisində güclü solçuluq təmayülü mövcud idi. Bu cəhət siyasi hakimiyyətə yiyələnmək xatirinə vaxtından əvvəl sosialist inqilabi vəzifələrini həyata keçirməyə tələsən, əsasən Gilanda güclü təşkilatı olan İran kommunistlərinin müəyyən hissəsinə də xas idi və hərəkətin müvəffəqiyyətsizliklə nəticələnməsində öz mənfi rolunu oynadı.

İnqilabi hərəkət demək olar ki, bütün İranı əhatə etməkdə idi. İranın mühüm məntəqələrində Təbriz üsyanına açıq hüsn-rəğbət və həmrəylik güclü idi, bəzi hərəkət mərkəzlərindən isə üsyançılara qardaşlıq köməyi, həmkarlıq belə təklif edilirdi.

Təbriz üsyanına həmin dövrdə ölkədə milli-azadlıq hərəkətının mühüm mərkəzlərindən birini təşkil edən,ingilis imperializmi və İranın mürtəce hökumətinə qarşı mübarizədə az-çox rol oynamış Gilanda xüsusi maraq göstərilirdi. Burada respublika elan olunduqdan sonra isə Azərbaycan Demokratları ilə əlaqə yaratmağa səy edildi. Belə ki, Gilanda müvəqqəti hökumət yarandışdan az sonra İİH ilə danışıqlar üçün nümayəndə heyəti göndərildi. danışıqlarda görünür ingilislərə və daxili irticaya qarşı mübarizədə həmkarlıq məsələləri müzakirə edilmişdi. Lakin tezliklə Gilanda inqilabi qüvvələrin parçalanması və iyulun 19-da müvəqqəti hökumətin dağılması Təbrizdəki danışıqların praktiki əhəmiyyətini heçə endirdi. Təbriz üsyanı başçılarında kommunistlərə qarşı yaranmış inamsızlıq Gilan və Cənubi Azərbaycanda eyni vaxtda davam edən hərəkət arasındla əlaqələrin işgüzar şəklə düşməsinə və əsil mənada inqilabi həmkarlıq yaradılmasına mane oldu.

Təbriz üsyanına böyük rəğbət və tərəfdarlıq İranın başqa yerlərində də – Məşhəddə, Xuzistanda və s. mövcud idi. Beləliklə, bir sıra nöqsanlı cəhətlərinə baxmayaraq milli-azadlıq qüvvələrinin ayrı-ayrılıqda qazandığı uğurları, daxili irticaya və imperializmə qarşı mübarizədə müəyyən həmkarlıq təşəbbüsləri İranın hakim dairələrində böyük şaşqınlıq doğurmuşdu. 1920-ci il iyunun 23-də ADP müvəqqəti hakimiyyət orqanı kimi fəaliyyət göstərən İİH əsasında milli hökumət yaratmağı qərara aldı. Xiyabaninin rəisliyi ilə yaranmış Müvəqqəti hökumət /MH/ iyunun 24-də «Təcəddüd» qəzeti redaksiyası binasından üsyandan əvvəl mərkəzi dövlət idarələrinin yerləşdiyi və vəliəhdin iqamətgahı olan binaya – Ala-Qapıya köçürüldü. MH-nin Ala-Qapıya köçürülməsi Təbriz əhalisinin Ümumi bayramına çevrildi. Yerli icraiyyə orqanı olan MH demokratik respublika qaydalarına əsaslanırdı. Xiyabaninin sədrlik etdiyi MH-nın tərkibinə ADP-nin üzvlərindən 20 nəfər daxil idi. MH-nın üzvləri əsasən ticarət burjuaziyasına və ya qismi Xiyabani kimi ticarət burjuaziyası ilə bağlı olan ziyalı təbəqəsinə mənsub idi. MH-nın üzvləri içərisində orta və xırda mülkədarların, ziyalıların, qulluqçuların nümayəndələri də var idi. MH-nın sosial tərkibinin belə rəngarəng olması gələcəkdə onun fəaliyyətində rəy birliyi və ardıcıllığın pozulmasına səbəb oldu, mübarizənin gedişinə və nəticəsinə öz təsirini göstərdi.

Xiyabani MH-nın sədri seçilmişdi, maliyyə işləri də bilavasitə onun nəzarəti altında idi. Digər vəzifələr isə MH-nın aşağıdakı üzvlərinə həvalə olunmuşdu: maarif işlərinə rəislik Əbülqasım Fiyuzata vəqf idarəsi – Məhəmmədhüseyn Səfvətə, qoşun rəisliyi – Müzəffər Ələm Sərdara həvalə olundu.

Bu üsyanın hərəkətverici qüvvələri emalatxanalarda çalışan sənətkar və fəhlələrdən, yoxsullardan, xırda tacirlərdən ibarət idi. Üsyanda ziyalıların, milli burjuaziyanın, liberal mülkədarların, ruhanilərin orta və aşağı təbəqələrinin nümayəndələri və Təbriz mahalının kəndliləri də iştirak edirdilər. Ümumiyyətlə isə kəndlilər üsyana geniş cəlb olunmamışdılar.

MH-nın tərkibində xırda və orta mülkədarların və ruhanilərin də nümayəndələrinin olmasına baxmayaraq hərəkətın rəhbərliyi xırda ticarət burjuaziyasına və ziyalılara məxsus idi. Fəhlə sinfinin formalaşmadığı, orta təbəqələrin hələ şəhərlərdə başlıca sosial qüvvə olduğu Cənubi Azərbaycan və Ümumiyyətlə İran şəraitində bu təbii idi. Bununla belə MH ticarət burjuaziyasının aşağı və orta təbəqələrinin tacirin şəxsiyyəti və xüsusi mülkiyyətin toxunulmazlığının təmini ilə əlaqədar tələb və arzularına ilk növbədə və daha çevikliklə yanaşılırdı. Ticarətlə məşğul olanların şəxsiyyəti və mülkiyyətin pozulmazlığına, azad ticarətə təminat verilir, lakin bununla yanaşı-onlar bu azadlıqdan sui-istifadə etməməyə-qiymətləri artırmamağa çağırırdılar.

Bütövlükdə götürüldükdə isə MH-nin izlədiyi siyasət orta təbəqələrin, o cümlədən milli burjuaziyanın imperialist işğalına qarşı ingilis imperialistlərinin əlaltıları olan İran irticaçılarının ölkədə ağalığına qarşı çevrilən, bir sıra demokratik dəyişikliklər qarşıya qoyan və buna görə də ümumxalq mənafeyinə cavab verən xətti – hərəkət idi. MH milli – azadlıq mübarizəsində barışmaz mövqe tutur, öz demokratik tələblərində isə burjua qanun-qaydaları ilə məhdudlaşmırdı. Məsələ burasındadır ki, İranda, o cümlədən Cənubi Azərbaycanda o dövrdəki tarixi şərait zəhmətkeş kütlələrlə yanaşı istismarçı sinif və təbəqələrin də nümayəndələrinin iştirak etdiyi milli-azadlıq hərəkatı qarşısında bu şəraitdən doğan özünəməxsus vəzifələr qoymuş və bunlar MK-nın fəaliyyətinin məhdudluğunu şərtləndirmişdi. Xiyabani isə dünyagörüşü etibarilə MH-nın irəli sürdüyü sosialoji tələblər səviyyəsindən daha yüksək pillədə duraraq sosialist cəmiyyətinin tələblərindən də danışırdı. Həmin tarixi şəraitdə ingilispərəst Vüsuqüddövlə hökümətinə və onun ingilislərlə bağladığı 1919-cu il sazişinə qarşı üsyanla başlamış bu hərəkatın başçıları dəfələrlə bütün İranın, onun daxili və xarici siyasətinin, dövlət xəzinəsinin, ordunun və s. ingilislərin təsiri altına düşdüyünü göstərməklə bir daha hərəkatın başlıca vəzifəsinin ingilis imperialistlərini ölkədən qovmaq, İranın və o cümlədən Cənubi Azərbaycanın idarəçiliyini xalqın öz əlinə tapşırmaqdan ibarət olduğunu bildirirdilər. İmperialist nüfuzuna qarşı yönəlmiş bu hərəkət eyni zamanda İran irticasına, onun Cənubi Azərbaycana münasibətdə ayrı-seçkilik siyasətinə qarşı çevrilmişdi. Hərəkatın milli-azadlıq cəhəti öz əksini digər tərəfdən imperialistlər qovulduqdan sonra yaradılacaq demokratik İranın tərkibində Azərbaycana muxtariyyat verilməsi uğrunda mübarizədə tapırdı.

Gələcək demokratik quruluşu İran Qacar dövlətinin tərkibində öz muxtar hüquqlarına malik olacaq Cənubi Azərbaycana, onun tələblərinə hərəkət rəhbərlərinin fikrincə xüsusi diqqət verilməli idi.

Bu hərəkət eləcə də burjuaziyanın feodalizmə qarşı mübarizəsi idi. MH-nın istibdadı aradan qaldırmaq, ölkəni feodal pərakəndəliyindən qurtarmaq şüarını irəli sürməsi, iri irticaçı feodallara qarşı mübarizə aparması, şəxsiyyət və xüsusi mülkiyyət toxunulmazlığını elan etməsi, məhdud da olsa aqrar islahat və başqa tədbirlər həyata keçirməyə başlaması hərəkətın eyni zamanda feodalizmə qarşı çevrildiyini göstərirdi.

Beləliklə, hərəkət rəhbərləri imperialistlər qovulduqdan sonra bütün İranda demokratik quruluş yaradılması, İranın mərkəzləşdirilmiş dövlətə çevrilməsi, yaradılacaq gələcək demokratik İranın tərkibində Azərbaycana muxtariyyat verilməsi uğrunda mübarizə aparırdılar. İranda demokratik quruluş yaratmağı irəli sürən üsyan başçılarının fikrincə «Demokratik hakimiyyət» o deməkdir ki, ölkədə xalqın xəbəri və razılığı olmadan heç bir iş baş verməməlidir. Ölkənin daxili və xarici siyasəti xalqın öz əli ilə təyin və həll edilməlidir. Xalq adından bir dekmokrat kimi çıxış edən Xiyabani bütün hakimiyyətin xalqın öz əlində toplanmasını tələb edirdi. Hərəkət başçılarının fikrincə bütün xalqı təmsil edəcək demokratik hökumət İranın müstəqilliyini təmin etməli və möhkəmləndirməli, konstitusiyanın keşiyində durmalı, dərhal islahatlar keçirməyə başlamalı, şəxsi imtiyaz və güzəştləri ləğv etməli, bütün sahibkarlıq ocaqları və idarələrini milliləşdirməli və milli sənaye yaratmalı, ədalət, bərabərlik və azadlığı təmin etməli, məclisə seçilmiş nümayəndələrin əsl xalq təmsilçisi olmasını həyata keçirməli idi. İranın bütün azadlıqsevər qüvvələrini birgə mübarizəyə çağıran Xiyabani İranın gələcək dövlət quruluşunun xalq tərəfindən müəyyən edilməsi üzərində xüsusi dayanırdı.

Hərəkət rəhbərləri üsyanın ilk günlərində mövcud konstitusiyanın bərpası və təkmilləşdirilməsi tələbi irəli sürürdülərsə, deməli konstitusiyalı monarxiya tərəfdarı kimi çıxış edirdilərsə, bir neçə aydan sonra, yəni Azərbaycanda MH yarandıqdan sonra müzakirə şəklində olsa da artıq İranda şahlığın ləğvi məsələsini qoyurdular. Xiyabani İranda gələcəkdə Federasiyalı bir dövlət yaradılmasını nəzərdə tutur və MH-nın təşkilini bu yolda ilk addım sayırdı.

Üsyan və bunun nəticəsində yaranmış MH qarşısında qoyulan vəzifələr imperializmi İrandan xaric etməkdən, azərbaycanlıları hüquqsuz milli vəziyyətdən çıxarmaq və Azərbaycan əyalətinin muxtarlığını təmin etməkdən, eyni zamanda feodalizmi və onun qalıqlarını, o cümlədən istibdadı ləğv etmək və demokratik quruluş – respublika yaratmaq kimi burjua-demokratik inqilablarına xas olan başlıca məqsəd və vəzifələrin həyata keçirilməsindən ibarət idi. Bu o deməkdir ki, hərəkatın milli-azadlıq xarakteri həm ingilis imperializminə, həm də azərbaycanlıların yetişməkdə olan bir millət kimi hüquqlarının tapdalanmasına qarşı çağırışlarda üzə çıxır, feodalizmə, onun qalıqlarına və şah hakimiyyətinə qarşı hücumda, demokratik dəyişikliklər və respublika /hətta Federasiyalı respublika/ tələbində burjua-demokratik inqilabı vəzifələri irəli sürülmüş olurdu. Bununla da gələcək məq-

səd və vəzifələri baxımından hərəkət milli-azadlıq və demokratik hərəkət xarakteri kəsb edərək, milli-demokratik inqilab səviyyəsinə çatırdı.

Müvəqqəti hökumət Cənubi Azərbaycanda bir sıra dəyişikliklər həyata keçirməyə başladı. Milli hökumət ilk növbədə Təbriz əhalisinin həyat şəraitini yaxşılaşdırmaq məqsədi ilə üsyanadək burada hökm sürən qanunsuzluq və özbaşınalığa son qoydu, çoxişlənən malların qiymətini aşağı salaraq, bunlar üzərində sabit qiymət müəyyən etdi, xırda tacir, sənətkar və kəndlilərin vəziyyətini nəzərə alaraq Təbrizdə ətraf kəndlər arasında mal mübadiləsinin yaxşılaşması üçün tədbirlər gördü. Milli hökumət öz nümayəndələrini Təbrizin ətraF kəndlərinə, Urmiya, Əhər, Mərənd və.b. mahallarına göndərdi. Milli hökumət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və s. sahələr üzrə daha mühüm tədbirlər – islahat işləri həyata keçirmək üçün xüsusi komissiyalar yaratdı və komissiyaların hazırladığı islahat layihələrini əsas tutaraq onları qismən həyata keçirməyə başladı. İlk növbədə vergi sistemi və torpaq mülkiyyəti sahəsində islahat keçirmək üçün layihə hazırlandı. Bu layihəyə görə şah hökümətinin kəndlilər üzərinə qoyduğu müxtəlif ağır vergi və mülkələfiyətlər ləğv edilir, yalnız gəlirdən vergi almaq nəzərdə tutulurdu. Komisiyyanın torpaq məsələsinə həsr etdiyi layihədə yalnız xalisə torpaqlarının kəndlilər arasında əvəzsiz olaraq bölünməsi nəzərdə tutulurdu. Əksinə yararlı və münbit torpaqların böyük hissəsini əhatə edən mülkədar torpaqlarının isə demək olar ki, hamısı onların özündə qalırdı. Layihəyə görə kəndli mülkədarlardan torpağı yalnız satın ala bilərdi. Bunun üçün kəndliyə müəyyən edilmiş vaxtda ödəmək şərtilə bankdan borc pul verilməsi nəzərdə tutulurdu. Komissiya vəqf torpaqlarının həmin yolla kəndlilər tərəfindən satın alınmasını nəzərdə tuturdu.

Torpaq islahatı – xalisə torpaqlarının kəndlilərə paylanması Cənubi Azərbaycanın yalnız Ərvənəqənzəb və Azərşah mahallarının bir neçə kəndində həyata keçirildi. Torpaq məsələsini məhdud çərçivədə həll edən milli hökumət su məsələsində daha radikal qərar qəbul etdi. Milli hökumət su mənbələrinin xüsusi şəxslərin əlindən alınıb ümuminin istifadəsinə verilməsini qərara aldı.

Milli hökumət maarif və mədəniyyət məsələsinə böyük əhəmiyyət verirdi. Komissiyanın elm, maarif və mədəniyyət məsələsinə həsr etdiyi islahat layihəsində ibtidai, orta, ali məktəblər və s. mədəniyyət ocaqlarının açılması nəzərdə tutulurdu.

Xiyabani 1918-ci ildə yaranmış «Nəşre maarif cəmiyyəti»nin işində şəxsən və son dərəcə fəal çalışırdı. Xiyabani xalqın savadlanması, xüsusilə, icbari təhsilin həyata keçirilməsi sahəsində çox səy göstərirdi. Üsyan dövründə icbari təhsil sahəsində ilk addım atılmış, Təbrizdə «Məmmədiyyə», «Hikmət» və başqa məktəblər açılmış, yoxsul ailələrin uşaqları üçün pulsuz xüsusi qız məktəbinin əsası qoyulmuşdur. Milli hökumət maarifin inkişafı və həmin məktəblərdə Azərbaycan dilinin və eyni elm sahələrinin tədrisi üçün Zaqafqaziyadan, eləcə də Türkiyədən müəllimlər dəvət etmişdi. Eyni zamanda demokratların Təbrizdə fəaliyyətə başlayan, xeyriyyə teatr cəmiyyətinin tamaşaları genişləndirildi, Təbrizdə idman klubu və s. açıldı.

Teatr cəmiyyətinin binasında konsertlər verilir, şer gecələri keçirilirdi. Təbrizdə eyni zamanda Xiyabaninin təşəbbüsü ilə karnaval təşkil edilmiş və onun gəlirindən 1905-1911-ci illər inqilabı zamanı həlak olmuş inqilabçıların qəbirlərini abadlaşdırmaq üçün istifadə edilmişdir.

Komissiya ölkədə səhiyyə işlərinin olduqca bərbad vəziyyətdə olduğunu nəzərə alaraq, səhiyyə işlərini qaydaya salmaq məqsədilə Təbriz və ümumiyyətlə, Cənubi Azərbaycanın bir sıra vilayətlərində tibbi yardım məntəqələri – xəstəxanalar təşkil etməyi nəzərdə tutmuşdu. Milli hökümətin hakimiyyəti dövründə Təbrizdə 200 çarpayılıq Şir-Xurşid» xəstəxanası təşkil edilmişdi. Kimsəsiz uşaqlar üçün onlara müxtəlif sənətlər öyrədən tərbiyə evi, əlillər və kimsəsiz qocalar üçün 80 çarpayılıq yaşayış evi açılmışdı.

Milli müdafiə qüvvələrinin təşkilinə – 12 min nəfərlik milli qvardiya yaradılmasına başlanıldı. Hələlik silahsız olan bu qüvvələr 1,5 -2 ay müddətində müntəzəm olaraq hər gün Ala-Qapıya polis zabitlərinin təlimi altında hərbi məşq keçirdilər. Milli qvardiya, Xiyabani qvardiyası dörd qrupdan, sətənkar, fəhlə, kəndli və xırda tacir/ ibarət idi.

Milli hökumət eyni zamanda şəhər əhalisindən yeni jandarm və polis dəstələri təşkil etdi və üsyançılara qoşulmuş jandarm dəstələrində nizam-intizam yaratdı. Onların təlimi üçün xüsusi polis məktəbi açıldı. Jandarm və polis işçilərindən ibarət olan həmin silahlı dəstələrin sayı iki min nəfərə yaxın idi. MH-nın silahlı qüvvələrin təşkili sahəsində yol verdiyi nöqsanlardan biri 1890-cı ildə çap zabitlərinin başçılığı ilə yaranmış və ölkədə demokratik qüvvələrə qarşı çevrilən İran kazak briqadasının Təbrizdə yerləşən qarnizonunun tərksilah edilməməsi idi.

Milli hökümətin yaratdığı komissiya poçt, teleqraf, yol, bank, milli sənaye və s. təsərrüfat sahələrini, məhkəmənin vəziyyətini öyrənərək onların təşkil olunması və inkişafı üçün bir sıra tədbirlər müəyyən etdi. Bu tədbirlər qismən olsa da həyata keçirilməyə başlamış, Təbriz-Sərab teleqraf xətti təmir edilmiş, yeni Təbriz Şəbüstər teleqraf xətti çəkilmişdir. Komissiya yeraltı sərvətlərin tədqiqi üçün xüsusi bir heyətin təşkilini nəzərdə tuturdu.

Bunlardan əlavə Təbrizdə xalça fabriki tikilməsinə başlanılmış, şəkər zavodu, toxuculuq və dəri fabrikləri tikilməsi, kənd təsərrüfatı bankı və milli bank açılması, pul islahatı keçirilməsi, şəhər əncüməninə seçkilər aparılması və planlaşdırılmışdı.

Üsyanın qələbəsindən sonra Cənubi Azərbaycan İran dövləti tərkibində ölkənin başqa yerlərindən öz sosial-demokratik qaydaları ilə fərqlənən muxtar bir inzibati vahidə çevrilmişdi. Hökümətin mühüm sahələr – maarif və mədəniyyət, səhiyyə, ədliyyə, vəqf, hərbi işlər və s. üzrə idarə və nazirlikləri yaranmışdı, idarə və müəssisələrə Azadistan adını göstərən yeni lövhələr vurulmuşdu. Onların Azadistan adını əks etdirən öz blankları var idi. Həmin blanklar üzərində İran dövlətinin gerbi /şir-Xurşid/ eynən saxlanılmışdı. 1905-1911-ci illər İran inqilabi dövründə Təbrizdə buraxılmış Səttarxan markaları 1920-ci ildə MH tərəfindən üzərinə «Azadistan» adı, vurulmaqla istifadəyə verilmişdi. Partiya və dövlət idarələrində, mitinq və yığıncaqlarda danışıqlar əvvəldə olduğu kimi Azərbaycan dilində apar-

lırdı. «Təcəddüd» qəzetində Azərbaycan dilində nəşr edilmiş «Yaşasın hürriyyət» rədifli bir mahnı üsyan zamanı milli himn kimi qəbul olunmuşdu. Bütün bunlarla yanaşı rəsmi dilin – kargüzarlığın, mətbuatın fars dilində aparılması və eləcə də Mərkəzi İran dövlətindən, Cənubi Azərbaycana ayrıca büdcə ayrılmasının və azərbaycanlıların mərkəzi dövlət işlərində iştirakının tələb olunması və s. kimi digər faktlar isə azərbaycanlı demokratların İranın dövlət çərçivəsi ilə tam bağlı olmasını bir daha göstərir.

Cənubi Azərbaycanda inqilabın qələbə çalması ingilis imperialistlərinin və İran hökümətinin mənafeyinə aid idi. İngilis hökümətinin müxtəlif kanallarla – diplomatik danışıqlarla, təzyiq yolu ilə inqilabı boğmaq cəhdi baş tutmadıqda daxili əksinqilabi qüvvələrdən istifadə edildi.

Cənubi Azərbaycanın ayrı-ayrı rayonlarında üsyanla məna felləri qəti surətdə toqquşan feodallar və qaragüruhçu dəstə başçıları Tehran hökümətinin göstərişləri ilə MH-yə qarşı yeni qiyamlara başlamışdılar. Onlar kəndliləri qarət edir, üsyan tərəfdarlarını və üsyançılara hüsn-rəğbət bəsləyənləri öldürürdülər. Belə hallar özünü Qaradağda və Marağada xüsusilə göstərirdi. 1905-1911-ci illər İran inqilabı dövründə 1909-1911-ci illərdə Cənubi Azərbaycanda vali olmuş, IDP-nin başçılarından sayılan Müxbirüssəltənə avqustun 16-da 1920-ci ildə Azərbaycana vali təyin edildi.

Sentyabrın ilk günlərində Müxbirüssəltənə Təbrizə daxil oldu. MH onu Təbrizə buraxmamaq, Təbriz və ətrafındakı əksinqilabi qüvvələrlə birləşməsinə imkan verməmək, müqavimət göstərmək əvəzinə onu yalnız Ala-Qapıya buraxmamaq və qarşılamamaqla kifayətləndi. Müxbirüssəltənənin Cənubi Azərbaycana göndərilməsi ərəfəsində Əmir Əhməd, Nəsrullah Yurdçu və başqalarının feodal bandaları İran Qacarlar hökuməti və ingilislərin təhrikilə yenidən üsyançılara qarşı fəaliyyətə başladılar. Lakin Müxbirüssəltənə Təbrizə çatdıqda artıq feodal bandalarının iğtişaşı əsasən yatırılmışdı. Müxbirüssəltənə Təbrizdə olduğu müddətdə Təbrizdə olan kazak qarnizonunun komanda heyətini öz tərəfinə çəkərək birlikdə şəhərə hücum planını hazırladı. Müxbirüssəltənə jandarm dəsiəsinin rəhbəri Mir Hüsyen Haşiminin satın alınmasına nail oldu və mayor Haşimi quldur dəstələri ilə mübarizə aparmaq adı altında silahlı qüvvələri MH-nın razılığı olmadan şəhərdən çıxardı. Beləliklə, üsyançılar hər dəqiqə gözlənilə bilən hücum qarşısında demək olar ki, silahsız qaldılar. Əksinqilabi qüvvələr sentyabrın 12-də üsyançılar üzərinə hücuma keçdilər. ADP-nin silahlı qüvvələrinin ciddi müqavimətinə baxmayaraq əksinqilabi qüvvələr sentyabrın 12-də Ala-Qapını ələ keçirdilər, sentyabrın 14-də isə «Təcəddüd» qəzeti binasını dağıtdılar. Qəhrəmancasına müqavimət göstərən üsyançıların bir çoxu həlak oldu. Müxbirüssəltənə kazaklara demokratların evlərini qarət və talamaqla sərbəst hərəkət etməyə icazə verdi. Xiyabani sentyabrın 14-də kazaklar tərəfindən öldürüldü. İran irticaçıları üsyançılara amansız divan tutdular. Təbrizdə yüzlərlə üsyançının evi yandırıldı, yüzlərlə üsyançı həbs edilərək edam və sürgün edildi. Həbs edilənlər arasında Dadamçı, Gənceyi, Əmir Xizi, Abdullazadə, Nurullah

Yekani və başqaları var idi. Müxbirüs səltənə 300-dən artıq üsyançının ailəsini məhv edərək, onların evini və əmlakını qarət edirdi. Beləliklə, beş aydan artıq davam edən Təbriz üsyanı və bunun ardınca bir neçə yer istisna olmaqla bütün Cənubi Azərbaycandakı hərəkat ingilis imperialistlərinin bilavasitə köməyilə İran irticaçısı tərəfindən yatırılmış oldu. Təbriz üsyanının yatırılmasının bir sıra obyektiv və subyektiv səbəbləri var idi.

Cənubi Azərbaycanda çoxsaylı kəndliləri öz ətrafında birləşdirərək milli azadlıq hərəkatına rəhbərlik edə biləcək ardıcıl inqilabi sinif olan sənaye proletariatı demək olar ki, yox idi. Hərəkəta başçılıq edən xırda burjuaziya və ziyalılar, onları təşkil edən ADP, həmkarlıq etdikləri digər sol təşkilatlara, xüsusilə «Ədalət» partiyasının IKP-nin Təbrizdəki təşkilatlarına sərbəst fəaliyyət imkanı yaradılmamışdı. Düzdür, Təbriz üsyanının həyata keçirilməsində və eləcə də MH-nın bütün mühüm tədbirlərində ADP-nin üzvləri ilə yanaşı digər partiya qruplarının üzvləri mücahidlər, ətalətçilər də fəal iştirak edirdilər. Lakin digər partiya təşkilatlarının nümayəndələri hakimiyyətə buraxılmamışdı. Hakim partiya ADP və MH üzvləri yalnız demokratlardan ibarət idi.

İmperializm elə İran irticasına qarşı vahid mübarizə cəbhəsinin olmaması səbəblərindən danışarkən IPK daxilindəki fikir ayrılığını, partiyanın Təbriz təşkilatı üzvlərinin Təbriz üsyanına və Xiyabaniyə münasibətdə tutduqları solçu mövqeyi də qeyd etmək lazımdır. Cənubi Azərbaycanın bir çox şəhərlərində, o cümlədən Təbrizdə yaranmış kommunist təşkilatları Azərbaycan demokratları ilə sıx əlaqə və lazımi əməkdaşlıq yarada bilmədilər.

ADP və MH-nın sosial tərkibi etibarilə monolit olmaması rəhbərlikdə hərəkət birliyini çətinləşdirirdi, sol cinah radikal dəyişikliklər tələb edirdisə, sağ cinah buna mane olurdu. Xiyabani bir qayda olaraq orta xətt götürməyə çalışdığından həm sol, həm də sağ cinah ayrı-ayrılıqda onun bu mövqeyini bir çox məsələləri onunla razılaşdırmamaq kimi qəbul edirdilər.. Bu vəziyyət, eləcə də hərəkata rəhbərlikdə, MH-nın fəaliyyətində xırda burjuaziya və ziyalıların, bir sözlə, orta təbəqələrin aparıcı rol oynaması hərəkətın taleyinə öz təsiri göstərdi. MH aqrar məsələni inqilabi yolla həll edə və bütün Cənubi Azərbaycanda geniş kəndli kütlələrinin hərəkata cəlb edə bilmədi, bununla da milli-azadlıq hərəkatının burjua-demokratik inqilabına çevrilməsinə şərait yaranmadı. Bunun əksinə olaraq hərəkat başçıları, o cümlədən Xiyabani öz mütərəqqi, bir çox hallarda inqilabi görüşlərilə yanaşı azadlıq uğrunda burjua mübarizəsinə xas olan səbatsızlıq və yarımçıqlıq üzündən geniş xalq hərəkatını düzgün qiymətləndirmirdi. Kütlənin işləri ani və şüursuzdur. Bunlar nagəhan bir zəlzələ kimi peyda olaraq hər şeyi dağıdır və özləri də məhv olurdular». Buradan da Xiyabaninin üsyançıları tələsməməyə və səbrə dəvət etməsi aydın olur. Burada da üsyanın müdafiə taktikası özünü biruzə verirdi ki, bu da hərəkat üçün məğlubiyyət demək idi. MH müdafiə taktikasını seçmişdi.

Üsyanın məğlubiyyət səbəblərindən biri onun İranın digər yerlərində baş vermiş milli-azadlıq hərəkətlarından demək olar ki, təcrid olunmuş vəziyyətdə qalması idi. MH İranın inqilabi hərəkat genişlənən başqa əyalətləri ilə real işgüzar

əlaqə yarada və onlarla imperializm İran irticasına qarşı vahid mübarizə cəbhəsində birləşə bilməmişdi. Xiyabani bütün İrandakı mübarizədə birlik zəruriyyəti fikrini dəfələrlə qeyd etsə də, ölkənin başqa yerlərində genişlənən milli-azadlıq hərəkatlarını lazımi dərəcədə qiymətləndirməmişdi. ADP rəhbərləri əyalətdəki hərəkatı bütün İrandakı azadlıq hərəkatından üstün tutaraq həlledici rolu Azərbaycandakı azadlıq mübarizəsində görmüşlər. Bu isə öz qüvvələrini həddən artıq şişirtməyə və hətta müəyyən mənada siyasi lovğalığa gətirib çıxarırdı. Öz qüvvə və imkanlarını şişirtməmək meyli eynilə üsyan dövründə Xoyda olan Abbasqulubəy Şadlinskinin dəstəsindən istifadə imkanından imtina etməkdə müəyyən rol oynamışdır. Eyni zamanda Xiyabaninin «İranı iranlı azad etməlidir» deməsi də təsadüfi deyildi. Bunun bir sıra səbəbləri var idi. 1918-ci ilin 23 mayında son dərəcə mürəkkəb siyasi vəziyyətin hökm sürdüyü bir şəraitdə yaranan ADP rəhbərliyi şimaldan Denikin təhlükəsi, daha sonra XI Ordunun yaxınlaşması Zaqafqaziyanın özündə azərbaycanlıların kütləvi qırğını ilə müşayiət olunan daşnak təcavüzü ilə qarşılaşmışdı. Bu vəziyyət yenicə doğulmuş respublikanı məhv olmaqdan qorumaq üçün son dərəcə çevik hərəkət etməyə, ən kiçik imkanlardan belə istifadə etməyə vadar edirdi. ADP başçılarının öz varlığını qorumaq naminə əl atdığı vasitələrdən biri qonşu İran dövlətilə müəyyən bir ittifaq və bu konfederasiya əsaslı bir dövlət birliyi yaratmaq planı idi. ADP bununla eyni zamanda iki Azərbaycanın konfederasiya əsaslı bir dövlət tərkibində olacağı məqsədini də güdürdü. Belə bir ittifaqı yaratmazdan əvvəl Tehran, Paris və Bakıda İran rəsmi dairələrilə aparılan danışıqlarda İran Qacarlar hökumətinin vasitəçiliyi ilə ADP-nin Britaniya dövləti ilə İngiltərə-İran sazişi nümunəsində bir bağlaşma əldə etməsi planlaşdırılırdı. Cənubi Azərbaycan demokratlarının mübarizə hədəfi isə həm demokratiyaya zidd siyasət aparan İran hökuməti, həm də bu siyasətin havadarı olan ingilislər idi. Belə halda Xiyabani və tərəfdarlarının ADP-ə rəğbətlə yanaşmasını gözləmək çətindir. Belə vəziyyətdə Xiyabani Bakıda boşeviklərin hakimiyyətə gəlməsini rəğbətlə qarşılamışdı. Lakin az müddətdən sonra rusların Bakıda qəsbkar bir siyasət yeritdiklərini görən, Xiyabaninin dünyagörüşündə dəyişiklik əmələ gəlir, mayın 18-də isə 1920-ci ildə Qırmızı Ordu hissələrinin Ənzəliyə daxil olaraq burada sovet tipli bir rejim yaratması «Sovetlərə qarşı şübhələri getdikcə artan Xiyabaninin qənaətini möhkəmləndirmiş və o, istər ingilis, istər rus olsun, yabançıların İranın daxili işlərinə müdaxiləyə haqqı olmadığını bildirmişdir. Beləliklə, bolşeviklərə müsbət münasibətini dəyişən Xiyabani Abbasqulu ağa Şadlinskinin, həmçinin Ənzəlidən hərbi qüvvə ilə yardım təklifini rədd etmişdir. Bunların ardınca Xiyabani qəti surətdə elan etmişdir ki, «İranı iranlı azad etməlidir». Üsyanın məğlub olmasında MH-nın istər bürokratik aparatında, istərsə də hərbi sahədə rəhbər kadrlarının kifayət qədər olmaması da özünü göstərirdi. Bunun nəticəsindəki rəhbər işlərə bir çox hallarda təsadüfi şəxslər cəlb olunmuşdu. Xüsusilə jandarm dəstələrinin başında təsadüfi şəxslərin durması və İran hökuməti qoşunlarının hücumu zamanı onların düşmən tərəfə keçməsi hərəkatın taleyində fəlakətli rol oynadı. Bundan əlavə MH daxili və xarici irtica

qüvvələrilə mübarizə aparmaq üçün kifayət qədər silahlı xalq qoşunu yaratmadı, təşkil edilmiş dəstələr isə pis silahlanmışdı. MH Təbrizin kənarında yerləşən İran kazak diviziyası hissəsini tərksilah etməməkdə isə böyük səhvə yol verdi.

Bunlardan əlavə MH bir sıra nisbətən kiçik taktiki səhvlər də buraxmışdı. Məsələn, ADP tərkibindəki bəzi sağ ünsürlərin Kəsrəvi-Sultanadə dəstəsi qismən Tehrana sürgün edilməsi düz hərəkət idisə, onlardan bir qisminin Cənubi Azərbaycanın başqa şəhərhərinə sürgün olunması, bununla da həmin ünsürlərə Təbrizdən kənarda fəaliyyət göstərmək üçün imkan yaradılması və ya Ala-Qapıya köçdükdən və MH yarandıqdan sonra siyasi dustaqların aministiya ilə azad edilməsi bu qəbildən olan səhvlər idi.

Bir sıra məhdudiyyətlərinə və nöqsanlarına, məğlub edilməsinə baxmayaraq Təbriz üsyanı Cənubi Azərbaycanda, ümumiyyətlə, İranda xalqların inqilab tarixində parlaq bir dövrü təşkil edir. Üsyan məğlub olsa da, bu hərəkətın Cənubi azərbaycanlıların İranda hökm sürən imperialist ağalığına, irtica özbaşınalığına qarşı və azərbaycanlıların öz milli özümlüyü uğrunda mübarizə tarixində yeri son dərəcə böyükdür. Üsyanın rəhbəri Şeyx Məhəmməd Xiyabaninin şəxsiyyəti Cənubi Azərbaycanda hələ keçən əsrin sonlarından rüşeym halında təzahür edən milli şüurun, millətin inkişaf prosesində xüsusi bir səhifə, xüsusi bir mərhələ təşkil edir. Xiyabani Şərqin bir çox siyasi xadimlərinə eyni cərgədə duran, öz təfəkkürünün, mütərəqqi siyasi və ictimai görüşlərinin genişliyi ilə fərqlənən, dövrünün bir çox inqilabi və siyasi hadisələrinə düzgün qiymət verən bir siyasi xadim idi. Xiyabani İranda yaşayan azərbaycanlıların milli-azadlıq və demokratik hərəkatı tarixində böyük iz buraxmış oldu. Xiyabani nəslindən yeni-yeni mübariz inqilabçılar yetişmişdi. Xiyabaninin ardıcılları üsyan yatırıldıqdan sonra da son dərəcə ağır şəraitdə mübarizə əzmini davam etdirirdilər.

*§ 1. 1920-ci illərin əvvəllərində Azərbaycanda siyasi və sosial iqtisadi vəziyyət. Sovet milli dövlət quruculuğu.*
*§ 2. Azərbaycan SSR yeni iqtisadi siyasətə keçid və bərpa dövründə.*
*§ 3. Azərbaycanda sənayeləşmə və kollektivləşdirmənin həyata keçirilməsi. Inzibati-amirlik sisteminin formalaşması. Kütləvi siyasi repressiyalar.*
*§ 4. Mədəniyyət sahəsində ilk sosialist tədbirləri.*
*§ 5. Cənubi Azərbaycan 1920-1930- cu illərdə.*

## *§ 1.1920-ci illərin əvvəllərində Azərbaycanda siyasi və sosial-iqtisa vəziyyət. Sovet milli dövlət quruculuğu*

Şimali Azərbaycan rus qoşunları tərəfindən işğal edildikdən dərhal sonra ali icraedici və qanunverici orqan – Müvəqqəti inqilab komitəsi yaradıldı (sədr – N.Nərimanov). Aprelin 28 – də bu orqan tərəfindən Xalq Komissarları adı ilə hökumət təşkil edildi. Sədri və xarici işlər komissarları N.Nərimanov olan bu hökumətin tərkibinə Həmid Sultanov, Çingiz İldırım, Əliheydər Qarayev, Qəzənfər Musabəyov, Mirzə Davud Hüseynov və başqaları daxil oldular. M.Ə. Rəsulzadə 1923 – cü ilin yanvarında Stalinə ünvanladığı məktubunda yazırdı: "Hazırda Rusiyada hüsulə gələn hadisələr bundan yüz il əvvəl cərəyan edən hadisələrdən başqa bir şey deyildir. Yüz il əvvəldə olduğu kimi indi də Rusiya müstəmləkələri bir yerə toplamaqdadır...Fəhlənin Azərbaycan və ya Türküstanda diktatura elan etməsinin Moskva diktaturasından başqa bir şey olmadığı günəş kimi aşkardır."

1920-ci il may ayının ortaları üçün Naxçıvan istisna olmaqla Azərbaycanın bütün qəzalarında hakimiyyət sovetlərin əlinə keçdi. Naxçıvanda sovet hakimiyyəti 1920-ci il iyulun 28-də quruldu.

1920-ci il 3 may dekreti ilə Rusiyanın nümunəsində Azərbycanda da qəza, mahal, kənd inqilab komitələri yaradıldı, fəhlə-kəndli milisi, xalq məhkəmələri, fəhlə-kəndli müfəttişliyi və.b. siyasi qurumlar təşkil olundu. 1920-ci il 23 sentyabr dekretinə əsasən kəndlərdə inqilab komitələri ilə yanaşı yerli hakimiyyət orqanı olan yoxsul komitələri də yaradıldı. Onlar 1921-ci ilin yazına kimi fəaliyyət göstərmişdilər.Həmin vaxtdan sonra kəndlərdə də fəhlə-kəndli deputatları sovetləri idarəçiliyinə keçildi. Artıq, bu zaman Azərbaycanda 1400-ə yaxın kənd soveti fəaliyyət göstərirdi.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycan SSR-də qanunverici və icraedici hakimiyyət Azərbaycan İnqilab Komitəsinin əlində cəmləşmişdi. Xalq Komissarlar Soveti daxili işlər və xarici işlər, hərbi-dəniz işləri, ədliyyə və əmək, torpaq, daxili və xarici ticarət, ərzaq, maliyyə, maarif, dövlət nəzarəti, poçt və teleqraf, yollar, səhiyyə xalq komissarlıqlarının fəaliyyətini tənzim edirdi.

İnqilab Komitəsi rejimi möhkəmləndirmək məqsədi ilə bir sıra tədbirlər həyata keçirdi. O, 1920-ci il may ayının 5-də bəy və vəqf torpaqlarının müsadirə edilib ödənişsiz olaraq kəndlilərin istifadəsinə verilməsi barədə dekret verdi. Mayın 9-da Ordu yaradılması və mayın 12-də bütün adların (zadəgan,tacir, meşşan, kəndli və.s. adların, bəy, xan, knyaz, qraf və.b.titulların) və mülkü rütbələrin (müşavirlərin və.s ) ləğv olunması haqqında fərman verildi. Hamı üçün ümumi ad – Azərbaycan Respublikasının vətəndaşı adı müəyyən edildi.

1920-ci il mayın 7-də İnqilab Komitəsi ordunun və donanmanın yenidən təşkili barədə dekret verdi.

1920-ci il mayın 15-də meşələrin,suların və yeraltı sərvətlərin milliləşdirilməsi barədə fərman verildi.

Xalq Maarif Komissarlığının 1920-ci il 15 may tarixli qərarı ilə vicdan azadlığı elan olundu, din dövlət və məktəbdən ayrıldı.

Həmin ayda Fövqəladə Komissiya və Ali İnqilabi Tribunal təsis olundu. İyunun 9- da Fəhlə -Kəndli müfəttişliyi orqanı yaradıldı.

İnqilab Komitəsi 1920-ci il mayın 24-də neft sənayesini, iyunun 6-da Xəzər ticarət donanmasını, iyunun 9-da bankları, iyunun 15-də balıq sənayesini, həmin ilin yayında tütün fabriklərini, sement, şüşə, yağ və sabun zavodlarını, sentyabrda mədənləri və dağ-mədən zavodlarını, noyabrda pambıqtəmizləmə zavodlarını dövlət mülkiyyəti elan etdi.

Milliləşdirilmiş sənayeni idarə etmək üçün 1921-ci ildə Azərbaycan xalq təsərrüfatı Şurası və Dövlət Plan İdarəsi yaradıldı. 1921-ci ilin oktyabrında Dövlət bankı təsis edildi.

"Azərneftkom" yaradıldı. Ona başçılıq V.Lenin tərəfindən hələ 1920-ci ilin yazında Bakıya göndərilmiş A.P. Serebrovskiyə həvalə edildi.

1921-ci il mayın 16-19-da Azərbaycan SSR-in birinci Sovetlər qurultayı toplandı. Qurultay mayın 19-da Azərbaycan SSR-in birinci Konstitusiyasını qəbul etdi. Qurultay Azərbaycan İnqilab Komitəsini ləğv etdi, sovetlər qurultaylararası dövrdə respublikanın ali qanunverici , binagüzarlıq nəzarət orqanı olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsini seçdi. Ali icra hakimiyyəti orqanı olan Azərbaycan SSR Xalq Komissarları Sovetini təşkil etdi. Onun tərkibinə 17 komissarlıq daxil idi. XKS sədri vəzifəsinə Nəriman Nərimanov, MİK-in sədri vəzifəsinə isə Muxtar Hacıyev seçildilər.

Yaradılmış yeni rejim AXC parlamentinin 1920-ci il aprelin 27-də irəli sürdüyü şərtlərə məhəl qoymayaraq, istefa vermiş siyasi və dövlət xadimlərinə divan tutmağa başladı. 1920-1921-ci illərdə AXC rəhbərlərindən F.X. Xoyskini, N.Yusifbəylini, N.B.Ağayevi, C.Behbudovu, X. Rəfibəyovu və onlarla başqalarını qətlə yetirdilər. Hərbiçilərdən 12 general, 27 polkovnik və polkovnik-leytenant, 346 nəfər kapitan öldürüldü. Ümumən,48 min adam qırmızı terrorun qurbanı oldu. M.Ə.Rəsulzadə həbs olundu. Sonradan o, İ.Stalin tərəfindən həbsdən azad olunaraq, Moskvaya aparıldı. 1922-ci ildə o, xaricə mühacirət etdi. Siyasi partiyaların ("Müsavat", "İttihad" (birləşmə), "Əhər" (azadlıq sevən) fəaliyyəti qadağan olundu.

**Sovet rejiminə qarşı müqavimət hərəkatı və üsyanlar.** Hələ 1920-ci il aprelin 27-də C.Cabbarlının dağlı məhəlləsindəki evində M.Ə. Rəsulzadənin sədrliyi ilə keçirilən yığıncaqda sovet irticasına qarşı mübarizə aparmaq üçün gizli fəaliyyət göstərən Müqavimət Komitəsi təşkil olunmuşdu. Komitənin sədri M.Ə.Rəsulzadənin yaxın silahdaşı M.B.Məmmədzadə, katibi isə C.Cabbarlı seçilmişdi. Sabahısı günü " Musavat" partiyasının fövqəladə konfransı keçirilmişdi.Konfransın yeni yaranmış Azərbaycan İnqilab Komitəsinə göndərdiyi müraciətdə göstərilmişdi ki, əgər bolşeviklər vədlərinə sadiq qalaraq, Azərbaycanın müstəqilliyini qoruyub saxlasalar, "Müsavat" partiyası onlara qarşı loyal olacaqdır. Əks təqdirdə isə o, müxalifətə keçəcəkdir.

Müxalifətə keçən "Musavat" və digər partiyalar istiqlal uğrunda geniş gizli fəaliyyət göstərirdilər. Bakı şəhərində və bölgələrdə onun onun yerli təşkilatları fəal siyasi iş aparırdılar. "Musavat"ın təşəbbüsü ilə qeyri-leqal olaraq "İstiqlal" qəzeti nəşr olunurdu. 1923-cü ildə qəzet öz saylarından birində (qəzetin 19 sayı çıxmışdı) nəşr etdirdiyi Bəyannamədə yazmışdı: "Ey türk xalqı! Səni azad edəcək və xoşbəxt yaşadacaq qanlı mübarizəyə bütün qüvvənlə hazırlaş, səni bu mübarizə xilas edəcəkdir! Azərbaycanın istiqlalını bir dəfə qurdun, ikinci dəfə də qurmaq bacarığına maliksən! Düşmənini tanı, milli intibahını yüksəlt, haqq səninlədir!

Yaşasın Azərbaycan istiqlalı! Yaşasın üçrəngli bayrağımız!".

Bu dövrdə "İttihad" partiyası üzvlərindən bir qrupu "Azərbaycan müdafiəyi-islam firqəsi" və "Vətən və ya ölüm!" təşkilatları yaratmışdı. Aprel çevrilişindən sonra Tiflis şəhərinə getmiş F.X.Xoyski də burada Azərbaycan Qurtuluş Komitəsi təşkil etmişdi.

Bu təşkilatlar rejimə qarşı silahlı çıxışların, təxribatların hazırlanması və keçirilməsində mühüm rol oynamışdılar. Onların təşkilatçılığı ilə 1921-ci ilin əvvəllərində Balaxanı neft mədənlərində fəhlələrin tətilləri olmuşdu. Bakı müəssisələrində, ilk növbədə neft mədənlərində təxribat işi aparmaq üçün "Yanar ürək" qrupu yaradılmışdı. Qrup 1921-ci ilin yayında Sabunçu mədənlərində yanğın törətmişdi. 1922-ci ilin aprelində eserlərin Suraxanı mədənlərində törətdikləri yanğın nəticəsində sovet dövlətinə böyük iqtisadi ziyan vurulmuşdu.

Sovet rejiminə qarşı ilk silahlı çıxış 1920-ci il may ayının 23-də Cavanşir qəzasında olmuşdu. Burada yerləşən Nuxa süvari alayı rus hərbi hissəsinə hücum edərək, onu tərksilah etmişdi. Bolşevik istilaçılarına qarşı ən güclü üsyan 1920-ci il mayın 26-31-i arasında Gəncədə olmuşdu. Üsyana Gəncədə və onun ətrafında yerləşən Azərbaycan ordu hissələri başlamışdılar. Üsyanın başlanmasına bəhanə Gəncədə yerləşən Azərbaycan hərbi hissələrinin (3-cü atıcı, 3-cü Nuxa süvari alaylarının və diviziya qərargahının komendant dəstəsinin)komanda heyyətinin XI Qırmızı Ordu qərargahından göndərilmiş zabitlərlə əvəz edilməsi və şəhərin komendantı general Məhəmməd Mirzə Qacarın vəzifəsindən götürülməsi olmuşdu. Üsyana hazırlıqdan xəbər tutan yeni komendantın əmri ilə mayın 25-dən 26-na keçən gecə Azərbaycan Ordusunun əsgərləri postlardan götürülmüş , diviziyanın kazarmaları mühasirəyə alınmışdı. Lakin polkovnik-leytenant Cahangir bəy Ka-

zımbəyovun başçılığı altında 3-cü atıcı alayı üsyana qalxaraq işğalçıların mühasirəsini ləğv etmişdi. Azərbaycan döyüşçüləri şəhərin müsəlman əhalisi yaşayan hissəsində yerləşən Qırmızı Ordu dəstələrini tərksilah edərək, 600 nəfərlik şəxsi heyyətini həbs etmişdilər. Üsyan edən alaya Gəncənin və ətraf kəndlərdə yaşayan müsəlman əhalisi də qoşulmuşdu. Üsyançıların sayı 18 minə çatmışdı.

Üsyana rəhbərlik etmək üçün mayın 26-da tərkibində general Cavad bəy Şıxlinski, general Məhəmməd Mirzə Qacar, polkovnik Cahangir bəy Kazımbəyov və.b olan Hərbi Şura yaradılmışdı. Üsyanın ilk günlərində üsyançılar dəmiryol vağzalını ələ keçirdilər. Onlar mərdliklə şəhəri müdafiə edir,düşmənin hücumlarını rəşadətlə dəf edirdilər. Lakin döyüşə yeni qüvvələr gətirən XI Qırmızı Ordu hissələri mayın 31-də şəhərə girdilər. Fürsətdən istifadə edən ermənilərdə azərbaycanlıları qırmağa başlamışdılar.Onlar xeyli müsəlmanı Ozan məscidinə yığaraq, yandırmışdılar. Qırmızı ordunun əsgərləri üç gün ərzində şəhəri qarət etmişdilər.

Nəhayət, güclü müqavimətə baxmayaraq, mayın 31-də Gəncə şəhəri tam Qırmızı Ordu hissələrinin nəzarətinə keçdi. Gəncə üsyanının yatırılmasında M.Q. Yefremovun komandanlığı altında olan 18-ci süvari və 20-ci atıcı diviziyalarının qoşun hissələri olmazın qəddarlıq göstərmişdilər. Azərbaycan milli ordu əsgərlərindən və dinc əhalidən 13 min adam qətlə yetirilmişdi. Milli ordunun 6 generalı öldürülmüş, 76 nəfər zabit və əsgəri isə Nargin adasına aparılaraq, güllələnmişdi. Qırmızı ordu da xeyli (8800 nəfər) itki vermişdi.

Üsyan yatırıldıqdan sonra minlərlə adam həbs olunmuşdu. Onların arasında heç bir təqsiri olmayan məşhur Azərbaycan generalları S.Mehmandarov və Ə.Şıxlinski də var idi. O zaman Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri olan N.Nərimanovun qətiyyətli səyi sayəsində onlar həbsdən azad olunmuşdular.

Sovet rejiminə qarşı güclü üsyanlardan biri də Qarabağda olmuşdu. Üsyan Qırmızı Ordunun bu bölgədə yerləşən milli ordu hissələrini tərksilah etmək cəhdlərinə qarşı 1920-ci il iyunun 5-də Tərtərdə,Ağdam və Şuşada baş vermiş etiraz çıxışları ilə başlanmışdı. O, tezliklə bütün Qarabağı bürümüşdü. Üsyana bir qrup türk zabit və əsgəri ilə Dağıstandan Şuşa üsyançılarına kömək üçün gəlmiş Nuru paşa rəhbərlik edirdi. Üsyanın əsas qüvvəsini Azərbaycan Milli Ordusunun Qarabağın müxtəlif ərazilərində yerləşən hissələri – Nuxa,Cavanşir Ağdam, Tərtər süvari, Bakı piyada alayları və iki topçu divizionu təşkil edirdi. Onların tərkibində 6 minə qədər zabit və əsgər var idi. Üsyançılar Tərtərdə bir rus alayını darmadağın etmiş, Ağdamda Qırmızı Ordu hissələrini böyük tələfata uğratmışdılar. Şuşa üsyançıları da əzəli Azərbaycan torpağı Dağlıq Qarabağı ələ keçirmək üçün rus ordu hissələri ilə birgə hərəkət edən daşnaklara qarşı mübarizə aparırdılar.

Üsyançılar Qarabağda sovet hakimiyyətini devirərək, Nuru paşanı bölgənin hakimi elan etmişdilər.

Üsyançılarla Qırmızı Ordu hissələri arasında ən dəhşətli döyüşlərdən biri Bərdədən Yevlaxa gedən yolda olmuşdu. Bu döyüşdə Ehsan xan Naxçıvanskinin komandanlığı altında Gəncə üsyançılarına kömək üçün Bərdədən Yevlax istiqamətində hərəkət edən Nuxa süvari alayı böyük rəşadət göstərmişdi. Mühasirədən

çıxan bir qrup döyüşçü Bərdə ətrafında rus hərbi hissələrinə qarşı mətanətlə vuruşmuşdu. Tarixi qaynaqlarda bu “32” lər əfsanəsi kimi xatırlanır.

Sovet rejiminə qarşı 1920-ci ilin yayında Zaqatalada, Şəmkirdə, Dəvəçi və Qusar dairələrində, Zəngəzurun Xanlıq dairəsində kəndlilərin çıxışları olmuşdu.

Zaqatalada üsyan 1920-ci il iyun, ayının 6-da Tala kəndindən başlamışdı. Gəncə və Qarabağdakı üsyançılardan fərqli olaraq,bu üsyanın əsas qüvvəsini əhalidən təşkil olunmuş müqavimət dəstələri təşkil edirdi. Zaqatala şəhəri müqavimət dəstələrinin əlinə keçdikdən sonra, orada olan Azərbaycan ordusunun keşikçi batalyonu zabitləri də onlara qoşulmuşdular. Üsyana peşəkar hərbçi Əhmədiyev və Molla Hafiz Əfəndi başçılıq edirdilər. Üsyançılar iyunun 7-də Qaxı, iyunun 9-da isə Zaqatalanı ələ keçirmişdilər. Onlar, Qumux çayı vadisində gedən döyüşlərdə XI Qırmızı Ordunun hərbi hissələrini ağır məğlubiyyətə uğratmışdılar. Lakin, yeni hərbi qüvvələrin gətirilməsi sayəsində Qırmızı Ordu hissələri iyunun 16-18-də üsyanı yatırmağa müyəssər olmuşdular.

1920-ci ilin yay və payızında Şəmkir qəzasında sovet rejiminə qarşı üsyan olmuşdu.Üsyan əvvəl Müskürlu kəndi ətrafında, sonra isə kəndli Namazın başçılığı ilə Şəmkir ətrafında baş vermişdi. Hər iki üsyan Qırmızı Ordu tərəfindən qəddarlıqla yatırılmışdı.

Sovet rejiminə qarşı ən güclü silahlı çıxışlardan biri də Lənkəran qəzasında olmuşdu. O, 1920-ci ilin may ayında başlayıb 1921-ci ilin payızına kimi davam etmişdi. Üsyana əvvəllər Hüseyn Əfəndi Ramazan və Kərbəlayı Şahverən, sonradan xalq arasında “paşa” ləqəbi ilə məşhur olan türk ordusunun çavuşu Camal bəy başçılıq etmişdi. Üsyan 1921-ci ilin əvvəllərində Qırmızı Ordu hissələri tərəfindən yatırılmışdı. Həmin ilin yayında Astaranı da üsyan bürümüşdü. 1921-ci il oktyabrın əvvəllərində o da yatırılmışdı.

Rejimə qarşı kütləvi silahlı çıxışlardan biri də 1920-ci ildə Bəhlul Əfəndi Behcətin başçılığı ilə Zəngəzur qəzasının Xanlıq dairəsində olmuşdu. Üsyançılar bir müddət dairənin mərkəzi Xanlıq kəndini öz əllərində saxlamışdılar. Bu üsyan da çox amansızlıqla yatırılmışdı.

Bunlardan başqa 1920-1923-cü illərdə Kürdüstan, Cavanşir,Qəbələ, Kürdəmir, Göyçay, Xaçmaz, Ordubad, Şərur və.b qəzalarda da sovet rejiminə qarşı silahlı çıxışlar olmuş, qaçaqçılıq geniş yayılmışdı.

Ümumən, 1924-cü ilə kimi Azərbaycanda sovet hökmranlığına qarşı 60-dan çox silahlı çıxış olmuşdu.

XI Qırmızı Ordu komandanlığının 1921-ci ilin martında Cənubi Qafqaz Respublikalarında vəziyyətə dair mərkəzə verdiyi məlumatlardan birində etiraf olunurdu ki, komitələrin uğursuz fəaliyyəti, batalyon komandirlərinin kobud səhvləri və digər əyintiləri bütün Azərbaycanı da bürüyən silahlı çıxışlara səbəb olmuşdur.

XI Ordu tərəfindən işğal olunduqdan sonra yaradılmış Azərbaycan hökumətinin tərkibi əsasən azərbaycanlılardan ibarət idi. Lakin bu hökumətin hakimiyyəti formal xarakter daşıyırdı. Real hakimiyyət Rusiya kommunist bolşeviklər partiyasının bir hissəsi olan Azərbaycan kommunist bolşeviklər partiyası Mərkəzi komi-

təsinin katibi və Fövqəladə komissiya sədrinin ixtiyarında idi. Bu vəzifələrə isə yalnız Moskvanın nümayəndələri təyin olunurdu. İmperiyanın Azərbaycanda baş canişini vəzifəsini AK(b)PMK – nın birinci katibi müxtəlif illərdə Q.Kaminski (1920-1921), S.Kirov (1921-1926), L.Mirzoyan (1926 - 1929), N.Qikalo (1929-1930), V.Polonski (1930-1933), onlardan sonra isə M.C.Bağırov (1933-1953) tutmuşdur. İşğal olunmuş Azərbaycanda formal dövlət quruculuğu prosesinin ilk mərhələsi 1921 – ci ilin mayın 6-da Bakıda keçirilən I Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən başa çatdırıldı. Qurultay Azərbaycan Mərkəzi İcraiyyə komitəsini "seçdi" (MİK)olkədə ali qanunverici orqan elan olundu.Azərbaycan SSR Xalq Komissarları Soveti (XKC) isə ali icra orqanı kimi fəaliyyət göstərirdi. Azərbaycan SSR Konstitusiyasını qəbul etdi. Konstitusiyada Azərbaycanın Rusiya tərəfindən işğalı "qanuniləşdirildi".

Azərbaycanda inzibati - ərazi dəyişiklikləri dərhal həyata keçirilmədi. 1929-cu ilə dək quberniya – qəza sistemi saxlanıldı. 1929-cu ildə quberniya və qəzalar ləğv edilərək, əvəzində dairə və rayonlar yaradıldı. Əlavə inzibati strukturlara vəsait xərclənməsi imperiyaya sərf eləmədiyinə görə 30-cu illərin əvvəlində dairələr də ləğv edildi, birbaşa Bakıya tabe edilməklə rayonlardan ibarət inzibati bölgü sistemi təşkil edildi.

İlk vaxtlar Azərbaycanda işğal rejimi buraya Moskvanın canişinlərinin göndərilməsi ilə hərbi – iqtisadi ittifaq haqqında müqavilələr vasitəsilə də həyata keçirilirdi. 1920-ci il sentyabrın 30 – da Moskvada RSFSR və Azərbaycan SSR arasında hərbi – iqtisadi ittifaq haqqında müqavilə imzalandı. Müqavilədə deyilirdi ki, Azərbaycan və RSFSR hökumətləri hərbi təşkilat və komandanlığın, xalq təsərrüfatı və xarici ticarət, təchizat orqanlarının, dəmiryol və su nəqliyyatının, poçt – teleqraf idarələrinin, maliyə orqanlarının qısa vaxt ərzində "birləşdirilməsi"ni həyata keçirirlər.

Bu müqavilə mahiyyət etibarilə Azərbaycanın hərbi, təsərrüfat, xarici ticarət, nəqliyyat. Poçt – teleqraf, maliyə orqan və təşkilatlarının Rusiyaya tabe etdirilməsi demək idi. Müqavilənin sonunda göstərilirdi ki, müqavilə imza edildiyi andan qüvvəyə minir və ratifikasiya olunmayacaqdır. Qəribədir ki, Azərbaycanın müstəqilliyini faktiki olaraq ləğv etmiş bu sənəd ratifikasiya olunmadan qüvvəyə minirdi. Azərbaycan SSR bütün sahələrdə müstəqilliyini itirərək Sovet Rusiyasından tam asılı vəziyyətə düşdü.

Sover imperiyası təkcə Azərbaycanın işğal olunması ilə kifayətlənmir, ona Zaqafqaziya və bütün Şərqdə sovetləşdirmə adı altında yeni ərazilər ələ keçirmək üçün dayaq məntəqəsi kimi baxırdı. Bu məqsədlə 1920-ci ilin sentyabrında Bakıda Şərq xalqlarının I qurultayı keçirildi. Qurultayda 37 xalqı təmsil edən 1891 nümayəndə iştirak edirdi. Sovet imperiyası xalqların milli azadlıq hərəkatından, onların müstəqillik meyllərindən sui-istifadə edərək bəzi əraziləri (məsələn, İranı) ilhaq etmək, nisbətən uzaq regionlarda isə özünə münasib siyasi rejimlər yaratmaq niyyətində idi. Bunun üçün qurultay Bakıda daimi fəaliyyət göstərməli olan təbliğat və fəaliyyət Şurası yaratdı. Şuranın tərkibinə M.D.Hüseynov, S.Kirov, F.Ma-

xaradze, N.Nərimanov, A.Nuricanyan, Q.Orconikidze və.b daxil oldular. Şərq siyasətinə xüsusi əhəmiyyət verən sovet Rusiyası bu iş üçün sadiq və bacarıqlı emissarlarını səfərbər etmişdi. Rusiya bolşeviklərinin ciddi cəhdlərinə baxmayaraq qurultay gözlənilən nəticəni vermədi. Qurultayda bir sıra ixtilaflar meydana çıxdı və rus imperialistləri nəzərdə tutduqları vahid hərəkat proqramını Şərq xalqlarına qəbul etdirə bilmədilər. Lakin qurultayın başqa bir nəticəsi kimi Zaqafqaziyanın digər ərazilərinin də işğalı surətləndirildi. 1920-ci il noyabrın 30-da Ermənistan, 1921-ci il fevralın 25-də isə Gürcüstan işğal edildi.

Bütün Zaqafqaziya işğal edildikdən sonra Sovet imperiyası rus çarizminin ənənələrinə sadiq qalaraq, burada regional idarəetmə sistemi yaratdı. Üç müstəmləkənin bir ərazi vahidində birləşdrilməsi onların daha asan və rahat istismar olunması üçün zəruri idi. Üzdəniraq Zaqafqaziya federasiyasının yaradılması 1921-ci ilin iyununda dəmiryol nəqliyyatı və xarici ticarətin birləşdirilməsi ilə başlandı. Bunun ardınca hərbi, təsərrüfat və.s sahələr birləşdirildi. 1922-ci ilin fevralında Tiflisdə Zaqafqaziya kommunistlərinin qurultayı keçirildi və regionda Rusiyanın baş canişini vəzifəsi – RK(b)P Zaqafqaziya Diyar Komitəsinin birinci katibi vəzifəsi təsis olundu. Həmin vəzifəni Q.Orconikidze tutdu. 1922-ci ilin martında Sovet imperiyasının yerli çinovnikləri – Azərbaycan, Gürcüstan və Ermənistan SSR Mərkəzi İcraiyyə komitələrinin nümayəndələri Tiflisdə konfransa toplaşdılar və "Zaqafqaziya respublikalarının federativ ittifaqının " yaradıldığını elan etdilər. Zaqafqaziya federasiyasının yaradılması 1922-ci il dekabrın 4-13-də Bakıda keçirilmiş birinci Zaqafqaziya sovetlər qurultayında Mərkəzi İcraiyyə komitəsini seçdi və Konstitusiyasını qəbul etdi. Heç bir hakimiyyətə malik olmayan bu orqana Moskva N.Nərimanovu sədr təyin etdi. Beləliklə Zaqafqaziya Sovet Sosialist Federativ Respublikaları ittifaqının yaradılması başa çatdı.(ZSSFRİ).

1922-ci ilin dekabrın 30-da SSRİ-nin – Sovet imperiyasının yaradılmasının formal tərəfi də həll edildi.

SSRİ-nin birinci Sovetlər qurultayında Ukrayna, Belorusiya və Zaqafqaziya federasiyası qəti şəkildə imperiyanın tərkibinə daxil edildilər. Azərbaycan SSR imperiyanın əyalətlərindən birinə çevrildi.

Sovet imperiyası yarandığı və Şimali Azərbaycanı işğal etdiyi gündən birinci Pyotrun vəsiyyətlərini həyata keçirərək, Zaqafqaziyada Azərbaycan xalqının mövqeyinin zəiflədilməsinə, ərazinin azaldılmasına yönəldilən siyasət yeritmişdir. Gürcüstan və Ermənistan işğal edildikdən sonra bu siyasət daha kəskin və qəti xarakter aldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə mübahisəli zonalar sayılan 16,6 min kv kilometrlik elliklə azərbaycanlılar yaşayan ərazilərinin yarısı – Borçalı, Qarayazı və Sığnax mahalları Gürcüstanın, digər yarısı isə - İrəvan, İçmədzin, Sürməli, Yeni Bəyazid mahallarının müvafiq hissələri Ermənistanın qurama hökumətlərinə verildi. Bütün bunlar az imiş kimi "rus siyasəti Nəriman bəyin səxavətkar ağzilə iki gün əvvəl müdafiə eylədiyi Zəngəzur ilə Naxçıvan qəzasını təntənəli bir surətdə Ermənistana hədiyyə etdi." Zəngəzuru xilas etmək mümkün olmadı. 7 min kv kilometrlik Zəngəzur mahalının 4.5 min kv kilometri Sisian, Gorus, Qa-

fan, Mehri Ermənistana verildi, yalnız 2.5 min kv kilometri Laçın, Qubadlı, Zəngilan Azərbaycan ərazisində qaldı. Verilmiş ərazidə yaşayan azərbaycanlılar ikiqat rus-erməni zülmünə məruz qalaraq, 70 il ərzində dəhşətli məşəqqətlərə dözməli oldular və ən nəhayətdə tarixi torpaqlarıdan qovuldular. Zəngəzurun və digər ərazilərin ermənilərə və gürcülərə verilməsi Sovet imperiyasının Zaqafqaziyada azərbaycanlılara, həmçinin də qonşu müsəlman dövlətlərinə qarşı əlverişli hərbi siyasi meydan yaratmaq niyyətindən irəli gəlirdi.

Naxçıvan məsələsi isə yalniz Türkiyənin işə qarışması nəticəsində müsbət həll olundu. Onun təklifi və tələbi qarşısında Moskva danışıqlara getməyə məcbur oldu. Danışıqlar nəticəsində iki mühüm müqavilə imzalandı. 1921- ci il martın 16-da Moskva şəhərində Türkiyə ilə RSFSR arasında bağlanan müqavilə və 1921-ci il oktyabrın 13-də Qars şəhərində RSFSR-nin iştirakı ilə Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasinda bağlanmış dostluq müqaviləsi əsasında Naxçıvanın müqəddəratı müəyyən edildi. Türkiyə - Rusiya müqaviləsinin 3 – cü bəndində göstərildi ki, danışıq aparan hər iki tərəf razıdır: Naxçıvan vilayəti bu müqavilənin birinci əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın tərkibində (himayəsində) muxtar əraziyə malikdir, bu şərtlə ki Azərbaycan onun protektoratını üçüncü dövlətə verməsin. Türkiyə - Rusiya müqaviləsinin birinci əlavəsində, Qars müqaviləsinin isə beşinci maddəsi və üçüncü əlavəsinə görə üçbucaqlı zona təşkil edən Naxçıvan ərazisi Urmiya kəndindən başlayan düz xətlə Arazdayan stansiyasının (Ermənistan SSR-yə qalmaqla), yenə düz xətlə qərbi Daşburun dağından keçib Cəhənnəm dərəsi ilə bulaqdan keçib suayrıcı xətt üzrə Bağırsaq dağından, keçmiş İrəvan dairəsi və Şərur Dərələyaz qəzasının inzibati sərhəddi boyunca Kömürlü dağa və oradan Sayat dağı, Qurd – Qulaq kəndi ilə Qəməsər dağına, Külgü dağa və bundan sonra keçmiş Naxçıvan dairəsinin şərqi inzibatı sərhədi daxilində müəyyən edildi. Beləliklə hər iki müqavilə Naxçıvanın ərazisi, sərhədləri çox dəqiqi coğrafi yerlərin adları və hüdudlarına istinad edilməklə göstərilmişdir. Məcburiyyət qarşısında müqaviləni imzalamış imperiya rəhbərləri hər cəhdlə həm Moskva, həm Qars müqavilələrinin şərtlərinin yerinə yetirilməsini ləngidir, Naxçıvanın ərazisini heç olmasa kiçiltməyə çalışırdılar. Müqavilələrdə Naxçıvana muxtariyyət verilməsi məsələsinə dair razılıq əldə edilməsinə baxmayraq, bu iş yubadıldı və yalnız 1924-cü ilin fevralında Naxçıvan Muxtar Sovet Sosialist respublikası yaradıldı. Bir neçə il sonra isə onun ərazi bütövlüyünə qəsd edildi. Zaqafqaziya MİK – nin Rəyasət heyəti 1929-cu il 18 fevral tarixli qərarı ilə 1921-ci il Qars müqaviləsində əsas tərəflərdən biri olan Türkiyə Respublikasının razılığı və iştirakı olmadan Naxçıvan muxtar respublikasının 657 kv metr sahəsi olan Qaravan, Qurd-Qulaq, Oğbin, Ağxaç, Almalı, Dağ Almalı, İtqıran, Sultanbəy kəndləri və Kilit kəndinin bir hissədini kəsib Ermənistana verdi. Formal muxtariyyət statusuna malik olan Naxçıvan respublikasının nəinki "rəsmi" razılığı alınmadı, heç həmin kəndlərdə yalnız azərbaycanlıların yaşamasına da əhəmiyyət verilmədi.

Sovet imperiyası Zaqafqaziyada ermənilərin mövqeyini gücləndirmək üçün Qarabağın dağlıq hissəsini də onlara verməyə cəhd etdi. Məlum məqsədlərlə ortaya

atılmış Qarabağın dağlıq hissəsi haqqında məsələ yerli erməni əhalisi tərəfindən qəti etirazla qarşılandı. Bu etiraz həmin dövrdə Moskvanın Mikoyan, Orconikidze, Nuricanyan və başqaları kimi inanılmış partiya işçilərinin mərkəzə göndərdikləri sənədlərdə də öz əksini tapır. 1920 – ci ilin mayında Anastas Mikoyan Leninə yazdığı məruzədə ermənilərin Qarabağın hər hansı bir hissəsinə qarşı irəli sürdükləri iddiyaya qarşı çıxırdı. Mikoyan təsdiq edirdi ki, Qarabağın Yerevanla heç bir tarixi bağlılığı yoxdur, onu Bakıdan ayırmaq olmaz. O, Bakını Qarabağ üçün "həyat məxəzi" adlandıraraq göstərirdi ki, erməni kəndliləri Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsinin əlehinə çıxış edirlər. Həmin ilin iyununda Q.Orconikidze də Q.Çiçerinə göndərdiyi teleqramında bildirirdi ki, Qarabağ və Zəngəzur özlərini Azərbaycan Sovet Sosialist Respublikasının tərkib hissəsi hesab edirlər. Nərimanov, Mdivani, Mikoyan və Nuricanyan tərəfindən imzalanmış başqa bir teleqramda göstərilirdi ki, Zəngəzur və Qarabağ heç bir halda mübahisəli ərazi ola bilməz və bu yerlər həmişəlik Azərbaycanın tərkibində qalmalıdırlar. Moskvaya göndərilən bele məzmunlu teleqramlar, məlumatlar, məruzələr külli miqdarda idi. Onların məzmunu Qarabağın erməni əhalisinin əhval-ruhiyyəsini və mövqeyini obyektiv əks etdirirdi. Lakin imperiya liderlərinin fikri başqa idi. Çiçerin 1920-cu ilin iyununda Leninə yazdığı məktubunda Nərimanovu "müsəlman meyllərinə himayə etməkdə" ittiham edirdi. Başqa bir məktubunda isə yazırdı:"Qarabağ qədimi erməni torpağıdır." Bu, işğalçı rus və ümumxristian siyasətinin açıq aşkar təzahürü idi. Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi işinə Azərbaycanda S.Kirov başçılıq edirdi. Bu ideya ilk dəfə məhz onun tərəfindən otaya atıldı. Azərbaycanın xeyli hissəsinin Ermənistana və Gürcüstana verilməsi ilə inqilab eyforiyasından tədricən uzaqlaşan N.Nərimanov bu məsələdə qəti mövqe tutmuşdu.

Bele bir şəraitdə 1921-ci il iyulun 4-də RK(b)P Qafqaz bürosunun iclasında Qarabağ məsələsinə baxıldı. İclasda Stalin Qafbüronun üzvlərindən Orconikidze. Maxaradze, Nərimanov, Myasnikyan, Kirov, Naaretyan və Fiqatner iştirak edirdilər. N.Nərimanovun Qarabağın dağlıq hissəsinin Azərbaycanın tərkib hissəsində saxlanılması və bu məsələyə dair bütün Qarabağda sorğu keçirilməsi haqqında təklifləri Kirov – Myasnikyan qrupunun ciddi müqaviməti ilə rastlaşaraq keçmədi. İclas bu ərazinin Ermənistana verilməsi haqqında 3 səsə qarşı(Nərimanov, Maxaradze, Nazaretyan) 4 səslə (Kirov, Orconikidze, Myasnikyan, Fiqatner) qərar qəbul etdi. Maraqlıdır ki, Nazaretyan məsələyə düzgün qiymət verərək, Qarabağın Azərbaycandan ayrılmasına etiraz etdiyi halda, bir neçə ay əvvəl Qarabağın dağlıq hissəsinin Azərbaycana mənsub olduğunu qəti şəkildə müdafiə edən Orcoikidze Moskvanın göstərişlərini sədaqətlə yerinə yetirərək, öz mövqeyini büs-bütün dəyişmişdi. Nərimanovun ciddi müqavimətindən və bəyanatından sonra iclas məsələnin tam həll olunmasını təxirə saldı.Ertəsi gün Qafbüronun iclasında məsələyə yenidən baxıldı. Kirov – Myasnikyan qrupu ehtiyat variantı işə saldı. Onların təklifi ilə Dağlıq Qarabağın muxtar vilayətə çevrilməsi və Azərbaycan SSR – in tərkibində qalması haqqında yenə də 3 səsə qarşı 4 səslə qəbul edildi. N.Nərimanov qərar qəbul edildikdən sonra da onun həyata keçirilməsinə müqavimət göstərirdi. O, 1921-ci il iyulun 19-da Azərbaycan Mərkəzi İcraiyyə komitəsinin iclasında et-

diyi məruzəsində əsaslandırırdı ki, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğuna və konstitusiya çərçivəsində İcraiyyə komitəsi vasitəsilə daxili idarəetmə hüququna malik olduğuna görə burada ayrıca inzibati vahid yaratmağa ehtiyac yoxdur. Lakin imperiyanın Azərbaycandakı baş canişini S.Kirov torpaq, hərbi və dəniz komissarlarının bu məsələ ilə məşğul olan komissiyasını təşkil etmək qərarına gəldi. Bu komissiya Dağlıq Qarabağ muxtariyyətinin sərhədlərini müəyyən etməli idi.

1922 – ci ilin dekabrında Azərbaycan K(b)P Mərkəzi Komitəsi S.Kirov, Mirzəbekyan və Armenak Qaragözövdan ibarət Qarabağ məsələsi üzrə mərkəz komissiya təşkil etdi. Eyni zamanda A. Qaragözovun başçılığı altında 7 nəfərdən ibarət işçi komisiyya Azərbaycanın yaradıldı. Tərkibində azərbaycanlı olmayan bu komissiya Azərbaycanın bir hissəsinin taleyini həll etdi. Komissiya 6 aydan sonra öz qərarını AK(b)P Mərkəzi Komitəsinə təqdim etdi: Qarabağın dağlıq və bir qədər də aran hissəsi inzibatı bölgü kimi qəbul edilsin. On gün sonra AK(b)PMK Azərbaycan Mərkəzi İcraiyyə komitəsinə göstəriş verdi ki, Qarabağ muxtar vilayəti yaradılsın. 1923 – cü il 7 iyul dekreti ilə Dağlıq Qarabağ vilayəti yaradıldı. Vilayər 1937 – ci DQMV adlandırıldı. İmperiya siyasəti məqsədinə tam nail ola bilmədi, lakin əvəzində Azərbaycanda nifaq ocağı yarada bildi. Rus – erməni planının növbəti mərhələsi həyata keçirildi. Dağlıq Qarabağ vilayəti Azərbaycanın daxildən dağılması üçün plasdarm rolunu oynamalı idi.

### *§ 2. Azərbaycan SSR yeni iqtisadi siyasətə keçid və bərpa dövründə*

Sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər Azərbaycanda da sosializm ideyalarını gerçəkləşdirməyə başladılar. Onlardan Q.N.Kaminski, S.M.Kirov, L.Mirzoyan, Ə.H.Qarayev, M.D.Hüseynov, R.Axundv və b, başda olmaqla bir qrupu V.Leninin və N.Nərimanovun sovet quruculuğunda yerli,milli şəraiti, adət-ənənələri və dəyərləri nəzərə almaq məsləhətlərinə məhəl qoymayaraq Rusiya təcrübəsini eyni ilə Azərbaycanda həyata keçirməyə çalışırdılar. Bir sözlə, Azərbaycanda Rusiya sovet modelini yaratmaq xətti yeridirdilər. Onlar 1920-ci ilin payızında (sentyabr) məhdud və qısa müddətə olsa da Rusiyanın 1918-1920-ci illər təcrübəsi olan hərbi kommunizm siyasətinə aid bir sıra tədbirlər həyata keçirdilər. Ərzaq saplağını,"işləməyən dişləməz " devizi altında ümumi əmək mükəlləfiyyəti, ərzaq payının verilməsi (kartoçka sistemi) tədbirlərini tətbiq etdilər. Bu tədbirlər Azərbaycan kəndlilərinin vəziyyətini ağırlaşdırdı. Ona görə də Quba və Cavad qəzaları istisna olunmaqla bütün digər bölgələrdə ərzaq tədarükü dayandırıldı.

1921-ci ilin yazından etibarən rəsmən Yeni İqtisadi Siyasətə keçildi. 1921-ci il mayın 17-də İnqilab Komitəsinin dekreti ilə ərzaq saplağı ləğv olundu. Bu, Azərbaycanda da Yeni iqtisadi Siyasətə (YİS) keçməkdə ilk addım idi. Lakin, kəndlilərin vəziyyətinin ağırlığı Azərbaycanda ərzaq vergisinin tətbiqinə imkan vermədi. O, 1922-ci ilin yazına kimi ləngidildi. Kəndlilər YİS dövründə ərzaq vergisi əvəzinə könüllü məhsul rüsumu olan "çanaq vergisi" ödəməyə başladılar. Bir çanaq 20 girvənkə (8kq) idi.

1922-ci il martın 5-də kənd təsərrüfatı məhsulu vergisi barədə qanun qəbul olundu. Bundan sonra Azərbaycanda da ərzaq vergisi tətbiq edilməyə başladı. Beləliklə, Azərbaycanda da əməli olaraq, yeni iqtisadi siyasətə keçildi.

Yeni iqtisadi siyasət hakim mövqelərin dövlətin əlində qalması şərti ilə ticarət azadlığına yol verilməsini, icarə sisteminin, bank və kredit şəbəkəsinin, müştərək müəssisələrin yaradılmasını, kooperasiyanın inkişafını nəzərdə tuturdu.

Yeni iqtisadi siyasətin nəticəsi olaraq Azərbaycanda da müəyyən iqtisadi yüksəlişə nail olundu. 1921-1925- ci illərdə neft hasilatı təqribən iki dəfə artdı. O, müharibədən əvvəlki səviyyəsinin 64 faizini təşkil etdi. 1923-cü ilin yayında Bibiheybət rayonunda dərin nasosla işləyən ilk quyu istifadəyə verildi. Qazma dəzgahlarının elektriklə işlədilməsi artdı (65 faiz idi). Mexaniki emalatxanalar əsasında Şmidt adına (indiki Səttarxan adına) neftmaşınqayırma zavodu işə salındı. Bir sıra sənaye sahələri, o cümlədən "Qırmızı Oktyabr" tütün, Volodarski adına tikiş fabriki yardıldı, Gəncədə, Ləkidə, Ucarda, Salyanda pambıqtəmizləmə zavodları bərpa olundu.

Xarici neft şirkətləri ilə əlaqələr yaradıldı."Azneft" "Standart Oyl" neft şirkəti ilə əlaqə, London, Paris, Nyu-York və digər şəhərlərdə nümayəndəliyini yaratdı.

Sənaye istehsalında sosialist bölməsinin yeri yüksəldi. Respublika sənayesinin ümumi məhsulunda sosialist (dövlət) bölməsinin xüsusi çəkisi 85.5 faiz təşkil etdi. 1924-1925-ci təsərrüfat ilində dövlət və kooperativ sənayesinin payı 93.5 faiz səviyyəsinə çatdı.

Kənd təsərrüfatının bərpası, əsasən, başa çatdırıldı. Heyvandarlıq məhsullarının dəyəri təqribən 1914-cü il səviyyəsinə çatdırıldı (94 faiz). Kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfə artdı. Ortabablaşma prosesi gücləndi. Kooperasiyanın şəbəkəsi yüksəldi. 1925-ci ildə 227 istehlak kooperasiysı, 11 sovxoz fəaliyyət göstərirdi.

1924-cü ildə Bakıda köhnə konka əvəzində ilk tramvay işə salındı.

Bu nailiyyətlər xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulması üçün zəmin oldu.

1925-ci ilə Azərbaycanda xalq təsərrüfatının bərpası əsasən başa çatdı. Sənaye və kənd təsərrüfatının müxtəlif sahələri dağınıqlıq və pərakəndəlik aradan qaldırılmış, I dünya müharibəsindən əvvəlki səviyyəyə yaxınlaşılmış, bir sıra sahələrdə bu səviyyə ötülüb keçilmişdi. Azərbaycan bu cəhətdən SSRI-nin qabaqcıl regionlarından birinə çevrilmişdi.

Bərpa dövrü başa çatdıqdan, yeni iqtisadi siyasət şəraitində iqtisadiyyatda dağınıqlıq aradan qaldırılandan sonra Sovet dövləti sosialist iqtisadiyyatının əsaslarını yaratmaq istiqamətində yeni addımlar müəyyən etdi.

### *§ 3.Azərbaycanda sənayeləşmə və kollektivləşdirmənin həyata keçirilməsi*

**İnzibati amirlik sisteminin formalaşması.** 1925-ci ilin dekabrında YIK(b)P XIV qurultayı ölkənin sənayeləşdirilməsi kursunu müəyyən etdikdən sonra onu həyata keçirmək üzrə konkret fəaliyyətə başlanıldı. 1926-cı ilin fevra-

lında Azərbaycanda da sənayeləşdirmə üzrə komissiya yaradılır. Onun tərkibinə D.Bünyadzadə, L.Mirzoyan, Q.Musabəyov (sədr), H.Sultanov daxil olur.

Azərbaycan hələ Oktyabr inqilabına qədər, həm də ondan sonra Rusiyanın iqtisadiyyatında mühüm rol oynamışdır və bunun barəsində həmin dövrlərin tarixindən danışılarkən qeyd edilir. Yalnız onu bir daha nəzərə çatdırmaq lazımdır ki, Azərbaycanın maddi sərvətləri, onun sənaye və kənd təsərrüfatı həmişə ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb etdiyi kimi, SSRI-nin sənayeləşməsi məsələsi də ortalığa atılanda bu respublikanın həmin proseslərdə yeri daha aşkar şəkildə özünü büruzə verir. Keçmiş Rusiyanın və yeni yaradılmış Sovet İttifaqqının başlıca sənaye (bazalarından) mərkəzlərindən biri kimi Azərbaycan sənayeləşmənin kolllegial regionlarından biri olur.

Məlumdur ki, SSRİ-də sənayeləşdirmə özünün bir sıra cəhətlərinə görə; həyata keçirilmə müddəti, mənbələri, hansı sahələrin birinci növbədə sənayeləşdirilməsi və s. – dünyanın başqa ölkələrində olduğundan əhəmiyyətli dərəcədə fərqlənirdi.

Birincisi, sənayeləşdirmə üçün çox qısa vaxt təyin edilmişdi. Ən qısa müddətdə sənayenin əsaslarını yaratmaq, başlıca kapitalist ölkələri səviyyəsinə yaxınlaşmaq nəzərdə tutulurdu ki, bunun da ağarlığı zəhmətkeş əhali üzərinə düşürdü. Primitiv texnika ilə işləyən sovet fəhlələri, o cümlədən Azərbaycan əməkçiləri gecəsini gündüzünə qatıb çalışır, ən az əmək haqqı, ən ağır məişət şəraitində «işıqlı gələcək» arzusu ilə çalışırdı. Baraklarda, mədənətrafı qəsəbələrdə yaşayan Bakı neftçiləri yeni-yeni neft mədənlərini mənimsəyir, zavod və fabrikləri genişləndirirdilər.

İkincisi, Sovet dövləti sənayeləşdirmə üçün xaricdən kreditlər ala bilmədiyindən bu iş daxili ehtiyatlar hesabına həyata keçirilirdi. YIS Azərbaycanda yarımçıq tətbiq olunduğu, xarici komissiyaların neft sənayesinə demək olar ki, buraxılmadığı üçün sənayeləşmənin ağırlığı əhalinin üzərinə düşürdü.

Üçüncüsü, sənayeləşdirmə prosesi bütün dünyada olduğu kimi yüngül sənayedən deyil, ağır sənayedən başlanılırdı ki, bunun özü çox böyük çətinliklər törədirdi.

Ağır sənayenin başlıca sahələrindən biri olan Bakı neft sənayesinə xüsusi diqqət yetirilir, onun yenidən qurulmasına, texniki cəhətdən təmin edilməsinə ümumittifaq dövləti səviyyəsində nəzarət edilirdi.

Sənayeləşdirmə prosesi başlayarkən bir sıra sənaye sahələrində bərpa işi hələ ki, başa çatmamışdı. Neft çıxarma, metal emalı, ipəkçilik sahələrində müharibədən əvvəlki səviyyə əldə edilməmişdi. Respublika miqyasında işsizlik bir sosial bəla kimi qalırdı. 1926-cı ildə işsizlərin sayı Bakı şəhərində 22 mindən çox, respublikada bütövlükdə isə 32 min nəfərdən çox idi. Sənayeləşdirmə dövründə mədənlərin, zavod və fabriklərin texniki cəhətdən yenidən qurularaq genişləndirilməsi, yeni sənaye müəssisələrinin yaradılması mövcud işsizliyin azalması istiqamətində təmayülünə kömək edirdi.

Sənayeləşmənin elə ilk illərindən yeni Nuxa neft mədənində ilk quyu məhsul verməyə başlayır. 1928-ci ildə Quraçuxurda yeni mədən istifadəyə verilir. Mədənlərdə yeni neft çıxarılması metodlarının və yeni texnikanın, elektrik maşınlarının tətbiqi sənaye üçün çox vacib olan yanacaq çıxarılmasını artırmağa imkan

verir. Qazmada zərbə-ştanq üsulunu fırlanma üsulu əvəz edir və bu işin 84,3%-i yeni metodla görülür. Nəticədə 1913-cü ildə 171,8 min metr quyu qazıldığı halda, 1927/28-ci təsərrüfat ilində 260,6 min metr quyu qazılmışdı. Buxar maşınları elektrik maşınları ilə əvəz edilir. Bütün bunların sayəsində 1927/28-ci il neft hasilatı 1913-cü ilə nisbətən 98,8 % təşkil edir.1928-ci ildə 7657 ton neft çıxarılır.

Bu illərdə neft sənayesinin xarici texnikadan asılılığını aradan qaldırmaq üçün Bakıda neft-maşınqayırma müəssisələri genişləndirilir. Keçmiş mexaniki zavodların binasında yeni texnika istehsalı nizama salınır. 1929-cu ildən bu zavodlarda k/çetinq qurğularının istehsalı mənimsənilir. Suraxanıdakı mexaniki zavodu yeni tip dərinlik nasosları buraxmağa başlayır. L.Şmidt adına zavod bu sahədə xüsusi fərqlənirdi.

Neftayırma sənayesində benzin, sürtgü yağları istehsalı ön plana çıxır.

Neft sənayesindən başqa sənayenin inkişafında da irəliləyiş hiss olunurdu. Bakının və digər sənaye mərkəzlərinin müəssisələri yenidən qurulur, yeni zavod və fabriklər işə salınırdı. Bakıda toxuculuq fabriki, tütün fabriki, gön-dəri emalı fabriki, Şəkidə ipəkçilik fabrikləri texniki cəhətdən yenidən qurulur, xırda müəssisələr birləşdirilərək iriləşdirilirdi.

Azərbaycanın qəzalarında sənaye mərkəzləri möhkəmlənir. Gəncədə toxuculuq kombinatı və pambıqtəmizləmə zavodu, Şəki və Qarabağda ipəkçilik müəssisələri, Lənkəran və Ordubadda konserv zavodları tikilib işə salınır. Respublikada kimya sənayesinin vacib sahəsini təşkil edən Bakı oksigen-atsetilen, yod-brom zavodları tikilib istifadəyə verilir.

Elektrikləşdirmə sahəsində xeyli əhəmiyyətli işlər görülmüşdü. 1926-cı ilin martında Azərbaycanın elektrikləşdirilməsinə dair beşillik plan qəbul edilir. 1927-28-ci təsərrüfat ilində Salyan və Şəmkirdə istilik elektrik stansiyaları, 1 nömrəli Nuxa SES işə salınır, həmin il Aşağı Zurnabad, Xankəndi və Zakatala su elektrik stansiyalarının tikintisinə başlanılır.

Nəticədə Azərbaycanda sənayenin əsas fondları 1925-1928-ci illər ərzində 75% artmışdı. 1928-ci ildə sənayenin ümumi məhsulu müharibədən əvvəlki səviyyəyə nisbətən 1,3 dəfə, 1925-ci ilə nisbətən isə 23% artmışdı.

Azərbaycanda sənayeləşdirmənin həyata keçirilməsi respublikanın sosial strukturunda da öz təsirini göstərirdi. Fəhlələrin sayı 1928-ci ildə 200 mindən artıq olmuşdu. Bu göstərici ümumilikdə götürdükdə Bakıya nisbətən qəzalarda daha yüksək idi.

1927-28-ci təsərrüfat ilindən etibarən SSRİ-də dövlətin möhkəmlənməsi, iqtisadiyyatın idarə edilməsində dövlətin imkanlarının genişlənməsi ilə əlaqədar olaraq qeyri sosialist ukladlarının sıxışdırılması prosesi güclənir. YIS dövründə sənayedə azad sahibkarlığın inkişafına, habelə xarici firmaların fəaliyyətinə müəyyən imkan verilirdisə, bu vaxtdan onların tədricən aradan götürülməsi sürətlənir. Düzdür, hələ YIS dövründə Azərbaycan iqtisadiyyatında xüsusi sektorun payı o qədər çox deyildi. 1928-ci ildə sənayedə sosialist sektorunun payı 90,6% təşkil edirdi.

Xüsusi sektor hər vasitə ilə məhdudlaşdırılır, onlar üçün müxtəlif inzibati maneələr qoyulurdu.

Kənddə kollektivləşmə kursu qəbul edilməsi və xüsusi təsərrüfatların sıxışdırılması ilə yanaşı sənayedə də I beşillik plan qəbul edilir. Burada da xüsusi sektor üzərinə hücum həyata keçilir. Həmin dövrdən etibarən YIS prinsiplərindən imtina edilməsi, iqtisadiyyatda, o cümlədən, sənayenin idarə edilməsində inzibati amirlik sisteminin hökmranlığının tam bərqərar olmasının başa çatması ölkənin iqtisadi inkişafında yeni mərhələnin başlaması demək idi.

Hazırda bütün SSRİ miqyasında sənaye və kənd təsərrüfatında inzibati amirlik sisteminin bərqərar olması, müxtəlif səbəblərlə izah edilir, bu prosesi bu və ya digər amillərlə bəzən hətta ayrı-ayrı ictimai-siyasi xadimlərin şəxsi keyfiyyətləri və digər subyektiv təsirlərlə bağlayırlar. Lakin bizə elə gəlir ki, bu cür izahlar birtərəfli xarakter daşıyır və məsələnin mahiyyətini dərk etməyə imkan vermir. İş ondadır ki, inzibati amirlik sisteminin bərqərar olmasında əsas səbəbi ayrı-ayrı amillərin təsirində deyil, bolşevizmin zorla tətbiq etdiyi sosializmin mahiyyətində, ictimai mülkiyyətin ölkə iqtisadiyyatında şəriksiz hökmranlığı prinsipinin Sovet hakimiyyətinin ilk günündən tətbiq edilməsində axtarmaq lazımdır. Yeni iqtisadi siyasətə keçidə qədər məhz bu gün inzibati amirlik sistemi adlandırdığımız idarə sistemi tətbiq edilirdi. Lakin iqtisadi dağıntılar və iqtisadi çətinliklər dövründə Sovet dövləti bu qədər geriyə çəkilməli olmuş, mülkiyyətin digər formalarına əsaslanan təsərrüfat ukladlarının inkişafına imkan verilir.

YIS SSRI-nin hər yerində eyni cür ardıcıl həyata keçirilmirdi. Ümumiyyətlə, qeyri-sosialist ukladına məxsus sənaye müəssisələri 20-ci illərin sonlarından etibarən sıxışdırılmağa başlamışdısa, Azərbaycanda YIS keçildiyi ilk gündən bu siyasət yarımçıq həyata keçirilmiş, respublika sənayesində, xüsusən neft sənayesində dövlət bölməsi böyük üstünlüyə malik olmuşdur. YIS keçid dövründən sonrakı vaxtı müşahidə etsək, inzibati-bürokratik apparatın ağalığının günbəgün güclənməsini müşahidə edə bilərik. Buna görə də Azərbaycanda, xüsusən onun sənayesində inzibati-amirlik sisteminin hökmranlığı Rusiyada olduğu kimi 1927/28-ci illərdən deyil, xeyli əvvəl respublikanın sovetləşməsinin ilk günündən formalaşmağa və bərqərar olmağa başlamışdı.

Sənayeləşdirmə illərində Azərbaycan sənayesində görülən işlər doğrudan da onu xeyli irəliyə aparmışdı. Köhnə mədənlər, zavodlar və fabriklər texniki cəhətdən yennidən qurulmuş, yeni müəssisələr işə salınmış, yeni sənaye sahələri yaradılmışdı. Respublikanın sənaye potensialı bir neçə dəfə artırılmışdı.

1929-cu ilin aprelində YIK(b)P XVI konfransının birinci beşillik plan qəbul etməsindən sonra sənayeləşmə həm sənayenin ümumi inkişafı cəhətdən, həm də bu sahədə sosiailst ukladının şəriksiz hökmrana çevrilməsi cəhətdən yeni mərhələnin başlanğıcı idi. 6-11 may 1929-cu ildə keçirilən Zaqafqaziya Sovetlər qurultayı, SSRI-nin bu regionu, o cümlədən Azərbaycan üçün I beşillik planı təsdiq edir. Bu plana görə Azərbaycanda 50 mln. ton neft çıxarılmalı, neftayırma zavodlarında

10 mln. ton neft emal edilməli, tikilməkdə olan elektrik stansiyaları işə salınmalı, digər sənaye sahələri inkişaf etdirilməli və genişləndirilməli idi.

Respublika sənayesində aparılan iş özünü onda daha aşkar göstərirdi ki, I beşiilik plan neft sənayesində 2,5 ilə, digər sahələrdə isə 4 il 3 aya yerinə yetirilmişdi. Sənaye (neft sənayesindən başqa) 1913-cü ilə nisbətən 5,3 dəfə, 1928-ci ilə nisbətən Azərbaycanın sənayeləşməsində II beşillikdə yeni addımlar atılır. 1937-ci ildə neft hasilatı 1913-cü ilə nisbətən 3 dəfə, qaz çıxarılması – 69 dəfə artır. II beşilliyin sonuna Azərbaycan SSRI-də istehsal olunan neftin 70%-ni verirdi və neftin 83%-i Sovet hakimiyyəti illərində açılmış neft mədənlərində çıxarılırdı.

II beşilliyin sonuna Azərbaycanda dəqiq maşınqayırma, kimya, mebel, çay sənayesi kimi yeni sənaye sahələri yaradılmışdı. 1936-cı ilin sonunda respublikanın 1671, o cümlədən 688 iri sənaye müəssisəsi var idi. Onların 90 %-i sənayeləşdirmə dövründə yaradılmış və ya tamamilə yenidən qurulmuş müəssisələr idi. Azərbaycanın sənaye potensialı əhəmiyyətli dərəcədə artır: onun ərazisi SSRI ərazisinin 0,4%-ni, əhalisinin 1,9%-ni təşkil etsə də, o ittifaqın sənayesinin ümumi məhsulunun 2,5%-ni, neftinin 71%-ni, elektrik enerjisinin 3,8%-ni və s. verirdi.

Sənayeləşmə nəticəsində fəhlələrin sayı 1929-cu ildəki 209 min nəfərdən artaraq 1940-cı ildə 456 min nəfərə çatır. Azərbaycan inkişaf edərək SSRI-nin sənaye cəhətdən ən çox inkişaf etmiş respublikalarından birinə çevrilir. Əlbəttə, bu faktı inkar etmək olmaz ki, Azərbaycan öz xarici qonşularının çoxundan xeyli irəliyə getmiş olur. Lakin burada bir sıra neqativ cəhətləri də qeyd etmək lazımdır ki, respublikanın, onun xalqının taleyində mühüm rol oynamışlar.

Artıq II beşilliyin sonuna kimi iqtisadiyyatda, o cümlədən sənayedə xüsusi bölmə sıxışdırılaraq tamamilə aradan çıxarılırdı. Ictimai mülikiyyət adı altında mövcud olan dövlət mülkiyyəti şəriksiz hökmrana çevrilir və onun idarəsi nəinki ayrı-ayrı müəssisələrin, habelə respublikaların ixtiyarından çıxarılaraq mərkəzi dövlətə - Moskvaya tabe edilir, tam yetkinləşmiş və cilalanmış bürokratik idarə apparatına verilir. Totalitar rejim üçün xarakterik olan inzibati amirlik sisteminin formalaşması başa çatır.

Azərbaycan sənayesi, bütün iqtisadiyyatı elə şəkildə qoyulur ki, o müstəqil fəaliyyət göstərməyə qadir olmur və ümumittifaq iqtisadiyyatının hissəsinə, əlavəsinə çevrilir. Azərbaycanın, habelə digər respublikaların formal suverenliyi kağız üzərində təsbit olunsa da, iqtisadi cəhətdən müstəqiliyi birdəfəlik itirilir ki, bunu da hazırda respublikalarımızın müstəqillik yoluna qədər qoyduğu anda daha aydın şəkildə hiss edə bilərik.

**Kollektivləşmə və onun Azərbaycanda özünəməxsus xüsusiyyətləri.** Bərpa illərində Azərbaycanın kənd təsərrüfatı əsasən bərpa edildi. Bu sahənin ümumi məhsulu 1925-ci ildə müharibədən əvvəlki səviyyənin 72%-ni təşkil edirdi.

Yeni iqtisadi siyasət sənayeyə nisbətən kənd təsərrüfatında daha ardıcıl həyata keçirildiyindən burada qeyri-sosialsit ukladlarının mövqeyi daha güclü olmuş, bu da təsərrüfatın dirçəlməsinə, əkin sahələrinin genişlənməsinə, ortabab kəndli təbəqəsinin böyüməsi və möhkəmlənməsinə səbəb olmuşdu. Ortabab və

yoxsul təsərrüfatları ilə yanaşı Azərbaycanda fermer təsərrüfatı da möhkəmlənmişdi. Kənd əhalisinin çox kiçik faizini təşkil edən (təxminən 3%) fermer təsərrüfatı satlıq taxılın 30%-dən çoxunu verirdi. Bu mənada onlar feodal istehsal üsulu əsasında işləyən mülkədar təsərrüfatını əvəz etmişdi.

Artıq 1926-27-ci illərdə yeni iqtisadi siyasət kənddə özünü doğrultmuş, günbəgün artmaqda olan qeyri-fermer təsərrüfatları ölkənin satlıq kənd təsərrüfatı məhsullarına olan ehtiyacını qismən təmin edirdi. Düzdür, xırda kəndli təsərrüfatında satlıq məhsul istehsalı xeyli aşağı düşsə də, kooperasiyaların ən müxtəlif formalarının tədricən möhkəmlənməsi kənd təsərrüfatı məhsulları istehsalını artırmağın yollarını əyani şəkildə nümayiş etdirirdi. Lakin sənayeləşdirmə siyasəti və bu prosesin süni şəkildə sürətləndirilməsi, sənayedə dövlət təsərrüfatının şəriksiz hökmranlığının təmin edilməsi ilə öz təbii tempi ilə inkişaf edən kənd təsərrrüfatı arasında ziddiyətlər dərinləşməyə başlayır. Iqtisadiyyatın inkişafının ümumi məntiqi yeni iqtisadi siiyasəti kənddə davam etdirilməsini, iri fermer təsərrüfatının genişləndirilməsini tələb edirdi. Lakin yuxarıda haqqında danışılan ziddiyyətlər, xüsusən də sənaye üçün lazım olan texniki bitkilərin çatışmaması, 1927/28-ci illərdə taxıl tədarükünə yaranmış çətinliklər Sovet dövlətini özü üçün daha əlverişli olan bir siyasət yeritməyə sövq edir. Bu da azad kəndli və fermer təsərrüfatlarının ləğv edilməsi və dövlətin tam nəzarəti və idarəçiliyi altında olan kolxozların yaradılmasından ibarət idi.

Kolxozlar bu günə qədər partiya və dövlətin təbliğ etdiyi kimi azad kəndlilərin kollektiv təsərrüfatı deyildi. Bu kəndlilərin yenidən istehsal vasitəsindən, o cümlədən torpaqdan məhrum edilməsi, kənddə bürokratik dövlət apparatı tərəfindən inzibati amirlik metodları ilə idarə olunan dövlət təsərrüfatının yaradılmasından başqa bir şey deyildi.

Qeyd etmişdik ki, iqtisadiyyatda inzibati amirlik sisteminin bərqərar olması heç də ayrı-ayrı şəxsiyyətlərin iradəsindən irəli gəlmir, bolşeviklərin qurmaq istədikləri sosializmin mahiyyətindən, ictimai mülkiyyətin xarakterindən irəli gəlirdi. Buna görə də kənddə kolxozların qurulması heç də yeni bir şey deyildi və bolşeviklərin hakimiyyətə gəldikləri gündən yeritdikləri iqtisadi kursun məntiqi nəticəsi idi. Düzdür, yeni iqtisadi siyasət dövründə bu kursa alternativ bir siyasət yeridilirdi və kolxoz quruluşuna keçid dövründə Buxarinçilər (sağ kommunist) həmin siyasəti davam etdirməyi tələb edirdilər. Lakin YIS-də bu prosesi məcrasından döndərə bilmir.

1927-ci ilin dekabrında keçirilmiş YIK /b/ P XV qurultayı kollektivləşməyə keçidin dönüş anı sayılır. Elə həmin vaxtdan etibarən Azərbaycanda da kəndli təsərrüfatlarının zorakı yolla kolxozlarda birləşdirilməsi prosesi başlanır. Onunla paralel olaraq həmin kolxozları yuxarıdan idarə etmmək üçün mərkəzi orqanlar da yaradılır. Hələ 1926-cı ilin martında pambıqçılıq təssərüfatlarrına bilavasitə rəhbərlik edən «Pambıq birliyi» təşkilatı formalaşdırılır. Kolxozların idarə edilməsində daxili müstəqilliyin formal xarakter daşıması elə ilk vaxtlardan özünü büruzə verirdi.

Kolxoz quruculuğunda ilk addımlar atılmağa başlayır. 1927-ci ildə 150 kolxoz var idisə, 1928-ci ildə onların sayı 289-a çatdırılır. Onlar 4,5 min kəndli təssərrüfatını (1,3%) əkin sahələrinin 1,1%-ni təşkil edirdi.

1928-ci ilin martında kolxoz quruculuğuna ümumi rəhbərlik etmək üçün «Azərbaycan Mərkəzi Kolxoz İdarəsi» yaradılır. Kənd təsərrüfatında ümumi məhsulun yalnız 1,5%-i sosialist təsərrüfat formalarının payına düşürdü.

Yeni iqtisadi siyasət dövründə kəndin sosial strukturu köklü dəyişiklik olmuş, ortababların sayı çoxluq təşkil etmişdi. 1928-ci ildə yoxsul təssərrüfatları 41,8 %, ortabab təsərrüfatları – 51,4%, qolçomaq təsərrüfatı 6,8% təşkil edirdi. 1928-1929-cu illərdə qəbul edilmiş müxtəlif qərarlarda ayrı-ayrı regionlarda kolxoz quruculuğunun sürəti, metodları və başqa məsələləri müəyyənləşdirilir, başlıcası isə qolçomaqlara qarşı müharibə elan edilmişdi. Lakin qolçomaq kateqoriyası altına imkanlı ortabab kəndlilər də salınır, onlara qarşı da cəza tədbirləri tətbiq edilirdi. Onlar da öz növbəsində bu siyasətə qarşı çıxdıqda, bu və ya digər formada müqavimət göstərdikdə, etiraz etdikdə daha amansız repressiyalara məruz qalır, qolçomaq dalğası ilə damğalanaraq həbs və sürgün edilirdilər. Yeridilən bu siyasətlə barışıb öz təsərrüfatında qalan imkanlı kəndlilər vergilərlə boğulurdular. 1927-ci ildən onlar bütün vergilərin 32,7%-ni vermişdilər. Onların sıxışdırılması taxıl tədarükündə çətinliklərin yaaranmasına, bu isə öz növbəsində kolxoz quruculuğunun sürətinin artırılmasına və dövlətin qolçomaqlara münasibətinin sərtləşməsinə səbəb olur. Artıq 1929-cu ildə bu tədbirlər açıq müharibə xarakteri alır. Partiyanın bu xəttinə qarşı çıxan, kolxoz quruluşunu tədricən və könüllülük əsasında həyata keçirməyi təklif edən Buxarinçilər amansızcasına cəzalanır. 1929-cu ilin martında keçirilmiş AK/b/P IX qurultayı sağ təmayülü pislədi və qolçomaqlara qarşı mübarizəni, kəndlilərin kütləvi şəkildə kolxozlara qəbul edilməsini gücləndirmək haqqında qərar çıxardı.

YIK/b/P 1929-cu ilin noyabr plenumu kolxoz quruculuğunun müddətləri haqqında müzakirə edərək, bu ilin əsas taxılçılıq rayonlarında bir-iki ilə, qalan taxıl rayonlarında iki-üç ilə, xammal rayonlarında isə üç-dörd ilə, yəni I beşilliyin sonuna keçirməyi qərarlaşdırdı. Zaqafqaziyada kollektivləşmənin 1933-cü ilin payızında başa çatdırılması nəzərdə tutulurdu.

Bu müddət YIK/b/P MK-nın 1930-cu il 5 yanvar qərarında da «Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbirləri haqqında» öz əksini tapmışdı.

Buna baxmayaraq, yerli partiya və dövlət nümayəndələri yuxarıda oturanın xoşuna gəlmək xatirinə qoyulan müddəti pozaraq kolxoz quruculuğunu zorla sürətləndirir, tabe olmayanlara qarşı zorakı tədbirlər görürdülər. Əhalinin əksəriyyəti bu qaydaları qəbul edə bilmir və çox zaman etiraz çıxışları təşkil edirdilər. Quba dairəsində, Gəncə dairəsində bir çox kəndlərində, Qazax dairəsində, Qarabağda, Şirvan və Ucar dairəsində kütləvi çıxışlar olmuş və amansızlıqla yatırılmışdı 1929 mart Zaqafqaziya Ölkə Komitəsi «ZSFSR-in rayonlaşdırrılması haqqında» qərar

qəbul etdi. Bu qərarla dairə – rayon – kənd soveti bölgüsü qoyuldu. 1930-cu ilin martında Gəncə dairəsinin Bitdili kəndində antisovet qiyamı daha güclü idi.

Kəndin öz içərisində bu hərəkatların qarşısını almaq üçün YIK(b)P MK 20 oktyabr 1929-cu il qərarı ilə muzdur-yoxsul qrupları təşkil edilir.

1930-cu il 5 yanvar qərarından sonra kolxoz quruculuğunda rekressiv tədbirlər daha da güclənir. Nəticədə 1932-ci ildə kolxozlar respublika kəndli təsərrüfatının 50,6%-ni, əkin sahələrinin 63,7%-ni birləşdirir.

1931-ci ilin payızından etibarən Azərbaycanda kolxoz quruculuğu prosesi «elliklə kollektivləşmə» dövrünə daxil oldu ki, bu da kəndlilər üzərində zorakılığın daha da güclənməsi, imkanlı və daha təşəbbüskar təsərrüfatçı kəndlilərin qolçomaq adı altında «bir sinif kimi» ləğv edilməsinin kütləvi xarakter alması idi.

Bolşeviklərin dediyinə görə, kolxoz quruculuğu maddi texniki bazası bu prosesin əvvəlində təmin edilməli idi. Lakin Azərbaycanda ilk MTS 1930-cu ildə yaradılmışdı. Müharibənin başlanmasına qədər kəndlərdə texnika o qədər cüzi idi ki, kənd təssərrüfatının ümumi vəziyyətinə təsir etmir.

Kollektivləşmə II beşilliyin axırına xeyli irəliləmişdi. 1937-ci ldə kəndli təsərrüfatlarının 86,5%-i, əkin sahələrinin isə 93,5%-i kolxozlarda birləşdirilmişdi. Kənd təsərrüfatında inzibati amirlik sistemi tamamilə bərqərar olmuş, kolxoz nizamnaməsi nəzərdə tutulan demokratik prinsiplər isə formal xarakter daşımış, kağız üzərində qalmışdı.

Azərbaycanın kənd təsərrüfatında bu gün üçün çox ağır ekoloji və sosial-iqtisadi nəticələrə gətirib çıxarmış və monoəkinçiliyin də əsası qoyulur. 1931-ci ildə YIK(b)P MK Zaqafqaziyada texniki bitkilərin becərilməsi və Azərbaycanı Sovet Ittifaqının ikinci (Özbəkistandan sonra) pambıq bazasına çevirmək haqqında qərar qəbul edir. Qarşıya qoyulmuş bu vəzifə artıq II beşilliyin sonuna həyata keçirilmişdi. Azərbaycanda çoxsahəli, ənənəvi kənd təsərrüfatı əvvəzinə bu və ya digər təsərrüfat sahəsinin birtərəfli qaydada inkişaf etdirilməsi ilə monokultura tətbiq edilir.

**Kütləvi siyasi represiyalar.** Sosialist yenidənqurmalarının ən faciəli nəticələrindən biri də kütləvi siyasi repressiyaların keçirilməsi idi. Kütləvi siyasi repressiyalar açıq, demokratik fikirli ziyalılara, partiya və dövlət xadimlərinə qarşı çevrilmişdi. 30-cu illərin sonlarında Azərbaycan K(b) MK Birinci katibi M.C. Bağırovun vasitəsilə xalqımızın öz yüksək milli intellektuallığı və istedadlığı ilə fərqlənən on minlərlə oğlan və qızı, ziyalısı məhv edildi. Onlar M.C.Bağırovun ətrafına toplanaraq , Daxili İşlər və Dövlət Təhlükəsizlik orqanlarında isti yuva salmış əslən türklərin genetik düşmənləri olan Sumbatov-Topridze, Qriqoryan, Markaryan, Malyan və.b. ermənilər tərəfindən məhv edilmişdi. 1937-1938-ci illərdə həyatlarını sovet rejimini yaratmağa və möhkəmlətməyə həsr etmiş partiya və dövlət xadimləri, o cümlədən S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə R.Axundov, Ə.H.Qarayev, H.Sultanov, H.Rəhmanov, Q.Vəzirov, milli ziyalılardan H.Cavid, M.Müşfiq, Əhməd Cavad, Y.V.Çəmənzəminli və minlərlə başqalarırepressiya qurbanları olmuşdular. Ümumən, bu illərdə Azərbaycanda 40 mindən çox adam

kütləvi repressiyaya məruz qalmışdı. Tarixi faktlar göstərir ki, onların mühakiməsi 10-15 dəqiqə çəkmişdi. Bu adamların mühakiməsi və məhv edilməsində ermənilər mühüm rol oynamışdılar.Onu göstərmək kifayətdir ki, bu illərdə Azərbaycanın 51 rayonundan 31-də XDİK-nın rayon şöbələrinin rəisləri ermənilər olmuşdular. Təhlükəsizlik idarələrində işləyənlərin də əksəriyyətini onlar təşkil etmişdilər. Ermənilər Qərbi Azərbaycanda da, əsasən, azərbaycanlıları siyasi repressiyaya məruz qoymuşdular.

**Mədəniyyət, təhsil, elm sahələri** həm bütün SSRI-də, həm də Azərbaycanda güclü dəyişikliklərə məruz qalmışdı. Bir qədər geriyə qayıdaraq qeyd etmək lazımdır ki, XIX əsrin sonu XX əsrin əvvəlində Azərbaycanda gedən demokratik hərəkatın təsiri altında Milli demokratların böyük bir dəstəsi yetişmiş, mədəniyyətin inkişafında da öz əksini tapmışdı. Ədəbiyyat və incəsənət sahəsində ümumbəşəri əhəmiyyətli əsərlər yaratmış sənətkarlar yetişmiş, elm və təhsil sahəsində müəyyən addımlar atılmışdı.

1920-ci ildə Azərbaycan sovetləşəndən sonra həm dövlətin keeçmiş mədəniyyət nümayəndələrinə münasibəti, həm də sonuncuların yeni rejimə münasibəti birmənalı olmamış, ziddiyətli xarakter daşımışdır. Bütün Sovet respublikalarında olduğu kimi Azərbaycanda da ziyalılara, klassiklərə münasibətdə proletar mədəniyyəti mövqeyi özünü kəskin şəkildə büruzə verir. Sovet hakimiyyətinin ilk illərində güclü proletar mədəniyyəti ideologiyası təsiri altında Azərbaycanın klassiklərinə «burjua», «istismarçı sinif nümayəndəsi» damğası vurulur. Nizami, Füzuli, Vaqif, M.F.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə kimi yazıçı və şairlər inkar edilirdi. Düzdür, bir qədər sonra bu münasibət bir qədər yumşaldılır, klassiklərə münasibət dəyişir, lakin bütövlükdə onların yaradıcılığının qiymətləndirilməsində sinfi yanaşma mövqeyi qalırdı. Sovet tarixçilərinin iddia etdiklərinə görə proletkultçuluğun yalnız kəskin cəhətləri yumşaldılmış və daha üstüörtülü formada Sovet dövləti tərəfindən müasir dövrümüzə qədər tətbiq edilmişdir. Sinfi yanaşmanın bütün ədəbiyyat və mədəniyyət xadimləri üçün məcburi olması (əks halda əsər üzə çıxa bilmirdi), formaca Milli, məzmunca sosialist mədəniyyətinin yaradılması. Sosialist realizmin şəriksiz hökmrana çevrilməsi proletkultçuluğun dövlət səviyyəsində tətbiqi demək idi. Ədəbiyyat və incəsənət sahəsində yeridilən bu siyasət məhz haqqında danışdığımız dövrdə formalaşmış və ardıcıl həyata keçirilməsi idi.

Ədəbiyyat və incəsənət xadimlərinə məhz bu mövqe diktə edilir, itaətsizlik edənlər isə müxtəlif vasitələrlə sıxışdırılır və nəhayət 30-40-cı illərdə repressiyalara məruz qalırdılar. Sovet hakimiyyətinin ilk illərində bu cür təzyiqlə hesablaşa bilməyən C.Məmmədquluzadə, H.Ərəblinski, Əli Nəzmi, Y.Çəmənzəminli, Ü.Hacıbəyov, H.Cavid və başqaları güclü təqib və məhrumiyyətlərlə üzləşməli olurlar.

Bütün bu məhrumiyyətlərə baxmayaraq, Sovet hakimiyyəti illərində də Azərbaycan şair, yazıçı, musiqiçi, bəstəkar, memar, rəssamları yeni-yeni əsərləri ilə respublika mədəniyyətini zənginləşdirirdilər. Yaşlı nəsillə bərabər yeni sənətkarlar nəsli yetişir. Şairlər H.Cavid, Ə.Cavid, S.Vurğun, S.Rüstəm, M. Müşfiq, R.Rza, M.Rahim, və b.; ədiblər C.Məmmədquluzadə, Ə.Əbülhəsən, M.S.Orduba-

di, B.B.Haqverdiyev; bəstəkarlar Ü.Hacıbəyov, M.Maqomayev, Ə.Bədəlbəyli və b. əsərləri işıq üzü görür.

Bu dövrdə Azərbaycan teatrında parlaq şəxsiyyətlər dəstəsi yetişir. A.M.Şərifzadə, Ə.Ələkbərov, Y.Rəcəb, Ş.Məmmədova, Bülbül, M.Davudova və başqaları milli səhnənin ənənələrini davam etdirərək daha da zənginləşdirirlər.

Azərbaycanın ədəbiyyat və incəsənəti, bütövlükdə bütün mədəni həyatı ideologiyalaşdırma təzyiqi altında düşsə də, onun tarixi ənənələri qorunub saxlanmış və inkişaf etdirilmişdir.

Sovet dövlətinin mədəniyyət sahəsində ən başlıca və xüsusi qeyd olunmalı xadimlərindən biri ölkə miqyasında, o cümlədən Azərbaycanda savadsızlığın ləğv edilməsi dünyada ən qabaqcıl təhsil sistemlərindən birinin yaradılması idi. Məhz təhsilin sistem halına salınması əhalisinin savadsızlığının ləğv edilməsindən və ümumi təhsil səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsində sıçrayış etməyə imkan vermişdi.

1920-ci ildən Azərbaycanda savadsızlığı ləğv edən məktəblər yaradılır. 1923-cü ilin sentyabrında respublika XKS yanında savadsızlığa qarşı mübarizə komitəsi yaradılır və ona Q.Musabəyov rəhbərlik edir. Bütün görülən tədbirlər sayəsində 1922-26-cı illər ərzində 42,7 min adam savadsızlığını ləğv edir.

I beşillik ərzində 470 min adamın savadlandırılması planlaşdırılmışdı, lakin bir sıra obyektiv və subyektiv səbəblər üzündən bu iş bir qədər zəifləyir. Buna baxmayaraq, bu sahədə irəliləyiş böyük idi. 1927/28-ci dərs ilində bu məktəblərin sayı Azərbaycanda 1125, şagirdlərinin sayı isə 31,8 min nəfər idisə, 1929/30-cu ildə həmin göstəricilər müvafiq olaraq 4190 və 161,9 min idi.

Artıq I beşilliyin sonunda əhalinin savadsızlığı 50,9% təşkil edirdi ki, bu da 1926-cı ildəki 25,2%-dən xeyli yüksək idi. Azərbaycan Inqilab Komitəsinin 1920-ci il 12 may tarixli qərarında nəzərdə tutulan iki tipli kütləvi təhsil məktəbləri – 5 illik təhsilli ibtidai məktəb və 4 illik təhsilli orta məktəb yaradılması, ana dilinə xüsusi yer verilməsi tədricən reallaşırdı. Qabaqcıl müəllimlərin məktəblərə cəlb edilməsi, Bakıda, Şamaxıda, Şuşada, Qusarda və digər şəhərlərdə pedaqoji kursların açılması müəllim problemini tədricən həll etməyə imkan verdi.

Artıq 1930/31-ci illərdə Azərbaycanın 12 ali məktəbində 7145 tələbə, 51 texnikum,14722 tələbə oxuyurdu, 459 elmi işçi, o cümlədən 14 professor və 67 dosent çalışırdı.

1932-ci ilin sentyabrında Elmlər Akademiyasının Azərbaycan filialı (AzFAI) yaradılır.

30-cu illərdə savadsızlığı ləğv edən məktəblərinin geniş fəaliyyəti nəticəsində əhali arasında savadsızlığın səviyyəsi xeyli yüksəlir. 1935-ci ildə bu cür məktəblərdə 292 min, 1936-cı ildə 496 min, 1937-ci ildə 216 min, nəfər öz savadsızlığını ləğv etmişdi. Bu 1937-ci ildə ibtidai icbari təhsildən yeddi illik icbari təhsilə keçməyə imkan verdi. Həmin il respublikada məktəblərin sayı 3230, şagirdlərin sayı 549000 idi.

Sovet təhsil sisteminin ardıcıl tətbiq edilməsi, dövlətin bu sahəyə xüsusi diqqəti sayəsində Azərbaycanda savadsızlığı ləğv etmək, təhsilin, elmin, mədəniyyətin yüksək səviyyəyə qalxmasına imkan verir. Lakin bu sahələrin ideologiyalaşdırılması bu işin məzmununda neqativ meyllərin güclənməsi ilə nəticələnir.

Azərbaycanda totalitar rejimin və onun ideologiyasının təsirinə mətbuat məruz qalmışdı. Qəzet və jurnalların sayı artsa da, tirajları çoxalsa da, onlar tədrisin simasızlaşdırılmış, mövcud rejimin itaətkar alətinə çevrilmişdi.

Bu illərdə Azərbaycan mədəniyyətinə vurulan ən ağır zərbələrdən biri də əsrlər boyu mövcud olmuş əlifbanın 1929-cu və 1940-cı illərdə iki dəfə dəyişdirilməsi, ədəbi-bədii, elmi, tarixi irsin qırılmasına səbəb olur. 1929-cu ildə ərəb əlifbasından latın əlifbasına, 1940-cı ildə isə rus qrafikasına keçilir ki, bu da məlum problemlər törədir.

### *§ 4. Cənubi Azərbaycan 1920-1930-cu illərdə*

Bu dövrdə ümumən İranda, o cümlədən Cənubi Azərbaycanda feodal-patriarxal münasibətlər hökm sürürdü. Sosial-siyasi şərait də çox mürəkkəb və ziddiyyətli idi.Ölkədə despotizm, irtica və milli zülm güclənmişdi. Ölkədə sosial təbəqələr arası qarşıdurmalar da kəskinləşmişdi. Bu dövr əsrlər boyu İranı idarə edən türk mənşəli sülalələrdən biri olan qacarları fars mənşəli pəhləvilər sülaləsinin əvəz etməsi ilə də səciyyələnirdi.

1920-ci ilin payızında Cənubi Azərbaycanda demokratik hərəkatın boğulmasına baxmayaraq, inqilabi əhval-ruhiyyə xalq arasında hələ də yaşayırdı. ADF-nin sağ qalmış fəallarının 1921-ci ilin sentyabrında Şeyx Xiyabaninin qətlinin il dönümü münasibəti ilə Təbrizdə 10 minədək adamın iştirakı ilə keçirilən mitinq bundan soraq verirdi. Mitinqdə Xiyabaninin milli-azadlıq uğrunda mübarizəsi işini davam etdirmək çağırışları səslənirdi. Mitinq iştirakçıları milli-azadlıq hərəkatının yatırılmasında xüsusi qəddarlıq göstərmiş və sonra Azərbaycanın valisi təyin olunmuş Müxbirussəltənənin Təbrizdən qovulmasını tələb etmişlər. ADF-nin Təbriz şəhər təşkilatının 1921-ci il sentyabrın sonu – oktyabrın əvvəllərində gizli konfransı yerli təşkilatları bərpa etmək, antiimperialist və demokratik hərəkatı genişləndirmək çağırışı ilə xalqa müraciət etmişdi. Hətta bu işə rəhbərlik etmək məqsədilə 9 nəfərdən ibarət komitə də seçmişdi.

Demokratik qüvvələrin siyasi mübarizəni kütləviləşdirmək yolunda son təşəbbüsü 1921-ci ilin sonu -1922-ci ilin əvvəllərində jandarm qoşunlarının qiyamı zamanı baş verdi. Mərkəzi hökümətdən narazı olan jandarmların bir hissəsi Urmiya, Şərəfxana yaxınlığındakı şövqelərini (onlar əsasən sərhədləri qorumaq , qaçaqlığa qarşı mübarizə vəzifələrini yerinə yetirirdilər) buraxaraq,mayor Lahutinin (mənşəcə fars idi) komandanlığı altında Təbrizə yürüş etdi. Şəhəri və şəhərin ən mühüm dövlət idarələrini ələ keçirdilər. ADF-nin liderləri, o cümlədən Təbrizin nüfuzlu ictimai xadimi Etimadüttüccar və digər demokratlar da onlara qoşuldular. Bununla, hərbi qiyam anti-feodal, antiimperialist xarakterli xalq üsyanına çevrildi.

Üsyançılar mərkəzi hökumətdən təcili olaraq, demokratik islahatlar keçirməyi tələb etdilər. Lakin 1921-ci ilin fevralında üsyan amansızcasına yatırıldı.

Demokratik qüvvələrin məğlubiyyəti ölkədə qüvvələr nisbətini dəyişdi.Ölkəni böhran vəziyyətindən çıxarmaq təşəbbüsü varlı sosial təbəqənin əlinə keçdi. Burada əsas rolu feodal və mülkədar –burjua cəbhələri oynayırdılar. Onlar arasındakı mübarizə təkcə Cənubi Azərbaycanı deyil, bütün İranı əhatə etmişdi.

Feodal cəbhəsinin əsas sosial dayağını Tehran və digər iri şəhərlərin bürokratik zadəganları, saray dairələri, ənənəvi olaraq, öz başçılarına – xanlarına itaət edən, müəyyən sərbəstliyə malik, dövlət aparatına tabe olmaq istəməyən və istismar edilən köçərilər idi. Mülkədar – burjua cəbhəsinin əsas sosial dayağını isə əhalinin şəhər təbəqələri ,sabitsizlik, hərc-mərclik nəticəsində çox əziyyət çəkən oturaq əhali, əkinçilik rayonlarının dövlət intizamına daha çox riayət edən kəndli kütlələri təşkil edirdi.

Mülkədar- burjua cəbhəsinin dəstəyinə arxalanan ingilislərlə əlaqədə olan Seyid Ziyaəddin Təbatəbai və İran kazak diviziyasının polkovnik leytenantı Rza xan kazak hissələri ilə birgə 1921-ci il fevralın 21-də Tehranda çevriliş etdilər. Seyid Ziyaəddin Təbatəbai "Qara kabinet" adlandırılan hökümət təşkil etdi.1922-ci ilin əvvəllərində Rza xan hərbi nazir oldu. İngilislərin dəstəyi ilə 1923-cü ilin oktyabrında Rza xan baş nazir təyin olundu. 1925-ci il oktyabrın 31-də Məclis Qacarlar sülaləsinin hakimiyyətdən kənarlaşdırılması barədə qərar qəbul etdi. Dekabrın 8-də isə Məclis Rza xanı Pəhləvi (" Pəhləvi" əfsanəvi,qədim fars sülalələrindən birinin adı olmuşdur. Rza xan özünün soy adı kimi seçmişdi) ləqəbi ilə İranın irsi şahı elan etdi. Bununla da İranda mənşəcə fars olan Pəhləvilər sülaləsinin ağalığı başlandı (1925-1979). İran dövlətinin uzun əsrlərdən bəri türk sülalələri tərəfindən idarə olunmasına son qoydu.

Bu dəyişikliklərin baş verməsində böyük iqtisadi potensiala, əlverişli geosiyasi mövqeyə, əhalisinin nisbətən yüksək ictimai şüur səviyyəsinə, siyasi mübarizə təcrübəsinə malik olan Cənubi Azərbaycanın mühüm rolu olmuşdur.

Rza xan rəqiblərinə üstün gəlmək üçün üzünü Cənubi Azərbaycana tutmuşdu. 1920-1922-ci illərdə Rza xanın komandanlığı altında olan kazak diviziyasının hissələri tərəfindən Təbriz və digər şəhərlər ələ keçirildi, bütün dövlət orqanları bilavasitə hərbi komandanlığa tabe edildi. Cənubi Azərbaycandan alınan bütün dövlət vergiləri o zaman hərbi nazir olan Rza xanın sərəncamına keçmişdi. Beləliklə, Cənubi Azərbaycan hakimiyyət uğrunda mübarizə aparan Rza xanın dəstəkləndiyi mülkədar- burjua cəbhəsinin istinadgahına çevrildi.

Rza şah 20-ci illərin sonu- 30-cu illərdə sosial-iqtisadi, siyasi və mədəni sahələri əhatə edən bir sıra islahatlar keçirdi. Onlardan burjua- mülkədar sahibkarlığını, torpaq üzərində xüsusi mülkiyyəti möhkəmləndirmək və qorumaq məqsədilə qəbul olunmuş cinayət və mülki məcəllələri (1925), torpağı zorla tutmağa qarşı (1930), kəndli hərəkatına qarşı (1931), torpağın alınıb-satılması haqqında və.s qanunları nümunə göstərmək olar. Milli bankın əsasının qoyulması (1928), dünyəvi məktəblərin yaradılması, icbari ibtidai təhsilə keçilməsi haqqında qəbul olunmuş

qanunlar da bu qəbildəndirlər. Bütün bunlar dövlət idarəçiliyinin mərkəzləşməsinə, dövlətin daha ciddi olaraq möhkəmlənməsinə,feodal hərc-mərcliyinə son qoyulmasına gətirib çixardı. Ölkədə Rza şahın diktatura rejimi bərqərar oldu.

Rza şah diktaturasının ən mühüm tədbirlərindən biri də İranın ən güclü və nüfuzlu təbəqələrindən olan ruhanilərin mövqelərinin zəiflədilməsi idi. Bunun nəticəsi idi ki, artıq bütün dövlət sistemidünyəvilik prinsipləri əsasında yenidən qurulub fəaliyyət göstərirdi.

Rza şahın bölünməz hakimiyyəti dövründə heç bir müxalif qüvvələrlə hesablaşmayan və siyasətdə əsas vasitəni zorakılığda görən bir dövlət sistemi, diktatura bərqərar olmuşdu. Müxalif təşkilatları, siyasi partiyaları, o cümlədən, Rza şahın yaratdığı “Təcəddüd”partiyasını qadağan etmişdi. Beləliklə XX əsrin 20-30- cu illərində bütün Azərbaycan : həm şimal, həm də cənub diktatura şəraitində yaşamışdı. Şimalda proletariat diktaturası, cənubda pəhləvi diktaturası hökm sürmüşdü.

Bütün bunlara baxmayaraq, həyata keçirilən islahatlar sayəsində Cənubi Azərbaycanda da sosial-iqtisadi və mədəni dəyişikliklər baş vermişdi. Həmin vaxt üçün kənd təsərrüfatı məhsulları istehsalı I Dünya müharibəsindən əvvəlki səviyyəyə çatmışdı. Hətta bəzi sahələrdə həmin səviyyəni ötüb keçmişdi.

Bunlara baxmayaraq, Cənubi Azərbaycan kəndlisinin əksəriyyəti yenə də torpaqsız idi. Onların əksəriyyəti yarıdarlıqla, icarədarlıqla məşğul idilər. Bu vəziyyəti aradan qaldırmaq məqsədilə Rza şah, dövlət (xalisə) torpaqlarının, dini (vəqf) torpaq mülklərinin bir hissəsinin kəndlilərə satılması haqqında qərar verməyə məcbur olmuşdu. Lakin, bu da yaranı sağaltmamışdı. Kəndlilərin torpağı satın almağa imkanları olmadığından həmin torpaqların çox hissəsini tacirlər, məmurlar almış, əvvəlki ənənə ilə becərmək üçün kəndlilərə icarəyə vermişdilər. Bunların qarşısını almaq üçün ölkədə kooperatik şirkətləri sistemini yaratmağa başlanılmışdı. Bunlardan biri də 20-ci illərin ortalarında Təbrizdə yaradılmış şirkət idi. İran təcrübəsində bu da özünü doğrultmamışdı. Şirkətlər istehsaldan çox kənd təsərrüfatı məhsullarının alqı-satqısı ilə məşğul olmağa üstünlük vermişdilər.

İranda, o cümlədən Cənubi Azərbaycanda kənd təsərrüfatının geri qalmasının səbəblərindən biri də kənd təsərrüfatında ən bəsit,dədə-babadan qalmış istehsal alətlərindən istifadəolunması idi. Məsələn, 20-ci illərin ortalarında Cənubi Azərbaycanın Maku və Xoy vilayətlərində hər on kəndə bir kotan düşürdü, əksərən torpaqlar xışla becərilirdi. 30-cu illərdə əyalətdə bir neçə traktor (bütövlükdə İranda cəmi 100 traktor var idi) və atla işləyən otbiçən, toxumsəpən,taxıldöyən mövcud idi.

Cənubi Azərbaycan iqtisadiyyatının, xüsusən kənd təsərrüfatı istehsalının geri qalmasına 30-cu illərin əvvəllərində İranla SSRİ arasında, o cümlədən Cənubi Azərbaycanla Sovet Azərbaycanı arasında iqtisadi əlaqələrin zəifləməsi və sonralar tamamilə kəsilməsi də səbəb olmuşdu. Belə ki, Cənubi Azərbaycan kənd təsərrüfatı istehsalının bir sıra sahələri (quru meyvə istehsalı, texniki bitkilər və.s) on illər ərzində qonşu Sovet Azərbaycanı bazarının tələbatını ödəmək üçün ixtisaslaşmışdı. Həmin bazarın bağlanması onu çox çətin vəziyyətə salmışdı. 1929-1933-

cü illərdə dünyanı bürüyən böyük depressiya zamanı SSRİ ilə İran arasında iqtisadi əlaqələrin məhdudlaşdırılması da Cənubi Azərbaycanın kənd təsərrüfatına ağır zərbə vurmuşdur.

20-30-cu illərdə Cənubi Azərbaycanın sənayesinin inkişafında da cüzi olsa da, irəliləyişlər baş vermişdi. Bu illərdə xüsusi kapitalın səyləri sayəsində onlarca xırda, orta və iri sənaye müəssisələri yaradılmışdı. Bunların sırasında əsasən Təbrizdə, Zəncanda və Ərdəbildə cəmləşmiş toxuculuq,corab, pambıq, yun, iplik və kibrit fabriklərini, düyü, pambıqtəmizləyən, gön-dəri, taxta-şalban,şəkər zavodlarını göstərmək olar. 1925-ci ildə Təbrizdə ümumi sərmayəsi 23,3 milyon rial olan 35 sənaye şirkəti fəaliyyət göstərirdi. Lakin, 30-cu illərin sonlarında xüsusi sərmayənin vilayətlərdən kənara axması Cənubi Azərbaycanda sənayeləşməni son dərəcə ləngitmişdi.

Bu illərdə Cənubi Azərbaycanda da əhalinin əksəriyyətinin öz məmulatı və xidmətləri ilə təmin edən sənətkarlıq və ticarət mühüm yer tutmuşdur. Sənətkarlıq müəssisələri və peşə xidmətləri bütün şəhərlərdə mövcud idi. Lakin Təbriz yenə də sənətkarlığın bütün sahələrinin cəmləşdiyi əsas mərkəz idi. Burada beş minədək xalçaçılıq emalatxanaları fəaliyyət göstərirdi. Sənətkarlıq müəssisələrinin əksəriyyəti öz məhsullarını buradaca satırdı. Urimya, Xalxal, Salmas, Ərdəbil, Zəncan və.b şəhərlərdə də ənənəvi sənətkarlıq məmulatları hazırlanırdı. Sənətkarlıq emalatxanalarında muzdlu əmək üstünlük təşkil edirdi. 20-ci illərin sonlarında Cənubi Azərbaycanın sənətkarlıq müəssisələrində 50 minədək sənətkar çalışırdı.

Cənubi Azərbaycan iqtisadiyyatında baş verən dəyişikliklər onun sosial qoruluşuna da müəyyən təsir göstərmişdi. Cüzi olsa da, sənaye burjuaziyası və sənaye fəhlələri təbəqələri formalaşmışdı. Kənddə də təbəqələşmə davam etmiş, yoxsulların sayı durmadan artmışdı.

Cənubi Azərbaycanda gedən bütün bu proseslər Pəhləvi diktaturasının dövlət səviyyəsində aparılan paniranizm, farslaşdırma, ayrıseçkilik, milli zülm şəraitində baş verirdi. Belə ki, qeyri-fars xalqlarının, xüsusən Azərbaycan türklərinin inkişafıləngidilirdi. 30-cu illərdə bilavasitə dövlətin sərmayə qoyuluşu hesabına İranda tikilmiş 103 sənaye müəssisəsindən ancaq biri Cənubi Azərbaycanda inşa olunmuşdu. Onlara ana dilində təhsil almaq, qəzet, jurnal və kitab nəşr etdirmək, hətta məktəbdə öz ana dilində danışmaq yasaq edilmişdi. Hətta, türk dilində yazılmış əski kitablar, Təbriz şairlərinin daş basması əsərləri və əlyazmaları toplanıb yandırılmışdı. Türkcə yer, dağ, çay, şəhər və kənd adları dəyişdirilərək, fars adları ilə əvəz olunmuşdu. Məsələn, Urmiya şəhəri və gölü – Rezaiyyə, Acıçay – Təlxurd, Qarasu –Siyahrud və.s . adlandırılmışdı. Vaxtı ilə Cənubi Azərbaycanın inqilabı əhval-ruhiyyəsindən müəyyən yollarla bəhrələnərək, hakimiyyətə gələn Rza xan indi Azərbaycan türklərinə qarşı düşmən kəsilmişdi. İranın siyasi, sosial-iqtisadi və mədəni inkişafında aparıcı mövqe tutan Azərbaycan, azərbaycan türkləri gözümçıxdıya salınmışdı. Pəhləvi diktaturasının. Pəhləvi diktaturasının ideoloji əsaslarından biri olan və məqsədyönlü şəkildə həyata keçirilən bu siyasət Rza şahın vurğunu olduğu nasistlərin irqçilik nəzəriyyəsinin İran təzahürü idi. O, qeyri

fars millətləri, xüsusən azərbaycan türklərini assimilyasiyaya məruz qoymaq məqsədini güdürdü. Burada müsəlmançılıq da öz rolunu oynamış və oynamaqdadır.

Paniranizm, farslaşdırma xətti güclü mərkəzləşmiş rejim yaratmaq məqsədilə aparılan inzibati -ərazi siyasətində də özünü büruzə vermişdi. Rza şah hakimiyyətinin 30-cu illərin sonunda həyata keçirdiyi inzibati-ərazi bölgü dəyişiklikləri antitürk, antiazərbaycan məqsədi güdmüşdü. Belə ki, 1937-ci ilin noyabrında təsdiq edilmiş yeni inzibati bölgüyə görə (bu bölgüyə İran ərazisi 10 ostana (vilayətə) bölünmüşdü) Cənubi Azərbaycan ərazisi mərkəzi Təbriz şəhəri olmaqla "Şərqi Azərbaycan"(üçüncü), mərkəzi Urmiya şəhəri olmaqla "Qərbi Azərbaycan"( dördüncü), mərkəzi Rəşt şəhəri olmaqla "Gilan"(birinci) ostanlarına parçalanmışdı. Tarixən Azərbaycan ərazisi olan Həmədan vilayəti isə mərkəzi Sənəndəc şəhəri olan "Kürdüstan" (beşinci) ostanına qatılmışdı. Sonrakı dövrlərdə də bu proses davam etdirilmişdi.

30-cu illərin sonlarında törədilmiş dəhşətli tarixi hadisələrdən biri də hələ XIX əsrin sonları – XX əsrin əvvəllərində bir tikə çörək üçün Şimali Azərbaycana, Bakıya kəsbkarlığa gəlmiş, 1905-1911-ci və 1917-1920-ci- illərdə milli-azadlıq hərəkatının məğlubiyyətindən sonra irticanın təqiblərindən can qurtarmaq məqsədi ilə Şimali Azərcana pənah gətirmiş Cənubi Azərbaycanlıların sovet pasportu olmadığına görə İrana kütləvi deportasiya olunması idi. Onların əksəriyyəti Pəhləvi diktaturası tərəfindən edam edilmiş və ya zindanlara salınmışdılar.

Bütün bunlar XX əsr Cənubi Azərbaycan tarixinin 20-30-cu illərində yaşanmışdır.

# FƏSİL 18. AZƏRBAYCAN SSR II DÜNYA MÜHARİBƏSİ VƏ ONDAN SONRAKI İLLƏRDƏ

*§ 1. Azərbaycan İkinci Dünya Müharibəsi illərində.*
*§ 2. Azərbaycan döyüşçüləri, müharibə cəbhələri və müqavimət hərəkatında.*
*§ 3. Cənubi Azərbaycan İkinci Dünya müharibəsi dövründə.*
*§ 4. Azərbaycan ikinci dünya müharibəsindən sonrakı illərdə (1945-1960).*
*§ 5. Müharibədən sonra Azərbaycan-Ermənistan münasibətləri. Azərbaycanlıların öz doğma yurdlarından – Qərbi Azərbaycandan deportasiyası.*
*§ 6. Cənubi Azərbaycanda milli azadlıq hərəkatı (1945-1946).S.C.Pişəvəri.*
*§ 7. 1970-80-ci illərdə sosial-iqtisadi və aqrar sahədə həyata keçirilən tədbirlər.*
*§ 8. Azərbaycanda mədəni quruculuğun inkişafında yeni mərhələ.*
*§ 9. Cənubi Azərbaycan İran İslam inqilabı və ondan sonrakı dövrdə.*

## *§ 1. Azərbaycan İkinci Dünya Müharibəsi illərində*

XX əsrin 30-cu illərin sonu üçün dünyada siyasi vəziyyət çox mürəkkəb və ziddiyyətli hal almışdı. Beləki, dünyanın qabaqcıl ölkələrdən olan ABŞ, İngiltərə və Fransanın yarıdımı və köməkliyi nəticəsində Almaniya və İtaliya, Şərqdə isə militarist Yaponiya müharibə ocağı yaratdılar.

Birinci Dünya müharibəsində məğlub olan Almaniya Versal hərbi buxovlarını qıraraq təcavüzkarlıq fəaliyyətini genişləndirdi.

İkinci dünya müharibəsi ərəfəsində təklikdə kapitalist dünyasına qarşı duran SSRİ faktoru bəşəriyyətin siyasi inkişafına əsaslı təsir göstərirdi.

Bolşevizm, kommunizm təhlükəsindən qorxan və ona hədsiz nifrət bəsləyən kapitalist dövlətləri SSRİ-nin hansı tərəfdən çıxış edəcəyinə böyük maraq göstərir, xüsusən faşist bolkunun «Antikominten» pərdəsindən istifadə edən ingilis-fransız hakim dairələri SSRİ-nin təkləmək, faşist Almaniyasını ona tərəf yönəltmək siyasəti yürüdürdülər.

Belə şəraitdə keçmiş SSRİ-nin başlıca yolu manevr etmək, necə olur-olsun, təcavüzü özündən uzaqlaşdırmaq siyasəti yürütməkdən ibarət idi.

Təklənməkdən ehtiyat edən sovet rəhbərliyi 1939-cu ilin əvvəllərindən İngiltərə və Fransa hökumətlərinin təkliflərinə cavab olaraq təcavüzkara qarşı birgə hərəkət etmək barədə danışıqlara başladı. Danışıqlar çox ləng, uğursuz və həvəssiz getdiyini görən faşist Almaniyası manevr edərək SSRİ-ilə müvəqqəti razılığa gəlməyi qət etdi.

Müharibə ərəfəsində dünyada yaranmış böhranlı vəziyyət, tamamilə təklənmək təhlükəsi SSRİ-nin faşist Almaniyasının təklifini qəbul etməyə məcbur etdi. 1939-cu il avqustun 23-də SSRİ ilə Almaniya arasında on il müddətinə bir-birinə hücum etməmək müqaviləsi imzalandı. Bu müqavilə SSRİ-yə faşist təcavüzünün vaxtını uzatmaq məqsədini güdürdü.

SSRİ tərəfindən hələ 1939-cu il aprelin 3-də Hitler tərəfindən təsdiq edilmiş «Vays» (və ya. Ağ plan) planına müvafiq olaraq sentyabrın 1-də Polşaya hücum etdi.

1939-cu il sentyabrın 3-də İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər. Bununla İkinci Dünya müharibəsi başlandı.

Dünya ağalığı niyətində olan faşist Almaniyası hələ təqribən iki il əvvəl 10 il müddətinə imzaladığı hücum etməmək, dostluq və əməkdaşlıq müqavilələrini pozaraq 1941-ci il iyunun 22-də xaincəsinə keçmiş SSRİ-yə basqın etdi.

Faşistlərin fikrincə SSRİ-nin aradan götürülməsi dünya ağalığına gedən yolun geniş açılması demək idi. Çoxdan niyyətində olduqları və «Barbarossa» planı adı altında hazırladıqları bu müharibədə nəyin bahasına olursa-olsun Sovet imperiyasının parçalanıb məhv edilməsi, Uraldan Şərqə kiçicik rus dövləti vəziyyətində saxlamaqdan ibarət idi.

Bu müharibədə faşist Almaniyasının məqsədini açıqlayan A.Hitler 1941-ci il maptın 30-dan müşavirədə demişdi: «Rusiyada bizim vəzifəmiz hərbi qüvvələri, dövləti məhv etməkdir. Elə hərəkət etməyin ki, kommunist təhlükəsi bir daha baş qaldırmasın». SSRİ sərhədləri keçirildikdən sonra faşist radiosu bildirmişdir ki, «Şərq səfəri dünya mədəniyyətini bolşevizm təhlükəsindən azad edəcəkdir».

Müharibənin ilk dövründə düşmən çox güclü olduğundan bir-birinin ardınca nailiyyətlər əldə edirdi. Almaniya SSRİ-yə nisbətən hərbi cəhətdən çox güclü idi. Müharibə başlanandan bir gün sonra ümumi səfərbərlik elan edildi. Arxada və ön cəbhədə bütün hakimiyyət 1941-ci il iyunun 30-da yaradılmış DMK-nin əlində cəmləşdirilmişdi. Ali baş komandanlıq Qərərgahı yaradılmışdı.

Partiya, Dövlət və təsərrüfat orqanlarının, ictimai təşkilatların işi müharibə dövrünün tələblərinə uyğun olaraq yenidən qurulmuşdu.

Düşmən hücumuna məruz qalan Qərb rayonlarından sənaye və digər obyektlərin, əhalinin Şərqə köçürülməsi tədbirləri həyata keçirilmişdi.

1941-ci ilin ikinci yarısında Şərq bölgələrinə 10 milyondan çox adam köçürülmüş, 1360 iri sənaye müəssisəsi köçürülüb işə salınmışdır. Ümumiyyətlə Şərq bölgəsində 2593 sənaye müəssisəsi tikilmiş və yenidən qurulmuşdu.

Müharibənin ilk günündən Azərbaycan xalqı da SSRİ-nin başqa xalqları ilə çiyin-çiyinə alman faşist işğalına qarşı mübarizəyə başladı. Azərbaycan K(b)P MK-si 1941-ci il iyunun 28-də bütün partiya komitələrinə iş formalarını, metodlarını müharibə tələblərinə uyğun yenidən qurmaq haqqında məktub göndərdi.

Müharibənin birinci üç günündə Azərbaycandan 18 min Gənc Qırmızı Ordu sıralarına könüllü yola düşdü.

Müharibənin ilk günlərində Azərbaycanın 40 mindən çox oğlan və qızı cəbhəyə getmək üçün hərbi komissarlığa ərizə verdi.

Qısa müddətdə 186.704 nəfər xalq qoşunu dəstələri yaradıldı. Respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi. 15 min nəfərlik HHM dəstələri yaradıldı. 1941-42-ci illərdə respublikada milyon nəfər hərbi təlim proqramını öyrənmişdi.

Azərbaycan döyüşçüləri alman-faşist işğalçılarına qarşı ilk vuruşmalardan əsgəri rəşadət göstərdilər. H.B,Əliyev, K.Qasımov və b. igidliyi cəbhəyə yayıldı. 1941-ci il dekabr ayının 11-də azərbaycanlılar arasında ilk olaraq İsrafil Məmmə-

dov Sovet İttifaqı Qəhrəmanı adı aldı. Azərbaycan xalqının fəxri olan 1941-ci ildə 402-ci və 223-cü, 1942-ci ildə 416-cı və 271-ci Milli diviziyalar yaradıldı. Bu diviziyalardan 416, 223, 77-ci atıcı diviziyalar döyüş sınaqlarından şərəflə çıxdılar.

Azərbaycan K(b)P-sı xalq təsərrüfatının hərbi qaydada yenidən qurulması sahəsində böyük iş apardı. Yüngül, toxuculuq və yeyinti sənayesi tamamilə cəbhə üçün məhsul istehsalına keçdi.

Kənd təsərrüfatında hərbi əhəmiyyətli, yeni texniki bitkilər becərilməsinə başlandı. Böyük çətinliklərə baxmayaraq, neftçilər fədakarlıqla çalışır, cəbhəni və xalq təsərrüfatını yanacaqla təmin edirdilər.

Azərbaycan SSR-də yüksək aktanlı benzin istehsalına başlanıldı. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 100 milyon ton neft və neft məhsulları verdilər. «dənizdə, quruda və havada düşmən üzərində sovet ordusunun üstünlük qazanmasında Bakı neftçilərinin az əməyi olmamışdır. Ən çətin şəraitdə onlar ordunu və ölkənin xalq təsərrüfatını yanacaqla fasiləsiz təchiz edir, o zaman bütün Sovet neftinin təqribən dörddə üç hissəsini verirdilər». «hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şüarı ilə işləyən Azərbaycan neftçiləri DMK-nin keçici Qırmızı Bayrağına layiq görüldü. Bakı döyüşən ordunun cəbhəxanalırandan birinə çevrildi. 1942-ci ildə Bakıda 130 növ müxtəlif silah, hərbi sursat hazırlanırdı. «Katyuşa» raketi, «Şpagin» pulemyotu istehsal edilir, «YAK-3» qırıcı təyyarəsi yığılırdı. Gəncə şəhərində 3 sənaye müəssisəsi silah hazırlayırdı.

Azərbaycan kolxozçuları da müharibənin çətin şəraitində ölkəyə yüz min tonlarla taxıl, pambıq, on min tonlarla tütün, ət, yağ, yun, meyvə və s. kənd təsərrüfatı məhsulları verirdilər.

İqtisadiyyatın hərbi qaydada qurulması ehtiyatları ödəmək üçün xalqın təşəbbüsü əsasında müdafiə fondu təşkil edilmişdi.

1941-ci ilin noyabr ayı üçün sovet xalqı könüllü olaraq müdafiə fonduna bir milyon rubl pul, 1,3 milyard rubl istiqraz, 85 kq qızıl, 6700 kq gümüş və s. qiymətli şeylər vermişdi. Orduya kömək məqsədilə 2 milyon nəfər adamı təmsil edən 24 könüllü xalq qoşunu yaradılmışdı.

Azərbaycan xalqı vətənin şanlı müdafiəçiləri üçün heç nə əsirməmirdi. Azərbaycan zəhmətkeşləri müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 295 milyon mantlıq iqtidar Verdi, müharibə dövründə dövlətdən 1,5 milyard manatlıq istiqraz və lotareya aldı, tank və təyyarə dəstələri fonduna 220 milyon manat pul ayırdı. Müharibə illərində cəbhəyə 1,6 milyon ədəd müxtəlif əşya və 135 vaqon isti paltar yollamışdı.

Azərbaycan xalqı faşist işğalçılarından azad edilən rayonların əhalisinə yardım işində yüksək vətənpərvərlik və beynəlmiləlçilik nümunəsi göstərirdi. 1943-cü ilin payızında həmin rayonlara respublika yardım komitəsi və onun rayon komissiyaları yaradıldı. Leninqrad və Stalinqrada, Stavropol ölkəsinə, Ukrayna və Şimali Qafqaz neftçilərinə hərtərəfli kömək ümumxalq işinə çevrildi.

Azərbaycan SSR-in elm və mədəniyyət xadimləri öz fədakar əməyi ilə qələbə işinə böyük yardım göstərirdilər. Y.Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzin istehsalının yeni texnologiyası hazırlandı.

### *§ 2. Azərbaycan döyüşçüləri, müharibə cəbhələri və müqavimət hərəkatında*

Müharibənin ilk günlərindən minlərlə Azərbaycan vətəndaşı cəbhələrdə faşizmə qarşı mərdliklə vuruşdu. 1941-ci ildə Brest qalasının qəhrəman müdafiəçiləri arasında 44 nəfər azərbaycanlı var idi. 1941-ci ldə kiçik leytenant İsrafil Məmmədov Novqorod yaxınlığında Moskva yaxınlığındakı döyüşlərdə tank bölməsinin komandiri Həzi Aslanov, Borodino çölündəki vuruşmada pulemyotçu İdris Vəliyev düşmənin 50-dən çox əsgərini məhv etdi. Təyyarəçi Hüseynbala Əliyev Leninqrad döyüşlərində düşmənin 6 təyyarəsini məhv etdi.

1942-ci ilin yay ayında faşistlər «Edelveys» planı üzrə Qafqaza hücuma hazırlaşırdılar.

1942-ci il sentyabr 9-da Azərbaycan SSR-də hərbi vəziyyət elan olundu. Bakı müdafiə rayonu yaradıldı. Düşmən 1942-ci ildə 71 dəfə, 1943-cü ildə isə 3 dəfə Bakının səmasına soxulmağa cəhd etdi. Faşistlərin Bakı üzərində 96 hərbi təyyarəsi məhv edildi.

Qafqazın Mozdok qayonundakı döyüşlərdə 402, 416 və 223-cü Azərbaycan diviziyaları işitrak edirdi. İsmayıl Əliyev idi. 1943-cü ildə isə 50 nəfər azərbaycanlı Məmməd Əliyevin başçılığı ilə faşist düşərgəsindən qaçaraq Krımda partizan dəstəsi yaratmışdı.

1942-ci ildə Belorusiyanın Borisov şəhərində «Dyadya Kolya» partizan birləşməsinin qərargah rəisi polkovnik Ələkbər Əliyev idi. O, 1944-cü ildə Suvarov adına partizan dəstəsinə komandir təyin edilmişdi.

Azərbaycanlılar Avropa xalqlarının partizan və antifaşist müqaviməti hərəkatında da iştirak edirlər. 1942-ci ilin yarında Polşadakı faşist əsir düşərgələrində azərbaycanlı əsirlər gizli təşkilat yaratmışdılar. Təşkilata azərbaycanlı zabitlər Nadir Qiyasbəyov və Mirzəxan Məmmədov rəhbərlik edirdilər.

1942-ci ilin noyabrında Fransada faşistlərin ölüm düşərgəsindən qaçıb partizanlara qoşulan azərbaycanlı Əhmədiyyə Cəbrayılov – «Azmed Mişel» Xarqo adı ilə Fransanın azadlıq hərəkatında fəal iştirak etmişdi. Ə.Cəbrayılov Fransa paradında əsgərə generaldan irəlidə getmək hüququ verən hərbi medalla təltif olunmuşdu.

1942-ci ilin avqustunda ağır yaralanaraq əsir düşən Mehdi Hüseynzadə Yuqoslaviya partizanlarına qoşulmuş və «Mixaylo» ləqəbi ilə fəaliyyət göstərmişdi. O, hitlerçilərə qarşı müharibədə əfsanəvi qəhrəmanlıqlan göstərmiş, 700 hərbi əsiri azad etmişdi. Yuqoslaviya xalq Azadlıq ordusunun kəşfiyyatçı-təxribat qurupuna rəhbərlik edən Mixaylo 1000 nəfərdən çox alman zabitini məhv etmişdi. Mehdi Hüseynzadə 1944-cü ildə faşistlərlə qeyri-bərabər döyüşdə xeyli düşmən qırmış

və ələ keçməmək üçün son gülləsinin özünə vurmuşdu. Ona ölümündən xeyli sonra – 1957-ci ildə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Əli Babayev İtalyadakı partizan hərəkatında iştirak etmiş, Harribaldi adına batalyonun komandiri olmuş, döyüşlərdəki igidliyinə görə İtalyanın yüksək mükafatına layiq görülmüşdü.Sovet Ordusunun Şimali Qafqazı azad etmək əməliyyatlarında Azərbaycan diviziyalarında döyüşən əsgərlər qəhrəmanlıq göstərirdilər. Tuapşe uğrunda döyüşlərdə Qafur Məmmədov düşmənin 13 əsgərini öldürdü və öz həyatı bahasına komandirini xilas etdi. İdris Süleymanov, Baloğlan Abbasov, Həzi Aslanov Sovet İttifaqı Qəhrəmanı kimi ən yüksək ada layiq görüldülər.

1943-cü ilin yay hücumu zamanı H.Əcdərov Oryol şəhəri üzərinə qələbə bayrağını sancdı. Hərbi təyyarəçilər Adil Quliyev və Züleyxa Seyidməmmədova da fərqləndilər.

Tanqanroq şəhərinin azad edilməsində göstərdiyi rəşadətə görə 416-cı diviziyaya «Taqanroq diviziyası» fəxri adı verildi. Hərbi əməliyyatlarda qəhrəmanlığına görə 271-ci diviziya «Qorlovva diviziyası» fəxri adını aldı. 416-cı və 77-ci diviziyalar «İkinci dərəcəli Suvorov ordeni» ilə təltif olundular.

1944-cü il iyunun 29–30 -da H.Aslanovun komandanlıq etdiyi 35-ci qvardiya-tank briqadası Berizna çayını keçib Pleşeni şəhərini azad etdi. 1944-cü ildə H.Aslanov ikinci dəfə Sovet İttifaqı Qərəmanı adı ilə təltif olunmağa təqdim edildi. Bu fərman ölümündən 47 il sonra, 1991-ci ildə həyata keçirildi.

223-cü diviziya Yuqoslaviyanın azad edilməsində fəal iştirak etdiyinə görə fəxri «Belqrad diviziyası» adını aldı. Polşa və Çexoslovakiyanın azad edilməsi uğrunda döyüşlərdə Ziya Bünyadov da daxil olmaqla 20 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 1945-ci ilin fevralında 416-cı diviziy Oder çayı sahilinə çıxaraq Berlin üzərinə yeridi və may ayının 2-də Brandenbuq darvazası üzərinə qələbə bayrağı sancdı. Reyxstaqın alınmasında göstərdiyi rəşadətə görə Yusif Sadıqov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Ağır döyüşlərdə əsr düşmüş və faşist düşərgələrinə salınmış azərbaycanlı əsrlərin çoxu faşist əsarətindən qurtulmaq üçün mübarizə aparır və düşərgələrdən qaçaraq partizanlara qoşulurdular. Onlardan biri də Smolenskidə fəaliyyət göstərən partizan briqadasının qərargah rəisi «şücaətinə görə» gümüş medali lə təltif olunmuşdu. Vilayət Hüseynov Mussolinini həbs edən partizanlar arasında olmuşdu. Əkbər Ağayev isə Buhenvald ölüm düşərgəsində yaradılan təşkilatın rəhbərlərindən biri olmuş, ələ keçdikdən sonra güllələnmişdi.

Müharibə illərində nəinki faşizmə, habelə sovetizmə qarşı da müqavimət hərəkatı fəaliyyət göstərmişdi. Belə meyllər daxildə qaçaqçılıq hərəkatında və xaricdə nasistlərin dəstəyi ilə sovet rejiminə silahlı mübarizə aparan legionların yaradılmasında təzahür etmişdi. Bu işdə xaricdəki siyasi mühacirlərin də mühüm rolu olmuşdu. Müharibənin ilk günlərində faşistlərə əsir düşən mayor Əbdürrəhman (Əbo) Fətəlibəyli Düdənginski tərəfindən antisovet milli hərbi legionların yaradılması təklifi verilmişdi. 1941-ci ilin payızında Almaniyaya dəvət olunmuş M.Ə. Rəsulzadə ilə də azad edilmiş azərbaycanlılardan xüsusi legionlar yaradılması müzakirə edilmişdi.

Hətta Hitler, 1941-ci il dekabrın 22-də Qafqaz müsəlmanlarından xüsusi hərbi hissələr yaradılması haqqında əmr vermişdi. 1942-ci ilin yayında azərbaycanlılardan təşkil edilmiş edilmiş 7mindən çox döyüşçüsü olan "Bozqurd", "Aslan" , "Dönməz", "Vətən", "Qafqaz" və.b. hərbi dəstələr Qafqaz cəbhələrində döyüşlərdə iştirak etmişdilər. 1943-cü ilin yazında antisovet müqavimət hərəkatına rəhbərlik etmək üçün Berlində Milli Azərbaycan Komitəsi yaradılmışdı.

Almaniyanın vasitəsilə Azərbaycanın müstəqilliyinə nail olmaq niyyətində olan M.Ə.Rəsulzadə faşist başçıları ilə söhbət zamanı bunun mümkün olmadığını başa düşdükdən sonra Almaniyanı tərk etmişdi. Ə.F.Düdənginskinin başçılığı ilə 1943-cü ilin payızında yaradılmış Azərbaycan parlamenti və hökuməti fəaliyyət göstərmişdi. O, 1944-cü ilin qışında fəaliyyətini dayandırmışdı.

1945-ci il mayın 8-də Almaniya danışıqsız təslim oldu. 9 may tarixə qələbə günü kimi daxil oldu. Lakin ikinci dünya müharibəsi davam edirdi. Sentyabrn 2-də Yaponiyanın təslim olması ilə müharibə qurtardı.

1941-45-ci illərdə respublikanın 700 mindən çox oğlan və qızı cəbhəyə getdi. Onlardan 11 mini qadın idi.

Azərbaycan bütövlükdə strateji-coğrafi mövqeyinə, iqtisadi potensialına görə Dünya müharibəsinin iştirakçısı olan böyük dövlətlərin hər birinin maraq dairəsində idi. Faşist Almaniyası Şimali Azərbaycanı işğal etdikdən sonra Cənubi Azərbaycan da daxil olmaqla İranı zəbt edib, ona nail olmaq niyyətində idi. İngiltərə və ABŞ-ın Şərq siyasətində də İran dövlətinin tərkib hissəsi kimi Cənubi Azərbaycan əhəmiyyətli yer tuturdu.

### *§ 3. Cənubi Azərbaycan II Dünya müharibəsi dövründə*

İkinci dünya müharibəsi İran, o cümlədən Cənubi Azərbaycanın ictimai-siyasi durumuna güclü təsir göstərdi. Müharibənin əvvəlində İran hökuməti öz bitərəfliyini elan etsə də, Rza Şah başda olmaqla hakim dairələr açıq faşistpərəst mövqe tutmuş, ölkəni Almaniya kəşfiyyatçılarının fəaliyyət meydanına çevrilmişdilər. SSRİ 1921-ci ildə bağlanmış Sovet-İran müqviləsinin 6-cı maddəsinə əsaslanaraq 1941-ci ilin avqustunda öz qoşunlarını İrana yeritdi.

SSRİ və Böyük Britaniyanın qoşunlarının İrana yerləşdirilməsi 1941-ci ildə İranda Rza şahın hərbi polis recimi iflasa uğratdı. Rza Şah oğlu Məhəmməd Rzanın xeyrinə hakimiyyətdən əl çəkməli oldu və bir gündən sonra ingilislər tərəfindən sürgün olundu.

1941-ci il oktyabrın 11-dən cənubi Azərbaycanda yerləşdirilmiş Sovet ordusu hissələrindəki azərbaycanlı zabit və əsgərlər üçün Təbrizdə Azərbaycan türkcəsində nəşr edilən «Vətən yolunda» və Urmiyadakı «Qızıl əsgər» qəzetləri burada ana dili probleminin həllində, ədəbi dilin formalaşmasında son dərəcə mühüm rol oynadı.

1941-ci ilin sentyabr-oktyabr aylarında Təbrizdə geniş xalq kütlələrinin mitinq, yığıncaq və nümayişləri keçirildi. Sentyabrın 29-da Tehranda İran Xalq Partiyası yaradıldı. 1941-ci ilin noyabrı 1942-ci ilin əvvəllərində İXP-nin Azərbay-

candakı təşkilatlarının təşəbbüsü ilə müxtəlif ictimai-siyasi, mədəni-maarif klubları, birlik və cəmiyyətlər yaradıldı və onlar hərəkatın əsas qüvvəsinə çevrildi.

Cənubi Aəzrəbaycanda demokratik ruhlu qəzet və jurnallar nəşrə başlandı. «Azərbaycan cəmiyyəti» və onun mətbu orqanı olan «Azərbaycan» qəzeti demokratik və Milli qüvvələrin səfərbər edilməsində mühüm rol oynadı.

Demokratik hərəkatın 1941-1945-ci illəri əhatə edən birinci mərhələsində bahalıq və möhtəkirliyə, rüşvətxorluğa qarşı mübarizə aparılırdı. Bu mərhələdə hərəkatın əsas xüsusiyyəti Milli dərketmənin, Milli şüurun misilsiz dərəcədə inkişafından ibarət idi.

1945-ci ilin yayında Cənubi Azərbaycanda demokratik hərəkatın ikinci mərhələsi başlandı. Bu məhəllə Almaniyanın müharibədə məğlub edilməsindən sonra əsaslı surətdə dəyişilmiş beynəlxalq vəziyyətlə bağlı idi.

İranın hakim təbəqələri demokratik hərəkatın qarşısını almaq üçün milli demokratik hərəkatın düşmənləri ilə əlbir hərəkat edir, etnik toqquşmaları qısqırdır və vətəndaş müharibəsi törətməyə can atırdılar.

Milli-demokratik qüvvələr mürtəce İran hakimiyyətinə qarşı mübarizə aparmaq üçün 1945-ci il sentfyabrın 3-də Seyid Cəfər Pişəvəri başda olmaqla Azərbaycan Demokratik Partiyasının yaradılması haqqında bəyanatla xalqa müraciət etdilər.

Partiyanın proqramında İran Dövləti tərkibində Azərbaycana inzibati-təsərrüfat, mədəni müxtariyyət verilməsi, bütün İranın siyasi həyatının demokratikləşdirilməsi, iqtisadi-ictimai islahatların keçirilməsi vəzifələi irəli sürüldü.

SSRİ-nin Cənubi Azərbaycanda Milli-demokratik və azadlıq hərəkatının nəticəsində marağı var idi. İ.V.Stalin ADP-nin yaradılmasına və təşkilata S.C.Pişvərinin rəhbər seçilməsinə razılığını vermişdi. O, AK(b)P MK-nin I katibi M.C.Bağırova Cənubi Azərbaycandakı Milli-demokratik hrəkata Milli-mənəvi kömək haqqında tapşırıq vermişdi. Bu məsələlərlə bağlı 1945-ci ilin avqustunda Sovet Azərbaycanında M.C.Bağırovla S.C.Pişvərinin görüşü olmuşdu. S.C,Pişəvəri tarixin Azərbaycan xalqının taleyi üçün verdiyi bu nadir imkandan istifadə etməyə razı olmuşdur.

### *§ 4. Azərbaycan II Dünya müharibəsindən sonrakı illərdə (1945-1960)*

Sovet İttifaqının mövqeyini möhkəmlətdi, onun beynəlxalq nüfuzunu yüksəltdi və dünya miqyasında qüvvələr nisbətəni sosializmin xeyrinə olaraq dəyişdirdi. Bütün xalqlar üçün sülh dövrü başlandı.

Alman faşizminin və yapon militarizminin darmadağın edilməsi nəticəsində bir sıra Avropa və Asiya ölkələri xalqlarının kapitalistlər və mülkədarlar hakimiyyətini devirmələri üçün əlverişli şərait yaranmış oldu.

Müharibədən sonrakı dövrdə, bəşəriyyətin, bütün yer kürəsi ərazisinin dörddə bir hissəsində yaşayan xalqların imperializm əsarəti zəncirlərindən qəti surətdə azad oldu. Sosializm bir ölkənin çərçivəsindən çıxıb dünya sisteminə çevrildi.

Sovet xalqı hədsiz çətinlikləri aradan qaldıraraq, dinc quruculuq işinə başladı. Azərbaycan SSR-i hərbi əməliyyat meydanı olmamışdı, müharibənin törətdiyi dağıntıya məruz qalmamışdı. Lakin Sovet İttifaqının tərkib hissəsi olmaq etibarı ilə Azərbaycanın xalq təsərrüfatına da mənfi təsir etmiş və bir çox ağırlıqlarını çəkmişdi. 1945-ci ildə Azərbaycan sənayesinin ümumi məhsulu, müharibədən qabaqkı səviyyənin ancaq 78 faizini təşkil edirdi.

Avadanlıq istehsalının azaldılması, işçi qüvvəsinin çatışmaması, maddi-texniki təchizatın kifayətsizliyi nəticəsində 1945-ci ildə neft hasilatı, 1940-cı ildəkinə nisbətən təqribən yarıbayarı azalmışdı. Qara metal prokatı, elektrik enercisi, sement, pambıq parça və başqa sənaye məhsulları istehsalı azalmışdı.

Respublikanın xalq təsərrüfatında fəhlə və qulluqçuların sayı da azalmışdı. Bir çox köhnə təcrübəli neftçi fəhlələrin orduya getməsi və ya Volqa ilə Ural arasındakı rayonlarda, Orta Asiya və Qazaxıstanda geoloji-kəşfiyyat və axtarış işləri üçün səfərbərliyə alınması ilə əlaqədar olaraq, Azərbaycan neft sənayesinə yeni kadrlar vermək məsələsi kəskin bir şəkildə qarşıda durdu.

Əvvəllər hərbi sifarişləri yerinə yetirən müəssisələrin dinc məhsullar buraxmağa keçirmək böyük çətinlik törədirdi.

Sənayenin və kənd təsərrüfatının texnika ilə yenidən silahlandırılması və onların işçilərinin ixtisasının yüksəldilməsi əsasında, zəhmətkeşlərin inadla işləməsi sayəsində respublikanın xalq təsərrüfatı sürətlə irəliləyirdi, məhsul buraxılışı durmadan artırdı. Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəticəsində respublikada əkin sahələri xeyli genişlənmiş oldu.

Neft sənayesinin bərpa edilməsi, qazma işlərinin genişləndirilməsi sahəsində böyük iş görülmüşdü. Yeni neft yataqları istifadəyə verilmişdir.

Əsaslı tikinti sahəsində də böyük müvəffəqiyyətlər əldə edilmişdi. Mingəçevir su qovşağı, Sumqayıtda boru prokatı zavodu, Daşkəsən dəmir mədəni, Kirovabada(Gəncədə) zərif mahud kombinatı, Bakıda radio zavodu kimi mühüm obyektlər tikilirdi.

Azərbaycanda yeni sənaye sahələri yaradılmışdı, yeni sənaye mərkəzləri meydana gəlmişdi, böyük enerci qurğuları işə salınmışdı. 1950-ci ildə elektrik enerjisi istehsalı, müharibədən əvvəlki səviyyəni 60 faiz ötüb keçmişdi. Dəmir yolu və su nəqliyyatında yük daşınması artmışdı. Yüngül sənayenin toxuculuq, tikiş, trikotaj, ayaqqabı və başqa sahələri inkişaf edirdi.

Respublikanın kolxoz və sovxozları 1949-cu ildə kənd təsərrüfatı məhsulunun demək olar bütün növləri üzrə Dövlət tədarükü planını yerinə yetirmişdilər. Buna baxmayaraq kolxozlar mütəxəssislər çatmaması cəhətdən korluq çəkirdilər. Kənd təsərrüfatı kadrlarının xeyli hissəsi torpaq orqanları və tədarük təşkilatları aparatında məşğul idilər. Onlardan bir çoxu öz ixtisası üzrə işləməyib, başqa idarələrdə və müəssisələrdə çalışırdılar.

Bütün bu nöqsanlar kənd təsərrüfatının inkişafını ləngidirdi. Kənd təsərrüfatı istehsalının ən mühüm sahələrini ixtisaslı işçilərlə möhkəmlətmək üçün Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda və kənd təsərrüfatı texnikumlarında mütə-

xəssislər hazırlanması işini bir qədər yaxşılaşdırmağa nail oldular. Rayonlarda birillik kolxoz məktəbləri təşkil edildi və bu məktəblərdə 1947-1950-ci illərdə üç min beş yüzdən çox kolxozçu oxuyurdu.

Kolxozların iriləşdirilməsi nəticəsində onların çoxsahəli mürəkkəb təsərrüfatlara çevrildiyini nəzərə alaraq, kolxozlarda rəhbər işçilərin tərkibini birinci növbədə mütəxəssislər hesabına yaxşılaşdırmağa başladılar.

MTS direktorları və mexanikləri üçün kurslar açılmışdı. 1947-1949-cu illər ərzində MTS-lər yanında açılmış kurslarda 6 mindən çox fəhlə, 1948-1953-cü illər ərzində mexanikləşdirmə məktəblərində isə 7 mindən artıq mexanik, traktor briqadası briqadiri, kombaynçı, elektrik montyoru, şofer və s. ixtisaslarda kadr hazırlanmışdı. Kirovabada (Gəncədə) rəhbər kolxoz kadrları hazırlayan iki illik dövlət məktəbi və kənd təsərrüfatı sənət məktəbi var idi. Bütün bunlar kənd təsərrüfatı orqanlarını, MTS-ləri və sovxozları kadrlarla möhkəmləndirməyə imkan verdi.

Xalq təsərrüfatının inkişaf etməsi əsasında zəhmətkeşlərin maddi rifahı və mədəni həyat səviyyəsi də yüksəlirdi. 1947-ci ilin axırlarında kartoçka sistemi ləğv edildi, pul islahatı keçirildi. Sonrakı illərdə çoxişlənən malların qiyməti aşağı salındı. Bu, fəhlə və qulluqçuların real əmək haqqının daha da artmasına və kolxozçu kəndlilərin gəlirinin çoxalmasına səbəb oldu.

Azərbaycan zəhmətkeşlərinə mədəni-məişət xidməti üçün dövlətin çəkdiyi xərclər 1940-cı ilə nisbətən demək olar iki dəfə artmışdı. Tibb müəssisələrinin də şəbəkəsi xeyli genişlənmişdi.

Respublikada 210 yeni məktəb tikilmişdi. Məktəblilərin sayı 150 min, müəllimlərin sayı isə 6800 nəfər artmışdı. Yeni ali məktəblər və elmi-tədqiqat institutları yaradılmışdı.

Respublikada 15 mindən çox ali təhsilli, 22 mindən artıq isə orta təhsilli mütəxəssis hazırlanmışdı.

Kadrların seçilməsi və yerləşdirilməsində, kənddə siyasi iş aparılmasında ciddi nöqsanlar var idi. Azərbaycanda 7,5 min ali və orta təhsilli kənd təsərrüfatı mütəxəssisi olduğu halda, 1953-cü ildə kolxozlarda cəmi 1655, MTS-lərdə isə 510 mütəxəssis işləyirdi.

İqtisadi cəhətdən geridə qalan kolxozları möhkəmləndirmək üçün respublikanın şəhərlərdən kənd rayonlarına daimi işə minlərlə fəhlə, mühəndis, texnik və kənd təsərrüfatı mütəxəssisi getdi.

Kənd təsərrüfatını əsaslı surətdə yüksəltmək uğrunda mübarizədə fəhlə sinfi ilə kolxozçu kəndlilərin ittifaqı getdikcə daha artıq möhkəmlənirdi, şəhərin kəndə köməyinin və onunla əlaqəsinin müxtəlif formaları inkişaf edirdi.

Həmin formalardan biri sənaye müəssisələrinin kolxozları və maşın-traktor stansiyalarını hamiliyə götürülməsindən ibarət idi.

Yüksək istehsal və texniki mədəniyyəti, kəndə hamilik köməyi göstərməkdə zəngin təcrübəsi olan Bakı fəhlə sinfi dövlətin kolxozçu kəndlilərə kömək etmək çağırışına qızğın səs verdi.

Respublikanın başqa şəhərlərinin fəhlələri də ondan nümunə götürdülər. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Naxçıvan və Xankəndinin yüzdən artıq iri sənaye müəssisəsinin, tikinti təşkilatının kollektivləri kolxoz və (sovxoz) MTS-lərin hamiliyə götürərək, istehsal proseslərinin mexanikləşdirilməsində, təsərrüfat binalarının tikilməsində, MTS-lərin texniki bazasının təmir və təchiz edilməsində, kolxoz kəndlərinin, rayon mərkəzlərinin elektrikləşməsində və abadlaşdırılmasında onlara kömək edirdilər.

Kənd təsərrüfatı elmi nailiyyətlərinin və qabaqcıl təcrübənin təbliğ olunması qüvvətləndirilmişdi. 1954-1955-ci illərdə kənd təsərrüfatı qabaqcıllarının respublika, zona və rayon müşavirələri keçirildi.

Kənd təsərrüfatını yüksəltmək uğrunda mübarizədə istehsalat yenilikçilərinin böyük bir ordusu yetişdi. Azərbaycanın təsərrüfat qabaqcılları və yenilikçilərinin təcrübəsi Ümumittifaq kənd təsərrüfatı sərgisində geniş nümayiş etdirildi.

Sov. İKP Mərkəzi Komitəsi və SSRİ Nazirlər Soveti Azərbaycanda kənd təsərrüfatının inkişafına, o cümlədən su təsərrüfatı tikintisinə çoxlu vəsait buraxılmışdı. Azərbaycanın kənd rayonlarında mədəni-məşiət şəraitinin yaxşılaşdırılmasına da əlavə vəsait ayrılmışdı. «Azərbaycan SSR-də kənd təsərrüfatını 1955-1960-cı illərdə daha da inkişaf etdirmək tədbirləri haqqında» Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1954-cü il 31 iyul tarixli qərarı həmin qayğının yeni təzahürü idi.

Həmin qərarda respublikanın pambıq əkini, taxıl bitkiləri və tərəvəz bitkiləri sahələrini xeyli genişləndirərək, pambığın məhsuldarlığını və ümumi pambıq yığımını artırmaq, bağçılığı, üzümçülüyü və ipəkçiliyi daha da inkişaf etdirmək nəzərdə tutulurdu.

Suvarılan torpaq sahəsini artırmaq, əkinlərin və bitkilərin su ilə təmin olunmasını yaxşılaşdırmaq, 18 yeni sovxoz, 10 maşın-traktor stansiyası yaratmaq, kənd təsərrüfatı işlərini daha da mexanikləşdirmək, respublikanın kənd əhalisinə mədəni-məişət xidmətini yaxşılaşdırmaq da nəzərdə tutulmuşdu.

Respublikada su təsərrüfatı tikintisi sahəsində böyük işlər görüldü. Yuxarı Qarabağ kanalı, Yuxarı Şirvan kanalı, Abşeronda suvarma sistemi və başqa bu kimi yeni iri su təsərrüfatı obyektlərinin tikilməsinə başlandı.

Məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsinə, çox zəngin təbii sərvətlərin maksimum dərəcədə istifadə olunmasına, sənaye və kommunal müəssisələrinin bahalı duru yanacaqdan təbii qaz yanacağına keçirilməsinə, sənayenin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına, Azərbaycan sənayesinin inkişafı üçün dövlətin buraxdığı material-texniki və maliyyə vəsaitindən qənaətlə istifadə olunmasına xüsusi diqqət verildi.

Azərbaycanda müharibədən sonrakı dövrdə 50-cən artıq iri sənaye müəssisəsi, o cümlədən yeni Bakı neft emalı zavodu, Sumqayıt sintetik kauçuk zavodu, respublikada əlvan metallurgiyanın ilkini olan alüminium zavodu, Mingəçevir kənd təsərrüfatı maşınqayırma zavodu, Daşkəsən dəmir mədəni, Sumqayıtda iri metallurgiya zavodu, dəmir-beton məmulatı zavodu, Qarabağ sement zavodu, Ba-

kı süd kombinatı, Horadiz pambıqtəmizləmə zavodu, Astara və Masallı çay fabrikləri və bir sıra başqa müəssisələr tikilib, yaxud yenidən qurulub işə salındı.

Zaqafqaziyada ən böyük elektrik stansiyası olan 356 min kilovat gücündəki Mingəçevir su-elektrik stansiyası tikilisinin əsas işləri 1953-cü ilin dekabrında başa çatdırılmışdı.

Respublikada yeni sənaye mərkəzləri yaradılmasının tək iqtisadi əhəmiyyəti deyil, böyük siyasi əhəmiyyəti də var idi.

Bu, fəhlə sinfinin sürətlə artmasına, fəhlə sinfi ilə kolxozçu kəndlilərin ittifaqının daha da möhkəmləndirilməsinə, zəhmətkeşlərin mədəni-texniki səviyyəsinin yüksəlməsinə səbəb olur, şəhərlə kənd arasında, əqli əmək və fiziki əmək arasındakı mühüm fərqlərin aradan qaldırılması kimi mühüm problemlərin həllinə kömək edir.

### *§ 5. Müharibədən sonra Azərbaycan-Ermənistan münasibətləri. Azərbaycanlıların öz doğma yurdlarından – Qərbi Azərbaycandan deportasiyası*

Qonşularından qopardığı və güzəşt edildiyi ərazilər hesabına müstəqil dövlət olmuş Ermənistan İkinci Dünya müharibəsindən sonra da Azərbaycana, habelə Türkiyəyə torpaq iddialarından əl çəkmirdi. O, Türkiyədən Şərqi Türkiyə torpaqlarına, Azərbaycandan Dağlıq Qarabağa iddialarında idi. Fürsətdən istifadə edən ermənilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə nail olmaq üçün Mikoyanın təşəbbüsü və Moskvanın dəstəyi ilə gizli olaraq xüsusi "Qarabağ Komitəsi" yaratmışdılar. Ermənistan başçıları Mikoyanın xeyir-duası ilə 1945-ci ilin payızında rəsmi olaraq SSRİ rəhbərliyinə Dağlıq Qarabağın Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə verilməsi barədə məsələ qaldırmışdılar. Onların fikrincə, Dağlıq Qarabağ iqtisadi cəhətdən Azərbaycan SSR-dən çox Ermənistan SSR ilə bağlı idi. Əslində Dağlıq Qarabağ Azərbaycanın əzəli ərazisi olaraq, onunla bağlı, onun hesabına yaşayırdı.

Mərkəzi hökumət dərhal bu müraciətə reksiya vermişdi. ÜİK(b) P MK –nın katibi Y.H. Malenkovun imzası ilə bu barədə Azərbaycan K(b) P MK-nın Birinci katibi M.C.Bağırova yazılı məlumat verilmiş və ondan öz rəyini bildirmək təklif olunmuşdu.

M.C.Bağırov həmin məktuba cavab olaraq, 1945-ci il dekabrın 10-da MK-ya yazdığı məktubda bildirmişdi ki, Ermənistanın Dağlıq Qarabağla əlaqədar irəli sürdüyü iddiaların heç bir elmi və tarixi əsasları yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və torpağı olmaqda qalmaqdadır. Habelə, M.C.Bağırovun cavab məktubunda bildirilmişdi ki, Azərbaycan Dağlıq Qarabağı Şuşa istisna olmaqla Ermənistana bu şərtlə güzəştə gedə bilər ki, müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və Sovet Rusiyasına verilmiş ( Zəngəzur, Dərələyəz, Vedibasar, Sürməli, Göycə, Dilican, Borçalı, Qara çöp,Dərbənd və.s.) ərazilərAzərbaycan SSR-ə qaytarılsın. Bu cavab ermənilərin Dağlıq Qarabağı ələ keçirmək planlarını puç etdi. Mərkəzi hökumətə problemin bütün ölkə üçün sonsuz fəlakətlər gətirəcə-

yini anladı. Məhz buna görə də, Mərkəzi hökumət məsələnin “arxivə verilməsini” vacib saydı.

Ermənilər Cənubi Qafqazda özlərinə yer elədikdən sonra zaman-zaman azərbaycanlıların öz doğma torpaqları olan Qərbi Azərbaycandan qovub çıxarmaq niyyətlərini həyata keçirməyə başladılar. 1905-1906, 1918-1920-ci illərdə yüzlərlə azərbaycanlılar yaşayan kəndlər dağıdılıb yandırılmış, onların əhalisi məhv edilmiş, sağ qalanlar öz doğma ocaqlarından pərən-pərən edilmişdilər. Onlar sovet rejimi şəraitində də,bu iyrənc şovinist niyyətlərindən əl çəkməmişdilər. Azərbaycan torpaqları hesabına Əzizbəyov (Dərələyəz), Ararat, Artaşat, Qafan, Noyamberyan, Mikoyan, Dilican, Mehri və.b. rayonları yaratmışdılar.

Ermənilər İkinci Dünya müharibəsi və ondan sonrakı dövrdə də bu iyrənc niyyətlərini davam etdirmişdilər. Onlar 1943-cü ildə İkinci Dünya müharibəsinin qızğın vaxtında üç müttəfiq dövlət ( ABŞ, SSRİ, Böyük Britaniya) başçılarının Tehran konfransında (28 noyabr- 1 dekabr 1943-cü il) SSRİ-İran münasibətləri məsələsinin müzakirəsindən istifadə edərək Sovet rəhbərliyindən İranda yaşayan ermənilərin SSRİ-yə -Ermənistana köçürülməsi razılığını almışdılar. Hətta, onlar xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 1946-cı il 19 oktyabr fərmanı verməsinə nail olmuşdular. Bu fərmana əsasən SSRİ Nazirlər Soveti 1947-ci il dekabrın 23-də “Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında” qərarını vermişdi. Həmin qərarı həyata keçirmək məqsədi ilə SSRİ Nazirlər Soveti 1948-ci il mart ayının 10-da “Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında qərarını” qəbul etmişdi.

Bu qərarda SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr qərarının yerinə yetirilməsi üçün konkret əməli tədbirlər müəyyən olunmuşdu. Həmin qərara görə 1948-1950-ci illərdə Ermənistanda yaşayan 400 min azərbaycanlıdan 100 mini Azərbaycan SSR-ə köçürülməli idi. Qərarda götərildiyi kimi, köçürülmə guya “könüllülük” prinsipi əsasında həyata keçirilməli idi. Əslində isə onlar öz doğma yurdlarından zorla köçürülürdülər.

Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu, əsasən Basarkeçər, Zəngibasar, Noyanberyan, Mikoyan, Dilican,Aştarxan, Kirovakan, Vedi rayonlarını əhatə etmişdi. Dağlıq və dağətəyi yerlərdə yerləşən bu rayonlar azərbaycanlıların kompakt və ya ermənilərlə qarışıq halda yaşadıqları rayonlar idi.

Azərbaycanlıların Qərbi Azərbaycandakı doğma yurdlarından kütləvi deportasiyası 1953-cü ilədək davam etmişdi. Bu müddətdə Ermənistandan 144 mindən çox azərbaycanlı deportasiya edilmişdi. Onlar guya xaricdən kütləvi axınla gələn erməniləri torpaq çatışmamazlığı üzündən Ermənistan SSR-də yerləşdirməyin mümkün olmadığı bəhanəsi ilə deportasiya olunmuşdular.

Əslində xaricdən, əsasən İrandan, Suriyadan, Livandan, Misirdən, Ermənistan SSR-ə gələn ermənilər azərbaycanlılardan boşaldılmış kənd yerlərində deyil,

özlərinin təkidi ilə şəhər və qəsəbələrdə yerləşdirilirdilər. Bu da, Ermənistan rəhbərliyinin bəhanəsinin əsassız və uydurma olduğundan soraq verirdi.

Öz doğma yurdlarından zorla deportasiyaya məruz qalan azərbaycanlılar əsasən Kür –Araz ovalığında, Jdanov (indiki Beyləqan), İmişli, Saatlı, Sabirabad, Salyan, habelə Yevlax,Ucar, Xaldan, Kürdəmir və.s. aran rayonlarında yerləşdirildilər. Bu da onların yarıdan çoxunun isti iqlim şəraitinə dözməyərək tələf olması ilə nəticələnmişdi.

Bu hadisə əvvəllər sovet tarixşünaslığında SSRİ məkanında millətlərin və millətlərarası münasibətlərin tənzim edilməsi, inkişafı və rəhbərliyin "xeyirxah" addımı kimi qiymətləndirilmişdi. Lakin, Azərbaycanın müstəqilliyi bərpa olunduqdan sonra tariximizin bu faciəli qara səhifəsi özünün əsl siyasi mənasını almışdır. Bu faciəli hadisə əsl siyasi qiymətini ilk dəfə Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olarkən "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr fərmanında almışdı. O,xain xislətli qonşumuz olan ermənilərin SSRİ hökumətinin və xaricdəki erməni lobbisinin dəstəyi ilə azərbaycanlılara qarşı növbəti soyqırımı kimi qiymətləndirilmişdi. 50-ci illərin ikinci yarısı sovet cəmiyyətinin tarixində Stalinin şəxsiyyətinə pərəstişin ağır nəticələrinin ləğv edilməsi, sovet siyasi sisteminin demokratikləşdirilməsi, ölkəyə və rəhbərlikdə demokratik və mühafizəkar meyllərin mübarizəsi, iqtisadi islahatların həyata keçirilməsi və onların başa çatdırılmaması ilə xarakterizə olunur.

Böyük Vətən müharibəsi dövründə bütöv xalqlara - Krım tatarlarına, Məshəti türklərinə, Volqaboyu almanlarına, kabardinlərə, qaraçaylara, çeçenlərə, inquşlara, kalmıklara qarşı cəza tədbirləri tətbiq edilmiş, onların milli qurumları ləğv edilmiş və həmin xalqlar zorla öz doğma torpaqlarından Sibirə və Qazaxıstana sürgün edilmişdilər. 50-ci illərdə həmin xalqların bir çoxu bəraət almış və öz doğma torpaqlarına qayıdıb milli qrumlarını bərpa edə bilmişdilər.

Lakin Məshəti türkləri, Volqaboyu almanları və başqaları o cümlədən Krım tatarları həmin prosesdən kənarda qalmış və onların öz vətənlərinə qayıtması, milli qurumlarını bərpa etməsi bu gün də öz həllini gözləyir.

### *§ 6. Cənubi Azərbaycanda milli azadlıq hərəkatı (1945-1946). S.C.Pişəvəri*

1941-ci ilin payızında Azərbaycanda Demokratik və milli azadlıq hərəkətının yenidən yüksəlişi üçün şərait yarandı. İkinci dünya müharibəsinin getdiyi dövrdə Ümumİranda mühüm siyasi dəyişikliklər baş verdi. Bu siyasi dəyişikliklər SSRİ-nin və İngiltərə dövlətinin silahlı qüvvələrinin İrana daxil olmasından /1941-ci il avqust/, Rza şah diktaturasının dağılmasından /1925-ci il dekabrın 12-dən 1941—i il sentyabrın 16-na qədər hakimiyyətdə olub/ və ölkədə xalqın azadlıq hərəkətının yenidən açıq surətdə inkişaf etməsi üçün imkan yaranmasından ibarət idi. Ikinci dünya müharibəsi ərəfəsində Rza şah hökümətinin Faşist Almaniyası ilə yaxınlaşması nəticəsində ölkədə alman təsiri güclənmiş və İranda SSRI-yə

qarşı hücum təhlükəsi artmışdı. Bununla əlaqədar olaraq Sovet hökuməti 1921-ci il tarixli Sovet-İran müqaviləsinin 6-cı maddəsinə uyğun olaraq öz qoşunlarını İranın şimal əyalətlərinə yeritdi. Bu maddəyə görə İran ərazisində üçüncü ölkə tərəfindən silahlı müdaxilə yolu ilə işğalçılıq siyasətinə və yaxud İran ərazisini Sovet Rusiyası əleyhinə hərbi hücum istinadgahına çevirməyə cəhd olunarsa Sovet hökuməti tərəfindən edilən xəbərdarlıqdan sonra İran hökuməti özü bu təhlükənin qarşısını almağa qadir olmazsa sovet hökuməti özünü müdafiə məqsədilə zəruri hərbi tədbirlər görmək üçün öz qoşunlarını müvəqqəti olaraq İran ərazisində daxil etmək hüququna malik olacaqdır.

İngiltərə dövləti silahlı qüvvələrinin İranda olmasından istifadə edərək bu ölkədə mövqelərini daha da möhkəmləndirdi. İranın zəngin neft sərvətini yenə də qarət etməkdə davam etdi.

1942-ci ildə öz ordu hissələrini İrana daxil etmiş ABŞ-da yaranmış siyasi vəziyyətdən İranda öz mövqelərini möhkəmlətmək üçün istifadə etdi. Belə bir şəraitdə Rza şah istefa verdi, 1941-ci il sentyabrın 27-də onu vəliəhd Məhəmməd Rza əvəz etdi. Rza şahın istefasından sonra da İranda hakimiyyət yenə də irticaçı mahiyyətdə qaldı. Köhnəliyin, irticanın və imperialistlərin İranda əsas dayağı olan şahlıq üsuli-idarəsi toxunulmaz saxlandı, istismarçı siniflərin hökmranlığına və mənafeyinə xidmət edən irticaçı qanunlar qüvvədə qalırdı. Xarici qoşunlar İrana daxil olduqdan sonra yaranan hökumətlər də başında olduqları müddətdə hər vasitə ilə xalqın azadlıq hərəkatının qarşısını almağa və istismarçı siniflərin hakimiyyətini möhkəmlətməyə çalışmışlar. İran hökuməti Cənubi Azərbaycanda öz mövqelərini tezliklə möhkəmlətməyə başladı. Sentyabrın ikinci yarısında Tehrandan Azərbaycana yenidən valilər, idarə rəisləri və ən irticaçı məmurlar göndərildi.

Rza şah diktaturasının dağılması Azərbaycanda böyük siyasi və ictimai canlanmaya səbəb oldu. 1941-ci il sentyabrın əvvəllərindən Təbriz, Ərdəbil, Urmiya, Marağa, Sərab, Əhər, Mərənd və Xoy şəhərlərində azadgahların klubları yaranmağa başladı. Bu klublar azadlıq, demokratiya, konstitusiya, 1905-ci illər İran inqilabı, Şeyx Məhəmməd Xiyabani üsyanı haqqında danışılırdı.

Tehranda və İranın müxtəlif yerlərində siyasi həbs və sürgünlərdən azad olanlardan, 1941-ci il sentyabrın 29-da İran xalq Partiyasının yaradanlardan bir çoxu M.Azadvətən, Qulu Sübhi, Dadaş Tağızadə, C.Ş.Pişəvəri, Sadıq Zamani, Abdulla Nizami, Ə.Musəvi, A.Pənahi, M.Çəşmazər, T.Şahin və b. Təbrizə, Zəncana, Urmiya, Ərdəbil, Astara, Maku və b. yerlərə gedərək yenə də azadlıq uğrunda apardıqları mübarizəni fəal sürətdə davam etdirməyə başladılar. 1941-ci il oktyabrın ikinci yarısında Təbrizdə azadxahların bir dəstəsi tərəfindən Azərbaycan adlı cəmiyyət yaradıldı. Noyabrın 1-də həmin cəmiyyətin «Azərbaycan» qəzeti nəşrə başladı. Azərbaycan cəmiyyəti İran dövlətinin Azərbaycan xalqına etdiyi milli zülm əleyhinə 1941-ci il dövlət çevrilişindən sonra inqilabi mübarizə aparan birinci ictimai təşkilat idi. Bu cəmiyyət Azərbaycan kəndlərində jandarmların cinayətlərinə şiddətli etiraz edir, İran hökümətinin Azərbaycan taxılı daşıdaraq orada süni çətinlik yaratmasını, Azərbaycan xalqına edilən milli zülmü ifşa edir,

Azərbaycan dili və mədəniyyətinin inkişafı uğrunda mübarizə aparırdı. Xalq kütləri tərəfindən böyük rəğbətlə qarşılandığına görə bir sıra demokratik milli-mədəni tədbirlərə başladığına görə İran hökuməti 1942-ci il aprelin əvvəlində Azərbaycan cəmiyyətini dağıtdı və «Azərbaycan» qəzetini bağladı. Buna baxmayaraq Azərbaycanda bu dövrdə Azərbaycan zəhmətkeşlər təşkilatı /1942-ci il/, Demokratiya Tərəfdarları Mərkəzi /1943-cü il/, bir çox milli-mədəni cəmiyyətlər və İran Xalq Partiyasının yerli təşkilatları yaranmışdı.

Diktatura dövründə /1925-1941-ci illər/ mətbuat üzərində yaranmış senzura nəzarəti aradan qaldırıldıqdan sonra İranda azad və demokratik qəzetlər nəşrə başladı. Cənubi Azərbaycanda 1941-ci ilin oktyabrından 1945-ci ilin sentyabr ayına qədərki müddətdə 21 adda qəzet nəşr edilmişdi. 40-cı illərdə İran iqtisadi cəhətdən geri qalmış kənd təsərrüfatı ölkəsi idi. 1940-cı ildə ölkədə istehsal olunan məhsulun 70,5 faizini kənd təsərrüfatı, 23 faizini sənaye müəssisələri istehsal etmişdi. Kənd təsərrüfatında feodal istehsal münasibətlərinin qüvvətli qalıqları və sənayedə kapitalist istehsal münasibəti hökmran idi.

1941-1945-ci illərdə Azərbaycanın sosial-iqtisadi həyatında birinci növbədə həll edilməsi zəruri olan əsas məsələ torpaq və kəndli məsələsi idi. Azərbaycanda əkilən torpaqların çox böyük hissəsi iri mülkədarların idi. Lakin İranda olduğu kimi Cənubi Azərbaycanda da kəndlilərin 60 faizinin əsla torpağı yox idi. Bir hektara qədər torpağı olanlar isə kəndlilərin 23 faizini təşkil edirdilər.

Kəndlilərin 83-93 faizi mülkədarlardan torpaq icarəyə götürməyə məcbur olurdular. Torpaq və su mülkədarların əlində olduğundan məhsulun 45 faizi onlara çatmalı idi. Kəndlilərin çoxunun qoşqu və toxumu olmadığından çox yerdə kəndliyə məhsulun ancaq 40 faizi çatırdı. Bundan da kəndlilər qeyri-qanuni vergilər verməyə məcbur edilirdilər. Beləliklə, kəndlinin becərdiyi məhsulun 80 faizdən çoxunu mülkədarlar onların əlindən alırdılar. Kənd təsərrüfatı işləri orta əsrlər alətləri ilə görülürdü. Azərbaycanda cəmi 6-7 traktor var idi. Onlar da hökümətin idi. Kənd təsərrüfatında feodal istehsal münasibətlərinin qalıqları hökmran olduğundan və müasir aqrotexniki tədbirlər tətbiq edilmədiyindən Cənubi Azərbaycanda məhsuldarlıq aşağı idi. Azərbaycan kəndliləri siyasi hüquqsuzluq, şiddətli zülm, yoxsulluq və cəhalət içərisində yaşayırdılar. Cənubi Azərbaycanın 7340 kəndinin heç birində tibb məntəqəsi, həkim, feldşer yox idi.

XX -əsrin 30-40-cı illərdə İran sənayesi yüngül sənayedən ibarət idi. Sənaye müəssisələrində başlıca olaraq kənd təsərrüfatı və maldarlıq məhsulları emal olunurdu. Sənaye sahələri içərisində xalçaçılıq və neft sənayesi birinci yerdə dururdu. Sənaye müəssisələri əsasən kapitalistlərin, dövlətin və xarici kapitalın mülkiyyətində idi.

1941-1945-ci illərdə Cənubi Azərbaycan sənayesi də yüngül sənayedən ibarət idi. Azərbaycanda sənaye müəssisələri əsasən Təbriz şəhərində yerləşmişdi. Tam olmayan məlumata görə, 1944-cü ildə Təbrizdə 7313 nəfər fəhləsi olan 227 xalça toxunan emalatxana, 2435 fəhlə işləyən 7 əyirici-toxuyucu fabrik, 654 fəhləsi olan 2 gön zavodu, 1128 fəhləsi olan 2 kibrit fabriki, 52 fəhləsi olan 3 sabun

fabriki, bunlardan başqa un dəyirmanı, pivə və şərab zavodları, taxta fabriki və s. sənaye müəssisələri var idi. Azərbaycan fəhlələri 1941-1945-ci illərdə də siyasi, iqtisadi və sosial hüquqlardan məhrum idilər. Fəhlələri sıxışdıran irticaçı qanunların hamısı öz qüvvəsini saxlamışdı. Fəhlələrin əmək haqqı az, iş və yaşayış şəraitləri olduqca pis idi.

Milli məsələ 1941-1945-ci illərdə də İran və Cənubi Azərbaycanın sosial-iqtisadi həyatında qarşıda duran mühüm problemlərdən biri olmuşdur. İranda hakimiyyət əsasən fars istismarçı sinif və təbəqələrinin əlində toplandığından onlar digər millətlər üzərində ağalıq edirdilər. Azərbaycan xalqına qarşı şiddətli milli zülm 1941-1945-ci illərdə də davam edirdi. İran dövləti Azərbaycan xalqını siyasi cəhətdən hüquqsuz saxlayırdı. Cənubi Azərbaycan xalqı İranda farslardan sonra sayca ikinci yerdə dururdu. Buna baxmayaraq bu xalqa hakimiyyətdə və ölkənin idarə edilməsində iştirak etməyə icazə verilməmişdi. İran dövləti Cənubi Azərbaycan xalqını konstitusiyada təsbit olunmuş əyalət və vilayət əncümənləri təşkil etmək hüququndan və demokratik azadlıqlardan də məhrum etmişdi. O var qüvvəsi ilə Azərbaycan xalqının siyasi cəhətdən mütəşəkkil olmasının qarşısını alırdı.

İran dövləti 1941-1945-ci illərdə də Cənubi Azərbaycanı iqtisadi cəhətdən geridə saxlayır və Azərbaycan xalqının iqtisadi birliyini pozurdu. İran dövlətinin Azərbaycandakı iqtisadi siyasəti nəticəsində orada bir sıra fabrik və zavodlar bağlandı, işsizlər artdı və Azərbaycan ticarətində durğunluq yarandı. İran dövləti Azərbaycanın ərazi birliyini də pozmuşdur. Bu nəticə etibarilə Azərbaycan xalqının siyasi, iqtisadi və mədəni birliyinin pozulmasına aparırdı. Rza şah diktaturası 1941-ci ilin sentyabrına qədər Cənubi Azərbaycan ərazisini aşağıdakı hissələrə parçalamışdı.

1. Təbriz və Ərdəbil vilayətlərindən ibarət 3-cü əyalət.
2. Urmiya, Xoy, Marağa, Bicar və Mahabad /Gürcüstan/ vilayətlərindən ibarət 4-cü əyalət.
3. Azərbaycanın Zəncan vilayəti İranın 1-ci əyalətinə tabe edilmişdi.
4. Qəzvin, Həmədan, Qum, Məlayir, Tuserqan və Sənədəc vilayətləri ətrafındakı onlarla Azərbaycan mahalı və 2500-dən çox kəndi İranın 1-ci, Mərkəzi və 5-ci əyalətlərinə verilmişdi. Cənubi Azərbaycanın ərazisini parçalamaq siyasəti bu gün də davam edir. Azərbaycanın bir sıra şəhər, kənd, qəsəbə və mahal, dağ, çay və tarixi yer adları farslaşdırılmış şəkildə yazılırdı. Azərbaycanın tarixi abidələri bərbad saxlanılırdı. İran hökuməti qəsdən Azərbaycan və kürd xalqları arasında düşmənçilik yayır, Azərbaycan xalqına münasibətdə ayrı seçkilik edir, etimadsızlıq göstərirdi.

İran dövlətinin hakim fars millətçilik siyasətinə uyğun olaraq Cənubi Azərbaycanda bütün idarələrdə və məhkəmələrdə işlər, hərbi hissələrdə təlimat, bütün məktəblərdə təhsil ancaq fars dilində aparılırdı. Azərbaycan dilində kitab-jurnal, qəzet və s. nəşr etməyə icazə verilmirdi. Azərbaycan dilində bir dənə də olsun teatr, filarmoniya, muzey, ali məktəb yox idi. 1944-cü ilin ikinci yarısında İranda azadlıq hərəkatı gücləndi. 1944-cü ilin payızında Azərbaycanda da izdihamlı nü-

mayiş və mitinqlər oldu. Azərbaycan azadlıq cəbhəsinin təşkil etdiyi bu yığıncaqları şüarlarında yazmışdı: «Azadxahlardan və vətənpərvərlərdən əncümənlərinin təşkil olunmasını, konstitusiyasının həyata keçirilməsini tələb edir. İran hökuməti Azərbaycan xalqının bu haqlı tələblərini rədd etdi. Xalqın tələblərinin rədd olunması Azərbaycanda siyasi vəziyyəti daha da kəskinləşdirdi. Belə bir şəraitdə 1945-ci il avqustun 15-də Məşhəd şəhərində İran qoşunlarının inqilabçı zabitlərindən bir dəstəsi hökümətin zülmü əleyhinə üsyan etdi.

Cənubi Azərbaycanda fəhlələrin, kəndlilərin və orta təbəqələrin içərisində milli azadlıq və demokraiya uğrunda inqilabi mübarizə əhval-ruhiyyəsi var idi. Münasib beynəlxalq və daxili şərait bu əhval-ruhiyyəni daha da inqilabiləşdirmişdi. Əhalinin müxtəlif sinif və təbəqələrini milli azadlıq, iqtisadi və mədəni tərəqqi şüarları altında ümumi mənafe birləşdirirdi.

Bu konkret tarixi şəraitdə Cənubi Azərbaycanda xalqın milli-azadlıq hərəkətına başçılıq edəcək partiya yaranması zəruri idi. Azərbaycanın demokratik ictimaiyyəti 1945-ci il avqustun əvvəlindən əməli surətdə Azərbaycanda yeni bir mütərəqqi siyasi partiya yaratmağa başladı. Bu işə 1943-cü ildən Tehranda çıxan «Ajir» adlı qəzetin nəşri və redaktoru Seyid Cəfər Pişəvəri başçılıq edirdi.

1945-ci il sentyabrın 3-də Azərbaycan Demokratik Partiyasının müraciətnaməsi nəşr olundu. Bu müraciətnamə vasitəsilə Azərbaycanda yeni bir siyasi partiya Azərbaycan Demokrat Partiyası yaradıldığı, həmin partiyanın məqsəd və vəzifələri xalqa çatdırıldı. Müraciətnamədə İran dövlətinin Cənubi Azərbaycan xalqına etdiyi milli zülm hərtərəfli ifşa olunmuşdu. Azərbaycan xalqının milli azadlığı yolunda görüləcək işlər müraciətnamədə 12 maddədən ibarət şüarlar şəklində verilmişdi.

1. İranın istiqlal və ərazi bütövlüyünü saxlamaqla bərabər Azərbaycana daxili azadlıq və mədəni muxtariyyət verilməlidir ki, öüzünün mədəniyyəti yolunda və Azərbaycannın abadlaşması və tərəqqisi üçün Ümumi məmləkətin ali qanunlarını gözləməklə bərabər öz müqəddəratını təyin etsin.

2. Bu məqsədi həyata keçirmək üçün çox tezliklə əyalət və vilayət əncümlərini seçib işə başlamalıdır. Müraciətnamənin digər şüarlarında deyilirdi ki, partiya Azərbaycanda məktəblərdə dərslərin Azərbaycan dilində aparılması, Azərbaycanda universitetin təşkil edilməsi, mövcud fabrik-zavodların təşkili və yenilərinin yaranması, ticarətin genişləndirilməsi və Azərbaycan əmtəələrinin xaricə çıxarılması tranzit yollar axtarmaq, işsizliyi aradan qaldırmaq, Azərbaycan əhalisinin sayına görə İran məclisinə nümayəndə göndərməyə haqqı olmaq, şəhərləri abadlaşdırmaq, Azərbaycanda yığılan vergilərin yarısından çoxunu Azərbaycannın öz ehtiyaclarına sərf etmək və s. uğrunda ciddi təşəbbüs göstərəcəkdir.

Partiyanın müraciətnaməsində kəndli və torpaq məsələlərinə böyük əhəmiyyət verilmişdir. Orada göstərilirdi ki, kəndli ilə mülkədar arasında müəyyən bir hüdud təyin etmək və kəndlilərdən alınan qeyri-qanuni vergilərin qabağını almaq, Azərbaycan kəndlilərinin əksəriyyətini torpaq və əkin alətləri ilə təmin etmək partiyanın təxirəsalınmaz vəzifələrindəndir. Partiya dövlət torpaqlarını və Azərbayca-

nı tərk edib qaçan mülkədarların torpaqlarını qeydsiz-şərtsiz kəndlilərin ixtiyarına verməyi nəzərdə tuturdu. Müraciətnamədə İrandakı mövcud diktatorluğa və zorakılığa əsaslanan mərkəziyyətin əleyhinə çıxılır və İranda mərkəziyyətin demokratik əsaslar üzrə qurulması tələb edilirdi.

1945-ci il sentyabrın 5-də Azərbaycan Demokratik Partiyasının orqanı olan «Azərbaycan» qəzetinin birinci nömrəsi çapdan çıxdı. «Azərbaycan» qəzeti birinci nömrəsindən başlayaraq Azərbaycan dilində çıxdı. Qəzet partiyanın məram və məqsədini xalqa çatdırırdı.

ADP-nin müraciətnaməsi nəşr olan gündən bu partiyanı yaradanlar xalq içərisində geniş təbliğat və təşkilat işi aparmağa başladılar. Bunun nəticəsində partiya çox sürətlə boy atdı. 1945-ci il sentyabrın 13-də Təbrizdə ADP-nin konfransı oldu. Bu konfrans partiya işlərinə rəhbərlik etmək üçün 2 nəfərdən ibarət komitə yaratdı. Həmin komitə S.C.Pişəvəri sədr və M.Ə.Şəbüstəri sədr müavini seçildilər.

S.C.Pişəvəri /1892-1947/ Cənubi Azərbaycanın Xalxal mahalının Zeyvə kəndində kəndli ailəsində anadan olmuşdur. 19-20 yaşlarında siyasi və inqilabi fəaliyyətə başlayaraq 1917-xi ildə Qafqazda inqilabi hərəkətda yaxından iştirak etmişdir. 1918-ci ildən 1930-cu ilin sonuna qədər Pişəvəri İran Demokratik Firqəsi və İran Ədalət Firqəsi sıralarında Gilan əyalətində inqilabi respublika hökümətində xarici işlər naziri və siyasi rəhbər vəzifəsində /1920-ci ilin iyununda/, İran kommunist partiyası sıralarında müxtəlif mühüm və məsul partiya vəzifələrində işləyərək İran xalqlarının ingilis imperialzmindən və Rza şah diktaturasının əsarətindən qurtarması uğrunda mübarizə fəal surətdə iştirak etmişdir. 1930-cu ilin sonundan 1941-ci il sentyabrın ortasına qədər Pişəvəri Rza şah diktaturası tərəfindən həbs olunub, sürgündə saxlanmışdır. 1941-ci il avqustun 24-də SSRI və Ingiltərə orduları İrana daxil olduqdan sonra Pişəvəri də sürgündən azad edildi. S.C.Pişəvəri 1941-ci ilin sentyabrın sonunda İran Xalq Partiyasını və 1943-cü ildə İran Azadlıq Cəbhəsini yaradanlardan biri olmuşdur. O 1944-cü ilin əvvəllərində İranın 14-cü məclisinə Təbriz seçki dairəsindən ən çox 15786 səslə deputat seçilmişdir. Pişəvəri 1945-ci ilin sentyabrından Azərbaycan Demokratik Partiyasının sədri və 1945-ci ili dekabrın 12-dən 1946-cı il iyunun 25-dək Azərbaycan Milli hökümətinin Baş nazari olmuşdur. Azərbaycanda xalq kütlələrinin hərəkətı genişlənməkdə idi. Cənubi Azərbaycan fədailəri İranın irticaçı hökümətinin silahlı qüvvələrinə ilk zərbəni 1945-ci il noyabrın 16-dan 17-sinə keçən gecə Marağa, Mərənd, Miyanə, Sərab və Ərdəbil mahallarında eyni bir vaxtda vurdular. Nəticədə 1945-ci il noyabrın 17-də Miyanə və Sərab şəhərləri, Marağa, Mərənd və Ərdəbilin bir sıra kəndləri hökumət qüvvələrindən azad edildilər. Fədailərin çox hissəsini yoxsul və ortabab kəndlilər təşkil edirdilər. Şəhər yerlərində isə əsas fədai qüvvəsi fəhlələrdən və sənətkarlardan ibarət idi. Təbriz şəhərinin fabrik-zavod fəhlələri həm kəndlilərin, həm də başqa şəhərlərin azad olunması uğrunda vuruşlarda dəstə-dəstə iştirak etmişlər.

Cənubi Azərbaycanda milli-azadlıq və demokratik üsul-idarə qurulmasına İran dövləti çox şiddətli müqavimət göstərirdi. Noyabrın 17-də Azərbaycana hü-

cum etmək üçün İran qoşununun ilk böyük dəstəsi Tehrandan Qəzvinə hərəkət etdi. Noyabrın 18-də Azərbaycan üzərinə göndərilən İran qoşununun ikinci bir dəstəsi Tehrandan Qəzvinə tərəf hərəkət etdi. Azərbaycanda isə hərəkət yüksəlişə doğru gedirdi. 1945-ci il noyabrın 17-dən Azərbaycan fədailəri kəndləri, qəsəbələri və şəhərləri bir-birinin ardınca İran hökümətinin qoşun, jandarm və polis qüvvələrindən azad etdilər. Azərbaycanın böyük qəsəbə və şəhərlərindən noyabrın 18-də Həmədan, 25-də Zəncan şəhəri, 26-da Germi, 27-də Astara şəhəri və Biləsuvar, dekabrın 1-də Xoy və Maku şəhərləri, 3-də Səlmas, 5-də Marağa, 9-da Meşkin şəhər, dekabrın 12-də Təbriz şəhəri, 13-də Əhər və Xalxal şəhərləri, 15-də Ərdəbil şəhəri, 16-da Kələybər və Miyandab və dekabrın 19-da Urmiya şəhəri fədailər tərəfindən azad olundu.

Azərbaycan Demokrat Partiyası xalqın silahlı mübarizəsi ilə yanaşı xalq hakimiyyəti yaratmaq uğrunda bir sıra siyasi-təşkilatı hazırlıq işləri də apardı. 1945-ci il noyabrın 20-də Təbriz şəhərində Azərbaycan Xalq Konqresi təşkil olundu. Konqresə xalq yığıncaqlarında 150 min nəfərin imzası ilə 724 nəfər nümayəndə seçilmişdi. Azərbaycan Xalq Konqresi bir çox tarixi sənədlər qəbul etdi. Bu qərarlarda Azərbaycan Xalq Konqresi /AXK/ özünü müəssisələr məclisi elan etməklə Azərbaycan xalqının öz müqəddəratını təyin etməsinə qanuni əsas yaradan, səlahiyyətli və qanun verə bilən ali orqan oldu. Bununla da Cənubi Azərbaycanla İran arasındakı irticaçı mərkəziyyət zənciri qırıldı. Xalq Konqresi Azərbaycanda Milli məclis və Milli hökumət yaradılmasını qərara almaqla Azərbaycan xalqına öz müqəddəratını təyin etmək yolunu göstərdi. Milli məclisin seçki qanununda yaxın və orta şərq tarixində birinci dəfə qadınlara kişilərlə bərabər seçmək və seçilmək hüququ verirdi. Bu qanunda göstərilirdi ki, seçkilər müstəqim, gizli və bərabərdir. Seçki qanunu 20 yaşına çatanlara seçmək və 27 yaşdan 80 yaşa qədər olanlara seçilmək hüququ verilmişdir. Azərbaycan məclisinin nümayəndələrinin sayı 100 nəfər müəyyən olunmuşdu. AXK-nin verdiyi seçki qanunu məmləkətin istiqlaliyyətinin, Azərbaycanın muxtariyyətinin və Xalq hakimiyyətinin əleyhinə fəaliyyət göstərənləri seçki hüququndan məhrum etmişdi. Xalq Konqresinin yaratdığı Azərbaycan Milli heyəti Azərbaycan milli-azadlıq hərəkatında mühüm inqilabi rol oynadı. Azərbaycanda xalqın ilk silahlı dəstələri yarandığı gündən /1945-ci il oktyabrın 23-dən/ milli heyət seçildiyi günə /1945-ci il noyabrın 21-nə qədər mü-əyyən mənada ikihakimiyyətlilik var idi. Azərbaycan Milli heyəti işə başladığı gündən /1945-ci il noyabrın 21-dən/ isə Azərbaycanda ikihakimiyyətlilik rəsmiləşdi. Xalq hakimiyyətinin mərkəzləşmiş orqanı yarandı. Azərbaycan Milli heyətinin 39 nəfər üzvü sırasında Azərbaycan əhalisinin bütün sinif, təbəqə və xalqlarının əksər vilayətlərinin və ellərin nümayəndələri var idi. Azərbaycan Milli heyəti xalqın qüdrətinə arxalanaraq bir sıra mühüm inqilabi əhəmiyyətli işlər gördü. Milli heyət İran hökuməti tərəfindən Azərbaycandan taxılın daşınıb aparılmasının qarşısını aldı, irticaçı mülkədarların əsassız şikayətləri üzrə həbs olunmuş yüzlərlə kəndlini azad etdirdi, xalqın zəruri işlərinə baxmaq üçün hökümətin bir sıra idarələrinə göstərişlər verdi, xalqın asayişini pozanlarla inqilabi yolla mübarizə apardı və sair

tədbirlər gördü. Milli heyət Azərbaycan Milli məclisi seçkilərinə başlamaq haqqında 1945-ci il noyabrın 21-də fərman verdi. Fərmana əsasən 1945-ci il noyabrın 27-də Azərbaycanın vilayət və mahallarında Azərbaycan Milli Məclisi seçkilər başlandı. Seçkilər beş gün davam edərək dekabrın 1-də qurtardı. Seçilmiş 100 nəfər nümayəndənin böyük əksəriyyətini görkəmli inqilabçılar, mübariz, maarifpərvər şəxslər, kəndlilər, fəhlələr, ziyalılar, sənətkarlar, azad peşə sahibləri və milli burjuaziyanın nümayəndələri təşkil edirdilər. Azərbaycan Milli məclisi birinci iclasında özünün 9 nəfərdən ibarət daimi Rəyasət heyətini seçdi. Mirzə Əli Şəbüstəri – Azərbaycan Milli məclisinin rəisi, Sadıq Badəqan, Məhəmməd Tağı Rəfi Nizaməddəvlə və Həsən Cövdət – məclis rəisinin müavinləri, Mirrəhim Vilayi və Məhəmməd Əzima – məclisin katibləri, Əliəsgər Dibaiyan, Sadıq Dilməqani və Muradəli xan Teymuri Rəyasət heyətinin üzvləri. Azərbaycan Xalq Konqresinin 1945-ci il noyabrın 21-də seçdiyi Azərbaycan Milli heyəti 21 gün fəaliyyət göstərdikdən sonra məclisin birinci iclasında vəzifəsi axıra çatdığını elan etdi və səlahiyyətini yerə qoydu.

Cənubi Azərbaycan Milli məclisinin 1945-ci il dekabrın 12-də iclasında Azərbaycan milli hökümətin təşkil edildi. Azərbaycan Milli məclisinin açıldığı və Azərbaycan Milli hökümətinin təşkil olunduğu tarix İran təqvimi üzrə azər ayının 21-nə uyğun gəlir. Buna görə də bu tarixi gün «21 azər» günü adı ilə və Cənubi Azərbaycanda 1945-1946-cı illərdəki milli-azadlıq və demokratik hərəkat «21 azər hərəkatı» adı ilə məşhur olmuşdur. Milli məclis özünün daxili nizamnaməsinə uyğun olaraq hökuməti – nazirlər Şurasını təşkil etməyi deputatların əksəriyyətinin mənsub olduğu partiyanın rəhbərinə tapşırmışdı. Ona görə də Azərbaycan Demokratik Partiyasının sədri S.C.Pişəvəri Azərbaycan Milli hökümətinin tərkibini /Nazirlər Şurasını/ Milli məclisə təqlim etdi. Milli məclis Milli hökuməti aşağıdakı tərkibdə təsdiq etdi. Azərbaycan Milli hökümətinin Baş Vəziri /Nazirlər Şurasının sədri/ S.C.Pişəvəri, daxili işlər vəziri Salamulla Cavid, xalq qoşunları vəziri Cəfər Kavyan, kənd təsərrüfat vəziri Cavid Məhtaş, Maarif vəziri Məhəmməd Birya, səhiyyə vəziri Örəngi, maliyyə vəziri Qulamrza İlhami, ədliyyə vəziri Yusif Əzima, yol, poçt, teleqraf və telefon vəziri Mirzərəbi Kəbiri, ticarət və iqtisad vəziri Rza Rəsuli, iş və zəhmət vəziri Həsən Gövdət təyin edildi. Azərbaycan Milli hökümətinin nazirlikləri vəzirlik, naziri vəzir adlanırdılar.

Milli Məclis Zeynalabdin Qiyamini Azərbaycan – Ali məhkəməsinin rəisi və Firudin İbrahimini Azərbaycan prokuroru seçdi.

Cənubi Azərbaycan – Milli məclisi Baş Vəzir S.C.Pişəvarinin məclisə təqdim etdiyi Azərbaycan Milli hökümətinin iş proqramını geniş müzakirədən sonra yekdilliklə qəbul etdi. Məclis xalqın azadlığını qorumaq üçün Azərbaycan Milli hökumətinə geniş səlahiyyət verdi.

1945-ci il dekabr ayının 20-dən Azərbaycan İranın irticaçı və şahlıq hökumətinin zülmündən xilas edildi və Azərbaycanda Xalq hakimiyyəti bərqərar oldu. Azərbaycan Milli hökümətinin proqramında İran daxilində Azərbaycanın muxtariyyəti prinsipinə tamamilə riayət olunmuşdur. Bu proqramda Cənubi Azərbayca-

nın siyasi, iqtisadi, ictimai və mədəni həyatının bütün sahələrinin milli azadlıq və demokratiya əsasları üzrə yenidən qurulması, inkişaf etidirilməsi və Azərbaycanın muxtariyyətinin qorunması və möhkəmləndirilməsi üçün yaxın müddətdə görüləcək əməli vəzifələr müəyyən edilmişdi. Azərbaycan Milli hökuməti İranın mərkəzi hökümətini tanıyırdı. Xalq hakimiyyəti yaranana qədər olan vəziyyətin tam əksinə olaraq Azərbaycan Milli məclisi və Azərbaycan Milli hökuməti simasında Azərbaycan öz müqəddəratının əsil sahibi oldu. Təbriz Xalq hakimiyyətinin mərkəzi olmaqla İran daxilində Azərbaycanın inzibati ərazi birliyi əhəmiyyətli dərəcədə təmin edildi. Azərbaycan xalqı siyasi hakimiyyət və milli hüquq əldə etdi. Azərbaycanda milli azadlığa və demokratiyaya əsaslanan xalq hakimiyyəti yarandı, şahlıq rejimi ləğv edildi. İranın irticaçı hakim təbəqələri və Amerika-Ingilis imperialist dairələri Azərbaycanda Xalq hakimiyyəti yaranmasını düşmənçiliklə qarşıladılar. Azərbaycanda xalq hakimiyyəti yaranan gündən onun müdafiəsini hərtərəfli təşkil etmək təxirəsalınmaz vəzifə kimi qarşıda durmuşdu. Azərbaycan Milli hökuməti yarandığı gün /12.12. 1945/ öz tərkibində Xalq qoşunları nazirliyi də yaratdı. 9 gün sonra isə Azərbaycan Milli məclisi Xalq qoşunları yaradılması haqqında qanun verdi. 1946-cı il fevralın 6-da əməli surətdə Xalq qoşunları yaradılmasına başlandı. Milli hökumət hərbi məktəb açaraq az müddətdə Xalq qoşunları üçün 250 nəfərdən çox zabit hazırladı. Azərbaycan Milli hökümətinin fədai dəstələrinin işini nizama salmaq və ölkədə asayişi qorumaq haqqında 1946-cı il 3 fevral tarixli qərarına əsasən fədailər böyük dəstələrdə birləşdirilərək qoşun nizam-intizamı ilə, silahlı haldı Azərbaycanın müəyyən məntəqələrində yerləşdirildilər. Fədai dəstələrinin bütün təhcizatını-paltar, ayaqqabı, yatacaq və yeməyini milli hökumət verirdi. Azadlıq uğrunda vuruşlarda şahid olmuşların ailə üzvlərinə və əlil olmuş fədailərə Azərbaycan Milli məclisinin 8.06.1946-cı il tarixli qanununa əsasən aylıq təqaüd verilirdi. Torpaq bölgüsündə birinci növbədə Fədailərə torpaq verilirdi. Milli hökumət bir çox yerdə yoxsul Fədai ailələrinə pulsuz un, çay, qənd və s. paylayırdı. Öz kəndlərindən uzaqlarda xidmət edən fədailərin əkinbiçənlərinə, məhsulun yığımına həmkəndliləri kömək edirdilər. Azərbaycanda xalq hakimiyyəti qurulması uğrunda vuruşlarda fədai dəstələri və fədai başçıları çox böyük qəhrəmanlıq, şücaət və fədakarlıq göstərirdilər. Azərbaycan Milli hökuməti fədai başçılarından üç nəfərinə general, dörd nəfərinə polkovnik və bir neçə nəfərinə mayor, kapitan rütbəsi verdi.

Azərbaycan xalq qoşunlarını lazımi silahlarla təchiz etmək imkanı son dərəcə məhdud idi. Qoşun hərtərəfli yüksək hərbi təlim görməmişdi. Vaxtilə İran qoşununda olmuş indi isə xalq qoşununda xidmət edənlərin bəzisi kütləvi inqilabi şəraitin tələblərinə asanlıqla uyğunlaşa bilmirdi. Cənubi Azərbaycanda İran daxilində muxtariyyət əldə etmək prinsipinə tabe olaraq Azərbaycan xalq qoşunları və fədai qüvvələri Azərbaycanın inzibati-ərazi sərhədləri daxilində fəaliyyət göstərirdilər. Bu isə eyni zamanda İran üzrə inqilabi hərəkətın müdafiə mövqeyində durmasını göstərirdi.

Milli azadlıq və xalq hakimiyyəti uğrunda inqilabi hərəkət Azərbaycanda İranın irticaçı dövlət aparatını əsasən dağıtdı, bəzi sahələrini yenidən təşkil etdi və yeni idarələr yaratdı. İnqilabi hərəkətın gedişində Cənubi Azərbaycanda İran hökumətinin qoşunu, jandarm, polis qüvvələri, siyasi polis təşkilatı dağıdıldı. Bütün idarələrdə irticaya, istismarçı siniflərə xidmət edən rəhbərlik və iş üsulu da ləğv olundu. Bütün bunlarla yanaşı idarələr irticaçı ünsürlərdən tam təmizləmə bilmədi. Xalq hakimiyyətinin demokratik islahatını müxtəlif yollarla ləngidən qüvvələrlə lazımi mübarizə aparılmadı.

Azərbaycanda inqilabi hakimiyyət orqanı olan əcümənlər yaradılmağa başlandı. Azərbaycan Milli məclisi gizli, müstəqim, Ümumi və bərabər seçki yolu ilə vilayət, mahal və bölük əncümənləri, eləcə də bələdiyyə əncümənləri təşkil olunması barədə 1946-cı il yanvarın 8-də iki qanun verdi. Kənd əncümənlərinin seçkisi və təşkili haqqında da avqustun 3-də qərar çıxdı. Bu seçkilərdə qadınlara kişilərlə bərabər seçmək və seçilmək hüququ verildi. Cənubi Azərbaycanda 1946-cı il yanvarın 14-dən 18-nə qədər 213 şəhər və qəsəbədə, mahal və bölük mərkəzlərində 20 yaşına çatmış vətəndaşlar tərəfindən bələdiyyə əncümənləri seçildi və işə başladı. Azərbaycanda bələdiyyə əncümənlərinə ümumən 5971 nəfər üzv seçildi. Azərbaycanda 1946-cı il fevralın 9-u ilə 15-i arasında 10 vilayət, 21 mahal və 151 bölük əncüməni seçilərək işə başladı. Əncümənlərə ümumən 3790 nəfər üzv seçilmişdi. Bu əncümənlərin təşkili ilə Cənubi Azərbaycanda xalq hakimiyyətinin yerli orqanları və demokratik əsası yaranmış oldu. 1946-cı ildə bütün əncümənlərə xalq tərəfindən seçilmiş 39 min nəfər nümayəndə ölkənin idarə edilməsində xalq hakimiyyətində iştirak edirdi.

Əncümənlər torpaq bölgüsü, taxıl hazırlığı, kəndlilərə kömək edilməsi, abadlıq və sairə işlərlə məşğul olurdular. Xalq hakimiyyəti zamanı azadxah və demokratik şəxslərdən Ə.İmrani Qaradağ, M.Cəlili Ərdəbil və digərləri başqa vilayət əncümənlərinin rəisi seçilmişdilər. C.Məhtaş Təbriz, X.Azərbadəqan Ərdəbil, Q.Cavidan Marağa, T.Şahin, A.Pənbeyi, M.Hilal, Hasiri Urmu və başqaları digər vilayət hakimi /Fərmandarı/ təyin olunmuşdular. Azərbaycan milli məclisinin əncümənlər haqqında qanunu Azərbaycanda bələdiyyə əncüməninə daha çox müstəqillik vermişdi.

Xalq hakimiyyətinin yaranması ilə Cənubi Azərbaycan – azadlıq əldə etmiş oldu. Lakin bu vəziyyət Azərbaycan əhalisini yenidən İranın irticaçı hökuməti tərəfindən azadlıqdan məhrum edilmək təhlükəsindən qurtara bilməzdi. Azərbaycanda xalq azadlığının davamı üçün dərin ictimai-iqtisadi dəyişikliklər, birinci növbədə demokratikcəsinə dəyişikliklər həyata keçirilməli və xalq hakimiyyətinin iqtisadi bazisi yaradılmalı idi. Azərbaycanda demokratik hərəkat qalib gəldikdən sonra köhnə istehsal münasibətlərindən yeni və mütərəqqi istehsal münasibətlərinə qismən keçid qarşıda dururdu.

Cənubi Azərbaycan milli hökümətinin ən mühüm iqtisadi islahatı aqrar münasibətləri sahəsində olmuşdur. Azərbaycan milli hökümətinin hazırladığı layihələr əsasında 1946-cı il fevralın 16-da Azərbaycan milli məclisi «Xalislərin bölün-

məsi haqqında qanun» və «müsadirə haqqında qanun» verdi. Bu qanunlarda deyilirdi: «dövlət kəndlilərinin torpaqları və sular kəndlilər arasında əvəzsiz olaraq bölünməlidir. Azərbaycanın azadlığının və milli hökümətin əleyhinə təbliğat aparanların və mübarizə edənlərin müsadirə olunan əkin yerləri, otlaqları, su və bağları kəndlilərə verilməlidir». 1946-cı il fevralın 11-də torpaq bölgüsü üçün nizamnamə təsdiq edilmişdi. Orada göstərilirdi ki, torpaqlar kəndlilər arasında, adambaşı hesabına bərabər halda bölünməlidir. Torpaq bölgüsü nizamnaməsində kəndli ailəsinə verilən torpaq sahəsinin 5 hektardan çox və 2 hektardan az olmaması qeyd olunmuşdur. 1946-cı il martın 6-dan başlayaraq 1482 parça kənd və mülkün, o cümlədən dövlətin ixtiyarında olan 251 kəndin, müsadirə edilmiş 477 və vaxtı ilə mülkədarların ixtiyarına keçmiş 754 dövlət kəndinin bölünəcəyi rəsmi surətdə elan olundu. Mülkədar torpaqlarının yarıdan çoxu və dövlət torpaqlarının hamısı kəndlilər arasında bölündü. Torpaq bölgüsü nəticəsində Azərbaycanın ümumi əkin sahəsinin yarıdan çoxu 553-588 hektarı-kəndlilərin əlində cəmlənmiş oldu. Onlar mülkədarsız azad kəndli oldular. Lakin yenə də ümumi əkin sahəsinin 39 faizinə yaxını mülkədarların idi. Bu torpaqları icarəyə götürəkrək becərən kəndlilər ilə mülkədarlar arasında münasibəti müəyyən ədalət çərçivəsində qaydaya salmaq üçün Azərbaycan Milli məclisi 1946-cı il aprelin 11-də «Kənd təsərrüfatı məhsulunun mülkədarlarla əkinçi arasında bölünməsi qanunu»nu verdi. Bu qanun mülkədarların kəndlilər üzərində hökmranlığını tamamilə məhdudlaşdırdı. Qanunda yazılırdı ki, kəndlilərdən məhsul bəhrəsindən başqa bir adla ayrı bir şey alınmayacaqdır, bütün mülkələfiyətlər ləğv olunur. Qanun kəndliyə məhsuldan düşən payı xeyli artırdı. Bu qanunun həyata keçirilməsi nəticəsində mülkədar kəndlərində mülkədarlarla kəndlilər arasında o vaxta qədər olan ağalıq və rəiyyətlik münasibətindən köklü surətdə fərqli olan yeni münasibət yarandı. Mülkədarlar tamamilə məhdud olundular, kəndlilər isə əsaslı ixtiyar və hüquq əldə etdilər.

Cənubi Azərbaycan Milli hökuməti aqrar münasibətləri sahəsində mühüm islahat keçirməklə kənd təsərrüfatında xalq hakimiyyətinin iqtisadi əsasını yaratmağa başladı. Azərbaycan Milli hökuməti kəndlilərə verdiyi torpaqlar üzərində ali mülkiyyət hüququna malik idi. Kəndlilərin bu yerləri satmaq, başqasına vermək və yaxud icarəyə vermək ixtiyari yox idi. Bu qaydalar gələcəkdə aqrar sahədə daha əsaslı islahat keçirməyə zəmin yaradırdı. Torpaqları bölünmüş kəndlərdə müəyyən ictimai binalar, dəyirman və otlaqlardan ibarət ictimai fondlar yarandı. Bu islahat nəticəsində xalq hakimiyyətinin aqrar sahəsində bazisi yarandı və siyasi əsası daha da möhkəmləndi. Eyni zamanda Azərbaycan kəndlərində mülkədarların hökmranlığı aradan qaldırıldı.

Beləliklə, İranın irticaçı hökümətinin Cənubi Azərbaycanda böyük bir dayağı qüvvədən salındı. Aqrar islahatı nəticəsində Azərbaycanda kəndlilər bazara daha çox məhsul çıxarırdılar. Eyni zamanda sənayenin xammala olan tələbatını ödəmək imkanı əldə edildi. Azərbaycan kəndlisi daha iş və çörək dalınca İranın başqa əyalətlərinə getmirdi. Azərbaycanda ortabab kəndli sayca çoxılmışdır.

Azərbaycan Milli hökuməti kənd təsərrüfatını inkişaf etdirmək üçün böyük məbləğdə büdcə ayırdı və bir sıra mühüm tədbirlər gördü. Azərbaycanda həyata keçirilən aqrar islahatı İranda azadlıq hərəkətına inqilabi təsir göstərmişdi. Azərbaycanda 1946-cı ildə torpaq islahatı sahəsində və kəndlilərə münasibətdə mütərəqqi cəhətlərlə yanaşı bir sıra mühüm nöqsanlara da yol verildiyini göstərmək lazımdır. 1-cisi aqrar islahatı keçiriləndə hərəkətın milli-azadlıq cəhətinə üstünlük verildiyindən islahat bütün kəndləri əhatə etmədi; 2-cisi, kəndlilərə paylanmış torpaqların dövlət vergisindən əlavə 1946-cı ilin mülkədarın kəndliyə icarəyə verdiyi torpağın məhsulundan götürdüyü payın əyalət əncüməni ttərəfindən toplanması səhv olmuşdur. Mülkədarların və İran dövlətinin əvəzinə bəhrə toplamaq xalq hakimiyyətini mühüm sinfi və ictimai qüvvədən məhrum edərdi. 3-cüsü, ADP dəfələrlə göstərirdi ki, milli azadlıq hərəkətını sözdən əmələ, xəyaldan həqiqətə çevirən kəndlilər olmuşdur.

Lakin xalq hakimiyyəti ciddi təhlükəyə düşəndə bu böyük qüvvə lazımi dərəcədə səfərbər edilmədi. Azərbaycan milli hökuməti sənayedə də müasir və ali iqtisadi-ictimai şərait yaradılmasını, Azərbaycanın sənayeləşməsini və xalq ağır sənayesi qurulmasını qarşıya qoymuşdu.

Cənubi Azərbaycan Milli hökuməti sənaye sahəsində xüsusi mülkiyyətə toxunmadı. Yeni yaranmış demokratik hökumət qarşısında sənayeni milliləşdirmək və ümumxalq malı etmək kimi sosialist inqilabi vəzifəsi durmamışdı. Azərbaycan Milli hökuməti xüsusi fabrik zavodları milliləşdirmədi, ancaq kredit və sifariş vermək yolu ilə onların inkişaf etməsinə hərtərəfli kömək etdi.

Azərbaycan Milli hökümətinin sənaye sahəsində ən mühüm islahatı əmək qanunu verilməsi və milli hökümətin mülkiyyətini yaratmaq yolu ilə xalq hakimiyyətinə bazis ola biləcək istehsal münasibəti yaratmaqdan ibarət idi.

Milli-azadlıq hərəkətı gedişində Cənubi Azərbaycanda iri fabrik zavodlarda fəhlə nəzarəti yaranmışdı. Fəhlə nümayəndələri sahibkarlar tərəfindən alınan xammalın hesaba baha salınmasının və məhsulun baha satılmasının qarşısını alır, sənaye avadanlığını qoruyur, məhsuldarlığın artamısna və sənayedə nizam-intizamın möhkəmləndirilməsini təmin edirdilər. Azərbaycan Milli məclisinin 1946-cı il mayın 12-də verdiyi Əmək qanununda fəhlələrin həmkarlar ittifaqı /FHİ/ təşkil etmək hüququ, tətil etmək hüququ verilməsi, FHİ-nin hüquqi səlahiyyətinin olması, sahibkarın fəhləni FHİ-nin xəbəri olmadan və əsassız işdən çıxarmağa ixtiyarı olmaması, 8 saatlıq iş günü, 1 Mayın Fəhlələrin Beynəlxalq həmrəylik günü kimi qeyd olunması, nəhayət fəhlələrin bir çox sosial-iqtisadi ehtiyaclarının təmin edilməsi qanun şəklinə salındı. İran hökümətinin mülkiyyətində olan Miyandab şəkər zavodu, Təbrizin tütün və çay fabrikləri Milli hökümətin ixtiyarına keçdi. Milli hökumət Təbrizin «Şayan» trikotaj fabrikini pulla satın aldı, Təbrizdə «Zəfər» adlı trikotaj fabriki və bir neçə şəhərdə kiçik corab və parça fabrikləri açdı.

Cənubi Azərbaycanda xalq hakimiyyəti yarandıqdan sonra kapitalistlərin mülkiyyətində olan fabrik-zavodlarda və iş yerlərində fəhlə və zəhmətkeşlərin istismar edilməsi Əmək qanunu və digər yeni qayda-qanunlar vasitəsilə əhəmiyyətli

dərəcədə məhdudlaşdırıldı. Xalq hakimiyyətinin sənaye müəssisələrində fəhlə nəzarətinin, Əmək Qanununun və xalq hakimiyyətinin müəyyən etdikləri vəzifələrə, hüquqlara və prinsiplərə əsaslanan yeni istehsal münasibəti yarandı. Bu yeni münasibət fəhlə sinfinin mənafeyinə uyğun olmaqla sənayenin inkişafına xidmət edirdi. Azərbaycan Milli hökuməti İran hökümətinin iqtisadi pozuqluğu nəticəsində öz işini qismən və yaxud tamamilə dayandırmış xüsusi sənaye müəssisələrindən Təbrizin Peşminə və Bustan iplik toxucu fabriklərini, Xosrovu və İran Gön zavodlarını, bullur zavodunu və Zəncan kibrit fabrikini kredit vermək, vergilərini azaltmaqla, böyük miqdarda mal hazırlamaq, sifariş vermək və başqa əməli kömək göstərməklə yenidən və tam gücləri ilə işə saldı. Milli hökumət sənətkarlıq emalatxanaları sahiblərinə də əhəmiyyətli dərəcədə maliyyə və xammal köməyi etdi və bir sıra sənətkarlıq şirkətləri yaranmasına kömək göstərdi. Milli hökumət Amerikada istehsal olunan paltar və ayaqqabıların Azərbaycana gətirilməsini qadağan etdi. Milli hökumət bu yolla Cənubi Azərbaycan sənayesini və sənətkarlarını himayə etdi. Azərbaycan Milli Məclisi Azərbaycanda olan mədənləri, mineral suları və təbii meşələri xalq hakimiyyəti elan etməklə Milli hökümətin maddi bazasını genişləndirdi. Bu sənayeləşmədə mühüm addım idi.

Milli hökümətin maliyyə və ticarət sahəsindəki siyasətin də dəyişdi. Xalq hakimiyyəti dövründə İran hökuməti Azərbaycanın gəlirini daha irticaçı və şahlıq hökumətinin saxlanmasına xərcləyə bilməzdi. Cənubi Azərbaycan Milli hökumətin ilk gündən İran dövlətinin banklarını – o cümlədən İran milli bankının, sənaye və sənət bankının və kənd təsərrüfatı bankının şöbələrini öz ixtiyarına keçirdi. Beləliklə də, İran hökümətinin Azərbaycanda iqtisadi təxribatına imkan vermədi. Bu məqsədlə Azərbaycan Milli hökümətinin xəzinə sənədi buraxıldı. Milli hökumət öz bankını – Azərbaycan bankını yaratdı. İran dövləti tarixində ilk dəfə olaraq xalq hakimiyyəti dövründə Azərbaycanın gəlirinin 75 faizindən çoxu onun tərəqqisinə, abadlığına, xalqın yaşayış səviyyəsinin yüksəldilməsinə və müdafiə işlərinə sərf olundu. Azərbaycan Milli hökuməti gəlirdən vergiləri artırdı, qeyri-müstəqim vergiləri azaltdı: şəkər, çay, parça və digər zəruri ehtiyac mallarının azad bazarda 10-20 faiz ucuzuna satışını öz ixtiyarına aldı. Milli hökümətin illik büdcəsi 64.060.000 tümən oldu. Onun da çox hissəsi sənayenin, kənd təsərrüfatının inkişafına, mədəni-maarif, ictimai təminat, səhiyyə və abadlıq işlərinə xərc edildi. Xalq hakimiyyətinin düzgün siyasəti nəticəsində 1946-cı ildə Azərbaycanda xalqın çox işlətdiyi sənaye və ərzaq malları əhəmiyyətli dərəcədə ucuzlaşdı. Xalqın, xüsusilə fəhlə və kəndlilərin alıcılıq qüvvəsi artdı və yaşayışları yaxşılaşdı. Azərbaycan Milli hökümətinin tədbirləri nəticəsində sənaye və daxili ticarət inkişaf etməyə başladı. Azərbaycan Milli hökümətinin maarif və mədəniyyət sahəsində etdiyi islahat nəticəsində həqiqətən xalq maarifi yaradıldı, milli və demokratik mədəniyyət inkişaf etdirildi.

Cənubi Azərbaycanda xalq hakimiyyətinin mədəniyyət və maarif sahəsində əsas qələbəsi Azərbaycan dilinin rəsmi dövlət dili elan edilməsi oldu. İran dövləti tərəfindən zülm edilən, dövlət idarələrində, ictimai yerlərdə, mətbuatda mədəni-

maarif sahəsində ana dilinin qadağan edildiyi bir dövrdə Azərbaycan xalqı üçün dil azadlığı olduqca böyük məsələ idi. Azərbaycan Milli məclisi yaranandan /12.07.1945/ iki-üç gün sonra «21 azər» günü xalq bayramı elan edilməsi, Cənubi Azərbaycanın şəhər və qəsəbələrinin öz qədim adları ilə adlanması bütün qəzetlərin, qanun və rəsmi kağızların, idarələrin, müəssisələrin və mağazaların adlarının Azərbaycan dilində yazılması haqqında qanun verdi. Azərbaycanda xalq hakimiyyəti yaranandan 24 gün sonra «Dil haqqında Azərbaycan Milli hökümətinin qərarı» çıxdı. Həmin qərarda deyilirdi: «Bu gündən etibarən /6.1.1946-cı ildən/ Azərbaycanda Azərbaycan dili rəsmi dövlət dili hesab olunur». Qərarda göstərilirdi ki, dövlətin qərar və elanları, xalq qoşunlarında verilən fərmanlar, qanun layihələri mütləq Azərbaycan dilində yazılmışdır.

Bütün idarələr öz işlərini Azərbaycan dilində yazmağa məcburdurlar. Məhkəmələrdə işlər Azərbaycan dilində aparılmalıdır. Göstərilən qərarda Azərbaycanda yaşayan başqa millətlərə öş işlərini və xüsusi milli məktəblərində tədrisi öz ana dilində aparmağa icazə verilirdi. Qərarda məktəblərdə təhsilin Azərbaycan dilində olması və məktəblərin Azərbaycan dilində keçməsi bir vəzifə olaraq qarşıya qoyuldu. Azərbaycanın hər yerində bu qərar təxirəsalınmadan həyata keçirildi. 1946-cı il yanvarın 6-da Azərbaycan Milli hökümətinin Təbrizdə Azərbaycan Dövlət Darülfünunu təşkil etmək haqqında qərarı çıxdı. Ümumi hazırlıqdan sonra iyunun 12-də Azərbaycan Dövlət Darülfünunu rəsmi surətdə açıldı və işə başladı. 1946-cı il yanvarın 19-da yenə Təbrizdə Ali incəsənət və rəssamlıq məktəbi açıldı. Cənubi Azərbaycanda xalq hakimiyyəti dövründə mədəniyyət və maarif sahəsində edilmiş islahat formaca milli – Azərbaycan dilində və məzmunca azadlıq, demokratiya və beynəlmiləlçilik ruhunda oldu. Milli hökümətin maarif nazirliyi qısa müddətdə Azərbaycanın ibtidai məktəbləri üçün Azərbaycan dilində dərsliklər hazırlayıb çap etdi. Az müddətdə Azərbaycanda maarif – mədəniyyətin inkişafı üçün çox böyük işlər görüldü. Təbrizdə Dövlət teatrı yarandı. Azərbaycan radiosu işə başladı, Behzad adına incəsənət muzeyi açıldı. Azərbaycan Milli filarmoniyası yarandı, şəhər, qəsəbə və kəndlərdə çoxlu kitabxana və qiraətxanalar yarandı, xalq hökuməti hesabına 7 şəhərdə böyük tərbiyə evləri açıldı. Ərdəbil, Astara, Marağa və digər şəhərlərdə teatr binaları tikildi. Azərbaycan rəssamlar və heykəltəraşlar cəmiyyəti təşkil olundu və fəaliyyət göstərdi. Bir ildə «Azərbaycanın müxtəlif yerlərində əhali öz xərcləri ilə 2000-dən artıq məktəb düzəltdi». 1945-1946-cı illər Cənubi Azərbaycanda bədii ədəbiyyatın, poeziyanın və demokratik publisistikanın çiçəklənmə dövrü olmuşdur. Həmin illərdə Azərbaycan mətbuatında S.C.Pişəvəri başda olmaqla X.X.Azərbadəqan, S.Badəqan, M.Vilayi, M.Qadiri, Z.Qiyami, Q.Kəndli, H.Həsirzadə, H.Xoşginabi, Ə.Şəmidə, I.Şəms kimi onlarla siyasi inqilabi xadimlər və jurnalistlər öz məqalələri ilə çıxış edirdilər. Azərbaycan mətbuatında B.Azəroğlu, H.Billuri, Q.Borçalı, Q.Qəhrəmanzadə, I.Zakir, M.Etimad, M.Gülgün, Həcm Təbrizi, Ə.Tudə və digərlərinin şeir, hekayə, felyetonları, ədəbi tənqidi məqalələri çap olunmuşdur. Azərbaycan dilində onlarla kitab nəşr edildi. Xalq hakimiyyəti dövründə Azərbaycan dilində 20-dən çox adda qəzet və jurnal çıxırdı.

İran dövləti tarixində bir sıra inqilabi, demokratik islahatlar ilk dəfə Cənubi Azərbaycanda həyata keçirildiyi kimi milli zülm edilən millətlərdən ilk dəfə Azərbaycan millətinin dili rəsmi dövlət dili elan olundu. Rza şahın heykəli də ilk dəfə Azərbaycanda yıxıldı və Azərbaycanda Səttarxana və Bağırxana heykəl qoyuldu. Şeyx Məhəmməd Xiyabinin məqbərəsi olan yer abad edildi və orada bağça salındı, xalq mədəniyyəti sahəsində bir çox tədbirlər də ilk dəfə Azərbaycanda həyata keçirildi.

Cənubi Azərbaycan Milli hökuməti ədliyyə sahəsində də bir sıra demokratik islahatlar keçirdi. Azərbaycan Milli hökuməti birinci növbədə İran məclislərinin xalqın azadlığını boğan, fəhlələri, kəndlilərin və digər zəhmətkeş təbəqələrin siyasi, iqtisadi və ictimai mənafeyini tapdalayan bütün irticaçı qanunlarının Azərbaycanda həyata keçirilməsini dayandırdı. Milli hökümətin ədliyyə sahəsində ikinci mühüm islahatı muxtariyyət prinsipinə uyğun olaraq Azərbaycanda ali məhkəmə yaratmaqdan və İran ədliyyəsinin bir neçə növ məhkəməsi əvəzinə Azərbaycanda vahid məhkəmə sistemi yaratmaqdan ibarət olmuşdur. Beləliklə, Cənubi Azərbaycan ədliyyəsi İranın irticaçı qanunlarına tabeçilikdən qurtarırdı. Azərbaycan Milli məclisinin və Milli hökümətinin verdiyi demokratik qanunlar və qərarlar xalq hakimiyyətinin ədliyyə sahəsində fəaliyyətinin və əməli işinin əsasını təşkil edirdi.

Cənubi Azərbaycan Milli hökuməti xalqın sağlamlığını qorumaq, şəhərləri, qəsəbələri abad etmək sahəsində də bir ildə İran hökümətinin Azərbaycanda 25 il müddətində gördüyü işdən daha artıq və əhəmiyyətli tədbirlər həyata keçirmişdir.

1945-1946-cı illər Cənubi Azərbaycanda azadlıq hərəkatı 21 azər hərəkatı milli-azadlıq, demokratik və antiimperialist mahiyyətə malik idi. Hərəkatın əsas hərəkətverici qüvvələri fəhlələr və kəndlilər idilər. Sənətkarlar və mütərəqqi ziyalılar da hərəkətdə fəal iştirak edirdilər. ADP düzgün siyasət nəticəsində milli burjuaziyanı, kiçik və orta mülkədarları da hərəkəta cəlb etmişdi. Demokratiya və milli azadlıq uğrunda mübarizədə birləşmiş bu qüvvələr Azərbaycanda xalq hakimiyyəti yaratdı. Azərbaycan xalqı Azərbaycan Milli məclisinin və Milli hökümətini yaratmaqla öz müqəddəratını təyin etmək sahəsində mühüm addım atmış oldu. Azərbaycan Milli məclisinin daxili nizamnaməsi, Azərbaycan Milli hökümətinin iş proqramı, bu məclis və hökümətin əməli fəaliyyəti təsdiq edir ki, bu hakimiyyət orqanları İran dövlətinin daxilində mövcud olmuşdur. Azərbaycanda yaranmış xalq hakimiyyəti muxtar respublika səviyyəsinə çatdı.

1945-1946-cı illərdə Cənubi Azərbaycanda xalq hakimiyyətinin bütün fəaliyyəti İran dövləti sərhədləri daxilində olmuşdur. Azərbaycan Milli hökuməti İran hökuməti ilə danışıqlar aparmış, müqavilə imzalanmış və onu həyata keçirmişdi. Azərbaycan Milli hökümətinin müstəqil xarici işlər nazirliyi, hərbi nazirliyi, eləcə də xarici ölkələrlə diplomatik əlaqələri olmamışdır. İranın bütün əyalətləri ilə Azərbaycanın arasında iqtisadi əlaqələr və vətəndaşların azad surətdə gediş-gəlişi davam etmişdir. İranın dövlət bayrağı və dövlət nişanı Azərbaycanda da dövlət bayrağı və dövlət nişanı olmuşdu. Lakin Azərbaycanda şahlıq rejimi ləğv edilmişdi. Azərbaycanda İran pulu işlədilmişdir.

Azərbaycan xalq hakimiyyətinin bütün siyasi, iqtisadi və ictimai islahatından Azərbaycanda yaşayan digər millətlər-ermənilər, aysorilər və yəhudilər də Azərbaycan xalqı ilə bərabər hüquq və ixtiyarla istifadə edirdilər. Azərbaycan Milli Məclisinə 4 nəfər erməni və 2 nəfər aysori nümayəndə seçilmişdi. Azərbaycan Milli hökuməti bu xalqların öz ana dilində təhsil almaları və demokratik əsaslar üzrə milli – mədəni tərəqqiləri üçün hər cür şərait yaratmışdı. İranın irticaçı hakim dairələri və xarici imperialistlər Azərbaycan demokratik hərəkatını böyük dövlətlər arasındakı diplomaik çəkişmələr məcrasına salmağa çalışırdı. İmperialistlər bu yolla eyni zamanda İranın daxili işlərinə qarışmaq istəyirdilər. Lakin imperiya məqsədli Sovet hökuməti öz mənaFeyinə uyğun olaraq başqa dövlətlərin İranın daxili işlərinə qarışmasına imkan vermədi.

1946-cı il aprelin 22-də İranın Qavamüssəltənə hökuməti Cənubi Azərbaycan barədə yeddi maddədən ibarət bəyannamə verdi. Bu bəyannamə Azərbaycan Milli hökümətinə İran hökuməti ilə danışıqlara başlamaq imkanı verdi. İran hökümətinin dövlətinin dəvətini qəbul edərək 1946-cı il aprelin 28-də Azərbaycan Milli hökümətinin Baş naziri S.C.Pişəvərinin başçılığı ilə Tehrana bir nümayəndə heyəti getdi. Aprelin 29-da Azərbaycan nümayəndələri İran hökümətinin nümayəndələri ilə danışıqlara başladılar. Azərbaycan nümayəndə heyəti Cənubi Azərbaycanda xalq hakimiyyəti dövründəki vəziyyətin saxlanılmasını və demokratiya əsaslarının bütün İranda möhkəmlənməsini və genişlənməsini tələb etdi. Azərbaycan nümayəndə heyəti təklif edirdi ki, 1945-ci il sentyabrın 3-dən Azərbaycanda yaranmış hərəkat mütərəqqi, demokratik və İranın həqiqi istiqlaliyyətinin zəmini olan bir hərəkat kimi tanınsın. İran hökümətinin təklif etdiyi bəyannamədə isə inqilabi hərəkat nəticəsində Cənubi Azərbaycanda yaranmış xalq hakimiyyəti məhdudlaşdırılır və demokratik islahatı əhatə etmirdi. Buna görə də Azərbaycan nümayəndə heyəti onu qəbul etmədi. Beləliklə, müzakirələr 1946-cı il mayın 11-də bir nəticə vermədən dayandırıldı. Tehran danışıqlarının nəticəsiz qurtarmasına birinci növbədə imperialist dairələr, dövlət başçısı, hakim dairələr və iri mülkədarlar səbəb olmuşlar.

Cənubi Azərbaycan Milli hökuməti ilə İran hökuməti arasında danışıqlar 1946-cı il iyunun 11-də Təbriz şəhərində yenidən başlandı. 1946-cı il iyunun 13-də Təbriz şəhərində İran dövləti ilə Azərbaycan nümayəndələri arasında müqavilə imzalandı. İyunun 13-də Azərbaycan Milli məclisinin Rəyasət heyəti həmin müqaviləni qəbul və təsdiq etdi. Iyunun 17-də Tehrandan göndərilmiş rəsmi teleqramda İran dövlətinin müqaviləni təsdiq etdiyi xəbər verilirdi. Bu qərara görə İran hökuməti Cənubi Azərbaycanda baş vermiş hərəkatı demokratik hərəkat, Azərbaycandakı siyasi-ictimai təşkilatları demokratik təşkilatlar və onların iştirakçılarını demokratik işçilər olaraq tanıdı. İran hökuməti Azərbaycanın İran dövlətinin ərazi-inzibati bölgüsü 3-cü və 4-cü əyalətlərdən, yəni Şərqi və Qərbi Azərbaycandan ibarət olmasını qəbul etdi. İran hökuməti Azərbaycan Milli məclisini Azərbaycan əyalət əncüməni kimi tanıdı. Azərbaycanı idarə etmək üçün idarəedici şura yaranacağı müqavilədə qeyd olunmuşdu. İran hökuməti Cənubi Azərbaycan-

da bütün idarələrdə yazı və işlərin, ibtidai orta və ali məktəblərdə təhsilin Azərbaycan dilində olmasını qəbul etdi. Müqavilədə göstərilirdi ki, Azərbaycan valisi və idarə rəisləri Azərbaycan əyalət əncüməni tərəfindən təklif olunacaq və mərkəzi hökumət tərəfindən təsdiq və təyin ediləcəkdir. Azərbaycanda demokratik hərəkət nəticəsində dövlət torpaqları kəndlilər arasında bölünmüşdü. İran hökuməti bu işi təsdiq etdi. Eyni zamanda Azərbaycanın ümumi gəlirinin 75 faizinin və Azərbaycan gömrük gəlirinin 25 faizinin Azərbaycanda onun öz ehtiyaclarına xərclənməsini də İran hökuməti qəbul etdi. Müqaviləyə əsasən Azərbaycan xalq qoşunları və fədai dəstələri İranın silahlı qüvvələri tərkibində sayıldı.

İran hökuməti ilə Cənubi Azərbaycan nümayəndələri arasında bağlanmış müqavilə Azərbaycan və İranın demokratik qüvvələrinin böyük müvəffəqiyyəti idi. Bu müqavilə Azərbaycanda 1946-cı il iyunun 14-dən etibarən həyata keçirildi. Azərbaycan Milli məclisi əvəzinə Azərbaycan əyalət əncüməni fəaliyyətə başladı. Azərbaycan Milli hökuməti əvəzinə Azərbaycanı idarə edən şura yarandı. Azərbaycanda müqavilənin qalan maddələri də həyata keçirilməyə başladı. Lakin İran hökuməti müzakirələrlə işləri süründürür və Azərbaycanda demokratik islahata mane olaraq müqavilə üzrə öhdəsinə götürdüyü vəzifələrə əməl etmirdi.

Cənubi Azərbaycan xalq hakimiyyəti inqilabi, demokratik və antiimperialist mahiyyətə malik oluduğuna görə İranın irticaçı hökuməti və imperialist dairələr onu məhv etmək üçün birlikdə hazırlıq görürdülər. İran dövlətinin və imperialist dairələrin Azərbaycan üzərinə hücuma diplomatik hazırlığı Azərbaycan milli azadlıq və demokratik hərəkatını yaradan daxili səbəbləri inkar etməklə başlandı. ABŞ və İngiltərə Azərbaycan demokratik hərəkatı əleyhinə olan bütün tədbirlərə başçılıq edirdi. O zaman ABŞ-ın İrandakı səfiri Corc Allen İran hökümətinə bildirdi ki, İran dövləti İranda Ingiltərə və Sovet nüfuzunun qarşısını alacağı təqdirdə ABŞ İrana kömək edər və borc verər. Cənubi Azərbaycan üzərinə hücuma hazırlaşan İran hökuməti ABŞ-dan 20 mln. dollarlıq silah və hərbi sursat aldı. Azərbaycan üzərinə hücuma göndəriləcək qüvvələr bu silahlarla təchiz edildilər. Ingiltərə dövləti də 1946-cı ilin avqustunda İran sərhəddinə, Bəsrə şəhərinə 5 diviziya gətirdi.

1946-cı il sentyabrın 1-də İran dövləti Cənubi Azərbaycan üzərinə ümumi silahlı hücuma başladı. 1946-cı il noyabrın 21-də İran hökümətinin başçısı Qəvamüssəltənə İranın XV məclisinə seçkilərin guya azadlığını təmin etmək üçün bütün seçki məntəqələrinə hökumət tərəfindən «nəzarət qüvvələri» adı ilə qoşun göndərəcəyini elan etdi. Azərbaycan əyalət əncüməni və kürd xalqının rəhbəri qazi Məhəmməd İran hökümətinin Azərbaycana və Gürcüstana silahlı qüvvə göndərmək qərarına qəti surətdə etiraz etdilər. İran hökuməti Azərbaycan nümayəndələri ilə 1946-cı il iyunun 13-də imzaladığı müqaviləni xaincəsinə pozaraq Azərbaycan üzərinə hücumu daha da genişləndirdi. Azərbaycan üzərinə hücum günlərində amerikalılar İran qoşununa 40 ədəd bombordmançı təyyarə verdilər. Həmin təyyarələr Azərbaycan üzərinə hücumda iştirak edirdilər.

1946-cı il dekabrın 1-dən İran dövlətinin silahlı qüvvələri bütün cəbhələrdə hücumu daha da şiddətləndirdi. Azərbaycan Xalq qoşunları və fədai qüvvələri İran hökumətinin təcavüzünə birlikdə və qəhrəmanlıqla müqavimət göstərirdilər. Mərkəzi hökümətin Azərbaycana təcavüzü xalqın böyük həyəcanına səbəb oldu. Xalqın müxtəlif təbəqələrindən minlərlə adam azadlığı və vətəni müdafiə etmək üçün silahlanaraq cəbhələrə göndərilmələrini tələb edirdi. Belə bir şəraitdə Azərbaycan əyalət əncüməni vətəndaş müharibəsinin genişlənməsinin qabağını almaqla və eyni zamanda Azərbaycan xalqının azadlığını saxlamağa çalışaraq İran hökumətindən 13 iyun 1946-cı il tarixli müqaviləyə sadiq qalmağı tələb edirdi. Lakin İran dövləti müharibə odunu hər gün daha da alovlandırırdı. İran dövləti Azərbaycan xalqını hamılıqla müharibə meydanına çəkmək və vətəndaş müharibəsini imperialistlərə beynəlxalq konflikt yaratmaq bəhanəsi verəcək bir şəklə salmaq istəyirdi.

Azərbaycan əyalət əncüməni Azərbaycanın imperializmin avanturası altına düşməsi və İran daxilində qardaş qırğınının qarşısını almaq üçün 1946-cı il dekabrın 11-də Azərbaycan xalq qoşunlarına və fədai qüvvələrinə İran dövlətinin silahlı qüvvələrinə müqavimət göstərməmək və döyüş meydanlarını tərk etmək göstərişi verdi.

1946-cı il dekabrın 11-dən İran qoşunları və jandarm qüvvələri maneəsiz olaraq Cənubi Azərbaycan torpaqlarında sürətlə irəliləməyə başladılar. Xalqın bir il ərzində yaratdığı muzey, kitabxana, milli teatr, dövlət universiteti dağıdıldı, xalq qəhrəmanları olan Səttar xanın və Bağırxanın heykəlləri sındırıldı. İran qoşunları, jandarmlar və quldur dəstələri Miyanə, Sərab, Ərdəbil, Təbriz, Marağa, Mərənd, Xoy, Maku, Urmiya və digər şəhərlərdə minlərlə adamı ADP üzvü, mühacir /vaxtı ilə SSRİ-də olmuş şəxs/ olduğu üçün məhkəməsiz, sorğu-sualsız küçələrdə öldürdülər. İran hökuməti Cənubi Azərbaycan demokratik hərəkatının rəhbərlərindən, xalq qoşunları zabitlərindən, fədai başçılarından, sıravi partiya üzvlərindən, əsgər və fədailərdən yüzlərlə adamı hərbi məhkəmələrin hökmü ilə edam etdi. İran hökümətinin silahlı qüvvələri və quldur dəstələri ttərəfindən təkcə 1946-cı il dekabrın ikinci yarısında Azərbaycanda 20-25 min nəfər öldürülmüşdür.

1946-cı il dekabrın 20-dən sonra Cənubi Azərbaycanda xalq hakimiyyəti ləğ edildi. Azərbaycanda İran şahlıq quruluşunun, irticaçı-istismarçı siniflərin hökmranlığı yenidən bərpa olundu. Cənubi Azərbaycan xalqı yenə də siyasi ictimai hüquqlardan, öz ana dilində təhsil almaqdan, elm və mədəniyyətini inkişaf etdirmək imkanlarından məhrum edildi. Yenə də fars hakim millətçi dairələri Azərbaycan xalqına şiddətli milli zülm etməyə başladılar.

Lakin xalqın azadlıq eşqi bir gün belə sönmədi. Azərbaycanlılar İran dövlətinin yaratdığı şiddətli terror, həbs, sürgün şəraitində yenə də bütün İran xalqları ilə birlikdə böyük azadlıq mübarizəsini davam etdirir.

### *§ 7. 1970-1980-cı illərdə sosial-iqtisadi və aqrar sahədə həyata keçirilən tədbirlər*

1969-cu il iyulun 14-də Azərbaycanın siyasi həyatında mühüm hadisə baş verdi. Azərbaycan KP MK-nın plenumunda H.Ə.Əliyev MK-nın birinci katibi seçildi. Azərbaycanın müasir tarixində 1969-cu il dönüş mərhələsinin təməlini qoydu.

Avqust plenumundakı çıxışında H.Əliyev respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etdi, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onları aradan qaldırmaq yollarını göstərdi.

Avqust plenumunda dövlət əmək intizamını möhkəmləndirmək, respublikada mədəni-psixoloji iqlimi sağlamlaşdırmaq vəzifələri irəli sürüldü.

H.Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. O, bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi.

H.Əliyev respublikada qanunçuluğun hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlərin təşəbbüsçüsü oldu. O, 1978-ci il Azərbaycan SSR Konstitusiyasını hazırlayan komissiyanın sədri kimi geniş dövlətçilik fəaliyyəti göstərdi. Aprelin 21-də Azərbaycan SSR-in Konstitusiyası qəbul edildi. Bu ali qanun xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Moskvanın etirazına baxmayaraq H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili dövlət dili statusunu saxladı.

H.Əliyevin məharətlə həyata keçirdiyi çoxcəhətli siyasi-dövlətçilik fəaliyyəti sayəsində bütün ictimai təşkilatların diqqəti respublikanın iqtisadi, kadr və mənəvi potensialının sürətlə artmasına yönəldildi. Bunun nəticəsində 70-ci illərdə Azərbaycanda bütün başlıca iqtisadi göstəricilər durmadan artırdı. 14 ildə (1969-1982-ci illərdə) respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 dəfə, xalq istehlakı malları 3 dəfə, kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə artmış, 250-dən çox fabrik, zavod, istehsal sexləri tikilmiş, 2 milyondan çox adamın mənzil şəraiti yaxşılaşmışdı.

H.Əliyevin təşəbbüsü ilə xalqın mənəvi dəyərlərinin öyrənilməsi və təbliğinə diqqət artırıldı. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu. Hüseyin Cavidin cəsəsədinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilərək Naxçıvanda dəfn edildi.

70-ci illərdə Taqanroqda 416-cı Azərbaycan diviziyasının böyük qələbəsinə xatirə ansamblı Sevastopolda 77-ci diviziyanın şərəfinə böyük abidə ucaldılmışdı.

1978-ci ildə Bakı şəhəri faşizm üzərində böyük qələbədə oynadığı rola görə Lenin ordeni ilə təltif edildi.

H.Əliyev respublikada kadr potensialının möhkəmləndirilməsinə xüsusi diqqət verirdi. Minlərlə azərbaycanlı gənc digər şəhərlərə aparıcı təhsil və elm orqanlarına oxumağa göndərildi.

1970-80-ci illərdə SSRİ-nin hərbi məktəblərində müxtəlif hərbi ixtisaslar üzrə 2000-dən çox azərbaycanlı zabit hazırlandı.

H.Əliyevin təşəbbüsü ilə milli özünüdərk prosesi xeyli gücləndirildi.

«Gəncə» soyu yasaq edildiyi vaxt, «Yeni Gəncə» qəsəbəsi yaradıldı. Bakı rayonlarına «Nizami», «Nəsimi» adları verildi. Naxçıvanda «Babək», Yuxarı Qarabağda «Əsgəran» adlarının verilməsi bu yerlərin əzəli Azərbaycan torpaqları olduğunu bir daha təsdiqlədi.

O, «İran Azərbaycanı» terminini «Cənubi Azərbaycan» terminilə əvəz etdi.

Beləliklə, H.Əliyevin çoxcəhətli partiya və dövlət idarəçiliyi sayəsində Azərbaycanın ictimai-siyasi həyatı olduqca zənginləşdi. İnsanların partiya və dövlət orqanlarının ictimai təşkilatların içində fəallığı artdı. Dövlət və ictimai təşkilatların əsas diqqəti respublikanın iqtisadi, sosial-mədəni tərəqqisi, xalqın milli oyanışına istiqamətləndirilmiş siyasətin reallaşdırılmasına yönəldildi və səmərəli nəticələr verdi.

H.Əliyev kimi fitri istedadlı, uzaqgörən, xalqını sonsuz məhəbbətlə sevən, praqmatik bir siyasətçinin Azərbaycana rəhbərlik etməsi respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında sürətli yüksəlişə səbəb oldu.

XX əsrin 70-80-ci illəri Azərbaycan iqtisadiyyatının keçdiyi əvvəlki inkişaf illəri ilə müqayisədə ən əlamətdar və böyük yüksəliş dövrü kimi tarixə daxil olub.

H.Əliyevin təşəbbüsü ilə SSR hökuməti Azərbaycavnda sənayenin və kənd təsərrüfatının intensiv inkişafı üçün beş xüsusi qərar qəbul etdi və xeyli vəsait ayırdı. Azərbaycanda iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başladı. Kapital qoyuluşunun həcmi 1970-1985-ci illərdə 32 milyard manat təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi.

Bu kapitalın 45 %-dən çoxu maşınqayırma, kimya, neft-kimya, tikinti materialları, yeyinti sənayesi sahələrinə qoyulmuşdu.

Respublikanın güclü elmi texniki və istehsal potensialına söykənərək iqtisadiyyatın mühüm istiqamətlərinin inkişafı ardıcıl mərhələlər üzrə həyata keçirilirdi. Əlvan və qara metallurgiyanın yeni istehsal sahələri yaranırdı.

Kənd təsərrüfatı təyinatlı maşınqayırma sənayesində daha əhəmiyyətli yeni müəssisələrin yaradılması sahəsində ciddi işlər görüldü.

Neft və qaz istehsalı sahəsində 80-ci illərdə rekord nəticələr əldə olundu. Belə ki, həmin dövrdə 13 milyon ton neft, 14 milyard kubmetr təbii qaz hasil edilmişdi. 70-80-ci illərdə Azərbaycan rayonlarının qazla təmin edilməsi demək olar ki, başa çatdırıldı.

1970-80-ci illərdə yeni müəssisələr sənayenin təkmilləşməsi və məhsul istehsalının artırılmasında əhəmiyyətli rol oynamışdır. Bu dövrdə 218 yeni sənaye müəssisəsi istifadəyə verildi.

Mingəçevirdə elektrik stansiyası, Şəmkir SES, Bakı kondisioner zavodu, Əli Bayramlı məişət cihazları zavodu, Ağdam dəzgahqayırma, Gəncə xalça qənnadı, çini-saxsı qablar zavodları məhz bu dövrdə istifadəyə verilmişdi.

Tarixən Azərbaycanda sənayenin birtərəfli inkişafı ilə əlaqədar onun müəssisələri əsasən Bakı və Sumqayıt regionunda yerləşmişdir.

1970-80-ci illərdə yaradılan yeni sənaye müəssisələrinin 158-i və ya 72 faizi respublikanın başqa ərazi sahələrində istifadəyə verildi.

70-ci illərdə neft sənayesinin inkişafında da yeni dəyişikliklər baş verdi. Geoloji kəşfiyyat izləri genişləndi. 22 yeni neft və qaz yatağı kəşf olundu. Neft mədənlərinin yarıdan çoxu avtomatlaşdırıldı.

Üzən buruqlardan «Azərbaycan», «Xəzər» vasitəsilə dənizin dərinliyində 6000 m-ə çatan quyular qazıldı.

70-ci illərdə dərin dəniz özülləri hazırlayan iri zavodun tikintisinə başlanıldı və zavod 1986-cı ildə fəaliyyətə başladı.

Respublikada energetika sənayesi surətlə inkişaf edirdi. Araz çayı üzərində İran ilə birlikdə SES-si tikildi.

Yüngül sənaye, yeyinti sənaye müəssisələri şəbəkəsi xeyli genişləndi.

Azərbaycanın vahid xalq təsərrüfatı komplekslərindən biri olan nəqliyyatın da inkişaf etdirilməsi vacib strateji məsələlərdən biri idi. 70-80-ci illərdə yeni dəmir yolu – Ağdam-Xankəndi, Ağstafa-İrəvan, Yevlax-Balakən xətləri istifadəyə verildi. 1985-ci ildə 2067 km-ə çatan dəmir yolu xətti var idi.

Avtomobil yollarının inkişafında da əhəmiyyətli dəyişikliklər baş verdi. Avtomobil yollarının uzunluğu 1985-ci ildə 22,4 min km-ə çatırdı.

1970-80-ci illərdə metro tikintisi sahəsində böyük uğur əldə olundu. 1970-ci ildə «Ulduz» stansiyası istifadəyə verildi. 1972-ci ildə Bakının mərkəzini «8-ci km» qəsəbəsi ilə birləşdirən metro xətti – «Bakı Soveti» - «Neftçilər» metro xətti işə düşdü. 1985-ci ildə «Memar Əcəmi», «Əhmədli» stansiyalarına gedən yeraltı dəmiryol xətləri istifadəyə verildi.

Azərbaycanın dəniz nəqliyyatı da inkişaf edirdi. Bakı dəniz gəmiçiliyi böyük donanmaya malik idi. Respublikada dəniz vasitəsilə Qazaxıstan, Sibir, İtaliya, Əlcəzair, Polşa, Rumıniya və sair ölkələrə mal daşınırdı.

1970-80-ci illərdə respublikada kənd təsərrüfatının maddi bazasının gücləndirilməsinə xüsusi diqqət yetirilirdi.

Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqlar nisbətən məhdud miqdarladır. Buna görə də kənd təsərrüfatında məhsuldar qüvvələrindən tam və hərtərəfli istifadə edilməsi vacib idi. Bunun üçün ilk növbədə əkinçilik və heyvandarlığın müxtəlif təbii-iqtisadi zonalar üzrə səmərəli ixtisaslaşması və təmərküzləşməsi tələb olunurdu.

70-ci illərdə kənd təsərrüfatında əmək bölgüsünün dərinləşmiş prosesi sürətləndi. Pambıq istehsalı Muğan, Mil və Şirvan zonalarında təmərküzləşdi. 18 rayon pambıqçılıqla məşğul idi. Ən çox pambıq istehsal edən rayonlar Bərdə, Ağcabədi, Beyləqan, Sabirabad idi. 1985-ci ildə pambıq əkin sahələri 795,5 min hektara çatmışdı.

Başqa sahələrdə də təmərküzləşmə gedirdi. Tərəvəzin 92 faizindən çoxu Lənkəran-Astara, Quba-Xaçmaz, çay yarpağının 98 faizi Lənkəran-Astara taxılçı-

lıq Mərkəzi Aran, Şəki, İsmayıllı rayonlarında daha çox becərilirdi. Üzümçülük bütün təbii-iqtisadi zonalarda yetişdirilirdi.

Respublikada kənd təsərrüfatının ümumi məhsulunun həcmi1981-85-ci illərdə orta hesabla 1966-70-ci illərə nisbətən 2,6 dəfə çoxaldı.

1981-85-ci illərdə taxıl istehsalı 1,3 milyon tona, pambıq 861,4 min tona, tütün 56,9 min tona, üzüm 1,9 milyon tona çatdırılmışdı.

Beləliklə, 70-80-ci illərdə Azərbaycan iqtisadiyyatı böyük zirvələr fəth etdi. Əsas sosial-iqtisadi göstəricilərə görə Azərbaycan ittifaq respublikaları içərisində ön sıralara keçdi. Azərbaycanın ictimai əmək bölgüsündə istər idxal, istərsə də ixrac edilən məhsulların istehsal hşəcminə görə rolu xeyli genişləndi.

Akademik Cəmil Quliyev yazır: «1969-cu ilin yayından H.Əliyevin respublikaya rəhbərlik etməsi ilə Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında dönüş başlandı. H.Əliyev demək olar ki, 22 il Az.SSR-ə rəhbərlik etdi, bu müddət ərzində o, Azərbaycanın milli dirçəlişi üçün XX əsrdə hamıdan daha çox xidmət göstərdi. Bu illərdə H.Əliyev suveren Azərbaycan Respublikasının əsasını qoydu».

Lakin 1980-ci illərin ikinci yarısında Azərbaycan iqtisadiyyatınrda ciddi geriləmə prosesi başlandı. Ölkənin ictimai-siyasi rejimində baş verən gərgin və təlatümlü hadisələr onu sarsıdaraq iqtisadiyyatın tənəzzülünü sürətləndirdi.

Azərbaycanın ictimai-siyasi həyatının, təsərrüfat sistesinin ahəngi 1987-ci ildə erməni millətçilərinin «Dağlıq Qarabağ» ətrafında başladıqları fitnəkarlıqla pozuldu. Moskvada yüksək vəzifələr tutan erməni millətçiləri Azərbaycan iqtisadiyyatına böyük zərbələr endirmək üçün öz xəyanətkar fəaliyyətlərini genişləndirirdilər.

İlk növbədə 1985-ci ildə alkoqolizmə qarşı mübarizə adı altında respublikada böyük gəlir verən üzümçülüyün ləğv edilməsinə çalışdılar. 1990-cı ildə 107 min hektar üzüm sahəsi ləğv edilmişdi.

1988-ci ildə Gəncə avtomobil zavodunun, AKTİ-nin tələb şəhərciyinin tikintiləri dayandırıldı.

Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilən əsaslı vəsait ildən-ilə azaldıldı. Əsas fondların istifadəyə verilməsi 1990-cı ildə 1985-ci ilə nisbətən 50 faiz aşağı düşdü.

Neft hasilatı bu dövrdə 13,5 milyon tondan 13,1 milyon tona, qaz hasilatı isə 14,3 milyard kub metrdən 11,1 milyard kubmetrə enmişdi. Polad, dəmir, sement, yüngül sənaye sahələri əvvəlki gücü ilə işləmirdi.

Mühüm kənd təsərrüfatı məhsulları istehsalında da ciddi geriləmə baş verdi.

1980-ci illərin ikinci yarısında Azərbaycan sənayesi ziddiyyətlər, çox çətin və ağır bir dövr keçirirdi. Digər tərəfdən isə metodları yararsız olan yenidənqurma, millətlərarası toqquşmalar, rəhbərliyin zəifliyi, iqtisadi inkişafa mane olurdu.

Respublikanın 1970-80-ci illərdə iqtisadi yüksəlişi xalqın rifahının yaxşılaşmasına şərait yaratmışdı. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 80-ci illərdə 1,3 dəfə kolxozçuların orta aylıq əmək haqqı isə 1,5 dəfə artmışdı.

Qocalığa və əlilliyə görə dövlətdə pensiya alanların sayı 1989-cu ildə 987 minə çatmışdı.

1970-80-ci illərdə respublikanın şəhər və kəndlərində mənzil tikintisi sürətlə artmışdı. Bakı, Sumqayıt, Gəncə, Əli Bayramlı, Mingəçevirdə yeni mikrorayon və qəsəbələr salınmış, çox mərtəbəli binalar tikilmişdi. Həmin illərdə respublikada ümumi sahəsi 3 milyonkvadrat metrə çatmış və əhalinin mənzil şəraiti yaxşılaşdırılmışdı.

Həmin dövrdə Dənizkənarı park yenidən qurulmuş, fəvvarələr meydanı yaradılmışdı. 70-ci illərdə Bakı Dəniz vağzalı, Respublika sarayı, Gülüstan sarayı, Velotren tikildi.

Həmin illərdə əhalinin içməli su ilə təminatı yaxşılaşdırılaraq, Kür su kəməri tikildi. Lakin göstərmək lazımdır ki, sənaye, kənd təsərrüfatı, nəqliyyat və tikinti inkişaf etdikcə, təhlükəsizlik texnologiyasına ciddi əməl olunmaması, təmizləyici qurğulardan istifadə edilməməsi, respublikada ekoloji mühitin gündən-günə pozulmasına gətirib çıxardı.

Bakı, Sumqayıt, Gəncə, Əli Bayramlı şəhərləri ekoloji cəhətdən çirkab sularının dənizə axıdılması nəticəsində Xəzər dənizi həddən çox çirklənmişdi. Kimya zavodları Sumqayıt şəhərini «Ölü şəhərə» çevirmişdi. Qonşu respublikalardan Kür və Araz çaylarının çirkab və zəhərli maddələrin axıdılması böyük problem yaradırdı.

70-80-ci illərdə əhalinin sayı 5 milyon nəfərdən, 7,1 milyona çatmışdı. Hər min nəfərə görə təbii artım 20 faizə çatmışdı. Şəhər əhalisi 53,8 faiz təşkil edirdi.

Əhalinin sosial-sinfi strukturu da yeniləşmişdi. 1989-cu ildə əhalinin 86,8 faizini fəhlə və qulluqçular, 12,7 faizini kolxozçular təşkil edirdi.

Əhalinin milli tərkibində də mühüm dəyişikliklər baş vermişdi. 1989-cu il siyahıya alınmasına görə 7 milyondan çox əhalinin 6 milyonunu Azərbaycan türkləri, 392,3 min nəfərini ruslar, 390,5 min nəfərini ermənilər, 171,4 min nəfərini ləzgilər, 44,1 min nəfərini avarlar, 30,8 min nəfərini yəhudilər və sairə təşkil edirdi. Ümumiyyətlə respublikada 82 xalqın nümayəndəsi məskunlaşmışdı.

Beləliklə, 70-80-ci illərdə respublika əhalisinin sosial-siyasi, milli strukturunda, məişətində, rifahında mühüm dəyişikliklər baş vermişdi.

Bütün bunlarla yanaşı, əhalinin istehlak tələbləri lazımınca ödənilmirdi, xidmətlərin səivyyəsi xüsusən kənd yerlərində hələ aşağı idi. Ekoloji mühit çirklənirdi və s.

### *§ 8. Azərbaycanda mədəni quruculuğun inkişafında yeni mərhələ*

1970-80-ci illər Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni və mənəvi həyatında mühüm irəliləmələr dövrü olmuşdur. Uşaq müəssisələrinin, məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, tədrisin səviyyəli xeyli yüksəlmişdi.

Bu illərdə respublikada 101 min nəfərin məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verilmişdi.

Həmin dövrdə 703 min yerlik 1058 ümumtəhsil məktəb binası tikilib istifadəyə verilmişdi. Ümumtəhsil məktəblərinin sayı 4356-ya çatdırılmışdı və bu məktəblərdə 1,4 milyona qədər şagird təhsil alırdı. Bu məktəblərdə müəllimlərin sayı 132 min nəfərə qədər artmışdı.

Məktəblərin 98 faizində fənn kabinələri, emalatxanalar fəaliyyət göstərirdi.

Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsini təmin etmək məqsədilə H.Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına Bakı ibtidai hərbi məktəbi təşkil olundu.

80-ci illərin sonunda Azərbaycanda 2185 məktəbdənkənar uşaq müəssisələri, o cümlədən 91 pioner və məktəblilər sarayı, 1593 pioner düşərgəsi, 240-dan çox uşaq idman məktəbi, 210 musiqi məktəbi fəaliyyət göstərirdi.

Peşə təhsili sistemi inkişaf edirdi. 70-80-ci illərdə respublikada 100 yeni texniki-peşə məktəbi təşkil edilmişdi. 1990-cı ildə 176 belə məktəbdə 83 minə qədər şagird təhsil alırdı. Həmin şagirdlər sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, məişət xidməti və başqa sahələr üzrə peşəyə yiyələnirdilər.

Təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə orta ixtisaslı kadrlar hazırlayan 78 məktəbdə hər il 60-70 min tələbə təhsil alırdı. Bu illərdə Bakı kitabxanaçılıq texnikumunun, Bakı Plan İqtisad, Gəncə tikinti-inşaat texnikumları, Şuşa pedaqoji məktəbinin Mingəçevir və Naxçıvan politexnikumlarının, Səki pedaqoji məktəbinin yeni tədris binaları və yataqxanaları tikilərkən istifadəyə verildi. Bu illərdə tələbələrin təqaüdü 3 dəfə artdı.

1970-80-ci illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi. Yeni ali təhsil ocaqları fəaliyyətə başladı. 1971-ci ildə rus dili və ədəbiyyatı (Slavyan universiteti) və Pedaqoji Xarici Dillər İnstitutları yarandı. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi Pedaqoji institutları, 1976-cı ildə İnşaat mühəndisləri institutu, 1981-ci ildə Gəncə texnologiya institutu təşkil edildi.

1980-ci illərin sonlarında respublikada 17 ali təhsil müəssisəsi var idi. Bu ali məktəblərdə 80-ci illərin axırlarında 8500 nəfər, o cümlədən 612 professor, akademik, 3021 nəfəri dosent dərs deyirdi. Ali məktəblərdə hər il 100 min nəfər tələbə təhsil alırdı. Təkcə Bakı Dövlət Universitetində 13 min tələbə oxuyurdu.

Məktəblərdə tədrisin məzmununda müəyyən dəyişikliklər baş verdi. «Azərbaycan tarixi»nin tədrisi artırıldı. 1988-ci ildən bütün ali və orta ixtisas məktəblərində bu fənn tədris olunmağa başlanıldı. 80-ci illlərin sonlarında hər 1000 nəfər əhalinin 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-ı natamam orta təhsilli idi.

İnsanların biliyinin, mədəni səviyyəsinin yüksəlməsində mədəni-maarif müəssisələri və kütləvi informasiya vasitələri mühüm rol oynayırdı.

70-80-ci illərdə respublikamızın şəhər və kəndlərində 220 min yerlik 1066 klub və mədəniyyət evi, 3 kinoteatr istifadəyə verilmişdi.

Kütləvi kitabxanalar şəbəkəsi genişlənmiş, oradakı kitab və curnalların sayı 45,3 milyon nüsxəyə çatdırılmışdı. Hər 1000 nəfərə 6,4 min nüsxə kitab və jurnal düşürdü.

Respublikada 87 yeni muzey – 1972-ci ildə «Azərbaycan xalçası və tətbiqi sənət muzeyi», Sergey Yeseninin xatirə muzeyi, 1975-ci ildə Ü.Hacıbəyovun və S.Vurğunun, 1981-ci ildə Naxçıvanda H.Cavidin, 1982-ci ildə Bakıda C.Cabbarlının, Bülbülün ev muzeyləri, rayonlarda onlarla tarix-diyarşünaslıq muzeyləri təşkil olundu.

Həmin dövrdə Gəncədə «Nizami» təsviri sənət qalereyası, «Nizami dövrü və yaradıcılığı muzeyi» açıldı.

70-80-ci illərdə respublikada 8 yeni dövlət teatrı açıldı və onların sayı 20-yə qədər olmuşdu.

Kütləvi informasiya vasitələri şəbəkəsi artmaqda idi. 1990-ci ildə 259 qəzet, jurnal və məcmuə çap olunurdu. Dövri nəsrlərin illik tirajı 49 milyon nüsxədən çox idi.

1976-87-ci illərdə 10 cildlik «Azərbaycan Sovet Ensiklopediyası» çapdan çıxdı. Bu dövrdə 20 cildlik «Azərbaycan ədəbityyatı kitabxanası» 50 cildlik «Dünya Uşaq ədəbiyyatı Kitabxanası», 100 cildlik «Dünya Ədəbiyyatı kitabxanası», Molla Nəsrəddin 12 cildlik toplusu nəşr edildi. (1-ci cild).

70-80-ci illərdə Azərbaycan elminin inkişafında mühüm nailiyyətlər əldə olunmuşdu. Elmi müəssisələrin sayı 151-ə, o cümlədən elmi-tədqiqat institutlarının sayı 85-ə çatmışdı. Elmi tədqiqatla məşğul olan işçilərin sayı 32,3 nəfərədək artmışdı.

1972-ci ildə Elmlər Akademiyasının Naxçıvanda Elmi Mərkəzi fəaliyyətə başladı. 1975-ci ildən «Xəzər» elmi mərkəzində respublikanın təbii ehtiyatlarının kosmik tədqiqi aparılırdı. 1978-ci ildə Bakıda Kosmik Tədqiqatlar Elmi-İstehsalat Birliyi fəaliyyətə başladı.

1970-ci ildə Elmlər Akademiyasında 30 elmi müəssisə, 3300 elmi işçi fəaliyyət göstərirdi.

Bakı həmin dövrdə «Neft Akademiyası» adlanırdı. Bu sahədə görkəmli alimlərdən Mirəli Qaşqay, Şəfaət Mehtiyev, Əli Əlizadə, Əzəl Sultanov və başqaları görkəmli araşdırmalar aparırdılar. O dövrdə Fərman Salmanovun rəhbərliyi altında Qərbi Sibirin neft və qaz yataqdarı kəşf olunmuşdu.

Humanitar-ictimai elmlər sahəsində də mühüm nailiyyətlər əldə olunmuşdu. Z.Bünyadov, Cəmil Quliyev, İqrar Əliyev, Mahmud İsmayılov, Oqtay Əfəndiyev, Tofiq Köçərli kimi tarixçilər ulu elmin inkişafında mühüm rol oynamışdılar. Ədəbiyyatın inkişafında çox böyük irəliləyişlər olmuşdu. M.Dilbazi, Nəbi Xəzri, İslam Səfərli, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Xəlil Rza bədii ədəbiyyatın və ədəbiyyatşünaslığın inkişafında mühüm rol oynamışdılar.

Bədii nəşrin görkəmli nümayəndələri Süleyman Rəhimov, İlyas Əfəndiyev, Əzizə Cəfərzadə, İsa Hüseynov, Ələviyyə Babayevanın əsərləri çox maraqla oxunulurdu.

Xalqda milli şüurun oyanmasında Cənubi Azərbaycan mövzusunda yazılmış əsərlərin xüsusi əhəmiyyəti var idi. Mirzə İbrazimovun «Pərvanə», «Cənub hekayələri» maraqla qarşılanırdı.

Respublikada musiqi, ifaçılıq, teatr və kino sənəti sahəsində də mühüm irəliləyişlər baş verdi.

Fikrət Əmirovun «1001 gecə», Aqşin Əlizadənin «Babək» baletləri musiqi sənətinin ən mühüm nailiyyətləri idi. Şərqdə ilk olaraq bir qadın kimi Şəfiqə Axundova «Gəlin qayası» operasını yazdı.

Azərbaycan kinosu böyük inkişaf yolu keçdi. «Azərbaycanfilm kinostudiyasında «Şərikli çörək», «Yeddi oğul istərəm», «Ulduzlar sönmür», «Babək», «Tütək səsi», «İstintaq», «Axırıncı aşırım», «Dədə Qorqud» və başqa filmlər çəkildi.

Beləliklə, 70-80-ci illər Azərbaycan mədəniyyətinin inkişafında mühüm dövr oldu. H.Əliyevin milli oyanış siyasəti sayəsində təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün əlverişli imkanlar açıldı. Respublikanın mənəvi sərvətləri, kadr potensialı daha da artdı. Xalqın mədəni irsinin, tarixinin, dilinin öyrənilməsi və təbliği genişləndi.

### *§ 9. Cənubi Azərbaycan İran İslam inqilabı və ondan sonrakı dövrdə*

«21 Azər» hərəkatı boğulduqdan sonra Cənubi Azərbaaycanda demokratik əhval-ruhiyyə yaşamaqda idi. Bu zaman Cənubi Azərbaycan milli burjuaziyası 1949-1953-cü illərdə Milli cəbhə lideri d-r M.Müsəddiq başda olmaqla antiimperialist,demokratikləşmə uğrunda mübarizəsində fəal iştirak edirdi. Təbriz bu hərəkatın mərkəzində dururdu.

XX əsrin 60-cı illərinin əvvəli- 70-ci illərin ortalarında şah tərəfindən « Ağ inqilab » adı altında həyata keçirilən islahatlar Cənubi Azərbaycanda da sosial ziddiyyətləri kəskinləşdirdi. Azərbaycan kəndlilərinin iş dalınca digər vilayətlərə,xüsusən şəhərlərə axınını daha da gücləndirdi. Tehranda azərbaycanlıların sayı durmadan artmağa başladı. Azərbaycanlıların Tehran iqtisadiyyatına kapital qoyuluşu da artdı. Artıq, İslam inqilabı ərəfəsində Tehranda yaşayan azərbaycanlıların sayı bir milyonu ötmüşdü.

XX əsrin 60-70-ci illərində Cənubi Azərbaycanda bir sıra sənaye obyektləri, o cümlədən Təbrizdə maşınqayırma, neft emalı,Sofianda sement zavodu yaradılsa da, o, inkişaf surətinə görə İranın digər bölgələrindən çox geridə qalırdı.Üstəlik şah hakimiyyəti burada da milli ayrıseçkilik, habelə farslaşdırma siyasətini yürütməkdə davam edirdi. Şahlığın « milli vəhdət » şüarı altında apardığı şovinist siyasət Cənubi Azərbaycanda milli assimilyasiyanı gücləndirirdi. « Ağ inqila » zamanı maarif sahəsində həyata keçirilən islahatlar da digər xalqları, o cümlədən azərbaycanlıları məqsədyönlü olaraq farslaşdırmaq işinə xidmət edirdilər. Bu siyasət azərbaycanlılara qarşı fars sovinizminin yeni təzahürü idi. Onun nəticəsində Azərbaycan dili yasaq vəziyyətinə düşmüş, bu dildə bütün növ nəşrlər qadağan edilmişdi. Məktəblərdə təhsil ancaq fars dilində aparılırdı. Ölkədə ümummilli böhran şəraiti yaranmışdı. Ölkəni sosial partlayış gözləyirdi. 1977-ci ilin oktyabr-noyabr aylarında Tehran Universiteti tələbələrinin həyəcanlı çıxışları bu partlayışın yaxınlaşdığından soraq verirdi. Cənubi Azərbaycanda da belə vəziyyət yaranmışdı. 1977-ci il noyabrın sonu –dekabrın əvvəllərində Təbrizdə ali məktəb tələbələrinin və ümumtəhsil məktəbləri şagirdlərinin çıxışları, hətta polislə toqquşmalar baş verdi. Dekabrın 3-də şəhərin ali və orta məktəb müəllimlərinin etiraz yürüşləri təşkil edildi.Dekabrın əvvəllərində tələbələrlə polis arasında başlamış toqquşmalar dekabrın 10-a kimi davam etmişdi. Təbriz tələbələrinin ən böyük çıxışlarından biri də « 21 Azər » hərəkatının (1945-ci il 12 dekabr) ildönümü münasibətilə dekabrın 12-də olmuşdu. Çıxış zamanı tələbələrlə polis arasında ciddi toqquşma baş

vermişdi. Çıxışa Təbriz Universitetinin bir qrup müəllimləri də qoşulmuşdu. Bu ənənə bütün İran ali məktəblərinə də yayılmışdı.

1978-ci ilin əvvəllərində İranındini şəhəri olan Qumda şahlıq hakimiyyətinə qarşı çıxışlar Cənubi Azərbaycanda da inqilabi əhval-ruhiyyəni daha da gücləndirdi. Başda ayətullah əl-üzma (baş əyatulla) Seyid Nazim Şəriətmədari olmaqla Qumdakı yüksək rütbəli azərbaycanlı din xadimlərindən 5 nəfərinin imzaladığı müraciətə cavab laraq , 1978-ci il fevralın 18-də Təbrizdə əzəmətli nümayiş başladı. Nümayişdə 100 mindən çox adam iştirak edirdi. Nümayiş tezliklə şah rejiminə qarşı üsyana çevrildi. O, hicri tarixlə 1356-cı il bəhmən ayının 29-da (1978-ci il fevralın 19-də) başverdiyindən Azərbaycan tarixinə "29 bəhmən üsyanı" kimi daxil olmuşdur. Şəhərə ordu hissələrinin yeridilməsindən qəzəblənən xalq hökümət idarələrini, bankları, mehmanxanaları, xüsusi sahibkarlara məxsus pornoqrafik filmləri nümayiş etdirən kinoteatrları və.b. obyektləri zəbt edərək, dağıtmağa başladılar. Şəhərdə dükan-bazarlar, məktəblər, fabrik-zavodlar öz işlərini dayandırdılar.

Təbrizdəki polisə və ordu hissələrinə etibar etməyən şah ertəsi günü – fevralın 19-da başqa şəhərlərdən Təbrizə yeni hərbi qüvvələr gətirməli oldu. Üsyançılarla ordu hissələri arasında silahlı toqquşmalar baş verdi və axşamadək davam etdi. Toqquşmalar zamanı yüzlərlə ölən və yaralananlar oldu. Şəhərdə kütləvi bəhslər və axtarışlar başlandı. Həmin gün axşam şəhər evlərinin divar və qapılarına ayətulla Şəriətmadəri və digər ruhanilərin imzası ilə əhalini sakitliyə, insan tələfatının qarşısını almağa və dükan-bazarı açmağa çağıran intibahnamələr yapışdırıldı.

Təbrizdəki üsyan öz əks-sədasını Cənubi Azərbaycanın digər şəhərlərində və yaxın kəndlərində də tapdı. Belə ki, Mərənddə, Zinuzda, Sərdrudda,Şəbüstərdə şah rejiminə qarşı kütləvi çıxışlar baş verdi.

Üsyanın əsas təşəbbüskarları İranın rəsmi dairələrində "İslam marksistləri"adlandırılan "Xalq mücahidləri" və onlara yaxın olan "Xalq fədailəri" təşkilatları olmuşdu. Şahlıq əleyhinə çıxışların hazırlanması və keçirilməsində ruhanilər də mühüm rol oynamışdılar. Digər vilayətlərdən fərqli olaraq ilk dəfə 1978-ci ilin fevralında Cənubi Azərbaycanda, Təbrizdə "Şaha ölüm" şüarı səslənmişdi. Digər yerlərdə bu şüar ayətulla Xomeyninin Pəhləvi sülaləsini devirmək barədə xalqa müraciətindən sonra, 1978-ci ilin sentyabrında irəli sürülmüşdür.

Beləliklə, Təbrizdəki "29 bəhmən üsyanı" XX əsrin 70-ci illərinin sonunda baş vermiş İran inqilabının başlanğıc hadisəsi olmuşdu. Məhz bu hadisədən sonra şahlıq əleyhinə çıxışlar bütün ölkəni bürüdü. Cənubi Azərbaycanda monarxiya əleyhinə hərəkatın başçılarından olan Şəriətmadəri müsahibələrindən birində haqlı olaraq göstərmişdi ki,"29 bəhməndə Təbrizdə qanlarını axıdanlar İran inqilabının təməlini qoymuşlar". Tehranda nəşr olunan "Varlıq" jurnalı da İran inqilabının "29 bəhmən üsyanı" ndan başladığını yazmışdı. O zaman Təbrizdə yayılan "Dədə Qorqud"jurnalı da öz səhifələrində yazmışdı ki, "Tomris xanımın balaları Təbrizdə 29 bəhmən üsyanı ilə... Məhəmmədrza şahı tarixin küllüklüyünə tapşırdı".

Ümumiyyətlə, o zamankı İran mətbuatında "29 bəhmən" Təbriz üsyanı 1978-1979-cu illər inqilabının müjdəçisi kimi qiymələndirilmişdi.

“29 bəhmən”üsyanından 40 gün sonra, mart ayının 29-30-da İranın bir çox şəhərlərində, o cümlədən Tehranda,İsfahanda,Məşhəddə, Qumda, Təbrizdə, Zəncanda yenidən izdihamlı çıxışlar başladı. Təbrizdəki çıxış zamanı üsyançılar banklara, kinoteatrlara, dövlət idarələrinə basqınlar təşkil etdilər. Polislə toqquşmalar zamanıxeyli insan tələf oldu.

Mart hadisələrinin qırxıncı günü (mayın 9- 10 –da)İranın 20-dən çox şəhərində yenidən kütləvi çıxışlar baş verdi. Çıxışlar Qum və Təbriz şəhərlərində daha izdihamlı keçmişdir. Nümayişçilər küçələrə siyasi şüarlarla çıxmışdılar. Təbrizdə İmam Əlinin (Ə) qətli gününə - 24 avqusta həsr edilmiş nümayiş xüsusilə fərqlənmişdi. O,İran inqilabının ilk mərhələlərində baş vermiş nümayişlərin ən izdihamlısı olmuşdu. Nümayişdə yüz minlərlə adam iştirak etmişdi.

İnqilab dövrü nümayişlərdə əhalinin əksər sosial təbəqələri və onlara yaxın olan qüvvələr , o cümlədən tələbələr aparıcı rol oyanmışdılar.

Rejim əleyhinə ardı-arası kəsilməyən nümayişləri səngitmək məqsədi ilə şah hökuməti 1978-ci ilin avqustunda bəzi güzəştlərə getməyə məcbur oldu. O, digər demokratik vədlərlə yanaşı, “qanun çərçivəsində” siyasi partiyalar yaratmaq azadlığını elan etdi. Lakin bunlar da ölkədəki siyasi gərginliyi aradan qaldırmağa kömək etmədi.

1978-ci ilin sentyabrında inqilabın inkişafında yeni mərhələ - müxalif qüvvələrlə şah hakimiyyəti arasında həlledici mübarizə mərhələsi başlandı. İnqilabi mübarizənin sosial tərkibi genişləndi. İri şəhərlərdə fəhlələr də kütləvi olaraq şahlıq əleyhinə mübarizəyə qoşuldular. Fəhlələr, xüsusən neft sənayesi fəhlələri hələ sentyabrın sonu –oktyabrın əvvəllərində bütövlükdə ölkəni bürüyən tətil hərəkatına qoşulmuşdular. 1978-ci ilin noyabrında onların aramsız tətil hərəkatı başladı. O, 1979-cu ilin fevralına kimi davam etdi.

İnqilabın bu mərhələsinin səciyyəvi cəhətlərindən birini də,hərəkata rəhbərliyin ayətulla -əl üzma (böyük ayətulla- dini başçı) Ruhulla Musəvi Xomeyni başda olmaqla ruhanilərin əlinə keçməsi təşkil edirdi. Bununla da, ümumxalq hərəkatı xarakteri almış bu inqilaba islam donu geydirildi. O, tarixə İran İslam inqilabı kimi daxil oldu.

Ayətullah imam Xomeyni hələ XX əsrin 60-cı illərindən şahlığın və İranda ABŞ nüfuzunun artması əleyhinə olan şəxs kimi məşhurlaşmışdı. Dəfələrlə həbs olunmuş və 1962-ci ildə Türkiyəyə sürgün edilmiş, sonra oradan İraqa köçmüşdü. O,1978-ci il oktyabrın əvvəllərində İraq hökümətinin təkidi ilə oranı tərk edərək Parisə getməli olmuşdu. O, burada İran milli cəbhəsinin başçısı Kərim Səncabi ilə görüşmüş,İranda Pəhləvi sülaləsinin hakimiyyətinin ləğv olunmasının zəruriyyəti barədə birgə bəyanat imzalamışdılar. Bəyanatın yazıları İrana gətirilərək hərbi vəziyyət şəraitində yeganə leqal yığıncaq yeri olan məscidlərdə səsləndirilməklə əhaliyə çatdırılmışdı.

Bu mərhələdə şah reliminə qarşı ilk çıxışlar 1978-ci il sentyabrın 7-də başlandı. Bir gün sonra, sentyabrın 8-də Təbrizdə hərbi vəziyyətin elan olunması və qadağa saatlarının qoyulmasına etiraz olaraq, nümayiş və ümimi tətillər keçirildi. Həmin gün İranın digər şəhərlərində olduğu kimi Təbrizdə də nümayişçilərə divan

tutuldu, çoxlu ölən və yaralananlar oldu. Bu hadisə İran tarixinə "Qanlı cümə günü" kimi daxil olmuşdu.

Ayətulla Xomeyninin İraqı tərk etməyə məcbur edilməsinə etiraz olaraq,1978-ci il oktyabrın 1-də Cənubi Azərbaycanın Urmiya Zəncan, Həmədan və.b. şəhərlərində başlamış nümayişlər digər şəhərlərdə də öz əks-sədasını verdi. 1978-ci ilin oktyabr-noyabr aylarında Təbrizdə, Ərdəbildə, Marağada,Culfada, Həştrudda,Şahpurda əhalinin bütün təbəqələrini əlavə edən kütləvi nümayişləri keçirildi.

Müsəlmanların dekabrın 2-də başlanan müqəddəs məhərrəm ayında rejimə qarşı çıxışlar daha kəskin hal aldı. Onlar çox vaxt hərbi və polis hissələri ilə müşayiət olunurdu. Dekabrın 11-də aşura günü Azərbaycanda da nümayişlər daha əzəmətli olmuşdu. Nümayişçilərlə polis qüvvələri arasında baş vermiş toqquşmalar zamanı onlarla ölən və yaralanan olmuşdu. Dekabrın sonlarında Sərabda və Urmiyada keçirilən nümayişlər bu cəhətdən fərqlənmişdilər.

Nəhayət, 1979-cu il yanvarın 16-da rejimdən narazı olan xalqın, xüsusən milyonlarla əhalini əhatə edən inqilabi qüvvələrin təkidli tələbi və təzyiqi sayəsində 50 ildən çox İranda ağalıq edən Pəhləvi sülaləsinin nümayəndəsi Məhəmməd Rza şah ölkədən qaçmalı oldu. Bu, İranda monarxiya rejiminin ləğv edilməsində ilk qələbə idi. Xalq bu qələbəni böyük təntənə ilə qarşıladı.

Fevralın1-də ayətulla Xomeyni Parisdən Tehrana qayıtdı. Cənubi Azərbaycan əhalisi də bu hadisəni izdihamlı nümayişlərlə qarşıladı.

1979-cu il fevralın 11-də şahpərəst qüvvələrin müqavimətinə baxmayaraq, İranın paytaxtı inqilabçıların nəzarətinə keçdi. Təbrizdə isə inqilabçılarla şahpərəst qüvvələr arasında silahlı qarşıdurma fevralın ortalarına kimi davam etdi. Fevralın 16-da Cənubi Azərbaycanda inqilab qələbə çaldı. 1978-1979-cu illər İran inqilabı zamanı 25 min nəfərə qədər azərbaycanlı demokratiya və azadlıq naminə öz canını qurban vermişdi. Buna baxmayaraq, əfsuslar olsun ki, o, heç bir şey qazanmamışdı. Nə muxtariyyət əldə etmiş, nə də milli-mənəvi dəyərlərini qoruyub saxlamaq və inkişaf etdirmək imkanı əldə etmişdir. Onun sosial-siyasi və mədəni durumu demək olar ki, şahlıq rejimi dövründə olduğu kimi qalmışdı. Milli dilini və mədəniyyətini inkişaf etdirmək imkanlarından məhrum edilmişdi. İran Respublikası əhalisinin təqribən yarısını təşkil edən azərbaycanlılar da İslam bayrağı altında yeridilən fars şovinizm siyasətindən əzab çəkmək məcburiyyətində qalmışdılar. Onların milli- azadlıq, demokratiya uğrunda mübarizə şanslarının qarşısı hazırda da boğulmaqdadır. Parçalanmış Azərbaycanın Cənub hissəsində yaşayan soydaşlarımızın İran İslam inqilabından sonrakı vəziyyəti hələlik bax belə qalmaqdadır.

*§ 1.SSRİ-nin dağılması. Azərbaycan yeni siyasi sistemə keçid dövründə Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası.*

*§ 2. Ermənistanın Azərbaycana təcavüzü, onun nəticələri.*

*§ 3. Azərbaycanda siyasi sabitliyin bərpası. Sosial, iqtisadi, mədəni sahədə 1993-cü ildən sonra aparılan işlər və onların nəticələri.*

*§ 4. Müasir dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri.*

*§ 5. Azərbaycan Respublikası üçün minilliyin başlanğıcında: siyasi və iqtisadi inkişaf, mədəniyyət.*

## *§ 1. SSRİ-nin dağılması. Azərbaycan yeni siyasi sistemə keçid dövründə . Azərbaycanın Dövlət müstəqilliyinin bərpası*

1980-cı illərin ortalarından başlayaraq SSRİ iqtisadi-siyasi böhran və tənəzzül mərhələsinə daxil oldu. 80-cı illərin ikinci yarısından ölkədə gedən ictima-siyasi proseslər, əmək intizamının zəifləməsi, istehsal səviyyəsinin aşağı düşməsi bu iqtisadi-siyasi böhranı daha da dərinləşdirmişdi. SSRİ-nin mövcud olduğu yetmiş ildən çox dövr ərzində imperiyada yaşayan xalqlara hər zaman istehsal vasitələrinin və istehsal edilən məhsulların ümumxalq malı olduğu fikri təlqin edilirdi. Əslində isə SSRİ-yə daxil edilmiş 15 respublikanın yeraltı və yerüstü sərvətlərindən gələn bütün gəlirlərin əsas hissəsinə Rusiya yiyələnirdi. Bu kapitalın böyük hissəsi hərbi sənayeyə qoyulurdu və yalnız hərbi güc göstərməklə SSRİ bütün dünya dövlətlərinə meydan oxuyu bilirdu. Xalqın maddi rifahının yaxşılaşdırılmasına isə kifayət qədsər vəsait ayrılmırdı və maddi rifah baxımından SSRİ əhalisi Avropa və Amerikadan xeyli geridə qalırdı.

Əməyi müqabilində kifayət qədər əmək haqqı almayan əhali maddi marağı olmadığı üçün həvəssiz və məsuliyyətsiz çalışırdı. Xüsusi mülkiyyətin qadağan edildiyi sovet quruluşunda əhali "birgə ictimai mülkiyyətdə"- ümumxalq mülkiyyəti sayılan xalq təsərrüfatında çalışırdı. Maddi maraq prinsipinin pozulduğu sovet təsərrüfatında nəinki məhsul bolluğu yaratmaq, hətta məhsul istehsalını sabit saxlamaq imkanı belə çətinləşirdi. Sovet hökuməti yarandığı ilk dövrdən etibarən vaxtaşırı "Hərbi kommunizm", "Yeni iqtisadi siyasət", "Sosializm quruculuğu proramı" vəs. bu kimi müxtəlif iqtisadi proqramlar qəbul etməklə və ya struktur dəyişiklikləri yolu ilə mövcud siyasi sistemi qoruyub saxlamağa çalışırdı. Belə proqramlardan biri, həm də ən sonuncusu "1985-1986-cı illərdə Yenidənqurma proqramı" oldu. Lakin iqtisadi və siyasi böhranın son dağılma mərhələsini yaşayan SSRİ-ni bu islahatlar proqramı da qurtara bilmədi, əksinə bu prosesi daha da tezləşdirdi.

1990-cı il ərəfəsində SSRİ və onun sosialist bloku çox gərgin bir böhranla üzləşdi. İqtisadi, siyasi, sosial həyat həm SSRİ, həm də onun müttəfiqlərinin inki-

şaf potensialını tükətmiş və Qərb ölkələri ilə yarışmada tam məğlub vəziyyətə salmışdı. Dövlət idarəçiliyi, daxili siyasət, dövlət-vətəndaş münasibətləri iflasa uğrayırdı. Ölkə vətəndaşları, milli, dini, ictimai, siyasi təşkilatlar kütləvi hərəkata başlamışdılar.

ABŞ və onun Qərb müttəfiqləri isə SSRİ-nin zəifləməsindən istifadə edərək tədricən onun təsir dairəsində olan ölkələrə və bölgələrə daxil olmağa başladılar. Sosialist yönlü ölkələr bir-birinin ardınca Baltikyanı ölkələrdə, Şərqi Avropada SSRİ-yə - sosializm quruluşuna qarşı hərəkatlara başladılar. Tezliklkə sosialist ölkələri Qərbə döğu meylləndilər. Bunun ardınca ADR və AFR-in tarixi birləşməsi baş verdi və sovet qoşunlarının Avropadan çıxarılması prosesi başladı.

Nəhayət 1991-ci ildə Avropada sosializmin son nəhəngi SSRİ dağıldığını elan etdi. Beləliklə, 80-90-cı illərin əvvəllərində bütün sovet İttifaqını və sosialist blokunu bürüyən iqtisadi-siyasi tənəzzül, ağır sosial böhran sovet imperiyasının çökməsilə nəticələndi.

XX əsrin sonunda SSRİ-nin dağılması ilə müşayət olunan bir çox qlobal proseslər, xüsusən də Varşava müqaviləsi Təçkilatının ləğv edilməsi, “soyuq müharibə”nin başa çatması, dünya sosializm blokunun dağılması və dünyanın siyasi mühitinin dəyişməsinə, yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında bir-birinin ardınca yeni müstəqil dövlətlər meydana çıxmağa başladı.

SSRİ-nin dağılması ərəfəsində çox təəsüf ki, Azərbaycan hökuməti dünyada və SSRİ-də gedən ictimai-siyasi prosesləri nəzərə almadan bütün mümkün vasitələrlə Sovet hökumətini qoruyub saxlamağa çalışanlarla bir sırada dayanır və respublikanın bu qurumun tərkibindən ayrılmasına yol verməməyə səy göstərirdi. Bu məqsədlə hətta SSRİ-nin dağılmasına bir neçə ay qalmış Sovet İttifaqının saxlanması haqqında Moskvanın təşkıl etdiyi referendumu (mart,1991) Azərbaycanda da keçirərək səsvermədə iştiraqk edənlərin guya 93%-nin SSRİ-nin saxlanmasına tərəfdar olması haqqında mərkəzə saxta məlumat da vermişdi. Mərkəzi hakimiyyətin əksinə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi isə o zaman Naxçıvan ərazisində belə referendumun keçirilməsindən imtina edərək əhalinin müstəqillik əzmini nümayiş etdirmişdi.

Əslində xalqın təzyiqi və o zamankı ictimai-siyasi proseslərin təsiri ilə qəbul edilmiş 30 avqust 1991-ci il “Müstəqillik haqqında Bəyannamə” və 18 oktyabr 1991-ci il “Müstəqillik haqqında Konstitusiya Aktı” da SSRİ-nin tam dağılmasını təsdiqləyən 8 dekabr 1991-ci il tarixli Belovejsk sazişinə qədər hüquqi sənəd qüvvəsinə mindirilməmişdi. Bu sənədlərin hüquqi qüvvəyə minməsini təsdiqləyəcək “Müstəqillik haqqında” referendum yalnız 1991-ci il dekabrın 29-da keçirildi. Bütün bunlar göstərir ki, Azərbaycan hökuməti o dövrdə nəinki müstəqil siyasət yeritmirdi, əksinə respublikanın o zamankı müstəqillik imkanlarına hər vasitə ilə mane olmağa çalışırdı.

SSRİ dağıldıqdan sonra və Azərbaycan müstəqilk dövlət statusu aıdıqdan sonra belə mövcud hökumət yalnız Rusiya ilə münasibətlərə üstünlük verirdi. Bu da sözsüz ki, həmin dövr üçün nə Azərbaycanın iqtisadi, siyasi maraqlarını əks et-

dirir, nə də onun müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının qorunması və beynəlxalq təminatına cavab verirdi.

Azərbaycan Respublikası müstəqillik dövrünün ilk illərində keçmiş sovet rejimindən miras qalmış bir sıra problem və çətinliklərlə üz-üzə qalmışdı. 1990-cı illə müqayisədə istehsalın bütün sahələrində artım sürəti hər il azı 25%-30% aşağı düşürdü. Bu mərhələdə respublika iqtisadiyyatının inkişafına mənfi təair göstərən bir çox güclü amilər var idi:

1. Respublika iqtisadiyyatına mənfi təsir göstərən ən güclü amil Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi idi.

2. Azərbaycan keçmiş SSRİ-nin müxtəlif bölgələrində etibarlı xammal bazalarını və məhsul satışı bazalarını tamamilə və ya qismən itirmişdi.Buna görə də sənaye müəssisələrinin əksəriyyəti dayanmış və xarici əlaqələr pozulmuşdu.

3. 90-cı illərin əvvəllərində Respublikada mürəkkəb siyasi vəziyyət yaranmışdı. Azərbaycanda mövcud olan siyasi hökumət Azərbaycanın iqtisadi, siyasi maraqlarını əks etsirən, onun müstəqilliyinin, təklükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının qorunması və beynəlxalq təminatına cavab verən siyasət yürütmürdü.

Nəticədə Azərbaycanın siyasi hakimiyyətində dəyişiklik baş verdi. Lakin 1992-ci ilin mart ayından 1993-cü ilin iyun ayına qədərki dövrdə fəaliyyət göstərən yeni hökumət dövlətimizin qarşısında duran strateji məqsədlərə nail olmaq baxımından əvvəlki hökumətdən uzağa gedə bilmədi. 1992-93-cü illərdə Azərbaycanda dövlət quruculuğu sahəsində hərc-mərclik , özbaşınalıq baş alıb gedirdi. Obyektiv və subyektiv səbəblər üzündən 90-cı illərin əvvəllərində Azərbaycan Respublikasının ictimai-iqtisadi həyatının bütün sferalarında ciddi böhran müşahidə olunurdu. Bu dövrdə Azərbaycan iqtisadiyyatının ən mühüm problemi istehsalın, investisiya qoyuluşunun aşağı düşməsi idi. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə təkcə 1992-1993-cü illər ərzində ümumi daxili məhsul və sənaye məhsulu istehsalı 2 dəfə, kənd təsərrüfatı məhsulu 35%, əsaslı vəsait qoyuluşu 64%, yük daşınması 66 %, mal dövriyyəsi 56% azlmışdı.

Azərbaycan müstəqilliyini ilk illərindən xarici valyutaların tam təsiri altında olduğundan ciddi iqtisadi, siyasi, maliyyə-kredit böhranı ilə də üzləşmişdi. Buna görə də hökumət yenicə dövriyyəyə buraxdığı manatın sabit kursunu təmin edə bilmədi. Bundan başqa qeyri-profesional kredit, investisiya və pul siyasəti ölkəni xarici kapitalın (rubl və dolların) təsiri altına salmışdı. Qısa müddətdə inflyasiya sürətlə artmışdı. İstehlak mallarının qiyməti 124 dəfə bahalaşmışdı.

1992-1993-cü illərdə Azərbaycan hökuməti xarici siyasət sahəsində də bir sıra səhvlərə yol vermişdi:

- respublikanın ətrafında yaranmış regional və beynəlxalq münasibətlərin xarakterini, əsas tendensiyalarını müəyyən edə bilməmişdi;

- ayrı-ayrı region dövlətlərinin Azərbaycanda kəsişən və toqquşan təsir və nüfuz dairələrini qiymətləndirə bilmədi və müvafiq olaraq səhv addımlar atdı;

- həmin dövr üçün Azərbaycanın geostrateji əhəmiyyətini və dünya dövlətlərinin mənafe müstəvisində yerini düzgün qiymətləndirməməsi və düşünülməmiş addımlar atması;

Bütün bunlar nəticədə Azərbaycan Respublikasını çox ağır vəziyyətə saldı. Bir tərəfdən region dövlətləri ilə münasibətlər kəskinləşdi, digər tərəfdən isə beynəlxalq himayəyə olan inam itdi və bu himayəni təmin edə biləcək dövlətlərlə münasibətlər sərinləşdi. Azərbaycan beynəlxalq aləmdə təkləndi.

Bütün bunlar Azərbaycanda dövlət quruculuğu sahəsində baş alıb gedən hərc-mərclik, özbaşınalıq, ayrı-ayrı dövlətlər və siyasi dairələr tərəfindən dəstəklənən etnik seperatizm, silahlı qüvvələrin hakimiyyət uğrunda mübarizəsi ilə müşayət olunurdu. Nəticədə 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi qaçılmaz böhran və məhvolma təhlükəsi ilə qarşı-qarşıya qaldı. Beləliklə, müstəqilliyinin ilk illərində Azərbaycan hökuməti zamanın sınağından çıxa bilmədi.

Ermənistanın Azərbaycana təcavüzü. Tarixi kökləri. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirərərk "Böyük Ermənistan" yaratmaqdan ibarət idi.

### *§ 2. Ermənistanın Azərbaycana təcavüzü, onun nəticələri*

XIX əsrin 20-ci illərinin sonundan etibarən Azərbaycanda Çar Rusiyasının müstəmləkəçilik siyasətinin yeni mərhələsi başlamışdı. XIX əsrin əvvəllərində Rusiya ilə İran arasında Azərbaycan torpaqlarının bölüşdürülməsinə dair bağlanan 1828-ci il Türkmənçay müqaviləsindən sonra rus çarizmi Azərbaycanın strateji baxımdan böyük əhəmiyyət daşıyan Qarabağ bögəsində xristianların sayını artırmaqla reqionda möhkəmlənməyə çalışırdı. Məhz bu dövrdən etibarən ermənilərin Qarabağ bölgəsinə axını gücləndi. Rus çar məmurlarının da etiraf etdiyi kimi, Rusiya keçmişdə yaşadıqları ərazilərdə (İran, Tükiyə) arzuedilməz ünsürlər sayılan erməniləri Tiflis və Yelizavetpl quberniyalarında ən yaxşı torpaqlarda yerləşdirdi və onlara müxtəliff imtiyazlar verdi.

Beləliklə, 1804-1813-cü və 1826-1828-ci illər Rusiya-İran müharibələrinin gedişində və bütün XIX əsr boyu ermənilərin İran, Türkiyə və Cənubi Azərbaycandan kütləvi surətdə Şimali Azərbaycana, o cümlədən Qarabağa köçürülməsi nəticəsində bu bölgədə ermənilərin sayı sürətlə artmağa başladı. Təkcə 1828-1830-cu illər ərzində Dağlıq Qarabağa rəsmən 124 min, qeyri-rəsmi olaraq isə daha çox-200 min erməni köçürülmüşdü. Bu köçürmə siyasəti sonrakı illərdə də XIX əsrin sonu - XX əsrin əvvəllərində də davam etdirilirdi. 1896-1908-ci illər boyu cəmi 13 il ərzində Cənubi Qafqaza 400 min erməni köçürülmüşdü. Ermənilərin bu ərazilərə gəlmə olduğunu N.N.Şavrov da təsdiq edərək yazırdı ki, "Hal-hazırda Zaqafqaziyada yaşayan 1milyon 300 min ermənidən 1milyon nəfəri diyarın köklü sakinləri deyillər. Onları bura biz köçürmüşük". Beləliklə, ermənilərin Azərbaycan ərazisinə kütləvi şəkildə köçürülməsi Qarabağın dağlıq hissəsində de-

moqrafik vəziyyətə ciddi təsir göstərdi və onların gələcək ərazi iddiasının baş qaldırmasına səbəb oldu.

“Böyük Ermənistan” xəyalı ilə yaşayan erməni millətçiləri 1905-1906-cı illərdə azərbaycanlılara qarşı Bakıda, Şuşada, İrəvanda, Naxçıvanda, Gəncədə, Zəngəzurda, Qazaxda, Tiflisdə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər.

Ermənilər Birinci Dünya müharibəsi, eyni zamanda Rusiyada baş vermmiş 1917-ci il fevral burjua və oktyabr bölşevik inqilabından məharətlə istifadə edərək öz iddialarını artıq bolşevik bayrağı altında davam etdirməyə nail oldular. 1918-ci il martın 30-u, 31-i və aprelin 1-də bölşevik qiyafəsinə bürünən ermənilər bu dəfə Sovet Rusiyasının yardımı ilə soyqırım törədərək 15 min azərbaycanlını qətlə yetirdilər. Həmin ilin aprel-may aylarında ermənilər Şamaxıda, Qubada, Ağsuda, Kürdəmirdə, Salyanda, Lənkəranda kütləvi qırğınlar törədərək 50 mindən artıq azərbaycanlını qətlə yetirmişdilər.

1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Dağlıq Qarabağda məskunlaşan ermənilər Azərbaycan Xalq Cumhuriyyətini tanımaqdan imtina etdilər. Azərbaycan Xalq Cumhuriyyəti mövcud olduğu dövrdə də ermənilər diplomatik və hərbi (1918-1920) cəhdlər göstərərk Azərbaycanın ərazi bütövlüyünü pozmağa çalışdılar.

1920-ci ildə Sovet Rusiyasının Qafqazı yenidən işğal etməsi ilə bölgədə sosialist respublikalarının elan edilməsi sərhəd məsələlərinin qoyuluşunu mənasız etdi. Lakin Cənubi Qafqazda sovet hakimiyyətinin qurulması da Qarabağ məsələsini gündəlikdən çıxartmadı. Çünki göründüyü kimi, Sovet Rusiyası çarizmin erməni siyasətini davam etdirmək niyyətində idi. Elə sovetləşmənin ilk illərində Sovet Rusiyasının bu mövqeyi özünü göstərməkdə gecikmədi. 1920-ci illərin sonunda Zəngəzur və digər Azərbaycan torpaqları Emənistan SSR-nin ərazisi elan edildi. Sonralar isə erməni millətçiləri bu ərazilərdəki azərbaycanlıları öz ata yurdlarından deportasiya edilməsinə də nail oldular. 1923-cü ildə erməni-rus ittifaqı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə muxtar vilayət statusu verilməsinə nail oldu. Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması sovet Rusiyasının məqsədyönlü siyasətinin nəticəsi idi və ermənilərin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün bir zəmin idi.

Sovet hakimiyyətinin sonrakı illərində də ermənilər Rusiyanın himayədarlığı ilə Azərbaycan torpaqlarına yiyələnməkdə davam edirdilər. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin “Ermənistan SSR-dən kolxozçular və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında” xüsusi qərar qəbul edildi. Bu qərara əsasən 1948-1953-cü illərdə 150 minədək azərbaycanlı öz tarixi torpaqlarından kütləvi şəkildə dövlət səviyyəsində deportasya edildi.

Dağlıq Qarabağ məsələsinə gəldikdə isə ermənilər və onların himayədarları müəyyən tarixi məqam gözləyirdilər ki məqsədlərinə çatsınlar. Belə fürsət ermənilərin əlinə XX əsrin 80-cı illərində düşdü. Sovet İttifaqında 80-cı illərdən başlayan iqtidsadi-siyasi böhran şəraitində ermənilər yenidən Azərbaycanın Dağlıq Qara-

bağ bölgəsinə ərazi iddiaları irəli sürdülər. 1980-cı illərin ikinci yarısında ermənilər SSRİ-də yenidənqurma siyasətinin "aşkarlıq və demokratiya" prinsipılərindən istifadə edərək özlərinin Rusiyadakı və xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə ərazi iddiaları irəli sürdülər.

1988-ci ildən başlayaraq erməni siyasətçiləri və onların Moskvadakı himayədarları Dağlıq Qarabağın iqtisadi geriliyi pərdəsi altında bu vilayətin Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanan plan üzrə fəaliyyətə başladılar. Əslində Dağlıq Qarabağın 1988-ci ilədək göstəriciləri sosial inkişafın bir sıra sahələri üzrə Azərbaycanın digər bölgələrindən, hətta Ermənistandan daha yüksək idi. Hadisələrin sonrakı gedişi göstərdi ki, DQMV- nın iqtisadi geriliyi barədə iddilalar yalnız bəhanə, əsas məqsəd isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları idi.

Sovet rəhbərliyinin məsələyə vaxtında və prinsipal qiymət verməməsi baş verən hadisələrə laqeyd münasibəti, Ermənistanın əsassız iddialarının qarşısının alınmaması, milli qarşıdurmaların baş verməsi, ermənilərin bu haqsız tələbinin vaxtında Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qəsd kimi qiymətləndirilməməsi yaranmış vəziyyəti daha da ağırlaşdırdı. Sovet rəhbərliyinin fəaliyyətsizliyi və bəzən də açıq himayədarlığı sayəsində Ermənistan Azərbaycanın Dağlıq Qarabağla bərabər digər ərazilərinə də hərbi qüvvə göndərərək açıq təvcavüzə başladı.

Erməni təcavüzünün qarşısının alınması Azərbaycanda SSRİ rəhbərliyinə olan inamı heçə endirmişdi. SSRİ hökumətinin, xüsusilə də onun başında duranların qətiyyətsizliyi və Azərbaycana qarşı açıq-aşkar ərazi iddiaları irəli sürən Ermənistanı himayə etməsi nəticəsində hadisələr daha da mürəkkəbləşdi. Moskvanın hakim dairələrində ermənilərin müdafiə olunması və Azərbaycanın o zamankı respublika rəhbərliyinin bütün bu hadisələrə seyrçi mövqe tutması Ermənistanın Azərbaycana qarşı təcavüzünün daha da genişlənməsinə səbəb oldu. Nəticədə azərbaycanlılar öz yurdlarından kütləvi şəkildə qovuldu.

1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə Sovet İttifaqının hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı təcavüzkar müharibəyə başladı, Ermənistanda yaşayan azərbaycanlılar son nəfərinə kimi tarixi torpaqlarından qovuldu. SSRİ süqut etdikdən sonra isə ermənilər və onların havadarları Dağlıq Qarabağ məsələsini öz maraqları çərçivəsində beynəlxalq əhəmiyyətli problemə çevirmək üçün genişmiqyaslı kompaniyaya başladılar.

1992-ci illərin əvvəllərində isə Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı yerləri də işğal etdilər. 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə ermənilər Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının köməyi ilə Xocalı şəhərinə hücum edərək min nəfərə qədər dinc sakini qətlə yetirdilər. Bu soyqırımı XX əsrin ən böyük faciələrindən biri idi. Xo-

calının erməni-rus hərbi qüvvələri tərəfindən işğal edilməsinin ardınca az müddət içərisində bütün yuxarı Qarabağ zəbt olundu.

1992-ci il mayın 8-də Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhəri ələ keçirildi. Erməni-rus ordusu Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan respublikasına birləşdirmək məqsədilə ətraf rayonlara hücumlara başladı. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi yolunda Ermənistan sərhəddinə yaxın ərazidə yerləşən qədim Azərbaycan şəhəri Laçın əsas maneə idi. 1992-ci il mayın 17-də Laçın şəhəri də ermənilər tərəfindən işğal edildi. Laçının işğalı ilə müharibənin Dağlıq Qarabağın hüdudlarından çıxaraq Ermənistanın işğalçılıq planlarının daha geniş olduğu üzə çıxdı. Ermənilərin "humanitar dəhliz" adlandırdığı Laçın yolu ilə Dağlıq Qarabağa qısa müddətdə külli miqdarda hərbi sursat-silah gətirildi. Nəticədə 1993-cü il ərzində Ermənistanın ərazi iddasında olduğu Dağlıq Qarabağ bölgəsinin (4.400kv.km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları (17.000kv.km) Ermənistan tərəfindən işğal edildi.

Qarabağ müharibəsində 20.000 nəfərdən çox Azərbaycan vətəndaşı həlak olmuş, 100.000 nəfər yaralanmış, 50.000 nəfər isə əlil olmuşdur. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 mln. əhali öz torpaqlarında qaçğın vəziyyətinə düşdü. Hazırda Azərbaycanın 20%-dən çox hissəsi Ermənistan tərəfinən işğal edilmişdir.

### *§ 3. Azərbaycanda siyasi sabitliyin bərpası. Sosial-iqtisadi, mədəni sahədə 1993-cü ildən sonra*

1993-cü ildə Azərbaycan Respublikasında yaranmış siyasi böhran Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətdən getməsi ilə nəticələndi. 1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi ölkənin siyasi-iqtisadi-strateji siyasət fəaliyyətinin yenidən qurulmasına şərait yaratdı. Xalqın iradəsi ilə hakimiyyətə gələn Heydər Əliyev dövlətçilk işlərindəki təcrübəsi və müdrikliyi sayəsində qısa müddət ərzində ölkədə siyasi sabitliyə nail oldu. Ümumiyyətlə, Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafını bir-birindən fərqlənən iki dövrə bölmək olar:

I dövr. 1991-1993-cü illər. Siyasi-iqtisadi vəziyyətin kəskin pisləşdiyi, iqtisadi tənəzzülün tənəzzülün gücləndiyi dövr.

II dövr. 1993-cü ildən sonrakı mərhələ. Bu dövrdə iqtisadi tənəzzülün qarşısı alınmış, ümumi daxili məhsul, investisiya qoyuluşu artmış, respublika iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya prosesləri başlamış və ölkə yeni inkişaf mərhələsinə daxil olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə keçmiş sələflərinin dövlət idarəçiliyi sahəsində buraxdığı səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış son dərəcədə gərgin beynəlxalq siyasi vəziyyə-

ti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən xarici siyasət kursu və iqtidasi-sosial islahatlar proqramını formalaşdırmaq zərurəti ilə üzləşmişdi.

Eyni zamanda Azərbaycan dövlətinin strateji maraqlarını beynəlxalq güc mərkəzlərinin, region ölkələrinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilməli, respublikamızın mənafelərini qorumaq və reallaşdırmaq üçün hərtərəfli ölçülüb-biçilmiş addımlar atılmalı idi. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz reqionu və bilavasitə Azərbaycan üzərində köklənmiş imperiya ambisiyaları, ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizənin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, xüsusi taktiki gedişlərlə Azərbaycanın dövlətçilik mənafelərini maksimum qorumaq idi.

Digər tərəfdən, geniş elmi və analitik təhlil əsasında Azərbaycanın geosiyasi vəziyyəti və dövlətin ona təsir etmək üçün real imkanları öyrənilməli, bütün diplomatik vasitələr səfərbər edilməli, iqtisadi-sosial tədbirlər proqramı işlənib hazırlanmalı idi. Azərbaycanın 1993-cü ilin ikinci yarısına qədər daxili və xarici siyasətdə uğrsuzluğa düçar olması əsasən bu amillərin nəzərə alınmaması nəticəsində baş vermişdi. Həmin dövrdən başlayaraq Azərbaycan dövlətçiliyi siyasətində Azərbaycaının geosiyasi vəziyyəti, beynəlxalq siyasətə təsir etmə imkanları, eyni zamanda daxili, iqtisadi resurslarının dərin nəzəri-praktik təhlili əsasında mövcud reallıqlarını nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi.

Azərbaycanın milli gəlirinin mühüm bir hissəsini və iqtisadiyyatının əsas qismini neft təşkil edir. 1994-cü ildən başlayaraq həyata keçirilən yeni neft strategiyasının əsas mahiyyəti Xəzər dənizinin Azərbaycan sektorundakı neft ehtiyatlarının qabaqçıl Qərb texnologiyası və investisiya imkanlarından istifadə etməklə dövriyyəyə buraxılması, təhlükəsiz yollarla dünya bazarına çıxarılması, satışından əldə edilən vəsaitlə ölkənin digər sahələrinin, qeyri-neft sektorunun inkişafına nail olmaq vəs. ibarət idi. Neft-qaz kəmərlərinin çəkilişi və təhlükəsizliyi, investisiya təminatı, dünya neft-qaz bazarında Azərbaycanın lazımı yeri tutması kimi işlərin həyata keçirilməsi də mühüm vəzifələr sırasına daxil idi.

Beləliklə, Azərbaycan respublikası Prezidenti Heydər Əliyevin 1994-2003-cü illər iqtisadi strategiyasının əsas tezisləri aşağıdakılar idi:

- ölkə büdcəsinə 20 il ərzində 200mld.dollar vəsait cəlb etmək;

-Xəzərin hüquqi statusunun müəöyyənləşməsi prosesinə müsbət təsir göstərən fəaliyyət;

-iqtisadi və siyasi stabillityin yaradılması;

-xammal ehtiyatrlarından müstəqil istifadə etmək üçün şərait yaradılması;

-qeyri-neft sektorunun inkişafına təkan verilməsi;

-ölkənin xammal istehsal edən ölkədən tədricən sənaye məhsulları istehsal edən ölkəyə çevrilçəsi.

Müstəqil Azərbaycan Respublikasında 1993-2003 və ondan sonrakı illərdə həyata keçirilən tədbirlər maliyyə-kredit böhranı da aradan qaldırdı, inflyasiyanı

sabitləşdirdi, büdcə, xəzinə, xarici investisiya qoyuluşu və maliyyə-kredit problemlərini həll etdi. 2005-ci ildə manatın denominasiyası haqqında fərman imzalandı, xəzinəyə iki milyard ABŞ dollarından artıq pul toplandı, neft gəlirlərinin vahid fonda yığılması və istifadəsi strategiyası müəyyən edildi. Ölkənin xarici kapital və investisiya üçün əlverişli dövlət imicinin qorunub saxlanması üçün, qeyri-neft sektorunun inkişafı üçün, manatın sabit kursunu təmin edilməsi üçün tədbirlər görüldü.

Azərbaycan Respublikası müasr dövrdə özünün mövcud resurslarından xalqın rifahı naminə səmərəli istifadə etmək üçün Qərb ölkələrinin təmsil olunduğu Avropa birliyi sisteminə iqtisadi, mədəni, sosial sahədə inteqrasiyasına mühüm əhəmiyyət verir. Bu sistemə daxil olmaqla Azərbaycan öz iqtisadiyyatını daha səmərəli, təhlükəsiz və itkisiz idarə etmək imkanı əldə etməklə yanaşı, həm də qabaqcıl dünya texnologiyalarından, investisiya və xarici kapitalın ölkə iqtisadiyyatına daha sürətlə daxil olması, qeyri-neft sektorunun inkişafına nail olması imkanı qazanır. Odur ki Azərbaycanın iqtisadi və xarici siyasətinin əsas istiqamətlərindən biri də Avropa İttifaqı və bütün digər beynəlxalq maliyyə strukturları, Dünya bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və inkişaf Bankı kimi qurumlarla əməkdaşlıqdır.

## *§ 4.Müasir dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri*

Azərbaycan dövlətinin xarici siyasətdəki əsas vəzifələrini aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

- Ölkənin müstəqilliyini, suverenliyini beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini reqional və beynəlxalq təhlükəsizlik sitemi ilə əlaqələndirmək;
- Azərbaycanın bütün beynəlxalq və reqional təşkilatlarda təmsil olunması, böyük dünya siyasətinə qatılması;
- Dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən respublika iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafında istifadə etmək;
- Ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili və xarici siyasət yeridilməsi üçün əlverişli beynəlxalq şəratin yaradılmasına nail olmaq;
- Reqionda gərginliyin aradan qaldırılması və mehriban qonşuluq münasibətlərinin yaradılmasına çalışmaq;
- Azərbaycana xarici təzyiqlərin qarşısını alan beynəlxalq himayə mexanizminin yaradılması;
- Dövlətin bütün beynəlxalq, regional, iqtisadi, elmi-texniki, mədəni vəs. təşkilatlarda fəal iştirakına səy etmək;

- Xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr və informasiya mü-badiləsi mexanizmlərini yaratmaq vəs.

XX əsrin sonunda dünyada baş verən qlobal proseslər, xüsusilə də Varşava müqaviləsi təşkilatının ləğv edilməsi, "soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkild dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin bialavasitə beynəlxalq münasibətlər sistemihnə qatılması dünyada dövlətlərarası münasibətlərdə yeni mərhələnin başlamasına səbəb oldu.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Pespublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-cı illərin sonu-90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılmasını ən vacib məsələ kimi ön plana çəkdi. 1991-ci ilin sonu -1992-ci ildə Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması onun dünya birliyinə sistemli şəkildə inteqrasiyasına geniş yol açdı. Azərbaycan Respublikasıl 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. BMT-nın ardınca ATƏT və İKT-nın üzvü olan Azərbaycan respublikası həyata keçirdiyi ardıcıl xarici siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa təşkilatlarla da sıx əlaqə yaratmışdır.

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti Dağlıq Qarabağda erməni seperatizmi və Ermənistanın hərbi təcavüzü şəraitində həyata keçirilir. Bu baxımdan təcavüzün və millətçi seperatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə iqtisadi və siyasi inteqrasiyaya girmək zərurəti fəal xarici siyasət həyata keçirilməsini tələb edir.

Ermənistan –Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınması Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ildən başlayaraq xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Heydər Əliyev münaqişənin aradan qaldırılması üçün ən yüksək səviyyədə dövlət başçıları ilə görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsəsdrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, həmçinin Ermənistan prezidenti ilə birbaşa danışıqlarda Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaqla öz mövqeyini nümayiş etdirmişdir. Bu məqsədlə Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə də Ermənistanın ərazi iddiaları və hərbi təcavüz məsələsini beynəlxalq aləmə çıxararaq reqionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Ermənistanın Azərbaycan ərazilərinin işğalı ilə bağlı olaraq BMT Təhlükəsizlik Şurası 7 bəyənat və 4 qətnamə qəbul etmişdir. Lakin təəssüf ki, bu qətnamələr qəbul edilərkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasını üstün tutdular.

Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Dünya Birliyi Ermənistanın bu açıq-aşkar təcavüzünə göz yumdu və təcavüzkarın cilovlanması üçün heç bir tədbir görmədi. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ reqionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirildi.

Ermənistan-Azərbaycan münaqişəsində vasitəçilik dövrü başlandı. Bu vasitəçilik tarixinə nəzər salsaq bu məsələnin Rusiya-Qərb qarşıdurmasınının xarakterindən asılı olduğunu görərik. Dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair vasitəçilik səylərinin fəallaşması hər zaman Rusiyanın siyasi dairələrində narahatlıq doğurmuşdur. Belə vaxtlarda Rusiya təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa, bununla da reqionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərir.

Öz məqsədlərinə nail olmaq üçün Rusiya Azərbaycana təzyiq göstərərək qoşunlarını "sülhməramlı qüvvələr" adı altında manaqişə bölgəsinə gətirməyə də cəhd göstərdi. Lakin bu məqsədinə nail olmayan Rusiya Ermənistanda qoşunlarının sayını daha da artırmaqla, onu gizli və aşkar yolla silahlandıraraq, Azərbaycan ərazilərinin işğal olunmasına dəstək vermişdir.

Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq işində 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən sənəd böyük siyasi uğur sayıla bilər. Bu Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin diplomatik istedadı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir bəyanat qəbul edildi. Bu bəyanat Ermənistan istisna olmaqla dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin yekun qərarında öz əksini tapdı.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. Həmsədrlər 1997-ci ildən indiyə kimi iki hissədən ibarət –Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə dair 3 təkliflə çıxış etmişlər. Onların 1997-ci il iyunda təqdim etdikləri ilk təklif münaqişənin "paket" həlli (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulur), 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" həllindən (bu variantda isə münaqiçənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) ibarət idi. Lakin Azərbaycan hökuməti həmin planlarla tam razı olmamasına baxmayaraq sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədilə həmsədrlərin hər iki təklifini qəbul etsə də Ermənistan tərəfi bu təkliflərlə razılaşmadı.

1998-ci il noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qəbul edilməz olan üçüncü təklif irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Bu təklif Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edildi. Bu təklif Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt

və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşıldığını göstərirdi.

1999-cu il fevralın 8-də Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin başçılarına (ABŞ, Rusiya, Fransa) müraciət edərək Minsk qrupunun fəaliyyətini və axırıncı təklifini ciddi tənqid etdi.

Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məsələsinə BMT və ATƏT-lə yanaşı 1993-cü ildən İslam Kkonfransı təşkilatı da baxmış, 1994-cü ildə Kasablankada, 1996-cı ildə Cakarada, 2000-ci ildə Dohada keçirilən Zirvə toplantılarında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul etmişdir. Qeyd etmək lazımdır ki, İKT Ermənistanı birmənalı şəkildə təcavüzkar dövlət kimi tanıyan ilk beynəlxalq təşkilatdır.

2001-ci il yanvarın 25-də Azərbaycanın Avropa Şurasına bərabərhüquqlu üzv kimi qəbul olması nəticəsində olkəmiz öz səsini bünya ictimaiyyətinə çatdırmaq üçün yeni və mötəbər bir tribuna qazandı. 2001-ci aprelin 24-27-də Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyəti ilk dəfə olaraq bu qurumin iclasında bərabər hüquqlu üzv kimi iştirak edərək Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən sənədlər yaymışdılar. Bunlardan 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış “Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş qoyqırımın tanınması” adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış “Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar” haqqlnda məlumat AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin qətlə yetirilməsi, Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi, Ermənistanda, eyni zamanda işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlının girov saxlanması faktları və b. məsələr də öz əksini tapmışdır.

AŞPA-nın 2002-ci il sentyabrda keçirilən payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı.

2004-cü ilin əvvəllərindən Avropa Şurası, ATƏT, Avropa İttifaqı münaqişənin dinc vasitələrlə həlli istiqamətində öz səylərini artırmışdır. Belə ki, AŞPA-nın qış sessiyasında Ermənistanın işğalçı dövlət olması bir daha təsbit edildi və münaqişənin aradan qaldırılmasında Ermənistanın heç bir adım atmaması faktı sənədlərdə öz əksini tapdı. AŞPA-nın sesiyasında ermənilərin işğal etdikləri ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti ilə bağlı məruzə dinləndi və işğal olunmuş Azərbaycan ərazilərinin (Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsi təklifi verildi.

2004-cü il fevralın 4-də ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin Azərbaycana səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, münaqişənin nizama salınmasında əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı digər beynəlxalq qurumlar – ATƏT-in Prlament Assambleyası , Avropa Şurası və Av-

ropa İttifaqının da fəaliyyətinin gücləndirilməsi böyük əhəmiyyətə malikdir. Prezident İlham Əliyev Avropa Şurasının Parlament Assambleyasının Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəçisi Terri Devisin Azərbaycana səfəri zamanı (2004-cü il fevralın 25-i) da Ermənistanın hərbi təcavüzkarlığı faktına Avropa Şurasının siyasi qiymət verməsinin vacibliyini vurğulamışdı.

Dövlət başçısı ATƏT-in səfirini qəbul edərkən (2004.16 mart) Minski qrupunun konkret təkliflərlə çıxış etməməsi baxımından fəaliyyətini tənqid etmiş və Azərbaycanın ümummilli lideri Heydər Əliyüv tərəfindən müəyyənləşdirilmiş pinsiplərə sadiq qalaraq münaqişənin yalnız beynəlxalq hüquq normaları əsasında, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi şərtilə nizama salınmasının vacibliyini bildirmişdir.

Prezident İlham Əliyev Azərbaycanın prinsipal mövqeyini növbəti dəfə Bratislavada keçirilən beynəlxalq konfransda(2004,martın17) bəyan etdi. Azərbaycan Prezidenti Dağlıq Qarabağ ermənilərinin öz müqədəratlarını təyin etmək hüququ ilə bağlı iddialarının tamamilə saxta və beynəlxalq hüquqa zidd olduğunu bildirərək ermənilərin artıq öz müqədəratını təyin edib Ermənistan adlı müstəqil dövlət yaratdıqlarını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, ermənilər bütün yaşadıqları digər ölkələrdə də öz müqəddəratlarını təyin etmək fikrinə düşsələr, dünyada hansı hadisələrin baş verəcəyini söyləmək çətindir. Bununla yanaşı dövlət başçısı münaqişənin nizama salınması prosesində ATƏT-in Minsk qupunun fəaliyyətinin heç bir səmərə vermədiyini vurğulayaraq Avropa Birliyi və Avropa Şurasını münaqışənin dinc vasitələrlə həlli istiqamətində səylərini gücləndirməyə çağırdı.

2004-cü il aprelin 29-da AŞPA-nın növbəti yaz sesiyasında Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxış edərək öz qətiyyətli mövqeyini bir daha nümayiş etdirdi.

Azərbaycan Pespublikasının Parlament nümayəndə heyətinin səyi ilə AŞPA-da obyektiv müsbət rəyin formalaşmağı nəticəsində 2005-ci ildə qəbul edilən sənəd ölkəmiz üçün mühüm əhəmiyyətə malikdir. Bu sənəddə Azərbaycan ərazilərinin böyük bir hissəsinin hələ də Erməni qoşunlarının işğalı altında olduğu və seperatçı qüvvələrin Dağlıq Qarabağ reqionuna nəzarət etdiyi göstərilir. Bununla yanaşı, sənəddə deyilirdi ki, “Avropa Şurasının üzvü olan ölkənin başqa ölkənin ərazilərini işğal altında saxlaması həmin ölkənin öz üzərinə götürdüyü öhdəliklərə açıq-aşkar ziddir və Assambleya öz yerlərindən qaçqın düşmüş insanların geri qaytarılması hüququnu təsdiqləyir.

Göründüyü kimi, Azərbaycan öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan bu günə kimi aparılan danışıqlarda təcavüzkar ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmək istəmir. Digər tərəfdən isə dünya birliyinin “ikili standartlar” prisipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret addımlar atmaması danışıqlar prosesində irəliləyişin əldə olunmasına əngəl törədir.

Qeyd etmək lazımdır ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan da daxil olmaqla postsovet məkanında yerləşən bütün dövlətlər özlərinin gələcək inkişaf strategiyasını müəyyənləşdirərkən ciddi seçim qarçısında qalmışdılar. Onlar ya əvvəlki kimi sosialist ideologiyası və ictimai mülkiyyətə əsaslanan planlı iqtisadiyyat siyasətini davam etdirərək beynəlxalq aləmdə ideoloji, hərbi-siyasi qarşıdurmaya yenidən şərait yaratmalı, ya da iqtisadi-siyasi və sosial sahədə yüksək tərəqqiyə nail olmuş ölkələrin təcrübəsinə əsaslanaraq xüsusi mülkiyyətə əsaslanan azad bazar iqtisadiyyatı yolunu seçməli idilər. Kapitalizm dünyasının hərtərəfli üstünlükləri yeni yaranmış dövlətləri məhz ikinci yola yönəltdi.

Lakin kapitalizm dünyasının daxilində də hazırda dünya siyasətinin müəyyənləşməsində mühüm rol oynayan iqtisadi-siyasi güc mərkəzlərinin inkişafı ilə bağlı Amerika, Avropa və Asiya modelləri formalaşmışdır. Buna görə də müstəqillik əldə edən dövlətlər özlərinin gələcək inkişaf yolunu müəyyənləşdirmək üçün dünyada mövcud olan mürəkkəb beynəlxalq və reqional şəraiti düzgün qiymətləndirməli idilər.

Birinci və İkinci dünya müharibələrindən sonra iqtisadi, siyasi və hərbi sahədə dünya dövlətləri sırasında liderə çevrilən ABŞ modeli 90-cı illərdə müstəqillik qazanan bir çox yeni dövlətləri cəlb edirdi. Lakin XX əsrin sonunda dünya siyasətinin yeni güc mərkəzləri kimi meydana çıxan Avropa və Asiya dövlətlərinin inkişaf modellərinin ABŞ modeli ilə rəqabət mübarizəsindəki uğurları və proqnozlaşdırılan üstünlükləri ABŞ-ın cəlbediciliyinə müəyyən zərbə vurmuşdur. Avropa ölkələri Avropa Birliyi ideyası altında reqionun bütün dövlətlərini vahid iqtisadi-siyasi məkanda birləşdirməklə yeni güc mərkəzi yaratmağa nail olmuşdur.

Asiya modeli dedikdə isə, buraya hər şeydən əvvəl XX əsrin əvvəllərindən başlayaraq yüksək iqtisadi inkişaf tempinə nail olan Avstraliya, Yeni Zellandiya və Cənub-Şərqi Asiya ölkələri-Yaponiya, Çin, Cənubi Koreya, Tayvan, Sinqapur, İndoneziya, Malayziya, Honkonq və b. ölkələr nəzərdə tutulur. Bu modeli bəzən Asiya-Sakit okean ölkələri modeli də adlandırırlar.

Asiya-Sakit okean ölkələri hazırda iqtisadi inkişaf tempinə görə ABŞ və Avropa Birliyi ölkələrini xeyli üstələyir və iqtisadi qüdrətinə görə əsas mərkəzlərdən birinə çevrilməkdədir. Hazırda dünya üzrə ümumdaxili məhsulun yarıdan çoxu məhz bu region ölkələrinin payına düşür. Beləliklə, keçmişdə mənfi inkişaf simvoluna çevrilmiş "Asiya" termini hazırda daha çox mütərəqqi mənada işlənməyə başlamışdır. Göründüyü kimi, qərb sivilizasiyası ilə rəqabətə davam gətirə bilən güclü Asiya sivilizasiyası yenidən bərpa olunmaqdadır.

Avropa ilə Asiyanın qovşağında srateji baxımdan əlverişli, mühüm geostrateji mövqeyə malik olan Azərbaycan siyasi və mədəni-mənəvi həyatında özünəməxsus xüsusiyyətləri yaşatmaqla bərabər Şərq və Qərb dəyərləinin sintezindən yaranmış xüsusiyyətləri də mənimsəyərək dünya birliyinə inteqrasiya yolunu seçmişdir.

Azərbaycanın zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi ölkənin müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik mənafelərinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Xəzər dənizinin Azərbaycan sektorun-

dakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dünya ölkələri ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı dövrdə imzalanmış çoxsaylı neft kontraktları Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirdi.

1998-ci il il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəılxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onu nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərdəndir.

Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində "Böyük İpək yolu" nun bərpası üzrə həyata keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaradır. Şərqlə Qərb arasında mühüm körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasını daha da dərinləşdirməyə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından da mühüm əhəmiyyətə malikdir.

Xəzər hövzəsinin zəngin qaz ehtiyatlarının (Türkmənistan, Qazaxıstan və Azərbaycan qazı) Bakı-Tbilisi-Ərzurum marşrutu ilə Türkiyəyə, oradan da Avropa bazarlarına çıxarılması üçün Azərbaycan, ABŞ, Qərb dövlətlərinin reallaşdırdığı layihə Rusiyanın bu bazardakı hegemonluğuna son qoya bilər. Bu gün Azərbaycan Respublikasının müstəqil inkişafı, dövlət təhlükəsizliyi və geosiyasi mövqeyi təkcə ölkəmizin deyil, eyni zamanda müsir dünya siyasətinin, beynəlxalq aləmin mühüm məsələlərindəndir. Xəzər dənizi və onun Azərbaycan sektorunun neft və qaz ehtiyatları hazırda təkcə regionun Rusiya. İran, Ukrayna, Türkiyə kimi dövlətlərini deyil, həmçinin dünya enerjisinin 4/3-nü istehlak edən ABŞ, İngiltərə, İtaliya, Hollandiya, Polşa, Yaponiya, Çin və digər Qərb və Şərq dövlətlərini ciddi şəkildə maraqlandırır. Bunun əsas səbəblərindən biri də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və bu gün Azərbaycan prezidenti İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi yeni neft strategiyasıdır.

Əsası 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan neft müqaviləsinin bağlanması ilə qoyulan bu strategiya Azərbaycanın müstəqil dövlət kimi digər dünya ölkələri ilə qarşılıqlı əlaqələrin genişlənməsinə və beynəlxalq mövqeyinin möhkəmlənməsinə əlverişli imkan yaratmışdır. Bu tarixi sənədin imzalanma mərasimində 7 ölkənin 11 neft şirkəti təmsil olunurdu. Müqaviləyə əsasən ABŞ, Rusiya, Türkiyə, Böyük Britaniya, Norveç və Səudiyyə Ərəbistanı dövlətlərinə məxsus olan aparıcı neft şirkətləri "Azəri", "Çıraq"," Günəşli" yataqlarından 30 il müddətinə 511 mln. ton neft çıxarmalı idilər. Layihənin ümumi investisiya qoyuluşu 10 milyard ABŞ dollarına bərabər idi. Onun 7,4 milyardını Qərb şirkətləri qoymalı idilər. Sonradan müqaviləyə Yaponiyanın "İtocu" və ABŞ-ın "Eksson" şirkətləri də qoşuldular. Bu müqavilədə ən çox pay aparıcı qərb dövlətlərinə ayrı-

lıb. Bunların içində ən mühüm pay isə ABŞ şirkətlərinindir. ABŞ hökuməti 1994-cü il sentyabrın 20-də göndərdiyi teleqramda bu sazişi “Birləşmiş Ştatlar tarixində bu tipli sazişlər arasında ən böyüyü “ kimi qiymətləndirmiş və Azərbaycan neftinin işlənməsi Dağlıq Qarabağ reqionunun daxilində və ətrafında uzun müddət sürən münaqişənin həll olunması ilə yanaşı, Azərbaycan xalqı üçün sabitlik, iqtisadi inkişaf və firavanlıq gətirilməsində də mühüm rol oynaya bilər.

“Əsrin müqaviləsi” layihəsində investisiya qouluşu üzrə iştirakçı şirkətlərin payı aşağıdakı kimi bölünmüşdü:

| **Şirkətlər** | **İnvestisiya payı** |
|---|---|
| Britiş Petroleum (Böyük Britaniya) | 17,12% |
| Amoko (ABŞ) | 17,01% |
| LUKoyl (Rusiya) | 10% |
| Penzoil (ABŞ) | 4,81% |
| Eksson (ABŞ) | 8,00% |
| Statoil (Norveç) | 8,56% |
| İtoçu Slodzi (Yaponiya) | 3,92% |
| Remko Enerji Qrup (Böyük Britaniya) | 2,08% |
| Yunokal (ABŞ) | 10,05% |
| Turkiş Petroleum Cor. (Türkiyə) | 6,75% |
| Delta Nimir Xəzər (Səudiyyə Ərəbistanı) | 1,68% |
| ARDNŞ (Azərbaycan) | 10% |

Aparıcı Qərb dövlətləri ilə yanaşı Azərbaycan dövləti tarazlaşdırılmış xarici siyasət prinsipindən çıxış edərək bölgədə böyük təsiri olan Rusayaya məxsus “LUKoyl” şirkətinə(10%), həm də İrana (5%) bu layihədə pay ayırmışdı. Bu da təsadüfi deyildi. Bu ölkələr Azərbaycanın Xəzər dənizindəki istənilən təşəbbüsünə, xüsusilə də Qərblə birgə iş qurmaq layihələrinə qısqanclıqla yanaşırdı. Odur ki, Azərbaycan hökuməti onları qıcıqlandırmamaq, konstruktiv əməkdaşlığa yönəltmək üçün hər iki ölkənin müqavilədə iştirak etməsi təklifini irəli sürmüşdü. Lakin Qərb dövlətlərinin ciddi etirazları nəticəsində İran bu müqavilədən pay almadı. Rusiya isə 10%-lik paydan narazı qalmışdı. Ona görə də “Xəzər dənizi bütün Xəzəryanı ölkələr üçündür , onu milli sektorlara bölmək olmaz”, “Azərbaycanın birtərəfli qaydada neft müqavilələri bağlamaq hüququ yoxdur” kimi bəyanatlar verilməyə başladı. Müqavilə imzalandıqdan sonra da Azərbaycanda törədilən bir çox pozuculuq hadisələrinə baxmayaraq ölkə rəhbərliyinin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan Respublikası bütün sınaqlardan çıxaraq təzyiqləri aradan qaldıra bildi.

Xəzər hövzəsində fəal mövqeyi ilə seçilən ölkələrdən biri də Azərbaycanın bütün məsələlər üzrə müttəfiqi hesab olunan Türkiyədir. Onun bu müqavilədə maliyyə və yüksək texnologiya imkanlarının məhdudluğu üzündən xüsusi payı olmasa da Türkiyə əsas diqqətini Xəzər neftinin xarici bazarlara ixracı marşrutu üzrə

cəmləşdirmişdir. Bu məqsədlə Türkiyənin təklifi ilə Bakı-Ceyhan neft marşrutu üzrə kəmər artıq işə salınmışdır.

Ümumiyyətlə Azərbaycan neftinin Avropa bazarlarına nəqli vacib qlobal əhəmiyyət kəsb edən məsələdir. Hazırda Xəzər neftinin "Şimal", "Qərb", və Bakı-Tbilisi-Ceyhan istiqamətində nəqli barədə razılaşmalar əldə olunsa da bu marşrutların hansının daha əlverişli olması bu gün də müasir dünya siyasətinin aktual məsələsidir. Bakı-Novorosiysk, Bakı-Supsa kəmərlərinin işə düşməsi ilk növbədə neft ixracında alternativliyi təmin etmək, Rusiyadan tam asılılığı aradan qaldırmaqla yanaşı həm də Azərbaycan dövlətinin Gürçüstan dövlətinə verdiyi iqtisadi dəstək idi.

"Əsrin müqaviləsi"nin imzalanmasından 15 il keçir. Keçən illərdə dünyanın 16 dövlətinə məxsus 36 aparıcı şirkətlə 26 yeni neft müqaviləsi imzalanmışdır. Bu müqavilələr əsasında Azərbaycan neft sənayesinə 70 mld. dollar xarici investisiya qoyulmalıdır. Bu illərdə bütün təzyiqlərə baxmayaraq Azərbaycan öz müstəqil neft siyasətini ardıcıl həyata keçirmişdir. Azərbaycan rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Şərq və Qərbi, Orta Asiya-Qafqaz və Avropanı birləşdirən neft-qaz, nəqliyyat-kommunikasiya transmilli layihələrinin mərkəzinə çevrilmişdir.

Hazırda Xəzər dənizinin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı-Novorossiyk, Bakı-Supsa neft kəmərləri ilə yanaşı, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri işə salınmışdır. Azərbaycan bölgənin və dünyanın əsas enerji mərkəzlərindən birinə çevrilmiş və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutmuşdur. Bütün bu müvəffəqiyyətlərin, xüsusən Azərbaycanın xarici əlaqələrinin yaranmasının əsasında Xəzər dənizinin zəngin neft-qaz yataqlarının mövcudluğu və ondan düzgün istifadəni şərtləndirən Azərbaycanın yeni neft strategiyası durur.

Göründüyü kimi, Azərbaycan Respublikasının müstəqil dövlət kimi beynəlxalq münasibətlər sisteminə qoşulması ölkənin sosial-iqtisadi, siyasi və təhlükəsizlik məsələlərinin də tənzimlənəsinə şərait yaratmışdır. Hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər nüfuzlu dövlətlər Aərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər.

### *§ 5. Azərbaycan Respublikası üçüncü minilliyin başlanğıcında: siyasi və iqtisadi inkişaf, milli-demokratik dəyərlərin daha da möhkəmlənməsi.*

2003-cü ilin 15 oktyabrında İlham Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də hakimiyyətə gəldiyi ilk gündən etibarən Ulu Öndər Heydər Əliyevin siyasi strategiyasının layiqli davamçısı kimi Azərbaycanın inkişafı istiqamətində mühüm addımlar atmağa başladı. Prezident İlham Əliyev 2004-cü il 11 fevral tarixində "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-

2008-ci illər)" icrası ilə bağlı Fərman imzaladı. Bu proqramda nəzərdə tutulan tədbirlər müvəffəqiyyətlə həyata keçirilirdi. Proqramın icrası nəticəsində regionların sosial-iqtisadi inkişafı əhalinin gəlirlərinin və həyat səviyyəsinin yaxşılaşdırılmasına səbəb oldu. Dövlət Statistika Komitəsinin nəticələrinə əsasən Proqramın həyata keçirildiyi 5 il ərzində qeyri-neft sektoru 1,8 dəfə, qeyri-neft sektoruna qoyulan investisiyanın həcmi isə 6,2 dəfə artmış və ümumi investisiyaların strukturunda onun xüsusi çəkisi 2003-cü ildəki 26,8 faizdən 2008-ci ildə 69 faizə çatmışdır. Ölkə sənayesində 2,5 dəfə, kənd təsərrüfatında isə 25,2 faiz artım olmuşdur.

Həmçinin Quba-Xaçmaz, Şəki-Zaqatala, Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 17 sərəncam imzalanmışdır. Bununla da regionların iqtisadi inkişafında yeni mərhələnin başladığını demək olar.

Fevral 2005-ci il "Azəri-Çıraq-Günəşli" yataqlarının Mərkəzi Azəri hissəsindən ilkin neftin hasilatı başlandı. 2005-2006-cı illər Bakı-Tbilisi-Ceyhan neft kəməri işə salındı. 2005-ci ildə BTC-nin Azərbaycan və Gürcüstan hissələri, 2006-cı ildə isə Türkiyə hissəsi neftlə dolduruldu. 2005-ci ildə 2002-2005-ci illər üçün "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf sahəsində Dövlət proqramı" müvəffəqiyyətlə yerinə yetirildi.

1995-2001-ci illərdə qoyulan birbaşa investisiya Rusiyada 12,7 dəfə, Qazaxıstanda 10,5 dəfə artdığı halda Azərbaycanda 37,6 dəfə artmışdır. Adambaşına investisiyaların həcmi də buna müvafiq olaraq sürətlə artmışdır. Əgər Rusiya kimi böyük bir ölkədə 2001-ci ildə adambaşına xarici investisiyalar 27,6 ABŞ dolları təşkil etdiyi halda, bu rəqəm Azərbaycanda 154 ABŞ dolları olmuşdur.

2002-ci ilin ortalarına kimi xarici ölkələrə neft məhsulları satışından və müqavilə iştirakçıları ilə aparılmış digər əməliyyatlardan Azərbaycanın payına düşən gəlir 580 milyon dollardan artıq olmuşdur. Bu vəsaitin hamısı Dövlət Neft Fondunda cəmlənmişdir.

Ölkənin ictimai-siyasi həyatında da bir sıra hadisələr baş verdi. 2005-ci ilin aprelində "Heydər Əliyev ordeni" təsis edildi. İlk dəfə bu ordenlə türk dünyasının görkəmli şəxsiyyəti İhsan Doğramacı təltif olundu.

2007-ci ilin mayında Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 90 illiyi ilə əlaqədar "İstiqlal" abidəsi açıldı. 2008-ci ilin sentyabrında Bakıda Metropolitenin "Nəsimi" stansiyası istifadəyə verildi. 2005-ci il mayın 10-da Respublika Sarayının qarşısında Heydər Əliyevin heykəlinin açılışı oldu.

**İlham Əliyevin ikinci prezidentlik dövrü (2009-2013-cü illər).** 2008-ci il 15 oktyabrda İlham Əliyev ikinci müddətə Azərbaycan Respublikasının prezidenti seçildi. Regionların inkişaf Proqramının davamı olaraq, Azərbaycan Prezidenti 14 aprel 2009-cu ildə 2009-2013-cü illər üçün "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə yeni Dövlət Proqramı" imzaladı. Regionların iqtisadi inkişafını təmin etməklə ümumi iqtisadiyyatı dirçəltmək üçün həyata keçirilən tədbirlər bu günə kimi davam edir. Proqram çərçivəsində müasir infrastruktur-

lar yaradılmış, regionların su, qaz, işıq və s. kommunal xidmətlərlə təchizatı yaxşılaşdırılmış, bölgələrdə nəqliyyat yolları, təhsil və səhiyyə müəssisələri təmir edilmiş və yenidən qurulmuş, sahibkarlığa dəstək məqsədilə onlara güzəştli şərtlərlə 275 milyon manat kredit verilmiş və s. mühüm işlər görülmüşdür.

Beləliklə, bütün bu göstəricilər Azərbaycan Respublikası iqtisadiyyatının son 13 il ərzində həyata keçirilən tədbirlər nəticəsində nə qədər inkişaf etdirdiyinin əyani sübutudur.

Xəzərdə hasilatda sürətlənən meyllər respublikanın neft-qaz potensialına yeniliklər gətirmişdir. Hazırda Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının ümumi həcmi 6-8 milyard ton neftə bərabərdir. Quru sahələrində də proqnoz ehtiyatları 1 milyard ton həcmində ehtimal edilir. Azərbaycanın Xəzər şelfində aşkarlanan qaz ehtiyatları dünya ehtiyatlarının 1%-i həcmində qiymətləndirilir.

Ölkədə quru sahələrində neft hasilatını artırmaq üçün xeyli ehtiyat imkanları mövcuddur. Respublika axtarış qazmasının geofiziki üsulları ilə müəyyən edilmiş 32 strukturunda 140 milyon tondan çox neft ehtiyatı vardır. Bununla belə perspektivli sahələrdə 337,3 milyon ton neftin olduğu təsdiqini tapmışdır. Qaz ehtiyatlarının isə ümumi potensialı 31 milyard kubmetr təşkil edir. Hazırki mərhələdə quru ərazilərində axtarış-kəşfiyyat işləri Quba-Xəzəryanı, Candahar-Zarat, Zeyvə, Şurabad, Aşağı Kür, Pirsəhhət, Yevlax-Ağcabədi çökəkliyində, Şimali Naftalan sahələrində aparılır. Respublikamızda uğurla həyata keçirilən neft strategiyası xarici sərmayələrin güman edilən məbləğinin 50 milyard dollara çatacağından xəbər verir.

2009-cu il martın 18-də Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı referendum keçirildi.

2009-cu ilin 3 oktyabr tarixində Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü yüksək səviyyədə keçirildi. Zirvə görüşünə Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Abdulla Gül, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev qatıldılar. Türkdilli ölkələrin dövlət başçılarının ilk zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilib.

1992-ci ildəki ilk zirvə görüşündən keçən 17 il ərzində türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin, işbirliyinin möhkəmləndirilməsində əsaslı dəyişikliklər baş vermiş, ötən toplantılarda regional və beynəlxalq məsələlər haqqında faydalı fikir mübadiləsi aparılmış, bərabərlik prinsipinə əsaslanan əlaqələrin gücləndirilməsi, iqtisadi və sosial inkişafın sürətləndirilməsi baxımından böyük irəliləyişlər olmuşdur.

Naxçıvanda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə dövlət başçıları Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında sənəd imzaladılar.

16 sentyabr 2010-cu ildə İstanbulda "Çırağan" sarayında Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısı keçirildi. Toplantıda Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının Katibliyinin strukturunun yaradılması və Şuranın Baş katibinin təyin olunması ilə bağlı qərar qəbul edildi. Şuranın Katibliyinin İstanbulda olacağı qərara alındı. Beləliklə, İstanbul toplantısı 2009-cu ildə Naxçıvanda təməli qoyulan Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası təşkilatının qurulmasını təmin etdi.

Məlum olduğu kimi, 2009-cu ilin dekabrında Bakı metropoliteninin "Azadlıq prospekti" stansiyası istifadəyə verildi. 1 sentyabr 2010-cu ildə Bakıda Dövlət Bayrağı meydanı açıldı.

2011-ci il oktyabrın 25-də Azərbaycan Respublikası BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi və bu ölkəmizin diplomatiya tarixində ən böyük uğurlarından biridir. 2012-ci ilin yanvarından Respublikamız iki il müddətinə BMT-nin Təhlükəsizlik Şurasının ona verdiyi səlahiyyətləri layiqincə yerinə yetirmiş, hətta 2012-ci ilin mayında Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına sədrlik etmişdir.

2012-ci ilin 26 iyununda İstanbulda Türkiyə və Azərbaycan arasında "Trans Anadolu" (TANAP) boru kəmərinin inşası ilə bağlı müqavilə imzalandı. Müqavilə tarixi, siyasi və iqtisadi əhəmiyyətə malikdir. Trans-Adriatik Qaz Kəməri (TAP) ilə ilkin mərhələdə ildə 10 milyard, sonra isə 20 milyard kub metr qazın nəql edilməsi proqnozlaşdırılır. 3 trilyon kub metr qaz ehtiyatına malik olan Azərbaycanın iştirakçı olduğu bu layihəyə 45 milyard dollar məbləğində sərmayə qoyulması və kəmərin keçdiyi ölkələrdə 30 mindən çox iş yerinin açılması nəzərdə tutulur.

**İlham Əliyevin üçüncü prezidentlik dövrünün (2014-2018- ci illər) başlanması və baş verən ən mühüm tarixi hadisələr.** 9 oktyabr 2013-cü il tarixində İlham Əliyev üçüncü müddətə Azərbaycan Respublikasının prezidenti seçildi. Azərbaycanın beynəlxalq təşkilatlarda rolu və nüfuzu artmaqda idi. 2014-cü ilin yarım ili ərzində Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik etdi. 2014-cü ilin 28 iyunundan 2 iyuluna qədər Bakıda ATƏT Parlament Assambleyasının sessiyası keçirildi.

Azərbaycan beynəlxalq əlaqələrdə Türkiyə ilə münasibətlərin daha da yaxınlaşmasına xüsusi diqqət verir. Belə ki, 2014-cü ildə 13-20 sentyabrda genişmiqyaslı Azərbaycan-Türkiyə hərbi təlimləri keçirildi. 2014-cü il 20 sentyabrda Cənub Qaz Dəhlizinin əsası qoyuldu ("Əsrin Qaz Kontraktı" adlandırıldı). 2015-ci ilin 17 martında Qars şəhərində TANAP layihəsinin təməli qoyuldu. 15 mart 2016-cı il tarixində prezident İlham Əliyevin Ankarada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü baş tutdu. Prezidentlər iki ölkə arasındakı bir sıra məsələləri, xüsusilə TANAP qaz boru kəməri layihəsini müzakirə etdilər. TANAP layihəsi bəzi beynəlxalq qüvvələri narahat edir. TANAP Türkiyə və Azərbaycan üçün nə qədər önəmli layihədirsə, Qərb üçün bir o qədər narahatedicidir. Qərbi əsas narahat edən məsələlərdən biri Türkiyənin TANAP-dakı pay hissəsidir. Tam adı Trans-Anadolu qaz boru kəməri layihəsidir. Baş rolda Azərbaycan ilə Türkiyədir. Bakı-Tbilisi-Ceyhan boru xəttində 6,5 faiz paya sahib olan Türkiyə TANAP-da 30

faiz paya malikdir. Böyük Britaniya isə 12 faiz paya sahibdir. Trans-Anadolu Qaz Boru Kəməri – təbii qazı Türkiyənin Şərq sərhəddindən Qərb sərhəddinə daşıyacaq, bütün ölkədə sabit tranziti təmin edəcək. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa Birliyində bir neçə kəmərlə əlaqələndirəcək. 5 il ərzində reallaşması nəzərdə tutulan layihənin dəyəri 7 mlrd. ABŞ dollarıdır.

Dörd mərhələdə həyata keçiriləcək layihənin ilkin mərhələsi 2018-ci ildə başa çatacaq. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 mlrd., 2023-cü ildə 23 mlrd., 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazının 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılacaqdır.

Dövlət Neft Fondunun 2013-cü ildə maliyyə aktivləri 36 milyardı ötmüşdür. Ümumi Daxili Məhsul istehsalı (ÜDM) 2003-2013-cü illərdə 3 dəfədən çox artmışdır. Belə ki, 2012-ci ildə ÜDM-un adambaşına düşən həcmi 5800 manatdan (7500 ABŞ dollarına yaxın) çox, 2013-cü ildə ÜDM-un həcmi 73,5 milyard ABŞ dollarına çatmış və adambaşına düşən ÜDM istehsalı 8392 manata (10700 ABŞ dolları) yüksəlmişdi. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin davamı olaraq Bakı-Tbilisi-Qars dəmir yolunun tikilib başa çatdırılması 2017-ci ilin sonuna nəzərdə tutulmuşdur. Bu dəmiryolu xətti Şərqlə Qərbi, Asiya ilə Avropanı birləşdirən strateji və böyük iqtisadi əhəmiyyətə malikdir. Yeni neft strategiyası Azərbaycanın möhkəmlənməsi və inkişafına xidmət edir.

**Sosial siyasət.** Azərbaycanda bütün sahələrdə olduğu kimi, sosial sferada da Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra köklü dəyişikliklər baş verdi. Ölkə vətəndaşlarının sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə Heydər Əliyev 1994-cü ilin 15 iyun tarixində “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında” Fərman imzaladı. 1993-2003-cü illərdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, sosial müdafiə sahəsində də konkret və məqsədyönlü işlər görüldü, ilbəil çevik xarakter alan sosial siyasət kursunun etibarlı əsası qoyuldu. Heydər Əliyev tərəfindən imzalanan 60-dan artıq sənəd müstəqil Azərbaycanda sosial sahədə inkişafın təmi olunmasına xidmət etmişdir.

Səhiyyə sistemində islahatlara start verən H.Əliyev ölkəmizdə yeni özəl klinikaların açılmasına dəstək verdi. Bunun nəticəsidir ki, indinin özündə də əhalinin maddi imkanı aşağı olan təbəqələri pulsuz səhiyyə xidmətlərindən yararlanmaqdadırlar. Yeni özəl tibb müəssisələrinin yaradılması isə sosial sferada rəqabət bazarının formalaşmasına imkan yaradıb.

Əsası H.Əliyev tərəfindən qoyulmuş sosial siyasət bu gün də öz nəticələrini verməkdədir. 2003-cü ildə 1,5 milyard dollar olan dövlət büdcəsi 2013-cü ildə 25 milyard dollara çatdırılıb. Ölkədə bir milyondan çox iş yeri yaradılıb, əhalinin işsizlik səviyyəsi 5,1 faizə salınıb. 2003-cü ildə Azərbaycanda yoxsulluq səviyyəsi 49 faiz təşkil edirdisə, 2012-ci ildə bu rəqəm 6 faizə endirilib. “Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında 2020-ci ildə Azərbaycanda sosial-iqtisa-

di sahələrin inkişafına kompleks yanaşma prinsipləri rəhbər tutulur. Nəticədə, Azərbaycan sosial rifah baxımından inkişaf etmiş ölkələrin sırasında əhəmiyyətli yer alacaqdır.

Prezident İ.Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan dünya birliyində öz mövqelərini daha da möhkəmləndirdi, yeni müttəfiq ölkələr qazandı, beynəlxalq və regional təşkilatlarda iştirakını, onlarla əməkdaşlığını daha da intensivləşdirdi, inkişaf sürətinə, iqtisadi potensialına görə Cənubi Qafqazın lider dövlətinə çevrildi. Bu gün Azərbaycan dünya birliyinin sayılan dövlətlərindən biri olmuşdur.

Müstəqillik illərində mədəniyyətin inkişafı daim Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur və bu dövr ərzində mədəniyyətin bütün sahələrində uğurlar əldə edilmişdir. 1991-ci ilin oktyabrın 18-də Azərbaycan müstəqilliyini bərpa etdikdən bir neçə gün sonra ilk qəbul olunan qanunlardan biri "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" qanun oldu. Azərbaycan Prezidentinin 2001-ci il 18 iyul tarixli fərmanına əsasən həmin il avqustun 1-dən bütün sahələrdə latın qrafikalı yeni əlifbaya keçildi və Prezidentin 2001-ci il 9 avqust tarixli fərmanına əsasən, avqustun 1-i Azərbaycan əlifbası və Azərbaycan dili günü oldu.

1991-ci ildə SSRİ-nin parçalanması və süqutu ilə 5 yeni müstəqil türk dövləti (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan) yarandı və dünya birliyində öz layiqli yerlərini tutdu. Bir sıra türk xalqları (tatarlar, başqırdlar, çuvaşlar və b.) Rusiya Federasiyası tərkibində qalmaqla milli-ərazi muxtariyyəti hüquqlarını xeyli genişləndirdilər. Bu isə, öz növbəsində türk dövlət qurumları arasında daha sıx mədəni-ədəbi, elmi, iqtisadi əlaqələrin yaradılamsı zərurətini irəli sürdü. Yaranmış yeni əlverişli şəraitdə 1993-cü il iyulun 12-də Türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) yarandı. Təşkilatın Nizamnaməsinə görə, o, türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. Sonralar TÜRKSOY haqqında Müqaviləyə müşahidəçi ölkələr qismində Başqırdıstan, Tatarıstan respublikaları, Şimali Kipr Türk Respublikası, Xakasiya, Tuva, Çuvaşiya və Qaqauz respublikaları da qoşulmuşlar. Beləliklə, hazırda TÜRKSOY-a 6 üzv və 7 müşahidəçi ölkə daxildir. TÜRKSOY təşkilatı türkdilli ölkələrin daxili və xarici siyasətindən, dövlət strukturlarının siyasi yönümündən asılı olmayaraq, onların mədəniyyət və incəsənət sahəsində regional birliyini həyata keçirir.

1998-ci il 9 oktyabrda "Şəhidlər xiyabanı"nda "Əbədi məşəl" kompleksinin açılışı oldu. 1996-cı ildə YUNESKO ilə əməkdaşlıq haqqında memorandum imzalandı. 2002-ci ildə ilk dəfə Şirvanşahlar saray kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət tarix-memarlıq kompleksi YUNESKO–nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edidi.

2001-ci ildə Azərbaycan Dünya Turizm Təşkilatının tam üzvü oldu. 2003-cü ildə H.Əliyev vəfat etdi. 2005-ci ildə "Heydər Əliyev ordeni" təsis edildi və Respublika sarayının qarşısında H.Əliyevin heykəli qoyuldu.

**Təhsil.** 1990-cı illərin əvvəllərində Azərbaycan məktəbləri ən çətin dövrlərini yaşayırdı. Məktəblərin maddi-texniki bazası lazımi səviyyədə deyildi, məktəb-

lərdə müəllim çatışmırdı, çünki erməni işğalı ilə bağlı yüzlərlə yüksəkixtisaslı müəllim cəbhəyə yollanmışdı, bir qismi isə maddi vəziyyətlə bağlı başqa əmək sahələrinə keçmişdi. Erməni işğalçıları 855 məktəbəqədər uşaq müəssisəsini, 693 ümumtəhsil məktəbini, 85 musiqi məktəbini, 4 texnikumu, 1 ali məktəbi dağıtmış, onların şagirdləri, tələbələri, müəllimləri Respublikanın müxtəlif rayonlarına səpələnmişdilər.

Atəşkəs rejimi imzalandıqdan sonra dinc quruculuq üçün şərait əldə edən Azərbaycan Respublikası öz maarif sistemini və təhsil konsepsiyasını yenidən yaratmağa başladı. Bununla əlaqədar, 1998-ci il martın 30-da Prezident Heydər Əliyev Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının təşkili haqqında sərəncam imzaladı. Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və Prezident tərəfindən 1999-cu il iyunun 15-də təsdiq edildi. Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirildi. Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə yeni ali məktəblər yaradıldı, mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq, bütün təhsil müəssisələrinə tədris-metodik rəhbərlik səlahiyyətləri Təhsil Nazirliyinə verildi.

Məktəb sovet təhsil sisteminin müsbət ənənələrini qoruyub saxlamaqla bərabər, onu müasir Avropa təlim texnologiyaları, idarəetmə modelləri ilə zənginləşdirməyə başladı.

XXI əsrin əvvəllərində ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni proqram və dərsliklərin hazırlanmasına xüsusi diqqət verildi. Orta məktəblər üçün orijinal dərsliklər, yeni dərs vəsaitləri, fənn proqramları hazırlandı. 2001-2002-ci illərdə alim və pedaqoqların səyi sayəsində qısa müddətdə ümumtəhsil məktəbləri üçün yeni "Azərbaycan tarixi", "Ümumdünya tarixi", "Ədəbiyyat", "Azərbaycan dili", "Coğrafiya" və digər fənlər üzrə dərsliklər çap olundu. Ali məktəblər üçün ilk dəfə "Azərbaycan tarixi" dərslikləri hazırlandı. Təbiət elmləri üzrə bir sıra yeni dərsliklər nəşr edildi. Dərsliklər və dərs vəsaitləri formaca müasir Avropa standartlarına uyğunlaşdırıldı.

2000-2001-ci dərs ilində respublikada 4548 dövlət ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.

Ümumtəhsil məktəbləri sistemində də dəyişikliklər baş verdi. Liseylər, gimnaziyalar yaradıldı. 2001-ci ilin sentyabr ayında Azərbaycanda ilk Bakı özəl ümumtəhsil kompleksi fəaliyyətə başladı və 2004-cü ildən ümummilli lider Heydər Əliyevin adını daşıyan Müasir Təhsil Kompleksi kimi fəaliyyətini davam etdirir. 2002-ci il oktyabrın 4-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Fərman verdi. 2003-2007-ci illərdə məktəb tikintisi, təmiri, məktəblərin müasir tədris avadanlığı ilə təchizi üçün konkret tədbirlər görülməyə başlandı. Prezident İ.Əliyevin 2004-cü ilin 21 avqust sərəncamı ilə "Bilik günü" təsis edildi və bu ildən başlayaraq 15 sentyabr "Bilik günü" kimi qeyd edilməyə başladı.

1990-1995-ci illərdə orta ixtisas və texniki peşə məktəblərində oxuyanların sayı iki dəfə azalmışdı. Respublikanın texnikumlar şəbəkəsi yenidən qurulur, kolleclər yaradılırdı. Maarifin təşkilində mühüm yenilik 1992-ci ildən ali və orta ixtisas məktəblərinə qəbulun test üsulu ilə aparılmasının tətbiqi oldu. Ən ümdə məqsəd qəbul zamanı qeyri-obyektivliyin, mənfi halların qarşısını almaq idi. Qəbul sistemi getdikcə təkmilləşir, abituriyentlərin biliyini aşkara çıxarmağa imkan verən müasir vasitələr tətbiq olunurdu. 1993-cü ildən respublikanın ali məktəblərində (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərdən başqa) çoxpilləli ali təhsil – dördillik bakalavr və ikiillik magistratura sistemi tətbiq olunmağa başlandı. 1997-ci ildə magistraturaya ilk qəbul keçirildi.

Bir çox ali məktəblərin statusu yüksəldildi, daha nüfuzlu ali məktəblərə özünüidarəetmə və maliyyə müstəqilliyi statusu verildi.

Respublikada özəl ali məktəblər yaradılmağa başladı. Yeni yaradılan 121 özəl ali məktəbdən cəmi 18-i dövlət lisenziyası ala bildi. Onların da 10-u sonralar maddi bazasının zəifliyi, təhsil səviyyəsinin aşağı olması səbəbindən lisenziyadan məhrum edildi. 2014-cü ildə Azərbaycanda 13 özəl ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Ümumilikdə, 2014-cü ildə Respublikada 44 ali məktəb fəaliyyətdə idi ki, onlarda da 130 mindən artıq tələbə təhsil alırdı. Respublikanın ali təhsil ocaqlarında dünyanın qabaqcıl ali məktəblərinin təcrübəsi diqqətlə öyrənilir və tətbiq olunurdu. Təhsil müəssisələrində yeni təsərrüfat sistemi, bazar iqtisadiyyatı ilə bağlı tətbiqi elmlərin, xarici dillərin, informatikanın tədrisinə, kompüter savadının geniş yayılmasına diqqət artırılmış, beynəlxalq münasibətlər, beynəlxalq hüquq, politologiya, menecment, marketinq kimi ixtisaslar üzrə kadr hazırlığı başlanmışdı.

Gənc nəslin ümumi mədəni, siyasi səviyyəsinin yüksəldilməsinə diqqət artırıldı. 1997-ci ildən başlayaraq ali və orta ixtisas məktəblərində təşkil olunan "Heydər Əliyev məktəbləri" bu işdə xüsusi əhəmiyyət kəsb edir. Bu məktəblərdə gənclərə ölkədə müstəqil siyasi kursun, dövlətçiliyin, tərəqqinin təmin olunmasında Heydər Əliyev siyasət sənətinin incəlikləri, xarakterik cəhətləri öyrədilir.

2009-cu ilin iyun ayında Milli Məclis tərəfindən "Təhsil haqqında" Qanun qəbul olundu. Avropada vahid ali təhsil sisteminə inteqrasiya məqsədini qarşıya qoyan Azərbaycan Respublikası 1999-cu ildə başlayan Boloniya prosesinə 2005-ci ildə qoşulmuşdur.

Respublikada qaçqın və məcburi köçkünlərin təhsil alması üçün münasib imkanlar yaradıldı. Prezident Heydər Əliyev 2001-ci ilin sentyabr ayında əlaçı ali məktəb tələbələrinə Prezident təqaüdü təsis etdi. Müasir dövrdə Respublikamızda 46 ali, 4600 ümumtəhsil məktəbi, 57 orta ixtisas təhsil müəssisəsi var.

**Elm.** Azərbaycan elmi müstəqilliyin ilk illərində yeni ciddi çətinliklərlə üzləşdi. Vəsait çatışmazlığı, ənənəvi elmi əlaqələrin qırılması elmin inkişafını xeyli ləngitdi.

Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra elm sahəsində mühüm dəyişikliklər baş verdi. Elmə dövlət qayğısı artdı, 1997-ci ildə "Elmin strateji

inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı.

Elmlər Akademiyasının Azərbaycan elm və mədəniyyətinin inkişafında rolu yüksəlməyə başladı. 1990-cı illərin ortalarında təkcə Elmlər Akademiyası sistemində 35 elmi-tədqiqat institutu fəaliyyət göstərirdi.

Prezidentin 2001-ci il 15 may tarixli Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi.

Milli Elmlər Akademiyasına elm və texnikanın inkişafı, elmi-tədqiqat işlərinin əlaqələndirilməsi, beynəlxalq elmi əməkdaşlığın təmin olunması sahəsində elmi-təşkilati status verildi. 2002-ci ilin əvvəllərində Azərbaycan MEA-da 60 akademik, 175 müxbir üzv, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı. Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə Prezident Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" 7 avqust 2002-ci il tarixli sərəncamına əsasən 500 əməkdaşı olan Azərbaycan MEA-nın Naxçıvan Bölməsi yaradıldı.

Elmi və elmi-pedaqoji kadrlar hazırlanması işini nizama salmaq üçün 1992-ci il aprelin 23-də Azərbaycan Ali Attestasiya Komissiyası (1994-cü ildən Azərbaycan Prezidenti yanında Azərbaycan Ali Attestasiya Komissiyası) təşkil edildi.

Respublikada ictimai elmi birliklər, müxtəlif elmi fondlar, mərkəzlər, klublar təşkil olundu. Onlar müstəqil elmi-tədqiqat işləri aparır, elmi konfranslar keçirir, xarici ölkə alimləri ilə əlaqələr yaradır, elmin təbliğində fəal rol oynayırdılar. Elmin əsas sahələri üzrə tədqiqatlar davam etdirildi. Bu illərdə Azərbaycan elmi bir sıra mühüm uğurlar qazandı. Riyaziyyat, fizika, neft kimyası, geologiya və biologiyanın müasir sahələri üzrə yaradılmış elmi məktəblər daha da inkişaf etdirilmişdi. Azərbaycanda fiziki-kimyəvi biologiyanın tədqiqatlarını genişləndirməklə, Cəlal Əliyev molekulyar biologiyanın, molekulyar genetikanın, gen və hüceyrə biotexnologiyasının, riyazi biologiyanın və bioinformatikanın inkişafının əsasını qoymuşdur. Azərbaycan Milli Aerokosmik Agentliyi Xüsusi Kosmik Cihazqayırma Konstruktor Bürosunda Rusiya Kosmik Tədqiqatlar İnstitutunun sifarişi ilə yerin maqnit sahəsinə günəş küləkləri təsirini öyrənən nadir aerokosmik cihaz yaradıldı.

Azərbaycan astronomlarının tədqiqatları dünya səviyyəsində yüksək qiymət aldı. Mühüm əhəmiyyəti olan kəşflərin müəllifi, AMEA-nın müxbir üzvü Əyyub Quliyev Günəş sistemində hələ kəşf edilməmiş azı üç planetin olduğunu bildirmişdi. Azərbaycanlı alimin proqnozu özünü doğrultdu və Neptun-Pluton sistemində yeni səma cismi aşkar olundu.

Azərbaycanın neft sənayesinə geniş xarici investisiyalar cəlb olunması, neft, neft-mkimya, neft-qaz quyularının qazılması və istismarı sahələrində elmi tədqiqatların inkişafına imkanlar açdı. Neftçi alimlərin bu sahədəki tədqiqatları böyük elmi və əməli əhəmiyyətə malikdir.

Azərbaycan alimləri informatika, riyaziyyat, fizika, geologiya, kimya, coğrafiya, biologiya, genetika elmləri sahəsində də mühüm nailiyyətlər əldə etdilər.

İctimai və humanitar elmlər "sovet dövrünün hakim" ideologiyası təzyiqindən xilas olaraq azad yaradıcılıq dövrünə başladı.

Bazar iqtisadiyyatı problemləri və Azərbaycanda onların xüsusiyyətləri iqtisadçı alimlərin tədqiqat obyektinə çevrildi. Bu sahədə iqtisadçı alimlərin yaradıcılığı mühüm elmi və əməli əhəmiyyət kəsb edir.

Bu dövrdə Azərbaycan tarixinin ən mürəkkəb və mübahisəli problemlərinə həsr olunan, tarix sahəsində elmi fikri daha da zənginləşdirən əsərlər yazıldı.

Prezident Heydər Əliyev tarixçi-alimlər qarşısında fundamental "Azərbaycan tarixi"nin yazılması kimi mühüm vəzifə qoydu, Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixində çox mühüm dövr olan XIX və XX əsrlərin tarixinin əhatəli tədqiqi və nəşri üçün xüsusi qrant ayırdı. Respublikanın ən görkəmli tarixçi alimləri bu işə cəlb olundu və onların səyi nəticəsində 1998-2003-cü illər ərzində Azərbaycan tarixinin 7 cilddən ibarət akademik nəşri reallaşdı.

Şərqdə ilk demokratik respublika olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi geniş şəkildə öyrənilməyə başlandı. Tarix İnstitutunda "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" şöbəsi təşkil edildi.

Tarixi mənbələrin toplanması və araşdırılmasına diqqət artırıldı. Respublikada 7 respublika dövlət arxivi, onların 15 filialı, Naxçıvan MR və 56 rayon dövlət arxivi fəaliyyət göstərir. 1999-cu ilin iyun ayında "Milli arxiv fondu haqqında" Qanun qəbul edildi. Baş Arxiv İdarəsinin bazasında Azərbaycan Respublikası Milli Arxiv İdarəsi yaradıldı. Arxivlərin maddi-texniki bazası möhkəmləndirildi və arxiv işçilərinin sosial vəziyyəri yaxşılaşdırıldı.

Azərbaycanın tarixi inkişaf prosesinə təkan verən ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu kimi hər bir azərbaycanlının taleyində müstəsna rol oynamışdır. Bu böyük şəxsiyyətin zəngin irsinin dərindən və hərtərfli öyrənilməsi müstəsna əhəmiyyətə malikdir. Bu məqsədlə 10 may 2004-cü ildə Azərbaycan xalqının ümummilli liderinin irsinin öyrənilməsi və təbliği ilə məşğu olan qurum – Heydər Əliyev İrsini Araşdırma Mərkəzi yaradıldı. Heydər Əliyev İrsini Araşdırma Mərkəzi "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası, Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən regional bürolar, siyasətçilər, politoloqlar, diplomatlar və tarixçilər üçün ən müxtəlif dillərdə kitablar nəşr edən nəşriyyat qrupundan ibarətdir. Mərkəz həmçinin, orijinal tədris proqramları əsasında gənc müəllimlər və ali məktəblərin magistrantları və tələbələri üçün "Heydər Əliyev irsini öyrənirik" interaktiv kursları və yay məktəbləri təşkil edir, eləcə də planetin mühüm elmi mərkəzləri ilə internet körpülər yaradır.

Şərqşünaslıq İnstitutunda "Ümumi türk tarixinə giriş", "Cənubi Azərbaycan tarixinin qısa oçerkləri", "Güney Azərbaycan" kitabları, Dilçilik İnstitutunda "Azərbaycan dilinin orfoqrafik lüğəti" (80 min söz), "Azərbaycan dilinin izahlı lüğəti", "Azərbaycan dilinin işgüzar üslubu" kitabları hazırlandı və çap edildi. 2004-cü il 12 yanvarda ölkə başçısı "Azərbaycan Respublikasının Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncam imzaladı.

Azərbaycan filosofları, hüquqşünasları Azərbaycan fəlsəfi fikrinin və hüquq elminin inkişafında mühüm rol oynamışdılar. Filosofların əsərlərində müasir cəmiyyətdə baş verən mürəkkəb proseslər dərindən təhlil olunur, fəlsəfi baxımdan mənalandırılırdı. Azərbaycan memarlıq və sənətşünüslıq elmlərinin inkişafında da böyük uğurları olmuşdur.

4 noyabr 2008-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında" sərəncam imzaladı və Sərəncama uyğun olaraq 2009-cu il avqustun 17-də Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı qəbul edildi.

Elm sahəsində nailiyyətlər respublikada iqtisadiyyatın, mədəniyyətin inkişafını və mənəvi həyatın zənginləşməsini sürətləndirdi.

**Ədəbiyyat və incəsənət.** Müstəqillik dövründə Azərbaycan Respublkasının inkişafında ədəbiyyat və incəsənət də önəmli rol oynayır. Müstəqillik uğrunda mübarizə və sonrakı illərdə Azərbaycan ədəbiyyatı xəzinəsi yeni əsərlərlə zənginləşdi. Bəxtiyar Vahabzadə, Xəlil Rza (Ulutürk), Məmməd Araz, Qabil, Nəbi Xəzri, Fikrət Qoca, İsa İsmayılzadə, Söhrab Tahir, Cabir Novruz, Nəriman Həsən-zadə, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Fikrət Sadıq və s. ədiblərin əsərləri dərin məzmunu ilə fərqlənirdi. Gənc poeziyanın nümayəndələri axtarış yollarında idi. Ədəbiyyatda Qarabağ müharibəsi, bazar münasibətlərinə keçid, 1990-cı illərin birinci yarısındakı siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda mübarizə şəraitində cəmiyyətdə, insanların daxili aləmində baş verən dəyişiklikləri əks etdirən əsərlər yaranırdı.

Detektiv roman ustası Çingiz Abdullayevin əsərləri bütün dünyada böyük maraqla qarşılanır. Ənvər Məmmədxanlının, Əzizə Cəfərzadənin, Aqil Abbasın. İsi Məlikzadənin, Aqşin Babayevin, Arif Abdullazadənin, Əli Əmirlinin, Məmməd Orucun əsərləri böyük tərbiyəvi əhəmiyyət kəsb edirdi. Ədəbiyyatın, filologiyanın inkişafına diqqəti artırmaq üçün Prezident Heydər Əliyev 1996-cı ildə Füzuli adına Beynəlxalq mükafat təsis etdi, 1997-ci ilin noyabr ayında "Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında" Fərman verdi. Prezident H.Əliyev 1998-ci il mayın 22-də "Azərbaycan Respublikasında fəxri adlar haqqında", 2002-ci il iyunun 11-də "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin təsis edilməsi haqqında" fərmanlar verdi.

2000-ci ilin aprel ayında təntənə ilə Bakıda "Dədə Qorqud" dastanının 1300 illiyi qeyd olundu. Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrafik məlumatla zəngindir. Azərbaycan xalqının soykökünü, tarixini, dövlətçiliyini və Azərbaycan türkcəsini öyrənmək baxımından zəngin mənbə olan "Kitabi-Dədə Qorqud" yalnız Azərbaycanın deyil, bütün türk dünyasının ölməz kitabıdır. Azərbaycan prezidenti Heydər Əliyev 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar fərman imzaladı. Üç il müddətində yubiley çərçivəsində görülən işləri elmi, ictimai,

siyasi və bədii nöqteyi-nəzərdən yüksək qiymətləndirən dövlət başçısı "Kitabi-Dədə Qorqud" ensiklopediyasının nəşrini büyük nailiyyət adlandırdı.

Drezdendə, Moskvada, Türkiyənin müxtəlif şəhərlərində YUNESKO çərçivəsində yubiley tədbirləri təşkil olundu və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi 2000-ci ilin aprelində Bakıda Türkdilli Dövlətlər Birliyinin VI zirvə toplantısına dəvət olunmuş dövlət başçılarının iştirakı ilə keçirilmiş təntənəli mərasim ilə başa çatdı.

**Teatrın inkişafında yeni mərhələ başladı.** Respublikada "Dövlət Gənclər Teatrı", "Bakı Bələdiyyə Teatrı", "Pantomim teatrı", "Tənqid-Təbliğ Teatrı", "Milli Dastan Teatrı", "Yuğ" teatrı, "Bakı Kamera Teatrı" kimi yeni teatrlar təşkil olunmuşdu. 2000-ci ildə 26 dövlət teatrı fəaliyyət göstərirdi. Azərpaşa Nemətov, Fərahim Fərzəlibəyov, Hüseynağa Atakişiyev kimi istedadlı rejissorlar Azərbaycan rejissorluq məktəbinin ən yaxşı ənənələrini inkişaf etdirirdilər. Azərbaycan teatrları xalqın qəhrəmanlıq tarixindən, müasir həyatından bəhs edən onlarla əsərə səhnə həyatı verdilər.

Azərbaycanın **musiqi sənəti** yeni əsərlərlə zənginləşirdi. Görkəmli bəstəkarlar Fikrət Əmirov, Süleyman Ələsgərov, Arif Məlikov, Cövdət Hacıyev, Vasif Adıgözəlov yeni-yeni musiqi əsərləri yaratdılar.

Azərbaycan musiqisində hərbi mövzu da xeyli inkişaf etmişdi. Süleyman Ələsgərovun "Əsgər marşı", Ş.Musaoğlunun əsgər mahnıları, Cavanşır Quliyevin "Əsgər marşı" xalqda qələbəyə inam hissi oyadırdı.

Azərbaycan musiqi ifaçılığı sənəti də inkişaf etməkdə idi. 1992-ci ildə Azərbaycan Dövlət Uşaq Filarmoniyası yaradıldı. Muğam, xalq mahnıları və təsnif ifaçılarının ənənəvi müsabiqələri keçirilirdi. 1997-ci ilin noyabr ayında Bakıda vokalçıların Bülbül adına Birinci Beynəlxalq Müsabiqəsi keçirildi. Prezident Heydər Əliyev 1996-cı il iyunun 22-də "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", 1997-ci il sentyabrın 13-də "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" fərmanlar verdi.

Müğənnilər Zeynəb Xanlarova, Alim Qasımov, Səkinə İsmayılova, caz vokal ustası və pianoçu Əzizə Mustafazadə, Fidan və Xuraman Qasımova bacıları kimi vokal ustaları və onlarla başqa sənətçilər Azərbaycan musiqisini dünyada təbliğ edirdilər. 2000-ci ildə Alim Qasımov Avropada diskləri ən çox satılan 5 ifaçıdan biri olmuşdur.

Musiqinin müxtəlif janrları və mədəniyyətin digər janrları üzrə vaxtaşırı müsabiqələr keçirilir. Bakıda xüsusi "Muğam evi" tikilib istifadəyə verilmişdir və burada 2005-2013-cü illər arasında 4 Muğam Televiziya Müsabiqəsi keçirilmişdir. 2009-cu il 18-24 mart tarixlərində Bakıda "Muğam aləmi" Beynəlxalq musiqi festivalı keçirildi və o vaxtdan bu festival hər 2 ildən bir keçirilməyə başladı. 2015-ci ilin 13-18 martında Bakıda artıq IV "Muğam aləmi" Beynəlxalq musiqi festivalı baş tutdu.

2009-cu ildə Bakı "İslam mədəniyyətinin paytaxtı" elan olundu. 2011-ci ildə Azərbaycan "Avroviziya" (Eurovision) mahnı müsabiqəsində qalib gələrək 39

iştirakçı dövlət içərisində I yeri tutdu. 2012-ci ilin mayında Bakıda Avroviziya (Eurovision) Beynəlxalq musiqi müsabiqəsi müvəffəqiyyətlə keçirildi.

Bütün maddi çətinliklərə baxmayaraq Azərbaycan kinosu inkişaf etməkdə idi. Müstəqil kinostudiyalar təşkil olundu. Azərbaycanda istehsal olunmuş filmlərin toplanması, bərpası və səmərəli istifadə olunması üçün Dövlət Kino Fondu təşkil edildi. Azərbaycan kinosunun görkəmli rejissorları sırasına Vaqif Mustafayev, Ayaz Salayev, Hüseyn Mehdiyev kimi istedadlı sənətkarlar daxil olmuşdu. Azərbaycan kinomatoqrafçıları "Əhli-kef", "Fransız", "Hər şey yaxşı olacaq" (rejissor V.Mustafayev), "Yarasa" (rejissor Ayaz Salayev), "Həm ziyarət, həm ticarət", "Yerlə göy arasında" (rejissor Rasim Ocaqov), "Uçurulmuş körpü", "Özgə vaxtı" (rejissor Hüseyn Mehdiyev) kimi bir sıra yüksək bədii dəyərli filmlər yaratdılar. Müharibə, erməni quldurlarının vəhşiliyi, qaçqınlıq həyatının dəhşətləri Azərbaycan kinosuna yeni mövzular gətirmişdi. "Ağ atlı oğlan" (rejissor Ə.Əbluc), "Fəryad" (rejissor C.Mirzəyev) kimi təsirli, realist kinolentlər yaradılmışdı.

Azərbaycan sənədli kinosu da xeyli inkişaf etmişdi. Müstəqillik uğrunda mübarizəni, Qarabağ müharibəsini, ölkədə siyasi sabitlik yaradılmasını, iqtisadi tərəqqini, demokratik prosesləri, dövlətin xarici aləmdə nüfuzunun yüksəlməsini əks etdirən yüzlərlə maraqlı, ibrətamiz kino-videolent çəkilmişdi. Müdafiə Nazirliyinin sənədli kinostudiyası da bu sahədə fəal iş görürdü.

**Memarlıq və heykəltəraşlıq.** 1990-cı illərin əvvəllərində respublikanın şəhər və qəsəbələrində meydanlar, parklar "monumental kommunist təbliğatı"na xidmət edən heykəl və abidələrdən təmizlənirdi. Dağüstü parkda Şəhidlər Xiyabanı salındı. Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə burada şəhidlərə 21 metr hündürlüyü olan möhtəşəm bir abidə və əbədi məşəl (müəllifləri – Ö.Eldarov, E.Qasımzadə, A.Abdullayev və N.Vəliyev) qoyuldu. Paytaxtda Hüseyn Cavidin (1994-cü il, heykəltəraş Ö.Eldarov), Şah İsmayıl Xətainin (1993-cü il, heykəltəraşlar İ.Zeynalov və Z.Mehdiyev), akademik Yusif Məmmədəliyevin (1998-ci il, heykəltəraş A.Ələsgərov), Xızıda Cəfər Cabbarlının (1999-cu il, heykəltəraş C.Qaryağdı) yüksək bədii dəyərli heykəlləri ucaldıldı. 1996-cı ildə Naxçıvanda möhtəşəm Hüseyn Cavid məqbərəsi (müəlliflər – Ö.Eldarov və R.Əliyev) tikildi. 1997-ci ilin baharında görkəmli heykəltəraş Ömər Eldarov akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi məşhur "Elegiya" əsərini tamamladı.

Azərbaycanın fırça ustaları da gözəl sənət əsərləri yaradırdılar. Azərbaycan rəssamlarının əsərləri dünyanın sərgi salonlarında böyük uğurla nümayiş olunurdu. 1995-ci ildə ABŞ-da, 1996-cı ildə Almaniyada Səttar Bəhlulzadənin əsərlərinin sərgisi təşkil olunmuşdu. 1996-cı ildə Parisdə dünya rəssamları sərgisində Toğrul Nərimanbəyovun, 1997-ci ildə Vaşinqton, Nyu-York və Çikaqoda Kamil Nəsibzadənin əsərləri nümayiş etdirilmişdi. Xalça rəssamları Kamil Əliyevin, Tahir Məcidovun və Eldar Mikayılovun əsərləri yüksək bədii sənətkarlıq nümunələri idi. Plakat ustalarından C.Qasımovu, F.Hüseynovu, K.Əlizadəni və başqalarını göstərmək olar.

Müstəqillik illərində Azərbaycan incəsənətində formaca ənənəyə bağlılıq və müasirlik, məzmunca özəl milli və bəşəri dəyərlərin tərənnümü üstünlük təşkil edirdi.

**Mədəni–maarif işi.** Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində 982 kitabxana, 6 teatr, 10 park, 862 klub, 1831 kino qurğusu, 100 mindən çox qiymətli nadir eksponatı olan 22 muzey və rəsm qalereyası ələ keçirilmiş və qarət edilmişdir. Yüzlərlə tarixi abidə, o cümlədən 13 qala bürcü, 22 kurqan-təpə, 31 məscid, 44 məbəd, 2 mağara-ibadətgah təhqir edilmiş və dağıdılmışdı.

1990-cı illərin əvvəllərində nəzarətsizlik üzündən respublikanın muzeylərindən çox qiymətli sənət əsərləri, əntiq əşyalar oğurlanıb xaricə aparılmışdı. Prezident Heydər Əliyev yenidən rəhbərliyə gəldikdən sonra bu sahədə də mühüm tədbirlər həyata keçirilirdi. 1997-ci il noyabrın 18-də "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildi. Hökumət kitabxana fondlarının genişləndirilməsinə vəsaiti artırdı. M.F.Axundov adına Respublika Kitabxanası 1998-ci il aprel ayından Milli Kitabxana statusu aldı. Yeni muzeylər yaradılır, köhnələri yenidən qurulurdu. Azərbaycan Tarixi Muzeyində təmir və yenidənqurma işlərinə başlandı. İncəsənət Muzeyindən oğurlanmış 275 qiymətli rəsm əsərindən 192-si ABŞ-da müvafiq qurumların köməyi ilə tapılıb, 2001-ci ilin iyul ayında geri qaytarıldı.

**Kütləvi informasiya vasitələri.** Müstəqillik illərində ölkədə kütləvi informasiya vasitələri şəbəkəsi xeyli genişləndi. 1990-cı illərin ortalarında Mətbuat və İnformasiya Nazirliyində 600-ə qədər informasiya vasitəsi qeydə alınmışdı. 2001-ci ilin əvvəllərində respublikada 8 dildə 300-dən çox qəzet, 72 jurnal nəşr olunurdu.

Ölkədə 20 informasiya agentliyi fəaliyyət göstərirdi. 1990-cı illərin ortalarından Azərbaycanda Beynəlxalq İnternet informasiya şəbəkəsindən istifadə olunmağa başlanmışdı. Paytaxtda, digər şəhər və qəsəbələrdə çoxlu "İnternet klub" təşkil edilmişdi.

Azərbaycan televiziyası, radiosu texniki və yaradıcılıq imkanı baxımından xeyli inkişaf etmişdi. Dövlət radiosunun verilişləri 13 dildə, o cümlədən 1992-ci ildən ingilis dilində dünyaya yayılırdı. 1996-cı ildə Bakıda əsası hələ 1982-ci ildə qoyulmuş, hündürlüyü 310 m olan yeni teleqüllə istifadəyə verildi. 2002-ci ildə respublikada 30 radio və televiziya fəaliyyət göstərirdi.

2002-ci il oktyabrın 5-də Azərbaycan Prezidentinin Fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı. Azərbaycan jurnalistikası inkişaf edirdi. Jurnalistlərin yeni nəsli formalaşmaqda idi. Çingiz Mustafayev, Salatın Əsgərova, Alı Mustafayev kimi istedadlı və cəsarətli jurnalistlər baş verən hadisələr haqqında insanlara doğru məlumat çatdırmaq üçün böyük fədakarlıq göstərmiş, canlarından keçmişlər.

Respublikanın kütləvi informasiya vasitələri Azərbaycanın dövlət müstəqilliyinin qorunması, dünyəvi, quruculuq, milli və bəşəri mənəvi dəyərləri, ölkədə siyasi sabitlik və vətəndaş həmrəyliyi yaranmasını, ölkə rəhbərliyinin uğurlu daxili və xarici siyasətini geniş təbliğ edirdi.

**İdman.** İdmanın inkişafına Azərbaycan dövləti xüsusi diqqət yetirir. Bakı, Gəncə, Şəki, Naxçıvan, Quba, Lənkəran, Qax və digər şəhərlərdə ümumilikdə 21 Olimpiya idman kompleksi tikilib istifadəyə verilmişdir. 1997-ci ildə İlham Əliyev Milli Olimpiya Komitəsinin (MOK) sədri seçildi.

Hazırda bölgələrdə 41 Olimpiya mərkəzi vardır. Ümumiyyətlə isə son illərdə 50-dən çox böyük Olimpiya Mərkəzi yaradılıb. Lənkəran Olimpiya İdman Kompleksi yenidən qurulmuş, Bakıda Olimpiya Hərəkatı və İdman Muzeyi, 13 idman zalı və quğusu tikilmişdir.

Azərbaycan idmançıları uğurlarını artıraraq 1996-cı ildə Atlantada bir medal, ondan sonra 2000-ci ildə Sidneydə üç, 2004-cü ildə Afinada beş, 2008-ci ildə Pekində yeddi, 2012-ci ildə Londonda on və nəhayət 2016-cı ildə Rio-de-Janeyroda 18 medal qazandılar.

12 iyun – 28 iyun 2015-ci il tarixində Azərbaycanın paytaxtı Bakıda və Mingəçevirdə Birinci Avropa Oyunları keçirildi. Oyunlar Avropanın 50 Milli Olimpiya Komitəsini birləşdirən Avropa Olimpiya Komitələri tərəfindən keçirilmişdir. Oyunlarda 50 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançı yarışmışdır. Oyunların proqramına 28 yay olimpiya idman növündən 16-sı, həmçinin 2 qeyri-olimpiya idman növü daxil edilmişdi. Azərbaycan idmançıları Birinci Avropa Oyunlarında 56 medal qazanaraq Avropada ikinci yeri tutdular.

## KÜRƏKÇAY MÜQAVİLƏSİ
## "ANDLI ÖHDƏLİK"
## (14 may 1805-ci il)

Aşağıda adı çəkilən mən, qadir Allah, böyük püyğəmbərimiz Məhəmməd (S) qarşısında İ.Ə. (İmperator Əlahəzrəti)- nə; özümün həqiqi və əsl lütfkar ( hamısı) böyük Aleksandar Pavloviçə, Bütün Rusiyanın mütləq hökmdarına və Bütün Rusiya taxt-tacının təyin olunacaq İmperator Əlahəzrəti vəliəhdə sədaqətlə və ürəkdən qulluq edəcəyimi və hər şeydə itaət göstərəcəyimi, öz canımı son damla qanıma qədər əsirgəməməyi istəməyim və buna borclu olduğum haqda söz verir və and içirəm...

### Traktatın layihəsi

**Qadir Allah naminə**

Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və Bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi kn. Pavel Sisianov, olduqca mərhəmətli böyük İmperator Əlahəzrətləri Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə Bütün Rusiya imperiyasının və indi bəxtiyarlıqla hökmranlıq edən böyük imperator əlahəzrətləri Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təbəəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq:

**Birinci artikul**

Mən, Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın böyük İmperator əlahəzrətlərinin və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs Qurana and içməliyəm.

**İkinci artikul**

İmperator əlahəzrətləri zati-aliləri (xan) həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç vaxt əsirgəmə-

yəcəklər, buna sübut olaraq İmperator əlahəzrətləri zati-alilərinin (xanın) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.

**Üçüncü artikul**

Zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xanın Bütün Rusiya imperatorlarının və onların vəliəhdlərinin öz üzərində ali və yeganə hakimiyyətini belə səmimiyyətlə qəbul etməsi müqabilində qərara alınır ki, adı çəkilən xan,ondan sonra isə böyük oğlunun və bu qayda ilə nəslin yaşca sonrakı böyüyü irsən xanlığa keçərkən Gürcüstan Baş hakimi tərəfindən xanlıqda bərqərar olmaq haqqında dövlət möhürü ilə təsdiq edilmiş imperator fərmanından ibarət investitura aldıqdan sonra Bütün Rusiya imperiyasının təbəəliyinə sadiq olmasına, özü və varisləri üzərində Bütün Rusiya imperatorlarının ali və yeganə hakimiyyətinin tanınmasına təntənəli surətdə and içməlidirlər. Andın forması traktata əlavə olunur ki, indi hakim olan Şuşalı və Qarabağlı İbrahim xan bu mərasim Gürcüstan Baş hakiminin və bu qətnaməni başa çatdıran inf-gen. Knyaz Sisianovun iştirakı ilə yerinə yetirsin.

**Dördüncü artikul**

Mən,Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin Bütün Rusiya imperiyasına sadiq təəbəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanları haqda isə məlumat verməyə və Gürcüstan Baş hakimi tərəfindən mənim yanıma təyin edilmiş, şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.

**Beşinci artikul**

İmperator əlahəzrətləri Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir:

1)həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır; 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır; 3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı ölkədən yığılan gəlir zati-alilərin(xanın) səlahiyyətində qalacaqdır; 4) Zati-alilərinin və onun sülaləsinin, eləcədə onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsinin Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

**Altıncı artikul**

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm:

1) istər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri mümkündür; 2) Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odunla təmin edəcəyəm; 3) Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm; 4) Hökümət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazımi olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.

**Yeddinci artikul**

İmperator əlahəzrətlərinin zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində Bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir, bayraq onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.

**Səkkizinci artikul**

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İmperator əlahəzrətlərinin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazəm olduğundan İmperator əlahəzrətlərinin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətə, yeni bir hissəsi fevralın 1-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın İmperator əlahəzrətləri tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məhəmmədhəsən-Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.

**Doqquzuncu artikul.**

İmperator əlahəzrətləri özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılmalı olan zati-aliləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.

**Onuncu artikul**

Bu müqavilə əbədi müddətə bağlanır və bundan belə həmişəlik heç bir dəyişikliyə uğramamalıdır.

**On birinci artikul**

Bu traktın İmperator əlahəzrətləri tərəfindən onun dövlət möhürü vurulmuş Ali Fərmanı ilə təsdiqi bu sənədin imzalanmasından 6 ay keçənədək və ya mümkün olsa, daha tez olmalıdır.

Yuxarıdakıların həqiqətə uyğun olduğunu (bildirmək) üçün aşağıda imza edənlər Yelizavetpol dairəsinin düşərgəsində, Kürək çayı yaxınlığında, miladın 1805-ci ilinin yayında, mayın 14-də (müsəlman təqvimi ilə 1220-ci il səfər ayında) bu maddələrə qol çəkərək öz möhürlərini vurdular.

------------

*Tarixi ədəbiyyatda Kürəkçay müqaviləsi kimi məlum olan bu sənəd XIX əsrin başlanğıcında Azərbaycan –Rusiya siyasi münasibətlərinə dair mühüm rəsmi mənbələrdən biridir. Müqavilə Qarabağ xanı İbrahim xanla Rusiya imperiyası qoşunlarının Qafqazda baş komandanı P.D. Sisianov arasında 1805-ci il mayın 14-də Kürəkçay sahilində (Gəncə yaxınlığında) bağlanmışdır.

Kürəkçay müqaviləsi preambula və 11 artikuldan ibarət idi. Müqavilənin preambulasında şuşalı və qarabağlı İbrahim xanın Rusiya imperiyasının təbəəliyinə keçməsi təsbit olunur, maddələrdə isə bundan irəli gələn şərtlər müəyyənləşdirilirdi. Müqavilənin 1,4,6,8 və 9-cu artikullarında İbrahim xanın 2,3,5 və 7-ci artikullarında isə Rusiyanın öhdəlikləri əks olunmuşdur. Sənədə əsasən Rusiya birmənalı şəkildə Qarabağ xanlığını müstəqil dövlət kimi qəbul edir, İbrahim xanı və onun varislərini xanlığın yeganə sahibi kimi təsdiq edirdi. Ən mühüm məqamlardan biri İbrahim xanın adı keçən bütün artikullarda şuşalı və qarabağlı İbrahim xan kimi təqdim edilməsidir. Bundan əlavə, Kürəkçay müqaviləsində ermənilərin xanlığa hər hansı iddia və münasibətlərindən bir cümlə belə yoxdur. 1822-ci ildə çar Rusiyası tərəfindən Qarabağ xanlığının ləğv edilməsi ilə Kürəkçay müqaviləsinə son qoyuldu (bax: Mahmudov Y, Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi.1639-1828. Dörd cilddə. Birinci cild. Bakı, 2009,s. 366-367).

** Yalnız rus dilində imzalanmış Kürəkçay müqaviləsinin mətni ilk dəfə general Sisianovun çar I Aleksandrın adına 22may 1805-ci il tarixli “ tam sədaqətli” raportunda olduğu kimi gətirilmişdir. Raportun mətni isə öz növbəsində “Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı Aktlar”ın II cildində çap edilmişdir. Həmin çap üzrə də azərbaycancaya çevrilmişdir (bax: Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s.272-276).

## GÜLÜSTAN MÜQAVİLƏSİ
## (12 oktyabr 1813-cü il0)

**Müqavilənin mətni:**

**Qadir Allah naminə**

İmperator əlahəzrətləri, Bütün Rusiyanın ən şöhrətli və əzəmətli böyük hökmdarı və imperatoru və İran dövlətinin sahibi, hökmdarı, əlahəzrətləri padşahın öz təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, onların ürəklərinə zidd olan müharibənin fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya imperiyası və İran dövləti arasında mövcud olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi qəlbdən, qarşılıqlı surətdə arzulayaraq bu ədaləti və nicatverici iş üçün aşağıdakıları öz səlahiyyətli Müvəkkilləri təyin etməyi faydalı bilmişlər:

Əlahəzrət Bütün Rusiya İmperatoru – öz general-leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda Mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş Müdiri, Xəzər hərbi Donanmasının Komandanı, Müqəddəs Aleksandr Nevski, birinci Müqəddəs Anna, dördüncü dərəcəli Müqəddəs Əzabkeş və Qalibiyyətli Georgi ordenləri, habelə üzərində igidliyə görə yazısı olan qızıl qılıncla təltif edilmiş zati-aliləri Nikolay Rtişşevi, Əlahəzrət İran şahı isə - özünün, Türkiyə və İngiltərə Saraylarında fövqaladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş, öz padşahından brilyantlarla bəzədilmiş xəncər və qılıncdan, şal paltardan və brilyantlarla ziynətləndirilmiş at bəzəkləri dəstindən ibarət fərqləndirici lütf görmüş, öz padşahının ən yaxın məmuru, ali İran sarayının gizli işlər müşaviri, vəzir nəslinə mənsub olan, İran sarayında ikinci dərəcəli xan, yüksəkrütbəli və çoxhörmətli Mirzə Həsən Xanı: bu səbəbdən də biz, yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimizə öz tərəfindən bizim böyük hökmdarlarımız adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik.

**I Maddə**

İndiyədək Rusiya İmperiyası və İran Dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur və qoy imperator əlahəzrətləri Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, taxtlarının varisləri və onların, qarşılıqlı surətdə, ali dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah razılıq olsun.

**II Maddə**

Bir halda ki, hər iki Ali Dövlət arasında ilkin əlaqələr vasitəsilə, yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması əsasında sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda indiki zamandan etibarən və gələcəkdə Bütün Rusiya İmperiyası və İran Dövləti

arasında sərhəd aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzü, Araz çayındakı Yeddibulaq keçidinədək, oradan da üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ( sərhədləri) ilə davam etdirərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını, Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddin torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı istiqamətində, Həmzəçimən yolu ilə, Pəmbək dağları silsiləsi ilə Şuragöl mərzi ilə, dağlar silsiləsi ilə, Mastaras və Artikin arası ilə Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin Xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan sərhədləri, daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin həqiqi hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələrin, həmçinin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq və təfsilatlı təsvirini verəcəklər) tərəfindən bu Müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda, əsasında Talış xanlığının sərhəd xətti elə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də, yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kənara nə isə sıxarsa, hər iki Ali Dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf əsasında təminat verəcək.

**III Maddə**

Şah əlahəzrətləri əlahəzrət Bütün Rusiya imperatoruna səmimi dostluq hisslərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran taxtının ali vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyasının hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla bərabər Dağıstan,Gürcüstan (Şuragölə əyaləti ilə birlikdə) İmperiya, Quriya, Minqreliya və Abxaziya, eyni dərəcədə, hazırda bərqərar edilmiş sərhəd Qafqaz xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperiyasının mülkiyyətinə mənsub olduğunu qəbul edir.

**IV Maddə**

Əlahəzrət Bütün Rusiya imperatoru əlahəzrət İran Şahına öz qarşılıqlı dostluq hisslərini ifadə etmək və İranda – ona qonşu olan bu dövlətdə, möhkəm əsas üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi qəlbdən təsdiq etmək üçün, bununla, öz adından və öz vəliəhdləri adından İran şahı tərəfindən İran dövlətinin varisi təyin ediləcək vəliəhdə, lazım gəldikdə, kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran dövlətinin işinə qarışa bilməsin və ali Rusiya sarayının köməyi ilə İran sarayı möhkəmlənsin. Bununla belə, əgər İran

dövləti işləri üzrə Şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya İmperiyası hakimiyyətdə olan Şah xahiş etməyincə bunlara qarışmayacaq.

**V Maddə**

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onlara yan almaq hüququ verilir; həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köçəyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq əvvəlki qayda üzrə Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı, qarşılıqlı surətdə iranlılara hər cür yardım göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə müharibədən əvvəl, habelə sülh vaxtı və həmişə Rusiya hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. Həmin ehtiram daxilində, əvvəlki ixtiyar indi də yalnız Rusiya dövlətinə verilir ki, ondan başqa heç bir dövlətin hərbi bayrağı Xəzər dənizində ola bilməz.

**VI Maddə**

Hər iki tərəfdən döyüşdə əsir alınmışları, xristian dininə və.s. dinlərə mənsub ələ keçirilmiş sakinləri Müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəfdən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə təmin edilərək buraxılsınlar. Özbaşına, yaxud qanunu pozaraq, qaçanlardan hər birinə, milliyyətindən asılı olmayaraq, öz könüllü istəyinə görə öz Vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla bərabər hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.

**VII Maddə**

Bütün yuxarıda deyilənlərə əlavə olaraq əlahəzrət Bütün Rusiya imperatoru və əlahəzrət İran şahı buyururlar ki, lazım olduqda, əlahəzrətlərin iqamətgahlarına göndərilən, onların ali saraylarının qarşılıqlı nazirlər və ya elçiləri rütbələrinə və onlara tapşırılmış işlərin mühümlüyünə müvafiq qəbul olunsunlar; şəhərlərdə ticarətə himayəçilik üçün təyin olunmuş müvəkkillərin və ya Konsulların on nəfərdən artıq məiyyəti olmasın, onlar vəkil edilmiş məmurlar kimi vəzifələrinə layiq hörmət və şərəfə malik olmalıdırlar, həmçinin əmrnaməyə əsasən, bundan sonra onları nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürbətlə razı salmaq gərəkdir.

**VIII Maddə**

Əlahəzrətlərin, öz hökümətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki ali dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada kim nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həmçinin heç cür ləngidilmədən oradan çıxıb getməyə, Rusiya İmperiyasına mənsub olan yerlərdən İran dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək. Hər iki ali dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və.s. ilə əlaqədar şikayətlərinə adi qayda üzrə baxılması konsula, yaxud müvəkkilə, on-

lar olmadıqda isə yerli rəisə həvalə edilir. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq təminatı verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.

İrana gəlmiş Rusiya təbəəliyindən olan tacirlər, istəsələr, oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə də sərbəst gedəcəklər; bundan ötrü İran hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları lazımi pasportlarla təmin edəcəkdir; buna ticarət işləri ilə əlaqədar Rusiyadan Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılıqlı surətdə riayət ediləcəkdir.

İrana gəlmiş Rusiya təbələrindən kimlərinsə ölüm hadisəsi baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşlar və mülkləri, dost dövlətin təbəələrinə məxsus olduğu üçün, ilk növbədə, saxlanılmadan və xəlvəti mənimsənilmədən, Rusiya imperiyasında və bütün mədəni dövlətlərdə icra edildiyi kimi, kimin hansı dövlətə,mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasdan, qəbzlə, onların yoldaşlarına yaxud qohumlarına verilməli, həmin qohumlara öz arzuları ilə və öz xeyirləri üçün bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.

**IX Maddə**

Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallara görə yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, oradan apardıqları İran mallarına görə də eyni gömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin. İran təbəələrinin Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə və qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.

**X Maddə**

Malları Müqavilə bağlamış hər iki dövlətin sahillərinə və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərinə gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə nəzarəti altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın,yaxud dəyişmə yolları ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun həmçinin satıcıdan və alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllü şərti ilə qanuni rüsumlar yığılsın.

**XI Maddə**

Bu müqavilə imzalandıqdan sonra hər iki ali dövlətin müvəkkilləri qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımı xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər.

İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan ali tərəflərin yuxarıda göstərilmiş müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmişbu əbədi sülh müqaviləsi əlahəzrət Bütün Rusiya imperatoru və əlahəzrət İran şahı tərəfindən bərqərar ediləcək və əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli ratifikasiyalarla təsdiq olunacaqdır.

Bu müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu ali saraylardan, qarşılıqlı surətdə göndərilməklə onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çatdırılacaq.

Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü İran hesablaması ilə min ikiyüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rusiya ordu düşərgəsində bağlanmışdır.

**İmzalamışlar:**

Müvəkkil və Gürcüstanda Baş Komandan Nikolay Rtişşev

(M: Y:)

Alişöhrətli İran Dövlətindən Müvəkkil Mirzə Əbül Həsən Xan

(M: Y:)

------------

*1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsi ilə 1804 – 1813 –cü illər Rusiya İran müharibəsinə son qoyuldu (bax: Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989,s 277, 285).

Bu sənəd tarixi Azərbaycan ərazilərini Rusiya ilə İran arasında bölən birinci müqavilə olmaqla yanaşı, müqavilə Qarabağın Gülüstan kəndində imzalandığı üçün tarixə həmin yerin adıyla, yəni Gülüstan müqaviləsi kimi daxil olmuşdur.Müqaviləni İran tərəfdən şahın vəkili Mirzə Əbülhəsən xan, Rusiya tərəfdən isə Qafqaz xəttində və Gürcüstandakı qoşunların baş komandanı N.Rtişşev imzalamışdır.

Müqavilə preambula, 11 maddə və separat aktdan ibarət olmuşdur. I maddədə bildirilirdi ki, "tərəflər arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur".

II maddədə tərəflər arasında sərhədlər müəyyən edilir, V maddədə isə Xəzər dənizində yalnız Rusiyaya hərbi donanma saxlamaq hüququ verilirdi. Müqavilənin III maddəsinə əsasən Şimali Azərbaycan xanlıqlarından İrəvan və Naxçıvanı çıxmaq şərtilə yerdə qalan bütün xanlıqların (Gəncə, Qarabağ, Şəki, Şirvan Quba, Bakı və Talış) Rusiyanın hakimiyyəti altına keçməsi təsdiq edilirdi. VI maddədə əsirlər və fərarilər məsələsinin həll edilməsi göstərilir, VII maddədə isə diplomatik heyətlərin qarşılanması, konsulluqlar açılması məsələsindən bəhs edilirdi.

Separat aktda isə Gülüstan müqaviləsinə yenidən baxılması haqqında İranın Rusiya imperatoruna xahişlə müraciət etmək hüququ təsdiq olunurdu. 1826-1828-ci illər Rusiya-İran müharibəsinin başlanması ilə Gülüstan müqaviləsi qüvvədən düşdü və tərəflər arasında yeni, Türkmənçay müqaviləsi imzalandı (bax: Mahmudov Y, Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dörd clddə. Birinci cild. Bakı ,2009, s.430-433)

## TÜRKMƏNÇAY MÜQAVİLƏSİ
## (10 fevral 1828-ci il)

**I Maddə**

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır.

**II Maddə**

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktatının qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər də başa çatmışdır; onlar göstərilən Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.

**III Maddə**

İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə Erivan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırki müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə verməyi vəd edir.

**IV Maddə**

Müqaviləyə qoşulan yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır: sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratın zirvəsindən aralıda düz istiqamətdə ən yaxın nöqtədən başlayaraq o dağların zirvəsindən keçir; buradan maillik üzrə kiçik Araratın cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxarılarına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir, burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yəni 31/2 Rusiya versti enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq bir daha o çayın yatağı ilə Yeddibulaq barəsinədək gedir; buradan İran torpaqları Araz çayının yatağı üzrə üç ağaca, yəni 21 Rusiya versti uzanacaqdır: sonra sərhəd Muğan düzü vasitəsilə Bolqarçayadək, iki kiçicik Adınabazar və Sarıqamış çaylarının birləşməsində üç ağac yəni 21 verst aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı; adları çəkilən kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Cikoir yüksəkliyinin zirvəsinədək elə davam edirdi ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır,

İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələrilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onların xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Cikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Qəmərkühüm zirvəsinədək keçir. Suların axarını iki yerə bölən dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Cikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə Qəmərkuhun zirvəsindən Züvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velkic dairəsinin sərhədlərinədək uzanacaqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna istisna olmaqla Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd xətti su axınının yuxarıda qeyd olunan qaydalarına daima uyğun olaraq, Velkic dairəsi sərhədindən Kloputanın zirvəsi və Velkic dairəsindəki dağların baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarını İrandan ayırmalı olan sərhəd xətti qurtarır.

**V Maddə**

İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz adından, həm də vərəsələri və İran taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında və Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanadək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.

**VI Maddə**

İran şahı həzrətləri hər iki dövlət arasında baş vermiş, müharibə ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödəməyi öhdəsinə götürür. Müqaviləyə qoşulan hər iki yüksək tərəf o mükafatın məbləğini on kurur tümən raicə və ya iyirmi milyon gümüş manat qərarlaşdırmışdır, onun vaxtı, ödəniş qaydası və təminatı sözbəsöz hazırkı Traktata daxil edilə biləcək qüvvəyə malik olan xüsusi müqavilədə qərarlaşdırılmışdır.

**VII Maddə**

İran şahı həzrətləri öz əlahəzrət oğlu şahzadə Abbas Mirzənin öz vərəsəsi və taxt – tacın varisi təyin etmək iltifatında bulunan kimi, Bütün Rusiya imperatoru həzrətləri İran şahı həzrətlərinə öz dostluq münasibətlərini və bu varislik qaydasının təsdiqinə kömək etmək arzusunu açıq-aşkar sübut etməkdən ötrü bundan sonra şahzadə Abbas Mirzə həzrətlərinin simasında İran taxt-tacının vərəsəsi və varisini, onun taxta çıxmasından sonra isə onu o dövlətin qanuni hökmdarı hesab etməyi öhdəsinə götürür.

**VIII Maddə**

Rusiyanın ticarət gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna

malikdir; gəmi qəzası hallarında İranda onlara hər cür kömək edilməlidir. Bu üsulla İran ticarət gəmilərində də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür vəsaitlə kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilərlər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.

**IX Maddə**

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hər vasitə ilə onlar arasında bu qədər xoşbəxtliklə bərpa olunmuş sülh və dostluğu bərqərar etməyi arzulayaraq, müvəqqəti tapşırıqların icrası və ya daimi qalmaq üçün bu və ya o biri dövlətə göndərilən yüksək sarayların (hökumətlərin) səfirlərinin, nazirlərinin və işlər müvəkkillərinin, onların dərəcəsinə, razılığa gələn yüksək tərəflərin şərəfinə, onları birləşdirən səmimi dostluğa və yerli adətlərə uyğun olaraq, ehtiramla və (hər birinin) ayrılıqda qəbul edilməsini qarşılıqlı surətdə rəva bilirlər. Xüsusi protokol ilə bu və ya o biri tərəfin əməl etməsi üçün bu məzmunda mərasim qərarlaşdırılacaqdır.

**X Maddə**

Bütün Rusiya həzrətləri və İran şahı həzrətləri hər iki dövlət arasında ticarət əlaqələrinin bərpa olunmasını və genişlənməsini sülhün bərqərar olunmasının ən başlıca xeyirxah nəticələrindən biri saydıqları üçün, tam qarşılıqlı razılıq əsasında hökm verdilər ki, ticarətə hakimlik edilməsinə və qarşılıqlı surətdə təbəələrin təhlükəsizliyinə aid olan bütün sərəncamlar səadətlə yoluna qoyulsun və onlar onu qarşılıqlı surətdə müvəkkillər tərəfindən bağlanacaq bu sülh müqaviləsinin eyni güclü hissəsi sayılmalı olan və ona əlavə edilən ayrıca Akt ilə izah etsinlər.İran şahı həzrətləri, qabaqlar olduğu kimi, Rusiyaya ticarətin xeyrinə tələb olunan hər yerə konsullar və ticarət agentləri təyin etmək hüququ verir və öhdəsinə götürür ki, hər birinin məiyyəti on nəfərdən çox olmayacaq konsul və agentlərə hamilik göstərsin ki, onlar öz rütbələrinə verilmiş şan – şövkət və üstünlüklərdən istifadə etsinlər. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran şahı həzrətlərinin konsul və ya ticarət agentlərinə münasibətdə tam qarşılıqlığa əməl edilməsinə vəd verir. İran hökumətinin Rusiya agentinə və ya konsuluna əsaslı şikayəti olarsa, Rusiya naziri (səfiri) və ya onun şah həzrətləri sarayı yanında işlər müvəkkili,ya da onların bilavasitə rəisi öz mülahizəsinə əsasən günahkarı vəzifəsindən uzaqlaşdıra və onu müvəqqəti olaraq digər şəxsə həvalə edə bilər.

**XI Maddə**

Qarşılıqlı surətdə təbəələrin bütün tələbələri və müharibə ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olunacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökümətin xəzinəsinə müqavilə təəhhüdləri dərhal və tamamilə təmin edilməlidir.

**XII Maddə**

Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır: onlardan Arazın hər iki tərəfində tərpənməyən əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperatoru həzrətləri, ona aidiyyatı olduğuna görə, keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.

**XIII Maddə**

Axırıncı və ya bundan qabaqkı müharibənin gedişində əsir alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumətin nə vaxtsa əsir düşmüş təbəələri qarşılıqlı surətdə azad adilməli və dörd ay ərzində qaytarılmalıdır; onlar həyati azuqə və digər tələbatlarla təmin edilməli və onları qəbul etmək və sonrakı yaşayış yerinə yollamağa sərəncam vermək üçün hər iki tərəfdən ayrılmış komissarlara verməkdən ötrü Abbasabada göndərilməlidirlər. Razılığa gələn yüksək tərəflər hər iki tərəfdən əsir düşmüş, lakin olduqları yerin uzaqlığına və ya başqa bir səbəbə və ya vəziyyətə görə göstərilən müddətə qaytarıla bilməyəcək bütün hərbi əsirlərə,habelə Rusiya və İran təbəələrinə də bu yolla yanaşacaqlar.Hər iki dövlət belələrinin hər bir vaxt tələb edilməsində özünə dəqiq və qeyri məhdud hüquq verir və öhdəsinə götürür ki, onlar aşkar edildikdə və ya onlar haqqında tələblər alındıqda qarşılıqlı surətdə onları (bir-birinə) qaytarsınlar.

**XIV Maddə**

Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı müharibənin başlanmasınadək və ya o vaxtı digərinin təbəəliyinə keçmiş olan satqınların və fərarilərin verilməsini tələb etməyəcəkdir. İran hökuməti bu qaçqınlardan bəzilərinin və onların köhnə həmvətənlərinin və ya hakimiyyəti altında olanların arasında qərəzli əlaqələrdən qarşılıqlı surətdə baş verə biləcək zərərli nəticələrin qarşısını almaq üçün, öhdəsinə götürür ki, indi və ya sonralar Rusiya hökumətinin adbaad göstərdiyi adamların Arazla Çara çayının, Urmiya gölünün, Cakatu çayının və Qızıl Üzən çayının Xəzər dənizinə töküldüyü yer arasında yaratdığı hüduddakı öz torpaqlarında olmasını qadağan edəcəkdir. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən hissəsində yurd salmasına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyini vəd edir.Lakin özlüyündə aydındır ki, ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan adamlara: şəxsi nümunələri, nəsihət və gizli əlaqələri ilə keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan əvvəlki həmvətənlərinə zərərli təsir göstərə bilən xan, bəy və dini rəislər və ya mollalara qarşı bu şərtin gücü var və olacaqdır. Ümumiyyətlə, hər iki dövlətin sakinlərinə gəldikdə isə, razılığa gələn yüksək tərəflər qərara alır ki, hər iki tərəfin bir dövlətdən o birinə keçmiş və ya bundan sonra keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilər.

**XV Maddə**

Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.

**XVI Maddə**

Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdan sonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımı fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifaksiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvəkkilləri tərəfindən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir.

Fevral ayının 10-da İsanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır.

**Əslinə qol çəkmişlər:**
**İ.F.Paskeviç, A.M.Obrezkov**

-------------------

*Türkmənçay müqaviləsi Rusiya ilə İran arasında 1828-ci il 10(22)-da,Təbriz yaxınlığında,Mainə şəhərindən 33km.şimal-qərbdə. Yerləşən Türkmənçay kəndindəbağlanmışdır (bax: Azərbaycan tarixi üzrə qaynaqlar.Bakı,1989,s277-286).

Türkmənçay müqaviləsi preambula və 16 maddədən ibarət idi. Gülüstan müqaviləsinin ayrı-ayrı maddələrinin məzmunu Türkmənçayda əks olunmuş,onun IX və X maddələrində nəzərdə tutulmuş məsələlərə aid Xüsusi ticarət aktı imzalanmışdı. Türkmənçay müqaviləsinin preambulasında sülhün zərurətindən və onu imzalayanların (İ.Paskeviç, A. Obrezkov (Rusiya) və Abbas Mirzə (İran) səlahiy-

yətindən bəhs edilir. I maddə ilə əbədi zamanadək sülh elan olunurdu. II maddədə Gülüstan müqaviləsinin qüvvədən düşdüyü və onun Türkmənçay müqaviləsilə əvəz olunduğu bildirilirdi. III maddədə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya ilhaqı təsdiqlənirdi. IV maddədə sərhədlər müəyyənləşdirilir, V maddədə İran IV maddənin müəyyən etditi sərhəd xətti ilə Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən yerləşən bütün torpaqların Rusiyaya məxsus olduğunu tanıyırdı. VI maddədə təzminatın miqdarı müəyyən edilir,VII maddədə Abbas Mirzənin vəliəhd kimi tanınması rəsmən etiraf olunur, VIII maddədə isə Gülüstan müqaviləsinin V maddəsi təsdiq edilir, yəni Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus olurdu.IX maddədə İranda Rusiyanın daimi diplomatik missiyasının təsis edilməsi nəzərdə tutulur, X maddədə konsulluqların açılması və bu məsələlərdən bəhs edilirdi. XI maddədə qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və müharibə ilə dayandırılmış i.lərin bərpası tənzimlənirdi.

Müqavilənin XII, XIV, XV maddələri ilə əhalinin hərəkəti, ermənilərin köçürülməsi və.b məsələlər həll edilirdi.A.S.Qriboyedov Türkmənçay müqaviləsinin ayrı-ayrı maddələrinin irəli sürülməsində mühüm rol oynamış və tarixi ədəbiyyatda XII, XIV ,XV maddələrin müəllifi A.S.Qriboyedov hesab edilir.Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən İranda yaşayan erməni əhalisinin Cənubi Qafqaza köçürülməsi diplomatiya dilində xatırladılsa da, məhz “İran erməniləri” nin köçürülməsi nəzərdə tutulurdu.Bunu tarixi mənbələr də təsdiq edir(bax: Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области. – Сочинениев двух томах,т.2.Москва,1971,с.339-341; История Азербайджана по документам и публикациям.Баку,1990,с.56-59.)

Beləliklə Türkmənçay müqaviləsi ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyuldu. Bununla yanaşı, bu müqavilə ilə Azərbaycan torpaqlarının bölüşdürülməsi başa çatdırıldı(bax: Mahmudov Y, Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi.1639-1828.Dörd cilddə.Birinci cild.Bakı,2009, s.490-492).

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). (Z.M.Bünyadov və Y.B.Yusifovun red. Ilə) I c., B., 1994.
2. Azərbaycan tarixi. Yeddi cilddə. I c., (Ən qədimdən – b.e.III əsrləri). B., 1998
3. Azərbaycan tarixi üzrə qaynaqlar. Seminar və təcrübə məşğələləri üçün müntəxəbat. S.S.Əliyarlı və Y.M.Mahmudovun red. Ilə. B., 1989, 2007.
4. Bakıxanov A.A. Gülüstani-İrəm. B., 2001.
5. Fazili A. Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında. B., 1984.
6. Hüseynzadə Ə. XIX əsrin II yarısı Azərbaycan tarixşünaslığı. B., 1967.
7. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə. Tərtib və tərcümə edəni S.Qaşqay. B., 2006.
8. Məmmədbəyli H.C. Tarixləri çevirmək üçün sinxronik cədvəllər. B., 1961.
9. Şükürov K.K. Azərbaycan tarixi. Ən qədim zamanlardan bizim günlərədək: dövlətlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. II hissə B., 1998;
10. Şükürov K.K. Azərbaycan tarixi. Elmi-nəzəri və praktiki problemləri, I hissə, B., 2004
11. Сумбат-заде А.С.Азербайджанская историография XIX-XX в. Б.,1987
12. Azərbaycan tarixi. 7 cildlik. Bakı, «Elm».
13. Azərbaycan tarixi. Z.M. Bünyadov və Y.B.Yusifovun redaktəsilə, 1-ci cild, Bakı, 1994.
14. Azərbaycan tarixi. BDU-nun nəşri, Bakı, 1996.
15. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм, 1982.
16. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991.
17. Гусейнов М.М. – Древний палеолит Азербайджана. Баку, 1985.
18. Мунчаев Р. М. – Кавказ на заре бронзового века. Москва, 1975.
19. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку, 1987.
20. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии (конец II – нач. I тыс. До н. Э.), Баку, 1984.
21. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı I minilliyin əvvəllərində. Bakı, Elm, 2000.
22. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Нафта-пресс, 2008.
23. Seyidov A.Q. Naxzıvan e.ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003.
24. Bahşaliyev V.B. Nahzıvan arkeolojisi // Archaeology of Nahchivan. İstanbul, 1997.
25. Müseyibli N. Büyük kəsik Eneolit yaşayış məskəni. Bakı: Nafta-press, 2007.
26. Сеидов А.Г. Памятники Куро-Аракской культуры Нахичевани. Баку, Билик,1993, 164 с.
27. Махмудов Ф.М. Культура Юго-Восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку:Нафта-пресс, 2008.
28. Azərbaycan tarixi. I cild, B., 1994
29. Azərbaycan tarixi. B.,1996
30. Azərbaycan tarixi. I cild, B., “Elm”, 1996
31. Azərbaycan tarixi üzrə qaynaqlar.B., 1989

32. S.Qaşqay. Manna dövləti. B.,1993.
33. F.Məmmədova. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. B., 1993.
34. Fazili Abdulla. Atropatena e.ə. IV-er.VII əsri.B.,1992.
35. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
36. Azərbaycan tarixi, I cild. Bakı, 1994.
37. Azərbaycan tarixi. Bakı, 1996.
38. Azərbaycan tarixi, II cild (çoxcildli). Bakı, 1998.
39. Fazili Abdulla. Atropatena e.ə. IV- er.VII əsr. Bakı, 1992.
40. Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
41. N.Vəlixanlı. «IX-XII əsr ərəb coğrafiyaşünas və səyyahları Azərbaycan haqqında». Bakı, 1974.
42. H.Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.
43. K.Əliyev. Azərbaycan VII-XIV əsrlərdə. Bakı, 1981.
44. Azərbaycan tarixi, I cild, B., 1994.
45. Azərbaycan tarixi, B.: 1996.
46. Azərbaycan tarixi, II cild, B.: 1985.
47. Z.M.Bünyadov. Azərbaycan Atabəylər dövləti. B., 1985.
48. M.X.Şərifli. IX əsrin II yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. B., 1978, 2015
49. Azərbaycan tarixi. 7 cildlik. II cild. Bakı, 1998, III cild. Bakı, 1999
50. Azərbaycan tarixi. Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə. Bakı, 1994.
51. Azərbaycan tarixi. BDU-nun nəşri. Bakı, 1996.
52. Сара Ашурбейли. Государство Ширваншахов. Б., 1983.
53. Məmmədov Rauf. Naxçıvan şəhərinin tarixi oçerki. B., 1977.
54. Azərbaycan tarixi. B.,1961.
55. Əbdülvahab Salamzadə Rəhim oğlu. Əcəmi Əbubəkir oğlu və Naxçıvanın memarlıq abidələri. B., 1976.
56. Əhmədov Qara Məmməd oğlu. Orta əsr Beyləqan şəhəri.B., 1979
57. S. Onullahi. “XIII – XVII əsrlərdə Təbriz şəhərinin tarixi”. B., 1982.
58. Ализаде А.А. Социально-экономическая история Азербайджана XIII-XIV вв.Баку, 1956.
59. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti. Bakı, 1986.
60. Гейдаров М.Х. Социально-экономическая отнощения в ремесленные организации в городах Азербайджана в XIII-XVIII вв. Баку, 1987.
61. Джидди Г.А. Средневековый город Шемаха IX-XVIII вв. Баку, 1981.
62. Əbu Bəkr əl-Qütbi əl-Əhəri. Tarix-e Şeyx Üveys. Bakı, 1984.
63. Zeyn-əd-din Qəzvini. Zeyl-e tarix-e qozide (Seçilmiş tarixə əlavə). Bakı, 1989.
64. Рашид-ад-дин Фазлуллах. Джами ат-Таварих. III. Баку, 1957.
65. Рашид-ад-дин Фазлуллах. Огуз-наме. Баку, 1987.
66. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316-1360-cı illər). Bakı, 1978.
67. Piriyev V.Z. Naxçıvan tarixindən səhifələr. Bakı, 2004.
68. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlinin redaktəsi ilə. Bakı, 1996.

69. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
70. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Bakı, 1993.
71. Maxmudov Я.M. Vzaimootnoşeniya qosudarstv Akkoyunlu i Sefevidov s zapadno-evropeyskimi stranami (II polovina XV- naçalo XVII veka) Baku, 1991.
72. Petruşevskiy I.P. Oçerki po istorii feodalğnıx otnoşeniy Azerbaydjana i Armenii v XVI- naçale XIX vv. L., 1949.
73. Süleymanov N.M. Səfəvi dövlətlərinin təsərrüfat həyatı. Bakı, 2006.
74. Onullahi S.M. Paytaxtın Təbrizdən köçürülməsinə dair. Azərbaycan SSR EA «Məruzələri», 1975, №11, s.42-46.
75. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlinin redaktəsi ilə. Bakı, 1996.
76. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989.
77. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Bakı, 1993.
78. Maxmudov Я.M. Vzaimootnoşeniə qosudarstv Akkoyunlu i Sefevidovs zapadno-evropeyskimi stranami (II Polovina XV-naçalo XVII veka) Baku, 1991.
79. Petruşevskiy I.P. Oçerki Po istorii feodalğnıx otnoşeniy Azerbaydjana i Armenii v XVI- naçale XIX vv. L., 1949.
80. Süleymanov N.M. Səfəvi dövlətlərinin təsərrüfat həyatı. Bakı, 2006.
81. Onullahi S.M. Paytaxtın Təbrizdən köçürülməsinə dair. Azərbaycan SSR EA «Məruzələri», 1975, №11, s.42-46.
82. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 2007.
83. Azərbaycan tarixi. B., 1996, 2009.
84. Azərbaycan tarixi. Yeddi cilddə. III c., B., 1999.
85. Bayramlı Z., Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"sində. B., 2000.
86. Cəfərov N. Azərbaycanşünaslığa giriş. B., 2002.
87. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. B., 2000.
88. Dadaşova R.J. Səfəvilərin son dövrü. (ingilisdilli tarixşünaslıqda) B., 2003.
89. Dəlili H.Ə. Azərbaycan-Rusiya münasibətləri fars və Azərbaycan dilli sənədlərdə. B., 1976.
90. XVIII yüzildə Çar müharibələrinin xronikası. B., 1998.
91. Nemətova M.C. Azərbaycanın XVII-XVIII əsrlər epiqrafiq abidələri. B., 1963.
92. Yesai Həsən Cəlalyan. Alban ölkəsinin qısa tarixi. 1702-1722. B., 1992.
93. Алиев Ф. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в I половине XVIII вв. Б., 1975.
94. Зевакин Е.С. Прикаспийские провинции в эпоху русской оккупации XVIII в., Б., 1927.
95. Мамедов С.А. Азербайджан по источникам XV–первой половины XVIII вв. Б., 1993.
96. Мустафа-заде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в.,Б., 1993.
97. Рахмани А.А. Азербайджан в конце XVI и XVII веке (1590-1700). Б., 1981.
98. Kərim Ağa Fateh. Şəki xanlarının müstəsər tarixi. Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri. B., 1958.
99. Koroğlu. Dastan. Dastanlar. B., 1987.

100. Nərimanov N. Nadir şah. Əsərləri. B., 1956.
101. A.Bakıxanov. Gülüstani-İrəm. Bakı: 1951, s. 159-195
102. Mirzə Adıgözəlbəy. Qarabağnamə. Bakı, 1950
103. Mirzə Camal. Qarabağ tarixi. Bakı, 1959
104. H.Dəlili. Azərbaycanın cənub xalqları. Bakı, 1979
105. Nailə Bayramova. Şamaxı xanlığı. Bakı, 2009.
106. Tofiq Mustafazadə. Qarabağ xanlığı. Bakı, 2010.
107. Camal Mustafayev. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 2002.
108. N.Mustafayeva. Cənubi Azərbaycan xanlıqları. Bakı: Azərnəşr, 1955.
109. В.Левиатов. Очерки из истории Азербайджана XIII в. Баку, 1949
110. Г.Абдуллаев. Азербайджан XVIII в.и. Взаимоотношения с Россией. Баку, 1965
111. Jan Kyure. Xace-ye tacedar. («Tac qoymuş xadim»). Tehran: 1971
112. Arif Babayev. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı: 1991
113. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: 1994
114. Azərbaycan tarixi. I c. Bakı: 1958, s.356-418
115. Y.Yusifov. Azərbaycan tarixi. Bakı: 1994
116. Историческая география Азербайджана. Ваку: 1987
117. M.A.İmamverdiev. Иран в международных отношениех в рервой трети XIX века. Самарганд, 1961, s.63-65.
118. A.Bakıxanov. Gülüstani-Irəm. B.,1951, s.158.
119. Mirzə Camal Qarabaği. Qarabağ tarixi. Bakı, 1959, s.96.
120. Mirzə Adıgözəlbəy. Qarabağnamə. S.103-110.
121. I.P.Petruşevski. Dcaro-Belokanskoe volğnıe obhestva v pervoy treti XIX v. 1934, s.96.
122. Утверждение русского владичества на Кавказе. T.VI, ç I, s.117.
123. D.Mustafaev. Северные ханства Азербайджана и России. (конце XVIII – начало XIX в.в.). B., 1995.
124. N. Müstafayeva. Cənubi Azərbaycan xanlıqarı. B.,1995.
125. M.Muradov. Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti (XIX əsrin I yarısı). B., 1999.
126. Azərbaycan tarixi üzrə qaynaqlar. B., 1989, s.277-283?
127. Azərbaycan tarixi. IV cild, s.14-53
128. Azərbaycan tarixi, 7 cilddə, 5-ci cild. Bakı, 2000.
129. Azərbaycan tarixi. 1-ci cild. Bakı, 1994.
130. Ramin Qurbanov. XIX əsrin birinci yarısında Şimali Azərbaycanda azadlıq hərəkatı. Bakı, 2006.
131. Murad Muradov. Çar Rusiyasının Azərbaycanda işğalçılıq və köçürmə siyasəti ( XIX əsrin birinci yarısında ). Bakı, 1999.
132. Mətləb Gülmalıyev. XVIII əsrin son rübü XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial iqtisadi strukturu. Bakı, 1989.
133. Azərbaycan tarixi. Bakı.1964,II c.
134. Azərbaycan tarixi. Bakı.1993.
135. Vəliyev T.T. İmperializm dövründə Azərbaycan sənayesi və proletariatı. Bakı.1987.

136. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı.1998.

137. Mir Möhsün Nəvvab . 1905-1906-cı illərdə erməni-müsəlman davası. 1993.

138. Əliyev R. Əsərləri. Bakı. 2006. I, II c.

139. İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı.Bakı.1960.

140. Mahmud ismayıl. Azərbaycan tarixi. Bakı.1997.

141. Azərbaycanin müxtəsər tarixi.

142. Svietoxovski T. Rus Azərbaycanı 1905-1920.Ankara.1988.

143. Saray M. Azərbaycan türkləri tarixi. İstanbul.1993.

144. Yucər N. I Dünya müharibəsində Osmanlı Ordusunun Azərbaycan və Dağıstan əməliyyəti. Bakı 1999.

145. Yusif Akcura . Türkçülüyün tarixi. Bakı,2006.

146. Azərbaycan tarixi, V cild. Bakı, 2001.

147. Azərbaycan Xalq Cümhuriyyətinin 82-ci ildönümünə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı, 2000.

148. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992.

149. Balayev A. Azərbaycan milli-demokratik hərəkatı. 1917-1920-ci illər. Bakı.1990.

150. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı, 1993.

151. İsgəndərov A. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, 1997.

152. Yaqudlu N. Azərbaycan milli mücadiləsi və M.Ə.Rəsulzadə. Bakı, 2001.

153. Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, 1997.

154. Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı, 1994.

155. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.

156. Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, 1999.

157. Nəcəfov B. Azərbaycan Demokratik Respulikası. Bakı, 1991 .

158. Nəsibzadə N. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. Bakı, 1997.

159. Məmmədzadə M. Milli Azərbycan hərəkatı. Bakı, 1992.

160. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı, 1999.

161. İbrahimli X. Azərbaycanın siyasi mühacirəti.Bakı. 1996.

162. Azərbaycan tarixi. Ali Məktəblər üçün dərslik.(Akad. Ziya Bünyadovun red. Ilə), Bakı 2007.

163. XX əsr Azərbaycan tarixi. Ali məktəblər üçün dərslik. (prof. Tofiq Vəliyevin red. Ilə.) Bakı 2009.

164. Azərbaycan tarixi. 7 cild. B. 2003 il.

165. Mədətov O. Azərbaycan Böyük Vətən Müharibəsində. B., 1975.

166. Orucov Q. Azərbaycan Qafqaz Döyüşlərində. B. 1984.

167. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-II c. Bakı, 1997.

168. Rəhimli Ə.Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946). B., 2003.

169. Didərginlər. B., 1990.

170. Əliyev H.Ə. Müstəqilliyimiz əbədididir. Bakı,1997.

171. Abdullazadə F. Heydər Əliyev. Siyasi portret.Bakı, 1998.

172. Prezident İlham Əliyev. Bakı.2004.

173. Həsənov Ə. Azərbaycan xarici siyasəti. Avropa dovlətləri və ABŞ.(1991-1996). Bakı,1998.
174. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı,2005.
175. Həsənov Ə. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavrropa təhlükəsizliyi fonunda. Bakı, 1997.
176. Qafarov T. Azərbaycan tarixi. (XX əsrin 80-90-cı illəri). Bakı, 1998.
177. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001.
178. Lissabon sammiti-1996.Bakı,1997.
179. İsmayılov M.Qarabağın tarixi. Bakı,1999.
180. Qasımov M. Azərbaycan beynəlxalq münasibərlər sistemində (1991-1995) Bakı, 1996.
181. Quluzadə V. Gələcəyin üfüqləri (azərbaycan respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı, 1999.
182. Əhmədov M. Azərbaycan: yeni neft erası və beynəlxalq siyasət.Bakı.1997.
183. Mirzəyev R. "Əsrin müqaviləsi"ndən başlanan yol. Bakı.2000.
184. Nəsibli N. Azərbaycann geopolitikası və neft.Bakı.2000.
185. Şahbazov E. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı.Bakı.1997.
186. Böyük ipək yolu: dünəni, bu günü, sabahı. Bakı.1998.
187. Azərbaycan –Türkiyə münasibətləri. Bakı.1997.
188. Sultanov Z. Qarabağ gündəliyi. Bakı.1991.
189. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı.2000
190. Ramil Ağayev. Ərəb xilafəti dövründə Azərbaycan əhalisi. Bakı-2017, 2.41.
191. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Mütəxabat. Bakı, Turan – 2014.
192. Abbaslı M.K. Şah İsmayıl Xətainin ömür miniatürlərdə. B., 1981
193. İsgəndər Bəy Münşi. Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzən tarixi). B.,2009
194. Əliyarov S.S. Azərbaycanda bidətçilik hərəkatına dair ədəbi mənbələrin araşdırılma təcrübəsindən. Azərbaycan filologiya məsələləri. I-B., 1983, s.179-204.
195. Fərzəliyev Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər), B., 1995.
196. Həsənalıyev Z.M. Səfəvi dövləti. (XVII əsrin I yarısı). B., 2000
197. İbrahimov C. Səfəvilərin Ərdəbil hakimiyyəti. Bakı.
198. С.С.Велиев, М.М.Менсуров. К вопросу о возрасте древнейших культурных слоев Азыхской пещерной стоянки. Доклады Академии Наук Азербайджана. Том LV cild. 1999.

**HƏSƏN QƏNİYEV**

**AZƏRBAYCAN TARİXİ**

**(ƏN QƏDİM ZAMANLARDAN –**
**XXI ƏSRİN İLK ONİLLİKLƏRİNƏDƏK)**

*Ali məktəblər üçün dərslik*

Format: 70x100 $^{1}/_{8}$. Tirac100. Sifariş № 260

*«Elm və Təhsil» nəşriyyatı*